Azərbaycan Milli Elmlər Akademiyası
Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu

**ƏBUBƏKR İBN XOSROV ƏL-USTAD**

# MUNİSNAMƏ

*Fars dilindən tərcümə edən, müqəddimə, qeydlər və lüğətin müəllifi
filologiya üzrə fəlsəfə doktoru*

**RƏNA RZAYEVA**

**Bakı – 2021**

*AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu
Elmi Şurasının 04.12.2020-ci il tarixli qərarına əsasən
(protokol № 5 ) çap olunur.*

Elmi məsləhətçi: **Gövhər Baxşəliyeva**,
*akademik*

Elmi redaktor: **Məsiağa Məhəmmədi**,
*filologiya üzrə fəlsəfə doktoru*

**Əbubəkr ibn Xosrov əl-Ustad. Munisnamə.**
*Fars dilindən tərcümə edən, müqəddimə, qeydlər və
lüğətin müəllifi filologiya üzrə fəlsəfə doktoru* **Rəna Rzayeva**.
Bakı, "Adiloğlu" nəşriyyatı, 2021, 764 səh.

**ISBN 978-9952-25-107-4**

© Rəna Rzayeva, 2021
© AMEA Şərqşünaslıq İnstitutu, 2021

*«Munisnamə»nin ilk tədqiqatçısı və tərcüməçisi, görkəmli Azərbaycan şərqşünası, əməkdar elm xadimi, professor* ***Rüstəm Əliyev****in parlaq xatirəsinə ithaf olunur.*

# AZƏRBAYCAN ƏDƏBİYYATININ NADİR İNCİLƏRİNDƏN BİRİ: «MUNİSNAMƏ»

Şərqşünaslıq elmi yaranandan bəri çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik farsdilli ədəbiyyatın öyrənilməsi sahəsində ciddi uğurlar qazanılmış, onun dünya mədəniyyəti xəzinəsinə əvəzsiz töhfələr vermiş görkəmli nümayəndələrinin yaradıcılığı zəruri aspektlərdə tədqiq olunmuş, ən mühüm ədəbi-tarixi abidələr müxtəlif dillərə tərcümə edilmişdir. Bununla belə əldə olunmuş şəksiz nailiyyətlər heç bir vəchlə son hədd sayıla bilməz, çünki dünyanın müxtəlif kitabxanalarında, şəxsi kolleksiya və arxivlərdə klassik farsdilli ədəbiyyatın hələ elm aləminə bəlli olmayan, öyrənilməmiş çoxsaylı abidələri mövcuddur. Vaxtaşırı olaraq belə əsərlərin üzə çıxarılması, elmi dairələrə və geniş oxucu kütləsinə çatdırılması faktı bunu təsdiq edir.

Son onilliklərdə elm aləminə məlum olmuş qiymətli ədəbi abidələrdən biri də XII əsr müəllifi Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəridir. Uzun illər boyu yeganə əlyazma nüsxəsi başqa bir ad altında Londondakı Britaniya muzeyində saxlanmış bu abidənin xüsusi əhəmiyyəti bundadır ki, onun təkcə özü deyil, müəllifinin şəxsiyyəti də farsdilli ədəbiyyat tarixi üçün tamamilə yeni faktdır.

Azərbaycan Atabəyləri sarayında xidmət etmiş, böyük Nizami Gəncəvinin müasiri və bəzi ehtimallara görə dostu olmuş Əbubəkr ibn Xosrov əl-Ustad haqqında, təəssüf ki, orta əsr mənbələrində və təzkirələrdə heç bir məlumata rast gəlmirik. Onun şəxsiyyəti, dünyagörüşü və ədəbi irsi barədə müəyyən təsəvvürü yazıçının kifayət qədər zəngin yaradıcılığının hələlik əldə olan yeganə nümunəsindən – «Munisnamə»dən alırıq. Bu mənada əsərin dərin və hərtərəfli tədqiqinin əhəmiyyəti şübhəsizdir. Belə ki, «Munisnamə» ümumən orta əsrlər müsəlman Şərqində ədəbi inkişafın bir çox məsələlərinə işıq salan abidə kimi olduqca qiymətli və müəyyən mənada unikal əsərdir. Təkcə ədəbi əsər kimi deyil, həm də bir mənbə kimi dəyər-

ləndirilməsi zəruri görünən, maraqlı hekayətlər, nağıllar, rəvayətlər, lətifələr, müdrik kəlamlar və aforizmlər toplusu olan «Munisnamə» farsdilli ədəbiyyat tarixində müəyyən ədəbi təmayülün yetkinləşməsində dönüş nöqtəsi olmuşdur. O, yarandığı dövrün tarixi gerçəkliyini, ədəbi normalarını, bədii-estetik prinsiplərini əks etdirməklə yanaşı, çoxsaylı tellərlə özündən əvvəlki və sonrakı ədəbi-fəlsəfi irslə bağlanır. Bu tellər bir yandan yazılı fəlsəfi və ədəbi abidələrə, digər tərəfdən isə müxtəlif xalqların şifahi ədəbiyyatına gedib çıxır.

«Munisnamə»nin yarandığı dövr bir neçə əsr ərzində intensiv inkişaf yolu keçmiş, Mərkəzi Asiya və Hindistan hüdudlarından İspaniyaya, Qafqazdan Şimali Afrikaya qədər geniş bir coğrafi məkanı əhatə edən ərəb xilafətinə daxil edilmiş xalqların birgə səyləri ilə yaradılan sinkretik müsəlman mədəniyyətinin çiçəkləndiyi dövr idi. Həmin mədəniyyətin əsas xüsusiyyətləri və ilk növbədə, məhz sinkretizmi «Munisnamə»də öz parlaq əksini tapmışdır. Əsərdə yəhudi, yunan, hind, fars, Bizans, ərəb və türk xalqlarının mifoloji, fəlsəfi, dini, etik və bədii görüşləri, genetik və tipoloji səciyyəsi baxımından rəngarəng və çeşidli hekayətlər üzvi şəkildə çulğaşır. «Munisnamə»dəki motiv və süjetlər sonralar müsəlman Şərqində çox geniş yayılmış, mürəkkəb təkamül yolu keçmiş, hətta Avropa xalqlarının ədəbiyyatına belə nüfuz etmişdir.

Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsərinin mövcudluğu yalnız son dövrdə elm aləminə məlum olduğundan, onun tədqiqi tarixi o qədər də geniş deyildir. Əsərin əlyazma nüsxəsinin üzərindəki qeyddən aydın olur ki, o, 1920-ci ilin aprelində Ter-Avetisyan familiyalı bir nəfərdən «Min bir gecə kitabı» adı ilə satın alınmışdır.

Düz yarım əsr «Munisnamə» bu ad altında Britaniya muzeyində saxlanmışdır. Nəhayət, əlyazma ingilis şərqşünası Q.M.Meredit-Ouensin diqqətini cəlb etmiş və o müəyyənləşdirmişdir ki, həmin əlyazma «Min bir gecə» deyil, Azərbaycan Atabəyləri dövründə yaşamış Əbubəkr ibn Xosrov əl-Ustad adlı müəllifin qələminə mənsub «Munisnamə»nin unikal nüsxəsidir. Tədqiqatçı əlyazmanın

qısa təsvirini hazırlamış və əsərin müəllifi haqqında onun giriş hissəsindən əldə etdiyi məlumatlarla birgə 1971-ci ildə Edinburqda «İran və islam» məcmuəsində çap etdirmişdir.

Q.M.Meredit Ouensin bu məlumatı həmin dövrdə Atabəylər dövlətinin tarixini tədqiq etməklə məşğul olan akademik Z.M.Bünyadovun diqqətindən yayınmamış və o, özünün «Azərbaycan Atabəyləri dövləti» adlı monoqrafiyasının həmin dövrün mədəni həyatına həsr olunmuş bölməsində Əbubəkr ibn Xosrov əl-Ustaddan bəhs etmişdir. Alim əl-Ustadın «Munisnamə»dən başqa daha altı mənzum və nəsr əsərinin adını çəkmiş, onların mövzusunu və kimlərə ithaf olunduğunu göstərmiş, «Munisnamə»nin XVII fəslinin 29-cu hekayətinə («Əbül-Əla Kirmani, onun oğlu, Naxçıvana səfərləri və sərgüzəştləri haqqında hekayət») diqqəti cəlb edərək, həmin hekayətdə xaçpərəst gürcü çarları ilə müsəlman Eldənizlər sülaləsi arasında aramsız müharibələrin öz əksini tapması fikrini irəli sürmüşdür.

Sonralar Z.M.Bünyadov və Q.Y.Əliyev akademik A.Y.Krımskinin «Nizami və onun müasirləri» kitabına yazdıqları şərhlərdə bir daha Əbubəkr ibn Xosrov əl-Ustadı xatırlamış və onun XI əsr fars şairi Əzrəqi Herəvinin mənzum «Əlfiyə və ə Şəlfiyə» əsərinə tənqidin müəllifi olduğunu qeyd etmişlər.

«Munisnamə»nin öyrənilməsi, tədqiqi və geniş istifadə dairəsinə çıxarılması sahəsində ən mühüm xidmət, şübhəsiz, mərhum professor R.M.Əliyevə məxsusdur. O, akademik Z.M.Bünyadovun səyləri nəticəsində «Munisnamə»nin Bakıya gətirilmiş əlyazmasını tərcümə etməyə başlamış, eyni zamanda əsər üzərində müşahidələrini ümumiləşdirərək Şərq filologiyası məsələləri» məcmuəsində «Əbubəkr ibn Xosrovun «Munisnamə»si» adlı geniş bir məqalə dərc etdirmişdir. Həmin məqalədə R.M.Əliyev əl-Ustadın bioqrafiyası və yaradıcılığı haqqında əldə edilməsi mümkün olan məlumatları sistemləşdirərək, «Munisnamə» barədə ümumi mülahizələrini bildirmiş və əsərlə Nizami Gəncəvi yaradıcılığı arasındakı paralellərə xüsusi diqqət yetirmişdir. Sonralar bu məqalə ön söz kimi «Munisnamə»nin R.M.Əliyev tərəfindən rus dilinə edilmiş tərcüməsinə əlavə olunmuşdur. Eyni zamanda, R.M.Əliyev «Munisnamə»dəki «Əbül-

Əla Kirmani, onun oğlu, Naxçıvana səfərləri və sərgüzəştləri haqqında hekayət»i bəzi ixtisarlarla Azərbaycan dilinə çevirmiş və qısa giriş sözü ilə «Azərbaycan» jurnalında çap etdirmişdir.

2008-ci ildə isə Naxçıvanda Səbuhi İbrahimovun tərcüməsində "Munisnamə"nin müəyyən hissələri işıq üzü görmüşdür. Tərcüməçi abidənin giriş hissəsini, I və II fəsillərini, eləcə də XVII fəslin Naxçıvanla əlaqəsi olan 26-cı və 29-cu hekayətlərini dilimizə çevirmiş, kitaba geniş ön söz də yazmışdır.

2010-cu ildə Moskvada «Xudojestvennaya literatura» nəşriyyatında A.M.Bağırovun tərtibçiliyi ilə «İlahi sözlər. Azərbaycanın folkloru və ədəbi abidələri» adlı iri həcmli kitab işıq üzü görmüş və bu kitabda «Munisnamə»yə də geniş yer verilmişdir. Belə ki, «Munisnamə»nin R.M.Əliyev tərəfindən rus dilinə edilmiş tərcüməsindən böyük bir hissə həmin antologiyaya daxil edilmişdir.

Maraqlıdır ki, kitabın tərtibçisi «Munisnamə» müəllifini rusdilli oxuculara təqdim edərkən, onun doğum və ölüm tarixini dəqiq şəkildə – 1145-1207-ci illər kimi göstərmişdir.

Kitaba giriş məqaləsinin müəllifləri akademiklər B.Nəbiyev və T.Kərimli «Munisnamə» ilə bağlı qısa, lakin mühüm bir fikir söyləmişlər: «Əlamətdardır ki, ötən əsrin sonlarında o vaxtadək, əsasən, poetik əsərləri ilə məşhur olan məktəbin nəsr nümunəsi tapılmış, ilk dəfə olaraq farscadan rus dilinə tərcümə edilmiş və Bakıda çap olunmuşdur. Söhbət Xaqani və Nizaminin müasiri olmuş Əbubəkr ibn Xosrovun «Munisnamə» adlı iri həcmli əsərindən gedir». Aydındır ki, burada söhbət farsdilli ədəbiyyatda Azərbaycan məktəbindən gedir. «Munisnamə»nin mövcudluğu onu göstərir ki, XII əsrdə çiçəklənmə dövrünü yaşayan Azərbaycan məktəbi təkcə poeziyada deyil, nəsrdə də farsdilli ədəbiyyatın bayraqdarı olmuşdur.

Bundan əlavə, Azərbaycan mətbuatı və elmi ədəbiyyatında «Munisnamə»dən ara-sıra bəhs olunmuş, onun ədəbi-tarixi əhəmiyyəti vurğulanmışdır. Məsələn, professor Qəzənfər Kazımov 1995-ci ildə yazdığı «Əl-Ustad və Nizami dostluğu və ya itirəndən sonra» adlı məqaləsində əsəri yüksək dəyərləndirərək qeyd edir: ««Munisnamə» bir aləmdir, bir dünyadır, Nizami dünyasını öyrənmək üçün

bir qapıdır... «Munisnamə»də nələr yoxdur? Ustadın qeyd etdiyi kimi, oxucu bu kitabdan hər şey: yüksəliş və eniş, şükranlıq və şikayət, mərhəmət və səxavət, mərdlik və rəşadət, şuxluq və lətifələr, hikmət və rifah, həzz, etibar, vəzifəyə sədaqət, mərhəmət və ədalət, təsdiq və inkar, ədalət mühakiməsi və qanunsuzluq, zəhmət və səfa, savaş və sülh, sehrbazlıq, fərasət, təcrübə və qocaların müdrikliyi, kasıbların dilənçi vəziyyəti və zənginlərin var-dövləti, qayğı və qadağan, bayram və matəm, müxtəlif insanların böyüklüyü və rəzilliyi, ağalıq və köləlik və s. barədə ibrətamiz məlumat ala bilər. Müəllif öz əsərinin ideya-bədii dəyərini yüksək şəkildə xülasə etmişdir».

AMEA Gəncə Regional Elmi Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü Fuad Əliyev 2012-ci ildə «Elm və Həyat» jurnalında dərc olunmuş «Gəncə şəhəri elm, təhsil və mədəniyyət mərkəzidir» adlı məqaləsində «Munisnamə»dən də söz açmış və bildirmişdir: «Əl-Ustadın müəllifi olduğu «Munisnamə» əsərinin elmi ictimaiyyətin istifadəsinə verilməsi Azərbaycan ədəbiyyatşünaslıq elminin qədim inkişaf səviyyəsi barədə görüş dairəsini dərinləşdirmişdir. «Munisnamə»nin qısa müqəddiməsi böyük bir ədəbiyyatşünaslıq kitabına bərabərdir».

Professor Ramazan Qafarlı «Munisnamə»ni özünün folklorşünaslıq sahəsində bəzi araşdırmalarına cəlb etmiş, o cümlədən «Mifoloji kontiniuum (məkan-zaman sistemi) daxilində vəhdət – xronotoplar» adlı məqaləsində abidədəki «Bəluqiya və Əffan» hekayətindən söz açmışdır.

Qeyd edək ki, Q.M.Meredit-Ouensin «Munisnamə» barədə yuxarıda adı çəkilən məqaləsi İran tədqiqatçısı Məhəmməd Nəzəri Haşimi tərəfindən fars dilinə tərcümə edilərək, «Fars dilində qədim bir toplu» adı ilə 2001-ci ildə Məşhəd universitetinin jurnalında dərc olunmuşdur.

Daha sonra bu sətirlərin müəllifi «Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəri: mənbələr və paralellər» mövzusunda dissertasiya müdafiə edərək Filologiya üzrə fəlsəfə doktoru dərəcəsini almışdır. 2016-cı ildə «Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəri» adlı monoqrafiyası çapdan çıxmışdır.

Bütün bunlar göstərir ki, Əbubəkr ibn Xosrov əl-Ustad öz dövrünün görkəmli ədəbi şəxsiyyətlərindən olmuş, Atabəylər dövlətinin mədəni mühitində özünəməxsus yer tutmuşdur. Odur ki, yazıçının hələlik əldə olan yeganə əsəri uzun müddətli unudulma mərhələsindən sonra yenidən elmi-ədəbi aləmə qaytarılmışdır. Azərbaycan Atabəyləri dövlətinin hakimiyyət dövrü mədəni həyatın yüksəlməsi ilə səciyyələnir. Bu zaman dünya mədəniyyətinə görkəmli dahilər bəxş etmiş Azərbaycan poetik məktəbi yaranır və ən yüksək çiçəklənmə dövrünə çatır. Parlaq poetik məktəbin inkişafı, şübhəsiz, əlamətləri hələ də lazımi səviyyədə öyrənilməmiş ümumi mədəni yüksəlişlə əlaqədar idi. Bu baxımdan haqqında danışdığımız dövrü Azərbaycan intibahı (renessansı) adlandırmaq olar. İntibahın tipoloji mahiyyətinə uyğun olaraq, həmin dövrdə Azərbaycanda elm, incəsənət, fəlsəfi-ictimai fikir sürətli inkişaf və intensiv axtarışlar mərhələsini yaşayırdı. Atabəylərin söz sənətinə qiymət verməsi digər bölgələrdən şair və yazıçıların Azərbaycana üz tutmasına səbəb olmuş və nəticədə Azərbaycan həmin dövrdə farsdilli poeziyanın yeni keyfiyyət göstəriciləri qazandığı ədəbi mərkəzə çevrilmişdi. Doğrudur, həmin dövrdə İsfahan poetik məktəbi də fəaliyyətdə idi, lakin farsdilli şeirin sonrakı inkişafına yön verən Xaqani və Nizami kimi dühalar məhz Azərbaycan məktəbində yetişmişlər.

Şübhəsiz, Azərbaycanın farsdilli ədəbiyyatda öncüllüyü onun yalnız bir qolu – poeziya ilə məhdudlaşa bilməzdi. Əsrlərin sınağından keçib bizə çatan «Munisnamə» kimi monumental abidə sübut edir ki, nəsrdə də Azərbaycan ədibləri misilsiz nailiyyətlər qazanmış, bir çox parametrlər üzrə farsdilli nəsrin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişlər. Bu mənada «Munisnamə» müəllifinin XII əsr farsdilli Azərbaycan ədəbiyyatı tarixində müstəsna bir mövqeyə malik olduğunu inamla söyləmək olar.

Əbubəkr ibn Xosrov əl-Ustadın şəxsiyyəti və yaradıcılığı haqqında məlumatlarımız hələlik yalnız «Munisnamə»nin giriş hissəsinə və əsərin mətnindəki bəzi qeyd və işarələrə əsaslanır. Həmin məlumatları aşağıdakı şəkildə ümumiləşdirə bilərik. Əbubəkr ibn

Xosrov XII əsrin birinci yarısında anadan olmuş, güclü istedadı, mükəmməl təhsili, ensiklopedik bilikləri sayəsində hələ gənc ikən bir ədib və müəllim kimi şöhrət tapmışdır.

Onun ədəbi və elmi erudisiyasından danışarkən prof. Rüstəm Əliyev yazırdı: «Əbubəkr hələ gənc yaşlarında dərin və hərtərəfli təhsil almışdır. O öz ana dilindən başqa, ərəb və fars dillərini, Quranı, islam tarixini, məntiqi, astronomiya və astrologiyanı, təbabəti, elmül-bəlağəni (nəhvi, bəyanı, mənanı və əruzu), mistik ilahiyyatı və fəlsəfəni dərindən mənimsəmişdi. Platondan, Aristoteldən, Apolloni Tyanskidən əsərdə gətirilmiş çoxlu hikmətli söz və sitatlardan görünür ki, Əbubəkr də Nizami kimi antik fəlsəfəni və incəsənəti gözəl bilirmiş. Məlumdur ki, Qərbdə xristianlıq rəsmi dövlət dini elan olunandan sonra antik fəlsəfə, ədəbiyyat və mədəniyyət, bir növ qadağan edilmiş və lənətlənmişdir. Antik mədəniyyəti mühafizə etməkdə, tərcümə yolu ilə yaymaqda türk, ərəb, Orta Asiya xalqlarının mütəfəkkirləri və alimləri az iş görməmişlər. Əbubəkr də antik mədəniyyətin mütərəqqi cəhətlərindən faydalanmış və onlardan öz yaradıcılığında istifadə etmişdir».

Məhz bu keyfiyyətlərinə görə o, görünür, hələ Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin dövründə (1136-1175) saraya dəvət olunmuş, gənc şahzadələrin müəllimi təyin edilmiş və otuz ildən artıq bir müddətdə bu sahədə fəaliyyət göstərmişdir. Yazıçının «əl-Ustad» təxəllüsü də, şübhəsiz, onun pedaqoji fəaliyyəti ilə əlaqədar olmuşdur.

Əbubəkr ibn Xosrov sarayda yalnız müəllimlik etməklə kifayətlənməmiş, geniş bədii yaradıcılıqla məşğul olmuş, nəzm və nəsrlə bir sıra iri həcmli əsərlər yazmışdır. «Munisnamə»nin giriş hissəsində müəllif bu barədə yazır: «[Bundan əvvəl] nəzm və nəsrlə məşhur və adlı-sanlı hökmdarlara ithaf olunmuş bir neçə cild kitab və əsər yaratmışam, o cümlədən şəhid Atabəy Qızıl Arslanın adına nəzmlə «Sənəm və Əcəm» kitabını yazmışam. Yenə ona ithaf olunmuş «Nəqizeyi-kitabi-Əlfiyə və Şəlfiyə» əsərimi qələmə almışam. Eləcə də «Mehr və Müştəri» kitabını – bu kitab bakirə bir qız kimi pak və pakizə şəkildə pərdə arxasındadır, onu başqasının gözü gör-

məyib, fikrimin qızı olan bu əsər bakirə gəlin kimi intizar yatağında bəyəndiyi əri gözləməklə məşğuldur... Həmçinin dünyaya hökmranlıq edən padşah Atabəy Əbubəkr ibn Məhəmməd Eldənizin (Allah onun hakimiyyətini əbədi eləsin!) adına «Rahət ər-Ruh» kitabını nəzmlə yazmışam. Eləcə də həmin qüdrətli hökmdara ithaf olunmuş «Nüzhət əl-Məcalis» əsərini nəsrlə yaratmışam. Bundan başqa mərhum Atabəy Məhəmmədin (Allah qəbrini nurla doldursun!) adına «Mənsur və Mərcan» dastanını söyləmişəm...».

Göründüyü kimi, «Munisnamə»nin əvvəlində Əbubəkr ibn Xosrov özünün aşağıdakı əsərlərini qeyd etmişdir:

1. «Mənsur və Mərcan» poeması – görünür, müəllifin ilk iri həcmli poetik əsəri olmuş, Atabəy Məhəmməd Cahan Pəhləvana (1175-1186) ithaf edilmiºdir.
2. «Sənəm və Əcəm» poeması – Atabəy Qızıl Arslana (1186-1191) həsr olunmuşdur.
3. «Mehr və Müştəri» poeması - «Munisnamə»ni yazmağa başlarkən (yəni, XII əsrin sonlarında) bu əsər bitmiş, lakin hələ heç kəsə ithaf olunmamışdı. Bu ad altında XIV əsr Azərbaycan şairi Əssar Təbrizi də poema yazmışdır.
4. «Nəqizeyi-kitabi-Əlfiyə və Şəlfiyə» («Əlfiyə və Şəlfiyə» kitabına tənqid») – XI əsrin tanınmış fars şairi Əzrəqi Herəvinin pornoqrafik məzmunlu əsərinə tənqid kimi yazılmış, Qızıl Arslana ithaf edilmişdir.
5. «Rahət ər-Ruh» («Ruhun rahatlığı») – müxtəlif hekayə və novellalardan ibarət mənzum əsərdir. Atabəy Nüsrətəddin Əbubəkrə (1191-1210) ithaf olunmuşdur.
6. «Nüzhət əl-Məcalis» («Məclislərin ləzzəti») – Şərqdə geniş yayılmış münazirə formasında (gənc oğlan və qız arasında dialoq şəklində) nəsrlə yazılmış və Nüsrətəddin Əbubəkrə ithaf olunmuşdur.

Beləliklə, yenə Atabəy Nüsrətəddin Əbubəkrə ithaf etdiyi «Munisnamə» də daxil olmaqla əl-Ustadın qələmindən ən azı yeddi əsər (beş mənzum və iki mənsur) çıxmışdır. Təəssüf ki, sənətkarın qalan əsərlərinin taleyi haqqında hələlik bir şey məlum deyil.

Əbubəkr ibn Xosrovun həyatı, heç şübhəsiz, Atabəylər dövlətinin mərkəzi şəhərlərində, ilk növbədə, paytaxt Naxçıvanda, Həmədanda, Gəncədə, Təbrizdə keçmişdir. Yazıçı bu baxımdan «Munisnamə»də yalnız bir faktı xatırlayır: 1181-ci ildə Zəncanda olduğunu və şeyx Cəmaləddin Əbül-Məhasin Zəncani ilə görüşdüyünü qeyd edir.

Ümumiyyətlə, əl-Ustad istər əvvəlki əsrlərdə, istərsə də öz dövründə yaradılmış ədəbi, fəlsəfi, dini, elmi irsə dərindən bələd olmuşdur. «Munisnamə»nin mətninin təhlili bunu bütün parlaqlığı ilə aşkara çıxarır. Əsərin təkcə giriş hissəsində o, Əscədi, Firdovsi, Sənai, Rəşidəddin Vətvat kimi görkəmli klassiklərin şeirlərindən misallar vermişdir. Məsələn, Sənainin «Munisnamə»də verilən beyti belədir:

Sən öz işini qaydasınca gör,
Əgər ölüm yolunu kəssə, üzrlüsən!

Yeri gəlmişkən, Sənainin məşhur «Hədiqətül-həqiqət» əsərindən olan bu beyt həmin əsərin müasir nəşrlərində bir qədər fərqli şəkildə verilir:

Sən qaydasınca olmayan bir iş görmə,
Əgər ölüm yolunu kəssə, üzrlüsən!

Qeyd edək ki, istər beytin ümumi məntiqi, istərsə də sonrakı beytlərlə əlaqə baxımından «Munisnamə»də verilən variant daha düzgün sayılmalıdır. Bu və aşağıda görəcəyimiz bir sıra digər faktlar «Munisnamə»nin farsdilli ədəbiyyat tarixi üçün mənbəşünaslıq dəyərini bir daha nümayiş etdirir.

Onu da yada salaq ki, dahi Nizami də özünün ilk iri həcmli əsərində – «Sirlər xəzinəsi» poemasında Sənaini xatırlamışdır.

Burada belə bir sual ortaya çıxır: əl-Ustad dövrünün ən qüdrətli sənətkarı Nizami Gəncəvi ilə tanış olmuşdurmu? Yazıçının əsərlərində bu barədə bir qeydə rast gəlməsək də, tərəddüd etmədən həmin suala müsbət cavab vermək olar. Ən azı ona görə ki, Nizami

də əl-Ustadın uzun illər xidmət etdiyi Atabəylər sarayına yaxın idi və özünün iki əsərini – «Xosrov və Şirin» və «İsgəndərnamə» poemalarını əl-Ustad kimi Məhəmməd Cahan Pəhləvana, Qızıl Arslana və Nüsrətəddin Əbubəkrə ithaf etmişdi.

Professor R.M.Əliyev bu fikri həm də iki sənətkarın yaradıcılığı arasındakı bəzi paralellər və onların ədəbi-estetik, fəlsəfi-etik görüşlərinin yaxınlığı ilə əsaslandırır (31, 89-92). Alimin fikrincə, «Munisnamə» ilə dahi Nizaminin poemalarındakı fikirlər arasında səsləşmələr, yaxınlıqlar az deyil. Nizami «Leyli və Məcnun» poemasında şahları mədh edən saray şairlərinə nifrətini belə izhar edirdi:

...Padşah məclisindən uzaq ol,
Quru pambıq alovlu oddan uzaq olan kimi.
Onun atəşi nurla dolu olsa da,
Yalnız ondan uzaq olan asudə olar.
*(sətri tərcümə)*

Həmin tövsiyələri ustad Əbubəkr «Munisnamə»nin XV babında belə vermişdir: «Böyük həkimlər padşahları atəşə bənzətmişlər. Deməli, heç bir ağıllı adam atəşlə yaxınlıq etməz. O, ehtiyac nəticəsində məcbur olub öz mənfəəti üçün oda yaxınlaşsa, yanar».

«Munisnamə» ilə Nizami yaradıcılığı arasında həm mövzu, həm də ideya baxımından bir çox digər uyğunluq və yaxınlıqlar da müşahidə edilir.

Nizami ilə əl-Ustadın münasibətlərinə dair mülahizələrində R.Əliyev bir qədər də irəli gedərək, iki böyük sənətkarın dost olması ehtimalını irəli sürmüş və bunu maraqlı bir müşahidəsi ilə əsaslandırmağa çalışmışdır.

Məlumdur ki, «Xosrov və Şirin» poemasının giriş hissəsində «Kitab üçün üzr» adlı bir bölmə vardır. Həmin bölmədə şair bir dostundan söz açmışdır:

Bir Allah bəndəsi dostum var idi,
Xeyli mehribandı, vəfadar idi.

Şir kimi arxaydı mənə hər zaman,
Düşmənə qılıncdı, mənəsə qalxan.
Aləmdə biliklə qazanmışdı ad,
Onunla yaşardı dünyada dilşad.
Bir gecə qəzəbli, pörtmüş, qızıltək
Qapımı o gümüş əllə döyərək
Gəldi, danlamağa başladı məni,
Acıqla söylədi: «Çox sağ ol səni,
Mənalar mülkünün bir sultanısan,
Sözlər ölkəsinin hökmranısan.
Qırx ildə keçirdin əlli çilləni,
Boş-boş hekayələr çəkməsin səni...
Tohid qapısını çal, yüksəlt səsi,
Nədir işlətdiyin muğlar nəğməsi?..»

Nizaminin «vəfalı və bilikli dostu», anlaşıldığı kimi, onu atəşpərəstlər dövrünə dair mövzunu işləməkdə qınayır, lakin şair əsərdən bəzi parçaları ona oxuduqdan sonra dostu «Şirin dastanının şirinliyinə» heyran olub poemanın tezliklə bitirilməsini arzulayır.

«Xosrov və Şirin»dən bu parçanı xatırladan R.Əliyev «Munisnamə» əlyazmasının bir səhifəsinin haşiyəsində «Əbubəkr Qəzənfərin «Munisnamə»si» məzmunlu qeydin olduğunu və buradan əl-Ustadın əsl adının Qəzənfər olduğunun aydınlaşdığını bildirir və «Qəzənfər» sözünün hərfi mənasının «şir» olduğunu vurğulayaraq, Nizaminin yuxarıdakı parçada öz dostu barədə «Şir kimi arxaydı mənə hər zaman» deyərkən məhz əl-Ustadı nəzərdə tutduğunu qeyd edir.

Alimin bu fikrini bölüşən professor Q.Kazımov da «Munisnamə» haqqında yuxarıda bəhs etdiyimiz məqaləsini «Əl-Ustad və Nizami dostluğu...» adlandırmışdır.

İstənilən halda, eyni şəhərdə yaşayan, əsərlərini eyni hökmdarlara ithaf edən, yaxın ədəbi-estetik platformaya malik olan iki gəncəli müdrikin bir-birini yaxından tanıdığını qətiyyətlə söyləyə bilərik. Bu mənada Nizami dövrünün ədəbiyyatı, şairin müasirləri barədə gələcək araşdırmalarda əl-Ustadın adı özünə layiq yeri

tutmalı, Gəncə ədəbi mühitinin daha dolğun mənzərəsinin yaranmasına xidmət etməlidir.

«Munisnamə»nin giriş hissəsində müəllif yığcam şəkildə də olsa, söz, nəzm və nəsr haqqında fikirlərini açıqlayır, əsərin yazılma səbəbi və məqsədi barədə konkret bilgilər verir. Əl-Ustad sözün misilsiz qiyməti və yüksək dəyərindən danışarkən yazır:

«Sənət əhlinə və müdrik şəxslərə gizli deyildir ki, ağıl aləmində sözdən üstün və saf bir şey yoxdur. Əgər sözdən layiqli bir şey olsaydı, Allah-təala göndərdiyi peyğəmbərlərə onu verərdi.

Necə ki, demişlər:

Əgər sözdən yaxşı bir xatırlatma olsaydı,
Allah onu peyğəmbərə göndərərdi».

Bunun ardınca şeir və şairlər haqqında Məhəmməd peyğəmbərin bir neçə kəlamını qeyd edən müəllif poetik sözün nəsrdən üstünlüyündən söz açır və bunu məntiqi şəkildə əsaslandırmağa çalışır:

«Nəzm nəsrdən şərəfli və üstün olduğu üçün daim fəzilət və ilham sahibləri nəsrdən nəzm yaratmışlar və yaradırlar... və heç zaman təbi və biliyi olan kəslər nəzmdən nəsr yaratmamışlar. Necə ki, bütün əşyaların Xaliqi olan Allah-təala ipək, atlaz, pambıq və kətanı yaradandan bəri heç bir ağıl sahibi atlazdan və kətandan ipək və pambıq düzəltməyib, əksinə, pambıq və ipəkdən kətan və atlaz hazırlayıb. Mənzum söz mənsur sözdən daha asan yadda qalır və insanların qəlbinə daha tez yol tapır. Mənzum sözü müxtəlif melodiya və avazlarla oxumaq mümkündür..., amma heç bir ağıllı və ilhamlı şəxs nəsri musiqi ilə oxumaz».

Bu düşüncələrin məntiqinə əsasən, əl-Ustad «Munisnamə»ni nəzmlə yazmalı idi və girişdən aydın olur ki, müəllif özü də bu istəkdə olmuşdur. Lakin özünün göstərdiyi iki səbəbə görə bu niyyətindən daşınmışdır:

1) Şeiri dünya nemətlərinə çatmaq və dolanışıq vasitəsinə çevirən, bu məqsədlə də hədsiz yaltaqlıq, mübaliğəli məddahlıq

yolunu tutaraq poetik sözü gözdən salan, onu ucuzlaşdıran şairlərin çoxluğu;

2) Əsərin ithaf olunduğu Atabəy Nüsrətəddin Əbubəkrin «bütün günlərini kef və eyş-işrət məclislərində keçirməsi» nəticəsində mənzum mətni qavramağa çətinlik çəkməsi.

Həmin səbəbləri qeyd etdikdən sonra əl-Ustad öz əsəri ilə bağlı yazır:

«Bu kitabı nəzmlə yazmaq, qabiliyyətim çatan və imkanım yetən qədər bir müddət fikrimi ona bağlamaq və lazım olduğu şəkildə onu qələmə almaq istəyirdim, çünki ilham əhlinin və elm sahiblərinin könlü nəzmə daha çox meyl edir; amma bununla bağlı üzrümü bildirdim və nəzmdən imtina etməyimin səbəbini [yuxarıda] qeyd etdim. Bu kitabı «Munisnamə» adlandırıb aləmin hökmdarı və bəni-Adəmin padşahı, dövlətin və dinin yardımçısı Əbubəkr ibn Atabəy Məhəmməd ibn Atabəy Eldənizin – Allah onun tərəfdarlarına kömək olsun! – şərəfinə tamamladım. [Bu kitab] gözəl fəsillərdən ibarətdir və xoşagələn hekayətləri əhatə edir. Elə seçilib bəzədilmişdir ki, əgər əvvəldən axıra qədər bu toplunu oxusalar, xoşa gəlməyən bir kəlmə də tapa bilməzlər. Misra: O, meyvə dolu bir bağ, gövhər dolu bir dənizdir».

Bu sözlərdən aydın olur ki, əl-Ustad öz əsərini məzmun və bədii keyfiyyət baxımından yüksək qiymətləndirmiş, onu bol meyvəli bağa və qiymətli incilərlə dolu dəryaya bənzətməklə toplunun tematik zənginliyinə işarə etmişdir.

Onu da deyək ki, «Munisnamə»nin giriş hissəsində əl-Ustadın qələmindən çıxmış poetik nümunə də yer almışdır. Həmin parçanı müəllif: «Mən «Nüzhət əl-Məcalis»də demişəm» – deyə təqdim edir:

Qədim əmirlərin və şahların adları
Dünyada söz ilə təzələnər.
Söz adları dünyaya yayar,
Adlar namələrdə yaşayar.
«Şahnamə» və Mahmud şahın adı
Durur, amma o, (Mahmud şah) yerində deyil.

Göründüyü kimi, müəllif sözün əbədiliyini, zamanları aşdığını, əsrləri, qərinələri ötüb keçdiyini bəyan edir və bu fikrini dahi Firdovsinin «Şahnamə»si timsalında əsaslandırır: Sultan Mahmud Qəznəvi (971-1030) bu gün yerində – taxtında olmasa da, «Şahnamə»nin sayəsində onun adı qalmaqda, yaşamaqdadır.

Nəzərdən keçirilən üç beyt həm də əl-Ustadın kifayət qədər yüksək poetik istedada malik olmasından xəbər verir.

Qeyd edək ki, elə girişin sonundaca əl-Ustad «Munisnamə»nin mündəricatını vermişdir. Prof. R.Əliyevin də vurğuladığı kimi, fəsillərin burada verilmiş başlığı ilə bilavasitə mətndəki başlıqlar arasında müəyyən cüzi fərqlər müşahidə olunur. Həmin mündəricat belədir:

I fəsil. Hədislərdən, ərəb məsəllərindən və möminlərin əmiri Əli ibn Əbu Talib-əleyhissəlamın sözlərindən ibarət hikmətli kəlamlar

II fəsil. Möminlərin əmiri Əli ibn Əbu Talibin İmam Hüseynə – onlara salam olsun! – vəsiyyəti və onun şeirlə tərcüməsi

III fəsil. Şeyxlər, övliyalar, abidələr və təriqət başçılarının adları, onların sözləri və hekayətləri haqqında

IV fəsil. Bu şəxslərin fəzilətləri, doğulduqları yer və zaman haqqında

V fəsil. Şeyx Əhməd Qəzalinin– Allah ona rəhmət eləsin! – «Risalət ət-teyr» əsəri

VI fəsil. Ədalət və insaf haqqında

VII fəsil. Səxavət və Bərməkilər nəsli barədə hekayətlər haqqında

VIII fəsil. Rum müdriklərinin hikmət və nəsihətləri, möbidlər möbidinin kəlamları və onun Bəhmən şah üçün etdiyi nəsihətlər haqqında

IX fəsil. Huşəngin öz oğluna nəsihətləri

X fəsil. Hindistan əhlinin ədalətli Ənuşirəvana sualları, müdrik Bozorqmehrin cavab verməsi və onun Hindistan padşahının elçisi ilə mübahisəsi haqqında

XI fəsil. Əcəm əhlinin hikmətli sözləri və Cəmşidin öz canişinlərinə nəsihətləri haqqında

XII fəsil. Ayrı-ayrı hikmətlər və müdrik Bulinasın nəsihətləri haqqında

XIII fəsil. Fars müdriklərinin hikmətləri haqqında

XIV fəsil. Müdrik Yusobasın kəlamları və nəsihətləri haqqında

XV fəsil. Şahlara xidmət edənlər üçün öyüd və nəsihətlər haqqında

XVI fəsil. Müdrik Əflatunun hikmətləri haqqında

XVII fəsil. Böyük şəxsiyyətlərin kəlamları, rəmzlər, işarələr və ayrı-ayrı məsəllər haqqında; bu fəsil *31 hekayətdən* ibarətdir:

1. Mosullu Fəzlullahın əhvalatı və onun başına gəlmiş işlər haqqında
2. Bəm şəhərindən olan bənna, onun arvadı və Quvaşir şahının vəzirlərinin hekayəti
3. Bəsrəli mərd, Bəsrə əmiri və onun vəzirinin hekayəti
4. Vəzir ilə Dəryabar şahının qızı və onların gördükləri qəribə şeylər haqqında hekayət
5. Nəsri-əyyar və Xorasan şahzadəsinin hekayəti
6. Zeyn əl-Əsnam və cinlər padşahının hekayəti
7. Hərran padşahı, onun oğlanları və qardaşları Xudadadın hekayəti
8. Şah qızı, üç cavan və bir qocanın hekayəti
9. Dünyada dərdsiz insan olub-olmadığını bilmək istəyən padşahın hekayəti
10. Zərgərin arvadının fəqih, möhtəsib, qazı, darğa və şəhər hakimi ilə hekayəti
11. Dülgər və dərzinin hekayəti
12. İshaq Mosuli, Bağdad xəlifəsi və qəsr haqqında hekayət
13. Bilqeyisin atasının pəri qadınla sərgüzəşti haqqında hekayət
14. Zərgər Əbdüləzizin oğlu Mənsurun hekayəti
15. Tahir Bəsri və cadugər Şəmsə haqqında hekayət
16. Kəşmir padşahının qızı və Xorasanlı tacir haqqında hekayət
17. Bağdad qazısı və xəlifə Harun ər-Rəşid haqqında hekayət
18. Kazerunlu kərpickəsən Şapurun hekayəti
19. Şahzadələr, türkmən və qazı haqqında hekayəti

20. Padşah, vəzir və adamyeyən itlərin hekayəti
21. Ləvvahə ilə zərgər Xacə Bişrin hekayəti
22. Karvan, xəsis kişi və Hatəm Tayinin qəbri haqqında hekayət
23. Sultan Mahmud haqqında müxtəlif hekayətlər
24. Şahzadə Xələf və Çin fəğfurunun qızı haqqında hekayət
25. Seyfəlmülük və Bədiəlcamal hekayəti
26. Əshabi-kəhf, Dəqyanus və onların başına gələn işlər haqqında hekayət
27. Qəzavü-qədər, Simurğ və Süleyman peyğəmbərin hekayəti
28. Zərgər Xalidin oğlu, onun qədəh dostları və onların alçaqlığı haqqında hekayət
29. Əbül-Əla Kirmani, onun oğlu, Naxçıvana səfərləri və sərgüzəştləri haqqında hekayət
30. Mömin Ürviyə ilə ərinin qardaşı, zənci qul, gənc məmur və tacirin hekayəti
31. Bəluqiya və Əffan, Əffanın Süleyman peyğəmbərin üzüyünü axtarmağa getməsi və onların qarşılaşdığı qəribə şeylər haqqında hekayət.

Göründüyü kimi, «Munisnamə» həcmcə çox iri bir abidədir. Əsərin əlyazma nüsxəsi 750 səhifəyə yaxındır. Bununla belə, abidəni struktur baxımından iki hissəyə ayırmaq olar.

Bunlardan birincini, şərti olaraq, didaktik, ikincini isə bədii hissə adlandırmaq mümkündür.

Əsər 17 fəsildən (bab) ibarətdir, hərçənd materialın fəsillər üzrə bölüşdürülməsində tam qeyri-bərabərlik mövcuddur. Belə ki, didaktik hissəyə daxil olan ilk 16 fəsil əsərin ümumi həcminin altıda birindən də az qismini təşkil edir. Bədii hissəni əhatə edən XVII fəsil öz növbəsində 31 hekayətdən ibarətdir. Həmin hekayətlər də həcmcə bir-birindən fərqlənir və əlyazmada ən kiçik hekayət 2 səhifədən ibarətdirsə, ən böyüyü 86 səhifədir.

«Munisnamə»nin qeyd olunan iki hissəsi təkcə öz məzmunu və ideya istiqamətinə görə deyil, mənbələrinin xarakterinə görə, yəni genetik baxımdan da fərqlənir. Əgər didaktik hissəyə daxil olan

mətnlər konkret müəlliflərə və tarixi şəxsiyyətlərə aiddirsə və bütünlüklə yazılı mənbələrə əsaslanırsa, əsərin öz kökləri baxımından müxtəlif Şərq xalqlarının mifologiyası və folkloruna bağlı olan bədii hissəsinin genezisini müəyyənləşdirmək olduqca çətin bir məsələdir. Amma bu o demək deyil ki, «Munisnamə» müəllifi həmin hissəyə daxil olan hekayətlərin süjetlərini bilavasitə folklordan əxz etmişdir: araşdırma göstərir ki, bu hekayətlərin birbaşa mənbələri də əsasən yazılı mətnlərdən ibarət olmuşdur.

Nəhayət, «Munisnamə»nin strukturu ilə bağlı bir məsələni də qeyd etmək lazımdır. Əsərin didaktik hissəsi də aydın şəkildə iki qismə ayrılır: I-VII fəsillərə daxil edilmiş material islamdan sonrakı dövrün məhsuludur, VII-XVI fəsillər isə qədim yunan, İran (pəhləvi) və qismən də hind etik-fəlsəfi fikri ilə əlaqədardır. Burada xronoloji ardıcıllığa riayət olunmaması göz qabağındadır. Lakin bu fakt təsadüfi deyildir. Belə ki, islamdan sonrakı dövrə məxsus materialın, müsəlman dini-fəlsəfi sistemi ilə bağlı nümunələrin əsərin əvvəlində verilməsi dövrün ideoloji prinsipləri və ədəbi normalarının tələbindən irəli gəlir və həmin material müəyyən mənada rəsmi funksiya daşıyır.

Prof. R.M.Əliyevin, haqlı olaraq, «Munisnamə»nin bədii baxımdan ən qiymətli hissəsi kimi səciyyələndirdiyi XVII fəslə müəllif bir neçə aforizmlə başlayır və daha sonra yazır: «… Ərəb, Əcəm, Rum, hind müdrikləri və şeyxlərinin hikmətli kəlamları çoxdur. Biz oxucuları yormamaq (darıxdırmamaq) üçün bununla kifayətlənirik və keçmişdə yaşamış insanlar haqqında rəvayətlərə, müxtəlif hekayətlərə başlayırıq». Bu sözlərin ardınca əl-Ustadın kitabının bədii hissəsinə poetik müqəddimə təsiri bağışlayan 14 beytlik bir şeir parçası vardır. Müəllifin öz əsərinə münasibətini, kitaba daxil etdiyi hekayətlər haqqında baxışlarını əks etdirmək və ideya-bədii məqsədlərini açıqlamaq baxımından maraq doğuran həmin parçadan bir neçə beyti nəzərdən keçirək:

[Bura qədər] hər şeydən danışdıq,
Bundan sonra köhnə hekayətlər söyləyəcəyik.
Keçmiş insanlar haqqında hekayətləri
Seçib bu kitabda toplamışam.

Qəm dağıtmağın bundan yaxşı yolu yoxdur.
Sənə bundan yaxşı yadigar ola bilməz.
Qəm dağıdan bu hekayətlərdə
Nə istəsən, onu tapa bilərsən.
Dünyada hekayətlər çoxdur:
Ərəblərin və farsların dilindən deyilmiş
Hər cürəsi vardır. Lakin bunlardan yaxşısı yoxdur,
Qəmli insana bunlardan yaxşı munis yoxdur.
Kim bunların hamısını oxusa,
Min qəmi də olsa, unudular.
[Bu kitab] meyvəli, barlı bir bağ kimidir,
Yaxud da dürr və gövhərlə dolu bir dəryadır.
Heç bir xırda mətləbi və təfsilatı da
Mən burada ixtisar etməmişəm.
Ümidvaram ki, bunu oxuyan kəs
Bu [kitabı] məndən özünə yadigar sanacaq.

Bu parçada diqqəti cəlb edən ilk cəhət müəllifin əsərə daxil etdiyi hekayətlərin sırf bədii, əyləncəli funksiya daşımasını ön plana çəkməsidir: onların «qəm dağıtmaq», «min qəmi də unutdurmaq», «qəmli insana munis olmaq» (görünür, əsərin bütövlükdə adı da həmin xüsusiyyətlə bağlıdır) kimi keyfiyyətlərinin dəfələrlə qeyd edilməsi də bu məqsədə yönəlmişdir. Beləliklə, əl-Ustad «Munisnamə»nin bu fəslindəki hekayətlərlə qarşısına dərk olunmuş estetik vəzifələr qoymuşdur, hərçənd əvvəldə deyildiyi kimi, o, burada da əsərinə verdiyi ümumi didaktik motivasiyanı yaddan çıxarmamışdır.

İkincisi, bu şeir parçası müəllifin əsər üzərində işinin xarakterinə dair məqamları aşkar etmək imkanı verir. Hər şeydən öncə, o, hekayətlərin «ərəb və əcəm» mənşəli olduğuna işarə edir. Daha sonra müəllif bu hekayətləri müxtəlif mənbələrdən (şübhəsiz, bunlar ilk növbədə yazılı mənbələr idi) seçib əsərə daxil etdiyini vurğulayır. Kitabda bir neçə halda bütöv bir hekayətin, yaxud da ayrı-ayrı epizodların müxtəlif variantlarının nəql edilməsi də müəllifin material üzərində gərgin və diqqətli seçmə işi apardığını göstərir. Eyni zamanda əl-Ustad seçdiyi materialı yaradıcı şəkildə təkmilləş-

dirmiş, özünün dediyi kimi, ən xırda mətləbi və heç bir zəruri məqamı yaddan çıxarmamışdır. Əslində o, hekayətlərin yalnız süjetlərini bu və ya digər mənbədən əxz edirdi. Məlum süjetin mükəmməl bədii əsərə çevrilməsi, onu maraqlı edəcək kompozisiya üsullarının seçilməsi, hadisənin həqiqiliyinə inandıracaq tarixi fonun və ictimai şəraitin yaradılması, hekayənin oxunaqlığını təmin edəcək bədii dillə yazılması və s. kimi sırf ədəbi vəzifələrin reallaşdırılması müəllifin öhdəsinə düşürdü. Onun öz bədii istedadını nümayiş etdirmək üçün meydan da məhz bu sahələrdə açılırdı.

Nəhayət, üçüncüsü, həmin şeir parçasında əl-Ustad hekayətlərin mövzu rəngarəngliyinə və funksional əlvanlığına diqqəti cəlb etmişdir («Bu hekayətlərdə nə istəsən, onu tapa bilərsən»).

Hekayətlərin məzmun və formasının bütün fakturası ilə təsdiqlənən həmin cəhət, görünür, müəllif üçün mühüm məsələ idi. O, yaxşı başa düşürdü ki, yalnız bu halda əsər hər bir oxucuya munis ola bilər və hər kəs tərəfindən müəllifin ona qiymətli yadigarı kimi qəbul edilər.

«Munisnamə»nin XVII fəsli, yuxarıda deyildiyi kimi, abidənin həm həcmcə, həm də bədii baxımdan mühüm hissəsini təşkil edən 31 hekayətdən ibarətdir. Təəssüf ki, əsərin mövcud və hələlik yeganə əlyazmasında həmin hekayətlərin bir qismi, konkret desək, 15, 16, 17, 24 və 25-ci hekayətlər yoxdur və kitabın giriş hissəsində onların yalnız adları saxlanılmışdır. (Bununla belə, həmin adlar əsasında bu hekayətlərin məzmunu barədə müəyyən mülahizələr söyləmək mümkündür). Ümumən, təəssüf doğuran bu fakt, şübhəsiz, istər «Munisnamə»nin əlyazma nüsxəsinin, istərsə də bütövlükdə abidənin özünün ədəbi-tarixi dəyərini azaltmır və onun geniş kontekstdə təhlilinə qətiyyən mane olmur.

«Munisnamə» hekayətləri ilə tanışlıq zamanı diqqəti cəlb edən ilk cəhət onların mövzu və məzmun baxımından rəngarəngliyidir. Müxtəlif tarixi, coğrafi, etnik və mədəni məkanları əks etdirən hekayətlərdə real ictimai və məişət səhnələri, romantik əhvalatlar, fantastik və sehrli ünsürlər, satirik və didaktik elementlər üzvi şəkildə bir arada öz əksini tapır. Lakin hekayətlərin verilməsində müəllif nə tematik, nə də xronoloji prinsipə riayət etməmişdir.

Hekayətlər həcm baxımından da ciddi şəkildə fərqlənir. Məsələn, artıq deyildiyi kimi, ən kiçik hekayət əlyazmanın 2, ən irihəcmli hekayət isə 86 səhifəsini əhatə edir. Burada diqqətimizi çəkən bir cəhəti də qeyd etmək lazımdır. Müəllif əvvəldə orta həcmli hekayətləri (1-18-ci hekayətlər), sonra kiçik hekayətləri (19-23-cü hekayətlər) və fəslin sonunda isə iri həcmli hekayətləri (24-31-ci hekayətlər) yerləşdirmişdir. Materialın həcm baxımından bu cür bölgüsünü biz təsadüfi saymırıq. Görünür, müəllif kiçik həcmli hekayətləri fəslin ortasında yerləşdirməklə, oxucuya müəyyən qədər istirahət vermək və onu sonda verilmiş daha iri hekayətlərin oxunuşuna hazırlamaq məqsədi güdmüşdür.

Nəhayət, burada «Munisnamə»nin mövcud əlyazmasının ilk səhifəsinin düşdüyünü də qeyd etməliyik. Belə ki, əlyazmanın Atabəy Əbubəkrə müraciətlə başlayan hissənin üzərindəki bir sətirdə «onun ümmətin məclislərinin şamı, dinin və millətin çırağı olan beyti və dostları» yazılmışdır. Aydındır ki, burada söhbət Məhəmməd peyğəmbərin əhli-beyti və əshabələrindən söhbət gedir və çox güman ki, əlyazmada olmayan bundan əvvəlki sətirdə onlara salam göndərilir. Bu da əlyazmada Allahın və peyğəmbərin tərifinə həsr olunmuş ənənəvi başlanğıcı əks etdirən səhifənin itdiyini söyləməyə əsas verir. Belə ki, qeyd olunan sözlərdən sonra müəllif ənənəvi «amma sonra» («əmma bə’d») ifadəsini işlədərək, tərcümənin başladığı cümləyə keçir. Yəni biz tərcümədə qeyd olunan bir sətri – yarımçıq cümləni verməyi lazım bilməmişik.

Beləliklə, biz oxucuya ilk dəfə “Munisnamə”nin tam şəkildə Azərbaycan dilinə tərcüməsini təqdim edirik. Ümid edirik ki, tərcümə istər şərqşünas və ədəbiyyatşünaslar, istərsə də geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaqdır.

**Rəna Rzayeva,**
*filologiya üzrə fəlsəfə doktoru*

# MUNİSNAMƏ

# [GİRİŞ]

İslam padşahlarının başçısı, əzəmətli hökmdar və böyük Atabəy, dünyaya hökm edən Xosrov və kamına çatmış şəhriyar, aləmin Darası və əcəmin Xaqanı, İslamın və müsəlmanların dayağı Nüsrət əd-dövlət və-d-dinin – Allah onun yardımçılarını şərəfləndirsin, iqtidarını artırsın, aləmdə sultanlığını əbədi etsin, Qiyamət günü dəlillərini gücləndirsin, izzət və mənfəətini çoxaltsın, məmləkət və dövlətini sarsılmaz etsin! – dünyanı işıqlandıran zəkasına gizli deyildir ki, aydın sübutlara və qəti dəlillərə əsasən, mənəvi və maddi aləmin məqsədi canlılardır, onların da əşrəfi və tacı insandır, çünki danışan canlıdır. İnsanın şərəfi söz ilədir və insan dilinin altında gizlənmişdir. Beyt:

İnsan dilinin altında gizlənib,
Danışmayınca, onu tanımazlar.

Düşüncə sahiblərinə gizli deyildir ki, ağıl aləmində sözdən şərəfli və lətafətli cövhər yoxdur və əgər sözdən üstün bir şey olsaydı, Allah-taala öz peyğəmbərlərinə onu göndərərdi.

Necə ki, demişlər:

Əgər sözdən daha yaxşı bir xatırlatma olsaydı,
Tanrı öz Elçisinə onu göndərərdi.

Nitqin kamilliyi isə onun məzmunlu və rəvan olmasındadır. Nəsr də, nəzm də sapa düzülmüş inci kimi gözəl və məzmunlu yazılmalıdır. Allahın rəsulu Məhəmməd – Allahın salam və salavatı olsun ona! – belə buyurmuşdur: «Həqiqətən, Uca Allahın dərgahında çox gizli xəzinə var ki, onların açarı şairlərin dilləri altındadır».

Başqa bir yerdə isə buyurmuşdur: «Şairlər bəşəriyyətin tükənməz şöhrətidir».

Şair Əscədi – Allah ona rəhmət eləsin! – bir qitəsində demişdir:

Aqillərə rəvan olmayan nitq yaraşmaz,
Belə nitq qızıl tozuna, xam ipəyə bənzəyər.
Şairlərin nəfis sözləri isə
Yüksək əyarlı qızıl, qumaş ipək kimi olur.
Zərgər və dərzi öz işinin ustası olarsa,
Bunlardan sənət əsərləri yaradarlar.

Nəzmin dili nəsrin dilindən daha üstün olduğu üçün müdrik və şeir yazmaq məharətinə malik olan aqillər həmişə nəsri nəzmə çevirmiş və çevirməkdədirlər və hələ heç bir şairlik istedadı olan kəs nəzmi nəsrə çevirməmişdir.

Axı yerin-göyün sahibi, dünya-aləmi yaradan Uca Allahın ipəyi, atlazı, pambığı, kətanı yaratdığı gündən bəri heç bir aqil atlazı ipəyə, kətanı pambığa çevirmək fikrinə düşməmişdir, əksinə, hər bir kəs pambıqdan kətan, ipəkdən atlaz almaq istəmişdir.

Mənzum söz mənsur sözdən daha asan yadda qalır, həm də mənzum söz qəlbə daha tez yol tapır. Gözəl, rəvan sözləri müxtəlif ahəng, müxtəlif avazla zərif musiqi sədalarının müşayiəti ilə də dinləmək olur. Nəsri isə heç kəs musiqi müşayiəti ilə, avazla oxumaq fikrinə düşməz.

Bundan başqa, cəmiyyətdəki mövqeyinə görə sultanlara, əmirlərə yaxınlaşıb sözlərini deməyə imkanı olmayanlar ehtiyaclarını, istəklərini məhz qəsidə, qitə şəklində yazıb saraya göndərər və bu şeirlər sarayda padşahın, vəzirin, vəkilin, saray əyanlarının qarşısında oxunardı.

Nəzmin dili çox zəngin və çoxşaxəlidir, amma əgər biz indi nəzmin özəlliklərini sadalamağa başlasaq, əsas məqsəd və məramdan uzaqlaşmış olarıq. Buna görə də bu dediklərimlə kifayətlənib, aləmin hökmdarı Nüsrət əd-dünya və d-din Əbubəkr ibn Məhəmmədin adına bağladığım «Məclislərin ləzzəti» adlı əsərimdən bir parça verərək sözümü tamamlayıram.

Qoy incə zövq və yüksək istedada malik nəsr və nəzm ustaları böyük ehtiram göstərərək bu əsərə nəzər salanda, «Nəyə görə şairanə ruha, gözəl nitqə, incə zövqə malik olan müəllif bu əsəri nəzmlə yazmamışdır?»- deyə məni qınamasınlar. Bununla bağlı

mən üzrxahlıq edib, onun səbəblərini yazacağam, amma yeri gəlmişkən, məlumunuz olsun ki, bu gün var-dövlətin sənətdən, gümüş-qızılın müdriklikdən üstün tutulduğu dövrdə - bu isə çox böyük səhvdir – nəfsinin qulu olmuş, maddiyyat düşkünü olmuş şairlər var-dövlət əldə etmək üçün, qızıl-gümüş yığmaq üçün, tamahları, nəfsləri qarşısında aciz qalıb ancaq sərvət düşünərək sifarişlə şeir yazırlar və bununla da böyük günaha, səhvə yol vermiş olurlar, belə ki, əsl şeiriyyat nə töhfə ilə yüksələ bilər və nə də töhfəsiz dəyərini itirər. Axı, həzrət Yusifin – Allah onun adını həmişə uca tutsun! – qardaşları tərəfindən on dirhəmə satılmasının səbəbi Yusif deyildi, onun rəzil qardaşları idi.

Əgər həqiqəti bilmək, həqiqətə yetişmək istəyirsənsə, bilməlisən ki, zər qədrini zərgər bilər və malik olduğu incinin dəyərini bilən kəs onu heç vaxt nadana satmaz. Şair də belə etməlidir. Kimə görəsə, nəyə görəsə şeir yazmamalıdır. Qəsidələrimdən birində bununla bağlı yazmışam:

Sən müsəlman deyilsən, bir rəzil qulsan,
Bir halda ki şeirini bir arpa çörəyə satırsan.

Ümumiyyətlə, yer üzündə söz səltənətindən möhkəm, uzunömürlü səltənət yoxdur və nə qədər ki, ağ vərəq üzərində qara mürəkkəb parlayır, sözün şöhrəti həmişə uca olacaqdır və nə qədər ki bəşəriyyət mövcuddur, yaşayacaqdır. [........... ] demişdir:

Sən bilirsən ki, Mahmudun ətrafında
Çox adlı-sanlı kişilər, əmirlər,
Hökmranlıq edən şahlar, sultanlar
Adları ucalmış qəhrəmanlar dolaşırdı.
Amma onun əməllərini, aliliyini
Bizlərə ancaq Ünsüri öz yazılarında çatdırdı.

Böyük şəxsiyyətlər daha çox nəzmə üstünlük vermiş və adlarını əbədiləşdirmək üçün həmişə şairlərdən onların adlarını şeir-

lərdə mədh etməklərini istəmişlər, belə ki, deyirlər: «Əbədilik şeirdədir».

Bununla bağlı «Məclislərin ləzzəti» əsərimdə deyirəm:

Qədim əmirlərin və şahların adları
Dünyada söz ilə təzələnər.
Söz adları dünyaya yayar,
Adlar namələrdə yaşayar.
«Şahnamə» və Mahmud şahın adı
Durur, amma o, (Mahmud şah) yerində deyil.

Gətirdiyim dəlillərə əsaslanaraq mənə göstərdikləri mərhəmətin, hörmətin, qayğının müqabilində Eldənizlər nəslindən olan hökmdar və şahzadələrə minnətdarlıq hissi ilə bu kitabı qələmə almaq qərarına gəldim.

Mənim hökmdarlarımın bəziləri davamlı şəkildə sərxoş olduqları üçün ancaq nəsri qavramaq iqtidarında olurlar və bunu nəzərə alaraq əsərimi nəsrlə yazmağı düşündüm.* Mən məhz buna görə bu əsəri nəsrlə yazdım və ümid edirəm ki, onun adı tarixin səhifələrində öz yerini tuta biləcəkdir.

Mənim artıq həm dünyasını dəyişmiş və həm də həyatda olan hökmdarlara həm nəsrlə, həm nəzmlə ithaf etdiyim bir neçə əsərim vardır. Məsələn: Şəhid Atabəy Qızıl-Arslana ithaf etdiyim, nəzmlə yazdığım «Sənəm və Əcəm» əsərim, yenə də ona ithaf etdiyim ««Əlfiyyə və Şəlfiyyə» kitabının* tənqidi» əsərim, gəlinlik libasını geyinib, zərif gəlinlik duvağı arxasında, məsum ürkəkliklə öz sahibini gözləyən «Mehr və Müştəri» kitabım, aləmlərin fatehi Əbubəkr ibn Məhəmməd Eldənizə - Allah onun hökmdarlığını əbədi eləsin! - ithaf etdiyim «Ruhun rahatlığı» mənzuməm, yenə də həmin mələk xislətli hökmdara ithaf etdiyim, nəsrlə yazdığım – qulamla kəniz arasındakı mükalimələrdən ibarət münazirə şəklində olan «Məclislərin ləzzəti» əsərim, dünyasını dəyişmiş – Allah onun qəbrini nurla doldursun! – Atabəy Məhəmmədə ithaf etdiyim «Mənsur və Mərcan» dastanım vardır.

İndi isə mən təzə, fərqli elə bir kitab yazmaq istəyirəm ki, əldən-ələ keçərək oxunsun, onun bir vərəqi qalanadək xüsusi səmimiyyətlə, nəcibliklə adlarını çəkdiyim Eldənizlər sülaləsinin hökmdar və şahzadələrinin əməlləri, xatirələri dünya durduqca dursun, onların adlarına daima dualar ucalsın. Onların mənim əməyimə, zəhmətimə, xidmətimə verdikləri qiymətə, dəyərə minnətdarlıq hissi ilə bu kitabı yazmağı özümə borc bildim ki, oxucularım daima onlara dualar etsin. Özümə isə bu kitab Süleymanın, qüdrətli hökmdarların hüzurunda oxunanda bir müdrik kimi qəbul olunmağımı diləyirəm.

Mənim dövlət qarşısında keçmişdəki və indiki xidmətlərim hamıya məlumdur, şahzadələrin təhsilində - ədəbiyyat, xəttatlıq, Quran və hədislərin öyrənilməsində çəkdiyim zəhmətimin, bu Saraya içimdən gələn səmimi münasibətimin heç bir təsdiqə ehtiyacı yoxdur, belə ki, bunların hamısı hər kəsə gün kimi aydındır. İşləmək, tapşırılmış işi yüksək səviyyədə yerinə yetirmək bizim - Allah qullarının borcudur. Sənai bununla bağlı gözəl demişdir:

Sən öz işini qaydasınca gör,
Əgər ölüm yolunu kəssə, üzrlüsən!

Əslində, bu düşüncələrin, hisslərin təsiri altında bacarığıma, istedadıma, qabiliyyətimə uyğun bir nəzm yaratmaq istəyərdim. Bilirəm ki, incə zövqə malik müdriklər, aqillər nəzmə daha çox üstünlük verirlər, amma əvvəldən göstərdiyim və üzrxahlıq etdiyim səbəblər üzündən bu fikrimdən daşınmalı oldum.

Mən bu kitabı «Munisnamə» adlandırdım və onu aləmlərin hökmdarı, bütün insanların himayədarı, Nüsrət əd-dövlət və-d-din Əbubəkr ibn Atabəy Məhəmməd ibn Atabəy Eldənizə – Allah ona, tərəfdarlarına yar olsun! – ithaf etdim.

Bu kitabdakı maraqlı, təsirli fəsillər, gözəl, rəvan hekayətlər elə zərif, incə zövqlə, məharətlə tərtib olunmuşdur ki, onu bir dəfə başdan-ayağadək oxuyan orada bircə kəlmə zövqünə uyğun olmayan söz tapa bilməyəcəkdir.

Bu kitabda insanı rahat edən, dərd-qəmdən uzaqlaşdıran, ümid verən gözəl hekayətlərdən, həqiqi hadisələrin təsvirindən, dərin kəlamlardan, müdrik nəsihətlərdən, rəvayət və əfsanələrdən başqa bir şey yoxdur.

Oxucu burada sevgililərin həzin pıçıltısını eşidəcək, ehtiyat, diqqət, yüksəliş və eniş, şükranlıq və naşükürlük, dərd, bəla, mərhəmət, səxavət, məhəbbət, nifrət, cəsarət, qorxaqlıq, müdriklik, aqillik, inam, sədaqət, məhəbbət, haqq və nahaq, ədalət, hüzur haqqında olan maraqlı hekayətlər oxuyacaqdır. İntizar yarası və onun vüsal məlhəmi, dərd və onun dərmanı, savaş və sülh, qan düşmənçiliyi, möcüzə və ağıl, bütün lənət və cadular məhv etməyə qadir qüvvələr, cavanların dəliqanlılığı, qocaların təcrübə və müdrikliyi, sehrbazların sehri, divlərin vahiməsi, pərilərin sədaqəti, savaş, barış, qətiyyət, kasıbların səfaləti, varlıların var-dövləti, əyləncələr və bayram şənlikləri, xoşbəxtlərin uğuru, bədbəxtlərin dərdləri, müxtəlif təbəqələrin nümayəndələrinin yüksəlişi, enişi, doğmalara qarşı qayğı və mərhəmət, zirəklik, ayıqlıq və acizlik, biganəlik, etinasızlıq, köləlik və azadlıq, keçmiş saray əyanlarının təcrübə dəyərləri, əcdadların ədaləti, mərhəməti, onların qanun-qaydaya riayət etmə və davranış qaydaları haqqında ibrətamiz, didaktik hekayətlərlə tanış olacaqdır, «Gülüstan»* və başqa bu qəbildən olan hekayətləri oxuyacaqdır.

Kitabı yazmaqda məqsədim, bu kitabı əlinə alıb oxumaqla məni şərəfləndirən ləyaqətli, müdrik, hörmətli aqillərin özləri üçün əxz etdikləri xeyrin müqabilində mənə dua etmələridir.

Müxtəsər, bu elə bir kitabdır ki, onda hər kəs istədiyini tapa bilər. Bu kitab qarışıq mallar dükanına bənzəyir, şəkər istəyən şəkər, bibər istəyən bibər, qab istəyən qab, şal istəyən şal tapar.

Bu elə bir xəzinədir ki, o, dəryaca ləl-cəvahirat, inci dəyərində müdrik kəlamlarla doludur, elə bir bar verən xurma bağçasıdır ki, ondakı hekayətlər qədirbilən oxucuların zövqünü oxşayacaq, ədiblərin tənqidinə isə duruş gətirməyə qadir olacaqdır.

Bu, meyvə ilə dolu bir bağ,<br>
Cövhərlə dolu bir dəryadır.

Kitabın tərkibi və sıralanması – Allah mənə uğur bəxş eləsin! – belədir.*

I fəsil. Hədislərdən, ərəb məsəllərindən və möminlərin əmiri Əli ibn Əbu Talib-əleyhissəlamın sözlərindən ibarət hikmətli kəlamlar

II fəsil. Möminlərin əmiri Əli ibn Əbu Talibin İmam Hüseynə – onlara salam olsun! – vəsiyyəti və onun şeirlə tərcüməsi

III fəsil. Şeyxlər, övliyalar, abidələr və təriqət başçılarının adları, onların sözləri və hekayətləri haqqında

IV fəsil. Bu şəxslərin fəzilətləri, doğulduqları yer və zaman haqqında

V fəsil. Şeyx Əhməd Qəzalinin– Allah ona rəhmət eləsin! – «Risalət ət-teyr» əsəri

VI fəsil. Ədalət və insaf haqqında

VII fəsil. Səxavət və Bərməkilər nəsli barədə hekayətlər haqqında

VIII fəsil. Rum müdriklərinin hikmət və nəsihətləri, möbidlər möbidinin kəlamları və onun Bəhmən şah üçün etdiyi nəsihətlər haqqında

IX fəsil. Huşəngin öz oğluna nəsihətləri

X fəsil. Hindistan əhlinin ədalətli Ənuşirəvana sualları, müdrik Bozorqmehrin cavab verməsi və onun Hindistan padşahının elçisi ilə mübahisəsi haqqında

XI fəsil. Əcəm əhlinin hikmətli sözləri və Cəmşidin öz canişinlərinə nəsihətləri haqqında

XII fəsil. Ayrı-ayrı hikmətlər və müdrik Bulinasın nəsihətləri haqqında

XIII fəsil. Fars müdriklərinin hikmətləri haqqında

XIV fəsil. Müdrik Yusobasın kəlamları və nəsihətləri haqqında

XV fəsil. Şahlara xidmət edənlər üçün öyüd və nəsihətlər haqqında

XVI fəsil. Müdrik Əflatunun hikmətləri haqqında

XVII fəsil. Böyük şəxsiyyətlərin kəlamları, rəmzlər, işarələr və ayrı-ayrı məsəllər haqqında; bu fəsil *31 hekayətdən* ibarətdir:

1. Mosullu Fəzlullahın əhvalatı və onun başına gəlmiş işlər haqqında
2. Bəm şəhərindən olan bənna, onun arvadı və Quvaşir şahının vəzirlərinin hekayəti
3. Bəsrəli mərd, Bəsrə əmiri və onun vəzirinin hekayəti
4. Vəzir ilə Dəryabar şahının qızı və onların gördükləri qəribə şeylər haqqında hekayət
5. Nəsri-əyyar və Xorasan şahzadəsinin hekayəti
6. Zeyn əl-Əsnam və cinlər padşahının hekayəti
7. Hərran padşahı, onun oğlanları və qardaşları Xudadadın hekayəti
8. Şah qızı, üç cavan və bir qocanın hekayəti
9. Dünyada dərdsiz insan olub-olmadığını bilmək istəyən padşahın hekayəti
10. Zərgərin arvadının fəqih, möhtəsib, qazı, darğa və şəhər hakimi ilə hekayəti
11. Dülgər və dərzinin hekayəti
12. İshaq Mosuli, Bağdad xəlifəsi və qəsr haqqında hekayət
13. Bilqeyisin atasının pəri qadınla sərgüzəşti haqqında hekayət
14. Zərgər Əbdüləzizin oğlu Mənsurun hekayəti
15. Tahir Bəsri və cadugər Şəmsə haqqında hekayət*
16. Kəşmir padşahının qızı və Xorasanlı tacir haqqında hekayət*
17. Bağdad qazısı və xəlifə Harun ər-Rəşid haqqında hekayət*
18. Kazerunlu kərpickəsən Şapurun hekayəti
19. Şahzadələr, türkmən və qazı haqqında hekayəti
20. Padşah, vəzir və adamyeyən itlərin hekayəti
21. Ləvvahə ilə zərgər Xacə Bişrin hekayəti
22. Karvan, xəsis kişi və Hatəm Tayinin qəbri haqqında hekayət
23. Sultan Mahmud haqqında müxtəlif hekayətlər
24. Şahzadə Xələf və Çin fəğfurunun qızı haqqında hekayət*
25. Seyfəlmülük və Bədiəlcamal hekayəti*
26. Əshabi-kəhf, Dəqyanus və onların başına gələn işlər haqqında hekayət
27. Qəzavü-qədər, Simurğ və Süleyman peyğəmbərin hekayəti

28. Zərgər Xalidin oğlu, onun qədəh dostları və onların alçaqlığı haqqında hekayət
29. Əbül-Əla Kirmani, onun oğlu, Naxçıvana səfərləri və sərgüzəştləri haqqında hekayət
30. Mömin Ürviyə ilə ərinin qardaşı, zənci qul, gənc məmur və tacirin hekayəti
31. Bəluqiya və Əffan, Əffanın Süleyman peyğəmbərin üzüyünü axtarmağa getməsi və onların qarşılaşdığı qəribə şeylər haqqında hekayət.

# I FƏSİL

## Hədislərdən, ərəb məsəllərindən və möminlərin əmiri Əli ibn Əbu Talib-əleyhissəlamın sözlərindən ibarət hikmətli kəlamlar

Çalışın, qardaşlarınız çox olsun ki, onların sayəsində ucalasınız. Səxavətli olmağı özünüz üçün qanun bilin, çünki verən əl həmişə alan əldən üstündür. Yaxın və doğmalarınızı incitməyin, çünki bu, birinin sağ əli ilə sol əlini incitməyinə bənzəyər.

Gördüyünüz işlərdə dürüst olun, belə ki, dürüstlük var-dövlət, nadürüstlük isə yoxsulluq gətirər. Hər bir madyan bir xəzinədir, çünki o, gələcəkdə bellərində cəngavərlər çapacaq ayğırlar dünyaya gətirir. Bu dünyada insanların bir yarısı yatar, o biri yarısı isə onlar üçün işləyər və yatmazlar. Mərhəmətli və xeyirxah işlər insanların adını ta qiyamətə kimi əbədiləşdirir. Başqalarından asılı olmamağı təmin edən balaca bir gəlir insanı Allahdan, Qiyamətdən, Axirətdən uzaq salan aşırı var-dövlətdən üstündür.

Bil ki, malik olduqlarından ancaq yediklərin, içdiklərin, geyindiklərin və Qiyamət günündə əməl dəftərinə əlavə olunacaq xeyriyyəçilik məqsədi ilə xərclədiklərin sənə mənsubdur. Peyğəmbərimizin - Allahın salamı olsun ona! - mütəmadi etdiyi duada deyilir: «Ya Rəbb, mən faydasız elmdən, Allahdan qorxmayan ürəklərdən, dünya nemətlərindən doymayan qəlblərdən, sənə yetişməyən dualardan sənə sığınıram!» Güclü, qüdrətli olan o kəs deyil ki, pəhləvanları yıxır, o kəsdir ki, öz qəzəbinə güc gəlməyi bacarır!

İnsanı bədbəxt edən iki xüsusiyyət vardır ki, bunların əsasında Allaha olan ümidin üzülməsi durur. Bu xüsusiyyətlərdən biri xəsislikdir, çünki xəsis düşünür ki, varından xərcləsə, Allah onun əvəzini verməz. İkincisi isə, paxıllıqdır, paxıl isə düşünür ki, o

bütün dünya nemətlərinə yiyələnməsə, Allah onun gündəlik qismətini də verməz. Nadanın malik olduğu dünya nemətləri xarabalıqda çiçəkləyən gözəl gül bağçasına bənzəyir. Əsl müdrik insanları doğru yola yönləndirən, ümidsizliyə düşməkdən, Allaha asi düşməkdən çəkindirən, günah etməkdən yayındırandır.

Hüseyn ibn Əli ibn Əbu-Talib buyurmuşdur: «Mən həyatım boyu heç kəsə yaxşılıq və ya pislik etməmişəm, etdiklərimi özüm üçün etmişəm, belə ki, yaxşı işlər də, pis işlər də gec-tez öz yiyəsinə qayıdır». Allah uğuru iddiasız adama verir.

# II FƏSİL

## Möminlərin əmiri Əli ibn Əbu Talibin İmam Hüseynə - onlara salam olsun! - vəsiyyəti və onun şeirlə tərcüməsi*

Möminlərin əmiri Həzrət Əli Hüseynə dedi:
- Ey gözümün nuru, dərdlərimin məlhəmi
Çalış bütün işlərində, gizlində və aşkarda,
İxtilaflar qəzəbini alovlandıranda da,
Əmin-amanlıq ruzigarı əsəndə də,
Ey mənim bir cüt gözüm,
Doğru söylə, düz danış.
Zəngin olsan da, yoxsul olsan da
[Olduğundan] az və ya çox olma.
Dost-düşmən yanında həmişə ədalətli ol,
Həyatın məğzi ədalətdir.
Həyat bir zahirdir, ədalət isə batindir.
Fərəhli və dərdli anlarında da
Özünü elmə fəda et.
Allahın yazısına həmişə boyun əy.
Bəzən çətinliyin də, rahatlığın da, əslində,
Cənnət qapılarının açılmasında xətəri olmur.
Sən gözəl olma, gözəl görün.
O kəs ki öz gözündə çöpü seçir,
Başqasında eyib axtararmı?
Kim öz qisməti ilə qane olursa,
Dünya nemətlərinə görə dərd çəkməz.
Xorasandan olan hər hansı xəbər,
Behiştdən olan xəbərə bərabərdir.
Oddan başqa hər hansı bir fəlakət
Güllü-çiçəkli bağdır.

Xalqa qılınc çəkənin özü
Fələk tərəfindən qanına qəltan ediləcəkdir.
Kim ki qardaşına quyu qazar,
Mütləq quyuya özü düşər.
Kim quldurcasına iş görər,
Onu yeddi göyün dəyirmanı əzib üyüdər.
Özünü dərin ümmana atan adam
Suda sönən od kimi sönüb öləcəkdir.
Özü ilə öyünən kəs,
Özü də bilmədən yoldan sapınacaqdır.
Öz ağlına valeh olan adam
Əslində, çox əziyyət çəkər.
Kim ki xalqa həqarət edər,
Təkəbbürün iti qılıncı onun boynunu vurar.
Kim ki başqasını alçaltmağa çalışır,
Tez bir zamanda özü əskilir.
Kim ki pis yola düşər,
Öz yaxşı adını yaman edər [adına düşmənlik edər].
Alçaqlarla oturub-duran adamın ömrü
Yer üzündə kölgələr kimi keçər.
Aqillərlə oturub-duran adam özü də
Gövhər kimi parlayar, işıq saçar.
Çəkin, alçaq, yersiz zarafata yol vermə,
O səni bir anda rüsvay edər.
Bunun pis iş olduğunu anlamayanlar
Başqalarına qarşı edər.
O adam axmaqdır ki, başqasının eybini sayır,
Xalqa isə öz hünərinin [sayından] danışır.
Nə qədər çox işləyib çalışsan,
Dünyada bir o qədər səmərəli olarsan.
Hər kim yanına sərxoş halda gəlsə,
Onun sənə faydası olmaz, ona baş qoşma.
Abırsız, düşüncəsiz, dəvə zınqırovu kimi boş-boş səs salan
Allahın nanəcib, nankor, sevilməyən bəndəsidir.

Təqvası olmayanın ürəyi ölü ürəyi kimidir.
Ölü ürək isə cəhənnəmə vasil olur.
Başqasının namusunu qorumayan şəxs,
Bacısının da namusunu heç vaxt qoruya bilməz.
Etibar qazanmış zirək adam
Hər şeydən [pis işlərdən] kənar qalar.
Ruhuna, arzularına azadlıq ver,
Qoy yaydan çıxmış ox kimi asudə olsun.
Kim ki insanlardan uzaqda, kin-küdurət bilmədən yaşayır,
Hiss-həyəcan, qayğıdan uzaq olur.
Kim ürəyindəki həsəd tikanlarına od vurub yandırır,
Bütün ürəklər onun üzünə gülür.
Sənə deyim ki, ləyaqətlə yaşamağın bircə yolu vardır:
Nəfsinə ağalıq edib, asudə olmaqdır.
Qənaətlə yaranan xəzinə
Tükənməz bir xəzinədir.
Mütəmadi ölümü düşünsən,
Dünyanın bir nəfəsi də sənə yetər.
Söylədiklərinin məsuliyyətini bilən kəs
Nəticədə peşmançılığa səbəb olacaq söz deməz.
Qəribədir ki, cəhənnəm odundan qorxanlar,
Yenə də günah işlədirlər.
Xoşbəxt o adamdır ki, günah işlədənlərdən ibrət alıb,
Günah işlərdən uzaq durur.
Allaha itaət etməyənin işi
Şeytana, iblisə qalır.
Unutma ki, görənlərin işığı həqiqətdir,
Qəflətdə olanlar isə zülmətdə olar.
Xoşbəxt günahkarlardan dərs götürər,
Başqalarının əməllərindən ibrət götürər.
Kərəmdən qalmış ədəb
İmansızın əxlaqından üstündür.
Saqqallı olanın qohumları
Hər dəfə artar-azalar.

Bədəməl adamın malı olsa da,
Xəstə[əldən] düşməmiş halda bu dünyanı tərk etməz.
Allah sənə sağlam can, ömür verib,
Daima Onu düşün və Allahın adını zikr et!
İnsanlarda görməyəcəyiniz
Onuncu xüsusiyyət, məhz, budur.
Uca Allahın adını uca tutmayanın adını
Allah özü alçaldar.
Elm dalınca düşən adamın
Gözləri dünyaya daha geniş açılar.
Ey oğul! Ağlın, mərifətin əsası mərhəmətdir, rəhmdillikdir.
Abırsızlıq, həyasızlıq isə elmin, mərifətin düşmənidir.
İman nədir!? O ən böyük xəzinədir!
Onu qorumaq üçün səbirli və dözümlü olmalısan.
Nəfsinin ağası olmaq kasıbların bəzəyidir, baş tacıdır,
Allaha dua edib, ondan rəhm istəmək isə varlıların peşəsidir.
Ey oğul! Xalq arasına çıxanda onları çox sorğu-suala tutma,
Çox sorğu-suala tutulmaları onları tez bir zamanda bezdirər.
İmanı kamil olmayana qəlbən bağlanma ki,
Sonra başına kül tökməyəsən.
Həmişə özündən razı, təkəbbürlü adam
Yaxından tanısan, görəcəksən ki, ağlıyla heç fərqlənmir.
Çoxlarının qartal baxışlı gözləri
Bu dünyada özündən başqa heç nə ovlaya bilmir.
Bir çox kəlam dağ kimi möhtəşəm olur,
Ona görə dağ kimi nemətlərə yiyələnir.
Sən bilməlisən ki, müsəlmanlıq məbədinin bünövrəsindən möhkəm,
Ondan daha uca, daha möhtəşəm məbəd yoxdur.
«Təqva» nədir? Təqva ucalığın, yüksəkliyin parlayan tacıdır,
O, inamı, imanı mühafizə edən möhtəşəm bir qaladır.
Həqiqətən, günahları əfv etdirən bir Şəfi vardır,
Vaxtında Tanrıya üz tutanın əməli onun üçün Şəfidir!
Gəlinə hər cür bər-bəzək yaraşar,
Əgər Fələk onun alnına, taleyinə sağlamlıq yazmışdırsa.

Dərviş ruzinin azına da, çoxuna da qane olarsa,
Yoxsulluq zəhərinin təsiri azalar.
Zənginliyə, var-dövlətə heç vaxt can atma,
Çünki rahatlığını itirərsən, əhvalın pozular.
Tamahkarlıq dərd-qəmin dişidir,
Ağrı-acının çapar atıdır.
Nəfs və tamahkarlıq adamı günaha sövq etdirir,
Sonra isə cinayətə, fəlakətə sürükləyir.
Naqislərin, rəzillərin alçalması
Sənə ibrət olmursa, qəribədir.
Yersiz yerə özünü ortaya atsan,
İstehza oxu sənə dəyəcəkdir.
Qardaşına etdiyin yaxşılıq və ya pisliyin qarşılığını,
Şübhəsiz, o da sənə edəcəkdir.
Yoxsulluq oxu səni hədəf seçmişdirsə,
Səbir qalxanını götür və savaşa hazır ol.
Fikrin, əqlin üzündən örtüyü qaldıra bilsən,
Cahilliyin tikanı daha sənə bata bilməz.
Gülşəndən tikanlar, meydən məstlik yox olar,
Çünki sözlərin üzündəki niqab qaldırılmış olacaqdır.
Düz yolu əyri yoldan seçmək üçün
Aqillərin əməllərinə fikir verməlisən.
Kasıbı gündəlik ruzisi yaşadar,
Gözü dünya malında olan isə mənən kasıb olar.
Xoş və pis günündə səni tək qoymayan kasıb dost
Səni darda qoyan varlıdan çox üstündür.
Dünyada bütün yaranmışların ruzisi müəyyən edilmişdir,
Ölümün də ruzisi adəm övladıdır.
Ey oğul! Heç vaxt xalqın ümidini üzmə.
Günəş şüaları zülməti işıqlandırdığı kimi
Ümid də insan qəlblərini işıqlandırır.
Günahkar var bir gecəlik hilala bənzəyər,
On dörd günün tamamında dolu ay olub hər tərəfə işıq saçar.
Aqil var ki, əməli dolu ay kimidir, amma nuru zəifdir,
On dörd günə lap zəifləyib yox olar.

İlahi, nə qədər cahil və nadan varlanıb xaqan kimi yaşayır,
Müdrik, aqil kişilər isə əskildilib səfalətdə yaşayır.
Xalqın hikmətini anlayan kəs,
Hər iki dünyanın sirrini anlayar.
Həyatda özünü nə irəli at, nə geridə qal.
Orta yol seç, onda heç nədə uduzmazsan.
Xələfləri arasında çox parlayan kəs oxa tuş gələr.
Bil ki, əyri qılıncın əyri qını olmalıdır.
Allah bəndələrinə zorakılıq etmək
Onları quyuya salmağa bərabərdir.
Taleyin boğazda ilişib qalan şirin tikəsi çoxdur,
Lakin unutmamalısan ki, onların hamısı müvəqqətidir.
Həyat naz-nemətlə doludur,
Amma onlardan gözəl tərzdə bəhrələnməlisən.
Rahatlıq və əzab, zülmət və işıq
Bir-birləri ilə çox yaxın qonşudurlar.
Həyatın cürbəcür gözəllikləri vardır,
Ondan üstünlərini axtarma.
Çətinlikdə də, rahatlıqda da, gecə də, gündüz də,
Şəhərin lap yaxınlığında da
Həyat nə qədər gözəl görünsə də
Unutma ki, sürətli qoşa atlı əcəl özünü sənə çatdıracaqdır.
Doğru yolu tapmaq üçün onu oyma,
Yaxşı iş, doğru əməl haqq yolunu özü tapar
Hər kəs dostluğunda da, düşmənçiliyində də
Allah eşqi ilə davranmalıdır.
Ey özünü xoşbəxt, uğurlu sayan kəs!
Heç də belə deyildir,
Sənin bu hissin, iddian cahilliyindən, nadanlığından irəli gəlir.
Möminlər axirət gününü düşünüb ibadət, itaət etməklə
Özünə axirət üçün ruzi toplayır.
Həkimdən yaranış, həyat, ricət haqqında soruşanda cavab verir.
Belə olmasa, onun dərinliyinə vardığı hikmətlərin mənası olmazdı.
Həkimin nə vaxt danışması və ya susması səbəbsiz deyildir.
O, suallara cavab verməkdən çəkindiyi üçün susmur.

Onu da bilməliyik ki,
Həkim qarşısındakının qavramağına uyğun olaraq cavab verir.
Allahdan ümidlərini üzənlər yazıqdırlar,
Onlar Allaha asi düşənlərdir.
Özünüzdən müştəbeh olmayın,
Allah lovğalığı, lovğaları sevməz.
Aqil, alim, kamil insanlarda nöqsan axtarma,
Onlarda nöqsan görsən də, üzə vurma.
Ətrafındakılarla mülayim rəftar et, yumşaq ol,
Belə olarsa, qara mərməri də yumşalda bilərsən.
Abırsız və simic adamdan uzaq dur,
Onun ölməyi qalmağından məsləhətdir.
Həqiqətən, ağrı-acı insanın təbiətindən irəli gəlir.
İnsan o vaxt kamilləşir ki, «bu gün nə yeyim, nə içim,
Nə geyim, necə yaşayım, sabah nə olacaq!?»
Buxovlarından özünü azad edir.

# III FƏSİL

## Şeyxlər, övliyalar, abidlər və təriqət başçılarının adları, onların sözləri və hekayətləri haqqında

1. Məhəmməd Vərraq; 2. Əbusəid Həddad; 3. Əli ibn Səhl; 4. Əhməd ibn Məhəmməd Məsruq; 4. Hüseyn ibn Əli Corcani; 5. Məhəmməd ibn İsmayıl; 6. Əbu Əbdullah Səcezi; 7. Əhməd Coreyri; 8. Rəbiə əl-Ədəviyə; 9. İbrahim Həvvas; 10. Abdulla ibn Məhəmməd əl-Xərraz; 11. Məhfuz ibn Məhəmməd(Məhmud); 12. Bonan ibn Məhəmməd; 13. Həmzə Bağdadi; 14. Məhəmməd ibn Süleyman; 15. Məhəmməd ibn Musa; 16. Hüseyn ibn Mənsur Həllac; 17. Əbülhüseyn Bəsri; 18. Əbülhəsən Vasiti; 19. Əbu Həmzə Xorasani; 20. Əbu Əli əş-Şəqiq; 21. Əbu Abdullah əz-Zeyqəmi; 22. Şeyx (Əbubəkr) Şibli; 23. Məhəmməd ibn........; 24. Abdullah Rudbari; 25. Əbülhəsən Müzəyyən; 26............; 27. Buəli Danyal; 28. Əbülxeyr Əl-Əqtə; 29.............; 30. Əbu Səid Ərabi, 31. Əbu Məhəmməd Razi; 32. Əli ibn.......; 33. Əbülhəsən Buşənci; 34. Bondar Şirazi; 35..........; 36. Əbül-Qəsəm Nəsrabadi; 37. Məhəmməd ibn Əbdül-Xaliq; 38. İbrahim.......

Kitabın müəllifi Əbubəkr ibn Xosrov əl-Ustadın bu camaatı (sufiləri) xatırlamaqda məqsədi və əsərlərini yad etməkdə niyyəti oxuduqlarından əlavə, peyğəmbərin hədisləri və Mustafanın (Məhəmməd peyğəmbərin) – Allahın ona salam və salavatı olsun! – sözləri içərisində belə bir xəbərə rast gəldiyini oxucuya çatdırmaqdır: «Salehləri yad edərkən İlahinin mərhəməti nazil olur».

Yəni kim böyük bir işdə aciz qalıb onun çarəsini bilmirsə, yaxud kimin dərdi, qəmi, borcu, xəstəliyi və sıxıntısı varsa, əgər haqqında danışılan bu şərəfli camaatı qüdrətli və uca Tanrının dərgahına vasitəçi salsa, şübhəsiz, həmin tayfanın (sufilərin) vasitəçiliyinin bərəkəti sayəsində Allah-təala onu məqsədinə

yetirər, dünyada və axirətdə işlərini düzənləyər, müalicə ilə aradan qalxmayan hər dərdini və əzabını yox edər, bircə ölümdən başqa.

Uca, ulu Tanrı bu tərifəlayiq və möhtərəm böyüklərin əməllərini, bu ləyaqətli, səxavətli, saf niyyətli, pak ürəkli, dərin zəkalı, mərhəmətli, nemət dolu tayfanın həyat tərzini, fəaliyyətini, atdıqları addımları dünya hökmdarının, ədalətli padşahların hüzuruna çatdırsın. Məhəmməd peyğəmbər və onun ailəsi xətrinə. Amin!

# IV FƏSİL

## Bu şəxslərin fəzilətləri, doğulduqları yer və zaman haqqında

**Füzeyl ibn Ayaz**

Füzeyl ibn Ayazın soyu, kökü Mərv bölgəsindəndir, amma o Bavərd şəhərində doğulmuş, Məkkə şəhərində [hicri təqvimi ilə] 187-ci ilin, [miladi təqvimi ilə 805-ci ilin] məhərrəm ayında vəfat etmişdir. O bu tayfanın alim və abidlərindən biri olmuşdur.

O, demişdir ki, axir əz-zəmanda bir qövm mövcud olacaqdır ki, orada hamı üzdə bir-birinə dost, qardaş kimi görünəcəkdir, amma arxada bir-birlərinə düşmən olacaq, bir qismi o birisinə qənim kəsiləcəkdir. Onların içində riyakarlıq, kin-küdurət, nifrət kimi hisslər kök salacaqdır və şübhəsiz, şükürlər olsun ki, biz bu qövm ilə çağdaş olmayacağıq.

Başqa bir yerdə buyurmuşdur ki, bu qəddar, qeyri-sabit dünyada müdrik, içində Allah xofu olan adam üçün bilikdən, elmdən, halal çörəkdən üstün, gözəl bir şey yoxdur.

O demişdir: «O kəs şükürlər etsin ki, cəmiyyətlə ünsiyyətdən uzaqlaşıb, üzünü Allaha tutmuşdur».

**Zunnun Misri**

Zunnun Misrinin künyəsi Əbülfeyz, ləqəbi Zunnundur. O, [hicri təqvimi ilə] 245-ci ildə, (miladi təqvimi ilə 859-cu ildə) vəfat etmişdir. Bilik, bacarıq və əməllərinə görə dövrünün seçilmiş adamlarından olmuşdur.

O, xəlifə Mütəvəkkilin dövründə yaşamışdır. Bir gün Mütəvəkkilin əmri ilə Zunnunu onun hüzuruna gətirmişlər. Mütəvəkkil ondan öyüd-nəsihət istəmişdir. Zunnun Mütəvəkkildən soruşmuşdur:

- Atan, anan haradadır?

Mütəvəkkil cavab vermişdir:

- Onlar rəhmətə getmişlər.

Zunnun soruşmuşdur:

- Bəs oğlun, qızın haradadır?

Mütəvəkkil onların da rəhmətə getdiklərini söyləmişdir.

Zunnun demişdir:

- Ey qafil! Səni dünyaya gətirənlər də rəhmətə getmiş, dünyaya gətirdiklərin də...

Sən bundan bir nəticə çıxarmamısan. Məndən eşitmək istədiyin nədir? Daha sənə nə öyüd? Sənə öyüd verən ölümdür.

Mütəvəkkil yenə soruşmuşdur:

- Alçaq olan kimdir?

Zunnun cavab vermişdir:

- Allah yolunu qəbul etməyən, haqq yolunu getməyən alçaqdır.

Günlərin bir günü Zunnunun olduğu məclislərdən birinə bir qərib gəlir və soruşur:

- Ey müsəlmanların imamı! Necə oldu, sən o qüdrətli Tanrını tanıdın? Necə oldu tövbə etdin? Buna səbəb nə oldu?

Zunnun cavab vermişdir:

- Günlərin bir günü bir kəndə gedirdim. Yolda istirahət etmək üçün bir ağacın altında əyləşdim. Ağacın başında quş yuvası var idi. Birdən yuvadan bir cücə yerə düşdü. Cücə yerə düşən kimi yer aralandı və oradan iki kasa çıxdı. Kasanın birində su, o birisində küncüd toxumu var idi. Cücə kasaları görən kimi yaxınlaşıb bir kasadan dən yeməyə, o birindən su içməyə başladı.

Bu hadisə mənə çox təsir etdi, məni çox düşündürdü. Düşündüm ki, deməli, bu çöl-biyabanda belə zəif bir quşcuğaz da ac-susuz qalmır. Həqiqətən, ruzini verənin qapısı heç vaxt heç bir məxluqun üzünə bağlı olmur. Belə olan halda mən nəyə görə avara-sərgərdan olub, özümü əziyyətə salıb yormalıyam?

Elə bu fikirlərlə, belə düşünərək tövbə edib yolumu dəyişdim və ulu Tanrının dərgahına sığındım.

**Əbu Nəsr Bişr ibn əl-Haris əl-Xafi**

Deyirlər ki, onun əsli Mərv bölgəsindəndir, amma özü Bağdadda yaşamışdır. O, Füzeyl bin Ayazın müasiri, həm də həmfikri olmuşdur. O, alim, zahid və abid idi. O, [hicri təqvimi ilə] 227-ci ilin məhərrəm ayında, [miladi təqvimi ilə 841-ci ildə] vəfat etmişdir. Onun tövbə etməsinin səbəbi bu olmuşdur:

Günlərin bir günü əl-Haris üzərində Ulu Tanrının adı yazılmış bir kağız parçasının yerə düşdüyünü görür. Əyilir və onu yerdən götürür. Onu aparır, üzərinə bir az ətir səpir və bir divar çatının arasında gizlədir. Həmin gecə onun qulağına qeybdən bir səs gəlir. Səs deyir: «Ey Bişr! Sən bizim adımızı uca tutdun, üzərinə ətir səpdin. Bizim də sənə müjdəmiz var. Bil və agah ol! Biz də sənin adını bu dünyada da, axirətdə də daima uca tutacağıq. Sən nə əkmisənsə, onu da biçəcəksən».

Onun fəzilətlərindən biri haqqında Yəhya ibn Əksəm demişdir: Mən Məmundan eşitdim ki, deyirdi:

Mən bu şəhərdə Bişr ibn əl-Harisdən başqa kimsəyə rəqabət bəsləmirəm. Mən onu çox sevirəm, mən onu daima ziyarət etmək istəyirəm və bu axşam da onu görmək istəyərdim. İstəyirəm ki, bu axşam məni onun qulluğuna aparasan.

Dedim:

- Buyruq sahibisən, ya Əmirəlmöminin!

Gözlədiyimiz vaxt gəlib çatdı. Məmunun evinə getdim, onunla birgə yola düşdük. Mən onun atının üzəngisini tutan birisi kimi gedirdim. Bişrin qapısına çatan kimi gedib qapısını döydüm. Bişr içəridən səsləndi:

- Kimdir?

Cavab verdim:

- Sənin ona itaət etməyinin vacib olduğu şəxsdir, yer üzünün xəlifəsidir.

Bişr içəridən səsləndi:

- Qapını rəğbətlə açım, ikrahla?

Bu sözlərdəki ikrahı hiss edən Məmun o saat üzünü mənə tutub dedi:

- Gəl qayıdaq! Biz bura ona görə gəlməmişdik ki, bu şeyx bizə həqarət etsin, biz də inciyək...

Beləliklə, Əl-Haris Məmunun üzünə qapını açmamışdır.....

Bu hadisənin hikməti budur: «Sultanlarla otur-dur, amma ordusunu da heç vaxt unutma» »…

**Haris ibn əl-Əsəd əl-Mühasibi**

O öz dövrünün nadir şəxsiyyətlərindən olmuşdur. Şəriət, üsul və başqa elmləri dərindən, mükəmməl bilən bir alim idi. Zöhd və təqvasına görə də kamil bir şəxsiyyət idi. O, Bəsrədə dünyaya gəlmişdir, sonra Bağdada köçmüş və orada [hicri təqvimi ilə] 243-cü ildə [miladi təqvimi ilə 857-ci ildə ] haqq dünyasına qovuşmuşdur.

Deyilənlərə görə, atasından ona səksən min dirhəm miras qalmışdır, amma atası Qədəriyyə firqəsinə mənsub olduğu üçün ondan qalmış mirası qəbul etməmişdir. O bu əməlini belə izah etmişdir: «Peyğəmbərin buyruğuna görə fərqli firqələrə mənsub olan adamlar bir-birindən miras ala bilməzlər».

Haris demişdir: «Allah-təalaya ixlası ilə batinini bəzəyən şəxsin zahirini Allah öz inayəti ilə bəzəyər».

Cüneyd Haris haqqında belə bir əhvalat danışmışdır: «Günlərin bir günü Harislə rastlaşdım və hiss etdim ki, o, acdır. Onu evə dəvət etdim və əmimin gəlininin mənə göndərdiyi yeməyi süfrəyə qoydum. O, yeməkdən bir tikə götürüb ağzına qoydu, tikəni bir qədər ağzında dolandırıb çıxarıb atdı və dərhal ayağa qalxıb getmək istədiyini bildirdi. Mən ona mane ola bilmədim.

Bir neçə gündən sonra yenə onunla rastlaşdım və ogünkü halın səbəbini soruşdum. Dedi ki, onda çox ac idi, həm də inciməyim deyə sözümdən çıxmamışdır, mənimlə getmiş və yeməkdən bir tikə ağzına qoymuşdur, amma elə qoyan kimi ağzına şübhə qoxusu dolmuşdur.... Dedi ki, Allaha söz vermişdir ki, heç vaxt şübhəli tikə yeməyəcəkdir. Sonra məndən o yeməyin mənbəyini soruşdu, mən də cavab verdim.

Bir gün yenə onu evə dəvət etdim. Bir yerdə evə getdik. Neçə gündən bəri yığılıb-qalmış çörək qırıntılarını gətirib süfrəyə qoy-

dum. O, böyük həvəs və iştaha ilə onlardan yedi və mənə bol-bol dualar etdi. Sonra dedi: «Bir dərvişi qonaq etdikdə elə edin ki, sizə savab, ona isə zövq gətirsin». Bu əhvalat mənə dərs oldu».

Ondan soruşmuşlar:

- Öz nəfsinə sahib çıxan tayfa hansıdır?

Demişdir:

- Uca Tanrının verdiyi nemətlərdən razılıq edən tayfa. Allahın bəxş etdiyi nemətlərin qarşısında şükür etməyən şəxslərdən tez bir zamanda nemətlər də üz çevirər.

**Əbu Məhfuz Məruf ibn Firuz Kərxi Bağdadi**

Onun atasının adı Firuz, öz adı Məruf, künyəsi Əbu Məhfuz olmuşdur. Çox əliaçıq, zahid, müstəcabü-d-dəvə (duaları tez qəbul olunan) birisi idi. O, Səri Səqətinin ustadı, Davud Tayinin müasiri və müsahibi olmuşdur. O, Bağdadda vəfat etmiş və orada dəfn olunmuşdur.

Əbu Məhfuzun ata-anası da, özü də əvvəl xristian olmuşlar. Sonra o, imam Rzanın vasitəsi ilə İslamı qəbul etmiş və onun xeyir-duasını almışdır.

Hələ uşaqkən valideynləri Əbu Məhfuzu dərs almaq üçün bir keşişin yanına qoyurlar. Keşiş hər dəfə ondan: «Allah üçdür»,- deməsini tələb edəndə Əbu Məhfuz: «Allah birdir», deyə cavab verərmiş. Keşiş də bundan qəzəblənər, Əbu Məhfuzu cəzalandırarmış. Bir dəfə Əbu Məhfuz keşişin qırmanclarına dözməyib onun yanından qaçmış və illərlə qaçaq düşüb şəhərləri gəzib-dolaşıb evinə qayıtmamışdır. Nəhayət, o, bir gün Əli ibn Musa ər-Rzanın qulluğuna gəlib çıxmış və onun təsiri-təlimi ilə müsəlman olmuşdur.

Valideynləri onun ayrılığına dözə bilmirdilər, günlərini ağlamaqla keçirirdilər, onlar əhd etmişdilər ki, övladları qayıdarsa, onlar da onun etiqad etdiyi dini qəbul edərlər. Neçə il keçdikdən sonra Məruf vətənə dönmüşdür. O, qapılarını döyəndə valideynləri qapını kimin döydüyünü soruşmuşlar. O cavab vermişdir:

-Mərufam.

Soruşmuşlar:

-Hansı dinə etiqad edirsən?

Cavab vermişdir:

-İslam dininə!

Beləliklə, Mərufun valideynləri də İslam dinini qəbul edib müsəlman olmuşlar.

Məruf demişdir: «Ulu Tanrı öz bəndəsinə qarşı xeyirxahdır, o öz bəndəsini ucaltmaq, yüksəltmək istəyəndə şübhə, küfr qapılarını onun üzünə bağlayır, müsəlmanlıq qapısını açır, alçaltmaq, əskiltmək istəyəndə isə xeyirxahlıq, şəfqət, müsəlmanlıq qapılarını onun üzünə bağlayır, bəd, pis, cılız əməllərin, rəzillik, düşüklük, nankorluq kimi əməllərin qapılarını onun üzünə açır».

Səri Səqəti danışırdı: Yuxuda Mərufu gördüm. O, taxtın altında dayanmışdır. Allah onu göstərərək mələklərdən soruşdu:

- O kimdir?

Mələklər cavab vermişlər:

- Ulu Tanrı, sənin bildiyindirmi?

Tanrı demişdir:

- O, Məruf Kərxidir. O bizim eşq şərabımızdan sərxoş olmuşdur. Sizin hər nə hacətiniz varsa, onun vasitəsi ilə diləsəniz, dərhal qəbul edərəm.

Belə danışırlar ki, bir müsəlmanın bir əzası ağrıyanda onun (Mərufun) adını sağ əlinin barmaqlarının başına yazıb bu sözləri desə idi: «İlahi, barmaqlarımın başında yazdığım adın izzəti üçün (xətrinə) bu ağrını dayandır». Ağrı dərhal dayanarmış.

Süleyman Darani deyirdi: Məruf Kərxidən soruşdum

- Heç bir minnət qoymadan Allaha itaət edənlər bunu necə bacardılar?

Məruf demişdir:

- Könüllərində, qəlblərində dünyəvi olan nə var idisə, kökündən, birdəfəlik silib atdılar, içlərini dünya, dünyəvi hisslərdən təmizlədilər və bu yol onları istəklərinə çatdırdı. Əgər onların ürəklərində dünyəvi istək-arzulardan bircə zərrəcik belə qalsa idi, onların heç bir duası qəbul olmazdı.

Mərufdan onların dünyəvilikdən necə əl çəkdiklərini soruşduqda demişdir:

- Allahı sevmək, Allahla səmimi olmaq lazımdır.

**Səri Səqəti**

Cüneydin dayısı idi. Onun ustadı Davud Məruf Kərxi ilə həmsöhbət olmuşdur, bütün Bağdadın piri hesab olunurdu. [hicri təqvimi ilə] 251-ci ildə, [miladi təqvimi ilə isə 875-ci ildə] vəfat etmişdir.

Sərinin Bağdadın Bəzzaz bazarında dükanı var imiş, günlərin bir günü Məruf Kərxi bir yetim uşağı bu dükana gətirib demişdir:

- Səri, bu uşağı sən geyindirirsən, yoxsa mən geyindirim?

Səri həmin saat canla-başla yetimi geyindirmişdir. Kərxi bu işə çox sevinmiş və demişdir:

- Səri, sən ki məni də, bu yetimi də sevindirdin, Allah da səni sevindirsin, dünyanı sənin qəlbində düşmənə çevirsin ki, həyatını hüzur içində yaşayasan, sənin dünya malında gözün olmasın, dünya malı da səndən uzaq dursun.

Səri deyirmiş ki, dükandan evə qayıdanda hiss etmişdir ki, onun dünya və dünya malından başqa düşməni yox imiş. Buna görə də dünyəvi olan hər bir şeyi tərk etmək istəmişdir. Ulu Tanrı Kərxinin möhtərəm və mübarək ruhu sayəsində onu ləyaqətli bəndələr sırasına ucaltmışdır.

Cüneyd Səridən eşitdiyi bir fikri belə söyləmişdir: «Dini inamın kamilliyini, saflığını qorumaq istəyən kəs özünü məxluqdan uzaqlaşdırıb, Xaliqə yaxın tutmalıdır. Bunun üçün isə təkliyi seçib, tək olmağa üstünlük verməlidir».

Cüneyd deyirdi: «Həyatım boyu Səridən başqa böyük, kamil, ali bir abid görmədim. Səksən il, yəni ömrünün sonunadək-ölənədək mömin olaraq qaldı».

Səri deyirdi: «Dünyada Xaliqin yaratdıqlarından beşi önəmlidir, yerdə qalanları isə xüsusi əhəmiyyətə malik deyildir.

Soruşmuşlar:

- O beş şey hansılardır?

Demişdir:

1. Çörək və bir neçə başqa təam ki, onlar bizi aclıq bəlasından qurtarır,
2. Su. Dəstəmaz alıb, təharət etmək üçündür,
3. Geyim. İnsan bədənini örtmək üçündür,
4. Ev. Yaşamaq üçündür,
5. Elm. Onun vasitəsi ilə hansısa iş icra olunur.

Başqa bir yerdə demişdir:

- Cənnətə aparan çox yaxın bir yol bilirəm.

Soruşmuşlar:

- O hansı yoldur?

Cavab vermişdir:

- Kimsədən bir şey istəmə! Heç bir kəsdən heç bir şey qəbul etmə! Bu yol səni cənnətə aparar.

**İbrahim Ədhəm**

O, Bəlx şəhərindən idi. Şah oğlu şah idi. Deyirlər, günlərin bir günü İbrahim ova çıxır. O, bir dovşan görür, onu ovlamaq istəyir. Dovşanı çox qovur, nəhayət, ona yetişir və onu vurmaq istəyir. Birdən onun qulağına bir səs gəlir: «Ey Ədhəmin oğlu, sən bu dünyaya bizim yaratdığımız, yaşatdığımız, yedirdiyimiz, içirdiyimiz aciz, cılız bir canlının canını almaq üçünmü gəlmisən?» İbrahim Ədhəm bu səsi eşidən kimi huşunu itirir və atın belindən yıxılır. Bir qədər sonra ayılır. Özünə gəldikdən sonra atasının çobanlarından birini çağırıb, əynindəki paltarları, yanındakı silahları çıxarıb ona verir, özü isə çölə üz tutur... Çox gedir, az dayanır, az gedir, çox dayanır, nəhayət, Məkkə şəhərinə çatır. Orada Süfyan Sövri ilə görüşür. Bir müddət onun yanında qalıb, ondan elm öyrənir və daha sonra Şama yola düşür. Şama gəlir və ömrünün sonunadək orada yaşayır. O, Şamda Füzeyl Ayazla müsahib olur. Orada əkmək-becərmək, bağçılıq işləri ilə məşğul olur.

Ədhəm həmişə çox gözəl, təmiz geyinərdi, çox səxavətli, əliaçıq, dindar, zahid birisi idi. O, gecə-gündüz Allaha dua edərdi:

«İlahi, məni günahların zülmətindən hifz et, yaxşılığa, dürüstlüyə, itaətə doğru hidayət et».

Səhl ibn İbrahim onun haqqında belə bir hadisə danışmışdır: «Mən bir müddət İbrahim Ədhəmlə həmsöhbət oldum. O arada bir müddət xəstə oldum. O mənim müalicəm üçün heç bir şey əsirgəmədi, əlindən gələni etdi, sağalmağım üçün hər nə qədər pulu, malı var idi, xərclədi. Axırda bir uzunqulağı qalmışdı, onu da mənim müalicəm üçün satdı. Mən müalicə alıb, bir az güc toplayanda ondan uzunqulağı soruşdum. Dedi:

- Uzunqulağı satmışam.

Dedim:

- Axı mən hələ tam sağalmamışam, hələ yol getməyə taqətim-gücüm yoxdur, yola nə ilə çıxacağıq?

Dedi:

- Vaxtı gələndə onun da çarəsini taparıq. Məlumdur ki, sən piyada gedə bilməzsən.

Elə ki mən getmək qərarını verdim, o məni düz üç mənzillik yolu çiynində apardı. Mənə bir daha onun nə qədər alicənab, comərd birisi olduğu aydın oldu».

**Şəqiq ibn İbrahim**

O, Xorasan pirlərindəndir. Hatəm Əsəmin müəllimi olmuş, İbrahim Ədhəmin vəzlərini dinləmiş, ondan təlim almışdır və onun mənsub olduğu təriqəti qəbul etmişdir.

Onun tövbə etməsinin səbəbi bu olmuşdur: Şəqiqin atası çox adlı-sanlı tacir idi. Bir dəfə o, Şəqiqi ticarət üçün Türküstana göndərmişdir. Şəqiq Türküstanda tamaşa etmək məqsədi ilə bütxanaya getmişdir. Burada üzü, başı təmiz qırxılmış, qırmızı paltar geymiş rahibin büt qarşısında ibadət etdiyini görüb təəccüb etmiş və ondan soruşmuşdur:

- Bu nə haldır?

Rahib cavab vermişdir:

- Mən özümü bu hala ona görə salmışam ki, məbuduma lazımınca, dürüst qulluq edə bilim.

Saç-saqqalı hər zaman yuyub-daramaq lazımdır, bu isə vaxt darlığı əmələ gətirir və ibadətə mane olur. Ona görə düşündüm ki, məbuduma doğru-dürüst qulluq etməyimə mane olan hər bir şeydən azad olmalıyam. Bunlardan azad oldum ki, Tanrıma yaxınlaşa bilim.

Onun bu cavabı Şəqiqin beyninə ox kimi batmışdır. Ona demişdir:

- Axı, sənin bütün məbud olmağa layiq deyildir.

Rahib soruşmuşdur:

- Bəs məbud olmağa layiq olan kimdir?

Şəqiq cavab vermişdir:

- Sənin və mənim Rəbbimiz, yerin və göyün Xaliqi - Ulu Tanrıdır. Bu daşların heç bir mənası yoxdur. Sən bu daşdan əl çək, sənə ruzi verən Tanrıya üz tut!

Rahib demişdir:

- Əgər sən ruzi verən, qadir bir Allaha bu qədər əminsən, nəyə görə elini, yurdunu tərk edib, ruzi dalınca buralara gəlmisən?

Şəqiq bu sözləri eşidən kimi qışqırıb huşunu itirmişdir. Ayıldıqdan sonra ticarətdə qazandığı mal-dövləti atasına göndərib, tövbə etmiş, dünyadan əl üzüb, başqa bir dünyaya üz tutmuşdur. O, dünyanın naz-nemətlərindən əl çəkib günlərini ibadətdə keçirməyə başlamışdır.

Buna görə də adı övliyalarla eyni sırada çəkilməyə layiq bilinmişdir.

Şəqiqin tövbə edib zahid olmasının səbəbi haqqında bir başqa rəvayət də vardır.

Deyirlər: «Bəlxdə çox ağır, çətin qıtlıq və aclıq olubmuş, xalq həmin vaxtlar çox əziyyət, zülm, səfalət çəkibmiş. Camaat çox ziyana düşmüş, gün-güzəran ağırlaşmışdır. Bu ağır zamanda Şəqiq özü üçün deyib-gülən, əylənən maymaq bir qulla rastlaşmış və onu yersiz əyləndiyi üçün qınamışdır. Qul onun qınağına məhəl qoymayaraq demişdir:

- Mən iki arpaya qulluq edirəm, zəngin bir ağam vardır, mənim üçün narahat olub, dərdimi də o çəkməlidir. Ona görə də mənə qəm yoxdur.

Qulun bu sözləri Şəqiqə çox təsir etmiş və ürəyində iz qoymuşdur. Fikirləşmişdir ki, özünü bir məxluqun qulu hesab edən bu qul aclıqdan, sıxıntıdan qorxmayıb, zəngin ağasına güvənib, özünü rahat hiss edirsə, bu qulun ondan, sahibinin onun Sahibindən güclü olmadığı halda, o niyə ruzi dərdi çəkməlidir?

Demişdir: «Çünki bir Rəzzaq (ruzi verən) vardır ki, mənim və hamının ruzisini verir…»

Burada o bir ah çəkmiş və tövbə etmişdir. Bundan sonra o, dünyəvi sevgi, nemətlərdən əl çəkib bir başqa dünyaya könül vermişdir.

Hatəm Əsəm deyirdi: «Hər dəfə Şəqiq məni görəndə deyirdi: «Ey Hatəm, bu saat, indi ölüm günü üçün tədarük gör. İndi bu işi görə bilərsən. Bu işi görməyə indi həm vaxtın, həm də möhlətin vardır. Sonra gec olar. Çünki əcəl yaxandan yapışanda nə vaxtın olacaqdır, nə möhlətin, nə də fürsətin».

Bir başqa yerdə Şəqiq demişdir: «Öz rahatlığını təmin etmək istəyirsənsə, qismətinə düşən ruzini, bərəkəti onu qazandığın andan qənaət etməyə başla!»

Daha sonra demişdir: «Ulu Tanrı günah işlətmiş kəsləri sağlıqlarında da ölü hesab edir, itaət edənləri isə öldükdən sonra da diri hesab edir. Ömrün, həyatın məqsədi itaətdir, itaət etməyənlər isə ölüdürlər. İtaət edənlər ölümlərindən sonra da savablarını qazanacaqlar. Əgər onlardan ya bir elmi əsər, ya başqalarının istifadə edib, yararlana biləcəkləri bir şey qalmışdırsa, və yaxud onlar xeyriyyəçiliklə məşğul olmuşlarsa, dünyalarını dəyişdikdən sonra da onların əməl dəftərlərinə savab yazılacaqdır. Məhz bu cür itaət edənlər öləndə də ölmüş hesab olunmurlar. Belə qəbul olunur ki, onlar həyatdadırlar və hələ də ibadətlə məşğuldurlar. Günahkarlar isə hələ sağlıqlarında təmiz ada yiyələnə bilmədikləri üçün diri ikən ölü hesab olunurlar. İtaət edənlərin adları yaxşı, dürüst əməllərinə, işlərinə görə öləndən sonra da hörmət-izzət ilə çəkilir».

### Əbu Əbdürrəhman Hatəm ibn Ünvan Əsəm

Onun adı Əbu Əbdür-Rəhman Hatəm ibn Əsəm idi, amma onu Əl-Əsəm kimi tanıyırdılar. O, Şəqiq Bəlxinin həmsöhbəti, Əhməd

Xəzrəviyyənin müəllimi olmuşdur. O, Xorasan vilayətinin görkəmli ağsaqqallarından, şeyxlərindən və böyüklərindən biri hesab olunurdu.

Şeyx Həmid Kəffaf Hatəm Əsəm haqqında onun özündən eşitdiklərini belə nəql etmişdir: «Hatəm Əsəm danışırdı: «Hər səhər mən yuxudan oyananda şeytan məndən soruşur:

- Bu gün nə yeyəcəksən, nə geyinəcəksən və harada yatacaqsan?

Mən də ona cavab verirəm:

- Ölüm yeyəcəyəm, kəfən geyəcəyəm və torpaqda yatacağam».

Hamid Kəffaf ondan soruşmuşdur:

- Ey Hatəm, istəyin nədir?

Cavab vermişdir:

- Gözəl günlər!

Soruşmuşdur:

- Gözəl günlər, yəni necə günlər?

Demişdir:

- Mənim nəzərimdə axşamacan Allah-təalaya asi düşmədiyim gün gözəl gündür.

Hatəm deyirdi ki, Ulu Tanrının qulluğunda duran hər bir kəsin qulluğunda da dünya duracaqdır.

Bir böyük vəzifə sahibi Hatəmdən ona bir məsləhət verməsini xahiş etmişdir. Hatəm demişdir: «Ulu Tanrıya asi olduğun vaxt Tanrının görmədiyi yerə get».

**Əbu Yezid Teyfur ibn İsa [ibn Adəm ibn] Süruşan əl-Bəstami**

Onun atası əvvəllər atəşpərəst olmuş, sonralar İslamı qəbul etmişdir. Onlar üç qardaş idilər: Adəm, Teyfur, Əli. Bu üç qardaşın hər üçü müsəlman, zahid, gülərüz insanlar idi. Ən böyük qardaşları isə Bəyazid idi.

Ondan soruşmuşlar ki, bu biliyə, bu qabiliyyətə, bu məqama necə çatmışdır.

Cavab vermişdir:

- Ac qarın, çılpaq bədənlə.

Daha sonra əlavə etmişdir:

- Şəhvəti tanıyan kəs özünü tanıya bilməz.
- Özünü tanımayan kəs Allahını da tanıya bilməz.

Günlərin bir günü camaat namaz qılmaq üçün azandan əvvəl onun başına toplaşır. Bəyazidin diqqətini ikinci sırada hamı ilə bərabər namaza durmuş birisi çəkir. Bəyazid onun yanına gedib qulağına nə isə pıçıldayır. O adam namazı tərk edib gedir. Namaz bitəndən sonra namaz qılanlardan biri Bəyazidin onun qulağına nə dediyini soruşur.

O adam cavab verir: «Mən namaz saatında səfərdən yenicə şəhərə qayıtmışdım, çöldə su tapa bilmədim deyə təyəmmüm etdim, nəzərə almadım ki, artıq şəhərdəyəm. Namaz qılmaq üçün camaatla bir yerdə məscidə gəldim. Bəyazid məni görən kimi vəziyyəti anlamışdı. O mənim yanıma gəlib qulağıma pıçıldadı: «Səfər bitmiş, sən artıq həzərdəsən (şəhərdəsən), həzərdə təyəmmümlə namaz qılmaq batildir».

O demişdir: «Mümkün olan yerdə itaət etməyən kəs Allahın təkliyini, şəriətin qanunlarını tanımayana qədər ağlayacaqdır».

Bundan başqa demişdir:

- Arifliyin üç əlaməti vardır:
- Birincisi, Allahı tez-tez yada salmaq. (zikr etmək)
- İkincisi, Allahın haqqını vermək, əmrindən çıxmamaq və bundan sıxılıb – usanmamaq.
- Üçüncüsü, heç bir məxluqun qarşısında əyilməmək, ancaq Allaha pənah gətirmək.

Bəyaziddən soruşmuşlar:

- «Sünnə» nə deməkdir, «Fərz» nə deməkdir?

Belə cavab vermişdir:

- «Sünnə» dünyanı buraxmaq, dünyadan əl çəkməkdir, «Fərz» isə Allahın razılığını gözləməkdir. Kim ki bu «sünnə» ilə «fərz»i anlayıb yerinə yetirə bilirsə, deməli, o, kəlamı da, ilk və son elmləri də öyrənə bilmişdir.

**Əbu Süleyman Davud ibn Nəsr Tayi**

Davud Tayi görkəmli din xadimlərindən, ilahiyyat alimlərindən biri olmuşdur. Saf, saleh, dürüst bir zahid olmuşdur. Deyilənlərə görə, ona atasından iyirmi dinar miras qalmışdır. O, hər il o miras-

dan bir dinar xərcləyirmiş. Bu minvalla o bu mirası iyirmi il qənaətlə xərcləmişdir.

Günlərin birində Əbu Hənifə Kufi ona demişdir:

- Bir alət əldə edə bilmişik. Artıq işləmək vaxtı gəlib çatmışdır, yəni, artıq işləməyin nə demək olduğunu öyrənə bilmişik.

Davud demişdir:

- Qulluğunda hazıram!

Beləliklə, o, ibadətə başlamış və o qədər ibadət edib, elə yüksəlmiş ki, dövrünün görkəmli şəxsiyyətlərindən birinə çevrilmişdir.

Onun tövbə etməsi ilə bağlı başqa bir rəvayət də vardır. Deyirlər: «Günlərin bir günü Tayi Bağdadda öz yolu ilə gedirmiş, birdən görür ki, Həmid Tusi bir böyük piyada və süvari dəstəsi ilə gəlir. Piyadalar yolun üstünə keçərək Davudun yolunun uzaq düşməsinə səbəb olurlar. Davud üzünü Həmidə tutub deyir:

- Özünü o dünyadan uzaq tutma, sən o dünyadan uzaq düşməməlisən, ora yaxın olmağının, orada qərar tutmağının heç bir zərəri yoxdur. Heç olmasa, bir işlə məşğul olarsan!

Bunu deyib yoluna davam etmişdir. O isə (Həmid Tusi) tövbə edib, ibadətlə məşğul olmağa başlamışdır. O öz məqsədinə çatmaq üçün sədaqətlə, fədakarlıqla çalışmış, bütün çətinliklərə, maneələrə sinə gərmiş və özünə bir mənəvi yol açıb, nüfuz, güc qazanmışdır. Bu sınaqlardan çıxıb övliyalar cərgəsinə, abdallar sırasına daxil ola bilmişdir.

Günlərin bir günü din xadimlərindən biri Davud Tayidən bir nəsihət söyləməsini xahiş edir.

Davud deyir:

- Yolun heç qəbiristanlığa düşübmü?

Həmin adam cavab verir:

- Bəli, özü də çox.

Davud onun üzünə diqqətlə baxıb deyir:

- Bunun özü elə sənin üçün bir öyüddür. Sən hər zaman bilməlisən ki, orada ovum-ovum olub sümükləri çürümüş ölüləri başa düşmək, anlamaq hər kəsə kifayət edər. Sən bilməlisən ki, onlar da vaxtı ilə sənin kimi diri olub, həyatda olmuşlar və vaxt gələcəkdir

ki, sən də onlar kimi dəfn olunub, ovulub-çürüyüb, torpağa qarışacaqsan. Bunları bilsən, əmin ol ki, başqa bir öyüdə, nəsihətə, məsləhətə ehtiyacın olmayacaqdır.

Başqa bir gün bir başqası yenə ondan nəsihət istəyir.

Davud deyir: «Həyatın boyu oruc tut! Orucunu ölümünü gözünün önünə gətirərək aç! Aslanlarla, qurdlarla müsahib ol, amma zəmanə adamlarından uzaq dur!»

Günlərin bir günü bir nəfər onun hüzuruna gəlir və görür ki, Davudun saç-saqqalı uzanıb bir-birinə dolaşmışdır. Ona deyir:

- Ey müsəlmanların şeyxi, nə səbəbdən saç-saqqalını daramırsan?

Davud cavab verir:

- Ey qafil, sən düşünürsən ki, saçımı, saqqalımı daramaqla, ibadətə sərf edəcəyim zamanı bu işə sərf etməklə mən ölümdən uzaq düşəcəyəm?!

**Səhl ibn Abdulla əl-Tüstəri**

Səhl öz tayfasının imamlarından olmuşdur. Onun yaşadığı dövrdə bu tayfanın ondan böyük, hörmətli piri yox imiş. Zunnun Misri və dayısı İbn Suvar ilə həmsöhbət olmuşdur. O, üç yaşından etibarən gecələr yuxudan oyanar, dayısı ilə bir yerdə namaz qılar, ibadət edərdi. Dayısı da mülayim tərzdə ona deyərdi: «Sənin hələ namaz qılmaq yaşın deyil, get, yat!» Amma o, sözə baxmazdı.

Altı yaşında bütün günü oruc tutar, yeddi yaşından sonra iftar saatında orucunu bir yumru arpa çörəyi ilə açardı. On iki yaşında hər üç gündən bir orucunu açar, on dirhəmlik arpa çörəyi ilə iftar edərdi, on altı yaşında hər beş gündən bir orucunu açardı, on yeddi yaşından etibarən isə orucunu ayda bir dəfə açmağa başlamışdır və gündəlik yeməyi də on dirhəmlik arpa çörəyi olardı. Onun günləri belə keçərdi. Bu minvalla illər gəlib keçərdi. Elə olurdu ki, il ötüb keçirdi, amma o bir gecə də başını rahat yastığa qoymurdu.

Səhl deyirdi: «Uca Allahın mənə bəxş etdiyinin arzusunda olanlar hər gecə yatmağa hazırlaşanda duadan əvvəl ürəklərində üç dəfə desinlər: «Uca Tanrı mənimlədir. Uca Tanrı özü məni görür.

Uca Tanrı mənim halıma şahiddir». Bu üç kəlməni hər gecə üç dəfə ürəyində deyənlərə Allah-taala bütün uğur, xoşbəxtlik və səadəti dünyada və axirətdə ona əta edər.

Başqa bir yerdə demişdir: «Altı əməli özünə əsas götürən şəxs bu dünyada da, axirətdə də mükafatlandırılır:

- Birincisi, Allahın kitabına riayət etmək.
- İkincisi, Allahın peyğəmbərinə itaət etmək.
- Üçüncüsü, halal tikə yeyib, halal işlərlə məşğul olmaq.
- Dördüncüsü, nə əl ilə, nə dil ilə xalqı incitmək.
- Beşincisi, günah işlərdən çəkinib, tövbəyə gəlmək.
- Altıncısı, Allahın onun qarşısına qoyduğu əmrlərə riayət etmək».

**Əbu Süleyman Darani**

Əbu Süleyman Darani çox dəyanətli, şərafətli birisi olmuşdur. O, Dəməşq vilayətinin Daran kəndində anadan olmuşdur.

Süleyman demişdir:

«Qəlbində «dünya» olanın qəlbindən «axirət» çıxar».

«Kim ki dünya ilə güləşər, şübhəsiz, bir gün məğlub olar».

«Dünya məhv etmək istədiyi kəsi, necə olursa, olsun, məhv edəcəkdir».

«Hər bir gəlinin kəbini var, cənnətin kəbini dünyaya üç dəfə talaq verməkdir».

«Hər bir şeyin bəzəyi vardır. Düzlüyün bəzəyi təqvadır».

«Nəfslə mübarizə bacarığı insan üçün şərəfdir».

«Bütün səhvlərin başında «dünya sevgisi» durur».

«Hər şeyin paxırı olar. Qəlbin paxırı qarın toxluğudur».

**Əhməd Həvari**

Əhməd Həvari də Dəməşq vilayətindən idi. Süleyman Darani ilə müsahib olmuşdur. Darani deyirdi ki, Əhməd Həvari Şamın üçüncü şahıdır. Xoş onun sözlərini başa düşənin halına.

Əhməd demişdir:

«Allah dünya düşkünlərinin qəlbindən iman işığını silir».

«Şəriətin qanun-qaydalarına riayət etməyən kəsin bütün başqa işləri batil hesab olunur».

«Dünya düşkünü olanlar dünyanı elə yuxu içində yaşayacaqlar, axirəti öyrənib-bilən isə daha çox öyrənib, bilik əldə edəcəkdir».

«Ulu Tanrını tanıyanlara, ona itaət edənlərə Tanrı özü xeyir-dua verər».

**Əhməd Xəzrəviyyə**

Əhməd Xəzrəviyyə Xorasanın görkəmli pirlərindən olmuşdur. Şeyx Əbu Turab Nəxşəbi və Məhəmməd ibn Hatəm Əsəmin müsahibi olmuşdur. Bayəzidin də qulluğunda olmuş və onun dünyagörüşündən çox bəhrələnmişdir.

Bayəzid onun haqqında deyirdi: «Əhməd bizim üçün bir müəllimdir».

Bayəzid Nişapur şəhərinə gəlmiş və orada Əbu Həfs Həddadı da ziyarət etmişdir.O, Əbu Həfsə demişdir:

- Böyüklərdən kimi görə bildin?

Əbuhəfs cavab vermişdir:

- Əhməd Xəzrəviyyədən başqa heç kimi.

Əhməd demişdir: «Dünya enişli-yoxuşludur, birisini endirər, başqa birisini qaldırar, amma ibadətin sərhədlərini gizlədər, tapmaq mümkün olmaz».

Bir gün Məhəmməd ibn Hatəm ilə Əhməd Xəzrəviyyə bir nəfərdən yüz min dirhəm borc almaq qərarına gəlirlər.

O adam soruşur:

- Siz zahid adamlarsınız, dünyanın qızılını artırmaq üçünmü borc alırsınız?

Əhməd cavab vermişdir:

- Ey bizi səhv başa düşən qafil! Biz, sadəcə, bir dərvişə geyəcək, yeyəcək şeylər almaq üçün borc götürürük. Bunun mükafatını da ulu Tanrıdan gözləyirik, çünki dünyanın bütün dəyəri ulu Tanrının mərhəməti qarşısında bir sivri ağcaqanad qanadının dəyəri qədər də deyildir.

Məhəmməd ibn Hatəm deyirdi: «Əhməd Xəzrəviyyənin yanına getdim, vəcdə gəlmişdi. Dərvişlərdən biri onu vəcddən ayırmaq üçün bir məsələ haqqında sual verdi. Əhməd gözləri yaşarmış halda cavab vermişdir:

- Mənim əzizim, bütün məsələlərin əzab-əziyyətini özümdən uzaqlaşdırmışam. Bir azdan cavab verərəm. Siz bu məsələni xoş niyyətlə, yoxsa bədxahlıqla araşdırırsınız?... Başım açılan kimi bu məsələni araşdırıb sizin üçün aydınlıq gətirərəm və bununla da özümü də xoşbəxt hiss edərəm».

Deyirlər, Əhmədin boynunda yeddi yüz dirhəm borc var imiş. Bir gün o, borclu olduqlarından bir yerdə yığışmalarını xahiş edir. Əhməd onlara baxıb, üzünü qibləyə tərəf tutaraq dua etməyə başlayır:

- İlahi, indiyədək boynumdakı borclara görə özümü girov qoymuşdum, indi canımı qurtarmaq üçün bu pullarını tələb edənlərə olan borclarımı ödə!

Əhməd elə bunu deyib qurtarmışdı ki, qapı döyülür. Qapını açırlar, bir nəfər buyurur:

- Pullarını tələb edən kəslər kimlərdir?

Həmin adamlar irəli gəlir, onlara olan borclar bütövlüklə ödənilir. Elə ki, Əhməd borclardan xilas olur, bir rahatlıq tapır və ruhunu təslim edib, dünyasını dəyişir.

**Əbu Həfs ibn Səlləmə**

Əbu Həfs ibn Səlləmə Nişapur şəhərinin Kerdabad kəndindən idi. Abdulla Mehdi Bavərdinin müsahibi olmuşdur. O, dövrünün yeganə piri idi. Xalq onun nəfəsində, ruhunda bir uğurun olduğuna inanırdı.

O deyirmiş: «Qızdırma ölümün ilk əlamətidirsə, günah da küfrün ilk əlamətidir. Dünyada heç vaxt kimsənin dərvişliyinə, alçalmasına acımıram. Kiminsə hörmətinə, şəninə həsəd aparmıram! Çünki dərvişlik xalqın gözündə dəyərsiz bir haldırsa, əskiklikdirsə, həzrəti-Haqqın (Allahın) yanında yüksək rütbəyə və hörmətə malikdir».

O, bir il boyu Bağdada gedib-gəlirmiş, bir dəfə elə gəldiyi gün şəhərin bütün pirləri toplaşıb onun ziyarətinə gəlirlər və Ondan mərdliyin, igidliyin, comərdliyin nə olduğunu soruşurlar.

Onların cavabında buyurmuşdur:

- Mən sizin qonağınızam. Sizin sözlərinizdən, sizin fikirlərinizdən bəhrələnmək üçün sizi dinləmək istəyərdim. Ona görə də birinci siz sözünüzü deyin, mən də sizdən faydalanım!

Birinci sözü Cüneyd demişdir:

- Comərdlik davadan, savaşdan əl çəkib, xalq üçün çalışmaqdır.

Əbu Həfs demişdir:

- Gözəl fikirdir! Ancaq mənim fikrimcə, comərdlik hamıya əl tutub, hamıya hər yardımı edib, onun müqabilində özü üçün heç bir şey ummamaqdır.

Cüneyd pirlərə demişdir:

- Ayağa qalxın! Razı olun ki, Əbu Həfs həm Adəmə, həm də Adəm övladına üstün gəldi. Onun sözünə şübhə yoxdur.

Ertəsi gün ondan «kərəm»in nə olduğunu soruşanda demişdir:

- Kərəm dünyanı ehtiyacı olanlara vermişdir. Kərəm uca tanrıya müraciət etmək deməkdir.

Bir başqa gün dərvişin hansı xüsusiyyətlərə malik olduğunu soruşmuşlar. Demişdir:

- Dərviş pirlərə hörmət etmək, yaxşı insanlarla yaxınlıq etmək, böyüklərin öyüd-nəsihətini dinləmək, xalqla dost münasibəti qurmaq, səbirli olmaq, axirətini düşünmək, axirət üçün qənaət etmək, sabahın fikrini çəkməmək, zalımlarla yaxınlıq etməmək, onlarla ünsiyyətə girməmək, din yolunda əlindən gələni əsirgəməmək kimi xüsusiyyətlərə malik olmalıdır.

Daha sonra ondan müdrik insan barəsində soruşmuşlar. Demişdir: «Özündə sədaqəti, dürüstlüyü, doğruluğu tərbiyə edib, nəfsinə ağalıq etməyi bacaran, bu xüsusiyyətləri qiymətləndirməyi bacarıb, onlara riayət etməklə yaşayan insan müdrik insandır».

Soruşmuşlar:

- İnsan kimdir? Kimi insan adlandırmaq olar?

Cavab vermişdir:

- Allahın buyruğuna əməl edən adam.

Bundan sonra Bağdad şeyxləri ona təşəkkürlərini bildirib, onun söylədiklərini özləri üçün qeyd edib iştirakçısı olduqları söhbətlər, fikirlər ətrafında müzakirələrə başlamışlar.

**Əbu Osman Hiri**

Əbu Osman Hiri Nişapur şəhərində yaşamışdır, amma əsli Rey şəhərindən idi. Yəhya ibn Məaz Razi ilə çox müzakirələri və fikir mübahisələri olmuş, Şah Şuca Kirmani ilə də müsahib olmuşdur. Nişapura getməsinin səbəbi də Yəhya ibn Məaz Razinin yanında təhsil almaq istəyi olmuşdur. Lakin Əbuhəfs ilə müsahibliyi nəticəsində onun yoluna maraq göstərmiş və həmin təlimi mənimsəmişdir. Əbu Osman zəmanəsinin seçilmiş şəxsiyyətlərindən biri kimi tanınmışdır. Ona görə də qaynaqlarda onun dövründə ondan daha qabaqcıl, daha elmli, zahid bir adamın adına rast gəlmək olmur. Deyirlər ki, onun dövründə üç görkəmli şəxsiyyət olmuş, dördüncüsü əsla olmamışdır.

Birincisi – Əbu Osman Hiri Nişapuri

İkincisi – Cüneyd Bağdadi

Üçüncüsü – Əbu Abdulla [………..]

Əbu Osman deyirdi ki, onun əsas düşməni xalq arasında olan üç cılız xüsusiyyətdir:

1. Xalqın malına göz dikmək.
2. Başqalarının şərəf, ləyaqətinin olmasına həsəd aparmaq.
3. Heç bir mənəvi haqqı olmadan başqalarından tərif, alqış, mədh ummaq.

Başqa bir yerdə demişdir: «Bu dünyada da, axirətdə də insanın xilası dörd şeydədir:

1. Təvazökarlıqda.
2. Həyatından ehtiyaclarını silərək, heç kəsdən heç bir şey ummamaqda.
3. Bütün işlərdə İlahi xofu hər şeydən üstün tutmaqda.
4. Xalqdan ümidini kəsib, Tanrıya sığınmaqda».

«Ulu Tanrıya sığınan kəs həyatı boyu bütün niyyətlərinə yetişər. O kəs bütün niyyətlərinə yetişib, uğurlar qazanır ki, onun

Tanrıdan başqa ümid yeri, qorxusu yoxdur və o, Tanrıdan başqa bir kimsəyə sığınmır».

«İmanlı, müdrik adam yıxılmazdan əvvəl öz Tanrısından qorxar. Bir də ki ağıllı adam təriqət pirlərinin, şəriət alimlərinin sözlərini dinləməlidir. Yaramazlarla ünsiyyət qurmamalıdır. Şəriətin qayda-qanunlarına riayət etməlidir. Qardaşlarına hörmətlə yanaşmalıdır. Bu şərtlərə əməl etməyi bacaran, o zirvəyə yüksəlməyə qadir olan kəs hər cür təhlükədən uzaq olar».

**Həmdun Qəssar**

Həmdun Qəssar da Nişapur şəhərindən idi. O, Nəxşəbinin vəzlərinin dinləyicisi olmuşdur. Bundan başqa, o digər şeyxlərin də söhbətlərini dinləmiş və bütün dərinliyini dərk etmişdir. O, əvvəl şeyx sonra isə fəqih olmuşdur. Ümumiyyətlə, öz dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuşdur. O, təriqətdə yüksək rütbəyə yüksəlmiş, şəriətdə isə elmi səviyyəsinin yuxarı olmasına görə dövrünün say-seçmə, barmaqla göstərilən alimlərindən biri kimi ad qazanmışdır. O, Süfyan Sövrinin yolunu seçmişdir. Məlaməti cərəyanının da hər bir məqamını dərk etmiş, öyrənmişdir. Həmdun deyirdi:

«İslamın adını uca tutan, onun ləyaqətindən danışan insan müsəlmandır. O kəs xalq içində hörmət qazanar və bir müsəlman kimi dünyasını dəyişər».

«Birisi özünü göstərmək, şan-şöhrət qazanmaq, var-dövlətə yiyələnmək üçün danışıb, çıxışlar edirsə, dünyada gözdən düşər, axirətdə qınanılar».

«Özünü firondan da üstün tutan adam, məncə, ən təkəbbürlü adamdır».

«Allahın əmrinə görə, din qardaşını sərxoş halda, sağdan sola, soldan sağa dəyə-dəyə gedən görsən, ondan uzaq durmamalısan, onu qorumalı və bu halını üzünə vurmamalısan, arxasınca danışmamalısan, çünki bir gün gələr, sən də o vəziyyətə düşə bilərsən. Siz ona bənzəməyin!»

«Dünyaya yalvaranlar axirətdə xor görünərlər».

«Dünyanı axirətə görə istəyənlər axirət payından da qalarlar».

Bir böyük vəzifəli adam ondan nəsihət istəyir.

O deyir:

- Dünyada iki şeyə riayət etməlisən;

- Birincisi, müdrik adamlarla söhbət edəndə onların etdiklərinə göz qoyub, danışdıqlarına qulaq verib, onlardan öyrənməlisən.

- İkincisi, cahillərdən çəkinib, uzaq durmalısan.

**Mənsur Əmmar**

Mənsur Əmmar Xorasan vilayətindən idi. Bəsrə şəhərini özünə vətən bilirdi. Dövrünün böyük din xadimlərindən olmuşdur. Hədis təbliğatçısı, mükəmməl vaiz idi. Onun dediyinə görə, dünyada insana xas olan xüsusiyyətlərdən heç biri təvazökarlıqdan üstün, mülayimlikdən xoş ola bilməz. Arif üçün heç bir xüsusiyyət paklıqdan üstün ola bilməz. O demişdir:

«Dilini qorusan, canını çox bəladan qurtararsan».

«Dünyanın əzab-əziyyətinə, fəlakətinə görə ağlayıb-sızlayanın iniltisinin nəticəsi onun dininə qayıdacaqdır».

«İnsanları çox xatırlamaq Ulu Tanrını xatırlamaqdan qoyar».

«Nəfsinin sağlamlığını düşünən adam nəfsinin qulu olmamalı, nəfsi istəklərini tərk etməlidir, çünki sağlam nəfslə arzu-istək bir-birlərinə ziddir. Arzulara, istəklərə təslim olmaq axmaqlığın nəticəsidir».

**Yəhya ibn Məaz Razi**

Yəhya ibn Məaz Razi ölüm tarixi [ hicri təqvim ilə] 258-ci [miladi təqvim ilə 872-ci] ilə təsadüf etmişdir. O, böyük vaiz və çox gözəl natiq olmuşdur. O deyirdi:

«Gizlində səbr etmək, Allah sevgisinin səmimilik, sədaqət rəmzidir».

«Allahdan qorxandan məxluq da qorxar».

«Kim dünyaya bəsirət gözü ilə baxa bilərsə, Allaha and olsun, bütün dünya və bu dünyadakıların hamısını bir yerə toplasan, onun bir saatlıq qəmini ifadə edə bilməzlər».

«Elə adam var ki, onun bu dünyada qisməti ancaq kədərdir. Onun axirətdə də nəsibi dərd-bəladan başqa bir şey olmayacaqdır».

«Çoxları öz axmaqlıqları ucbatından daima əzab-əziyyət çəkir. Onların kimsəyə bir yaxşılığı keçmir. Ona görə də heç kəsin boynunda haqları olmur. Buna baxmayaraq, heç bir səlahiyyətləri olmadan əllərinə fürsət düşən kimi hər yerdə, hər kəsə böyüklük etmək iddiasında olurlar. Məclislərdə, yığıncaqlarda, toplantılarda yuxarı başda oturmaq arzusunda olurlar. Belə insanlara qarşı xalqın ürəyində heç vaxt zərrə qədər də sevgi olmur».

«Özünü dərk edib tanıyan kəs «arif»dir.

**Əhməd ibn Asim əl-Əntaki**

Allah ona rəhmət eləsin. O, Bişr Xafi və Səri Səqəti ilə eyni dövrdə yaşamışdır.

O deyirdi: «İnsanların verdiyi ən sərfəli nemət Allahın yolunda verdikləri nemətdir. Belə olan halda, Allaha şükür edib və onun tələbini yerinə yetirməklə nəfsinə qalib gəlirsən».

Yenə də demişdir: «Təvazökar olmaq istəyən kəs təkəbbür və təşəxxüsdən uzaq olmalı, qəzəbli olduqda isə həlimliyini qoruyub-saxlamalıdır».

O, yenə demişdir: «Ən rəzil xüsusiyyət paxıla itaət etməkdir, ən təqdirəlayiq iş peşmanlıq və qınağı dərk etməkdir».

O demişdir: «Heç bir qənimət nəsihətdən, xeyirxahlıqdan üstün ola bilməz. Ona görə bunları özünə ömürlük peşə et ki, rəhmət qazanasan».

**Abdullah ibn Həbib Sabiq əl-Əntaki**

O, öz dövrünün müdrik və dürüst zahidlərindən biri olmuşdur, Allah ona rəhmət eləsin!

O demişdir:

«Həyatını sağlam yaşamaq istəyən kəs tamah dişini çıxarıb atmalıdır».

«Ömrünü qəm-kədər içərisində keçirmək istəməyən kəs ziyanlı şeylərdən uzaq olmalıdır».

«Ömrünü şad-firavan sürmək istəyən kəs elə şey arzulamalıdır ki, qiyamət günü də ona faydası olsun».

**Əbu Turab Nəxşəbi**

O, dövrünün ən böyük və comərd pirlərindən sayılırdı. Allah ona rəhmət eləsin!

O demişdir:

«Mən insanların üç şeyi sevdiklərinə təəccüblənirəm ki, o da onların əlində deyil, Allahın əlindədir:

- Canlarını sevirlər - bu onlardan deyil, Allahdandır
- Nəfslərini sevirlər - bu da onlardan deyil, Allahdandır
- Mal-dövləti sevirlər - bu da onlardan deyil, Allahdandır».

O yenə demişdir:

- İnsanlar həyatdan Allahın yaratmadığı dörd şeyi istəyərlər:
- Rahatlıq istərlər, tapmazlar
- Əbədi yaşamaq istərlər, tapmazlar
- Qadınlardan vəfa istərlər, tapmazlar
- [Daimi] nemət istərlər, tapmazlar.

Ondan varlılığın nə olduğunu soruşduqda demişdir:

- Mənəmlikdən qurtulmaq
- Kasıblıq nədir? – soruşduqda isə cavab vermişdir:
- Mənəmliyə möhtac olmaqdır.

*Hekayət*

Deyirlər ki, bir dəfə Əbu Turab səfərə çıxır, yolda ürəyinə iki-üç yumurta ilə isti çörək düşür və bu fikirlə yoldan dönüb bir kəndə girir. O fikirləşir ki, burada istədiyini əldə edə biləcəkdir. İş ondadır ki, son vaxtlar həmin kənddə çoxlu oğurluq olurmuş. Kənd camaatı neçə vaxt idi ki, oğruları axtarırmış. Təsadüfən, oğru axtaran kənd əhlinin qarşısına Əbu Turab çıxır. Kənd əhli Əbu Turabı üzdən tanımadığı üçün onu oğru bilib tutur. Ondan tələb edirlər ki, digər yoldaşlarının da yerini desin. Əbu Turab deyir:

- Mən yoldan keçənəm, oğruların kim olduğunu bilmirəm.

Ona, şübhəsiz ki, inanmırlar və cəza olaraq, səksən qırmanc vurdururlar. Bu vaxt camaatın içərisindən biri onu tanıyır və deyir:

- Dayanın. Bu, şeyx Əbu Turabdır.

Camaat gördükləri işə peşman olub, üzrxahlıq edirlər. Hamı onun yaralarına bir əlac etməyə çalışır. Əbu Turabı tanımış adam onu evinə dəvət edir ki, bir tikə yemək versin, həm də yaralarına məlhəm qoyub sarısın. Evində yeməyə başqa bir şey olmadığı üçün, o, Əbu Turabın qarşısına iki-üç soyutma yumurta ilə isti çörək qoyur. Əbu Turab yumurta ilə çörəyi yeyib, deyir: «Səksən qırmanc yeməmiş, nəfsimi qane edə bilməzdim».

**Cüneyd Bağdadi**

O, bir tayfanın başçısı və dövrünün imamı idi. Onun əsli Nəhavənd şəhərindən idi, amma o, Bağdadda anadan olmuşdu. Cüneydin əsli-nəcabəti böyük idi. O, böyük fiqh və din alimi idi. O, Əsədi, Haris Mühasibi və başqa pirlərlə müsahib olmuşdur. Allah ona rəhmət eləsin!

Ondan soruşmuşlar:

- Sufilik məktəbinə necə yiyələndin?

Demişdir:

- Çətinlik çəkmək, mübarizə etmək, dünyadan əl üzmək və arzu-istəklərdən imtina etməklə bu «məktəb»ə yiyələndim.

Arifin xüsusiyyətinin nə olduğunu soruşanda demişdir:

- Odur ki, ürəyin danışır, sən isə susursan.

O demişdir:

- Sufi vaxta mənsubdur, vaxt qiymətlidir, amma hər kəs anlamaz.
- Sufi halı və cazibədarlığı ilə fərqlənir.
- Özünü tanıyıb-dərk edən kəs «arif»dir.

**Əbül-Hüseyn Nuri – Əhməd ibn Məhəmməd**

O, Xorasan əsilli olmasına baxmayaraq, özü Bağdadda doğulmuşdur. O, Səri Səqəti, Məruf Kərxi, Cüneyd Bağdadi, Şibli ilə müsahib olmuşdur. O eyni zamanda böyük alim idi. O hesab edirdi ki, sözün əsl mənasında sufi o kəsdir ki, öz payını həmişə başqaları ilə bölür.

O deyirdi:

- Bizdə elmi ilə fərqlənən alimlər dövrün ən hörmətli şəxsiyyətləridir.

- Həqiqi alim yalnız həqiqət haqqında danışan alimdir.

Əbu Əhməd Mağazabi onun haqqında deyirdi: «Ömrüm boyu Əhməd Nuridən üstün alim, arif tanımadım».

Deyirlər ki, Cüneyd deyirmiş: «Əhməd Nuridən sonra həqiqət barədə bir kəlmə söz deyən pirə rast gəlmədim».

Belə danışırlar ki, bir dəfə Bağdadda Əhməd Nuri gözəl bir qulam görür. O bir də dönüb ona baxmaq istəyəndə qulağına bir səs gəlir: «Ey Əhməd, füsunkarlığımı seyr edirsən?»

Əhməd Nuri həmin an gözlərini yummuş və düz bir il açmamışdır.

**Əhməd ibn Əbul-Həvari**

Əl-Həvari böyük şəxsiyyət olmuşdur. Onun əsli Bağdaddan idi, Dəməşq mahalında yurd salmış və Məkkədə vəfat etmişdir. Zunnun, Əbu Turab və başqa şeyxlərlə müsahib olmuşdur. Atası Yəhya zəmanəsinin hörmətli üləması, zahidi olmuşdur.

Günlərin bir günü Yəhya ata-anasına deyir:

- Sizdən bir xahişim var, məni Allaha bağışlayın.

Onlar deyirlər:

- Bağışladıq.

Bundan sonra Əhməd səfərə çıxır. O, çox gəzib-dolanır, çox işdə özünü sınayır, əli boşa çıxır və bir qaranlıq, yağışlı gecə evlərinə qayıtmaq fikrinə düşür. Evə çatanda yaxınlaşıb qapını döyür.

Qapının o üzündən atası soruşur:

- Kimdir?

Əhməd cavab verir:

- Mənəm, sənin övladın.

Atası deyir:

- Bizim bir övladımız var idi, onu da Allaha bağışladıq. Bizlərdə bağışladığımızı geri almaq adəti yoxdur.

Əhmədin atası bunları deyib qapını övladının üzünə açmamışdır. Onda Əhməd demişdir:

- Xalqın onu qəbul edib-etməməsindən asılı olmayaraq, Tanrısını tanıyan şəxs zahiddir.

- Vacib namazlarını vaxtlı-vaxtında yerinə yetirən şəxs abiddir
- Yaxşılığı da, pisliyi də Allahdan görən şəxs müvəhhiddir.
- Həqiqəti dəyərləndirməyi bacaran, səlahiyyətini aşmayan, səviyyəsini saxlayan şəxs kamildir.

**Əbu Məhəmməd Rüvəym**

O, Bağdadın böyük üləmalarından, qazılarından, pirlərindən biri sayılırdı. O, «Davud İsfahani» fiqh məktəbinə mənsub idi.

Bir gün Əbu Abdullah Xəfif Rüvəymə deyir: «Özünü həqiqət yolunun yolçusu bilirsənsə, əvvəlcə canından keçməli, sonra yola qədəm qoymalısan, əks halda geriyə qayıt, çünki bu yol sənlik deyil».

Ondan soruşurlar:

- Comərdlik nədir?

Cavab verir:

- Comərdlik odur ki, qardaşın bir günah işlədərsə, özündə əmin olasan ki, onun üzrlü səbəbi vardır, bu səhvi onun üzünə vurmayasan, özünü elə aparasan ki, sanki heç bir şey görməmisən. Gərək özünü elə aparasan ki, sonra peşman olub üzr istəməli olmayasan.

Ondan «ixlas» və «səmimiyyət» anlayışları haqqında soruşurlar.

O, cavab verir:

- Səmimiyyət və ixlasın mənası belədir: hər hansı bir işlə razılaşıb, onu qəbul edirsənsə, artıq özünü düşünməməlisən.

Ondan dözüm haqqında soruşanda deyir:

- Dözüm qəza qarşısında sarsılmamaq deməkdir.

Ondan məhəbbət haqqında soruşurlar. O deyir:

- Bütün hallarda dostlara uyğunlaşıb onlarla razılaşmaqdır.

**Yusif Razi**

Yusif bütün Qohistan və Rey ərazisində şeyxlər şeyxi idi. O, Zunnunun müsahibi olmuş, dövrünün say-seçmə, böyük fərzanələrindən hesab olunurdu.

Yusif deyirdi:

- Günah işlədib Allahla görüşmək, bu insanlarla ünsiyyət qurmaqdan daha yaxşıdır.

- Xalqın malına göz dikən adam ən səfil, ən rəzil adamdır.

- Hər iki dünyanın bütün yaxşılıqlarını bir otağa yığıb kilidləsələr, onun açarı təvazökarlıq olacaqdır.

- Hər iki dünyanın bütün pisliklərini bir otağa yığıb kilidləsələr isə açarı təkəbbür olar.

- Adəm ona görə bağışlandı ki, o, Tanrısına tapınaraq özünü təvazökar göstərdi. Lakin İblis özünü təkəbbürlü göstərdiyinə görə bağışlanmadı, lənətləndi.

**Şah Şuca Kirmani**

O, məlikzadə idi. Şərəfli bir ömür sürmüşdür. Böyük şəxsiyyət idi. Osman Hiri və Əbu Turab ilə müsahib olmuşdur. Onun fikrincə, «arif» üç işlə məşğul olmalıdır:

- Birincisi, Allaha inanmalı və onunla ünsiyyətini qoruyub saxlamalıdır.
- İkincisi, Allahın verdiyi hər nemətə görə şükür etməlidir.
- Üçüncüsü, günah işlətməkdən çəkinib tövbə etməlidir.

Başqa bir yerdə demişdir:

- Hikmət və müdrikliyin əlaməti insanı qiymətləndirmək bacarığıdır.
- Fəzilətin nişanəsi günah işlərdən uzaq durmaqdır.
- Günahlardan çəkinməyin yolu şübhəli işlərdən uzaq durmaqdır.
- Şübhəli işlərdən uzaq durmağın yolu isə itaətkarlıq, ancaq Allaha ümid edib, Allahın
əmrinə tabe olmaqdır.

Başqa bir yerdə demişdir:

- İtaətdən daha saf, daha təmiz bir şey yoxdur, amma siz düşünün ki, itaətiniz də natəmizdir və itaətinizi inkar edin!

**Səmnun ibn Həmzə əl-Mühib Əbül-Həsən**

O öz dövrünün say-seçmə şəxsiyyətlərindən biri olmuşdur. O, qəribə kəramətləri ilə fərqlənən bir sufi idi. Səri Səqəti və Bağdadın başqa pirləri ilə müsahib olmuşdur. Maraqlısı odur ki, o özünü «yalançı» adlandırırdı. Bunun səbəbi bir dəfə belə bir fikir söyləməsi olmuşdur:

Mən yalnız Allahın mərifətindən həzz alıram. Allahdan başqa heç nəyə, heç kimə baxmıram.

O deyirdi: «Beləliklə, məni sınamaq lazım deyildir. Allahın çiyinlərimə qoyduğu yükə görə şikayət etmirəm».

Belə deyirlər ki, «Allahdan başqa heç nəyə baxmıram»,- iddiasını irəli sürdüyündən bir neçə gün sonra Səmnunun sidik kisəsi tutulmuş, iş o yerə çatmışdır ki, o, ağrıdan qışqırmağa başlamışdır. Bu əhvalatdan sonra o özünü «yalançı» adlandırmışdır. Səmnun nəql edirdi:

- Beytül-Müqəddəsdə olduğum vaxtlar hava çox soyuq idi. Əynimdə qalın yun paltar olsa da, soyuqdan nəfəsim kəsilirdi. Soyuğa dözə bilmirdim. Həmin şaxtalı, qarlı günlərdən birində üst-başı açıq bir gənc gördüm. Ona dedim:

- Bu soyuqda niyə üst-başını bağlamırsan?

O dedi:

- Tanrısına tapınan adam istini, soyuğu hiss etməz.

**Əmir ibn Osman əl-Məliki**

O, sufi tayfasının imamı və şeyxi sayılırdı. O, dövrünün çox böyük və seçilən alimi olmuşdur. O demişdir: «Bütün günahlardan, istər böyük, istər kiçiklərindən çəkinib, tövbə etmək lazımdır, çünki hər şeyə qadir Allah buyurmuşdur ki, bütün günahkarlar cəzalandırılsın, günahları isə yalnız tövbə ilə yumaq olar».

**Məhəmməd ibn Fəzl**

O, Səmərqənd şəhərində yaşamışdır. Böyük pirlərdən biri olmuşdur.

Osman Hiri onun haqqında belə deyirdi: «Canımda taqətim olsa idi, qardaşım Fəzlin yanına gedib onunla görüşərdim və beləliklə də, onun qulluğunda durub dini xidmətlərindən bəhrələnərək ondan məmnun olduğumu bildirərdim».

Fəzl demişdir: «Müsəlmanlığı dörd şey məhv edir:

- Birincisi, müsəlmanın elmi ilə əməli bir olmursa;
- İkincisi, müsəlman öyrənmək istəyənlərə mane olursa;
- Üçüncüsü, müsəlman bilmədiyi işin qulpundan yapışırsa;
- Dördüncüsü, müsəlman bilmədiyini öyrənmək istəmirsə».

**Əbubəkr Dəqqaq**

O, Cüneydin dostu və şagirdlərindən olmuşdur. Misirin böyüklərindən sayılırdı. Şeyx Əbubəkr Küttabi onun haqqında demişdir: «Əbubəkr Dəqqaqın vəfatından sonra Misirə heç bir dərviş gəlməmişdir».

Dəqqaq nəql edirdi: «Bəni İsrailin içində itmişdim, yolda bir gənc on beş gün boyu mənə içməli su verdi. Həmin suyun təsiri məndə otuz il qaldı. Mən heç bir itaətin, heç bir yeməyin təsirini bu qədər hiss etməmişdim».

**(.........................)***

Bir başqa böyük pir var imiş. O, əvvəlki pirlərin bir çoxunu görübmüş.

O demişdir: «İnsan yalnız ibadətlə özünü xilas edə bilməz». (yəni, təkcə ibadət kifayət etməz)

Başqa bir yerdə demişdir: «Ulu Tanrı bəndəsinin ruzisinə özü zamin durmuşdur. O, bəndələrinə onun himayədarlığına inanıb, ümid bəsləmələrinin vacibliyini bildirmişdir».

Ondan xalqın zəifliyi barəsində soruşanda demişdir: «Xalqın zəifliyi böyükdür, amma iddiası ondan da böyükdür». (yəni, aza qane olmamaq)

Bir dəfə isə belə söyləmişdir: «Aqil insan Tanrısından xəbərsiz bir iş tutmaz, o, mütləq Onun razılığını almağa çalışar, çünki O, dəyişməzdir. Aqil Onun verdiyi ruziyə görə şükür edər.

O özünü Allaha təslim etməklə onun daimi hökmranlığını qəbul etmiş olar».

Bir başqa yerdə söyləmişdir: «Uşaqlara kitab oxumaq, oğru və yol kəsənlərə zindan, qadınlara evdə oturmaq, qocalara məscidə gedib ibadətlə məşğul olmaq məsləhətdir».

**Əbubəkr Vərraq**

O, böyük üləma və haqq tərəfdarlarından olmuşdur. Onun sözlərinə görə camaat üç hissəyə bölünür: «alimlər, dərvişlər, əmirlər».

- Alimlər yolunu azarsa, itaətkarlıq məhv olar.
- Dərvişlər yolunu azarsa, təriqətlər məhv olar.

- Əmirlər yolunu azarsa, ibadət edən qalmaz.

O deyirdi:

- Tamahdan soruşsalar ki, atan kimdir? Cavab verər ki, tərəddüd və şübhədir.

- Soruşsalar ki, sonun nədir? Cavab verər ki, bədbəxtlik və nakamlıq.

- Soruşsalar ki peşən nədir? Deyər ki, alçaqlıq və rəzalət!

Bir başqa yerdə demişdir: «Ulu Tanrının mərifətini açıqlaya bilən kəsin ürəyinə Onun qorxusu da düşər».

Daha sonra demişdir:

- Allaha təslim olmamağın, itaət etməməyin peşmançılığı, rüsvayçılığı, əskikliyi zahidlərin kibirli, təkəbbürlü görkəmlərindən min qat yaxşıdır.

- Həkimlər peyğəmbərin övladlarıdır.

- Peyğəmbərlik özü də hikmətdən ibarətdir.

- Hikmətin ilk əlaməti susmaqdır, söz qısa, amma lazımi qədər olmalıdır.

- Səni malik olmadığın xüsusiyyətə görə tərifləyən kəslə müsahiblik etməyin məsləhət deyildir.

- Möminə dörd xüsusiyyət xasdır;

- Birincisi, o, mütəmadi Allahın adını zikr edir.

- İkincisi, o, təklikdə ancaq axirətini düşünür.

- Üçüncüsü, o, Allahın yaratdıqlarını, dünyanın möcüzələrini görər və ibrət dərsi götürər.

- Dördüncüsü, xeyirxah, savab işlər görməyə tələsər».

**Əbu Səid Xərraz**

O, Bağdaddan idi, oranın tanınmış pirlərindən olmuşdur. Zunnun Misri, Səri Səqəti, Bişr Xafi ilə müsahib olmuşdur.

Əbu Səid demişdir: «İnsan nəfsi təmiz, saf, pak, şəffaf su kimidir, çalxalanarsa, bulanar».

Xərraz demişdir: «Özünü tanımayan Tanrısını da tanımaz».

Xərraz danışırdı: «Bir dəfə yuxuda gördüm ki, şeytan harasa sürətlə gedir, mənimlə onun arasında çox balaca bir məsafə var idi. Mən ona bir az yavaş getməyi təklif etdim. O mənə belə cavab verdi:

- Mən dayana bilmərəm, axı siz mənim nəyimə gərəksiniz? Siz məni insanların başını qatdığım şeylərdən uzaqlaşdırırsınız.

Soruşdum:

- O hansı şeylərdir?

Dedi:

- Dünya.

O bunu deyən kimi əvvəlkindən də sürətli addımlarla məndən uzaqlaşmağa başladı. Bir az aralanmışdı ki, dönüb dedi:

- Sizinlə mənim aramda olan bir fərq məni çox sevindirir.

Dedim:

- O hansı fərqdir?

Dedi:

- Gözəl dünya nemətlərinə düşkünlüyünüz».

Əbu Səid deyirdi: «Sufi üçün gözəl dünya nemətlərinə düşkünlükdən daha yandırıb-yaxıcı od yoxdur».

O deyirdi: «Dost dostundan bixəbər olmamalıdır. Birisi dostu xəstələndikdə, dara düşdükdə, həbs edildikdə dadına çatmırsa, o, əsl dost deyildir, ondan uzaq durmaq lazımdır».

**Əli ibn Səhl İsfahani**

O, abdal və övtad idi. Şibli və Cüneydin müsahibi olmuşdur.

O demişdir:

- Sürəkli itaətkarlıq və vacib fərzlərin yerinə yetirilməsi uğurluluq əlamətidir.

- Allahın buyruqlarına tabe olmaq oyanış deməkdir.

- Allahın buyruqlarına tabe olmamaq isə nadanlığın əlamətidir.

Başqa bir yerdə demişdir:

- İstədiyim zənginliyi elmdə tapdım.

- İstədiyim ləyaqəti, ehtiramı qənaətdə gördüm, dərvişlikdə tapdım.

- İstədiyim rahatlığı xalqdan uzaq durub tərki-dünyalıqda tapdım.

- İstədiyim fitnə-fəsaddan uzaq olmağı sükutda tapdım.

**Əbul Abbas Məsruq**

O, Tus şəhərindən idi, lakin Bağdadda yaşamışdı. Haris Mühasibinin həmsöhbəti olmuşdur.

O belə demişdir:

- Allahlı olan birisinin içində daima Allah xofu olarsa, Allah da onu doğru yola yönəldər.

- Ulu Tanrıdan başqa birisinə könlünü verən kəs Allahın ürəyindən çıxar.

Başqa bir yerdə söyləmişdir: «Mərifət ağacı düşüncə suyu ilə, cəhalət ağacı isə qəflət suyu ilə qidalanar».

**Məhəmməd ibn İsmayıl Məğribi Əbu Abdullah Məğribi**

İsmayıl Məğribi İbrahim ibn Şeybanin müəllimi olmuşdur. Onun çox qəribə bir xasiyyəti var imiş. O, ömrü boyu Adəm peyğəmbərin əlinin dəydiyi yeməklərdən yeməzdi, ancaq bitki yeyərdi. O deyirdi: «Ən fəzilətli iş abadlıq işləri ilə məşğul olmaqdır».

İsmayıl Məğribi belə demişdir: «Dünyanın heç bir faydasını görə bilmədim. Dünyaya xidmət etsən, müqabilində heç bir şey ala bilməyəcəksən. Yox, əgər ondan üz çevirsən, o, üzünü səndən daha sərt bir şəkildə çevirəcəkdir».

**Hüseyin ibn..........**

O, Xorasanın hörmətli piri və böyüklərindən biri, şeyxlər şeyxi olmuşdur.

O deyirdi: - «بخل» (paxıllıq) sözü üç hərfdən ibarətdir:

- birincisi, «ب» –»B» hərfi «بلا» (bəla) sözünün baş hərfidir.

- ikincisi خ» » –«X» hərfi بُرت□» »(sınaq) sözünün baş hərfidir.

- üçüncüsü, «□» – «L» hərfi «لوم» (danlaq) sözünün baş hərfidir.

Beləliklə, «paxıllıq»öz nəfsinin bəlasıdır.

O deyirdi: «tövhid»in kökü üç şeydən ibarətdir:

- Qurtuluş, onun əlaməti günahdan uzaq olmaq və çəkinməkdir.

- Ümid, onun əlaməti xeyirxahlıqdır.

- Dostluq, onun əlaməti mütəmadi Allahı zikr etməkdir.

O deyirdi:
- Qorxu odu alovlandırır.
- Ümid parlaqlıqdır, saflıqdır.
- Dostluq sevgidir, öz-özlüyündə ən parlaq işıq deməkdir.

**Məhəmməd və Əhməd ibn əl-Əbilvərd**

Allah onlara rəhmət eləsin! Onların əsli İraqdan idi. Cüneydin tələbələri olmuşlar.

Məhəmməd deyirdi:

- Dünyanı sevən kəs Allahı sevə bilməz. Göylər ona düşmən olar. Dünyanı buraxın, dünya buraxılmalıdır. Dünyanı əllərində tutub saxlayana, dünyaya güvənənə bel bağlamaq olmaz. Dünyanı xatırlamaq cahillərə xasdır.

Əhməd deyirdi: «Kəramət məclisi övliyaların məclisidir. Bu məclis Allaha yaxın olmaqdır, Allahla ünsiyyət qurmaqdır. Siyasət qorxunc bir hiyləgərlikdir. O bizim düşmənlərimizə xasdır. Düşmənlər isə Allahı unudanlardır».

Məhəmməddən soruşmuşlar:

- Ləyaqətli olan kimdir?

O cavab vermişdir:

- Ləyaqətli kəs övliyaları sevən kəsdir, Allahın xətrinə onlara düşmən kəsilənlərə nifrət edən kəsdir.

**Əhməd Xəzrəviyyə**

O, Əbu Həfsin müsahibi olmuşdur. Xorasanın hörmətli pirlərindən sayılırdı. O,

«Təvəkkül» yolu ilə getmiş, bir çox «seyr və süluk» çöllərinin yükünü çəkmişdir.

Bir dəfə bir nəfər ona yaxınlaşıb demişdir:

- Mən sənə bir dinar vermək istəyirəm.

Əhməd cavab vermişdir:

- Versən, sənin üçün yaxşı olar, verməsən, mənim üçün. İndi ixtiyar sahibi sənsən.

O deyirdi ki, övliyalar üç əlaməti ilə tanınır:

- Birincisi, şövkətləri və təvazökarlıqları ilə seçilirlər.
- İkincisi, imanlı, iradəli olmaqları ilə seçilirlər.
- Üçüncüsü, sevgi ilə insaf və ədaləti gözləməkləri ilə seçilirlər.

Ondan comərdlik haqında soruşanda cavab vermişdir:

- Comərdlik xalqı üzrlü, özünü isə üzrsüz, günahkar bilməkdir.
- Dürüstlə də, nadürüstlə də mərhəmətli olmaq deməkdir.
- Ümumiyyətlə, comərdlik, məxluqata yaxınlaşıb, məşğul olmaq xətrinə Allahdan uzaqlaşmamaq deməkdir.

**Əhməd.......**

Əhməd Cüneydin şagirdlərindən olmuşdur. Sufi tayfasının böyük piri və üləmalarından biri hesab olunurdu.

Əhməd deyirdi ki, din və iman üç şeyi məsləhət bilər:

- Birincisi, Allaha inanıb məxluqa bel bağlamamağı.
- İkincisi, Allahın qadağan etdiyi işlərdən, əməllərdən əl çəkib, uzaq durmağı.
- Üçüncüsü, bədənin müqavimətinin güclənməsi üçün zərərli yeməklərdən imtina etməyin zəruriliyini dərk etməyi.

Qeyd olunan məsləhətlərə əməl edənlərə qəm-kədər üz verməz. Beləsinin könlünün saflığı, təmizliyi təmin olunduğu üçün o, rahat ömür sürər. Onun, həmçinin xalqın yanında hörməti də yüksək olar.

O danışırdı: «Bir dəfə yuxuda gördüm ki, bir nəfər deyir: «Allahın yanında hər bir şeyin öz hüququ vardır və «hikmət» daha böyük hüquqa malikdir. Kimsə «hikmət» müdriklərinə deyil, «hikmət»in özünə haqsızlıq edərsə, Ulu Tanrı onu bağışlamaz».

Başqa bir yerdə demişdir: «Öz nəfsinin quluna çevrilmiş kəs onun əsarətindən qurtula bilməz, öz istəklərinin zindanında sıxılıb qalar. Hikmət isə onun nəfsinə, istəyinə qadağa qoyar, amma heyf ki, o, «hikmət» haqqında bir kəlmə belə dinləyə, anlaya bilməz».

**Əhməd.........**

Əhməd böyük üləma və şanlı-şöhrətli pirlərdən olmuşdur. O, şeyx Əbu Səid Xərrazın şagirdlərindən idi. İstedadına görə Xərraz da ona böyük diqqətlə yanaşırdı. Ona çox hörmət edirdi.

Əhməd deyirdi:

- İki sufidən - Cüneyd və Əbu Səiddən başqa bu dünyada başqa sufi yoxdur.

O deyirdi:

- Kəbə İbrahim məqamındadır, Kəbə daş divarlardan ibarətdir, lakin ulu Tanrının yeri könüllərdədir. İnsan könlü qızıl yatağıdır, bu yatağın qızılı bilik və işıq mənbəyidir.

- Ulu Tanrı ədəb-ərkanlı adamların könlünü bilik nuru ilə doldurur.

- Səndən soruşulan sualların cavabını elm əhlinin yanında axtar, tapa bilməsən hikmətləri öyrən. Yenə tapa bilməsən, tövhid ölçüsü ilə ölçməli olacaqsan. Yoxsa onu qaytarıb şeytanın üzünə çırpmalı olacaqsan.

**İbrahim Xəvas**

İbrahim Xəvas Cüneyd və Nurinin yaxınlarından olmuşdur. O, «Təvəkkül» yolu ilə gedirdi. Öz dövrünün yeganə bilikli üləması hesab olunurdu.

O demişdir: «Alimlik yalnız elm oxumaqla bitmir. Alim öz biliyi əsasında və biliyi qədər hərəkət etməli və onlarda tələb olunanlara əməl etməlidir. Onun elmi kiçik də ola bilər».

Başqa bir yerdə demişdir: «Gözləyib səbr etməyən adam heç vaxt qazana bilməz».

Cəfər Xalidi danışırdı: «Bir gecə İbrahim Xəvasın moizəsi vaxtı məni yuxu aparmışdır, gecənin bir vaxtı ayılıb gördüm ki, İbrahim dua edir. O belə dua edirdi: «İlahi, səndən qorxan adam yatmaz. O oyaqdır. O oyaq dinc və rahatdır».

İbrahimin fikrincə elm iki şeydən ibarətdir:

- Birincisi, sizin boynunuza düşməyən işlərin öhdəsindən gəlmək üçün əzab-əziyyətlərə qatlaşmamalısınız.

- İkincisi, sizin boynunuza düşən işlərin öhdəsindən gəlmək üçün əzab-əziyyətə qatlaşmaqdan çəkinməməlisiniz.

Başqa bir yerdə demişdir:

Ürəyin dərmanı beş şeydən ibarətdir:

- Birincisi, anlayaraq, düşünərək «Quran» oxumaqdır.
- İkincisi, mədənin bir tərəfini mütəmadi boş saxlamaqdır.
- Üçüncüsü, gecə yuxudan oyanıb, səhərədək Allah dərgahına dua etmək və ibadətlə məşğul olmaqdır.
- Dördüncüsü, gözəl insanlarla müsahib olmaqdır.
- Beşincisi, gecə yatmayıb, üzüstə Allah dərgahına yalvarmaqdır.

**Abdullah ibn Məhəmməd əl-Xərraz**

O, Rey pirlərindən olub, Kəbədə mücavir olmuşdur. Əbu Həfsin şagirdlərindən biri idi. Əbu Həfs nəql edirdi ki, bir gün Abdullahın yanında idim. O dedi:

- Oruc tutmaq zahidlərin aclığıdır.
- Allah dərgahına zikr etmək ariflərin qidasıdır.

Yenə demişidir:

- Allaha tapınıb ibadət etmək alimlərin həzzidir.
- Allaha tapınınb işarətdən anlamaq isə ariflərin qismətidir.

**Əbu Məhəmməd Həddad**

O, Əbu Həfsin şagirdlərindən, həmçinin dostlarından biri olmuşdur. O, Nişapurun əski pirlərindən sayılırdı.

Həddad deyirdi:

- Etdiyi ibadətlərinə görə özünü öyüb dikbaşlıq edənin ibadəti əsl ibadət baxımından qəflətlə (unutqanlıqla) eynidir.
- Müsəlmanlara xəyanət etməyənin işinin xeyir-bərəkəti artar».

**Tahir Məqdisi**

O, Şamın pirlərindən sayılırdı, həm də böyük üləma idi. Onun sözlərinə görə, mükəmməl olan heç bir şey əyriliyə meyl etməz.

**Məhəmməd.....................................**

O, Şamın pirlərindən sayılırdı. O, həqiqət elmində alim idi. Şəriət qanunlarına görə günah hesab olunan hər bir şeydən, demək olar ki, uzaq idi.

Onun fikrincə, peyğəmbərlərə öz möcüzələrini zahir etmələri vacib sayılırsa, övliyaların kəramətlərinin gizli qalması vacibdir. Bu zərurət ondan doğur ki, xalqın içində fitnə - fəsad yaranmasın.

**Əbubəkr.........................................**

O, Xorasan pirlərindən, həm də ariflərindən olmuşdur. Ondan: - «əntom zülfüqərae eləllah»*.... ayəsinin mənası haqqında soruşmuşlar. O belə cavab vermişdir: «Siz dərvişliyinizdə olun və Allahın əmrlərinə itaət etməyin sizə vacib olduğunu bilin. O öz qüdrəti ilə sizin işlərinizi həm bu dünyada, həm axirətdə yoluna qoyacaqdır».

**Bənan ibn Məhəmməd Əl-Vasiti**

O böyük pirlərdən biri və kəramət sahibi olmuşdur. Misirdə yaşamış, Cüneydin müsahibi olmuşdur.

Ondan sufilərin hallarının (ruhi vəziyyətlərinin) necə olduğu barədə soruşanda demişdir:

- Onlar Allahın vədinə əmindirlər.
- Onlar Allahın əmrlərinə itaət və əməl edirlər.
- Onlar öz sirlərini gizli saxlayır və özgələrinin sirlərini yaymırlar.
- Əllərini dünyadan üzərək, ulu Tanrının ipindən yapışıblar.

Əbu Əli Rudbari nəql edirdi ki, Bənan Həmmalı aslanın yanına atıblarmış, aslan ona toxunmamış, əksinə onu yalamışdır.

Bu sınaqdan sonra Bənandan soruşmuşlar:

- Səni aslanın yanına atanda qorxu altında düşündüyün nə oldu?

O cavab vermişdir:

- Fikirləşirdim ki, qazıların dediklərindən fərqli olaraq aslanın sulu ağzı murdar deyil, təmizdir.

**Həmzə Bağdadi**

Həmzə Bağdadi şeyx Sərinin müsahibi olmuşdur. O, «Quran»ın təfsirçisi olmuş, həm də fiqh elminin üləmalarından hesab olunurdu.

O deyirdi ki, zikrdə olan şirinlik heç bir şeydə yoxdur.

O deyirdi:

- Bir adamda üç şey mövcud olarsa, o, dövrünün və zəmanəsinin bəlalarından hifz olunacaqdır:

- Birincisi, boş mədə.
- İkincisi, davamlı yoxsulluq.
- Üçüncüsü, gözü toxluq.

**Əbu Həsən Məhəmməd ibn Səəd Vərraq**

O, Nişapurun pirlərindən olmuşdur. O, alim və zahid idi.

O demişdir:

- Allah xofu arifləri arxayın, aşiqlərin isə ciyərini qanlı edər.
- Allah xofu olanlar həyat boyu rahat yaşayarlar.

Başqa bir yerdə demişdir:

- İnsanlarla lazımından artıq ünsiyyətdə olmaq təhlükəlidir.
- İnsanlara aşırı inanmaq axmaqlıqdır.
- İnsanlara arxa çevirmək isə zəiflikdir.

Yenə də demişdir:

İnsanlara arxayın olmaq ömrü hədər etməkdir.

- Ulu Tanrı sevdiyi və yaxşılıq etmək istədiyi bəndəsi ilə daima ünsiyyətdə olmaq istəyər, lakin xar və xəcalət etmək istədiyi bəndəsini daima xalqla baş-başa qoyar».

**Məhəmməd ibn Musa – Əbubəkr əl-Vasiti**

Onun kökü Fərqanədəndir. Nuri və şeyx Cüneydin müsahibi olmuşdur. O, alim və zahid olmuşdur. Mərv şəhərində vəfat etmişdir.

O demişdir: «Elə bir dövrdə yaşayırıq ki, müsəlman ədəbindən, cahiliyyə dövrünün xüsusiyyətlərindən, mürüvvət əhlinin əlamətlərindən heç bir əsər-əlamət qalmamışdır və kimsə bir şeyə etiraz edərsə, özünə pis edər və özü hədəfə çevrilər».

**Əbu-Yaqub İshaq ibn Məhəmməd Nəhrcuri**

O, Nuri, Cüneyd, Əmir ibn Osman Məkki və habelə başqa pirlərin müsahibi və şagirdlərindən sayılırdı. Doğrudur, bəzi pirlər onun sufi xilafətini inkar etmişlərsə də, bəziləri, o cümlədən, Əbu Abdullah Xəfif, Əbu Abbas Əta, Əbül-Qasım Nəsrabadi onu həqiqət səhabəsi kimi qəbul edirdilər.

O demişdir: «Özünü əməli ilə doğrulda bilməyən kəs Allaha da qulluq edə bilməz. Allaha qulluq edə bilməyən kəs isə yaxşı əməllərin sahibi ola bilməz.»

**Əbülhəsən əs-Şayiq əd-Dinəvəri**

O, böyük pirlərdən olmuşdur. Misirdə vəfat etmişdir. Əbu Osman Məğribi deyirdi ki, şeyx Əbu Yaqub Nəhrcuridən nurani və işıqlı pir, Əbülhəsən Dinəvəridən isə kamil pir görə bilməmişdir.

**Əbülhəsən.............**

O, Şamda yaşamış və oranın hörmətli pirlərindən sayılmışdır.

O demişdir:

- Hər kəsin dəyəri onun öz hümmətinə görədir.
- Dünyanı sevən iradəsizlərdə dəyər və qədər ola bilməz.
- Öz hümmət və iradələri gücünə Allahın lütfünü qazanmış şəxslər bütün aləmdə ən dəyərli və ən saleh insanlardır.
- Mərifət və bilik insan təsəvvürünə sığmayan qüdrətə malikdir.
- Öz tamah və arzularının qarşısını alıb, onu cilovlaya bilməyən birisi isə ən zəif adamdır.

**Əbülhəsən (Maliki)**

O, Samirədə yaşayırdı. Nurinin yaxınlarından sayılırdı. Onun qulluğunda olarkən tövbə etmişdir.

O demişdir:

- Səbirli olmaq kamillik əlamətidir.
- Qanelik kərimliyin (bağışlamağın) əlamətidir.

**Əbülhüseyn Bondar**

O, Nişapur şəhərinin Mulqabad məhəlləsində anadan olmuşdur. Cüneydin şagirdlərindən sayılırdı. O, comərd pirlərdən idi. Ondan soruşmuşlar ki, ünsiyyət nə deməkdir. O demişdir:

«İnsanlardan uzaqlaşmaq».

Bir yerdə isə demişdir ki, ölümü unutmayan kəslər, daha çox yaşaya bilir və məhv ediləcək hər bir şeyə nifrət edir.

Bir dəfə bir vəzifəli şəxs ondan bir öyüd istəmişdir.

O demişdir:

- Özünə yol ehtiyatı hazırlamalısan, çünki mən əminəm ki, səni yolçuluq gözləyir, evin isə başqa bir yerdə yerləşir. Səhv etsən, eybi yoxdur, peşman olma.

Ondan soruşmuşlar ki, sufi nə deməkdir?

O demişdir: «Sufi bütün eybəcər, yaramaz işlərdən və pozğunluqlardan uzaq duran bir adamdır. Ona görə də heç bir yalançı, iftiraçı ona qara yaxa bilməz».

**(...........................)**

O, Bəsrədən idi. O, üç il müddətində bir heyvanın kəllə sümüyü ilə birgə bir mağarada qalmışdır. Üç il oradan çıxmamış və orada Allaha ibadət etmişdir.

Bir gün ondan ibadətin nə olduğunu soruşmuşlar.

O demişdir: «İbadət ürəkdən Allaha inanıb ona tabe olmaq, həmçinin onu peyğəmbərinə inanıb əmrinə itaət etməkdir».

Başqa bir yerdə yenə də demişdir:

- Tövhid dörd şeyi gözləmək deməkdir:
- Birincisi, öz vədinə sadiq qalaraq, onu yerinə yetirmək lazımdır,
- İkincisi, Allahın əmrini yerinə yetirmək lazımdır,
- Üçüncüsü, Allahın verdiyi ruzinin qədrini bilib, Allaha şükür etmək lazımdır,
- Dördüncüsü, Allahın verdiyi nemətlərdən razı qalıb, daima şükür etmək və vermədiyi şeylərə görə isə kədərlənməyib, dözmək lazımdır».

**Şeyx Əbubəkr Şibli**

O, Bağdadda anadan olmuşdur. Onun kökü və soyu Soruşnədəndir. O, Cüneydlə yaxın olmuşdur. Yaşadığı mühitin şeyxləri arasında ən bilikli və say-seçmə alimlərdən hesab olunurdu. Əbülhəsən Malikinin yolu ilə getmişdir.

O, Cüneydə demişdir: «Əgər özünü büsbütün Allaha tapşırsan və yaxşı ilə pisi Allahın ixtiyarına versən, rahat olarsan və onda xoşbəxtlik özü üzünü sənə tutacaqdır».

Bir dəfə Cüneyd ona deyir:

- Ya Əbubəkr, sənin qılıncından qan süzülür!

Şibli cavab verir:

- Allahını tanıyan adamın bıçaqdan, qılıncdan qorxusu olmaz. Azadlıq yalnız könül azadlığıdır.

O, bir gün əsr namazına gecikibmiş. Artıq Günəşin saralan vaxtı imiş. O, yerindən qalxıb: «Əssəlat ya səna zati-namaz mənim ruhumu işıqlandırır»,- deyərək, iqaməyə durmuş və namaz qılmağa başlamışdır. Namazını qılıb qurtardıqdan sonra gülümsəyərək aşağıdakı iki beyti oxumuşdur:

«Sənin eşqin ilə mən namazı unutdum
Mən gecə ilə gündüzü seçə bilmədim
Sənin eşqin alıb mənim canımı
Duan verib hər dərdin dərmanını».

**Abdullah ibn Məhəmməd Mürtəiş**

O, Nişapurun Hirə məhəlləsindən idi, Cüneyd və Əbuhəfsin müsahibi olmuşdur. O, Bağdadda vəfat etmişdir.

Mürtəiş demişdir:

- Dincliyinin, rahatlığının səbəbini Allahda deyil, başqa bir şeydə görən, bilən ürək daima əzab və əziyyət içindədir.

O demişdir:

- Tövhid üç əsas üzərində dayanmışdır:

- Birincisi, Allahı yerin-göyün Xaliqi və yaradıcısı kimi tanımaq lazımdır,

- İkincisi, Onun təkliyinə inanıb və Onu qəbul etmək lazımdır,

- Üçüncüsü, ürəyi Ona şərik qoşmaqdan təmizləmək lazımdır.

Ondan soruşmuşlar ki, Allah bəndəsi Allahın dostluğunu necə əldə edə bilər?

O demişdir: «Allahın düşməni ilə düşmən olmaqla. Allahın əsas düşməni isə dünya və insan nəfsidir».

Vəzifəli adamlardan biri onun yanına gəlib, ondan öyüd-nəsihət istəyir.

O deyir: «Get Onun qapısına ( Allahın dərgahına), O sənə məndən daha yaxındır. Məni də Onunla tək qoy, O mənə, səndən daha yaxındır».

Bir dəfə gəlib ona xəbər verirlər ki, bir adam suyun üzü ilə gəzir. O deyir: «Məncə, öz nəfsini cilovlamağı bacaran kəs o kəsdən min qat kamildir».

**Abdullah......**

Onun kökü Bağdaddan olmuş, lakin Misirdə yaşamış və orada da vəfat etmişdir. Nuri və Cüneydlə müsahib olmuşdur.

O, deyirdi: «Həqiqi mürid öz nəfsini nə dünyaya və nə də axirətə görə sevmir. Müridin istəyi öz pirinin muradı olmalıdır».

Ondan soruşdular ki, əslində heç kəsə bir zərəri olmayan çəng, bərbət, ney alətlərindən qadağan edilmiş eyş-işrət məclislərində əylənmək məqsədi ilə məşğul olanlar haqqında fkri nədir?

O, demişdir: «Dinlədiyiniz alətlərin dünyanıza bir xeyri yoxdursa, cəhənnəminizə də xeyri olmayacaqdır».

Sonra üç dəfə: «Nəuzubillah min zalik», (bunların əlindən Allaha sığınıram ) - demişdir.

**(................................)**

Öz dövrünün imamı və zəmanəsinin qabaqcıllarından olmuşdur. O, böyük üləma, arif və tədqiqatçı idi.

Öz müridlərindən birinə demişdir:

- Sən dörd şeyə riayət etməlisən:
- Birincisi, düz danışıb, düz işləməlisən,
- İkincisi, əmanətə xəyanət etməməlisən,
- Üçüncüsü, dostluqda sədaqətli olmalısan,
- Dördüncüsü, dostunun düşməni ilə düşmən olmalısan.

Beləliklə dünyada sayılanlardan, axirətdə isə seçilmişlərdən olarsan.

Başqa bir yerdə demişdir:

- Çalış dəyərli şeyi dəyərsiz şeyin qiymətinə satmayasan!
- Heç vaxt dəyərsiz şeyi dəyərli şeyin qiymətinə alma!
- Heç vaxt dini dünyaya satma! Dünyanı axirətin dəyərinə alma!

Demişdir:

- Allahın razılığını dünyaya satan nə dünyadan bəhrələnə bilər, nə də ulu Tanrıdan.

- Dünyanı axirətdən üstün tutan adamın axirətdə əli boşa çıxar. Necə ki, peyğəmbər demişdir: [................ ]

**Abdullah ibn Məhəmməd Münazil**

O öz zəmanəsinin say-seçmə və dövrünün müdrik adamlarından biri kimi tanınmışdır.

O, Həmdun Qəssarın şagirdi olmuş və elə onun yolu ilə də getmişdir. O deyirdi:

- Allahın vacib etdiyi əməlləri unudub tərk edən kəs hər bir şeyi unudacaqdır, bu isə bir xəstəlikdir. Belə bir dərvişin bidətə tutulma qorxusu vardır.

**Əbül-Xeyr ət-Tinani əl-Əqtə (Əbu Yaqub əl-Əqtə)**

O, alicənab insan və böyük pirlərdən biri olmuşdur.

O deyirdi:

- Əmanəti qorumağı bacaran kəs öz gözəl xislətinə görə həyatı boyu yüksələcəkdir.

- İnsan Allahın vacib buyurduğu əməlləri yerinə yetirib, böyüklərin söhbətlərinə qoşulub, çalışmalıdır ki, mütəmadi dərvişlərə qulluq göstərsin.

**Əbubəkr əl-Küttani**

O, dinin, şəriətin və təriqətin say-seçmə adamlarından olmuşdur. O, Bağdadda anadan olmuş, Məkkədə mücavir olmuş və orada vəfat etmişdir.

Bir gün bir nəfər ondan öyüd-nəsihət istəmişdir.

O demişdir:

- Necə görünürsənsə, daxilən də elə olmalısan. Batinin necədirsə, zahirin də elə olmalıdır.

Batininlə zahirin vəhdətdə olmalıdır. İlanbalığına bənzəyirsiniz; nə ilan kimi bütöv bir üzlü, nə də balıq kimi tam iki üzlüsünüz.

Həmin adam soruşmuş:

- Balıq və ya ilan olmaq üçün nə etmək lazımdır?

O demişdir:

- Unutmamalısan ki, sürdüyün həyata uyğun olaraq dünyada cisminlə, axirətdə isə ruhunla cavab verəcəksən.

Ondan soruşmuşlar ki, elm əhli nəyin xilafına getmədi?

O, cavab vermişdir:

- Dünyada zahidliyə, mənəvi kamilliyə, nəfsin cilovlanmağına, xalqa öyüd- nəsihət verilməsinə!

**Əbu Yaqub Nəhrcuri**

O, dövrünün böyük pirlərindən, habelə alimi və zahidi olmuşdur. Öz zəmanəsinin görkəmli şəxslərindən, Cüneydin müsahiblərindən olmuşdur, Məkkədə mücavir olmuş, orada da vəfat etmişdir.

O deyirdi: «Ağlı, biliyi yüksək olanın ulu Tanrının əzəmətinin qarşısında heyrəti də böyükdür».

Başqa bir yerdə demişdir:

- Dünya bir dənizə bənzəyir, axirət isə onun sahilidir, təqva bir gəmidir, xalq isə bu gəminin müsafiridir.

- Arxası şükrə əsaslanan nemətə zaval yoxdur.

- Arxası küfrə dayanan nemətin davamı yoxdur.

- Yeməklərlə tox olan insan həmişə acdır.

- Zənginliyi mal-dövlətdən ibarət olan kimsə həmişə kasıb olacaqdır.

- Ehtiyacının qarşılığını məxluqdan uman adam həmişə yoxsulluq çəkəcəkdir.

**Əbülhüseyn Müzəyyin**

Müzəyyin «bərbər«deməkdir. O, əslən Bağdadlı idi. Cüneydin müsahibi olmuşdur. Məkkədə mücavir olmuş və orada vəfat etmişdir. Sufilikdə bir neçə mərhələlər keçmiş, kəramət sahibi və zahid olmuşdur.

O deyirdi:

- Öz könlündə və ürəyində daima Allahı zikr edən bəndə dünya və axirətin nə olduğunu unudar.

- Allah-təala insanları insanlara ehtiyacı olmayan və yalnız ulu Tanrıya arxalanan adama möhtac edər.

**........Bonan.......ibn Abdullah.....**

O, Misirin görkəmli adamlarından olmuşdur.

O demişdir:

«Ulu Tanrının ürəkdən Onunla əhd-peyman bağlamış bəndəsinə bağışladığı ilk şey onun xalqa möhtac olmamasını təmin etməyidir».

**Əbülhüseyn ibn Bənnan**

O, Misirin böyük şeyxlərindən olmuşdur. O, Əbusəid Xərrazın musahibi olmuşdur.

O demişdir: «Alçaqlıqdan uzaq olun, haram tikə yeməyin».

**Əbülhüseyn Farsi**

O, təriqət əhli və alim olmuşdur. Cüneyd və başqa pirlərlə müsahib olmuşdur. O deyirdi:

- Rahatlığı Allahdan uzaq olmaqla deyil, Allaha yaxınlaşmaqla əldə edə bilərsiniz.

- Rahatlığını Allaha yaxınlaşmaqda görən bəndə mütləq xilas olacaqdır.

- Rahatlığını Allahdan uzaqlaşmaqda görən bəndə mütləq məhv olacaqdır.

- Rahatlığı Allaha yaxınlaşmaqda tapmaq o deməkdir ki, Allahın bəndəsi öz Tanrısına ürəkdən bağlı olur.

- Rahatlığı Allahdan uzaqlaşmaqda axtarmaq isə o deməkdir ki, Allahın bəndəsi öz Tanrısından qafil olur və onu unudur. Beləliklə onun ürəyi daha başqa bir şey ilə sakitləşə bilməz.

Başqa bir yerdə deyirdi:

- Könül azadlığını dörd şeylə təmin etmək mümkündür: Elm, paklıq, zahidlik, itaət.

- Könül, qəlb, ürək dörd şeyin müqabilində isə viran qalır: Cəhalət, günah, təkəbbür, qəflət.

Xeyirxahlığın əsasını da dörd şey təşkil edir: Səxavət, təvazökarlıq, gözəl xasiyyət, itaət.

**Əbu İshaq Müzəffər əl-Qureyşi**

O, bir mömin, bir zahid olmuşdur. O, Əbu Əbdullah Məğribnin müsahibi və şagirdlərindən biri kimi tanınmışdır. O, Abdullahın yetirməsi və onun mənsub olduğu təriqətin davamçısı idi.

O, deyirdi:

- Birinə bir şey bağışlayıb sonradan onun boynuna minnət qoyan adam alçaq adamdır.

**Əbülhəsən......................**

O, deyirdi:

«Həqiqi dost öz dostunun xeyrini gözləməlidir».

**İshaq................**

O, dövrünün böyük pirlərindən sayılırdı. O, deyirdi:

- Ədəb-ərkanla elmə və şəriətə qulluq göstərmək istəyən adamı böyük Tanrı yüksək dərəcəyə qaldırar.

**Məhfuz ibn Mahmud Nişapuri**

O, Nişapurun adlı-sanlı və yüksək dərəcəli simalarından biri kimi tanınırdı. O deyirdi:

- Dünyanın zahidləri axirətin bağlı qapısının açarıdırlar.

Daha sonra deyirdi:

- Mürüvvət dini qoruyub saxlamaq üçündür, cismin paklığını saxlamağı, mömin bəndələrə hörmət etməyi, hər kəsə səxavətli olmağı aşılamaq üçündür.

O yenə deyirdi:

- Bütün dərvişlərdən üstün olan dərviş onu zənginləşdirmək istəyən kimsənin qarşısını alandır, ona yol verməyəndir.

**(...................)**

O, Cüneyd və Nurinin yaxın müsahiblərindən olmuşdur. O, şəriəti dərindən bilmiş, hikmət elmini dərindən öyrənmiş, anlamış bir alim idi.

O deyirdi:

- Qulağı ilə eşidən nəql edər, lakin işıqlı və nurlu adam eşitdiyinə əməl edər, onu genişləndirər, yayar. İşləyib-əməl edən kəs isə həqiqətə yol tapar və sonra isə həqiqət istiqamətində, səmtində ətrafındakılara yol göstərər.

**(................)**

O, Məkkədə mücavir olmuşdur. Cüneyd və başqa pirlər ilə müsahib olmuş və Məkkədə də vəfat etmişdir.

O deyirdi:

- Ulu Tanrı insanı laqeyd və şəhvətpərəst yaratmışdır.

- Ulu Tanrı oyanış kəramətini verməyənə qədər unutqanlıq bütün qəflətlərdən üstün olacaqdır.

**(...............)**

O, Cüneydin və Nurinin məktəblərinə mənsub olmuşdur. O, Məkkədə mücavir olmuş və orada vəfat etmişdir.

O demişdir: «Əlçatmaz zirvədə dayanıb danışan bir adamın sözü fitnə-fəsaddan başqa bir şey deyildir. Onun iddiasına baxmayaraq, Allah onu yüksək mərhələyə qaldırmaq istəməz»

**Cəfər əl-Xüldi**

O, Cüneyd və başqa pirlərdən təlim almış, amma buna baxmayaraq özü başqa bir sufi məktəbi yaratmışdır.

O deyirdi:

- Comərdlik, özünü həqir sanıb, müsəlmanların hörmətini yüksəltmək deməkdir.

- Riya ilə sədaqət arasındakı fərq ondan ibarətdir ki, riyakar xalqın gözündə böyük görsənmək üçün çalışır, sadiq isə İlahiyə yaxınlaşmaq, vüsala çatmaq üçün çalışır.

**Yəhya Əmmar əş-Şeyban**

Ondan yatmışkən öz müridlərinə riyazəti necə əmr etdiyi barədə soruşmuşlar.

O demişdir:

- Səbirlə, dözümlə,

- Tapşırıqların düzgün yerinə yetirilməsi ilə,
- İtaətkarlıqla,
- Bir də itlərlə müsahib olmaqla.

**Əbubəkr Cəriri**

O, Əbu Əli Rudbarinin yaxınlarından olmuşdur. Ondan soruşmuşlar ki, sufilərin əlaməti nədir?

O demişdir: «Ən yaxşı işlər və əməllərlə məşğul olaraq nalayiq işlərdən çəkinmək, uzaqlaşmaq sufilərə xas olan əlamətlərdir.»

Başqa bir zaman demişdir:

- Halal yeyib-içsən, sənə Allah dərgahında ibadət və itaət nəsib olar.

- Şübhəli olan yemək-içmək Allaha doğru gedən yolun qapılarını üzünə bağlayacaqdır.

**Əbu Məhəmməd Razi**

Məhəmməd Razi Cüneyd və başqa pirlərin müsahibi olmuş, onların yollarını mənimsəmiş və daha sonra ayrıca, müstəqil bir yola qədəm basmışdır.

Ondan soruşmuşlar:

- Ey şeyx nə üçün, insanlar öz eybini görə bilmir?

O demişdir:

- Ona görə ki, ulu Tanrı onların görən gözlərini qapatmışdır,
- Çünki onlar hər şeyi şəxsən özləri mənimsəmək adətinə düçar olmuşlar,
- Bir də ona görə ki, haram işlərlə məşğul olmaq, haram yeməklər yemək, özləri ilə öyünmək onların gündəlik həyatlarında adət şəklini almışdır.

**İsmayıl.......**

O rəhmətlik demişdir:

- Allahın bir çox bəndəsinin böyük eybi və qüsuru sahib olmadıqları elm və sənətlə öyünməklərindədir.

**Əbu Hüseyn...............**

Bu rəhmətlik övtad və abid olmuşdur. Bir dəfə ondan təsəvvüfün mahiyyəti barədə soruşmuşlar. O, çox dəqiq, çox düzgün və təqdirəlayiq bir cavab vermişdir.

O demiş: «Təsəvvüf əvvəllər quru ad deyildi, bir həqiqət idi, lakin xalq, «Səfa əhli»* və bizimlə əlaqə yaratdıqdan sonra artıq həqiqət deyil, quru bir ad oldu.

**Cəfər ibn Əhməd Əbülqasım Razi**

O, Misirin görkəmli şəxsiyyətlərindən və dövrünün tək pirlərindən olmuşdur.

O deyirdi:

«Əhli-büdətlə müsahiblik ümidi kəsər, ümidinizi qorumağa çalışın».

Əbubəkr Təmistani gözəl bir mövzuya işarə edərək deyirdi: «Həqiqi həyat ölüm ilə başlayır, daha doğrusu, cisim ölməyənə qədər ruh həqiqi həyata qovuşa bilmir».

**Əbu Osman Hiri**

O öz dövrünün say-seçmə pirlərindən olmuşdur. O, Nişapurda vəfat etmişdir. Vəsiyyətinə görə onun cənazə namazını Xacə Əbubəkr Bozorg qılmışdır.

Xacə Əbubəkr deyirdi: «Əbu-Osmanın son anlarında onun qulluğunda idim, Qare oxuyurdu, bir anda Əbu-Osmanın ulu babası göründü. Əbu-Osman qareni işarə ilə susmağa dəvət etdi, qare susdu. Əbu-Osman huşa getmiş kimi dedi: «Ənnəhu yəsməu və mən yəsməu» Yəni, xalqa eşitdirilən yerdən eşitdirirlər.

**(......................)**

O, Xorasan şeyxlərindən idi, böyük alim, zahid və əməl əhli idi.

O deyirdi: «Allahla birlikdə olub, Allaha qovuşan insan bəxtiyar insandır».

Əbu Əli Rudbarı deyirdi: «Öz namazını sonsuz təvazökarlıqla yerinə yetirən bəndə bəxtiyar insandır. Namazdakı təvazökarlıq qurtuluş və azadlıq əlamətidir».

Əbu Abdullah Xəfif deyirdi: «Düşmənə comərdlik göstərmək, xoşlamadığın adama maddi yardım etmək deməkdir. Sizə qayğı göstərməyənə qayğı göstərib onunla əlaqə yaratmaq, şübhəsiz ki, yaxşı əməldir».

Əbülqasım deyirdi: ««Comərdlik» xalqın gözəl xüsusiyyət və üstünlüklərindən öyrənməyə cəhd etmək, öz günah, nöqsanlarını görüb, onları dəf etmək deməkdir».

«Səxavətli bir adam əgər insanlara bacardığından daha artıq kömək edə bilmirsə, köməyinin miqdarını da azalda bilməz».

**(.......................................)**

O deyirdi: «İnsanların dünyadakı əyləncələrlə məşğuliyyətləri Xaliq ilə məxluqun arasına hicabdan tünd və qalın bir divar çəkir».

**(....................................)**

O, deyirdi: «Pirlərin kiçik uşaqlarla ünsiyyət qurub söhbət etmələri Allahın bəxş etdiyi uğurlardan biri hesab olunur».

Başqa bir yerdə yenə demişdir: «Zahidliyin əzabları mənimdir, axirətin əzabları isə ürəyimin».

Bir yerdə danışmışdır: «Səfərdə idim, bir adam gördüm. O, bir qıçı ilə yeriyirdi, ona dedim:

- Ey şeyx, sənin bir ayağın yoxdur, nə üçün səfərə çıxmısan?

O dedi:

- Mən özümü səyahətdə güclü hiss edirəm, özümü səyahətdə rahat hiss etdiyimdən heç vaxt səyahətdə əzab çəkmirəm. Belə bir səyahət məni məqsədimə aparıb çatdırır».

Bununla da görkəmli dini şəxsiyyətlərin, alimlərin və o zümrəyə mənsub olan pirlər haqqında yazılan məqalə və məqamlar sona çatdı, Allah onların hamısına rəhmət eləsin.

Burada 72 məşhur sufinin tərcümeyi-halı verilmişdir. Lakin bəzi tanınmış sufilərin, o cümlədən Həsən Bəsri və Əbusəid Əbül-Xeyr kimi tanınmış və böyük şöhrətə malik olan sufilərin tərcümeyi-halları, onlar geniş şəkildə tanındıqlarına görə, verilməmişdir.

Ulu Tanrı bu camaatdan irəli gələn xeyir-bərəkət və nemətlərini bu kitabın müəllifinin yaşadığı dövrədək gətirib çıxarsın - Məhəmməd və onun ailəsinin xətrinə!

# V FƏSİL

## Şeyx Əhməd Qəzalinin - Allah ona rəhmət eləsin! - «Risalət ət-teyr» əsəri*

Rəhman və Rəhim olan Allahın adı ilə.

Həmd olsun Allaha! – dünyanın sahibinə, salamlar olsun Onun Rəsulu Məhəmmədə və onun Əhli-Beytinə.

Bil ki, böyük ilahiyyatçı, ilahiyyat elminin qütbü, zəmanəsinin ən böyük şəxsiyyəti Əhməd ibn Məhəmməd əl-Qəzali - Allah ona rəhmət eləsin! - buyurmuşdur:

«Bir gün, dünyada fərqli xasiyyətə, davranışa, səsə, nəğmələrə malik quşlar bir araya gəlirlər. Bu quşların hər birisinin özünə uyğun yuvası, rəftarı, öz mühitinə, yuvasına bağlılığı vardır. Onların bir araya gəlmələrinin səbəbi özlərinə hökmdar seçmək arzusu idi. Onlar deyirdilər: «Biz mütləq özümüzə hökmdar seçməliyik ki, bir ehtiyacımız olanda onun hüzuruna gedib, dərdimizi izhar edə bilək». Daha sonra onlar öz aralarında məşvərət edərək, belə bir ümumi fikrə gəlirlər ki, hökmdarlıq tacı hamıdan çox Simurğa yaraşar, çünki hökmdarlıq qaydalarını ondan yaxşı bilən yoxdur. Beləliklə, onlar qərara gəlirlər ki, gərək Simurğu hökmdar taxtına əyləşdirsinlər: «Əgər biz bu səhralarda hökmdarsız yaşamağa davam etsək, tez bir zamanda düşmən tələsinə düşər, məhv olarıq.

Hökmdarsız məmləkət, dağılmağa məhkum edilmiş,
Amma hələ tam uçulmamış evə bənzəyir.
Hökmdarlı bir dövlət qura biməyənəcən
Düşmən qarşısında duruş gətirə bilmərik».

Onlar bu qərarla razılaşıb Simurğun yuvasının axtarışına hazırlaşmağa başlayırlar. Allahın izni ilə Simurğun yuvasının ətrafına artıq yaxınlaşa bilmiş quşlar səfərə hazırlaşanlara Simurğun yuvasının «Böyüklük» adasında, «Qüdrət və əzəmət» şəhərində yerləşdi-

yini söyləyirlər. Onlar yolun çox çətin və üzücü olduğunu da deyirlər. Quşların öz məqsədlərinə çatmaq eşqi onlara qətiyyət, cəsarət verirdi. Onlar ayaqlarına dəmir çarıq geyinib, birlikdə göyə qalxdılar ki, onun cənnət çəmənliyində enib, gözəl bar-bəhrəsinin dadına baxıb, hüzuruna buyursunlar. Ürəklərində istək o dərəcədə alovlanırdı ki, onlar avazla oxuyurdular:

Soruşdum: «Ey səcdəgahım, səni harda axtarım?»
Cavab verdi: «Səylərin əbəsdir!»

Birdən qeybdən bir səs gəldi: «Siz nahaq yerə bu əzablı, iztirablı yola çıxmısınız, heç bir halda siz onunla görüşə bilməyəcəksiniz, yuvalarınıza qayıdın, əks halda bəlalar burulğanına düşər, ayaqlarınız müsibətlər bataqlığında ilişib qalar. Özünüzə görə, öz xeyrinizə görə geri qayıdın!»

Onlar bir səslə cavab verdilər: «Biz hamımız tələf olsaq belə, geri dönməyəcəyik.

Biz sonadək səni axtaracağıq,
Heç zaman səndən üz döndərməyəcəyik.

Bizim ürəyimiz dərdlidir, dərdimizin dərmanı isə Ona xidmət etməkdir. Biz məqsədimizə çatmadan bu yoldan geri dönə bilmərik. Biz bu yolun çətinliyindən qorxub geri dönsək, ağlımızı itirib havalanarıq. Bizim şan-şöhrətimiz, xoşbəxtliyimiz Onun tək və təkrarolunmazlığına iman gətirib, səcdə etməkdədir:

Biz göy üzündə eşq çadırı açmışıq,
Dünyəvi nemətlərdən əl çəkmişik.
Sənə qovuşmaq üçün, sənə çatmaq üçün
Qorxusuz-hürküsüz bütün sınaqlara hazırıq».

Sonra ümid küləyini yəhərləyib, məhəbbət üzəngisinə ayaq basıb, onlar istirahətsiz, durmadan, dayanmadan, aramsız, nəğmə deyə-deyə yollarına davam etdilər:

Ümidlər sap kimi nazilib üzülərkən,
Ağlı necə aydın saxlaya bilərik?
Hicran ürəyi yandırıb-yaxan zaman,

Səbirli olub təmkini necə saxlamaq mümkün olar?

Onlar istiqamətlərini Məhəbbət səhrasına tutub, Böyüklük dənizinin sahilinə yetişdilər. Yolda isti iqlimə öyrəşmiş quşların bir hissəsi soyuqdan, soyuq iqlimə öyrəşmiş quşların bəziləri isə istidən tələf oldu. Qısası, onlar Təkhakimiyyətlilik qalasına çatanacan qəflət fırtınası da qopdu, vahiməli ildırımlar, şimşəklər də çaxdı, quşların çoxu tələf oldu, azı qaldı. Bu sağ qalmış quşlar Alilik sarayına çatıb yerə endilər. Onlar saraya gəldiklərini söyləmək üçün, elçilərini göndərdilər. Simurğ Təkhakimiyyətlilik qalasının Alilik taxtında əyləşmişdir. O əmr etdi ki, quşların uçub gəlmə səbəbini öyrənsinlər.

Soruşdular: «Siz buraya nə məqsədlə gəlmisiniz?»

Quşlar cavab verdilər: «Biz buraya Simurğdan bizim hökmdarımız olmağını rica etmək üçün gəlmişik».

Simurğ əmr etdi: «Onlara deyin ki, onların nə rica edib-etməməsindən, nə məqsəd güdüb-güdməməsindən asılı olmayaraq bizim onların qulluğuna, itaətinə ehtiyacımız yoxdur, ona görə qayıdıb gedə bilərlər».

Quşlar bu cavabı alanda çox pərt-pəjmürdə oldular, ümidsizliyə, çarəsizliyə qapandılar. Onların geri dönməyə nə halları var idi, nə də istəkləri. Onların ürəyində iztirab fırtınaları coşdu, onlar fəryad etdilər: «Bu misralar sanki bizim halımızdan xəbər verir:

Xiffət ürəyə hakim kəsildikdə,
Ona əlac tapmaq mümkün deyildir».

Sonra onlar məsləhət-məşvərət edib dedilər: «Birincisi, naümid geri qayıtmaq-qorxaqlığın əlamətidir. İkincisi isə, gəldiyimiz yolun yorğunluğu canımızdan çıxmamış biz geri qayıtmaq iqtidarında deyilik. Bəlkə, padşaha bir də müraciət etməyə dəyər, bəlkə, bizi qəbul etməyə razı olar?»

Onlar padşaha bir namə göndərdilər. Namədə yazılmışdır: «Doğrudur, sənin bizim qulluğumuza ehtiyacın yoxdur, amma bizim axı sənin himayənə, köməyinə çox böyük ehtiyacımız vardır. Sənin

hökmdarlığın, sənin səltənətin möhtacların sığınacağıdır, məhz buna görə sənə yalvarırıq ki, bizə özünə yaxınlaşmağa izin verəsən.

Biz öz yuvalarımıza eşq gətirərik
Bütün şübhələri yolda səpib, itirərik.
Sən bizim hökmdarımız olmaqdan imtina etsən də,
Yenə də səni özümüzə şah bilərik.
Sən bizə tərəf gəl, böyüklük elə,
Öz sadiq, müti qullarına rəhm elə».

Tezliklə hökmdardan cavab gəldi: «Geriyə, yuvalarınıza dönün, bizim səltənətimiz elə bir ali mütləqiyyətdir ki, siz gözlərinizi qaldırıb ona baxa bilməzsiniz, çünki onun parlaqlığından gözləriniz tutular, kor olarsınız».

«Bəli, indi artıq biz tamamilə məhv olduq», - deyə quşlar həyəcandan huşlarını itirdilər. Özlərinə gələndə matəm libaslarını geyinib, dərd-qəm qədəhlərini son damlasına kimi başlarına çəkdilər. Ürəklərini taleyin ümidinə buraxaraq, qəlblərinin fəryadını şeirlə ifadə etdilər.

«Gecə-gündüz gözlərimizi yummadan,
Ümidlərimizi küləklərə sovurduq.
İlahi, kaş pərvanələrtək yanıb kül olaydıq,
Bu dərddən, cəfadan azad olaydıq».

Beləliklə, həyəcan hissi onların qəlbinə tam hakim kəsildi və qeybdən gələn səs buyurdu: «Həyəcanlanmayın, ümidinizi də üzməyin....Baxmayaraq ki, biz tutduğumuz yüksək mövqeyimizə görə, əslində, sizin tərəfinizdən olunmuş təklifi qəbul etməli deyilik, amma nəcibliyimiz, kübarlığımız bizə sizi yaxınımıza buraxıb qəbul etməyimizi buyurur. Bir halda kı siz gücsüzlüyünüzü, acizliyinizi dərk edib, peşmançılıqla geri dönməyə hazırlaşmışsınız, bizim nəcabətimiz sizi səxavət və mərhəmət səltənətində qəbul etməyə hazırdır, çünki bu səltənət kasıbların və köməksizlərin, imkansizların və atılmışların sığınacağıdır, axı şəriətin hökmdarı, Onun qanunlarını müəyyənləşdirən peyğəmbərimiz – Allahın salamı olsun

ona! Allah ona yar olsun!- demişdir:«Həqiqətən atılmış, köməyə ehtiyacı olan kəs Simurğun Səltənətinə yaxınlaşıb, onun dostu və həmsöhbəti olacaqdır»».

Bundan sonra quşlar özlərinə gəlib sakitləşdilər, ruha rahatlıq gətirən, işıq saçan bağçada yerləşdilər. Bayram libaslarını geyib, hökmdar taxtının önünə təşrif gətirdilər. Onların öz işləri, öz vəziyyətləri yoluna düşəndən sonra yoldaşlarının vəziyyəti ilə maraqlanıb soruşdular: «Səhralarda tələf olmuş yoldaşlarımız harada dəfn olundular? Biz onları ziyarət etmək istəyərik.

Nə qədər göz yaşı tökdük biz,
Sanki bədxahımız bizi gözə gətirdi.
İztirab çəkirik ayrılıqda biz,
Dərdin atəşində yanır qəlbimiz

Dərya dalğalarında tələf olmuş yoldaşlarımız haradadırlar? Nə gözəl olardı, onlar bizim şah tərəfindən qəbul edildiyimizi, onunla müsahib olacağımızı, bizə hansı səadətin nəsib olduğunu biləydilər, bizə görə sevinəydilər.

Qoy hər bir şey ərməğan olsun,
Şərab da, sevgilimizin zülfləri də qurban olsun.
Şahlıq, hökmdarlıq, var-varidat da...
Təki vüsal saatı yaxınlaşsın!»

Onlara cavab verdilər: «Onlar haqq dünyasında, haqq dərgahındadırlar. Mərhəmət kəməndi sizi bizim tərəfə çəkəndə siz digər dəstələri bizim rəmzimiz olan yasəməni duymaq üçün ölüm səhrasına göndərdiniz. Onda mərhəmətimizin sağ əli onları bizim mötəbərlik zirvəsinə ucaltdı. Hal-hazırda onlar ali, mötəbər, yüksək məqamda, yenilməz qüvvənin müqəddəs pərdəsi arxasındadırlar.

Eşqdə böyük, kiçik yoxdur,
Kiminsə seçilməsinə, nüfuzuna da ehtiyac yoxdur.
Məhəbbətdə uduzan günahkar deyil
Bu, zəngin və ya kasıb olmaqdan da asılı deyil».

Quşlar cavab verdilər: «Biz onlarla görüşmək istəyirik. Biz onlara hansı yolla yetişə bilərik?»

Cavab verdilər: «Siz hələ həyata, dünyaya çox bağlısınız, siz ölüm, ölüm saatının xofu ilə hələ də buxovlanmısınız. Siz ancaq belə zahiri iztirablardan azad olandan sonra onlarla görüşə biləcəksiniz. Nə qədər ki qəlbiniz zahiri can qəfəsində, ayaqlarınız isə qayğılar buxovlarındadır, onları görə bilməyəcəksiniz.

Üzüm sarı rəngə boyandı,
Sən dedin: «Gəlmə ardımca.
Sən saralmış yarpaqtək yarıcansan,
Mən isə yaz çiçəyi kimi təravətliyəm».

Onda quşlar soruşdular: «Bəs belə olan halda biz zəiflik, çarəsizlik, bəxtsizlik səbəbindən mötəbər padşahın taxtı qarşısında təzim etmək kimi fərəhdən məhrum olmuş yoldaşlarımızın halından necə xəbər tuta bilərik?»

Onlara cavab gəldi: «Necə də yanılırsınız! Onlar buraya zəiflik, köməksizlik, çarəsizlik üzündən deyil, biz onlara lütf göstərmədiyimiz üçün gələ bilməmişlər. Biz istəsə idik, onları hər bir vəchlə buraya çatdırardıq. Biz istəsə idik, onları öz yaxınımıza buraxardıq, amma biz onları yanımızda görmək istəmədik və ona görə onları özümüzdən uzaqlaşdırdıq. Siz əbəs yerə düşünürsünüz ki, bizim hüzurumuza buyurmaq arzusu qəlblərinizdə öz-özünə yaranmışdır. Bilin ki, o toxumu biz sizin qəlblərinizə səpərək rahatlığınızı pozduq və daha sonra sizi buraya gətirdik».

Bu sözləri eşidəndə quşlar Onun sonsuz əzəmət və mərhəmətini daha dərindən anladılar və başa düşdülər ki, Onun böyüklüyü, alicənablığı, qüdrəti ilə idarə olunurlar. Onlar hökmdarın rəğbəti və mərhəməti sayəsində biliklərə yiyələndilər və din xadimləri oldular.

Allah-təala buyurmuşdur: «Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: «Mən bunun müqabilində sizdən bir əvəz istəmirəm. Bu, aləmlər üçün yalnız bir moizədir»».* «Biz Hökmdarın hüzuruna qulluq etmək üçün gəlmişik» ifadəsini söyləmək ancaq o kəslərə nəsib olur ki, onlar,

həqiqətən, könüllü şəkildə əvvəldən sonadək Alihəzrət cənabların hüzuruna yetişmək üçün çabalamışlar. Kim ki hökmdar taxtının bağlarını qırıb, ancaq hökmdarın əmri ilə onun hüzuruna buyurur, bu ifadəni söyləyə bilməz. Onlar: «Biz buyurmuşuq»,- ifadəsini işlətməməlidirlər ki, «Siz niyə buraya gəlmisiniz? Geri qayıdın!» kimi sözlər də eşitməsinlər. Onlara bunu deyən olmasın: «Sizi buraya gəlməyə kim məcbur etmişdir? Bura əzəmət diyarı, yenilməz, mötəbər hökmdarın səltənətidir». Cavab suala uyğun, sual imkana bağlı, imkan mənəviyyata, mənəviyyat isə sultanın cazibə qüvvəsinə, sultanın cazibəzi isə mərhəmətlik mizan-tərəzisinə uyğun olmalıdır». Bu incə məqamları, işarələri anlamayan kəsə de ki: «Get, yenidən əhd elə, quş cildinə düş, quş yuvasında məskunlaşıb, onların «ruha» sitayiş etməklə keçirdikləri mübarək həyatlarını sür, ya da Süleymanın qabiliyyətini mənimsə, quş dilini öyrən.....Çünki quşlar ancaq quş dilini anlaya bilərlər. Yenidən əhd etmək iç dünyanı yeniləmək, iç dünyanı kin-küdurətdən təmizləmək deməkdir, dəstəmaz alıb zahiri təmizliyə riayət etmək isə hər zaman namaz qılıb dua etməyə hazır olmaq üçündür. Bunların hamısı Allahın adlarının zikri ilə müşayiət edilməlidir. İnsanlar ya qəflət yuxusunda olurlar, ya da mütəmadi dualar edirlər. Allah isə məhz mütəmadi dua edənləri özünə yaxın qoyur, qəflət yuxusunda olanları isə özündən uzaqlaşdırır.

İmanı kamil mömin sultanın qarşısında qul olar,
İmansız qafil isə şeytanın sağ əli olar.

Allah öz rəhmini üstümüzdən əskik etməsin, bizləri haqq yoluna yönləndirsin, şeytanın hiyləsindən qorusun.

# VI FƏSİL

## Ədalət və insaf haqqında

Bil, ey oxucu, - Allah sənin hər iki dünyanı versin! – dünyanın əmin-amanlığı, bəşər övladının firavanlığı hökmdarların ədalətindən asılıdır. Hökmdarın heç bir xüsusiyyəti ədalətlə müqayisəyə gəlməz.

Kim ki bu dünyada yalanı üzüb, haqqı yaşadar
Allah ona peyğəmbərlik adını ərməğan edər

Seçilmiş-sevilmiş Peyğəmbərimiz-Allah ona yar olsun! Allahın salamları olsun ona! - buyurmuşdur: «Bir saatlıq ədalət altmış saatlıq ibadətdən üstündür».

Başqa bir yerdə belə buyurmuşdur: «O kəs ki il ərzində ədalətli işlər görər, uzun ömür yaşayar».

Yəni onların özü ölsə də, adları ölməyəcəkdir, onların adları ədalətlərinə həsr olunmuş hekayətlərdə, şeirlərdə yaşayacaq və oxucular onların adlarını xeyir-dua ilə yad edəcəklər və beləliklə, onların adı əsrlər boyu yaşayacaqdır.

### *Xəzinə haqqında hekayət*

Belə nəql edirlər ki, ədalətli Ənuşirəvanın hökmdarlığı dövründə bir köçəri əkib-becərmək üçün, icarəyə torpaq götürür. Torpağı şumlamağa başlayanda qarşısına ağzınacan qızılla dolu bir quyu çıxır.

O həmin saat torpağın yiyəsinin yanına gedib deyir: «Mən sənin torpağında ağzınacan qızılla dolu bir xəzinə tapmışam, gəl onu apar». Torpağın sahibi cavab verir: «Bu xəzinədən mənə nə? Sən bu torpağı məndən bir il müddətinə icarəyə götürmüsən, deməli, bu müddətdə bu torpaqda nə əkilərsə, nə biçilərsə, nə tapılarsa, hamısı sənindir».

Bu mübahisə çox uzanır, nə torpağın sahibi xəzinəni götürür, nə də icarəçi torpaq sahibindən əl çəkir.

Bu xəbər Ənuşirəvana çatır. Məmurları ona ərz edirlər: «Bir halda ki bunların heç biri bu qızılları götürmür və aralarındakı mübahisə bitmir, əmr et onu dövlət xəzinəsinə təhvil versinlər».

Ənuşirəvan çox qəzəblənir, məmurları cəzalandırır və deyir: «Siz məni ədalətsizliyə sövq edirsiniz, istəyirsiniz ki, mən zorakılıq, haqsızlıq edim? Torpaq sahibinə məxsusdur, xəzinəni icarəçi tapmışdır, belə olan halda mənim bu xəzinə üzərində nə haqqım vardır? Allahım, sən özün məni bu səhv addımlardan qoru!»

Bir neçə gün belə davam edir, icarədarla icarəçinin mübahisəsi isə qurtarmaq bilmirdi.

Nəhayət, onlar Ənuşirəvanın vəziri, müdrikliyi dillər əzbəri olan Büzürcmehrin məhkəməsinə müraciət etmək qərarına gəlirlər.

Büzürcmehr əmr edir ki, xəzinəni üç hissəyə bölsünlər. Bir hissəsini icarədara, bir hissəsini icarəçiyə versinlər və digər hissəsini isə kasıblara, aclara, çoxuşaqlılara, borclulara paylasınlar.

O, carçılara əmr edir ki, hər tərəfə car çəksinlər: «Nə qədər ki Ənuşirəvan sağdır, siz əmin-amanlıqda, firavanlıqda yaşayacaqsınız, əgər bu həyatınızın davamlı olmasını istəyirsinizsə, gecə-gündüz dua edin ki, Ənuşirəvanın ömrü uzun olsun. Çünki əsl padşah öz əhalisinin qayğısını məhz belə çəkməlidir».

Sonra Büzürcmehr mübahisə edənlərdən soruşur ki, uşaqları varmı? Məlum olur ki, icarədarın oğlu, icarəçinin qızı vardır. Büzürcmehr məsləhət görür ki, bu cavanları evləndirsinlər və o torpağı da gənclərə versinlər ki, bu mübahisə kəsilsin.

Məhz belə ədalətli işlərinə görə Ənuşirəvanın adı və əməlləri Qiyamət gününədək yaşayacaqdır.

Beləliklə, hökmdarlar Ənuşirəvan kimi, vəzirlər Büzürcmehr kimi, insanlar bu icarədarla bu icarəçi kimi gözü-könlü tox olarsa, dünya gül açar, bir daş yerindən oynamaz, əmin-amanlıq, firavanlıq olar.

Bil, ey oxucu, haqq və ədalət həmişə dünyada gözəl ad-san qoyur.

Sən ədalətli ol, onun əvəzini dəfələrlə görərsən,
Pis əməllər isə bizi rəzil və çarəsiz edir.

Allah Eldənizlər nəslinin hökmdarlarının ədalət və mərhəmətlərini birə-yüz etsin!

# VII FƏSİL

## Səxavət və Bərməkilər nəsli barədə hekayətlər haqqında

Belə rəvayət edirlər ki, Allahın sevimli bəndəsi Peyğəmbər buyurmuşdur:

«Səxavətli min cür mükafat alar,
Xəsis isə, cəhənnəm odunda yanar».

Bir dəfə imam Hüseyndən soruşurlar: «Sən hansı əməli bütün əməllərdən üstün tutursan?» O belə cavab verir:

«Sən həmişə yaxşılıq et, özündən sonrakı nəslin üçün ad qoy,
Axı bu dünya bizə də artıq bu dünyada olmayanlardan qalmışdır».

Bunun mənasını soruşanda imam belə cavab vermişdir: «Yəhya Bərməki haqqında hekayətlərdə deyilir ki, o, oğlanlarına səxavətli, mərhəmətli olmağı, kasıbların əlindən tutmağı vəsiyyət edəndə demişdir: «Var-dövlətiniz artdıqca səxavətiniz də artsın, bunun sizin var-dövlətinizə heç bir ziyanı olmaz, siz onu paylaşmaqla, o azalmaz, amma əgər var-dövlətiniz azalmaq, bitmək üzrədirsə, siz onu nə qədər qorusanız da, kar etməz».

Xəzinən qızıldan aşıb-daşanda
Kasıblarla paylaş ki, azalmasın.
Ehtiyac içində olduqda isə son qəpiyini də ver,
Onda əmin ola bilərsən ki, mütləq cənnətə düşəcəksən.

Məhəmməd ibn Yəzid əl-Mübarrədin dediyinə görə, sufi Məhəmməd ibn Yəhya belə nəql edirmiş: «Günlərin bir günü Harun ər-Rəşid at belində ova çıxmışdır, Yəhya Bərməki isə onu sağ tərəfdən müşayiət edirmiş. Birdən Harunun qarşısına bir səfil çıxır və deyir: «Ey möminlərin əmiri, mən bir fəqir kimsəyəm, bir atım var

idi, o da öldü. Mənə yardım et». Harun əmr edir ki, ona beş yüz dinar versinlər Bu hadisə Harunun xəlifə seçildiyindən lap az sonra baş vermişdir. Harunun o fəqirə beş yüz dinar verilməsini əmr etdiyini eşidən Yəhya qəzəblə Harundan üz çevirmişdir.

Onlar ovlağa çatanda Harun soruşur: «Ey Yəhya, bu fəqir məndən at istədi, mən ona düz beş yüz dinar verdim. Sən nə səbəbdən üzünü məndən qəzəblə çevirdin?»

Yəhya cavab vermişdir: «Ya möminlərin əmiri, sən indi yer üzünün xəlifəsisən, sənin davranışın, əməllərin, sözlərin adi adamların söz-söhbətindən, işindən, əməlindən fərqlənməlidir. Sən dilinə yüz, iki yüz və ya beş yüz kimi cılız rəqəmlər gətirməli deyilsən».

Bu hadisədən sonra Harun heç vaxt yardım etdiyi adamlara min dinardan az pul təklif etməmişdir.

Əli ibn Əhməd Hişam ibn İshaqa, o isə öz növbəsində Əli ibn Yəqtinə istinadən deyirdi:

«Bağdadda Əbü-l-Qasım adında bir adam yaşayırdı. Onun var-dövlətinin həddi-hüdudu yox idi.

O hər cümə axşamı, anım günündə min pudlarla çörək paylayaraq deyərdi: «Bu, Yəhya ibn Xalid ibn Əhmədin ruhuna verilən ehsandır». Qurban bayramında isə o, Bərməkilərin adına yüz qoç, əlli öküz kəsib füqəraya paylayardı. O, Allah qarşısında verdiyi əhdi yerinə yetirərək hər gün çoxdan bu dünyanı tərk etmiş Bərməkilərin sarayına gedər, oranı təftiş edərdi. İnsanlar bu sarayda toplaşanda Əbu-l-Qasım cürbəcür yeməklər, şirniyyatlar hazırladar, onlara paylayardı. Bu minvalla bir neçə il belə davam etmişdir.

Bir dəfə mən, Əli ibn Yəqtin bir dəstə şair və döyüşçü ilə Bərməkilər sarayını gəzməyə getdik. Fikrimiz bu keçmişdən qalmış abidədən bir ibrət dərsi əxz etmək idi. Onları seyr edə-edə baxdıq ki, çox ləngimişik. Bərməkilərin bağçasında Cəfərin sarayı var idi. Baxmayaraq ki onun yiyəsinin edamından illər keçmişdir, saray o qədər gözəl və möhtəşəm idi ki, adam heç oradan çıxmaq istəmirdi. Biz əmr etdik ki, xalçalar sərilsin, nökərlər yeməklər alıb gətirsinlər ki, axşamacan orada vaxt keçirək. Çox keçmədi ki, bir neçə nəfər gəlib, oranı təmizləyib, xalçalar sərib, yastıqlar düzüb, ətir səpib,

heç xəlifənin süfrəsində olmayan, cürbəcür, növbənöv təamlar gətirib, ziyafət qurdular.

Onlar bizə müraciət etdilər: «Buyurun, möhtərəm qonaqlar, Allahın adı ilə süfrəyə əl uzadın».

Biz soruşduq: «Bunlar haradandır? Biz kimin qonağıyıq?»

Cavab verdilər: «Siz bu yerlərin sahibinin qonağısınız!»

Mən dedim: «Deməli, biz xəlifənin qonaqlarıyıq?»

Cavab verdilər: «Xeyr, biz bu sarayları tikənləri nəzərdə tuturuq».

Mən güldüm və dedim:

- Axı onlar çoxdan torpağa qarışmışlar.

Nökərlərdən biri qəzəbləndi və dedi: «Yox, bilin ki, bu şəhərdə Əbü-l-Qəsəm Sərraf adında bir adam yaşayır. O, Bərməkilərin əqrəbalarındandır və bu saraylara təşrif buyuranlara hörmət və ehtiram göstərən də məhz odur. Əbü-l-Qəsəm deyir ki, nə qədər ki sağam, izin verməərəm ki, saraya təşrif buyuranlar duz-çörək kəsmədən getsinlər. O bu qaydaya artıq neçə illərdir riayət edir». Mən dedim: «Əgər o özü buraya təşrif buyurmasa, bizdən bir kəs süfrəyə əl uzatmayacaqdır».

Nökərlərdən biri həmin an gedib istəyimizi Əbü-l-Qəsəmə çatdırdı, o bizim yanımıza çox yüngül, nazik, sərin, ev yiyəsinin geyinəcəyi paltarda çıxdı. Bizə yaxınlaşıb, hər birimizi qucaqlayaraq dedi: «Xoş gəlmisiniz!» Sonra: «Bismillah Rəhmani Rəhim!» sözləri ilə hamımızı süfrəyə dəvət etdi. Yeyib, əllərimizi yuduqdan sonra o bizə səmimiyyətlə müraciət etdi: «Möhtərəm qonaqlar, imkanınız varsa, mümkündürsə, qalın, bu günü burada keçirək və bu sarayın sahiblərinin adlarını xoş niyyətlə yad edək». Biz əllərimizi şərab badələrinə uzadaraq cavab verdik: «Əla, bu çox gözəl olar». Çox keçmədi onlar kənizlərin arasından iki xanəndə seçib gətirdilər və onlar rudda çalıb, şeir oxumağa başladılar. Elə ki şərab Əbü-l-Qəsəmə təsir etdi, o durub başına döyməyə başladı və bu şeirin oxunmasını tələb etdi:

«Nə Fəzl, nə Yəhya, nə Cəfər qaldı bu dünyada,
Biz artıq bu zərbəyə tab gətirə bilmirik».

O, ağıları dinlədikcə elə ağlayırdı ki, adama elə gəlirdi bu dəqiqə canını tapşıracaqdır. O öz göz yaşları ilə bizi də kövrəltdi və biz də ona qoşulub ağlamağa başladıq. O, çox ağladı, amma, nəhayət, sakitləşib, gözlərini sildi və dedi: «Ey möhtərəm qonaqlar, siz, yəqin ki, öz-özünüzə deyirsiniz ki, bu adama nə olmuşdur, adlarından başqa heç nələri qalmamış bu adamlarla onu nə bağlayır?!» Sizin mənə haqq qazandırmağınız üçün mən öz tarixçəmi sizə danışmalıyam.

*Əbü-l-Qəsəm Sərrafın hekayəti*

Bilin, ey möhtərəm qonaqlar, mən Allahın kasıb bir bəndəsi idim və mənim dünya malından bir zövcəm və on qızımdan başqa heç nəyim yox idi. Qısası, evdə zövcəmdən, ac, ayağı yalın, paltarsız uşaqlarımdan başqa heç bir şey yox idi. O qədər bəxtsiz adam idim ki, əlimə qızıl da düşsə, külə dönürdü. Hər gün kiminsə məni hambal kimi və ya gil qarışdıran qara fəhlə kimi tutacağına ümid edərək bazara gedirdim. Əfsuslar olsun ki, mən tərəfə heç baxan da olmurdu; mən dilənirdim, insanlardan yardım istəyirdim, amma heç kəs mənə bir quruş da belə vermirdi. İş o yerə çatmışdır ki, artıq on gün idi, mən heç bir qazanc əldə edə bilməmişdim. Zövcəm də, mən də, uşaqlar da ac idik. Gecələr bazara gedib zibilliklərin içərisindən tullantılar, çürümüş meyvələr tapıb evə gətirirdim və biz zövcəmlə, uşaqlarımızla onları yeyirdik. Heç cür bu çıxılmaz vəziyyətdən qurtula bilmədiyimdən, özümə can-dildən ölüm arzulayırdım.

Qurban bayramı yaxınlaşırdı, zövcəm hər gün qışqırıb-bağırırdı, başını döyəcləyib deyirdi: «Sən neçə vaxtdır bizə bir tikə çörək gətirmirsən, biz ya acımızdan, ya da soyuqdan öləcəyik». Mən ona cavab verirdim: «İnan ki, bu, taleyin bir işidir, hara əl atıram, nəyə əl uzadıram, boşa çıxır, fikirləş, bəlkə sən bu halımızdan bir çıxış yolu taparsan?»

Zövcəm uşaqların üstünə yorğan əvəzinə atdığımız palazı götürüb, qonşuya keçdi. Zövcəm palazı girov qoyub, onlardan bir köynək, bir şalvar, bir də əmmamə bağlamaq üçün dəsmal alıb gəldi. O, bir dənə də yekə mətbəx bıçağı gətirmişdi. Zövcəm dedi: «Dur, ay kişi, bu da sənə təzə qazanc yolu. Dur, get cümə namazına, çalış ki,

birinci sırada durasan. Elə ki imam duasını qurtarıb qurbanlıq dəvənin kəsilməsinə əmr verdi, sən cəld tərpənib cəmdəkdən bir neçə tikə kəsib gətir ki, uşaqlar, heç olmasa, bir dəfə doyunca yesinlər, yoxsa, onlar bu gedişlə tezliklə öləcəklər». «Ay ağıllı zövcəm, - deyə qışqırdım, - sən mənə çox gözəl yol göstərdin». Gecə durub: «Bismillah Rəhmani-r-Rəhim» - deyib məscidə yola düşdüm, gedib lap qabaqda oturdum. Bıçağı hazırda tutmuşdum ki, hamıdan əvvəl bir neçə tikə ət kəsim, gedib uşaqlarımı doyuzdurum. İmam duasını bitirib, qurbanın kəsilməsinə göstəriş verdi. Qurban kəsiləndə hamıdan qabağa düşüb böyük bir tikə kəsdim, amma qayıdan baş şəhərin çıxacağındakı meydanda oğru-quldurların əlinə düşdüm, onlar məni yerə yıxıb, ölümcül hala düşənəcən döyüb təpiklədilər. Əynimdəki pal-paltarı, kəsdiyim əti, bıçağı götürüb qaçdılar. Mən huşumu itirib yıxıldım və gün çıxanacan orada sərilmiş qaldım. Bütün gücümü toplayıb qalxdım və ürəyimdə dedim: «Biz hamımız Allah tərəfindən yaranmışıq, Allahın dərgahına da dönəsiyik. Mən indi hara gedim? Evə qayıtmağa, sadəcə, üzüm gəlmir, nə edəcəyimi də bilmi rəm». Sonra bu əzablardan qurtulmaq üçün Fərat çayına özümü atıb öldürmək məqsədi ilə şəhərə tərəf yollandım. Amma Allahın lütfü ilə tale məni bir uğurlu qismətə yönəltdi. Tutub getdiyim yol məni Yəhya ibn Xalid əl-Bərməkinin sarayı istiqamətinə saldı. Saray divarlarına yaxınlaşanda mənə dəymiş təpiklərin ağrı-acısından, taqətsizlikdən huşumu itirib elə oradaca-kölgəlikdə halsız düşüb qaldım. Təsadüf elə gətirdi ki, o arada Yəhya ibn Xalid xəlifənin sarayından qayıdırdı. Yanımdan keçəndə məni başı yarılmış, paltarı cırılmış, yerə sərilmiş vəziyyətdə görüb, əshabələrindən soruşur: «Bu yazıq, binəva kimdir? Bu zavallının vəziyyəti ya, həqiqətən, fənadır, ya da o, sadəcə, küçələrdə dolaşan səfildir». Bunu deyib içəri keçəndə nökərlərinə əmr edir: «Küçədə yıxılıb qalmış o adamı mənim yanıma gətirin». İki nökər mənə yaxınlaşıb soruşdu: «Ay səfil, burada nə edirsən? Xəlifənin vəziri səni burada görüb, buyurur ki, onun hüzuruna aparaq. Dur bizimlə gedək. Bu gün sənin günündür». Bu sözləri eşidəndə dərd-sərimi, ağrı-acımı unutdum, amma canıma düşən qorxudan az qaldım öləm. Saraya girəndə Yəhya ibn Xalid buyurdu ki,

məni yaxına gətirsinlər. Sonra mənə müraciət etdi: «Bu gün ən xoş günlərdən biridir. İnsanlar sevinməli, xeyriyyəçiliklə məşğul olmalı, ya nəzir-niyaz paylamalı, ya da nəzir-niyaz yığmalıdır. Sənin bu işlərdən biri ilə məşğul olduğunu görmürəm. Sən kimsən və nə üçün mənim sarayımın qapısında yatıb qalmısan?» Mən qorxudan əsməyə başladım və cavab verə bilmədim. Bu zaman burada olan hər bir nökər məni cəzalandırmaq üçün öz təklifini söylədi. Biri dedi: «Ya Əmir, - Allah səni hifz etsin! - izin ver, onu qırmancla döyək, onda o öz niyyətini bəyan edər». Qırmanc sözünü eşidəndə hönkürüb ağlamağa başladım, üzümü göyə tutub yalvardım: «Ya Allah, mənim artıq gücüm, taqətim qalmayıb, Sən indi də mənim dadıma çatmasan, qorxuram, sənə olan inamımı da itirəm».

Yəhya bu sözləri eşidib dedi: «Qorxma, heç kəs sənə əl vurmayacaqdır. Yaxşısı budur, sən öz hal-əhvalını söylə, Allah-təala da sənin qarşında xoşbəxtlik qapılarını açsın». Bu xoş sözləri eşidəndə ürəyim bir az rahat oldu, dedim: «Allah vəzirə yar olsun! Mən dünyanın ən bəxtsiz, ən talesiz insanıyam. Mənim kimi bədbəxt insanı yer üzündə tapmaq mümkün olmaz». Bunu deyib, başıma gələnləri danışmağa başladım. Yəhya məni ağlaya-ağlaya dinləyirdi. O, o qədər ağladı ki, ipək yaylığı tam yaş oldu. Bu vaxt o, yaş yaylığını nökərlərindən birinin üstünə ataraq ona nəsə dedi və təzə yaylıq gətirməsini buyurdu. Nökər gözdən itdi və bir müddət sonra qayıdıb, vəzirə yaylıq gətirdi, mənim qarşıma isə min dinarlıq pul kisəsi qoydu. Yəhya yenə mənə müraciət edərək dedi: «Sən başına gələnləri bir dəfə də başdan danış». Mən başıma gələnləri danışdıqca o ağladı və onun bu yaylığı da yaş oldu. O, nökərə əmr etdi ki, təzə yaylıq və yenə min dinarlıq pul kisəsi gətirsin. Nökər onun əmrini icra etdi. Sonra o yenə məndən başıma gələnləri danışmağı rica etdi. Yenə mən danışdım, o ağladı. Bu minvalla bu hal on dəfə təkrar oldu və beləliklə, o mənə içərisində min dinar olan on pul kisəsi bağışladı. Sonra mənə dedi: «Dostum, bunları götür, evə get. Bu pulla özünün, ailənin işlərini yoluna qoy. Birigün yenə bizim yanımıza təşrif buyurarsan və başına gələnləri oğlanlarıma danışarsan. Qoy onlar insan payına düşə biləcək qara bəxt, qara tale haqqında bu qəmgin hekayəti sənin özündən eşitsinlər və Allaha bizə

göstərdiyi lütfə görə dualar etsinlər. Biz isə düşünərik sənə daha nə cür yardım etmək olar».

Mən həmin dəqiqə ayağa qalxdım və pul kisələrini qaldırmağa cəhd etdim, amma nə qədər çalışdım, onları qaldıra bilmədim. Vəzir əmr etdi ki, mənə kömək etmək üçün hamballar çağırsınlar. Onlar həmin an gəldilər və kisələri bellərinə yüklədilər. Beş-altı addım aralanmamışdıq ki, vəzir məni saxlayıb dedi: «Dostum, dayan. Axı sən buradan pal-paltarsız gedirsən. Sən və sənin ailənin pal-paltarı, əyin-başı yoxdur, sən parça alıb, hamıya paltar tikdirənədək çox zaman keçəcəkdir və sənin uşaqların məyus olacaqlar. Ay uşaq, tez on bir dəst gözəl, nəfis qadın paltarı və bir kişi xələti gətirin». Orada olan saray adamları həmin dəqiqə deyilənləri hazır etdilər. Vəzir dedi: «Bu gün bayramdır, sənin övladların isə acdır və indi, bu saatdan sonra sən artıq heç bir şey hazır edə bilməzsən. Baş aşpazı buraya çağırın». Baş aşpaz gəldi. Vəzir dedi: «Bizim üçün hazırladıqlarının hamısını: qabları, qazanları ilə birlikdə bu kişinin evinə yolla, biz isə bu gün ümumi saray əhli üçün hazırladıqlarından yeyərik». Baş aşpaz gedib hər birinin üstünə iki sandıq yüklənmiş on qatır gətirdi. O bütün yeməkləri, çörəkləri, Bərməkilər üçün qızıl və gümüş qablarda hazırlanmış xüsusi şirniyyatları qatırlara yüklədi və biz mənim evimə yollandıq. Mən qabaqda gedirdim, nökərlər isə qatırlarla birgə mənim ardımca gəlirdilər.

Nəhayət, biz evə çatdıq. Mən daxmamın qapısını döydüm. Zavallı zövcəm gəlib çıxmadığım üçün acı-acı ağlayırdı, paltarı olmadığı üçün evdən çıxıb məni axtarmağa da gedə bilməmişdir. Qapı döyüləndə soruşdu: «Kimdir?» «Mənəm, ərin, - deyə cavab verdim». Zövcəm qışqırdı: «Allah sənə lənət etsin, haralarda gəzirsən?» Mənim əhval-ruhiyyəm yüksək idi, dedim: «Boş-boş danışma, aç qapını, gör nələr görəcəksən!» Zövcəm qapını açdı. Mən içəri girdim, nökərlər qatırların üstündəkiləri boşaltdılar, on dənə min dinarlıq pul kisəsini, on bir dəst zərli-zibalı qadın paltarını, bir gözəl kişi xələtini, iyirmi cürbəcür çərəz-şirniyyatla dolu sandığı evə gətirdilər. Mən zövcəmə və qızlarıma dedim ki, bu tərəfə-mənim yanıma keçsinlər. Gətirdiklərimi görəndə onlar qorxu içində dilləndilər: «Evimiz yıxıldı, bunlar haradandır?» Mən onlara dedim

ki, bütün bu var-dövləti mənə Yəhya ibn Xalid bəxş etmişdir. Onlar sevindiklərindən az qala ağıllarını itirmişdilər. Daha sonra biz sandıqları açanda onların içində növbənöv şirniyyatlarla dolu qiymətli, misli-bərabəri olmayan yüz qızıl qab gördük. Sözün qısası, buradakı qabların gözəlliyi, yeməklərin, şirniyyatın dadı heç bir tərifə sığmırdı. Hər birisinin içərisində min dinar olan pul kisələrinin ağızlarını açdıqca, ürəyim sevincdən az qala partlayırdı. Mən nə edəcəyimi, bu xoşbəxtliyi, bu sevinci necə yaşayacağımı bilmirdim. Biz məhəlləmizdə yaşayanların hamısını dəvət etdik və xoş günümüzü onlarla paylaşdıq. Bizim var-varidatımızı, açdığımız süfrəni görüb, qonşularımız bizimlə fərqli - başqa cür rəftar etməyə başladılar. Onlar deyirdilər: «Ah, biz necə nadan olmuşuq, neçə illərdir, siz burada bizimlə qonşusunuz, biz sizə ehtiram göstərib, sizinlə hesablaşmamışıq. Biz indi başa düşürük ki, nə qədər nadan, cahil olmuşuq». Mən dedim: «Bunda sizin heç bir günahınız yoxdur. Günah taledədir».

Mən tez bir zamanda özümə gözəl qoşqulu at aldım, Bərməkilər sarayının yaxınlığında torpaq sahəsi, yaxşı ev aldım və təzim üçün Yəhya ibn Xalidin hüzuruna yollandım. Vəzir məni görəndə, əvvəlcə tanımadı və soruşdu: «Sən kimsən və bizdən nə istəyirsən?» Dedim: «Allah səni öz pənahında saxlasın, ya vəzir! Mən sənin bayram günü dərd-bəla caynaqlarından xilas edib, həyata qaytardığın həmin adamam». Onda Yəhya ibn Xalid oğlanlarının gəlməsini buyurdu. O, oğullarına dedi: «Bu adamın sizə danışacağı hekayəti dinləyin və Allaha bizə göstərdiyi lütf üçün şükürlər edin və həmişə onun böyüklüyü, qüdrəti, əzəməti qarşısında baş əyin!»

Yəhyanın oğulları – Cəfər, Fəzl, Musa, Məhəmməd mənim hekayətimi eşidib ağladılar və hər biri mənə beş min dinar və gözəl torpaq sahəsi bağışladılar. Bundan sonra mən onların əshabələrindən biri oldum və bizim dostluğumuz onların başına bəlalar gələnədək davam etdi. Mənim Bərməkilər ailəsi ilə yaxınlığımı heç kəs bilmirdi. Onların başına bu bəlalar gələndən sonra mən Məkkəyə getdim, ziyarətimi etdim və o zamandan onların mərhəməti sayəsində yaşayıram. Mən o qədər varlandım, o qədər var-varidat sahibi oldum, xalq içində o qədər hörmət qazandım ki, sanki o səfalət içində yaşayan kasıb bəndə mən deyildim. İndi mən onları ağlayıb,

adlarına ehsan verirəmsə, bu onların halal haqlarıdır – Allah onlara və onlar kimilərinə rəhmət eləsin!»

### *Fəzl və onun katibi haqqında hekayət*

Həsən ibn Səhl Yəhyanın oğlu Fəzl və onun katibi haqqında belə bir əhvalat danışırdı: «Fəzl ibn Yəhyanın ona işgüzar məktub üslubunu öyrədən bir katibi var idi. Bir gün o, Fəzl üçün məktub hazırlayanda bir məsələ ilə bağlı ona müraciət etməli olur. Fəzl qəzəblənərək deyir: «Nə qədər soruşmaq olar, əl çək məndən». Fəzlin pis xüsusiyyətləri var idi. O həm çox təkəbbürlü və həm də çox ötkəm idi.

Katib Fəzlin rəftarını görüb, qamış qələmi mürəkkəbdən çıxarıb, üstünü örtür və deyir: «Doğrudur, mən sənə xidmət edirəm, sənin qulluğundayam, amma azad, təhsilli adamlarla, ustad xəttatlarla heç kəs sənin kimi rəftar etmir». Fəzl deyir: «Yetər, bəsdir. Get, məktubu tamamla». Katib bütün müqəddəslərin ruhuna and içərək daha Fəzlə xidmət etməyəcəyini bildirir. Fəzl bunu eşidib daha da qəzəblənir. Onların arasında mübahisə yaranır və onlar bir-birlərinə çox artıq, gərəksiz sözlər deyirlər.

Yəhya ibn Xalidin həmişə oğlanlarının evində ona xidmət edən adamı olurdu. Həmin adam orada baş verənləri vaxtlı-vaxtında ona çatdırırdı. Bu hadisə də Yəhya ibn Xalidə çatır. O özünü tez oğlunun sarayına çatdırır. Fəzlə atasının qonşu otaqda olduğunu xəbər verirlər. O, tez özünü yığışdırır. Yəhya otağa girən kimi Fəzl də, katib də susurlar.

Yəhya soruşur: «Aranızda nə baş vermişdir?»

Fəzl cavab verir: «Mən buna bir məktub hazırlamağı tapşırmışam, bu isə and içir, aman edir ki, daha mənə xidmət etməyəcək».

Yəhya Fəzlə deyir: «Oğlum, katiblərlə hörmətlə rəftar etmək lazımdır, çünki hətta padşahlar da işlərini ancaq çox hörmət etdikləri, inandıqları katiblərə tapşırırlar. Əgər sən katibini incidib, qəlbini qırmısansa, onda artıq ona heç bir iş tapşırma».

Sonra Yəhya üzünü katibə tutub demişdir: «Sən artıq gedə bilərsən, biz səni işdən azad edirik».

O, nökərə əmr edir ki, katibin evinə beş yüz min dirhəm aparsın və üzünü katibə tutub deyir: «Oğlum, əgər xəlifənin yanında təzə bir iş almaq istəyirsənsə, divana gəl, mən səni layiqli bir işlə təmin edərəm».

Katib Fəzl ibn Yəhyanın yanından gedəndən sonra bir neçə il də Fəzl ibn Rəbiinin yanında işləyir. Bir müddət sonra Bərməkilərin başına bəlalar gəlir – onların hamısını edam edirlər. İş belə gətirir ki, Fəzlin mülkünün, xəzinəsinin siyahıya alınmasını məhz həmin katibə tapşırırlar. Zavallı katib bundan çox üzülür, o, keçmiş sultanının sarayında otaqları gəzir və əlindən gələni edirdi ki, hörmətsizliyə yol verilməsin. O, adlarına ləkə gəlməsin deyə bir kəsin hərəmxanaya keçməsinə imkan vermirdi.

Bir sözlə, katib onun boynuna qoyulmuş bu xoşagəlməz vəzifəni yerinə yetirəndə hər bir vəchlə sultanının şərəfini qoruyurdu. Nəhayət, onun bu qayğısını müşahidə edən məmurlardan biri hirslə deyir: «Nə tez onların sənə etdikləri haqsızlıqları unutdun? Onlardan bildiyin nə pis iş varsa, gizlətmə, de».

Katib ağlayıb, cibindən Fəzlin əli ilə yazılmış bir kağız parçasını çıxarır. Orada yazılmışdı: «Bismillah Rəhmani-r-Rəhim! Mən bir dəfə xəlifənin tapşırığını yerinə yetirdiyim üçün namazımı ötürməli oldum. Onun əvəzini çıxmaq məqsədi ilə mənim xəzinəmdən iki yüz min dinarı kasıblara paylamağınızı istəyirəm. Allah amanında!» Katib bunu oxuyub fəryad etdi: «Bir namazını ötürdüyü üçün kasıblara iki yüz min dinar paylamış bir adamı necə qınamaq, tənə etmək olar?» Katib bunu deyib, kağız parçasını qatlayıb, yenə də cibində gizlətdi.

### *İbrahim ibn Cəbrayıl və Fəzl haqqında hekayət*

Əbd-əl-Vəhid ibn Məhəmməd belə nəql edirdi: «Harun ər-Rəşid Fəzl ibn Yəhyanı Xorasanın əmiri təyin edəndə bütün yüksək rütbəli insanlar, əyanlar onu görmək üçün hüzuruna təşrif buyurmuşdular. Fəzl ibn Yəhya onların hər birini adına, mövqeyinə, bacarığına uyğun vəzifələrə təyin edir. İbrahim ibn Cəbrayıl ibn Bəxtişu xəlifə sarayının sayılan, seçilən səhabələrindən idi. O da

Fəzl Xorasanın əmiri təyin olunanda onun ardınca getmişdir. İbrahimin atası xəlifənin şəxsi həkimi və bütün saray həkimlərinin rəhbəri idi. Fəzl İbrahim ibn Cəbrayılı Sistan və Nimruzun xaqanı təyin edir və onu o vilayətlərə göndərərək onları haqq-ədalətlə idarə etməsini buyurur. İbrahim təyin olunduğu yerə gedir və ona həvalə edilmiş vilayətləri haqq-ədalətlə, ləyaqətlə idarə edir, əmin-amanlığı bərqərar edir, zülmü, zalımlığı aradan qaldırır. O, üç il bu yerlərdə hökmdarlıq edərək cənnət-məkan yaradır.

Harun ər-Rəşid Fəzli işdən azad edib Xorasandan geri çağıranda İbrahim ibn Cəbrayıl o saat Sistanı tərk edib Bağdada gedir. O, burada böyük məsrəflə Fəzlin şərəfinə möhtəşəm bir ziyafət qurur. Fəzl ibn Yəhyanı da şərəfinə qurulmuş ziyafətə dəvət edərək deyir: «İstəyirəm sənə Sistanda qazandıqlarımı göstərim. Bu gördüklərin sənə olan borcumun heç yüzdə biri də deyildir».

Sonra Fəzlinin ayaqları altına saysız-hesabsız sayda çox qiymətli xalılar sərilir. Zalın ortasına çatanda qarşısına yeddi milyon dirhəm dəyərində ləl-cəvahirat dolu xurcunlar qoyulur. İbrahim Fəzlə deyir: «Bunların hamısı sənindir, bunlar vergidən əldə olunmuş qənimətdir deyə qanunla sənə məxsusdur». Fəzl cavabında deyir: «Mən isə öz tərəfimdən bunları sənə bağışlayıram». İbrahim dediyindən əl çəkmək istəmirdi, onda Fəzl əlini uzadıb, bir xurcunun üstündəki qamçını götürüb deyir: «Bu, çapar üçün ən dəyərli şeydir». Fəzl bunu deyib, getmişdir.

### *Fəzl və Yəhya ibn Məaz haqqında hekayət*

Əbdu əl-Vahid ibn Məhəmməd Fəzl ibn Yəhyanın səxavətindən, ürəyinin genişliyindən belə danışırdı: «Fəzl ibn Yəhyanı Xorasanın canişini təyin edəndə, Yəhya ibn Məaz onun yanına gedir. Fəzl Yəhya ibn Məazı çox səmimi, hörmət-izzətlə qarşılayır və onu özünə müavin təyin edir. Bu minvalla onlar bir müddət bir yerdə işləyirlər, onlara həvalə edilmiş vilayəti idarə edirlər. Bir dəfə Fəzl Yəhya ibn Məazdan soruşur: «Xəzinədə nə qədər ehtiyatımız vardır?» Yəhya cavab verir: «Ya əmir, yüz min dirhəmin dörd misli qədər». Fəzl demiş: «Onları özünə götür, bu pulları sənə bağışla-

yıram». Yəhya fikirləşir ki, əmir onu düzgün başa düşməmişdir, ona görə bir də təkrar edir: «Yox, yox, mən dedim ki, xəzinədə dörd yüz min dirhəm var, yəni dörd dəfə yüz min». Fəzl cavab verir: «Mən səni anladım, o pulların hamısını və şəxsi ehtiyatlarımızdan da bir o qədərini özünə götür».

*Fəzl və cavan bəy haqqında hekayət*

Həsən ibn əl-Hüseyn danışırdı: «Bir gün Fəzl ibn Yəhya xəlifənin sarayından evə qayıdırmış. Həmin vaxt bir kasıb əkinçinin toy gününə təsadüf edir. Bəy və onun qohum-əqrəbası gəlini bəy evinə aparırdılar.

Bağdad əhlinin adətinə görə, gəlin kəcavədə getməli, nizəçilərin bir hissəsi kəcavənin önündə, digər hissəsi arxada və onlardan da sonra minik heyvanlarında qohum-əqrəba getməlidir.

Bəy Fəzli görən kimi qatırından düşüb ona tərəf qaçaraq əyilib atının üzəngisini öpür.

Fəzl əshabələrindən soruşur: «Bu gənc kimdir?» Onlar cavab verirlər: «Ya vəzir, bu, adi bir əkinçidir, indi toy edir, evlənir. Bu kəcavədə isə onun gəlinini aparırlar». Fəzl soruşur: «Bu yerlərdə gəlinin süd pulu nə qədərdir?» Ətrafdakılar demişlər: «Dörd min dirhəm». Fəzl həmin saat əmr edir ki, gəncin evinə dörd min dirhəm çatdırsınlar. Sonra əmr edir ki, daha dörd min dirhəm toy xərci kimi və dörd min dirhəm də yaxşı bir torpaq sahəsinin alınması üçün ayırsınlar.

Xülasə, o, gəncə on iki min dirhəm pul verilməsini əmr edir. Elə bu vaxt sərkərdələrdən biri gəncə yaxınlaşıb deyir: «Vəzirə yaxınlaşıb onun əshabələrinin də toyda iştirak etməklərini arzuladığını söylə».

Bəy tez Fəzlin yanına qaçıb, yenə atının üzəngisini öpüb deyir: «Allah vəzirimizi öz pənahında saxlasın! Sən öz mərhəmət və səxavətini məndən əsirgəmədin, məni tam xoşbəxt görmək istəyirsənsə, izin ver əshabələrin də qulunun evinə - toy məclisinə təşrif buyursunlar».

Fəzl əshabələrinə buyurur ki, cavan bəyin evinə gedib, toyunda iştirak etsinlər. Onlar, kasıb əkinçinin evinə getməyi özünə əskiklik bilməyən vəzirlə bərabər toy evinə gedirlər. Toy qurtaranda bütün xərclərdən əlavə bəyin əlində əlli min dirhəm pul qalır.

Allah onların hamısına yar olsun!».

# VIII FƏSİL

## Rum müdriklərinin hikmət və nəsihətləri, möbidlər möbidinin kəlamları və onun Bəhmən şah üçün etdikləri haqqında

Belə nəql edirlər ki, günlərin bir günü Bəhmən şah əmr edir ki, yer üzünün ən müdrik adamını tapıb onun hüzuruna gətirsinlər. Vəzirlər, sarayın əyanları çox gəzib, çox soraqlaşırlar, nəhayət, Möbidan adlı bir nəfəri tapırlar. O, ağlı, müdrikliyi, dərrakəsi ilə seçilən birisi idi. O gələndə Bəhmən deyir: «Sən mənim üçün kiçik, amma elə bir kəlamlar toplusu tərtib etməlisən ki, insanlar ondan rahat istifadə edə bilsinlər». Möbidan cavab verir: «Allah padşahımızın ömrünü uzun eləsin! İzin versən, mən Rum aqillərinin kəlamlarını beş cümlədə elə izhar edim ki, sən onları işinə tətbiq edib, onlara əməl etsən, bil ki, hər iki dünyada əzabdan xilas olarsan». Bəhmən çox sevinir və deyir:

«Sənin nəsihətlərini sırğa edib qulağıma taxaram
Onlara əməl edib bir doğru yol taparam».

Möbidlərin möbidi deyir: «Ey şah, bil ki, xalqın üzərində hökmdarlıq etmək çox çətin və məsuliyyətli işdir, onun öhdəsindən ancaq imanın, ağılın, təmkinin, mərhəmətin, ədalətin köməkliyi ilə gəlmək olar və hökmdarların ömrünün uzun olacağına arxayın olub, biganəlik etmək yaramaz.

Taleyin yazdığı qanuna görə
Öləcəyimiz günü bilməyə qadir deyilik,
O, həmişə pusquda durmuş düşmənə bənzəyir
Şah, ona görə hər zaman ölümü düşün!

Sən həmişə, hər işində diqqətli olmalısan. Bu dünyanın məğzini dərindən anlamalısan. Bilməlisən ki, bu əzəli-sonu bilinməyən dünyada sənə qədər də çox hökmdar olmuş, amma onların heç birinin hökmdarlığı sonsuz olmamışdır, deməli, səni də həmin aqibət gözləyir. Bütün dövrlərin aqil və müdrikləri bu dünyanı iki darvazalı karvansaraya, insanları isə karvana bənzətmişlər. Bir qapıdan karvansaraya daxil olan karvan bir müddətdən sonra o biri darvazadan çıxar. Belə olan halda, ey şah, sən öz işlərində həmişə diqqətli olmalısan və cahil, nadan saray əyanlarına, əmirlərinə etibar etməməlisən, çünki saraya dəyən hər hansı xətər məhz onların əməllərinin nəticəsidir. Bir həqiqəti unutma ki, Nuh kimi uzunömürlü, Süleyman kimi qüdrətli, Əyyub kimi səbrli, Harun kimi varlı olsan belə, sonda bütün var-varidatını qoyub, bu fani dünyanı tərk edəcəksən. Buna görə də heç bir ağlı başında olan hökmdar biganəliyə yol verməməlidir. Əks halda məmurları xəzinəsini talayar, onu da cəhənnəm oduna düçar edərlər. Məhz buna görə sən həmişə tabeçiliyində olanlara qarşı diqqətli olmalı və bu sözləri qulaqlarınla eşidib, qəlbinlə hiss edib, ağlınla, idrakınla dərk edib işlərinə tətbiq etməlisən. Birincisi, sən bütün dövlət və saray işlərini iyirmi beş yerə bölməlisən, sonra onları beş hissəyə ayırmalısan:

- Birinci hissəni taleyin axarına burax.
- İkinci hissəni dünyəvi işlərə həsr et.
- Üçüncü hissəni iki yerə böl: birinci hissəsini elm-bilik öyrənib onun həyata tətbiq edilməsinə, o biri hissəsini isə özünün fitrətdən gələn daxili aləminin, şəxsi xüsusiyyətlərinin cilalanmasına sərf et.
- Dördüncü hissəni insan xislətinin təzahürünə həsr et.
- Beşinci hissəni isə təbəələrinin qayğısını çəkməyə yönəlt.

Sən bu bölgüyə riayət etsən, bil və agah ol, bütün işlərin yolunda olar.

Birinci hissəyə, yəni, taleyin əlində olan işlərə: dövlət işləri, mal-dövlət, övladlar, ömrün uzunluğu, dövlətdə baş verə biləcək gözlənilməz, fövqəladə hadisələr aiddir.

İkinci, dünyəvi işlər, insan tələbatlarına aid hissə özündə yemək, yuxu, bilik və əməyi cəmləşdirir.

Üçüncü hissənin birinci yarımhissəsinə: fərasətin, yaddaşın, cəsarətin, gözəlliyin, gücün tərbiyə edilməsi, ikinci yarımhissəsinə isə elmə-biliyə yiyələnmə, dövlətin əmin-amanlığı, sənət və peşələrin inkişafı, Allaha qulluq və xeyriyyəçilik aiddir.

Dördüncü, insan xislətinin təzahürü dediyimiz hissəyə mərhəmət, səxavət, ədalət, əhdə sədaqət, mülayimlik, məlahət aiddir.

Beşinci hissəyə isə çalışqanlıq, özünə qarşı tələbkarlıq, sənədləşmə işlərində peşəkarlıq, at çapma məharəti, Allaha inam və qulluq aiddir.

Heç vaxt vacib işləri sonraya qoyma, səbir və təmkin tələb edən işlərdə isə tələskənliyə yol vermə. Ümumiyyətlə, hökmdarlığın əsasını haqq və ədalət təşkil edir. Heç vaxt ağıl tələb edən işləri nadana tapşırma, çünki bu, dövlətə ziyan vurar, hökmdarın adını isə rəzil edər. Hökmdarın ən böyük eyiblərindən biri biganəlik, digəri isə tənbəllikdir. Böyük hökmdar, inan ki, sən bu deyilənlərə əməl etsən, mən tam əminliklə deyə bilərəm ki, ömrünün sonunadək dərd-kədər bilməyəcəksən, heç nəyin peşmançılığını çəkməyəcəksən, axirətdə isə heç bir düşmən sənə güc gələ bilməyəcəkdir. Allah köməyin olsun!»

# IX FƏSİL

## Huşəngin öz oğluna nəsihətləri

Deyirlər ki, yer üzündə çox qüdrətli, şöhrətli bir padşah yaşayırmış. Yer üzündə, ümumiyyətlə, ikinci onun kimisi yox imiş. Onun hökmdarlığı bütün hind padşahlarının üzərində hökm-fərman idi. Uca Allah ona çox ağıllı, fərasətli, zəkalı, kamil bir oğul bəxş etmişdi. Oğlunu dərin məhəbbətlə sevən hökmdar ömrünün sona çatdığını, bu fani dünyanı tərk etmək saatının yetişdiyini hiss edəndə ona nəsihət vermişdir:

- Oğlum, qəlbini həmişə ancaq Allaha ver, əxlaqsız, mənəviyyatsız qadınlardan uzaq dur, çünki hökmdarların başlarının tacı əxlaqlı, ismətli zövcələridir. Oğlum, heç bir sirrini heç bir qadına vermə, çünki sonra çox peşman olacaqsan, amma artıq peşmançılığının heç bir faydası olmayacaqdır.

- Oğlum, heç vaxt Allaha asi düşmə, verdiyi dərdlərə görə naşükürlük etmə, həmişə şükür et.

- Oğlum, biri səninlə söhbət edərkən bütün fikrini toplayıb onu dinlə, o özü səndən bir şey soruşmayana qədər danışma.

- Oğlum, əgər ağıllı bir məsləhət verməyə qadirsənsə, susma və əgər susmağı bacarırsansa, heç kəsin sirrini açma.

- Oğlum, bir müflis olmuşlarla, bir də özündən güclü-qüdrətli olanlarla ortaq iş görmə. Borcunu qaytarmaq iqtidarında olmayan kəslərə borc vermə.

- Oğlum, oxumuş, ağıllı, savadlı adamlarla mübahisə etmə, şairlərlə çalış xoş münasibətdə ol.

- Oğlum, abırsız, həyasız, miskin, rəzil insanlarla eyni qabdan yemə. Başqasının süfrəsindən qidalanma, bəxtəvər, xoşbəxt insanlarla düşmənçilik etmə, mərhəmətli, səxavətli insanlarla dostluq et ki, adın mötəbər adlar sırasında çəkilsin, ləyaqətsiz insanlardan uzaq dur ki, adın nalayiq adamların adı ilə bir çəkilməsin.

Nalayiq insanları evinə dəvət etmə.
Onların gətirdikləri çirkab sonra çətin təmizlənər,
Axı balaca görünən bir bulud da
Böyük günəşin qarşısını alır.

- Oğlum, boşboğaz adamlardan uzaq dur, rəzil, alçaq adamlardan qaç ki, başına bəlalar gəlməsin.
- Oğlum, bacarsan, alim ol, elmlərə yiyələn ki, dünya malının, var-dövlətin sənin gözündə bir önəmi olmasın, var-dövlət sahibi olmadığına kədərlənməyəsən.
- Oğlum, əlindən çıxan hər hansı şeyə görə heç vaxt üzülmə, əlinə var-dövlət, gəldikdə isə ondan həm özün doyunca bəhrələn, həm də başqaları ilə paylaş, onun azalacağından qorxma. Bir gün var-dövlətin əlindən çıxmağa başlayarsa, yenə də onu əvvəlki kimi xərcləməkdə davam et, çünki sən xəsislik edib xərcləməsən də, o sənə qayıtmayacaqdır.
- Oğlum, özünü əskilmiş, alçalmış hiss etmək istəmirsənsə, əyri, nadürüst yolla var-dövlət sahibi olanlarla, paxıl, xəsis adamlarla oturub-durma. Axmaq dost və ağıllı düşməndən ehtiyat et.
- Oğlum, heç vaxt and içmə, çünki qarşıda səni taleyin çox qəribə oyunları gözləyə bilər və məlum deyil ki, bu işlər nə ilə nəticələnər.
- Oğlum, nə qədər məharətli həmsöhbət olsan da, hər kəslə hər mövzuda mübahisə etmə. Heç vaxt nə qədər gözəl üzgüçü olsan belə, hər suya baş vurma.
- Oğlum, gəlir-çıxarını həmişə bil ki, insanlar səni cahil, nadan kimi tanımasınlar və aldatmasınlar. Yüz ölçüb bir biçməyənəcən heç bir işə başlama.

Həyat səyahətinə ümid libası geyin,
Ustad dərzi kimi onu əyninə ölçdürüb, biçdir.

- Oğlum, ölümü heç vaxt unutma, çünki min il yaşasan belə, yenə də öləcəksən.

- Oğlum, heç vaxt bu dünyanı axirət dünyasından üstün tutma, çünki bu dünya axirət dünyası üçün zəmidir, nə əkərsən, onu da biçərsən, bütün işlərində Allaha güvən, çünki bütün uğurların və məğlubiyyətlərin kökü Ona bağlıdır.

- Oğlum, məclislərdə heç vaxt yuxarı başda əyləşməyə can atma, çünki yuxarı başda əyləşməyə ancaq Peyğəmbərlər layiqdir.

Şam kimi layiq olmadığın yüksək yerdə əyləşmə ki,
Əsən yellər səni vaxtsız söndürməsin.

- Oğlum, bu dünyaya sən bel bağlama, mala, pula, dövlətə arxalanma.

Bu dünyada heç zaman var-dövlətinlə fəxr etmə,
Heç vaxt adınla, şan- şöhrətinlə öyünmə.
Həyat nədir? Sürətlə əsən küləkdir.
Var-dövlət nədir? Axar sudur.

- Oğlum, heyvanları öldürməkdən çəkin. Qidalanmağın üçün yetərli olduğu qədər, o dünyada cavabını verə biləcəyin qədər öldür. Onu dəqiq bil ki, qətl olan yerlərdə insanların sayı azalar, qətl olmayan yerlərdə isə həmişə şadyanalıq, xoşbəxtlik olar.

Büzürcmehr deyirdi: «Mən bu dünyanın hər üzünü görmüşəm və bu qənaətə qəlmişəm ki, ona etibar etmək olmaz.

Birincisi, əmin oldum ki, dünya dəyişkəndir və dünyada hər nə varsa, insanlar da, o cümlədən, məhv olub çürüməyə məhkumdur. Bütün möhtəşəm tikililər dağılıb yox olacaq, gördüyümüz bütün gözoxşayan naz-nemətlərin isə ömrü çox qısadır və bütün bu cah-cəlal qəm-kədərlə yoğurulmuşdur, bu dünyanın dərdi böyük, sevinci kiçikdir.

Daha sonra anladım ki, dünya fani dünyadır, balı zəhərə qarışmış, dünya övladları bir-birinə düşmən kəsilmiş, dərd içindədirlər, alimlər hörmətdən düşmüş, möhtəşəm saraylar uçub dağılmışdır. Həyat ölümlə bitir, məhəbbət iztirabdan ibarətdir və bu zəhərli dünyanın əlacı da zəhərdir».

- Oğlum, dünyanı belə görüb, ona qarşı ömürlük etinasızlaşdım və zərləri mücrüdə gizlətdim.

- Oğlum, bil ki, əgər dünyanı bütün naz-neməti ilə bir adama versələr, o adam yenə də qane olmayacaqdır, onun nəfsi tükənməyəcək, gözləri doymayacaqdır, əksinə ondakı hərislik daha da alovlanacaq, son nəfəsinədək gözü dünya malında, könlü insanların həyatında olacaqdır.

- Oğlum, dünya amansız və fanidir. Min il yaşasan belə sonda külə dönəcəksən, yüz dəfə ömrünü uzatsalar, yenə də sonda öləcəksən.

- Oğlum, o iti gözlərini geniş aç və həqiqəti gör, gör ki, bu fani dünyada bizə çox kiçik zaman ayrılmışdır. Düşün və yadında saxla, gör bizə qədər olan hökmdarların aqibəti nə olmuşdur?

Onlar vaxtları çatanda bu dünyadan köçdülər,
Onların yerinə gələnlər də köçəcəklər.

- Oğlum, çalış elə yaşayasan ki, sən olmayandan sonra da səni xoş sözlə yad etsinlər, indidən xeyirxahlıq edərək, mərhəmət göstərərək yaşa ki, gec-tez düşəcəyin axirət dünyasında haqq-hesab dəftərində yaxşı əməllərin çox olsun. Onu dəqiq bil ki, yüz il yaşasan da, dünyanın bütün naz-nemətlərinə sahib olsan da, Məşriqdən Məğribə kimi bütün dünyanı fəth edib hakimi-mütləq olsan da, bütün düşmənlərinə qalib gəlib, gözəl varislər yetişdirsən də belə, Zühur günü gözlərini açdıqda peşmançılıq və təəssüfdən başqa heç bir hiss keçirməyəcəksən.

Beləliklə, dünya işlərinin sonu belə olduğu üçün sənin əbədi mənzilin yeraltı səltənət olacaq deyə, bu həqiqətləri yadda saxla. Bunu etsən, hökmranlığın boyu doğru yol ilə gedərsən.

Şad-xürrəm ol! Özünə bir yol seç
Və məqsədinə doğru tələsmədən irəlilə.
Mənim nəsihətimi hər an təkrar et,
Verdiyin sözlərə mütləq əməl et.
Yadında saxla ki, göy qübbəsinin altında
Hər cür gözlənilməz, heyrətamiz, çətin sınaqlar vardır.
Öz taleyini, bəxtini düşünən zaman,
Başqalarına da eynisini arzula.
Mən [müdriklik]boyunbağının ipindən keçirmək üçün

Müdriklik incisində ciddi-cəhdlə dəlik açmışam.
Ərməğan etdiyim “hədiyyə”ni bu fani dünyada yaşamaq üçün
Sən bir gövhər kimi qəbul et.

# X FƏSİL

## Hindistan əhlinin ədalətli Ənuşirəvana sualları, müdrik Büzürcmehrin cavab verməsi və onun Hindistan padşahının elçisi ilə mübahisəsi haqqında

Müdrik Bukrat deyirdi: «İndiki zamanda padşahlar hökmdarlıq taxtına iti qılıncları ilə, qollarının gücü ilə yiyələnirlərsə, əvvəllər - möminlərin vaxtında, rəvayətlərə görə, hökmdarlar ağılları ilə, elmi mübahisələrdəki qələbələri ilə taxta sahib olurdular. Bu gün qılınc tutan əllər elmin, müdrikliyin hökm-fərman olduğu dövrlərdə kitab-dəftər tutardı».

Daha sonra Bukrat deyirdi: «Mən ədalətli Ənuşirəvanın vəziri idim, müdrik Büzürcmehr mənim müəllimim olmuşdur, o mənə hər cür müdrikliyin sirrini öyrətmişdir. Hind padşahı hər dəfə bir bəhanə axtarırdı ki, Ənuşirəvanla elmi mübahisəyə girsin. Biz də hər dəfə bütün ən çətin suallara cavab verməyə qadir olan, elmi mübahisələrdə həmişə qalib olan Büzürcmehri irəli verirdik. Hind padşahı isə hər dəfə məğlub olaraq ilbəil bizə xərac ödəməli olurdu. Bu minvalla illər bir-birini əvəz edirdi. Hind padşahı isə hər il ödədiyi xəracdan qurtulmaq üçün yollar axtarırdı. Bir dəfə o bütün hind müdriklərini yığıb onlara bir savaşın sirrini açır, savaşın bütün özəlliklərini, fəndlərini izah edir, hind müdrikləri də eşitdikləri bu savaşın əsasında «Şahmat»ı hazırlayırlar. Hind hökmdarı bu oyunu çox bəyənir və onu Ənuşirəvana göndərir. Büzürcmehr «Şahmat»ı nəzərdən keçirir və bu oyununun sirrini asanlıqla açır. Cavabında isə düşünüb «Nərd» oyununu qurur və Ənuşirəvana təqdim edir. Ənuşirəvan onu öz tərəfindən hind padşahına göndərir. O zamanlar Hindistanda yaşayan, bütün elmlərin dərinliyini bilən bir müdrik «nərd» oyunun sirrini çox tez aça bilir. Hind padşahı bu müdriki Ənuşirəvanın hüzuruna göndərmək fikrinə düşür və belə məzmun-

da bir məktub hazırlayaraq göndərir: «Mən sizin hüzurunuza elçimi göndərirəm ki, Büzürcmehrlə elmi mübahisəyə girsin. Büzürcmehr qalib gələrsə, sizə hər il ödədiyim xəracın iki mislini ödəyəcəyəm, yox əgər bizim elçi qalib gəlsə, siz bizə hər il bizim ödədiyimiz xəracı ödəyəcəksiniz».

Elçi gəlir. Ənuşirəvan əmr edir ki, bütün əyanlar, alimlər, aqillər, müdriklər, sənətkarlar saraya toplaşsınlar. Sadalananların hamısı Ənuşirəvanın sarayında toplanandan sonra hind elçisi padşahının göndərdiyi məktubu Büzürcmehrin qarşısına qoyur. Daha sonra ona müraciət edərək, deyir: «İndi bütün diqqətini toplayıb mənə qulaq as və verdiyim bütün suallara birbəbir cavab ver. Birincisi, de görüm, xoşbəxt kimdir?» Büzürcmehr cavab verir: «İmanı daha kamil olan və daha az günah işlədən kəs xoşbəxtdir». Elçi soruşur: «Bəs imanı daha kamil, günahı daha az olan kəs kimdir?» Büzürcmehr cavab verir: «İmanı daha kamil olan kəs Allah qanunlarına tabe olan, günahı daha az olan kəs isə Allahın qoyduğu qadağaları pozmayandır». Elçi soruşur: «Allah qanunlarına tabe olmaq, qadağalarını pozmamaq nədə təzahür edir?» Büzürcmehr deyir: «Xeyirxahlıqda». Elçi soruşur: «Xeyirxahlıq özünü nədə göstərir?» Büzürcmehr cavab verir: «Allahın buyurduğu mərhəmətdə». Elçi deyir: «Bəs Allahın buyurduğu mərhəmət özünü nədə göstərir?» Büzürcmehr cavab verir: «Halal əməkdə, xoş niyyətdə, vicdanlı olmaqda». Hindli soruşur: «Vicdan nədir?» Büzürcmehr cavab verir: «Vicdan insanın başqasına da özünə arzuladığını arzu etməsidir». Elçi soruşur: «Özünə xeyir, başqasına pislik arzulayan kəs kimdir?» Büzürcmehr cavab verir: «Rəzil adam». Elçi soruşur: «İnsanın rəzilliyi özünü nədə göstərir?» Büzürcmehr cavab verir: «İnsanın rəzilliyi onun bəd əməlində, yalan danışmağında, imkanına uyğun yaşamamağında, bədxərclik etməyindədir». Hindli soruşur: «Bədxərclik nədir?» Büzürcmehr cavab verir: «Bədxərclik odur ki, ayağını yorğanına görə uzatmayasan». Elçi soruşur: «Ayağını yorğanına görə uzatmayan kəs kimdir?» Büzürcmehr cavab verir: «O kəsdir ki, bu fani dünyaya arxayın olub yaşayır, axirəti inkar edir». Elçi soruşur: «Fani dünyaya arxayın olmaq nə deməkdir?» Bü-

zürcmehr cavab verir: «Fani dünyaya arxayın olanlar o kəslərdir ki, onların bu gün işləri dünənkindən pisdir, sabah isə bu günkündən pis olacaqdır». Elçi dillənir: «Afərin sənə! Sən gözəl cavab verdin. İndi isə de görüm, insanların ən yaxşısı kimdir?» Büzürcmehr cavab verir: «İnsanların ən yaxşısı ağıllı olandır». Elçi soruşur: «Bəs ağıllı olan kimdir?» Büzürcmehr cavab verdi: «Ağıllı o kəsdir ki, əvvəlindən sonunadək görəcəyi işin nəticəsini düşünür». Hindli soruşur: «Bəs insanın ən qorxulu düşməni nədir?» Büzürcmehr cavab verir: «İnsanın ən qorxunc düşməni nəfsdir və yer üzündə insanın nəfsdən təhlükəli düşməni yoxdur». Elçi soruşur: «Əgər insanın qatı düşməni nəfsdirsə, bəs nəfsin düşməni nədir?» Büzürcmehr cavab verir: «Nəfsin düşməni yoxluqda yox olmaqdır». Elçi soruşur: «Yoxluqda yox olmaq nə deməkdir?» Büzürcmehr cavab verir: «Yoxluqda yox olmaq, aza qane olmaq, tələbkar olmamaq, heç bir şeyin olmadıqda da sevinməyi bacarmaq deməkdir». Elçi soruşur: «Aza qane olmaq özünü nədə əks etdirir?» Büzürcmehr cavab verir: «Səbirdə». Elçi soruşur: «İnsanın əsiri olduğu on saxta dostları nələrdir?» Büzürcmehr cavab verir: «Paxıllıq, yoxsulluq, hərislik, qəzəb, həsəd, etinasızlıq, şəhvət, riyakarlıq, hirs, çılğınlıq». Elçi soruşur: «Bu saxta «dost»ların arasında ən təhlükəlisi hansıdır və onların hər birisinin özəlliyi nədir?» Büzürcmehr cavab verir: «Paxıllıq azla qane olmaqdan çox uzaq, zorakılığa ən yaxın olanıdır və xislətinə görə hamısından təhlükəlisidir. Hərislik kor-koranə özünü irəli atır və ardınca gedənləri rəzilliyin, rüsvayçılığın dibi görünməyən quyusuna sürükləyir. Qəzəb ən bariz təcavüzçü və ən amansız zalımdır. Həsəd ən tərs və idarəolunmaz «dost»dur. Kasıblıq başını aşağıya salmış ən əskildilmiş «dost»dur. Çılğınlıq ən ram edilməyən, ipə-sapa gəlməyən «dost»dur. Etinasızlıq ən tənbəli və astagəlidir. Şəhvət tamaha, ehtirasa bağlıdır. Riyakarlıq isə ən çox yalanla bağlı olan «dostdur». Amma bunların arasında ən qətiyyətlisi və inadkarı «qəzəb»dir. Elçi soruşur: «Bunlardan hansı birisi adama əl qaldırsa, məhv edə bilər?» Büzürcmehr cavab verir: «Şəhvətlə qəzəb insana əl qaldırarsa, insan çox tez bir zamanda məhv olar». Elçi soruşur: «Bu on «dost»un hər biri nəyə qadirdir?» Bü-

zürcmehr cavab verir: «Paxıllıq insana həm cismani, həm də ruhi ağrı verir, qəzəb peşmançılıq və əzab verir, hərislik əskikliyə və rəzilliyə, kasıblıq qorxuya, təlaşa və cinayətə sürükləyir. Həsəd zorakılığa, hirs pis fikirlərə, etinasızlıq zərərə, kasıblığa, şəhvət namussuzluq və rüsvayçılığa, riyakarlıq yalana, çılğınlıq isə axmaqlıq və ehtiyatsızlığa gətirər». Hind sultanının elçisi Büzürcmehrə təriflər söyləyib ayağa qalxmış və demişdir: «Bugünlük yetər. Sabah mən sənə təzə suallar verəcəyəm».

Ənuşirəvan Büzürcmehri əzizləyib, ona qiymətli bir xələt bağışlayır. Onun tərifini göylərə yüksəldir. Buyurur ki, ona qulluqlar edilsin. Səhəri gün Hind padşahının elçisi Ənuşirəvanın sarayına gəlir. Əyanlar, əshabələr, bütün qonaqlar əyləşirlər və elçi yenə sual verməyə başlayır: «Qüsursuz olan kimdir?» Büzürcmehr cavab verir: «Qüsursuz olan tək Allahdır, bəni-insan qüsursuz olmur». Elçi soruşur: «Kimi xoşbəxt adlandırmaq olar?» Büzürcmehr cavab verir: «Ağıllı, məqsədinə çatmış kəsi». Elçi soruşur: «Bəs kimi ən ağıllı adam hesab etmək olar?» Büzürcmehr cavab verir: «O kəsi ki onda ağıl ilə ariflik bir yerdədir». Elçi soruşur: «İnsana xas hansı xüsusiyyət ən çox tərifə layiqdir?» Büzürcmehr cavab verir: «Ağıllı və təcrübəli adamlarla məsləhətləşmək təşəbbüskarlığı». Elçi soruşur: «Yer üzündə ən xoşbəxt, ən qayğısız insan kimdir?» Büzürcmehr cavab verir: «Yer üzündə ən xoşbəxt və ən qayğısız adam o kəsdir ki, həyatda ikən «o dünya»ya öz xeyir əməllərinin yükünü göndərərək, özünü əsas qayğılardan azad etmişdir». Elçi soruşur: «İnsanın ən ləyaqətli xüsusiyyəti nədir?» Büzürcmehr cavab verir: «Məğlub düşmənə qarşı mərhəmət». Elçi soruşur: «Kim daha üstündür, alim, yoxsa cəngavər?» Büzürcmehr cavab verir: «Əlbəttə, alim, axı alimin bütün dünyaya faydası dəyir». Elçi soruşur: «Bəs alimlərin ən yaxşısı kimdir?» Büzürcmehr cavab verir: «Alimlərin ən yaxşısı elmini işə tətbiq eləyənidir». Elçi soruşur: «Bəs hökmdarların ən yaxşısı hansıdır?» Büzürcmehr cavab verir: Hökmdarların ən yaxşısı - ədalətli və mərhəmətli olanı və axmaqlara iş tapşırmayanıdır». Hind elçisi soruşur: «Hökmdar rəiyyəti ilə necə rəftar etməlidir ki, həm hökmdarlığı uzunömürlü olsun, həm

də adı ucalsın?» Bosorgmehr cavab verir: «Hökmdarlığın möhkəmliyi və uzunömürlülüyü hökmdarın ədaləti və mərhəmətindən asılıdır. Hökmdar nə qədər ədalətli və mərhəmətli olarsa, rəiyyət bir o qədər xoşbəxt, dövlət isə bir o qədər firavan olar». Elçi soruşur: «Hökmdar nəyə güvənməlidir?» Büzürcmehr cavab verir: «Hökmdar dolu xəzinəsinə, ədalətə və müdrik vəzirinə güvənməlidir». Hindli soruşur: «Alimlə cəngavərin bəlası nədir?» Büzürcmehr cavab verir: «Alim o zaman bəlaya düşər ki, var-dövlət sahiblərinin qulluğunda olaraq günah işlərlə məşğul olur, cəngavər isə cəsarətinə, gücünə güvənərək ağılsızlıq edib özünü təhlükəyə atanda bəlaya düşmüş olur». Elçi soruşur: «İnsanların Allah qarşısında ən ümdə borcu nədir?» Büzürcmehr cavab verir: «İnsanların Allah qarşısında ən ümdə borcu həmişə şükranlı olmaqlarıdır». Elçi soruşur: «Ən alicənab, ədalətli hökmdar kimdir?» Büzürcmehr cavab verir: «Ən alicənab, ədalətli hökmdar hakimiyyəti dövründə cinayətkarların azadlıqda gəzib onun təbəəsini incitməyə yol verməyəndir». Elçi soruşur: «Ölümü yaxınlaşdıran və uzaqlaşdıran nədir?» Büzürcmehr cavab verir: «Ölümü ən çox pulla oynanılan oyunlar və boş-bikarçılıq yaxınlaşdırır, xeyirxahlıq, faydalı əmək və ləyaqətli övladlar isə ölümü uzaqlaşdırır».

Bu cavabları eşidən hind elçisi xüsusi bir vurğu ilə demişdir: «Sənin cavabların gözəl və möhtəşəmdir. Mən, hind hökmdarının elçisi bu həqiqəti qəbul edirəm ki, yer üzərində səndən müdrik insan yoxdur». Hind elçisi başa düşmüşdür ki, artıq Büzürcmehri suallarla sınağa çəkməyin heç bir mənası yoxdur və ona görə də mükaliməni bitmiş bəyan edir.

Daha sonra o, üzünü yenə Büzürcmehrə tutub dedi: «İndi isə, ey Büzürcmehr, səndən bir xahişim olacaqdır. Xahiş edirəm, o misli-bərabəri olmayan məsləhət və nəsihətlərindən bir neçəsini yazılı şəkildə mənim hökmdarım üçün hədiyyə edəsən. Mən onu ən qiymətli ərməğan kimi hökmdarıma çatdırım. Hökmdarım da, öz növbəsində, onu ən nəfis xatirə kimi qoruyub saxlayar». Büzürcmehr dedi: «Hindistan hökmdarına çatdır ki, onun qarşısında təzim edir, yeri öpürəm. Ona de ki, yer üzündə ən qiymətli nəsihət bir hə-

qiqətin qeyd-şərtsiz qəbul olunmasıdır: özünü anla, özünü anlasan, Allahı anlayarsan, Allahı anlasan, biləcəksən ki, hökmdarların ən gözəl və kamil xüsusiyyətləri rəiyyətə qarşı ədalətli, mərhəmətli, səxavətli, xeyirxah, səmimi və mehriban olmaqlarıdır. Əgər hökmdarlığının uzun, əmin-amanlığının daimi olmasını istəyisənsə, onda

Hər işdə ədalətli ol! Onda hökmdarlığın çiçəklənər,
Onda bütün xalqın sənin üçün dua edər.
Axı sən çobansan, xalqın isə bir sürüdür.
Bil ki, qiyamət günü sən onlara görə cavabdehsən.

Bu həqiqəti bil: xalqın nə qədər firavan yaşasa, hökmdarlığın bir o qədər uzunömürlü olar, rəiyyətinə qarşı nə qədər mərhəmətli, ədalətli, səxavətli olsan, hökmdarlığın bir o qədər yenilməz olar. Necə deyərlər: «Sultan yer üzündə Allahın kölgəsidir və hər məzluma o cavabdehdir».

Şah? - Allahın yer üzündə kölgəsidir...
Bəs rəiyyət? - Onlar isə şahın kölgəsidir.....

Heç vaxt alimlərə qarşı etinasızlıq etmə, onların adını həmişə uca tut. Təsadüfi deyil ki, buyururlar: «Aqillərlə otur-dur, çünki bu ünsiyyətin faydasını onlardan çox sən görəcəksən». Buna görə həmişə elmli adamlarla ünsiyyət qur, söhbət et, cahillərdən, nadanlardan uzaq dur. Bil ki, onlar sadəcə nadan deyillər, onlar sənə düşməndirlər. Axirəti dünyəvi ləzzətlərə satma. Həmişə abır-həyanı güd, namussuzluqdan uzaq ol, çünki unutma ki: «Abır-həya imanın bir hissəsidir». Bu günün işini sabaha qoyma, necə deyərlər, sabah məchuldur. Çalış, ilanı özgə əli ilə tutasan. Sənə qarşı bir dəfə nadürüstlük edəndən uzaq dur və artıq ona etibar etmə. Rəiyyətini rüşvətə satma, köhnə qullarına, nökərlərinə hörmətlə yanaş, onları qoru. Evinə heç vaxt tanımadığın qadını dəvət etmə. Ancaq dürüst və imanlı ailənin qızı ilə evlən. Qızılın, gümüşün qulu olma. Evinə, zövcənə, yaxınlarına, atına həmişə göz qoy, çünki deyirlər: gözdən uzaq qalmış zövcədən, atdan sənə bəla gələr, onlar səni el içində rüsvay edə bilərlər. Şərabı qədərində iç. Allah qarşısında cavabdeh

olduğun rəiyyətin qeydinə qal. Əzazil, tamahkar məmurları, əyanları qov, həmişə Allah yanında ol. Qoy həmişə Allah yanında fikrin, məqsədin saf olsun. Hər kiçik xətaya görə köhnə, illərin sınağından keçmiş işçilərini, qullarını, nökərlərini cəzalandırma, onların haqqını tapdama.

Bu dediklərimi yaxşı yadında saxla,
Daha yaxşı olar bunları yazasan.
Bütün dünyəvi işlərdə
Bunlardan heç vaxt sapınma.
Vaxtı çatanda görəcəksən ki,
Bu nəsihətlərin nə qədər faydası vardır.
Hind şahzadəsi önündə baş əy, təzim et,
Müdriklik bağını bol bəhərli et!
De ki, bu müdrik kəlamlar
Ənuşirəvanın sənə etdiyi ən qiymətli ərməğanıdır.
Sən onları oğulların üçün qoruyub saxla,
Bəyənməsən, at, külək onları dağıtsın».

Büzürcmehr nəsihətlərini bitirdi, Hind elçisi bu nəsihətləri çox yüksək qiymətləndirdi, Büzürcmehrə təriflər deyib, kəlamların müdrikliyini mədh etdi. Bu nəsihətləri xəttat vərəqə köçürüb ona təqdim etdi. Məclisdəkilərin hamısı bütün sual-cavabları özləri üçün qeyd edirdilər ki, sonra səliqə ilə üzünü köçürüb saxlasınlar. Beləliklə, məclis bitdi və hamı dağılışdı.

Səhərisi gün Ənuşirəvan yenə ötən gün olduğu kimi, bütün əyanları, əshabələri, aqilləri, saraya dəvət etdi və üzünü Büzürcmehrə tutub dedi: «Ey mənim müdrik, sadiq vəzirim, hind elçisi sənə bir xeyli sual verdi, sən də onlara usanmadan məharətlə cavab verdin. İndi mən istəyirəm ki, sən ona suallar verəsən, o da cavab versin, necə deyərlər, borclu borclunun sağlığını istəyər». Hind padşahının elçisi dedi: «Şah sağ olsun! Əmrə müntəzirəm». Onda Büzürcmehr elçidən soruşdu: «De görüm, yer üzündə insanın ağlını başından alan neçə növ sərxoşluq vardır?» Elçi cavab verdi: «Yer üzündə sərxoşluğun on üç növü mövcuddur, birincisi şərabdan olur,

ikincisi yuxudan, üçüncüsü sevincdən, dördüncüsü gözəllikdən, beşincisi şəhvətdən, altıncısı məhəbbətdən, yeddincisi gücdən-qüdrətdən, səkkizincisi paxıllıqdan, doqquzuncusu etinasızlıqdan, onuncusu dünyəvi həzdən, on birincisi təşəxxüsdən və təkəbbürdən, on ikincisi cəhalət-nadanlıqdan, on üçüncüsü hökm-fərmanlıqdan. Bunların içərisində ən qorxulusu və dəhşətlisi paxıllıq və hökmdarlıqdır.» Büzürcmehr soruşdu: «İnsanı ən aşağıdan ən yüksəyə ucaldan xüsusiyyət hansıdır?» Elçi cavab verdi: «Ağıl və müdriklik». Büzürcmehr soruşdu: «İnsan hansı xüsusiyyətinə görə əsl insan olur?» Elçi cavab verdi: «İnsan öz insaniyyətliliyi ilə insan olur, ərəblər demişkən, «insan insaniyyətli olmalıdır». Bununla bağlı başqa fikirlər də vardır. Bəziləri fikirləşirlər ki, insan ağlı və nitqi ilə insan olur, belə ki, təsadüfi deyilməmişdir: «İnsan danışmağı bacaran canlıdır». Əgər bu xüsusiyyətlər olmasa idi, kağız üzərində və ya divar üzərində çəkilmiş insan rəsmlərini də insan adlandırardılar, amma bu rəsmlərin ağlı, nitqi olmadığından onları insan adlandırmaq olmaz, onlar, sadəcə, məzmunu olmayan rəsmlər olaraq qalır». Büzürcmehr soruşdu: «Ən böyük sərvət nədədir?» Elçi cavab verdi: «Aza qane olmaq, başqaları ilə bəhsə girməmək. Belə bir fərziyyə də irəli sürülə bilər ki, insanın ən böyük sərvəti nəfsini öz iradəsinə tabe etmək bacarığıdır». Büzürcmehr soruşdu: «Hökmdarların ən adlı-sanlı olanı kimdir?» Elçi cavab verdi: «Hökmdarın adlı-sanlı olanı rəiyyətinə qarşı ədalətli, mərhəmətli, səxavətli olanı, rəiyyətin qeydinə qalanı və sadə olanıdır». Büzürcmehr soruşdu: «Aza qane olub, sadə yaşamağın bəhrəsi nədir?» Elçi cavab verdi: «Sadəlik acgöz və təkəbbürlü insanı səhv və nadürüst əməllərdən uzaqlaşdırır».

Bu sual-cavabdan sonra elçi yenə Büzürcmehrə suallar verməyə başladı. O soruşdu: «Təhsil insana nə verir?» Büzürcmehr cavab verdi: «Təhsil sənə tay olanları sənə möhtac edir, onlar səndən öyrənirlər, sənin isə onlara ehtiyacın olmur». Elçi soruşdu: «Ən xoşbəxt insan kimdir?»Büzürcmehr cavab verdi: «Ən xoşbəxt adam başqasının həyat təcrübəsindən dərs alandır, necə ki demişlər: «Xoşbəxt başqalarının nəsihətlərini diqqətdən kənarda qoymayandır».»

Onlar bir qədər istirahət etdilər, daha sonra Büzürcmehr suallar verməyə başladı. O soruşdu: «Ağıl insana nə kimi xeyir gətirir?» Elçi cavab verdi: «Ağıl insanı mənasız dərddən uzaqlaşdırır, daha səbirli, dəyanətli edir». Büzürcmehr soruşdu: «Ən acı dərd nədir?» Elçi cavab verdi: «Ən acı dərd, rəzillərə möhtac olmaq, axmaqlarla söhbət etmək məcburiyyətində qalmaq, alçaqların əzazilliyinə düçar olmaqdır». Büzürcmehr soruşdu: «Can üstündə olanın əzabını artıran nədir?» Elçi cavab verdi: «Can üstə olan adamın əzabını fani dünyaya, dünyəvi həzzə olan bağlılığı artırır». Büzürcmehr soruşdu: «Ağıllı adam nəyi heç vaxt unutmamalıdır?» Elçi cavab verdi: «İnsan ölümü və başqalarının təcrübəsindən əxz etdiyi ibrətamiz dərsləri unutmamalıdır». Büzürcmehr soruşdu: «İnsan dərd-qəm, peşmançılıq çəkməmək üçün hansı xüsusiyyətləri tərgitməlidir?» Elçi cavab verdi: «İnsan təkəbbürdən, təşəxxüsdən uzaq olmalı, ciddi işlərdə tələskənliyə yol verməməlidir». Büzürcmehr soruşdu: «Yer üzündə ən böyük xeyirxahlıq nədir?» Elçi cavab verdi: «Allaha həmişə şükür etməkdən, insanları əməllə, dillə incitməməkdən üstün xeyirxahlıq yoxdur». Büzürcmehr soruşdu: «Ən üstün xüsusiyyət hansıdır?» Elçi cavab verdi: «Allahın sənə verdiyi ruziyə, qismətə qane olmaq». Büzürcmehr soruşdu: «Sən kimi ağıllı və zəkalı hesab edirsən?» Elçi cavab verdi: «Ağıllı o kəsdir ki, edəcəyi işlərin nəticəsini həmişə əvvəldən hesablayır, zəkalı isə çətinliyə, bəlaya düşəndə təmkinini itirmədən, tez bir zamanda çıxış yolu tapandır». Büzürcmehr soruşdu: «Hansı oyunu günah hesab etmirsən?» Elçi cavab verdi: «Boş vaxtı doldurmaq üçün olan oyunları». Büzürcmehr soruşdu: «Hansı daha pisdir, təşəxxüs, yoxsa, təkəbbür?» Elçi cavab verdi: «Təşəxxüs insanın özünə ziyan edir, təkəbbür isə ətrafı əskildir». Büzürcmehr soruşdu: «Kişinin ən böyük qüsuru nədir?» Elçi cavab verdi: «Kişinin ən mənfi cəhəti yalan və həsəddir, xüsusi ilə adlı-sanlı kişinin». Büzürcmehr soruşdu: «Ən böyük günah və ən pis adət hansıdır?» Elçi cavab verdi: «Ən böyük günahlardan biri alimin öz elmini pis işlərə yönəltməsi, ən pis adət isə özündəki eyibləri görməyib özgələrinin eybini ifşa etməyə cəhd etməkdir». Büzürcmehr soruşdu: «Ən çox

nədən çəkinmək lazımdır?» Elçi cavab verdi: «Ləyaqətsiz adamlarla ünsiyyətdən». Büzürcmehr soruşdu: «Bu dünyada insan üçün lazım olan nədir, ağıl, yoxsa var-dövlət?» Elçi cavab verdi: «Ağılın köməkliyi ilə var-dövlətə yiyələnmək olar, amma var dövlət ilə ağıl qazanmaq mümkün deyildir». Büzürcmehr soruşdu: «Ağıl və səxavətdən başqa hökmdara vacib lazım olan xüsusiyyətlər hansılardır?» Elçi cavab verdi: «Hökmdarın görünüşü zəhmli, əzəmətli olmalıdır, çünki rəiyyət ilk növbədə hökmdarını güclü, qüdrətli görmək istəyir. Zəif, cılız görünüşlü hökmdarın özünü təsdiq etməsi üçün vaxt lazım olur». Büzürcmehr soruşdu: «Dünyada hansı cəhətlər sonsuzdur?» Elçi cavab verdi: «Dünyada üç cəhətin sonu yoxdur: əmin-amanlığın, sağlamlığın və uğurun». Büzürcmehr heyrətlə dedi: «Yüz min dəfə bərəkallah! Sən mənim bütün suallarıma doğru, düzgün, məntiqlə və müdrikcəsinə cavab verdin».

Ənuşirəvan da həmçinin hind elçisinin cavablarını çox bəyəndi. O göstəriş verdi ki, bütün sualların və cavabların üzünü qızıl mürəkkəblə köçürsünlər. O, elçiyə həmin vərəqi və saysız-hesabsız hədiyyələr verib Hindistana yola saldı. O sərəncam verdi ki, Hind padşahı ilə sülh müqaviləsi bağlansın və Hindistan hər il ödədiyi töycüdən azad edilsin. Biliyin, müdrikliyin sayəsində iki hökmdarın arasında dostluq və səmimiyyət bərqərar oldu. Ənuşirəvan Büzürcmehrin adını daha yüksəkliklərə ucaltdı və əmr etdi ki, ona şahlara layiq ehtiram edilsin.

Axırda onların hamısı bu fani dünyanı tərk etdi, bizə isə onlardan bu müdrik kəlamlar, fikirlər, nəsihətlər qaldı.

# XI FƏSİL

## Əcəm əhlinin hikmətli sözləri və Cəmşidin öz canişinlərinə nəsihətləri haqqında

Cəmşid şah bütün dünyanı fəth edib, öz hökmranlığını bərqərar edib, şah taxtına əyləşdikdə ilk olaraq bütün vilayət, diyar, şəhərlərdəki canişinlərinə fərman göndərdi. Fərmanda deyilirdi:

«Eşidin və bilin! Sizin hamınız mənim əmrlərimə qeyd-şərtsiz əməl etməlisiniz. Bu əmrlərdən yayınan mənim tərəfimdən ciddi şəkildə cəzalandırılacaqdır ki, digərlərinə də görk olsun. Bilin ki, rəiyyətin qeydinə qalmaq üzərimizə Allah tərəfindən qoyulmuş əmrdir. Unutmayın ki, məhşərdə O bizi hər məzlum rəiyyətə görə sorğu-sual edəcəkdir. Biz isə sabah bizdən tələb olunacaqları bu gün sizdən tələb edəcəyik. Bilin və agah olun! Siz heç vaxt Allahın qəzəbini və bizim cəzalandıran əlimizi unutmamalısınız, rəiyyətlə xoş münasibət qurub, onlara əzab, işgəncə verməməlisiniz, bütün işlərə şəxsən özünüz nəzarət etməli və bu nəzarəti məmur və müavinlərinizə həvalə etməməlisiniz. Hər bir işdə Allahlı olun, ətrafınıza nalayiq, nadürüst, nadan adamları yaxın qoymayın. Ölkəyə qarşı müharibə qorxusu hiss etsəniz, hazırlıq görməkdə ləngiməyin, amma tələskənliyə də yol verməyin, düşmənə qarşı onu zəif, gücsüz bilib, etinasızlıq etməyin. Qadınlarla gün keçirib, məclis qurmağa vaxtınızı sərf etməyin, dövlət sirlərini heç kəsə etibar etməyin. Qocalara, zamanın sınağından çıxmış xadimlərə hörmətlə yanaşın, onları əməllərinə görə mükafatlandırın, səmimi dostlarınıza etinasızlıq etməyin. İdarəçilik işlərini xeyirxah və müdrik insanlara etibar edin, rəiyyəti qəddarlara, əzazillərə tabe etməyin, imanı dünyəvi nemətlərə, rüşvətə satmayın. Hər zaman məmləkətinizi, işlərinizi nəzarətdə saxlayın, kasıblara qarşı rəhmdil, mərhəmətli olun, ədalətli siyasətinizlə onların güzəranlarının yaxşılaşdırılmasını

təmin edin, nadürüst məmurları işlərindən uzaqlaşdırın, haqqı, ədaləti ömrünüzün, həyatınızın ana qanunu kimi qəbul edin. Hər yerdə qalalar tikdirin və onları ərzaqla təchiz edin, gecələr gözətçilər qoyun, gündüzlər kəşfiyyat işini təşkil edin. Tanımadığınız əcnəbilərə etibar etməyin. Zəif, köməksiz insanların taleyini şeytan xislətli nadürüstlərin ixtiyarına verməyin. Günah işlətmişləri dövlət işlərinə yaxın qoymayın. Qullarınızla mən qullarımla rəftar etdiyim kimi rəftar edin. Günahsızları incitməyin, günahkar və təqsirkarları cəzasız qoymayın. Müdriklərin işini axmaqlara tapşırmayın, qocalara ehtiram göstərin, xəzinəni yaxın bildiyiniz müdrik müşavirlərinizə etibar edin, çox şərab içməyin, təsadüfi yerlərdə gecələməyin, yüksək mənsəb sahiblərini əskiltməyin, hər yerdə, hər zaman sizə verilən nemətlərə, göstərilən ehtirama görə o uca Allaha şükür edin. Böyüklərə etiraz etməyin, onlara nalayiq sözlər deməyin. Hökmdarlarınızla mübahisə etməyin, dostlarınıza qarşı düşmən mövqedə olmayın, mühakimə olunmuşların qohumlarını əskiltməyin, şərab düşkünlərini dost bilməyin, ikiüzlü riyakarlarla oturub-durmayın, köhnə işçilərinizin xidmətlərini unutmayın, qocaların zəifliyinə, köməksizliyinə gülməyin, natamam işləri qəbul etməyin. Bu göstərişlərə əməl edib, onları həyatınıza və işlərinizə tətbiq etmək sizin borcunuzdur».

# XII FƏSİL

## Ayrı-ayrı hikmətlər və müdrik Bulinasın nəsihətləri haqqında

Bulinas deyirdi: «Həmişə doğru danış ki, insanlar sənə etibar etsinlər. Başqaları ilə kəsdiyin şərti pozma, onda başqaları da səninlə kəsdikləri şərti pozmazlar. Başqalarını barmağınla belə incitmə, onda onlar da səni təpikləri altında tapdalamazlar. Başladığın hər işi Allahın adı ilə, Allaha şükür etməklə başla, onda O sənə hüsn-rəğbətini birə on qat artırar. Sənə aid olmayan işlərə qarışma, yoxsa hüsrana uğrayarsan, təvazökar və iddiasız ol, onda insanlar həmişə səni ehtiramla yad edərlər. Bilikli olsan, insanların həmişə sənin məsləhətinə ehtiyacı olacaqdır. Malik olduğuna qane olsan, həsədin, tamahkarlığın tələsinə düşməzsən. Abır-həya ilə yaşa, heç kəsin qeybətini etmə. Məlumatın olmadığın şeylər haqqında fikir söyləmə, sənə mənsub olmayanla öyünmə, yoxsa gülüş hədəfi olarsan. Bilmədiklərini öyrən, öyrənə bilməsən də, heç olmasa, anlayacaqsan ki, bu dünyada bilmədiyin, anlamadığın şeylər var və heç olmasa, bununla da cahillərdən fərqlənəcəksən. Çalış günah işlərdən uzaq dur, onda vicdanını tam itirməzsən. Yol verdiyin xətalara, günahlara görə tövbə et. Vaxtında qəzəbini cilovlamağı bacar, onda təmkinini qoruya bilərsən. Cənnətə düşmək istəyirsənsə, darlığa düşəndə səbirli ol. Diqqətli ol, bir işə girməzdən əvvəl ondan necə çıxacağını götür-qoy et. Ağıllı adam təsiri bağışlamaq istəyirsənsə, qadınların təriflərinə uyma. Etibarlı adam kimi tanınmaq istəyirsənsə, sənə inanmış adamlara xəyanət etmə. Sənə mənsub, məxsus olmayan şeylərə yiyələnməyə cəhd eləmə. Alicənab adam olmaq istəyirsənsə, bütün qanun-qadağalara vicdanla əməl et. Aqil məsləhətçi olmaq istəyirsənsə, dostlarının məsləhətlərinə əməl et. Ətrafda kasıbçılıq, səfalət, cəhalət baş alanda səxavətli və əliaçıq ol. Heç

vaxt yalan danışma, onda özünü doğrultmaq məcburiyyətində qalmazsan. Əcdadların adət-ənənələrinə hörmətlə yanaş ki, sabah gələn nəsil də öz növbəsində sənə ehtiram etsin. Elmə əsaslanıb iş gör, onda alim olarsan. Gizlində də, açıqda da Allahlı ol, onda imanın kamil olar. Yetkin insan təsiri bağışlamaq istəyirsənsə, bil ki, istər yaxşı, istər pis işlər ancaq Allahın hökmü ilə olur. Sufi olmaq istəyirsənsə, bütün insanlara qarşı saf niyyətli ol. Hamı ilə mehriban rəftar et, onda sülhsevər adını qazanarsan. İmkanın daxilində insanlara yardım et ki, səni xeyirxah adam kimi tanısınlar. Sadə ol, təkəbbürlü, təşəxxüslü olma. İnsanlara həmişə sülh arzula, onda səni sülhsevər insan kimi tanıyarlar. Xeyirxah adam kimi tanınmaq istəyirsənsə, Allahın yaratdıqlarının heç birinə həsəd aparma. Bu nəsihətləri yadında saxla və onlara əməl et. Allah köməyin olsun!»

# XIII FƏSİL

## Fars müdriklərinin hikmətləri haqqında

Bulinas deyirdi: «İnsan ləyaqətinin ən üstün xüsusiyyətləri bunlardır: verdiyin sözə sədaqətli olmaq, qəzəbi cilovlayıb, hadisələrə soyuq ağılla yanaşmaq, çətin günlərində insanlara yardım etmək, məğlub olmuş düşmənə qarşı mərhəmətli olmaq, pisliyə yaxşılıqla cavab vermək, yalana nifrət etmək».

Daha sonra deyirdi: «Mən özündən sonra sonsuz var-varidat qoyan insanlara təəccüb edirəm. Mən gənc, özlərindən çox kiçik qızlarla evlənib, onların məhəbbətinə, bağlılığına ümid edən qocalara təəccüb edirəm. Mən həyatın və dünyəvi həzlərin əbədiliyinə inananlara təəccüb edirəm».

Bir dəfə bir əmir ondan bir nəsihət verməsini rica edir. Bulinas deyir: «Sənin taleyinə uzun ömür yazılmış olsa da, ömrə, dünyəvi həzlərə bel bağlama. Nə qədər güclü-qüdrətli olsan da, düşmənə qeyri-ciddi yanaşma. Təbiətən nə qədər çılğın olsan da, şahla ötkəm rəftar etmə. Şahın qardaşı olsan belə, heç vaxt evini şah sarayının yanında tikmə. Nə qədər qorxmaz və cəsarətli olsan da, heç vaxt səyahətə tək çıxma. Nə qədər isti olsa da, yayın ən isti çağında belə köynəksiz gəzmə. Nə qədər tox olsan da, yanında həmişə yemək ehtiyatı olsun. Ən kiçik məbləğdə belə borc alma. Nə qədər xəstə olsan da, ağrısan da, səriştəsiz adamdan dərman alma. Nə qədər ehtiyacın olsa da, heç vaxt təzə-təzə var-dövlət sahibi olmuşlardan borc istəmə. Nə qədər ac olsan da, xəsislərdən çörək istəmə. Rüstəm-Zal olsan belə, düşmənini sınamamış savaşa girmə. Yad süfrəsindən, hətta qardaşının süfrəsindən belə davamlı şəkildə qidalanma. Nə qədər cəsarətli olsan da, yırtıcılarla, ilanlarla, ümumiyyətlə, heyvanlarla və su ilə zarafat etmə».

Müdrik Bulinas deyirdi: «İnsanların beş qismi mütəmadi peşmançılıq hissi ilə yaşayıb, dərd çəkəcəkdir, amma bu peşmançılığın heç bir faydası olmayacaqdır.

Bunların birinci qisminə öz işini başa çatdıra bilməyənlər aiddir ki, onlar sonda öz etinasızlıqları səbəbindən işlərini itirirlər, sonra isə peşmançılıq yaşayırlar, amma onun artıq heş bir faydası olmur.

İkinci qismə heç bir səbəb olmadan dostlarını, yoldaşlarını, qohum-əqrəbasını, tanışlarını, yaxınlarını incidib, özündən uzaqlaşdıranlar aiddir ki, onlar özləri bir bəlaya, dərdə düçar olanda tək qalırlar və peşmançılıq çəksələr də, artıq onun heç bir faydası olmur.

Üçüncü qismə aqillərin, müdriklərin ağıllı, gözəl, dəyərli məsləhətlərindən bəhrələnməyənlər aiddir. Belələri özlərinə güvənib başlarını çox dolaşıq işlərə salıb məğlub olurlar. Düşmən qalib gəlir, onlar peşmançılıq çəkirlər, amma artıq bu peşmançılığın bir faydası olmur.

Dördüncü qismə daha gözəl, daha yaraşıqlı, daha görünüşlü qadın axtarışında olub öz haqq-halal, namuslu, əxlaqlı zövcələrini boşayanlar aiddir ki, onlar yenidən evləndikdən sonra anlayırlar ki, böyük səhvə yol vermişlər, amma artıq bu peşmançılığın da heç bir faydası olmur.

Beşinci qismə heç bir hazırlığı olmadan ağır yüklü kitabları oxumağa cəhd edənlər aiddir ki, onlar qocalanda anlayırlar ki, həyatlarını boş keçirmişlər və onu geri qaytarmaq mümkün deyildir. Onlar da peşmançılıq çəkirlər, amma bu peşmançılığın da heç bir faydası olmur».

Bulinas həmçinin deyirdi: «Dostlarınla aranda elə bir məsafə saxla ki, yollarınız ayrılarsa, köhnə bağlarınız sənin əleyhinə istifadə edilə bilməsin. Düşməninlə isə həmişə barışıq üçün bir əl yeri qoy».

Daha sonra Bulinas deyirdi: «Bir dəfə bəladan qurtulub, ikinci dəfə eyni bəlaya düçar olmuş adamlara təəccüblənirəm. Ehtirasınızın, şəhvətinizin quluna çevrilməyin, onlar sizi bəlaya sürükləyər.

Sizdən kiçik, zəif, köməksiz olanlarla sadə, mərhəmətlə, yumşaq rəftar etsəniz, sizi ləyaqətli birisi kimi tanıyacaqlar. Belə etməsəniz, özünüzdən böyüklərin, güclülərin qarşısında əyilməli olacaqsınız. Bilin və agah olun! Ağıl nadana, güc qorxağa fayda verməz, gözəllik, kübarlıq abırsız adama yaraşıq verməz. Əsil-nəcabətin cahilə faydası olmaz. Var-dövlət narahat, qərarsız adama xeyir gətirməz. Zalımın, zülmkarın şücaətindən fayda olmaz. Gözəl, firavan həyat bəxtsiz adama gərək olmaz. Ömrü qısa olana cəsarət gərək olmaz. Bədbəxtə elmin, biliyin heç bir əhəmiyyəti olmaz. Taleyi tərs gətirənə bacarıq, qabiliyyət lazım olmaz. Hər şeyin başında ağıl durur, ağıl isə dərd-qəmlə bir yerdə olur. Deyirlər, ağıllı adam heç vaxt dərddən ayrılmadığı kimi, sevinc də heç vaxt ağıllı adamı axtarmaz. Yalan həmişə namussuzluqla yoldaşlıq edər. Naşükürlüklə uğur bir araya gələ bilməz.

Aqillər hesab edirlər ki, bədnam olmaqdansa, adsız-sansız olmaq, rəzil adamın çörəyini yeməkdənsə, ac qalmaq, əl açıb alçaqdan dərman istəməkdənsə, sınıq qabırğa ilə gəzmək daha şərəflidir.. Namuslu adla ölmək namussuz yaşamaqdan üstündür. Nalayiq oğulların olmağındansa, sonsuz olmaq daha yaxşıdır. Sağlam və kasıb olmaq varlı və xəstə olmaqdan yaxşıdır».

Daha sonra deyirdi: «Beş şeyə, əsasları olmadığı üçün etibar etmək olmaz: birincisi, buludun kölgəsinə, ikincisi, yüngül xislətli insanlarla ünsiyyətə, üçüncüsü, qadınların məhəbbətinə, sədaqətinə, dördüncüsü, şairlərin təriflərinə və nəhayət, beşincisi, var-dövlətə və ömrə».

Daha sonra buyururdu: «Ağıllı adam heç vaxt dünyəvi nemətlərə, həzlərə görə sevinməz və müflisləşib-kasıblayanda da dərd çəkməz. Var-varidat sahibi o kəsdir ki, heç kəsin payında gözü yoxdur, heç kəsin payına yiyələnməmişdir. Mərhəmətli, səxavətli olan kəsi heç vaxt kasıb, fəqir hesab etmə. Əyri yolla qazanılan, tezliklə azalıb əldən çıxan var-dövləti, ləl-cəvahiratı xəzinə bilmə. Ardınca xeyir gətirən itkini zərər hesab etmə. Səni tövbə edib islah olmağa məcbur edən günah birisində təkəbbür yaradan ibadətdən çox üstündür.

Günah işlədib Allahdan qorxan kəs
Özünü mömin göstərən riyakardan çox üstündür.

Dostlarından ayrı düşsən, xoşbəxt həyat sürəcəyini düşünmə. Gününü eyş-işrətdə, avaraçılıqda keçirəni, axmaq, nadan olanı, alçaqlara himayədarlıq edəni hökm sahibi bilmə.

Həyatını boş şeylərə sərf etmə, onun qədrini bil, çünki verdiyin hər nəfəs bir daha geri qayıtmaz. Nə qədər ki imkanın var yaxşılıq et, çünki elə bir an yetişə bilər ki, yaxşılıq etmək istəyərsən, amma ona imkanın olmaz. Ömrünü boş yerə xərcləmə.

Həll edəcəyin hər bir işi əvvəlcə ağıl tərəzisində ölç, yaxşını pisdən, azı çoxdan, sevinci kədərdən, hüzuru əzabdan, bədxərcliyi qənaətdən, dostu düşməndən, namuslunu əxlaqsızdan, sağlamlığı azardan, zarafatı ciddidən, yalanı doğrudan, həyatı ölümdən ayırmağı bacar. Sən bunların hamısını bir-birindən seçməyi bacarmalısan, onların arasındakı səddi bilməlisən.

Əgər bunları bilsən, səni ağıllı birisi kimi tanıyarlar, belə ki, bu sadalananları dərk edib fərqləndirmək iqtidarında olmayanları ağıllı kimi qəbul etmək olmaz, onlar heyvanlardan heç nələri ilə fərqlənməzlər.

Axmaq, rəzil adamlarla ünsiyyətə girmə və başqalarında bəyənmədiyin xüsusiyyətlərdən uzaq dur. Sözün tam mənasında imanlı birisi olmaq istəyirsənsə, malından özünə yaşamağın üçün lazım olan qədər saxla, qalan var-varidatını səxavətlə payla.

Hər saqqal saxlayıb, əmmamə taxanları ağıllı bilmə. Hər boylu-buxunlunu, cüssəlini, saqqallını comərd, bahadır bilmə. Hər qırmızı yanaq, gözəl çöhrəli qızı əsl gözəllik, nəciblik mücəssəməsi bilmə. Kökü bilinməyən birisindən gözəl, sağlam bar, məhsul gözləmə.

Heç vaxt atının, zövcənin, qılıncının mütləq sədaqətli olacağına ümid etmə. Vicdanı, namusu, ləyaqəti olmayanlarla ünsiyyətə girib, dostluq etmə. Heç vaxt köməksiz qocalara rişxənd etmə. Dostlarının sirlərini yayma.

Arpanı bugda adı ilə satma. Başqasının düşmənçiliyini üzərinə götürmə. Başqalarından üstün olmaq üçün həmişə özünü onlardan aşağı tut.

Bunları demək mənim borcum idi, qalanlarını isə sən özün bilirsən. Sən bu deyilənlərə əməl etsən, axirətini qazanmış olarsan, yox əgər etməsən, o artıq öz işindir. Mən bütün bunları deyib borcumu yerinə yetirdim, qalanı sənin boynuna».

Biz burada Bulinasın kəlamlarını izhar etdik, indi isə müdrik Yusobasun kəlamlarına keçək.

# XIV FƏSİL

## Müdrik Yusobasın kəlamları və nəsihətləri haqqında

«Cavidan-xirəd» («Əbədi ağıl») kitabında* nəql edilir ki, Yusobas qara dərili, xoşagəlməz görünüşlü birisi idi. O elə eybəcər idi ki, onu bir dəfə görən bir daha görmək istəməzdi. Yusobasun çox imkanlı, nüfuzlu ağası var idi. Yusobas onun heyvanlarına baxır, onları yuyub yedizdirərdi. Bununla bərabər Allah ona elə bir nadir ağıl, məntiq, müdriklik bəxş etmişdir ki, o, dünyanın ən tanınmış aqili olmuşdur. Yusobas haqqında hekayət çox uzundur. Onun kəlamları, müdrik ifadələri ilə çox kitablar tərtib olunmuşdur və əgər mən indi onun yüksəlişini təfsilatı ilə nəql etməyə başlasam, əsas məqsəddən uzaqlaşmış olaram, bu isə məqsədəuyğun olmaz. Bu səbəbdən onun bir neçə nəsihətini qısa şəkildə təqdim edirəm ki, oxucular ondan istifadə edib, bizə dua etsinlər.

Yusobas belə buyururdu: «Bu daima hərəkətdə olan dünyada, daima dəyişən, irəli gedən saat axınında, dərd dolu fani aləmdə Allahın yaratdığı varlıqlardan heç biri-nə Adəm övladları, nə hər iki dünyanın sakinlərindən biri, nə peyğəmbəri, nə mömini, nə gecə-gündüz dua edəni əbədi ömürlə müjdələnməmişdir. Ərəblərin belə kəlamları var: «Doğulmuş öləcəkdir» və ya «Hər doğulan ölər və nə əkərsən, onu da biçərsən». Deməli, sən heç vaxt unutmamalısan ki, bu fani dünya, bu əbədi olmayan dünyəvi həzlər heç kəsə, o cümlədən sənə də qalmayacaqdır. Onlar bizə kimlərdənsə qaldığı kimi, məndən və səndən də sonra başqalarına qalacaqdır. Əgər sən ağıllı birisənsə, bu gün bu dünyada yaşamaq növbəsi sənindirsə, elə ləyaqətlə yaşa ki, hamı səni təqdir etsin və sən azad yaşayıb, o dünyanı qazanasan. Bunun üçünsə sən bilməlisən ki, insanların üç qisminin dərd-qəmi heç vaxt tükənmir; birincisi, can-dildən, böyük

ümidlə at alıb, sonra onun heç bir işə yaramadığını görən adamın, ikincisi, yemək hazırlanmasına göstəriş verib, hazır olduqdan sonra yeməyin həddən artıq duzlu olduğunu, yararsız olduğunu görən adamın, üçüncüsü, bir qəlbdən min qəlbə aşiq olub, elçi düşüb, süd pulunu, toy xərclərini ödəyib evlənib, toydan sonra evləndiyi xanımdan zövq ala bilməyən adamın dərdi heç vaxt tükənməz. Şübhəsiz ki, bundan sonra bu adamlar pərt-pəjmürdə gəzib-dolanar, ömürlərini dərd içində sürərlər.

İnsanların başqa bir üç qismi də heç vaxt dərd-qəmdən azad olmur: birinci qismə çox bahalı paltar alıb, geyinib-kecinib dəmirçi sobalarının, zərgər putalarının yanında durub, nəticədə paltarları yanan adamlar aiddir. İkinci qismə gözəl, gənc qızlarla evlənib, ailəni lazımı şeylərlə təmin etmədən uzun və uzaq səfərlərə çıxan cəngavər və tacirlər aiddir ki, onlar səfərdə olan müddətdə zövcələri min cür nalayiq işlərlə məşğul olurlar. Üçüncü qismə isə cahil, rəzil, əskik ad qazananlarla oturub-duran Allah xofu olan, imanlı adamlar aiddir ki, onlar da oturub-durduqları adamlara görə hörmətlərini itirirlər.

Hökmdarlar təbəələrini üç insan təbəqəsindən qorumalıdır: birincisi, cahil həkimlərdən; ikincisi, təhsilini başa çatdırmamış məhkəmə araşdırmalarında səhvlərə yol verib səhv qərarlar çıxaranlardan, mömin və eyni zamanda təcrübəsiz insanları «doğru» və «yanlış» seçimində səhv istiqamətləndirənlərdən və üçüncüsü isə xəstəliyin səbəbini bilmədən dərman təyin edib insanları kor edən göz həkimlərindən.

İnsanların üç qismi ölüm saatları çatmamış özlərini ölümün ağuşuna atırlar: birincisi, «Heç kəs Allahın hökmü olmadan ölməz», - deyib, cahilliyi ilə silahlanıb, ölümü gözə alıb, döyüşə silahsız girənlər; ikincisi, yeməyən, içməyən, geyməyən, ailə-övlad sahibi olmayan, qohum-əqrəbası, dostu-tanışı olmayan, qızıl-gümüş yığmaq eşqi ilə çətin, qorxulu işlərə girişən, özlərini hər cür məhdudiyyətlərə düçar edənlər; nəhayət, üçüncüsü, həyat günəşləri artıq qürub edəndə gənc, gözəl qızlarla evlənənlər.

İnsanların dörd qismi axmaqdır və axmaqlıqlarını bilmirlər: birincisi, insanları boş-boş söhbətləri ilə bezdirənlər; ikincisi, heç bir xeyir gətirə bilməyəcəkləri halda insanların üzərində hökmdarlıq etməyə cəhd edənlər; üçüncüsü, dəvət olunmadan xəlvətə çəkilmiş yoldaşlarının məclisinə təşrif buyuranlar; dördüncüsü, qulları tərəfindən təhqir olunub, alçaldılanlar.

İnsanların dörd qismi təhqir və gülüş hədəfi olurlar: birincisi, igidliyi ilə öyünüb, insanlara öz qəhrəmanlıqlarından, bir döyüşdə qeyri-adi şücaət göstərdiyindən, başqa bir döyüşdə bir dəfə qılınc qaldırmaqla nə qədər düşməni məhv etdiyindən, bir başqa döyüşdə tək başına nə qədər düşmən əsgərinə qalib gəldiyindən danışanlardır ki, məqamı çatdıqda bunların hamısının yalan olduğu aşkar olur; ikincisi, özünü mömin, zahid, günlərlə oruc tutub, gecələr ibadət edən kimi qələmə verənlərdir ki, əslində onların yekə qarnı, sallaq yanaqları sərrafların gözündən heç cür qaçmır; üçüncüsü, var-varidatı, möhtəşəmliyi ilə öyünən kasıblar; dördüncüsü, elmi ilə lovğalanan cahillərdir. Bütün bunlar təhqir və gülüşə layiqdir.

Yusobas daha sonra deyirdi: «İnsanların üç qismi axmaqlığa yol verirlər: birincisi, axmaq, nadan, cahil, alçaq, dələduz, rəzil insanlara nəsihət verib, onları düz yola dəvət etmək fikrinə düşənlər. Bu cür adamların səyləri boşa çıxır, belə ki, nadanlar, dələduzlar və digərləri bu nəsihətləri qavramaq iqtidarında olmurlar, o adam isə buna görə pərt olur. İkincisi, əbəs yerə axmaqlar və boşboğazlarla mübahisəyə girib, onların söyüş-təhqirlərini eşidib, özlərini rüsvay edənlər. Üçüncüsü, əsassız olaraq xalq qarşısında özünü yüksək rütbəli birisi kimi qələmə verənlər.

İnsanların üç qismi öz axmaqlıqlarını ifşa edirlər. Birincisi, öz sirrini başqasına verib, onun bu sirri bir başqasına verməyəcəyinə inananlardır ki, görəndə ki, onun sirri artıq hamıya aşkardır, pərt-pəjmürdə olur. Axmaq anlamır ki, özü öz sirrini saxlaya bilmədiyi halda, başqaları heç saxlamaz. İkincisi, əsli-nəcabəti, adı-sanı olmadığı halda məclislərdə, yığıncaqlarda yuxarı başda əyləşməyə cəhd edənlər. Üçüncüsü isə, heç bir mənəvi haqqı olmadan hamı tə-

rəfindən ehtiramla, hörmətlə qarşılanmağını, hər kəsin onun qulluğunda durmağını arzu edənlər.

İnsanların dörd qismi özü özünün qol-qabırğasını, boynunu vurub məhv edir. Birincisi arxa-arxaya gedib, yıxılanlar. İkincisi, yolu gözü bağlı gedib, yıxılanlar. Üçüncüsü, nazik divarın üstü ilə gəzənlər. Dördüncüsü, uçurumun qırağı, buzun üstü ilə qaçanlar. Bunlar özləri özlərini məhv edən axmaqlardır.

Öz axmaqlıqları ucbatından məhv olan başqa axmaqlar da olur. Məsələn; mərcə filan qədər şirniyyat yeyib, içki içməyə razılıq verən adamlar. O adamlar mərci udmaq üçün şərtə uyğun olaraq şirniyyatı yeyib, içkini içir və həmin an ölür, və yaxud mərcə çox böyük məsafəni qaçanlar, gecə vaxtı təkbaşına qorxulu bir yerə gedənlər. Çox ağır yükün altına girib, nəfəsini saxlayan da həyatını təhlükəyə salan axmaqdır. Belə adamlar öz axmaqlıqları nəticəsində həyatlarını təhlükəyə salırlar. Onlar bu dünyada axmaq adam adını qazanır, axirətdə isə qınaq yiyəsi olurlar. Ərəb zərb-məsəlində deyilir: «Axmaqlar hər iki dünyada uduzurlar».

İnsanların yeddi qismi zalım, qəddar, əzazil, rəhmsiz, amansız və sair bu cür xüsusiyyətlərə malik adam kimi tanınır. Birincisi, cəllad; ikincisi, cərrah; üçüncüsü, mürdəşir; dördüncüsü, ovçu; beşincisi, meyitləri daşıyan; altıncısı, ağı deyən; yeddincisi, dustaq. Yadınızda saxlayın ki, bu adamlardan ancaq məsləklərinə uyğun olaraq keyfiyyətli iş gözləmək olar.

Qəlblərini, ruhlarını qızıla satmış dörd cür insan var ki, onlar da axmaqlar sırasına aid edilirlər. Birincisi, hər hansı bir müharibəyə muzdla gedənlər və gec-tez o savaşların birində ölənlər. İkincisi, dəniz ticarəti ilə məşğul olan tacirlər. Qazanc məqsədi ilə mütəmadi dəniz səyahətlərinə çıxan tacirlər gec-tez tufana düşür, gəmiləri aşır, özləri də dəniz sularında boğulurlar. Üçüncüsü, oğurluq, quldurluqla məşğul olanlardır ki, gec-tez ələ düşüb məhv olurlar. Dördüncüsü, qızıl əldə etmək məqsədi ilə rəqiblərdən birinin tərəfinə keçənlərdir. Bunlar ya savaşlardan birində məhv olurlar, ya da rəqib tərəflər barışığa gəlir, həmin adam isə artıq gərəksiz olduğu üçün öldürülür. O adam hər iki tərəfdə xain kimi tanınır.

İnsana xas on xüsusiyyət mövcuddur ki, heç bir sınaqdan keçmədən etibara layiqdir. Birincisi, döyüşsüz-savaşsız cəsarət və rəşadət; ikincisi, alversiz tacirlik məharəti; üçüncüsü, qəzəbsiz təmkininə sahib olmaq; dördüncüsü, təhlükəsiz-iztirabsız dostluq; beşincisi, var-dövlətsiz səxavət; altıncısı, şəfqət göstərmədən alicənablıq; yeddincisi, oruc olmadan nəfsini cilovlamaq; səkkizincisi, zəhmətsiz zəkalı olmaq; doqquzuncusu, işə tətbiq edilməyən elm; onuncusu, kədərə rəğmən səbir. Bu on xüsusiyyəti heç bir sınaqdan keçirmədən, olduğu kimi qəbul etmək lazımdır.

Axmaqlar zümrəsinə aid edilən daha on qisim adam var ki, başqalarını da təngə gətirir, özünə də əzab verir. Birincisi, imkanı olub, borcunu qaytarmayanlardır ki, bu səbəbdən zindana düşüb, həm özlərinə, həm də borclu olduğu adama əzab verirlər. İkincisi, o kəslərdir ki, düşməninin daha güclü olduğunu, məğlub olacağını bilərək onunla mübahisəyə girir. Üçüncüsü, o cahildir ki, heç nəyi sübut edə bilməyəcəyi halda, elmli adamlarla mübahisə edir və dediyinin üstündə durur. Dördüncüsü, o nadandır ki, dəvətsiz, çağırılmamış aqillərin, alimlərin məclisinə gedib öz səviyyəsiz mülahizələri ilə onları təngə gətirir və təhqir olunub qovulmasına baxmayaraq, çıxıb-getmir, lazımsız fikirləri ilə yenə də oradakıları bezdirir, özünü isə əskildir. Beşincisi, özünü varlı zadəgan bilib, var-varidatı olanlarla bəhsə girən, bir qəpik-quruş sahibi olmayan kasıbdır. Altıncısı, heç bir hüququ olmadan, vəkillik edib, məhkəmə araşdırmalarında vəkil qismində çıxış edib, ədalətli hökmün çıxarılmasına mane olandır. Bundan özü bir xeyir görmür, əksinə özünə də, ətrafdakılara da baş ağrısı gətirir. Yeddincisi, dövlətin xəzinəsinə cavabdeh olan, amma işləri çək-çevirə salmağı sevən məmurdur ki, şah ona kiməsə pul verməyi əmr etdikdə, o bu işi hər dəfə sabaha qoyur və hər dəfə bu işi ləngitməklə həm pul alana baş ağrısı verir, həm də özü bundan bir xeyir görmür. Səkkizincisi, söz gəzdirib, ailələrin, ər-arvadın, valideynlə uşaqların arasını vurandır ki, bu əməllərin nəticəsində doğmalar arasına nifaq düşür, amma nifaq salanın özü də bundan bir xeyir görmür. Doqquzuncusu, özünə heç bir xeyir gətirməsə də, qardaşının başındakı bəlaya sevinənlərdir.

Onuncusu, özünün səviyyəsiz, gərəksiz nəsihətlərinin insanlar tərəfindən dinlənilməsini tələb edənlərdir ki, onlara qulaq asmayanları, dediklərinə əməl etməyənləri təhqir edib, alçaldırlar və bundan özləri də bir xeyir görmürlər».

Bundan başqa Yusobas deyirdi: «Ağıllı, müdrik o kəsdir ki, xain, etibarsız dostdan, xalqına zülm, işgəncə verən hökmdardan, əxlaqsız qadından uzaq durur. Ağıllı o kəsdir ki, ona tapşırılmış işlərə etinasızlıq etmir, bir təhlükə ilə üz-üzə gəldikdə təmkinini, müvazinətini itirmir, dostun da, yeri gələndə düşmənin də adını, namusunu hörmətlə yad edir, dünyəvi və ruhi işlərinin uğurlu olması yolunda qızıl-gümüşünü, malını-dövlətini xərcləyir». Böyük, Uca Allah hamıya yar olsun!

# XV FƏSİL

## Şahlara xidmət edənlər üçün öyüd və nəsihətlər haqqında

Fars müdriklərinin dəyərli kəlamlarından birində deyilir: «Mən hökmdarlara, sultanlara, onların xislətinə bələd olduğum üçün gecənin rahat yuxusuna həsrət qalan, boğazlarından rahat tikə keçməyən, gecə-gündüz ağalarının qulluğunda duran aqil, arif, müdrik insanlara məəttəl qalıram».

Şair demişkən:

Bil, sarayda yaşayıb, hökmdara qulluq edirsənsə,
Gərək qumaş geyinib, qızıl-gümüş taxasan.
Kor olmağı, susmağı öyrənəsən,
Ağzını, qulağını gərək möhürləyəsən.

Vicdanını təmiz saxlamaq istəyən, özünə hörmət edən və bu hörməti qoruyub saxlamaq istəyən hər kəs bu on qaydaya riayət etməlidir:

Birincisi, o, hökmdarın sirlərini saxlamağı bacarmalıdır;

İkincisi, onun məsləhətlərinə tabe olmalıdır;

Üçüncüsü, ona sədaqətli olmalıdır;

Dördüncüsü, onun verdiyi əmanəti göz bəbəyi kimi qorumalıdır;

Beşincisi, duz-çörəyə görə ona minnətdar olmalıdır;

Altıncısı, verdiyi sözə, anda sədaqətli olmalıdır;

Yeddincisi, onun əmlakını qorumalıdır;

Səkkizincisi, onun qüsurlarını gizlətməlidir;

Doqquzuncusu, onun cismini də, ruhunu da düşməndən hifz etməlidir;

Onuncusu, çalışmalıdır ki, onu həmişə razı salsın.

Bundan başqa, o kəs bu on qaydaya da tabe olmalıdır:

Birincisi, onun düşmənlərini mühafizə etməməlidir;

İkincisi, onun dostunu düşmənə çevirməməlidir;

Üçüncüsü, onun verdiyi əmrlərə etinasızlıq etməməlidir;

Dördüncüsü, öz dəyərli məsləhətlərini ondan əsirgəməməlidir;

Beşincisi, ona xidmətində xəyanətə yol verməməlidir;

Altıncısı, səhlənkarlıq etməməlidir;

Yeddincisi, onun əmrlərinin heç birinin yerinə yetirilməsindən imtina etməməlidir;

Səkkizincisi, onun qəzəbini zarafat kimi qəbul etməməlidir;

Doqquzuncusu, onun əmrlərinin yerinə yetirilməsində ləngliyə yol verməməlidir;

Onuncusu, o nə qədər sərt, ötkəm olsa da, qulluqda ona sərtliklə, ötkəmliklə cavab verməməlidir.

Bundan başqa, hökmdar onu bir ziyafətə dəvət edərsə, ondan imtina etməməlidir, hökmdarın sərxoş olduğunu görüb, onunla mübahisə etməməli və onun yanında lazım olan qədər qalmalıdır.

Qədim zamanlarda deyirdilər ki, hökmdarlar üç xüsusiyyəti çatışmayan üç xüsusiyyətə malikdirlər:

Birincisi, onların mərdlikdən, təmkindən, ədəbdən xali əzəməti olur;

İkincisi, onlar vicdansız, nəzakətsiz, kiçildici mərhəmətə malik olurlar;

Üçüncüsü, onlar səbəbsiz, yersiz, cılız inadkarlığa yol verirlər.

Bir halda ki hökmdarlar belədirlər, ağıllı adamın üzməyi nə qədər gözəl bilsə də, sahilsiz dəryaya atılmağı məqsədəuyğun olmadığı kimi, hökmdarlarla yaxınlıq etməyi də məsləhət deyildir. Ağıllı adamın hökmdarın qulluğuna girməsi, ağıllı, güclü, əzəmətli adamın, öz güçünə arxayın olub, ən qorxulu, çətin işlərə özünü atmasına və ya hökmdarın bütün nəvazişlərinin müqabilində ona qarşı kobudluqla cavab verməsinə və ya zəhərə qarşı əlaca malik olduğuna arxayın olub zəhər qəbul etməsinə bənzəyir.

Müdrik aqillər hökmdarları odla müqayisə edirdilər. Belə olan halda ağıllı adam oddan uzaq durmalıdır. Hətta məcburiyyət

qarşısında qalıb ona yaxınlaşmalı olarsa, məsafəni elə saxlamalıdır ki, odda yanmasın.

Çalış ki, od-alovdan uzaq olasan,
Çünki onun xisləti yandırmaqdır.

Bəli, hökmdarın qulluğunda olmağın şərtləri belədir. Əgər bu qaydalara riayət edib, bu məsləhətlərə əməl etsən, onda udarsan. Uca Allah hamıya kömək olsun!

# XVI FƏSİL

## Müdrik Əflatunun hikmətləri haqqında

Əflatun buyurmuşdur: «Ancaq öz gücünə, qüdrətinə, əzəmətinə güvənən, elmi, biliyi ilə öyünən hökmdarın səltənəti tez bir zamanda süquta uğrayar».

O deyirdi: «Bu dünyada hər bir şey hər hansı bir səbəbdən ziyana düşür, hökmdarlığın ziyana düşməsinin səbəbi biganəlik olur».

Daha sonra buyurmuşdur: «Diqqətli olun və altı növ tərəvəzin çiy şəkildə istifadəsində ehtiyatlı olun, çünki bunlar sizin cisminizi zəhərləyər, əqlinizi azaldar». Ondan soruşurlar: «Bunlar hansı tərəvəzlərdir?» O cavab verir: «Çiy paxla və mərci, çiy soğanla sarımsaq və çiy keşnişlə badımcan. Bu tərəvəzlərdən çiy halda istifadə edən kəsin ağzından xoşagəlməz qoxu gələr, onun ağlı dumanlanar, yaddaşı zəifləyər və o müflis olar. Bu tərəvəzlər insan bədənində o qədər qorxulu xəstəliklərin səbəbi olar ki, onları heç bir dava-dərmanla müalicə etmək mümkün olmaz».

İsmayıl Ədvan deyirdi: «Ağılın süzgəcindən keçiriilməmiş bilik, işə tətbiq edilməmiş elm uzunömürlü ola bilməz».

...deyirdi:* «Kiminsə sayəsində müvəffəqiyyət qazanmış kəs ən kasıb, ən uğursuz bir adamdır».

Daha sonra deyirdi: «Tanrı Davudu Zəbur ilə töhfələndirdi və buyurdu: «Ya Davud, bu dünyadan götürə bildiyin qədər götür, günaha da o dərəcədə yol ver ki, Qiyamətdə onların cavabını verə biləsən. Özünə elə bir səltənət qur ki, öhdəsindən gələ biləsən. Elə söz danış ki, ona veriləcək cavabı dinləmək iqtidarında olasan. Bundan başqa, mənim yanıma qayıdacağına əminsənsə, qullarımla elə rəftar et ki, mənim qarşımda onlara görə cavab verə biləsən».

İsmayılın qızı Rəbiə Ədəviyyə qeyri-adi bir qadın idi və o, şan-şöhrəti ilə zəmanəsinin çox mömünini kölgədə qoymuşdur. Ömrü boyu bir dəfə belə əllərini Allaha doğru qaldırıb özü üçün bir şey

istəməmişdir. Bir dəfə ona deyirlər: «Allahın dərgahı mömin üçün də, kafir üçün də həmişə açıqdır – ona xəsislik hissi yaddır. Sən nəyə görə heç vaxt ondan heç bir şey istəmirsən, sənin heç nəyə ehtiyacın yoxdurmu, ya bəlkə, sənin arzu-istəklərin o qədərdir ki, onların həyata keçməsinin Onun iqtidarı daxilində olmadığını düşünürsən?» Rəbiə cavab vermişdir: «Ya mötəbər insan, mənim Ondan heç bir şey istəməməyimin səbəbi heç bir ehtiyacımın olmadığı deyil, axı adam onun vəziyyətindən, halından bixəbər olandan və ya xəbəri olub yardım etməyəndən kömək istəyər. O isə mənim vəziyyətimdən, halımdan agahdır, mənim qismətimi O yazmışdır. Belə olan halda, mən nəyə görə əbəs yerə Onu narahat etməliyəm?»

Başqa bir yerdə buyurmuşdur: «Uca Tanrı qiyamət günü məndən yaratdıqlarına görə haqq-hesab istəyərsə, zəif, gücsüz olmağıma baxmayaraq, Onun qarşısında cavab verməyə hazıram. O məndən soruşsa ki: «Hansı ali əməllərin vardır?» Açıq alınla cavab verərəm: «Mənim boynuma qoyduğun bütün vəzifələri yerinə yetirmişəm».

Sövri deyirdi: «Kim ömrünü rahat, sakit sürmək istəyirsə, Həcc ziyarətinə dünyasını dəyişmişlərin ruhu yolunda getməməlidir, heç kəsin vəsiyyətinin yerinə yetirilməsinin məsuliyyətini boynuna götürməməlidir, hökmdarlarla yaxınlıq etməməli və heç kəsə zamin durmamalıdır».

Həccac ibn Yusif can verəndə insanlar onun üzündə bir təbəssüm sezirlər. Soruşurlar: «Üzünə sonsuzluq qapısı açıldığı vaxt, üzündə o təbəssümü yaradan səbəb nədir? Məgər sən ölümdən qorxmursan?»

O cavab vermişdir: «Məni iki xoşbəxtlikdən biri gözləyir. Mən Allah dərgahına ya bir mömin kimi, ya da bir kafir kimi gedəcəyəm. Mömin kimi qəbul olunaramsa, əminəm ki, Allah-təala mömin bəndəsini mükafatsız qoymaz, yox əgər kafir kimi qəbul olunaramsa, əminəm ki, Tanrının rəhmi sonsuzdur və Onun əlində mənim kimi rəzili əfv etmək heç bir şeydir. Buna görə də mənim ölümdən qorxmağıma heç bir əsas yoxdur».

Füzeyl deyirdi: «Mərhəmətli olmaq istəyən kəs nə qədər ki düşmənləri ondan qorxur, çəkinir, mərhəmətli ola bilməz». Füzeyldən soruşurlar: «Əsl alim kimdir?» Cavab verir: «Elm ilə məşğul

olub, gəldiyi nəticələri həyata tətbiq edən alim əsl alimdir». Soruşurlar: «Əsl kişi kimdir?» Deyir: «Əsl kişi elmli olandır». Soruşurlar :«Əsl hökmdar kimdir?» Deyir: «Əsl hökmdar mömin olandır». Soruşurlar: «Mömin olan kimdir?» Deyir: «Dünya nemətlərinə düşkün olmayan kəs mömindir».

Başqa bir yerdə demişdir: «Qadınlarla münasibətdə ehtiyatlı olun. Bilin ki, siz qadınlarınızı ən gözəl geyimlərlə, zinətlərlə bəzəməlisiniz, amma hər qadının evdən tək çıxmasına icazə vermək olmaz və evə yad kişilərin gəlməsi də məqsədəuyğun olmaz».

Aqillərdən biri isə belə buyurmuşdur: «Vəziyyətdən asılı olaraq, elə qadınlar ola bilər ki, onları bəzəyib-əzizləmək yaramaz. Belə qadınları bəzəsəniz, onlar o gözəl paltarları geyib, zər-zinəti taxıb hər bir vəchlə evdən çıxmaq istəyəcəklər, evdən çıxandan sonra isə əyri işlərə də gedə bilərlər. Əgər belə bir qadın sizdən bir şey istəyərsə, onun sözünü kəsin ki, harınlamasın. Bir müddət keçəndən sonra isə onun istəyini yerinə yetirin, könlünü alın».

Peyğəmbərin tərəfdarlarından biri belə buyurmuşdur: «Qonşularınıza qarşı diqqətli olun. Onları tez-tez ziyarət edin, hal-əhvallarını öyrənin, nəyə isə ehtiyaclarının olub-olmadıqlarını soruşun, lazım olarsa, onlara yardım etməyi əsirgəməyin. Belə ki, mən Allahın sevimli bəndəsinin özündən - Allah ona yar olsun! – eşitmişəm ki, «Möminin ailəsindən sonra yeganə varisi qonşusudur». O deyirdi: «Qonşunun haqqı hamı üçün qanundur».

Möminlərin əmiri, həzrət Əli – Allah ona yar olsun! – buyurmuşdur: «Dünya nemətlərindən uzaq durun, ürəyinizdəki o bağlılığı məhv edin, belə ki, mən Allahın seçilmiş, sevimli bəndəsindən – Allahın salam və salavatı olsun ona! – eşitmişəm ki, «Dünya nemətlərinə bağlılıq günahdır».

Başqa bir yerdə buyurmuşdur: «Allah dərgahında ən sayılan, hörmətli insan kasıbların, kimsəsizlərin öz ehtiyacları üçün müraciət etdikləri insandır».

Günlərin bir günü Abdullah ibn Abbasın yanında bir nəfər əyləşibmiş, birdən qarğaların səsi eşidilir. Qonaq dik atılıb iki dəfə bu sözləri təkrar etdi: «Allah xeyir eləsin! Allah xeyir eləsin!» Abdullah ibn Abbas soruşur: «Sən hansı xeyirdən, şərdən danı-

şırsan? Quş, sadəcə, qarıldadı, bunun xeyrə və ya şərə nə dəxli?!» (Burada hər bir hadisənin nəyəsə işarə kimi qəbul edilməsinin gərəksizliyi əks olunmuşdur).

Möminlərin əmiri həzrət Əli – Allah ona yar olsun! – demişdir: «Siz bir qanuna daima riayət etməlisiniz – heç vaxt belinizdə kəmər yatmayın, bu sizi elə bir dərdə düçar edər ki, ona heç bir əlac tapılmaz. Bu dərddən qurtula bilsəniz də, ondan yetmiş iki fəsadın qaldığını görəcəksiniz».

Əyanlardan biri Həsən Bəsridən bir nəsihət verməsini xahiş edir. Həsən Bəsri cavabında deyir: «Mən sənə verəcəyim nəsihətlərə özüm əməl edə bilmədiyim halda, sənə necə nəsihət verə bilərəm?!»

.....buyururmuşdur: «Var-dövlətiniz, ad-sanınız, şan-şöhrətiniz olduğu vaxtlar qarşınızda təzim edib, baş əyib, bunlardan məhrum olduqdan sonra isə üz çevirənlərin ünsiyyətindən qaçın».

O həmçinin demişdir: «Aşağı zümrə ilə ünsiyyət qurmayın, çünki onlar yararsız torpağa bənzəyirlər: nə qədər toxum səpərsən, heç vaxt cücərməz».

Daha sonra demişdir: «Aşağı zümrədən uzaq durun, o zümrə boş çəlləyə bənzəyir, görünüşü gözəl olsa da, içi boş olur».

Belə bir beyt var:

Rəzil insanlardan alicənablıq ummayın,
Alicənablıq onlara xas olan xüsusiyyət deyildir.

Abdullah Məqdisi haqqında deyirlər ki, o, möminlərin əmiri həzrət Əlinin – Allah ona yar olsun! – mehtəri olmuşdur. Günlərin bir günü o, həzrət Əlinin atı Düldülü yəhərləyəndə bir az sərt rəftar edər, at da qəzəblənib elə bir təpik atır ki, Məqdisi alnına dəymiş bu təpiyin zərbəsindən az qala canını tapşırır. Onun bu halını görən Allahın sevimli bəndəsi - Əli əlini onun alnına qoyub demişdir: «Qəm etmə, sən uzun ömür yaşayacaqsan». Abdullahın alnındakı yara həmin dəqiqə sağalmış, amma çapığı qalmışdır.

Deyirlər, Abdullah beş yüz qırx beş il ömür sürmüş və bunun səbəbi Allahın sevimli bəndəsinin şəxsən özünün ona: «Sən uzun ömür yaşayacaqsan»,- deyə uzun ömür müjdəsini verməsi olmuşdur. Hətta bəziləri Abdullahın bu gün də həyatda olduğuna inanır, onun

Qüdsdə olduğunu və ondan peyğəmbər haqqında çox hədis eşitdiklərini bildirirlər.

Onun xəsisliyi haqqında çox rəvayətlər vardır və ona görə o, Xəsis Abdullah adı ilə də tanınırdı.

Bu kitabın müəllifi yazır: «Beş yüz yetmiş yeddinci ildə* mən Zəncan şəhərində olanda Camaləddin Əbü-l-Məhasin Zəncani ilə – Allah ona yar olsun! - tanış oldum. O, təmtəraqlı toy edirdi, həddindən çox qonaq dəvət etmişdi. Toyun ən qızğın vaxtında o, evdən Nəc-məddin Sührəverdinin xirqəsini gətirərək camaatın qarşısında dedi:

«Mənə, Əbü-l-Məhasinə, beş yüz iyirmi beşinci ildə Qüdsdə Xəsis Abdullahla görüşmək nəsib olmuşdur, mən orada müxtəlif yer-lərdən gəlib, şeyxin söhbətlərini dinləmək istəyən çox məşhur adamları görmüşəm». Biri Camaləddin Əbü-l-Məhasindən soruşdu: «O vaxt Xəsis Abdullahın neçə yaşı olardı?» Şeyx cavab verdi: «O, insana bənzəmirdi, elə bil büllur qaba salınmış bir mumiya idi. Bəbək-ləri şüşə kimi idi, yemək istəyəndə isə körpə kimi qışqırıb-ağlayırdı».

Vaxtı ilə həmin Abdullah demişdir: «Yaşadığım uzun ömrüm boyu gördüyüm bir qeyri-adi adam haqqında danışmaq istəyərdim. Bir gün səhra ilə gedirdim, qarşıma ayağı yalın, başı açıq, yüksək əhval-ruhiyyəli bir gənc çıxdı. O məndən soruşdu: «Ya Abdullah, hara gedirsən?» Dedim: «Mən Kəbəyə gedirəm». «Ay nadan, - deyə dilləndi, - məgər Qüdsdə Allaha tapınmaq üçün bir guşə yox-dur ki, indi Kəbəyə üz tutmusan?» Bu sözlər mənə elə təsir etdi ki, bir anlığa huşumu itirdim, özümə gələndə isə o atrıq yox idi. Onu çox axtardım, amma tapa bilmədim».

Yenə də demişdir: «Bir dəfə Rəbiənin əlini göyə tutub: «Ya Allah, sən zühur etmədiyin üçün bu dünya çox solğun görünür»,- deyə dua etdiyini gördüm».

Daha sonra demişdir: «Yeməyinə sədd qoymayan adamı üç bəla gözləyir. Birincisi, onun ürəyində biganəlik hökm-fərmanlıq edər; ikincisi, yuxu onun gözlərinə güc gələr; üçüncüsü isə, tənbəllik onu özünə elə tabe edər ki, o, sərxoş adamlar kimi daima məst halda olar».

Daha sonra demişdir: «Həzrət Yusif - Allah ona yar olsun! - çox oruc tutardı. Bir dəfə ondan soruşurlar: «Ya Rəsul Allah, sən Allahın sevimli bəndəsisən, Misirin mötəbər hökmdarısan, xəzinən aşıb-daşdığı halda, sən nəyə görə bu qədər ac qalırsan? Yusif cavab vermişdir: «Qorxuram, elə tox olam ki, acları unudam».

Günlərin bir günü bir dəstə mötəbər adam adını çəkdiyimiz Abdullah Məqdisiyə müraciət edir: «Rica edirik, böyüklüyünü bizdən əsirgəmə, möminlərin əmiri həzrət Əlidən - Allah onun adını həmişə uca tutsun! - eşitdiyin öyüd-nəsihətlərdən söylə ki, biz də onlardan özümüzə xeyir əxz edə bilək».

Abdullah cavab verir: «Buyurun, onun kəlamlarından birini söyləyim: «İnsan insan cəmiyyətində insan olur», yəni insaniyyət insanların cəmiyyətində təzahür edir, heyvanların cəmiyyətində deyil».

Başqa bir zaman demişdir: «Şirin dil dost, qardaşın sayını çoxaldar», yəni səmimi ünsiyyət qurmağı bacaran insanın ətrafında dost-tanışı da çox olar».

Bir dəfə də belə buyurmuşdur: «Yol ayrıcında oturmayın, yox oturmaq məcburiyyətində olarsınızsa, yad qadınlardan gözlərinizi qaçırın, sizinlə salamlaşan hər kəsin salamına cavab verin, yolunu itirmiş hər bir kəsə yol göstərin, zəif və gücsüzlərə yardım edin».

Bundan başqa, o mənə Allahın sevimlisinin - Allahın salamı olsun ona! - nəsihətlərindən söz açmışdır və onun bir dəfə bu sözləri söylədiyini demişdir: «Uca Tanrı üç şeyi təqdir və üç şeyi tənə edir.

Təqdir etdiklərindən birincisi budur ki, insan Ona xidmətində səmimi və dürüst olmalıdır, öz mənafeyi, marağı naminə xidmət etməməlidir; ikincisi, insan Onun qarşısında boynuna düşən, boynuna götürdüyü andlara əməl etməli və ona olan inamdan sapınmamalıdır; üçüncüsü, Onun hökmü ilə Onun qanun-qadağalarına riayət edib-edilmədiyinə nəzarət edən şah və hökmdarlara ehtiramla xidmət etməlidir.

Onun təqdir etmədiyi üç şey isə bunlardır:

Birincisi, boşboğazlıq;

İkincisi, əyrilik-oğurluqla əldə olunmuş var-dövlət;

Üçüncüsü isə, var-dövlətin inama, imana faydası olmayan işlərə xərclənməsi».

Başqa bir yerdə demişdir: «Diqqətli olun, çalışın Allahın Rəsulu vasitəsi ilə sizə endirdiyi o müqəddəs dinin, imanın məğzini anlayın, onun qayda-qanunlarını qoruyun, onların qiymətli incilərini anlayın, çünki əsl, həqiqi bilənlər artıq çox az qalmışlar, özündən müştəbeh bisavadlar onların yerini tutur, zalımlar hökmdar olur, adil hökmdarlar torpağa tapşırılır, vəzirlər inamı, imanı dünya nemətlərinə satıb, Allaha xoş getməyən işlərlə məşğul olub var-dövlətə yiyələnirlər, sədaqət, vəfa yer üzündən silinmişdir, qəddarlıq, zalımlıq hər yerdə baş qaldırmışdır, yaxşılıq itib, pislik bərqərar olmuşdur, qadınlar abırlarını, uşaqlar tərbiyələrini itirmişlər, imansızlıq vüsət almış, islam zəifləmiş, möminlik qocaları, iman cavanları, insaniyyət insanları, mərhəmət, səxavət yer üzünü tərk etmişdir, dərəbəylik, əxlaqsızlıq hər yeri tutmuşdur; İnsanlar, bunu anlayın və doğru yola gəlin!»

Bir dəfə belə buyurmuşdur: «Ağıllı adam axmağın quludur». Ondan soruşurlar: «Nəyə görə?» Cavab verir: «Ağıllı adam heç vaxt axmaqla düşmənçilik etməz. Axmaq mövqeyinə görə ondan üstün olarsa, çalışacaqdır ki, onun şıltaqlıqlarına dözüb, onunla yaxşı münasibət qursun. Yox, əgər onun mövqeyi axmağın mövqeyindən üstün olarsa, nə ona, nə axmaqlıqlarına fikir verər, onu özündən uzaq tutar, çevrəsinə yaxın qoymaz və ona toxunmaz. Dərindən düşünsən, görəcəksən ki, nəticə etibarı ilə ağıllı axmağa xidmət edir».

Başqa bir vaxt demişdir: «Cahil adamla elm haqqında söhbət etməyin, çünki söhbət etsəniz belə, o heç bir şey anlamayacaqdır, anlasa da, heç bir iş görməyəcəkdir və sonda siz düşmən olacaqsınız».

Daha sonra demişdir: «Ağıllı adam Allahdan özünə zövcə və övlad diləməməlidir, çünki yaramaz övlad böyük dərddir. Min əzab-əziyyətlə, dürüst-nadürüst yollarla var-varidat sahibi olursan, nə özün, nə özgələri onun bəhrəsini görür, saxlayıb-bəsləyirsən ki, övladlarımın günü-güzəranı yaxşı olsun, övlad da gəlib yaramaz çıxır:

İnsafı unudub var-dövlət yığmaq axmaqlıqdır.
Çünki sonra yığdığını qoyub torpağın altına yollanmalı olursan.

O ki qaldı zövcəyə, o sən öləndən sonra bir gün belə sənə sədaqətli qalmayacaqdır, canını tapşırmamış, başqası haqqında düşünəcəkdir. Sən canınla əlləşdiyin vaxt, ağlında dalınca kimin gələcəyini, ruhunu kimlərin aparacağını, cənnətə, ya cəhənnəmə düşəcəyini vahimə içərisində götür-qoy etdiyin zaman camaatın qarşısında özünü dərd çəkən kimi göstərmək üçün dil töküb ağlayacaqdır, amma ürəyində sənin var-varidatını hesablayıb və öz-özünə deyəcəkdir:

Dərd etməyin nə faydası? Ölümə çarə yoxdur,
Mən isə qanuni vərəsə alacağam.
Qayğılardan azad olub, özümə gün ağlayaram,
Həyatım dönər cənnətə, qayğısız yaşayaram.

Oğulların isə sən öləndən sonra sənin gecə-gündüz işləyib, zəhmətinlə qazandığın var-dövləti gözəllər əhatəsində, eyş-işrət məclislərində yeyib-xərcləyəcəklər və başqalarına özlərini göstərmək üçün, lazım olmayan yerlərdə səpələyəcəklər.

Zövcən bir başqasının qoynunda yatacaqdır,
Oğulların eyş-işrətlə vaxt keçirəcəklər,
Sən isə puç olmuş ömrünə təəssüf edərək,
Məzar daşının altında yatmaq üçün bu dünyadan köçəcəksən.
Dostların çox keçməz kef məclislərində səni unudarlar.
Sənə isə qalan təəssüflə peşmanlıq olacaqdır.
İllər boyu yığıb qoruduqların isə
Bir anda yox olub toz-dumana qarışacaqdır.

Belə olan halda, zövcə, övlad, qul dərdi çəkməyin bir mənası yoxdur. Daha düzgünü özünü düşünməkdir. Ağıllı adam öz ehtiyatını tutub xeyir əməllərini cəm edib hazır etməlidir ki, ölüm mələyi onun dalınca gələndə arxayın olsun ki, «ora»da onun xeyir əməllərlə dolu xurcunu hazırdır».

Peyğəmbər* - Allah ona yar olsun! – deyirdi: «Sən xəlvətə çəkilmiş, heç bir kəslə danışmayan, uzun müddət gərəyi olmayanda belə oruc tutan adamı mömin bilmə. Dünyəvi çətinliklərdən qorxan, hökmdarlara baş əyənləri mömin bilmə».

Demişdir: «Dərd arpanı buğda kimi satanındır. Dərd axirət dünyasını dünya nemətlərinə satanındır. Dərd nadürüst qadınların sözü ilə oturub-duranındır. Dərd kiminləsə kimə görəsə düşmənçilik edənindir, çünki çox vaxt düşmənlər barışığa gəlirlər, kənardan gələnlər isə nahaq yerə məhv olurlar».

Sonra demişdir: «Üç cür xərcə görə o dünyada haqq-hesab istəmirlər. Birincisi, xəstəlik üçün çəkilən xərclər; ikincisi, oruc vaxtında çəkilən xərclər; üçüncüsü, yaxın, dəyərli insanlar üçün çəkilən xərclər. Bax bu xərclərə görə qiyamət günü haqq-hesab tələb olunmur».

O həmçinin demişdir: «Elə bir ömür sür ki, özün əzab-əziyyət çəksən də, ətrafındakı insanlar rahat və gözəl həyat sürsünlər».

Bir dəfə demişdir: «Əgər Allah Adəm övladına bu üç xüsusiyyəti verməsə idi, onun qabağında duran olmazdı». Ondan soruşurlar: «Bu hansı xüsusiyyətlərdir?» Cavab vermişdir:

«Ölüm, xəstəlik və kasıblıq. Baxmayaraq ki, bu üç bəla insan həyatında daima hökm-fərmandır, insanlar öz bəd xislətlərindən əl çəkmirlər».

Başqa bir vaxt demişdir: «Hər enişin bir yoxuşu var; hər gecədən sonra gün doğar; hər uğurdan sonra məğlubiyyət; hər sevincdən sonra dərd gələr. Bunların hamısının sonu isə yoxluqdur». Ağıllı adam bu dünyəvi işlərin ardına düşməməlidir, çünki onların girovuna düşmüş adam heç vaxt oradan qurtula bilməz. Buna görə də ağlı olan kəs taleyinə tabe olub, doğru-dürüst həyat yaşamalıdır, çünki ondan başqa heç kəs onun firavanlığı üçün bir tikə çörək belə nəzir-niyaz verməyəcəkdir. İnsan unutmamalıdır ki, yaşadığı hər gün və hər gecə onu saatbasaat ölümə yaxınlaşdırır.

Ağıllı adam, həmçinin bilməlidir: həyatın bir parçası ölümdürsə, axirət bütövlükdə sonsuzdur. Cavanlıqda qocalığı, sağlamlıqda xəstəliyi, həyatda ikən ölümü düşünməlidir. «Diqqətli ol, unutma ki, bu daima dəyişən dünyada hər bir şey gəldi-gedərdir: xoşbəxtlik də, bədbəxtlik də. Yaxşı-yaxşı düşün: əvvəlin nə olub, indin nədir və sabahın nə olacaqdır».

Haradan gəlirsən? Kor-koranə hara gedirsən?
Bil ki, arxada da, qabaqda da uçurum vardır.
Ömrümüz, taleyimiz yazılanda,
Əvvəlinə, axırına tarix qoyan Allah olmuşdur.
Bizə həyat bəxş edilib, mənasını bilmirik,
Bir ürkək ceyran kimi səksəkədə gəzirik.
Ətrafda düşmən baxışlar izləyir bizi,
Sonsuz ümman ağuşunu açıb daima bizi hədələyir.

# XVII FƏSİL

## Böyük şəxsiyyətlərin kəlamları, rəmzlər, işarələr və ayrı-ayrı məsəllər haqqında; bu fəsil 31 hekayətdən ibarətdir:

Belə nəql edirlər ki, günlərin bir günü möminlərin əmiri həzrət Əlidən - Allah onun adını daima uca tutsun! - soruşurlar: «Alicənablığın başlanğıcı, ortası və sonu nədədir? Axı Cəbrail özü üçün bu sirri açmışdır».

Möminlərin əmiri cavab verir: «Alicənablığın əvvəli – oğurluq, ortası – yol güdmək, sonu isə - qorxudur.

Alicənablığın əvvəli ona görə oğurluqdur ki, sən Allah yolunda öz mənini oğurlayıb, ondan imtina edirsən, ortası ona görə yol güdməkdir ki, sən peyğəmbərin saldığı iman yolunu, onun qayda-qanunlarını qoruyursan, sonu isə ona görə qorxudur ki, bütün bunları anladıqdan sonra sən günah işlədib, Allah tərəfindən cəzalandırılmağından qorxursan».

Daha sonra demişdir: «Alicənablığın əvvəli qələbə, ortası edam, sonu sevincdir.

Birinci mərhələ içimizdəki baş qaldıran qəzəbi, kin-küdurəti, nifrəti dəf etdiyimiz üçün «qələbə» adlanır.

İkinci mərhələ içimizdəki nəfsi öldürdüyümüz üçün «edam» adlanır.

Üçüncü mərhələ isə Allahın buyurduğu əmrlərə itaət edib riayət etməyi bacarmağımız üçün «sevinc» adlanır.»

Bir dəfə ondan soruşurlar: «Rifah nədir?» O cavab verir: «Tox qarın, sağlam bədən və dünya qayğılarından xali qəlb».

Bir dəfə buyurmuşdur: «Müsəlman kişi və qadın bu dörd şey olmadan həyat sürə bilməz. Birincisi, minik heyvanı; ikincisi, ge-

niş, rahat evi; üçüncüsü, yaxşı, keyfiyyətli paltarı və dördüncüsü, gur yanan çırağı.

- Minik heyvanı - ağıldır
- Geniş, rahat ev - səbirdir
- Yaxşı, keyfiyyətli geyim - abır-həyadır
- Gur çıraq - bilikdir».

Bir dəfə ondan soruşurlar: «Nələr heç vaxt nə çoxalır, nə azalır? Nələr həmişə artır və nələr həmişə azalır?»

O cavab vermişdir: «Allah-təalanın əzəl gündən qoyduğu, yazdığı əməllər heç bir vaxt nə artar, nə də azalmaz. Paxıllıq insan ömrünün sonuna kimi artan bir cəhətdir ki, heç vaxt azalmaz. İnsan ömrü isə mütəmadi azalır və heç vaxt artmaz».

Bir dəfə ondan soruşurlar: «Bu nə sirdir ki, Allaha ibadət etmək adama ağır bir yük kimi gəlir, günah işlətmək isə çox asan?»

Cavab verir: «Günahlar cazibədar olur, ibadət, Allaha itaət isə dünya nemətlərindən imtinanı tələb edir. Şeytanla qonşuluq etmək Rəhim və Rəhman Allahın yönəltdiyi yolu getməkdən asandır və şeytanın qonşuluğundan imtina etməyi bacarmayan kəs üçün Uca Allahın kölgəsində yer olmaz».

Bir dəfə ondan soruşurlar: «Ən nəcib insan kimdir?»

Deyir: «Özü heç kəsin xahişini gözləmədən səxavətli olan, ehtiyacı olanların əlindən tutan və üçüncü bir adamın xahiş-minnətini gözləmədən insanların səhvlərini bağışlamağı bacaran nəcib insandır».

Bir dəfə belə bir söhbət etmişdir: «Günlərin bir günü yoxluqdan dörd qardaş peyda olur. Onların biri göydə qeyb olur, ikincisi ölür, üçüncüsü insanlara qarışıb yox olur, dördüncüsü isə həyatını sürür, amma ondan bir fayda olsa idi, o da qalmazdı.

Birinci – göylərə ucalan qardaş – sülhdür;

İkinci - ölən qardaş - əmin-amanlıqdır;

Üçüncü - insanlar arasında yox olan qardaş – sədaqətdir;

Dördüncü – qalıb yaşayan qardaş - ədavətdir, əgər onun insanlara bir faydası olsa idi, o da qeybə çəkilərdi».

Daha sonra demişdir: «Yer üzərində dörd cür insan yaşayır:

- Birinci qismə aid insanlar bilirlər və bilirlər ki, bilirlər;
- İkinci qismə aid olan insanlar bilirlər, amma bilmirlər ki, bilirlər;
- Üçüncülər bilmirlər və bilmirlər ki, bilmirlər;
- Dördüncülər isə bilmirlər, amma bilirlər ki, bilmirlər.
- Bilib, bildiklərini bilənlər müdriklərdir. Çalışın onların yanında olun və onlardan öyrənin.
- Bilib, bildiklərini bilməyənlər fikirləri dağınıq, yaddaşları pozulmuş insanlardırlar ki, onları daima özünə gətirmək ehtiyacı olur.
- Bilməyib, bilmədiklərini bilməyənlər nadan və cahillərdir ki, onlardan uzaq durmaq lazımdır ki, bu dünyada başına bəlalar gəlməsin, o dünyada isə cəhənnəm əzabına düçar olmayasan.
- Bilməyib, bilmədiklərini bilənlər isə adicə olaraq yolunu itirmiş, yolunu axtaran insanlardır. Onlara doğru yolu göstərin».

Möminlərin əmirinin –Allah onun şöhrətini daima uca etsin!- ərəb, əcəm, rum, hind şeyxlərinin, aqillərinin dəyərli, qiymətli fikirləri sonsuzdur.

Möhtərəm oxucunu yormamaq, usandırmamaq məqsədi ilə bu söhbətləri burada qoyub, indi isə insanların keçmişdə və bu gün sürdükləri həyat tərzlərindən söz açaq.

[Bura qədər] hər şeydən söz açdıq,
Bundan sonra köhnə hekayətlər söyləyəcəyik.
Keçmiş insanlar haqqında olan hekayətləri
Seçib bu kitabda toplamışam.
Qəm dağıtmağın bundan yaxşı yolu yoxdur.
Sənə bundan yaxşı yadigar, xatirə ola bilməz.
Qəm dağıdan bu hekayətlərdə
Hər nə istəsən, onu tapa bilərsən.
Dünyada hekayətlər çoxdur:
Ərəblərin və farsların dilindən deyilmiş
Hər cürəsi vardır. Lakin bunlardan yaxşısı yoxdur,
Qəmli insana bunlardan yaxşı munis yoxdur.
Kim bunların hamısını oxusa,
Min qəmi də olsa, unudular.
[Bu kitab] meyvəli, barlı bir bağ kimidir,

Yaxud da dürr və gövhərlə dolu bir dəryadır.
Mən heç bir xırda mətləbi və təfsilatı belə
Burada ixtisar etməmişəm.
Ümidvaram ki, bunu oxuyan kəs
Bu [kitabı] məndən özünə yadigar sanacaqdır.

## BİRİNCİ HEKAYƏT

# Mosullu Fəzlullahın əhvalatı və onun başına gəlmiş işlər haqqında

Deyirlər ki, Mosul şəhərinin hökmdarının saya-hesaba gəlməyən var-dövləti var idi. Allah ondan dünya nemətlərinin heç birini əsirgəməmişdir, amma bir oğul payı verməmişdir.

O gecə-gündüz Allaha dua edib yalvarırdı ki, ona bir oğul versin ki, öləndən sonra adını yaşadan olsun. Uca Allah onun dualarını eşidib, ona bir oğul verdi ki, dünyada gözəllikdə onun tay-bərabəri ola bilməzdi. Ata oğlunu naz-nemət içində böyüdüb, onu nədəsə korluq çəkməyə qoymurdu. O, oğluna Fəzlulah (Allahın lütfü) adını vermişdir. Fəzlullah böyüdükdə atası onu məktəbə göndərir ki, ilahiyyat qanunlarını, elmləri öyrənsin. Fəzlulah elm öyrənməkdə elə uğurlar əldə edirdi ki, şəhərin müdrikləri, aqilləri onun zəkasına heyran olurdular. İllər ötür, vaxt keçirdi. Atasının əmri ilə saray əyanları şəhərin bütün aycamal, ənbər ətirli zülfləri olan gözəlləri Fəzlullaha göstərirlər. Atası istəyirdi ki, oğlunun bu gözəllərdən birinə ürəyi yatsın, bu gözəllərdən birini sevib, seçsin, evlənsin, amma bu gözəllərin heç biri Fəzlullahın ürəyini fəth edə bilmir. Bir dəfə atası ona deyir: «Ay mənim ürəyim, canım, gəl əyanların qızlarının ən gözəlini seç, mən sənə gözəl bir toy edim, oğlun olsun, sən də mənim kimi ona baxıb fərəhlən, ömrünü fərəh içində sür». Fəzlullah cavab verir: «Başımın tacı atam, bu şəhərin heç bir qızı ürəyimə yatmadı, mən hiss edirəm ki, bu gözəllərin hamısına sədaqət hissi yaddır. Ona görə də mən yad ellərə yollanmaq istəyirəm. İstəyirəm ürəyimcə olan, ürəyimə yatan bir qız tapım. Mən onu sənin hüzuruna gətirəcəyəm və söz verirəm onunla ömrümün sonunadək həyat sürəcəyəm». Fəzlullahın sözləri atasını sevindirir və o əmr edir

ki, yol tədarüklərinə başlasınlar. Atası Fəzlullaha böyük məbləğdə pul, mal verib Bağdada tərəf üz tutan karvanla yola salır.

Karvan üç gün, üç gecə dayanmadan yol gedir və dördüncü gün gözəl bir çəmənlikdə dayanır. Burada yolçular dəvələri yükdən azad edib hərə öz işi ilə məşğul olmağa yollanır. Birdən səhra tərəfdən toz-duman qalxır və əyinlərində dəmir zireh, başlarında polad dəbilqə olan əlli nəfər peyda olur. Bunlar yol kəsənlər idi. Bunları görən kimi Fəzlullahın yoldaşları silahlara əl atırlar ki, onu mühafizə etsinlər. Fəzlullah onlarla bərabər silahını götürüb döyüşə girir. O, döyüşdə ağlasığmaz şücaətlər göstərir, neçə qulduru qılıncından keçirir, amma buna baxmayaraq, sonda quldurlar onu tutur, nökərlərini öldürür, bütün malını yağmalayırlar. Fəzlullah yaralı idi. Quldurlar onun əl-ayağını sarıyıb özləri ilə aparırlar. Quldurbaşı and içir ki, hər həlak olmuş qulduruna görə bu mosulludan elə bir intiqam alıb, onu elə bir əzabla edam edəcəkdir ki, göydə uçan qu°lar da tük salacaqlar.

Quldurlar Fəzlullahı da götürüb öz yurdlarına tərəf gedirlər və dağın dibinə çatırlar. Fəzlullah ətrafa göz gəzdirib görür ki, burada - ağaclıqların arasında quldurlara məxsus çoxlu ev vardır. Kəndin sakinləri qayıdanları görüb, sevincək onları qarşılamağa çıxırlar və meydanda böyük bir ağacın ətrafında toplaşırlar.

Quldurbaşı əmr edir ki, Fəzlullahı həmin ağaca bağlasınlar, özü isə dostları ilə yağmaladıqları karvandan əldə etdikləri qənimətləri bölüşdürməyə başlayır. Elə ki əldə etdikləri qənimətləri bölüşdürüb qurtarırlar, quldurbaşı əmr edir ki, Fəzlullahın əl-ayağını açsınlar və ölənəcən döysünlər. Quldurlardan ikisi Fəzlullahı üzü üstə uzadıb, biri başının üstündə, o biri ayağı tərəfdə durub, onu qırmancla döyməyə başlayırlar. Fəzlullaha əlli qırmanc vururlar, elə vururlar ki, Fəzlullah ağrıdan huşunu itirir. Binəva gəncin bu halını görən qadınların ona ürəkləri yanır və quldurbaşının zövcəsi ərinə deyir: «Öldürmək fikrin varsa, öldür, ixtiyar sahibisən, yox öldürmək istəmirsənsə, onu rahat qoy, bəsdir ona verdiyin əzab, görmürsən ki, artıq tablamır». Quldurbaşı zövcəsinin sözünə qulaq asıb, Fəzlullahdan əl çəkir.

Elə həmin vaxt yol güdənlər gəlib, bir varlı karvanın yaxınlaşmaqda olduğunu söyləyirlər. Quldurlar yaraqlanıb-yasaqlanıb yola çıxırlar, Fəzlullah isə bir küncdə sərilib qalır. Göyün üzünü gecənin qara pərdəsi örtəndə quldurbaşının zövcəsi dözməyib, qanlar içində uzanıb qalmış Fəzlullaha yaxınlaşıb, onu səsləyir: «Ay yazıq binəva, halın, vəziyyətin necədir?» Fəzlullah inilti ilə cavab verir: «Vəziyyətim fənadır, özümü çox pis hiss edirəm». Qadın soruşur: «Mən səni azad edib, yolu göstərsəm, gedə bilərsənmi?» Fəzlullah cavab verdi: «Çalışaram, sürünə-sürünə də olsa, gedib canımı qurtarım».

Qadın o saat onun əl-ayağını açıb, çiyninə bir köhnə əba atıb, əlinə bir çomaq və bir neçə kökə verib, qolundan tutub gecə qaranlığında yola çıxarır və deyir: «Bu yolu tutub yaşayış yerlərinə çatanacan get».

Fəzlullah qadına minnətdarlığını bildirib yola düşür. O bütün gecəni səhralardan keçib, dağlardan aşıb yol gedir, günəş şüaları qaranlığı dağıdanda bir yol ayrıcına çatır. Burada o, belinə odun yükləmiş yel kimi sürətlə gedən bir yolçu görür. Fəzlullah onu səsləyib, salamlaşır. Yolçu onun salamını alıb, soruşur: «Yolun hansı tərəflərədir, qardaş?» Fəzlullah cavab verir: «Bağdada». Yolçu Fəzlullaha yolu bir yerdə davam etməyi təklif edir və onlar yola düşürlər. Onlar vaxtaşırı dayanıb yorğunluqlarını alırdılar. Odunçu belindəki odunu yerə qoyub istirahət edirdi, canından işgəncələrin ağrı-acısı hələ də çıxmamış Fəzlullah da onunla bərabər bir tərəfdə oturub, nəfəsini dərirdi.

Nəhayət, onlar Bağdada yetişirlər, odunçu Fəzlullahdan ayrılıb öz işinin dalınca bazara yollanır, Fəzlullah isə bir məscidin qapısında oturur. Sonra öz-özünə deyir.: «Yaxşısı budur ki, mən məscidə girib dualarımı edim, yoxsa təsadüfən bir mosullu məni burada bu cilddə görər». Fəzlullah bunu fikirləşib, məscidə keçib bir küncdə oturur. O, orada düz üç gün, üç gecə oturur, bu gedişlə o, acından ölə bilərdi və öz-özünə deyir: «Əgər mən indi buradan qalxıb, gedib özümə iş tapmasam, ya acımdan, ya da susuzluğumdan öləcəyəm. Yaxşısı budur, qalxıb şəhərə gedim, bəlkə, bir tikə çörək tapıb, bir udum su içərəm». Bunu deyib o ayağa qalxır və küçəyə çı-

xır. Küçə ilə axıra kimi gedib böyük, əzəmətli bir saraya çatır. Sarayın günbəzi göylərə ucalırdı, qızılı pərdələri uzaqdan göz qamaşdırırdı. O, darvazanın yanında əyləşib öz-özünə danışmağa başlayır: «Ey bu mülkün sahibi, qara bəxtin təqib etdiyi bu binəvanın ağzına üç gündür ki, bir tikə dəyməmişdir. Səni and verirəm o uca Allaha, mənə rəhmin gəlsin, bir tikə çörək ver». Elə bunu demişdir ki, kimsə pərdəni çəkir və bir əl ona bir neçə kökə uzadır. Bu an külək qalxır, pərdə aralanır və Fəzlullah gözəllikdə tayı-bərabəri olmayan, insanın ağlını başından alan, dilini lal edən, ürəyini fəth edən bir aycamal görür. O heç vaxt bu gözəllikdə, bu qamətdə, bu zəriflikdə qız görməmişdir və belə bir gözəlliyin yer üzündə mövcudluğunu bir kimsədən eşitməmişdir. O, bir könüldən min könülə bu qıza elə aşiq olur ki, ruhunu itirir. Qız kökələri verib, həmin an gözdən itir, Fəzlullah isə aclığını unudub, ildırım vurmuş adam kimi yerindəcə donub qalır. Qızın gözəlliyinin xəyalına dalaraq, o hiss edir ki, ürəyi artıq özünə məxsus deyildir. O, durduğu yerdən tərpənə bilmirdi, elə bil ki bir qüvvə onu burada tutub saxlamışdır.

Fəzlullah, nəhayət, ürəyinə güc gəlib ayağa qalxaraq, oradan uzaqlaşır. Yoluna davam edən Fəzlullah bir qapının yanında oturmuş qoca görür. Çaşqın, solğun halda ona yaxınlaşıb deyir: «Ey möhtərəm qoca, bu küçənin o başında bir saray ucalır, orada mənə bir neçə kökə verdilər, gözümə işıq gəldi. Deyə bilərsənmi, o saray kimə məxsusdur?» Qoca cavab verir: «Ey cavan, o saray Müvəffəq Abdullahındır». Fəzlullah soruşur: «Bəs Müvəffəq Abdullah kimdir?» Qoca cavab verir: «O, vaxtı ilə şəhərin əmiri olmuşdur. O çox hörmətli bir adam idi. Bir qədər bundan əvvəl onun hakim ilə bir mübahisəsi düşmüşdür, hakim xəlifənin yanına gedib, Abdullahdan şikayət edib, ağla sığmayan böhtanlar atmış, bütün ağır, rəzil işlərdə onu günahlandırmışdır. Axırda xəlifəni inandıra bilmiş və o, Abdullahı əmirlikdən uzaqlaşdırmışdır, hakimin vəzifəsini isə artırmışdır. Bax o vaxtdan bəri Abdullah evinə çəkilib, xeyriyyəçiliklə məşğul olur, kasıbların, kimsəsizlərin dadına, köməyinə çatır». Fəzlullah bu sözləri eşidib öz-özünə dedi: «Bəli, indi mən bildim ki, o gözəl huri-mələk Bağdad şəhərinin keçmiş əmirinin

qızıdır. Bəs mən kiməm? Heç kim! Adi bir dilənçi... Ona görə də bu gözəl heç vaxt mənə qismət ola bilməz. Mən necə onunla evlənə bilərəm? Heç cür! Yaxşısı budur, bu xam xəyaldan əl çəkib, taleyimə boyun əyim».

Fəzlullah bunları fikirləşib qəbiristanlığa tərəf üz tutur. Ağlaya-ağlaya, sızlaya-sızlaya qəbiristanlığın ortasına çatır. O elə yorulmuşdur ki, elə orada yerə yıxılıb qalır. Gecənin yarısı hiss edir ki, yanında kimsə vardır. Gözlərini açmağa macal tapmamış təpədən dırnağınacan yaraqlanıb-yasaqlanmış birisi onun sinəsinin üstünə oturub xəncəri düz onun boğazına elə dirəyir ki, sanki onun başını bu dəqiqə kəsəcəkdir. Bunu görən Fəzlullah yalvarıb deyir: «Ey cavan, sən bu yazıq binəvadan nə istəyirsən? Mən sənə nə etmişəm ki? Sən mən bədbəxtdən nə ala bilərsən ki? Mən bədbəxtliklərin təqib etdiyi yazıq bir Allah bəndəsiyəm və birinci dəfədir ki, həyatımda yolum buraya düşmüşdür. Mənə rəhmin gəlsin!»

Fəzlullahın yalvarışlarını eşidən bu naməlum adam ayağa qalxıb onun saçlarından tutub bir xarabalığa sürüyür, orada onu bir uçuq daxmaya salıb arxadan qapısını bağlayıb gedir.

Bu işlərə məəttəl qalan Fəzlullah öz-özünə götür-qoy eləməyə başlayır: «Bu adam kimdir? Məni haraya gətirmişdir? Bura haradır?» O özünə bu sualları verə-verə qaranlıqda əlləri ilə ətrafı yoxlamağa başlayır. Birdən əli bir kəsilmiş başa dəyir, sonra bir insan ölüsünə ilişir. Fəzlullah qorxusundan inildəyib ağlamağa başlayır.

Elə bu vaxt qapı açılır, onu buraya sürüyüb salmış adam içəriyə girir. O, yenə də yaraqlanıb-yasaqlanmışdır və əlində də şam var idi. Fəzlullah şam işığında ətrafı nəzərdən keçirəndə görür ki, bura yüzdən çox başı üzülmüş, qarnı yırtılmış, başqa əzaları doğranmış meyitlərlə dolu böyük bir otaqdır. Bunları görən gəncin canını qurtarmaq ümidi üzülür. O, çaşqın halda ətrafa baxır, nə edəcəyini düşünür. Elə bu an quldur onun üstünə qışqırır: «Sən kimsən? Haralardan gəlmisən? Düzünü söylə!» Fəzlullah cavab verir: «Mən bədbəxtliklərin təqib etdiyi binəva bir gəncəm ki, indi də sənin əsirin olub yeni bir bəlaya düçar olmuşam. De görüm, mən haradayam, sən kimsən, bu öldürülmüş insanlar kimdir? Bunları de ki, mən də

sənə özüm haqqımda danışım». Əslində pis adam olmayan bu quldur Fəzlullahı dinləyib ona yaxınlaşır, əlini ona uzadıb qalxmağa kömək edir və onu otağın o biri başındakı qapıya sarı aparır. Qapını açıb onunla bərabər gözəl, səliqəli, geniş bir otağa daxil olur. Fəzlullahı otuzdurub zirehini, dəbilqəsini, silahlarını çıxarıb kənara qoyur. Fəzlullah qarşısında ay parçası kimi gözəl, bığ yeri hələ təzəcə tərləyən bir gənc görür. Gəncin görünüşü, hərəkətləri onun nəcib bir soydan olmasına dəlalət edirdi.

O, Fəzlullaha deyir: «Ey gənc, məndən qorxma, mən sənə heç bir şey etmərəm». O, gözəl bir süfrə açır və deyir: «Əvvəlcə ye, sonra mən özüm haqqımda danışaram».

Elə ki onlar yeyib qurtarırlar, gənc süfrəni yığıb öz hekayətinə başlayır: «Ey gənc, bil ki, mənim adım Əbü-l-Həsən Nəhrəvanidir. Atam Nəhrəvan qalasının hökmdarı olmuşdur. O bu həyatdan köçəndən sonra qalanın hökmdarlığı mənə keçmişdir və mən bu vəzifəni tutmuşdum. Mən qala sakinlərinə çox yaxşılıqlar edirdim, onlara çox bəxşişlər paylayırdım. Əyanlar mənə dedilər ki, əvvəl gərək xəlifənin hüzuruna gedib onun əlindən öpəm, xeyir-duasını alam. Gərək qalanın hökmdarı təyin olunmağım haqqında yeni əmrin verilməsini gözləyim. Mən ancaq ondan sonra qalanın səlahiyyətli hökmdarı ola bilərəm. Mənə atamdan son dərəcədə böyük var-varidat qalmışdır, özüm də bu var-varidatı qısa müddətdə birə-on qat artırmışdım. Mən çoxlu dəyərli, qiymətli hədiyyələr götürüb əyanlarımla, əshabələrimlə Bağdada - xəlifənin hüzuruna yollandım. Bağdada gəlib, hədiyyələri, pay-pürüşü paylayıb, xəlifənin hüzuruna getdim və qala hökmdarlığının yeni təyinatını aldım. Karvanımızın yola düşəcəyi günün gecəsi bir gənc nökərimlə şəhəri və çayı seyr etmək məqsədi ilə Fərat çayının sahilinə düşüb xəlifə sarayının talvarının altına keçdim. Həmin an mən açıq pəncərədən baxan bir qız gördüm. Mən ağlıma belə gətirə bilməzdim ki, bu gözəllikdə insan ola bilər. Mən heç vaxt belə gözəllikdə, yaraşıqda, şirinlikdə, zəriflikdə, incəlikdə gözəl görməmişdim. Qız pəncərədən baxırdı, mən isə çaşqın halda ona baxırdım, başımı itirmişdim. Ürəyim o gözəlin eşqi ilə, onun heyrətamiz cazibəsi ilə dolmuşdur,

buradan bir addım belə kənara qoya bilmirdim. Mən gecə düşənəcən o ay üzlü gözəl pəncərədən itənəcən orada qaldım. Nəhayət, ürəyimdə nisgil hissi, canım sızıldaya-sızıldaya evə yollandım. Əyanlarımı, əshabələrimi toplayıb dedim: «Mən bu şəhəri çox sevdim. Siz hamınız Nəhrəvana qayıdıb qalanı nəzarət altında saxlamalısınız. Mən isə hələ bir neçə gün burada qalıb şəhəri seyr edəcəyəm». Amma mənim əyanlarım bunu düzgün hesab etmədilər və dedilər: «Biz sənsiz Nəhrəvana qayıda bilmərik, axı qalanın böyüyü, hökmdarı sənsən. Qalaya hər bir tərəfdən çoxlu insan gəlir və hər an bir hadisə baş verə bilər, vəziyyət dəyişə bilər. Ona görə də sənin olmağın vacibdir». Onda mən vəzirimə dedim: «Belə olan halda mən sənə bütün səlahiyyətlərimi verirəm. Sən yola düş, mən gələnə kimi hər şeyi yoluna qoy, qayda-qanun yarat, mən də tezliklə gələrəm. Belə daha yaxşı olar».

Beləliklə, mən ətrafımı Nəhrəvana yola salıb, Bağdadda tək qaldım. On gün ərzində mən xəlifə sarayının pəncərəsi altında durub gözəl sevgilimin ay camalına tamaşa etdim. Bir dəfə o mənim ona baxdığımı gördü və o saat pərdənin arxasında gizləndi. Mən çox peşman oldum və öz-özümə dedim: «Kaş o məni görməyəydi!» Mən hər səhər ora gedib axşama qədər talvarın altında durub, sevgilimi görmək arzusu ilə gözləyirdim və axşam geri qayıdırdım. Nəhayət günlərin bir günü o aycamal gözəl yenə pəncərədə göründü və həmin dəqiqə mənim orada olduğumu hiss etdi və qəzəblə dedi: «Ay tərbiyəsiz, başqa yer tapmırsan özün üçün, sən nə edirsən burada? Çıx get buradan! Nökərlərim səni burada görsələr, sağ-salamat buraxmayacaqlar». Bu sözləri eşidən kimi mən əyilib alnımı yerə qoyub dedim: «Ey huri-mələk, ey gözəllər gözəli, mən, qeyri-ixtiyari sənin cazibənin toruna, bu eşqin girovuna düşmüş bir yadelliyəm. Yardım əlini uzat, məni bu əzabdan qurtar!» Huri-mələk qəzəblənərək dedi: «Ey tərbiyəsiz, sən özün öz qəsdinə durmusan? Çıx get buradan, yoxsa mənim qəzəbimin qığılcımı səni bir göz qırpımında kül edər». Bunu deyib o, pəncərənin qabağından çəkildi. Mən qəlbi sınmışın evə qayıtmaqdan başqa əlacı qalmamışdır. Mən bütün gecəni cəhənnəm odunda yandım, səhər açılan

kimi yenə də öz adət etdiyim yerimə getdim. Huri-mələyim yenə də məni görəndə başını yırğalayıb dedi: «Mən sənə demədimmi, tərslik edib başını itirərsən?» Mən onun qarşısında baş əyib dedim: «Ey aycamal, ləbləri bal gözəl! Sənə olan eşqimin yolunda başımı nədir, canımı verməyə hazıram. Ya mənim canımı al, ya da mənim aycamal sevgilim ol!» O cavab verdi: «Günlərini küçələrdə keçirənin biri olsan da, ağzından nəcib insanlara xas dürr tökülür. Axı sən tam təsadüf nəticəsində məni görüb aşiq olmusan və bilirsən ki, bu baş tutan sevda deyildir, ona görə gəl əl çək bizdən, rahat qoy bizi». Mən yenə də baş əyib alnımı yerə qoyub dedim: «Mənim başımın bircə tükü, canımın bircə tikəsi sənin eşqinlə sarılmış olmasa, mən onları qoparıb yandırıb-yaxaram!»

Huri-mələk mənim bu sözlərimi eşidib bir az yumşaldı və dedi: «Gəl, sən bu gün get, sabah gələrsən. Mən çalışacağam sənin dərdinə bir əlac edəm». Mən bu sözləri eşidib elə sevindim ki, az qala uçacaq idim. Evə qayıtdım, amma gecə səhərəcən gözlərimi yuma bilmədim. Elə ki, yeri-göyü öz nuru ilə işıqlandıran, göylərin nur saçan «Xosrov»u yenə də öz taxtına çıxdı, mən həmişəki kimi öz «Şirin»imin hüzuruna yollandım. Pəncərəyə baxanda onun həmişəki yerində durduğunu gördüm. Mən onun qarşısında baş əydim, o da mənə ehtiramla cavab verdi. Mən dedim: «Ey gözümün nuru, ürəyimin məlhəmi, mən sənin qarşında bir günah sahibi olmadığım halda, niyə mənim canımı, ruhumu məndən alırsan?» O çox zərif bir tərzdə cavab verdi: «Sən burada durma, get! Eşqin atəşi, ehtirasın alovu minlərlə ev yandırıb-yaxmışdır. Bu gecə ay çıxanda eyvanımın altına gələrsən, mən düşüb sənin dərdinə şərik olaram». Mən minnətdarlığımı bildirib, ona dualar edib evimə qayıtdım. Gecə dünyanın üzünü qara niqabı ilə örtəndə üzərimə ən gözəl ətirləri vurub həmişəki yerimə getdim və gözlərimi aycamal gözəlimin həmişə durduğu eyvana dikdim. Bir vaxt gördüm ki, pəncərədən bir ip sallanmışdır. Mən ipdən yapışıb yuxarıya dırmaşdım. Mən pəncərədən içəriyə keçəndə gördüm ki, çox gözəl, zövqlə bəzədilmiş, cənnət guşəsinə bənzəyən otaqdayam. Otağın ortasında çox təmtəraqlı taxt qoyulmuşdur. Mənim huri-mələyim mənə

yaxınlaşıb qollarını boynuma sarıdı. Onun məstedici, gözqamaşdırıcı gözəlliyi qarşısında özümü elə xoşbəxt hiss etdim ki, az qala huşumu itirmişdim. Sevgilim məni taxtda əyləşdirib, qapının cəftəsini möhkəm çəkdi. Sonra o, şahanə bir süfrə açdı və məni süfrəyə dəvət elədi. Əslində, heç aclığım yox idi, sevgilimə qovuşduğum üçün xoşbəxtlərin xoşbəxti idim, buna baxmayaraq, təamların hamısının dadına baxdım və o gözəl huri-mələk süfrəni yığışdırdı. Daha sonra o, süfrəyə şərab və gülab gətirdi, bundan başqa süfrədə qızıl teştin içində gözəl, təravətli meyvələr, cürbəcür çərəzlər var idi. Biz şərabdan qurtum-qurtum içib qurduğumuz şirin ünsiyyətdən məst olurduq. Bir neçə badə içmişdik ki, birdən kimsə qapını döyməyə başladı. Mənim aycamal gözəlim qapıya yaxınlaşıb soruşdu: «Gecənin bu saatında kimdir qapımızı döyən?» Qapının arxasından cavab gəldi: «Aç qapını!» O gözəl pəri ərinin səsini tanıdı, onun bütün vücudu əsdi, üzünü mənə tutub titrək səslə dedi: «Ey gözəl gənc, mən məhv oldum, sən öz canını qurtar!» Mən soruşdum: «Axı nə olmuşdur?» O, titrək səslə dilləndi: «Dur tez taxtın altında gizlən, gələn, qapının arxasında duran möminlərin əmiri, xəlifədir - mənim ərimdir.... Mən faş oldum, hər şey məhv oldu. Bilmirəm, indi nə olacaqdır, amma nə bəla varsa, mənim başımda çatlasın, təkcə sənə bir şey olmasın».

Bu sözlərdən qorxub tez taxtın altında gizləndim. Qız gedib qapını açdı. İçəriyə əlində qınından çıxarılmış xəncəri ilə iri cüssəli bir kişi daxil oldu. Bu, xəlifə idi. Onun yolunu əlindəki şam ilə bir nökər işıqlandırırdı. Xəlifə taxta yaxınlaşıb əyləşdi və qışqırdı: «Ay tərbiyəsiz! Ay əxlaqsız! Söylə görüm, kim var idi bizim otağımızda?» Gözəlimin qorxudan dili tutulmuşdur, bir kəlmə söz deməyə belə iqtidarı yox idi. Xəlifə nökərinə otağı yoxlamağı əmr etdi. Nökər otağın altından vurub üstündən çıxdı, otağın altını üstünə çevirdi və məni tapıb xəlifənin qarşısına gətirdi. Xəlifə var gücü ilə qışqırdı: «Ay bədbəxt rəzil, sən kimsən? Sən nə cürətlə mənim otağımı murdarlamısan? Sən mənim sarayıma necə daxil ola bilmisən?» Qorxudan başımı itirmişdim, ağzımı açıb bir söz belə deyə bilmirdim. Xəlifə əlindəki qılıncı mənim başımın üstündə qaldır-

mışdır ki, qapı açıldı və içəriyə bir ağbirçək qadın daxil oldu. Qadın əllərini sinəsinə sıxaraq, dedi: «Oğlum, ürəyimin məlhəmi, başımın tacı! Səni and verirəm verdiyim südə! Onlara dəymə! Mən istəmirəm ki, sənin əllərin bu rəzil, mənəviyyatları düşük məxluqların qanına bulaşsın. Mən istəmirəm onlar sənin əlinlə ölsünlər. Əmr et, onların əllərini, ayaqlarını möhkəm bağlayıb bu pəncərədən Fərata atsınlar».

Xəlifə anasının sözünə əməl edib, bizim əllərimizi, ayaqlarımızı bağlatdırıb pəncərədən Fərat çayına atdırdı. Mən uşaqlıqdan üzməyi yaxşı bacarırdım, hətta mənim üzgüçülük məharətimi sınamaq məqsədi ilə tez-tez əllərimi, ayaqlarımı bağlayıb çaya atardılar, mən isə eyni bacarıqla üzüb çıxardım. Buna görə də həmin gecə mən özümü çayın üzərində saxlamağı bacardım və sahilə çıxdım, amma mənim aycamal, gözəl huri-mələyim suyun dibinə getdi və həyat ilə vidalaşdı. Bir qədər sonra o artıq cansız halda suyun üzünə çıxdı, mən isə həmin vaxt sahildə çabalayırdım ki, əllərimdəki, ayaqlarımdakı iplərdən qurtulum, ürəyim isə köz kimi yanıb-yaxılırdı. Nəhayət, ipləri qırıb tökdüm, azad oldum, amma bu azadlıq mənim ruhumun sıxıntısı ilə müqayisədə heç bir şey idi, mən fəryad edib, yaz buludu kimi göz yaşları tökürdüm. Aycamal gözəlim suyun üzünə çıxanda onu sudan çıxarıb, ağuşumda qəbiristanlığa gətirdim, mənim üçün həyat suyu qədər qiymətli olan o mələyi bu misraları deyə-deyə, göz yaşları tökə-tökə torpağa tapşırdım:

Sənin həyat köynəyin artıq yırtılmışdır,
Adın həyat kitabından pozulmuşdur.
Dirilik suyuyla çırpınan ürək,
Nə səbəbdən torpağın altında qalmışdır?....

Bundan sonra mən and içib özümə söz verdim ki, bu aycamal gözəlimin qəbrini heç vaxt tərk etməyəcəyəm və Bağdad xəlifəsinin bütün əyan, əshabələrini qılıncımdan keçirib mələyimin intiqamını alacağam. Bu gördüyün, bütün öldürülmüş insanlar xəlifənin adamlarıdır. Mən səni də öldürmək istəyirdim, amma eşidəndə ki,

yadellisən rəhm etdim. Mən sənə öz param-parça olmuş ürəyimin sızlayan hekayətini danışdım, indi də sən özün haqqında söhbət et».

Əbü-l-Həsənin hekayətini dinləyib, heyrətlənən Fəzlullah öz növbəsində başına gələnləri danışdı. Əbü-l-Həsən də Fəzlullahın başına gələnlərə heyrətləndi və onun halına ürəkdən acıyaraq qışqırdı: «And olsun namusuma, səni sevgilinə qovuşdurmamış özümə rahatlığı halal bilmərəm». Fəzlullah ona minnətdarlığını bildirdi və onlar elə həmin otaqda gecələdilər.

Səhəri gün gecənin düşməsini gözləyib, qaranlıq düşəndə Əbü-l-Həsən dedi: «Dur, biz indi sənin işinlə məşğul olacağıq, bəlkə, bu gün sənin ürəyinin dərdinə əlac edə bildik». Fəzlullah dedi: «Əmrə müntəzirəm, hökm sənindir». Sonra Əbü-l-Həsən geyinib, silahlarını götürdü və onlar Müvəffəqin yaşadığı məhəlləyə tərəf getdilər. Sən demə, elə ötən gecə Müvəffəqin evinə oğrular girib, xeyli qızıl-gümüş, əşya aparıblarmış. Əbü-l-Həsənlə Fəzlullahın oraya yollanmaqları Müvəffəqin öz adamları ilə növbələşərək pusquda durub dünənki quldurların qalan əşyaların dalınca gələcəklərini güdmələri ilə eyni vaxta təsadüf etmişdir. Şübhəsiz ki, bundan nə Əbü-l-Həsənin, nə də Fəzlullahın xəbəri var idi. Müvəffəqin sarayına yaxınlaşanda, Əbü-l-Həsən kəməndi dama atıb onu möhkəm bərkitdi. Dostlar bir göz qırpımında dama dırmaşdılar, ətrafa göz gəzdirib heç kəsin olmadığına əmin oldular, amma onlar bilmirdilər ki, pusquda durmuş Müvəffəqin adamları onları çox yaxşı görürlər. Onlar öz aralarında pıçıldaşırdılar: «Nəhayət, dünənki qonaqlar təşrif buyurdular, indi gözləyək onlar evə daxil olsunlar». Əbü-l-Həsənlə Fəzlullah evə daxil olmuşdular ki, Müvəffəq adamları ilə pusqudan çıxıb onların hər ikisini tuturlar. Müvəffəq dedi: «Bunlar oğrudurlar, bunları buraxmaq olmaz, aparın bunları xəlifənin zindanına salın, gözətçilərə təhvil verin, sabah xəlifəyə xəbər verərəm onları layiqincə cəzalandırar». Beləliklə, Əbü-l-Həsənlə Fəzlullahı aparıb zindana saldılar və həbsxana gözətçilərinə tapşırdılar. Gözətçi onların yanında çömbəlib oturdu və söhbət eləməyə başladı: «Yer üzündə oğurluqdan əskik, rəzil iş yoxdur, siz nəyə görə bu işlə məşğul olursunuz? Sabah hər ikiniz bu işlərinizə görə

edam olunacaqsınız». Əbü-l-Həsən gözətçiyə dedi: «Səni and verirəm namusuna, mənim bir sualıma cavab ver». Gözətçi dedi: «Buyur, soruş». Əbü-l-Həsən dedi: «Bizim edam edilməyimizdən sən bir fayda görəcəksənmi və ya edam olunmasaq, əfv olunsaq, sənə bir zərər dəyəcəkmi? Sizə oğru lazımdırsa, oğru mənəm, qatil lazımdırsa, qatil də mənəm, bu yazıq, günahsıza rəhminiz gəlsin, onu öldürsələr, günahı mənim üstümdə qalacaqdır. Əgər səndə bircə damcı vicdan deyilən şey varsa, bu gəncə rəhm et, onu azadlığa burax, bil ki, bunu etsən, çox xeyirxah iş görmüş olarsan».

Bu sözləri eşidən gözətçi məəttəl qalıb fikrə getdi. Bir az fikirləşib, üzünü Fəzlullaha döndərib dedi: «Papağını da, əbanı da çıxart, ver mənə». Fəzlullah papağını, əbasını çıxarıb gözətçiyə verdi, o isə Fəzlullahın çiyninə bir köhnə, sökük palaz parçası atıb həbsxananın qapısını açıb onu yavaşca zindandan çıxardı və tapşırdı ki, heç kəsin gözünə görünmədən buradan uzaqlaşsın. Həbsxanadan çıxan Fəzlullah özünü təqsirkar bilirdi. O neçə gün qapı-qapı gəzib çörək yığıb həbsdə qalmış Əbü-l-Həsənə aparırdı ki, yoldaşı özünü atılmış hiss etməsin. O elə zəifləyib əldən düşmüşdür ki, bir gün özündən xəbərsiz, huşunu itirib yolun bir tərəfində yıxılıb qalmışdır.

Təsadüfən yolu buradan düşmüş Bağdad şəhərinin hakimi Fəzlullahı bir küncdə sərilmiş görür. Hakim ayaq saxlayıb, ətrafdakılardan soruşur: «Bu adam kimdir?» Ona cavab verirlər ki, bu bədbəxt gənc yadellidir. Hakim öz adamlarına əmr edir ki, gənci götürüb onun evinə aparsınlar. Fəzlullah bir az özünə gələndən sonra hakim ondan soruşur: «Sənə nə olmuşdur?» Fəzlullah cavab verir: «Ey möhtərəm insan, mənim kədərli hekayətimin tarixçəsi çox böyükdür. Mən onu danışmağa başlasam, qorxuram ki, səni darıxdıraram, ürəyini üzərəm». Hakim onun nəcibliyini dəyərləndirir və hər şeyi ardıcıllıqla danışmasını buyurur. Fəzlullah başına gələnlərin hamısını danışır. Hakim deyir: «Heç bir şeydən qorxma və qəm etmə, mən sənin işlərini elə yoluna qoyacağam ki, sevdiyinə də qovuşacaqsan və şad-xürrəm ömür sürəcəksən». Hakim əmr edir ki, Fəzlullahı hamama aparsınlar, çimdirsinlər, ona qızılı parçadan tikilmiş xələt geyindirsinlər, başına bahalı qumaşdan çal-

ma qoysunlar, sonra bir qatırın üstünə mindirib əyanların məclisinə gətirsinlər. Fəzlullah gələndə hakim özü durub onu salamlayır, sağ tərəfində əyləşdirir və deyir: «Ey möhtərəm insan, sən mənim evimə təşrif buyurmağınla məni xoşbəxt etmişsən, mən sənə minnətdaram». Hakim bunları deyib, Müvəffəqin dalınca iki nəfər göndərir.

Müvəffəq ürəyində min cür fikir, beynində min cür qarışıq dərd hakimin evinə gəlir. Hakim isə onu çox böyük ruh yüksəkliyi, ehtiramla qarşılayıb yanında əyləşdirir. Müvəffəq hakimin rəftarına heyrət edib deyir: «Ey möhtərəm hakim, ey hakimlərin hakimi, mən hansı bir əməlimlə sənin rəğbətini qazanmışam?» Hakim cavab verir: «Dostum Müvəffəq, aramızda baş vermiş incikliyə görə məni bağışla, mən indi başa düşdüm ki, günahın hamısı bədxahlarda və riyakarlarda olmuşdur, indi mən bunu dəqiqliyi ilə bilirəm və ona görə səndən üzr istəyirəm». Müvəffəq ona öz minnətdarlığını bildirib, təşəkkür edir. Hakim söhbətə başlayır, onlar ordan-burdan söhbət etdilər və axırda hakim deyir: «Ey Müvəffəq, xoşbəxt doğulmuş insanı heç kəs bədbəxt edə bilməz, məsələn, səni. Sənin yanında oturmuş gənci tanıyırsanmı?» Müvəffəq cavab verir: «Xeyr, tanımıram». Hakim deyir: «Sən Vasit şəhərinin vəziri Mahyarı tanıyırsanmı? Bilirsənmi ki, xəlifənin mərhəməti sayəsindən bizim məmləkətdə ondan varlı, nüfuzlu, zəngin, möhtəşəm, möhtərəm, mötəbər adam yoxdur? Bu gördüyün gənc onun oğludur».

Mahyarın adını eşidən Müvəffəq yerindən dik atılır, Fəzlullahın qarşısında təzim edib deyir: «Ey zati-aliləri, yer üzündə, kiçiyindən tutmuş böyüyünəcən, bütün əhali sənin sayəndə gün-güzəran sahibi olmuşdur, səni dərhal tanıyıb, layiqincə qarşılamadığım üçün məni üzrlü bil». Fəzlullah deyir: «Allah sənə yar olsun! Sən çox alicənabsan». Onda hakim deyir: «Ey Müvəffəq, bil ki, bu, o yüksək, ali nəslin oğlu olan gənc öz ən yaxın əyanlarından sənin qızın haqqında eşidib uzaqdan-uzağa ona bir könüldən-min könülə aşiq olmuşdur. İndi də bu gənc möhtərəm atasının məsləhəti ilə bizim şəhərə buyurmuş və mübarək qədəmləri ilə bizi xoşbəxtləndirmişdir ki, səndən elçilərinin qəbul etməyini rica etsin. Mən belə düşünürəm ki, bu sənin üçün çox böyük şərəfdir və sən qızını

Allahın bu sevimli bəndəsinə verməlisən. Sən bununla özünə böyük yaxşılıq etmiş olarsan, belə ki, bundan xəbər tutan Mahyar sənə ağlına gəlməyən ərməğanlar göndərib, səni göylərə ucaldar».

Müvəffəq deyir: «Məgər mən buna layiqəm ki, mənim qızım Mahyarın oğlunun zövcəsi olsun? Mənim heç şübhəm yoxdur ki, bu gəncin hərəmxanasında mənim qızımdan qat-qat gözəl kənizlər vardır». Hakim deyir: «Doğrudur, düz deyirsən, amma o sənin qızını öz istəyi ilə seçmişdir». Müvəffəq deyir: «Mən qızımı ona tək zövcə kimi deyil, kölə kimi də verməyə hazıram, amma mən gərək əvvəlcə gedib evdəkilərə bu xoş xəbəri çatdıram ki, onlar da tədarüklərini görsünlər». Hakim etiraz edir: «Müvəffəq, sən evinin böyüyü və ağasısan və mənim heç şübhəm yoxdur ki, evdəkilər üçün sənin hər sözün qanundur və onlar heç vaxt sənin sözünün qarşısına söz qoymazlar. Gəl biz elə indi gənclərin kəbinini kəsək, sonra get, bu xoş xəbəri onlara çatdır, onlar da bu xoşbəxtliyin şərbətindən dadsınlar».

Müvəffəq buna razı olur, elə o saat gənclərin kəbini kəsilir, o, qızını Fəzlullaha verir. Onda hakim buyurur: «Ey Müvəffəq, böyük insanların sözləri ilə əməlləri adi insanların sözlərindən, əməllərindən fərqli olur. Sən gəl, bu xəbər ətrafa yayılmamış, xəlifəyə çatmamış işi sona çatdır. Bu şahzadəni özünlə evinə apar və onu qızına qovuşdur, mən isə bu arada atasına məktub yazıb, oğlunun evlənmə xəbərini verim. Səni inandırıram ki, gözünü qırpmağa belə macal tapmamış, Mahyarı ağlagəlməz ərməğanlarla burada görəcəksən və o sənin işlərini elə düzüb-qoşacaqdır ki, heç özün də bunun mümkünlüyünə inanmayacaqsan». Müvəffəq sevincək deyir: «Ey mənim xeyirxah himayədarım, mən qızım üçün hər şey etməyə hazıram və əgər bizim əsilli-nəcabətli əzizimiz evimizə təşrif buyurarsa, mən özümü çox xoşbəxt hiss edərəm və həmin an qızımı ona təhvil verərəm».

Hakim qatırın üstünə qızılı saplarla toxunmuş yəhərin bağlanmasını əmr edir, özü Fəzlullahı onun üstünə otuzdurur və onlar Müvəffəqin evinə yollanırlar. Saraya çatanda Müvəffəq özü qatırın yüyənini tutur, Fəzlullahın enməsinə kömək edir və evə aparıb ən

hörmətli yerdə əyləşdirir. Sonra qadınlar olan tərəfə keçib, olanları xanımı ilə qızına danışır. Xanımı deyir: «Ağam, söz sahibi sənsən, sən deyən olsun, sən deyən bizim üçün qanundur, bizim xoşbəxtliyimiz də bundadır». Ana o saat qızını ziyafət üçün hazırlamağa başlayır, ən gözəl paltarlarını geyindirir, müşk, ənbər, ənlik, kirşanla, zər-ziba ilə bəzəyir və Fəzlullahın hüzuruna aparır. Fəzlullah qarşısında, başına gələn bütün bu işlərin səbəbi olan, o ağlagəlməz, dillə təsvir edilməsi mümkün olmayan gözəli görəndə az qala huşunu itirir. Müvazinətini zorla saxlayan Fəzlullah Allahına şükürlər edib, hakim üçün dualar etməyə başlayır: «Ey böyük Allah! Sən məni bu mələyə, bu nur çöhrəli pəriyə qovuşdurmuş, məni yerin dibindən qaldırıb göyün yeddinci qatına ucaltmış o imam xislətli adamı qoru, onu öz pənahında saxla!» Sonra bu gənclər xəlvətə çəkilib günlərini xoş əhvalla keçirirlər.

Səhəri gün Fəzlullah dünəndən onun istifadəsinə verilmiş otağında şahlar kimi əyləşib öz-özünə dünənki günü bu gün necə davam edəcəklərini götür-qoy edib xəyallara dalmışdır ki, vaxt qapı döyülür. Nökərləri hakimin adından bir nəfərin gəldiyini və qapıda gözlədiyini deyir. Fəzlullah zövcəsindən otağı tərk etməsini xahiş edir və o adamın içəri keçməsini buyurur. O öz-özünə düşünür ki, hakim, yəqin ki, ona hədiyyələr göndərmişdir. İçəri girən nökər isə deyir: «Hakimin nökərləri sənə salamlarını göndərirlər, hakim isə xahiş edir ki, onun əbasını və əmmaməsini qaytarasan və bu qiymətli paltarı geri götürəsən». Bunu deyib, nökər əlindəki bağlamanı Fəzlullahın qabağına atır. Fəzlullah bağlamanı açıb içərisində həbsxana gözətçisinin ona verdiyi cırıq palaz parçasını görür. Bu gen dünya Fəzlullahın başına dar gəlir, gözü qaralır, əynindəki bahalı əbanı, qiymətli əmmaməni çıxarıb nökərə verir, köhnə, cırıq palaz parçası ilə üstünü örtüb, pərt-pəjmürdə bir küncdə sıxılıb oturur. Hakimin göndərdiyi adam çıxıb gedəndən sonra Fəzlullahın ay parçası kimi gözəl, gül qönçəsi kimi təravətli xanımı onun yanına qayıdır, amma ərini belə acınacaqlı vəziyyətdə görüb acı-acı ağlayıb deyir: «Ey mənim sadiq həmdəmim, bu nə haldır, bu nə işdir?» Fəzlullah xanımının qarşısında təzim edib, alnını yerə qoyub deyir:

«Ey huri-mələk, ey göylərin məlakəsi! Səni and verirəm o, yeri-göyü yaradana, səni and verirəm sədaqətimə, nəcabətimə, otur və məni dinlə, sonra özün məsləhət bildiyin qərarı çıxararsan».

Qız dedi: «Danış, ürəyində nə varsa, de, başa sal, anlat məni, bu nə haldır, bunların hamısı nə deməkdir?» Fəzlullah onun qarşısında əyləşib başına gələnlərin hamısını, əvvəldən-axıradək danışır. Bütün bunları heyrətlə dinləyən xanım çaşqınlıqdan söz tapa bilmirdi. Onun çaşqınlığını görən Fəzlullah deyir: «Mənim hal-hazırda vəziyyətim budur və hər nəyəmsə, hər necəyəmsə, yaxşıyammı, pisəmmi – mən sənə məxsusam və mənim taleyim sənin əlindədir». Xanım fikrə getdi, bir müddət düşündü və sonra dillənir: «Ey mənim canım, gözüm! Sən heç nəyə baxmayaraq, şah da olsan, dilənçi də olsan, mənim qanuni, halal ərimsən. Hakim atama bəslədiyi kini bizə bu yolla göstərmək istəmişdir, amma eybi yoxdur, sən heç ürəyini sıxma, sənin bu işdə heç bir günahın yoxdur. Mən indi ona elə bir dərs verəcəyəm ki, bütün dünyada rüsvay olacaqdır». Bunları deyib, qız sandığını açıb oradan bahalı, gözəl paltarlar çıxarıb, Fəzlullaha verdi ki, əynini dəyişsin və dedi: «Canım, gözüm, bu başına gələnləri hələ heç kəsə danışma». Fəzlullah cavab verdi: «Baş üstə!»

Bir neçə gündən sonra Fəzlullahın aycamal zövcəsi elə geyinib, elə bəzəndi ki, onun gözəlliyinə göydəki mələklər belə heyran qalmışdırlar. O, ərinin yanına gəlib dedi: «İcazə ver, gedib rəfiqəmi ziyarət edim». Fəzlullah dedi: «İxtiyar sahibisən». Heç kəsə heç bir şey demədən, yanında qul-nökər götürmədən qız birbaşa hakimin evinə gedib qəbul otağına keçir. Orada bir küncdə əyləşib hamının getməyini gözləyir. Hakimin vəkili gülcamal gözələ yaxınlaşıb soruşur: «Sənin nə işin vardır?» Qız cavab verir: «Mənim işim şəxsən hakimin özü ilədir və mən ancaq təklikdə sözümü ona deyə bilərəm». Vəkil bu sözləri hakimə çatdırır. Hakimin gözəllər düşkünü olduğu hamıya məlum idi. Bu sözləri eşidən kimi o öz şəxsi otağına keçib əmr edir ki, qızı içəri dəvət etsinlər. Müvəffəqin qızı çəkinmədən içəriyə keçib, təzim edir və onun qarşısında əyləşir. Hakim qızı ani baxışla süzüb, onun sərv qamətinə, nazına, ədasına heyran qalır. Qız onu tam məhv etmək üçün üstündəki çarşabı, hicabı,

niqabı atıb gecə qaranlığından doğmuş ay kimi bütün gözəlliyi ilə otağa işıq saçır. Hakim bu gözəlliyin qarşısında donub, ağlını-başını itirir və həyəcanla dillənir: «Ey gözəl pəri, sən hansı məsələ ilə bağlı zəhmət çəkib buraya təşrif buyurmusan?»

Qız yaqut dodaqlarını açıb deyir: «Ey hökmdarım, ey böyük hakim! Sən o uca ədalət taxtında əyləşib yaxşını pisdən, doğrunu əyridən, kasıbı varlıdan, mömini kafirdən seçib, haqqı müdafiə edib nahaqqı cəzalandıransan, elədirmi?». Hakim deyir: «Nə gözəl söylədin! Tamamilə haqlısan». Onda qız hakimə lap yaxınlaşır və ustalıqla baş örtüyünü ataraq gözəlliyini nümayiş etdirə-etdirə soruşur: «De görüm, möhtərəm hakim, bu bənövşəyə bənzər ənbər ətirli tellərin bir qüsuru varmı?» Huri-mələyin zil qara, ətirli zülflərini görən hakim heyrətdən quruyub qalmışdır. Hakim özünü toparlayıb deyir: «Bu zülflər o qədər gözəl, elə ətirlidirlər ki, onlarda qüsur axtarmaq günah olar!» Qız yenə dillənir: «Ey mənim hökmdarım, mənim sərv qamətimdə, günəş kimi parlaq camalımda bir eyib varmı? Mənim yay kimi qaşlarımda, sivri burnumda, gül ləçəyinə bənzər, al, şəkər kimi şirin dodaqlarımda, ay kimi hamar, girdə çənəmdə, bəlkə, bir eyib vardır?» Bu sualları verə-verə qız bütün gözəlliyini nümayiş etdirirdi və hakim göz qırpmadan ona tamaşa edirdi. O, heyrətlə dilləndi: «Mən heç vaxt belə gözəl görməmişəm». Qız sözünə davam edirdi: «Ey mənim hökmdarım, sən ömründə belə zərif əllər, dırnaqlar, bu gözəllikdə ovuclar görmüsənmi? Sən həyatın boyu belə ağ biləklər, belə gözəl çiyinlər görmüsənmi?» «Yox, görməmişəm», – deyə hakim dilləndi. Qız bununla da kifayətlənmədi, kiçik ayaqlarından, incə belindən, mərmər sinəsindən, zərif, gözəl göbəyindən söz açdı və onları bir-bir hakimə nümayiş etdirdi. Hakim artıq başını itirmişdir, bu gözəlin odu onu sarmışdır, sanki bu saat alışıb yanacaqdır. O, titrək səslə dilləndi: «Ey daş ürəkli gözəl, sən məni məhv etdin! Sənin ay camalın, al dodaqların, mərmər sinən, incə belin, gözəl tellərin məni məhv etdi! Sən insan deyilsən, sən huri-mələksən». Qız dedi: «Ey mənim hökmdarım, mən cənnət bağının yetişmiş, amma hələ bağban əli dəyməmiş sulu, təravətli, zərif barı, meyvəsi olan ağacam. Mən

özüm də hələ bir dəfə olsun, gənclik bağının barından zövq almamışam və dəfələrlə özümə qəsd etmək istəmişəm». Hakim soruşdu: «Axı niyə?» Qız cavab verdi: «İş ondadır ki, mən bu şəhərin lap kənarındakı daxmada yaşayan rəngsazın qızıyam və atam on yaşımdan etibarən nə bir kəsə imkan verir mənə tərəf baxsın, nə də mənə bir kimsəyə baxmağa icazə verir. Mənə kimsə elçi düşən kimi deyir: «Mənim qızım iflicdir, ürəkkeçmələri, əqli geriliyi var və üstəlik boşboğazdır». Bu sözlərdən sonra, şübhəsiz, hamı dabanına tüpürüb, arxaya baxmadan qaçıb gedir. Bax buna görə mən gün işığı görməyən gül kimi öz evimizin zindanında gündən-günə, dərd çəkə-çəkə saralıb soluram, amma artıq dözə bilmirəm və bu gün yüz yox, min fənd işlədib evdən qaçıb buraya gəldim. Sən, ey müsəlmanların hakimi, əgər buna bir əlac etməsən, onda mən özüm buna əncam edəcəyəm, mən bilirəm çıxış yolu nədədir». Badamgözlü, aldodaqlı, sərvboylu gözəldən bu sözləri eşidən hakim dedi: «Ey mənim ürəyimin məlhəmi, əgər sən hakimin zövcəsi olmağa razı olarsansa, mən səni bu zülmdən xilas edərəm». Qız ərinin çiynindəki cırıq palazı yadına salıb xısın-xısın ağladı, əyilib alnını yerə qoydu və dedi: «Ey «Bukrat» – böyük loğman, ancaq sən bilirsən mənim dərdimin dərmanını. Sən mənim ağam, mən sənin kölən olsam belə çox məmnun olaram». Hakim razılıq əlaməti olaraq, əlini gözlərinin üstünə qoydu, qız isə çarşabına bürünüb getdi. Hakim o gözələ yiyələnmək arzusu ilə ilan kimi qıvrılırdı. O həmin dəqiqə rəngsazın evinə iki nəfər göndərdi ki, rəngsaz onun yanına gəlsin. Rəngsaz soruşdu: «Hakimin mənimlə nə işi ola bilər?» Heç bir cavab almayan rəngsaz ürəyində min qorxu ilə hakimin evinə yollandı. Yolda ona əlli adamlıq şirniyyat alıb verdilər ki, əliboş getməsin. O, saraya çatanda hakim durub onu hörmətlə, izzətlə qarşıladı, sağ tərəfində əyləşdirdi. Yazıq rəngsaz rəng alıb, rəng verirdi, hakim onunla elə rəftar edirdi ki, elə bil o, xəlifə idi. Hakim dilləndi: «Ey hörmətli usta, mən çoxdan səninlə görüşüb söhbət etmək, dərdləşmək istəyirdim». Rəngsaz ehtiyatla dilləndi: «Ey fağırların himayədarı, kimsəsizlərin xilaskarı, mən hansı bir əməlimlə sənin belə qayğını, hörmətini qazanmışam?» Hakim dil-

ləndi: «Usta, sənin evinin qadınlar olan hissəsində bir qız var, mən onunla evlənmək arzusundayam». Rəngsaz təəccüblə dilləndi: «Sən, ey müsəlmanların hakimi! Sən nə danışırsan, kimdən danışırsan?» Hakim dedi: «Sənin bir qızın var, onu mənə ver». Rəngsaz dedi: «Ey mənim hökmdarım, böyük hakim! Doğrudur, mənim bir qızım var, amma o, o qədər qüsurludur ki, mən bu günə qədər cürət edib onu heç kəsə göstərməmişəm ki, həmin adam sonra onu gördüyü üçün peşmançılıq çəkməsin. Məgər o sənin kimi mötəbər bir insanın hərəmxanasında olmağa layiqdirmi?» Hakim onun sözünü kəsdi: «Mən onunla evlənəcəyəm, mən bəyəm, sənin qızın isə mənim gəlinimdir». Rəngsaz yalvarırdı: «Ey kimsəsizlərin xilaskarı, mənim qızım ancaq yolunu azmışlara ibrət dərsi vermək üçün, görk olmaq üçün yarayar. Allah onu yaratdığı məxluqatın gözünü açıb, onlara həyatı anlatmaq üçün yaratmışdır, mənim qızım mümkün olan bütün dərdlərə düçardır. Yəqin, hakim bəy məni ələ salmaq istəyir, əgər belədirsə də, nə olar, axı o bizim ağamızdır». Hakim qəzəblə onun sözünü kəsdi: «Sən bu sözlərini saxla, sənin qızın dediyin bütün qüsurları ilə bizim üçün əziz və qəbuldur».

Rəngsaz pəjmürdə halda öz-özünə götür-qoy edirdi: «Görəsən, hansı alçaq məni məsxərəyə qoyub, hakimin yanında rüsvay etmək üçün onun ağlına bu fikri salmışdır? İndi mən necə edim? Hakimi bu fikirdən daşındırmağın yeganə yolu süd puludur. Mən gərək ondan elə bir məbləğdə süd pulu istəyim ki, – axı insanlar, adətən, gözəl camal üçün ən böyük var-dövlətdən keçməyə hazır olsalar da, pullarını daha çox sevirlər – özü bu fikirdən daşınsın». Bir qədər fikirləşib rəngsaz dedi: «Ey hakim, sən, həqiqətən, mənim qızımla izdivac qurmaq istəyirsən?» Hakim dedi: «Əlbəttə». Rəngsaz dedi: «Onda sən gərək qızımın süd pulunu verəsən». Hakim soruşdu: «Nə qədər istəyirsən?» Rəngsaz cavab verdi: «Min xəlifə dinarı». Hakim öz adamlarına əmr etdi: «Tərəzini gətirin!» Vəkil dərhal tərəzini gətirib, min təmiz əyarlı qızıl dinarı çəkib rəngsazın qarşısına qoydu. Hakim dedi: «Bu da sənə qızının süd pulu. Başqa istəyin yoxdur?» Rəngsaz qızılı götürüb, fikirləşdi ki, hakim dəli olmuşdur və dedi: «Sən mənə mehr də verməlisən, bu da qızımı

boşamaq fikrinə düşsən, onun təzminatıdır. Beləliklə, sən mənə on min dinar da əlavə verməlisən, ondan az məbləğə razı olmaram». Hakim dedi: «Mən sənin hər şərtinə razıyam». Bunu deyib, o tez adamlarını kəbin şahidlərinin dalınca göndərdi. Onda rəngsaz bütün üləmaların, hüquqşünasların, xətiblərin, möminlərin, vilayət hakimlərinin, şəhər əyanlarının dəvət edilməsini tələb etdi. Bu adamların hamısı yığılandan sonra rəngsaz onların şahidliyi ilə bir də hakimə müraciət etdi: «Ey hakim, mənim qızım sənə layiq deyil, çünki o heç Əzrayılın belə işinə yaramaz. Sən indi zor gücünə onunla evlənmək istəyirsən, amma mən səni bu başdan xəbərdar edirəm ki, mənim qızımı evinə gətirəndən sonra onunla yola gedə bilməyib geri qaytarmaq fikrinə düşsən, ağlına belə gətirmə ki, verdiyin pulları geri ala biləcəksən. Uca Allaha and olsun ki, bir dinar belə qaytarmayacağam... Ey möhtərəm insanlar, sizi şəhadət etməyə çağırıram».

Aycamal, sərv qamətli huri-mələyin həsrəti ilə qovrulan hakim tərəzinin gətirilməsini əmr etdi və hamının gözü qabağında on min xəlifə dinarı çəkib rəngsazın qarşısına qoyub dedi: «Al, bu da sənin mehrin, süd pulunu isə bir az əvvəl sənə vermişəm. İndi daha mənim ürəyimi üzüb, mənə işgəncə vermə. İzin ver kəbini kəsib, qızı gətirim».

Rəngsaz lap başını itirmişdir, amma burada toplaşanların hamısı ona deyirdi: «Daha bəsdir, tərslik etmə, inadkarlığın yeri deyil, bir halda ki hakim israrla kəbinin kəsilməsini tələb edir, etiraz etmə, qoy o deyən olsun, özünü boşuna yorma!» Yazıq rəngsaz çarəsiz qalıb razılığını verir və hakim vəkilinə göstəriş verir ki, kəbini kəssinlər.

Bütün işləri tamamlayıb qurtardıqdan sonra hakim rəngsaza deyir: «Mən süd haqqını da, mehri də ödədim, kəbin də kəsildi, mən gəlini tez bir zamanda gətirmək istəyirəm və axşam onu gətirəcəyəm». Rəngsaz: «İxtiyar sahibisən» - deyib ürəyində sıxıntı, başında min cür qarışıq fikirlə evinə yollanır, o öz-özünə danışırdı: «Ay Allah! Axı mənim qızım ona layiq deyil, bu işlərin axırı nə olacaqdır?»

İndi rəngsazı bir müddətlik burada qoyub, görək hakimin evində nələr baş verir. Hakimin xanımı ərinin yenidən evləndiyini eşidən kimi ər evini tərk edib, atası evinə qayıtmaq istəyir. Onunla hakimin arasında baş verənlərə görə qadının qohum-qardaşı etiraz etməyə başlayırlar ki: «Bir ailədə iki qadın, iki xanım olmaz, bu, nalayiq bir işdir». Hakimin gözünü eşq elə tutmuşdur ki, bunların heç biri ona təsir etmirdi. O, zövcəsindən soruşur: «Mən indi nə etməliyəm? Mən nə edim ki, bu işi bağlayaq?» Arvadı deyir: «Mənim mehrimi ver və məni ət-təlaq, ət-təlaq, ət-təlaq - deyib boşa!» Hakim canla-başla buna razı olur, min qızıl dinar məbləğində mehr ödəyib, üç dəfə «ət-təlaq»,- deyib arvadını boşayır. Hakimin arvadı min qızıl dinarını, özünə aid olan əşyalarını götürüb, atası evinə gedir. Hakim rahat nəfəs alıb səbirsizliklə gəlinin yolunu gözləməyə başlayır.

Bu arada rəngsaz on bir min qızıl xəlifə dinarını götürüb evinə gedir və bu pulları arvadına verib, dərindən köks ötürüb bir tərəfdə oturur. Arvadı soruşur: «Bu qızıl haradandır?» Rəngsaz cavab verir: «Bu sənin qızının süd haqqı və mehridir». Arvad təəccüblə dillənir: «Sən nə danışırsan?» Usta qısa şəkildə başına gələnləri danışır. Zavallı qadın üzünü cırıb dillənir: «Ay kişi, sən bizi rüsvay elədin». Rəngsaz çalışırdı ki, zövcəsini başa salsın: «Axı mənim başqa çarəm qalmamışdır». Qadın qışqırırdı: «Yox! Belə olmaz! Axı o yazıq hakim bizim bu böyük dərdimizdən xəbərsizdir. O bizim bədbəxt qızımız haqqında heç bir şey bilmir. Sən bir nəfər göndər, bu haqsız işə görə bizim adımızdan üzrxahlıq etsin, bu izdivacı pozsun».

Rəngsaz artıq bütün bu sarsıntılara tablamayıb arvadına hirslənib qışqırır, yenidən başa salmağa başlayır: «Ay arvad, qurtar, mən onsuz da lazımınca sarsılıb əzab çəkirəm, sən də odun üstünə yağ tökmə! Mən bu rüsvayçılıqdan qurtarmaq üçün dəridən-qabıqdan çıxdım, bütün şəhər əyanlarını şahidlik etməyə çağırdım, dedim, qızımın min bir dərdi, qüsuru var, amma hakim, kor tutduğunu buraxmadığı kimi, dediyindən dönmədi ki, dönmədi». Ər-arvad mübahisə edirdilər ki, qapıda hakimin adamı göründü. O dedi: «Gəlin haradadır? Biz elə indicə onu hakimə çatdırmalıyıq ki, onun başına

xoşbəxtlik tacı qoyulsun». Ər-arvad quruyub qaldılar, amma başa düşdülər ki, başqa yol yoxdur, məcburiyyət qarşısında qalıb qızlarını bacardıqları kimi bəzəyib, qapalı, bir qədər tabuta bənzəyən xərəyə qoyub, üstünü örtüb hakimin evinə göndərdilər.

Bu arada hakimin evində tədarüklər görülürdü, gəlin üçün xüsusi bəzədilmiş, ətirlənmiş otaq hazırlanırdı. Qullar xərəyi elə bu otağa gətirib qoydular və oranı tərk etdilər. Həsrətdən od tutub alışan hakim otağa girib daha çox tabuta oxşayan, üstü örtülü xərəyi gördü. O fikirləşdi ki, o mələk görkəmli gözəl, yəqin ki, başqaları onun sərv qamətini görməsin deyə belə bürünmüşdür. O tez örtüyü götürüb atdı və gördüyü dəhşətin qarşısında dondu, taxtın üstündə heç bir şeyə bənzəməyən eybəcər bir kütlə var idi, o, hakimin gözünə üstünə tarım dəri çəkilmiş, dağınıq şəkildə yığılmış sür-sümük topası kimi göründü. Qızın gözləri iki ilan yuvasını, ağzı yatmış pişiyin ağzını, dili istidən ləhləyən itin çöldə qalıb dizinə qədər sallanan dilini, dişləri isə mərgümüşü xatırladırdı. Bütün hakimlərin böyüyü, xilafətin hakimi bu dəhşəti görən kimi huşunu itirdi. O özünə gəldikdə verdiyi birinci sual bu oldu: «Bu nə əcaib məxluqdur?» Sonra o, vəkilinə müraciət etdi: «Mənim gəlinim hanı? Bu nədir və bunu buraya nə üçün gətirmişlər?» Vəkil cavab verdi: «Bir Allah bilir sənin gəlinin haradadır, bu məxluq isə rəngsazın qızıdır və onu da sənə verdilər. İndi bir halda ki, özün könüllü şəkildə onunla izdivaca girmisən, ədəb-ərkanla bu nikaha boyun əyməlisən». Hakim qışqırdı: «Sən nə danışırsan? Hansı ağlı başında olan adam bu əcaib məxluqla izdivaca girər?!» Vəkil dedi: «Artıq bu sənin öz işindir. Bu izdivaca cidd-cəhdlə çalışan sən idin». Hakim çox çaşqın halda danışırdı: «Mən aycamal, sərv qamətli, al dodaqlı huri-mələk üçün çalışıb – vuruşurdum. Bu nə dəhşətdir! Bu mənim nəyimə lazımdır? Mən bununla nə edəcəyəm?»

O, həmin dəqiqə rəngsazın dalınca adam göndərdi. Rəngsaz işin nə yerdə olduğunu o saat anladı və öz-özünə gülərək hakimin evinə yollandı. O gələn kimi hakim dedi: «Sən nəyə görə mənim yaxşılığıma pisliklə cavab verirsən? Sən nəyə görə məni məsxərəyə qoyursan? Dünyanın ən bacarıqlı kələkbazı, ən qoçaq oyunbazı

mənimlə indiyədək bacarmayıb, sən mənə kəf gəlmək fikrinə düşmüsən? Sən mənə de görüm, nə cürətlə on il qəbirdə yatmışı bir baxışı ilə ayıltmağa qadir olan o huri-mələyin əvəzinə bu vahiməli məxluqu göndərmisən? Mən indi bunu hara edim? Yaxşısı budur, düzünü de, o gözəlliyi ilə canlar yaxan qızını harada gizlətmisən və bu qorxunc məxluqu götür apar özünlə».

İş ondadır ki, rəngsaz da söz altında qalanlardan deyildi, o, hakimə yaxınlaşıb dedi: «And olsun yaradana! Mənim bundan başqa və bundan gözəl qızım yoxdur və heç vaxt olmamışdır. Mən sənə yüz dəfə dedim ki, mənim qızım sənə layiq deyil, amma sən dediyindən dönmədin ki, dönmədin, məni də bezar etdin. İndi o sənin zövcəndir, nə istəyirsən et, necə istəyirsən, elə rəftar et». Hakim dedi: «Uzun-uzadı danışma, vaxt itirmə, get, dünyada tayı-bərabəri olmayan gözəl qızını gətir». Bunu deyib, o huri-mələyi xatırlayıb, hönkür-hönkür ağladı və dedi: «Axı o mənim yanıma özü gəlib demişdir: «Mən filan rəngsazın qızıyam, atam mənimlə kobud rəftar edir, məni zorla evdə saxlayıb ərə vermir, mən də dərddən neçə dəfə özümə qəsd etmək istəmişəm». Onun gözəl üzünü görüb, şirin danışığını eşidib bir könüldən min könülə aşiq oldum. Bundan sonra mən ondan atasının kim olduğunu soruşdum, o da mənə sənin adını, ünvanını verdi. Mən də ancaq ondan sonra səni dəvət etdim, səni ehtiramla qarşıladım, sənə ağlasığmaz məbləğdə qızıl xəlifə dinarları bağışladım, sən isə bunun müqabilində mənimlə belə rəftar edib öz şərtlərini qoyursan. Mənim elədiklərimin qarşılığında sən mənim evimə o huri-mələyin əvəzinə bu eybəcər məxluqu göndərirsən».

Hakimi sonadək dinlədikdən sonra rəngsaz dedi: «Ey hakim, belə görünür ki, düşmənlərindən biri ona etdiyin haqsızlığının qisasını səni məsxərəyə qoyaraq almışdır. Mənim isə, and olsun yeri-göyü yaradan o uca Allaha, bundan başqa qızım yoxdur və heç vaxt olmamışdır». Çaşqın qalmış hakimin nitqi qurumuşdur, o bir saatdan sonra çətinliklə başını qaldırıb dedi: «Ey rəngsaz, mən hazıram, sənə yenə dediyin qədər qızıl verəm, bircə bu qızı götür evinə apar».

Rəngsaz qızını xərəyə, xərəyi də çiyninə qoyub evinə yola düşdü. Hakim isə bir küncdə oturub itirdiyi on bir min qızıl xəlifə di-

narının, boşadığı haqq-halal, mömin arvadının və gözəlliyi, ədası ilə onu məst edib, izsiz-tozsuz yoxa çıxmış huri-mələyin dərdini çəkərək göz yaşları tökməyə başladı.

Bu arada isə Müvəffəqin qızı xoş-xürrəm həyat sürürdü. Bir gün əri ona dedi: «Ey mənim püstədodaq, şəkərdil gözəlim, sənin bu qədər gülməyinin səbəbi nədir ki, sən özünü gülməkdən saxlaya bilmirsən?» Qız dedi: «Ey ruhumun məlhəmi, qəlbimin sevinci, əgər əhvalının yüksək olmasını istəyirsənsə, dinlə, sənə çox gülməli bir əhvalat danışım». Fəzlullah dedi: «Danış, əzizim, rica edirəm».

Qız yerini rahatlayıb, ərinə hakimin başına gətirdiyi oyunu təfərrüatı ilə danışdı və sonda dedi: «Alçaq dələduzların acı zarafatına eyni tərzdə cavab vermək lazımdır». Fəzlullah dilləndi: «Afərin sənə! Ey mənim büllur bulaq başında ucalan sərvim, ey mənim ömür bağçamın kəkliyi, doğrudur, hakim bizi məsxərəyə qoyub, ürəkdən gülmüşdür, amma nəticə etibarı ilə biz udmuşuq ki, uduzmamışıq. Axı mən də Mosul hökmdarının oğluyam və mənim elə var-dövlətim var ki, onu heç hesabdarlar belə təsəvvürlərinə gətirə bilməzlər. Allaha and olsun, Mosula gedib ömrümüzün axırınadək bizi təmin edə biləcək var-varidatımı gətirməyənəcən rahat ola bilmərəm».

Qız qayğı ilə, sevgi ilə dedi: «Ey ruhumun məlhəmi, qəlbimin xəzinəsinin incisi, mənə sən lazımsan, bizim hər bir şeyimiz vardır, heç nəyə ehtiyacımız yoxdur və mən səni inandırıram ki, mənim varidatım bizə və bizdən sonra gələcək nəslimizə bəs edər». Fəzlullah etiraz etdi: «Yox, sən hakimə dərs vermisən, amma mən onun möhürünü vurmalıyam». Bunu deyib, gənc ayağa qalxdı, arvadı əmr etdi ki, at yəhərləsinlər, yol paltarlarını, yaraq-yasaqları gətirsinlər.

Fəzlullah yaraqlanıb-yasaqlanıb atını mindi. Gözəl zövcəsi onun qarşısında təzim edib əlindən öpdü və dedi: «Bacardığın qədər tez qayıt». Fəzlullah: «Baş üstə!» - deyib yola düşdü. Yarım fərsəng yol getməmişdir ki, Mosula gedən yolda toz-duman qalxdı və ancaq toz-duman yatandan sonra böyük bir karvan göründü. Fəzlullah onlara yaxınlaşıb soruşdu: «Haradan gəlirsiniz?» Ona cavab verdilər: «Mosuldan». Fəzlullah soruşdu: «Yola nə vaxt çıxmışınız?» Dedilər: «Biz Mosul hökmdarının öldüyü, baş hökmdarın onun bütün

varidatına yiyələndiyi gündən yola çıxmışıq». Bu kədərli xəbəri eşidən Fəzlullah dərindən köks ötürdü və soruşdu: «O nə səbəbdən rəhmətə getmişdir?» Ona cavab verdilər: «Mosul hökmdarının aman-zaman bir oğlu var idi, o Bağdada getmək fikrinə düşür, yolda onun getdiyi karvanı quldurlar basır və onu öldürürlər. Bu xəbəri eşidən hökmdarımız oğlunun dərdinə dözməyib ölmüşdür».

Bu kədərli xəbərdən sarsılan Fəzlullah fikrə gedir və düşünür: «Mən nə edim? Acı tale məni təqib edirsə, mən nəyi dəyişdirə bilərəm? Atam ölmüş, baş hökmdar onun bütün var-varidatına yiyələnmiş, Mosula qayıtmağın bir mənası varmı? Belə bəd xəbərlə Müvəffəqin qızının yanına necə qayıdım? Ondansa, avara-sərgərdan gəzib hakimin gülüş mənbəyi olmaq daha düzgün olar». Bu qərara gəlib, Fəzlullah Vasit səmtini tutub yola düşür. Bütün gecəni, bütün günü dayanmadan atını çapıb, növbəti gün zöhr namazı saatlarında şəhər divarlarına çatır. O, atından düşüb bulaq başında yorğun-arğın, atasının ölüm xəbərinin acısından, sevgilisindən ayrı düşməsinin əzabından pərt-pəjmürdə halda oturur. Birdən yolda toz-duman qalxır və o toz-dumanın içindən at üstündə bir çapar görünür. Bu, yaraqlanıb-yasaqlanmış, üstündəki silahları gün işığında par-par parıldayan bir çapar idi. Çapar bulağa çatanda atından enib, atını yamaca buraxıb, bulaq başında əyləşir. Sonra səliqəli bir süfrə açıb Fəzlullahı da dəvət edir. Fəzlullah bu çaparla çörək kəsib minnətdarlığını bildirib deyir: «Allah sənə yar olsun, ağa!» Bu sözləri deyərkən, Fəzlullah onu boğan göz yaşlarını zor ilə saxlayırdı. Fəzlullahın bu halını görən çapar deyir: «Cavan oğlan, səni boğan nə dərddir? Sənə bir cəngavər sədaqətimə, kişilik nəcabətimə and verirəm, dərdini mənə söylə və dərmanını da məndən istə». Fəzlullah başına gələnlərin hamısını olduğu kimi danışır. Onu dinləyən cəngavər gülür və deyir: «Ey gənc, sevin, çünki uca Allah artıq sənin dərdinə əlac etmişdir. Hakimin dediyi və səni onun oğlu kimi təqdim etdiyi Mahyar mənəm. Hərçənd o, yalan danışmışdır, amma mən onun yalanını doğru edib, onu elə cəzalandıracağam ki, bütün dünya-aləm mat qalsın». Bunu eşidən Fəzlullah Mahyarın ayaqlarına düşüb ona minnətdarlığını bildirib

dua etməyə başlayır. Mahyar onu özü ilə Vasitə aparır. Onlar Vasitdə on gün qalırlar, Mahyar işlərini sahmanlayıb Fəzlullahla bir yerdə Bağdada – xəlifənin hüzuruna yola düşür. Xəlifə onun pişvazına adamlarını göndərir. Onları hörmət-izzətlə qarşılayıb, üstlərindəki yol toz-torpağını təmizləyib xəlifənin yanına ötürürlər. Mahyar xəlifənin əlini öpdükdən sonra xəlifə soruşur: «Mahyar, mən səni çağırtdırmamışam, gəlməyinin səbəbi nədir?» Mahyar cavab verir: «Ey möminlərin əmiri, mənim bir oğlum var, o Müvəffəqin qızının gözəliyyinin sorağını eşidib, mənim iznim olmadan buraya gəlib, hakim isə vicdansızcasına onu məsxərəyə qoymuşdur. Gəlişimin məqsədi gəlinimin namusunu müdafiə edib onu bütün şəhərə göstərmək və hakimə əsilli, nəcabətli insanlarla belə rəftar etməyin doğru olmadığını anlatmaqdır». Hakimin elədiklərini eşidən xəlifə çox qəzəblənir və deyir: «Hakimlə necə hesablaşarsan, özün bilərsən, Müvəffəqi isə sənin xətrin üçün bağışlayıram və yenə də şəhər valisi təyin edirəm». Mahyar xəlifənin sarayından çıxan kimi həbsxanaya yollanır, Əbü-l Həsəni azadlığa buraxdırır, əmr edir ki, hakimi həbs edib zindana atsınlar, onun bütün var-varidatını alıb Əbü-l-Həsən Nəhrəvaniyə versinlər. Sonra onu yenə Nəhrəvan qalasının hökmdarı təyin edərək oraya yola salır. Bundan sonra şəhəri bayramsayağı bəzəyib yeddi gün, yeddi gecə toy çaldırıb Fəzlullahla Müvəffəqin qızını xoşbəxtlik, sevinc, əmin-amanlıq taxtında əyləşdirir.

Bu toy-büsatı tamamladıqdan sonra Mahyar yenə xəlifənin yanına gedib, ona təzim edib deyir: «Ey möhtərəm hökmdarım, mən artıq qocalmışam, mənim dövlət qarşısında göstərdiyim xidmətlərim, zənnimcə, imkan verir ki, hökmdarımdan var-varidatımın oğlumun adına yazılmasını və mənim tutduğum vəzifədən azad olunub, yerimə oğlumun təyin olmasını rica edim». Xəlifə cavab verir: «İxtiyar sahibisən!» və əmr edir ki, Fəzlullahın Vasitin valisi təyin olunması haqqında fərmanı hazırlasınlar və ona elə bir təntənəli təqdimat qursunlar ki, dünya-aləmdə əvvəllər heç kəsə belə ehtiram göstərilmiş olmasın».

Bundan sonra Fəzlullah xanımı ilə atlara minib Mahyarla bərabər Vasitə yollanırlar. Mahyar Fəzlullahı taxta əyləşdirib özü isə xəlvətə çəkilib ibadəti ilə məşğul olmağa başlayır.

Fəzlullah şəhəri də, vilayəti də ədalətlə idarə etməyə, sadə adamların da, zadəganların da qeydinə eyni qayğı ilə qalmağa başlayır. Fəzlullahla xanımının övladları olur, onlar uzun illər boyunca hökmdarlıq edirlər. Bunların hamısı Mahyarın nəcib hərəkətinin nəticəsində həyata keçir. Nəhayət, vaxtı yetişəndə Mahyar bu fani dünyanı tərk edir.

*Bu hekayətin ibrətli nəticəsi belədir: «Əgər hakim şəhər valisi ilə ədavət aparmasa idi, özü də bu düşmənçiliyin qurbanı olmazdı, belə ki, başqaları ilə pis rəftar edən insan heç vaxt xeyir tapmaz. Başqasına quyu qazan özü düşər».*

# İKİNCİ HEKAYƏT

## Bəm şəhərindən olan bənna, onun arvadı və Quvaşir şahının vəzirlərinin hekayəti

Belə danışırlar ki, vaxtı ilə Kirman vilayətində Bəm adında bir şəhər var imiş. Orada bir daş ustası yaşayırmış. O, sözün tam mənasında öz işinin ustası imiş, qeyri-adi bacarığa malik imiş və yer üzündə ona tay olacaq ikinci belə bir usta yox imiş. Onun məharəti, şöhrəti hər yerə yayılmışdır. Bununla bərabər, gördüyü işin mükəmməl olmasına baxmayaraq, o çox vaxt işsiz qalardı, çünki hər işi görməyə razılıq verməzdi. Başqa daş ustalarının işləri başlarından aşırdı, işdən macal tapmırdılar, o isə böyük evlərin, məscidlərin, körpülərin tikintisindən başqa işlərlə məşğul olmağa razılıq vermədiyi üçün, xırda işlərə baş qoşmadığı üçün işsiz qalırdı. Əslində, xırda işləri hamı görə bilərdi, amma belə böyük işlərin öhdəsindən ondan başqa heç kəs gələ bilmirdi.

Bu bənnanın dünya gözəli, namuslu zövcəsi var idi. O çox ağıllı, hörmətcil qadın idi və ərini hədsiz dərəcədə çox sevirdi. Usta həmişə gün-güzəranına görə, ailəsinin ən zəruri tələbatını ödəyə bilmədiyinə görə zövcəsinin qarşısında xəcalət çəkirdi. Günlərin bir günü onlar yenə əyləşib söhbətləşəndə xanım deyir: «Ey mənim ürək dostum, sirdaşım, artıq ilin qurtarmasına da bir şey qalmamışdır, sən isə hələ də işsizsən və iş tapmaq üçün heç cəhd də etmirsən. Doğrudur, hər kəsin ruzisini uca Allah özü verir, amma, necə deyərlər, «səndən hərəkət, məndən bərəkət» – sən özün də cəhd etməlisən». Usta cavab verir: «Ey başımın tacı, bunun iki səbəbi vardır: birincisi, mən bu şəhərə, xüsusilə də, sənə elə bağlıyam ki, özümü səndən, bu şəhərdən uzaqda təsəvvürümə gətirmirəm, ikincisi isə, doğrusu, səni tək qoyub getmək istəmirəm. Belə olmasa idi, mən başqa şəhərlərə gedib, o qədər var-dövlət qazanardım ki,

ömrümüzün sonunadək bizə yetərdi». Zövcəsi cavab verir: «Sən mənə görə narahat olma, mənə güvən, bil ki, mənim üçün heç bir dünya nemətinin bir dəyəri yoxdur, mən ürəyimi ancaq o uca Allaha vermişəm. Sən lap on il səfərdə olsan, bil ki, mən heç vaxt sənin başını aşağı edəcək, Allaha xoş getməyəcək bir iş görmərəm».

Bu sözləri eşidən usta fikrə gedir və başa düşür ki, qərar qəbul etmək vaxtıdır. O həmin saat yol tədarüklərinin görülməsi ilə məşğul olmağa başlayır, xanımına bir köməkçi tutur və işlərini tamamlayıb yola hazırlaşır. Zövcəsi ona bir dəstə təzə şümşad yarpağı verib deyir: «Bunları məndən bir xatirə kimi götür, əgər bunları saralmış görsən, bil ki, sənə xəyanət etmişəm». Bənna bu şümşad dəstəsini götürüb, zövcəsi ilə halallaşıb, bir yol yoldaşı ilə yola düşür. O, göydəki ay kimi bu mənzildən o mənzilə keçə-keçə,* bu minvalla, nəhayət, Quvaşir şəhərinə yetişir. Şəhərin girəcəyində o, yol yoldaşını itirir, sonra onu çox axtarır, amma tapa bilmir. O, şəhər sakinlərindən birinə yaxınlaşıb soruşur: «Bənnaların, ustaların yığışdığı yer haradadır?» Ona cavab verirlər: «Ay yolçu, bənnaların, ustaların hamısı zindandadır, şah onlara böyük bir saray ucaltmağı tapşırmışdır, onlar isə o işin öhdəsindən gələ bilməmişdilər deyə hamısının həbs olunmasını əmr etmişdir». O soruşur: «Şahın həbsxanası haradadır?» Ona yolu göstərirlər, o, həbsxanaya yollanır. Usta zindana girir, ustalarla salamlaşıb onların qarşısında təzim edir. Ondan soruşurlar: «Sən kimsən və haradan gəlmisən?» O cavab verir: «Mən də daş ustasıyam, bənnayam, şəhərə gələndə sizi axtardım və eşitdim ki, hamınız həbs olunmusunuz, gəldim ki, bunun səbəbini öyrənəm». Ondan soruşurlar: «Yaxşı, bəs sənin adın nədir?» O adını deyir, özünü təqdim edir. Onun adını eşidib, ustalar sevinirlər, ayağa qalxıb, ehtiram göstərirlər, belə ki, ustanın məharətinin səsi-sorağı onlara da çatmışdır. Həbs olunmuş ustalar çox şad olub deyirlər: «Ay usta! Allah səni bizə dar günümüzdə yetirdi. Məsələ bundadır ki, şah bizə gözətçi qülləsi olan bir saray tikməyi tapşırmışdır, biz isə bu işin öhdəsindən gələ bilmirik. Buna görə şah bizi həbsə atıb demişdir: «Ya siz mənim dediyim sarayı tikəcəksiniz, ya da heç bir şeyə yaramadığınızı boynunuza alıb, hərəniz min dinar təzminat ödəyəcəksiniz». Usta uca səslə deyir: «Dərd

çəkməyin və sevinin! Şahınıza xəbər verin ki, bu işi boynunuza götürürsünüz. Mən elə bir saray tikərəm ki, şah heç elə sarayı xəyalına da gətirə bilməz».

Bənnalar çox sevinirlər və o saat şaha xəbər göndərirlər. Şah əmr edir ki, ustanı onun hüzuruna gətirsinlər. Usta şahın hüzuruna gəlib qarşısında təzim edir, təriflər söyləyir, ehtiram göstərir. Şah da öz növbəsində ustaya hörmət-izzət göstərib, qiymətli ənamlar verib deyir: «Usta, mənim üçün gözətçi qülləsi göylərə ucalan elə bir gözəl, əzəmətli saray tik ki, dünyada tayı-bərabəri olmasın». Usta cavab verir: «Allahın köməkliyi ilə, sənin üçün elə bir saray tikəcəyəm ki, bütün dünya-aləm ona heyran qalacaqdır».

Şah əmr edir ki, ustaya nə tələb olunursa, hamısını hazır etsinlər. Usta işə başlayır. Şah göstəriş verir ki, ustaya hər cür hörmət-ehtiram edilsin və adı şahın ən yaxın məmurlarının siyahısına salınsın. Bundan başqa onun əmri ilə həbsdəki bütün ustalar da azad edilir.

Usta öz işinin ağası idi, o həm çox cəld, həm də çox mükəmməl iş görürdü. O, qısa müddətdə elə bir saray ucaldır ki, hamı bu əzəmətə, möhtəşəmliyə, gözəlliyə heyran qalır. Heç bir şahın bu möhtəşəmlikdə sarayı yox idi. Şah özü də gedib saraya hər tərəfdən baxır, yoxlayır və çox razı qalır, belə ki, saray onun qoyduğu bütün tələblərə uyğun tikilmişdir. Şah ustanı hüzuruna çağırıb ona bir kisə qızıl xəlifə dinarı verir, üstünə qızılı saplarla işlənmiş yəhər bağlanmış, qızıl yüyəni olan gözəl bir qatır bağışlayır və hər cür ehtiram göstərib deyir: «Usta, sən gəl burada qal, bu sarayda yaşa, mən sənin üçün nə istəsən edərəm, nə şərait desən yaradaram, çünki sən özün buna layiqsən». Köhnə sarayına qayıtdıqdan sonra şah vəzir-vəkillərinə, əyanlarına ustanın məharətindən danışıb, əslində, onun vəzir vəzifəsinə layiq olduğunu dəfələrlə vurğulayır və belə bir ustanın əldən çıxmasının istəmədiyini bildirir. Elə ki, şah usta haqqında fikirlərini üçüncü dəfə səsləndirir, vəzirləri fikir götürür. Ustanı özlərinə rəqib görən vəzirlərdə ona qarşı nifrət baş qaldırır, amma hələ bunu üzə vermirlər. Onlar öz aralarında məsləhət edib qərara gəlirlər: «Bununla vaxtı gələndə məşğul olarıq, amma

şübhəsiz ki, bu onun qüvvətlənməsindən əvvəl olmalıdır, çünki sonra ona gücümüz çatmaz».

Beləliklə, bu üç vəzir ustaya tələ qurmağın yollarını axtarmağa başlayırlar. Bir gün onlar yığışıb yeni saraya gedirlər, fikirləri orada bir eyib tapıb ustanı şahın gözündə salmaq idi, amma nə qədər çalışırlar, bir eyib, bir qüsur tapa bilmirlər. Buradan qayıdandan sonra deyirlər: «Biz nəyin bahasına olursa-olsun, bir şey fikirləşib onu şahın yanında rüsvay etməliyik». Təsadüf belə gətirir ki, usta həmin gün sarayda olur. Şah əmr etmişdir ki, onun şəxsi otağını qaydaya salıb, xalılarla döşəsinlər, balışları üst-üstə, yastıqları yan-yana düzsünlər və başqa bu qəbildən hazırlıqlar görsünlər ki, o, üç-dörd gün şərabdan içib, ləb-ləbidən yeyib istirahət edə bilsin. Usta isə bu işlərə rəhbərlik etmək üçün dəvət edilmişdir. Bura o qədər gözəl, ürəyəyatımlı idi ki, usta fikrə gedib zövcəsini xatırlayır və o xəyallara dalıb düşünməyə başlayır: «Kaş bu tikdiyim saray mənim olaydı, mən də haqq-halal zövcəm ilə o gözəl taxtın üstündə istirahət edəydim». Bunu düşünəndə ustanın şümşad dəstəsi yadına düşür, çıxarıb ona baxa-baxa xeyli ağlayır, elə göz yaşları axıda-axıda yuxuya gedir. Belə olur ki, vəzirlər şahın otağına girəndə ustanı burada yatmış görürlər və bu hala sevinib deyirlər: «Nəhayət, ustanı biabır etmək üçün bir bəhanə tapıldı». Onlar otaqdakı mey qabını, camları yerə vurub çilik-çilik edirlər, çərəzləri, noğul-nabatı dağıdırlar, qapını örtüb şahın hüzuruna gedirlər. Öz bəd xislətlərinə uyğun, zəhər dilləri ilə usta haqqında olmazın alçaldıcı sözlər deyirlər: ««Ey böyük hökmdar! Doğrudur hökmdar alicənablığı ilə, mərhəməti ilə rəiyyət yanında hörmət qazanmalı, sevilməlidir, amma bunun da həddi olmalıdır, qulun, nökərin həddini keçməsinə yol verilməməlidir, aqillər demişkən: «Hökmdarlar yük heyvanı olsalar da, onları minmək olmaz»» Şah soruşur: «Bu söhbətlərin səbəbi nədir?» Vəzirlər cavab verirlər: «Şah sağ olsun, biz getdik ki, təzə sarayı bir də gözdən keçirək, gördük ki, şahın çiçək açmış bağçaya bənzəyən otağında usta sərxoş vəziyyətdə sərələnib yatır. O, otaqda nə varsa, dağıdıb – töküb, şərab qablarını, noğul-nabat qablarını sındırıb, içindəkiləri də yerlə bir edibdir. Biz onu özümüz cə-

zalandıra bilərdik, amma sizin əhvalınızın korlanmasından ehtiyat etdik. Ona görə də qərara gəldik ki, gəlib, müdrik hökmdarımızı olanlardan agah edək və əmrə müntəzir olaq». Hökmdarın əhvalı çox korlanır və o deyir: «Sizin söylədikləriniz həqiqətdirsə, bu, onun öz bədbəxtçiliyidir! Bunun iki səbəbi ola bilər: ya o, əzəldən axmaq idi və axmaq olaraq da qalmışdır, ya da onun başında bir bədbəxtlik var». Vəzirlər dillənirlər: «Hökmdarımız bizim danışdıqlarımıza inanmırsa, qoy öz inanılmış adamlarından birini göndərsin ki, gördüklərimizi təsdiq etsin». Saraya göndərilmiş adam vəziyyətin vəzirlər tərəfindən təsvir olunduğundan da fəna olduğunu görür. O, ustanı təhqir edə-edə şahın hüzuruna gətirir. Şah onu görüb deyir: «Ay dünənini, keçmişini, kimliyini unutmuş axmaq! Sən nə cürətlə, nə hünərlə bu qədər xərc çəkib heç istifadə etmədiyim sarayı murdarlayırsan? Sən nə hünərlə mənə qarşı belə hörmətsizlik edirsən? Sənin bu nalayiq hərəkətinə görə mən sənə elə bir cəza verdirəcəyəm ki, başqalarına da görk olsun». Yazıq usta çaşqın halda bilmirdi nə cavab versin, çünki bilirdi ki, heç bir günahı yoxdur, amma vəzirlər onun cəzalandırılmasını israrla tələb edirdilər. Onların təkidlərini görən usta qorxudan titrəməyə başlayır. O, titrək səslə deyir: «Ey şah, Allah böyükdür, o hər şeyi bilir və hər şeyi görür, ondan gizli olan bir şey yoxdur. And olsun o uca Allaha mənim boynuma atılan bu böhtanların heç biri doğru deyil və mən heç bir bəd əməl etməmişəm. Bildiyim bircə budur ki, mənim dünyalar qədər sevdiyim haqq-halal zövcəm var, o çox namuslu qadındır və mənə çox bağlıdır. Mən yola düşəndə ona dedim ki, qorxuram səni yoldan çıxaralar, mənə xəyanət edəsən və namusuma xələl gətirəsən. O mənə bir dəstə yaşıl şümşad yarpağı verib dedi: «Bu yarpaqlar saralarsa, bil ki, sənə xəyanət etmişəm». Mən də bu gün güllü-çiçəkli bağçanın içərisində ucalmış saraya daxil olanda, öz işimə tamaşa edə-edə xəyala gedib fikirləşdim: «Kaş bu saray mənim olaydı, mən də haqq-halal zövcəm ilə bu gözəl taxtın üstündə istirahət edəydim». Bu fikirlərin təsiri altında bir xeyli ağlayıb yuxuya getmişəm. Məni yuxudan sənin göndərdiyin adam oyatdı və buraya gətirdi. Bir Allah bilir ki, onların dediklərinin heç

birini mən etməmişəm və bunların hamısı ağ yalandır. Mən nə mey, nə şərab içmişəm, nə də nabat-noğulu yerə dağıtmışam. Mən burada olduğum müddətdə bircə dəfə hökmdarımızın sağlığı, şan-şöhrəti, uzun ömrü şərəfinə şərab içmişəm. Sizi and verirəm o uca Allaha, yaxşıca düşünün və bu günahsız bəndənizə rəhm edin». Bunları deyib usta acı-acı ağladı və sonra da kiridi. Şahın ona yazığı gəldi, onun hekayəti inandırıcı göründü və şah öz-özünə dedi: «Bunlar - mənim vəzirlərim ustanı məhv etmək üçün çox canfəşanlıq edirlər, elə bil ki onun qanına susayıblar, bunun arxasında nə isə var». Sonra ustaya müraciət etdi: «Deməli, sən deyirsən ki, bu gün şərab içməmisən?» Usta cavab verdi: «Xeyr, içməmişəm». Onda şah adamlarına əmr etdi ki, onun şərab içib, içmədiyini yoxlasınlar. Şahın nökərləri ustanı yoxlayıb, ondan şərab qoxusunun gəlmədiyini dedilər. Onda şah başa düşdü ki, vəzirlərinin dediklərinin hamısı boş cəfəngiyatdır, amma o, vəzirlərinə heç bir şey demədi və özünü heç bir şey olmamış kimi apardı. Sonra burada yığılmış camaata müraciət etdi: «Hamınız gedə bilərsiniz, mən isə bir az da bu haqda düşünmək istəyirəm».

Usta bu olanlardan pis olub, pərt-pəjmürdə evinə qayıtdı. Vəzirlər isə şahın yanından çıxandan sonra dedilər: «İndi necə olsun? Biz gərək ustanın buradan çıxıb-getməsi üçün başqa bir şey fikirləşib tapaq. Belə bəlli olur ki, şah bu ustaya çox etibar edir və bizim fəndlərə uymayacaqdır». Vəzirlərdən biri deyir: «Mənim belə bir təklifim var, gəlin ustanı dəvət edib sərxoş olanadək içirdək və ailəsi haqqında bütün məlumatları əldə edək. Sonra ustaya bu məzmunda bir məktub yazaq: «Sənin zövcən çox əxlaqsız, tərbiyəsiz bir həyat tərzi sürür, evi-eşiyi atıb, eyş-işrətlə məşğuldur. Tez qayıt, işlərini sahmana sal, əks təqdirdə ev-eşiyini, mal-mülkünü də artıq zövcəni itirdiyin kimi itirəcəksən». Görünür, o, zövcəsini çox sevir və ona çox bağlıdır. Bu məktubu oxuyub, o, burada qalmayacaqdır, öz məmləkətinə qayıdacaqdır, bizim də canımız ondan qurtulacaqdır».

Vəzirlər bu fikri bəyənib, tədarüklərini görüb, ustanı dəvət edirlər. Vəzirlər ustanı hörmət-izzətlə qarşılayıb, olanlara görə üzr istəyib, onu süfrənin başında əyləşdirirlər. Yemək süfrəsini yığışdı-

randan sonra şərab süfrəsini açırlar, vəzirlər can-dildən ustaya qulluq edib, sərxoş olanacan badəsini boş qoymurlar. Bu minvalla vəzirlər ustadan zövcəsi, uşaqları, ev-eşiyi, yaşadığı məhəlləsi, yaxınlığındakı bazar-dükan haqqında lazımi məlumatları əldə edirlər. Səhəri gün onlar ustadan aldıqları məlumatlara əsaslanaraq, onun dost-tanışının, qohum-qardaşının adından fikirləşdikləri məzmunda məktub yazıb ünvana çatdırırlar.

Məktubu alıb oxuyan usta çaşıb qalır. Ünvana baxıb görür ki, hər bir şey düzgün göstərilmişdir və ona görə yazılanların da həqiqət olduğuna inanır. O çox pəjmürdə olur, nə etdiyini, nə danışdığını bilmir. Bu vəziyyətdə durub şahın hüzuruna gedir. Şahın qarşısında təzim edib, ondan məmləkətinə qayıtmaq üçün izin istəyir. Şah ustanın qayıtmaq istəyinin səbəbini vəzirlərin ona böhtan atmaqlarında görür. Şah adamlarına əmr edir ki, bir neçə kisə qızıl gətirsinlər, o, ustanın könlünü almağa çalışır və deyir: «Axı biz artıq vəzirlərin sənin haqqında dediklərinin böhtan olduğunu sübut etmişik». Onda usta məktubu şaha uzadır. Şah məktubu oxuyub işin nə yerdə olduğunu anlayır və deyir: «Qəm etmə, zövcən, həqiqətən də, sənə xəyanət etmişsə, biz səni ondan da üstün bir qızla evləndirib, hökmdarlara layiq ev-eşik sahibi edərik».

Bunların heç biri ustanı maraqlandırmırdı, o, vaxtında ailəsini-uşaqlarını təmin edə bilmədiyi üçün məcburiyyət qarşısında qalıb, onları başsız qoyub evdən getdiyinə görə özünü bağışlaya bilmirdi. Usta öz-özünə deyir: «Yox, mən heç kəslə evlənməyəcəyəm, çünki mənim zövcəm kimi namuslu, tərbiyəli qadın əxlaqsızlıq edə bilməz. Bu məktub ya paxıl xislətli adamlar tərəfindən, ya da məni istəməyənlər tərəfindən yazılmışdır». O, şaha müraciət edir: «Ey hökmdar, izin ver üç-dörd günlük məmləkətimə gedim, yerində hər şeyi aydınlaşdırım, sonra ailə-uşağımı götürüb, qulluğuna gəlim». Şahla usta söhbət etdikləri vaxt vəzirlər də otağa daxil olurlar və söhbətin mövzusunu anlayıb ustaya deyirlər: «Biz sənə yaxşı bir qız taparıq, evlənərsən, o tərbiyəsizi isə buraya heç gətirmə, gətirəcəksən, camaat da onu barmaqla göstərəcəkdir. Yaxşısı budur, ondan əl çək». Usta bu sözləri eşidib qəzəblə deyir: «Mənim zövcəm

buradan uzaqda - başqa şəhərdədir, siz haradan bilirsiniz ki, onun əxlaqı nədir, davranışı nədir? Siz haradan bilirsiniz ki, o, əxlaqsız, tərbiyəsiz həyat sürür? Siz Allahınızdan qorxmursunuz, tanımadığınız, görmədiyiniz qadın haqqında nalayiq sözlər danışırsınız? Əgər mənim zövcəm, mənim tanıdığım o qadındırsa, mən onun namusuna heç vaxt şübhə ilə yanaşmaram». Bu vaxt vəzirlərin üçü də eyni vaxtda dillənirlər: «Allah hökmdarımızı öz pənahında saxlasın, o qadın bizim məşuqəmiz olmuş və bizimlə yaxınlıq etmişdir. Biz iki il onunla kef məclisləri qurub gözəl vaxt keçirmişik, əgər sübut-dəlil lazımdırsa, biz onun haqqında bütün məlumatı verə bilərik, yaşadığı məhəlləni bilmək istəyirsən? – filan məhəllədə yaşayır, adını bilirikmi? – adı da filandır. Yox, əgər bu kifayət etmirsə, hökmdarımız izin versin, birimiz gedib onun sürdüyü əxlaqsız həyatı haqqında yeni məlumatlar toplayıb gətirsin ki, bütün şübhələr dağılsın». Bunu eşidən usta təzim edib, alnını yerə qoyub, dualar edib deyir: «Bu adamlar şər-böhtan danışırlar, tanımadıqları, görmədikləri bir müsəlman qadın haqqında iftira danışırlar. Gəlin belə şərt kəsək: bu vəzirlərdən biri mənim məmləkətimə getsin, zövcəmlə yaxınlıq etsin və qayıdıb onun bədənindəki ancaq mənim bildiyim əlaməti təsvir etsin, onda mən onların dediklərinin həqiqət olduğunu qəbul edərəm və ömrümün sonunadək burada qalıb hökmdara qulluq edərəm». Vəzirlər dedilər: «Biz bu təklifi o şərtlə qəbul edərik ki, şah gedən adam qayıdanadək ustanı zindanda saxlasın».

Şah razılığını verib, əmr edir ki, ustanı zindana salsınlar. Vəzirlərdən biri yol tədarükünü görməyə başlayır. O özü ilə bir xeyli qızıl, ləl-cəvahirat götürüb Bəmə yollanır. O, şəhərdə ustagilin məhəlləsini araşdırır və ora yaxın yerdə bir qalacaq yer bənd edir, sonra arakeşliklə məşğul olan, çox çirkli işlər aşıran bir qarının evini gözaltı edir. Qarı da öz növbəsində, şəhərə vəzirin gəldiyini bilib öz-özünə deyir: «Yaxşı oldu, indi mən gedib onu toruma salaram». Elə bu fikirlə vəzirin məskunlaşdığı evə yollanır, ona «xoş gəldin» eləyir, başına-ayağına keçir. Vəzir fikirləşir ki, bu qarı elə vaxtında gəlmişdir. Onu əzizləyib, yuxarı başda əyləşdirib sorğu-suala tutur: «Xanım, kimsən, nə ilə məşğul olursan?» Qarı cavab verir: «Mən

özüm bu şəhərdənəm, filan məhəllədə yaşayıram. Sənin, mübarək qədəmlərinlə bizi şərəfləndirib, şəhərimizə təşrif buyurduğunu eşidib, gəldim ki, qulluğunda durum». Vəzir deyir: «Xanım, Allah səni mənə yetirdi. Mən bir yadelliyəm, sizin şəhərdə bir iki həftəlik işim var, mənim üçün bir cavan, gözəl, yanında əri olmayan xanım tapsan, o mənim qulluğumda durar, mən isə ona nəvaziş göstərib, onu ipəyə, atlaza tutaram, sənə də bahalı paltar hədiyyə edərəm». Qarı cavab verir: «Burada sənə layiq qadın tapmaq çətindir, doğrudur, bu məhəllədə, qazanc dalınca getmiş bir bənnanın zövcəsi yaşayır ki, gözəllikdə tayı-bərabəri yoxdur, amma bilmirəm, o bu işə razılıq verərmi? Qoy bir əvvəlcə özüm gedim, görüm vəziyyət nə yerdədir?»

Bunu deyib, qarı ustanın evinə yollanır. İçəri keçib salamlaşır və o saat fəaliyyətinə başlayır: «Gözəl xanım, bizim məhəllədə bir nəfər nəcabətli adam müsafirdir, səninlə bir-iki həftə vaxt keçirmək istəyir. Məncə, onunla bir-iki həftə vaxt keçirsən, heç pis olmaz. O, uzaq ellərdən, sənin gözəlliyinin sorağını eşidib gəlmişdir ki, bir zövq alsın, həzz alsın və onun müqabilində hər cür xidmət göstərməyə hazırdır. Sən bilirsən ki, mən səni qızım kimi sevirəm və sənin bu cavan yaşında tək-tənha qalmağına acıyıram, sən bu cavan canını puç eləmə. İndi izin ver gedim onun sənin üçün gətirdiyi hədiyyələri gətirim».

Ustanın zövcəsi bu sözləri eşidəndə ürəyinə şübhə toxumu düşür, fikirləşdi ki, burada nə isə var.... «Bu qadın heç vaxt mənim nalayiq işimi görməmişdir, mənimlə vaxt keçirmək istəyən kişi isə məni nə görüb, nə də tanıyır. Ərim şəhərdən gedəndən bəri mən bir dəfə də olsun, evdən çıxıb kiminləsə görüşüb söhbət etməmişəm. Burada nə isə var, gərək ehtiyatı əldən verməyim ki, tələyə düşməyəm».

Qadın bunları beynində dönə-dönə götür-qoy edib, qarıya razı olduğunu bildirir. Qarı sevincək, üzündə təbəssüm ustanın evindən çıxıb vəzirin yanına yollanır (cəlladın üzündə gözəl gözlər nə qədər qəribə görünərsə, belə ifritə qarının üzündə də təbəssüm bir o qədər qəribə görünürdü). Bu arada ustanın zövcəsi də öz növbəsində qulluqçusuna buyurur: «Get, bu adam haqqında hər şeyi öyrən, kimdir, haradan gəlir, haraya gedir?» Qulluqçu gedib vəzir haqqında hər şeyi yerli-yataqlı öyrənir, iş ondadır ki, vəzir elə bir az ondan əvvəl

Quvaşirin hökmdarından, öz məmləkətindən, orada baş verənlərdən danışmışdır. Odur ki, qulluqçu üçün məlumat toplamaq çətin olmur, ona belə deyirlər: «Bu adam Quvaşir şahının vəziridir və heç kəsin bilmədiyi bir vacib işlə bağlı buraya gəlmişdir».

Qulluqçu gəlib xanımına bu xəbərləri çatdırır. Xanım ərinin Quvaşirdə olduğunu, şah üçün gözətçi qülləsi olan saray tikdiyini, vəzirlərin ona tələlər qurduqlarını bilirdi. Əri dəfələrlə onu bunlardan agah etmişdir. Xanım dərhal qulluqçusunun verdiyi xəbərdən belə nəticəyə gəlir ki, vəzir buraya yenə də onun ərinə tələ qurmaq niyyəti ilə gəlmişdir və o gərək son dərəcə ehtiyatlı olsun. Bu arada qapıda yenə qarı görünür. O xanımın qarşısına bir-birindən gözəl hədiyyələr düzüb, vəzirin salamını çatdırır. Xanım bu cah-cəlalı görüb, özünü sevinən kimi göstərib, böyük həvəslə onlara baxıb, minnətdarlığını göstərərək yaxınlaşıb qarını öpür və deyir: «Ey mənim mərhəmətli anam, o alicənab insana mənim salamlarımı yetir və ona de ki, mən onun ən dəyərsiz köləsiyəm. Belə bir alicənab adamın mənim kimi dəyərsiz qadınla maraqlanması nə dərəcədə düzgündür? Axı mən ona layiq olan bir qadın deyiləm ki, mənimlə maraqlansın, qiymətli vaxtını mənə sərf etsin. Mənim əziz anam, sən bilirsən ki, ərim gedəni mən bir dəfə də olsun evdən çıxmamışam, bir Allah bəndəsi məni küçədə, şəhərdə görməmişdir, özün bilirsən ki, dost da var, düşmən də var... Mən bu adamla ancaq bir şərtlə görüşə bilərəm ki, o özü mənim evimə buyursun və mübarək qədəmləri ilə məni xoşbəxtləndirsin, amma yanında nökər, qul gətirməsin ki, istədiyimiz kimi vaxtımızı keçirək. Sonra kimi istəsə, gətirər, mənim evim onun evidir, amma bu hədiyyələri qaytar ona ver».

İfritə qarı gedib hər şeyi təfsilatı ilə vəzirə çatdırır. Vəzir o saat tədarük görür, ustanın evinə ət, yağ, şirniyyat, şam və gözəl, bahalı paltarlar göndərir və özü də hazırlaşmağa başlayır. Ustanın zövcəsi qulluqçusu ilə cürbəcür təamlar, şərbətlər, içkilər hazırlayıb Allaha dua edə-edə qonağı gözləməyə başlayır. Axşam düşəndə vəzir canamazını açıb, namazını qılıb qarını gözləyir ki, tez bir zamanda ustanın zövcəsini toruna salsın. Qarı gəlib vəziri ustanın evinə aparıb, qapıdan ötürür, özü isə qayıdıb gedir. Ustanın zövcəsi bəzənib,

ətirlənib, qonağını gözləyirdi. O, vəziri salamlayıb, təzim edir, onun əlindən tutub, aparıb dörd balış üstündə, dörd yastığın əhatəsində əyləşdirir, özü isə qarşısında əyləşir. O ustalıqla, yüz cür naz ilə, əda ilə vəziri tez bir zamanda mum kimi əridir. O, vəzir üçün cürbəcür şərbətlər düzülmüş, cürbəcür təamlarla dolu süfrə açır, onlar bərabər onlardan yeyib-içməyə başlayırlar. Yemək süfrəsindən sonra vəzir özündə cəsarət tapıb, xanımın əllərindən tutub özünə tərəf çəkir, o üzündən, bu üzündən busə alıb, şərab istəyir. Xanım şərab gətirir. Vəzir deyir: «Ey mənim aycamal, zülfləri ənbər ətirli gözəlim, sən də mənimlə şərab iç, əhvalımız daha gözəl olsun». Ustanın zövcəsi deyir: «Mənim ağam, mən min dəfə sənin qarşında qul-nökər olmağa hazıram, amma uca Allah şahiddir ki, mən bu vaxtacan bir dəfə də olsun, nəinki şərab içmişəm, heç dadına da baxmamışam. Amma sənin xətrinə, nəinki şərab, zəhər də içərəm, bir şərtlə, izin ver birinci gün içməyim, çünki qorxuram ki, çox cürətlənərəm. Mənim isə qardaşlarım, dostlarım olduğu kimi, düşmənlərim də var. Onlar gəlib məni səninlə içən görsələr, heç yaxşı olmaz».

Vəzirin qadının bu rəftarından xoşu gəlir, onun düşüncəsinə, rəftarına məəttəl qalır və fikirləşir: «Bu qadın məni sevir, gərək onunla daha xoş rəftar edim». Ustanın zövcəsi saqilik etməyə başlayır və xüsusi məharətlə şərab qabına yuxu gətirən otlardan əlavə edib vəzirin badəsinə süzür və eyni zamanda, bütün bu vaxt kəsiyində özünü nigaran, kiminsə gəlib onu görəcəyindən ehtiyat edən bir adam kimi aparır, gözünü qapıdan, pəncərədən çəkmir. Vəzir əriyib-gedirdi və öz-özünə deyirdi: «Nəhayət, mən bütün günümü, bütün gecəmi bu aycamal gözəllə keçirəcəyəm. Gərək elə edim ki, onun ən gözəgörünməz xalını da belə nəzərdən qaçırmayım». Elə bunları fikrində götür-qoy edə-edə vəzir badələri bir-birinin ardınca boşaldırdı, qadın da öz növbəsində vaxtaşırı şəraba yuxu gətirən otlardan qatırdı. Bu, vəzir tam sərxoş olanacan davam edir və ustanın zövcəsi qulluqçusu ilə bir yerdə: «Gedək taxta», – deyə-deyə, onu yerindən qaldırırlar. Vəzir çətinliklə qalxıb onlarla gedir. Qadınlar onu bağçada yerləşən bir zirzəmiyə gətirirlər. Bu zirzəmi möhkəm kilidlənirdi. Vəziri itələyib, oraya salıb qapısını da kilidləyirlər.

Vəzir elə sərxoş idi ki, elə orada yuxuya gedir və dünyanı fəth edən günəşin sivri qılınca bənzəyən şüaları hər tərəfə işıq saçanadək yatır. Vəzir oyananda görür ki, bir zirzəmidədir. O qorxur və öz-özündən soruşur: «Bura haradır? Mən haradayam?» Nə qədər fikirləşir, nə qədər götür-qoy edir, bir nəticəyə gələ bilmir, yerə çömbəlib fikrə gedir, sonra durub qapıya yaxınlaşır və nə qədər cəhd etsə də, onu aça bilmir. Bu vaxt ustanın zövcəsi bağçaya çıxır, qulluqçusuna da buyurur ki, getsin görsün vəzir nə edir. Qulluqçu qapının deşiyindən baxıb görür ki, vəzir dala-qabağa gedib-gəlir və buradan çıxmaq üçün yollar axtarır, amma tapa bilmir. Birdən vəzir qapının arasından qulluqçunu görür və yalvararaq deyir: «Ey mərhəmətli qız, de görüm, mən nəyə görə buradayam?» Qulluqçu cavab verir: «Mən heç bir şey bilmirəm. Mənə göstəriş verilmişdir ki, səni buraya gətirim, mən də gətirdim. Xanım sənin dalınca gəlib səninlə gözəl vaxt keçirmək fikrində idi, amma qəflətən qardaşı gəldi, onu kəndə apardı və dedi ki, kənddə bir həftə qalmalıdırlar». Bunu eşidən vəzir üst-başını cırdı, yerə sərilib, ilan kimi qıvrılmağa başladı. Sonra güclə özündə qüvvə tapıb qıza yalvardı: «Ey mərhəmətli qız, bu nə cəzadır mən çəkirəm, mən nə günah iş görmüşəm? Kənd nədir? Kəndə getmək haradan çıxdı? Mən niyə bu zirzəmiyə atılmışam? Gəl bu qapını aç, mən sağ-salamat buradan canımı qurtarım. Allaha qurban olum, mən bir də qələt edərəm, belə işə baş qoşaram ki, belə gülünc vəziyyətə düşüb, rüsvay olaram». Qulluqçu cavab verir: «Sənin istəyini yerinə yetirmək mənim iqtidarımda deyil, mən sadəcə bir qulluqçuyam, xanımım isə bu qapını bağlayıb, kəndə getmişdir, açarı da özü ilə aparmışdır. Sən səbir et, xanım gəlib ağ, ipək kimi qollarını boynuna sarıyıb, nəvazişləri ilə sənə bunların hamısını unutduracaqdır. Eşq yolunda illərlə əzab çəkməyə hazır olmayan kəs kişi sayılmaz. Sən ki əsilli, nəcabətli bir əyansan. Gəl, sən bir həftə, on gün döz». Bu sözlər vəziri düşündürdü: «Hə.... Yaman yerdə gecələmişəm... Mən öz pis niyyətlərimin girovuna düşdüm. Necə deyərlər;

Kim ki qayda-qanuna əməl etmir,
Bədəl ödəməyə məhkumdur.

Vəzir günortaya qədər dözür, amma elə ki, aclıq ona güc gəlir, qapını döyməyə başlayır. Ustanın zövcəsi qulluqçusunu göndərir ki, görsün nə olmuşdur. Vəzir qulluqçunu görən kimi yalvarmağa başlayır: «Qızım, mən yadelli birisiyəm, mənə rəhmin gəlsin, məni buradan çıxar, mən bir də həyatım boyu belə bir iş görmərəm». Qulluqçu qız sözünə, rəftarına bir əda qatıb cavab verir: «Ah!!! İnan ki, mən özüm xanımın acığına qapını açıb səninlə vaxt keçirmək istəyərdim, sənin saqin olub, sənə şərablar içirdərdim, sənə nabat-noğul, şirniyyatlar gətirərdim və sonra sənin nəvazişlərinlə məst olardım, amma bu xəyalların nə faydası? Qapı möhkəm bağlıdır. İstəyirsən, bir dolça su gətirib, qapının arasından süzüm, xanım gələndə görsün ki, dəstəmaz almısan, çünki dəstəmaz almamış pak ola bilməzsən». Vəzir fikirləşir: «Görünür, bu qızın mənə yazığı gəlir, qorxur ki, mən intihar edərəm». Bu fikirlərlə öz-özünə deyir: «Allah böyükdür və Allahdan başqa Allah yoxdur. Ey uca Allah, sən məni qoru!». Bu arada qulluqçu qız vəzirlə məzələnməsini davam etdirirdi, bir az aralı dayanan xanım isə ona pıçıldayırdı: «Davam et, əl çəkmə ondan». Qulluqçu qız yenə vəzirə müraciət edir: «Ey nəcib, nəcabətli ağa, yadındadırsa, dünən xanım sənə çox nəvaziş göstərib qulluğunda durdu. Düzünü de, onunla vaxt keçirmək xoşuna gəlirdimi, yoxsa, yox?» Vəzirin səbrinin, hövsələsinin dar vaxtında bu sual onu lap özündən çıxarır və o qışqırır: «Allah lənət etsin sənə də, xanımına da, onun ərinə də! Allah sizi itirsin! Buraya gəldiyim günə min lənət! Mən nə ağılla bura gəldim? Mən nə ağılla bir bədbəxt bənnaya görə isti ev-eşiyimi qoyub bura gəldim?»

Ustanın zövcəsi bu sözləri eşidən kimi öz-özünə dedi: «Deməli belə! Axı mən hiss edirdim ki, burada nə isə var, bu məsələnin arxasında bir sirr durur. Hamınız bilin, Allah böyükdür və o məni - yazıq, kimsəsiz bəndəsini amansız düşmənlərindən qoruyur». O, həmin dəqiqə səcdəyə gedib, namazını qıldı və Allaha dualar etdi. O, qulluqçu qıza dedi: «İndi mənə aydın oldu, deməli, vəzirin məqsədi ərimi rüsvay etməkdir, belə olan halda onu ərimdən bir göstəriş almamış, zirzəmidən çıxmağa qoymamalıyam». Sonra o, yenə qulluqçusunu vəzirin yanına göndərdi. Vəzir acından ölürdü, qul-

luqçu qızı görüb yenə yalvarmağa başladı: «Ay qızım, mənə rəhmin gəlsin, aç qapını, qoy çıxım buradan. Məni buradan çıxarsan, sənə min qızıl dinar verərəm». Qulluqçu qız cavab verdi: «Mən can-dildən sənin halına yanıram və istəyirəm ki, sən bu zirzəmidən çıxasan, amma xanım açarları özü ilə kəndə aparmışdır. Yaxşısı budur, sən mənə düzünü de görüm, niyə isti ev-eşiyini qoyub buraya gəlmisən və nəyə görə elə hey mənim xanımımın ərini söyürsən? Həqiqəti desən, hesab et ki, xilas olmusan». Vəzir hirslə cavab verdi: «Əgər həqiqəti deməli birisi varsa, o da sənsən. De görüm, xanımın hara getmişdir?» Qulluqçu qız and-aman etdi ki, xanım kəndə gedib, açarı da özü ilə aparıbdır və dedi: ««O mənə çox ciddi tapşırdı ki, sənə heç yaxın gəlməyim və bu işə qarışmayım. Bəli, beləcə də dedi: «Sən heç bir şeyə qarışma. Mən kənddən qardaşlarımla qayıdacağam və onlar qonağımıza lazımi «hörmət» göstərəcəklər» ». Vəzir soruşdu: «Onlar mənə nə hörmət edə bilərlər?» Qız dedi: «Ey nəcib insan, mən sənə hər bir şeyi olduğu kimi danışacağam, diqqətlə qulaq as, sənə ürəkdən bağlı olduğum üçün taleyinə də biganə ola bilmirəm». Vəzir dedi: «Danış! eşidirəm». Qulluqçu qız danışmağa başladı: «Sən məni, cürət edib, danışacaqlarıma görə bağışla, amma sən bilməlisən ki, mənim xanımım çox əzazil və qəddar qadındır, o min hiylə-kələklə tələlər qurub, çox binəvanı toruna salmağa qadirdir. O, əvvəlcə tora düşmüş ovları ilə gecələr eyş-işrətlə vaxt keçirib, nəvazişləri, məhəbbəti ilə onları ovundurur, ağıllarını başlarından çıxarır, sonra sənin başına gətirdiyini onların da başına gətirir. O, göylərin üçüncü qatındakı «Zöhrə»ni belə öz toruna salmağa qadirdir. Bəli, bu minvalla, o çox adlısanlı adamları toruna salmış, qızıllarını, gümüşlərini əllərindən almış, gecələr onlara nəvaziş göstərib, gündüzlər isə sənin başına gətirdiklərini gətirmişdir. Bu bir il ərzində neçə adlı-sanlı adamın başına bu oyunu açıb, zirzəmiyə salıb, kəndə getmişdir. Kənddən isə yeddi qardaşı ilə qayıdardı, hər bir qardaşın da yanında bir nökəri olurdu. Onlar gələndən sonra hər biri növbə ilə o biçarə qonaqları o ki var döyürdülər, o qədər döyürdülər ki, üstlərində olan yaraq-yasaqdan, qızıl-gümüşdən və hətta paltardan heç bir əsər-əla-

mət qalmırdı, sonra onları belə rəzil gündə, təhqirlə, təpiklə küçəyə atırdılar. O bədbəxtlər elə bir iyrənc hala düşürdülər ki, onların yanından keçmək belə mümkün olmurdu. Doğrusu, mən artıq bunlardan iyrənib bezmişəm, qan-qada görməkdən, rəzillik, əskiklik, namərdlik görməkdən iyrənmişəm. Sən mənə həqiqəti desən, haradan gəldiyini, haraya getdiyini, nə məqsəd güddüyünü danışsan, bu evdə qiymətli nə varsa, yığıb-yığışdırıb, səni xilas edəcəyəm və səninlə dünyanın o biri başına belə gedəcəyəm. Sənin danışdıqlarının həqiqət olduğuna inansam, ömrümün sonunadək sənin qulluğunda kölən olacağam».

Qulluqçu qızın bu ətürpədici təsvirlərini dinlədikdə vəzirin bütün bədəni əsdi, gözləri qaraldı və öz-özünə dedi: «Yaman yerdə axşamladım! Mən ustanın zövcəsini rüsvay etmək məqsədi ilə gəlmişdim, deyəsən, özüm bu yaşımda rüsvay olacağam... Bu nə bəla idi düşdüm...». Sonra o yalvararaq, qıza dedi: «Səni and verirəm o uca Allaha! Məni bu bəladan, bu rüsvayçılıqdan qurtar. Məni xilas etsən, and verirəm Allaha səni xanımım edib, bütün var-varidatımı ayaqlarına tökəcəyəm». Qulluqçu qız dedi: «Onda sən mənə hər bir şeyi təfsilatı ilə danış, mən də sənin xilasın üçün yollar fikirləşim».

Vəzirin ağlı qulluqçu qızın danışdıqlarından dumanlanmışdır, dilinə güc verib bütün hal-qəziyyəni əvvəldən axıracan danışır: ustadan, onun zövcəsindən, vəzirlərdən, kəsdikləri mərcdən, şahın ustaya olan ehtiramından, öz paxıllıqlarından - hər bir şeyi nöqtə vergülünəcən danışır. Qulluqçu qız eşitdiklərindən heyrətə gəlib yerindəcə donub qalmışdır. Qız özünə gəlib, ayağa qalxıb deyir: «Qoy gedim, görüm açar tapa bilsəm, gətirim, səni azad edim». Bunu deyib gedən qız bir də axşam namazından sonra qayıdır. Vəzir acından ölürdü, təklikdən də dəli olurdu. Qız yaxınlaşıb vəzirə deyir: ««Ağam, nə qədər çalışdım-vuruşdum, açarı əldə edə bilmədim. İş ondadır ki, kənddən xanımın qardaşları gəlmişlər, hərəsi də yanında bir neçə gənc nökər gətirmişdir və onlar durmadan soruşurlar: «Hanı bizim ovumuz? Biz səbirsizliklə o saatı gözləyirik ki, onu əlimizə keçirək, ona həyat dərsi verək, nəyin nə olduğunu anladaq, həyatın hər üzünü göstərib başa salaq» ». Mən and-aman et-

dim ki, heç bir şey bilmirəm, heç bir şeydən xəbərim yoxdur, amma onlar elə dediklərini deyirlər: «Bizi buraya bacımız göndərmişdir, göstər görək, dediyi qonaq haradadır?» Mən çox qorxuram ki, onlar səni tapıb, başına min cür oyun açıb, yer üzündə rüsvay edələr». Qorxudan əsməyə başlayan vəzir əllərini göyə açıb dua etməyə başladı: «Allah böyükdür, Allahdan başqa Allah yoxdur, Allah Rəhim və Rəhmandır! – Hə, yaman işə düşmüşəm...Görünür, belə işin sonu da belə olmalı imiş... Ay qızım, mənə rəhmin gəlsin, məni buradan qurtar, məni kənddən gəlmiş bu səfillərin, rəzillərin əlinə vermə, mən buna tablaya bilmərəm, mən bu biabırçılığa dözə bilmərəm».

Qulluqçu qız gedib bir azdan yenə qayıtdı və dedi: «Nə sabah, nə biri gün, nə o biri gün, nə də bir həftədən sonra mən səni buradan azad edə bilmərəm, çünki xanımın qardaşları, o vəhşi, qaniçən məxluqlar hələ on gün, sərasər buradadırlar, mən isə səni ancaq onlar getdikdən sonra azad edə bilərəm».

Bu sözləri eşidən vəzir əlini yerdən, göydən üzdü və öz-özünə dedi: «Hə, bu da mənim aqibətim, fikirləşmədən iş görənin başı həmişə bəlada olar». Sonra o fikirləşib qıza dedi: «Səni and verirəm Allaha, soraqlaş, gör bizim ellərdən buralarda kimi tapırsan, onlardan ikisini, üçünü gətir buraya».

Qız cavab verdi: «Sən nə danışırsan? Xanımın qardaşlarının qorxusundan mən bir addım belə evdən bayıra qoya bilmərəm». Vəzir yalvardı: «Onda mənə, heç olmasa, bir tikə çörək gətir, axı mən acımdan ölürəm». Qız dedi: «İnan ki, məndə heç bir şey yoxdur, amma xanım kəndə gedəndə mənə on çörək və pambıq qozası qoyub tapşırmışdır ki, kim bu pambıq qozalarını təmizləsə, ona hər on girvənkə pambıq qozasının müqabilində bir girvənkə çörək verərsən. Vəzir dedi: «Mən razıyam, gətir».

Qız pambıq qozalarından tərəziyə qoyub çəkdi, ona uyğun çörəyi də götürüb gətirdi. Vəzir xırda-xırda çörəkdən yeyib, pambıq qozalarını təmizləyirdi. Qulluqçu qız ona baxıb ürəyində gülürdü və vaxtaşırı xanımın qardaşlarından söz açıb vəziri qıcıqlandırırdı. Bu minvalla on gün keçir. Vəzirin nökərləri

fikirləşdilər ki, vəzirin itməsini bir kimsəyə desələr, onları tutub zindana atacaqlar. Ona görə vəzirin nəyi var idisə aralarında bölüşdürüb, hərəsi bir tərəfə, onun başına nə gəldiyini öyrənmək üçün yola düşürlər. Burada isə, ustanın zövcəsi öz növbəsində vaxtaşırı qulluqçusunu vəzirin yanına yollayırdı ki, ona hədə-qorxu gəlsin. Qız da vəzirə deyirdi: «Bəs xanımın qardaşları bu gün gələrlər, sabah gələrlər». Vəzir daima qorxu içində olurdu və öz-özünə deyirdi: «Mən bu rüsvayçılığa dözə bilməyəcəyəm».

Beləliklə, vəzirin şahdan istədiyi vaxt sona çatmışdır. Şah hər gün digər vəzirlərdən yoldaşlarını xəbər alırdı, onun nə səbəbdən ləngidiyini soruşurdu. Onlar isə, yoldaşlarının, güman ki, hələ də ustanın zövcəsi ilə vaxt keçirdiyini bildirirdilər, amma elə ki, şah onlara qəzəblənməyə başladı, onlardan biri şahdan izin istədi ki, gedib işin nə yerdə olduğunu öyrənsin. O da şahdan on gün icazə istəyir. Şahdan icazə alan vəzir iki-üç nökəri ilə Bəmə yola düşür.

Bəmə çatanda o, nökərləri ilə özünə ustanın evi olan məhəllədə bir ev kirələyir. O, ustanın hansı məhəllədə yaşadığını bilirdi. Həmin qoca, arakeş, ifritə qarı o saat onun yanına gəlir. Vəzir soruşur: «Kimsən?» Qarı cavab verir: «Mən gələn qonaqların qulluğunda durub, onların arzularını, əmrlərini yerinə yetirirəm, elə bir az bundan əvvəl sənin kimi əsilli, nəcabətli bir əyan təşrif buyurmuşdur, ona elə hörmət edib, elə ehtiram göstərdim ki, onun müqabilində ağlasığmaz bahalı hədiyyələr bağışladı. İndi sənin yanına gəldim ki, lazımdırsa, sənə də qulluq göstərim». Vəzir soruşur: «O qonağın görünüşü necə idi?» Qarı qulluğunda durduğu adamı olduğu kimi təsvir edir, vəzir söhbətin yoldaşından getdiyini anlayır və soruşur: «Bəs o hara oldu?» Qarı deyir: «O, iki-üç gün əvvəl çıxıb getmişdir». Vəzir öz-özünə fikirləşir: «Qəribədir, əgər o, evinə qayıtmışsa, biz yolda rastlaşmalı idik, deməli, o, başqa yolla getmişdir». Sonra üzünü qarıya tutub deyir: «Ay anam, bir müddət sizin şəhərdə qalacağam, burada işlərim var. Sən məni bir gözəl qadınla tanış etsən, günlərim darıxdırıcı, sıxıcı keçməz, mən də qiymətli hədiyyələrlə xəcalətindən çıxaram». Qarı deyir: «Mən bu məhəllədə bir dünya gözəli qadın tanıyıram, o, daş ustasının zövcəsidir, əri bir il-

dir ki, qazanc dalınca başqa şəhərə getmişdir. Mən onun yanına gedib, onu bu xəbərlə sevindirərəm». Bu sözləri deyib, qarı tez ayağa qalxıb, bənnanın evinə yollanır və evə girər-girməz xanıma deyir: «Sən bilirsən ki, mən səni qızlarımdan çox istəyirəm. Bil ki, şəhərə bir əyan gəlib ki, var-dövləti birincisinin var-dövləti ilə heç müqayisəyə gəlməz, bunun var dövlətinin həddi-hüdudu yoxdur. O səninlə tanış olmaq istəyir və sən razılıq versən, gedib hədiyyələri gətirərəm». Ustanın zövcəsi o saat o biri vəzirin gəldiyini anlayır və öz-özünə deyir: «İkinci ovum da buyurdu». Qarıya isə deyir: «Sən bilirsən ki, ərim gedəni mən evdən çıxmıram, əgər müsafir mənimlə tanış olmaq istəyirsə, özü mənim evimə təşrif buyursun, amma yanında nökər-qul gətirməsin ki, iki-üç gün biz bir-birimizə tam öyrəşək, sonra kimi istəyər, gətirər və bir də şərtim budur ki, heç yerdə heç bir şey danışmasın».

Qarı vəzirin yanına gedib, hər şeyi olduğu kimi danışır. Vəzir çox sevinir, qarıya qiymətli hədiyyələr verir və onu ustanın zövcəsinin yanına göndərir ki, bu şərtlərə razı olduğunu bildirsin. Onun ardınca vəzir ustanın evinə cürbəcür ərzaq, şərab, şirniyyat göndərir, ustanın zövcəsi üçün isə gözəl, nəfis paltarlar göndərir. Ustanın zövcəsi yenə də ona göndərilən hədiyyələri geri qaytarır. Axşam düşən kimi, elə ki vəzirin nökərləri yatmağa gedirlər, vəzir qarı ilə ustanın evinə yollanır. Qarı onu qapıdan ötürüb özü qayıdır. Ustanın zövcəsi geyinib-kecinib, bəzənib-düzənib, ətirlənib vəziri qarşılayır. Xanım min nazla, əda ilə, şirin dillə vəzirə nəvazişlər göstərib, onu yuxarı başda - taxtın üstündə əyləşdirir, özü isə keçib düz qarşısında əyləşir. Xanım vəzirə hər cür qulluqlar göstərir və hər hərəkətində gözəlliyini nümayiş etdirirdi. Vəzir onun boy-buxununa, qədd-qamətinə heyran qalmışdır və öz-özünə fikirləşirdi: «Bu huri-mələyə yiyələnmək üçün, nəinki Quvaşirdən, hətta Balasaqundan də gəlməyə dəyərdi. Bu mələklə ünsiyyətdə olmaq Quvaşir vəzirliyindən qat-qat üstündür. Vəzir yoldaşım burada gözəl vaxt keçiribmiş, mən bundan məhrum olsa idim, çox təəssüflənərdim».

Süfrə açılır, cürbəcür təamlar, şərbətlər düzülür. Ustanın zövcəsi öz gözəl əlləri ilə vəzirin ağzına tikələri qoyurdu. Yemək süfrə-

sindən sonra qulluqçu əvvəlcədən içərisinə yuxu gətirən otlar qatılmış şərab gətirir. Vəzir deyir: «Mən şərabı sənsiz içmək istəmirəm, gəl məni bu həzdən məhrum etmə». Xanım deyir: «Mənim möhtərəm ağam, bu dəfə məni üzrlü bil, mənim yeddi qardaşım var və bəzən onlardan biri gəlib mənim evimdə gecələyir, birdən bu gün onlardan biri gəlib bizim ikimizi də sərxoş görsə, işlər fəna olar. Sən bu günlük qoy mən ayıq olum, sənə qulluq edim, sabah bir şey fikirləşərəm ki, qardaşlarımdan gələn olmasın. Onda səninlə birgə şərabın ləzzətini çıxararam, bütün vücudumla kölən olaram». Qadın bu sözləri deyəndə onun gözəl camalı, yay kimi dartılmış qaşları, qönçəyə bənzəyən al dodaqları, yanaqlarına tökülən ənbər ətirli zülfləri vəziri məst etmişdir. Onun bu halını görən qadın qulluqçusuna gözü ilə işarə etdi ki, vəzirin badəsini şərabsız qoymasın. Elə ki vəzir tam sərxoş olur, qulluqçu qız ona yaxınlaşıb, qolundan tutub deyi: «Dur gedək, yorğan-döşəyə». Vəzir durub, özündən, hara getdiyindən xəbərsiz, səndələyə-səndələyə qulluqçu ilə bağçaya çıxır. Qulluqçu zirzəminin qapısını açanda birinci vəzir qorxusundan bir küncə qısılır. O elə bilir ki, gələn xanımın qardaşlarındandır. O, küncə qısıldığı vaxt xanımla qulluqçu ikinci vəziri itələyib zirzəmiyə salırlar və arxadan qapını yaxşıca kilidləyirlər. İkinci vəzir ancaq günəşin şüaları dünyanı işıqlandıranda özünə gəlir. Özünü zirzəmidə görəndə deyir: «Mən dünən harada idim və indi nəyə görə buradayam?» O, başına gələnləri xatırlamırdı və nələr olduğunu da bilmirdi. Elə ki günəş şüaları zirzəmini də işıqlandırır, birinci vəzir öz küncündən zirzəmiyə atılmış adamın kim olduğunu görür, yerindən sıçrayıb, onun yanına gəlir. Onlar qucaqlaşıb öpüşüb-görüşürlər. Biri o birisindən soruşur: «Sən buraya necə düşmüsən?» O birisi cavab verir: «Elə sən düşdüyün kimi». Sonra onlar bir-birlərinə başlarına gələnlərdən danışıb başa düşdülər ki, ustanın zövcəsi onları ələ salmış, məsxərəyə qoymuşdur.

Birinci vəzir başa düşür ki, qulluqçu qızın ona göstərdiyi diqqətin, nəvazişin, qayğının hamısı oyun imiş. O, hönkür-hönkür ağlayır və onlar bədbinliyə düşürlər. Onlar bir-birlərinə talelərindən gileylənib, gördükləri işdən peşmançılıq çəkirdilər. Ustanın zövcəsi isə

qulluqçusu ilə onların söhbətlərinə gizlicə qulaq asıb gülürdü. Sonra xanım yenə qulluqçu qızı onların yanına göndərir. İkinci vəzir onu görən kimi qışqırıb, yalvarmağa başlayır: «Ay qızım, səni and verirəm Allaha, de görüm, bizi nəyə görə bu zirzəmidə saxlayırsınız, bizim günahımız nədir? Biz sizə nə pislik etmişik, sizə nə pisliyimiz dəyib, xeyrimizdən başqa. Sizə xeyli qızıl, gümüş pul vermişik. Bizi buradan azad edin, biz də səssiz-səmirsiz ev-eşiyimizə gedək və bir də üzümüzü bu tərəflərə çevirməyək». Qız cavab verir: «İnanın ki, məndən asılı bir şey yoxdur. Xanım açarları da götürüb, on beş-iyirmi günlük kəndə getmişdir. Mən evdə təkəm, gəldim xəbər biləm ki, dünən mənim xanımımdan razı qaldınmı? Axşam onunla necə vaxt keçirdin? Əgər istəsən, sənə bir vedrə su gətirərəm, dəstəmaz alarsan». İkinci vəzir başa düşürdü ki, bu qız onları dolayır, qəzəbindən az qalırdı dəli olsun. O qışqırdı: «Allah sənə də, xanımına da, xanımının ərinə də lənət etsin!» Qulluqçu qız cavab verdi: «Ay bic doğulub, əxlaqsız südü əmib, pozğun əlində böyüyən, sən burada mənim tərbiyəsiz xanımım ilə eyş – işrət məclisi qurub, kef çəkəndə, mən yatmayıb sizin qulluğunuzda dururdum. İndi sən mənim zəhmətimə belə qiymət verirsən, ay tərbiyəsizin, əxlaqsızın oğlu? Eybi yoxdur, sən bu sözlərə görə cavab verəcəksən, qoy xanımın qardaşları gəlsin, onda görəcəyəm sənin gününü». Bunu deyib, qulluqçu qız gedir, ustanın zövcəsi isə gülməkdən az qala ölmüşdür.

İkinci tutulmuş vəzir birinci tutulmuş vəzirə müraciət edib deyir: «Bu nə iş idi biz düşdük!» Birinci vəzir dedi: «Mən acımdan ölürəm». O biri vəzir soruşdu: «Məgər burada heç çörək də vermirlər?» Birinci vəzir deyir: «Bir girvənkə çörək almaq üçün gərək on girvənkə pambıq qozası təmizləyəsən, amma nə olursa, olsun, sən o qızla elə rəftar etməli deyildin». İkinci vəzir dedi: «Eybi yoxdur, mən ona bir şey hədiyyə verib, könlünü alaram, o da bizim buradan çıxmağımıza kömək edər».

Bu arada ustanın zövcəsi günorta namazına kimi vəzirlərlə heç maraqlanmır, qulluqçusunu da onların yanına göndərmir.

İkinci vəzirin acından gözləri qaralırdı, dayanmadan deyirdi: «Bu nə iş idi biz düşdük, biz canımızı buradan necə qurtaraq? Bu

qəribçilik, zirzəminin rütubəti bizi məhv edəcəkdir». Birinci vəzir deyir: «Bunların hamısı xanımın qardaşlarının buraya gəlməsi ilə müqayisədə heç bir şeydir, mənim qorxduğum odur». İkinci vəzir ucadan qayıdır: «Allah keçsin günahımdan! Biz buraya ustanın zövcəsini rüsvay etmək məqsədi ilə gəlmişdik, bu gedişlə, deyəsən, özümüz rüsvay olacağıq».

Vəzirlər öz aralarında bu söhbətləri edirdilər ki, qulluqçu qız gəlib qapının yanında durur. Bunu görən vəzirlər tez yerlərindən sıçrayıb yalvarmağa başlayırlar: «Ey gözəl qız, biz əgər sənin xətrinə dəymişiksə, səninlə rəftarda bir səhvə yol vermişiksə, onun müqabilində nə qədər desən, qızıl-gümüş, dinar ödəməyə hazırıq, təki sənin bizə rəhmin gəlsin». Qız cavab verir: «Mən kiməm ki, siz mənimlə belə rəftar edirsiniz, mən bir qulluqçuyam və siz mənim xanımım ilə kef məclisi qurub, kef edəndə mənə qalan kənardan sizə baxıb həsəd aparmaq olur». Qızın bu sözlərini eşidən vəzirlər dodaqlarını dişləyib başa düşdülər ki, bu qız bütün bu müddəti onları ələ salırmış. Birinci vəzir deyir: «Sən məgər demirdin ki, məni azad edəcəksən?» Qız cavab verir: «Doğrudur, deyirdim, amma iş tərs gətirdi, xanımın qardaşları gəlib çıxdılar, mən sözümün üstündə dura bilmədim, indi də qorxduğum budur ki, onlar hər dəqiqə durub buraya gələ bilərlər, onda vay sizin halınıza!»

Birinci vəzir başa düşdü ki bu qız, sözün tam mənasında, onları ələ salır. İkinci vəzir isə qıza dedi: «Mən bilirəm ki, sən özün heç nəyə qadir deyilsən, amma sən gedib bizim dostlarımızı tapıb, onlara bizim bəlaya düşdüyümüzü çatdırsan, onlar gəlib bizi xilas edərlər, onda mən sənə qeyri-adi qaşları olan iki dənə elə üzük verərəm ki, onların dünyada bərabəri yoxdur». Qulluqçu qız dedi: «Sən o üzükləri mənə elə indi ver». Vəzir o saat üzükləri çıxarıb verir. Qız da onları götürüb aparıb xanımına verir. Xanım üzükləri götürüb barmaqlarına taxır. Axırıncı namazdan əvvəl qız yenə zirzəmiyə yaxınlaşır və deyir: «Mən sənin adamlarının yanına getdim, amma onlar orada artıq yox idilər, onlar yük heyvanlarını yükləyib, çıxıb getmişlər, amma dəhşətli olanı bu deyil, dəhşətli olanı odur ki, xanım qardaşları və qardaşlarının cüssəli nökərləri ilə kənddən

qayıdıb gəlmişlər və onlar səbirsizliklə sizin yanınıza gələcəkləri vaxtın çatmasını gözləyirlər, amma mənim sizə ürəyim ağrıyır, siz yerlərinizdən tərpənməyin, səsinizi çıxarmayın, mən hər bir vəchlə sizi bu bəladan qurtarmağa çalışacağam». İkinci vəzir deyir: «Bizim taleyimiz sənin əlindədir, necə məsləhət bilirsən elə et, amma bizə yazığın gəlsin, heç olmasa, bir tikə çörək ver yeyək». Qız deyir: «Mənim heç bir şeyim yoxdur, amma xanım mənə bir qədər pambıq qozası qoyub və tapşırıb ki, onu təmizləyənə hər on girvənkə qozanın müqabilində bir girvənkə çörək verim, amma o kəs ki boynuna götürdüyü işin öhdəsindən gəlməsə, nəinki çörək, heç su da almayacaqdır».

Bu sözləri eşidən birinci vəzir altdan-altdan gülürdü. İkinci vəzir isə qulluqçuya deyir: «Nə etmək olar, gətir, o pambıq qozalarını». Qulluqçu gedib qozaları gətirir və onları qapının arasından içəriyə atır. Vəzirlər onları yığırlar, biri pambığı qozadan çıxarır, o birisi isə pambığı didməyə başlayır. Qulluqçu gündə iki dəfə zirzəminin qapısına yaxınlaşıb, vəzirləri ələ salır, onlara: «Sizə xoş xəbər gətirmişəm»,- deyib xanımın qardaşlarının bu günlərdə onların yanına gəlmək niyyətində olduqlarını çatdırırdı. Bu minvalla daha bir həftə keçdi.

Bu arada ikinci vəzirin nökərləri də bir həftənin tamamında ağalarının qayıdacağından əllərini üzüb, onun özü ilə gətirdiklərini aralarında bölüşdürüb, hərəsi bir tərəfə gedir. Elə ki, bu vəzirin də on günlük müddəti bitir, üçüncü vəzir öz-özünə fikirləşir: «Yəni onlar indiyə kimi ustanın zövcəsi ilə vaxt keçirirlər?» Bunu fikirləşə-fikirləşə o, şahın hüzuruna gedir və deyir: «Şah sağ olsun, mən məəttəl qalmışam, bizim vəzirlər nəyə görə indiyə qədər gəlib çıxmamışdırlar. İzin ver gedim, onlardan bir xəbər bilim, həm də ustanın zövcəsinin yüngül həyat tərzi haqqında lazımi məlumat toplayım». Şah deyir: «İzin verirəm». Vəzir o saat bir neçə nökər götürüb, yol tədarükü görüb yola düşür.

Vəzir Bəm şəhərinə gəlib, yenə də ustanın evinin olduğu məhəllədə ev tutur. Onun gəlişindən xəbər tutan qarı o saat özünü ona yetirir. Vəzir onu sorğu-suala tutur və ondan əvvəl gəlmiş qonaqların burada ürəkləri istədiyi kimi vaxt keçirib, əyləndiklərindən,

sonra isə çox razı halda getdiklərindən agah olur və fikirləşir: «Çox güman ki, biz fərqli yollardan keçmişik». Sonra üzünü qarıya tutub deyir: «Əgər ustanın zövcəsini mənim yanıma gətirsən, sənə ağlına gətirmədiyin hədiyyələr verəcəyəm». Qarı tez-tələsik özünü ustanın zövcəsinə çatdırır: «Ey mənim ürəyim, sən ki bilirsən mənim üçün nə qədər qiymətlisən, indi də bir başqa əyan sənin sorağını eşidib gəlmişdir, nəyin bahasına olursa-olsun, səninlə tanış olmaq istəyir». Xanım dərhal üçüncü vəzirin gəldiyini anlayır və cavab verir: «Ay anam, bilirsən ki, mən and vermişəm, ərim gələnədək evdən çıxmayım, əgər o nəcib əyan mənimlə tanış olmaq istəyirsə, mənim evimə təşrif buyursun, amma yanında heç kəsi gətirməsin, biz onunla tanış olaq, söhbətləşək, ünsiyyət quraq, sonra kimi istəsə, dəvət edər, ixtiyar sahibidir, mənim evim onun evidir».

Qoca arakeş gedib vəzirə hər şeyi olduğu kimi çatdırır. Vəzir: «Baş üstə», – deyib qarının hədiyyələrini verir, sonra ustanın zövcəsi üçün bahalı paltarlar, axşam ziyafəti üçün lazımi ərzaqlar, şərab alıb göndərir.

Ustanın zövcəsi bu hədiyyələri geri qaytarıb özü qulluqçusuna hazırlıq görməyi tapşırır və deyir: «Tezliklə üçüncü vəzir də tələyə düşəcəkdir». Axşam düşəndə, xanım qulluqçusunu vəzirlərin yanına yollayır ki, onlara desin: «Ağalar, xanımın qardaşlarının hamısı bu gün axşam bəlli məsələ ilə bağlı gələcəklər».

Elə ki gecə düşür, qaranlıq çökür, birinci gecə qarovulu keçir,* vəzir şam götürüb, qoca qarı ilə ustanın evinə yollanır. Qarı onu qapıdan yola salıb qayıdır. Onu içəri keçəndə bəzənib-düzənmiş, üstünə ətir vurmuş xanım və qulluqçu böyük ehtiramla qarşılayırlar. Qulluqçu keçib hazırlıq işlərinə başlayır, şübhəsiz ki, şəraba da yuxu gətirən otlardan qatır. Qulluqçu qız qonağa qulluq etməyə başlayır. Çox keçmir, bu vəzir də sərxoş olur, qadınlar onu da qolundan tutub, sürüyüb zirzəmiyə atırlar. Zirzəmiyə atılmış birinci iki vəzir qapının açıldığını eşidib, qorxudan əsməyə başlayırlar. Üçüncü vəzir isə elə sərxoş olmuşdur ki, zirzəmiyə necə atıldığından heç xəbəri olmamışdır, elə düşdüyü yerdə yuxuya getmişdir. Qulluqçu qız da qapını kilidləyib getmişdir.

Elə ki günəşin şüaları ətrafı işıqlandırdı, vəzir ayılıb görür ki, bir çirkli zirzəmidədir. Bir küncdə qısılıb qalmış vəzirlər onu tanıyıb, yaxınlaşırlar. Üçüncü vəzir soruşur: «Siz burada nə edirsiniz?» Onlar olanları danışırlar. Üçüncü vəzir çox pərt olur və deyir: «İndi biz bu vəziyyətdən necə çıxa bilərik?» Bir müddət söhbətləşib, ayağa qalxırlar və nə qədər cəhd edirlər ki, qapını açsınlar, amma bacarmırlar. Onlar pərt-pəjmürdə oturub elədiklərinin peşmançılığını çəkirlər: «Bu qadının toruna yaman düşmüşük!» Onlar bir xeyli hönkür-hönkür ağlayırlar. Bir qədər sakitləşdikdən sonra üçüncü vəzir soruşur: «Bu pambığı kim didib, bu qozalar haradandır?» Yoldaşları cavab verirlər: «Bir qədər döz, acanda özün biləcəksən». Elə bu vaxt qulluqçu qız gəlib onların əhvalını soruşur: «Necəsiniz, gəldim, xəbər alam, görüm xanımım ilə keçirdiyiniz vaxtdan razı qalmısınızmı? Sizə bir vedrə su da gətirdim ki, dəstəmaz ala biləsiniz». Vəzirlər qızın onları ələ saldığını çox gözəl başa düşürdülər, əvvəl tora düşmüş iki vəzir altdan-altdan gülürdü, üçüncü vəzir isə hirsindən partlayırdı: «Ay qara qul, ay əxlaqsız, biz sizə nə etmişik? Biz sizə yaxşılıqdan başqa nə etmişik? Sizə o qədər qızıl, gümüş pul vermişik. Bizə bu işgəncəni verməyin, açın bu qapını, çıxıb gedək evimizə».

Qız cavab verir: «Mənim xanımım kəndə gedib, açarları da özü ilə aparıbdır. O qayıdanacan qapını aça bilmərik, amma o məsələdən arxayın olun, xanımın qardaşları gəlib sizə «ehtiram» göstərəcəklər. Onların göstərdikləri «ehtiram»dan sonra sizin qabiliyyətiniz birə on qat artacaqdır, siz ən ali vəzifələrə layiq bilinəcəksiniz, ona görə onların işgəncələrinə çox müqavimət göstərməyin, onların sizə dövlətçilik, idarəçilik haqqında verdikləri məlumatları mükəmməl öyrənin, onda biləcəksiniz ki, nə nədir! Doğrudur, onların üsulu sizə ağır gələ bilər, amma onlar hər şey bitəndən sonra sizə ziyafət verib üzrxahlıq edəcəklər».

Bunları deyib, qulluqçu gedir və bir də günorta namazından əvvəl gəlir. Birinci iki vəzirin qabağına bir xeyli pambıq qozası tökür. Üçüncü vəzir də çox ac idi, deyir: «Mən də acam, mənə də iş ver». Qulluqcu qız cavab verir: «Xanım buyurdu ki, üçüncü qonağımıza çörəyi ancaq o şərtlə verərsən ki, pambığı əyirsin. Odur ki,

pambığı əyirə bilsən, çörək alacaqsan, yox əgər əyirə bilməsən, elə oturduğun yerdə ölüb qalacaqsan». Vəzir bir saat səssiz-səmirsiz oturur, axırda görür ki, aclıq ona güc gəlir, dözə bilməyib deyir: «Gətir pambıq əyirəni, pambıq yetərincə var, ən əsası çörək gətirməyi unutma, çünki artıq aclığa tablaya bilmirəm». Qız pambıq əyirəni qapıdan atıb, çörəyi də bir küncdə qoyub gedir.

Bu arada ustanın zövcəsi isə Allaha dua edib, şükürlər edir ki, onu düşmən şərindən, böhtanından hifz etmişdir. Elə bu arada ağlına belə bir fikir gəlir ki, ərinin yanına bir çapar göndərsin. Bu elə üçüncü vəzirin müddətinin tamam olduğu vaxta təsadüf edir və şah narahat olmağa başlamışdır. O öz-özünə fikirləşir: «Görünür ustanın zövcəsi o qədər gözəldir ki, vəzirlərim ondan əl çəkib qayıda bilmirlər, yaxşısı budur, özüm gedim hal-qəziyyəni yerində öyrənim». Şah bu qərara gəlib, özü ilə iyirmi nəfər götürüb Bəm şəhərinə yollanır və məlum məhəllədə ev kirələyir. Onun gəlişindən xəbər tutan qarı o saat özünü ona yetirir. Şah qarıdan bütün məlumatı alır. Məlum olur ki, ondan əvvəl bura bir-birinin ardınca üç nəfər əsilli-nəcabətli əyan gəlmişdir, onlar ustanın zövcəsi ilə tanış olmuş, onun evinə gedib eyş-işrət məclisi qurmuş, vaxt keçirmişlər nəhayət, xoş əhval-ruhiyyə ilə evlərinə qayıtmışlar. Şah bunlardan xəbər tutub narahat olur. O fikirləşir: «Çox təəssüf, qorxuram ki, onlar evə qayıdıb ustanı incidələr. Bir halda ki onlar evə dönmüşlər, mən də daha ləngimədən gərək evə qayıdam». Bu vaxt qarı deyir: «İstəyirsən sənin üçün bir dünya gözəli gətirim, sənə nəvaziş göstərsin?» Şah deyir: «Əslində, heç də pis olmaz».

Qarı özünü ustanın zövcəsinə yetirir və nə qədər dil-ağız edir, xanım bu dəfə də evdən çıxmağa razılıq vermir. Qarı qayıdıb şaha deyir: «Ey nəcib, nəcabətli əmirim, nə qədər çalışdım, onu yola gətirə bilmədim ki, bilmədim, o, əri gedəndən bəri evdən bayıra çıxmır». Şah deyir: «Nə olar, onda biz onun yanına gedərik» və ürəyində fikirləşir: «Gedim, onunla görüşüm, tanış olum, amma ovsununa gərək düşməyim». O, qarıya son dərəcə gözəl, nəfis bir dəst paltar və bir kisə qızıl dinar verib ustanın evinə yollayır. Qarı bunları götürüb, gedir və ustanın zövcəsini ələ almağa başlayır:

«Qızım, gözümün nuru, bu gələn əyan, əvvəl gələnlərdən çox fərqlidir, bu onlardan çox üstün, çox zəngindir. Sevin, gör necə bəxtəvərsən, axşam görüşə hazırlaş». Ustanın zövcəsi hədiyyələri geri qaytarır və düşünür: «Mənim bildiyim qədər, şahın üç vəziri olmalı idi, elədirsə, bəs bu kimdir? Axır ki, kim olursa, olsun..... Onu da o birilərin aqibəti gözləyir, o da zirzəmidə oturub, pambıq qozaları təmizləyər». Qadın bunları ağlında götür-qoy edə-edə qulluqçuya əmr edir ki, axşama gözəl, nəfis yeməklər hazırlayıb, evi qonağın gəlməsi üçün təmiz edib qursunlar.

Qaranlıq düşəndə qarı şahın qaldığı evin kandarında oturub onu gözləməyə başlayır. Nəhayət, şah qapıdan çıxır və onlar ustanın evinə yollanırlar. Qapıya çatanda qarı şahı orada qoyub özü qayıdıb gedir. Şah içəriyə keçir. Onu qarşılayan xanım qonağının görünüşündə, rəftarında əvvəlkilərdən fərqli bir kübarlıq, nəcabət sezir və ürəyində deyir: «Hə, şübhəsiz, bu, şahın özüdür, ərim onun qulluğundadır. Görək tale bizə indi hansı oyunu hazırlamışdır». Bunları fikirləşib, şahı hörmət-izzətlə otağa keçirib, yuxarı başda – taxtın üstündə əyləşdirir, özü isə onun qarşısında, şah oturmağa izin verənəcən, ayaq üstə əmrə müntəzir durur. Şah buyurur ki, süfrə açılıb, şərab süzülsün. Ustanın zövcəsi şaha təamlardan təklif edib qulluq etməyə başlayır. Şah qadının abır-həyalı rəftarına, davranışına heyranlıqla baxıb fikirləşir: «Çox heyif! Bu gözəllikdə, bu rəftarda, bu ağılda qadın həm də əxlaqlı, tərbiyəli olsa idi, dünyada ona tay-bərabər qadın tapılmazdı. Təəssüf ki, Allah bütün gözəl xüsusiyyətləri bir adama vermir».

Ustanın zövcəsi isə bu arada pəncəsi üstə, səssiz-səmirsiz, şah yeyib qurtaranacan ona xidmət etdi. Yemək süfrəsindən sonra şah şərabın gətirilməsini buyurdu. Şərabı gətirdilər, xanım badələrə şərab süzdü, amma özü içmədi. Şah soruşdu: «Sən nəyə görə bizimlə şərab içmirsən?» Qadın cavab verdi: «Mən, adətən, qonağımla birinci axşam şərab içmirəm, mən sonra içərəm». Şah dedi: «Nə olar, bu da mümkündür». Sonra xanım ustalıqla qulluqçu qıza işarə edib, qulağına pıçıldadı ki, otaqdan çıxsın və ondan xəbərdarlıq işarəsi eşidəndə qapını döysün. Qız çıxdı və xanımın öskürməsini

eşidən kimi qapını döydü. Xanım soruşdu: «Kimdir?» Çöldən cavab səsləndi: «Mənəm, qardaşın, aç qapını!» Qadın həyəcanlanıb özünü çox qorxmuş kimi apardı. Şah soruşdu: «Nə olmuşdur?» Qadın cavab verdi: «Qardaşımdır gələn». Şah təşvişlə dedi: «Mən harada gizlənə bilərəm?» Qadın cavab verdi: «Həyətdə zirzəmi var, mən sizi oraya ötürüm, qardaşım yuxuya gedəndən sonra mən yenə də canla-başla sizin qulluğunuzda duraram». Bunları deyib, o, şahın başmaqlarını götürüb onu həyətə apardı.

Şah qorxudan əsirdi, ayağı sürüşdü pilləkəndən aşağıya yıxıldı. Vəzirlərin üçü də bu səsdən səksəndi və üçü də eyni anda deyinməyə başladı. Biri deyirdi: «Ehtiyatlı ol, mənim pambıq əyirənimi qırarsan», o birisi deyirdi: «Ehtiyatlı ol, diddiyim pambıqları tapdalama», üçüncüsü isə deyirdi: «Ehtiyatlı ol, gördüyüm işi qarışdırarsan». Şah təəccüblə soruşdu: «Mən, nədir, pambıqçılar dükanına düşmüşəm?» Vəzirlər o saat şahlarını tanıdılar və soruşdular: «Ey böyük hökmdar, sən bura necə düşmüsən?» Şah isə onlardan soruşdu: «Siz mənə deyin görüm, siz burada nə edirsiniz?» Vəzirlər qurduqları oyundan tutmuş, ustanın zövcəsinin onların başlarına gətirdiklərinə qədər olanların hamısını şaha danışdılar. Şah qəzəblə qışqırdı: «Ey bic vələdüzzinalar! Ustanın zövcəsi namusu ilə, isməti ilə, təmiz vicdanla öz evində oturmuşdur, siz isə öz murdar, rəzil əməllərinizin girovu olub, bu zirzəmiyə atılmısınız, mən də sizin ucbatınızdan buraya düşmüşəm. İndi o namuslu qadın bizə, bizim saqqallarımıza gülür. O bizə çox cəsarətli, ağıllı dərs verdi. Bu dərs qiyamətədək unudulmayacaqdır və sizin kimi alçaqlar bir daha namuslu müsəlmanların namuslu qadınlarına şər, iftira atmayacaqlar».

Şah bunları deyib sakitləşib bir tərəfdə oturdu. Ustanın zövcəsi qulluqçusu ilə bir yerdə bu söhbətlərə qulaq asırdı. Beləliklə, o əmin oldu ki, bu gələn, həqiqətən, şah imiş. O, qulluqçu qıza şam gətirməyi buyurdu. O, şamı götürüb zirzəmiyə düşdü və şahdan üzr istədi: «Ey böyük hökmdar! Allah sənə yar olsun! Allah daima səni öz pənahında saxlasın! Deyirlər, qadın Adəmin sol qabırğasından yaranmışdır və ona görə onun gördüyü bütün işlər ağıla, məntiqə

sığmır. Səni and verirəm böyüklüyünə, ucalığına, məni, düşüncəsiz qulunu üzrlü bil və bağışla!»

Şah ucadan dedi: «Sənə, sənin nəcabətinə min bərəkallah! Dünyanın bütün kişiləri sənin qulun olub, qulluğunda durmalıdırlar. Bil ki, insanlar sənin bu verdiyin dərsi heç vaxt unutmayacaqlar və qiyamət gününəcən danışacaqlar. Sənin heç bir təqsirin yoxdur. Bu nadanlar sənin ərinlə rəqabət aparırdılar və qurduqları tələyə özləri düşdülər. Allah möhlət verərsə, mən onların cəzalarını layiqincə verərəm». Bunları deyib, şah zirzəmidən çıxdı və qapının yenidən möhkəm bağlanmasını əmr etdi.

Ustanın zövcəsi şamı götürüb şahı otağa dəvət etdi, onu ən hörmətli yerdə - taxtın üstündə əyləşdirdi. Şah yaqut kimi al qırmızı şərabla doldurduğu badəni namuslu, ismətli, ağıllı xanımın şərəfinə qaldıraraq dedi: «Sən hər iki dünyada mənim bacımsan və indən belə mənim burada qalmağım düzgün deyildir. Mən qayıdıb, gecəni kirələdiyim evimdə keçirəcəyəm». Bunu deyib, şah ayağa qalxdı, kirə etdiyi evə yollandı və səhərəcən şərabdan içə-içə istirahət etdi.

Səhər günəş doğub dünyanı işıqlandıranda ustanın zövcəsi gözəl, şahlara layiq bir hədiyyə hazırlayıb, şaha göndərdi. Şah əmr etdi ki, vəzirləri zirzəmidən çıxarıb, atlara mindirsinlər və iplə yəhərə möhkəm bağlasınlar. Bundan sonra şah ustanın zövcəsi ilə halallaşıb, onun heç bir şeydən narahat olmamasını tapşırıb, öz məmləkətinə yola düşdü.

Tezliklə Quvaşirə çatan şah şəhər meydanında üç dar ağacının qurulmasını əmr etdi. Xalq, camaat toplaşandan sonra şah vəzirləri bir-birləri ilə üz-üzə edam etməyi əmr etdi. Carçı bütün şəhərə car çəkdi: «Bilin və agah olun! Günahsız insanların vicdanlarına toxunan şər, iftiralar atan hər bir kəsin aqibəti belə olacaqdır». Bundan sonra şah ustanı yanına çağırıb ona ürək-dirək verdi, onu vəzir təyin etdi, ona mal-mülk, torpaq bağışladı, zövcəsini hər cür dəbdəbə ilə gətizdirib, onlara şah sarayında cənnət guşəsi kimi yer ayırdı. Ustanın zövcəsinə qadınlara və gül bağçasına nəzarət etməyi həvalə etdi. Nəhayət, usta ailəsinə, zövcəsinə qovuşdu.

Bu hadisələrdən bir müddət keçdikdən sonra şah vaxtaşırı ustanın zövcəsindən o hadisələri təfsilatı ilə danışmağını xahiş edirdi, qadın olanları danışırdı, şah isə ürəkdən gülürdü. Ustanın zövcəsi gecə-gündüz Allaha şükürlər edirdi ki, onu rüsvayçılıqdan xilas edib bəxtəvər günlərə çıxardı.

Ondan bizə isə bu yadigar qaldı ki, oxucular ondan faydalı şeylər əxz eləsinlər və hər şeyə görə bu kitabı yazan, üzünü köçürən, oxuyanlar, dinləyənlər üçün Allaha dualar etsinlər. Amin! Amin!

## ÜÇÜNCÜ HEKAYƏT

# Bəsrəli mərd, Bəsrə əmiri və onun vəzirinin hekayəti

Ömür sürmüş, həyat görmüş, zamanın, tarixin təcrübəsini toplamış müdriklər nəql edirlər ki, Harun ər-Rəşid xəlifəlik taxtına çıxandan sonra yer üzündə zorakılığı, zülmü ədalət əvəz etmişdir. Harun ər-Rəşidin Fəzl ibn Rəbi adında çox ağıllı, zəkalı, müdrik, mərhəmətli və ədalətli bir vəziri var idi. O bu xüsusiyyətlərinə görə böyük hörmət qazanmışdır. Vəzir xəlifənin ən çətin, dolaşıq vaxtlarında həmişə yanında olurdu. Qeyd etmək lazımdır ki, Harun çox təkəbbürlü idi və başqalarının yanında bu xüsusiyyəti lap çox üzə çıxırdı. O özünü hamıdan ağıllı, cəsarətli, səxavətli, mərhəmətli göstərirdi.

Günlərin bir günü Harun yenə də əshabələri ilə kef məclisi qurmuşdur və həmişəki kimi özünə təriflər söyləyirdi. Fəzl ibn Rəbi xəlifənin bu əhvalını görüb deyir: «Ey möminlərin əmiri, Allahın sevimli bəndəsi, özünü tərifləmə, özündən razılıq müdriklərə yaraşmaz. Qoy başqaları səni tərifləsinlər». Harun etiraz etməyə başlayır və deyir: «Yer üzündə məndən səxavətli, məndən mərhəmətli adam yoxdur». Vəzir deyir: «Xeyr, elə birisi vardır». Xəlifə təəccüblə soruşur: «O kimdir?» Fəzl cavab verir: «Ey seçilmişlərin şərəfi, xalqın ümidgahı, Bəsrədə Əbülqasım adında bir gənc yaşayır, onun alicənablığı, mərhəməti, səxavəti o həddədir ki, onunla yüzlərlə adlı-sanlı əyan da müqayisəyə gəlməz. Əgər Hatəm Tayi belə yenidən dünyaya gəlsə idi, onun səxavəti bu gəncin səxavəti ilə müqayisədə kölgədə qalardı». Harun ər-Rəşid bu sözlərdən çox qəzəblənir və qışqırır: «Məgər sən bilmirsən ki, hökmdarların hüzurunda artıq-əskik danışmaq olmaz?! Məgər sən bilmirsən ki, danışığında həddini keçənlərin aqibəti pis ola bilər?! Məgər sən bilmirsən ki, şahlar sözünün, danışığının həddini bilməyəni qanına qəltan edə bilər?!» Vəzir təmkinlə cavab verir: «Ey möminlərin əmiri! Əmr et, mənim dediklərimi yoxlasınlar, dediklərim doğru olmasa, ixtiyar

sahibisən, mənimlə nə istəsən, edərsən». Harun Fəzlin bu sözlərindən daha da qəzəblənir, vəziri zindana atdırıb and içir: «Mən onun dediklərini yoxlayacağam, əgər onun dedikləri həqiqətə uyğun olmasa, onun ən uca ağacdan asılmasını əmr edəcəyəm ki, böyük şəxsiyyətlərin hüzurunda artıq-əskik danışanlara görk olsun». Bunları deyib, Harun hirsini soyutmaq üçün hərəmxanaya keçir.

Zibeydə xatun xəlifənin pərtliyini o saat sezir və soruşur: «Ey bütün xalqların işığı, nuru, səni bu qədər əsəbiləşdirən nədir?» Harun olanları danışır. Zibeydə xatun ərinə deyir: «Ey hökmdarım, Fəzl ağıllı, ləyaqətli, dəyanətli insandır, o heç vaxt sənin hüzurunda yalan danışmaz, amma əgər tam rahat olmaq istəyirsənsə, əmr et onun sözlərinin nə dərəcədə doğru olduğunu yoxlasınlar». Xəlifə deyir: «Ey Sistanın gözəllik şərafəti, fəxarəti! Mən bu dərdin dərmanını bilirəm. Mən sabah Bəsrəyə gedib, o gənci tapıb onunla söhbət edəcəyəm, onun haqqında məlumat toplayacağam, əgər vəzirin dediyi həqiqətə uyğun olmasa, onda gəlib ona ən ağır cəza verəcəyəm, yox əgər həqiqət olsa, onda onu mükafatlandıracağam».

Səhəri gün günəş üfüqdən çıxıb dünyanı işıqlandıranda xəlifə yad bir qiyafə geyinib, yaraqlanıb-yasaqlanıb bir bərk çapan atı minib Bəsrəyə yollanır. Şəhərə çatıb Karvansarada yerləşmək istəyir və onu qarşılayandan soruşur: «Karvansaranın yiyəsi sənsən?» Kişi cavab verir: «Bəli». Xəlifə buyurur: «Mənim üçün bir yaxçı istirahət otağı hazırla!» Karvansaranın yiyəsi tez qonaq otağını açır, süpürür, silir, ətir səpir, xalılarla döşəyir, yastıqlar düzür. Harun istirahət üçün otağa keçir. Elə bu vaxt ona bir qoca nökər yaxınlaşır. Harun ona bir dirhəm verib yemək gətirməyi əmr edir. Qoca ona yemək gətirir, yeyəndən sonra Harun qalmış yeməyi qocaya verir və deyir: «Ey ağsaqqal, eşitmişəm bu şəhərdə bəsrəli Əbülqasım adında bir gənc yaşayır, mərhəmətdə, səxavətdə, nəcabətdə ona tay ola biləcək adam yoxdur. Bu, doğrudurmu?». Qoca cavab verir: «Bəli, tamamilə doğrudur. Mənim yüz min dilim olsa idi belə, mən onun səxavətinin, mərhəmətinin yüzdə birini də təsvir edə bilməzdim». Harun deyir: «Mən bunu öz gözlərimlə görməsəm, inana bilmərəm. O harada yaşayır?» Qoca deyir: «Mən səni istədiyin vaxt

onun yanına apararam». Harun deyir: «Onda cəld ol, dur gedək». Qoca Harunu Əbülqasımın evinə ötürür.

Əbülqasımın sarayı çox möhtəşəm idi. Harun günbəzləri göyə ucalan sarayın qarşısındakı meydanda xalq üçün açılmış süfrələr və süfrələrin başında ayaq saxlayıb təamların dadına baxan və ya doyunca yeyən çoxlu insanın olduğunu görür. Harun nökərlərdən birinə müraciət edib deyir ki, Əbülqasıma çatdırsın ki, onunla şəxsən görüşüb söhbət etmək istəyən bir yadelli vardır. Nökər o saat saraya daxil olub qonağın istəyini çatdırır. Əbülqasım həmən saat qonağı qarşılamaq üçün saraydan çıxır. Harun ər-Rəşidin kübar görünüşü gəncin diqqətini çəkir. Əbülqasım təzim edib, qonağının əlindən tutub saraya aparır və masanın başında-ən hörmətli yerdə əyləşdirir. Harun burada həyatı boyu heç bir yerdə görmədiyi dəbdəbə görür. Bəsrəli gənc gümüş, çini, büllur qablarda cürbəcür şirələrin, içkilərin, gülabın gətirilməsini buyurur. Əbülqasım gətirilmiş içkilərin hamısından içib onların təhlükəsiz olduqlarına arxayın olandan sonra qonağına da təklif edir. Sonra gənc süfrəyə gümüş qablarda ləziz təamların gətirilməsini buyurur. Onlar bu ləziz təamlardan yeyib, sərin içkilərdən, şərbətlərdən içib, gözəl vaxt keçirirlər. Yeməyi qurtarandan sonra nökərlər qızıl aftafa ləyən gətirdilər. Onlar əllərini, üzlərini yudular. Bundan sonra Əbülqasım Harunun əlindən tutub böyük, işıqlı otağa aparır. Onun göstərişi ilə ziyafət başlayır; buraya içləri çərəz, təzə-tər, sulu, təravətli meyvə, şirniyyatla dolu o qədər qızıl, gümüş qablar gətirib düzmüşdülər ki, saymaqla qurtarmaq mümkün deyildir. Məharətli xanəndələr bəm səslə elə gözəl oxuyurdular ki, adamın heç ruhu da incimirdi. Elə bu arada Əbülqasım otaqdan çıxıb, əlində gövdəsi gümüşdən, budaqları qızıldan, yarpaqları zümrüddən meyvələri və çiçəkləri isə başqa qaşlardan olan ağacla qayıdır. Ağacın budaqlarından mirvarilər, incilər sallanırdı, başında isə boynuna müşk bağlanmış tovuz quşu oturmuşdur, o tərpəndikcə müşkün ətri otağa yayılırdı. Harun bunlara baxıb heyrətdən donub qalmışdır. Əbülqasım hər dəfə quşu çubuqla tərpədəndə ətrafa müşk ətri yayılırdı. Xəlifə heyrətlə deyir: «Mən həyatım boyu belə şey görməmişəm». Bu sözləri eşidən

Əbülqasım ağacı götürüb otaqdan çıxır. Bu, xəlifəyə qəribə gəlir və öz-özünə fikirləşir: «Fəzlin dediyi ağ yalandır. Yəni kimin isə bu gözəlliyə tamaşa etməsindən ev sahibinin nəyi əskilir ki, bunu da qonaqlarına qıymır?! Yox, o, səxavətli deyildir!»

Harun bunları ürəyində götür-qoy edirdi ki, Əbülqasım otağa gözqamaşdırıcı gözəlliyi ilə gün işığına kölgə salan bir yeniyetmə ilə daxil olur. Onun əynində qızıl saplarla, qiymətli daşlarla işlənmiş əba, başında gözəl əmmamə və yaqut daşlarla işlənmiş köynək var idi. Gənc xəlifəyə yaxınlaşıb təzim edib, qarşısında yeri öpüb, mey dolu badəni ona uzatdı. Yeniyetmənin gözəlliyinə heyran olmuş xəlifə budağında tovuz quşu oturmuş ağacı unudub, şərabı başına çəkdi. Badəni qaytaranda gənc onu götürmədi, çünki badə boşaldıqca özü dolurdu. Harun bu möcüzənin qarşısında mat qalmışdır. Əbülqasım deyir: «Ey möhtərəm qonağım, ağıllı ustalar, bacarıqlı sənətkarlar bu badəni elə qeyri-adi daşlardan elə ustalıqla hazırlamışlar ki, nə qədər içsən də, onun içindəki şərab tükənmir və öz-özünə dolur». Bu sözləri eºidən Harun ucadan səslənir: «Mən həyatım boyu belə möcüzə görməmişəm». Əbülqasım bu sözləri eşidən kimi yenə də əlində «tükənməyən badə»ni tutmuş yeniyetmənin qolundan tutub otağı tərk edir.

Harun yenə öz-özünə fikirləşir: «Yox, bu elə-belə məsələ deyildir, ya bu Əbülqasım çox paxıldır, ya da başqalarının sevinməsini həzm edə bilmir». O yenə bu fikirləri ağlında çək-çevir edirdi ki, bu dəfə Əbülqasım otağa gözəlliyi ilə ətrafı işıqlandıran, bütün gözəllikləri kölgədə qoyan, təzə-tər qönçə kimi kövrək, sütül bir qız ilə daxil olur. Onun üzərində o qədər ləl-cəvahirat var idi ki, sanki bir xəzinə idi. Onun ay camalını, ənbər qoxulu zülflərini, şux qamətini görən Harun ona valeh olmuşdur. Gözəl Harunun qarşısında yeri öpüb yanında əyləşir. Əbülqasım nökərlərinə buyurur ki, ud gətirsinlər. Onlar həmin an fil sümüyündən, qara kök ağacından, sandaldan və sabur ağacından hazırlanmış ud gətirirlər. O, udda çala-çala elə oxuyur ki, Nəkisa, Bərbəd və ya Əbülfəth sağ olsa idilər, bu səsi eşidib onun qulluğunda durmağı özlərinə şərəf bilərdilər. Heyrətlənmiş Harun vəcdlə deyir: «Ey mənim gözümün nuru,

ürəyimin məlhəmi və bütün dünyanın ilham mənbəyi! Mən həyatım boyu bu qədər ürək ovundurub, ruhu oxşayan möcüzə görməmişəm». Əbülqasım bu sözləri eşidən kimi yenə də gənc qıza yaxınlaşıb onu otaqdan çıxarır. Dünya xəlifənin gözündə qaralır, özözünə deyir: «Mən əmr edəcəyəm ki, Fəzli elə bir işgəncə ilə edam etsinlər ki, göydəki quşlar da tük salsınlar və bu insanlara görk olsun ki, bir daha belə alçaq könüllü insanı səxavətli, mərhəmətli adlandırmasınlar. Bu gözəli mənə göstərməklə ağlımı başımdan aldı, aparmaqla ruhumu məhv etdi».

Harun ürəyində bu fikirləri götür-qoy edirdi ki, Əbülqasım qayıdıb onun qarşısında təzim etdi. Harun ev sahibinə istirahət etmək istəyini bildirdi. Əbülqasım əmr etdi ki, qonaq üçün şahlara layiq otaq hazırlasınlar. Harun otağa girəndə gördü ki, otaqda başında sayrışan işıqlı şamdanları olan, Xətay yatağı ilə qurulmuş gözəl bir taxt hazırlanmışdır. Harun bu şahanə taxt üzərində rahat bir gecə keçirdi.

Səhəri gün günəş öz taxtında bərqərar olub, parlaq şüaları ilə ətrafı işıqlandıranda Əbülqasım xəlifənin hüzuruna buyurur, onu hamama ötürür. Harunu yuyundurub, ona şahlara layiq gözəl, nəfis paltarlar verirlər və ziyafət otağına dəvət edib, masanın arxasında əyləşdirirlər. Ev sahibi əmr edir ki, masanın üstünə hər cür təam düzsünlər. Onlar doyumlu, gözəl səhər yeməyindən sonra əl-üzlərini yuyub dururlar. Harun getmək fikrində olduğunu bildirir, amma ürəyində o ecazkar ağacın, o tükənməz badə ilə ona şərab verən yeniyetmənin, o ilahi səsə malik aycamal gözəlin həsrəti sızıldamaqda idi. Bəsrəli gənc ondan soruşur: «Ey evimi mübarək qədəmləri ilə şərəfləndirən müdrik, şəhərimizdə harada məskunlaşmışsan?» Xəlifə cavab verir: «Bütün qəriblər kimi karvansarada». Bəsrəli gənc həmin karvansaranın harada yerləşdiyini soruşur və yenə də xəlifənin qulluğunda durur.

Bu minvalla üç gün, üç gecə bəsrəli gənc Haruna elə hörmət-izzət göstərir ki, xəlifə bu gördüklərindən artıq başını itirir. Harun gəncə deyir: «Ey zəfər qapılarının açarı, sən ki məni belə uca tutdun, Allah da səni uca tutsun, amma mümkündürsə, izin ver, mən

gedim». Əbülqasım Harunun qabağında torpağı öpüb deyir: «Ey möhtərəm qonağım, mənim qonağım olub, məni şərəfləndirdiyin üçün sənə minnətdaram, əgər nədəsə bir xataya yol vermişəmsə, üzrlü bil, ümidvaram ki, o xatalara sənin təşrifindən həyəcanlandığım üçün yol verdiyimi qəbul edərsən». Harun da öz tərəfindən təşəkkürünü, minnətdarlığını bildirib, qapıya tərəf yönəldi, Əbülqasım, hörmət əlaməti olaraq, düz qapıya qədər onu ayaqyalın yola salır.

Harun ər-Rəşid karvansaraya daxil olduqda görür ki, otağı sandıqlar, xalılar, çadırlar, qullar, nökərlərlə doludur. O bütün bunları görüb heyrətə gəldi, amma budağında tovuz quşu oturmuş ecazkar ağacı, əllərində tükənməz badəsi olan yeniyetməni, udda çalıb-oxuyan aycamal gözəli görəndə onun heyrəti birə yüz qat artır. Harunu görən kimi onlar ayağa qalxıb təzim edirlər və gözəl qız ona bir məktub verir. Məktubda yazılmışdır: «Mənim möhtərəm qonağım, rica edirəm, əgər sənə qarşı və ya, ümumiyyətlə, hər hansı səhvə yol vermişəmsə, üzrlü bil, məni bağışla. Yəqin ki, o axşam qızıl ağacı, şərab süzən yeniyetməni, udda çalıb-oxuyan gözəli otaqdan çıxaranda mənim ya paxıl, ya xəbis olduğumu düşündün, amma bil ki, qulunun belə bir xasiyyəti var; mənə mənsub olanlardan bir şey qonağımın xoşuna gəlirsə, o artıq mənə mənsub olmur və mən onu həmin adama bağışlayıram. Buna görə də xahiş edirəm, göndərdiyim bu kiçik hədiyyələri qəbul edəsən».

Məktubu oxuyan Harunun heyrətinin həddi-hüdudu yox idi və ürəyində min dəfə Allaha dualar edib deyirdi: «Ey uca Allah, sən özün Fəzl ibn Rəbini pənahında saxla, çünki onun sayəsində mən belə bir insanla tanış oldum». Daha sonra Harun ər-Rəşid Əbülqasımın hədiyyələri ilə bərabər Bağdada yola düşür.

Harun ər-Rəşid öz məmləkətinə qayıdan kimi əmr edir ki, Fəzli həbsdən azad edib yanına gətirsinlər və ona bütün olanları danışıb, gətirdiyi hədiyyələri göstərib, təəssüratları ilə bölüşür.

Fəzl deyir: «Şah sağ olsun, bu gənc təkcə sənə deyil, hər gün minlərlə sadə-kimsəsiz adama hədiyyələr paylayır». Harun ər-Rəşid deyir: «Fəzl, bilirsən ki, hökmdarlar heç vaxt borclu qalmırlar. Mən sənin də borcundan çıxmalıyam, ona görə bu əlində şərabı

tükənməyən badə olan yeniyetməni sənə bağışlayıram, udda çalıb-oxuyan gözəli zövcəm Zibeydə xanıma bağışlayacağam, sən isə get xəzinədən Əbülqasım üçün elə hədiyyələr seç ki, onların tayı-bərabəri yer üzündə olmasın, sonra isə Əbülqasımın Bəsrənin əmiri təyin olunması haqqında fərman hazırla». Fəzl Harunun yanından çıxanda fikirləşir: «Gərək əvvəlcə Bəsrənin indiki əmirinə məktub yazıb bildirim ki, əshabələri, əyanları ilə bərabər Əbülqasımın hüzuruna gedib, təzim etsin». Fəzl həmin saat bu məzmunda bir məktub yazır: «Məktubu alan kimi əyan-əshabələrinlə Əbülqasımın hüzuruna get və əmirlik səlahiyyətlərini ona təhvil ver. Bu xəlifənin əmridir. Bu məktubun ardınca mən əyan-əshabələrimlə gələcəyəm. Çox diqqətli ol, əmrin icrasında xataya yol vermə».

Fəzl zərfi möhürləyib çapar ilə Bəsrəyə yola salır. Çapar Bəsrəyə çatıb məktubu əmirə verir. Məktubu oxuyan əmirin rəngi qaçır. Əmirin Əbülfəth adında yer üzündə tayı-bərabəri olmayan paxıl, xəbis vəziri var idi. O, Əbülqasıma elə nifrət edirdi ki, əlacı olsa idi, onu öz əlləri ilə boğardı. O, dəfələrlə əmirə Əbülqasımı öldürüb, var-dövlətinə yiyələnməyi təklif etmişdir. Əmir isə hər dəfə Əbülqasımın öz sonsuz mərhəməti və səxavəti ilə xalq arasında böyük nüfuz qazandığı üçün onun həyatına qəsd edilməsinin mümkünsüzlüyünü deyirdi.

İndi isə, onlar Fəzlin məktubunu oxuduqdan sonra vəzir əmirə deyir: «Mən axı sənə deyirdim, bu vələdüzzinanı öldürmək lazımdır. Mənim sözümə qulaq asmadın, indi də başına belə iş gəldi. Sən indi əmr et, mən fikirləşib bir şey tapıb onu məhv edim, sən də onun mal-dövlətinə yiyələnib hökmranlığını sür».

Əmir vəzirinin bu sözlərindən sevinir və deyir: «Nə istəyirsən et, amma öldürmə». Vəzir deyir: «Əmrə müntəzirəm». Vəzir o saat bir neçə nəfərin müşayiəti ilə Əbülqasımın evinə yollanır. Vəzirin gəldiyini eşidən Əbülqasım çox sevinir, onu böyük ehtiramla qarşılayıb, saraya dəvət edir. Onu ən hörmətli yerdə əyləşdirir. Sonra buyurur ki, gözəl süfrə açıb, cürbəcür təamlar gətirsinlər. Yeyib qurtardıqdan sonra qonaqlar şərab içməyə başlayırlar və ikinci gecə qarovulu keçənədək yeyib-içdilər.

Alçaq vəzir özü ilə çox təhlükəli, güclü zəhər götürmüşdür. Bir kimsə onun dadına belə baxsa idi, onun yeddi hissiyyat üzvü qurumuş çöplər kimi iflic olardı, amma adam ölməzdi. Münasib vaxtda vəzir bu zəhərdən Əbülqasımın içkisinə qatır. Əbülqasım zəhərlənmiş şərabı içdikdən bir qədər sonra mədəsindən şiddətli ağrı tutur, yazıq gənc ağrıdan ilan kimi qıvrılıb yerə yıxılır. Görən elə bilərdi ki, o ölmüşdür. Bunu görən vəzir özünü tülkülüyə vurub, yalandan üst-başını cırıb ağlamağa başlayır. O, yalandan ağlasa da, ürəyində sevinirdi.

Özünü dərddən başını itirmiş kimi göstərən Əbülfəth gəncin evində oturub yanında gətirdiyi adamlarına göstəriş verirdi ki, burada olan bütün qiymətdə ağır, çəkidə yüngül olan nə varsa, onun xəzinəsinə daşısınlar, daha sonra əmr edir ki, tabut hazırladıb gəncin nəşini onun içərisinə qoysunlar. Səhəri gün bu xəbər bütün şəhərə yayılır. Şəhərin bütün sakinləri: kasıbı da, varlısı da, nökəri də, ağası da, əyanı da, qulu da, cavanı da, qocası da, qadını da, kişisi də Əbülqasımın evinə tərəf qaçışır. Onlar tabutu çiyinlərinə qaldırıb, vəzirin qəbiristanlıqda əvvəlcədən hazırlatdığı məqbərəyə tərəf apardılar. Alçaq vəzir Əbülqasımın ən yaxın adamı kimi camaatın qabağında gedirdi.

Elə ki, camaat qəbiristanlığa çatdı, vəzir dedi: «Mən onu torpağa tapşırmayacağam». Əyanlar soruşdular: «Bəs nə edəcəksən?» Vəzir yalandan ağlayaraq cavab verdi: «Mən bu tabutu zəncirlərlə məqbərədə asacağam ki, hər gün gəlib qəlb dostumu, ürək dostumu ziyarət edə biləm, çünki mən onu bir gün görmədən yaşaya bilmərəm». Bu sözləri eşidən camaatın hamısı hönkürərək ağlayır. Əbülfəthin əmri ilə tabutu məqbərənin ortasında zəncirlərlə asırlar. Bundan sonra camaat dağılışır, vəzir isə başını önə əyib ağlamağa başlayır.

Elə ki, hamı dağılışır, gecə düşür, vəzir tək qalır, o, məqbərənin qapısını içəridən möhkəm bağlayıb zəncirlərdən asılmış tabutu aşağıya salır. Məqbərənin içində böyük bir ağac var idi. Vəzir ağacın yuxarı budaqlarından balta ilə kəsib ocaq qalayır və bir qabda su isidir. Sonra ılıq su ilə gəncin üzünü yumağa başlayır. Gəncin üzünə

su dəydikcə özünə gəlməyə başlayır. Əbülqasım tam özünə gəldikdən sonra vəzir onu ağacın gövdəsinə möhkəm bağlayıb qırmancla vurmağa başlayır. Ağrıdan, əzabdan sarsılan Əbülqasım inildəyirdi: «Mənim günahım nədir? Mənə bu işgəncəni nəyə görə verirsən?» Əbülfəth bağırdı: «Ey bic vələdüzzina! Sən elə işgəncə, elə zülmlə öləcəksən ki, göydə uçan quşlar da sənin iztirabına ağlayacaqlar». Vəzir bu sözləri deyə-deyə binəva gənci döyməyə davam edirdi. Bu, Əbülqasımın bədəni qan-qançır olanadək davam etdi, sonra vəzir yenə halsız düşmüş gənci tabuta uzadıb zəncirlərdən asdı. Vəzir məqbərənin qapısını arxadan möhkəm kilidləyib əmirin yanına yollandı və hal-qəziyyəni olduğu kimi ona çatdırdı.

Əmir dedi: «Ehtiyatlı ol, bunu bir Allah bəndəsi bilməməlidir». Bu vaxt xəbər gəldi ki, vəzir Fəzl ibn Rəbi təşrif buyurmuşdur. Əmir, vəzir, bütün əyan, əshabələr Fəzlin pişvazına çıxırlar. Vəzir ətrafa göz gəzdirib görür ki, hamı matəm içindədir. O soruşur: «Nə baş vermişdir?» Bəsrənin əmiri və vəzir cavab verirlər: «Biz hökmdarın əmrini alan kimi Əbülqasımın evinə yollandıq ki, əmirlik səlahiyyətlərini ona təhvil verək, amma biz elə söhbətə başlamışdıq ki, bu gənc huşunu itirib, yerə sərilib, canını tapşırdı».

Fəzl bu əhvalatı eşidən kimi hönkür-hönkür ağladı və Əbülqasımın qəbrini ziyarət etmək istədiyini bildirdi. Onu məqbərəyə gətirdilər. Fəzl çox ağladı, sonra üzünü əmirə tutub dedi: «Buraya gəlməyimizin məqsədi xəlifə Harun ər-Rəşidin Əbülqasımın Bəsrənin əmiri təyin etməsi haqqında imzaladığı əmrinin çatdırılması idi, amma bir halda ki, o, dünyasını dəyişmişdir, qayıdıb bu haqda xəlifəyə məlumat verməliyik».

O, həmin saat atını minib əshabələri ilə birlikdə Bağdada qayıdır. Saraya gəlib bu ağır xəbəri xəlifəyə çatdıranda o fəryad edib, hönkür-hönkür ağlayır. Harun üç gün, üç gecə nə yedi, nə içdi, nə yatdı, bütün saray əhli də matəmə büründü. Bu hadisədən bir qədər keçdikdən sonra Harun bir az özünə gəlib Fəzlə deyir: «Əbülqasımın ölümü mənə bir az müəmmalı gəlir, bu ölümün səbəbləri gərək əməlli-başlı araşdırılsın». Çox keçmir, bu əmrin xəbəri Bəsrə əmirinin qulağına çatır. O, vəzirindən soruşur: «İndi biz bu vəziyyət-

dən necə çıxacağıq?» Vəzir cavab verir: «Bunun bircə yolu var, mən gərək gedib Əbülqasımı öldürüm. Elə sabah gedib onu qətlə yetirəcəyəm». Əmir razılığını verib deyir: «İxtiyar sahibisən».

Allahın qəzası belə gətirir ki, bu arada Bəsrə yaxınlığında bir quldur dəstəsi bir karvan vurur. Gecə qaranlığında geri qayıdanda yollarını azmış quldurlar şəhər darvazalarının yanına çatıb oradan da qəbiristanlığa tərəf gedirlər. Quldurbaşı təklif edir ki, bir az istirahət edib, əldə etdikləri qənimətləri bölüşdürsünlər. Bu təklifi hamı qəbul edir və onlar qəbiristanlığın içinə girirlər. Quldurlar məqbərə görüb, qapısını açıb içərisinə daxil olurlar. Od yandırıb, ətrafı nəzərdən keçirəndə quldurbaşı zəncirdən asılmış tabutu görür. Quldurlardan biri dillənir: «Bu da təzə qaydadır? Ölünü ədəb-ərkanla torpağa tapşırmaqdansa, tabutda zəncirdən asırlar?....» Bir başqası deyir: «Bu, iki işdən biridir; ya bu çox mötəbər adamdır və ona olan ehtiram o qədər böyükdür ki, onu torpağa tapşırmamışlar, ya da bu, o qədər pis adamdır ki, torpaq onu qəbul etmir».

Quldurbaşı deyir: «Mən bu tabutu aşağıya endirib içində kimin olduğunu bilməsəm, rahat olmayacağam». O, tabutu düşürüb gördü ki, içərisində on dörd günlük ay kimi gözəl gənc uzanmışdır. O, ölü deyildi, amma diriyə də bənzəmirdi. Quldurlar tabutun başında toplaşıb heyrətlə baxırdılar.

Birdən Əbülqasım tərpəndi və çətinliklə pıçıldadı: «Ey qəddar, əzazil cəllad, cavanlığıma rəhmin gəlsin!». Bu sözləri eşidən quldurbaşının gözləri doldu və o qışqırdı: «Ey cavan, qorxma, biz sənin xilaskarınıq!» Əbülqasım gözlərini açıb, başının üstündə duran adamları görüb oturdu. Quldurbaşı soruşdu: «Ey cavan, özün haradansan və diri ikən tabutda niyə uzanmısan?» Əbülqasım onu əhatə etmiş adamların quldur olduqlarını anladı və cavab verdi: «Ey möhtərəm başçı, bil ki, mən tacir oğluyam və bir günah iş görməmişəm. Mənə bu zülmü verən, burada saxlayan vəzirdir».

Quldurbaşı dedi: «Ey cavan, qorxma, biz səni buradan qurtarıb, özümüz ilə aparıb satacağıq». Quldurlar Əbülqasımı özləri ilə dağ başında olan bir mağaraya apardılar. Əbülqasım orada yuxuya gedib düz səhərəcən yatdı. Əbülfəth isə elə həmin səhər xəncərini gö-

türüb Əbülqasımı qətlə yetirmək üçün məqbərəyə yollanmışdır. Məqbərəyə daxil olanda görür ki, tabut yerindədir, amma Əbülqasım yoxdur. Əbülfəth bunu görən kimi əmirin yanına qaçır və Əbülqasımın yox olduğunu ona çatdırır. Əmir çox həyəcanlanır və deyir: «Biz nəyin bahasına olursa-olsun, onu tapmalıyıq, əks halda, xəbər xəlifəyə çatarsa, o bizim qanımızı tökəcəkdir». Onlar ləngimədən silahlı dəstə yığıb, məqbərəyə yollanırlar, oradakı ayaq izləri ilə dağın zirvəsindəki mağaraya gəlib çıxırlar, burada quldurları və onların arasında Əbülqasımı görürlər. Əmirin dəstəsi gözlənilmədən gəldiyi üçün hücum edib, asanlıqla quldurlarla bərabər Əbülqasımı da əsir götürüb şəhərə yollanırlar. Yol Əbülfəthə mənsub olan bir kənddən keçirdi. Vəzir əmirə deyir: «Əbülqasımı şəhərə aparmağa ehtiyac yoxdur, camaat işdən xəbər tutub səs-küy salacaqdır, sən quldurları apar, deyərsən ki, bu oğru-quldurları tutmaq üçün getmişdin, mən isə o müddətdə Əbülqasımın işini tamam edərəm». Əmir cavab verir: «İxtiyar sahibisən».

Əmir quldurları şəhərə gətirib əmr edir ki, onları assınlar. Əbülfəth isə Əbülqasımı gətirib, ev adamlarına əmr edir ki, onu həyətdəki quyuya salsınlar və onun gəlməyini gözləsinlər, gecə gəlib özü onu öldürəcəkdir. Əbülfəth oğlunu quyunun başında otuzdurub əmr edir ki, ətrafda əlinə keçən daşları oraya - Əbülqasımın başına atsın. Əbülqasım daşlardan qorunmaq üçün quyunun bir küncündən o biri küncünə qaçmaq məcburiyyətində idi. Sonda Əbülqasım da yorulub əldən düşmüşdür, Əbülfəthin oğlu da yorulub yuxuya getmişdir.

Bu məqamdan istifadə edib Əbülqasım yuxarıya dırmanmağa cəhd edir, amma quyunun divarları yaş və sürüşkən olduğu üçün bunu edə bilmir. Onda o bıçaqla divarda ayaq qoymaq üçün çuxurlar açmağa başlayır ki, bir təhər bu quyudan çıxa bilsin.

Təsadüf belə gətirir ki, açdığı çuxurlardan birindən dəyirmana gedən arxın suyu özünə yol açıb sürətlə quyuya dolmağa başlayır. Su qalxmağa başlayır və tez bir zamanda Əbülqasım su ilə bərabər üzə çıxır. Quyunun qırağında Əbülfəthin yatmış oğlunu görəndə Əbülqasım hirslənib qışqırır: «Ay yaramaz, mən sənə nə etmişdim

ki, məni daş-qalaq edirdin?» Bunları deyib Əbülqasım onun boğazından yapışıb quyuya atır, özü isə səhraya yola düşür.

O, yolun ucundan tutub gedir. Əbülqasım bulaq başına çatır, yorğunluğunu almaq üçün orada özünə yer edib yatır. Oyananda görür ki, ətrafında çoxlu adam var. Məlum olur ki, bu, şəhərə gedən karvanın tacirləridir. Onların arasında karvanın başında duran bir ağsaqqal da var idi. O ağsaqqal Əbülqasımı görəndə heyrətə gəlir və deyir: «Ey gözümün nuru, sən burada nə gəzirsən? Niyə əynində paltarın yoxdur?» Əbülqasım cavab verdi: «Mən bir adlı-sanlı tacirin oğluyam, quldurlar atamı öldürdülər, mən də belə acınacaqlı vəziyyətdə qaldım». Tacirlər gəncin düşdüyü hala pis olub acıdılar. Onların ağsaqqalı əmr etdi ki, Əbülqasıma yaxşı pal-paltar versinlər. Sonra onlar Əbülqasıma yaxşı bir at da verdilər və yollarına davam etdilər. Nəhayət, karvan içərisində möhtəşəm bir saray ucalmış bağçaya çatdı. Karvan burada dayandı, nökərlər o saat böyükləri üçün çadır qurdular.

Deyirlər ki, Bəsrə əmirinin gözəllər gözəli bir qızı var idi. Şəhərdə hava çox isti və boğanaq olduğu üçün onu dayəsi ilə birlikdə bu bağçaya göndərmişdilər və onlar elə bu sarayda yaşayırdılar. Karvan bağçaya girdiyi vaxt qız da damın üstündə gəzişirdi, karvanı görən kimi xidmətçilərinə əmr edir ki, gedib, qiymətindən asılı olmayaraq, onun üçün ən gözəl, ən nəfis qiyafələr alsınlar. Karvanbaşı bunu eşidəndə sandıqlardan birini açıb, gözəl paltarlardan bir neçəsini Əbülqasıma uzadıb deyir: «Apar bunları əmirin qızına çatdır». Əbülqasım saraya daxil olanda görür ki, aycamal, gülyanaq gözəl zövqlə ilə bəzədilmiş otaqda əyləşmişdir. Əbülqasım yaxınlaşıb, onun qarşısına gətirdiyi paltarları sərir. Gəncin gözəl üzünü görən kimi qız bir könüldən min könülə ona aşiq olur, paltarları, qiyafələri unudur və soruşur: «Ey gənc, sən karvan başçısının oğlusan?» O cavab verir: «Xeyr». Soruşur: «Canişinisən?» Deyir: «Xeyr». Onda qız soruşur: «Bəs sən necə bu karvana qoşulmusan?» Əbülqasım cavab verir: «Mən bir adlı-sanlı tacirin oğluyam, atamı quldurlar öldürüb, mən isə qaçıb canımı qurtarmışam və bu karvana qoşulmuşam».

Xanım bunu eşidib nökərinə əmr edir ki, paltarların, qiyafələrin hamısını aparıb karvan başçısına versin, Əbülqasıma isə buyurur ki, orada qalsın. Nökər gedib pal-paltarı çatdırır. Karvan başçısı soruşur: «Bəs gənc haradadır?» Nökər cavab verir: «Qoy, bu səni narahat etməsin, sən öz yolunla get, yoxsa, sonra verdiyin artıq suallara görə peşman olarsan». Tacirlər bu sözlərdən qorxub, o saat dəvələrini yükləyib yola düzəlirlər.

Bu arada qız buyurur ki, Əbülqasımı ayrıca otağa aparsınlar, özü isə geyinib-keçinib, üstünə gözəl ətirlər vurub, onun yanına keçir. Əbülqasım bu gözəlin yanında özünü o qədər xoşbəxt hiss edir ki, keçirdiyi bütün ağrı-acını unudur, onlar vaxtlarını o qədər gözəl keçirirlər ki, saatın necə keçdiyini hiss etmirlər. Onlar bir-birlərindən ayrıla bilmirdilər.

Səhər isə Bəsrə əmirinin vəziri Əbülfəth oyanan kimi qana susamış cəlladtək Əbülqasımı atdığı quyuya tərəf yollanır. Quyuya çatanda görür ki, quyu su ilə doludur, içərisində də bir meyit vardır. Vəzir görür ki, bu, öz oğlunun meyitidir, Əbülqasım isə yoxa çıxmışdır. Əbülfəth bərkdən qışqırır: «Ay köpəyin oğlu, deməli, özünün qaçdığın az idi, oğlumun da qanını tökmüsən?!» O həmin dəqiqə əmirin yanına qaçır və deyir: «Tədbirini gör, Əbülqasım aradan çıxa bilmişdir». Onlar cəld atlarını minib, böyük bir silahlı dəstə ilə səhraya yollanırlar. Üç gün, üç gecə səhranı bu başdan vurub o başdan çıxırlar, Əbülqasımı tapa bilmədilər və kor-peşman geri qayıdırlar.

Əmirin qızının istirahət etdiyi saray onların yollarının üstündə idi. Vəzir deyir: «Gəl biz sənin qızının sarayında gecələyək, sabah görək başımıza nə gəlir?» Əmir cavab verir: «Nə olar?!» Onlar sarayı hər tərəfdən əhatə etmiş bağçaya girirlər. Qız atasının gəldiyini bilib, Əbülqasımı öz otağında gizlədib atasını qarşılamağa çıxır. Görəndə ki, atası ilə vəzirin başı öz işlərinə elə qarışmışdır ki, heç ona fikir vermirlər, o öz otağına qayıdır. Qız qapıda dayəsini qoyub, sevgilisinin yanına keçir. Onlar vaxtlarını şirin söhbətlərlə, gülüşlərlə keçirib, yorulub, bir-birinə sarılaraq yuxuya gedirlər.

Əmiri isə Əbülqasımın fikri götürmüşdür. Fikirləşir ki: «Qoy əvvəldən qızımı xəbərdar edim ki, belə bir təhlükə ilə üzləşmişik». Əmir elə bu fikirlə qızının otağına yollanır. Qapıya çatanda görür ki, qızının dayəsi elə buradaca yuxuya getmişdir. İçəriyə keçəndə isə görür ki, qızı bir gəncə sarılaraq yatır. Əmir gördüyü bu səhnə qarşısında heyrətə gəlir və yerində donub qalır. O, gəncin saçları ilə qızının saçlarını düyünləyir və birdən diqqətlə baxanda Əbülqasımı tanıyıb qışqırır: «Mən hər yeri qarış-qarış gəzib, ələk-vələk eləyib səni axtarıram, sən isə burada mənim qızımın ağuşuna girib yatırsan?!» Əmir onların əllərini, ayaqlarını bağlayıb vəzirin yanına qayıdır ki, baş verənləri ona danışsın.

Gənclər isə qorxudan əsir və ağlayırdılar. Qız deyir: «Ey gözümün nuru, çalış, bir yolla bu ipləri aç». Əbülqasım ağlaya-ağlaya deyir: «Mən bu iplərdən yaxamı necə qurtara bilərəm?» Qız tədbirli tərpənib dişləri ilə onun əllərini sarıyan ipləri açır, Əbülqasım ayaqlarını da açdıqdan sonra pəncərəyə yaxınlaşır və görür ki, onlar çox yuxarıdadırlar, çünki axırıncı mərtəbədədirlər. O bu hündürlüyü görüb qorxur və geri çəkilir. Qız ona pəncərəyə çıxmağı buyurur. O, qızın dediyinə əməl edib pəncərəyə çıxıb oturur və iki ayağını da çölə çıxarır, amma çıxıntıdan tuta bilmədiyi üçün müvazinətini itirib aşağıya doğru uçur.

Xoş təsadüfdən həmin pəncərənin lap altında böyük bir ağac var idi, Əbülqasımın paltarı o ağacın budağına ilişir və ağacdan asılı qalır. Sonra o, ağacın budaqlarının arasından sürüşüb düşür və ağacların arasında itir. Bir azdan o, bağçanı dörd bir tərəfdən əhatə edən hasara çatır və onun üstündən aşıb qaçmağa başlayır. O, bütün gecəni səhərə qədər qaçır və nəhayət, bir kəndə çatır. Kəndin girəcəyində bir balaca dükanın ağzında oturmuş qoca görür. Qoca soruşur: «Ay oğul, kimsən, haradan gəlirsən?» Əbülqasım cavab verir: «Ey Şeyx, mən bir bədbəxt adamam, heç özüm də hara getdiyimi bilmirəm». Qocanın ona yazığı gəlir, onu evinə aparıb yemək verir və yenə soruşur: «Ay oğul, bəlkə kim olduğunu, haradan gəlib, haraya getdiyini deyəsən?» Əbülqasım yenə də eyni cavabı verir: «Mən, həqiqətən, heç bir şey bilmirəm». Qoca

gülümsəyib, mehriban tərzdə deyir: «Əgər mənim dediklərimə əməl edib, sözümdən çıxmasan, səni canla-başla yanımda saxlayaram». Əbülqasım deyir: «Ey möhtərəm qoca, məni yanında qul kimi saxlasan, sənə qul kimi xidmət edərəm». Qoca deyir: «Ey cavan, mənim yanımda qalsan, heç bir iş görməyinə ehtiyac olmayacaqdır. Sən ancaq yeyib-içib, yatıb, istirahət edəcəksən». Əbülqasım deyir: «Bu tənbəl-müftəxorların işidir, yaxşısı budur ki, sən mənə sənə hansı işdə kömək edə biləcəyimi de». Onda qoca ona yerinə yetirəcəyi işləri sadalayır və deyir: «Bu işləri tamamladıqdan sonra ayaqlarımı ovxalayacaqsan». Əbülqasım ruh yüksəkliyi ilə cavab verir: «Bu iş Bəsrə əmirinin işgəncələrinə dözməkdən qat-qat üstündür». O bunları deyib qocanın yanında qalıb, ona qulluq etməyə razılıq verir.

Bu arada əmir qəzəbindən başını itirmiş halda vəzirin yanına gəlir. Vəzir onu hirslənmiş görüb soruşur: «Hökmdarım, nə baş vermişdir, niyə belə qəzəblisən?» Əmir qışqırır: «Biz hər yeri ələk-fələk edib Əbülqasımı axtarırıq, o isə rahatca mənim qızımın ağuşunda şirin-şirin yatır».

Bu sözləri eşidən vəzir də özündən çıxır və onlar tez yuxarıya qalxırlar. Otağa qalxanda görürlər ki, qız əli-ayağı bağlı yerdə uzanıb qalmışdır, Əbülqasım isə yoxdur. Əmir qışqırır: «Ay bədbəxt, bu rəzil hara oldu?» Qız cavab verir: «O, pəncərədən çıxdı». Əmir yenə qışqırır: «Ay bədbəxt, bu pəncərədən necə çıxmaq olar?» Qız isə and-aman edirdi ki, Əbülqasım, məhz pəncərədən çıxmışdır. Əmir: «Yaxşı, biz indi onu taparıq»,- deyib vəzirlə və silahlı dəstə ilə səhraya yollanırlar. Səhrada çox gəzib-dolandıqdan sonra, heç bir nəticə əldə etmədən geri qayıdırlar. Əmir saraya qayıdan kimi əmr verir ki, qızı da, dayəni də edam etsinlər. Onun ordu başçılarından biri qızı dayəsi ilə birlikdə öldürmək məqsədi ilə səhranın elə bir tərəfinə aparır ki, orada və yaxınlığında suyun heç izi də olmasın. Qızın və dayənin üstündə çoxlu zər-zinət var idi və onlar hədsiz dərəcədə qiymətli idi. Ordubaşı fikirləşir ki, əvvəlcə bu zər-zinətə yiyələnsin, sonra onları öldürsün. Ordubaşı onların boyunbağılarını, bilərziklərini, sırğalarını, kəmərlərini, üzüklərini çıxarıb götürür,

amma əmirin qızının barmağındakı çox qiymətli üzüyü heç cür çıxara bilmir. O bu qiymətli üzükdən keçə bilməzdi, ona görə üzüyü dişləri ilə çıxarmaq fikrinə düşür, dişini üzüyə keçirəndə üzükdəki zəhər onun ağzına sızır və ordubaşı yerindəcə canını tapşırır.

Qız dayəsi ilə buna çox sevinirlər və ayağa qalxıb qaçmağa başlayırlar. Onlar hara qaçdıqlarını bilmirdilər. Allahın qəzası belə gətirir ki, onların tutub qaçdıqları yol onları Əbülqasım olan kəndə gətirir. Onlar qocanın dükanına çatanda qoca onlardan soruşur: «Kimsiniz? Kimi axtarırsınız?» Qız deyir: «Biz qərib yolçularıq. Quldurlar karvanımızı yağmalayıblar, biz bir təhər canımızı qurtara bilmişik və gəlib bura çıxmışıq». Qoca onları da evinə aparıb, doyunca yedizdirir. Odun dalınca getmiş Əbülqasım axşama tərəf evə qayıdır. Qoca deyir: «Əbülqasım, iki xanım qonağımız var, onlara şam süfrəsi aç». Əbülqasım süfrə açmaq üçün o biri otağa keçəndə qız sevgilisini tanıyıb, yerindən sıçrayır, onun boynuna sarılıb hönkür-hönkür ağlamağa başlayır. Sevgilisini görən gənc donub qalmışdır. Nəhayət, özlərinə gələndən sonra ağızları söz tutmağa başlayanda onlar bir-birlərinə başlarına gələnləri danışırlar. Bir yerdə şam yeməklərini bitirdikdən sonra qız Əbülqasıma deyir: «Gözümün nuru, indi fikirləş gör buradan uzaqlaşıb hara gedək». Onlar bütün gecəni bu məsələni götür-qoy edirlər. Səhər Əbülqasım qocaya müraciət edir: «Ey möhtərəm, müdrik himayədarım, izin ver, biz gedək». Qoca soruşur: «Bəs birdən peşman olsan?» Gənc cavab verir: «Peşman olsam, geri qayıdarıq». O, qocaya təzim edib, sevgilisini və onun dayəsini götürüb Bağdada yollanır.

Nəhayət, Bağdada çatanda Əbülqasım qadınları etibarlı bir yerdə qoyub, hamballıq etmək üçün bazar tərəfə yollanır. Əbülqasım yanında bir dolu kisə olan cavan görür. Ona yaxınlaşır və deyir: «İcazə ver, sənə kömək edim». Adam razılıq verir, Əbülqasım kisəni belinə atıb onun ardınca gedir. Harun-ər-Rəşidin sarayına çatanda adam deyir: «Dayan, kisəni də yerə qoy». Əbülqasım kisəni belindən salıb cavan adamın qabağında yerə qoyur.

Bütün bunlar Zibeydə xatunun sarayının gözətçi meydançasının qarşı tərəfində baş verirdi. Həmin vaxt isə Zibeydə xatun Əbülqasımın

Harun ər-Rəşidə bağışladığı ud çalıb, oxuyan qızla meydançada gəzişirdi. Qız Əbülqasımı görən kimi tanıyır və Zibeydə xatuna deyir: «Xanım, o gənci görürsən, əvvəllər mənim sahibim o olmuşdur». Zibeydə xatun gülüb deyir: «Sən dəli olmusan, sənin keçmiş sahibin çoxdan ölmüşdür». Qız dediyində israrlı idi: «Yox, bu odur, Əbülqasımdır». Zibeydə nökəri çağırıb əmr edir ki, hambalı çağırsınlar.

Zibeydə xatun yaşmaqlanıb, çarşabını başına çəkib hambal ilə söhbət etməyə başlayır. O soruşur: «Ey gənc, adın nədir?» Əbülqasım cavab verir: «Mən bədbəxtliklərin təqib etdiyi bir qəribəm. Əslim Bəsrədəndir». Qız Əbülqasımın səsini eşidəndən sonra yanılmadığına tam əmin olur, onun qarşısında əyilib, diz üstə durub əllərini öpməyə başlayır.

Elə bu vaxt xəlifə buraya buyurur və gördü ki, xanımların yanında bir yad kişi var. Harun qəzəblənib qışqırır: «Ay yaramaz, sənin mənim ərazimdə nə işin var?» Zibeydə xatun deyir: «Əsəbiləşmə, onu mən çağırtdırmışam. Kəniz deyir ki, bu onun əvvəlki sahibidir». Harun yerində donub qalır, sonra diqqətlə baxıb görür ki, bu, həqiqətən, Əbülqasımdır.

Əbülqasım başına gələnləri əvvəldən sonadək olduğu kimi danışır. Harun ər-Rəşid soruşur: «Bəs sən məni xatırlayırsan?». Əbülqasım cavab verir: «Xeyr, xatırlamıram». Harun deyir: «Unutmusan ki, mən sənin qonağın olmuşam, sən də mənə bu ilahi səsi olan aycamal qızı, əlində meyi tükənməyən qədəh olan yeniyetməni, budağında ətrafa ətir saçan tovuz quşu oturmuş qızıl ağacı bağışlamısan? Mənə sənin ölüm xəbərini çatdırdılar. Mən uzun müddət çox pərişan oldum. Özümə rahatlıq tapa bilmirdim. Sən mənə bir də təfsilatı ilə danış görüm, bu nə məsələdir?»

Gənc indi vaxtı ilə qonağı olmuş bu adamı tanıdı və başa düşdü ki, bu, xəlifənin özüdür. Əbülqasım həm çox sevinirdi, həm də çox utanırdı. O, Bəsrə əmirinin, onun vəzirinin bütün bəd əməllərini xəlifəyə danışır. Xəlifə eşitdiklərindən heyrətə gəlmişdir, o əmr edir ki, onun sarayında əziz qonaqları üçün şahlara layiq otaqlar

hazırlasınlar, sonra əmr edir ki, əmirin qızı ilə dayəsini də hörmət-izzətlə saraya gətirsinlər, onlara ən gözəl, ən nəfis libaslar versinlər.

Sonra xəlifə vəziri Fəzl ibn Rəbini, əyanlarını, əshabələrini yığıb eşitdiklərini olduğu kimi onlara da çatdırır və əmr edir ki, Bəsrəyə bir silahlı dəstə yola düşsün və əmiri vəziri ilə bərabər onun hüzuruna çatdırsınlar.

Harun ər-Rəşid göstəriş verir ki, bazar meydançasında iki hündür dar ağacı qursunlar ki, əmiri də, vəziri də hamının gözü qabağında assınlar. Carçılar bütün şəhərə car çəkirdilər: «Nəcib, nəcabətli, səxavətli, mərhəmətli insanlara qarşı nadürüst rəftar edən hər kəsin aqibəti belə olacaqdır». Daha sonra xəlifə bütün əshabələrini, bütün şəhər əyanlarını yığıb onların qarşısında Bəsrəli gəncə ona göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığını bildirdi. Sonra xəlifə əmr etdi ki, üstündə tovuz quşu oturmuş qızıl ağacı, tükənməz badəsi olan yeniyetməni, ud çalıb-oxuyan aycamal gözəli dəvət etsinlər.

Harun üzünü gəncə tutub dedi: «And olsun Allaha, mənə bu hədiyyələri verdiyin gündən bir kəs belə onlara tərəf xor baxmamışdır, nadürüst rəftar etməmişdir, bunlar sənə məxsusdur və mən onları sənə qaytarıram». Əbülqasım bunun cavabında dedi: «Hökmdarımız, onlar sənin sayəndə şan-şöhrət qazanmışlar, ona görə də onlar sənə məxsusdurlar». Harun dedi: «Onlar bu fikirlə barışıblar, amma qəlbən əvvəlki kimi sənə bağlıdırlar». Bəsrəli gənc dedi: «Hökmdarım, əgər onlar sənə layiq deyillərsə, onda mən onları geri götürürəm». O, qızla gənci əsirlikdən azad edib, onların evlənmələrini buyurdu. Harun dedi: «Ey Əbülqasım, istəyirsən, səni birinci dərəcəli əyan təyin edim, istəyirsən, səni Bəsrənin əmiri təyin edim, amma necə olursa-olsun, məndən ayrılıb, uzaq durma».

Əbülqasım Bəsrənin əmiri vəzifəsini seçir, amma o, tez-tez Bağdada - xəlifənin yanına gəlir və onlar uzun-uzadı söhbət edirdilər. Əsilli, nəcabətli gənc Bəsrədə elə bir əmin-amanlıq yaradır ki, orada bir kasıb, bir səfil qalmır. Əbülqasım ona verilmiş ömür payını şərəflə, ləyaqətlə yaşayıb başa çatdırır. Bundan sonra əmirlik vəzifəsi Əbülqasımdan başlayaraq nəsildən-nəsilə keçməklə davam etmişdir.

*Bu hekayətin hikməti belədir:*

*Heç kəs heç vaxt öz səxavətinə və mərhəmətinə görə bəlaya düşə bilməz, amma əgər onun başına bir iş gələrsə belə, uzun çəkməz.*

*İkinci hikmət isə belədir: Pisliyin sonu heç vaxt yaxşı ola bilməz və pis adam gec-tez öz pisliyinin qurbanı olur.*

## DÖRDÜNCÜ HEKAYƏT

# Vəzir ilə Dəryabar şahının qızı və onların gördükləri qəribə şeylər haqqında hekayət

Keçmiş zamanlarda müdrik qocalar, dünyagörmüş aqillər danışırdılar ki, İstanbulun öz rəiyyətinə qarşı çox mərhəmətlə, səxavətlə davranan bir hökmdarı var idi. Onun belə bir adəti var idi; yazda, güllər-çiçəklər açanda təbiətin seyrinə çıxardı. Belə günlərdən birində o, çəmənlikdə əyləşmişdir, vəziri isə onun yanında dayanmış və güllərin, çiçəklərin insanın huşunu başından çıxaran ətrini sinəsinə alırdı. Hökmdar ondan soruşur: «Görəsən, yer üzündə elə bir adam var ki, öz qabiliyyəti, bacarığı, ağlı, zəkası ilə Allah-təalanın yazdığı talenin yolunu dəyişdirsin?»

Vəzir ürəyində gülüb deyir: «Şah sağ olsun, ürəyində belə bir arzu bəsləyən olsa, o da mənim kimi acı dərdə düçar olar». Şah soruşur: «Sən hansı dərdə düçar olmusan ki?» Vəzir cavab verir: «Əgər mənim macəra dolu hekayətimdən qəlbin qubar bağlamazsa, mən sənə başımdakı bəladan danışım, inan ki, sən həyatın boyu belə acı əhvalat eşitməmisən». Şah deyir: «Danış, görüm». Vəzir hekayətinə başlayır: «Ey şah, mənim atam Bəlx şəhərinin əmiri olmuşdur, böyük varidat, sərvət sahibi idi. Mən dünyaya gələndə atam mənə Fərruxzad adını verir, bu adın mənası «xoşbəxt doğulmuş» deməkdir. O mənim qayğıma qalıb, tərbiyəmlə məşğul olmaq üçün dayələr dəvət edir. Onlar, həqiqətən, məni diqqət, qayğı, məhəbbətlə bəsləyir, dürüst tərbiyə almağım üçün əllərindən gələni edirdilər. Daha sonra atam məni məktəbə göndərir ki, həm elmlərə, həm də cəmiyyətdə gərək olan nəcib davranış qaydalarına yiyələnim. Mən bütün bunlara elə yiyələnmişdim ki, hər kəs mənim yanımda kölgədə qalırdı.

Zaman keçdi, atam dünyasını dəyişdi, mən adət-ənənəyə uyğun, ədəb-ərkanla onu dəfn edib, matəm saxladım və müəyyən vaxtdan sonra həyatımı eyş-işrətlə davam etdirdim. Günlərin bir günü mən gecə elə bağçada, gül-çiçəklərin arasında yuxuya getdim, yuxuda gördüm ki, göydən çox vahiməli bir əjdaha başı enir və o elə vahiməli, elə qorxunc idi ki, insanlar onu görüb huşlarını itirirdilər. Əjdaha başının yeni ov axtarışında olan, qana bulaşmış köpək dişlərini qıcıyan bir neçə ağzı var idi. Birdən əjdaha dişləri ilə boğazımdan yapışıb, məni yerdən qoparıb yuxarıya qaldırdı və bir böyük alovun içinə atdı. O alov indi də gözlərimin qarşısından getmir.

Təsadüf elə gətirdi ki, güclü bir külək əsdi və məni bu alovun içərisindən alıb bir dağın zirvəsinə tulladı. Birdən gördüm ki, daşların arasından bir ilan çıxır, ilan sıçrayıb məni halqaları arasına aldı və bu vaxt bir şir peyda olub ilanı dişləri arasına alıb uddu. Nəhayət, mən yuxudan ayıldım, amma qorxudan bütün vücudum titrəyirdi. Bir az özümə gələndən sonra bir tanınmış, yaxşı yuxu yozan dəvət edib, yuxumu olduğu kimi danışdım.

Yuxu yozan dedi ki, bu yuxu məni başıma gələcək böyük bəlalardan xəbərdar edir. Yuxu yozanın dediklərini götür-qoy edib, qarşıma məqsəd qoydum ki, nəyin bahasına olursa-olsun, taleyin mənə yazdığı bəlalardan qurtulmalıyam.

Mənim şəhərdən bir az aralı bir cənnət guşəsinə bənzər bağçam var idi ki, sarayının günbəzləri göy qübbəsinə dirənirdi. Mən tək o saraya yollandım. Bağçada bir qədər gəzişib, minlərlə qızılgülün olduğu çəmənliyə getdim. Burada əvvəlcə bir dənə min bir rəng verən quş gördüm, sonra isə ikinci bir quşu gördüm ki, bu ölçüdə, bu boyda bir canlının mövcudluğu belə ağlasığmazdır. Mən bu quşu tutmaq istədim və bu məqsədlə bir uzun ip gətirdim. İpin bir ucun kəmənd edib torpağın üstünə qoydum, o biri ucunu belimə bağladım və kəməndə çoxlu dən töküb gözləməyə başladım.

Dəni görən quş kəməndə yaxınlaşıb elə ayağını onun içinə qoyan kimi mən ipi çəkdim, quş o saat yerdən qopdu və məni iplə bərabər göyə qaldırdı, mən ipi belimdən açmaq istəsəm də, bu

mümkün olmadı, çünki quş artıq elə yuxarı qalxmışdır ki, mən aşağıya baxanda gözlərim qaralırdı və ipdən daha bərk yapışdım. Öz-özümə isə fikirləşdim: «Eybi yoxdur, xeyirlisi bu imiş, bu minvalla mən taleyin mənə yazdığı bəlalardan qurtulmuş olaram. Yaxşı ki, mən quş kimi bu tora özüm düşdüm». Mən yuxarıdan baxırdım və dünya mənə sonsuz dərya kimi görünürdü. Gözlərimi yumub Allaha dua edirdim ki, birdən hiss etdim ki, ayaqlarım bir ağac budaqlarına toxunur. Gözlərimi açanda gördüm ki, eni, uzunu iki fərsəngdən çox olmayan, dörd bir tərəfi dərya olan balaca bir adadayam. Adada minlərlə barlı-bəhərli ağac var idi, bir çəmənlikdə isə çox böyük bir ağac ucalırdı. Bu uca ağacın başında böyük bir yuva var idi, quş yavaşca bu yuvaya endi, mən quşun ayağından sallanıb qalmışdım, yavaşca belimdəki ipi açıb ağac ilə aşağıya düşə bildim. Adanı gəzdikcə gördüm ki, bu çox gözəl bir adadır, burada çoxlu güllü-çiçəkli çəmənlər, büllur kimi bulaqlar var, amma mən tənha idim, yanımda yaxınlarımdan heç biri yox idi və ürəyim sıxılırdı.

Bu gözəllikləri görüb, heyran qaldıqca,
Dedim: «Dünyada təklikdən pis şey yoxdur».

Günü bir təhər başa vurub, gecə o vahiməli quşun, arada sudan başlarını çıxarıb mənə baxan dənizin qorxunc canlılarının, ətrafda diş qıcaya-qıcaya hərlənən heyvanların qorxusundan ağaca dırmanıb, gecələmək üçün özümə yer elədim. Buna baxmayaraq, yenə də quşun qorxusundan gecə gözlərimi yuma bilmədim. Səhər açılıb, günəş doğanda lap uzaqda – dənizdə gəmi göründü. Gəmi yaxınlaşdıqca gördüm ki, orada çoxlu adam var və göyərtənin ortasında üzərində bir aycamal gənc əyləşmiş möhtəşəm taxt qurulmuşdur. Gəmi sahilə yaxınlaşdıqda dənizçilər sahilə tullanıb bir ağaca ip atıb, gəmini bərkitdilər. Gənc oğlan yanındakı yoldaşları ilə sahilə enib adanı gəzməyə başladı.

Nəhayət, onlar mənim oturduğum ağacın altında durdular. Gəncin yanındakı adamlar həmin ağacın altını səliqəyə salıb, taxtı qurub, onu ipəklə, atlazla, xəzlə örtdülər, üzərinə qu tükündən

hazırlanmış yastıqlar düzdülər və gənci onun üzərində əyləşdirdilər. Onlardan biri dedi: «Ey şahzadə, biz atanızın tapşırığını dəqiqliyi ilə yerinə yetirdik. On günlük yemək-içmək ehtiyatı qoyduq ki, istədiyin vaxt istifadə edə biləsən. Biz səni burada tək qoyub getməliyik ki, münəccimlərin öndən görüb söylədikləri bəlalar səndən yan keçsin, on birinci gün isə biz qayıdıb səni təmtəraqla buradan aparacağıq». Gənc cavab verdi: «İxtiyar sahibisiniz». Onunla gələnlər gəmiyə minib getdilər.

Gənc pərt-pəjmürdə taxtda oturub ətrafı seyr etməyə başladı. Təsadüfən yuxarıya baxanda məni görüb hürkdü. Mən ağacdan düşüb təzim etdim və dedim: «Ey şahzadə, qorxma mən, sadəcə, bədbəxtliklərin təqib etdiyi, başında ağlasığmaz macəralar olan adi bir adamam». İnsan danışığını eşidən gənc sakit olub dedi: «Ey cavan, sən kimsən və burada nə edirsən?» Mən dilimə güc verib başıma gələnlərin hamısını olduğu kimi - nöqtəsindən vergülünədək danışdım. Mən danışdıqca şahzadə heyrətə gəlirdi. Sonra mən ondan özü haqqında danışmağını xahiş etdim. Şahzadə sözə başladı: «Ey cavan, bil ki, bu dənizdə eni, uzunu əlli fərsəng olan bir ada vardır, həmin adanın hökmdarı mənim atamdır. Mən doğulanda o çox nəzir-niyaz paylamış və münəccimləri dəvət etmişdir ki, mənim taleyimi söyləsinlər. Mənim bürcümü müəyyən etdikdən sonra münəccimlər demişlər: «Bu oğlan uşağı çox parlaq, möhtəşəm ulduz altında doğulmuşdur, amma digər ulduzlar düşmən mövqedədirlər və onların sayəsində bu uşağı çox ağır bəlalar təqib edəcəkdir. Əgər bu uşaq on iki yaşını aşa bilsə, bütün dünyanı fəth edib böyük hökmdar olacaqdır». Atam bu öngörmədən çox məyus olmuş və nə edəcəyini bilməmişdir. O məni naz-nemət içərisində böyüdürdü və on iki yaşa çatanda mənim buraya on gün müddətinə gətirilməyimə göstəriş vermişdir. Toqquşmalarından başıma bəlalar gətirəcək ulduzlar yenidən aralandıqda məni buradan aparacaqlar. Bax bu da mənim hekayətim. İndi səni burada görüb sevinməyimin səbəbini, yəqin ki, anlayırsan».

Mən dedim: «Ey şahzadə, əgər mənim ünsiyyətim sənə yük olmazsa, mən gecə-gündüz sənin qulluğunda durmağa hazıram».

Bundan sonra mən bir dəqiqə belə şahzadəni diqqətsiz qoymadım, gecə-gündüz onun qulluğunda durdum. Bu minvalla doqquz gün keçdi, onuncu gün bədbəxtliyə düçar oldum. Belə ki, şahzadə yastıqlara dirsəklənib mənimlə söhbət edirdi və buyurdu ki, gedib zənbildən üç alma gətirim. Mən gedib almaları gətirdim və onları soyub, doğrayıb bıçağın ucunda şahzadəni yedizdirməyə başladım. Növbəti dəfə bıçağın ucunda almanı uzadanda şahzadə başını uzadıb dişləri ilə almanı götürmək istəyirdi ki, birdən asqırdı və bıçaq onun boğazından girib boynunun ardından çıxdı. Şahzadə həmin dəqiqə yerə yıxılıb canını tapşırdı. Mən bu hadisədən qorxub huşumu itirdim. Özümə gələndə dərd məni boğdu, mən dil töküb ağlamağa başladım. Özüm də bilmirəm nəyə görə şahzadənin ayaqlarını ovuşdurub deyirdim: «Ay Allah, bu nə bəla idi mənim başıma gəldi? Bu gənc heç nədən bu dünyanı tərk etdi». Mən yeməyi, içməyi, yatmağı unudub bütün günü bu gənci ağladım.

Səhəri gün dənizdə gəmi göründü. Göyərtədəki insanlar çalıb-oxuyur, atəşfəşanlıq, şadyanalıq edirdilər. Gəmi sahilə yaxınlaşanda gələnlərin hamısı enib, şahzadəni qoyub getdikləri yerə, ağaca tərəf yollandılar. Lap qabaqda şahın özü gəlirdi. Oğlunu ölmüş görən şahın fəryadı, ah-naləsi göylərə ucaldı, o, üst-başını, üz-gözünü cırıb-dağıtdı, yanındakılar isə onun səsinə səs verib qışqırmağa başladılar: «Ey bic-vələdüzzina, bu aycamal yeniyetmə sənə nə etmişdir ki, sən onu öldürdün?» Mən dedim: «Ey hökmdar, and olsun o uca Allaha, mən onu bilərəkdən öldürməmişəm». Mən hal-qəziyyəni olduğu kimi danışdım. Şah əllərimi, ayaqlarımı qandalladıb dedi: «Məni eşit, sən, həqiqətən, günahsızsansa, mən səni azad edəcəyəm». Mən razılaşdım. Şah buyurdu ki, şahzadənin nəşini gəmiyə qaldırsınlar. Məni göyərtədə qoydular.

Gəmi yola düşdü və üç gündən sonra bir adaya yaxınlaşdı. Sahildə möhtəşəm bir canlanma var idi; bir dəstə çalırdı, bir dəstə oxuyurdu, bir başqası rəqs edirdi - bütün camaat şahzadəni qarşılamaq üçün evlərindən çıxıb sahilə yığışmışdır. Elə ki camaat vəziyyətdən agah oldu, onların şadyanalığını matəm əvəz etdi, onların

gülüşünü göz yaşları, nəğmələrini ağılar əvəz etdi. Şah gəmidən düşdü, şahzadənin nəşini isə şəhərə apardılar. Məni qollarımı boynumun ardında burub sahilə apardılar. Camaat məni daşqalaq edirdi. Məni birtəhər saraya gətirib zindana atdılar. Şah və onun əyan, əshabələri on gün matəm etdilər. Matəm bitdikdən sonra şah əmr etdi ki, məni zindandan çıxarıb onun hüzuruna gətirsinlər. Məni içəriyə gətirəndə şah qəzəblə dilləndi: «Ay kafir, de görüm mənim oğlumu niyə öldürdün?» Mən cavab verdim: «Ey şah, and olsun yeri, göyü yaradan o uca Allaha, mən şahzadənin ölümündə günahkar deyiləm». Şah əyan, əshabələrini dəvət edib onlardan soruşdu: «Siz bu adama hansı cəzanın verilməsinə hökm verərsiniz?» Onlar bir səslə dedilər: «Onu tikə-tikə etmək lazımdır». Şah cavab verdi: «Yox, belə olmaz, yaxşısı budur ki, onu aparın və ədalət tərəzisinin gözünə qoyun. Doğru olanı tərəzi dəqiqliyi ilə göstərər». Əyanlar, əshabələr dedilər: «İxtiyar sahibisən!» Şah atını minib yola düşdü, məni də onun arxası ilə sürüklədilər. Dənizin sahilində hədsiz dərəcədə hündür, göylərə ucalan bir qala tikilmişdir, qalanın üstündə çox hündür, polad sütun quraşdırılmışdır ki, onun başında qalın zəncir bərkidilmişdir. Zəncirin ucu suya düşürdü. Bu sütunun başından aşırılmış tərəzi qollarının hər birindən isə daha dörd zəncir sallanırdı ki, onların da hər biri tərəzi gözünü əvəz edən qalxanların dörd tərəfinə bənd olunmuşdur. Bu qalxanlar suyun üzündə dururdular, bunlardan biri uzun bir iplə sütuna bağlanmışdı.

Məni şahın və onun əyan, əshabələrinin yanına gətirdilər. Şah yenə də qəzəblə soruşdu: «Sən mənim oğlumu nəyə görə öldürdün?» Mən yenə də cavab verdim: «Ey şah, and olsun yeri, göyü yaradan Allaha, şahzadənin ölümündə mənim heç bir günahım yoxdur». Şah yanındakılara əmr etdi: «Fili gətirin». Fili gətirdilər. Şah dedi: «Bir neçə gün əvvəl bu fil sənin kimi birisini param-parça etdi, indi sənin növbəndir, səni də məhv edəcəkdir». Dedim: «İxtiyar sahibisiniz». Şah əmr etdi ki, tərəzinin gözünü sahilə çəksinlər, nökərlər fili tərəzinin gözünə çıxarıb ipi buraxdılar.

Tərəzinin üstündə fil olan gözü dənizin üzərində asıldı, dəniz coşub dalğalandı, su qalxmağa başladı. Axşama yaxın suyun

səviyyəsi artıq filin başına çatmışdır, fil özünü suyun üzündə saxlayırdı. Şah dedi: «Bax səni də bu gözləyir». Birdən gördüm ki, filin durduğu tərəzi gözünü alov bürüdü və fildən ancaq yanıb kül olmuş sür-sümük qaldı. Mən ucadan dedim: «Hər şey Rəhim və Rəhman Allahın əlindədir!» Onda Şahın əmri ilə tərəzinin gözünü sahilə çəkib məni ona otuzdurdular və dənizə buraxdılar. Şah öz əyan, əshabələri ilə şəhərə qayıtdı, mən isə tərəzidə başımı dizlərimə əyib sakitcə oturmuşdum. Birinci gecə qarovulu keçəndə dəniz coşmağa başladı. Mən kəlmeyi-şəhadətimi dedim: «Əşhədu ən la iləhə illəlah və əşhədu ənnə Məhəmmədin əbduhu və rəsuluhu». Birdən suyun içindən bir baş göründü. Bu çox böyük, sarı sifətli, yekə burunlu, kürən saçlı bir baş idi. Bu başın yiyəsi olan bahadır qurşağacan sudan çıxanda gördüm ki, bu nəhəngin başı suyun səthindən çox-çox yüksəkliklərə ucalır. O, əlini uzadıb məni götürəndə mən qorxudan huşumu itirdim.

Mən özümə gələndə artıq gecəyarısı idi. Ətrafa göz gəzdirib gördüm ki, bir gəminin göyərtəsində qurulmuş bir çadırın yanındayam və o nəhəng varlıqdan əsər-əlamət qalmamışdır. Bu olanlardan heyrətlənib, Allaha şükürlər etməyə başladım. Qaranlıqda çadırın üzərində əlimi gəzdirərək qapısını tapdım, ehmalca qapını açıb gördüm ki, taxtın üstündə kim isə yatır, taxtın baş tərəfində şamlar yanır, on kənizin əhatəsində, taxtın üstündə yatan isə xanımdır. Bir tərəfdə isə nökər yatırdı. Mən yatmış gözələ baxıb gördüm ki, bu vaxta qədər rastıma bu gözəllikdə bir qız çıxmamışdır. Bir müddət bu qızın gözəlliyinə tamaşa edib öz-özümə dedim: «Nə olacaqsa, olsun. Başıma gələnlərdən sonra həyatdan həzz almaq mənim haqqımdır, heç olmasa, bu fürsətdən istifadə edib, bu bir saatın ləzzətini çıxarmalıyam». Mən əyilib o aycamal gözəlin ləblərindən bir neçə busə aldım. O aycamal pəri ayılıb çaşqın halda yerində oturdu. Bir az keçdi, o, ipək əllərini uzadıb yanağımı sığalladı. Mən qalxıb təzim etdim və bildiyim, eşitdiyim bütün gözəl sözlər ilə o pərini tərif etdim. O soruşdu: «Ey gənc, sən kimsən və buraya necə gəlmisən?» Mən başıma gələnləri əvvəlindən axıradək, olduğu kimi danışdım. Gülüzlü pəri məni heyrətlə

dinləyirdi. Axırda o dedi: «Ey gənc, sən çox heyrətamiz əhvalatlar danışdın, amma inan ki, mənim başıma gələnlərin yanında onlar kölgədə qalar. İstəyərsənsə, mən də sənə başıma gələnləri danışaram». Mən həvəslə dedim: «Ey gözəllərin günəşi, hər bir şeyi olduğu kimi danış, mənim üçün çox maraqlıdır».

Qız öz hekayətini danışmağa başladı: «Bizim məmləkətdə bir ada vardır. Orada güc-qüdrətdə, ordusunun möhtəşəmliyində tayı-bərabəri olmayan bir Şah hökmdarlıq edirdi. Uzun illər o, oğul həsrəti ilə yaşayırdı. Müəyyən vaxtdan sonra mən dünyaya gəldim. Atam qızı olduğunu eşidib dedi: «Mənim arzularım Allahın əmri qarşısında bir heçdir. Mən Allahdan oğul istəmişdim, amma o mənə qız uşağı bəxş etdi. Allah bilən məsləhətdir, deməli, belə olmalı imiş. Atam məni naz-nemət içərisində böyüdürdü. Mən artıq böyümüşdüm, günlərin bir günü atam ova yollandı. Təsadüf elə gətirir ki, onun rastına bir qaragözlü, ceyran baxışlı, kəklik yerişli maral çıxır. Atam nə qədər onu qovur, amma heç cür çata bilmir. Atam bu maralın ovlanmasına o qədər aludə olur ki, havanın necə qaraldığını, tanıdığı, bildiyi yerlərdən necə uzaqlaşdığını heç hiss etmir. Qaranlıqda maral gözdən itəndə atam meşə kənarında durub atdan düşür və çömbələrək oturur. Atam uzaqdan işıq gəldiyini görür və ona tərəf getməyə başlayır. O, ürəyində deyir: «Gecəni ocaq başında keçirib, səhər yoldaşlarımın yanına qayıdaram». Meşənin dərinliyinə girib görür ki, burada möhtəşəm, günbəzləri göy qübbəsinə dəyən, talvarla örtülmüş bir saray ucalır. Uzaqdan görünən ocaq da elə burada qalanmışdır, ocağın yanında isə başı tavana dəyən heybətli bir qara zənci oturmuşdur. Onun yanında bir tuluq şərab, qarşısında isə ocaqda qızaran bir öküz var idi. O, ətdən yeyir, şərabdan içirdi. Onun qarşısında dünyalar gözəli, aycamal bir qadın oturmuşdu, yanında - yerdə isə, təxminən, iki yaşlı aramsız ağlayan uşaq uzanmışdı. Qadının əlləri, qolları möhkəm sarınmışdı. Atam kənarda durub baş verənləri seyr edirdi. Qara zənci yeməyini, içməyini bitirdikdən sonra qadına müraciət etmişdir: «Sən nəyə görə məni yaxınına qoymursan, nəyə görə mənə əzab verirsən? Gəl daşı tök ətəyindən, mənimlə yaxınlıq et, yoxsa, sənin başına elə bir

oyun açaram ki, bütün dünyaya görk olar». Qadın cavab vermişdir: «Ey qara ifritə, məni burada saxladığın neçə gündür?» Zənci cavab vermişdir: «Düz bir həftədir». Qadın soruşmuşdur: «Sən bu müddətdə istədiyinə nail ola bilmisənmi?» Zənci cavab verirdi: «Yox». Qadın demişdir: «Bax bil, məni lap on il burada saxlasan, istədiyinə nail ola bilməyəcəksən». Bu sözlərdən hiddətlənən zənci qılıncını çıxarıb, əvvəlcə qadının saçlarını kəsmiş, sonra isə onu özünə tərəf çəkmişdir. Atam fikirləşmişdir: «Bir qara iblisin bu aycamal pərinin başına oyunlar gətirməsinə yol vermək olmaz». Bunu fikirləşib, atam ox qabından ox çıxarıb yaya qoymuş və nişan alıb yayı çəkmişdir. Ox zəncinin düz sinəsinə girib kürəyindən çıxmışdır, zənci yerə sərilib elə oradaca canını tapşırmışdır. Bundan sonra atam o qadına yaxınlaşmış, qadın da ona çox dualar edib, minnətdarlığını bildirmişdir. Atam ondan soruşmuşdur: «Qızım, kimlərdənsən?» Qadın cavab vermişdir: «Padşahım, bil ki, bu sahilboyu məskunlaşmış qəbilənin başçısı mənim ərimdir. Bu zənci mənim ərimin dəvələrini otarırdı və bir dəfə, təsadüfən, mənim üzümü görüb aşiq olmuşdur. O məni çoxdan güdürdü və bir həftə əvvəl əlinə fürsət düşən kimi məni oğlumla bərabər oğurlayıb bura gətirmişdir. Bu gecə o məni öldürəsi idi ki, uca Allah səni məni xilas etmək üçün yetirdi və sən məni o qorxunc məxluqun əlindən qurtardın».

Qadının hekayətini dinlədikdən sonra atam onu oğlu ilə bir yerdə oradan çıxarıb ata mindirir və şəhərə gətirir. Qadın ümid edirdi ki, qəbiləsinin adamları onun dalınca gələcəklər, amma vaxt gedirdi, gələn isə yox idi. Atam o uşağı oğulluğa götürür və ona öz övladından çox bağlanır. O uşağın anası rəhmətə gedəndə atam onu öz vəliəhdi elan edir. Müəyyən vaxtdan sonra atam taxt-tacdan uzaqlaşıb, bütün idarəçiliyi ona həvalə edir. İlk vaxtlar o hər bir şeyi qayda-qanunla, ədalətlə idarə edirdi, amma bir qədər sonra dost-tanışları onu düz yoldan çəkindirib əyri yola yönəldirlər. Onlar deyirdilər: «Sən gəl bu qoca Dəryabar şahını öldür ki, yerində möhkəm oturasan». Bu nanəcib onların sözünə baxıb atamı öldürür, sonra məni də aradan götürmək fikrinə düşür. Bunu bilən kimi, dayəm, nökərim və on kənizim ilə vəzirin yanına köməyə qaçdım.

Vəzir bizi gəmiyə otuzdurub dedi: «Qaç, buralardan uzaq ol, özünü qoru və mən bu bic vələdüzzinanın axırına çatmamış buralarda görünmə». İndi, artıq on gündür ki, biz dənizdəyik».

Qızın əhvalatını heyrətlə dinləyib dedim: «Ey gözəl, mən sənin qulluğunda durmağa hazıram». Qız dedi: «Sən mənə kömək edib, səmimi yoldaşlıq etsən, inan ki, bizim çox xoşbəxt həyatımız ola bilər». Dedim: «Nə qədər ömrüm var, sənin qulunam». Qız mənə minnətdarlığını bildirdi, bu zaman onun dayəsi oyandı və məni görüb soruşdu: «Bu gənc kimdir?» Qız məndən eşitdiyi əhvalatı olduğu kimi danışdı, dayə buna çox sevindi. Başımıza gələnləri, düşdüyümüz vəziyyəti götür-qoy edib dedim: «Sən gənc və artıq həddi-buluğa çatmış bir qızsan, mən də yetkin bir yeniyetməyəm. Bu yaşımızda, şübhəsiz ki, heç bir hiss bizə də yad deyildir və bizim günah, çirkab işlətmədən bir arada yaşamağımızın bircə yolu vardır». Qız soruşur: «Bu hansı yoldur?» Dedim: «Ən doğrusu, bizim evlənməyimiz olar. Onda mən də sənin qanuni ərin kimi gecə-gündüz qulluğunda dura bilərəm».

Qız mənim təklifimi qəbul etdi və biz evləndik. Ailəliyin on gününü şərbət kimi içdik. On birinci gün dənizdə doqquz gəmi, sonra sahil və şəhər göründü. Sən demə, bu şəhərin sakinləri adamyeyən zəncilər imiş. Biz sahilə yaxınlaşanda minlərlə yaraqlanmış-yasaqlanmış adamyeyən öz gəmiləri ilə bizim gəmiyə hücum etdilər. Mən də yaraqlanıb-yasaqlanıb döyüşə girdim. Zövcəm dayəsinə və kənizlərinə əmr etdi ki, kişi paltarı geyinsinlər. Mən var - gücümlə vuruşurdum və çox zənci öldürdüm, amma onların ardı-arası kəsilmirdi, sonları görünmürdü, yeni-yeni dəstələr bir-birini əvəz edirdi. Sonda onlar bizim gəmini əhatəyə aldılar və bizim ümidimiz hər yerdən kəsildi. Mən o aycamal, gözəl zövcəmə dedim: «Ey gözümün nuru, demək, bizimki buraya qədərmiş». Qız acı-acı ağladı, barmağındakı yaşma daşlı iki üzükdən birini çıxarıb mənə uzatdı və dedi: «Bu üzüyü məndən yadigar götür, xilas olsan, bizi xatırladar sənə». Bu sözlər ürəyimə ox kimi sancıldı, üzüyü barmağıma taxıb döyüşə girdim. Bütün gecəni səhərəcən özümü müdafiə etdim, səhər isə qəfildən göyün üzünü qırmızı buludlar ört-

dü və onlardan qırmızı qığılcımlar tökülməyə başladı. Təxminən, bir saat ərzində bu qığılcımlar hər nə var idi, bizə hücum edənləri, onların gəmilərini, bizim gəmini içindəki adamları ilə bir yerdə məhv etdi. Ancaq mən və zövcəm sağ-salamat qaldıq, bizi xilas edən isə barmaqlarımızda olan yaşma daşlı üzüklərimiz idi, çünki yaşma daşı sudan, oddan qoruma qüdrətinə malikdir. Bizim gəmimiz də məhv olduğu üçün suyun üzündə özümüzü zor ilə saxlayırdıq, gah suyun altına batır, gah suyun üzünə çıxırdıq, nəhayət, su ilə üzən bir taxta parçası gördüm, qızın qolundan dartıb taxtanın üstündə otuzdurdum, sonra özüm də taxtanın üstünə çıxdım, biz birtəhər sahilə çıxdıq. Sahilə çıxan kimi zəncilər bizi tutub hökmdarlarının yanına apardılar.

Hökmdar iri cüssəli, heybətli, cəhənnəm gözətçisinə bənzəyən bir zənci idi. O öz taxtında əyləşmişdir və bizdən soruşdu: «Ey alçaq bədxahlar, siz kimsiniz, haradan gəlmisiniz? Axı sizə görə mənim oğlum öz ordusu ilə yanıb kül oldu!» Mən dilləndim: «Şah sağ olsun, biz tacirlər zümrəsindənik, bacı-qardaşıq, sizin adamlar heç bir günahımız olmadan hücum edib bizi buraya gətirdilər».

Mən danışanda təsadüfən qadınlara aid olan tərəfin pərdəsi aralandı və mən pərdənin arxasında matəm içərisində oturmuş əlliyə yaxın qadın gördüm. Onların arasında filə bənzəyən, bir iri zənci qadın oturmuşdu. O qadın pərdənin arxasından çıxıb, ağlaya-ağlaya hökmdara yaxınlaşıb dedi: «Mənim oğlumu məhv etmiş o mənfur bədxahlar haradadırlar?» Ətrafdakılar ona bizi göstərdilər. Bu qorxunc zənci nərə çəkdi: «Onların ikisini də mənə ver, mən onları dişlərimlə parçalayıb yeyim. Onlara elə zülm verim ki, göydə uçan quşlar da lərzəyə gəlib ağlasın». Hökmdar bizi ona təhvil verdi, o isə öz növbəsində əmr etdi ki, bizi qadınlar olan tərəfə aparsınlar və bizi orada bir zindana atıb qıfıllasınlar. Bir azdan açarın səsi eşidildi, həmin qara, heybətli zənci qadın içəri daxil olub gəlib bizim qarşımızda oturdu. Dedi: «Necədir vəziyyətiniz?» Dedim: «Bundan pis ola bilməz». O dedi: «Deyin görüm nəyi seçirsiniz? Mən sizi öldürə də bilərəm və ya var-dövlət bəxş edib azad edə bilərəm». Mən dedim: «Əlbəttə, biz sizin bizi azad etməyinizi seçərik». O vahimə-

li qadın dedi: «Elə olan halda sən mənim sevgilim olmalısan, məni sevməli, mənə nəvazişlər göstərməlisən. Əgər bu işin öhdəsindən layiqincə gələ bilsən, hesab et ki, istədiyinizə çatmışınız». Qadına minnətdarlığımı bildirib dedim: «Mən sənin şərtinə əməl edə bilmərəm». O soruşdu: «Nəyə görə?» Dedim: «Ona görə ki, biz günah işlər görmürük. Bundan başqa, hökmdar bundan xəbər tutarsa, bizi parçalayar». Qadın məni dinləyib ucadan dedi: «Sən mənim dediyimə əməl etsən, mənim tələblərimi yerinə yetirsən, sizin təhlükəsizliyinizi tam təmin edəcəyəm». Mən cavab verdim: «Belə olan halda mən razıyam». Mən ona bütün tələblərini yerinə yetirəcəyimə, hər əmrinə tabe olacağıma söz verdim. O getdi və birinci gecə qarovulu keçəndən sonra qayıdıb qarşıma ərinin kəsilmiş başını qoyub dedi: «Sənə olan məhəbbətimin yolunda hökmdarın başını kəsdim. İndi sənin qorxmağın üçün heç bir əsas yoxdur». Mən bu bədheybət qadına dedim ki, bu günü ötürmək lazımdır, əgər sabah qətlə yetirilmiş hökmdara görə haray-həşir qalxmasa, mən onun bütün istəklərini böyük məhəbbətlə yerinə yetirəcəyəm. O mənimlə razılaşdı və biz səhəri gözləməyə başladıq. Hökmdarın mərmərdən tikilmiş sarayının qapıları, sarayı əhatə edən mərmər hasarın darvazası möhkəm dəmirdən idi. Bu qara zənci qadın bizi bir müddət tək qoydu, biz də bir balaca azad nəfəs ala bildik.

Səhər göylərin sultanı Məşriqdə taxtına əyləşib tacını başına qoyanda ada sakinləri hökmdarlarının öldürüldüyündən agah olub yaraqlanıb-yasaqlanıb qalanı dörd bir tərəfdən mühasirəyə aldılar. Biz qapıları, darvazaları bağladıq, mən isə onları oxla vurub, içəriyə daxil olmalarının qarşısını alırdım. Gecə düşəndə onların gücləri bir qədər tükənməyə başladı və onlar yavaş-yavaş dağılışdılar. Mən zənci qadına dedim: «İndi ki vəziyyət belədir, bizim yeganə çıxış yolumuz qaçıb şəhəri tərk etməkdir». O dedi: «Buradan düz sahilə aparan yeraltı yol vardır, sahildə isə dənizə çıxmaq üçün gəmi hazır vəziyyətdədir. Özümüzlə bacardığımız qədər qızıl-gümüş, ləl-cavahirat götürüb gəmiyə daşıyaq və gedək». Dedim: «Elə də edəcəyik».

Elə ki hava lap qaraldı, biz xəzinədən bacardığımız qədər qızıl-gümüş daşıyıb gəmiyə apardıq və yelkənləri qaldırıb yola düşdük. Yaxşı səmt küləyi əsirdi, səhər ada tərəfə baxanda gördüm ki, artıq çox uzaqlaşmışıq və adanın izi-tozu yoxdur. Mən Allaha şükürlər edib dualar oxudum. Elə ki təhlükənin sovuşduğunu görüb rahat olduq, zənci qadın yenə də mənim yaxamdan yapışdı: «İndi artıq bütün təhlükələr arxada qalmışdır və sən mənim arzu-istəklərimi yerinə yetirməlisən».

Mən astadan zövcəmin qulağına pıçıldadım: «Doğrudur, bu qadının üstümüzdə haqqı böyükdür, amma o artıq taleyinə yazılmış qədərini yaşamalıdır». Mən işarə edən kimi zövcəm onun qollarından yapışdı, mən isə ayaqlarından və biz onu dənizə tulladıq. Biz düz on gün dənizlə gedib, on birinci gün bir sahilə çatdıq. Gəmini ağaca bərkidib, sahilə düşdük. Bura bir cənnət guşəsi idi. Yaşıl çəmənliklər, buz kimi şəffaf bulaqlar, qollu-budaqlı ağaclar adamın ürəyini açırdı. Biz bu ağaclardan birinin kölgəsində özümüzə yer edib, yeyib-içib elə oradaca yatdıq. Yuxudan duranda gördüm ki, qarşımızda yüz atlı düzülmüşdür. Atlıların başında şahanə geyimdə, ay camallı bir gənc durmuşdur. Gənc və atlılar sakitcə bizi süzürdülər. Mən zövcəmi oyatdım. O, gənci görən kimi rəngi-rufu qaçdı, halı dəyişdi. Mən ondan soruşdum: «Sənə nə oldu, gözümün nuru?» O pıçıldadı: «Bu, bir bəladır başımıza gəldi. Bu, mənim atamı öldürmüş gəncdir. Sən demə, biz atamın torpaqlarına gəlib çıxmışıq». Mən onu sakitləşdirib dedim: «Qorxma, o səni bu geyimdə tanımayacaqdır».

Gənc bizə müraciət etdi: «Siz kimsiniz və haradan gəlirsiniz?» Mən dedim: «Biz iki qardaşıq, atamız yanğında həlak olub, gəmimiz isə suyun axarı ilə bizi buraya gətirmişdir». Gənc məni diqqətlə süzüb dedi: «Bu görünüşlə sən mənə qulluq etməyə layiq ola bilərsən». Mən dedim: «Əgər sən məni belə yüksək qiymətləndirirsənsə, mən ömrümün axırına kimi sənə qulluq etməyə hazıram». Onun əmri ilə bizi atlara mindirdilər, bütün xəzinəmizi yük heyvanlarına yüklədilər və biz şəhərə yollandıq. Hökmdar öz sarayında bizə otaq ayırdı və biz çox rahat gecə keçirdik.

Belə olur ki, hökmdar yuxusunu qarışdırır və heç cür yuxuya gedə bilmir. Yuxusuzluq onu o qədər incidir ki, çıxıb sarayın ətrafında gəzməyə başlayır. Çox gəzir və birdən ağlına gəlir ki, bizim otağa girsin. Bizim otağa girəndə görür ki, mənim qardaş dediyim qadın imiş. O, həmin dəqiqə vəziri çağırtdırıb deyir: «Qulluğa götürdüyüm bu qərib yolçular deyirdilər ki, qardaşdırlar, amma otaqlarına girəndə birinin qadın olduğunu gördüm. Deməli, onların bizə danışdıqları yalan imiş. Tez get, öyrən gör, onlar həqiqətdə kimdirlər».

Mən otaqdan çıxmaq istəyirdim, amma artıq gec idi, vəzir qapıda durmuşdur. O, otağa girib oturdu və dedi: «Övladlarım, yatanda qapını bağlamaq lazımdır, şah sizin otağa girib görmüşdür ki, sizdən biriniz qadındır. Bilin ki, bu gənc hökmdar çox zalımdır. Əvvəllər bizim alicənablıqda, mərhəmətdə, səxavətdə tayı-bərabəri olmayan bir hökmdarımız var idi. O bu gənci cəhənnəmin dibindən çıxarıb göylərə qaldırmışdır, o isə hökmdarımızı öldürdü. Hökmdarımızın dünyalar gözəli bir qızı da var idi. İndi bu zalımın əlindən o da məcbur olmuşdur evini-eşiyini, yurdunu-yuvasını tərk edib qürbətdə dolaşsın. Mən və mənim inandığım adamlarım indi o mələk xislətli şahzadəmizi axtarırıq, tapan kimi bu vələdüzzinanı məhv edib, onu taxtda əyləşdirəcəyik, çünki artıq bunun hökmdarlığı altında yaşamaq mümkün deyildir».

Qız bu sözləri eşidən kimi sevindi və dedi: «Sən məni tanımadın? Mən sizin şahzadəniz - öldürülmüş hökmdarınızın qızıyam». Qız başına gələnlərin hamısını danışdı. Vəzir onu tanıyıb çox sevindi və dedi: «Siz heç bir şeydən narahat olmayın, mən indi gedib əyan, əshabələrə sizin əslində kim olduğunuzu çatdıracağam, şahın isə şübhələrini dağıdacağam. Bu günü birtəhər yola verin, sabah mən şahzadəmizi taxta əyləşdirəcəyəm».

Vəzir bunları deyib özü şahın yanına yollandı və dedi: «Ey şah, narahatçılığa heç bir əsas yoxdur. O gənc etiraf etdi ki, qardaşı kimi qələmə verdiyi qadın, əslində, onun kənizidir və başqalarının yaxın düşməməsi məqsədi ilə onu oğlan kimi təqdim etmişdir. Onun bu yalanının arxasında heç bir başqa məqsəd durmamışdır».

Şah vəzirin bu sözlərindən sonra rahat oldu və getdi eyş-işrətlə məşğul olmağa. Bu arada vəzir bütün əyan, əshabələri yığıb öz hökmdarlarının itkin düşmüş qızının tapılması xəbərini onlara çatdırdı. Onlar şahzadəni görən kimi ona təzim etdilər. Şahzadə dedi: «Ey əsli-nəcabəti saf, təmiz insanlar, atamın sizin üstünüzdə haqqı böyükdür, indi isə siz öz sədaqətinizi nümayiş etdirib zalımı məhv edin!» Atasına sədaqətli olan silahlı dəstələr həmin saat gedib zalım, nanəcib hökmdarın əl-qolunu bağlayıb şahzadənin hüzuruna gətirdilər və bizim qarşımızda boynunu vurdular. Bundan sonra şahzadə öz sarayına köçdü, hökmdarlığı əlinə aldı, əyan, əshabələrə, rəiyyətə, qul-nökərlərə, kasıblara, kimsəsizlərə - hamıya ənamlar payladı. Artıq hamı ona beyət edib, onu hökmdar kimi tanıdı.

Günlərin bir günü hökmdar hamını yığıb elan etdi: «Ey dövlətin, məmləkətin qüdrəti, haqqın, ədalətin aparıcı qüvvəsi! Artıq düzgünlük qələbə çaldı. Zalım nacins cəzasını aldı, siz məni hökmdar elan etdiniz. Amma mən qadınam və mənim yerim qadınlara ayrılmış tərəfdədir. Mən istəyirəm ki, taxtda mənim ərim əyləşsin, mən isə mənə aid olan yerə keçim». Əyanlar, əshabələr təzim edib dedilər: «Sən hökmdarımızsan! İxtiyar sahibisən! Sən o taxtda kimi əyləşdirsən, biz ona tabe olub, qulluğunda duracağıq». Bundan sonra sevimli zövcəm əlimdən tutub, məni taxta əyləşdirdi və şahlıq tacını başıma qoydu. Beləliklə, mən uzun illər haqla, ədalətlə o məmləkətdə hökmdarlıq etdim.

Günlərin bir günü öz doğma məmləkətimin xiffəti məni boğdu, zövcəmdən xahiş etdim ki, mənə izin versin gedib doğma yerləri görüm. Zövcəm dedi: «İndi ki sən öz məmləkətini görməyə gedirsən, mən də səninlə gedəcəyəm. Bir yerdə gedək, bir müddət orada olaq, sonra yenə bir yerdə qayıdıb gələrik». Mən olmadığım müddət üçün öz yerimə vəzirimi təyin edib, gəminin hazırlanmasına, xeyli ehtiyat tədarükünün görülməsinə göstəriş verdim. Təyin olunmuş vaxtda zövcəm ilə məmləkətim istiqamətində yola düşdük. İş belə gətirdi ki, bizim gəmimiz dənizdə qəzaya uğradı. Mən zövcəm və nökərlərimlə qayıqla xilas olub sənin hökmdarlıq

etdiyin məmləkətə gəlib çıxdıq. Allaha şükürlər olsun ki, sən məni öz yurdunda qəbul edib, vəzir etdin.

Bax belə-belə işlər, sən dedin, mən də sənə öz əhvalatımı danışdım».

Şah o saat əmr etdi ki, bu əhvalatın üzü bir kitab şəklində köçürülsün. O hər gün bu əhvalatları oxuyub həzz alırdı.

*Bu hekayətin hikməti belədir: Yazıya pozu yoxdur. Allah dərgahında yazılmış taleyi heç kəs heç vaxt dəyişdirə bilməz. Bu, mümkün olan iş deyildir.*

## BEŞİNCİ HEKAYƏT

# Nəsri-əyyar və Xorasan şahzadəsinin hekayəti

Aqillər danışırlar ki, qədim zamanlarda çox müdrik bir hökmdar yaşayırmış. Bir dəfə hökmdarın şahzadə oğlu ovdan qayıdanda görür ki, şəhərdə qarışıqlıq vardır. Şahzadə maraqlanıb öyrənir ki, bu, Kəbə ziyarətinə hazırlaşan zəvvarlar karvanıdır. Şahzadə fikirləşir: «Bəlkə mən də Kəbə ziyarətinə yollanım?!» Şahzadə saraya qayıdıb, atasından icazə istəyir, amma atası razılıq verməyib deyir: «Sən hələ ziyarət səfəri üçün çox gəncsən və unutma ki, Allah-təala buyurmuşdur ki, hökmdarlar üçün ən üstün zəvvarlıq haqq və ədalətdir».

Əvvəlcə, şahzadə atasının cavabından pərt olur, amma sonra pərtliyi hikkə əvəz edir və öz-özlüyündə qərar verir: «Atam razılıq versə də, verməsə də, mən gedəcəyəm». Şahzadənin nökərləri hazırlıq görməyə başlayırlar. Şah oğlunun qərarından xəbər tutan kimi onun yanına yollanır və nə qədər çalışsa da, şahzadəni fikrindən daşındıra bilmir. Oğlunun öz fikrində israrlı olduğunu görən şah xəzinənin qapılarını açdırıb ona külli-miqdarda vəsait verib deyir: «Bağdada çatanda Nəsri-Əyyarı axtar, tap. O mənim dostumdur və çox alicənab insandır».

Şahzadə karvanla Hicaza yola düşür. Karvan bir az yol getmişdir ki, onlara quldurlar basqın edilər. Quldurlar karvanı yağmalayır, şahzadə isə yoldaşları ilə bir təhər özünü Bağdada çatdırır. Onlar yorğun, əldən düşmüş halda Nəsri-Əyyarın evinə yetişirlər.

Nəsr çox böyük var-dövlət sahibi idi, onun alicənablığı, nəcibliyi isə dillərdə dastan idi. Nəsr şahzadəni görən kimi onu yoldaşları ilə evinə dəvət edir, onları diqqət, qayğı ilə əhatə edir, göstəriş verir ki, gözəl bir süfrə açılsın. Axşam düşəndə Nəsr şahzadənin otağında çıraq yandırıb onun yaralarının üstünə məlhəm qoyur. Bu məlhəm şahzadənin yaralarının sağalmasını çox tezləşdirir. Şahza-

dənin karvanı Bağdadda olan müddətdə Nəsr ona ağlasığmaz diqqət, qayğı göstərir.

Şahzadə bir az özünə gəldikdən sonra karvanı ilə Məkkəyə yollanır və yeddi aydan sonra zəvvarlarla geri qayıdır. Bu müddətdə şahzadənin yaraları da artıq tam sağalmışdır. Şəhərdə o, hamama gedib yuyunur və Nəsrin evinə yollanır. Yolda o, təsadüfən bir evin eyvanında çox gözəl bir qadın görür və bir könüldən min könülə ona aşiq olur. O, qadının gözəlliyinə o qədər valeh olmuşdur ki, huşunu itirib yıxılmışdır. Həmin vaxt yaxınlıqdan keçən Nəsr bunu görüb fikirləşir ki, şahzadə, yəqin ki, hamamdan sonra zəifləyib və əmr edir ki, onu evə aparsınlar. Evdə onun üzünə gülab çiləyirlər, şahzadə özünə gəldikdə Nəsr deyir: «Sən hələ çox zəifsən, istirahət et». Şahzadə deyir: «Xeyr, mən huşumu zəiflikdən itirməmişəm». Nəsr soruşur: «Bəs huşunu itirməyinin səbəbi nədir?» şahzadə cavab verir: «Mən bir evin eyvanında çox gözəl bir xanım gördüm və ona elə aşiq oldum ki, huşumu itirdim». Nəsr soruşur: «Sən o gözəli hansı evin eyvanında görmüsən?» Şahzadə deyir: «Sənin evinin qonşuluğundakı evin eyvanında». Nəsr o saat başa düşür ki, söhbət onun öz zövcəsindən gedir və deyir: «Qəm etmə, mən bilirəm o kimin qızıdır və nəyin bahasına olursa-olsun, səni ona qovuşduracağam». Şahzadə çox sevinir, Nəsr isə onu burada qoyub özü qaldığı evə yollanır. Evdə o, xanımını çağırıb deyir: «Xanım, bu günə kimi sən mənim zövcəm idin. Sən çox ləyaqətli qadınsan, mən səndən yerdən-göyədək razıyam, amma indi biz ayrılmalıyıq və sən atan evinə qayıtmalısan, mən sənin mehr və süd pulunu artıqlaması ilə verəcəyəm». Qadın soruşur: «Axı mənim günahım nədir?» Nəsr deyir: «Sənin heç bir günahın yoxdur, adicə olaraq sənə olan bağlılığım tükənmişdir». Qadın acı göz yaşları tökür. Nəsr deyir: «Sənin göz yaşların heç bir şeyi dəyişdirə bilməyəcəkdir». Bunu deyib o, mehr, süd pulunu verib, üç dəfə: «Ət-təlaq»,- deyib zövcəsini atası evinə yola salır.

Qadının atası arşınmalçı idi. Qızının qayıtdığını görüb çox pəjmürdə olub soruşur: «Qızım, düzünü de, sən nə etmisən ki, ərin səni boşamaq qərarını vermişdir?» Qadın and-aman edib cavab verir: «Mən heç bir nalayiq iş görməmişəm». Onda qızın atası qohum-

əqrəbası ilə Nəsri-Əyyara müraciət edirlər: «Sən bizə de görək, qızımızın günahı nədir, biz də ona uyğun onu cəzalandıraq». Nəsr and içir, aman edir ki, qadının heç bir günahı yoxdur. O deyir: «Qismət belə imiş», amma qızın atası bu vəziyyətlə heç cür barışa bilmir, çox fikir edirdi. Nəsr isə dörd ay, on günün keçməsini gözləyirdi. Şahzadə də öz növbəsində bütün bu müddəti həsrət içində nə vaxt isə o aycamal gözələ qovuşmaq ümidi ilə günlərini qonşu evin eyvanına baxmaqla keçirirdi. Nəsr onu sakitləşdirir, ümid verirdi. Vaxt tamam olanda o, şahzadəyə deyir: «Bil ki, o eyvanda gördüyün gözəl bir arşınmalçının qızıdır. O çox ağıllı, ləyaqətli qızdır. Mən sənin yanına bir arakeş qarı göndərəcəyəm, sən də onu qızın atasının yanına göndər ki, sənin təklifini ona çatdırsın». Nəsr gedib, onun yanına bir qarı göndərir. Şahzadə qarıdan xahiş edir ki, tacirin evinə gedib, qızını ona istəsin. Qarı tacirin evinə yollanıb hal-qəziyyəni danışır və bir gəncin qızına elçi düşdüyünü söyləyir. Qızın atası bu xəbəri eşidən kimi razılıq verir. Nəsri-Əyyar isə canla-başla bu toyun bütün tədarüklərini öz boynuna götürür və toyun təşkilinə bu başdan min qızıl dinar xərcləyir. Qızın qulağına xəbər çatır ki, bu izdivacın baş tutmasında, toyun təşkilində Nəsri-Əyyarın müstəsna xidməti vardır. İşlərin bu gedişatına tacir də çox sevinir, o fikirləşir: «Allaha çox şükür! Əgər Nəsr qızımı boşayıb, indi isə onun başqası ilə toy tədarüklərini öz boynuna götürmüşsə, deməli, qızımın getdiyi adam çox adlı-sanlı bir adamdır. Nəsr isə onun əlinin altında işləyənlərdən biridir!»

Sözün qısası, Nəsr can-dildən toy tədarükü ilə məşğul olurdu və bu işə külli miqdarda qızıl xərcləyirdi. Danışırlar ki, o, şahzadəyə on top ipək-atlaz, şal-qumaş, beş kisə qızıl göndərmişdir ki, o da öz növbəsində onları tacirin qızına göndərsin. Toydan sonra Nəsr gedib gəlini evə gətirir və onu şahzadənin yanında əyləşdirir. Təzə gəlin vəziyyəti belə görüb, sevinib dodaqaltı deyir: «Allaha şükürlər olsun! Bu ərim də hörmət-izzət yiyəsidir. Elə olmasa idi, Nəsri-Əyyar belə canfəşanlıq etməzdi. Ərimin mənə rəva bildiyi adam mənim başımda olanları eşitsə, məni bacı kimi qəbul edər». Bu sözləri eşidən Nəsr təəccüblənir, şahzadə isə özünü eşitməməz-

liyə vurur. Hamı, o cümlədən Nəsr gedəndən sonra şahzadə təzə gəlindən soruşur: «Düzünü de, sən nə demək istəyirdin? Dediyin sözlərin mənası nə idi?» Gəlin şahzadənin sualına cavab vermir, onlar bütün gecəni mübahisədə keçirirlər, amma şahzadə heç cür onu maraqlandıran suala aydınlıq gətirə bilmir. Səhər açılanda Nəsr onlara cürbəcür təamlar göndərir. Gəlin əri ilə səhər süfrəsində əyləşib, onunla qəlyanaltı etmək istədi, amma şahzadə etiraz edib dedi: «Mənə həqiqəti deməyənəcən, Allaha nəyə görə şükür etdiyini və məni Nəsr ilə nə səbəbdən müqayisə etdiyini aydınlaşdırmayanacan səninlə bir tikə də kəsməyəcəyəm». Gəlin məcbur olub, olanların hamısını təfsilatı ilə danışmalı oldu. Şahzadə hər şeyi başa düşür və Nəsrin alicənablığının, nəcibliyinin sonsuzluğuna heyrət edir. O, öz-özlüyündə Nəsrin qarşısında xəcalət çəkir. Zövcəsi ilə səhər yeməyini yeyib deyir: «Mən and vermişəm ki, gəlinimi valideynlərimin hüzuruna aparmayanacan, onların xeyir-duasını almayanacan onunla yaxınlıq etməyəcəyəm. Sən də bu arada kənizlərinlə məşğul olsan, yaxşı olar». Şahzadə xanımını hərəmxanaya yola salır. Özü isə hər gün məscidə gedir, ibadətlə məşğul olur.

Bir dəfə şahzadə Nəsri-Əyyarın yanına gəlib deyir: «Sən mənə alicənablığın, nəcibliyin ən yüksək zirvəsini göstərdin, indi isə izin ver, sənə minnətdarlığımı bildirib valideynlərimin yanına qayıdım. Onlar üçün çox darıxmışam». Nəsri-Əyyar cavab verir: «İxtiyar sahibisən». O, yol tədarüklərinin görülməsinə göstəriş verir. Hər şey hazır olanda şahzadə zövcəsi ilə yola düşür. Nəsri-Əyyar onları birinci dayanacağa kimi yola salır. Onlar vidalaşanda şahzadə barmağındakı üzüyü çıxarıb ona uzadır və deyir: «Bu üzüyü məndən yadigar kimi saxla. Birdən çətinliyə düşsən, bəlkə, gərəyin olar, dadına çatar». Nəsr üzüyü götürüb, şahzadə ilə vidalaşıb evinə qayıdır.

Şahzadə məmləkətinə qayıdıb valideynləri ilə görüşür. Onların sevinclərinin həddi-hüdudu yox idi. Atası şahzadəni taxta əyləşdirib, başına hökmdarlıq tacını qoyub bütün idarəçiliyi ona tapşırır. Şahzadə dövləti haqq-ədalətlə idarə etməyə başlayır. O, xalqına qarşı mərhəmətli və səxavətli idi. Nəsri-Əyyarın xanımını isə anasının yanına göndərir ki, adına ləkə gəlməsin. Şahzadə xanıma tez-

tez hədiyyələr göndərsə də, onunla heç ünsiyyətə girmirdi, üzünü görmürdü.

Çərxi-fələk elə çönür ki, Nəsri-Əyyarın işləri tərs gedir. Onu olmazın şər, iftira atıb möminlərin əmiri - xəlifənin gözündən salırlar. Xəlifə onun əlindən hər şeyi alır. Nəsr müflis olub quru yurdda qalır. O tez-tez deyirdi: «Ləyaqətli, namuslu zövcəmlə bərabər məni xeyir-bərəkət də tərk etdi». Axırda iş o yerə gəlib çatır ki, onun heç bir dənə arpa dənəsi də qalmır, o elə rəzil günə düşür ki, utandığından şəhəri tərk etməli olur. Onun kənd-kənd gəzib camaatdan çörək dilənməkdən başqa çarəsi qalmamışdır. Nəsri-Əyyarın əlində ancaq şahzadənin ona bağışladığı üzük qalmışdır. Bir dəfə o, üzüyə baxıb fikirləşir: «Bəlkə Xorasana gedim, nə qədər olmasa, şah mənim köhnə dostumdur, bilmək olmaz, bəlkə, əlimdən tutar, bu çətinlikdən məni çıxarar». Nəsri-Əyyar bunu düşünüb Xorasana tərəf üz tutur. Şahzadənin də məmləkətə qayıtdığını eşidib sevinir, amma o saat fikirləşir: «Görəsən məni bu vəziyyətimdə qəbul edərmi?» Bu fikirlə o, üzüyü barmağından çıxarıb, nökərlərdən birinə verir ki, şahzadəyə çatdırsın. Şah üzüyü görən kimi başa düşür ki, Nəsri-Əyyar gəlmişdir və onun vəziyyəti heç də yaxşı deyildir. Şah uzaqdan Nəsri-Əyyarı seyr edib görür ki, o çox pis vəziyyətdədir. Şah göstəriş verir ki, Nəsri-Əyyara bir sürü qoyun verib desinlər ki, şah buyurub ki, Nəsr bir il bu sürünü otarsın. Nəsr öz-özünə fikirləşir: «Bəli! Deməli göstərdiyim ehtiramın, hörmətin müqabilində mənə bunu rəva görürsən?! Məni çobanlıq etməyə göndərirsən! Nə olar! Allah böyükdür! Mən Allahın əmrindən çıxa bilmərəm. Çobanlıq da edərəm. Görək tale bizə daha nə hazırlamışdır». Nəsr qoyunları qabağına qatıb şəhərdən çıxır və otlağa çatıb qoyunları otarmağa başlayır. İl başa çatanda, vaxt tamam olanda Nəsrin qoyunlarından heç bir dənəsi də qalmamışdır. Şah bunu eşidib yenə əmr edir ki, Nəsri-Əyyara daha yüz qoyun versinlər. Nəsr bu dəfə də sürünü qabağına qatıb otlağa yollanır, amma bu dəfə qoyunun hər biri iki bala verir. Nəsr şəhərə qayıdanda şah görür ki, hər qoyunun yanında iki balası var. Onda şah əmr edir ki, Nəsri hamama aparsınlar, camadarlar onu yuyundursunlar, şahlara layiq paltarlar verib

geyindirsinlər, qızıl üzəngili, qızıl saplarla işlənmiş yəhərli, yüyənli ata mindirsinlər və saraya gətirsinlər.

Şah özü Nəsrin pişvazına çıxır, uzaqdan Nəsrin gəldiyini görüb atdan düşür, onu qarşılayıb saraya gətirir. O, Nəsrə yüz dəst şahlara layiq paltar, yüz kisə qızıl, əlli cins at, əlli qatır, əlli dəvə, iyirmi Xətay qulu, on Yəğma kənizi bağışlayır. Bundan sonra o, məlum şəraitdə ona qismət olmuş, Nəsrin ona görə boşadığı zövcəsini təzədən boşayır, möhtərəm qonağını isə üç ay yanında saxlayır.

Günlərin bir günü şah Nəsri-Əyyara deyir: «Mənim əziz dostum, mənim bir bacım var, mən səninlə qohum olmaq istəyirəm və təklif edirəm ki, sən onunla evlənəsən». Nəsri-Əyyar deyir: «Səni and verirəm o uca Allaha, məni bu qədər xəcil etmə, mən bu qədər hörmətə, ehtirama layiq deyiləm, mən səninlə qohum olmağa layiq olan birisi deyiləm». Şahzadə deyir: «Yox, elə söz demə, sən onunla evlənməlisən, bu müzakirə olunacaq məsələ deyildir». O, vəkili çağırıb, onların nikahlarını kəsdirir və qadına xəbər göndərir: «Toy vaxtı yetişmişdir, hazırlığını gör, toydur». Kənizlər qadını elə bəzəyib, elə süsləyirlər ki, ay aylığı ilə onu görsə, xəcalətindən üzə çıxmazdı. Şah əmr edir ki, onun öz sarayını təzə bəylə gəlin üçün hazırlasınlar. Şah əyan, əshabələrin müşayiəti ilə Nəsri gəlinin otağına aparır və adət-ənənəyə uyğun olaraq, onların əllərin tutub birləşdirir. Daha sonra o, bəylə gəlinin başından qızıl-gümüş pullar səpir. Onun səpdiyi bu ləl-cavahiratın qiymətini Allahdan başqa heç kim bilmirdi. Gəlin niqabının altından baxıb Nəsri-Əyyarı tanıyır və bu işə məəttəl qalır. Nəsri-Əyyar da niqabı qaldırıb öz zövcəsini görəndə təəccüblənir. Onlar sevinclərindən qışqırıb huşlarını itirirlər. Səsə nökərlər qaçıb gəlirlər, onların üzlərinə gülab səpirlər. Nəsri-Əyyar və onun zövcəsi özlərinə gəlib, bir-birlərinə sarılıb hönkür-hönkür ağlayırlar. Bir az özlərinə gəldikdən sonra onlar bir-birlərinə suallar yağdırmağa başlayırlar. Qadın ərinə deyir ki, şahzadə ona barmağı ilə belə toxunmamışdır və üzünü də bircə dəfə - Bağdadda Nəsr onların əllərini birləşdirəndə görmüşdür. Nəsri-Əyyar şahın alicənablığı, nəcibliyi, böyüklüyü qarşısında, zövcəsinin ləyaqəti, namusu qarşısında heyran qalmışdır. Nəsri-Əyyar başına gələn

bütün müsibətləri sevimli zövcəsinə danışır, onlar bir-birlərinə sarılıb ağlayırdılar.

Səhər açılanda şah onlara çoxlu ənam və nəfis təamlar göndərir, sonra isə özü də onların yanına gedib Nəsri-Əyyardan üzr istəyir. Nəsri-Əyyar deyir: «Ey şah, sənin mənə etdiklərini heç kim, heç vaxt etməmişdir». Şah cavab verir: «Xeyr! Sənin mənim üçün etdiklərini heç kəs heç vaxt heç kəs üçün etməmişdir və edə də bilməz». Bundan sonra şah Nəsri özünə vəzir təyin edir və Nəsr ömrünün sonunadək sədaqətlə şaha qulluq edir. Sonda onların hamısı bu fani dünyanı tərk edirlər. Vaxt gələndə biz də bu fani dünyanı tərk edəcəyik.

*Bu hekayətdən çıxan nəticə belədir: insanlara olunan yaxşılıq, xeyirxahlıq heç vaxt itmir və tez-gec yüz misli ilə qayıdır.*

## ALTINCI HEKAYƏT

# Zeyn əl-Əsnam və cinlər padşahının hekayəti

Belə nağıl edirlər ki, Bəsrə şəhərinin çox qüdrətli bir hökmdarı var idi. Allah ondan heç bir neməti əsirgəməmişdi. Onun oğuldan başqa hər bir şeyi var idi. O, çox dua edir, çox nəzir-niyaz paylayır, axırda Allah ona elə bir oğul bəxş edir ki, heç bir şahın onun tayı-bərabəri oğlu yox idi.

Şah oğlu doğulanda çox sevinir, o, Allaha çox şükürlər edir, fağır-füqəraya çox nəzir-niyaz paylayır. O, oğluna Zeyn əl-Əsnam ("Bütlərin zinəti") adını verir, münəccimləri dəvət edib oğluna himayədarlıq edən ulduzların xəritəsini qurmağı buyurur. Münəccimlər deyirlər: «Ey şah, sənin oğlun uzun bir ömür yaşayacaqdır, doğrudur, onun ömrünün bir hissəsi kasıbçılıq və köçərilikdə keçəcəkdir, amma sonda onun ad-sanı, şan-şöhrəti yenə də göylərə yüksələcəkdir».

Şah bu sözləri eşidib çox sevinir və deyir: «Məndən sonra oğlumun taxt-taca yiyələnib hökmdarlıq edəcəyini bilmək, düşmənlərimin yurduma, elimə, məmləkətimə yiyələnməyəcəklərinə əmin olmaq məni tam qane edir». Münəccimlər deyirlər: «Bəli, sənin taxt-tacın oğluna çatacaqdır».

Şah uşağı dayələrin himayəsinə verir, dayələr onu naz-nemət içərisində bəsləyirlər. Elə ki, uşaq on yaşına çatır, onu məktəbə verirlər. Uşaq bu məktəbdə şahzadələrə gərək olan bütün təlimlərə, biliklərə, elmlərə, vərdişlərə yiyələnir. Bundan sonra Bəsrənin hökmdarı bütün idarəçiliyi və xəzinənin açarlarını oğluna təhvil verir. Zeyn əl-Əsnam isə vaxtını eyş-işrətdə keçirirdi. Hökmdarın vaxtı tamam olanda həyat karvanı sonuncu yoluna qədəm qoyanda şah oğlunu çağırıb deyir: «Oğlum, gözümün nuru, mən gedər-gəlməz yola qədəm qoyuram, bu, həyatın qanunudur, bir gün gələn bir gün gedəcəkdir, hamımızın sonu budur. Sən isə atanın nəsihətlərinə diqqətlə qulaq as və qulağına sırğa et. Elə yaşa ki, dostların sevinsin,

düşmənlərin isə həsəddən ölsünlər. Eyş-işrətdən, israfçılıqdan uzaq dur, heç vaxt həqiqətdən üz çevirmə. Mən sənə çox var-varidat qoyuram, amma onlara ancaq ehtiyacın olanda əl uzat».

Hökmdar vəsiyyətini edib canını tapşırır. Oğlu atasını torpağa tapşırıb matəm elan edir. Matəm bitdikdən sonra şahzadə anasının yanına gedib xəzinənin açarlarını istəyir. O, xəzinənin qapılarını açıb üzərinə öz möhürünü vurur. Bundan sonra o yenə günlərini eyş-işrətdə keçirməyə davam edir. O nə təbəəsi ilə maraqlanır, nə rəiyyətinin qeydinə qalır, nə haqq-ədalətin bərqərar olmasına nəzarət edir, nə də dövlət işləri ilə məşğul olurdu. İş o yerə çatır ki, təbəə qiyam edib onu devirir və taxta onun qohumlarından birini otuzdurur.

Zeyn əl-Əsnam həyatından çox razı idi. Onu bu həyat qane edirdi. O, həyatdan istədiyi zövqü alırdı, atasından qalan xəzinəni sağa-sola dağıdırdı. Artıq vəziyyət o yerdə idi ki, saraydakı xalılar, ev əşyaları, torpaq sahələri də satılmışdı, ətraf isə ondan üz döndərmişdi. Zeyn əl-Əsnam elə rəzil vəziyyətə düşmüşdü ki, əyninə geyinmək üçün paltarı da qalmamışdı, buna görə evdən çölə çıxa bilmirdi. Anasının ürəyi qubar bağlamışdı, qan sızırdı. O, bir dəfə oğluna deyir: «Ey gözümün nuru, sən böyük bir xəzinəni xərcləyib dağıtdın, indi də belə acınacaqlı vəziyyətə düşmüsən». Zeyn əl-Əsnam anasının bu sözlərindən inciyib yatmağa gedir. Zeyn əl-Əsnam yatıb yuxuda görür ki, göydən bir nurani qoca enib ona deyir: «Dərd çəkmə, məgər sən bilmirsən ki, hər gecədən sonra gündüz, hər şərdən sonra xeyir gəlir. Səni təqib edən bu bəlalardan qurtulmaq istəyirsənsə, Misirə yollan, sən orada külli miqdarda var-dövlətə yiyələnəcəksən».

Səhər açılanda o, anasının hüzuruna gedib gördüyü yuxunu ona danışır. Anası deyir: «Bu, həqiqət olsa idi, çox gözəl olardı!» Zeyn əl-Əsnam deyir: «Mən gedəcəyəm». Anası cavab verir: «İxtiyar sahibisən». Zeyn əl-Əsnam anasından xeyir dua alıb vidalaşır və yola düşür.

Uzun yol keçəndən sonra o, Qahirəyə gəlib çatır və orada bir məscidə girib bir küncdə yuxuya gedir. O bu dəfə də yuxuda həmin qocanı görür. Qoca deyirdi: «Dur, Bəsrəyə yollan. Sən orada bütün istədiklərinə yetişəcəksən. Səni buraya nə dərəcədə itaətkar oldu-

ğunu yoxlamaq üçün gətizdirdilər. İndi isə dur, Bəsrəyə qayıt, orada, sizin evin döşəməsinin altında böyük bir xəzinə basdırılmışdır. Mənim dediklərimə şübhə etmə». Qoca bu sözləri deyib qeyb olmuşdur.

Zeyn əl-Əsnam ayılıb həmin saat Bəsrəyə qayıdır və evinə gedir. Anası onu qarşılayıb, qayıtmasına bir tərəfdən sevinir, digər tərəfdən təəccüblənir. Tez süfrə açır və oğlunun qarşısında əyləşir. Zeyn əl-Əsnam anasına Misirə gedib, bir məsciddə yuxuya getdiyini və yuxuda yenə də həmin qocanı gördüyünü danışır.

Anası deyir: «Qəm etmə, oğul, Allah-təala qismətinə nə yazmışsa, o da olacaqdır. Olacağa çarə yoxdur». Gecə düşəndə şahzadə yatmağa yollanır və yenə də yuxusunda həmin nurani qocanı görür. Qoca deyir: «Ey gənc, qalx evinizin döşəməsini qazmağa başla, sən orada elə bir xəzinə tapacaqsan ki, kasıbçılığın daşını birdəfəlik atacaqsan».

Şahzadə yerindən dik atılır və anasının yanına gedib yuxusunu ona danışır. Səhər açılan kimi o, ling götürüb evin döşəməsini qazmağa başlayır, amma heç bir şey tapmır. Bir az istirahət edib, ara verdikdən sonra yenə işinə davam edir və nəhayət, lingin bir yastı, sal daşa dirəndiyini görür. Zeyn əl-Əsnam daşı qaldıranda üstündə polad qıfıl asılmış bir qapı görür. O, qıfılı sındırıb, qapını açır və divarları əhənglənmiş böyük bir otağa aparan mərmər pilləkənlərlə aşağıya düşür. O, çıraq gətirib otağa göz gəzdirir və görür ki, otağın hər dörd divarı boyunca on dənə küp düzülmüşdür. Deməli, cəmi qırx küp var idi. O, bu küplərdən birini açıb görür ki, o ağzınacan qızıl ilə doludur. Şahzadə çox sevinir və bir ovuc qızıl götürüb anasının yanına qaçır. O, anasına deyir: «Canım anam, gör mənim nə qədər sərvətim vardır». Anası deyir: «Oğlum, mənim məsləhətlərimə qulaq as və özünü əvvəlki kimi aparma, yoxsa, yenə də əvvəlki vəziyyətinə düşüb düşmənlərini sevindirərsən». Şahzadə deyir: «Canım anam, burada elə bir sərvət, elə bir xəzinə var ki, mən onu gecə-gündüz sağa-sola xərcləsəm, tükənməyəcəkdir, amma mən yenə də sənin dediklərinə əməl edib, heç bir sözündən çıxmayacağam».

Sonra şahzadə anasını tapdığı xəzinəyə aparır. Anası buradakıları görüb çox sevinir, çox şad olur. Şahzadə küpdəki qızıllardan

bir qədər götürüb satdıqlarının hamısını geri qaytarır, hər şeyi bərpa edib, ləyaqətlə yaşamağa başlayır.

Bir dəfə şahzadə xəzinə olan otağa düşür və görür ki, küplərdən biri sınıqdır və onun alt hissəsi torpağa basdırılmışdır. Şahzadə küpün altını qazmağa başlayır və görür ki, orada bir qapı vardır. O, qapını açanda arxasında bir dənə də qapının olduğunu görür. Bu qapını açanda isə şahzadə görür ki, burada zirzəmiyə aparan bir dəhliz vardır. Zirzəmiyə düşəndə isə burada qızıl qıfıllı doqquz sandıq görür. Şahzadə sandıqlardan birini açanda görür ki, burada çox qiymətli yaqut daşlarla işlənmiş büt vardır. Sonra o, digər sandıqları da açır və görür ki, hamısının içində eyni bütdən vardır. Zeyn əl-Əsnam bu gördüklərinə mat qalmışdır. O fikirləşir: «Görəsən, atam bu qədər var-dövlətə necə yiyələnmişdir?» Zeyn əl-Əsnam sandıqlardan birini açanda içərisində üzərində yazı olan ağ ipək görür, ipəyin üzərində yazılmışdır: «Oğlum, bil ki bu var-dövlət bizə çox baha başa gəlmişdir, amma bu bütləri tapdığımız yerdə bu doqquz bütün ümumi dəyərindən də qiymətli olan onuncu büt vardır. Sağlamlığım yol vermədi, ömür vəfa etmədi ki, o bütə də yiyələnək. Əgər sən ona yiyələnmək istəsən, bil ki, Misirin bir məhəlləsində, Mübarək adında bir qulumuz yaşayır, o sənə onuncu bütün yerini göstərə bilər».

Zeyn əl-Əsnam məktubu oxuyub onu anasına göstərir və ondan izin istəyib Misirə yollanır. Misirə çatıb Mübarəkin yaşadığı məhəlləyə yollanır, onun yaşadığı evi tapıb qapısını döyür. Mübarək qapını açıb qonağı görəndə sevindiyindən qışqırır: «Ey möhtərəm qonaq, sən o mübarək qədəmlərin ilə məni çox şərəfləndirdin! Mənə görə nə qulluğun vardır?» Zeyn əl-Əsnam deyir: «Mən filan padşahın oğluyam, atam mənə vəsiyyət qoymuşdur. Mən onu bu yaxınlarda tapmışam, orada yazılmışdır ki, ehtiyacım olarsa, Misirə, Mübarəkin, yəni sənin yanına gəlim, ehtiyacımı bildirim. Sən mənə lazımi kömək göstərəcəksən».

Mübarək deyir: «Mən vaxtı ilə sənin atanın qulu olmuşam, amma onun oğlu olduğunu bilmirdim». Zeyn əl-Əsnam deyir: «Mən sən Misirə gedəndən sonra dünyaya gəlmişəm». Mübarək deyir: «Əgər sən, həqiqətən, o möhtərəm hökmdarın oğlusansa, bizim ara-

mızda olan sirdən xəbərin olmalıdır. Onu mənə danış, mən də sənə inanım».

Zeyn əl-Əsnam deyir: «Bil və agah ol ki, atamın qızıl ilə dolu qırx küpü, hərəsinin içərisində çox qiymətli yaqut daşlarla işlənmiş büt olan qızıl qıfıllı doqquz sandığı vardır və mən də atamın mənə yazdığı vəsiyyəti o sandıqlardan birinin içərisində tapmışam». Bu sözləri eşidən Mübarək yerindən sıçrayıb şahzadənin ayaqlarına düşür, təzim edib, əllərindən öpməyə başlayır. O deyir: «Şükürlər olsun yerin-göyün sahibi uca Allaha, səni görmək mənə nəsib oldu! Atana əcəl aman vermədi ki, məni azad etsin, bəlkə sən məni azad edərsən». Bunları deyib Mübarək gedib bir qatırla geri qayıdır və deyir: «Ağam, min qatıra, gedək». Şahzadə qatıra minir, Mübarək isə onun qabağında qaça-qaça gedir, yolu göstərirdi. Nəhayət, onlar bir saraya çatırlar. Şahzadə bu cənnət tikilisinə bənzəyən saraya heyran olur. Mübarək şahzadəni onların daxil olduğu otaqda qoyulmuş taxtın üstündə əyləşməyi rica edir. Mübarək belinə nökər kəməri sarıyıb şahzadənin yanında durur və dəvət etdiyi şəhərin bütün adlı-sanlı əyanlarını qarşılamağa başlayır. Mübarək möhtəşəm bir ziyafət qurmuşdur. Mübarəkin öz məqsədi var idi. Buyurmuş əyanlar Mübarəki sorğu-suala tuturdular: «Sənin qonağın kimdir? Haradan gəlmişdir? Nə məqsədlə gəlmişdir?» Mübarək bu sualların hamısına belə cavab verirdi: «Hörmətli əyanlar, bu şahzadənin atası vaxtı ilə məni qızıl ilə almışdır, siz bilirsiniz ki, artıq neçə müddətdir ki, mən öz əməyim, bacarığım sayəsində öz işimi qurub, özümə uyğun bir həyat sürürəm. İş ondadır ki, əcəl aman vermədi ki, bu mötəbər gəncin atası məni azad etsin, indi bütün ümidim onadır, bəlkə, məni azad edər». Bu sözlər şahzadənin çox xoşuna gəlir və o deyir: «Ey Mübarək, mən səni azad edəcəyəm və sənə elə bir var-dövlət verəcəyəm ki, qazandıqların onun yanında kölgədə qalsın». Mübarək əyilib şahzadənin qarşısında yeri öpür və bundan sonra onlar gecəyədək məclis qurub, yeyib-içirlər.

Qonaqlar dağılandan sonra Zeyn əl-Əsnam Mübarəkə deyir: «Ey Mübarək, mən sənin yanına bir iş üçün gəlmişəm. Atam mənə bir məktub qoymuşdur. Orada yazır ki, xəzinədə olan doqquz bütdən

başqa, onların hamısının ümumi dəyərindən də qiymətli olan onuncu büt də vardır. O yazır: «Əcəl aman vermədi onu əldə edim, sən onu əldə etmək istəsən, Mübarəkin yanına get, o sənə ona gedən yolu göstərəcəkdir». Mənim gəlişimin məqsədi də budur».

Mübarək bu sözləri eşidəndə rəngi ağarır. O düz bir saat dinib-danışmır. Sonra başını qaldırıb deyir: «Hökmdarım, sənin atan çox ağıllı və cəsarətli adam idi, amma inan ki, hər bütün dalınca getmək, onu əldə etmək ona həyatı hesabına başa gəlirdi. Biz hər dəfə ölümlə üz-üzə gəlirdik. Biz elə əzab-əziyyət, zülm-məşəqqətlə üzləşirdik ki, artıq iyirmi il keçmişdirsə də, mən hələ də özümə gələ bilmirəm. Ona görə sənə də məsləhətim budur ki, o bütü əldə etmək fikrindən daşınasan». Zeyn əl-Əsnam deyir: «Bunların heç birinin əhəmiyyəti yoxdur, mən öz fikrimdə qətiyəm». Mübarək deyir: «Belədirsə, mənə on gün möhlət ver». Şahzadə razılaşır.

Mübarək doqquz gün yol tədarükləri ilə məşğul olur və onuncu gün deyir: «Mən lazımi yol tədarüklərini gördüm və bu gün gecə yola düşməliyik. Amma bir şərtim var: özünlə başqa adam götürmə, bu yola heç kəs tab gətirə bilməz». Şahzadə adamlarını yığıb deyir: «Məni qırx gün gözləyin, qırx günə gəlməsəm, Bəsrəyə qayıdın və bütün var-dövlətimi vərəsəlik hüququ olanların arasında bölüşdürün». Bundan sonra şahzadə ilə Mübarək yola düşürlər. Şəhərdən bir qədər aralandıqda şahzadə görür ki, onları dəvələr üstündə oturmuş qırx qul və üstündə hər cür yaraq-yasaq olan, qızıl yüyənli, yəhərli iki at gözləyir.

Mübarək Zeyn əl-Əsnama deyir: «Bu atlardan birini min!» Şahzadə bir atı, Mübarək də o biri atı minib yola düşürlər. Onlar gecə-gündüz yol gedib, nəhayət, bir səhraya çatırlar.

Şahzadə ətrafa göz gəzdirib başa düşür ki, onları çox çətin, ağır yol gözləyir. Ətrafda canlı həyatdan əsər-əlamət yox idi. Onlar atlardan düşüb, bir az yeyib istirahət edirlər. Gecə düşəndə Mübarək hamıya göstəriş verir ki, dəvələrə minsinlər. Karvanın qabağında Mübarək özü Allaha şükürlər edə-edə gedirdi. Bu minvalla onlar on gün, on gecə yol getdilər, on birinci gün bir çəmənliyə çatırlar, burada çox uca bir ağac var idi. Ağacın yaxınlığında bulaq axırdı, ətrafın-

da da əlli qum təpəciyi var idi. Mübarək ağacı, bulağı, təpəcikləri görüb qışqırdı: «Şükürlər olsun yeri, göyü yaradan o uca Allaha!» Sonra o sevincək dedi: «Ey şahzadə! Gözün aydın! Mənzil başına çatdıq». Onlar dəvələrin üstündəki yükləri düşürüb istirahət etmək üçün otururlar. Mübarək şahzadəyə deyir: «Unutma ki, biz çox ayıq olmalıyıq. Bu yerlərin hökmdarı gəlməyimizdən xəbər tutsa, halımız fəna olacaqdır». Şahzadə deyir: «Belə olan halda nə etməliyik?» Mübarək qalxıb çadırın ətrafina əlindəki dəmir alətlə dairə çəkir. Sonra o, dairənin içərisində tilsim şəkilləri çəkir.

Səhəri gün Mübarək qullardan birini çağırıb deyir: «Siz burada qalacaqsınız. Yediyinizi yeyin, amma bizim üçün də pay saxlamağı unutmayın. Bizi burada gözləyin». Sonra o, şahzadəyə müraciət edir: «Hökmdarım, dur. Bizi çox çətin və təhlükəli yol gözləyir. Mənim bu yolda azdan-çoxdan təcrübəm vardır, amma sənə görə çox narahatam».

Şahzadə deyir: «Narahat olma, qorxma, yazıya pozu yoxdur, artıq nə olacaqdırsa, olsun». Bundan sonra onlar yola düşürlər, bir qədər getdikdən sonra dəniz sahilinə çatırlar. Şahzadə soruşur: «Burada gəmi yoxdur, gəmisiz biz o sahilə necə keçəcəyik?» Mübarək deyir: «Narahat olma, indi gəmi gələcəkdir, biz həmin gəmiyə minib o biri sahilə gedəcəyik, amma bir şeyi bilməlisən ki, gəmidəkilərin heç biri ilə söhbət etməməlisən, onları sorğu-suala tutmamalısan. Buna əməl etsən, heç bir təhlükə ilə üzləşməyəcəksən».

Bir saat keçmişdi, sahilə bir gəmi yaxınlaşdı. Sükanın arxasında qəribə bir məxluq durmuşdur. Onun başı şir başı, bədəni pələng bədəni, ağzı əjdaha ağzı idi. Sükan arxasında durmuş bu əcaib məxluq Mübarəkə və şahzadəyə işarə etdi. Onlar göyərtəyə qalxdılar, gəmidəkilər yelkənləri qaldırdılar, gəmi elə sürətlə üzdü ki, şahzadə ilə Mübarək bir stəkan şərbəti içib qurtarmamışdılar ki, gəmi sahilə yan aldı.

Onlar gəmidən düşdülər. Bu, sıx, yamyaşıl meşə ağaclarına, saysız-hesabsız barlı-bəhərli meyvə ağaclarına, əsrarəngiz gül-çiçəyə qərq olmuş, yüz minlərlə quşların cəh-cəh vurduğu bir ada idi. Bir qədər irəli getdikdə onlar gözətçi qülləsi olan, ağ mərmərdən tikilmiş bir saray gördülər. Saray enli və dərin xəndəklərlə əhatə olunmuşdur

və dörd bir yanında ağaclar əkilmişdir. Sarayın yanında böyük bir meydan var idi. Xəndək boyu qum təpəcikləri uzanırdı. Bu sarayın möhtəşəmliyini seyr etdikcə şahzadə uca Allahın qüdrətinə heyrət edirdi. Mübarək soruşdu: «Nəyə belə təəccüblə tamaşa edirsən?» Şahzadə dedi: «Burada gördüklərimin hamısı heyrətamizdir, bu yol ağır yol olsa da, maraqlı bir yoldur. Bu yolu özümüz seçmişik, hər zülmə qatlaşıb onu qət etməliyik. Ümid edək ki, başımıza bir iş gəlməyəcəkdir». Mübarək dedi: «Allah böyükdür, onun izni olmasa, bizim başımıza heç bir bəla gələ bilməz». Bunu deyib, Mübarək yanında götürdüyü xurcunu açır. Mübarək xurcundan zəvvarların Kəbə ziyarətinə gedəndə əyinlərinə geyindikləri ağ rəngində ehramlar çıxarıb, birini özü geyinir, ikinci dəsti şahzadəyə uzadıb deyir: «Götür, bunları əyninə geyin».

Bundan sonra Mübarək yerdə bir dördkünc çəkir, içinə gümüş, mis, ləl-cəvahiratla dolu əllidən çox mücrü qoyur və sehrli işarələr çəkir. Sonra başqa bir dördkünc çəkib, şahzadəyə onun içində oturmağı buyurur. Bunları etdikdən sonra o, ocaq qalayıb içinə çoxlu əzvay və ənbər atır. Daha sonra şahzadəyə deyir: «İndi, şahzadə, mən deyim, sən də diqqətlə qulaq as, yadında saxla və təkrar et: «Mən ümidvaram ki, Cinlərin padşahı tezliklə buraya təşrif buyuracaqdır və biz niyyətimizə çatacağıq». Şahzadə bu sözləri təkrar edib Mübarəkdən soruşur: «Yaxşı, bəs cinlərin padşahının görünüşü necədir?» Mübarək cavab verir: «Əgər onun əhvalı pis olarsa, o, iyrənc ifritə cildində gəlib dünyanı bir-birinə vuracaqdır, yox, əgər əhvalı yaxşı olarsa, öz cildində üzə çıxacaqdır. Onun bir qızı vardır, xəzinəsinin açarları ancaq onda olur. Cinlərin padşahı görünən kimi ayağa qalx və ona təriflər söylə, atanı xatırlat və de: «Mən səndən rica edirəm: atama göstərdiyin mərhəməti mənə də göstər». Əgər o sənə atanı tanımadığını desə, ona yaqut daşlı bütləri xatırlat».

Mübarək ilə Zeyn əl-Əsnam söhbət edib, şahzadənin deyəcəyi sözləri müzakirə etdikləri vaxt birdən göyün üzünü qara bulud aldı, güclü külək əsdi, yer-göy bir-birinə qarışdı və Mübarək şahzadəyə dedi: «Ey şahzadə, gözün aydın, cinlərin padşahı gəlir, amma sən qorxma, sadəcə, bu dördküncdən kənara çıxma». Mübarək bu sözləri

demişdir ki, cinlərin padşahı öz məiyyəti ilə aşağıya düşüb onların qarşısında durdu. Mübarək ilə şahzadə o saat təzim edib onu mədh etməyə başladılar. Cinlər padşahını görən Zeyn əl-Əsnam əvvəlcə bir az qorxdu, amma Mübarək onu sakitləşdirərək dedi: «Ey şahzadə, qorxma, mənim öyrətdiklərimi de». Şahzadə Mübarəkdən öyrəndiklərini söyləməyə başladı.

Cinlərin padşahı Zeyn əl-Əsnamı dinləyib güldü və dedi: «Ey gənc, sənin atan uzun müddət bizim qulluğumuzda durmuşdur, Mübarək isə onun qulu idi. Sən bilirsən ki, mən atana hər il yeni bir dəst libas verirdim». Şahzadə dedi: «Doğrudur, amma atam buradan hər dəfə bir qırmızı yaqutla işlənmiş çox qiymətli büt də aparırdı». Padşah dedi: «Doğrudur, amma onu da nəzərə al ki, atan hər dəfə gələndə bizə bir gözəl kəniz gətirirdi, sən isə bu qaydaya riayət etməmisən. Bir də de görüm, atana verdiyim o yaqut daşlarla işlənmiş bütləri nə etmisən? Onlar haradadırlar?»

Zeyn əl-Əsnam cavab verdi: «Mən atamın vəsiyyətini tapmışam. Orada yazılmışdır: «Oğlum, əcəl aman vermədi deyə bütlərin hamısını əldə edə bilmədim. Əgər tale üzünə gülərsə, çalış o onuncu bütü də əldə et. Atamın vəsiyyətini yerinə yetirmək məqsədi ilə Misirə gedib Mübarəki götürüb sənin qulluğuna gəldim. O biri bütlər də atamdan mənə qalmış əmanətdir, onları göz bəbəyi kimi qoruyub saxlayıram». Cinlərin padşahı dedi: «Sevin, ey gənc, mən sənin istəyini yerinə yetirəcəyəm, çünki sənin atanın mənim üstümdə böyük haqqı vardır və mən ona çox şeyə görə borcluyam və bil ki, gecələr sənin yuxularına gələn, səninlə danışan qoca da mən idim. İndi isə sən and içməlisən ki, bizim üçün insan əli dəyməmiş, naməhrəm gözü görməmiş gözəllər gözəli bir kəniz gətirəcəksən». Şahzadə cavab verdi: «Əmrə müntəzirəm!»

Bu vaxt cinlər padşahı ucadan qışqırdı, havada ay kimi parlaq, gözəl bir qız göründü. Onun ətrafında sayrışan ulduzlara bənzəyən gözəl kənizlər var idi. Padşahın qarşısında enən pəri əyilib yeri öpdü. Padşah dedi: «Qızım, bil ki, bu gənc bizə çox qulluqlar göstərmiş şahın oğludur və indi o, onuncu büt üçün gəlmişdir. Get bütü gətir, ona verək». Qız atasının sözünə tabe olub çox qiymətli daşlarla

işlənmiş bütü gətirdi. Padşah bütü götürüb şahzadəyə verdi. Daha sonra saqqalından bir tük qoparıb ona uzatdı və dedi: «Darlığa düşsən, bunu oda at, mən həmin dəqiqə hüzurunda olaram və sənin bütün istədiklərini yerinə yetirərəm». Zeyn əl-Əsnam bu sehrli tükü götürən kimi cinlərin padşahı və onu müşayiət edənlər gözdən itdilər.

Zeyn əl-Əsnam və Mübarək o saat yola düşdülər, sahilə çatıb, gəmiyə oturdular və sağ-salamat mənzilbaşına çatdılar. Onlar dayandıqları yerə yollandılar. Nökərlər onların qarşılarına qaçdılar. Onlar, nəhayət, ağacın dibindən axan bulağa çatıb, yerlərini rahatlayıb oturdular. Şahzadə Mübarəkdən soruşdu: «Yaxşı, bəs bu qədər dəvəyə nə ehtiyac var idi?» Mübarək dedi: «İş bundadır ki, atan bütü və cinlər padşahının tükünü alıb buraya gələn kimi tükü oda atırdı. Cinlər padşahı həmin dəqiqə onun qarşısında peyda olub soruşurdu: «Mənə görə nə qulluğun var?» Atan deyirdi: «Sən mənə şahlara layiq hədiyyələr verdin, amma məmləkətimə qayıdanda məni qarşılayanlara mən nə verəcəyəm, onları nə ilə sevindirəcəyəm?» Cinlər padşahı soruşurdu: «Sən məndən nə istəyirsən?» Atan cavab verirdi: «Mən bir az qızıl istəyərəm». Onda göyün üzünü qızıl buludlar alırdı, külək onları parçalayırdı və göydən yerə qızıl pullar tökülürdü. Atan onları dəvələrə yüklədib Misirə gedirdi, orada qızılların bir hissəsini mənə verir, qalan əsas hissəsi ilə evə qayıdırdı.

Şahzadə Mübarəkdən bu sözləri eşidib sevinir və cinlər padşahının tükünü ocağa atır. Həmin dəqiqə səs eşidilir: «Şahzadə, istədiyin nədir? «Şahzadə cavab verir: «Mən bir az qızıl istəyirəm». Zeyn əl-Əsnam elə bunu demişdir ki, bir yanda bir təpəcik qızıl pul peyda olur. Zeyn əl-Əsnam bu pulları dəvələrə yüklədib Misirə yollanır. Orada Mübarəkin evində dayanır. Şahzadənin gəldiyini eşidən Misir sakinləri onun görüşünə gəlirlər. Daha sonra şahzadə Mübarəkə deyir: «Qızıldan istədiyin qədər götür, işlərimizi tamamlayaq və mən evə dönüm». Mübarək deyir: «Mənim dünya malında gözüm yoxdur, amma mən sənə çox bağlandım, izin versən, ömrümün sonunadək sənin qulluğunda olaram».

Qahirədə bir neçə gün qaldıqdan sonra şahzadə Mübarəkə deyir: «Sən yol tədarükünü gör, artıq getmək vaxtıdır, amma bizim qar-

şımızda hələ vacib bir iş də var. Biz cinlər padşahına söz verdiyimiz aydan arı, sudan duru, gözəllikdə yer üzündə tayı-bərabəri olmayan bir qız tapmalıyıq. Əvvəlcə Bağdada gedək, bəlkə, istədiyimizi orada taparıq». Mübarək deyir: «Əmrə müntəzirəm». O, tez bir zamanda yol tədarüklərini görür və onlar Bağdada tərəf yollanırlar.

Bağdada çatdıqda Mübarək bir münasib ev soraqlaşır, evin divarlarını ipəklərə tuturlar, döşəməsinə xalılar salırlar, xalıların üstünə yastıqlar düzdürür və şahzadə bu evdə yerləşir. Bir qədər istirahət etdikdən sonra şahzadə Mübarəki yanına çağırıb əldə etdiyi bütün qızılları onun sərəncamına verir. Mübarək o qızıllardan evin xərcinə lazım olan qədərini xərcləyib, yerdə qalan əsas hissəsini isə fağır-füqəraya, yetim-yesirə paylayır.

Bir dəfə o, qapının ağzına xeyli miqdarda cürbəcür təamlar, nəfis şirniyyatlar düzdürür. İş bundadır ki, Zeyn əl-Əsnamın qaldığı ev Əbu-Bəkr adında bir qoca müəzzinin yaşadığı məhəllədə yerləşirdi. Bu Əbu-Bəkr çox nanəcib, abırsız, paxıl, mərdimazar bir adam idi. Həmin gün onun qulluqçusu şahzadənin qapısındakı təamları görüb zənbilini doldurur və xanımına aparır. Əbu-Bəkr zöhr namazından qayıdanda zövcəsinə deyir: «Çox acmışam, yemək gətir». Zövcəsi onun qabağına evdə hazırlanmış yeməklərlə bərabər qulluqçunun gətirdiyi təamlardan da qoyur. Bu nəfis yeməkləri görən Əbu-Bəkr ucadan deyir: «Mənim evimdə heç vaxt belə təamlar olmamışdır. De görüm, bunlar haradandır? Sən mənə cavab verməyənə qədər mən yeməyə əl uzatmayacağam».

Xanım cavab verir: «Şəhərdə - bizim evin yaxınlığında bir şahzadə özünə ev tutmuşdur. Deyirlər, onun var-varidatı saya-hesaba gəlməz, o, hər gün qapısının qabağına ac, kimsəsiz, kasıb adamlar üçün cürbəcür, nəfis təamlar qoyur ki, onlar da heç olmasa, arada belə yeməklərin dadını bilsinlər. Bu gün qulluqçu oradan keçəndə onlardan bir az götürüb evə gətirmişdir. Bunlar da oradandır».

Axşam namazından əvvəl Əbu-Bəkr məscidə gedir, dualarını edir, sonra isə arxası mehraba, üzü camaata oturub deyir: «Ay camaat, bilin ki, bizim küçədə çox mötəbər bir əsilzadə yerləşmişdir. O, hər gün böyük pullar xərcləyir, amma o pulların mənbəyini heç

kim bilmir. Xəlifə bundan xəbər tutanda deyəcəkdir: «Sizin məhəllədə belə bir adam yaşayır, siz isə mənə xəbər verməmişsiniz». Biz vaxtında xəlifəyə xəbər verməsək, sonra Harun ər-Rəşidin cəzasından canımızı qurtara bilməyəcəyik». Camaat Əbu-Bəkrin bədniyyət, bədxislət bir adam olduğunu bildiyi üçün məcbur olub deyirlər: «Doğru deyirsən, sənin dediklərində böyük həqiqət vardır».

Həmin vaxt Mübarək də namaz qılanların arasında idi, çünki o, adətən, camaatla namaz qılmağa üstünlük verirdi. O bu söhbətləri eşidib çox pəjmürdə olur və evə qayıdıb eşitdiklərini şahzadəyə danışır. Zeyn əl-Əsnam deyir: «Qəm etmə, Mübarək, görəcəksən, bu bizim qarşımızda duran çətin məsələnin həllində dadımıza yetəcəkdir».

Sonra o, böyük pul kisələrindən birinin gətirilməsini buyurur. O, dörd dənə balaca pul kisəsi götürür; birincisinin içinə beş yüz, ikincisinin içinə dörd yüz, üçüncüsünə üç yüz və dördüncüsünə iki yüz dinar qoyub ağızlarını möhürləyir. Gecəyarısı onları Mübarəkə verib deyir: «Bu pul kisələrini götür, müəzzin Əbu-Bəkrin evinə get, qapını döy, o, qapıya çıxanda içində beş yüz dinar olan kisəni ona ver və de: «Bəs biz sənin məhəlləndə yerləşmişik, şahzadənin sənə salamları var, o səninlə görüşüb tanış olmaq istəyir və bunu da sənə olan ehtiramını göstərmək üçün balaca bir hədiyyə kimi göndərmişdir». Sonra məhəllənin hörmətli ağsaqqallarına, nüfuz dərəcələrinə uyğun olaraq bu kisələri payla ki, bizimlə münasibətləri yaxşı olsun».

Mübarək pul kisələrini götürüb müəzzinin evinə yollanır, qapını döyür. Əbu-Bəkr qapıya çıxır və soruşur: «Kimsən?» Mübarək deyir: «Mən sizin məhəllədə dayanmış şahzadənin nökəriyəm». Əbu-Bəkr soruşur: «Nə üçün gəlmisən?» Mübarək ona şahzadənin salamını yetirib pul kisəsini uzadır və deyir: «O bu qızılları sənə göndərdi ki, kasıb-füqəraya paylayıb Allah yanında savab qazanasan».

Əbu-Bəkr Mübarəkin sözlərini eşidib, şahzadənin göndərdiyi qızılları görüb çox sevinir. Mübarək soruşur: «Sən şahzadəyə minnətdarlığını göstərmək istəmirsən?» Əbu-Bəkr deyir: «Sabah mən məhəllənin ən hörmətli adamları ilə şahzadənin əlindən öpmək

üçün hüzuruna gələcəyəm». Bunları deyib o, Mübarəkin üzündən öpür və deyir: «Get, indi sənin üzün də adın kimi mübarəkdir».

Mübarək yoluna davam edib şahzadənin dediyi kimi pul kisələrini paylayır və evə qayıdır. Səhəri gün Əbu-Bəkr minarəyə çıxıb elə ucadan azan verir ki, bəlkə, ömrü boyu belə səslə azan verməmişdir. Elə ki camaat yığışır, Əbu-Bəkr arxası mehraba, üzü camaata tərəf durub nitq söyləməyə başlayır: «Ey möminlər, bilin ki, hər bir kəsin dostu da olur, düşməni də. Varı, pulu çox olan adamın isə düşməni daha çox olur. Bədxahlar şahzadə haqqında pis sözlər söyləyib onu gözdən salmaq istəyirdilər, amma biz onun haqqında məlumat toplayıb bildik ki, o çox nəcib, alicənab insandır, o bizim zəmanənin Hatəmidir. Biz də öz növbəmizdə nəcibliyimizi nümayiş etdirib onun hüzuruna gedib ona olan ehtiramımızı bildirməliyik».

Camaat cavab verir: «Doğru buyurursan!» Bundan sonra onlar yığışıb şahzadənin hüzuruna gedirlər. Şahzadə bundan xəbər tutub nökərlərinə buyurur ki, onları evə dəvət etsinlər. Əbu-Bəkr şahzadənin qarşısında durub ona mədhlər söyləməyə başlayır. Şahzadə hamını hörmət-izzətlə qarşılayır, onlara qiymətli hədiyyələr paylayır. Gələnlər ona minnətdarlıq edib, dualar edirdilər. Şahzadə Mübarəki çağırıb qulağına pıçıldayır: «Bu fürsətdən istifadə edib cinlər padşahına söz verdiyimiz gözəlin yerini, yurdunu öyrənmək lazımdır». Mübarək deyir ki, o artıq on qarı ilə söhbətləşib, bu işi onlara tapşırmışdır və onlar hal-hazırda bu işlə məşğuldurlar.

Onlar bu məsələni müzakirə etdikləri vaxt bir qarı onlara yaxınlaşıb deyir: «Ey şahzadə, mən gözəllikdə bərabəri olmayan, gözəllər gözəli bir qız tapmışam, amma onun bir eybi vardır, o çox kasıbdır». Zeyn əl-Əsnam soruşur: «Ay anam, sən onu necə tapdın?» Qarı cavab verir: «Mən bütün Bağdadı ələk-vələk etdim, axırda yorulub, su içmək üçün bir daxmaya girdim və burada gözəlliyi ilə göz qamaşdıran bu qızı gördüm, onun gözəlliyinin kamilliyi qarşısında heyrət etdim. Onun anası rəhmətə getmişdir, atası isə çəkməçidir. Mən ona dedim: «İstəyirsən, səni hallı-əhvallı gözəl bir adama ərə verim». O dedi: «Bəli, istəyirəm». Onun razılığını alan kimi sənin yanına gəldim». Şahzadə dedi: «Tez onun atasının yanına get və

onun da razılığını al». Qarı o saat qızın atasının yanına yollanır və ona deyir: «Mən sənin qızını bir şahzadəyə vermək istəyirəm, razısanmı?» Çəkməçi bu işə bir az inanmır, amma qarının fikrinin ciddi olduğunu anlayıb deyir: «Bəli, razıyam, necə məsləhət bilirsənsə, elə et». Qarı şahzadənin yanına yollanır. Çəkməçi isə elə bu vaxt görür ki, evinin qarşısından əlli atlı bir gəlinə cehizlik gətirir; burada xalılar, qumaşlar, ipəklər, atlazlar, şallar və başqa cürbəcür cehizlik mallar var idi. Bunları görən çəkməçi zülüm-zülüm ağlayıb, üzünü göyə tutub deyir: «Ey uca Allah, niyə bunlardan bir azını da mənə göndərmədin ki, mən də qızımı cehizsiz yola salmayım?» Təsadüfən, qoca çəkməçinin ah-naləsini xəlifənin adlı-sanlı, yüksək mənsəb sahibi olan qardaşı eşidir. Allah-təala xəlifənin bu qardaşına bir qız övladı vermişdir, amma o, həddi-buluğa çatmamış dünyasını dəyişmişdir. O, çəkməçinin ah-naləsini eşidib çox pəjmürdə olur və qərara gəlir ki, qızı üçün hazırladığı cehizi çəkməçinin qızına versin. O fikirləşir ki, bu əməli ilə bu dünyada bir yetimin üzünü güldürər, o biri dünyada isə bir savab qazanar. O, çəkməçiyə deyir: «Darıxma, mən sənin işlərini düzüb-qoşacağam». O, çəkməçini evinə aparıb qızı üçün hazırladığı cehizi ona verir və adamlarını göndərir ki, çəkməçinin evini gəlin evi kimi ipəklə, xalılarla bəzəsinlər.

Qarı növbəti dəfə çəkməçinin evinə gələndə bu dəyişikliyi görüb mat qalır. Bu daxmanın belə cah-calalla bəzədilməsi onu heyran edir. O, çəkməçi ilə onun qızını sorğu-suala tutur. Qız cavab verir: «Uca Allahın haqq-ədaləti böyük, möcüzələri sonsuzdur. O, göz qırpımında varlını kasıb, kasıbı varlı etməyə qadirdir». Qarı deyir: «Ey usta, şahzadənin səndən qızını istəməsi sənə düşərli oldu». Qarı buradan çıxıb xəlifənin həmin qardaşının evinə yollanır və hər şeyi ona danışır. O nəcib insan buyurur ki, çəkməçinin qızı ilə şahzadənin kəbini onun sarayında kəsilsin.

Qarı bu xəbəri şahzadəyə çatdırır. O, çox sevinir və məhəllənin ağsaqqalları ilə xəlifənin qardaşının sarayına təşrif buyurur. Onlar qazını dəvət edib nikah bağlayırlar. Daha sonra şahzadə xəlifənin qardaşını evinə dəvət edir. Onlar bütün günü yeyib-içib kef edirlər, axşam düşəndə isə xəlifənin qardaşı izin istəyib getmək istədiyini

bildirir. şahzadə onu, həqiqətən, şahlara layiq hədiyyələrlə yola salır. Daha sonra Zeyn əl-Əsnam Mübarəki çox qiymətli hədiyyələrlə gəlin evinə yola salır. Elə ki vaxt yetişir, gəlini bəzəyib şahzadənin evinə gətirirlər. Şahzadə gəlini görəndə onun gözəlliyindən gözləri qamaşır, ürəyi dayanır, nəfəsi kəsilir. Başını itirmiş şahzadə Mübarəkə deyir: «Sən ehtiyatı əldən vermə, mənə şərabı az ver, çünki mən çox ehtiyat edirəm ki, sözümə sahib çıxmayıb özüm bu nazənin ilə evlənim, onda isə biz canımızı cinlər padşahının əlindən çətin qurtararıq. Mən verdiyim sözü pozmamalıyam». Mübarək deyir: «Sən heç narahat olma, mən hər şeyi dediyin kimi edəcəyəm». Bu minvalla müəyyən vaxt keçir, şahzadə vaxtını öz otağında keçirir, təzə gəlinin otağına heç yaxın belə getmirdi. Bir gün çəkməçi qızına baş çəkmək üçün şahzadənin evinə gəlir, amma qızının bikef olduğunu görüb soruşur: «Gözümün işığı, niyə belə pəjmürdəsən?» Qız cavab verir: «Mən artıq neçə gündür ər evindəyəm, amma hələ də ərim tərəfindən bir diqqət görməmişəm, bizim otaqlarımız hələ də ayrıdır». Qızın atası həmin saat xəlifənin qardaşının yanına gedib eşitdiklərini ona danışır.

Xəlifənin qardaşı da öz növbəsində şahzadənin yanına gedib soruşur: «Ey mötəbər şahzadə, eşitdiyimə görə, sən təzə-tər gəlininə yaxınlıq göstərmirsən». Şahzadə cavab verir: «Bilirsənmi, iş ondadır ki, mən söz vermişəm ki, gəlinimi anama göstərməmiş onunla yaxınlıq etməyim». Xəlifənin qardaşı bu cavabı təbii qəbul edib, çəkməçiyə çatdırır. Qoca rahat olur və fikirləşir; «Nə olar, əgər şahzadə belə bir əhd etmişsə, deməli ona əməl etməlidir».

Bu arada şahzadə göstəriş verir ki, Mübarək yol tədarüklərinə başlasın. O fikirləşir ki, qızı vaxtında cinlər padşahına çatdırmaq lazımdır. Mübarək bütün yol tədarüklərini görür və onlar Misirə yollanırlar. Misirdə Mübarək yenə qulları yığır, dəvələri gətirir və onlar yenə keçən dəfə getdikləri yolu gedib ağacın dibi ilə axan bulağa çatırlar. Yenə də onlarla gedən qulları, yanlarında apardıqları dəvələri orada qoyub, qızı da özləri ilə götürüb sahilə tərəf gedirlər. Onlar sahildəki gəminin göyərtəsinə qalxırlar. Mübarək hamının susmasını buyurur və yenə də xurcunundan ehramları çıxarıb payla-

yır ki, hamı əynini dəyişsin. Onlar gəmidən düşüb cinlər padşahının sarayına gedirlər. Mübarək yenə yerdə dördkünclər, dairələr cızıb, onların içərisində isə tilsim şəkilləri çəkir. Onlar bir yerdə əfsunlar oxumağa başlayırlar. Yazıq qız bütün bunları müşahidə edir və qorxudan əsirdi. O, Mübarəkə deyir: «Mən yazıq, gücsüz, kimsəsiz bir qızam, sizin himayənizdəyəm, mənə rəhm edin». Mübarəkin ona yazığı gəlir, o, cibindən, içərisində qəribə qoxulu yağ olan şüşə qab çıxarıb qıza uzadır. Mübarək bu şüşə qabı həmişə üstündə saxlayırmış, amma şahzadənin ondan heç xəbəri də yox idi. Qabın içərisindəki yağın sehrli qoxusu var idi. Onun iyinə nə xeyir qüvvələr, nə də şər qüvvələr tab gətirə bilirdi. Mübarək qıza deyir: «Qorxma, mən səni bu çıxılmaz vəziyyətdən qurtaracağam. Bu yağı götürüb üzünə, saçlarına çək. Bundan sonra sənə heç bir şər qüvvə yaxın düşə bilməz». Qız şüşə qabı götürüb Mübarəkin dediklərinə əməl edir. O, yağı üzünə, saçlarına çəkir. Şahzadə bu işlərdən xəbərsiz idi və Mübarəkin qıza yağ verdiyini, qızın yağı üst-başına çəkdiyini heç hiss etməmişdir. Sonra Mübarək bir dənə də dördkünc cızıb qıza onun ortasında oturmağı buyurur, özü isə əfsun oxumağa başlayır. Bir saatdan sonra cinlər padşahı məiyyəti ilə qara bulud şəklində peyda olur. Onlar yağın iyini hiss edən kimi bir göz qırpımında qeyb olurlar. Bunu görən şahzadə çox pərt olur, onu dərd götürür. Mübarək yenə də qızı sahilə aparır, qız bu dəfə üst-başına yağdan daha çox çəkir və onlar geri dönürlər. Mübarək yenə də əfsunlar oxumağa başlayır. Cinlər padşahı yenə də qara bulud şəklində gəlir və qoxunu hiss edən kimi qeyb olur. Onda şahzadə Mübarəkə deyir: «Sən belə et, qızı sahilə apar, qoy yaxşı-yaxşı yuyunsun, çünki qəribə, xoşagəlməz qoxu gəlir, bəlkə, padşah da bu qoxunu hiss edir». Mübarək qızı sahilə aparır, qız yenə də hər yerinə yağdan çəkir və onlar şahzadənin yanına qayıdırlar.

Cinlər padşahı üçüncü dəfə peyda olub, yenə həmin qoxunu hiss edəndə qəzəblənib şahzadənin üstünə qışqırır: «Bu nə alçaqlıqdır, bu qız ilə ayrılmaq fikrin yox idisə, onunla özün evlənmək istəyirdinsə, niyə gətirirdin?» Qəzəblənmiş padşah bunu deyib, Zeyn əl-Əsnamın yaxasından tutub yuxarıya qaldırır və var gücü ilə dənizə çırpır.

Sonra Mübarəkə deyir: «Sən əvvəllər bunun atası ilə buraya gələrdin, bilirsən ki, onunla aramızda xətir-hörmət var idi. O, ləyaqətsiz insan deyildi, oğlu niyə belə namərdlik edir?» Mübarək deyir: «Şahzadənin belə namərd olmasında mənim heç bir günahım yoxdur, amma sən ürəyini buz kimi saxla, o, əməlinin bədəlini lazımınca ödədi. Padşahım, səndən acizanə rica edirəm, bizə rəhmin gəlsin, izin ver, biz Bağdada qayıdaq. Sən fikrindən daşınıb, bu qızı yenidən yanında görmək istəsən, mən onu həmin saat hüzuruna gətirərəm. Cinlər padşahı gülüb deyir: «Bu qız mənim nəyimə gərəkdir, mən, sadəcə, şahzadəni sınamaq istəyirdim. Apar bu qızı, mən onu sənə bağışlayıram». Mübarək qızı götürüb sahilə gedir, orada onlar gəmiyə minib, o biri sahildə düşürlər və qulları, dəvələri qoyduqları yerə gəlirlər. Nökərlər şahzadənin harada olduğunu soruşanda Mübarək onun həlak olduğunu deyir. Onlar bu işə həm məəttəl qalırlar, həm də çox kədərlənirlər. Sonra onlar dəvələri qızıl ilə yükləyib Bağdada gedirlər. Mübarək qızı atası evinə aparır. Olanları, başlarına gələnləri çəkməçiyə danışır, qız isə əlavə edir ki, Mübarək olmasa idi, onu da həmin aqibət gözləyirdi. Çəkməçi deyir: «Bir halda ki şahzadə həlak olub, sən isə mənim qızımı xilas etmisən, mən onu sənə verirəm». Mübarək çox sevinir, əlində qalmış qızıla özü üçün bir dükan alır və Bağdadda qalıb yaşamaq qərarına gəlir.

Şahzadənin taleyinə isə çox bəlalar yazılıbmış... Cinlərin padşahı Zeyn əl-Əsnamı qaldırıb dənizə atanda onun dadına bir böyük balıq çatır. Bu həmin o balıq idi ki, vaxtı ilə Yunis peyğəmbəri də - Allah ona rəhmət eləsin! - udub bir neçə gün mədəsində saxlamaqla başındakı bəladan xilas etmişdir. Allah-təala bu balığı dənizdəki yırtıcıları məhv etmək üçün yaratmışdır. Bu balıq lap uzaqdan bir gəminin fəlakətə uğradığını görəndə həmin an özünü çatdırıb onu xilas edərdi. O, şahzadənin çabalamasını görən kimi özünü çatdırıb onu dalğaların arasından alıb belində sahilə çıxarmışdır. Şahzadə ayılıb sağ qaldığını başa düşəndə əllərini göyə qaldırıb Allaha şükürlər etmişdir. Adanın içərisinə doğru gedəndə görmüşdür ki, burada çoxlu bar verən ağac var, o, meyvələrdən dərib yedikdən sonra yoluna davam etmiş və bir səhraya çatmışdır. Burada keçi

saqqalı kimi uzun saçları olan yekəpər cinlər var idi. Onlar Zeyn əl-Əsnamı görən kimi onun qarşısına qaçıb təzim etmişlər və şəhərə aparmışlar. Şəhər çox gözəl və abad idi. Cinlər qonağı adada hökmdarlıq edən padşahın hüzuruna aparırlar. Zeyn əl-Əsnam taxtda oturmuş nurani bir qoca görür, yaxınlaşıb qarşısında təzim edir. Qoca padşah onu çox səmimi qəbul edib deyir: «Ey cavan, kimsən, haradan gəlirsən və buraya necə düşmüsən?» Şahzadə başına gələnlərin hamısını danışır, qoca onun hekayətini heyrətlə dinləyir və sonra isə özü haqqında danışır:

«Ey cavan, bil ki, bu dənizdə, iyirmi beş günlük məsafədə bir ada vardır. Orada çox sayda insan yaşayır. O adanın əhalisi həmişə bizimlə müharibə edərdi. Bir dəfə onlar bizə xəbər vermədən hücum etdilər, hər yanı talan edib, qadınları, uşaqları əsir alıb apardılar. Həmin vaxt mən də uşaq idim və mən də əsir düşmüşdüm. Orada bir hündür dağ var idi. Bir dəfə sahibim məni dağın zirvəsinə apardı. Dağın zirvəsi qərənfillərlə dolu idi və deyilənlərə görə, o adanın əsas var-dövləti elə qərənfillər idi. Mən dağın başında yaşayır və qərənfil toplamaqla günlərimi keçirirdim. Bir dəfə mən dəhşətli bir səhnənin şahidi oldum. Gördüm ki, böyük bir quş dağın zirvəsinə enib bir oğlan uşağını caynağına alıb qalxdı və onu parçalayıb uddu. Biz hamımız qorxduq və aşağıya qaçdıq. Bundan sonra dağın sakinləri uşaqlarının dağa tək çıxmaqlarına icazə vermədilər. Biz dağa ancaq qulların müşayiəti ilə qalxırdıq. Mən hər gün qullarla bərabər dağa qalxır və qərənfillərin aşağıya gətirilməsinə kömək edirdim. Bir dəfə sahibim məni də özü ilə qarşı sahilə aparır. Qərənfilləri çox olduğu üçün ona kömək etməli idim. Bu adaların arasında belə bir sözləşmə var idi: qərənfil gətirənlər onları sahildə qoyub qayıdırdılar, növbəti dəfə qərənfil gətirəndə əvvəl qoyduqları qərənfilləri götürənlər onlarla hesablaşırdılar, yəni götürdükləri qərənfillərin yerində onların dəyərində, onların qiymətinə uyğun bir şey qoyurdular. Beləliklə, mən tez-tez sahibimlə o sahilə gəlməli oldum və bir dəfə qərara gəldim ki, qaçım, canımı qurtarım ki, hər dəfə təhlükə ilə üzləşməyim, çünki mən də istənilən vaxt o quşun caynağına düşə bilərdim. Beləliklə, növbəti dəfə bu biri adaya keçəndə qarışıqlıqdan istifadə

edib qaçıb gizləndim. Sahibim və nökərləri işlərini qurtardıqdan sonra mənim yoxluğumu görüb hər tərəfi ələk-vələk etdilər, amma tapa bilməyib qayıtmağa məcbur oldular.

Səhər açılanda ada sakinləri məni görüb təəccübləndilər. Mən ağlamağa başladım, onlar məni sakitləşdirib, süfrə başına apardılar və dadlı yeməklər verdilər. Bir müddət onların yanında qaldıqdan sonra mən onlara uyğunlaşdım, dillərini öyrəndim və sonra Əlman şəhərinə yollandım. Mən orada dörd il qaldım. Mən Əlman şəhərinin padşahının zövcəsinə qulluq edirdim. Günlərin bir günü gecə oyanıb gördüm ki, xanım yerindən qalxıb bir şüşə qab götürdü, şüşənin içərisindəki yağı üstünə çəkib otaqdakı küplərdən birinə oturdu. Küp bircə anın içində quş kimi qalxıb uçdu və gözdən itdi. Mən təəccübdən quruyub qalmışdım. Səhərə yaxın xanım geriyə qayıdıb yerinə girib yatdı. Bundan sonra mən hər gecə xanımın küpə oturub uçduğunu və səhərə yaxın qayıtdığını görürdüm. Bir dəfə mən də xanımla bərabər uçmaq istədim və ondan əvvəl küpə girdim və dibində gizləndim. Bir azdan xanım da gəlib küpə oturdu, dodağının altında bir əfsun oxudu və küp göyə qalxdı. Mən qorxudan əsirdim. Bir saatdan sonra küp yerə endi. Mən küpdən çıxıb gördüm ki, bura cənnət bağından da gözəl bir yerdir. Bu çəmənlikdə gözəl bir taxt qurulmuşdur, üzərində isə bir nəcib, nurani görünüşlü qoca əyləşmişdir. Onun ətrafında hər sözünə əməl etməyə hazır yüzlərlə insan var idi. Bu insanların hər biri ondan nə isə soruşur, o isə hamısına cavab verirdi. Gördüklərimdən bu nəticəyə gəldim ki, bunların hamısı sehrbazdır. Mən ağaca dırmaşıb, özümə yer etdim və bunlara tamaşa etməyə başladım. Bu vaxt kütlənin içindən bir qoca çıxıb taxta yaxınlaşdı və dedi: «Ustad, mən çoxdandır ilanlar padşahının yağını əldə etmək istəyirəm, amma heç cür edə bilmirəm. Sən mənə yol göstərə bilərsənmi?» Taxtda əyləşmiş qoca gülümsədi və dedi: «Mən sizin hər birinizə istədiyinizi öyrətməyə hazıram, amma qorxuram ki, hamınız məhv olasınız». Ona yaxınlaşmış qoca dedi: «Mən ölümdən qorxmuram. Sən mənə ilanlar padşahının yağının əldə edilməsini öyrət». Taxtda əyləşmiş qoca dedi: «Birincisi, bil ki, ilanlar padşahının yağının belə bir xüsusiyyəti vardır: onu ayaqlarına çəkən adam

nə suda batar, nə odda yanar, əgər bu yağı, həqiqətən, əldə etmək istəyirsənsə, mənə diqqətlə qulaq as. Biz dağılışanda diqqətlə Məşriqə bax, orada bir işıq görəcəksən. O işığın ucunu buraxma, ona doğru get. Elə ki gün çıxdı, işıq itdi, dayan yoluna davam etmə, ta o vaxtacan gözlə ki, yenə gecə düşsün və uzaqda işıq görünsün. Onda yenə o işığa tərəf get. On gündən sonra sahilində sıx meşəlik olan çaya çatacaqsan. O ağacların birinin budağından yay hazırla, o biri budaqlardan isə oxlar düzəlt. Gecəni orada keçirib sonra üç gün, üç gecə yol get. Nəhayət, sən bir çəmənliyə çatacaqsan. Orada bir hündür ağac olacaqdır. Bu ağacın başında böyük bir yuva görəcəksən. O yuvadan gələn işıq ilanlar padşahının gözlərinin işığıdır. Ehtiyatlı ol, ilanlar padşahı səni görməsin. Səni görsə, o elə bir fit səsi çıxarar ki, bir göz qırpımında oraya minlərlə ilan yığılıb gələr və səni parça-parça edər. Sən oğrun-oğrun ağacın dibinə yaxınlaş, yayına bir ox qoy, ilanlar padşahını tuş alıb yayı çək. Ox ilana dəyəcək və o yerə düşəcəkdir. Sən qorxma, o saat sıçrayıb onun belinə min və başından yapış. O nə qədər fısıldasa da qorxub belindən düşmə. Onun fısıltısına sürünüb gəlmiş ilanlara da fikir vermə, çünki onlar padşahlarının başının sənin əlində olduğunu görüb yaxınlaşmağa cürət etməyəcəklər. Bir şeyi unutma, bunların hamısından əvvəl sən qazan, şüşə qab və duz tədarükü görməlisən. Elə ki ilanlar padşahını çay kənarına gətirdin, onu öldür, başını yar. Orada bir-iki noxud böyüklüyündə ağ kürəcik görəcəksən, onu götürüb xurcununda gizlət, sonra ilanı doğrayıb qazana yığ, yaxşıca bişirdikdən sonra yağını yığıb şüşə qaba doldur və qapağını açıq qoy ki, soyusun. Bişmiş əti götürüb ayrıca saxla. Bu üç şeyi; ağ kürəciyi, yağı, əti ayrı-ayrılıqda saxla. Bil ki, ağ kürəciyin köməkliyi ilə istənilən xəstəliyi sağalda və nəbzi yavaşıda biləcəksən, əti ilə isə cinləri ram edib özünü onlardan qoruya biləcəksən».

Ustad sözünü bitirəndə ona müraciət etmiş qoca etiraz etdi: «Xeyr! Bu məni qane etmir!» Ustad gülüb ayağa qalxdı. Onun ətrafındakılar da o saat ayağa qalxdılar və onlar bir andaca qeyb oldular. Mən tez öz küpümə girib gizləndim. Xanım da haradansa qayıdıb küpünə oturdu və biz geriyə - evə uçduq. Xanım küpdən

enib ərinin yanına keçib qoynunda şirin yuxuya getdi. O biri gün mən qazan, şüşə qab, duz, bıçaq tədarükünü görüb onları xurcunuma qoydum və gecənin düşməyini gözlədim. Qaranlıq düşən kimi küpün içinə girdim, xanım yenə də eyni vaxtda gəlib üstünə yağ çəkib küpə oturdu. O, yenə də eyni qaydada əfsun oxudu və biz uçduq. Biz dünən olduğumuz yerə çatan kimi mən küpdən çıxıb xurcunumla bərabər həmin ağacın başına dırmaşdım və qoca ustad ətrafındakıları ilə gözdən itən kimi ağacdan enib Məşriqə baxdım, gördüm ki, lap uzaqdan işartı gəlir. O işığın ucunu tutub qoca ustadın dediyi kimi, gecələr yol getdim, gündüzlər yorğunluğumu aldım və on gündən sonra onun dediyi çayın sahilinə yetişdim. Oradakı ağacların budaqlarından yay düzəltdim, oxlar hazırladım. Qoca ustadın dediyi kimi, yenə də yoluma davam etdim və üç gün, üç gecə yol getdikdən sonra onun dediyi çəmənliyə çatdım. Çəmənliyin ortasında uca bir ağac var idi. Ağacın başındakı yuvadan işıq gəlirdi. Mən Allaha dualar edib oxu yaya qoyub çəkdim. Allah üstümdə oldu, elə birinci atdığım ox ilanlar padşahının boynuna dəydi, o, ağacın başından yerə düşdü. Mən sıçrayıb onun belinə mindim, başından yapışdım, o isə ildırım sürəti ilə irəlilədi. Biz külək kimi uçurduq. İlanlar padşahı bir vahiməli fit çaldı, bir göz qırpımında qarşıma minlərlə ilan çıxdı, amma məni padşahlarının belində görüb yaxınlaşmağa cürət etmədilər. Onlar mənim qabağımda qıvrılıb ayaqlarımı yalamağa başladılar. Nəhayət, mən ilanın belində çaya çatdım. Burada onun başını üzüb ağ kürəciyi çıxartdım, ətini isə doğrayıb qazana yığdım, ətə duz əlavə edib, qapaqla bağlayıb ocağa qoydum.

Elə ki ilanın yağı üzə çıxdı, onu yığıb şüşə qaba doldurdum, ətindən bir-iki tikə yeyib qalanını təmiz əskiyə büküb xurcunuma qoydum. Daha sonra yağdan götürüb bir az ayaqlarıma çəkdim. Sınaqdan çıxarmaq üçün suya ayaq basdım, amma gördüm ki, suyun üzündə qalıram. Çox sevindim və yoluma davam etdim. Yol boyu çox möcüzələr gördüm. Bir dəfə gördüm ki, iki sürü cin öz aralarında savaşırlar. Savaş bitdikdən sonra mən qalib sürüyə yaxınlaşdım. Onlar hörmət-izzətlə mənə təzim edib qulluqlarını təklif etdilər. Mən onlara dedim ki, məni bu adaya çatdırsınlar. Bu

həmin o ada idi ki, vaxtı ilə qərənfillər adasının sakinləri buranı talan edib məni də əsir aparmışdılar. Cinlərin padşahı nökərlərindən birinə əmr etdi ki, mənim istəyimi icra etsin, o da bir göz qırpımında məni evimə çatdırdı. Adanın sakinləri məni o saat tanıdılar və sorğu-suala tutdular. Mən başıma gələnləri danışdıqdan sonra ada sakinləri məni əvvəllər atamın oturduğu şah taxtında əyləşdirdilər. Sən də Allahına şükürlər et ki, yolun buraya düşmüşdür. Mən sənə əldə etdiyim möcüzəli nemətlərin hərəsindən balaca bir pay verəcəyəm ki, cinlər səni də sevsinlər».

Öz hekayətini danışıb bitirdikdən sonra o, cinlərə əmr etdi ki, mənə ilanlar padşahının kəlləsindən çıxmış ağ kürəcikdən balaca bir hissəcik, bir tikə ətindən və bir qədər də yağından versinlər. Sonra onun əmri ilə məni içi cürbəcür hədiyyələrlə dolu gəmiyə qoyub o biri sahilə çatdırdılar».

Nəhayət, tanıdığı yerlərə gəlib çıxan Zeyn əl-Əsnam çox sevinir və Misirə yollanır. Burada o ən adlı-sanlı məhəllələrdən birində özünə ev tutur. Bir neçə gün istirahət etdikdən sonra öz-özünə fikirləşir: «Mən Cinlər padşahına günahsız olduğumu bildirməsəm, bütün bu çəkdiyim məşəqqətin heç bir dəyəri olmaz!» Zeyn əl-Əsnam ilanlar padşahının ətindən bir az yeyir, yağından ayaqlarına çəkir, ağ kürəcikdən lap balaca tikə qoparıb dilinin altına qoyur və yola düşdü. Artıq yolu yaxşı tanıyan şahzadə asanlıqla gəlib dibindən bulaq axan ağaca çatır, bir az istirahət edir və sahilə yollanır. Burada artıq heç bir şeydən qorxmadan gəmiyə minib o biri sahilə keçir. Cinlər padşahının sarayına çatan kimi Mübarəkdən öyrəndiyi əfsunu oxuyur. Həmin dəqiqə cinlər padşahı öz məiyyəti ilə peyda olur. Cinlər padşahı Zeyn əl-Əsnamı görən kimi qəzəblənir və qışqırır: «Ay xain alçaq, sən hələ sağsan?!» Şahzadə təmkinlə deyir: «Ey şah, bir qədər səbir etsən, mən sənə olanları danışaram». Padşah deyir: «Danış!» Zeyn əl-Əsnam sözə başlayır: «Ey şah, de görüm, o qədər yaxşılıq edib, hörmət-izzət göstərdikdən sonra məni niyə dənizə atdın?» Padşah dilləndi: «Sənin etdiyin alçaqlığın qarşısında mən nə etməli idim? Sən mənim üçün gətirdiyin qızın üst - başına ən pis qoxusu olan yağdan çəkmişdin. Mənim o qoxudan başım ağrıyır, bundan

rəzil, pis nə ola bilərdi?» Şahzadə and-aman edib deyir: «And içirəm ki, mən heç bilmirəm, sən hansı qoxuya bu qədər nifrət edirsən. Mənim heç bundan xəbərim yoxdur və bunun kim tərəfindən edildiyini də bilmirəm. Bəlkə, bunu Mübarək etmişdir? Mənim günahım olsa idi, Allah məni xilas edərdimi?»

Şahzadəni dinləyib, cinlər padşahı onun and-amanlarına inanır. Cinlər padşahı hətta elədiyindən xəcalət çəkib aşağıya enir, Zeyn əl-Əsnamdan üzr istəyir və əmr edir ki, onun üçün at gətirsinlər. Zeyn əl-Əsnamı ata mindirib evinə aparır və şahanə bir süfrə açdırır. O, şahzadəyə deyir: «Oğlum, mən bilmədən səni incitmişəm». Şahzadə deyir: «Allah nə edir, gözəl edir. Allah qulu Allahın etdiklərini sevgi ilə qarşılamalıdır». Cinlər padşahı əmr edir ki, Zeyn əl-Əsnam üçün şahlara layiq yataq otağı hazırlasınlar. Gecə düşür, Zeyn əl-Əsnam ona hazırlanmış otaqda şirin yuxuya gedir.

Səhər açılanda şahzadə cinlər padşahına deyir: «Hökmdarım, izin ver, gedim. Mən Mübarəki tapıb, etdiyi xəyanətə görə ondan intiqam almaq istəyirəm». Cinlər padşahı deyir ki, o da gedib həqiqəti öyrənmək istəyir. Cinlər padşahı ilə şahzadə birlikdə Misirə yollanırlar, amma Mübarək orada yox idi. Onda onlar Bağdada gedirlər. Buraya çatanda görürlər ki, Mübarək şahanə bir həyat sürür, yanında gözəllər gözəli bir pəri əyləşmişdir, qarşısında isə ağızdan çıxan istənilən əmri yerinə yetirməyə hazır qul-nökərlər dəstəsi durmuşdur.

Mübarək cinlər padşahını görən kimi huşunu itirir. Cinlər padşahı deyir: «İndi tam əmin oldum ki, o işləri edən elə Mübarək imiş». Mübarək özünə gələndə cinlər padşahı ona deyir: «Ay nanəcib, alçaq köpək, niyə sahibinə xəyanət etdin? Niyə bizi aldatdın? Niyə onu ölümlə üz-üzə qoydun?» Mübarək onların qarşısında yerə sərilib yalvardı: «Yeri, göyü yaradan o uca Allaha and olsun ki, mənim pis niyyətim yox idi, adicə olaraq, bu qızcığaza yazığım gəldi deyə belə bir işə əl atdım. Mən o pis qoxulu yağı ona verdim ki, üstünə çəkib canını qurtarsın. İşin belə nəticələnəcəyini ağlıma gətirə bilməzdim. Günahkaram, səhv iş görmüşəm, məsləhət sənindir, necə istəyirsən, məni cəzalandır. Amma onu da bil ki, mən bu qızla evlənməmişəm, mən, sadəcə, onu qorumuşam». Cinlər padşahı Mübarəki

dinlədi və ona ürəyi acıdı, o başa düşdü ki, Mübarəkin, həqiqətən, pis niyyəti olmamışdır. Cinlər padşahı Zeyn əl-Əsnama dedi: «Oğlum, xahiş edirəm, mənim xətrimə Mübarəki bağışla». Şahzadə Mübarəki bağışladı. Cinlər padşahı deyir: «Mən gedirəm, al, mənim tükümdən, çətinliyə, darlığa düşsən, mənim köməyimə ehtiyacın olsa, onu yandır, həmin an hüzurunda olacağam». Bunları deyib cinlər padşahı havada əriyib qeyb oldu.

Zeyn əl-Əsnam, nəhayət, zövcəsinə qovuşdu. Ertəsi gün o, Mübarəki çağırıb yol tədarüklərinin hazırlanmasına göstəriş verdi. Bütün tədarüklər görüldükdən sonra onlar Bağdadı tərk edib Bəsrəyə yollandılar. Elə ki Bəsrə sakinləri Zeyn əl-Əsnamın qayıtmasını eşitdilər, şahzadənin pişvazına çıxdılar və yenə də onu öz padşahları elan etdilər. Zeyn əl-Əsnam bu dəfə şahlıq taxtına əyləşib dövləti ən ədalətli qanunlarla idarə etməyə başladı, o, rəiyyəti ilə mərhəmətlə rəftar edir, onlardan səxavətini əsirgəmirdi, camaatın qeydinə qalırdı, kasıb-füqəranın hər işinə çatırdı. Cinlər padşahı hər il onun yanına gəlir və hər işdə ona kömək edirdi. Padşah Bağdadlı zövcəsi ilə xoşbəxt həyat sürdü, çoxlu övladları oldu, bu dünyanı tərk etdikdən sonra oğulları yurdlarında yurdçu oldular, yurdlarını haqq-ədalətlə idarə etdilər.

## YEDDİNCİ HEKAYƏT

# Hərran padşahı, onun oğlanları və qardaşları Xudadadın hekayəti

Qədim dövrlərin təhkiyəçilərinin dediyinə görə, uzaq keçmişdə Hərran adlanan bir şəhər var imiş. Bu şəhərin çox varlı-hallı, adlı - sanlı hökmdarı var idi. Onun nəcabətli əshabələri, məiyyəti var idi. O, gecə-gündüz əllərini göyə açıb uca Allaha yalvarırdı ki, ona bir oğul payı versin. Günlərin bir günü bir ahıl onun yuxusuna gəlib deyir: «Sən çoxdandır ki, gecə-gündüz Allaha yalvarırsan ki, sənə bir oğul payı versin. İndi sevinə bilərsən, belə ki, arzun yerinə yetir. Səhər əmr et ki, sənin bağının arxa tərəfində bitən nar ağacından bir nar dərsinlər. Narı ortadan böl və dənələrini say. Nar dənələrinin sayı yüz olarsa, onları ye və bil ki, arzun yerinə yetəcəkdir».

Şah yuxudan duran kimi əmr edir ki, o ağacdan bir nar üzüb ona gətirsinlər. O, narı ortadan yarı bölüb dənələri sayır və görür ki, dənələrin sayı düz yüzdür. Şah bu işə məəttəl qalır, amma heç kəsə heç bir şey demədən dənələrin hamısını bircə-bircə yeyir. Vaxt keçirdi, saraydakı kənizlərin doxsan doqquzu padşahdan hamilə qalmışdır, amma padşahın sevimli, istəkli kənizi hamilə deyildir. Bu kənizin adı Firuzə idi. Firuzənin hamilə olmaması onu çox pərişan edirdi, o deyirdi: «Axı nəyə görə? Nəyə görə ən çox sevdiyim kənizim mənə oğul bəxş edə bilmir? Bəlkə, onun bir qüsuru vardır?» İş o yerə çatmışdır ki, şah, hətta onu öldürtmək istəmişdir, amma müdrik vəzir onu bu fikirdən daşındırmış və demişdir: «Sənin nəcib adına belə bir qərar yaraşarmı? Belə xırda işdə şeytana uymaq sənin adına ləkə gətirməzmi?» Vəzir şahın bu fikirdən dönməsinə nail olmuş, amma şah demişdir: «Ey müdrik, qəlbi saf vəzirim, onda başa sal görüm, niyə bu kənizlər məndən hamilə qalırlar, amma sevimli Firuzəm yox?» Vəzir deyir: «Ey hökmdarım, sən onu əmin oğlunun

evinə göndər, çünki nə qədər ki sənin əhvalın pisdir, qəzəblisən, o sənin yanında olmalı deyildir. Müəyyən vaxtdan sonra çox şeyə aydınlıq gələr və sən çox şeyi anlayarsan».

Hökmdar əmr edir ki, Firuzəni Samirə şəhərinə aparsınlar, özü isə məktub hazırlayıb, göstərişlərini yazılı şəkildə göndərir. Firuzə hökmdarın əmisi oğlunun sarayına yetişib məktubu təqdim edir. Onu qadınlar olan tərəfdə - hərəmxanada xüsusi hazırlanmış otaqda yerləşdirirlər. Burada hökmdarın sevimli kənizinin başına pərvanə kimi dolanır, onu naz-nemət içində bəsləyirdilər. Doqquz ayın tamamında Firuzə azad olur, o, dünyaya ay parçası kimi bir oğlan uşağı gətirir. Bundan xəbər tutan Samirə şəhərinin əmiri əmisi oğluna bu şad xəbəri yazıb göndərir. Hərran hökmdarı bu xəbəri eşidib çox sevinir, göstəriş verir ki, uşağı naz-nemət içində bəsləsinlər, dayə tutsunlar, hər cür şərait yaratsınlar. Şah oğluna Xudadad adını verir. İllər keçirdi, uşaq böyüyüb gözəl bir gənc olur.

Bir dəfə Xudadad anasının yanına gəlib soruşur: «Ana, mənim atam kimdir?» Anası cavab verir: «Sənin atan Hərran hökmdarıdır». Xudadad deyir: «Elə isə, mən atamı görmək istəyirəm, izin ver onun yanına gedim». Anası demişdir: «İxtiyar sahibisən, oğlum, getmək istəyirsən, get». Xudadad tez yığışıb, ov adı ilə şəhəri tərk edir. Xudadad dağlardan aşıb, səhralardan keçib, nəhayət, Hərran şəhərinə yetişir və hökmdarın hüzuruna gedir. Hökmdar Xudadadı görən kimi ürəyi ona yatır, onu sarayda öz yanında saxlayır. Çox keçmir ki, Xudadad hökmdarın ən yaxın adamına çevrilir, hökmdar bütün xəzinələrin açarlarını ona verir və onu öz vəliəhdi elan edir. Hökmdarın qalan doxsan doqquz oğlu da Xudadadın tabeliyinə keçirlər. Hər səhər bütün yüksək mənsəb sahibləri, əyanlar əvvəlcə onun yanına getməli, sonra isə onunla bərabər hökmdarın hüzuruna buyurmalı idilər. Hökmdarın digər oğulları Xudadadın paxıllığını çəkirdilər, onun tez bir zamanda atalarının gözündə belə yüksəlməsini, belə hörmət, nüfuz qazanmasını götürə bilmirdilər. Onlar öz aralarında bu məsələni müzakirə edib çıxış yolu axtarırlar. Qardaşlardan biri belə bir çıxış yolu təklif edir: «Gəlin, Xudadadın yanına gedib ondan ova

getmək üçün icazə istəyək. Bir ay ovdan qayıtmayaq. Atamız bizim qayıtmadığımız üçün narahat olub onu layiqincə cəzalandırar».

Qardaşlar bu fikri bəyənirlər və Xudadadın yanına gedib deyirlər: «Biz səndən bir neçə günlük icazə alıb ova getmək istəyirik». Xudadad onlara icazə verir və onlar gedirlər. Bir müddət şahzadələr atalarının hüzuruna gəlmirlər. Hökmdar bundan narahat olub şahzadələrin harada olduqlarını Xudadaddan soruşur. Xudadad cavab verir ki, onların ova getməklərinə icazə vermişdir, amma onlar hələ qayıtmamışlar. Bu məsələ hökmdarın xoşuna gəlmir, o deyir: «Sən niyə səlahiyyətində olmayan işləri boynuna götürürsən? Sən həddini aşırsan! Dur, get şahzadələri tap və bura gətir. Bunu tez bir zamanda etməsən, səni elə cəzalandıracağam ki, digərlərinə də görk olsun».

Atasının qəzəbindən qorxmuş Xudadad polad zirehini geyinib, Türküstan qalxanını, Hindistan qılıncını, Xətay nizəsini, Çaç kamanını, xədəng oxlarını götürüb tez çapan atını minib çölə yollanır. Xudadad beş gün, beş gecə çöl-biyabanı ələk-vələk eləyir, amma şahzadələri tapa bilmir. Altıncı gün o, bir gözəl çəmənliyə çatır. Çəmənlikdə üzünə Dəməşq bürüncü çəkilmiş möhtəşəm bir saray ucalırdı. Sarayın üst qatında pəncərəli bağlı eyvan var idi. Pəncərələrdən birinin qabağında mələk kimi gözəl bir qız oturub ağlayırdı.

Şahzadə ağlayan gözəli görüb soruşur: «Ey aycamal gözəl, tökdüyün bu göz yaşlarının səbəbi nədir?» Qız şahzadəni görüb qorxur və Xudadada deyir: «Ay bədbəxt, sən buraya gəlməklə özün özünə qəbir qazmısan». Şahzadə soruşur: «Niyə?» Qız cavab verir: «Ey cavan, mən Misirin adlı-sanlı ailəsinin qızıyam. Bir dəfə çəmənlikdə gəzmək niyyəti ilə məiyyətimlə evdən çıxmışdım. Şəhərdən bir az aralanmışdıq ki, bizə bir silahlı dəstə hücum etdi. Onlar bizi talan edib, yanımdakıları öldürüb məni isə buraya gətirdilər. Artıq on gündür ki, mən burada dustağam». Şahzadə soruşur: «Ey aycamal gözəl, bəs sizə hücum etmiş o silahlılar indi haradadırlar?» Qız cavab verir: «Onlar həmişə böyük yolun başına çıxırlar ki, keçən karvanlara hücum edib onları talasınlar».

Şahzadə bu pəri ilə söhbətləşirdi ki, birdən toz-duman qalxdı və onun içindən polad zirehli bir zənci çıxdı. Qız atlını görüb qorxdu və

dedi: «Budur, Əzrayılın özüdür, gəlir». Xudadad atını zəncinin qabağına çapdı. Zənci Xudadadı görüb bağırdı: «Ay bədbəxt, mən indi səni yer üzündən siləcəyəm!» Bu sözlər Xudadadı daha da qızışdırdı və o, döyüşə girdi. Onlar ölüm-dirim döyüşünə girdilər, hər biri yetmiş dəfə hücuma keçdi, amma heç biri digərini basa bilmədi, onda Xudadad qəfildən bir fənd işlədib zəncinin üstünə atıldı və qılıncını qaldırıb zəncinin boynuna elə bir zərbə endirdi ki, onun başı üzülüb bədəndən bir xeyli aralıya uçdu. Bunu görən qız eyvandan enib şahzadənin ayaqlarına düşdü. Daha sonra o, şahzadənin əlindən tutub saraya apardı, ona nəvaziş göstərdi. Bir az sonra şahzadə aşağıya enib karvanlardan əldə olmuş qənimətlərə baxmağa başladı. Birdən o, həyətdə ağzı qıfıllanmış quyu gördü. Şahzadə qızdan bunun nə quyusu olduğunu və nəyə görə qıfıllandığını soruşdu. Qız cavab verdi: «Mən ancaq onu bilirəm ki, zənci hər gün bu quyudan bir insan çıxarıb yeyirdi». Xudadad bu cavabı eşidib məəttəl qaldı. O, qılıncını çıxarıb, qıfılı sındırdı, quyuya düşdü. Quyunun dibinə çatanda gördü ki, burada üstünə qara örtük salınmış qapı vardır. Bu qapını açıb içəriyə keçəndə gördü ki, burada çoxlu əli-qolu bağlı əsir vardır. Onların üzlərinə diqqətlə baxanda öz qardaşlarını tanıdı. Onlar başlarını aşağı salıb ağlayırdılar. Qardaşlarını burada görən Xudadad mat qaldı və soruşdu: «Siz bu tələyə necə düşmüşünüz?» Onlar cavab verdilər: «Bizi bir neçə gün əvvəl bu zənci Əzrayıl tutub bu zindana salmışdır». Xudadad dedi: «Daha qorxmağa əsas yoxdur, mən onu öldürmüşəm». Xudadad onların əllərini, qollarını açdı, quyudan çıxardı, sonra onlara başına gələnləri danışdı. Qardaşların hamısı ona minnətdarlıqlarını bildirir, alqışlar edirdilər.

Xudadad quldurların sarayında gizlədilmiş bütün var-varidatı yığıb qıza verdi və dedi: «Ürəyin haraya istəyirsə, get. Bunların hamısı sənindir». Qız dedi: «Mən haraya gedəcəyəm? Bundan sonra mən ömrümün sonunadək sənin qulluğunda durmağa hazıram». Şahzadə çox sevindi, aycamal gözəl ilə kəbinlərini kəsdirdi, onu da özü ilə götürüb qardaşları ilə bir yerdə yola düzəldi. Yolda onlar bir yaşıl çəmənliyə çatdılar, burada buz kimi soyuq, büllur kimi şəffaf bulaq axırdı. Onlar bulaq başında dayanıb, atlarından düşdülər və bir az

istirahət etdilər. Qardaşlar Xudadadı alqışlayır, ona dualar edirdilər. Şahzadə dedi: «Mənim əzizlərim, mənə bu qədər təşəkkür etməyin, mən sizə yaxşılıq etməklə özümə də yaxşılıq edirəm, axı mən sizin qardaşınızam və bizim damarlarımızda axan eyni qandır. Mən çox xoşbəxtəm ki, belə qardaşlarım vardır». Xudadad qardaşlarına öz hekayətini danışır; anası Firuzə haqqında, anasının atası tərəfindən Samirə şəhərinə göndərildiyi, onun Samirədə dünyaya göz açdığını, böyüyüb anasından atası haqqında soruşub, onun yanına yollandığını olduğu kimi danışır. Qardaşlar bunu eşidib özlərini çox sevinmiş kimi göstərdilər, amma əslində, ürəklərində bu xəbərə çox pis olmuşdurlar. Onlar fikirləşirlər: «Atamız Xudadadın öz doğma oğlu olduğunu bilsə, onu daha da ucaldacaqdır, bizi isə onun ayağına verəcəkdir. Yeganə çıxış yolumuz gecəliklə onu öldürməkdir». Qardaşlar bu qərara gəlib gecənin düşməsini gözlədilər. Onlar Xudadad yuxuya gedən kimi onun başını bədənindən ayırmaq fikrinə düşürlər. Qardaşlardan birinin ona yazığı gəlir. O deyir: «Bir fikirləşin, atamız bundan xəbər tutan kimi hamımızı cəzalandıracaqdır, gəlin, elə bir əncam qılaq ki, Xudadadın, sadəcə, bizə pisliyi dəyə bilməsin». Qardaşların hamısı bu fikirlə razılaşırlar və onlar Xudadadın üstünə düşüb onu o ki var əzişdirib, əldə olmuş qənimətin hamısını götürüb oradan uzaqlaşırlar. Qız Xudadada yaxınlaşıb acı-acı ağlayır. Xudadad isə qanın içində, huşsuz halda yerdə, bir tərəfdə sərilib qalır. Bir az keçir, Xudadad özünə gəlib başının üstündə ağlayan dünyalar gözəlini görür və inilti ilə deyir: «Ey mənim sədaqətli gözəlim, çalış məni sürüyüb buradan uzaqlaşdırasan, çünki qorxuram o quldurlar qayıdıb ikimizi də öldürələr». Qız ətrafa göz gəzdirib şahzadənin atını görür. O, şahzadəni sürüyə-sürüyə aparıb, birtəhər ata mindirir və onlar oradan uzaqlaşırlar. Onlar dayanmadan üç gün, üç gecə susuz səhralar ilə yol gedirlər. Şahzadə dözməyib, əllərini göyə qaldırıb deyir: «Ey kimsəsizlərin, çarəsizlərin xilaskarı, bizə yardım et!» Xudadad hələ duasını bitirməmişdir ki, uzaqda ağaclıq, çəmənlik, onların arxasında isə şəhər görünür. Onlar bağçaya girirlər, qız Xudadada atdan düşüb, bir kölgəlikdə rahatlanmasına yardım edib, atı otlamaq üçün açıb çəmənliyə buraxır. Təsadüfən, yaxınlıqdan bir

dələduz keçirdi. O, qızı aldadıb atı aparır. Qız çox qışqırıb imdad edir, kömək istəyir, amma dadına çatan olmur. Qız pərt-pəjmürdə qayıdıb gəlib başına gələni ərinə danışır. Xudadad deyir: «İş tərs gətirəndə onun qarşısını heç bir şeylə almaq mümkün olmur».

Sonra şahzadə deyir: «Get, gör məlhəm tapa bilirsənmi? Dava-dərmansız məhv olacağam». Qız şəhərə yollanır, axşama qədər əlləşir, amma heç bir şey əldə edə bilmir. Qız yorğun, əzgin halda qayıdanda ərini yerində tapmır. O, hər tərəfi gəzir, axtarır, amma Xudadadı tapa bilmir. O fikirləşir: «Bəlkə, onu bir yırtıcı parçalayıb aparmışdır?» Qız yenə də ümidini üzməyib ətrafı gəzir, amma, yenə də, şahzadəni tapa bilmir. O bu hal ilə heç cür barışa bilmirdi və öz-özünə deyirdi: «Xudadadsız mənim üçün həyat yoxdur, ölüm ondan üstündür». Ürəyində bu sözləri deyə-deyə o, bir xarabalığa gəlib çıxır. Bu xarabalığın dörd divarı və uçuq damı var idi. Elə buradan bir arx axırdı. O, gözlərində yaş fikirləşir: «Xudadadsız yaşamaqdansa, bu daxmanın üstünü taxta parçaları ilə örtüb fani dünyadan uzaqlaşıb axirəti fikirləşib yaşamaq daha üstündür».

Bunları götür-qoy edə-edə qız quru ağac budaqları, yarpaqlar toplayıb damın üstünü örtür. Birdən o, ayaqlarının altında boşluq hiss etdi. Oranı çör-çöpdən, yarpaqlardan təmizləyib bir qapı görür. Bu, bir quyunun qapısı idi. Qız qapını açıb görür ki, burada bir pilləkən vardır. O, pilləkənlə aşağıya enir. Qız quyunun dibində ağzına kimi qızılla dolu on küp görür, o bu tapıntısına çox sevinir. Bir küpdən bir ovuc qızıl götürüb, o biri küplərə dəymədən çölə çıxır. O öz daxmasını mehraba çevirib, tərki-dünya olur.

Tez bir zamanda ruhani həyat sürən qızın adı bütün ətrafa yayılır. Bu şəhərə gələnlər bu qızı ziyarət etməmiş getmirdilər. Yavaş-yavaş buraya gələnlər daxmanın ətrafında özlərinə evlər tikməyə başlayırlar və burada böyük bir kənd salırlar. Qız buraya köçənlərə inək, öküz, saman, toxum almağa kömək edir ki, onlar rahat yerləşə bilsinlər. Sonra qız burada xidmətçiləri, nökərləri olan bir karvansara tikdirir ki, gələnlər ilk vaxtlar pul ödəmədən qala bilsinlər.

O ki qaldı Xudadada, onun başına bunlar gəlmişdir: Qız məlhəm dalınca gedəndə bağçanın sahibi gəlib çıxır və Xudadadı belə ağır

vəziyyətdə görüb ürəyi pis olur. O, gəncin başı üstə əyləşib əlini onun alnına qoyur. Xudadad gözünü açanda bağçanın sahibi deyir: «Ay oğul, de görüm, kimsən və səni kim bu hala qoymuşdur?» Xudadad cavab verir: «Məni bu günə qardaşlarım qoymuşlar, zövcəm isə şəhərə məlhəm dalınca getmişdir, amma mənim artıq gücüm yoxdur, ölürəm». Bağça sahibi deyir: «Oğlum, səni evimə aparıb müalicə edəcəyəm, zövcən gələndə isə sənin yanına gətirəcəyəm». Xudadad minnətdarlıq edib razılıq verir. Bağçanın sahibi bir ulaq gətirib Xudadadı mindirir, onu evinə aparır, həkim dəvət edir.

İş ondadır ki, sən demə, bağçanın sahibinin evi Samirə hökmdarının sarayının yaxınlığında imiş. Xudadadın uşaqlığı isə hökmdarın qızı ilə bir yerdə keçmişdir. Bir dəfə bu qız eyvanda gəzəndə qonşu evdən inilti səsi eşidir. O, bağça sahibinin evinin damına tullanıb bacadan evin içinə baxır və orada yaralı bir aycamal gəncin uzandığını görür. Gəncin əlləri, ayaqları bərbad gündə idi, o, ağrıdan zarıyırdı. Qız bağbanı sorğu-suala tutur, bağban gəncin başına gələnləri qıza danışır. Qızın Xudadada ürəyi ağrıyır, o, acı-acı ağlamağa başlayır. Qız öz sarayına keçib, otağına çəkilib uzun müddət gəncin halına ağlayır. Elə bu vaxt qızın atası onun otağına girir və qızını ağlayan görüb soruşur: «Nədir bu göz yaşlarının səbəbi?» Qız cavab verir: «Ata, mən bu gün qonşu evdə Xudadada oxşayan bir gənc gördüm, amma onun əlləri, ayaqları bərbad gündədir, qırıq-qırıqdır. Onu elə vəziyyətdə görəndən bəri sakitləşə bilmirəm». Atası soruşur: «Yaxşı, qızım, istədiyin nədir?» Qız deyir: «Allah rizası üçün ona qulluq etmək istəyirəm, amma o mənə naməhrəm olduğu üçün bu mümkün deyildir». Atası deyir: «Əgər ürəyin ona belə yatmışsa, səni ona ərə verim, bəlkə?» Qız deyir: «İxtiyar sahibisən». Hökmdar vəkilləri, qazını dəvət edir, onlar onun qızı ilə Xudadadın kəbinini kəsirlər. Hökmdar qızına deyir: «İndi get və o gəncin qulluğunda dur». Qız çox sevinir. O, gecə-gündüz Xudadadın qulluğunda dururdu. Bir gün Xudadad ona öz minnətdarlığını bildirib deyir: «Sən mənə qulluq etməkdən lap əldən düşdün. Səndən bir xahişim də var. Bu gecə mənim bu şikəst olmuş əllərimi, ayaqlarımı yu, bir yerdə Allaha dua

edək, bəlkə, eşidib sağalmağıma kömək edər, yox əgər kömək etməsə, bəlkə, canımı alar, mən də bu zülmdən qurtularam».

Gecə düşəndə qız Xudadadın dediyi kimi durub əvvəlcə özü yuyunur, sonra isə Xudadadı yuyundurur. Onlar dua etməyə başlayırlar. Onlar çox dua edirlər və ancaq səhərə yaxın yatırlar. Gecə Xudadadın yuxusuna yaşıl qiyafəli bir qoca gəlir və deyir: «Ey Xudadad, sevin, yanına şad xəbərlə gəlmişəm. Allah-təala sənin əllərini, ayaqlarını sağaltdı». Qoca bu sözləri deyib əllərini Xudadadın əllərinə, ayaqlarına çəkir və onlar sağalırlar. Sağaldığını hiss edən Xudadad ayılıb, yerindən sıçrayır və var gücü ilə qışqırır. Onun qışqırığına qız qorxub, yerindən dik atılır. Qız gördüklərinə inanmırdı; Xudadadın qırıq-qırıq olmuş ayaqları sağalmış, zəfəran kimi sarı rəngi çəhrayı gül ləçəkləri kimi olmuşdur. Məəttəl qalmış qız soruşur: «Bu necə oldu?» Xudadad hər şeyi olduğu kimi ona danışır, sonra isə gülümsəyərək soruşur: «Sən, həqiqətən, məni tanımadın? Mən Xudadadam, Hərran şəhərinin əmirinin oğluyam». Bu sözləri eşidən qız o saat onun ayaqlarına düşüb, əllərini öpür və atasının yanına gedib hər şeyi ona danışır. Samirə hökmdarı həmin saat Xudadadın yanına gəlir, Xudadad onu qarşılayıb qabağında təzim edir. Samirə hökmdarı onu qucaqlayanda şahzadə sevincindən ağlayır və başına gələnlərin hamısını ona danışır. Həmin saat Xudadadın anası Firuzəyə xəbər verirlər. O özünü oğluna çatdırıb, boynuna sarılır və hönkür-hönkür ağlayır.

Xudadad anasına atası, qardaşları və onların xəyanətindən danışır. Anası deyir: «Biz sənin atanın yanına gedib, hər şeyi olduğu kimi ona danışmalıyıq». Samirə hökmdarı yol tədarüklərinin görülməsinə göstəriş verir. Hər şey hazır olanda onlar hamısı bir yerdə yola düşürlər.

Onlar bir neçə gün yol gedirlər və, nəhayət, Xudadadın «müqəddəs» adı qazanmış birinci zövcəsinin saldığı kəndə çatırlar. Onlar buradakı karvansarada dayanırlar. Axşam, təsadüfən, qız Xudadadı görüb ona yaxınlaşır. Onlar bir-birlərinə sarılıb ağlaşırlar. Bunu görən Samirə hökmdarı çox pis olur, amma Xudadad indicə boynuna sarıldığı qızla bağlı hər şeyi olduğu kimi danışdıqdan sonra o sakit-

ləşir. Xudadad deyir: «Mən gecə-gündüz Allaha yalvarırdım ki, bu xanımı tapım, o məni eşitdi və mən arzuma çatdım». Onlar Xudadadın birinci zövcəsini də götürüb yollarına davam edirlər.

Onlar Hərrana yaxınlaşanda Samirə hökmdarı Hərran əmirinin yanına çapar göndərir ki, ona Xudadadın və Firuzənin gəldiyini xəbər versinlər. Hərran əmiri əshabələri ilə qonaqlarının pişvazına çıxır. Xudadad atasını görən kimi atından enib onun qabağına qaçır və atının üzəngisini öpür. Hökmdar Xudadada tənə ilə baxıb deyir: «Mən səni oğullarımı tapmaq üçün göndərmişdim. Necə oldu ki, onlar qayıdıb gəldilər, sən isə gəlmədin? Haralarda idin? Nəyə görə səni Samirə hökmdarı mənim yanıma gətirir? Məgər sən bilmirsən ki, mən səni doğma oğullarımdan da çox sevirdim?» Söhbətin bu məqamına Samirə hökmdarı qarışır: «Hökmdar, izin ver, mən sənə Xudadadın hekayətini danışım». Hökmdar deyir: «Danış». Samirə hökmdarı əmirə kənizi Firuzədən, onun oğlundan, daha sonra Xudadadın anasından izn istəyib atasının yanına gəlməsindən, sonra ovdan qayıtmayan qardaşlarını axtarmaq üçün gedəndə başına gələnlərdən, qardaşlarını xilas etməyindən və əvəzində qardaşlarının ona qarşı haqsızlıq etməklərindən danışır. Bunları dinləyən hökmdar atından düşüb oğlunu bağrına basır. O, qonaqlarını təmtəraqla şəhərə gətirir.

Padşah əmr edir ki, bazar meydanında doxsan doqquz dar ağacı qursunlar və hamının gözləri qarşısında onun doxsan doqquz oğlunu assınlar. Bundan xəbər tutan Xudadad atasının yanına gedib xahiş edir: «Mən rica edirəm, əmrini geri götür. Onlar mənə qarşı haqsızlıq etmişlərsə, Allahın cəzasından qurtula bilməyəcəklər. Mənə Allah kömək oldu, sən də mənim xətrimə onları cəzalandırma, mənə görə onların qanını axıtma». Padşah Xudadadı dinləyib sakitləşir və onların qanlarını tökmək fikrindən daşınır. O, Xudadadı taxta əyləşdirib, idarəçiliyi ona verir. Xudadad padşahlıq taxtına əyləşib haqq-ədalət, mərhəmət, səxavət, nəcabət örnəyi olan bir idarəçilik yaradır. Sonra o, qardaşlarını yanına dəvət edib deyir: «Siz hakimiyyətə yiyələnmək istəyirdiniz. Ona görə də məni döyüb az qala şikəst etmişdiniz, amma Allah-təala mənə kömək oldu, çünki Quranda deyilir: «(Ya Rəsulum!) De: «Ey mülkün sahibi olan Allah! Sən mülkü istədiyin

şəxsə verər, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan. Xeyir yalnız Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən!»».*

Bundan sonra o, taxta əyləşib dövləti idarə etməyə başlayır. Xudadad onu xilas etmiş bağbanı insanpərvərliyinə, mərhəmətinə görə mükafatlandırır.

O, xoşbəxt həyat sürür, zövcələri ona övladlar bağışlayırlar, onlar xeyirxahlıq etdikcə, xeyir-bərəkət də onlardan əskik olmurdu. Sonra onlar bu fani dünyanı tərk edib əbədi dünyaya qovuşdular.

*Bu hekayətdən çıxan nəticə belədir: İnsanlar bilməlidirlər ki, yaxşılıq edən yaxşılıq tapacaqdır, pislik edənin qarşısına isə yaxşılıq çıxmaz. Allah-təala dərgahına sığınan köməksiz qalmaz.*

*Nə qədər ki həyatdasan, mərhəmətli ol,*
*Gözəl sözlər söyləməkdə səxavətli ol!*

## SƏKKİZİNCİ HEKAYƏT

# Şah qızı, üç cavan və bir qocanın hekayəti

Belə danışırlar ki, günlərin bir günü üç yeniyetmə və bir qoca bir yerdə səyahətə çıxırlar. Onlar yorulub əldən düşmüş halda bir səhraya gəlib çıxırlar, ətrafa göz gəzdirəndə uzaqda günbəzləri göyə dəyən, darvazasının yanından arx axan bir möhtəşəm saray görürlər. Fikirləşirlər ki, nəyin bahasına olursa – olsun, özlərini o saraya çatdırsınlar ki, istirahət etsinlər. Bu qərara gəlib yollarına davam edirlər, amma bir qədər getdikdən sonra lap əldən düşüb yerə oturub qalırlar. Gənclərdən biri belə bir təklif verir: «Gəlin hər birimiz başına gələn macəralardan danışsın, kimin hekayəti maraqsız olarsa, yerdə qalanları belinə alıb saraya çatdırsın». Qoca da, o biri gənclər də bu təklifi bəyənirlər. Gənclərdən biri öz hekayətini danışmağa başlayır: «Mən böyük Əbu-Dulafın nəslindənəm. Ulu babam Əbu-Dulafın İsfahanda böyük bir kəndi var idi. O bu kəndi iki atəşpərəst kahinlə bir yerdə idarə edirdi. Bir dəfə ulu babamın yanında olanda qəribə bir hadisənin şahidi oldum, istəsəniz, danışaram». Dedilər: «Danış».

«Dediyim bu kənd çox böyük idi, onun bir yarısı Əbu-Dulafa, o biri yarısı isə iki atəşpərəst kahinə məxsus idi. Bu kahinlər qardaş idilər və gecə yuxuda da kəndin hamısının sahibi olduqlarını görürdülər. Onlar Əbu-Dulafa külli-miqdarda pul təklif edirdilər, amma ulu babam öz əmlakını vermək istəmirdi. Bir dəfə Əbu-Dulaf ova gedir. Kahin qardaşlar ovdan qayıtmış Əbu-Dulafı evlərinə dəvət edib süfrə açırlar. Bu vaxta qədər qardaşlar dəfələrlə ona kəndin ona məxsus yarısının müqabilində min qızıl dinar və nəfis əba təklif etmişdilər, amma o razı olmamışdır. O gün isə kahin qardaşların qonağı olanda qardaşlar onun ayağına, başına keçəndə Əbu-Dulafın gözü qardaşlardan birinin barmağındakı Yəmən yaqutlu üzüyə sataşır. Qardaşlardan birinin adı Avərd-Məzd, o birinin isə Bəhram idi. Avərd-Məzdin əynindəki sarı köynək üzüyə

qəribə rəng çaları verirdi və üzük daha da gözəl və cazibəli görünürdü. Əbu-Dulaf gözlərini üzükdən çəkə bilmirdi. Bunu görən Avərd-Məzd üzüyü barmağından çıxarıb üç dəfə öpür və bununla onu qonağa bağışlamaq niyyətində olduğunu bildirərək, Əbu-Dulafın qarşısına qoyur. Əbu-Daluf üzüyü götürüb diqqətlə baxır və deyir: «Çox gözəl üzükdür, amma daşın üzərindəki yazı onu korlayır». Avərd-Məzd deyir: «Ey əmir, bu yazının çox dərin mənası vardır, burada yazılmışdır: «Biz dünyanın bütün səltənətlərini fəth etsək, sonu nə olacaqdır? – Puçluq! Biz bütün dünyanı fəth etsək, sonu nə olacaqdır? – Puçluq!» Əbu-Dulaf bu sözlərdən çox kədərlənir və ağlayır. Sakitləşəndən sonra isə deyir: «Mən bu kəndin bütövlükdə sahibi olsam, nə olacaqdır? – Puçluq!» Daha sonra o bu şeiri deyir:

Bu fani dünyanın axırı puçdur,
İstəyirsən yüz yaşa, yenə də puçdur,
Yüz yaşın üstünə bir yüz də gəlsən,
Yenə unutma ki, bu həyat puçdur.

Əbu-Dulaf bu şeiri deyib kəndin ona aid hissəsini qardaşlara bağışlayır. Bundan sonra o, tərki-dünya olub xəlvətə çəkilir və ömrünün qalan hissəsini ibadətə həsr edir.

*Bu hekayətdən çıxan nəticə belədir: «Əgər sən məğribdən məşriqəcən bütün dünyaya yiyələnsən, dünyanın bütün qızılına, malına-dövlətinə sahib olsan, unutma ki, sonu eynidir – ölüm və puçluq".*

İkinci gənc deyir: «Mənim başıma da bir ibrətamiz macəra gəlmişdir, istəyirsinizsə, onu sizə danışım». Ona cavab verirlər: «Danış».

O öz hekayətinə başlayır: «Bir dəfə hələ çox gənc ikən-bığ yerim təzə-təzə tərləyən vaxtlar - öz-özümə vurğun olduğum çağlar Vasiti tərk edib şəhərdən uzaqlaşmışdım. Yol getməkdən yorulmuşdum, isti də bir yandan məni təntidirdi. Fikirləşdim ki, Həccac Yusifin sarayının yaxınlığında axan çayda yuyunum, həm də bir az sərinləşim. Çaya yaxınlaşıb, əynimi soyundum və çaya girdim. Həmin vaxt sarayın damında Həccacın gözəllikdə tayı-bərabəri olmayan bir kənizi gəzişirdi. O məni görən kimi bir könüldən min könülə

mənə aşiq olmuşdur. Məni xəbərdar etmək üçün əlindəki almanı mənə atır. Mən də başımı yuxarı qaldırıb baxanda onun gözəlliyi qarşısında az qala huşumu itirmişdim. Mən bu sərvqamətli gözəlin ovsununa düşmüşdüm. Qız məni damın üstündən səslədi və ilk növbədə, kim olduğumu və haralardan gəldiyimi soruşdu. Mən adımı deyib, kimlərdən olub, haradan gəldiyimi söylədim. Mən o gözələ o qədər aşiq olmuşdum ki, oradan ayrılıb gedə bilmirdim. Bu minvalla mən orada düz on gün qaldım, qız isə hər gün nökərləri ilə mənə lazımi şeyləri göndərirdi.

Günlərin bir günü Həccac Yusif əshabələri ilə eyvanda oturub söhbət edirdi. Həccac Yusif orada oturanlardan soruşur: «Sizcə, yer üzündə ən dadlı yemək hansıdır?» Biri cavab verir: «İzin versəniz, sizə içi şəkərli badamla, mixəklə, hind cevizi ilə doldurulmuş quş qızartması və yanında yağda qızardılmış ağ unun çörəyini təklif edərdim. Mən bunu elə hazırlayıram ki, yer üzündə hər hansı başqa yeməyin onunla müqayisə belə olunacağına inanmıram».

Həccacı bu yemək çox maraqlandırır və onu dadmaq istədiyini bildirir. Həmin adam o saat evə gedir və söylədiyi yeməyi hazırlayıb gətirir. O, gətirdiyi qabı əmirin qarşısına qoyur. Əmir qabdan bir quş götürür, qalanlarını isə çox sevdiyi kənizinə göndərir. Qız bu qaba başqa yeməklər əlavə edərək mənə göndərir. Mənimlə yoldaşlıq edən bir gənc var idi. Mən onu da süfrəyə dəvət etdim. Mən quşun qarnını kəsəndə onun içindən ləl-cavahirat, incilər töküldü. Bunu görən dostum o saat durub Həccacın yanına gedir və gördüklərini ona danışır. Dostumun danışdıqlarını eşidən Həccac çox qəzəblənir, yeməyi hazırlayanı yanına gətizdirir və soruşur: «De görüm, quşların içini nə ilə doldurmuşdun?» Yeməyi hazırlamış adam cavab vermişdir: «Hamısının içi badamla, qozla, mixəklə doldurulmuşdur, amma biri ləl-cavahiratla, mirvari, inci ilə». Gəncin dediklərinin həqiqət olduğuna əmin olduqdan sonra əmir məni və kənizi yanına çağırtdırıb zavallı qızın üstünə qışqırdı: «Ay ləyaqətsiz, mənim göstərdiyim mərhəmətin, qayğının müqabilində sən mənə belə minnətdarlıq edirsən?» Qız təmkinlə cavab verdi: «Ey əmir, məni tənə etmə, mənim belə bir hərəkətə yol verməyimin iki səbəbi vardır; birincisi, Allah-

təalanın yazdığı bir qismət vardır, ikincisi isə, bütün vücudumu sarmış eşq». Əmir qışqırdı: «Ay ləyaqətsiz, bəs sən mənim qəzəbimdən qorxmadın?» Qız cavab verdi: «Bir halda ki mən eşq yolunda canımdan keçməyə hazıram, sənin qəzəbindən nəyə görə qorxmalıyam?!» Qızın bu cavabından başını itirmiş əmir məndən soruşdu: «Sən haradansan?» Bu şəhərdən olduğumu dedim. O soruşdu: «Məgər sən mənim kim olduğumu bilmirsən? Sən nə cürətlə belə bir addım atmısan?» Mən cavab verdim: «Bilirəm və sənin qəddarlığın haqqında da kifayət qədər məlumatım vardır, amma mən bunların hamısını bildiyim halda belə bu addımı atmışam və həyatımla vidalaşmağa da hazıram».

Əmir bir xeyli fikirli-fikirli mənə baxdı, sonra nökərindən soruşdu: «Mən səni ən etibarlı adamım etmişdim, sən niyə mənə xəyanət etdin?» O, sakitcə cavab verdi: «Məni gənclərin verdiyi qızıl dinarlar yoldan çıxardı». Bu cavabları eşidən əmir fikrə daldı, sonra başını qaldırıb dedi: «Bəli, dünyada belə şeylər çox olur, amma üçünüz də verdiyiniz cavablarda səmimi olduğunuz üçün hamınızı bağışlayıram».

Əmir kənizi ilə mənim əllərimi birləşdirib, xeyir-duasını verdi, bizə min qızıl dinar hədiyyə etdi, nökərini azad etdi, dostuma isə dedi: «Ay bic vələdüzzina! Sənin dostun nəciblik edib səni süfrəsinə dəvət etmişdir ki, sən də ləziz təamlardan yeyib həzz alasan. Sən isə onun müqabilində onu satıb, məni isə hərəmxanamın sirlərini açıb-tökməklə rüsvay etdin. Sən buna görə cavab verəcəksən». Əmir əmr etdi ki, onu daşqalaq etsinlər. Carçılar isə bütün şəhərə car çəkdilər: «Bilin və eşidin; xəbərçilik edib müsəlmanın sirrini yayanın aqibəti belə olacaqdır».

Artıq bir ildir ki, sevgilim dünyasını dəyişib, mən isə dərddən laməkan olub dünyanı gəzirəm».

*Bu hekayətdən çıxan nəticə belədir: birincisi, ən böyük biclik düzlükdür, ikincisi, paxıllığın, həsədin axırı heç vaxt yaxşı olmur.*

Elə ki bu hekayət bitdi, üçüncü gənc dedi: «Mənim söyləyəcəyim hekayət isə belədir. «Mən Dəməşqin hörmətli nəslindənəm,

amansız zaman məndən də yan keçmədi, ailə üzvlərim çoxaldı, gəlirim azaldı, bu günlərə qaldım. Xəcalətdən dərdimi bir kəsə danışıb, vəziyyətimin fənalığından söz aça bilmirdim. Bu vəziyyətimdən xəbər tutan dostlarımdan biri mənə dedi: «Mənə elə gəlir ki, Bağdada gedib, Bərməkilərə müraciət etsən, vəziyyətini anlatsan, onlar sənə kömək edərlər».

Dostumun məsləhətinə əməl edərək ailəmi götürüb Bağdada yollandım. Bağdada çatıb ailəmi məsciddə qoyub bazara yollandım, amma orada heç bir şey əldə edə bilmədim. Elə məscidə qayıtmaq istəyirdim, gördüm ki, şəhər meydanına tərəf bir dəstə zəngin geyinmiş adam gəlir. Fikirləşdim ki, yəqin, bunlar bir hörmətli adamın hüzuruna gedirlər, bəlkə, onların ardınca getsəm, mən də bir şey əldə edib ailəm üçün apararam.

Belə bir qərara gəlib onların ardınca getdim. Biz bir saraya çatdıq, sarayın günbəzləri elə bil göyə dəyirdi. Sarayın geniş eyvanında qiymətli daşlarla bəzədilmiş oyma bəzəkli uca bir taxt qurulmuşdur. Taxtın üstündə əslindən, nəcabətindən xəbər verən görünüşə malik, üzündən xoş niyyətli birisinə bənzəyən gənc əyləşmişdir. Bir azdan xətib dəvət olundu və o, ev sahibinə dualar oxudu. Duadan sonra otağa qul-nökərlər daxil oldular və burada olanlardan birinin qarşısına içi qızıl dinarla dolu bir teşt qoydular. Mən cürət edib əlində teşt tutmuş adama tərəf heç dönüb baxmırdım, qorxurdum ki, özümü saxlamayıb qızıldan bir ovuc götürəm, amma fikir verib gördüm ki, adamlar yaxınlaşıb qızıldan götürüb ciblərinə qoyurlar. Mən yenə də teştə yaxınlaşmağa cürət etmirdim. Onda orada olanlardan biri mənə dedi: «Ey cavan, niyə öz payını götürmürsən?» Mən teştə yaxınlaşıb özümə bir az qızıl götürdüm. Hiss edirdim ki, sevincdən başım gicəllənir. Mən o saat çıxmaq istədim, amma nökərlərdən biri məni saxlayıb geriyə apardı. Mən fikirləşdim ki, indi qızılları əlimdən alacaqlar. O məni eyvana gətirdi. Eyvanda taxt üstündə əyləşmiş gənc və xətib mənə çox qayğı göstərdilər. Onlar məndən soruşdular: «Haradansan?» Mən onlara başıma gələnləri danışdım. Onlar soruşdular: «Deməli, sən buraya ailənlə gəlmisən və bütün ümidin Bərməkilərədir?» Mən təsdiq etdim. Gənc dedi: «Belə

olan halda, burada qal, biz çalışıb, Bərməkilərdən birisini taparıq. Bəs sənin ailən haradadır?» Mən cavab verdim: «Bir məsciddədirlər». Gənc əmr etdi ki, süfrə açıb təamlar gətirsinlər.

Axşam düşəndə məni bir möhtəşəm evin yanına aparıb dedilər: «Bu, Bərməkilərin sarayıdır». Mən saraya girəndə elə bildim ki, cənnətə düşmüşəm. Divarlara ipək çəkilmişdir, xalılar asılmışdır, yerə palazlar döşənmişdir. Bəzədilmiş böyük otağa girəndə ailəmi orada gördüm. Övladlarım məni görüb qarşıma qaçdılar, hamısının əynində bahalı, gözəl libaslar var idi. Bunların hamısı mənə yuxu kimi gəlirdi, mən, hətta fikirləşdim ki, bəlkə, bu röyadır? Mən ətrafı süzüb, bunun nə demək olduğunu götür-qoy edirdim ki, içəriyə mənə səmimiyyət və qayğı göstərmiş gənc daxil oldu. O mənə dedi: «Ey gənc, bu sənin evindir, bu evin anbarlarında iki illik yemək-içmək ehtiyatı vardır. Mənim nökərlərim sənə xidmət etmək üçün on qul, on kəniz, evin sənədlərini və min qızıl dinar verəcəklər. Bundan başqa sənə iki kənd veriləcəkdir ki, onun da gəliri sənə məxsus olacaqdır. Bil ki, mən Bərməkilərin böyük qardaşıyam. Bir halda ki sən bizim adımızı tutub gəlmisən, özümüzü borclu bildik, sənə yardım edək, işlərini yoluna qoyaq. Bunu eşidib özümü xilaskarımın ayaqlarına atıb adını soruşdum. O cavab verdi: «Adım Yəhya Bərməkidir» və getdi. Mən qadınlar olan tərəfə keçib gördüm ki, zövcəm, qızlarım gözəl geyinib-kecinib oturmuşlar, qulluqlarında da on kəniz vardır. Mən taleyimdən çox razı idim, özümü çox xoşbəxt hiss edirdim. Mən gen-bol pul xərcləyə-xərcləyə uzun müddət Bağdadda yaşadım, çox keçmədi, mən yolumu azdım, təkəbbürlü oldum. Allah məni təkəbbürümə görə cəzalandırdı. Xəlifə Bərməkilərin bütün var-varidatını, mülklərini əllərindən aldı, bəzilərini edam etdirdi, bəzilərini qovdu, bəzilərini isə dilənçi kökünə saldı. O vaxtdan bəri mən sərgərdan olub çöllərə düşdüm və günüm, güzəranım belə oldu.

*Bu hekayətdən isə belə nəticə çıxır: «Təkəbbür ilə təşəxxüs insanı hər zaman bədbəxtçiliyə sürükləyir».*

Elə ki gənclər öz hekayətlərini bitirdilər, qocaya müraciət etdilər: «İndi sənin növbəndir». Qoca dedi ki, onun həyatında elə bir

macəra olmamışdır və danışmağa da hekayəti yoxdur. Cavanlar dedilər: «Onda sən gərək bizi belinə alıb aparasan». Qoca çıxılmaz vəziyyətdə qaldı, çünki bir bəhanə tapa bilmirdi. İstər-istəməz o məcbur oldu cavanları belinə mindirib aparsın. Təsadüfən yolun üstündə bir saray göründü. O saray o tərəflərin hökmdarına məxsus idi və burada onun qızı dayələri, kənizləri ilə yaşayırdı. Bu şahzadə qızın gözəllikdə tayı-bərabəri yox idi. Həmin vaxt o, otaqda, pəncərənin qabağında oturub uzağa baxırdı. Birdən qız uzaqdan belində üç cavan, ayaqlarını zorla sürüyən, yıxıla-dura yol gələn qocanı görür. O həmin an nökərini göndərir ki, onları saraya gətirsinlər.

O, qəzəblə deyir: «Ay yaramazlar, mənim atamın məmləkətində qurdla quzu bir yerdə yollaşır, bir güclü bir zəifi incitmir, çalağanla kəklik bir yuvada yaşayır. Siz, üç sağlam gənc nə cürətlə bu qocanın belinə minib mənim sarayımın həndəvərinə yaxınlaşmısınız? Mən indi sizi elə cəzalandıracağam ki, göydə uçan quşlar da sizin halınıza ağlayacaqlar».

Gənclər cavab verirlər: «Bizim heç bir günahımız yoxdur və biz heç bir zorakılıq etməmişik, sadəcə, biz şərtləşmişdik ki, hərə başına gələn macəralardan birini danışsın, kimin hekayəti maraqsız olarsa, o biriləri belinə alıb aparsın. Bu qoca heç bir şey danışa bilmədiyi üçün uduzdu və indi də şərtə uyğun olaraq bizi belində daşıyır». Şahzadə qız qocadan soruşur: «Onların dedikləri doğrudur?» Qoca cavab verir: «Bəli, onlar düz deyirlər, amma iş ondadır ki, mənim həyatımda, həqiqətən də, bir macəra olmamışdır».

Qız soruşur: «Yəni sənin başına heç vaxt yaxşı və ya pis iş gəlməmişdir?» Qoca cavab verir: «Xeyr, heç vaxt heç bir macəra baş verməmişdir». Qız soruşur: «Sənin neçə yaşın vardır?» Qoca deyir: «Yetmiş». Qız deyir: «Mənim indi on yeddi yaşım var, amma artıq başıma yetmiş cür macəra gəlmişdir, necə olur ki, sənin yetmiş yaşın vardır və sənin danışacağın bir macəran yoxdur?» Qoca cavab verir: «Bəli, ay qızım, yoxdur». Onda qız cavanlara müraciət edir: «Yaxşı, əgər mən onun əvəzinə öz macəralarımdan danışsam, qocadan əl çəkərsiniz?» Cavanlar yekdilliklə cavab verirlər: «Burada söz sahibi şahzadə xanımdır, biz isə ona tabeyik».

Qız öz hekayətinə başlayır: «On üç yaşında idim, bazarda gəzişirdim, dükanında oturub tikişlə məşğul olan bir cavan dərzi gördüm. Onu görən kimi bir könüldən min könülə aşiq oldum. Bu eşq məni elə sarmışdır ki, oradan ayrılıb gedə bilmirdim. Mənim yanımda çoxlu qul-nökər var idi. Mən onların qarşısında biabır olmağımdan qorxub, özümü ələ alıb evə qayıtdım. Ürəyimdə özünə yer etmiş bu eşq mənə rahatlıq vermirdi. Mən bu gizli eşqimi dayəmə danışdım.

Dayəm dedi: «Sən hələ çox kiçiksən, eşqdən danışıb, eşqə düşmək hələ sənə yaramaz». Mən onun sözünə qulaq asmadım, nökərlərimdən birini yanıma çağırtdırıb, dərzinin yerini ona başa saldım və əmr etdim ki, onu yanıma gətirsinlər. Nökərim gedib dərzini yanıma gətirdi. Onu görüb az qala huşumu itirmişdim. Çətinliklə də olsa, müvazinətimi saxlayıb əmr etdim ki, çoxlu atlaz, qumaş, ipək parçalar gətirsinlər və dərziyə dedim: «Bu parçaları götür, mənim üçün libaslar, qiyafələr tik». Mən bunu ona görə edirdim ki, heç kəs şübhələnməsin. Gənc dərzi ölçüləri çıxardı, parçaları götürdü və durdu ki, getsin, mən onu saxladım və dedim: «Biz qonaqlarımızı yeməmiş yola salmırıq». Mən əmr etdim süfrə açsınlar, o oturub yeməyə başladı. Mən yeməyi səliqə ilə boşqaba düzüb onun qarşısına qoyurdum. Cavan dərzi mənim rəftarımı, baxışlarımı sezib vəcdə gəlirdi və birdən dedi: «Allahdan başqa Allah yoxdur!» O bu sözləri deyib Allaha dua edəndə mən onun ağzına əlimdəki tikəni qoyub başını sinəmə çəkdim və onu busələrimə qərq etdim. Mat qalmış cavan qorxaraq dedi: «Xanım, sən belə günah işlər görürsən, bəs Allahdan qorxmursan?» Mən dərzinin bu sözlərindən çox məyus oldum və onu qorxutmaq üçün bıçağı götürüb onun ağzına dirədim, təsadüfən bıçaq onun boğazına girdi, o yerə yıxılıb canını tapşırdı. Mən çox qorxdum. Tez dayəmi çağırtdırıb olanları ona danışdım. Dayəm dedi: «Axı mən sənə demişdim ki, ehtiyatlı ol». Mən dedim: «Canım dayə, indi nəyin düz, nəyin səhv olduğunu çözmək vaxtı deyildir, yaxşısı budur ki, fikirləş, gör nə edək». Hələ qaranlıq düşmədiyi üçün biz dərzinin ölüsünü çıxara bilmirdik, ona görə mən onu otağımda qoyub, qapını bağladım, açarları isə sinəmdə gizlətdim».

Elə ki gecə düşdü, hamı yatmaq üçün öz otağına çəkildi, dayəmlə istədik dərzinin ölüsünü palaza büküb damın üstünə qaldıraq ki, oradan da xəndəyə ataq, amma həmin vaxt həyətə adamlar daxil oldu və biz bunu edə bilmədik. Onda belə qərara gəldik ki, həmin palazı bağlı otaqda saxlayaq və Allahın hökmünü gözləyək. Bir aydan sonra evi qoxu bürüməyə başladı. Mən yenə dayəmə müraciət etdim, çünki qorxurdum ki, atam işdən xəbər tutar. Çarəsiz qalıb atamın sərkərdəsinin nökərinə müraciət etdim. Bu qara zəncini zarafatla: «Müğbilək», yəni «bəxtəvər», - deyə çağırırdılar. Mən Müğbiləki çağırıb, ovcuna əlli qızıl dinar qoyub dedim: «Bu palazı götürüb evdən çıxar, amma elə et ki, bundan heç kəs xəbər tutmasın». Qara zənci əvvəlcə palazı götürdü, amma birdən dayanıb dedi: «Bu palazın içində nə olduğunu bilməmiş çölə çıxarmayacağam».

Biz dayəmlə nə qədər çalışdıq, onu bu fikrindən daşındıra bilmədik. Onda biz palazı açmalı olduq. Müğbilək dedi: «Mənə deyin görüm, bu kimdir və onu kim öldürmüşdür?» Mən məcburiyyət qarşısında qalıb hər şeyi danışmalı oldum. Onda bu rəzil alçaq dedi: «Mən bunu ancaq sənin nəvazişinin müqabilində edərəm, əgər mənə yaxınlıq verməsən, dediyini etməyəcəyəm». Onun bu sözlərini eşidib çox hiddətləndim və üstünə qışqırdım: «Sən nə cürətlə mənə belə bir şey təklif edirsən?» O, sakitcə cavab verdi: «Bəli, mənim şərtim budur, əks təqdirdə hər şeyi gedib atana danışacağam». Mən onu dilə gətirməyə başladım: «Ay Müğbilək, sən mənə belə şeyləri necə təklif edə bilərsən, axı mən hələ lap körpəyəm». O mənə cavab verdi: «Gənc dərzi ilə vaxt keçirəndə körpə olduğunu unutmuşdun? İndi necə oldu körpə olduğun yadına düşdü?» Mən dedim: «Dur, palazı çıxar, mən sənə o qədər qızıl verərəm ki, ömrünün sonunadək ehtiyac nə olduğunu bilməzsən». O etiraz edib dedi: «Sən mənə atanın bütün xəzinələrini versən belə, bu işi görməyəcəyəm. Mənim şərtim şərtdir, yoxsa, hər şeyi atana danışacağam».

Mən atamdan çox qorxurdum, Müğbilək isə dediyindən dönmürdü. Mən məcburiyyət qarşısında qalıb qara zəncinin şərtini qəbul etməli oldum. Müğbilək palazı aparıb atdı, mən əvvəlcə sevindim, amma sevincimin müddəti az oldu, çox keçmədi Müğbilək mənim

nəvazişlərimi özü üçün adət etdi və hər gün mənim yanıma gəlməyə başladı, mən isə atamın qorxusundan, adımın ləkələnməsinin qorxusundan taleyimə boyun əyməli olurdum. Bir müddət belə davam etdi. Bir dəfə atam öz silahlı dəstəsi ilə ova yollandı, həyətdə isə bir neçə zabitin qalmasını əmr etdi. Zabitlər qarovul çəkdikləri vaxt içki içib vaxtlarını da istədikləri kimi keçirirdilər. «Bəxtəvər» də onlarla bərabər içki içir, kef edirdi. Bir dəfə zabitlər özləri üçün pozğun qadınlar da gətirmişdilər. Onların qara zənciyə yazıqları gəlir, deyirlər: «Get, sən də özün üçün qara qıra oxşayan birisini gətir, vaxtını keçir». Müğbilək kinayə ilə baxıb demişdir: «Siz məni ələ salırsınız? Nəyə istəyirsiniz, and içim, əgər mən sevgilimi gətirsəm, qorxunuzdan ödünüz partlayar». Zabitlər soruşmuşlar: «Sənin sevgilin kimdir ki?» O cavab vermişdir: «Mənim sevgilim hökmdarın gözəllər gözəli qızıdır». Əvvəlcə hamı gülüşmüşdür, amma sonra ona demişlər: «Ey rəzil təlxək, bir də belə axmaq zarafatlar etmə, yoxsa hamımızın başına bəla gətirərsən». Müğbilək demişdir: «İstəyirsiniz, indi gedim onu bura gətirim». Zabitlər onun sözlərini zarafat bilib demişdilər: «Get, gətir». Qara zənci ayağa qalxıb saraya girir və mənim qapımı döyür. Mən həyəcanla soruşdum: «Nə olmuşdur, gecənin bu vaxtı nə gəzirsən burada?» O dedi: «Sən mənimlə zabitlərin yanına getməlisən və bizi əyləndirməlisən». Mən qışqırdım: «Sən nə cürətlə mənə belə bir şey təklif edirsən?» O isə dedi: «Nə qədər qışqırsan da, heç bir şey dəyişməyəcəkdir, sən mənimlə getməlisən». O həm də içkili idi, mən başa düşdüm ki, etiraz etməyimin heç bir mənası yoxdur. Durdum, gizlətdiyim tez təsir edən zəhərdən də götürüb onunla getdim. Zabitlər məni görən kimi ayaqlarıma düşdülər. Mən onların arasında oturub dedim: «Mən bu gün sizinlə əylənəcəyəm, amma bir şərtim vardır, saqiliyi özüm edəcəyəm». Orada olanların hamısı mat qaldı, amma etiraz edən də olmadı. Onlar dedilər: «İxtiyar sahibisən». Müğbilək gah məni qucaqlayır, gah sığallayır, gah da öpürdü. Mən isə gizlincə şərab badələrinə zəhər əlavə edib oradakılara paylayırdım. Onlar bir-birinin ardınca huşlarını itirib yıxıldılar. Mən durub bıçağı götürdüm, əvvəlcə Müğbiləkin başını kəsdim, sonra isə zabitlərin qarınlarını yırtdım. Bunları edib getdim

öz otağıma və yatdım. Səhəri gün hər yerə səs yayıldı ki, gecə bütün zabit və nökərlər içkili olub, bir-birlərini öldürmüşlər.

Bir müddət keçəndən sonra bir şahzadə mənə elçilərini yolladı, atam məni ona verdi. Nikah kəsiləndə mən dayəmlə utandığımızdan özümüzə yer tapa bilmirdik. Dayəm nə qədər araşdırsa da, mənim dərdimə bir əlac tapa bilmirdi ki, ərimin yanında rüsvay olmayım. Onda mən bir rəssam dəvət etdim və ona buyurdum ki, mənə baxıb kağız üzərində rəsmimi çəksin. O mənim rəsmimi çəkib bitirdikdən sonra mən ona minnətdarlığımı bildirdim və min qızıl dinar verib dedim: «İndi isə bu rəsmi götür və bütün dünyanı gəz. Mənə bənzəyən kəniz tapmayana qədər qayıtma, elə ki tapdın, onu satın al və mənim yanıma gətir, amma bundan heç kəsin xəbəri olmasın». Rəssam gedir və bir müddət sonra eyni ilə mənə bənzəyən bir qızla qayıdır. O gün ki mən ər evinə köçməli idim, kənizi çağırıb dedim: «Mən səni buraya gətizdirmək üçün böyük miqdarda pullar xərcləmişəm. Mənim səninlə kəsəcəyim şərt budur: mən səni bircə gecəlik ərə verəcəyəm, sən toy günü ər evinə gedib elə o gecə, səhərə yaxın oranı tərk edəcəksən. Mən isə bunun müqabilində səni azad edəcəyəm». O cavab verdi: «İxtiyar sahibisən. Sən deyən olsun». Mən onu öpdüm və həmin günü gözləməyə başladım. Həmin gün yetişəndə mən ərimin otağına keçdim. O, şərab içib sərxoş oldu. Sonra kənizi çağırıb onun yatağına saldım. Sərxoş ərim heç bir şey anlamadı. Mən kənizə otağı tərk etməyi buyurdum, amma o tərslik edib dedi: «O mənim ərimdir və Allah-təala onu mənim qismətimə yazmışdır». Kəniz bunları deyib arxasını mənə çevirdi. Bunu görüb mən mətbəxə keçdim. Mətbəx yataq otağı ilə yanaşı idi, mən orada ocaq qaladım, odununu çox elədim, od tezliklə evi bürüdü və tezliklə dama da qalxdı. Ərim qorxusundan yerindən sıçradı, evi bürümüş odu görüb dama qaçdı. Kəniz də bizim dalımızca gəldi. Mən onların arasında durub dedim: «Əzizim, sən çəkil, yoxsa, yanarsan. O, kənara çəkiləndə mən yavaşca kənizi itələyib mətbəxdəki alovun içinə saldım. O həmin an alovun içində yanıb kül oldu. Məni həyəcan, iztirab içində görən ərim gəlib məni qucaqladı, kənara çəkdi və dedi: «Qəm etmə, ən əsası, biz sağ-salamatıq, onun əvəzinə isə mən sənə başqa kəniz

verərəm». Sonra qullar-nökərlər alovu söndürdülər və biz aşağıya endik. Biz xoşbəxt həyat sürməyə başladıq və indi bizim iki oğlumuz vardır».

Şahzadə qız öz hekayətini bitirib qocaya müraciət etdi: «Mən öz kiçik həyatım boyu elə macəralar yaşamışam ki.... sən isə deyirsən ki, yetmiş yaşa çatıb bir macəra yaşamamısan!». Daha sonra şahzadə qız bizim hər birimizə çox qiymətli hədiyyələr verdi və yola saldı. Bu hekayət isə bizə ondan yadigar qaldı.

## DOQQUZUNCU HEKAYƏT

# Dünyada dərdsiz insan olub-olmadığını bilmək istəyən padşahın hekayəti

Müdrik, dünyagörmüş qocalar danışırlar ki, keçmiş zamanlarda bir qəddar, zalım hökmdar var imiş. Qoca vaxtında insanları alçaltmaqdan, təhqir etməkdən, zülm verməkdən zövq alırmış. O o qədər amansız, qəddar, qaniçən idi ki, bir məxluq belə onun yanında nəfəs ala bilmirdi. Bütün bunlarla bərabər onun çox müdrik və mərhəmətli vəziri var idi. O, həmişə hökmdara doğru yol göstərir, onu bəd işlərdən çəkindirirdi. Dərin biliyə malik olan vəzir hər gün hökmdara hədislər, müdrik hekayətlər, keçmiş hökmdarların xeyirxahlıqları haqqında rəvayətlər oxuyardu. O çalışırdı ki, hər bir vəchlə onu düz yola yönləndirsin, amma bunların heç birinin faydası olmurdu. Bu vəziyyət kifayət qədər uzun sürmüşdür.

Vəzirin son dərəcə gözəl bir qızı var idi. Gözəlləri mədh edə biləcək bütün sözlər bu gözələ aid edilə bilərdi. İş ondadır ki, bu qız hökmdarın ürəyini fəth etmişdir, hökmdar bu sərv boylu, gül üzlü gözələ qəlbən bağlanmış və onu öz hərəmxanasında görmək istəyirdi. O, dəfələrlə vəzirə müraciət edib, elçilik etmişdir, lakin vəzir hər dəfə bir bəhanə ilə qızını ona verməkdən imtina etmişdir. O, hər dəfə deyirdi: «Hökmdarın qulluğunda olan hər kəs öz yerini bilməlidir, əks halda o elə cəzalandırılıb, elə bir vəziyyətə düşər ki, heç kəs onun dadına çata bilməz. Hökmdar nə qədər alicənab, nəcib, mərhəmətli olub mənə bu qədər dəyər versə də, yerimi, həddimi bilmək mənim borcumdur. Allahın sevimli bəndəsi Peyğəmbərimiz – Allahın salamları olsun ona! Allah ona yar olsun! Adını uca tutsun! – demişdir: «Özünü tanıyan Allahını tanıyar». Məgər mən belə bir hörmətə layiqəm ki, mənim qızım hökmdarın xanımı olsun? Hökmdarımıza adlı-sanlı, özünə layiq xanım yaraşar».

Şah hər dəfə bu məsələni açanda vəzir bu səpkidə olan sözlərlə söhbəti qapadardı. Şah vəzirindən çox inciyirdi, amma uzun müddətli xidmətinə, sədaqətinə, üstündə olan haqqına və çox şeylərə görə onu cəzalandıra bilmirdi.

Buna görə şah bir bəhanə axtarırdı ki, vəziri bir şeydə günahlandırıb edam etdirsin, sonra isə onun qızı ilə evlənsin. Vaxt gedirdi, şah vəzirdə bir xəta, səhv tapa bilmirdi və şahın qorxusundan heç kəs cürət edib vəzirin qızına elçi düşmürdü.

Günlərin bir günü vəzir şahın otağında dərindən, çox acı köks ötürür. Şah qəzəblənib qışqırmağa başlayır: «Sən mənim sayəmdə bu qədər naz-nemətin, xətir-hörmətin içində ikən, nə cürətlə yanımda belə acı köks ötürürsən?» Vəzir cavab verir: «Allah hökmdarın ömrünü uzun etsin! Haqlısan. Sənin kimi alicənab, ədalətli, mərhəmətli hökmdarın qulluğunda olan adamın heç bir dərdi, qayğısı ola bilməz, çünki onların bu dünyada xoşbəxtliyi, o dünyada hüzuru təmin olunmuşdur, amma bununla belə bil ki, yer üzündə elə bir adam tapılmaz ki, onun ürəyində sızıldayan bir dərdi olmasın».

Hökmdar bu sözləri eşidib, öz-özünə deyir: «Axtardığımı tapdım. İndi mən ona göstərərəm!» Şah ucadan deyir: «Boş-boş danışma! Yəni bu on səkkiz min dünyanın heç birində bir dərdsiz adam yoxdur?» Vəzir cavab verir: «Allah hökmdarımızın başını daima uca, adını yüksəkdə tutsun! Hökmdar mənim sözlərimin doğru olduğunu yoxlamaq üçün bütün ömrünü səyahətlərdə keçirib, bütün dünyanı - məşriqdən məğribədək gəzsə, yenə də dərdi olmayan bir adam tapmayacaqdır, çünki Allah-təala dünyanın təməlini dərddən yaratmışdır. Məgər sən fikir verməmisən ki, ecazkar tovuz quşu hər kəsin qarşısında göz qamaşdırıb lovğalanarkən birdən gözləri ayaqlarına sataşanda dərin qüssəyə batır?* Ona da fikir ver ki, onun dərdi məhz fərəhinin içindədir. Yadda saxla ki, heç bir müdrik insan bu fani dünyaya bel bağlamaz, bu dünya dərd dünyasıdır və bu dünyaya gələn kəs istər-istəməz dərd tapar. Hökmdar, bil ki, dediklərimin hamısı həqiqətdir və düşünmə ki, özünü şux göstərib gülən adamın dərdi yoxdur. Sənin qarşına yüz minlərlə gülən, sevinən adam çıxa bilər, amma onların içinə baxsan, görərsən ki içləri qan ağlayır. Bir

Allah bilər onların içində, ürəklərində nələr vardır! Bir Allah bilər onların içində nə qədər qəm-kədər sızıldayır! Çox vaxt insanlar xoşbəxtliklərini tapanda, sevinəndə ağlayırlar, çünki dərd-bəla da məhz onlarla gəlir. Beləliklə, istər xoşbəxt insan olsun, istər bədbəxt, dərdsiz adam yoxdur. Hökmdar, çəkin və ağlına belə gətirmə ki, yer üzündə dərdsiz adam ola bilər».

Vəzirin bu sözlərini dinləyən hökmdar əvvəlcə fikrə dalmış, sonra qəzəblənmişdir. Ağlına gələn birinci fikir bu olmuşdur ki, vəziri edam etsin, amma hirsli başla qərar verib səhv, nalayiq addım atacağından çəkinib dərdi olmayan adamın axtarışına yollanmaq fikrində dayanmışdır. Şah ucadan deyir: «Mən dərdi olmayan insan tapacağam və səni cəzalandıracağam ki, hamıya görk olsun. Qoy hamı başa düşsün ki, hökmdar hüzurunda boş-boş sözlər söyləmək olmaz!» Vəzir hökmdarın bu qəzəbli sözlərinin səbəbini anlayır, amma heç bir şey olmamış kimi deyir: «İxtiyar sahibisən! Biz isə əmrə müntəzirik, təki sən qane ol!» Şah əmr edir ki, qulları bütün dünyaya səpələnsinlər və dərdi olmayan, heç olmasa, bir adam tapsınlar, amma onların hamısı əliboş qayıdırlar.

Şah görəndə ki, göndərdiyi qulların hamısı əliboş qayıdır, qərara gəlir ki, özü axtarışa yollansın. Şah əshabələrindən birini yerində əyləşdirib, tacir qiyafəsində yola düşür, amma nə qədər gəzir-dolaşır, dərdsiz, tam xoşbəxt adam tapa bilmir. Hər getdiyi yerdə bir həftə qalır, şəhər sakinləri ilə uzun-uzadı söhbət edirdi. O, çox gəzir, nəhayət, gəlib sahilə çıxır. O, Amman, Hind, Çin dənizlərinin sahillərini dolaşır, Həbəşdə, Zənzibarda, Frank dövlətində, Hicazda, İraqda, İranda, Xorasanda olur, amma görünüşcə xoşbəxt adam tapırsa da, dərinə gedəndə görürdü ki, onun dərdi o birilərinkilərdən də çoxdur. Hökmdar ruhdan düşüb geri qayıtmaq istəyirdi ki, ona Məğribdə heç bir dərd-qəmi olmayan bir hökmdarın xəbərini çatdırırlar. Şah o hökmdarı tapmaq qərarına gəlir.

Şah Məğribə gəlir və soraqlaşa-soraqlaşa məmləkətin paytaxt şəhərinə yetişir. Şah bir varlı tacir kimi böyük bir karvan qurur, dəvələri ən qiymətli mal ilə yüklədir, şəhər yaxınlığındakı karvansaralardan birində dayanır və nökərlərindən birini şəhərə yollayır ki,

karvan gəldiyini xəbər versin. Şah özünə Hacı Musa adını götürür. Şəhər sakinlərinin arasında karvanın gəlməsi xəbəri yayılanda tacirlər gələnlərin pişvazına çıxırlar.

Bu hökmdarın belə bir adəti var idi: tanıdığı və ya tanımadığı mötəbər qonağın gəldiyini biləndə öz əyan, əshabələrini onun pişvazına göndərirdi, şəhəri bayramsayağı, təmtəraqla bəzətdirirdi, üç gün ərzində qonağa, hörmət əlaməti olaraq, qiymətli hədiyyələr göndərərək öz nəcibliyini nümayiş etdirirdi. Şahın iki oğlu var idi. O hər gün onları qonağın yanına göndərirdi ki, qulluğunda dursunlar. «Hacı Musa» da öz növbəsində hər gün şahzadələri hörmət-izzətlə qarşılayır, qiymətli hədiyyələrlə yola salırdı. Bundan başqa o, şahzadələrin vasitəsi ilə hökmdarın özünə də qiymətli hədiyyələr göndərirdi. Hökmdar get-gedə bu tacirə çox bağlanırdı və ondan ayrılmaq istəmirdi. «Hacı Musa» onu müşahidə edirdi və fikir verirdi ki, bu hökmdar həmişə xoş əhval-ruhiyyədə olur. O öz-özünə deyir: «Nəhayət, mən axtardığımı tapdım. Yurduma qayıdan kimi vəziri biabır edib layiqincə cəzalandıracağam ki, bir də hökmdarlar yanında hərzə-hərzə danışmasın. Mən bir iki ay da burada qalıb, sonra hökmdardan izin istəyib evə qayıdaram».

Bu iki hökmdar hər gün eyni qaydada görüşüb günlərini kef məclislərində keçirirdilər. Nəhayət, «Hacı Musa» hökmdardan getmək üçün izin istəyir. Hökmdar çox inciyir və izin vermək istəmir. O, taciri yanına dəvət edib deyir: «Ey tacirlərin böyüyü, sən neçə müddətdir ki, bizim məmləkətdəsən, biz artıq sənə elə öyrəşmişik ki, sənsiz günümüzü-güzəranımızı təsəvvür edə bilmirik. Sən öz varlığınla bizim həyatımızı rövnəqləndirirsən, gəl sən bizim məmləkəti özünə doğma yurd bil, burada qal. Biz sənin üçün hər bir şərait yaratmağa hazırıq, istəyirsən məmləkətin tən yarısını özünə götür, istəyirsən bütün hakimiyyəti əlinə al, bütün xəzinələrin ixtiyarı səndə olsun, amma getmə, bizimlə qal, qalan ömrümüzü xoş ünsiyyətdə keçirək».

«Tacir» deyir: «Allah ömrünü uzun etsin, amma mən uzun müddətdir ki, vətənimi, evimi, eşiyimi bir məqsədimə çatmaq niyyəti ilə tərk etmişəm. Mən çox zülmə, əzaba qatlaşıb, çox şeylərimdən keçib

sənin sayəndə məqsədimə çatdım. Səndən yeganə istədiyim budur ki, mənə bir şəhadətnamə verəsən».

Hökmdar fikrə gedir və öz-özünə sual verir: «Görəsən, o mənim sayəmdə hansı məqsədinə çatmışdır?» Şübhələr onun fikrini qarışdırır. O soruşur: «Sən bir mənə de görüm, mənim sayəmdə hansı məqsədinə çatmısan? Yoxsa, ağlıma min cür axmaq fikir gəlir».

«Hacı Musa» cavab verir: «Ey hökmdar, iş bundadır ki, mən də sənin kimi bir hökmdaram və mənim öz məmləkətim vardır. Mənim bir vəzirim var, o çox tərs adamdır. Bir dəfə biz onunla müxtəlif məsələlər ətrafında söhbət edirdik, birdən o buyurdu ki, yer üzündə tam xoşbəxt, heç bir dərd-qəmi olmayan insan ola bilməz. Onun bu fikri mənə qəribə gəldi və mən and içdim ki, belə bir adam tapmamış rahat olmayacağam. Bu məqsədlə tacir qiyafəsində dünya səyahətinə çıxdım. Mən bütün dünyanı qarış-qarış gəzdim, amma səndən başqa dərd-qəmi olmayan, həmişə üzü gülən adama rast gəlmədim. Səni görəndə vəzirimin dediklərinin cəfəngiyat olduğuna əmin oldum».

«Tacir Musa»nın bu sözlərini eşidən hökmdar təəccübdən mat qalmışdır və o dillənir: «Sən, həqiqətən, düşünürsən ki, mənim heç bir dərdim yoxdur? Belədirsə, mənimlə gedək». Hökmdar qonağının əlindən tutub sarayın arxa otaqlarından birinə aparır. O otaqdan uzun bir keçid ilə qonşu evə keçirlər. Onlar qonşu evə keçəndə hökmdar qapını açır, pərdəni qaldırır və qonağına deyir: «Sən buraya bax, onda bilərsən ki, mənim dərdim var, ya yox». «Tacir Musa» ətrafa göz gəzdirib son dərəcə gözəl, nəfis bəzədilmiş böyük bir otaqda olduğunu görür. Bu otaq bir cənnət guşəsinə bənzəyirdi, bəlkə, ondan da gözəl idi.

Otaqda dörd gözəl taxt qoyulmuşdur, ortada mərmərdən gözəl bir hovuz tikilmişdir, hovuzun ətrafında çoxlu qızıl qəfəs düzülmüşdür. Qəfəslərin içərisindəki növbənöv quşlar: tutu quşu, bülbül, turac, göyərçin, qumru quşu, torağay və başqaları cəh-cəh vururdular. Taxtlardan birinin üstündə divə bənzəyən, qara zənci uzanmışdır, o, ayaqlarını bir aycamal, güldodaq, günəş kimi parlaq gözəlin dizlərinin üstünə qoymuşdur, bu gözəl pəri isə onun ayaqlarını ovxa-

layırdı, bu qara zəncinin başı üstə isə onun istənilən arzusunu yerinə yetirməyə hazır olan iki gənc durmuşdur.

Hökmdar Musaya müraciət edir: «Sən bu evi də gördün, bu adamları da. Elədirmi?» Musa deyir: «Bəli». Hökmdar deyir: «İndi isə gedək, mən sənə necə «xoşbəxt» olduğumu danışım». Hökmdar qapıları bağlayır, qonağı arxa otaqlardan birinə aparıb əyləşdirir və hekayətinə başlayır: «Eşit və bil, mənim atam çox adlı-sanlı adam idi, o, gecə-gündüz Allaha yalvarırdı ki, oğlu olsun. Mən onun lap qoca vaxtında dünyaya gəlmişdim. On yaşım olanda atam rəhmətə getmişdir. Mənim bir əmim var idi, onun zövcəsi çoxdan rəhmətə getmişdir və bir qızı qalmışdır. Əmim başqa ölkədə yaşayırdı. Atam hələ sağlığında göstəriş vermişdir ki, əmim qızını gətirsinlər və biz bir yerdə böyüyək. Biz uşaqlıqdan bir-birimizə öyrəşmişdik, dostlaşmışdıq. Atam bizi nişanlamışdır və sonra bu xəbəri əmimə yazmışdır. Biz həmişə bir yerdə olurduq və mən, həqiqətən, ona vurulmuşdum, amma mən on beş yaşıma çatanda ağlasığmaz bir hadisə baş verir. İş ondadır ki, əmimin bir dünyalar gözəli kənizi var idi. O kəniz əmimi sevirdi, amma əmim hələ onunla yaxınlıq etməmişdir, atam bundan xəbər tutub əmimdən həmin kənizi istəmişdir və onunla evlənmişdir. O kəniz atamı sevmirdi, çünki onun ürəyindəki keçmiş sahibi-əmim idi. O öz hirsini, acısını bizdən çıxırdı. Bizim qarşılıqlı məhəbbətimizin həsədini çəkirdi, mənimlə pis rəftar edirdi, hər bir vəchlə çalışırdı bizi bir-birimizdən ayırsın. O, gizlicə əmimin yanına çapar göndərmişdir. O, çapara tapşırmışdır ki, əmimə çatdırsın ki, artıq qızı böyümüşdür, onu geri istəsin və mehrini tələb etsin. Uzun sözün qısası, ifritə kəniz istəyinə nail olur, bizi bir-birimizdən ayırırlar. Əmim gəlib qızını aparır. Mən bu ayrılığa dözə bilməyib xəstələnmişdim, o ifritə isə yenə də məndən əl çəkmirdi. O, mütəmadi əmimin yanına çaparlar göndərib mənim haqqımda uydurma iftiralar çatdırırdı. Nəhayət, mən başa düşdüm ki, onun məqsədi məni məhv etməkdir. Mən dərd çəkməkdən çöpə dönmüşdüm, göz yaşı axıtmaqdan gözlərim kor olmuşdur. Düz bir il mən cəhənnəm əzabı çəkdim.

Atam ölən kimi o ifritə əmimin yanına çapar göndərdi. Əmim gəlib atamdan qalmış hər şeyə yiyələndi, xəzinəni taladı, kənizini də

özü ilə götürüb getdi. Mən tək-tənha, xəstə, zəif, kimsəsiz, atılmış vəziyyətdə qaldım. Bütün hakimiyyət əmimin əlinə keçdikdən sonra onlar daha da amansız oldular və məni zəif, xəstə halda evdən qovdular. Əmim adamlarına tapşırdı ki, məni evdən, şəhərdən, hətta vilayətdən də qovsunlar.

Şəhərdən bir az aralı atamın qullarından birinə bağışladığı kənd var idi. Atamın keçmiş qulu burada yaşayırdı. Mən çıxılmaz vəziyyətdə qalıb həmin qula sığınmalı oldum.

Əmim mənim əlimdən hər şeyi almaqla bərabər, bunların hamısı az imiş kimi, sevgilimlə görüşməyimi də imkansız etmişdir. Əmimin ifritə kənizi hamını mənə qarşı elə qızışdırmışdır ki, heç kəs, nəinki mənə kömək etmək, adımı belə dilinə gətirmək istəmirdi. Əgər kiminsə yadına düşürdümsə də, həmin adam bunu dilinə gətirmirdi. Mən bir müddət belə yaşadım, bir az özümə gəldim, amma sevgilimin həsrəti məni boğurdu, ruhum rahatlıq tapmırdı. Ürəyim həsrətdən yanırdı.

Bir dəfə dözməyib şəhərə getdim. Orada mənim dayəm yaşayırdı, onun yanına getdim. Əmimin qorxusundan heç kəsin gözünə görünmədim. Doğrudur, məni xəstəlikdən sonra heç kəs tanımazdı, amma yenə də ehtiyatlı oldum. Dayəmin ayaqlarına düşüb yalvardım: «Əziz dayəm, yalvarıram, bir şey fikirləş, saraya gir, sevgilimdən mənə xəbər gətir, ona məndən danış». Dayənin kənizin qorxusundan birbaşa saraya getməyə cürəti çatmadı, o mənim sevgilimin dayəsinin yanına getdi. O mənim dayəmi görən kimi yerindən sıçramış və ilk soruşduğu da mən olmuşam. O, dayəmdən soruşmuşdur: «Bizim biçarə haradadır?» Dayəm cavab vermişdir: «O, atasının keçmiş qullarlından birinin kəndində yaşayır». Sevgilimin dayəsi soruşmuşdur: «Yəni mümkündürmü ki, o öz halalca nişanlısını tamamilə unutsun?» Onda dayəm başıma gələnləri ona danışmış və demişdir: «O, sevgilisinin həsrətindən xəstəliyə düşmüş və indi də ona olan eşqdən ölür». Sevgilimin dayəsi demişdir: «Mənim bunlardan xəbərim yox idi. Bir dəfə mənim qızcığazım mənə öz ürəyini açdı və dedi: «Əziz dayəm, əgər sən mənə sevgilimdən bir xəbər gətirməsən, özümü öldürəcəyəm». Mən zavallı qızcığazı

sakitləşdirib, dilə tutdum ki, səbir etsin və söz verdim ki, sevgilisini tapıb bir xəbər gətirəcəyəm».

Dayəm bu sözləri eşidib çox sevinmiş və özünü mənə çatdırıb olanları danışmışdır. Eşidəndə ki, sevgilim mənim həsrətimdən alışıb-yanır, ona olan eşqim birə-on qat artdı, ürəyim alovlandı, nəfəsim dayandı, gözlərim qaraldı. Mən yuxu, yemək, rahatlıq nə olduğunu unutdum. Mən yenə dayəmə yalvardım ki, gedib sevgilimin dayəsinə çatdırsın ki, mənim vəziyyətim keçən dəfə dediyimdən dəfələrlə ağırdır və soruşsun ki, mən nə edim, atası mənim ona aparan yolların hamısını kəsmişdir. Dayəm məni diqqətlə dinləyib sevgilimin dayəsinin yanına yollanmış, mənim dediklərimi olduğu kimi çatdırmışdır və xahiş etmişdi ki, qızı onun yanına gətirsin. Qız gəldikdə dayəm ona mənim vəziyyətimi olduğu kimi təsvir etmişdir. O, bir az fikirləşib dayəmdən xahiş etmişdir ki, mənə bu sözləri çatdırsınlar: «Sənin əmin sənin atan deyildir. Onun sənə olan nifrətinin səbəbi isə o ifritə kənizdədir. O ifritə əmini sənə qarşı qızışdırır, ona görə də əmin səni görmək istəmir. Bu vəziyyətdən yeganə çıxış yolu sənin atanın əyan, əshabələrinin yanına getməyindədir, çünki onlar sənə səmimi qəlbdən bağlıdırlar, onlar sənə kömək edərlər. Sən onların vasitəsi ilə əminə bu sözləri çatdır: «Tutaq ki, sən qanunla mənə məxsus olan, atamdan mənə irslə keçmiş hökmdarlığı, səltənəti, var-dövləti qaytarmaq istəmirsən, heç olmasa haqq-halal nişanlımı mənə ver. Əgər düşünürsən ki, səltənətdən, vərəsədən imtina etmişəmsə, nişanlımdan da imtina edəcəyəm, səhv edirsən. Böyük hökmdarlara xas olan alicənablıq, nəciblik xətrinə mənim haqq-halal nişanlımı mənə ver».

Nişanlımın bu təklifini eşidib atamın əyan, əshabələrini yanıma dəvət edib onlarla baş verənləri müzakirə etdim və onlarla əmimə bir məktub göndərdim. O, tez bir zamanda cavab göndərdi: «Gənc haqlıdır və mən də verdiyim sözdən imtina etmirəm, amma mənim şərtim var; o mənə süd pulu, mehr verməlidir. Qızımın süd pulunun, mehrinin dəyəri min qızıl dinarlıq qırx kisədir. Mən mehri, süd pulunu alan kimi qızımı ona verməyə hazıram».

Bu xəbər mənə çatanda dünya başıma fırlandı, gözlərim qaraldı, mənim nəinki bu qədər pulum, heç iki qəpiyim də yox idi. Mənim qanım qaraldı, bilmirdim nə edim və nişanlıma vəziyyətimi anlatmağa isə cürət etmirdim.

Mən beynimdə bunları götür-qoy edirdim ki, bu vaxt dayəm gəlib qabağıma yüz qızıl dinar və bir dəst bahalı paltar qoyub dedi: «Bunu əmin qızı göndərmişdir. Dedi ki, hər şeydən xəbəri vardır, bilirəm ki, kasıblıq üzündən kənddə gizlənir, əvvəlcə əynini dəyişib, bu pulu xərcləsin, o kənddən köçsün. Sonra yenə pul göndərib bir çıxış yolu tapıb sənə xəbər verəcəkdir». Mən dayəmə dedim ki, nişanlımın dediklərinə əməl edəcəyəm. Dayəm getdi, amma tezliklə yenə gəldi və dedi: «Nişanlın dedi ki, sənə çatdırım: «Narahat olma və bil ki, atamın bütün var-dövləti mənim əlimdədir. Hələlik bu pul kisələrini götür və əmindən iki ay izin istə. Bu müddətdə mən sənə qırx kisə qızılı çatdıracağam və biz evlənəndə o qədər var-varidat gətirəcəyəm ki, ömrümüzün sonuna kimi bəs edəcəkdir».

Mən son dərəcə sevindim və əmimin yanına əmirləri yolladım. Əmim mənim şərtimi qəbul edib dedi: «Mən razıyam, amma o şərtlə ki, əgər iki ay ərzində o lazım olan qızılı toplayıb gətirə bilməsə, daha onunla qızımın arasında heç bir bağlılıq qalmayacaqdır».

Əmirlər oradan çıxıb yanıma gəldilər və əmimin şərtlərini mənə çatdırdılar. Mən bu şərtləri dinləyib başa düşdüm ki, əmim mənim belə qısa müddətdə bu qədər qızıl pul əldə edəcəyimə inanmır və tam əmindir ki, qızını mənə verməli olmayacaqdır. Mən dayəmi sevgilimin yanına göndərib atasının qoyduğu şərtləri ona çatdırdım. Dayəm gəlib dedi ki, sevgilim buyurmuşdur ki, bu gecə onun eyvanının altındakı uçuq komaya gedim. Sevgilim hər gün mənə pul kisələri verəsi idi ki, mən onları evə daşıyım. Mən qaranlığın düşməsini gözlədim və qərarlaşdığımız yerə getdim. Bir müddətdən sonra qız eyvana çıxdı və bir kisə qızılı aşağıya atdı. Mən pul kisəsini götürüb evə getdim. Bu minvalla düz iyirmi gün mən hər gecə şərtləşdiyimiz yerə gedir və gecə yarısı bir kisə qızılla qayıdırdım. İyirmi birinci gün mən yenə də şərtləşdiyimiz yerə yollandım, həm çox qaranlıq idi, həm də yağış yağırdı. Məni bu qara gecədə, yağan yağışın

altında vahimə basdı, bıçağımı çıxardım. Elə bu vaxt qız pul kisəsini atdı, pul kisəsi bıçağa dəydi, o, əlimdən düşdü və mən də sürüşüb yıxıldım. Mən çox nataraz yıxılmışdım, bıçaq məni ağır zədələmişdir, ağrıdan huşumu itirmişdim, özümə gələndə çox çətinliklə ayağa qalxıb pul kisəsini evə sürüdüm. Yaram çox dərinə işləmişdir, mən uzun müddət onu müalicə etdim, amma heç kəsə başıma gələni danışmadım. Mənim yaram sağalmaq əvəzinə daha da ağırlaşırdı, mən ağrıdan qışqırırdım. Nişanlıma xəbər göndərdim ki, çox möhkəm xəstələnmişəm. O və dostlarım hər gün mənə baş çəkirdilər. Mən onlara deyirdim ki, çox ağrıyıram. Bu yara mənə çox baha başa gəldi, yeri sağalsa da, fəsadları çox ağır oldu. Mən dərddən ölmək istəyirdim, amma ölə bilmirdim. Artıq məndə həyat eşqi sönmüşdür, heç bir şeyə marağım qalmamışdır.

Təsadüf belə gətirir ki, elə o ərəfədə əmim ova çıxır, ovda at onu üstündən atır və əmim canını tapşırır. Əmim qızı o saat bu xəbəri mənə çatdırdı. Bu səltənətin qanununa görə, hökmdarın oğlu olmadığı halda, onun ölümündən sonra taxta qızı oturmalı idi. Əmim ölən kimi bütün əyan, əshabələr yığışıb əmim qızının qabağında sədaqətlə və ədalətlə xidmət edəcəklərinə and içib onu taxta əyləşdirdilər və onu öz hökmdarları elan edirlər. Hökmdar xanım həmin an mənim dalımca adamlarını göndərdi və taxt tacı mənə təhvil vermək fikrində olduğunu bildirir. Mən o saat onun yanına getdim. Sevgilim məni görən kimi ayaqlarıma düşdü, əllərimdən öpdü və dedi: «Bir Allah bilir mən bu ayrılığa necə dözdüm. Bu həsrət bir neçə gün də davam etsə idi, mən öləcəkdim. Doğru deyirlər ki, Allah bir qapını bağlayanda başqa bir qapını açır. Baxmayaraq ki, atam hər şeyi: hakimiyyəti, var-dövləti, məni sənin əlindən almışdır, indi yenə də bunların hamısı sənə məxsusdur. Doğrudur, atamın vərəsəsi mənəm, amma mən bunların hamısını sənə təslim edirəm. Sən taxtda əyləşib, tacı başına qoyub bu səltənəti idarə edəcəksən. Mən isə sənin sədaqətli qulun olub gecə-gündüz qulluğunda durmağa hazıram».

Bunları deyib o mənim boynuma sarıldı, mənə nəvazişlər göstərdi, o məni min bir busəyə qərq etdi, sonra isə ayağa qalxıb qarşıma atasının bizə olmazın pisliklər etmiş kənizini, mənim keçmiş analığımı

gətirib dedi: «Budur, bizim bütün əzablarımızın mənbəyi. İndi özün necə istəyirsən, onu cəzalandır». Öz dərdimin qabağındakı acizliyim başqa bir şey haqqında fikirləşməyə imkan vermirdi, onu bağışladım və Allaha tapşırdım. Hətta onu əmirlərdən birinə ərə verdim.

Mən ondan qisas almayacağam, bu gündən belə,
Qoy Tanrı [ondan] mənim qisasımı alsın.

Bundan başqa, mən bu olanların müqabilində gecə-gündüz Allaha şükürlər etməli idim və düşünürdüm ki, qatı düşmənimə lütf göstərməklə Allah-təala bir möcüzə edib mənim dərdimə bir əlac edər. Gecəni cəhənnəm odunda yandım, özümə yer tapa bilmirdim. Səhəri günü biz artıq ailə olaraq yeni həyata başlamalı idik, bizim yataq otağımız ortaq olmalı idi, həsrətindən yanıb kül olduğum sevgilim mənim ağuşuma girdi, amma aldığım xəsarətə görə mən ona yaxınlıq verə bilmirdim. Zavallı qız dərdimdən xəbərsiz idi. Mən xəstəliyimi bəhanə edib ondan uzaq durdum və dedim ki, hələ müalicəyə ehtiyacım vardır.

Elə ki səhər açıldı, günəşin qızıl saçaqları hər tərəfə səpələndi, xanım əmr etdi ki, şəhəri bəzəsinlər və bütün əyanları saraya dəvət etsinlər. Hamı cəm olduqda hökmdar xanım pərdə arxasında əyləşdi və gələnlərə müraciət etdi: «Siz hamınız bilirsiniz ki, bu səltənət də, var-dövlət də, xəzinə də, ordu da mənə məxsusdur və bunu heç kəs inkar edə bilməz. İndi deyin görüm, siz bunları qəbul edirsinizmi?» Hamı cavab verdi: «Bəli, qəbul edirik». Xanım sözünə davam etdirdi: «Onda bilin ki, mən bunların üzərindəki bütün haqqımı əmim oğluna verirəm, çünki o kişidir, mən isə qadın və həm də o mənim ərimdir. Mənə sədaqətini göstərmək istəyən hər kəs onun qarşısında baş əyib, onu özünə hökmdar bilməlidir. O sizin hökmdarınızdır».

Bundan sonra o, pərdənin arxasından çıxdı, əlimdən tutub məni hökmdar taxtında əyləşdirdi. Camaat öz münasibətini bildirmək niyyəti ilə başıma zər-zinət, qızıl pul, gül ləçəkləri səpir və məni alqışlayırdı.

Bu təmtəraq, cah-calal məni xoşbəxt etmirdi, mən bir dəqiqə də olsun, başımdakı dərdi unuda bilmirdim, unuda da bilməzdim. Mən

gecə-gündüz Allahdan ölüm istəyirdim, hər dəqiqəmi Allaha yalvarıb bu çıxılmaz vəziyyətdən çıxmaq üçün bir yol göstərməsini istəyirdim. Mən bütün vücudumla bu acını yaşayırdım. Ağlım çaşqın, fikirlərim dolaşıq, ürəyim sıxılmış vəziyyətdə hər dəqiqənin zindan kimi ağırlığına artıq tab gətirmək iqtidarında deyildim. Ağlıma gətirəndə ki, bu işlərin sonu yoxdur, bir gün tez, bir gün gec hər şey üzə çıxacaqdır, axır-əvvəl başımın tacı, gözümün nuru zövcəmə övlad vermək iqtidarında olmadığım aşkar olacaqdır və o məni rədd edib rüsvay edəcəkdir, bilmirdim haranın daşını başıma salım. Bunları düşündükcə ölməkdən başqa heç bir şey istəmirdim. Hər keçən gün, keçən gecə məni bu rüsvayçılıqla üz-üzə gələcəyim günü yaxınlaşdırırdı. Nəhayət, o gün gəlib çıxdı. Gecə-gündüz həsrətindən yandığım, hər zülfünə görə can verməyə hazır olduğum, qədəm qoyduğu yerə üzümü sürtdüyüm, indi isə haqq-halal zövcəm məni tənələrə tutdu, məni sorğu-sual yağışına tutdu, ondan uzaq olmağımın səbəbini izah etməyimi tələb etdi. Onu o qədər sevdiyim halda, ona bu qədər düşkün olduğum halda ondan uzaq durmağımın səbəbini eşitmək istədiyini dedi. Çox da böyük olmayan həyatımda yeganə nəfəs mənbəyim, yeganə işıq mənbəyim, məni heçlikdən qaldırıb hər şey edən, mənim yolumda ən ağır güzəştlərə gedib, hökmdarlığını, taxt-tacını, səltənətini, ordusunu, xəzinəsini ayaqlarıma atan zövcəmin qarşısında çox rəzil bir vəziyyətdə durmuşdum, amma başa düşürdüm ki, mən artıq bu sirri açmalıyam. Bir anlığa başım hərləndi, dizlərim əsdi, gözlərim qaraldı. Titrək səslə ondan izin istəyib başıma gələn bəlanı başdan-ayağa, olduğu kimi danışdım və ona vərəsə, vəliəhd vermək iqtidarında olmadığımı bildirdim. Mən uşaq kimi hönkür-hönkür ağladım və dedim: «Mən bu dərdə sənin yolunda düçar olmuşam».

Mənim hekayətimi başdan-axıracan dinləyən zövcəm ayağa qalxıb sakitcə məni tərk etdi. Günlərlə məni nəvazişləri ilə ovunduran, busələrə qərq edən sevgili zövcəm indi düz bir həftə məni gül camalına həsrət qoydu. Bir həftədən sonra o, qulluqçusu ilə mənə xəbər göndərdi ki, çıxıb gedim və başımın çarəsini özüm tapım. Mən hönkür-hönkür ağlayıb yalvardım ki, məni qəbul edib dinləsin, məni

dost-düşmən yanında rüsvay etməsin. İstəyir, özü gəlsin, istəyir, mən gedim onun ayağına, ancaq mənə o dəyərli vaxtından bi az ayırsın. O mənim bu yalvarışlarımdan sonra belə üzünü mənə göstərmək istəmədi. Mən onun hüzuruna gedib, ayaqlarına döşəndim və dedim: «Ey mənim gülüzlü, aycamal sevgilim, məgər mən sənin dünyalar qədər sevdiyin adam deyiləmmi, məgər mən sənin görüb-sevdiyin o yeganə adam deyiləmmi? Lap tutaq ki, bu belə deyildir, axı mən sənin doğma əmin oğlunam və sənə dəlicəsinə aşiqəm və məhz bu eşqin yolunda şikəst olmuşam. Səni and verirəm uca Allaha mənim rüsvay olub rəzil günə düşməyimə yol vermə, axı sən bilirsən ki, mən sənin yolunda bu dərdə düçar olmuşam. Görünür, Allah-təala mənə belə tale yazıbmış, mən sağ ikən ölüyəm. Mən əlimdən gələni etdim, mən çox çarpışıb, çox çabaladım, amma dərdimə dərman tapılmadı. Görünür sənə olan sonsuz məhəbbətin aqibəti belə olmalı imiş. Heç olmasa, sən məni rədd etmə, məni rüsvay etmə, dərdimin üstünə dərd qoyma, qoy yanında qalıb ömrümün sonunadək sənin sadiq qulun olum və arada izin ver sənin gül üzünü görüm. O mənə yetər».

Mən çox ağladım, çox yalvardım, amma onu yumşalda bilmədim. O məni göz yaşları içində yerə sərilmiş halda qoyub getdi. O, əyanları yığıb bütün səlahiyyətlərimi əlimdən alıb, hakimiyyətə yenidən özü gəlmək istəyirdi. Həmin an başımı qaldıranda dayəmi gördüm, o durub mənə baxırdı. Mən onun ayaqlarına düşüb yalvardım ki, məni gülüzlü sevgilimin yanına aparsın. Olanlardan xəbərsiz dayəm məni sevgilimin yanına apardı. Mən onu görən kimi yenə ayaqlarına sərilib yalvarmağa başladım: «Mən səni anlayıram, mən başa düşürəm ki, hər bir qadının ən ümdə arzusu ana olmaqdır və bilirəm ki, səni bu xoşbəxtlikdən məhrum etməyə haqqım yoxdur. Qoy mən sənin kölgənə sığınım, sənin işlərini idarə edim, sən isə vaxtını ürəyinə yatan bir əyan, əshabə, əmirlə keçir. Mən hər ikinizin qulluğunda durub nökərçilik etməyə hazıram, təki mənim bu rüsvayçılığımdan bir canlının, məxluqun xəbəri olmasın».

Mənim təklifim onun ürəyincə oldu və o, «kişi» axtarışına başladı və nəhayət, onun seçimi bu eybəcər qara zənci oldu. Bu seçimin

səbəbini, mənasını anlaya bilmədim, amma onların günləri gördüyün kimi pis keçmir. Mən isə gecə-gündüz onların qulluğunda durur, ocaqlarını kənar gözdən, yad nəzərdən qoruyuram, quş quşluğu ilə ora keçə bilməz. Mən şəxsən onlara qulluq edib, yeməklərini, içməklərini aparıram, yedikdən sonra aftafa-ləyən aparıram ki, əl-üzlərini yusunlar, yataqlarını düzəldirəm, otaqlarına ətir səpirəm, onlar mənim gözlərimin qarşısında söhbətləşib-gülüşürlər, mən isə onlara baxıb qanlı göz yaşları axıdıram, həmin an mən göz yaşlarımla bərabər ürəyimi də əridib göz yaşlarımla birgə tükəndirirəm. Gördüyün o oğlan uşaqları da onların övladlarıdır. Mən onları öpüb-əzizləyirəm ki, hamı elə bilsin ki, onlar mənim övladlarımdır. Bir Allah bilir ki, mən hər gün yüz min dəfə Ondan ölüm istəyirəm. Bax mən belə «heç bir dərdi olmayan» adamam. Mən sənə hər şeyi açıb dedim, amma səndən başqa bunları bilən yoxdur. Mən insanlar arasında deyib-gülürəm, amma içimdəki cəhənnəm odu məni yandırıb yaxır. Elə bir gün yoxdur ki, mən min kərə həyatıma son qoymaq istəməyim. Mən, bəlkə də, dünyanın ən dərdli, ən bədbəxt insanıyam. Qardaş, qayıt evinə, vəzirindən üzr istə, çünki yer üzündə dərdi olmayan insan yoxdur, Allah-təala Adəm övladlarının yaşayacağı bu dünyanın təməlini dərdlə, qəmlə, kədərlə yoğurmuşdur. Unutma ki, hər işıqlı gündən sonra qaranlıq gecə gəlir, şirin həyatın sonu acı ölümdür, tikansız xurma olmur, əziyyətsiz sərvət. Daha yorma özünü, elinə, evinə qayıt, sənə dərd-qəm verməyəcək işlərlə məşğul ol. Elə işlə məşğul ol ki, sonra peşmanlıq çəkməyəsən». «Xoşbəxt» hökmdar öz «bəxtəvər» həyatının hekayətini danışıb bitirdikdə «tacir Musa» eşitdiklərinə mat qalmışdır. O öz-özünə dedi: «Bəli, indi başa düşdüm ki, vəzir haqlı imiş» və bu şeiri oxudu:

İztirab çəkən ürəyi narahat etmə,
O, içində bir rəzalət, yalan gizlədir
Sən xoşbəxt ol, amma heç vaxt unutma,
Bu dünyada dərdsiz ürək tapa bilməzsən.

Bundan sonra «xoşbəxt» hökmdar taciri ziyafət süfrəsinə aparır və onlar gecə düşənəcən dərdlərini şərab içində boğmağa cəhd edir-

lər. Daha sonra «xoşbəxt» hökmdar qonağına çoxlu dəyərli hədiyyələr; qızıl, gümüş, ləl-cavahirat, qullar, kənizlər bağışlayır və onlar söz verirlər ki, həmişə bir-birlərini yad edəcəklər. Beləliklə, şah qonağını yola salır özü isə sarayına qayıdır.

Şah-tacir isə öz məmləkətinə çatanda vəzir onun pişvazına çıxır, atından düşüb onu qarşılayır, şah isə öz növbəsində atından düşüb onu qucaqlayıb üzr istəyir. Bir neçə gündən sonra o, öz müdrik müşavirini çağırıb gördüklərini, eşitdiklərini ona danışır. Şah yenə də vəzirinin əlini əlləri içinə alıb dönə-dönə inadkarlıq etdiyinə görə üzr istəyir. Bundan sonra şah çox dəyişir; ədalətli, mərhəmətli, müdrik olur, heç kəsi incidib küsdürmürdü. Vəzir şahdakı bu dəyişiklikləri görüb çox sevinirdi. Bir gün yetişdi, vəzir qızını şaha ərə verdi. Onlar uzun, xoşbəxt ömür sürdülər, çoxlu övlad sahibi oldular və sonda bu fani dünyanı tərk etdilər.

## ONUNCU HEKAYƏT

# Zərgərin zövcəsinin fəqih, möhtəsib, qazı, darğa və şəhər hakimi ilə hekayəti

Gözəl nitq sahibləri, bəlağət ustaları danışırlar ki, qədim zamanlarda bir zərgər yaşayırmış. Zərgərlikdə ona tay olanı yox idi və onun böyük var-dövləti var idi. Onun övladları olmasa da, cənnət huri-mələyi kimi gözəl, ağıllı, kamallı zövcəsi var idi. Tərslikdən onların qonşuluğunda bir fırıldaqçı, bədxah fəqih yaşayırdı. Onun gözü çoxdan zərgərin zövcəsinə düşmüşdür. O çox hiyləgər adam idi, öz niyyətini gizli saxlayırdı, amma ağlında həmişə o gözələ yaxınlaşmaq yollarını götür-qoy edirdi. Müəyyən vaxtdan sonra o, zərgərin etibarını qazanıb onunla dostlaşmağa nail olur.

Bir gün zərgər fəqihi evinə dəvət edib bir otağa çəkir və bir kisənin içinə min qızıl dinar qoyub ona verib deyir: «Dostum, çərxi-fələyin işinə etibar yoxdur. Mənim bu dünyada gözümün ağı-qarası bircə əziz adamım var, o da zövcəmdir. Qorxuram çərxi-fələk dönə, vəziyyətim pisləşə, sabitliyimi saxlaya bilməyəm. Zövcəm çox cavandır, ehtiyat edirəm ki, müflis olsam, o məndən üz çevirər. Bu pulu da sənə verməkdə məqsədim budur ki, onu əmanət kimi saxla, lazım olanda gəlib səndən götürərəm». Fəqih deyir: «Allah səni qorusun! Ehtiyat ağılın, müdrikliyin əlamətidir». Sonra o, pul kisəsini götürüb aparır və heç kəsə heç bir şey demədən gizlədir.

Bu andan xeyli vaxt keçmişdir, dünyanın gərdişi dəyişmiş, göylərin hökmü ilə zərgər qocalıb əldən düşür, gözlərinin nuru gedir, daha işləyə bilmir və kasıblığa düçar olur. İş o yerə gəlib çatır ki, o, ürək sızıltısı ilə zövcəsini çağırıb deyir: «Sən fəqihin evinə get, ona mənim salamımı yetir və de ki, ona verdiyim əmanəti istəyirəm, çünki vəziyyətimiz ağırdır».

Qadın ayağa durub, örtüyünü başına atıb qonşugilə yollanır. Fəqih qonşu xanımı görən kimi yerindən sıçrayır, onu xətir-hörmətlə qarşılayır və hörmətli yerdə əyləşdirir. Zərgərin zövcəsi ərinin sözlərini ona çatdırır. Bunları eşidən fəqih gülür və deyir: «Ey aycamal, zülfləri ənbər qoxuyan dilbər! Mən sənin qarşında min qulun əvəzinə xidmət etməyə hazıram, doğrudur, o pul kisəsi məndədir, mən onu da, bir o qədərini də üstündə qaytarmağa hazıram, amma bil ki, mən çoxdandır ki, sənin gözəlliyinin ovsunundayam, sənin ay camalın mənim gecəmi, gündüzümü əlimdən almışdır. Zərgər artıq qocalmışdır, gözləri də görmür, sən isə gəncsən, indi sənin çiçəkləyən vaxtındır. Mənə yaxınlıq versən, o iki min dinarı sənə verib, ayaqlarına düşüb gecə-gündüz qulluğunda duraram». Bu sözləri deyib fəqih ayağa durdu və qadına yaxınlaşır. O, qadına əl atmaq istəyirdi ki, qadın geri çəkilib deyir: «Sən oxumuş adamsan, başqasının zövcəsinə xor baxmaqla bir namuslu müsəlman qadınının adına ləkə gətirməyindən necə çəkinmirsən? Sən möminləri öz pənahında saxlayan peyğəmbərimizdən çəkinmirsənmi? Sən nə cürətlə mənim mömin, nəcib ərimin namusuna təcavüz edirsən? Sən istəyirsən ki, mən çörəyini yediyim, suyunu içdiyim ömür-gün yoldaşımı dara düşdüyü vaxt atım?» Qadın bunları deyib qalxır ki, getsin. İşin belə şəkil almasını görən fəqihin sifəti dəyişir, hərzə-hərzə danışmağa başlayır: «Mən hara, sənin ərin hara? Bu bədbəxtin o qədər pulu nə gəzirdi ki, mənə versin ki, onu saxlayım. Ümumiyyətlə, o kimdir ki, mən onu yaxınıma buraxıb və onun pulunun keşikçisi olum?»

Bunları eşidən qadın çox pərt olur. O başa düşür ki, fəqih pulu verməyəcəkdir. O, ümidini itirib titrəyərək evə qayıdır və olanları olduğu kimi ərinə danışır. Zərgər buyurur ki, zövcəsi möhtəsibin yanına getsin və deyir: «O mənim köhnə dostumdur. Ona de ki, mən vaxtı ilə qonşuma min dinar pul vermişdim ki, dar günüm üçün qoruyub saxlasın, indi isə həmin qonşu bunu inkar edir. Mən ümid edirəm ki, möhtəsib bu işdə mənə kömək edər, özü şəxsən fəqihin yanına gedib ondan mənim qızılımı alar».

Qadın möhtəsibin yanına gedib ərinin dediklərini ona çatdırır. Möhtəsib qadının gözəlliyini görüb, məlahətli səsini eşidib özünü o

gözəlin əfsunlayıcı toruna düşmüş hiss edir. Onun ürəyi bu təzə-tər qönçənin sehrinə düşür və o deyir: «Mən sənin qarşında on qulun əvəzində xidmət etməyə hazıram. Mən o fırıldaqçıdan pulları almağa, onu rüsvay etməyə hazıram. Sən gənc və gözəlsən, zərgər isə artıq qocalmış, əldən düşmüşdür. Sən mənə yaxınlıq versən, mənimlə yola getsən, inan ki, mən sənə əlavə min dinar da verib elə nəvaziş göstərərəm ki, ömründə elə nəvaziş görməmisən». Möhtəsibin bu abırsız təklifini eşidən qadın özünü itirir və onu tənə edir: «Ey qanunların, mənəviyyatın keşiyində duran, vergilərin vaxtlı-vaxtında yığılmasına nəzarət edən möhtəsib, sən bizim şəhərin möminlərinin əmirisən. Sən nə cürətlə ərli müsəlman qadınına xor baxa bilirsən? Mənim ərim yüz il əvvəl dünyasını dəyişmiş olsa idi belə, mən heç vaxt bir başqa kişi ilə bir yastığa baş qoymağa razı olmazdım». Bunları deyib qadın yerindən durur ki, getsin, möhtəsib onun ərinin ünvanına nalayiq sözlər deməyə başlayır: «Ay abırsız, sənin ərində o qədər pul haradandır ki, hələ min dinarını da kiməsə versin ki, ehtiyat üçün saxlasın?» Bu alçaldıcı sözləri dinləyib qadın təhqir olunmuş, pəjmürdə halda evə gedir. Qadın evə gəlib zərgərə deyir: «Möhtəsib deyir ki, o, fəqihdən pulu ala bilməz». Bu dəfə zərgər deyir: «Onda qazının yanına get, bizim aramızda çoxdan isti münasibətlər yaranmışdır, mən onun qulluğunda çox durmuşam. Sən de ki, mən onun duaçısıyam, sonra isə mənim vəziyyətimi çatdır və de ki, mənə məxsus pulumu qaytarmaqda yardım etməsini rica edirəm».

Qadın bu dəfə də qazının yanına yollanır. Qazı onu görən kimi canlanır, elə bil onda bir həyat eşqi oyanır. Onu dinlədikdən sonra deyir: «Mən sənə istədiyin kimi xidmət etməyə hazıram. Mən qanunun tələbinə uyğun olaraq, o pulu alıb qaytarmağa və hətta üstündə iki mislini də verməyə hazıram, təkcə istəyim məni yaxınına qoymağındır». Qadın qəzəblənmiş halda ayağa qalxıb hirslə deyir: «Məgər sən müsəlmanların qazısı, qanunların keşikçisi deyilsənmi? Məgər müsəlmanın zövcəsinə xor baxmaq olarmı? Məgər bu, qanun tərəfindən cəzaya məruz qalmırmı?» Qadının bu sərt sözlərini eşidən qazı qəzəblənib onun üstünə qışqırır, rüsvay edib evdən qovur. Qadın evə qayıdıb ərinə deyir: «Bu işdə qazı sənə kömək

etməyəcəkdir». Zərgər bu işlərə mat qalmışdır. O fikirləşib deyir: «Dur darğanın yanına get, mənim onun üstündə haqqım böyükdür, bəlkə o bizə fəqihdən qızıllarımızı almağa kömək edər».

Qadın ərinin dediyinə əməl edib darğanın yanına gedir və başlarına gəlmiş işi ona danışır, amma darğa da onun gözəlliyi qarşısında gücsüzlük göstərib nəfsinə yiyəlik edə bilmir, nəyin bahasına olursa-olsun, zərgərin zövcəsini ələ almaq istəyir və deyir: «Mən sənin qızıllarını alıb sənə qaytararam, üstündə, onun üç mislini də verərəm, amma bir şərtim var, sən gərək mənim hisslərimə cavab verəsən, mənimlə bir yastığa baş qoyasan». Ləyaqətli qadın darğanın da bu nalayiq təklifinə sərt cavab verir, onu tənbeh edir. İşin belə yön almasını gözləməyən darğa qəzəblənib qadını təhqir edib alçaldır və qovur.

Qadın evə qayıdıb ərinə deyir: «Darğa da bu işdə bizim dadımıza çatmayacaqdır». Zərgər deyir: «Ay xanım, mən uzun müddət bizim şəhər hakiminin qulluğunda olmuşam, ona həmişə sədaqətlə qulluq etmişəm və həmişə hər bir işdə onu yarıtmışam, heç vaxt onu narazı qoymamışam. Dur, get onun yanına, başımıza gələni danış, bəlkə, o bizim qızılların qaytarılmasında köməklik edər». Qadın şəhər hakiminin yanına yollanır və gəlişinin səbəbini anladır. Qadının gözəlliyinin qarşısında şəhər hakimi də özünü aciz hiss edir və deyir: «Mən sənə söz verirəm ki, sənin qızıllarını fəqihdən alıb sənə qaytaracağam, ondan əlavə özüm də sənə onun üç mislini verəcəyəm, amma bu şərtlə ki, sən məni yaxınına qoyasan, mənim alışıb-yanan ürəyimə su səpəsən və mənim ən yaxın, istəkli qadınım olasan». Qadın qışqırır: «Allah eləməsin ki, mən ömrümün sonuna kimi ərimi atıb, ona xəyanət edim!» Hakim qadının bu sözlərini eşidib qəzəblənir, biçarə qadının üstünə elə qışqırır ki, o, qorxudan, çarəsizlikdən ağlaya-ağlaya evinə qayıdır və ərinə deyir: «Ey başımın ağası, sən bu adamların kömək edəcəklərinə ümid etmə, onlardan bizə kar olmaz». Yazıq zərgər başını aşağı salıb ürəyində öz haqq-halal qızılları ilə vidalaşır».

Bu söz sahibi kişilərdən namərdliklər görmüş qadın fikirləşib, belə qərara gəlir: «Mən mən olmaram əgər öz dinarlarımı, üstəlik bu alçaqların hər birindən onun neçə mislini almasam». O, evində olan üç xidmətçini çağırıb deyir: «Siz ağanızın qeydinə qalın, mən isə qa-

zanc əldə etməklə məşğul olum». O durub, bir neçə qızıl dinar götürüb dülgərin yanına yollanır, içində rahatlıqla bir adam yerləşəcək ölçüdə dörd bölümü olan böyük bir sandıq sifariş edir. O, dülgərə tapşırır ki, bu dörd bölümün bir-biri ilə əlaqəsi olmasın və hərəsinin ayrıca, möhkəm bağlanan qapağı olsun.

Dülgər iki-üç günə sandığı hazırlayır, qadın hambal tutub onu evinə gətirir və münasib yerə qoydurur. Sonra geyinib-kecinib, bəzənib-düzənib, qır-qızıllarını taxıb, üst-başına ətir vurub, çarşabını başına atıb, qulluqçu qızlardan birini yanında götürüb fəqihin evinə yollanır.

Onu uzaqdan gələn görən fəqih o saat onun qarşılamağa çıxır, baş əyib evə dəvət edir. Zərgərin zövcəsi fəqihi görən kimi, min bir naz ilə, əda ilə onun salamına cavab verir, gözəl camalını açır. Fəqih onun gözəlliyi qarşısında müvazinətini itirir. Onda qadın səsinə həyəcan qatıb dillənir: «Ey mənim ruhum, ey mənim üçün dünyada ən qiymətli olan insan! Bil ki, mən keçən dəfə səni tərk edib getdikdən sonra anlamağa başladım ki, sənə qarşı biganə deyiləm və mənim ürəyimdə sənə qarşı get-gedə artan bir məhəbbət hissi var imiş, mən öz bəd rəftarıma görə çox peşman oldum. İndi isə gəlməkdə məqsədim səndən üzr istəyib, qulun olmağa hazır olduğumu bildirməkdir. Cürət edib səni oz evimə dəvət etmək istəyirəm. Bu gün gecə yarısından bir az keçmiş, ömrünün sonunadək sənin eşqinə cavab verməyə hazır olan sədaqətli kənizinin evinə buyur. Mən sənə istədiyin, layiq olduğun bir ziyafət verəcəyəm». Xanım bunları deyib qollarını fəqihin boynuna sarıyır, yanağından, saqqalından öpür və sözünə davam edir: «Mənə məxsus, mənə mənsub nə varsa, hamısını sənə peşkəş edəcəyəm».

Zərgərin zövcəsi fəqihi vəcdə gətirib oradan çıxıb möhtəsibin evinə yollanır. Orada da gözəlliyini, nazını, ədasını bütün incəlikləri ilə nümayiş etdirərək deyir: «Ey ürəyimin fatehi, gəlmişəm sənə bildirəm ki, keçən dəfə sənə haqsızlıq edib nalayiq rəftarıma görə çox peşmanam. Mən buradan gedəndən sonra anladım ki, həyatım boyu sənin kimisinin məhəbbətinə ehtiyacım olmuşdur və mən kiməm ki, sənin kimi nəcabətli adamı rədd edəm? Gəlməkdə

məqsədim üzr istəyib, səni səhərə yaxın evimə dəvət etməkdir. Sən səhərə yaxın mənim evimə təşrif buyursan, heç vaxt görmədiyin nəvazişləri görəcəksən və biz günortaya qədər eşqin şərbətini bol-bol nuş edəcəyik». Qadın bunları deyib möhtəsibi bərk-bərk qucaqlayıb alnından, üzündən öpür. Beləliklə, möhtəsib də tələyə düşür.

Möhtəsibin evini tərk etmiş qadın qazının yanına yollanır, ona təzim edib üzr istəyir və deyir: «Yalvarıram, məni keçən dəfəki rəftarıma, davranışıma görə bağışla. Mən o hərəkətlərimi yadıma salanda xəcalət çəkib utanıram. İnan ki, mən özüm də bilmirəm, nə səbəbdən özümü elə aparırdım, əslində sonra anladım ki, həmişə məhz sənin kimi bir kişinin arzusunda olmuşam. İndi isə səni evimə dəvət etmək üçün gəlmişəm, sabah səhər mən qulunu öz mübarək qədəmlərin ilə sevindirsən, sənə gözəl saatlar bəxş edəcəyimə söz verirəm». Bunları deyib qadın qazını qucaqlayıb bir neçə dəfə öpür və oranı tərk edir.

Zərgərin arvadı buradan da darğanın evinə yollanır. Onunla salamlaşıb, bir an içində çarşabını atıb gül camalını, ay kimi ağ buxağını, mərmər kimi parlaq sinəsini nümayiş etdirərək deyir: «Ey ürəyimin hökmdarı, o gündən bəri nə günüm var, nə gecəm, səninlə ünsiyyətə hiss etdiyim ehtiyac mənə rahatlıq vermir. Mən ogünkü rəftarıma görə xəcalət çəkirəm və səndən üzr istəmək istəyirəm və istəyirəm səni qulunun evinə dəvət edəm. Əgər fikrindən dönməmisənsə, sabah günorta qulunu feyzyab et». Qadın bu sözləri deyib darğanın boynunu qucaqlayır, onun saqqalını, bığlarını öpür. Bu busələrin şirinliyini dadan darğa öz üzərindəki iradəsini itirir.

Bundan sonra qadın şəhər hakiminin yanına yollanır. Hakimin yanında yenə də öz cazibədarlığını işə salaraq, gözəl, gül camalını, qönçə dodaqlarını, kaman qaşlarını, ay kimi ağ buxağını, mərmər kimi parlaq sinəsini məharətlə nümayiş etdirərək deyir: «Ey mənim hökmdarım, məgər eşitməmisən ki, Allah-təala qadınları Adəm peyğəmbərin sol qabırğasından yaratmışdır və ona görə onların gördükləri iş, söylədikləri söz məntiqdən çox uzaq olur. Mən keçən dəfəki rəftarıma görə çox xəcalət çəkirəm və dönə-dönə üzr istəyirəm. Mən öz günahımı yumaq üçün sənin kənizlərindən biri olmağa

hazıram». Bunları deyib o pambıq kimi ağ və yumşaq qollarını hakimin boynuna salıb alnından, gözlərindən öpüb deyir: «Hakimim, fikrindən daşınmamısansa, sabah axşam mənim evimə, yanıma buyur, mən sənə ağlına gəlməyən nəvazişlər göstərərəm». Bu sözlərdən başını itirmiş hakim də zərgərin zövcəsinin qurduğu tora düşür.

Qadın evə qayıdıb tədarüklərə başlayır. İşlərini bitirdikdən sonra Allaha dua edib, Ona sığınıb yatır. O ki qaldı fəqihə, möhtəsibə, qazıya, darğaya və hakimə, onlar səhəri diri açırlar, onları gözləyən ecazkar, eşq dolu saatların ümidi ilə gözlərini yuma bilmirlər. Elə ki gecə düşdü fəqih sübh yuxusuna qalmaq qorxusu ilə gözləri göydə qalmışdır ki, vaxtı ötürməsin. Nəhayət, onun saatı yetişəndə əyninə ən gözəl libasını geyib, üstünə ətir səpib, yüz qızıl dinarı dəsmalın arasına büküb cibinə qoyaraq evdən çıxır. Zərgərin zövcəsi isə öz növbəsində dörd cür yemək tədarükü görüb qonaqlarını gözləyir. Fəqih qapını döyən kimi ona qapını açırlar. Axmaq, alçaq, düşük fəqih əda ilə içəriyə keçir. Zərgərin ağıllı zövcəsi onun qarşısına qaçır, qarşılayır, ona hər cür diqqət göstərir. Fəqih özü ilə gətirdiyi yüz qızılı qadının ayaqları altına səpir. Qadın onun əlindən tutub, əvvəlcədən hazırlanmış otağa keçirir. Fəqihi otuzdurub cürbəcür sərinləşdirici içkilər, şərbət, meyvələr gətirir. Yemək yeyib qurtardıqdan sonra o, fəqihdən əbasını və əmmaməsini çıxarmasını xahiş edir və şıltaqlıqla deyir: «Bunları çıxar, özünü sərbəst hiss et, biz bu gün «sevgi» deyilən şərbəti başımıza çəkməliyik». Fəqih əbasını, əmmaməsini çıxarır, qadın onları qulluqçu qıza verir və tapşırır ki, onları düyünləyib yaxşı yerdə gizlətsin. Qulluqçu qız bunları götürüb çıxmaq istəyirdi ki, xanım onu saxlayıb deyir: «Qapının ağzından çəkilmə, elə ki mən öskürdüm, qapını döyərsən və sənə öyrətdiyim sözləri deyərsən». Qulluqçu çıxır, əvvəlcə fəqihin paltarını gizlədir, sonra isə qapının arxasında durub işarə gözləməyə başlayır. Qadın fəqihin yanında əyləşib müxtəlif maraqlı hekayətlər danışmaqla onun başını qatmağa başlayır. Lazımi vaxtda qadın öskürür, qulluqçu qapını möhkəm döyməyə başlayır. Zərgərin zövcəsi özünü qorxmuş kimi göstərir və qapıya qaçır. O tərəfdən qulluqçunun səsi eşidilir: «Tez çıx, qardaşın gəlmişdir». Qadın fəqihə pıçıltı ilə deyir: «Ey

ürəyimin məlhəmi, darıxma, qardaşımı yola salıb qayıdıram. Bizim əylənmək üçün, sevgi dolu saatlar yaşamaq üçün hələ çox vaxtımız olacaqdır». Sonra yarıçılpaq fəqihi o bir otağa keçirib qapısını arxadan bağlayır. Zərgərin zövcəsi qulluqçusu ilə bir yerdə hazırlatdığı sandığı fəqih olan otağın yaxınlığına çəkib gətirir. Elə bu vaxt qapı yenə döyülür və qadın kimin gəldiyini o saat anlayır, gələn möhtəsib idi. Qadın qulluqçusuna buyurur ki, qapını açsın. Möhtəsib başını dik tutub içəriyə keçir. Qadın tez onun qabağına çıxır, qollarını boynuna salıb, o üzündən, bu üzündən busələr alır, bununla da onun ağlını başından daha da çox çıxarır. Möhtəsib də özü ilə gətirdiyi qızılları onun ayaqları altına səpir. Möhtəsibin nəvazişlərinə cavab olaraq, onu daha çox həvəsləndirmək üçün qadın deyir: «Əbanı, əmmaməni, ümumiyyətlə, üst paltarlarını çıxar ki, daha sərbəst, daha rahat olasan və biz daha yaxın olaq». Möhtəsibin çox görünüşlü, bahalı əmmaməsi və çox bahalı parçadan tikilmiş əbası var idi. Möhtəsib bunları çıxarıb qadına verir. O isə onları götürüb yenə də qulluqçusuna ötürür və tapşırır ki, onları da bir düyünçə edib gizlətsin. Bundan sonra o, sərinləşdirici içkilər, meyvə və cürbəcür təamlar gətirir. Elə ki yemək süfrəsi ortadan yığışdırılır, zərgərin zövcəsi taxtı düzəldir və deyir: «Bizi eşqin şərbəti kimi şirin anlar gözləyir». Möhtəsib əynində qalmış paltarları da çıxarıb, yorğanın altına girir və vüsal anını gözləməyə başlayır. Möhtəsib xəyallar qururkən qapı bərkdən döyülür. Qadın soruşur: «Kimdir gələn? «Qulluqçu qız cavab verir: «Gələn qazıdır». Qadın qorxmuş halda cəld yerindən sıçrayır. Möhtəsib soruşur: «Qazı nəyə görə gəlmişdir? Onu buraya nə səbəbdən gəlmişdir?» Qadın deyir: «O mənim ərimlə dostluq edir, yəqin ona baş çəkmək üçün gəlmişdir». Möhtəsib deyir: «Bəs biz indi nə edək?» Qadın deyir: «İstəyirsən bu sandığa gir, sakitcə otur, hakim getdikdən sonra biz daha böyük şövqlə eşq şərbətini başımıza çəkərik».

Möhtəsib yarıçılpaq vəziyyətdə sandığın bir gözünə girir, qadın o saat onun qapısını bağlayır və qulluqçuya buyurur ki, qapını açsın. Qazı başını dik tutub, əda ilə ətrafı süzərək içəriyə keçir. Qadın o saat onun qarşısına çıxıb, boynuna sarılır, o üzündən, bu üzündən

öpür. Qadının bu çılğınlığı qazını məst edir, özü ilə gətirdiyi qızıl dinarları onun ayaqları altına səpməyə başlayır. Qadın gözəl bir süfrə açır, şərbətlər, şirələr, təravətli meyvələr düzür, cürbəcür təamlar gətirir. Qadın məhəbbətinin tükənməz olduğunu göstərmək üçün qazını öz əlləri ilə yedizdirir. Bu nəvazişlərə, bu rəftara uyan qazı yeməyini bitirən kimi qışqırdı: «Ey mənim ürəyimi fəth etmiş mələk, mən sənin ayaqlarının altına bütün xəzinəmi tökməyə hazıram». Qadın deyir: «Elədirsə, dur, əbanı, əmmaməni çıxar, ver mənə, bir az sərbəst, rahat ol, onda biz bir-birimizə daha yaxın olarıq». Bu sözləri eşidən kimi qazı əbasını, əmmaməsini çıxarıb verir. Qadın özünü elə aparırdı ki, elə bil, həqiqətən, bu anların həsrətində imiş. Elə bu vaxt yenə qapı döyülür. Qadın soruşur: «Kimdir gələn?» Qulluqçu cavab verir: «Gələn darğadır». Hakim soruşur: «Onun burada nə işi vardır?» Qadın deyir: «O mənim ərimin dostudur, yəqin ona baş çəkməyə gəlmişdir. Sən heç narahat olma, dur, bu sandığın içinə gir, o gedən kimi mən səni çıxararam, biz daha böyük həvəslə eşq dolu saatlarımızı yaşayarıq».

Qazı darğanın qorxusundan sandığın bölümlərindən birinə girir, qadın o saat onun qapağını möhkəm bağlayır və otaqdan çıxır ki, darğanı qarşılasın. Darğa əynində qızıl saplarla işlənmiş əbası, başında qiymətli daşlarla bəzədilmiş əmmaməsi, belində qızıl kəməri içəriyə keçir. Qadın hörmət-izzətlə qonağı qarşılayıb, əyilib torpağı öpür, sonra durub darğanı qucaqlayıb, bərk-bərk dodaqlarından öpür. Qadının bu nəvazişlərini görən darğa yəqin edir ki, bu qadın, həqiqətən, onu səmimi qəlbdən sevir və özü ilə gətirdiyi qızılları onun ayaqları altına səpir. Qadın onun əlindən tutub taxtın yanına gətirir, darğa qadının bu hərəkətindən sonra onun sevgisinə tam əmin olur. Qadın deyir: «Ey mənim həyatımın mənası, bu əbanı, əmmaməni, kəməri çıxar, özünü sərbəst hiss et, bil ki, bu artıq sənin evindir, çöl geyimlərinin yükündən azad ol». Darğa həmin dəqiqə onların hamısını çıxarıb qadına verir, qadın isə öz növbəsində onları yenə qulluqçuya ötürür. Elə həmin an qapı döyülür. Qadın soruşur: «Kimdir gələn?» Qulluqçu həyəcanlı səslə cavab verdi: «Gələn şəhər hakimidir». Onu da demək lazımdır ki, şəhər hakimi

ilə darğa çoxdanın düşməni idilər və hətta hökmdarın hüzurunda həmişə mübahisə edərdilər. Şəhər hakiminin səsini eşidən darğa yerindən sıçrayır. O fikirləşir ki, hakim onun axırına çıxmaq üçün gəlmişdir. Yarıçılpaq darğa deyir: «İndi mən nə edim? Buradan canımı necə qurtarım?» Qadın deyir: «İstəyirsən sandıqda gizlən». Yazıq darğa qorxudan yarıçılpaq vəziyyətdə sandığa girir, qadın da o saat onun qapağını bağlayır.

Bu dəfə içəriyə hakim girir. Hakimin əynində, bu günlərdə şəxsən şahın ona bağışladığı əba var idi, o, üstünə ən gözəl ətirlər vurmuşdur. Qadın tez hakimin qarşısına qaçır, əyilib qabağında yeri öpür, onun boynuna sarılıb üzündən, gözündən, dodaqlarından öpür. Hakim onu ağuşuna alıb gətirdiyi qızılları başına səpməyə başlayır. Qadın onun əlindən tutub taxta tərəf aparır, əbasını, kəmərini, əmməməsini, ayaqqabılarını çıxarır və buyurur ki, yorğanın altında uzansın. Zərgərin ağıllı zövcəsi özünü elə aparır ki, guya o da yatağa girmək fikrindədir, elə bu vaxt qapı döyülür. Qadın dik atılıb soruşur: «Kimdir gələn?» qulluqçu cavab verir: «Gələn qardaşındır, səni soruşur». Qadın deyir: «Gələn qardaşımdır, bu səhnəni görsə, ikimizi də məhv edəcəkdir». Hakim soruşur: «Bəs necə olsun? Mən harada gizlənim?» Qadın deyir: «Sən müvəqqəti bu sandıqda gizlən, mən onu yola salan kimi səni çıxararam və biz səhərəcən eşqin dadını çıxararıq. Mən sənə elə bir eşq şərbəti verəcəyəm ki, ömrünün sonunadək onun dadı damağında qalacaqdır».

Hakim də sandığa girir, qadın yenə sandığın qapağını möhkəm bağlayır, özü isə fəqihin olduğu otağa keçir. O, fəqihin qarşısında baş əyib, üzr istəyir və deyir: «Ey gözümün nuru, ürəyimin məlhəmi, mən ömrümün sonunacan sənə xidmət etməyə hazıram, səni bu qədər gözlətdiyim üçün məni bağışla, bunun günahı indicə getmiş qardaşımdadır. İndi mən artıq sənə məxsusam». O, fəqihin əlindən tutub sandıq olan otağa aparır və onu taxtda əyləşdirib deyir: «İndi artıq heç kəs və heç nə bizə mane ola bilməz, mən bütövlüklə sənin ixtiyarına keçməyə hazıram, amma mənim də bir şərtim var. Yadındadırsa, bizim birinci sözümüz sənin mənə ərimin min qızıl dinarını qaytarmağından düşdü və sən mənə dedin ki, mən sənin o min

dinarının üstünə min dinar da qoyub elə verəcəyəm. Sən o pulları gətirmisənmi?» Fəqih cavab verdi: «Doğru deyirsən və mən sözümün üstündə durmağa hazıram. Mən söz verirəm ki, o iki min qızıl dinarı sənə verəcəyəm». Qadın dedi: «Fəqih, mən yazıq, cahil bir qadınam, sən isə ağıllı, savadlı bir adamsan. Sən mənim yaxınlığıma nail olandan sonra borclu olduğunu da unudacaqsan, məni tanıdığını da, sonra çıxıb gedəcəksən, mən isə özümə nifrət edəcəyəm. Yaxşısı budur ki, sən mənim iki min dinarımı bu başdan ver və ya o uca Allahın, Onun Rəsulunun, bu divarların, taxtın, bu hər şeyi eşidən sandığın qarşısında and iç ki, o iki min qızıl dinarı mənə qaytaracaqsan. Bunu edərsənsə, mən də sənin dediyinə əməl edərəm». Fəqih and içir. Bunları birər-birər eşidən möhtəsib, qazı, darğa və hakim heyranlıqla ürəklərində deyirlər: «Min bərəkallah sənə, müdrik qadın! Gör nə məharətlə fəqihi məcbur etdi ki, şahidlər yanında borclu olduğunu boynuna alsın!» Qadın fəqihə deyir: «Gözümün nuru, sən taxta keç, mən də qapını kilidləyib gəlirəm». Fəqih yarıçılpaq vəziyyətdə taxta keçir, qadın isə otaqdan çıxıb qulluqçulara deyir ki, qonşulara evə oğru girdiyini yaysınlar və deyir ki, indi mən gedirəm, amma elə ki qışqırığımı eşitdiniz haray-həşir salıb özünüzü yetirin ki, «oğru»nu tuta bilək. Qadın fəqihin yanına gəlib deyir: «Ey mənim ürəyim, ürəyimin məlhəmi, mənə elə gəlir ki, bizi istəməyənlərdən biri evə girib bizi güdür. Gəl, bayaqkı otağa keçək, o otaq daha etibarlıdır, oraya quş quşluğu ilə yaxın gələ bilməz». Fəqih durur, qadın yorğan-döşəyi büküb onun başına qoyub deyir: «Sən qabağa düş, mən də sənin ardınca gəlim. Gedək o otağa və bütün olanları, bizi istəyən və istəməyənləri və özümüzü də unudaq». Bu tərəfdə isə qulluqçusunun qulağına pıçıldayır: ««Elə ki bizi gördünüz, hamınız onun üstünə düşün, təpiklə, yumruqla vurun və bərkdən, qonşular eşidəcək dərəcədə bərkdən qışqırın: «Evimizə oğru girmişdir!». Fəqih başında yorğan-döşək oğrun-oğrun otaqdan çıxıb o biri otağa tərəf gedirdi ki, qulluqçular qışqırışdılar: «Ay aman! Evimizdə oğru var!» Bu qışqırığa, bu səsə qonşular da tökülüşüb gəldilər. Onlar da «oğru»nu o ki var təpiklə, yumruqla əzişdirib şil-küt etdilər. Fəqih elə döyülmüşdür ki, axırda huşunu itirmişdir, amma qadın ondan əl

çəkmirdi: «Oğru! Oğru!»,- deyə-deyə onu döyüb acığını çıxarırdı. Bir az sakitləşəndən sonra qonum-qonşu şil-küt olmuş bu kişini sürüyüb küçəyə salırlar, camaat yığışır və camaatın arasında bir nəfər fəqihi tanıyır. Qadın isə qışqırırdı: «O mənim iki min qızıl dinarımı oğurlamışdır». Camaat isə yarıçılpaq fəqihə baxıb fikirləşirdi: «Yaxşı, zərgərin zövcəsi düz danışırsa, bu yarıçılpaq fəqih pulları hara etmişdir, harada gizlətmişdir?! Bəlkə, o, fəqihə şər atır?!» Zərgərin zövcəsi isə qışqırmağında davam edə-edə düz şah sarayına üz tutub gedirdi. Sarayın qarşısındakı meydana çatıb yenə də qışqırmağa davam edirdi: «Fəqih iki min qızıl dinarımı oğurlamışdır və onu qaytarmaq istəmir». Onun qışqırığını eşidən şah xəbər göndərir ki, möhtəsibin yanına getsin, qadın cavab verir: «Möhtəsib evdə yoxdur». Şah deyir: «Qazının yanına get», qadın cavab verir: «Qazı da evində deyildir». Şah deyir: «Onda darğanın yanına get», qadın cavab verir: «Darğa də evdə yoxdur». Şah qəzəblə dillənir: «Daha nə oldu ki? Onda birdəfəlik hakimin yanına get», qadın fəryad edib cavab verdi: «Şah sağ olsun, o da yerində deyildir». Şah artıq elə qəzəblənmişdir ki, bilmirdi ki, qadına necə kömək etsin, məiyyətinə gedib fəqihi gətirməyi əmr edir. Məiyyət onun dalınca yollanır, o isə həmin vaxt xəcalətdən, rəzalətdən od tutub yanırdı və gizlincə şəhəri tərk etmək niyyəti ilə səhraya üz tutmuşdur. Qarşısına çıxanlar onu bu vəziyyətdə görüb soruşurdular: «Hörmətli fəqih, bu nə haldır, sənə nə üz vermişdir?» O isə cavab verirdi: «Dünən bir yerə dəvət edilmişdim, oradan qayıdanda quldurlar hücum edib pal-paltarımı, əbamı, əmmaməmi, kəmərimi, ayaqqabılarımı, pullarımı götürüb özümü də döyüb qaçmışdırlar».

Nəhayət, şahın məiyyəti ona yetişib tutur və saraya aparır. Şah buyurur: «Bu qadının iki min dinarını ver!» Fəqih pul verməkdən boyun qaçırır. Onda şah qadına müraciət edir: «Bəs sənin şahidlik etməyə bir adamın vardırmı? Mən sənə nəyə görə inanmalıyam ki, fəqih sənə pul borcludur?» Qadın deyir: «Şah sağ olsun, bəli vardır, əgər əmr etsəniz, mənə bir araba versinlər, gedib şahidlərimi gətirərəm». Bu cavaba təəccüblənmiş şah soruşur: «Bu necə şahidlərdir ki, onları ancaq araba ilə gətirmək olur?» Qadın israrla deyir: «Bəli, mə-

nim şahidlərimi ancaq araba ilə gətirmək mümkündür». Şah deyir: «Siz Allah, bu qadına bir araba verin, görək bunun arabada gələcək şahidləri kimlərdir?»

Qadına araba verirlər, o, evinə gedib sandığı arabaya yüklədib, saray meydanına qayıdır. Sandığı görən şah qadından soruşur: «Sənin fəqihə iddian nədir? Sən fəqihdən nə tələb edirsən? İstədiyini bir daha ucadan de, hamı eşitsin». Qadın deyir: «Mən israr edirəm ki, fəqih mənə iki min qızıl dinar borcludur». Şah fəqihdən soruşur: «Bu, doğrudurmu?» Fəqih cavab verir: «Xeyr». Şah qadına üzünü tutur: «Sənin şahidin varmı?» Qadın cavab verir: «Bəli, vardır, mənim şahidim bu sandıqdır və yer üzündə bundan dürüst şahid ola bilməz». «Şahid» susurdu. Şah əyanlarını, əshabələrini, əmirlərini süzüb hiddətlə deyir: «Ay ağılsız qadın, sandıq nəsə danışıb, nəyəsə şəhadət edə bilər?» Qadın şahın qarşısında əyilib yeri öpür və deyir: «Bəli, şah sağ olsun! Bu sandıq mənə məxsusdur və mənim şahidimdir. Sən əmr et, odun gətirsinlər. Mən onun ətrafında ocaq qalayacağam, əgər o dinib mənim xeyrimə şəhadət versə, sən bu dinsiz, imansızı cəzalandırarsan, o da mənim qızıllarımı qaytarar, yox, əgər susaraq yanarsa, mən öz qızıllarımdan keçərəm». Şah deyir: «Bu məsələdə nəsə var. Bu qadının dediklərini edin». Nökərlər o saat odun gətirib sandığın ətrafında ocaq qalayırlar. Elə ki alov sandığı bürüyür və sandıq qızır, oradan qışqırtı səsləri gəlir: «Biz şəhadət veririk ki, fəqih zərgərin zövcəsinə iki min qızıl dinar borcludur». Şah və onun əyan, əshabə və əmirləri bu işə mat qalmışdılar. Şah əmr edir ki, sandığı açsınlar. Sandığı açanda içindən möhtəsib, qazı, darğa və hakimin çıxdığını görən şahın heyrətdən dili quruyur. Onlar isə - sandıqdan çıxmış yarıçılpaq məmurlar qaçıb gözdən itməyə cəhd edirlər, amma bu mümkün olmur. Şah və ətrafındakılar hələ də məsələnin nə yerdə olduğunu anlaya bilmirdilər. Şah qadını yanına çağırıb nələrin baş verdiyini ondan soruşur. Qadın hər şeyi olduğu kimi, heç bir şeyi azaldıb-artırmadan danışır. Şah və onun ətrafındakılar qadının müdrikliyinə, namusuna, ağlına, zəkasına, bacarığına, məharətinə heyran olurlar. Şah əmr edir ki, fəqihi həbs etsinlər və ondan üç min qızıl dinar alsınlar, qadının iki min qızıl dinarını özünə

qaytarsınlar, minini isə xəzinəyə təhvil versinlər. Daha sonra əmr edir ki, qazı möhtəsibi uzunqulağa mindirib ölənəcən döysün, darğaya isə əmr edir ki, qazının saqqalını didib, töksün, sonra isə ölənəcən döysün, hakimə darğanı cəzalandırıb öldürməyi əmr edir, hakimi isə özü edam etdirdi. Fəqihin isə şəhər meydanında yerə basdırılıb hamı tərəfindən ölənəcən daşqalaq edilməsini əmr edir. Bu yaramazların hamısını rüsvayçılıqla cəzalandırdıqdan sonra onların mal-mülklərinə də həbs qoyub zərgərin zövcəsinə bol-bol mal-sərvət verir. Sonralar şah tez-tez zərgərin zövcəsini yanına dəvət edir, ondan «qanun keşikçiləri» ilə macəralarını danışmağını dönə-dönə xahiş edirdi. Daha sonra zərgərin ailəsi şah sarayının ən arzu olunan adamlarından olur. Onlar bütün bu olanlardan sonra xoşbəxt, gözəl, hüzur içində bir həyat sürürlər. Sonda isə bu fani dünyanı tərk edirlər və özlərindən sonra bu hekayəti yadigar qoyurlar.

Allah bu kitabın üzünü köçürənləri, oxuyanları, dinləyənləri qorusun!

## ON BİRİNCİ HEKAYƏT

# Dülgər və dərzinin hekayəti

Nağılçılar nağıl edirlər ki, Nişapur şəhərində iki mahir usta var idi; biri dülgər idi, o biri isə dərzi. Allahın qədəri belə gətirmişdir ki, onlar bir-birlərindən xəbərsiz eyni qadına aşiq olurlar. Bu qadın həm xarici görünüşü ilə çox cazibədar idi, həm də ünsiyyətdə cəlbedici idi. O, meylini daha çox dülgərə salmışdır, amma dərzi daha cəsarətli, fikrində daha israrlı olması ilə fərqlənirdi. Dərzi öz cəsarəti, bir qədər də sərtliyi ilə qadını ram edə bilmişdir və qadın istər-istəməz onun nəvazişlərinə cavab vermək məcburiyyətində qalırdı.

Günlərin bir günü dərzi qayçı, iynə, sap işlətmədən elə bir paltar tikir ki, görənlər heyran olurlar. O paltarı Nişapurun bütün dərzilərinə göstərmişdilər, amma heç biri belə bir işin öhdəsindən gələcəyini boynuna götürməmişdir. Bu paltarı dülgər də görüb valeh olmuşdur. Dərzi bu paltarı sevgilisinə bağışlayanda dülgər başa düşür ki, dərzi də onun sevdiyi qadına aşiqdir. Dülgər qısqanclıqdan qadınla kobud rəftar edir, onu incitməyə başlayır. Bu kobud, sərt rəftara baxmayaraq, qadın gündən-günə dülgərə daha çox bağlanırdı və bir dəfə xəlvət yerdə ona deyir: «İnan, sənin başının bircə tükü mənim üçün dərzinin bütöv başından qiymətlidir, amma mən ondan qorxuram və ona görə ona diqqət göstərmək məcburiyyətindəyəm». Dülgər deyir: «Əgər sənin ona meylin yoxdursa, mən səni onun əlindən qurtararam, mən onu məhv edərəm». Qadın deyir: «İstəyirsən, mən bu gecə onu elə içirdim ki, məhv olsun». Dülgər isə deyir: «Əgər həqiqətən, məni sevirsənsə və dərzidən canını qurtarmaq istəyirsənsə, izin ver, onu elə ilim-ilim itirim, heç izini tapan olmasın». Qadın cavab verir: «İstəyirəm, itir!»

Dülgər durub dərzinin yanına gedir və deyir: «Qardaş, sən tikdiyin qeyri-adi, ecazkar paltarınla şəhərin bütün dərzilərini utandırdın. İndi isə mən öz məharətimi nümayiş etdirib şəhərimizin bütün dül-

gərlərini xəcil etmək istəyirəm». Dərzi deyir: «Nə olar, sənə uğurlar arzulayıram. Köməyim dəyə bilərsə, həmişə hazıram». Dülgər deyir: «Hə, yəqin ki, sənin köməyinə ehtiyacım olacaqdır. Vaxtı çatanda sənə müraciət edəcəyəm».

Dülgər evinə yollanır. Bir xeyli ağac mişarlayıb hazırlıq işləri görür və daha neçə gün, neçə gecə çalışıb işləyib bir uçan sandıq düzəldir. İşini tamamladıqdan sonra dərzinin yanına yollanır və deyir: «Mən də dülgərlik işində indiyə kimi görünməmiş bir möcüzə hazırlamışam. Hazırladığım sandığı sınaqdan çıxarmaq lazımdır. Sən də bir qardaş kimi mənə kömək əlini uzat, mənimlə səhraya gedək, sandığı sınaqdan çıxaraq. Görək çatan cəhəti nədir, çatışmayanı nə? Elə ki sınaqdan yaxşı çıxdı, mən də onu şəhərin bütün dülgərlərinə, xarratlarına göstərib sənin kimi ad-san qazanaram».

Dərzi cavab verir: «Mən hazır!» Dülgər sandığı, lazımi alətləri belinə bərkidib dərzi ilə bir yerdə səhraya yollanır. Nişapurun yaxınlığında geniş bir düzəngah var idi. Dülgər sandığı yerə qoyub dərziyə deyir: «Paltarını çıxarıb sandığa gir, görək nə kəm-kəsiri vardır?» Dərzi pal-paltarını soyunub sandığa girir, dülgər isə sandığın bir mühərrikini açır, ora bir çarx taxır və onu dərziyə göstərərək deyir: «Sən bu çarxı sağ əlinlə var-gücünlə fırlatmalısan». Dərzi dülgərin dediyi kimi çarxı fırlatmağa başlayır, sandıq hərəkətə gəlir. Onda dərzi çarxı daha çox fırlatmağa başlayır, bu dəfə sandıq yerdən üzülüb quş kimi göyə qalxır. Dərzi çarxı fırlatdıqca sandıq daha da yüksəkliyə qalxırdı. Dərzi sandığın pəncərəsindən aşağıya baxdıqca vahiməyə düşürdü. Aşağıda mənzərələr bir-birini əvəz edirdi; gah meşələr, gah çaylar, gah dağlar, gah düzənliklər, gah şəhərlər görən dərzi qışqırdı: «Ay yaramaz dülgər, mənə kəf gəlib, məni bəlalar burulğanına saldın».

Dərzi elə qorxmuşdur ki, az qala ürəyi partlamışdır. Çarxı hansı tərəfə hərləyirdisə, fərq etmirdi, sandıq ancaq yuxarıya qalxırdı, nə qədər basırdısa, yenə yuxarıya qalxırdı. Sandıq elə yüksəkliyə qalxmışdır ki, dərzi artıq aşağıda heç bir şey görmürdü. Zavallı dərzi bu sandığın çarxına nə etdisə, bir şeyə nail ola bilmədi. Artıq sağ əli elə yorulmuşdur ki, dərzi onu sol əli ilə əvəz etmək qərarına gəldi və sol

əli ilə çarxı fırlatmağa başlayanda gördü ki, sandığın sürəti azalır və aşağıya enməyə başlayır. Nəhayət, sandıq yerə-torpağın üstünə enir. Dərzi sevinərək sandıqdan düşür, ətrafa göz gəzdirib anlayır ki, Oman körfəzinin sahilindədir. Dərzi o saat harada olduğunu müəyyənləşdirə bilir. Sahil boyu getdikcə rastına çoxlu bar verən ağaclar çıxırdı. Meyvələrdən, tərəvəzlərdən yeyə-yeyə yol gedən dərzinin qarşısına üç kişi çıxır. Dərzi onlara yaxınlaşıb salamlaşır. O adamlar dərzinin salamını alıb soruşurlar: «Kimsən, haradansan və buralara necə gəlib çıxmısan?» Dərzi cavab verir: «Bir yadelliyəm, azmışam, mənə şəhərə gedən yolu göstərin, zəhmət olmasa». Kişilər ona şəhərə - şah sarayına aparan yolu göstərirlər, amma dərzi başqa yolu seçir. O, meşəyə yollanır və fikirləşir: «Yaxşısı budur ki, meşəyə qayıdıb sandığıma minim. Hər halda indi onu idarə edə bilirəm, sandığı meşədə qoysam, heyvanlar onu xarab edərlər». Belə qərara gəlib sandığa minir və çarxı fırladaraq havaya qalxır.

Bir azdan o, aşağıda - çəmənliklər içində bir şəhər görür. Dərzi çarxı fırladaraq bir sarayın yaxınlığında yerə enir. Dərzi sandıqdan düşüb bir hündür Çin darvazası görür və o istiqamətdə gedir. Yolda qarşısına çıxan bir kişidən soruşur: «Bu kimin sarayıdır?» Kişi onun salamına cavab verib deyir: «Bu, Oman hökmdarının sarayıdır». Dərzi deyir: «Mənim bir qardaşım var idi, itkin düşmüşdür, mən də indi düşüb diyarbədiyar onu gəzirəm». Kişi isə sözünə belə davam edir: «Bu sarayı şah qızı üçün tikdirmişdir. Şahın qızı doğulandan bəri quş quşluğu ilə onu indiyədək görə bilməmişdir. Şah onu dayəsinə, kənizlərinə tapşırmış, özü isə həftədə bir dəfə gəlib qızına baş çəkir və qayıdıb gedir».

Dərzi bunu eşidib sandığının yanına qayıdır və qaranlığın düşməyini gözləyir. Elə ki gecə düşür, hər tərəf zil qaranlıq olur, insanlar yuxuya gedirlər, dərzi sandığına minib, çarxını fırladır, sandıq havaya qalxıb sarayın kandarında enir. Oğlan pəncərədən pəncərəyə keçə-keçə şahzadə qızın yatdığı otağı tapıb içəriyə girir. Şahzadə qız səsə oyanır və otağında yad kişi görüb qışqırır. Şahzadənin qışqırığına dayəsi oyanır, şamı götürüb onun yanına keçir və burada yad bir cavan oğlan görüb deyir: «Sən kimsən?» Oğlan deyir: «Mən yeri,

göyü yaradan Allahın ən etibarlı mələklərindən biri olan Cəbrailəm. Göyün yeddinci qatında mənimlə bu qızın kəbini kəsilmişdir və buna görə məni buraya göndərmişlər».

Qız da, dayəsi də dərzinin bu sözlərinə inanırlar, çünki bu saraya ancaq göydən düşmək mümkün olardı, onun darvazasından, nəinki içəriyə daxil olmaq mümkün deyildir, ona indiyənədək heç yaxın düşən olmamışdır. Dayə öz-özünə fikirləşir: «Əgər bu cavan adam, həqiqətən, mələk olmasa idi, buraya necə daxil ola bilərdi, şübhəsiz, o, göydən damın üstünə düşmüş və oradan da içəriyə keçmişdir». Dayə sevinərək qışqırır: «Qızım, gözün aydın! Sən Allahın sevimli bəndəsisən! Gör Allah-təala səni hansı uca məqama yüksəldir ki, sənin qismətinə Cəbrailin zövcəsi olmağı yazır! Biz hamımız, sənin atan da Allaha şükürlər etməliyik». Qız bu sözlərdən sonra özünü «Cəbrail» kimi qələmə vermiş dərziyə ərə getməyə razılıq verir.

Dərzi öz-özünə deyir: «Allah böyükdür! Allahın ədaləti sonsuzdur! Həqiqətən, uca Allah yaratdığının üzünə yüz qapı açmamış onun gözünü dikdiyi bir qapını bağlamaz. Əgər hiyləgər dülgər o əxlaqsız qadına görə fənd işlədib məni toruna salmasa idi, qismətimə bu huri-mələk çıxmazdı».

Bu arada şahın başı dövlət işlərinə elə qarışmışdır ki, demək olar ki, qırx gün idi, qızının yanına gələ bilmirdi. Dərzi isə hər axşam öz sandığı ilə sarayın damına enib, içəriyə daxil olur və səhərə yaxın geri qayıdırdı. Bu arada şah öz işlərini tamamlayır və qızına baş çəkmək üçün saraya yollanır. Şah yeddi qapının kilidlərini, rəzələrini, cəftələrini yoxlayır, görür ki, hər bir şey onun qoyub getdiyi kimidir, qızının yataq otağına tərəf yollananda ona deyirlər ki, qızı özünü bir az pis hiss edir, onu narahat etmək lazım deyildir. Şaha qızının «Cəbrail»ə ərə getdiyini də deyirlər. Şah bu xəbərə təəccüb edir və deyir: «Bu nə nağıldır, danışırsınız?» Şah eşitdiklərinə inana bilmirdi, o, sarayın dörd bir yanını, damını gəzir, heç bir yerdə bir dənə açıq, aralı yer görmür. Nə qədər fikirləşib, nə qədər götür-qoy edirsə, onu düşündürən suallara cavab tapa bilmir, axırda bu qərara gəlir ki, bütün gecəni burada qalsın, yatmasın və görsün ki, o, özünü «Cəbrail» kimi qələmə verən kimdir. Axşam qaranlıq düşəndə şah

bir şam yandırıb, qılıncını da qınından çıxarıb gözləməyə başlayır. Gecəyarısı dərzi yenə öz sandığında damın üstünə enir. Şahın qulağına tıppıltı, cırıltı səsi gəlir. Şah diqqətlə qulaq asıb, damın üstünə bir sandığın endiyini hiss edir. O, yerindən sıçrayır, amma ildırım vurmuş adam kimi başı hərlənir, gözü qaralır, yerə sərilir.

Şah özünə gələndə qarşısında ağ qətfəyə bürünmüş bir gənc görür, o bu gənci əvvəllər görməmişdir və onu tanımırdı. Şah onu süzüb, özünü onun qarşısında yerə atıb deyir: «Ey uca Allahın elçisi, sevimli rəsulu! Həmd olsun sənə! Biz sənə itaət edib, sənin qarşında baş əyirik!» Şah bunu deyib, diz çöküb, dərzinin əlini öpür. Bir tərəfdə dayanmış şahzadə qız atasını dərziyə təqdim edir: «Ya Cəbrail, o mənim atamdır». «Cəbrail» öz mübarək əlini şahın başına çəkib, alnından öpür. Şah «Cəbrail»ın qarşısında payəndaz olub deyir: «Allah hansı əməlimə görə mənə bu qədər lütf göstərib, «Cəbrail»in qayınatası olmağı mənə nəsib etmişdir». Bunları deyib, şah öz otağına keçib yerində uzanıb yatır. «Cəbrail» isə öz otağına keçib yatır, səhərə yaxın isə dama çıxıb, sandığına oturub meşəyə tərəf uçur.

Səhər açılanda qız yuxudan durub atasının yanına düşür. Şah oyanıb dama qalxır və göyü seyr etməyə başlayır. Şah müşahidə etmişdir ki, hər səhər, günəş doğmazdan əvvəl göyün üzündə iki-üç ulduz sönüb yox olur, bu gün isə birdən-birə üç-dörd ulduz bir yerdə sönüb yox oldu. Şah belə qənaətə gəlir ki, bu, göy qübbəsidir, açılmışdır ki, «Cəbrail» ora daxil olsun. Şah o saat yerə sərilib, dua etməyə başlayır. Şah artıq tam əmin olmuşdur ki, onun kürəkəni «Cəbrail»dır. O, damdan düşüb qızına deyir: «Ağıllı, kamallı ol! Rəftarında, hərəkətində diqqətli ol! Özünü elə apar ki, «Həzrət Cəbrail» səndən razı qalsın. Mən isə şəhərə gedib toy tədarüklərinə başlayım və «Həzrət Cəbrail» üçün ona layiq geyim sifariş edib buraya yollayım».

Qız deyir: «Bu gün artıq qırx gündür ki, o hər gün buraya gəlir, amma bu vaxtacan burada bir stəkan su belə içməmişdir». Şah əmr edir, elə həmin gün saraya «Cəbrail» üçün bir neçə dəst geyim, növbənöv təamlar və bir xeyli ləl-cavahirat gətirirlər. Sonra şah bü-

tün qapı, darvazaları möhkəm bağlayıb şəhərə yollanır. Elə ki axşam düşür, gənc dərzi sandığına minib Oman şahının sarayına tərəf uçur. O, ehmalca pəncərə səviyyəsinə enib, içəridə baş verənləri seyr etməyə başlayır. Şah vəzirlərinin əhatəsində oturub söhbət edirdi. Şah vəzirlərinə olanlardan, «Cəbrail»dən söhbət edir, dərzi isə onlara qıraqdan tamaşa edirdi.

Şahın ətrafındakıların arasında çox ağıllı, müdrik bir vəziri var idi. O bu olanlara bir qədər şübhə ilə yanaşır və deyir: «Ey Hökmdar! Sənin danışdıqların ağlasığmaz şeylərdir. Hər cəfəngiyata aldanma. Çox güman ki, bir nankor cadu, əfsun yolu ilə saraya daxil olub ki, səni də, şahzadə qızı da rüsvay etsin».

Şah bu sözlərə mat qalıb qışqırır: «Sən nə boş-boş danışırsan! Mən onu öz gözlərimlə görməsə idim, mən də inanmazdım. O peyda olanda mən özüm orada idim və özüm şəxsən bütün qapı-darvazaları yoxlamışdım, o, göydən endi». Şah bu fikrində israrlı olduğu qədər, vəzir də inkar etməyində israrlı idi. Bu söhbəti eşidən dərzi sandığını aşağı endirir, onun içinə daşlar yığıb yenə yuxarı-pəncərənin qabağına qalxır. Dərzi daşları bir-bir içəriyə atmağa başlayır. Onlardan bir neçəsi həmin vəzirin başına, üzünə dəyib yaralayır.

Şah və vəzirləri əvvəl elə fikirləşirlər ki, ev uçur və hərəsi bir tərəfə qaçır. Elə ki daşqalaq qurtarır, onlar olanları İlahi cəza bilib, yaralanmış vəziri axtarmağa başlayırlar. Onu tapdıqdan sonra şah dillənir: «İndi necə, Cəbrailin kəramətinə inandınız, yoxsa yenə də yox?» Heç kəs söz demək, danışmaq iqtidarında deyildi. Hamı qorxu-hürkü içərisində evlərinə dağılışır.

Dərzi isə həmin vaxt öz sehrli sandığına oturub aycamal, gülüzlü gözəlinin sarayına uçur və ona deyir: «Sənin atan vəzir-vəkillərini, əyan-əshabələrini başına yığıb mənim haqqımda söhbət edirdi, amma vəzirlərdən biri onun dediklərini ciddi qəbul etmədi. Allah-təala qəzəblənib ölüm mələyi Əzrayıla onların hamısını öldürməyi tapşırdı, mən isə ancaq qayınatamın xətrinə Allaha yalvardım ki, onlara dəyməsin, əks təqdirdə onlar hamısı məhv olacaq idilər». Dərzi şah sarayında baş verənləri olduğu kimi şahzadə qıza danışır. Qız eşitdiklərindən heyrətə gəlir.

Səhər açılanda «Cəbrail» sandığına minib uçur, şah isə vəzir-vəkillərinə, əyan-əshabələrinə sarayının qarşısında toplaşmaqlarını buyurur və deyir: «Durun gedək «Həzrət Cəbrail»in hüzuruna, öz cəhalətimizə görə ondan üzr, rəhm diləyək». Onlar yaralı vəziri ata otuzdurub, başda şah olmaqla şahzadə qızın sarayına yollanırlar. Saraya çatanda şah onları sıraya düzüb deyir: «İndi baxın, yaxşı baxın, görün bu kilidlənmiş qapı, darvazalardan buraya bir Allah bəndəsi girə bilərmi?» Hamı bir-bir qapılara, darvazalara baxır, qıfılların möhkəmliyini yoxlayır. Hər şey qaydasında idi, hər şey möhkəm bağlı idi. Onda şah cibindən açar çıxarıb qapını açır və hamını içəriyə dəvət edir.

Şahzadə qız atasını görüb təzim etdi, əyilib yeri öpdü, atasının əlini öpdü və dedi: «Ata, sənə sözüm vardır» Atası dedi: «Buyur, qızım». Qız «Cəbrail»in ona danışdıqlarını - Allahın qəzəblənib Əzrayıla şah sarayını orada olanlarla bir yerdə yerlə-yeksan etmək əmrini verməsini, «Cəbrail»in qayınatasının xətrinə Allaha yalvarmasını olduğu kimi danışır və axırda əlavə edir: «Ata, «Həzrət Cəbrail» rica etdi ki, bir daha onun haqqında heç kəsə danışmayasan, əgər həyatının sənin üçün bir dəyəri varsa, çəkin, bir də onun haqqında heç bir kəsə bir şey danışma».

Şahzadə qızın danışdıqlarını eşidən şah və əyanları mat qalırlar və deyirlər: «Olanların hamısı həqiqətdir və şübhəsiz ki, sənin kürəkənin «Cəbrail»in özüdür». Onlar şahzadə qızın qarşısında təzim edib yalvardılar ki, onları «Cəbrail»ə tapşırsın və «Cəbrail» onlara qarşı rəhmli olsun. Bütün olanlara baxmayaraq, yaralı vəzir ürəyində heç də belə düşünmürdü, o, ürəyində öz-özünə deyirdi: «Əgər bu fikrimə görə Allah məni cəzalandırıb cəhənnəmə atsa belə, mən yenə də öz fikrimdə israrlıyam ki, Cəbrailin qadın zümrəsi ilə işi ola bilməz. Bu qız, yəqin ki, özünü «Cəbrail» kimi qələmə vermiş bir dərzi, ya da bir dülgərlə tapışıb sevişir».

Bundan sonra əyanlar şəhərə qayıdırlar, şah isə qızının yanında qalır. Bir qədər qızının sarayında qaldıqdan sonra o da şəhərə qayıdır. O hər gün qızı və kürəkəninə qiymətli hədiyyələr göndərir və bilmədən yol verdiyi səhvlərinə görə üzrxahlıq edirdi. «Cəbrail»

isə hər axşam sandığı ilə dama enib, oradan saraya girirdi, səhərə yaxın isə geri qayıdırdı. Beləliklə, bu dərzi gecələri sarayda, gündüzləri meşədə keçirirdi. Meşədə də günü pis keçmirdi, belə ki, o qayıdanda sandığını cürbəcür təamlarla doldururdu və deyirdi ki, bunları cinlər üçün aparır, halbuki hamıya məlumdur ki, cinlər insanların yediklərini yeməzlər.

Bu minvalla bir müddət keçir, doqquz aydan sonra dərzi ilə şahzadə qızın bir ay parçası kimi oğulları olur. Şah onları təbrik edib uşağı şahzadə və özünün vəliəhdi elan edir.

Bu arada qonşu şahlardan biri Oman şahının yanına qızı üçün elçi göndərir. Elçilərə cavab verirlər ki, qızın artıq əri vardır və o, «Həzrət Cəbrail»in özüdür. Qonşu şaha bu xəbəri çatdıranda o fikirləşir ki, onu ələ salırlar, qəzəblənib ordusunu yığıb o şaha qarşı müharibə elan edir. Tez bir zamanda böyük bir qoşun Oman paytaxtını əhatəyə alır. Şah bu ordunun qabağında duruş gətirə bilmirdi. Axırda məcbur olur, qızına müraciət edir: «Qızım, «Həzrət Cəbrail»ə bizim halımızı agah et, xahiş et məni xilas etsin, əks təqdirdə biz məhv olacağıq, var-varidatımız, yurd-yuvamız, səltənətimiz viran olacaqdır. Ona başa sal ki, bunların hamısı ona görədir».

Axşam düşür, «Cəbrail» dama enib saraya daxil olur, qız ona atasının xahişini çatdırır. «Cəbrail» deyir: «Bircə gecə döz, mən Allah-təalaya bunu çatdırım, gör onda o, düşmən qoşunu necə cəzalandırır». Elə ki dan yeri sökülməyə başlayır, dərzi sandığına minib gedir, gün ərzində sandığını daşla doldurur və axşamın düşməsini gözləməyə başlayır. Elə ki axşam düşür o, düşmən ordusunun düşərgəsinə tərəf uçur və oraya yaxınlaşıb daşları atmağa başlayır. Bu daş yağışının zərbələrindən oyanan ordu, başda şah olmaqla fikirləşirlər ki, göy uçub-dağılır, vahimə içində hərəsi canını götürüb bir tərəfə qaçışmağa başlayır.

Elə ki səhər açılır, Oman ordusu qaçan düşmən qoşunun dalınca düşüb onları təqib edir və qabaqlarına düşmən tərəfdən çıxan hər bir kəsin başını üzür. «Cəbrail» isə öz sandığı ilə düşmən qoşunun dalınca düşüb daş yağdırmağa davam etdirir. Şah bu qələbəyə görə «Cəbrail»ə öz minnətdarlığını bildirir və əldə etdiyi qənimətləri də

götürüb qızının sarayına yollanır. O bir daha təşəkkürünü bildirib geri qayıdır. «Cəbrail» isə gecə saraya gələndə xanımına buyurur ki, cürbəcür təamlar hazırlatsın və deyir: «Mən bunların hamısını o uca Allahın adına, bizə bu savaşda yardımçı olduğu üçün heyvanlara, quşlara paylayacağam». Qız «Cəbrail»in dediklərini hazırladır, «Cəbrail» də öz növbəsində bunların hamısını sandığına yığıb, həmişəki kimi səhər açılana yaxın meşəyə uçur. Meşədə o bu təamlardan yeyib yatırdı. O bütün günü öküz kimi yedi, yatdı. Axşam düşəndə yenə saraya uçdu, Sarayda, həmişəki kimi, ağzına bir tikə də almadı, özünü elə göstərirdi ki, sanki aclıq hissi ona yaddır».

Bu arada «Cəbrail»in qayınatasının düşməni olan qonşu şah, məğlubiyyətindən sonra yavaş-yavaş özünə gəlməyə başlamışdır. Doğrudur, o, hələ də olanlardan baş aça bilmirdi, olanları anlaya bilmirdi, bunların hamısı ona yuxu kimi gəlirdi. «Cəbrail»in adı bütün ətrafı bürümüşdüsə də, qonşu şah heç cür rahatlıq tapmırdı, o, əksinə, intiqam hissi ilə alışıb-yanırdı. O öz xəzinələrinin qapılarını açıb, çoxlu pul, qızıl paylayır, ötən savaşdan sağ-salamat çıxmış döyüşçüləri və başqa adamları yığıb yeni bir ordu yaratmaqla məşğul idi. O, ordu hazır olan kimi Oman şahına qarşı qalxır. O, ayaq basdığı hər bir yeri talan, viran edib, insanları amansızcasına qılıncdan keçirirdi.

Elə ki bu xəbər şaha çatdı, o, yenə də kömək üçün qızına müraciət etdi. Axşam «Cəbrail» gələn kimi qız özünü onun ayaqlarına atıb yalvardı. «Cəbrail» onu dinləyib dedi: «Bir qədər səbir et, qoy mən bunu da Allah-təalaya çatdırım, yenə bizi bu bəladan xilas etsin».

Səhər açılanda «Cəbrail» meşəyə gedir, orada sandığından düşüb piyada şəhərə yollanır. Şəhərdə o, bir az ağ neft, çoxlu pambıq alır və bir xeyli at nalı yığır. Bunları meşəyə aparıb, pambığı nallara sarıyır, üstlərinə də neft töküb sandığa yığır. Bunlar balaca qığılcımdan alışıb yanmalı idi. Gecə düşən kimi o, sandığına minib düşmən düşərgəsinə tərəf uçur. Elə ki ora çatır, «Cəbrail» neftli pambıq sarınmış nalları yandırıb düşərgəni tuş tutub atmağa başlayır. Bir göz qırpımında bütün çadırları od tutur və onların hamısı alışıb yanır. Bir

tərəfdən də ordunun yarısı artıq yatmış, yarısı sərxoş, yarısı isə eyş-işrətdə olur.

Od yağışını görən düşmən ordusu qaçmağa başlayır. Oman şahı isə öz tərəfdaşları ilə düşmənin dalınca düşüb əlinə keçəni qılıncından keçirirdi, axırda düşmən tərəfin şahına yetişib onu da öldürürlər. Oman şahı düşmən tərəfi darmadağın edib talan edir və böyük qənimətlərə yiyələnir. Sonra o öz ordusu ilə qalib şəkildə paytaxta qayıdır. «Cəbrail»in ad-sanı hər tərəfi bürüyür və artıq bir məxluq belə onun kəramətinə şəkk gətirmirdi. Oman şahının nüfuzu birə-on qat artır, ordusuna könüllülər qoşulur, güc-qüdrəti gündən günə artmağa başlayır.

İşin tərsliyindən Allahın qəzası ilə bu yanar nallardan biri yaddan çıxıb sandığın içində qalmış olur. «Cəbrail» bu nalın sandıqda qalmasına fikir verməyib saraya gedir və gecənin şirin yuxusunu alıb səhər yenə sandığına minib meşəyə gedir. «Cəbrail» sandığından düşüb meşəni, çəmənliyi seyr edə-edə bir qədər uzaqlaşır. Axşama yaxın sandığı qoyduğu yerə qayıdanda görür ki, sandığı yanıb kül olmuşdur. Sən demə, bu arada ildırım çaxmış və sandığın içərisində qalmış neftli pambıqla sarınmış nalı alışdırmışdır. Bunu görən «Cəbrail» dərindən köks ötürüb deyir: «Bu da son! «Cəbrail»in hünəri burada bitdi. İndi mən nə edəcəyəm?!» Başında bu kədərli düşüncələr, nə edəcəyini bilmədiyi halda, o, Omana yollanır. Küçələri gəzib - dolaşırdı ki, birdən gözü bir dərzi dükanına sataşır və o fikirləşir: «Müdriklər əbəs yerə deməmişlər ki:

Dalbadal bədbəxtliklərə düçar olsan,
Bədbinliyə düşmə, yenidən işə başla!

Yaxşısı budur ki, mən köhnə peşəmə qayıdım, bildiyim işin ucundan yapışıb gündəlik çörək pulumu qazanım. Sonra baxaq görək həyat bizi hansı səmtə yönəldir». Bu qərara gəlib, o, dükana girib usta ilə salamlaşır və deyir: «Mən bir qəribəm və bu işi yaxşı bilirəm, razı olsan, sənin yanında işləyərəm. Mən ən aşağı məvaciblə işləməyə razıyam». Usta deyir: «Nə olar, gəl, gəl görək nəyə qadirsən, gəl işə başla». «Cəbrail» qolunu çırmalayıb, tikiş dəzgahının arxa-

sına keçir və sevgilisinin xiffətini çəkə-çəkə göz yaşlarını axıdıb gecə-gündüz işləməyə başlayır.

O ki qaldı şahzadə qıza, o bütün axşamı, bütün gecəni gözləyir, amma «Cəbrail» gəlmir, həftə keçir, ay keçir, «Cəbrail» gəlmir. Qız çox dərd çəkir, çox fikir edir, axırda dözməyib hər şeyi atasına danışır.

Atası soruşur: «Bəlkə, sən «Həzrət Cəbrail»in qarşısında bir günah iş görmüsən, onu qəzəbləndirmisən? Bəlkə, o səndən incidiyi üçün artıq gəlmir?» Şahzadə qız cavab verir: «Yox, mən «Cəbrail»i qəzəbləndirəcək, incidəcək bir hərəkət etməmişəm». Onda Oman şahı nəzir-niyaz paylamağa, xeyriyyəçiliklə məşğul olmağa başlayır. O, kasıblara, dərvişlərə çoxlu pul, pay paylayır ki, tale yenə onun üzünə gülsün. Şahzadə qız isə təklikdən, tənhalıqdan sıxılıb şəhərə - atasının sarayına köçür.

«Cəbrail»in qeyb olma xəbəri tez bir zamanda bütün ətrafa yayılır və, şübhəsiz ki, qonşu şahlara da çatır. Oman şahının düşmənləri birləşib onun əleyhinə qalxırlar. Öldürülmüş şahın qohumlarından biri ordunu ətrafında birləşdirib hücuma keçir. Qızına görə narahat olan şah onun öz sarayına qayıtmağını tövsiyə edir. Təsadüf belə gətirir ki, şahzadə qızın yolu «Cəbrail»in işlədiyi dərzi dükanı yerləşən küçədən düşür. Həmin vaxt şahzadə qızı müşayiət edənlərin səs-küyünə «Cəbrail» də küçəyə çıxır və bir tərəfdə durub tamaşa etməyə başlayır. Şahzadə qızın gözü təsadüfən «Cəbrail»a sataşır və onu tanıyır. Qız həmin dəqiqə bir neçə nəfər qarovul, nökər və bir at göndərir ki, «Cəbrail»i saraya gətirsinlər, özü isə o saat atasının yanına gedib «Cəbrail»ın peyda olduğunu xəbər verir.

Elə ki «Cəbrail»i şahzadə qızın hüzuruna gətirirlər, o soruşur: «Məgər sən «Cəbrail» deyilsən?» Dərzi cavab verir: «Bəli, «Cəbrail»əm». Qız soruşur: «Bəs necə oldu ki, sən bu vəziyyətə düşdün?» Oğlan cavab verir: «İş ondadır ki, o gecə ki mən düşmən tərəfi alov yağışına tutdum, Allah mənə qəzəbləndi, O hesab etdi ki, mən onlara qarşı çox qəddarcasına rəftar etdim, ona görə mənim qanadlarımı mişarlayıb özümü yerə tulladı və əmr etdi ki, burada dərzi dükanında işləyim».

Şah bu söhbəti eşidib «Cəbrail»ə ürəyi yanır, çalışır onu ovundursun və deyir: «Sən hələlik oğlunla, zövcənlə vaxtını keçir, onları sevindir, onların könlünü xoş elə, sonrasına baxarıq». Şah əmr edir ki, ona şah qiyafələri gətirsinlər.

Beləliklə, gənc dərzi yenə şahlara layiq qiyafələr geyinib zövcəsinin, oğlunun əhatəsində həyatını əyləncələrdə sürməyə davam edir. Bu arada düşmən tərəf artıq ordusunu şah darvazalarının qabağında toplamışdı. Şah isə öz ordusunu toplayıb axşam hücumuna hazırlaşırdı. Şah «Cəbrail»ə onun da savaşa gedəcəyini söyləyir və deyir: «Doğrudur, sən Allah-təala dərgahından qovulmuşsan, amma sənin tək «nur»un bizim qələbə çalmağımıza yetər».

Dərzi özünü çox itirmişdi və bilmirdi nə etsin. O öz-özünə fikirləşdi: «Mən bu yaşıma çatmışam, hələ bir dəfə də at minməmişəm, indi də gərək elə bir bəhanə tapım ki, bu xata məndən sovuşsun».

Şah «Cəbrail»ə deyir: «İstədiyin atı seç və min». «Cəbrail» çaşqın vəziyyətdə atlara baxıb, axırda «Badam»ı seçir. Şah deyir: «Nə olar, götür «Badam»ı, o mənim ən sevimli atımdır». «Cəbrail» ata minmək qaydasını heç bilmirdi və qəsdən elə edir ki, ayağı ilişsin, üzüstə yıxılsın. O çaşqın halda fikirləşirdi: «İndi canımı heç cür qurtara bilməyəcəyəm». Daha sonra fikirləşir: «İndi şaha deyəcəyəm ki, mənə qızıl kəmər, qiymətli silahlar, şahanə qiyafə gətirsinlər, məni ata mindirib, yerimə möhkəm bağlasınlar və şəhər darvazalarından çıxarsınlar. Mən onlara deyəcəyəm ki, Xızır peyğəmbər və İlyas peyğəmbərlə görüşməyə getməliyəm, onlardan kömək istəməliyəm, bəlkə, bu yolla bir də ata minməli, silah tutmalı olmaram».

«Cəbrail» ürəyində bu qərara gəlib, Oman şahına müraciət edir: «Mən çoxdandır, İlyas peyğəmbər və Xızır Peyğəmbərlə dostluq edirəm, əmr et, mənə qızıl kəmərli şah geyimi, qiymətli silahlar gətirsinlər, məni geyindirib, ata mindirsinlər, möhkəm bərkitsinlər və şəhər darvazalarından çıxarsınlar ki, mən Xızır peyğəmbər və İlyas peyğəmbərlə görüşüm və onlardan kömək istəyim. Biz qüvvələrimizi birləşdirib düşməni bir həmlə ilə darmadağın edərik».

Şah o saat əmr edir ki, «Cəbrail»in istədiklərini hazır etsinlər. Hər şeyi «Cəbrail» deyən kimi edirlər. Onu geyindirib, yaraq-yasaqlarını taxıb, belinə qızıl kəmərini bağlayıb, ata mindirib şəhər darvaza-larından çıxarırlar. Dərzi çölə tərəf səmt tutsa da, at düz düşmən tərəfə çapır. Dərzi atı nə qədər qamçılasa da, at daha da tərsliyə düşüb daha böyük sürətlə düşmənə tərəf çapır. Yolun üstündə dərzinin qarşısına bir ağac çıxır, o istəyir onun budağından yapışsın, amma ağac elə kövrək idi ki, budağı atın yəhərinə ilişir və ağac kökündən çıxır. At, üstündə «Cəbrail», arxasınca da kökündən çıxarılmış ağac ildırım sürəti ilə düşmən düşərgəsinə girir, şahın çadırını dağıdır, şahı yerə yıxır, şahın ordusundan bir neçə nəfəri ayaqlarının altına salıb təpikləyir və yoluna davam edir. O, külək kimi uçurdu. Camaatın bu vahiməli, tükürpərdici səhnə qarşısında dili tutulur, onlar qorxudan arxalarına baxmadan qaçmağa başlayırlar.

Dərzi isə qışqırırdı: «Mən «Cəbrail»əm, tərk edin buraları, yoxsa hamınızı məhv edəcəyəm!» Döyüşçülər qaranlıq gecədə şahı birtəhər tapırlar. Şah «Cəbrail»in qayıtdığını biləndə qorxudan az qala bağrı partlayır. Ordunun içinə təşviş düşür, onlar silah-sursatı, atları elə orada qoyub qaçırlar.

Səhər artıq onlar şəhərdən çox uzaqda idilər və şəhər ətrafında bir düşmən döyüşçü qalmamışdı. Onda Oman şahının ordusu şəhərdən çıxıb, bütün qənimətləri yığıb şəhərə daşımağa başlayır.

Şəhərə qayıtdıqdan sonra şah əmr edir ki, «Cəbrail»i axtarıb tapsınlar. Bir xeyli axtardıqdan sonra «Cəbrail»i dağların ətəyində bir mağarada tapırlar. «Cəbrail» ölmüş atına bağlanmış vəziyyətdə, huşsuz halda uzanıb qalmışdı. Elə ki «Cəbrail»ı atın üstündən açıb, üzünə gülab çiləyirlər, o özünə gəlir və gözlərini açır. Onu bir başqa ata mindirib şəhərə gətirirlər.

Şah və qızı «Cəbrail»i görən kimi onun qarşısında diz çöküb Allaha şükür etməyə başlayırlar. Dərzi yavaş-yavaş özünə gəlməyə başlayır, elə ki özündə güc hiss edir, ayağa qalxıb deyir: «Ey böyük, mərhəmətli şah, bil ki, mən bu günəcən «Cəbrail» idim, amma bu gündən etibarən adicə bir dərziyəm». Sonra dərzi başına gələnlərin hamısını olduğu kimi danışıb əlavə edir: «İndi isə əgər şah məni

həqiqətdə olduğum kimi qəbul edərsə, mən qalıb ona xidmət etməyə hazıram, yox əgər istəməsə, onda izin versin, mən gedim öz peşəmlə məşğul olum».

Dərzinin bu səmimi etirafını dinləyən şah fikrə gedir: «Bu gəncin gəlməsi ilə mən qələbələr qazandım, düşmənlərimi məğlub etdim, qızımın ondan bir oğlu var və onunla xoşbəxtdir. Nə qədər ki o, buradadır, bir düşmən cürət edib «Cəbrail»ə qarşı çıxa bilməz, amma əgər o gedərsə, bir insan bəndəsi onun sirrindən agah olarsa, biz biabır olarıq. Yaxşısı budur ki, elə bizim yanımızda qalsın».

Şah dərziyə nəvaziş göstərib, onu sakitləşdirib deyir: «Oğul, qal yanımızda, zövcənlə, oğlunla xoş-firavan yaşa, öz sirrini bir Allah bəndəsinə vermə, elə «Cəbrail» adı ilə yaşa». Sonra o, «Cəbrail»i qızının sarayına yola salır, özü isə yenə də onlara hədiyyələr, paylar göndərməklə həyatını davam edir.

O ki qaldı dülgərə, dərzi onun düzəltdiyi sandığa minib itdikdən sonra o heç bir şeydən çəkinmədən sevgilisi ilə bir araya gəlib həyatını sürməyə başlayır, amma tezliklə o da öz bədəlini ödəməli olur. Bir axşam o, sevgilisi ilə eyş-işrətlə məşğul idi. O, çox içmişdi, sevgilisi onun üstünə qışqırıb, onu «donuz«adlandırır. Dülgər bundan qəzəblənib xəncərini çıxarıb qadının sinəsinə sancır. Qadın elə oradaca canını tapşırır. Dülgəri həbs edib, sonra isə adam öldürdüyü üçün dar ağacından asırlar.

Dərzi isə onu el-obasından didərgin salmış düşməni elədiklərinin bədəlini ödəyib edam olunduğu halda, şad-xürrəm həyat sürür, həyatın bütün naz-nemətlərindən istədiyi kimi bəhrələnir. O, mütəmadi bu şeiri oxuyurdu:

Kim öz ürəyində kin-nifrət bəsləyir,
Sənin hər addımına həsəd aparır.
Sən mərhəmətli ol dosta da, düşmənə də,
Düşmənin isə cəzasını öz əməlindən alar.

Dərzi ilə şahzadə qızın çoxlu övladı olur, şahın başqa vərəsələri olmadığı üçün dövlətin idarəçilyi də onlara qalır. Onlar uzun, xoşbəxt ömür sürürlər. Sonra «Cəbrail» də, zövcəsi də, ətrafındakılar

da bu fani dünyanı tərk edib əbədi dünyaya qovuşurlar. Vaxt gələcək biz də bu fani dünyadan əbədi dünyaya köçəcəyik.

*Bu hekayətin hikməti belədir. Əgər birisi bir başqasına quyu qazsa, gec-tez özü o quyuya düşər, necə ki dülgər öz əməlinin qurbanı olmuşdur, quyu qazılanın isə taleyi gec-tez üzünə gülər, necə ki dərziyə sonda xoşbəxtlik nəsib olmuşdur.*

## ON İKİNCİ HEKAYƏT

# İshaq Mosuli, Bağdad xəlifəsi və qəsr haqqında hekayət

Belə danışırlar ki, Bağdad xəlifəsinin qeyri-adi qabiliyyətə malik, hər cür istedadı olan, musiqini, şeiri dərindən anlayan bir əshabəsi var imiş. Onun bu dəyərlərinin qarşısında göy üzündəki Zöhrə də aciz qalırdı. Xəlifə onu hamıdan seçir, onu digər əyan-əshabələrindən daha çox sevirdi və tez-tez onunla bir tərəfə çəkilib vaxt keçirirdi, o isə öz növbəsində elmdən, şeirdən, musiqidən bildiklərini ona danışır, onunla bölüşürdü. Onun adı Mosullu İshaq idi. Onun musiqi aləmində bilikləri o qədər mükəmməl, musiqi zövqü o qədər incə idi ki, əgər Nəkisa ilə Barbəd onunla eyni dövrdə yaşasa idilər, qarşısında qul-nökər olmağı özlərinə şərəf bilərdilər. Xəlifə ona elə bağlanmışdır ki, gecə-gündüz onu özündən kənara qoymurdu, onun söhbətlərinə qulaq asıb, vaxt keçirirdi. Günlərin bir günü hal-qəziyyə belə gətirir ki, gecə İshaq evinə qayıdanda atdan düşüb bir dalana keçəsi olur və görür ki, irəlidə bir şah libaslı adam gedir.

İshaq öz-özünə deyir: «Mən bu adamın kim olduğunu və haraya getdiyini öyrənməyənəcən evə qayıtmayacağam». İshaq həmin adamın dalınca gedir, görür ki, dalanın axırında bir qala ucalır. Həmin adam qalaya çatıb dayanır, həmin dəqiqə qaladan qalın ipin ucuna bağlanmış bir zənbil enir. O, ipi tərpədir və qalanın başında bir kənizin xidmətçisi görünür. O adam zənbilə oturur və xidmətçi onu yuxarıya qaldırır. Bütün bunları görən İshaq başında min cür fikir götür-qoy edə-edə evə qayıdır və səhəri diri açır. Səhər həmişəki kimi xəlifənin hüzuruna gəlir və dünən gördüklərini danışır. Xəlifə ondan həmin qalaya gedən yolu bilib-bilmədiyini soruşur, İshaq yola bələd olduğunu deyir. Xəlifə deyir: «Onda bu gecə ora-

ya get və hər şeyi ətraflı öyrən». İshaq deyir: «Əmrə müntəzirəm» və gecə həmin qalanın olduğu dalana yollanır. Qalanın yanına çatanda görür ki, yuxarıdan ucuna zənbil bağlanmış ip sallanır, İshaq zənbilə oturur, yuxarıdakı xidmətçi qız ipi çəkir. Xidmətçi qız İshaqı görüb başa düşür ki, bu yad adamdır. Qız qəşş eləyib gülür və qaçıb gedir.

Tək qalmış İshaqın ürəyinə qorxu düşür və o fikirləşir: «Deyəsən, yaman bəlaya düşdüm, indi qul-nökərlər gəlib məni aşağıya atacaqlar. İndi nə xəlifə, nə başqası mənim dadıma çata bilər».

Bunları götür-qoy edə-edə İshaq irəliləyirdi və birdən onun qarşısına 40 kəniz çıxır. Onların hər biri İshaqa yaxınlaşır, üzünə baxır və qəşş eləyib gülürdü. İshaq isə yarpaq kimi əsir, dualar oxuyur və ürəyində deyirdi: «Bu nə dəhşətdir! Mən-özüm özümü bu tələyə saldım! İndi-gecənin bu vaxtı mənim dadıma kim çatacaqdır?» Bu fikirləri təkrar edə-edə İshaq acı göz yaşları tökürdü. Birdən onun gözü təzə, dama yeni qalxmış nazəninə sataşır. Ona diqqətlə baxıb başa düşür ki, bu, qalanın xanımı-sahibidir. O, ulduzlardan gözəl idi və başdan-ayağa zər-qızıla qərq olmuşdur. O, üzündə təbəssüm, şahanə yerişlə İshaqa tərəf gəlirdi. Xanımı yaxından görən İshaqın onun füsunkar gözəlliyi qarşısında əl-ayağı, dili tutulur. Qız isə şirin təbəssümü ilə onu sözə tuturdu: «Xoş gəlmisən! Xoş gəlmisən! Sən, ey öz ayağın ilə bizim tələyə düşən kəs, kimsən?»

İshaq onun gözəlliyi qarşısında təzim edib yeri öpür. Xanım damdan aşağıya düşür və kənizlərinə baxışları ilə əmr edir ki, İshaqı da gətirsinlər. İshaqı möhtəşəm bir otağa gətirirlər. Xanımın əmri ilə həmin dəqiqə bir qızıl taxt gətirib, İshaqı onun üzərində əyləşdirirlər. Xanıma üstü qiymətli daşlarla bəzədilmiş qızıl badədə sərinləşdirici içki gətirirlər. O, badənin başından bir qədər içdikdən sonra onu İshaqa ötürür, sonra möhtəşəm bir süfrə açılır. Yemək bitdikdən sonra məclisə musiqi alətləri gətirilir. Bu alətlərin nəfisliyinə İshaq heyran qalır. Xanım badədən bir qurtum da alıb, buyurur ki, bərbəti gətirsinlər. Xanım bərbəti götürüb kökləyir və çalmağa başlayır. Onun çaldığı musiqilər o qədər gözəl idi ki, göydəki zöhrə çaşqın qalmışdı. O elə oxuyurdu ki, İshaq az qala huşunu itirmişdi.

Onun qarşısında əyilib yeri öpən İshaq yalvarır: «Xanım, artıq taqətim qalmamış, gücüm, qüvvətim tükənmişdir, mən öz heyrətimi gizlətmək iqtidarında deyiləm. Səni and verirəm Allaha, izin ver ayaqlarından öpüm, başımı o mübarək ayaqlarına qoyum». Qız gülür və kənizinə işarə edir, kəniz isə bu işarədən nəticə çıxarıb İshaqın başının ardından bir şapalaq vurur. Bu, İshaqı bir qədər əsəbiləşdirir, xanım isə kənizləri ilə qəşş eləyib gülüşürlər. Sonra isə İshaqın könlünü almaq üçün xanım bir şən mahnı oxuyur.

Dostum, görünür, səhv etmişəm,
Sənə yersiz gülməkdə.
Ürəyimi verim sənə,
Əvəzində ruh rahatlığı tapım.

Səni ötkəmliyinə görə cəzalandırım,
Ağlını başından alım.
Özüm də bilmirəm
Gözlədiyim nədir?

Bərbətin həzin musiqi sədalarının altında məftunedici nəğmələr oxuyan xanım şirin-şirin gülümsəyərək çaşqın İshaqı süzürdü. Kənizlər qarşılarında kimin olduğunu bilmədən bir səslə deyirdilər: «Bu, Mosullu İshaqın bəstələdiyi mahnıdır». İshaq deyir: «Xeyr, bu, Mosullu İshaqın nəğməsi deyildir». Xanım deyir: «Doğrudur, bu, Mosullu İshaqın nəğməsi deyildir, onun nəğmələrini, bax o kəniz gözəl ifa edir». Xanım xidmətçilərindən birinə göz vurur və o, İshaqa sataşaraq dodaqaltı söz atır. Bütün kənizlər bu zarafata gülüşürlər. İshaq bu dəfə möhkəm inciyir və düşünür: «Mən artıq bu abırsız qadınların təhqirlərinə, təhdidlərinə dözə bilmirəm, buna dözməkdənsə, ölüm yaxşıdır. İndi özümü buradan aşağıya atacağam». İshaq ürəyində bunları çözdüyü arada xanım bərbəti kənara qoyub dodağında təbəssüm kənizlərinə buyurdu:

«Ay yaramazlar, bu gün bizə bir qərib təşrif buyurmuşdur, siz isə ona sataşırsınız. Qurtarın bunu». O bunu dodağında təbəssümlə deyib otaqdan çıxdı. Onun əmri ilə qonağın qarşısında yenə gözəl bir süfrə açdılar, mey gətirdilər və kənizlər oranı tərk etdilər. İshaq

baxıb gördü ki, ətrafda heç kəs yoxdur, bərbəti götürüb köklədi və çalmağa başladı. O heç kəsin bacarmadığı kimi çalırdı, onun çaldığı musiqi ovsunlayıcı idi. O çalıb qurtardı, bərbəti yerinə qoydu, həmin an içəriyə xanım daxil oldu. İshaq xanımı bu dəfə bir başqa cür gözəl gördü. Xanım gəlib qonağının qarşısında əyləşdi, bərbəti götürüb, əlini onun üstünə çəkib dedi: «Sən Mosullu İshaqsan?» «Bəli»,- deyə İshaq cavab verdi».

Xanım çox sevindi və ürəyində elədiklərinə görə xəcalət çəkdi. O ayağa qalxıb olanlara görə üzr istədi. Xanım əmr etdi ki, İshaqa ən qiymətli qiyafələr, ənamlar gətirsinlər, sonra onu öz yanında əyləşdirdi. İshaq bərbəti götürüb çox gözəl, füsunkar, məftunedici musiqilər çalıb-oxumağa başladı. İshaqın bu möhtəşəm musiqisinin, ifasının qarşısında hamı heyran qalmışdır. İshaq xanımdan getmək üçün izin istədi, amma xanım təkid etdi ki, qalıb bir qədər də onlar üçün çalıb oxusun. Səhərə yaxın isə xanımın əmri ilə İshaq üçün qızıl saplarla işlənmiş yataq hazırladılar və onu yatağa saldılar.

Səhər açılmışdır, günəş göy qübbəsində özünə yer etmişdir, Mosullu İshaq isə hələ şirin yuxuda idi. Onun oyanmasını gözləmədən xanım əlində mey badəsi otağa keçdi, İshaqı oyadıb səhər ziyafətinə dəvət etdi. İshaq gözəl nəğmələr çalıb ifa edirdi, şirin, maraqlı söhbətlər edirdi. İshaq yenə getmək izni istəyəndə xanım ondan bir qədər də qalmağı rica etdi. Bu minvalla İshaq üç gün, üç gecə orada qaldı və nəhayət, yenə də xanımın hüzuruna gəlib, yeri öpüb ondan izin istədi: «Ey aycamal, Zöhrədən parlaq gözəl, mən sənin hüzurunda yüz il də qalmağa hazıram, amma bilirəm ki, xəlifə bu saat məni hər yerdə axtarır, mənim harada olduğumu isə bir Allah bəndəsi bilmir. İzin ver, mən gedim, görüm vəziyyət necədir, xəlifəni görüm və sən istəyən kimi qayıdım gəlim».

Qız əmr edir ki, İshaqa bir böyük kisə qızıl və iyirmi dəst qızıl işləməli qiyafə gətirsinlər. Elə ki, gecə düşür, kənizlər İshaqı zənbilə otuzdururlar, xanımın ənamlarını da qoyurlar və onu aşağıya endirirlər. İshaq evinə yollanır.

O, həyətinə girəndə evindən gələn ağlaşma, ağı səslərini eşidir. Evə girəndə isə zövcəsinin, uşaqlarının, kəniz-qullarının, nökərlə-

rinin qaraya bürünüb matəmdə olduqlarını görür. İshaqı sağ-salamat görən ev əhli sevincdən başlarını itirmişdilər. İshaq onları sakitləşdirib, hər birinə qiymətli qiyafə, qızıl bağışlayır və istirahət etməyə yollanır. Səhər İshaqın qayıtdığını eşidən xəlifə onun dalınca adam yollayır. İshaq xəlifənin hüzuruna gəlib, başına gələnləri, gördüklərini bütün təfsilatı ilə danışır. O, xanımın gözqamaşdırıcı gözəlliyini elə təsvir edir ki, xəlifə onu görmədən ona aşiq olur.

Xəlifə deyir: «Gələn dəfə mən də mütləq səninlə gedəcəyəm». İshaq xəlifənin bu qərarına mat qalır: «Hökmdarım, mən səni nə adla oraya aparacağam?» Xəlifə bir qədər düşünüb deyir:

«Narahat olma, mən bir ad tapacağam». İshaq buradan çıxıb evinə yollanır, yolda ona bir qarı yaxınlaşıb balaca bir məktub ötürür və o saat gözdən itir. İshaq məktubu açır, orada yazılmışdır: «Dünənki eyş-işrət məclisindəki dostlarının salam və xoş diləklərini qəbul et. Biz ümidvarıq ki, bu gün axşam səni yenə də öz aramızda görə biləcəyik». İshaq həmin saat geri dönüb, məktubu xəlifəyə təqdim edir. Xəlifə deyir: «Mən mütləq səninlə gedəcəyəm». İshaq deyir: «Hökmdarım, mən nə adla səni oraya aparacağam?» Xəlifə deyir: «Narahat olma, mən fikirləşib maraqlı bir yol tapmışam. Mən nökər qiyafəsi geyib səninlə gedəcəyəm, sən isə deyəcəksən ki, məni özünlə ona görə gətirmisən ki, xidmətçilərin qapazlarından səni qoruyam». İshaq: «Əmrə müntəzirəm»,- deyib evə yollanır.

Xəlifə bütün işlərini bitirdikdən sonra qul qiyafəsini geyib, küçəyə çıxır. İshaq gələndə xəlifə artıq qapıda onu gözləyirdi. Onlar bir yerdə qalaya yollanırlar. Qalaya yaxınlaşanda görürlər ki, ip öz yerində sallanmışdır. İshaq ipi tərpədir, kənizlər o saat damın üstündə görünürlər. İshaq xəlifəyə deyir: «Hökmdarım, sən gözlə, mən qalxım və səni də gətirdiyimi bildirib, qalxmağına icazə alım». İshaq zənbilə oturub yuxarıya qalxır.

İshaq xanımın hüzurunda təzim edib yeri öpür və deyir: «Xanım, məni anlamağa çalış, sənin kənizlərinlə heç cür dil tapa bilmirəm, özümü qorumaq üçün nökərlərimdən birini özümlə gətirmişəm, izin versən, o da buraya qalxardı». Xanım: «Olar»,- deyə, cavab verir.

Kənizlər İshaqla bərabər nökər adı ilə gəlmiş xəlifəni yuxarıya qaldırırlar. Xəlifə Harun ər-Rəşid nökərlərin geydiyi libasdan geyib, belinə də nökər qurşağı sarımışdı. İshaq xanımın qabağında yeri öpüb, minnətdarlığını bildirir. Xanım: «Həmişə bəxtəvər ol!» – deyə cavab verərək onu yanında əyləşdirir, xəlifə isə onların arxasında dayanır. Xanımın əmri ilə həmin saat gözəl bir süfrə açılır və onlar dadlı təamlardan yeməyə başlayırlar. İshaq deyir: «Xanım, izin ver, nökərim də bu gözəl təamlardan yesin». Xanım icazə verir və İshaq xəlifəyə müraciət edərək deyir: «Ey nökər, xanım izin verir, sən də bu ləziz təamlardan yeyə bilərsən». Xəlifə onlara təzim edərək dizləri üstə oturub, ətdən tikələr kəsib, onların qarşısına qoymağa başlayır. Yemək qurtardıqdan sonra xanım buyurur ki, məclisə musiqi alətləri və şərab gətirilsin. Bir neçə badə boşaldıqdan sonra məclisin əhvalı dəyişir. Xanım «nökər»i diqqətlə süzürdü və o, İshaqa dedi: «Ey İshaq, sənin bu nökərin çox nəcib birisidir, mən onu müşahidə etdikcə görürəm ki, onun rəftarı, hərəkətləri adi nökərlərə xas olan hərəkətlər deyildir. Etiraz etməsən, o bizə saqilik edər, bununla bizə böyük hörmət etmiş olarsan, çünki o, çox ürəyimə yatır».

İshaq deyir: «Xanım, mən və nökərim sənin qulunuq. Mənim nökərimə belə bir xoşbəxtlik nəsib olmuşsa, o sizin ürəyinizə yatmışsa, mən nəkarəyəm etiraz edəm? Qurban olsun mənim nökərim sizin kənizlərinizə!» Bunu deyib, İshaq xəlifənin əlindən tutub, xanımın qarşısına gətirir və buyurur: «Mən bu nökərimi sənə bağışlayıram». Xəlifə həmin dəqiqə xanımın əlini öpür və bununla da İshaqın sözlərini təsdiqləmiş olur.

Xanım etiraz edir: «Ey İshaq, sənin üçün bu nökərsiz çətin olar. Mən sənin bu alicənablığının qarşısında acizəm və bu nökəri ancaq o şərtlə qəbul edə bilərəm ki, o sənin yanında qalacaqdır və biz hər dəfə səni dəvət edəndə sən onu da özünlə gətirəcəksən. Bir də Bağdadda hamı bilir ki, o sənin nökərindir, onu mənim yanımda görən olsa, çox söhbətə səbəb olar. Bilirsən ki, iftira yayıb, nifaq salan dillər çoxdur, mənim haqqımda lazımsız sözlər danışarlar». İshaq deyir: «İxtiyar sahibisən!»

Sonra xanım udu İshaqa uzadıb dedi: «Rica edirəm, xəlifənin ən sevdiyi musiqini çal!» İshaq dedi: «Mən bilmirəm, sən hansı musiqini deyirsən». Xanım dedi: «Həmin o gecə, həmin o xanımların olduğu məclisdə xəlifə üçün çaldığın musiqini». İshaq dedi: «Xanım, mən bilmirəm sən hansı məclisdən və hansı musiqidən danışırsan». Xəlifə narahat olmağa başladı, İshaq isə qorxdu ki, xəlifə onun satqın olduğunu düşünəcəkdir, buna görə də and-aman etməyə başladı ki, belə bir hadisə heç vaxt olmamışdır. Xanım isə dediyindən əl çəkmirdi: «Rica edirəm, bizi üzmə, xəlifənin sevimli musiqisini ifa et!» Sonra o, «nökər»ə müraciət etdi: «Ağandan xahiş et, bizi üzməsin, o musiqini ifa etsin».

Xəlifə İshaqa dedi: «Hökmdarım, bundan xəlvət, bundan gözəl məclisi harada tapacaqsan? Əgər xanım xahiş edirsə, çal o musiqini və düşünmə ki, bunu birisi xəlifəyə çatdıracaqdır». İshaq dodaqaltı deyirdi: «Ya bu xanımın o məclisdəkilərlə əlaqəsi vardır və o, kimdirsə məclis haqqında xanıma məlumat vermişdir, ya da sən indi o barədə söhbət etmisən, çünki başqa seçim yoxdur». «Nökər» dedi: «Bəsdir, boş-boş danışdın, xəlifəyə də barmaqarası baxma. Elə etmə ki, sənin fərəh dolu gecələrini qara günlər əvəz etsin».

«Nökər»in belə cəsarətli sözlərini eşidən xanım qəşş eləyib güldü və dedi: «Afərin sənə! Görünür, sən çox cəsarətli bir adamsan ki, ağana həqiqəti belə açıq deyə bilirsən». İshaq «nökər»ə müraciət edərək qəzəblə dedi: «Sən bu gün özünü həmişəkindən fərqli aparırsan». «Nökər» dedi: «Doğru deyirsən, mən bu günə kimi sənə istədiyim kimi cavab verə bilmirdim, çünki sənin nökərin idim, amma bu gündən sonra mən bu xanıma məxsusam və nə sənin saqqalın, nə də sənin xəlifən mənim üçün bir qiymət kəsb etmir, onlar mənim xanımımın heç tükünə də dəyməzlər. Buna görə də xəlifənin saqqalına gülməkdənsə, xanımın istədiyi musiqini ifa et».

Bu sözlərdən sonra xanım daha da ürəkdən güldü. İshaq udu götürüb xəlifənin sevimli musiqisini ifa etdi. Bu məftunedici musiqinin sədaları altında xanım işarə ilə ona şərab süzməyi buyurdu. «Nökər» ona şərab gətirdi, badənin başından bir qurtum aldıqdan sonra xanım onu «nökər»ə uzatdı və dedi: «Bu badəni mə-

nim əlimdən al və başına çək». Xəlifə onun əlindən badəni götürüb, əlini öpdü və şərabı dibinə kimi içdi. Bundan sonra onlar çox şərab içdilər və xəlifə yavaş-yavaş sərxoş oldu. Xanımın gözəlliyi, ədası, nazı onu haldan-hala salırdı, ona görə qaldırdığı badələrin hamısı xanımın şərəfinə idi. Nəhayət, sonda xəlifə tam sərxoş olub harada olduğunu unutmuşdur.

Həmişə etdiyi kimi, o, İshaqı çağırıb qarşısında əyləşdirir və buyurur ki, çalıb - oxusun.

İshaq xəlifənin bütün əmrlərini tərəddüdsüz yerinə yetirirdi. Bütün bunları müşahidə edən xanım qəti fikrə gəlir ki, bu, «nökər» qiyafəsindəki xəlifənin özüdür. O, həmin dəqiqə ayağa qalxıb örtüyünü başına salıb, xəlifənin qarşısında əyləşdi. Xanım ürəyində düşünürdü: «Mən öz əllərimlə özümü məhv etdim, mənim «nökər» bildiyim bu adam bütün möminlərin əmiri - xəlifənin özü imiş». O bunları fikirləşib tez ayağa qalxıb, xəlifənin arxasında xidmətçi kimi durub, ondan əmrlər gözləməyə başlayır. Bunu görən xəlifə dedi: «Xanım, mənim əvvəlki ağam məni sənə bağışladı və sən mənə hüzurunda oturmağa izin verdin, indi sənin mənim qarşımda xidmətçi kimi ayaq üstə durmağın nə dərəcədə düzgündür?!» Xəlifənin bu sözlərini eşidən kimi xanım onun qarşısında payəndaz olub yalvarmağa başladı: «Ya xəlifə, səni and verirəm o uca Allaha, mən biçarəni əfv et, mənim sənə qarşı etdiyim yüngül, ərkli rəftarımı mənə bağışla. Sən böyüklük edib, mənim günahlarımdan keç».

Xəlifə xanımın onu tanıdığına əmin olduqdan sonra başa düşür ki, artıq bunu gizlətməyin bir mənası qalmamışdır. O, xanıma nəvaziş göstərib, onu sakitləşdirir. Daha sonra xəlifə keçib yuxarı başda əyləşir. İshaq onun bir tərəfində əyləşir, xanım isə onun qulluğunda durur. İshaq çalıb-oxuyurdu, xəlifə şərabdan içib, İshaqı dinləyib, maraqlı söhbətlər edirdi. Xanım xəlifəyə dualar edir, onun ən kiçik istəyini belə diqqətdən kənarda qoymurdu. Məclis elə şirin keçirdi ki, onlar səhərin necə açıldığını heç bilmədilər. Məclis o qədər gözəl, şən, maraqlı keçmişdir ki, xəlifə sonralar ömrünün axırına kimi ondan danışırdı. Səhər açılanda xanım ən gözəl kənizlərindən birinin boynuna üstündə on möhtəşəm Yəmən incisi olan boyunba-

ğı bağlayaraq xəlifəyə bağışlayır və deyir: «Hökmdarım, artıq getmək vaxtıdır, məni pəjmürdə edən odur ki, sən yenə də zənbillə düşməli olacaqsan, çünki yüz pilləkəni piyada düşmək sənin üçün çətin olar».

Xəlifə dedi: «Narahat olma, mən gəldiyim yolla geri qayıdaram». Xanım kənizləri ilə damın üstünə çıxır. Harun ər-Rəşid zənbilə oturub aşağıya düşür, İshaq isə xanımla, kənizlərlə orada qalır. Xəlifə səhər yuxudan ayılan kimi İshaqın dalınca adam göndərir və ona hədiyyə edilmiş kənizdən dünən qonağı olduğu xanım haqqında, onun atası, nəsil-nəcabəti haqqında məlumat istəyir. Kəniz xanımın Bərməkilər nəslindən olduğunu bildirir. Xəlifə ilk baxışdan o pəriyə bir könüldən min könülə aşiq olmuşdur, ona görə buyurur ki, onların kəbinini kəssinlər. Xəlifə bu dəfə də xanımı görəndə onun gözəlliyinin misli-bərabəri olmadığına əmin olur, o, füsunkar gözəlliyə daha çox valeh olur. Məlum olur ki, xanımın çox zəngin var-varidatı vardır və o bütün əmlakını xəlifənin ixtiyarına verir. Sonra xanım buyurur ki, İshaqı hüzuruna gətirsinlər, ona deyir: «Mən çox şeyə görə sənə borcluyam və ömrümün sonuna kimi bu borcdan çıxa bilmərəm, çünki mənim bu gün bu məqama çatmağımda, xəlifə ilə kəbinimin kəsilməyində sənin müstəsna xidmətin olmuşdur».

Sonra o, İshaqa on kisə sarı qızıl, on dəvə, on yəhərli-yüyənli at, on aycamal gözəl bağışlayır. Harun ər-Rəşid isə ona bağışlanmış kənizi İshaqa hədiyyə edir.

Onların hamısı uzun, firavan ömür sürürlər, sonda isə dünyada təmiz ad qoyub hamı kimi bu fani dünyanı tərk edirlər.

## ON ÜÇÜNCÜ HEKAYƏT

# Bilqeyisin atasının pəri qadınla sərgüzəşti haqqında hekayət

Belə danışırlar ki, keçmiş zamanlarda Sərib adında bir kişi yaşayırmış və peyğəmbərin-Allahın salamları olsun ona! - moizələr oxuduğu vaxtlar onun üç yüz əlli yaşı var imiş. O, Əməvilərin hakimiyyətə gəldikləri dövrə qədər yaşamışdır. Bir dəfə Ömər ibn Əbdüləziz soruşur: «Ey Sərib, sən bu dünyada üç yüz əlli il yaşamısan, de görüm, bu yaşadığın müddətdə maraqlı, cəlbedici nə görmüsən, yaşadığın bu uzun müddətdə dünya səndə nə təəssürat yaratmışdır?»

Sərib cavab verir: «Yaşadığım həyatım boyu onu anladım ki, bu dünya karvansaraya bənzəyir. İnsanlar bir qapıdan girib, o biri qapıdan çıxırlar. O ki qaldı qəribə, maraqlı əhvalatlara, onlardan biri haqqında danışa bilərəm. Qədim zamanlarda çox güclü-qüdrətli, comərd, bəxtəvər hökmdar yaşayırdı. O, ov etməyi çox sevirdi. Bir dəfə ovda gedib bir xarabalığa çıxır, görür ki, iki ilan-biri ağ, biri qara qarşı-qarşıya durub vuruşurlar. Qara ilan qalib gəlmək üzrə idi ki, şahın ağ ilana rəhmi gəlir və o, qara ilanı öldürür. Ağ ilan süst halda yerə sərilir, hamı onun öldüyünü fikirləşir. Şah nökərlərindən birinə əmr edir ki, onu götürüb atın belinə qoysunlar və yəhərə bərkitsinlər. Şah öz yolunu davam edir. Onlar, nəhayət, bir qollu-budaqlı ağacın dibində axan bulağa çatırlar, hamı atlardan düşüb, atların yüklərini boşaldır və istirahət etmək üçün ağac kölgəsinə çəkilir. Onlar burada istirahət etdikləri müddətdə ilan özünə gəlib səhraya gedir.

Şah ətrafı ilə istirahət edib yoluna davam edir və sarayına çatıb yataq otağına keçib yatır. Bir qədər keçdikdən sonra şah oyanıb qarşısında gözəl bir yeniyetmə gənc görür. Yeniyetmənin əynində kübar qiyafə, üzündə nur var idi, saçları isə qara ipək kimi parıldayırdı. Onun boyu, qaməti, nəcibliyi göz qamaşdırırdı.

Şah soruşur: «Sən kimsən? Buraya nəyə görə gəlmisən? Quş quşluğu ilə bura keçə bilmədiyi halda sən necə keçmisən?» Yeniyetmə cavab verir: «Hökmdarım, sən heç narahat olma, mən insan deyiləm, mən pəriyəm, öz də müsəlmanam, mən bütün pərilərin hökmdarıyam. Sən məni tanımadın? Mən sənin xilas etdiyin o ağ ilanam və mən həyatıma görə sənə borcluyam. Öldürdüyün o qara ilan atamın qullarlından biri idi. Onun mənimlə çoxdan düşmənçiliyi var idi, həmin gün onun əlinə fürsət düşmüşdür və əgər sən onu öldürməsə idin, mənim axırıma çıxacaq idi. Sən mənim həyatımı xilas etdin, indi mən sənin yanına gəlmişəm ki, minnətdarlığımı bildirib mükafatlandırım. Sən istəyini bildir, mən həmin an onu həyata keçirim. İstəyirsən, mən sənə dünyanın bütün xəzinələrinə aparan yolu göstərim». Şah deyir: «Yox - xəzinəyə aparan yollar nəyimə gərəkdir, bir haldakı bütün dünya xəzinələri mənə məxsusdur». Yeniyetmə deyir: «Mənim sənə verəcəyim başqa bir şeyim yoxdur, yeganə təklif edə biləcəyim o ola bilər ki, yer üzündə gözəllikdə tayı-bərabəri olmayan bacımı sənə ərə verim».

Şah ürəyində fikirləşir: «Əgər bu yeniyetmə belə gözəldirsə, gör bacısı nə gözəllikdədir». Belə düşünüb razılıq verir.

Yeniyetmə pəri deyir: «Minnətdaram, mən bacımı sənə ərə verəcəyəm və bunu özümə şərəf biləcəyəm, amma bu məsələnin bir çətin tərəfi vardır. Sən insansan, o isə pəri. Qorxuram ki, sən onun həyat tərzinə uyğunlaşa bilməyəsən. Sən təsadüfən onun xətrinə dəysən, sonra onu həmişəlik itirə bilərsən».

Şah deyir: «Sən mənə onun həyat tərzini təsvir et. Onun hansı xüsusiyyətləri vardır?»

Yeniyetmə pəri deyir: «Onun belə bir xasiyyəti vardır ki, sən heç bir vəchlə onun işlərinə qarışmamalı, heç bir halda ona irad tutmamalı və nə elədiyindən asılı olmayaraq, onun səbəbini soruşmamalısan, çünki onun etdiyi hər bir işin dərin mənası vardır».

Şah deyir: «Mən hər şeyi sənin dediyin kimi edəcəyəm və söz verirəm ki, onun heç bir işinə qarışmayacağam».

Gənc deyir: «Əgər sən, həqiqətən, bu şərtlərə razısansa, dur gedək bizə».

Şah qalxıb pəri ilə bir yerdə sarayı elə tərk edir ki, heç kəsin bundan xəbəri olmur. Onlar atları minirlər və səhraya tərəf gedirlər. Səhradan keçəndən sonra onlar, çox gözəl, çox səfalı bir yerə çatırlar. Şah ömrü boyu belə gözəl yerlərdə olmamışdır. Bura cənnətə bənzəyən bağ-bağat idi və burada möhtəşəm saraylar ucalırdı. Yaxın gəldikdə şah gördü ki, bu saraylar qızıl kərpiclərlə tikilmiş və yaqutlarla, firuzələrlə bəzədilmişdir. Şah bu gördüklərinə heyran qalmışdır.

Pəri şaha deyir: «Gedək». O, şahı bir möhtəşəm saraya gətirir. Şah ömründə bu gözəllikdə, bu əzəmətdə saray görməmişdir. Pəri şahı nəfis bəzədilmiş, divarlar boyu qızıl saplarla işlənmiş divanlar düzülmüş, pəncərələrindən əl işi rum pərdələri asılmış, zərgər əlindən çıxmış şamdanlarla bəzədilmiş zala aparır. Pəri şahı gətirib taxta əyləşdirir. Nökərlər və kənizlər sıra ilə durub şahın əmrlərini gözləyirdilər. Gənc pəri bacısının əlindən tutub şahın hüzuruna gətirir və onun yanında əyləşdirir. Bu o demək idi ki, onların artıq nikahı kəsilmişdir. Sonra pəri onlara bir izdihamlı toy edir. Şah üç gün, üç gecə burada qalır, sonra qayıtmaq qərarına gəlir, çünki onu dövlət, əyanlar, işlər gözləyirdi. O, xanımını, ona hədiyyə verilmiş bir xeyli qızılı, ləl-cavahiratı, nökərləri, kənizləri götürüb yurduna yollanır. Yeniyetmə pəri bacısıgili saraya qədər yola salıb geri dönür.

Şah toydan sonra özünü o qədər xoşbəxt hiss edirdi ki, bütün başqa şeyləri unutmuşdur. Bir ilin tamamında Pəri xanım şah üçün bir oğlan uşağı dünyaya gətirir. Bu uşaq göydəki aydan gözəl idi. Şaha bu şad xəbəri verdikdə o özünü çox xoşbəxt hiss edir və əyan, əshabələri ilə uşağı görmək üçün qadınlar olan tərəfə keçir. Uşağı görüb sevinən şah buyurur ki, otaqda soba qursunlar ki, isti olsun. Odunlar alışıb - yanmağa başlayır, otaq isinir, birdən şahın pəri zövcəsi qucağında mışıl-mışıl yatan uşağı ocağa atır. Uşaq həmin dəqiqə buxarlanıb yoxa çıxır. Şah yerindəcə donub qalır, amma nə bir söz deyə bilir, nə də bir sual verə bilir, çünki verdiyi sözdən çıxa bilməzdi. O, çox fikir edib, çox dərd çəkir və öz-özünə deyirdi:

Başına bəlalar gəlirsə, deməli, bəxtin belə gətirib,
Ağlayıb özünü üzmə, nə ah-nalə, nə göz yaşları sənə kömək olmaz.

O özünə belə təsəlli verirdi: «Mən oğlumu itirdim, amma Allah eləməsin xanımı itirəm». O, pərini dəlicəsinə sevirdi və çalışırdı özünü ələ alsın, sakitləşsin. Ona görə də deyirdi: «Doğrudur, mən bu oğlumu itirdim, amma əminəm ki, xanım mənim üçün yenə oğul da, qız da bəxş edəcəkdir». Şah yenə də xanımın başına dolanır, onun hər cür nazını çəkir, ona nəvazişlər göstərirdi və bir dəfə olsun belə baş vermiş hadisəni ona xatırlatmırdı. Bu minvalla daha doqquz ay keçir, pərinin bir ay parçası kimi qızı olur. Bu uşaq əvvəlki uşaqdan da gözəl, əvvəlkindən də nurlu idi. Qızın adını Bilqeyis qoyurlar. Qızını görən şah onun gözəlliyinə heyran olur. Bu uşaq şaha oğlunun dərdini unutdurur, amma bu bəxtəvər günlər də uzun çəkmir. Uşağın doğulmasından iki-üç gün keçmişdir. Bir gün şah qızını heyranlıqla oxşayır, oynadırdı. Birdən otağa haradan isə bir it girir. Pəri xanım şahın gözləri qarşısında uşağı qundaq qarışıq itin ağzına verir, it də uşağı götürüb qaçır.

Şah bunu görəndə az qalmışdır zövcəsini öldürsün, amma yadına bir ərəb atalar sözü düşür: «Səbir edən qələbə çalar». Şah bu dəfə də Allaha sığınıb səbir edir və zövcəsinə bir söz demir. Şah yeniyetmə pəri ilə kəsdiyi şərti, verdiyi sözü yadına salıb xanıma bir kəlmə belə demir və zövcəsi ilə həmişəkindən də gözəl rəftar edir. Şah bir dəfə belə zövcəsini tənə edib qınamır, bir dəfə də olsun ürəyinin sızıltısını bildirmir.

Bir müddət keçir, iş belə gətirir ki, şahın ən güclü düşmənlərindən biri ona qarşı qalxır. Şah ordusunu götürüb döyüş meydanına çıxır və düşmən tərəfə irəliləyir. Ordular düşərgələrini salıb gözləməyə başlayırlar. Vaxt keçdikcə yemək ehtiyatı, heyvanların yem ehtiyatı azalmağa başlayır və bir azdan tamamilə tükənir. Şahın çox ağıllı, hiyləgər, bacarıqlı və eyni zamanda bədxislət, bədniyyət bir vəziri var idi. Bu xəbəri eşidən kimi o, evinə gedib tədarük görməyə başlayır. O, on xarvar içki-şərab, iyirmi xarvar un, on xarvar kök tədarükü görüb onların hamısının üzərinə zəhər səpir. İş ondadır ki, o, düşmən şahla əlaqəyə girib beş-on min qızıl dinar qazanmaq niyyəti ilə öz şahına xəyanət edib, onu zəhərləyəcəyinə

söz vermişdir, amma pəri bunu o saat anlamışdır, çünki onun gözündən heç bir şey qaça bilməzdi.

Elə ki vəzir bunları düşərgəyə gətirir, pəri bıçaq götürüb bütün şərab tuluqlarını, un, kök kisələrini deşib içindəkiləri töküb torpağa qarışdırır, bütün yemək ehtiyatını məhv edir. Vəzir bunu eşidən kimi şaha xəbər verir. Şah çox pəjmürdə olur. O artıq dözə bilmirdi və qışqırdı: «Yox! Buna bir son qoymaq lazımdır! Bu vaxta qədər o mənim, mənim uşaqlarımın qəsdinə durdu, indi isə mənim ordumun qəsdinə, mənim dövlətimin qəsdinə durur. Mən artıq dözmək fikrində deyiləm!» Şah əmr edir ki, xanımını onun hüzuruna gətirsinlər.

Şah pəriyə müraciət edir: «Ay xanım, sən mənim üçün gözəllikdə tayı-bərabəri olmayan bir oğul dünyaya gətirdin, amma bu xoşbəxtliyin dadını çıxarmağa aman vermədən mənim gözlərimin önündə onu oda atdın, sonra sən mənim üçün aydan gözəl, günəşdən parlaq, nur parçası kimi bir qız uşağı dünyaya gətirdin, amma onu da əlimdən alıb bir itin ağzına atdın, indi isə ordumun yemək ehtiyatlarını məhv edib, əsgərlərimi acından qırmaq istəyirsən. İndi mənə izah et görüm, bunlara səbəb nədir, hərçənd özüm də bilirəm ki, bu sərsəm işlərin bir izahı yoxdur».

Xanım təmkinlə cavab verir: «İndiki sən bunların səbəbini məndən soruşursan, mən sənə cavab verəcəyəm. Bil, bu yemək ehtiyatlarını ona görə məhv etdim ki, sənin vəzirin düşmən tərəfdən əlli min qızıl dinar alaraq ordunu məhv etmək məqsədi ilə bunların hamısına zəhər qatmışdır, sən və sənin ordundan hər kəs bunlardan birinin dadına baxsa idi, ölümə məhkum idi. Əgər inanmırsan, qalıqlardan nə varsa, məcbur et vəzirin yesin, o həmin dəqiqə canını tapşırmasa, bil ki, mən səni aldatmışam».

Şah bu sözlərdən daha da qəzəblənir və əmr edir ki, vəziri onun hüzuruna gətirsinlər. Vəzir gələn kimi şah ona bir badə zəhərli şərabdan uzadıb əmr edir ki, içsin. Vəzir işin nə yerdə olduğunu başa düşüb etiraz edir, onda şah anlayır ki, zövcəsi düz düyirmiş. Sonra şahın qəzəbini hiss edən vəzir qorxusundan şərabdan içib o saat canını tapşırır.

Pəri şaha müraciət edir: «İndi gördün ki, mən haqlı idim? İndi isə sənə övladlarımızdan deyim, bil, qızımızı verdiyim it mənim ən etibar etdiyim dayəmdir, mən qızımızı ona verdim ki, onun qeydinə qalıb, tərbiyəsi ilə məşğul olsun və bizi bu işlərdən azad etsin. Oğlumuz isə ölməli idi - uca Allah onu əlimizdən aldı, könlümüzdən də alsın! – mən bilirdim ki, sən onun ölümünə dözə bilməyəcəksən, ona görə elə etdim ki, o yoxa çıxsın. İt qiyafəsindəki dayəmin yanında böyüyüb tərbiyə alan qızımızı isə görə bilərsən».

Bunu deyib, pəri işarə etdi, həmin dəqiqə it, ardınca isə şahın yaddaşına həkk olmuş o aycamal körpədən min dəfə gözəl, yaraşıqlı bir gənc qız göründü. Pəri dedi: «Buyur, bu sənin qızındır, o, sağ-salamat və xoşbəxtdir. Mən onu sənin himayənə verirəm».

Sonra pəri orduya əmr etdi ki, düşərgəni tərk edib başqa yerdə - su çox olan yerdə yerləşsinlər. Daha sonra o, orduya hücuma keçmək əmrini verdi. Bu hücumla şahın ordusu düşmənə qalib gəldi. Şah çox sevinirdi. Pəri isə şaha dönüb dedi: «Mən artıq gedirəm, mən burada qala bilmərəm. İndi sən inandınmı ki, mənim dediklərimin, etdiklərimin hamısı ancaq səni qorumaq, sənə xidmət etmək üçün idi? Mən həmişə səni mühafizə edib qorumuşam. Mən heç vaxt sənə xətər gətirəcək bir iş görməmişəm. Sən isə qardaşımla kəsdiyin şərti pozdun, onun qarşısında verdiyin sözə əməl etmədin, məni şübhənlə, tənənlə incitdin. İndi isə məni qəlbindən sil, sən artıq heç vaxt məni görməyəcəksən». Şah fəryad etdi: «Ey Allah! Mənə rəhm et! Mən peşmanam, mən etdiyim bütün səhvləri başa düşürəm, amma mən Adəm övladıyam, səhvsiz ola bilmərəm, axı deyirlər:

İnsan Adəm övladıdır, səhvsiz yaşaya bilməz,
Səhvsiz yaşayan insanı təbiət qəbul etməz».

Şah nə qədər ağlayıb, yalvardısa, pəri fikrindən dönmədi. «Biz səninlə əbədi olaraq ayrılırıq», - deyib pəri o saat qeyb oldu. Xanımın qeybə çəkildiyini görən şah ağlayıb, fəryad etdi. Xanımın xiffətini çəkən şah gündən-günə şam kimi əriyirdi, onun yeganə təsəllisi qızı Bilqeyis idi. O böyüdükcə daha da gözəlləşirdi. Ölüm yatağına düşmüş şah onu çağırıb yanında oturmağını xahiş edir.

Şah bütün idarəçiliyi qızına vəsiyyət edir, xəzinənin açarlarını, dövlətin möhürünü ona təhvil verir. Şah zövcəsinin intizarını çəkib aramsız, hönkür-hönkür ağlayırdı. Xanımın pəri qardaşı mütəmadi şahın yanında olurdu. O, şahın bu halına acıyıb bacısından xahiş edir ki, bir azca rəhmli olsun. Pəri ölüm yatağında olan ərinin yanına gəlir. Şah çox sevinir. O, zövcəsinə Yusifi çox uzun müddət görməyən Yaqub kimi ac gözlərlə baxırdı. Pəri dedi: «Mənə xoşdur ki, sən məni unutmamısan, hələ də məni xatırlayırsan, amma sən qardaşımla kəsdiyin şərti, ona verdiyin sözü də xatırlamalısan. Bizim adətimiz belədir. Əgər biz Allah qarşısında şərt kəsib, söz veriksə və sonra onu pozuruqsa, günah işlətmiş oluruq. İndi isə əlvida, biz bir də o dünyada görüşərik». Bunları deyib Pəri yenə qeyb olur. Bir neçə gün keçir, şah canını tapşırır, qız atasının taxtına əyləşib hakimiyyəti əlinə alır və sonra Süleyman peyğəmbərə ərə gedir – Allah onun adını həmişə uca tutsun! Bu hekayəti isə hamı - bütün xalqlar bilir.

*Bu hekayətdən üç müdrik nəticə çıxır:*

*Birincisi, hər kəs kəsdiyi şərtə, verdiyi sözə əməl etməlidir.*

*İkincisi, hər bir şeyi təfsilatı ilə araşdırmadan heç kəsi günahlandırmaq olmaz.*

*Üçüncüsü, hökmdarlar heç vaxt, xüsusilə müharibələr dövründə boyunlarına düşən məsuliyyəti başqalarına etibar etməməlidirlər.*

## ON DÖRDÜNCÜ HEKAYƏT

# Zərgər Əbdüləzizin oğlu Mənsurun hekayəti

Belə danışırlar ki, Mötəsim xəlifə olanda, ilk növbədə çox sevdiyi bir qadını hərəmxanasına gətizdirir və bütün günlərini eyş-işrətdə keçirir. Bir müddətdən sonra onda qızıl hərisliyi baş qaldırır və bacardıqca var-varidat, qızıl, zər-zinət yığmağa başlayır.

Günlərin bir günü Əli ibn Heysəm Mötəsimə deyir: «Ya möminlərin əmiri, mən Mənsur ibn Əbdüləziz haqqında çox maraqlı bir hekayət eşitmişəm. Mənə elə gəlir ki, sən onu dinləsən yaxşı olar». Mötəsim deyir: «Nə olar, bir halda ki ondan xeyir əxz etmək olar, danış, dinləyim».

Əli ibn Heysəm sözə başlayır: «Allah hökmdarı pənahında saxlasın, ömrünü uzun, hökmdarlığını əbədi eləsin! Eşitdiyimə görə, Bağdadda Mənsur ibn Əbdüləziz adlı bir zərgər yaşayırmış. O çox varlı, zəngin adam imiş, böyük var-dövlət sahibi imiş, amma xoşbəxt deyilmiş, çünki onun övladı yox idi. O, Allah yolunda nəzir-niyaz paylayır, ehsanlar verirdi, kimsəsizləri, yetimləri yedirdir, xeyirxahlıq edir, mədrəsələr, məscidlər, karvansaralar açır, möminlər üçün ibadətgahlar tikdirir, amma yenə də Allah ona övlad vermirdi. Beləcə illər gedirdi, övlad sahibi ola bilməyən Mənsur bir gün təktənha oturub fikrə gedir, birdən ona bir nəfər qərib yaxınlaşıb deyir: «Vaxt var idi mənim varımın, pulumun sayı-hesabı yox idi, mən çox varlı adam idim, amma indi hər şeyimdən olmuşam. Rəhmdil ol, mənə yardım et, inan ki, heç bir şeyim qalmamışdır».

Mənsur ibn Əbdüləzizin ona ürəyi yanır, yazığı gəlir, nökərinə buyurur ki, onu ən əziz qonaq kimi yedizdirib-içizdirsin və sonra ondan soruşur: «Haradansan və buralara necə gəlmisən?» O cavab verir: «Mən hindliyəm, adım da Hindu-Baridir. Mən buraya ticarət məqsədi ilə gəlmişdim, özümlə ağla sığmayan var-dövlət gətirmişdim, amma onların hamısını itirdim, əlimdən isə tacirlikdən başqa

bir iş gəlmir ki, əməyimlə özümü dolandırım. Mənə kömək etmək istəyirsənsə, mənə sarayından bir münasib otaq ver, mən oranı dükana çevirib alverimi edim, bununla da öz həyatımı özüm təmin edim». Mənsur ibn Əbdüləziz fikirləşib deyir: «Nə olar, qoy sənin könlün xoş olsun! Mən günü sabah sənin üçün bir dükan hazırlatdırıb, içini malla, ərzaqla doldurtduraram, sənə nökərlər, qullar verərəm, sən də alver edib ömrünü sürərsən». Hindu-Bari ona dərin minnətdarlığını bildirib deyir: «Nə qədər ki sağam, sənin kölənəm».

Mənsur ibn Əbdüləziz buyurur ki, qonaq üçün xüsusi bir ev ayırsınlar, lazım olanların hamısını gətirib oraya yığsınlar, onun üçün nökər, qulluqçu ayırsınlar və hazır şəkildə təhvil versinlər. Bu bir neçə günü onunla ünsiyyətdə olan Mənsur ibn Əbdüləziz anlayır ki, Hindu-Bari təbabət elmini çox gözəl bilir. Ona görə öz dərdini ona danışır, bildirir ki, ən böyük istəyi övlad sahibi olmaqdır, amma Allah bu xoşbəxtliyi ona nəsib etmir». Hindu-Bari deyir: «Bu, Allahın əlində olan işdir, amma mən də çalışacağam əlimdən gələni edim ki, sənin bir oğlun olsun». Mənsur soruşur: «Mən bunun üçün nə etməliyəm?» Hindu-Bari deyir: «Sən ancaq sevdiyin bir qızla evlənməlisən, zina etməməlisən, ancaq sağlam yemək yeyib, sağlam şərbətlər içməlisən, bunları etsən, bəlkə, sənin övladın olar». Mənsur deyir: «Mən sənin dediklərinin hamısına əməl edəcəyəm». O gündən etibarən Mənsur hər gün kənizlər, qullar bazarına gedir və ürəyinə yatan, gözünə xoş gələn qız axtarır. Nəhayət, kənizlərin arasında onun gözünə bir qız dəyir, o qız ilk baxışdan onu ovsunlayır. Mənsur o qızı evinə gətirir, onu özünə zövcə eləyir və doqquz ayın tamamında o qız ona Yusif gözəlliyində bir oğlan uşağı bəxş edir.

Mənsur uşağı görüb sevindiyindən bilmirdi nə etsin, sağa-sola nəzir-niyaz paylayır, xeyirxah işlər görür, kasıbları, yetimləri doyuzdurur, hamıya yalvarırdı ki, onun oğluna dua etsinlər. O, uşağa dayə tutur, altı yaşına çatanda onun üçün hər cür müəllimlər dəvət edir. O müəllimlər ona «Quran»ı, İlahiyyatı, ərəblərin tarixini, əcəmlərin kökünü, ərəb, fars yazısını, yunanların müdrik kəlamlarını, ulduzları, münəccimliyi, ulduzlara baxıb səmtləri müəyyənləşdirməyi, bürclərə baxıb taleləri oxumağı, üstürlabı öyrədirlər. Bütün bu biliklərə yiyə-

ləndikdən sonra o, yaşıdlarının arasında seçilməyə başlayır. Bunları bitirdikdən sonra o, at çapmağı, qılınc oynatmağı, yay çəkib ox atmağı, nizə ilə vuruşub, kəmənd atmağı, güləşməyi, vuruşmağı öyrənməyə başlayır.

Artıq on yeddi yaşına çatanda o bunların hamısına mükəmməl dərəcədə yiyələnmişdir. Bir müddət sonra o gənc yaşlarında dövrünün ən möhtəşəm şairi, ilahiyyatçısı, hakimi, münəccimi, filosofu və döyüşçüsü kimi tanınır. Atası onu o qədər sevir, onunla o qədər qürur duyurdu ki, onu özündən bir addım belə kənara qoymurdu, çünki oğlu yanında olmayanda sanki nəfəsi çatmırdı. Bu o vaxta qədər belə davam edir ki, bir gün Mənsur yatağa düşür. Onda o, oğlunu yanına çağırır. O, oğlu doğulanda o qədər sevinmişdir ki, ona öz adını vermişdi. O deyir: «Oğlum, Mənsur, mənim vaxtım yetişmişdir. Mənim hər cür günüm olmuşdur; ağrılı-acılı, sevincli-nəşəli, mənim qələbələrim də olub, məğlubiyyətlərim də, qarşıma qoyduğum məqsədlərimdən çatdıqlarım da olub, çatmadıqlarım da, arzularımın həyata keçəni də olub, keçməyəni də. İndi artıq sizinlə vidalaşmaq vaxtıdır. Əbədiyyətə yola düşürəm və bu dünyaya səni əmanət qoyuram. Atanın nəsihətlərini dinlə və yadda saxla, onda istədiklərinə çata bilərsən. Çətinliyə düşəndə ilk növbədə Allaha sığın, ancaq o halda başını bəladan qurtara bilərsən. Mən sənə böyük var-varidat qoyuram, məndən sonra onu qoru, artır ki, səfalətə düşməyəsən. Bizim dinin qadağan etdiyi hər bir şeydən uzaq dur. Eyş-işrətdən, avara həyatdan uzaq dur, çünki bunlar insanı rəzil edir və bununla da düşməni sevindirir. İnsan üçün isə ən ağır zərbə düşməninin sevinməsidir. Bir dəfə Əyyub peyğəmbərdən soruşurlar: «Sən yeddi il Kirmanda olmazın əzablar yaşamısan. Bu əzab, işgəncələrin içində sənin üçün ən acısı hansı olmuşdur?» O cavab vermişdir: «Düşmənlərimin mənim düşdüyüm günə sevinmələri».

Atasının bu sözlərini dinləyən oğul - Mənsur hönkürüb deyir: «Ata, mən sənin bütün nəsihətlərinə əməl edəcəyəm». Elə həmin gün axşam ata-Mənsur bu dünyanı tərk edir. Mənsur atasını hər cür ədəb-ərkanla dəfn edib, matəm tutur. Dörd gündən sonra isə xəzinəyə gedir və orada olmazın sərvət tapır və deyir: «Hə, indi mən başa

düşürəm ki, atam çox cılız, çox abdal və çox bədbəxt adam olubmuş. Bu qədər var-dövlətin sahibi bunların birindən də bəhrələnməmişdir. Mən onun kimi yaşamayacağam». Bunları deyib, Mənsur əyanlarına, əshabələrinə tapşırır ki, ətrafdakı bütün evləri alıb uçursunlar və yerində günbəzi göy qübbəsinə ucalan möhtəşəm, əzəmətli bir saray tiksinlər. Mahir ustalar onun üçün elə bir saray ucaldırlar ki, yer üzündə heç bir kəs ömründə belə bir saray görməmişdir. Bu saray cənnət bağçasına bənzəyən bir bağın içində idi. Bu bağda insanı məst edən hər cür meyvə ağacları, hər cür güllər, çiçəklər - bənövşələr, nərgizlər, yasəmənlər, inciçiçəkləri, yarpız-reyhanlar var idi. Bağçanın ortasında içində qızıl balıqlar üzən ağ mərmərdən hovuz tikilmişdir. Bu hovuzun üstündə dörd sütunun üzərində gözəl bir eyvan tikilmişdir, hər sütunun üzərində qızıldan tökülmüş bir şir otururdu, eyvanın damı səndəl ağaclarından hörülmüşdür. Eyvanın ortasında başında içi müşklə doldurulmuş qızıl qartal oturmuş qızıl ağac qoyulmuşdur. Bu ağacın yanında içərisində gülabla doldurulmuş qızıl bülbüllər olan qızıl qəfəslər asılmışdır. Ağacın altında ətirli xurma ağacından düzəldilmiş taxt, ətrafında üzərində Bağdad, Dəməşq şüşəsindən, büllurundan hazırlanmış qədəhlər, qızıl, gümüş, bürünc qablar düzülmüş sabur ağacından hazırlanmış masalar düzülmüşdür. Taxta əyləşən olanda qartalın, bülbüllərin dimdiklərindən hovuza müşklə gülab süzülürdü.

Özü üçün belə bir möhtəşəm şərait yaratmış Mənsurun günləri eyş-işrətdə keçirdi. O hər gün kef məclisləri qurur, dostlarını başına yığırdı. Onlara bir-birindən gözəl saqilər xidmət edirdi. Süfrəni hər cür təamlar: narınclar, portağallar, İsfahan almaları, ancaq qışda yetişən Nəhrəvan narları, ətirli kiçik-böyük qovunlar bəzəyirdi. Bir tərəfdən ud, bərbət, o biri tərəfdən tambur, çəng, tütək, ney, dəf, qaval səsləri gəlir, gözəl səsli xanəndələrin nəğmələri ucalırdı. O, dostları ilə bu həzin musiqilərin müşayiəti ilə avazla oxuyan xanəndələri dinləyir, ləziz təamlardan yeyib, nəfis içkilərdən içib istirahət edirdi.

Bağdadda kəniz qalmamışdır ki, onun məclisinə gəlməsin. O heç ağlına gətirmirdi ki, atasında qalmış varidat tükənə bilər. Beləliklə, on il keçdi. Günlərin bir günü o, yuxudan duranda dəhşətə gəlir. O

başa düşür ki, atasından qalan bütün var-varidatın axırına çıxmışdır. Bu haldan çaşqın qalmış Mənsur deyir: «Bu nə bəladır mən düşdüm?! İndi düşmənlərim şadyanalıq edəcəklər!» Mənsur yeganə çıxış yolunu qalmış vəsaitləri toplayıb səfərə çıxmaqda görür. Fikirləşir ki, bir şəhərə gedib, orada təzə bir iş qurar. Öz-özünə deyir: «Son qəpiyəcən xərcləyəsi olsam da, dərd etməyəcəyəm. Mənə həyat verən ruzimi də verər».

Bu qərarı verib Mənsur səhəri gün evini, bağçasını satıb əldə etdiyi vəsaiti götürür və bir karvan ilə Mosula tərəf üz tutur. Mosula çatdıqda görür ki, bura İrəmdən də gözəldir, dörd bir yanı bağ-bağat, hər tərəfi palma ağacları, gül-çiçəkdir. O, bir ay orada qalır və əlində olanı da xərcləyib qurtarır. Görəndə ki, artıq əlində heç bir şey qalmamışdır, karvanı ilə bərabər yoluna davam edir. Karvan hər düşərgə salanda Mənsur çör-çöp yığıb ocaq qalayırdı, camaat da bunun müqabilində onu yedizdirib-içizdirirdi. Uzun müddət piyada getdiyi üçün ayaqlarının üstü suluqlamış, altı qabar olmuşdur, əynindəki paltar tərdən bədəninə yapışmışdır. O, nəhayət, Rəmlə şəhərinə gəlib çatır. O, yolun ağırlığından, bütün yolu piyada getdiyindən yorulub əldən düşmüş, çox xəstələnmişdir, ölüm onunla daban-dabana gəzirdi, axırda o, huşunu itirib yıxılır. Onun başına bir xeyli adam yığışır. Onlar Mənsuru yedizdirməyə, içizdirməyə cəhd edirlər, amma o hər şeydən imtina edir və başına nə gəldiyini anlamırdı. İnsanlar fikirləşirlər ki, o, çox yaşamaz elə indilərdə canını tapşırar.

Tanrının əli ilə yazılır tale, bu fani dünyanın qaydası budur,
Taleyimiz bizə gah dərd, gah da fərəh bəxş edir.*

Qadınlar, uşaqlar onun başına yığışmışdırlar, onlar bu gəncin halına, acınacaqlı vəziyyətinə, qəribçilikdə, kimsəsiz can verməsinə acıyır, göz yaşları tökürdülər. Onlar dil deyib ağlayırdılar. Elə ki onlar «Yasin» surəsini oxumağa başladılar, Mənsur gözlərini açıb başa düşdü ki, can üstədir. O, ətrafı süzüb, evini, bağ-bağatını, vətənini yad edib elə bir nalə çəkdi ki, eşidənlərin ürəyi üzüldü. Sonra o, zəif səslə dedi: «Yemək!» Burada yığışanlardan biri Rəmlə şəhərinin

əyanlarından imiş, o, ürəyində fikirləşir ki, bu zavallıya yemək verib bir az qulluq olunarsa, bəlkə, sağalar. O buyurur ki, nökərlər bu binəvanı onun evinə aparsınlar. Ev adamları onun qulluğunda dururlar, ona xidmət edirlər. Mənsur tezliklə sağalıb ayağa qalxır. Həmin əyan buyurur ki, Mənsuru hamama aparsınlar və ona təzə paltarlar versinlər. Daha sonra ona lazım olan yeməklərdən, güclü şərbətlərdən hazırlayıb verirlər, bu minvalla bir ay ərzində Mənsur öz əvvəlki cildini alır. Əyan ondan soruşur: «İndi yolun haradır?» Mənsur cavab verir: «Misirə getmək istəyirəm». O alicənab əyan Mənsura yolda xərcləmək üçün əlli qızıl dinar verir. Mənsur pulları götürüb ona dərindən minnətdarlığını bildirir və Misirə yola düşür. Misirə çatanda Mənsur anlayır ki, bu yerlərin bir ümman kimi həddi-hüdudu yoxdur. Görür ki, bu yerlərin sakinləri sanballı, varlı-əhvallı, satılan mallar isə ucuzdur. Mənsur öz-özünə fikirləşir: «Mən nahaq yerə bu qədər vaxt itirmişəm, gərək çoxdan bura gəlib, burada məskunlaşa idim». Bir neçə gün dalbadal o bu şəhərin küçələrini gəzir, axşam ləzzətli təamlardan alıb yeyir. O bütün gecələrini eyş-işrətdə keçirirdi. Tez bir zamanda o, Rəmləli əyanın verdiyi dinarları, demək olar ki, xərcləyib qurtarır. Baxmayaraq ki, o, biliyinə, savadına, dünyagörüşünə görə çoxlarından üstün idi, amma günlərini boş şeylərə sərf edirdi. İş o yerə çatır ki, onun cəmi bir dinarı qalır. Mənsur şərabı, adətən, bir qadından alırdı, bu şərabının xüsusi dadı və ətri var idi. Şəhərin bütün adlı-sanlı əyanları şərabı ondan alırdı. Mənsur bütün günlərini bu qadınla keçirirdi, onun üçün şeirlər oxuyur, bildiklərindən danışır, əyləndirirdi. Qadın Mənsura elə bağlanmışdı ki, bir az gecikən kimi dalınca adam göndərirdi, hətta qiyməti iki dirhəm olan şərabı ona bir dirhəmə satırdı.

Bir dəfə Mənsur yenə də bu qadının yanında oturmuşdur. O çox fikirli, qəmli idi. Onun bu halını görən qadın deyir: «Oğlum, sənə nə olmuşdur, niyə belə fikirlisən, bəlkə, xətrinə dəyən olmuşdur? Sən mənə de, mən həmin adamın layiqincə cavabını verim». Mənsur deyir: «Xanım, bil ki, kişini xoşbəxt edən var-dövlətdir. Elə ki kişi var-dövlətini itirir, onunla bərabər sevincini də, xoşbəxtliyini də, hörmətini də itirir. Uca Allah vaxtı ilə mənə hər

cür naz-nemət nəsib etmişdir, mən öz axmaqlığımın ucundan onların hamısından oldum, sonra mən qərib məmləkətlərə yollandım, əlimdə qalanları da orada xərclədim, daha sonra xəstələnib, zəif düşdüm, bir alicənab əyan mənə yiyə durdu, mənim qayğıma qaldı, sağaltdı, sonra isə əlli qızıl dinar verib yola saldı, mən həmin əlli dinarı da xərcləyib bitirdim. İndi mənim vur-tut bir dinarım qalmışdır ki, bu da mənim beş günlük yeməyimi ancaq təmin edə bilər. Bunu da xərcləyib qurtardıqdan sonra nə edəcəyimi bilmirəm. Bax qəmli, fikirli olmağımın səbəbi də budur».

Fatimə Qəvvalə – «paxla satan qız» adı ilə tanınan bu qadın, yəni Misir sakinlərinin dilində «qəvvalə» «paxla satan qız» anlamını verirdi – onu dinləyib deyir: «Mən sənə kömək edə bilərəm; sən həm var-varidat yiyəsi olarsan, həm də həmişə şərab içə bilərsən». Mənsur yalvarır: «Çox xahiş edirəm, mənə kömək et». Qəvvalə deyir: «Öz axırıncı dinarını götür, bazara get, şirni, çərəz, meyvə qurusu al gətir, sonra onları şərab almaq üçün gələn müştərilərimə sat. Bununla sən həm dost-tanış, həm pul, həm də gündəlik şərab qazanarsan». Fatimənin bu təklifi Mənsurun ürəyincə oldu, o, bazara gedib lazım olanları alıb gətirdi.

Həmin günün axşamı bir böyük dəstə müştəri gəlir. Onlar şərab içmək üçün masa arxasına keçirlər. Mənsur içi hər cür şirni-çərəzlə dolu qabı onların qarşısına qoyur. Onlar Mənsuru öz süfrələrinə dəvət edirlər. Mənsur onların süfrəsinə əyləşib bildiklərindən, oxuduqlarından danışmağa başlayır, arada isə şirin lətifələri, baməzə zarafatları ilə məclisə bir başqa rəng qatır. Mənsurun bu söhbətləri, zarafatları, lətifələri müştəriləri çox cəlb edirdi, onlar Mənsuru dinləyir, ona yaxşı pul verirdilər. Bu minvalla bir neçə ay ərzində Mənsur bir qədər qızıl toplaya bilmişdir. Günlərin bir günü Mənsur həmişəki kimi bazara gedib xeyli meyvə-çərəz alır və geri dönür, Fatimənin dükanı adamla dolu idi. Adamlar iki bir, üç bir oturub şərab içirdilər. İki nəfər gənc zənci də bir küncdə, ayrıca oturub şərablarını içirdilər. Onlar ger-geyimlərindən, görünüşlərindən zəngin adamlara oxşayırdılar. Mənsur hamıya çərəz, şirniyyat təklif edir, amma bu iki gənci elə bil heç görmürdü. Zəncilər Mənsuru çağırıb

soruşurlar: «Sən nəyə görə hamıya çərəz-şirni payladın, amma bizə təklif etmədin?» Mənsur deyir: «Sizin pulunuz varmı?» Zəncilər cavab verirlər: «Bəlkə də, burda olanların hamısından daha çox biz varlı-əhvallıyıq». Mənsur o saat içində hər cür çərəz-şirni olan qabı onların qarşısına gətirir, onlar isə öz növbələrində ona bir badə şərab uzadıb yanlarında oturmağı təklif edirlər. Mənsur onların masalarının arxasına keçib, onları əyləndirməyə başlayır; o oxuyur, şeirlər deyir, maraqlı söhbətlər edirdi. Zəncilər şərab içib öz dillərində danışdılar. Onlar fikirləşirdilər ki, Mənsur onların dilini bilməz, çünki Mənsurun necə bilikli, savadlı olduğundan xəbərsiz idilər. Mənsur isə bu dili də bilirdi. Onlardan biri digərinə deyir: «Bizim əlimizdəki qızılımız tükənmişdir, gərək gedib yenə özümüzə qızıl götürüb gələk ki, günlərimizi kefdə keçirək». Bu sözləri eşidən Mənsur başa düşür ki, onlar haradan isə pul əldə etmişlər və bu pul, əslində, onlara mənsub deyildir və fikirləşir: «Onların dalınca gedib qızılı haradan əldə etdiklərini öyrənmək lazımdır». Bir saatdan sonra zəncilər qalxıb getməyə hazırlaşdılar və Mənsura dedilər: «İstədiyin qədər içib yata bilərsən». Bunu deyib onlar yaraqlanıb-yasaqlanıb yola hazırlaşdılar.

Bu arada Mənsur yavaşca qaçıb Fatimə Qəvvalənin yanına gəlir və deyir: «Mən çox qorxulu yola düşməliyəm, silahın varsa, onu müvəqqəti mənə ver». Fatimə Qəvvalə heç bir şey soruşub-bilmədən par-par parıldayan bir xəncər gətirib Mənsura verir. Mənsur silahı belinə bərkidib zəncilərin dalınca düşür. Zəncilər elə ki şəhərdən çıxdılar, dörd bir tərəfə göz gəzdirməyə başladılar. Onlar deyirdilər: «Ehtiyatlı olmaq lazımdır ki, bir ins-cins bizi görməsin, dalımızca düşən olmasın». Mənsur bu sözləri eşidən kimi üzü üstə yerə uzanıb nəfəs belə almadı. Zəncilər bir az gözləyib yola düşdülər, amma bir az getmişdilər ki, geri qayıdıb ətrafı yoxladılar, əmin oldular ki, heç kəs yoxdur, yollarına davam etdilər. Mənsur onların dalınca gedirdi. Nəhayət, onlar böyük bir ağac olan səhraya çatırlar. Onlar həmin ağacın altında dayandılar. Zəncilər ağacın gövdəsini qucaqlayıb, onu fırlatmağa başladılar və birdən yoxa çıxdılar. Mənsur ağaca yaxınlaşıb görür ki, ağacın dibində içindən buxar çıxan yarıq vardır. O, xəncərini çıxarıb yarığın yanında dayanır. Bir az keçmiş zəncilərdən

biri çiynində bir çuval oradan çıxır. Mənsur xəncərini qaldırıb onu başından vurur, çuvalın içindəkilərə baxmaq istəyirdi ki, o biri zənci də belində çuval çıxır. Mənsur onu da başından vurur. Çuvalları açanda Mənsur görür ki, onlar ağızbaağız sarı qızıl ilə doludur. Mənsur çox sevinir və həmin yarıqdan içəriyə keçir, pilləkənlə aşağıya düşüb uzaqda işıq görünən bir dəhlizə çıxır. İşıq istiqamətində gedərək gözəl bir bağçaya çatır. Bu bağçanın ortasında möhtəşəm bir saray ucalırdı. Sarayın gözəl eyvanları, şüşəbəndləri var idi. Sarayın qarşısında çox böyük və gözəl hovuz tikilmişdir. Hovuzun divarları qiymətli daşlarla bəzədilmişdir. Hovuzun ətrafında üstü almaz və yaqutlarla bəzədilmiş on qızıl sütun ucaldılmışdır. Bu möhtəşəm mənzərədə sarayın gözəlliyi, əzəməti bütün özəllikləri ilə ətrafa işıq saçırdı. Sarayın qapı-pəncərəsi qiymətli daşlarla bəzədilmişdir, bu isə saraya xüsusi yaraşıq verirdi. Sarayın döşəməsi gözəl mərmərlə döşənmiş, hər otaqda qiymətli daşlarla, incilərlə bəzədilmiş qızıl taxtlar qoyulmuşdur. Taxtların üzərində qızıl bütlər, bütlərin başları üstündə içi ləl-cavahiratla dolu teştlər var idi. Bundan başqa otaqda almazla, qızıl külçələrlə, yaqutla, zümrüdlə, mirvari ilə, firuzə ilə dolu böyük qızıl teştlər düzülmüşdür. Bunlar elə bir miqdarda idi ki, onların say-hesabını Allahdan başqa heç kəs bilməzdi.

Mənsur bu xəzinəni görüb huşunu itirir. Özünə gələndə o, diz üstə durub Allaha dua etməyə başlayır. Daha sonra o qalxıb qapıları kilidləyir və çölə çıxıb evə yollanır. Səhəri gün Mənsur bütün qonşuları yığıb onların evlərini alır və ən yaxşı ustaları dəvət edib möhtəşəm bir saray tikdirmək fikrində olduğunu bildirir. Saray hazır olur. Misirdə bu saraya tay olacaq saray yox idi. Sarayda dörd bölüm var idi: yaz, yay, payız, qış. Sarayın ətrafında çox gözəl gül bağçası salınmışdır. Sarayın döşəmələrinə xalılar salınmış, otaqlara nəfis əşyalar düzülmüşdür. Sarayın altında döşəməsi, divarları mərmərdən olan otaqlar tikilmişdir. Həmin otaqların qapıları xüsusi hazırlanmış və çox möhkəm idi. Mənsur hər gecə xəzinə olan yerə gedir və oradakı qızıllardan, ləl-cavahiratdan, qızıl bütlərdən yığıb saraya gətirir, həmin otaqlara yığırdı, gündüzlər isə yeyib-içib kef edirdi.

Onun bu firavan həyatı misirlilərə rahatlıq vermirdi. Deyirdilər: «Bu bağdadlı son zamanlaradək şərab dükanında çərəz satıb gündəlik çörəyini zorla qazanırdı. İndi bu var-dövlətə necə və haradan yiyələnmişdir? İndi Misirdə ondan varlı adam yoxdur. Bizim şəhərdə yer altında çox xəzinə basdırılmışdır, yəqin, o bu xəzinələrdən birini tapmışdır». Bu söhbətlər bütün şəhərə yayılır və nəhayət, şəhər qarovulunun rəisinin qulağına çatır. O bunları eşidib Mənsurun sarayına yollanır və oradakı düzəni, gözəlliyi, evdəki xalıları, nəfis, gözəl əşyaları görüb heyran olur.

O özünü saxlaya bilməyib deyir: «Ey nəcib gənc, bu şəhərin sakinləri gözəl bilirlər ki, sən bu şəhərə gələndə çox kasıb idin, indi isə sənin var-dövlətinin həddi-hüdudu yoxdur. Sən gərək mənə deyəsən bu qədər dövləti haradan əldə etmisən? Atalar məsəlində deyildiyi kimi: «Əgər var-dövlətindən rahat bəhrələnmək istəyirsənsə, onu ətrafındakılarla bölüş, kim varını bölməsə, bu dünyanı təklikdə tərk edər».

Mənsur soruşur: «Sən kimsən, nəçisən ki, mənə bu sualları verirsən?» Müsafir deyir: «Mən şəhər qarovulunun rəisiyəm». Şəhər qarovulunun rəisi adını eşidən Mənsur qorxur, rəngi qaçır. Ürəyində deyir: «Bu nə bəladır!» Şəhər qarovulunun rəisi bunu hiss edib deyir: «Qorxma, məndən, ehtiyat etmə. Sən mənim dediklərimə əməl etsən, mən də sənə hər işdə kömək edərəm». Mənsur ürəyində düşdüyü vəziyyəti götür-qoy edib deyir: «Mən hər gün sənə yüz dinar verə bilərəm, hətta bu gün sənə on günlük min dinarı da əvvəldən verərəm». Bunu eşidən qarovul rəisi çox sevinir və deyir: «Ağam, əgər yüz gizli xəzinə tapmısansa, onlardan rahat istifadə edə bilərsən, heç bir şeydən çəkinmə». Sonralar Mənsur belə söhbət edirdi ki, o, tez qarovul rəisinə min dinar və bir dəst qiymətli paltar verib demişdir: «Hər gün gəl, yüz dinarını al». Qarovul rəisi onun əlindən öpüb, onu mədh edib sevincək halda çıxıb getmişdir.

Bir müddət belə davam edir, amma bir gün bunun səs-sorağı vəzirə çatır və o, Mənsuru öz yanına dəvət edir. O, Mənsur yanına gələndə onu qarşısında əyləşdirib ədəb-ərkanla sözə başlayır: «Ey nəcib insan, sənin bu şəhərə hansı vəziyyətdə gəldiyindən xəbərdaram. Bu yaxınlarda isə sən xəzinə tapmısan, amma sultana ödəməli

olduğun payı ödəməmisən. Sən bununla çox kobud qanun pozuntusuna yol vermisən, çünki xəzinə tapıb sultanın payına düşən hissəni ödəməyən kəs çox ciddi cəzaya məruz qalır və onu bu cəzadan heç bir qüvvə qurtara bilməz. Mən bu dəfə sənin bu səhvini bağışlayıram, get Sultana düşən payı gətir sonra istədiyini et». Mənsur onu dinləyib deyir: «And olsun Məhəmmədə və salamlar olsun ona! Mən elə bir xəzinə tapmışam ki, bir Adəm övladı belə bir xəzinənin səs-sorağını eşitməmişdir. And olsun məni yaradan o uca Allaha, məni tikə-tikə edib ocaqda qızartsalar da, Sultana düşən payı verməyəcəyəm, amma mən sənə hər gün min dinar verə bilərəm. Şübhəsiz ki sənin bütün Misirdən gündəlik gəlirin heç o qədər deyildir. Səndən bircə xahişim vardır, bundan artıq məndən heç bir şey soruşma, mənim təklifimə qane olub, Allahına şükür et. Sən məni öldürüb, odda yandırsan da, məndən bundan artığını ala bilməzsən».

Vəzir Mənsurun sözlərini eşidib, qətiyyətini görüb öz-özünə deyir: «Mən onu öldürsəm, bundan heç bir şey qazanmayacağam, amma gündə min dinar pis gəlir deyildir». Bunları götür-qoy edib vəzir Mənsura deyir: «Ey nəcib insan, Allah səni qorusun! Min belə xəzinə tapmısansa da, halal xoşun olsun, amma indi verdiyin sözə əməl etməlisən». Mənsur deyir: «Sən adamlarından mənə qoş, mənimlə getsin və mən ona həmin dəqiqə min dinar verim». Vəzirin yaxın adamları Mənsura qoşulub gedirlər və Mənsur onlara min dinar verir. Bir müddət belə davam edir və bu məsələnin səs-sorağı gəlib Sultana çatır. Sultan vəzirini çağırtdırıb sorğu-suala tutur, Mənsur haqqında soruşur, vəzir isə öz növbəsində olanları, keçənləri danışır. Sultan Mənsuru yanına dəvət edir, onu hər cür hörmət-izzətlə qəbul edir, Mənsur da öz tərəfindən sultana təriflər deyib, mədhlər söyləyir. Sultan deyir: «Ey nəcib insan, sən mənə xəzinəndən danışsan, mən səndən vəzirin aldığından artıq almaram və sənin var-dövlətinə xələl dəyməz. Xəzinənin yerini mənə göstərib, beşdə birini mənə versən, qalan hissəsi yenə də sənə qalar».

Mənsur dedi: «Şah sağ olsun! Mən and içib söz vermişəm ki, məni tikə-tikə edib parçalasalar da, xəzinənin yerini heç kəsə deməyəcəyəm. Qan pulu on iki dirhəmdirsə, mən hər gün min dinar

verirəm və hökmdarın mübarək üzünü görmək mənə nəsib olduğu üçün bu məbləğin iki mislini verməyə hazıram. Mən hər gün dövlət xəzinəsinə iki min dinar verməyə hazıram».

Sultan Mənsuru dinləyib vəzirindən soruşur: «Bu məsələyə necə baxırsan?» Vəzir cavab verir: «Şah sağ olsun! Bu adamın xəzinəyə ödəyəcək gündəlik məbləğ çox böyük var-varidatdır. Məncə, bu adamın şərtini qəbul edib həmin pulları almaq lazımdır. Belə adama qayğı göstərib, onu qorumaq lazımdır».

Sultan vəzirinin məsləhətinə əməl edib Mənsura hər cür hədiyyələr, xələtlər verib, hörmət-izzətlə yola salır. Mənsur evə qayıdıb yenə öz kef məclisinə davam edir. O ki qaldı adı Əmir Əhməd Hüseyib olan Misir sultanına, nəfs ona rahatlıq vermirdi. O öz-özünə fikirləşirdi: «Bu adam hər gün xəzinəyə iki min dinar ödəyir. Bu çox böyük puldur. Bu pulu verməyə qadir olan adamın gərək həddi-hüdudu olmayan varı olsun. Görəsən, mən o xəzinənin yerini necə öyrənə bilərəm...». Sultan bu fikirləri dodaqaltı desə də, kənizlərindən biri onu eşidir və deyir: «Hökmdarım izin versə, mən bir hiylə işlədib, o xəzinənin yerini taparam». Sultan deyir: «Sən bunu bacarsan, mən səninlə evlənib, səni bu xanimanın baş xanımı edərəm». Səhəri gün o sərv boylu, min cür naz-qəmzəsi olan kəniz özünə bəzək verib, qır-qızıllarını taxıb Mənsurun yanına yollanır. Mənsurun sarayının qarşısında söykənəcəyi əzvay ağacından hazırlanmış mərmər oturacaq var idi. Mənsur xalı-xalça döşətdirib, yastıq-mütəkkə düzdürüb qul-nökərlərin əhatəsində bu oturacaqda istirahət etməyi sevirdi. O, yanında həmişə bir kisə qızıl saxlayardı və yanından keçən hər qəribə bir ovuc qızıl verərdi. Kəniz düz Mənsura tərəf yollanır və onun qarşısına çatdıqda üzünü azacıq açıb ona gülümsəyir. Mənsur bu kənizin gözəlliyi qarşısında donub qalır və çox təəssüflənir ki, bu gözəllik ona məxsus deyildir.

Elə ki kəniz Mənsurun bu halını hiss edir, daha da cəsarətlənir və deyir: «İstəyərsənmi bu gün sənin qonağın olum?» Mənsur sevincdən qışqırır: «Mən sənə minnətdar olaram». O həmin dəqiqə qalxıb kənizin əlindən tutub, saraya aparır və ən gözəl otaqlardan birinə dəvət edir. O əmr edir ki, süfrə açıb hər cür təam, içkilər gətir-

sinlər. Elə ki yemək-içmək məclisi qurtarır, süfrədə çərəz, meyvə, içkilər qalır, onların deyib-gülməyi, zarafatları daha da nəşələnir. Kəniz sarayı gəzib, onun gözəlliyinə, səliqəsinə heyran qalmışdır. Sonra onlar yenə şərab içib zarafat edir, deyib-gülürdülər. Kəniz elə ki Mənsurun şərabdan məst olduğunu hiss edir, deyir: «Səndən bir xahişim vardır». Mənsur deyir: «Mən sənin hər bir istəyini yerinə yetirməyə hazıram. İstədiyin qədər ləl-cavahirat, qızıl, zər-ziba, qiymətli, nəfis paltarlar verə bilərəm». Qız deyir: «Yox, mən səndən qızıl, ləl-cavahirat istəmirəm, eşitdiyimə görə, sən bir xəzinə tapmısan, istəyirəm bir gözucu onu görüm».

Bu sözləri eşidən Mənsur bərkdən gülüb deyir: «Bundan asan nə var?». Bunları deyib Mənsur ayağa qalxır. O yaraqlanıb-yasaqlanıb deyir: «Dur, gedək, sənə xəzinəni göstərim». Kəniz ayağa qalxıb Mənsurun dalınca gedir. Elə ki onlar şəhərdən çıxırlar, Mənsur kənizin gözlərini bağlayıb, üstünə örtük atır və onlar yollarına davam edirlər. Ağaca çatanda Mənsur gizli girişi bağlayan qapını açır və qızla bərabər pilləkənlərlə aşağıya düşür. Onlar saraya çatanda Mənsur qızın gözlərini açır. Qız gözlərini açıb ağla sığmayan qədər qızıl, yaqut, zümrüd, almaz, ləl-cavahirat görür. Bunları görən kəniz huşunu itirir. Özünə gəldikdə deyir: «Bəs qızıl dinarları haradan götürürsən?» Mənsur onun əlindən tutub bir hovuza tərəf aparır. Baxmayaraq ki, Mənsur artıq kifayət qədər uzun müddət qızıl dinarlardan istifadə etmişdir, dinarların hovuzda səviyyəsi, təxminən, iki barmaq qədər azalmışdır. Mənsur hovuzu göstərib deyir: «Bunlar mənim, mənim nəsil-nəcabətimin hamısına yetər». Sonra o, qızın əlindən tutub bağçaya aparır. Burada göylərin yeddinci qatında olmağa layiq bir qızıl taxt qoyulmuşdur. Bu taxtın üzərində bir gənc qızla gənc şahzadənin çox canlı heykəli var idi, onların yanında bir açar, bir çələng və bir lövhə var idi. Lövhənin üzərində yazılmışdır: «Biz bütün dünya nemətlərinə yiyələndik, biz bir çox dövlət, şəhərləri fəth etdik, biz bir çox qala, qəsrləri tutduq, bütün düşmənlərimizi məğlub etdik, amma bunların heç biri bizim vaxtımız tamam olanda dadımıza çatmadı. O kəs ki Allahın hökmü ilə bu xəzinəni tapacaqdır, bundan bacardığı qədər istifadə etməlidir, çünki bu xəzinə,

nəinki tükənməyəcəkdir, o heç azalmayacaqdır. Bu xəzinəni mən - Ad Zat əl-İmad tayfasından olan Əlqəm ibn Şəddad yığmışam. Mənim nəşimi görən hər bir kəs bundan nəticə çıxarmalıdır: «Dünya nemətlərinə bağlanmaq olmaz». Əgər dünya əbədi və ya kiməsə məxsus ola bilsə idi, əgər ömrü almaq və ya qızıl ilə uzatmaq olsa idi, inanın ki, mən onu ya alar, ya da uzadardım».

Mənsur bu misraları oxuyub qadın heykəlin boynundakı boyunbağını açıb kənizə verir. Qız boyunbağını götürüb ona tamaşa etməyə başlayır. Sapa on iri inci, on iri yaqut və on iri zümrüd salınmışdır. Bunların hər biri göyərçin yumurtası böyüklüyündə idi. Qız bu boyunbağının gözəlliyinə heyran qalmışdır. Sonra Mənsur yenə qızın gözlərini bağlayıb, üstünə örtük atıb əlindən tutub bir xeyli dolanbaclardan keçirir. Kəniz sonda qışqırır: «Ağam, gözlərimi aç, yolu görüm». Mənsur qəzəblə soruşur: «Nədir, həyatından bezmisən? Yaşamaq istəmirsən, belə sözlər danışırsan?» Mənsurun qəzəbini görən qız daha bir kəlmə söz danışmır. Mənsur onu sağ-salamat öz sarayına çatdırır və kəniz heç bir şey öyrənmədən geri qayıdır.

Bundan sonra Mənsur xoşuna gələn kənizləri alıb, bir neçə gün saxladıqdan sonra satmaqla məşğul olmağa başlayır. Hərçənd o bilirdi ki, müdriklər demişlər: «Satmaq niyyəti ilə kəniz almaq heç vaxt xeyir gətirməz». O bunu anlayır və bilirdi ki, gördüyü iş düzgün deyildir və bu işdən əl çəkmək lazımdır. O, bir müddət belə yaşayır.

Bir gün növbəti dəfə bir kənizini yüz dinara satıb təzə kəniz almaq üçün gedəndə yolda bir qəribə qarıyla rastlaşır. Qarının üstündə hind sarisi hazırlanan parçadan örtük, başında ağ parçadan əmmamə, bir əlində əsa, o biri əlində isə təsbeh var idi. Onun ardınca bir neçə kəniz gedirdi. Mənsur onlara yaxınlaşıb diqqətlə baxdı və bu kənizləri çox bəyənir. O, qarıya müraciət edir: «Xalacan, bu kənizlər satılır?» Qarı cavab verir: «Satılır». Onda Mənsur kənizlərin niqablarını bir azca aralayıb onlardan birini bəyənir və deyir: «Bu kənizi mənə sat». Qarı deyir: «O sənə layiq birisi deyildir. Bu qız ancaq xidmət edib, qulluqda durmaq üçün yarayar. Sevmək üçün, sevilmək üçün bu qız yaramaz. Sən belə et, beş yüz təmiz, qızıl xəlifə dinarı götürüb mənim evimə gəl, mən sənə beş yüz elə aycamal gözəl

göstərərəm ki, onların tayı-bərabəri yer üzündə tapılmaz. Mən sənə bir-birindən gözəl Türk, Çin, Yunan, Slavyan, Həbəş, Kəşmir, Bolqar, Bağdad qızları göstərim, seç, bəyəndiyini götür apar».

Bu sözləri eşidən Mənsur çox sevinir və deyir: «Xalacan, bəs mən indi pul gətirməyə getsəm, sonra səni harada tapa bilərəm?» Qarı deyir: «Mən səni elə burada gözləyərəm». Mənsur həmin dəqiqə evinə gedib, beş yüz qızıl xəlifə dinarı götürüb geri qayıdır. Qarı qızıl pullara baxıb deyir: «Oğlum, biz qadınların qızıldan çox da başı çıxmaz, bir sərraf yanına gedək, baxıb bu pulları dəyərləndirsin». Onlar sərraf yanına gedirlər, sərraf qızıllara baxıb qiymət qoyandan sonra qarı evinə yola düşür, Mənsur da onun ardınca gedir. Qarı çox cəld gedirdi, Mənsur da ip ucuna bağlanmış köpək kimi onun ardınca qaçırdı. Nəhayət, onlar bir məhəlləyə gəlib çıxırlar. Baxmayaraq ki, Mənsur artıq çoxdan idi ki, Misirdə yaşayırdı, bu məhəllədən heç xəbəri yox idi. O heç buranın səmtini belə bilmirdi.

Bir məscidə çatanda qarı Mənsuru qapının yanında əyləşdirib özü yoluna davam edir. Bir azdan qayıdıb Mənsurun qarşısına bir qadın örtüyü ilə qadın çarığı qoyur və deyir: «Oğlum, bizim nəslimizin təmiz adı vardır, bütün ətraf bizə ehtiramla yanaşır, ona görə də günün günorta çağı bizim evə yad bir kişinin girdiyini görən olarsa, adımıza ləkə gələr».

Qarı bu sözləri deyib çarıqları Mənsurun qarşısına atıb, çarşabı üstünə atır və özü ilə aparır. Mənsur qorxusundan heç yerə baxmırdı və hara getdiyini bilmirdi. Onlar bu minvalla bir saata qədər yol getdilər və nəhayət, dar, qaranlıq dalana girdilər. Sonra onlar bir başqa dar dəhlizdən keçib günbəzləri sanki Zühəl ulduzuna dəyən sarayın qarşısında durdular. Sarayın girəcəyindəki qapıdan naxışlı ipəkdən pərdə asılmışdır. Mənsur içəriyə keçəndə elə bil bir cənnət bağına düşür. Otaqda qiymətli daşlarla bəzədilmiş, min bir rəng çalan taxtlar, oturacaqlar var idi. Döşəmələrə bir-birindən gözəl xalılar, qapılara Rum ipəyindən pərdələr salınmış, taxtların üzərinə dünyanın hər bir yerindən gətirilmiş nəfis əşyalar düzülmüşdür. Zalın düz ortasında üzərlərində qızıl qəfəslər olan qızıl sütuncuqlu, mərmərdən tikilmiş çox gözəl hovuz var idi. Qəfəslərdə bülbüllər, turaclar, kəckliklər,

tovuzlar, göyərçinlər, tutuquşuları oturmuşdu. Quşların hərəsi bir cür cəh-cəh vururdu və hər birinin oxuması bir cür gözəl idi. Bu quşların gözəlliyi, cəh-cəhləri hamını valeh edirdi.

Bu gözəllikləri görən Mənsur heyrətdən az qala huşunu itirmişdir. Elə həmin an içəriyə bir sərv boylu, aycamal qız daxil oldu. Bu qız şux yerişlə Mənsura tərəf gəlib ədəb-ərkanla təzim etdi. Sonra qız Mənsurun əlindən tutub o biri otağa apardı və onu qızıl saplarla işlənmiş dörd yastığın arasında əyləşdirdi. Qız Mənsura nəvaziş göstərib gülümsəyirdi. Mənsur bu gözəlliyə məftun olmuşdu və bu füsunkar gözəlliyin qarşısında donmuşdu.

Elə bu vaxt içəriyə bir başqa, birinci qızdan min dəfə gözəl, qamətli, yaraşıqlı qız daxil oldu. Bu qız min cür əda ilə Mənsura yaxınlaşıb üstündəki örtüyü götürüb başına qızıl saplarla işlənmiş bir fəs qoydu. Sonra o, gülabdan gətirib Mənsurun əlinə tökdü, Mənsur gülab ilə üzünü yudu. Elə bu vaxt içəriyə bir başqa qız daxil oldu. Bu qız əvvəlki iki qızın ikisindən də gözəl idi. Mənsur bu qızlara baxıb heyran olurdu, hara düşdüyünü, harada olduğunu anlaya bilmirdi.

Bir az özünə gələn Mənsur bir də baxıb gördü ki, qarşısında hər biri on dörd günlük ay gözəlliyində iyirmi qız dayanmışdır. Mənsur bu qızlara baxıb mat qalmışdır, amma bunların arasından biri xüsusi ilə seçilirdi. O qızın gözəlliyi heç bir şeylə müqayisə edilə bilməzdi, onun gözəlliyi qarşısında dünyanın bütün gözəllikləri solğun görünərdi. O bu qızı Çin bütünə bənzətmişdir. Dünyanı gəzib nə Rumda, nə Çində belə şux qamətli, al dodaqlı, ipək saçlı gözəl tapmaq mümkün olmazdı. Onun gözəlliyi, günəş aya işıq salan kimi, o biri qızlara öz nurundan səpirdi. O, sərv kimi qamətli, küknar kimi şux idi. Üzü ay kimi parlaq, dodaqları gül ləçəkləri kimi al, yanaqları bahar çiçəkləri kimi zərif idi. Onun zülflərindən müşk, ənbər ətri hər tərəfə yayılırdı. Bu qızın gözəlliyi elə idi ki, əgər Azər və Mani belə dirilib gəlsə idilər, bu gözəlliyi təsvir edə bilməzdilər, çünki bu parlaqlığı, şəffaflığı, ədanı, nazı, yerişi, gülüşü, üzə, alına düşən o gül qoxulu zülfləri əks etdirmək, bu ilahi gözəlliyi kağıza köçürmək mümkünsüz idi.

Bu gözəlin alnına üstü qiymətli daşlarla bəzədilmiş, qızıldan hörülmüş çələnginin qızıl sapdan toxunmuş bağları düşürdü. Ayağında zərif, qızıl ayaqqabı olan bu qız şux qamət, şirin əda ilə Mənsura yaxınlaşıb yanında əyləşdi və onu söhbətə tutdu.

Mənsur onun gözəlliyi qarşısında quruyub qalmış, nitqini itirmişdir. Mənsuru elə bil ovsunlamışdılar. Nə danışa bilirdi, nə də deyilənlərə cavab verə bilirdi. Nəhayət, Mənsur özünü toplayıb qızın salamına cavab verdi, amma onun dil-dodağı elə dolaşmışdır ki, nə dediyi anlaşılmırdı. Qız Mənsurun haldan-hala düşməsini görüb yavaşca onun əlindən tutub dedi: «Cəsarətli ol, çəkinmə, de, gül, əylən, əgər bizi bəyənmisənsə, cürətli ol, üzün gülsün, könlün xoş olsun, belə qəmli-kədərli oturma». Mənsur qızın bu sözlərindən ilhamlanıb ayağa qalxdı, onun qarşısında təzim edib gözəlliyini, nəcibliyini tərif edib, göylərə ucaltdı. Qız buyurdu ki, süfrə açılsın. İçəriyə xurma ağacından, fil sümüyündən hazırlanmış masalar gətirildi, onların üzərinə ən keyfiyyətli undan hazırlanmış ağ kökələr, hər cür naz-nemət düzdülər. Süfrəyə hər cür içkilər, şərbətlər, meyvələr, şirniyyat gətirdilər. Bir azdan süfrəyə nar plovu, zirə plovu, dovğa, badam, fıstıq içlikli Rəşidi, Zeynəbi şirniyyatları, limon şirəsi ilə hazırlanmış quzu qızartması, toyuq çığırtması, bildirçin kababı, döyülmüş ətdən hazırlanmış səbuni, məmuni, boranilər, fıstıq-badamla hazırlanmış rivandi bişmələri, səərilər, Dərbənd əmşanları, dondurmalar, dondurulmuş qızılgül ləçəkləri və çoxlu müxtəlif, çeşid-çeşid təamlar gətirildi.

Onlar yeyib-içdikdən sonra qızıl teştlər və gülabdanlar gətirdilər. Onlar əllərini, üzlərini yudular və nəfis kətan dəsmallarla qurulandılar. Elə ki bunların hamısı bitdi, o aycamal gözəl durub Mənsurun qarşısında ayaqqabılarını cütlədi və dedi: «Rəhim və Rəhman Allahın xətrinə dur bir başqa yerə keçək! Ora eyş-işrət otağıdır».

Artıq bir müddət keçmişdir. Mənsurun başına gələnlər artıq dastana çevrilib ağızdan-ağıza gəzirdi. Biz isə hadisələrin davamını Mənsurun Xəlifəyə danışdıqlarından bildik. Mənsur başına gələnlərin hamısını danışıb sözünə belə davam etdi: «Ey Xəlifə, mənim halım elə gözəl, elə xoş idi ki, heç yerimdən qalxmaq belə istə-

mirdim, amma o huri-mələyin ecazkar səsi, həlim rəftarı məni yerimdən qalxıb onun ardınca getməyə vadar etdi. O məni bir dəhlizlə apardı, dəhlizin qapısı bir cənnət guşəsini xatırladan bağçaya açılırdı. Mən ömrümdə belə gözəl yer görməmişdim. Bağçada olmazın ağaclar, güllər-çiçəklər var idi. Hər tərəfdən sərv, küknar, xurma, zeytun, şəmşid ağacları, qızılgül, nərgiz, yasəmən, inciçiçəyi və başqa bitkilər adamın üzünə gülürdü. Büllur kimi su ilə dolu mərmər hovuzlar nanələrin, reyhanların, nərgizlərin, qərənfillərin, bənövşələrin, zəfəranların əhatəsində idi, hovuzun üzərində cürbəcür quşlar cəhcəh vururdu. Biz bağçanı gəzə-gəzə bir balaca evin qarşısına gəlib çıxdıq. Qız qapını açıb içəriyə daxil oldu. Bu ev çox gözəl idi, hər tərəfi yağlı boyalarla işlənmiş şəkillərlə bəzədilmişdir, qızıl taxtların üzərində dünyanın müxtəlif ölkələrindən gətirilmiş nəfis əşyalar düzülmüşdür, pəncərələrindən gözəl, zərif tüllər asılmışdır. Biz süfrə başına keçdik, qız iki aycamal kənizə buyurdu ki, bizə saqilik etsinlər. Onlar bizim badələri insan ruhunu oxşayan, əhvalını yüksəldən, parlaqlığı ilə Zöhrə ilə Günəşi kölgədə qoyan, qəzəbli hökmdarları ram edən içki ilə doldurdular. Onlar ruhu sakitləşdirən, ürəyə ümid verən şərablardan süzür, qulluğumuzda dururdular.

Şair gözəl demişdir:

Ay olmadan dolu camdakı şərab acı olar,
Ay olmadan o bərq verən camdakı şərab acı dadar!
Bəlxdən Həbəşədək o məşhur şərab,
Ay olmadan o qədər acı oldu ki, bizi nəşələndirmədi.

- Və ya:

Gecə büllur qədəhimdə şərab parladı,
Səhərədək Zöhrə kimi alışıb-yandı.
Yaqut rəngi ilə bizi ovsunladı,
İçində inci danəsi işıq saçdı.
Şərab bizi məst eləyib yoldan çıxardı,
Ətri ilə zanbaqgülünü üstələdi.

Bu minvalla badə əlbəəl gəzdi. Otaqda əlli nur saçan aycamal, ətrafı müşk-ənbər ətri ilə məst edən qara zülflü gözəl var idi. Bu gözəllər üç-bir, beş-bir dəstələrə ayrılıb çalıb-oxuyur, deyib-gülürdülər. Onlar bərbətdə, udda, çəngdə, tütəkdə, kanonda, rudda çalırdılar. Onlar elə ustalıqla çalıb-oxuyurdular ki, eşidən bir də dinləmək eşqinə düşürdü, o kənizləri almaq arzusunda olanların istəyi birə-on qat artırdı.

Allah Xəlifəni öz pənahında saxlasın, amma mənim keçirdiyim hissləri dil ilə təsvir etmək mümkün olan iş deyildir. Adamın bu gözəllikdən gözləri qamaşırdı, hansı tərəfə baxırdın füsunkar gözəllik görürdün, amma elə ki ürəyim seçdiyim o gözələ yatdı, başqa heç bir kənizə baxa bilmədim, cəsarətim çatmırdı ki, dönüb bir başqa səmtə baxım. Onu da deyim ki, heç seçdiyim gözəllə də ünsiyyət qurmaq iqtidarında deyildim. Bir qədər keçdikdən sonra elə ki bir neçə badə şərab içdik, seçdiyim gözəl bərbəti götürüb çox gözəl bir musiqi çalıb, həzin səslə oxudu. Mən artıq bütün varlığım ilə onun ecazına düşmüşdüm. Şərabın verdiyi cəsarətdən o hurimələyin ağlasığmaz cazibəsindən başımı itirib onun əllərini öpmək istədim, amma o qəzəblənib dedi: «Özünü ləyaqətlə apar. Sənə məxsus olmayana əl uzatma, nəcibliyini itirmə, ancaq sənə aid olana bax. Yəni görünüşümdən, görkəmimdən, bu sarayın dəbdəbəsindən mənim şahzadə olduğumu anlamamışsanmı? Ehtiyatlı rəftar et, özünü rəzil etmə, elə alçalarsan ki, sonra heç vaxt qalxa bilməzsən».

Bunları deyib, qız qəzəblə çönüb məni tərk etdi, bütün aycamal gözəllər də onun ardınca getdilər. Mən çaşqın halda qalmışdım, ürəyim elə döyünürdü ki, adama elə gəlirdi, bu saat tikə-tikə olub parçalanacaqdır, mən söyüd yarpağı kimi əsirdim. Mən dedim: «İlahi! Bu nə dərddir düşdüm! Bu nə tələdir, mən düşdüm! Haqq olur mənə! Bu, nəfsinin qulu olan hər bir kəsin aqibətidir! İndi mən əlimdəki bu beş yüz dinarla hara olum?! İndi bu qadınlar məni assalar və ya qanımı töksələr, dadıma çatan da olmayacaqdır. Axı heç bir kəs harada olduğumu, necə işə düşdüyümü bilmir. Ağlı başında olan adam mənim gördüyüm işi görməz! Mən qazanmalı olduğum halda uduzdum.

Mən dərddən, qəmdən, intizardan, həsrətdən ilan kimi qıvrılırdım. Başımdakı fikirlər mənə rahatlıq vermirdi. Bilmirdim, özümü hara çırpım, hara vurum. Fikirləşirdim ki, bəlkə o aycamalın mənə yazığı gələr, bir də mənə öz gül üzünü göstərər. Birdən gördüm ki, ürəyimi fəth edən o gözəl əda ilə mənə tərəf gəlir. O, əvvəlkindən min dəfə gözəl, yüz min dəfə yaraşıqlı görünürdü. Onu bir böyük dəstə gözəl kəniz müşayiət edirdi. Şahzadə isə bir sərv qamətli, aycamal qızın əlindən tutub mənə sarı gəlirdi. Şahzadənin gətirdiyi qıza nəzər salanda gördüm ki, bu qız gözəllikdə heç də ondan geri qalmır. Ürəyimdə dedim: «Hansı birisinə baxırsan, göz qamaşdırır». Ya əmir! Mən sənə bu qızın gözəlliyini necə təsvir edə bilərəm?! O, xanımın dalınca əzəmətli, şahanə bir yerişlə gəlirdi. O, sərv kimi ucaboy, küknar kimi qamətli idi, onun ipək saçları ağ, şəffaf qulaqlarının yanına düşmüşdür, başı örtülü deyildir, gözəl alnı ay kimi parlaq idi, ənbər qoxulu hörükləri kəməndə bənzəyirdi, ağzı balaca bir üzüyün halqası qədər incə idi, gülümsəyəndə ağzındakı dişləri inci kimi görünürdü, dodaqları yaqut kimi, yanaqları Zöhrə ulduzu kimi parlayırdı, yaya bənzər qaşları, hər birisi ucunda sanki zəhər olan oxa bənzər kirpikləri, İsfahan almasına bənzəyən zənəxdanlı çənəsi var idi. Bu qız ilk baxışdan məni əfsunladı, o biri gözəllərin fikrini başımdan çıxardı. Mən bu gözəlin əfsununa elə düşdüm ki, az qala huşumu itirmişdim.

Mənim bu halımı görən şahzadə xanım yaxınlaşıb dedi: «Bir halda ki belə zəif iradəli insansan, niyə bizimlə oyuna girmək fikrinə düşmüsən? Qorxuram ki, bizimlə bacarmayasan. Mən başqasına məxsusam, amma kənizimi sənə sata bilərəm. Bu qız nələrə qadirdir, nə qabiliyyətlərə malikdir, bilsən, bəlkə də geri durarsan, amma bunları bilmək istəyirsənsə, otur və dinlə». Bunu deyib əmr etdi: «Əvvəlcə müqəddəs kitabdan bir neçə surə oxu, sonra yerini rahatlayıb otur!». Əvvəlcə xanımın özü «Quran»dan beş surə oxudu. O, surələri elə avazla, elə kövrək səslə oxudu ki, mən məst oldum, mən ömrümdə belə usta qare görməmişdim. Sonra o, «Tövrat»dan, «İncil»dən, «Zəbur»dan parçalar oxudu. Daha sonra o, ərəb və fars dillərində təmtəraqlı qəsidələr oxudu. Sonra isə çəngi götürüb «Xosrovani» silsiləsindən «Pərvizin bağçası», «Ərdəşirin taxtı», «Şahın

çadırı», «Bisutun dağı», «Şəbdiz tağı», «Rum qalası», «Kəvabın xəzinəsi Bağdayaxanın əlində», «Mirvari cam», «Təbillərin döyüşü», «Xosrov bulağının yalvarışı», «Daşcüssəli İsfəndiyarın ziyafəti», «Vuruşan fil», «Ağcaqayının altında gizlədilmiş ordu sursatları», «Yanmış xəzinə», «Ağır yük», «Dəmavənd dağı», «Çiçəkləyən badam», «Firuzəyi payız», «Rəngli qamış qələm», «Rüstəmin Rəxşi», «Süleymanın taxtı», «Misval Falus», «Əzablı yollar», «Ölümlə savaş», «Büllur təmizliyində mirvari», «Fərəhli bahar», «Bahar çəməni», «Səhrada böyük qala», «Günəşin yaraşığı», «Key-Qubadın xəzinəsi», «Key-Xosrovun xəzinəsi», «Fəridunun xəzinəsi», «Qara müşk», «Şahın tacı», «Siyavuşun qanı», «Xosrovun nəşəsi» parçalarını, daha sonra «Kəsrasız»ı, «Nahəvəndi»ni, «Razi»ni ifa etdi.

Oxumağı bitirəndən sonra o, rəqsə başladı. O elə ustalıqla, elə məharətlə rəqs edirdi ki, sonda məni tam ovsunlayıb, toruna saldı. Heyrətdən bir müddətlik sanki huşumu itirdim. Huşum özümə gəldikdə üzümü o huri-mələyə tutub dedim: «Ey huri-mələk! Səni and verirəm yeri, göyü yaradan o uca Allaha! Bir halda ki başqasının yarısan, başqasına məxsussan, de görün onda niyə mənim ağlımı başımdan alırdın? Niyə mənə bu qədər əzab verirdin? Niyə məni əvvəldən xəbərdar etmədin ki, mən də öz hisslərimi cilovlayıb, rəftarımda, hərəkətimdə həddimi aşmayım».

Xanım cavab verdi: «Bunları unut, sən gəl mənim təklif etdiyim kənizi al, o məndən min dəfə gözəl, qəşəng, şirindir». Mən dedim: «Elədirsə, qiymətini de, artıq söz-söhbətsiz, ürəyindən keçən qiyməti de». Xanım dedi: «Bir başqasından iki min xalis, qızıl xəlifə dinarından az almazdım, amma ürəyim sənə yatdığı üçün, aramızda bir həmdəmlik yarandığı üçün bu qızı sənə pulsuz verəcəyəm və bir dirhəm belə almayacağam, amma bunun müqabilində sən mənim bir şıltaqlığımı təmin etməlisən». Mən soruşdum: «Nə şıltaqlıq?» Xanım dedi: «Bizim bağçada bir ev vardır. Mən sizi yarıçılpaq vəziyyətdə o evə salacağam. O qaçacaqdır, sən tutacaqsan, əgər tuta bilsən, sənindir, götür apar və mən səndən bir dirhəm belə almayacağam. İndi özün qərar ver».

Bu sözləri eşidib sevindim, sanki ruhum pərvazlanıb göylərə uçdu və öz-özümə fikirləşdim: «Bu ki əla sövdələşmədir! Mən ağlıma belə gətirə bilməzdim ki, təsvir olunana görə, gözəllikdə bərabəri olmayan bir pəri ilə balaca evin içində təkbətək qalam. Bundan gözəl nə ola bilər! Biz ikimiz bir otaqda təkbətək!» Mən saatlarla onun dalınca balaca küçük kimi qaçmağa hazır idim, axı bir ahugözlünün dalınca qaçmaq ürəyə məlhəmdir».

Mən dedim: «Həmd olsun Allaha! Allah özü bizim mərcimizə rəvac versin!» Biz sözləşməmizi bağlayıb, and içdik ki, heç bir vəchlə sözümüzü pozmayacağıq. Sonra o, əlimdən tutub dediyi evin qarşısına apardı. Bu ev bir cənnət guşəsinə bənzəyirdi. Evin eni-uzunu qırx gəz idi. Bu evin divarları elə cilalanmışdır ki, hər şey orada əks olunurdu. Otaqda bir böyük qızılgül dəstəsindən başqa heç bir şey yox idi. Biz otağa girdik, xanım qapını arxadan bağladı. Biz bir qədər bir-birimizə baxdıq, sonra qız mənə sataşmağa başladı, göz etməyə başladı və birdən durub qaçdı. Mən əvvəlcə çaşqın qaldım, sonra onun dalınca düşdüm. O qaçdı, mən qaçdım, amma heç cür ona çata bilmədim. Nə qədər çalışdım, qızı tuta bilmədim. Axırda mən əldən düşüb otaqdakı qızılgül topasının üstünə yıxılıb, huşumu itirdim.

Özümə gələndə gördüm ki, bazarda yarıçılpaq vəziyyətdə çəkməçilər oturan sıradayam. Tez bir zamanda başıma çoxlu uşaqlar, gənclər toplaşdı. Kimisi mənə daş, kimisi torpaq atırdı. Onlar məni qabaqlarına qatıb dalımca qaçırdılar.

Nəhayət, bir xeyli qaçandan sonra susatanlar məhəlləsinə gəlib bir hovuzun yanında gizləndim. Divara söykənib nəfəsimi dərmək istəyirdim ki, bir kor əl ağacını yerə döyə-döyə gəldi ki, dəstəmaz alsın. Mənim yanımda durub divara əl gəzdirib mıx axtardı ki, köynəyini assın, əli təsadüfən mənə dəydi. O, köynəyini başıma atıb getdi dəstəmaz almağa. Bu fürsətdən istifadə edib, onun köynəyini üzümə atıb, xəcalətdən ölə-ölə özümü evə çatdırdım. Mən bütün gün həsrətdən pərt-pəjmürdə yanıb-yaxılırdım. Əslində isə, mənim itirdiyimin ən kiçik şey beş yüz qızıl dinar oldu, onunla bərabər ürəyimi ovsunlayan huri-mələyi itirdim və hər yerdə rüsvay-rəzil oldum. Ən qəribəsi isə budur ki, mən harada olduğumu, kimin

evində olduğumu, özünü şahzadə adlandıran o xanımın kim olduğunu hələ də bilmirəm. Ey hökmdar, mən sənə başıma gələnləri olduğu kimi danışdım».

Mənsurun əhvalatını dinləyən Xəlifə qəşş edib, güldü. Sonra o buyurdu ki, ona bahalı bir xələt gətirsinlər və onu ən yaxın əshabələrindən etdi. O hər gün Mənsurdan xahiş edirdi ki, başına gələnləri danışsın, özü isə onu dinləyib ürəkdən gülür, əylənirdi.

## ON SƏKKİZİNCİ HEKAYƏT

# Kazerunlu kərpickəsən Şapurun hekayəti

Deyirlər ki, Fars əyalətinin Kazerun şəhərində bir gənc yaşayırdı. O, daxilən də, zahirən də çox gözəl idi; nur üzlü, pəhləvan cüssəli, mələk xislətli bir insan idi. O, kərpickəsən idi. Səhərdən axşamacan kərpic kəsib iki-üç dirhəm qazanardı. Bu minvalla o, bir qədər dinar yığa bilmişdir.

Gənc kərpickəsənin çox xoş xasiyyəti var idi, həm çox ünsiyyətcil, həm də çox şən adam idi. O, bir çox musiqi alətində çalmağı bacarırdı, amma rübabda xüsusi məharətlə ifa edirdi. Kazerunlu dostları onu həddindən artıq çox sevirdilər və ondan ayrı durmaq istəmirdilər. Kimin evində bir əziz yemək bişərdisə, mütləq onu da dəvət edərdilər, onsuz süfrəyə əl uzatmazdılar. Kərpickəsən bu minvalla qayğıdan, dərddən, fikirdən uzaq, kefi kök, damağı çağ ömrünü sürürdü.

Günlərin bir günü bu kərpickəsən dostlarının məclisində yeyib-içib, danışıb, deyib-gülürdü. Bu arada Bağdaddan təzə qayıtmış yoldaşlarından biri onlara yaxınlaşıb söhbətə qoşulur. Bağdadın gözəlliyindən, möhtəşəmliyindən, şəhər sakinlərinin həyat tərzindən danışır. Bu söhbətlərdən kərpickəsən həvəsə gəlir və Bağdada gedib o həyatı görmək, orada pul xərcləyib gün görmək arzusuna düşür. Həcc ziyarətinin vaxtı yaxınlaşanda o da karvanlardan birinə qoşulub Bağdada yola düşür. Bağdada gəlib çatdıqda görür ki, şəhər təsvir olunandan min qat artıq möhtəşəm və gözəldir. O, karvansaralardan birində yerləşib, özünə mövsümə uyğun, dəbə uyğun bir dəst paltar da alır. O bütün günlərini səhərdən axşamacan şəhərin gözəl, mənzərəli yerlərini, bol, zəngin bazarlarını gəzməklə keçirir və ancaq axşam karvansaraya qayıdırdı. O özünə, zövqünə uyğun, ürəyi istəyən yemək hazırlayır, iki bardaq yaxşı şərab alır, ya bir dost, ya bir gözəl ilə məclis qurub, rübabın, çəngin sədaları altında gözəl qəzəllər

oxuya-oxuya axşamlarını keçirir, sonra başını balışa qoyub şirin-şirin yatırdı. O bu minvalla bir müddət Bağdadda qalır.

Bir dəfə onun ziyarətdən qayıdan yerliləri yolüstü Bağdada girirlər. Onlar kərpickəsəni burada görüb, ona vətənə qayıtmağı məsləhət görürlər, amma onun hələ bir neçə dinarı qaldığı üçün qayıtmaq fikrində olmadığını bildirir. O öz-özünə fikirləşir: «Yaxşısı budur ki, hələ burada bir müddət qalıb kef çəkim, növbəti karvanla vətənə qayıdaram». Belə qərara gələrək o, daha bir müddət yeyib-içib, gəzib-dolanmaq, kef çəkib gün keçirmək məqsədi ilə burada qalır.

Günlərin bir günü o, qəflət yuxusundan oyanıbmış kimi öz halını dərk edib çox pəjmürdə olur, çünki başa düşür ki, cibləri artıq boşdur. O fikirləşir ki, vətənə dönmək vaxtıdır, amma narahat vaxtlar idi, yollar xatalı idi, heç bir karvan cəsarət edib Farsa aparan yola düşmürdü. O nə edəcəyini bilmirdi, əlindəki peşəyə Bağdadda ehtiyac yox idi. İş o yerə çatır ki, o, Bağdad məscidlərindən birinin qapısında oturub dilənməli olur. Məscidə gələnlər hər dəfə ona iki kökə verirdilər, o da buna qane olurdu.

Bu arada ticarətlə məşğul olan əyanlardan biri namaz qılıb dua etmək üçün tez-tez yolunu bu məsciddən salırdı. O hər gün bir saat bu məsciddə olurdu. Günlərin bir günü onun gözü kərpickəsənə sataşır, onu yanına çağırır. O soruşur: «Ay cavan, hansı diyardansan? Niyə bu günlərə düşmüsən? Adın nədir, haradansan, kimlərdənsən?»

Gənc kərpickəsən öz-özünə fikirləşir: «İnsanlar, adətən, qürbətdə olanda özlərinə qarşı rəhmdillik yaratmaq məqsədi ilə ağır hadisələr uydururlar. İndi mən də bir cəhd edim, özümü yazıq birisi kimi təqdim edim». Belə qərara gəlib deyir: «Mən qərib yerlərdənəm, bir hörmətli nəslin nümayəndəsiyəm, adım Şapurdur, evim Kazerundadır. Atam çox adlı-sanlı, varlı-əhvallı, ticarətlə məşğul olan bir əyandır. Adı Abdulladır. Günlərin bir günü gördüm ki, zəvvar karvanı yola düzəlir, məndə də çox böyük bir həvəs yarandı ki, Məkkəyə ziyarətə gedim. Atamdan-anamdan çətinliklə də olsa, izin alıb, Kazerunun adlı-sanlı malından, ərzağından yığıb, bir-neçə nökərlə həmin karvana qoşulub yola düşdüm. Bağdada yaxınlaşanda bizə quldurlar hücum etdi. Nökərlərimi öldürdülər, nəyim var idisə,

talayıb apardılar. Mən dərddən xəstə düşüb, karvandan geri qaldım. Sonra birtəhər özümü şəhərə çatdırıb bir uçuq-sökük karvansarada yerləşdim. Ayağa duranda gördüm ki, hamı tərəfindən atılmış, unudulmuş bir adamam. Çox acınacaqlı vəziyyətdə idim. Əmirə məktub yazdım, kömək istədim, amma cavab gəlmədi, evə qayıtmaq fikrinə düşdüm, amma eşitdim ki, yollarda çoxlu oğru-quldur var, bu fikrimdən də daşındım. İndi isə belə acınacaqlı vəziyyətə düşmüşəm».

Adı Xacə Müzəffər olan bu tacir gəncin danışdığı hekayətə inanır və fikirləşir: «Belə hadisələr çox tez-tez baş verir, bu gəncin səmimiliyinə də inanmaq olar». O deyir: «Ey gənc, qəm etmə, sevin, çünki artıq sənin işlərin düzələcəkdir». O, Şapurun əlindən tutub evinə aparır. Mənzil başına çatanda kərpickəsən çox gözəl bir bağ və bağın içində eyvanlı gözəl bir saray görür. Saray çox gözəl xalılarla döşənmişdir, pəncərələrdən ipək pərdələr asılmışdır, taxtların üstü qumaş üzlü yastıqlarla bəzədilmişdir. Nökərlər, kənizlər əmrə müntəzir dayanmış, tacirin bir-birindən gözəl üç oğlu isə təbəssüm ilə onları qarşılayırdılar.

Xacə Müzəffər Şapuru əyləşdirir, nökərlər həmin dəqiqə şərbət gətirirlər. Adətə uyğun olaraq, tacir əvvəlcə şərbətdən özü içir, sonra Şapura verir. Daha sonra nəfis bir süfrə açılır; südəmər quzu, quş əti, halva və başqa təamlar düzülür. Onlar yeyib qurtardıqdan sonra tacir buyurur ki, bir bağlama yemək hazırlasınlar. O, bağlamanı Şapura verib deyir: «Götür bunu, şamda yeyərsən». Şapur minnətdarlıq edib bağlamanı götürüb məscidə qayıdır.

Səhəri gün Xacə Müzəffər yenə də Şapuru evinə gətirir, yedizdirib-içizdirib, şam yeməyini verib yola salır. Üçüncü gün yenə də həmin qayda ilə tacir Şapuru evinə gətirir, amma bu dəfə süfrənin başında bir qazı da əyləşmişdir. Nahar etdikdən sonra qazı Şapurun əlindən tutub kənara aparıb deyir: «Mənə sənin necə ağır vəziyyətə düşdüyünü Xacə Müzəffər danışmışdır. Səni gördükdən sonra başa düşdüm ki, onun təsvir etdiyindən min qat daha üstün bir insansan. Sən bilirsənmi, o nəyə görə səni hər gün evinə dəvət edir?» Şapur deyir: «Xeyr». Qazı deyir: «Bil və agah ol, bu əyanın ay parçası kimi gözəl bir qızı vardır. Yer üzü yaranandan bəri dünyaya bu gözəllikdə

qız gəlməmişdir. Xacə o qızı öz bədəməl, bədxasiyyət qardaşı oğluna vermişdir.

Günlərin bir günü bu oğlan üç dəfə «ət-təlaq, ət-təlaq, ət-təlaq»,- deyərək qızı boşayır. İndi isə onların yenidən qanuni kəbinlərinin kəsilməsi üçün qız başqa birisinə ərə gedib boşanmalıdır. Ancaq o halda onlar yenidən evlənə bilərlər. İndi o səni tapıb və hesab edir ki, sən bu məsələnin həlli üçün tam uyğun bir adamsan. Sən həm qərib, həm də min bir bəlaya düçar olmuş birisi olduğun üçün bu məsələdə alicənablıq edib ona yardımçı ola bilərsən. Gəl səninlə belə şərt kəsək; bu gecə qız zövcən kimi sənin yanında qalacaqdır, səhər isə sən onu boşayacaqsan. Xacə isə səni hər cür hörmət, ehtiramla, qiymətli hədiyyələrlə karvana qoşub məmləkətinə yola salacaqdır».

Şapur bu təklifi eşidib çox sevinir, ona elə gəlir ki, yuxu görür. Razılıq əlaməti olaraq Şapur əllərini gözlərinin üstünə qoyub deyir: «Mən yüz min dəfə sizin qulluğunuzda durmağa hazıram. Siz məni göstərdiyiniz etimadınızla zirvələrə ucaltdınız». Qazı sevincək deyir: «Mən hakimin köməkçisiyəm və şəriət qaydalarını yaxşı bilirəm. Sən gərək təntənəli şəkildə and verəsən ki, qıza barmağınla da toxunmadan səhər onu boşayacaqsan və çıxıb gedəcəksən. Buna razılıq verərsənsə, elə indi kəbininizi kəsərəm».

Şapur deyir: «Mən bu şərtlərə razıyam və and verməyə də hazıram, amma bir halda ki, dediyinizə görə, mənim yola düşəcəyim karvan sabah səfərə hazırlaşır, and içməyə ehtiyac qalırmı?» Şapurun cavabı qazını təmin edir, o, kəbini kəsir. Elə ki axşam düşür, Şapuru tacirin qızının evinə aparırlar. Şapur içəri keçib görür ki, gözəl, təmtəraqlı taxtın üstündə, dan yeri söküləndə göy qübbəsində par-par parıldayan ulduza bənzər bir gözəl yatmışdır. Bu pərinin gözəlliyi göz qamaşdırır, insan ağlını başından alırdı. Şapur bu gözqamaşdırıcı, füsunkar gözəlliyin qarşısında özünə güc gəlib, özünü toparlayıb «Quran»da «Ya yəkədu»* ilə başlayan surəni oxuyur. O, ömrü boyu bu gözəllikdə huri-mələk görməmişdir. Yuxudan ayılan gözəl də Şapuru görən kimi ona bir könüldən min könülə vurulur. O, Şapuru öz əri ilə müqayisə edib, fərqi hiss edib cani-dildən bu gəncə bağlanır.

Elə ki səhər açılır, qız Şapura deyir: «Əzizim, nə edəcəksən? Qazının köməkçisi gəlib: «boşa!»,- deyəndə nə edəcəksən?» Şapur deyir: «Xanım, mən bir fağır qəribəm, mənim heç kəsim yoxdur, sənin atan, qohum-əqrəban isə varlı-imkanlı adamlardır. Mən onlarla bacara bilmərəm. Şübhəsiz ki, mən sənin xiffətindən ölərəm, amma bir çıxış yolu da tapa bilmirəm. Əgər mənim atam düşdüyüm vəziyyətdən xəbərdar olsa idi, xurcun-xurcun qızıl göndərərdi, mən də canımı bu adamlardan qurtarardım».

Qız deyir: «Sən yenə də bu gün mənimkilərin qarşısında duruş gətir, görək sabah nə olacaqdır? Elə-belə demirlər ki: «Ümidsizlikdə bir ümid vardır». Şapur dedi: «İxtiyar sahibisən! Necə buyursan, elə edərəm».

Onlar bunu müzakirə edirdilər ki, içəriyə kənizlərdən biri daxil olub deyir: «Artıq günəş şüalarını hər tərəfə sərmişdir, ayrılıq vaxtıdır».

Şapur otaqdan çıxanda onu bir Rum nökəri qarşılayıb qonşu otağa aparır, ona şahanə paltar verib, geyinməyini buyurur. Şapur əynini dəyişib tacirin oturduğu otağa keçir. O, tacirin qarşısında əyləşir. Onlar yeyib-içdikdən sonra əl-üzlərini yuyurlar və qazı onu bir tərəfə çəkib içində on qızıl dinar olan pul kisəsi uzadıb deyir: «Sən özünü çox nəcib apardın. Bil ki, tanınmış adamlar belə işləri gizlin həll edirlər ki, ətrafın bundan xəbəri olmasın. Bu şəhər sakinlərinin çoxu sənin yerində olmaq istəyərdi, amma biz səni məhz ona görə seçdik ki, sən qərib adamsan, nə sən burada bir kəsi tanıyırsan, nə də səni tanıyan var. Sən indi İraqa yola düşən karvanla bu şəhəri tərk edəcəksən. İndi isə şərtləşdiyimiz kimi, tacirin qızını boşa və yola düş».

Şapur birdən yüksək səslə dillənir: «Bu nə dərəcədə düzgündür ki, bir adamı evə gətirib, qonaq edib, ədəb-ərkanla kəbinini kəsdirib, sonra da əmr edəsən ki, haqq-halal arvadını boşa get? Məgər şəriət qanunlarını bu qədər pozmaq olar? Məgər siz Allahdan, Peyğəmbərdən qorxmursunuz? Sən ağıllı adamsan, özün bir düşün, mən indi başıma haranın külünü töküm? İndi mən xəlifəyə və ya hakimə şikayət edərəmsə, təsəvvürünə gətirirsənmi nə olar? Sən gəl məni özümdən çıxarıb buna əl atmağa vadar etmə. Sən gəl, məni kimsəsiz, xırda

adam bilmə. Bir on gündən sonra atamın qul-nökərləri gələndə mənim kim olduğumu, nəyə qadir olduğumu biləcəksiniz».

Şapur birnəfəsə qazıya o qədər hədə-qorxu gəldi ki, qazı tacirin yanına gəlib dedi: «Bu adam çox bədxah imiş, belə görünür ki, amalı, məqsədi daha çox pula yiyələnməkdir. Sən ona iyirmi qızıl dinar təklif et». Tacir qazıya iyirmi qızıl dinar uzadıb deyir: «Götür bunları ona ver, onu razı sal, yola sal çıxıb getsin». Qazı qızılları gətirib Şapura uzadanda o elə qışqırır ki, göydəki ulduzlar əsir. Qazı çaşqın halda tacirin yanına gəlib deyir: «Bir az səbir et, görək. Sabah nəyin bahasına olursa – olsun, bu işi yoluna qoyarıq».

Bu arada Şapur qızın yanına gedib hal-qəziyyəni olduğu kimi danışır. Qız deyir: «İşin yarısı görülmüşdür. Sən dediyindən əl çəkmə, dediyinin üstündə dur, görək sabah nə olacaqdır». Səhər açılanda qız deyir: «Əgər bu gün də onlar dediklərini elətdirə bilməsələr, hesab et ki, udmuşuq». Şapur otaqdan çıxanda gördü ki, onu qapıda qazı gözləyir. Qazı deyir: «Sənə otuz qızıl dinar və çox bahalı bir dəst paltar verirlər, götür çıx get, bu məsələni uzatma, çünki heç bir mənası yoxdur. Elə etmə ki, səni hakimlərin yanına aparıb rüsvayçılıqla boşatdırsınlar. Buranın hakimləri haqqında, yəqin ki, eşitmisən».

Qazı nə qədər danışıb, dil töküb, hədə-qorxu gəlir, bunların heç birinin Şapura təsiri olmur. Şapur yenə də qızılları qazının ayaqları altına atıb ona hücum edir: «Sizin bildiyiniz, gördüyünüz, deyəsən, elə ancaq bu qızıldır. Sizə mənim keçirdiyim ülvi hisslər yaddır. Siz anlaya bilmirsiniz ki, mənim hisslərimlə müqayisədə sizin qızıllarınız bir puçdur. Qızıl evdə ailəsini idarə edə bilməyənlər üçün gərək olur».

Bu sözlərdən mütəəssir olan qazı istər-istəməz yenə də tacirin yanına getməli olur. O, Müzəffərə deyir: «Bu gənc könüllü şəkildə sənin qızından əl çəkmək istəmir. Sənin qızın onun qəlbini fəth etmişdir və o bütün ətrafı çirkaba bulamağa hazırdır ki, təki onu boşamasın. Onu hakimin yanına aparmaqdan başqa əlacımız qalmamışdır. Aparaq, bəlkə, hakim onun başına ağıl qoya bildi».

Onlar bu ümidlə hakimin yanına yollanırlar. Tacir Müzəffər hakimə şikayət edir. Hakim Şapuru məhkəməyə gətizdirir. Hakim

Şapuru yola gətirməyə başlayır: «Gəl sən tərslik etmə. Elə etmə ki, sonra sənə zərər dəysin. Sənin fikrini çaşdıran onların qızıllarıdırsa, əmr edim, sənə beş yüz qızıl dinar versinlər, çıx get buradan, əgər belə etməsən, bil ki, səni qanuni yolla boşatdıracağam, çünki sən heç bir cəhətdən onlara uyğun adam deyilsən. Onlar adlı-sanlı, pullu-əhvallı insanlardır, sənin isə nə şan-şöhrətin, nə də var-dövlətin vardır. Sən bu ailənin qızı ilə evlənməyə layiq bir adam deyilsən».

Şapur cavab verir: «Ey hakim, Allah daima səni öz pənahında saxlasın. Sən bir fikirləş, Xilafətdə bu cür qanunsuzluğa, zorakılığa yol vermək nə dərəcədə düzgündür? Doğrudur, mən qəribəm, amma sizin düşündüyünüz qədər kasıbın, kimsəsizin biri deyiləm. Öz şəhərimdə mənim özümə görə ad-sanım, var-dövlətim vardır. Mənim imkanlarım heç də tacir Müzəffərin və onu qohumlarının imkanlarından az deyildir. Mənim başıma bəla gəlmişdir, bu bəladan hamının başına gələ bilər. Bu gün də olmasa, sabah atam düşdüyüm vəziyyətdən xəbər tutub o qədər qızıl-gümüş göndərəcəkdir ki, o nəinki mənə, məndən sonra gələn bütün nəsil-nəcabətimə yetəcəkdir». Şapur bunları hakimə deyib evə qayıdır. O, qızın yanında əyləşib bütün olanları olduğu kimi ona danışır.

Onlar beləcə bütün gecəni oturub, səhərin açılmasını gözləyirlər, səhər açılanda isə onlar təşvişə düşüb hönkür-hönkür ağlamağa başlayırlar. Bir az sakitləşəndən sonra qız Şapura deyir: «Bu gün, yəqin ki, səni şəhər əmirinin yanına aparacaqlar. Qorxuram ki, verdikləri cəzalara dözməyib, məni boşayasan. Onlar sənə olmazın işgəncələr verib, yetərincə döyəcəklər, sonra dar ağacının yanına aparıb, özlərini elə aparacaqlar ki, guya səni asacaqlar, amma əslində onlar bunu edə bilməzlər, çünki bu, şəriətə ziddir. Onlar sənə hər cür hədə-qorxu gələcəklər, əgər sən bunlara tab gətirə bilsən, işgəncələrə dözə bilsən, məni boşamasan, onda qələbə bizimdir, iş bizim xeyrimizə həll olunacaqdır». Şapur deyir: «Məni öldürsələr belə, səni boşamayacağam. Onlar heç kəlbətinlə mənim dilimdən «boşanma» kəlməsini ala bilməyəcəklər».

Səhər otaqdan çıxanda Şapur qapının ağzında əmirin qarovullarını görür. Onlar həmin dəqiqə Şapurun qollarından yapışıb, əmirin

yanına aparırlar. Əmirin yanına gələndə Şapur görür ki, burada hər əmri icra etməyə hazır olan qullar, nökərlər düzülmüşdür. Zəhmli bir döyüşçü də bir tərəfdə durmuşdur. Əmir Şapura tərs-tərs baxdı, sonra isə ürəyi yumşaldı. Əmir artıq işlərin nə yerdə olduğunu yaxşı bilirdi, çünki Müzəffər hər şeyi təfsilatı ilə ona danışmışdır. Əmir astadan sözə başladı: «Niyə bu işin ucundan yapışmısan? Bilmirsən ki, Müzəffər kimi adlı-sanlı bir əyan heç vaxt qızını sənə verməz? Sən gəl bu işdən əl çək, yoxsa, əmr edəcəyəm ki, işgəncələr altında səndən boşanma razılığı alınsın».

Şapur dedi: «Əgər Xəlifə əlahəzrətlərinin paytaxtı Bağdadda heç bir günahı olmayan füqəranın dilindən razılığı işgəncə ilə almaq qaydadırsa, onda mənim heç bir etirazım yoxdur, ixtiyar sahibisiz, necə lazım bilirsiniz, elə də edin».

Şapurun sərt cavabını eşidən əmir əmr edir ki, Şapuru işgəncə dəzgahına bağlasınlar. Nökərlər Şapuru amansızcasına döyməyə başlayırlar. Biçarə Şapura yüzə yaxın qamçı vururlar, amma Şapur boşanmağa razılıq vermir. Onda əmir əmr edir ki, onu dar ağacına aparıb assınlar, sonra isə tikə-tikə doğrayıb atsınlar ki, belə iş görmək istəyənlərə görk olsun. Sonra əmir bir qədər fikirləşib başa düşür ki, bunun heç bir mənası yoxdur, çünki o gənci assalar da boşanma razılığını verməyəcəkdir. Əmir anlayır ki, belə işgəncə nə dövlət, nə şəriət qanunlarına uyğundur və xəlifə bundan xəbər tutsa, nəticəsi yaxşı olmayacaqdır. Bunu belə götür-qoy edib ipi Şapurun boynundan açdırır. Şapur yerə yıxılıb, bir saat huşsuz qalır.

Şapur özünə gələndə birtəhər ayağa qalxıb, səndələyə-səndələyə, yıxıla-dura, söyüd yarpağı kimi əsə-əsə evə yollanır. Onu bu vəziyyətdə görən qız hönkür-hönkür ağlayır. Qız hələ uzun müddət acı-acı ağlayır. Sonra bir az sakitləşib deyir: «Daha bitdi, qurtardı bu əzab-işgəncə. Sən indən belə ağrı-acı çəkməyəcəksən. İndi biz artıq istədiyimiz kimi həyat sürəcəyik. Doğrudur, indi ətrafdakılar çalışacaqlar ki, hər bir vəchlə bizə tələlər qurub, bizi tora salsınlar. Biz gərək bu oyunların hamısını öndən görüb cavablarını hazır edək, çünki ancaq belə halda biz bu işlərdən qurtula bilərik».

Səhəri gün Şapur hamamdan qayıdanda görür ki, hakimin qapısında adamlar dayanmışdır. Onlar Şapuru hörmət-izzətlə hakimin yanına dəvət edirlər. Hakim onu yanında əyləşdirib şirin dil, min bir nəvazişlə yola gətirməyə başlayır. Ona hər cür hədiyyələr, beş yüz dinar təklif edir, amma hamısı boşa çıxır. Axırda Şapur qışqırır: «Ey hakimlərin şahı, mənimlə hörmətlə rəftar etmək lazımdır, həddi-hüdudu aşmadan. Hələ dünən sən mənə deyirdin ki, mən tacir Müzəffərlə qohum olmağa layiq deyiləm. Yaxşı, sən necə mənim nəslimi, nəcabətimi tanımadan, əslimi, soyumu bilmədən blə sözlər danışırsan? Sən bilsən ki, mənim aid olduğum tayfa bu tacir Müzəffərin bütün nəslindən üstündür, atamın malik olduğu var-dövlət tacir Müzəffərin bütün tayfasının var-dövlətindən artıqdır, belə danışmazsan. Atam Fars əyalətindəndir, onu orada tanımayan yoxdur. Orada kimdən atamı-xoca Abdullanı soruşsan, onun necə hörmətli bir tacir olduğunu deyərlər. Mənim anam Məşriqdə, Məğribdə ədaləti ilə ad qazanmış hakim Rükn əd-Din Məsudun qızıdır, o bütün şahzadə xanımların müşaviri və məsləhətçisidir. Mənim bir pis niyyətim olmamışdır, mən, sadəcə, ziyarətə yollanmışdım. Mən özümlə hər cür mal-ərzaq götürüb, bir neçə nökərlə müqəddəs şəhərə yollanırdım. İş belə gətirdi ki, yolda bizim karvan quldurlar basdı, mənim nökərlərim öldürüldü, malım talan edildi, özüm də xəstə düşüb bu şəhərdə qaldım. Mən atama xəbər göndərmişəm və ondan cavab gözləyirəm. O mənə lazımi şeyləri göndərəsidir, sonra özüm qərar verəcəyəm; ya vətənimə qayıdacağam, ya da burada qalacağam».

Hakim Şapuru dinləyib fikrə gedir. Sonra ədalətli bir nəticəyə gəlib, Müzəffər və onun adamlarına müraciət edir: «Daha isti başla qərar qəbul etməyəcəyik. Biz elə qərarlar qəbul etməliyik ki, nə şikayətçinin haqqı tapdansın, nə də haqqında şikayət olan». Sonra o, üzünü Şapura tutub deyir: «Sən dedin ki, atana düşdüyün vəziyyət haqqında xəbər göndərmisən, o da sənə yardım üçün hər bir şey göndərəcəkdir. Əgər bu həqiqətdirsə, onda de görək neçə günə sənə cavab gələr?» Şapur deyir: «Təxminən, iyirmi günə». Hakim deyir: «Elədirsə, mən sənə iyirmi gün möhlət verirəm, əgər bu müddətdə bir xəbər çıxsa, qız sənindir, yox əgər bir xəbər çıxmasa, səni

cəzalandıracağam». Şapur deyir: «Mən razıyam». Hakimin hökmü hər iki tərəfin razılığı ilə dəftərə qeyd olunur və onlar dağılışırlar. Şapur evə gəlib olanları zövcəsinə danışır. Qız çox sevinir və deyir: «Qəm etmə, iyirmi gün böyük müddətdir, bu müddətdə çox şey baş verə bilər, elə-belə demirlər ki: «Sən saydığını say, gör fələk nə sayır» və ya «Mıxı mismar edən Allahdır».

Taleyin pozulmaz yazısına görə,
Bir göz qırpımında min səltənət yerlə-yeksan olar.

Qız hər axşam cürbəcür yeməklər hazırlayır; südəmər quzu bişirir, balıq qızardır, ov quşu ilə düyü dəmləyir, əla şərab gətirib süfrə açırdı. Bu minvalla onlar bir-birindən gözəl axşamlar keçirirlər. Axşam düşən kimi onlar süfrə başına keçib, yeyib-içirdilər, sonra Şapur rübabını sinəsinə basıb yanıqlı musiqilər çalır və həzin musiqilərin müşayiəti ilə Dəclə çayını pəncərədən seyr edə-edə gözəl, qəmgin, onları qarşıda gözləyən ayrılıq nisgilli şeirlər oxuyur və acı göz yaşları axıdırdı. Ondan başqa heç kəs bilmirdi ki, Kazerunda onun nə atası, nə anası, nə də sadaladığı var-dövləti var idi. O, yazığın, fağırın biri idi. O fikirləşirdi ki, bu iyirmi gün bir göz qırpımında qurtaracaq və onu arvadından boşayıb, məsciddən qovulmuş it kimi evdən çıxaracaqlar. Beləliklə, on yeddi gün keçdi.

Günlərin bir günü Harun ər-Rəşid Yəhya Bərməki və Əbbadə ilə bir süfrə başında oturub şərab içə-içə söhbət edirdi. Söhbət əsnasında Harun deyir: «Eşitdiyimə görə, axşamlar şəhər sakinləri qayıqlara oturub çayboyu sahilin, şəhərin gəzintisinə çıxırlar. Mən də istəyərdim belə bir gəzintiyə çıxıb Bağdad gecələrini çaydan seyr edim. Bugünkü aylı gecə buna tam uyğundur, durun çay sahilinə gedək».

Harunun həmsöhbətləri deyirlər: «İxtiyar sahibisiniz». Onlar durub çay sahilinə gedirlər, qayığa oturub Dəclə çayı boyunca gəzintiyə çıxırlar. İş belə gətirir ki, onlar Şapurun evinin qarşısında dayanırlar. Həmin vaxt Şapur eyvanda əyləşib, rübabını çalıb, yanıqlı səslə oxuyurdu. Onlar bu yanıqlı səsi eşidirlər. Şapur ağlaya-ağlaya yanıqlı səslə ayrılıq, intizar, həsrət şeirləri oxuyurdu. Onlar diqqətlə qulaq asıb deyirlər: «Görəsən, belə yanıqlı oxuyan kimdir?»

Xəlifəni maraq bürüyür və o deyir: «Yox, bunu belə qoymaq olmaz! Nəyin bahasına olursa-olsun, bu oxuyanın kim olduğunu və nəyə görə belə yanıqlı oxuduğunu öyrənmək lazımdır».

Sonra o, avar çəkənlərə əmr edir ki, qayığı həzin nəğmə sədaları gələn tərəfə yönəltsinlər. Onlar qayıqdan düşüb evə tərəfə gedirlər, qapını döyürlər. Şapur qapının döyülməsini eşidib qapıya çıxır. O soruşur: «Kimdir?» Xəlifə və onun yoldaşları cavab verirlər: «Dostların. Qonaq istəyirsənsə, aç qapını». Şapur o saat qapını açır və qonaqları içəriyə dəvət edir. Yuxarı otaqlar işıqlı idi, Şapur diqqətlə baxıb görür ki, bu üç nəfər çox nəcib, kübar gənclərin görünüşləri köklərindən, soylarından xəbər verir və onlar adi şəhər sakinlərindən fərqlidirlər.

Şapur o saat gözəl bir süfrə açır. Qonaqlar ev yiyəsinin canfəşanlığını, hörmətini, səmimiyyətini qiymətləndirərək süfrəyə düzülmüş təamlardan dadırlar, sonra Şapurun təklif etdiyi şərabdan içirlər. Şapur rübabını götürüb sinəsinə basır və ürəkləri yandırıb-yaxan, insanın ağlını başından alan, həsrət dolu, nisgilli bir həzin mahnı oxuyur, mahnının bəndləri arasında bir-birindən gözəl qəzəllər deyir. Onun gözlərindən qeyri-ixtiyari acı göz yaşları süzülür. Nəğməsini bitirib Şapur rübabını yerə qoyur.

Müdrik Əbbadə Şapura müraciət edərək deyir: «Ey gənc, biz görürük ki, sən çox alicənab, incə zövqlü, istedadlı adamsan. Görünüşünə görə qərib olduğunu söyləmək olar. De görək haradansan, kimlərdənsən və ağlamağının səbəbi nədir?» Şapur cavab verir: «Eh! Mənim dərdimin dastanı çox uzundur. Əgər mən başlasam danışmağa, qorxuram, əhvalınız pis olar, yükümü sizə salmaq istəmirəm».

Qonaqlar bir səslə dilləndilər: «Yox, yox! Danış, biz məmnuniyyətlə səni dinləyərik. Sən danış, bəlkə, biz sənə kömək də edə bilərik». Qonaqların öz fikirlərində israrlı olduqlarını görən Şapur başına gələnləri bütün təfsilatı ilə danışır. Hakimin yanında olan söhbətə çatanda o, səmimiyyətlə boynuna alır: «Hakim əlahəzrətlərinə yalandan dedim ki, varlı-əhvallı bir nəsildənəm, atamın adı Abdulladır, özü də tacirdir. Dedim ki, atama xəbər göndərmişəm, tez bir zamanda o mənə puldan, paradan, nəyə ehtiyacım varsa, göndərəcəkdir.

Hakim söz verdi ki, atam mənə kömək göndərsə, məndən əl çəkəcəkdir, yox, əgər göndərməsə, dediklərim doğru deyildirsə, məni cəzalandıracaqdır. İş ondadır ki, mənə heç kəs heç nə göndərməyəcəkdir, çünki mənim nə atam-anam var, nə var-dövlətim. Hakim mənə iyirmi gün möhlət vermişdir, bu gün isə artıq on səkkiz gün tamam oldu. İki gündən sonra vaxtım bitir, hakim bizi boşatdıracaqdır və məni cəzalandıracaqdır. Baxın mənim başımda olan dərd-bəla budur».

Şapur öz əhvalatını danışan müddətdə qız da pərdənin arxasında əyləşmişdir. Onun axırıncı sözlərindən sonra qız özünü saxlaya bilməyib hönkürtü ilə ağlayır. Qonaqlar soruşurlar: «Orada ağlayan kimdir?» Şapur deyir: «Zövcəmdir – tacir Müzəffərin qızıdır». Xəlifə tacir Müzəffəri şəxsən tanıyırdı, çünki tacir Müzəffər şəhərin adlı-sanlı adamlarından idi. Xəlifə pərdənin arxasından soruşdu: «Xanım, sən bu gəncin zövcəsi olaraq qalmaq istəyirsənmi?» Qız dedi: «Mən ona canımı verməyə hazıram». Xəlifə dedi: «Onda ürəyini Allaha ver, çünki ancaq O bütün işləri yoluna qoymağa qadirdir. Allah böyükdür, sizin işinizi də yoluna qoyar».

Xəlifə bunları deyib, yoldaşları ilə aşağı enib, evi tərk etdi. Onlar sahilə gəlib qayıqlarına oturub evlərinə yollandılar. Xəlifə saraya çatanda dedi: «Bu gəncə kömək etmək lazımdır. Çünki xeyirxahlıq bu dünyada da, o dünyada da savab kimi qəbul olunur». Onlar öz aralarında məşvərət edib kərpickəsənə kömək etmək üçün bir yol tapdılar.

Xəlifə əmr etdi ki, xəzinəni açsınlar və qırx dəvəni Kazerunun ən məşhur malları ilə yükləsinlər. Qırx dəvəni xalılarla, ipək, qumaş, atlaz parçalarla, qızıl işləməli paltarlarla, əbalarla, cürbəcür təamlarla, qablarla, nəfis işləməli əşyalarla yükləyirlər. Xəlifənin bir həbəş nökəri vardır, o heç vaxt sarayı tərk etməmişdir, bir ins-cins onu tanımırdı. O çox bacarıqlı, ağıllı, işbilən cavan idi. Onun adı Cövhər idi. Xəlifə onu yanına çağırıb olanları, olacaqları danışır və deyir: «Sabah axşam bu yüklü dəvələri şəhərdən elə çıxarmalısan ki, bir Allah bəndəsi bundan xəbər tutmasın».

Sonra xəlifənin adamları Cövhərin ixtiyarına beş çarvadar verirlər, Şapurun, əslində mövcud olmayan, atasının adından bir məktub yazırlar. Məktubda yazılmışdı: «Oğlum, sən gedəndən bəri biz rahatlığımızı, yuxumuzu, sevincimizi, fərəhimizi itirmişik. Artıq bu ayrılığa dözə bilmirik; nə gözümüzə yuxu gedir, nə də boğazımızdan tikə keçir, biz gecə-gündüz sənin nigarançılığını çəkirik. Bizə sənin başına gələnlərin, sənin düşdüyün vəziyyətin xəbəri gəlib çatdı. Bizə çatdırdılar ki, sənin hələ qayıtmaq fikrin yoxdur və bir müddət yenə Bağdadda qalmaq istəyirsən. Mən səndən çox xahiş edirəm bu fikirlərindən daşın. Allah eləməmiş, birdən adımıza, nəslimizə yaraşmayan bir qızla evlənib bizi rüsvay edərsən. Unutma ki, biz vaxtı ilə xəlifənin ən etibarlı tayfalarından biri olmuşuq və o, həmişə bizə himayədarlıq etmişdir. Biz uzun illər onun xidmətində durmuşuq. Mən Xəlifə əlahəzrətlərinə ayrıca məktub göndərirəm, sən bu məktubu mütləq ona çatdır. Bizim heç şübhəmiz yoxdur ki, o sənə hər cür qayğı göstərib ən hörmətli qonağı kimi qəbul edəcəkdir. Mən sənə qırx yüklənmiş dəvə göndərirəm, bu dəvələr bizimdir və onların hamısı bizim Kazerunun malları ilə yüklənmişdir. Sən onlardan istədiyin kimi istifadə edə bilərsən. Əgər evə qayıtmaq qərarına gəlsən, onları bir yerdən satıb, rahat yola düşə bilərsən. Birdən, Allah eləməmiş, evlənmək fikrinə düşsən, bizə xəbər ver, biz sənə daha artıq, nə qədər lazımdırsa mal, pul göndərək ki, sən orada özün üçün rahat həyat qura biləsən. Sən bilirsən ki, bizim tükənməz var-dövlətimiz vardır və səndən başqa isə övladımız yoxdur. İmkan daxilində, çalış tez bir zamanda bizə özün haqqında bir xəbər göndər. Sənə görə ürəyimiz sızıldayır, çox narahatıq».

Yəhya Bərməki Şapura və Xəlifəyə ünvanlanan hər iki məktubu möhürləyib Cövhərə verərək deyir: «Sabah axşam bunların hamısını şəhər darvazalarından içəri keçirərsən və tacir Müzəffərin evinin yerini soruşarsan. Dəvələri tacir Müzəffərin qapısına aparıb Kazerunlu Şapurun orada yaşayıb-yaşamadığını öyrənərsən. Deyərsən ki, Fars əyalətindən gəlmisən, adlı-sanlı tacir Abdullanın nökərisən və bura gəlməyinin məqsədi də onun oğluna xidmət etməkdir və bu dəvələrin hamısı onundur».

Dediyimiz kimi, Cövhər çox fərasətli, bacarıqlı adam idi. O hər bir şeyi dəqiqliyi ilə yerinə yetirdi. Axşam düşəndə Xəlifə, dünən axşam olduğu kimi, Yəhya Bərməki və Əbbadə ilə çay sahilinə düşüb qayığa oturub Şapurun olduğu evə sarı üzürlər. Qayıq sahilə yan alanda onlar düşüb Şapurun evinə gedib qapını döyürlər. Qapını açan Şapur dünənki qonaqlarını görür. Qonaqlar soruşurlar: «Dünən sənə verdiyimiz əziyyətdən sonra özünü necə hiss edirsən?» Şapur cavab verir: «Siz nə danışırsınız, üzrxahlıq edəsi adam mənəm. Mən sizdən üzr istəməliyəm ki, sizi layiqincə qəbul edib, qulluğunuzda dura bilmədim». Qonaqlar içəri keçirlər. Şapur o saat süfrə açıb, evində olan təamlardan düzüb qonaqlara qulluq etməyə başlayır. Yeməkdən sonra onlar şərab içə-içə söhbətə keçirlər. Qonaqlar Şapurdan soruşurlar: «Sənin qohumlarınla çəkişmələrin nə ilə nəticələndi?» Şapur qəmli-qəmli cavab verdi: «Tək bircə sabahkı gün qaldı, sabah hakimin bizə verdiyi müddət tamam olur:

Ürəyimdə işıq saçan bir dolu aysan,
Mən isə, sadəcə, otuz gündür ki, qarşındayam...*

Sabah məni daşqalaq edib, qamçılyaraq Bağdaddan çıxaracaqlar. Bunu deyib Şapur hönkür-hönkür ağlayır. Qonaqların Şapura ürəkləri yanır, onlar Şapuru sakitləşdirməyə, ona ürək-dirək verməyə başlayırlar: «Allah böyükdür, Allah hər zaman bəndəsini qoruyur. Sən ruhdan düşmə, Allah sənin işini də yoluna qoyacaqdır». Şapur deyir: «Dediklərinizin hamısı doğrudur, amma mənim ümid yerim yoxdur, çünki dediklərimin, danışdıqlarımın hamısı yalandır. Mənim Kazerundan gələndə burada satdığım kaftandan başqa bir şeyim yox idi». Qonaqlar deyirlər: «Sən darıxma, Allaha sığın bəlkə, sabah hər işin yoluna düşər». Şapura ürək-dirək verib sakitləşdirdikdən sonra onlar evlərinə gedirlər, Şapurla zövcəsi isə həmin gecə səhəri diri açırlar. Onlar bütün gecəni düşdükləri çıxılmaz vəziyyətin xofundan qovrula-qovrula qalırlar. Onlar hey fikirləşirlər: «Bu vəziyyətdən necə bir çıxış yolu tapaq? Bəlkə, qaçaq buradan?», amma Bağdad kimi şəhərdə insan gözündən gizlənmək mümkün deyildir.

Səhəri gün Şapur hamamdan qayıdıb evin qabağında oturacaqda əyləşmişdir. Birdən hay-küy qopur, karvan təbillərinin səsi eşidilir. Bütün qul-nökərlər qışqıra-qışqıra Şapurun yanına qaçıb gəlirlər: «Muştuluq...muştuluq... Xoş xəbər var. Atanın qulu Cövhər Kazerun nemətləri ilə yüklənmiş qırx dəvəli karvan ilə gəlib çıxmışdır». Qızın qohum-qardaşı bu xəbəri eşidib çox sevinirlər. Karvanı görüb, Şapurun adını eşidən ev sakinləri Cövhəri dövrəyə alırlar.

Ən çətin, dolaşıq düyünləri qızıl aça bilər,
Ən çətin işləri həll edər.
Sən tərəzinin gözünə balaca bir qızıl dənəsi qoy,
Gör o [ qızılın ağırlığından] yerə necə əyiləcəkdir....

Tacir Müzəffərin adamları Şapurun qabağına qaçıb baş əydilər, əlini öpdülər, ondan üzr istədilər. Şapur isə çaşqın halda fikirləşirdi: «Bu dünyada hər cür işlər baş verir, amma beləsini mən heç görməmişdim, eşitməmişdim. Bu Cövhər, yəqin, məni kiminləsə səhv salıb, bunların hamısı bir başqasına məxsusdur. İndi məni o biri çarvadarlar görsə, başa düşəcəklər ki, onların ağası mən deyiləm, onda rüsvayçılıq olacaqdır, rəzil olub, biabır olacağam. Mən kiməm ki mənim üçün qırx yüklü dəvə göndərsinlər? Mənim Kazerunda qarğa qovmağa bir daşım da yox idi».

Şapur fikrində bunları götür-qoy edirdi ki, içəriyə Cövhər daxil olur. O, Şapurla salamlaşıb, ona Allahdan sağlıq diləyib, qoynundan məktub çıxarıb uzadır və deyir: «Atanın, ananın sənə salamları, xeyir-duaları vardır, onlar bütün qohum-əqrəbanla birgə sənin həsrətindədirlər, gözləri yollara dikilmişdir». Cövhər danışdıqca Şapur xəcalətdən pörtürdü, amma bütün bunlara baxmayaraq, o, bir qorxu hissi ilə, həyəcan hissi ilə də olsa, özünü toparlayıb bu işlərin nə ilə nəticələnəcəyini gözləmək qərarına gəlir. O, qapıya göz dikib karvanın əsl yiyəsinin içəriyə daxil olacaq anı gözləyirdi.

Şapur fikirləşir: «İndi karvanın gəlib yetişməsi xəbəri bütün şəhərə yayılacaqdır, karvanın əsl yiyəsi gəlib hər şeyi götürüb aparacaqdır, mənə rəzalətdən, xəcalətdən başqa heç bir şey qalmayacaqdır». Elə bu vaxt Cövhər dillənir: «Ağam, əmr et, dəvələrin yüklərini

düşürüb anbarlara aparsınlar ki, mən də Xəlifə həzrətlərinin hüzuruna gedim. Atanızın ona yazdığı məktubu çatdırmalıyam». Cövhər bunu deyib gedir.

Tacir Müzəffərin oğulları, nökərləri hazır vəziyyətdə durmuşdular, Cövhərin sözlərini eşidən kimi dəvələrin yüklərini düşürüb anbarlara daşımağa başladılar. Sonra onlar dəvələrə yem verdilər, çarvadarları yedizdirdilər. Şapur özünə yer tapa bilmirdi, o hər şeyin faş olub, özünün xəcil olacağından qorxurdu. Nəhayət, gecə düşdü. Bu, hakimin verdiyi möhlətin son gecəsi idi. Bu arada isə Şapurun yanına axın-axın, vaxtı ilə onunla düşmənçilik edib pis rəftar edənlər, ona yuxarıdan aşağı baxanlar gəlib üzrxahlıq edib, peşman olduqlarını bildirirdilər. Onlar gedəndən sonra Şapurun əhvalı daha da pis oldu.

Elə bu vaxt qapı döyüldü, Şapur qapını açanda öz köhnə «dostlar»ını gördü. Şapur onları görüb sevindi, yuxarıya dəvət edib, yenə süfrə açıb, təamlar düzdü, şərab gətirdi. Bir qədər şərab içib, sərməst olduqdan sonra onlar Şapurdan soruşdular: «De görək necəsən? Nə var, nə yox? İşlərin necə gedir? Qohum-qardaşla işlərini yoluna qoydunmu?» Şapur dedi: «Heç soruşmayın. Başıma elə iş gəldi ki, mənə danışan olsa idi, inanmazdım. Səhər oturmuşdum, birdən hay-küy qalxdı, karvan təbilinin səsi eşidildi, qırx yüklənmiş dəvə gəlib durdu qapımın qarşısında. Cövhər adında bir nökər gəlib dedi ki, bəs məni atan göndərmişdir. Bunların hamısını Kazerundan atan sənin üçün yollamışdır. Daha sonra Cövhər qoynundan guya atamın yazdığı məktubu çıxarıb mənə verdi. Məktubu Abdulla adlı bir tacir yazmışdı və bildirirdi ki, bunları mənə göndərir ki, ürəkli xərcləyib, istədiyim kimi həyat sürüm, əgər qayıtmaq istəsəm, bunları satıb yola çıxa bilərəm. Sonra yazır: «Əgər evlənib, ailə qurmusansa, bizə xəbər ver, sənə qızıl-gümüş göndərək ki, ürəkli olasan. Bundan başqa bil ki, vaxtı ilə, bir müddət xidmətində durduğum Xəlifə əlahəzrətlərinə də məktub göndərirəm və məktubda ondan xahiş edirəm ki, sənə himayədarlıq edib, lütfünü əskik etməsin».

Mən bu məktubu oxuyub lap çaşqın qaldım. Belə fikirləşirəm ki, bu, bir yanlışlıqdır, Gövhər bu karvanı səhvən mənə gətirmişdir. Mən indi qorxu içində, karvanın əsl sahibinin gəlib hər şeyə yiyələnib getməsini gözləyirəm. Gözləyirəm ki, həmin adam gəlib hər şeyi

götürəndən sonra mənə qalan xəcalətlə rəzalət olacaqdır. Yox, əgər bunların əsl sahibi ləngiyərsə, bəlkə də, ən çox qorxduğum budur, məni Xəlifənin sarayına dəvət edəcəklər, mən isə heç vaxt ali məclislərdə olmamışam. Təkcə elə Xəlifənin adı çəkiləndə nəfəsim kəsilir. Birdən Xəlifə mənə atam Abdulladan sual versə, nə cavab verəcəyimi bilmirəm. Uzun sözün qısası, bayaqdan dərdim bir idi, indi on oldu».

Qonaqlar dedilər: «Dərd etmə, fikir etmə. Allah böyükdür, o, yaratdıqlarını həmişə pənahında saxlayır. Sən həyatını sür, kef elə, görək sabah özü ilə nə gətirəcəkdir». Qonaqlar bunları deyib, salamatlaşıb çıxıb getdilər.

Şapur gecəni acı fikirlərlə keçirdi, səhəri diri açdı. Səhər açılanda qızın qardaşları onun yanına gəlib, bu vaxtacan etdikləri rəftara, göstərdikləri münasibətə görə üzrxahlıq etdilər. Onlar dedilər: «Sənin qulun Cövhər, axşam gedəndən bəri qayıtmamışdır». Onları dinləyən Şapur isə bir tərəfdən xəcalətdən, digər tərəfdən qorxudan tər tökür, gözlərini onlardan qaçırırdı.

Birdən evin qarşısında şəhər qarovulunun səsi eşidildi. Şapurun rəngi qaçdı, onu soyuq tər bürüdü. Şapur fikirləşdi ki, dəvələrin yiyəsi peyda olmuş və öz malının, əmlakının dalınca gəlmişdir. Bu vaxt qapı açıldı və içəriyə xəlifənin şəxsi qarovulu və nökəri daxil oldu. Onlar Şapurun qarşısına içərisində nəfis libas olan bağlama qoydular. Qarovul Şapura xəlifənin salamını yetirib, onun əvəzindən hal-əhvalını soruşdu. Daha sonra onlar Şapuru geyindirib dedilər ki, Xəlifə onu yanına dəvət edir. Şapur qorxudan söyüd yarpağı kimi əsdi, dili, dodağı qurudu. Şapurun başqa çıxış yolu yox idi, o durub evdən çıxdı. Onun qarşısına dəbdəbə ilə bəzədilmiş, qızıl yəhərli, daş-qaşlarla bəzədilmiş yüyəni olan xəlifə atlarından birini gətirdilər. Ata minməzdən əvvəl mehtər Şapura yaxınlaşıb dedi ki, o, əvvəlcə atın qaşqasını öpməlidir, belə ki, bu, xəlifənin öz atıdır. Şapur atın qaşqasını öpdü, sonra onu minib yola düşdü. Onu Xəlifənin nökərləri müşayiət edirdilər.

Saraya çatanda Şapuru hər cür hörmət-izzətlə Xəlifənin hüzuruna apardılar. Burada Şapur onun qonağı olmuş adamları gördü. Onlardan biri taxtda əyləşmiş, o biriləri isə onun yanında, ayaq üstə durmuşdular. Şapur onları görüb nitqini itirmişdir, bunların nə demək

olduğunu anlaya bilmirdi. ªapur özünə gələn kimi otağın ortasında özünü yerə sərib ağladı. Əbbadə durub Şapurun əlindən tutub xəlifənin yanına gətirdi və dedi: «Xəlifənin əlini öp!». Xəlifənin adını eşidən Şapur özünü lap itirdi. Sonra özünü birtəhər yığıb-yığışdırıb, Xəlifənin ayaqlarına düşüb əllərini öpməyə başladı. Daha sonra Şapur özündə güc tapıb ayağa qalxdı. O, kənara çəkilib, başını aşağı salıb, çaşqın halda, sükut içərisində bir tərəfdə durdu.

Şapur öz-özünə düşünürdü: «Deməli, mənim axşam qonaqlarım bunlar imiş. Mənsə özümü lazımından çox sərbəst, ərkyana aparırdım». Bu vaxt Yəhya Bərməki onu yanına çağırıb dedi; «Sevin və fikir çəkmə. Cövhərın gətirdiklərini, xəlifənin özü sənə göndərmişdir. Onun lütfü sonsuzdur, o, hələ sənə çox yaxşılıqlar edəcəkdir. Hakim və ya əmir isə səni yanlarına çağırarlarsa, heç narahat olma. Biz özümüz tacir Müzəffəri buraya dəvət edib başa salacağıq ki, sənə ehtiramla yanaşsın ki, ətraf da ona baxıb sənə hörmət etsin. Heç nəyin fikrini etmə, hələ çoxları gəlib sənə təzim edəcəklər».

Bundan sonra Şapur bir qədər sakitləşdi, zöhr namazına qədər Xəlifənin sarayında qaldı, daha sonra xəlifənin nökərləri onu evinə yola saldılar. Bundan sonra Şapurun işləri get-gedə düzəlməyə başladı. Əmir ilə hakim xəlifənin sarayında Şapura göstərilən hörmət-izzətdən xəbər tutan kimi qiymətli hədiyyələrlə, paylarla onun hüzuruna təzim etməyə getdilər. Onlar Şapurdan üzr istəyib, rəftarlarına görə peşman olduqlarını bildirdilər. Bu kərpickəsən artıq elə bir hörmət qazanmışdır ki, qayınatası, qayınları, qohum-əqrəba, dost-tanış məsləhətə onun yanına gəlirdilər. Hamının onun məsləhətinə, nəsihətinə, köməyinə ehtiyacı var idi. O, ömrünün sonunadək şad-xürrəm həyat yaşadı.

O ki qaldı qızın birinci ərinə, o öz ömrünü xiffət, həsrət içində başa vurdu.

Bil, ey oxucu, hökmdarlarla ani ünsiyyət bəzən çox böyük uğurlarla nəticələnir.

Əgər sən taleyinə boyun əyib, təslim olsan,
Səni qəm-kədər artıq heç vaxt tərk etməz.

*Bu hekayətin hikməti budur:*

*Xeyirxah adamın heç vaxt xeyirxahlığı səbəbindən ruzi-bərəkəti əskilməz.*

*Onun qapısı bəla qıfılı ilə kilidlənmiş qalmaz, çünki uca Allah həmişə onun xeyirxahlığının qarşılığını verər və xoşbəxtlik qapılarını həmişə onun üzünə açıq edər.*

Allah bu kitabın üzünü köçürənləri, işlərini tələsik görməyənləri, sonra peşmanlıq çəkməmək üçün hirsli, qəzəbli vaxtlarında arvadlarını boşamayanları daima öz pənahında saxlasın. Allah bu kitabı oxuyanı, dinləyəni, tərtib edəni, müəllifini və «Amin!»,- deyən hər bir kəsi qorusun!

## ON DOQQUZUNCU HEKAYƏT

# Şahzadələr, türkmən və qazı hekayəti

Belə nağıl edirlər ki, bir zamanlar şah yaşayırmış, onun da üç övladı var imiş. Bu şahın çox düşməni var idi. İş belə gətirir ki, günlərin bir günü şah ağır xəstələnir. O, oğullarını yanına çağırıb deyir: «Götürün bu üç min qızıl dinarı, onları elə gizlədin ki, heç kəsin xəbəri olmasın. Mən öləndən sonra şahlıq əlinizdən çıxarsa, bu pul ilə iş görüb rahat yaşaya bilərsiniz və heç kəsə möhtac olmazsınız».

Şahzadələr pulları götürüb çıxırlar və onları bir gizli yerdə torpağa basdırırlar. Bir müddət sonra şah dünyasını dəyişir, bu fani dünyanı tərk edib əbədi dünyaya qovuşur. Hökmdarlıq onun oğullarına keçir. Bir gün şahzadələr yığışıb qızıl dinarları çıxarmaq üçün həmin yerə gedirlər, amma oranı açanda görürlər ki, burada cəmi iki min dinar vardır. Şahzadələr bu işə mat qalırlar və deyirlər: «Çox qəribədir! Biz bu dinarları bir yerdə basdırmışdıq və bir Allah bəndəsi bizim bu işimizdən xəbərdar deyildir. Biz üç min dinar basdırmışdıq, indi isə iki min dinar qalmışdır. Əgər bunu bir oğru tapmışdırsa, onda o, bütün dinarları götürərdi. Deməli, pulu götürən üçümüzdən biridir». Heç kəs bunu boynuna götürmədiyi üçün qərara gəlirlər: «Gəlin, qazının yanına gedək, görək o bu işə nə deyir».

Bunu deyib şahzadələrin üçü də yola düzəlir. Yolda onların qarşısına bir türkmən çıxır. O soruşur: «Sizin qarşınıza yolda təsadüfən bir yüklü dəvə çıxmamışdır ki?» Böyük qardaş dillənir: «Sənin dəvən təkgöz idi, kor idi?» Türkmən cavab verir: «Bəli». Şahzadə deyir: «Elə isə, biz onu görməmişik». Ortancıl şahzadə soruşur: «Sənin dəvənin yükü sirkə dolu küplər idi?» Türkmən deyir: «Bəli, doğrudur, mən bazara satmaq üçün sirkə aparırdım». Şahzadə deyir: «Yox, belə olan halda, mən sənin dəvəni görməmişəm». Onda kiçik şahzadə soruşur: «Sənin dəvən quyruqsuz idi?» Türkmən cavab verir: «Tamamilə doğrudur. Mən onun quyruğunu hələ lap balaca olanda,

təsadüfən, kəsmişdim». Şahzadə deyir: «Yox, mən sənin dəvəni görməmişəm».

Türkmən qışqırır: «Yaxşı, siz mənim dəvəmi görməmişsinizsə, onun əlamətlərini haradan bilirsiniz? Tez olun, mənim dəvəmi mənə qaytarın, yoxsa, mən sizi bu saat qazının yanına aparacağam». Türkmən şahzadələrin yaxasından elə yapışmışdır ki, onlar əlacsız qalıb, qazının hüzuruna getməli olurlar. Türkmən qazıya olanları danışıb öz iddiasını irəli sürür. Qazı şahzadələrə müraciət edir: «Bunu necə izah edərsiniz?» Şahzadələr deyirlər: «Bizim heç bir şeydən xəbərimiz yoxdur və biz heç bir dəvə görməmişik». Qazı türkmənin nəyəsə əsaslandığını hiss edir və ondan izah istəyir. Türkmən ona yolda olan söhbəti, dəqiqliyi ilə danışıb, böyük qardaşa müraciət edir: «Yaxşı, onda sən haradan bildin ki, mənim dəvəmin bir gözü yoxdur?» Şahzadə deyir: «Mən, sadəcə, yol uzunu otun bir tərəfdən didilib, o biri tərəfdən isə toxunulmamış qaldığından bu nəticəyə gəldim». Onda türkmən ortancıl qardaşdan soruşur: «Yaxşı, bəs sən haradan bildin ki, dəvəmin yükü sirkədir?» Şahzadə cavab verir: «Mən yolda torpağın bir hissəsinin çürümüş kimi olduğunu gördüm. Adətən, torpağa sirkə töküləndə çürümüş kimi olur». Onda türkmən kiçik şahzadəyə müraciət edir: «Yaxşı, bəs sən nədən bildin ki, mənim dəvəmin quyruğu yoxdur?» Şahzadə cavab verir: «Mən bu qənaətə ona görə gəldim ki, dəvənin quyruğu olanda onun qığı səpələnmiş olur, çünki yeridikcə quyruğunu tərpədir, qığını səpələyir, quyruğu olmayanda isə qığ bir yerə düşüb qalır. Yol uzunu gördüyüm dəvə qığı bir yerə düşüb qalmışdır, ondan bildim ki, bu dəvənin quyruğu yoxdur».

Qazı qardaşların belə diqqətli, zəkalı olmaqlarına heyran qalmışdı. O, türkməni yola salıb, onları otağa dəvət edir və buyurur ki, şahanə bir süfrə açılsın. Qardaşların başı yeməyə qarışanda hakim hiss olunmadan otaqdan çıxır. O, qapının arxasında durub onların söhbətlərinə qulaq asmağa başlayır. Birinci böyük qardaş çörəyin dadına baxıb dillənir: «Bu çörəyin buğdası qəbiristanlıqda yetişdirilmişdir». Qazı mat qalır. Sonra ortancıl qardaş dillənir: «Boşqablarımızda olan ət it südü ilə bəslənmiş quzunun ətidir». Kiçik qardaş

onları dinləyib deyir: «Hələ bunlar nədir ki, bizim məsləhət üçün yanına gəldiyimiz hakim özü isə qeyri-qanuni doğulmuş övladdır».

Qazı bu sözləri eşidib, yerində donub qalmışdır. O əmr edir ki, eşikağasını onun hüzuruna gətirsinlər. Qazı deyir:«Doğrusunu de, bu çörəyin buğdası harada yetişdirilmişdir?» O cavab verir: «O buğda vaxtı ilə qəbiristanlıq olmuş sahədə yetişdirilmişdir». Qazı onu yola salıb, çobanın gəlməsini tələb edir və ondan soruşur: «De görüm, bu quzu öz anasının südü ilə bəslənmişdir, yoxsa başqa qoyunun südü ilə?» Çoban cavab verir: «Doğrusunu bilmək istəyirsənsə, bu quzu it südü ilə bəslənmişdir. O doğulanda anası ölmüşdür, həmin vaxt isə çoban itinin balaları olmuşdur, amma onun da balaları ölmüşdür. Bu quzu mehrini o itə salmışdır, hər dəfə acanda ona sığınıb südünü içirdi». Qazı bu baş verənlərə məəttəl qalmışdı. O durub anasının yanına gedir və qəzəblə soruşur: «Düzünü de, mənim atam kimdir?» Anası çaşqın halda cavab verir: «Sənin atan, bizim şəhərin keçmiş hakimidir». Qazı xəncərini çıxarıb qışqırır: «Səni indi ölümdən ancaq həqiqət qurtara bilər. Doğrusunu de, görüm mənim atam kimdir?»

Oğlunun qəzəbindən qorxmuş ana dillənir: «Sakit ol, mən sənə bu sirri açacağam. Bil ki, mən sənin atanla ailə qurandan sonra illər keçdi, amma mənim övladım olmadı. Mən çox qorxurdum ki, atan məni boşayar, çünki o çox istəyirdi ki, oğlu olsun. Onda mən məcbur qalıb hambalımızla yaxınlıq etdim və sən dünyaya gəldin».

Qazı anasını dinləyib mat-məəttəl qonaqlarının yanına keçir. O, süfrə başına keçib böyük qardaşdan soruşur: «Sən nədən bildin ki, bu çörək qəbiristanlıqda yetişdirilmiş buğdadan hazırlanmışdır?» Böyük qardaş cavab verdi: «Mən çörəkdən dişləyəndə saç yumaq üçün istifadə edilən gilabinin dadını hiss etdim, o gilin iyi mənim yadımda qalmışdır deyə başa düşdüm ki, bu buğda qəbiristanlıqda yetişdirilmişdir».

Qazı ortancıl qardaşa müraciət edir: «Bəs sən necə bildin ki, bu quzu it südü ilə bəslənmişdir?» Gənc cavab verdi: «Çox sadə, mən ətin ağ və qırmızı xətlərinin arasında sarı nəm pərdəni görən kimi başa düşdüm ki, bu quzu it südü ilə bəslənmişdir».

Onda qazı kiçik qardaşdan soruşur: «İndi sən de görüm, sən nədən başa düşdün ki, mən qeyri-qanuni doğulmuşam?» Kiçik qardaş cavab verdi: «Çox sadə, ancaq qeyri-qanuni doğulan adamlar qapı arxasında durub içəridəki söhbətləri dinləmək kimi nalayiq xislətə malik ola bilərlər. Sən isə bizim qarşımıza yeməkləri düzdürüb özün çıxdın ki, qapının arxasından bizim danışığımıza qulaq asasan».

Qazı bu eşitdiklərinə məəttəl qalmışdır. Nəhayət, özünə gələndən sonra deyir: «Şahzadələr, indi buyurun görüm, təşrif gətirməyinizin səbəbi nədir? Deyin, sizə nə lazımdırsa, həll etməyə hazıram». Şahzadələr sözə başlayırlar: «Atamız bizə ölümündən qabaq üç min qızıl dinar vermişdir. Biz o pulları gizli bir yerdə torpağa basdırdıq. Bir müddət sonra pulları götürmək üçün basdırdığımız yerə yollandıq, amma qazanda gördük ki, min dinar əskikdir. Əgər oğru bunu etmişdirsə, niyə pulun hamısını götürməmişdir? Biz başa düşə bilmirik ki, bu nə işdir?»

Qazı dərin fikrə gedir və nəhayət, dillənir: «Bir hadisə yadıma düşdü, istəyirsinizsə, sizə danışım?» Qardaşlar bir ağızdan deyirlər: «Danış».

Qazı sözə başlayır: «Deyirlər, bir vaxtlar bir gənc bir gözələ vurulur və onunla ailə qurmaq istəyir. O çox pul xərcləyib böyük toy edir və gəlini evinə gətirir. Qonaqlar dağılışandan sonra qız oğlana deyir: «Əgər mənim simamda özünə dost, sirdaş görmək istəyirsənsə, əgər ömrünün sonunadək məni yanında görmək istəyirsənsə, əgər istəyirsənsə, mən ömrümün sonunadək ancaq sənə mənsub olum, sənin zövcən olum, məni dinlə. Hələ lap sütül vaxtlarımda bir uşaqlıq dostum mənə dəlicəsinə vurulmuşdur. Bir dəfə o, xəlvət yerdə tutub mənə təcavüz etmək istəmişdir, mən ona yalvarıb demişdim ki, məni rüsvay etmə, ər evinə məsum getməyimə imkan ver. Mən bunun müqabilində ona söz vermişdim ki, toy günü onun yanına gedəcəyəm. İndi özün qərar ver, ya indi sən mənim onun yanına getməyimə razılıq verməlisən, ya da əks halda səhər açılan kimi mən səndən boşanıb həmişəlik onun yanına gedəcəyəm». Gənc oğlan düşünüb-daşınıb belə qərara gəlir ki, qıza icazə verməlidir,

çünki o, qıza elə bağlanmışdır ki, onsuz həyatı təsəvvürünə belə gətirmirdi. O deyir: «İcazə verirəm, get».

Qız ayağa qalxıb gözəl gəlinlik paltarının üstünə çarşab atıb uşaqlıq dostunun yanına yollanır. Yolda ona bir quldur hücum edir. Quldur qıza baxıb görür ki, o, on dörd günlük hilal kimi gözəldir və üstündə olmazın zinətlər vardır. Qızın gözəl paltarı, göydəki ayın işığını zəiflədən mirvari boyunbağısı onun gözəlliyini daha da cazibədar edirdi. Quldur bu gözqamaşdırıcı gözəlliyin qarşısında quruyub qalmışdır. O soruşur: «Sən kimsən və gecənin bu vaxtı hara gedirsən?» Qız başında olan əhvalatı olduğu kimi danışır. Onda quldur deyir: «Əgər sənin qanuni ərin bu alicənablığı edib sənə izin vermişsə, mən nəyə görə nakişilik etməliyəm?! Mən sənin qarşını almayacağam, səni soymayacağam. Get, mən sənə izin verirəm».

Quldur bunu deyib qızı lazımi ünvana qədər yola salıb qayıdır. Qız qapını döyür. Ev yiyəsi qarşısında ilahi gözəlliyə malik gözəl geyimli bir huri-mələk görür. İşığın altında diqqətlə baxanda isə qızı tanıyır və çox sevinir. O soruşur: «Sən necə gələ bildin, haradan gəlirsən?» Qız deyir: «Mən ərimə hər şeyi olduğu kimi danışdım və o mənə icazə verdi ki, sənin yanına gəlim. İş ondadır ki, yolda mənə quldur hücum etdi, mən ona da bizim əhvalatı danışdım və o da məni anladı və dedi: «Sənin ərin çox nəcib insandır, bir halda ki o sənə qarşı belə alicənablıq etmişdirsə, mən də öz alicənablığımı nümayiş etdirəcəyəm». Quldur bunu deyib məni qapıya qədər yola saldı.

Qızı dinləyən gənc deyir: «Əgər oğru-quldur böyüklük edib, sənə qarşı belə nəcib rəftar etmişdirsə, mən niyə ondan geri qalım, mən niyə öz alicənablığımı göstərməyim? İndən belə sən mənim bacımsan». Bunları deyib, gənc oğlan qızı evinə qədər yola salıb, onu haqq-halal ərinə təhvil verir.

Qazı bu hekayəti danışıb qardaşlara müraciət etdi: «İndi deyin görüm, bunlardan hansı biri daha alicənab rəftar etmişdir; ər, quldur, yoxsa qıza dəlicəsinə aşiq olan uşaqlıq dostu? Böyük qardaş dedi: «Ən böyük alicənablığı ər etmişdir», ortancıl qardaş dedi: «Məncə, quldur hamısından artıq alicənablıq nümayiş etdirmişdir». Kiçik qardaş isə dedi: «Mənim fikrimcə isə, özünü ən alicənab aparan, qıza

dəlicəsinə aşiq olan uşaqlıq dostu olmuşdur». Hakim fikrə gedir və bir qədərdən sonra deyir: «Min dinarı ortancıl qardaş götürmüşdür, belə ki, o özünə tay olanı qiymətləndirdi. Elə-belə demirlər ki:

Quşlar göydə qatar-qatar düzüləndə əvvəldən məlum olur ki,
Göyərçin göyərçinin, şahin şahinin yanında olacaqdır...

İndi get o min dinarı gətir və qardaşlarınla öz aranda bölüşdür». Ortancıl qardaş hakimin müdrikliyini çox yüksək qiymətləndirdi və dedi: «Bəli, sən doğru söyləyirsən, Allah sənin müdrikliyini əskik etməsin». Bundan sonra qardaşlar qalxıb hakimlə sağollaşıb öz işlərinin dalınca gedirlər. Zaman keçir, onlar bu fani dünyanı tərk edib, bizlərin də gedəcəyi əbədi dünyaya qovuşurlar. Onlardan isə bizə ancaq bu xoş hekayət qalır.

Allah ağıllı-zəkalı bütün insanları həmişə öz pənahında saxlayıb, onlara qarşı rəhmli olsun! Allah bu kitabın üzünü köçürənləri, dinləyənləri, oxucularını müəllifini və «Amin»,- deyən hər kəsi qorusun!

## İYİRMİNCİ HEKAYƏT

# Padşah, vəzir və adamyeyən itlərin hekayəti

Deyirlər, bir vaxtlar hər il öz vəzirini adamyeyən itinin qabağına atan şah var imiş. Həmin sarayda bir müdrik ahıl da yaşayırmış. Günlərin bir günü o öz dostlarına deyir: «Mən şahın bu hərəkətinin məntiqini anlaya bilmirəm, başa düşə bilmirəm ki, nəyə görə şah hər il vəzirini adamyeyən itinin qabağına atır. Bu il şahdan xahiş edəcəyəm ki, məni vəzir təyin etsin. İstəyirəm bu hərəkətin mənasını anlayım və cəhd edim, bu qəddar adəti ona tərgidim».

Novruz bayramında şah yenə əmr edir ki, vəziri adamyeyən itin qabağına atsınlar. Onda həmin müdrik şahın yanına gəlib, əyilib təzim edir, onun qarşısında yeri öpüb deyir: «Şah sağ olsun, mən artıq dərəcədə rica edirəm, bu il məni, artıq boş olan, bu qorxulu vəzir vəzifəsinə təyin et». Şah deyir: «Bu nə qəribə xahişdir?! Axı sən çox gözəl bilirsən ki, ilin sonunda mən səni o vəhşi itlərin qabağına atacağam, onlar da səni parçalayacaqlar. Sən isə mənə ata əvəzisən, mən buna yol verə bilmərəm».

Müdrik deyir: «Eybi yoxdur, narahat olma, sən məni vəzir təyin et». Şah çox etiraz edir, amma müdrik qoca dediyində israrlı olur. Axırda şah deyir: «Nə deyirəm, indi ki fikrində belə israrlısan, səni vəzir təyin edirəm». Müdrik qoca vəzir vəzifəsinə təyin olunur, o, sarayın işlərini idarə etməyə başlayır. Artıq altı ay keçmişdir. Vəzir dövləti müdrikcəsinə, ədalətlə idarə edirdi. Hamı: əyanlar, xalq, sərbəst camaat, qullar onun idarəçiliyindən çox razı idilər. Altı ayın tamamında vəzir dostlarını, yaxınlarını şahın hüzuruna göndərir ki, öyrənsinlər, görsünlər ki, onu hansı aqibət gözləyir. Şah onlara cavab verir: «Belə atam qəbirdən durub gəlsə də, fikrimdən dönəsi deyiləm, vəziri itlərin qabağına atacağam». Müdrik başa düşür ki, şahın hərəkətində, rəftarında, vəzirlərini vəhşi itlərin qabağına atmasında heç bir məntiq yoxdur, bu, sadəcə, şahın qəddar xisləti ilə əlaqəlidir.

Novruz bayramı ərəfəsində - bayrama üç gün qalmış sarayın bütün əyanları öz aralarında sözləşirlər ki, şah vəziri qətlə yetirməkdə qərarlı olarsa, onu öldürsünlər. Vəzir isə oğullarını, nökərlərini, azad etdiyi qullarını yanına çağırıb, hər birisinə varidatından düşən payı verir, sonra ancaq böyük oğlunun yanında qalmasını buyurur. Ona deyir: «Gözümün işığı oğlum, bu alçaq şah məni parçalamaq üçün itlərin qabağına atdıqdan sonra sən qardaşlarınla gedib mənim sür-sümüyümü yığıb qəbiristanlığa aparıb atamın məzarında basdırarsan».

Oğluna son vəsiyyətini etdikdən sonra onu yola salıb, vəzir öz otağında tək qalır. O, qarşısında nərd açıb, rəml atır. O öz taleyini güzgüdə görüb, ayağa qalxır, bir qədər qızıl dinar götürüb, süfrəyə bir xeyli ət, çörək büküb it damına yollanır. İtlərə baxan keşikçi vəziri görüb ayağa qalxır, onu salamlayır və soruşur: «Ya Vəzir, gecənin bu vaxtı səni buraya gətirən səbəb nədir?» Vəzir cavab verir: «Bu gecə çox qorxulu bir yuxu görmüşəm, sən gərək damı açasan ki, mən itlərə baxım». Vəzir bunu deyib, itə baxanın qarşısına bir ovuc qızıl qoyur.

İtlərə qulluq edən keşikçi o saat vəzirin ayaqlarına düşüb, əllərini öpür və onu it damının yanına aparıb, qapısını açır. Vəzir cəsarətlə dama girib itlərin qarşısına ət və çörək atmağa başlayır. İtlər qarşılarına atılmış ət və çörəyi yeyərək minnətdarlıqla quyruq bulayırdılar. Vəzir evə qayıdır. Növbəti gecə vəzir yenə də süfrəyə xeyli miqdarda ət və çörək büküb, bir xeyli qızıl dinar götürüb və yenə də it damına yollanır. İtlərə baxana qızıl, itlərə yem verib qayıdır. Artıq üçüncü gün buraya gələndə itlər vəziri tanıyıb quyruq bulamağa başlayırlar, vəzir onların qarşısına ət, çörək atıb onları sığallayıb, onlarla söhbət edir. Bu minvalla novruzdan əvvəl düz üç gün vəzir itləri beləcə bəsləyir.

Elə ki, Novruz bayramı yetişir şah əshabələri və xalqla şəhər meydanına təşrif buyurur. Şah əmr edir ki, vəzirin əl-ayağını bağlayıb açıq başla meydana gətirsinlər. Müdrik vəzir üzünü şaha tutub deyir: «Mənə elə gəlir ki, il ərzində şahın qarşısında mənə həvalə edilmiş işin öhdəsindən ləyaqətlə gəldiyimə, illər uzunu şaha göstərdiyim sədaqətə, xidmətə görə mənim bir mərhəmətə haqqım

çatar, elə deyilmi?» Şah deyir: «Bəli, elədir, buyur, son istəyini izhar et!» Vəzir təmkinlə dillənir: «Rica edirəm, məni itlərin qabağına atma, onların məni parçalamasını rəva bilmə. Mən istəmirəm ki, dostlarım kədərlənsin, düşmənlərimiz isə sevinsin. Yox, əgər bu alicənablığa qadir deyilsənsə, heç olmasa, əmr et ki, məni itlərin qabağına atmazdan əvvəl onları yedizdirməsinlər ki, əzabım uzun olmasın, məni tez parçalasınlar. İkinci xahişim isə budur ki, itlər məni parçaladıqdan sonra sür-sümüyümü oğullarıma ver ki, dəfn etsinlər».

Şah deyir: «Mən sənin xahişlərini yerinə yetirəcəyəm». Bunu deyib şah göstəriş verir ki, itləri yedizdirməsinlər. Elə ki gecə düşür, vəziri soyundurub it damına atırlar. Ac itlər qabaqlarına atılmış bədbəxt vəziri görən kimi hiss edirlər ki, bu onları yedizdirən adamdır. Onlar quyruq bulayıb, onun qarşısında-ayaqlarının dibində yerə sərilirlər. Vəzir fikirləşir: «Onlar elə bilirlər ki, mən yenə onlara yem gətirmişəm, mən isə onlara bu dəfə bir şey gətirə bilməzdim, onlar indi məni parçalayacaqlar. Yaxşısı budur ki, Allahın qabağında payəndaz olub bu dünya ilə ləyaqətlə vidalaşım».

Bunları fikirləşib vəzir üzü üstə yerə sərilib, Allaha dua etməyə başlayır. İtlər isə vəzirin onlara yenə də yemək verəcəyinə ümid edərək onun yanında bir qədər fırlandıqdan sonra başlarını onun ayaqlarının üstünə qoyaraq yatırlar. Səhər açılanda itə baxan gəlir ki, vəzirin sür-sümüyünü yığıb oğullarına versin, onlar da aparıb dəfn etsinlər. Ac itlər qapı açılan kimi onun üstünə cumub parçalayırlar. Bu xəbər o saat şaha çatır. Ona deyirlər ki, vəzir sağ-salamat itlərin əhatəsində əyləşmişdir, itə baxanı isə itlər parçalamışlar.

Şah bunu eşidən kimi ayaqyalın, başıaçıq saraydan çıxıb it damına tərəf qaçır. Vəzir onun qarşısına çıxıb, ayaqlarına düşüb ona təriflər deyir. Bunun müqabilində şah da öz növbəsində vəzirin qarşısında təzim edib deyir: «Səni and verirəm uca Allaha, doğrusunu de, sən ölümün pəncəsindən qurtarmağı necə bacardın? Necə oldu ki, bu yırtıcılar səni parçalamadı? Görünür, sən bu dünyada o qədər xeyirxahlıq etmisən ki, bu qorxunc, vəhşi yırtıcılar da sənə qıymamışlar!»

Vəzir deyir: «Şah sağ olsun! Mən xüsusi bir iş görməmişəm, amma sənə bir həqiqəti deyə bilərəm. Mən illərdən bəri sənə

sədaqətlə, dəyanətlə xidmət etmişəm, bir dəfə də olsun səhlənkarlıq etməmişəm, bütün bunların müqabilində sən məni itlərə atdırdın. Bu itləri isə mən, sadəcə, cəmi üç gün ərzində yedizdirmişəm. Onlar bunun müqabilində, məni parçalayıb yemədilər. Qoy xalq görsün və nəticə çıxarsın. Sən özünü adil hökmdar sayırsan, amma həyatı boyu sənə, dövlətə sədaqətlə xidmət edən birisini dəyərləndirməyə qadir olmadın. Adi it isə cəmi üç gün onu yedizdirənin qədir-qiymətini bilib ona dəymədi. Belə olan halda, adi bir it də hökmdardan üstündür».

Uca Allah daima nəcib-nəcabətli, alicənab-mərhəmətli bəndələrini öz pənahında saxlasın! O insanları qorusun ki, Allahın yaratdığı bütün məxluqata əmanət olaraq yanaşır. Belə olanlardan heç kəsə, heç nəyə xətər dəyməz. Hər iki dünyanı yaradan uca Allah bu kitabın üzünü köçürəni, oxuyub-dinləyəni, müəllifini, bütün möminləri və «Amin!»,- deyənləri qorusun!

# İYİRMİ BİRİNCİ HEKAYƏT

## Ləvvahə ilə zərgər Xacə Bişrin hekayəti

Söz danışıb, söhbət edənlər belə nəql edirlər ki, Nişapurda Xacə Ləvvahə adında bir adlı-sanlı əyan yaşayırmış. O, əsil-nəcabətli və səxavətli birisi imiş. Günlərin bir günü o bütün möminlərin ibadətgahı olan Məkkə ziyarətinə yollanmaq fikrinə düşür. O, yol tədarükünü görüb, yolda lazım ola biləcək bütün şeyləri hazırlayıb böyük bir karvana qoşularaq yola düşür. Bağdadın yaxınlığında quldurlar karvana hücum edib onu talan edirlər. Hər bir şeyi əlindən çıxmış, pulsuz-parasız qalmış Ləvvahə dərd-qəm içində karvanın ardınca düşüb güc-bəla ilə Bağdada yetişir. Onun nə yeməyə bir şeyi, nə də bir dirhəm pulu var idi. Öz görünüşündən, vəziyyətindən utanan Ləvvahə düz üç gün bir məscidin küncündə gizlənib qalmışdır.

Karvanın yoluna davam etməyə hazırlaşdığını eşidən Ləvvahə utanmaq hissini boğaraq məscid xadimlərindən birinə müraciət edir: «Ey nəcib insan, mənə bu şəhərdə elə bir mərhəmətli adam göstərə bilərsən ki, mənə yardım etsin, karvandan geri qalmayım, o müqəddəs ziyarətimi başa çatdırım?»

Məscid xadimi cavab verir: «Bizim məhəllədə bir nəcib əyan yaşayır, çox səxavətli və mərhəmətli birisidir. Ona pənah gətirən əliboş qayıtmır. Adı Xacə Bişrdir, zərgərdir. Onun yanına gedib, ondan yardım istəsən, səni namurad qoymaz».

Ləvvahə o saat oraya yollanır. Xacə Bişrin dükanına girib onu salamladıqdan sonra başına gələnləri olduğu kimi danışıb, çıxılmaz vəziyyətə düşdüyünü bildirir. Ləvvahə deyir: «Mən bir əsilzadəyəm, oxumuş adamam, niyyətim Məkkə ziyarətinə getmək idi. Özümlə kifayət qədər pul-para, mal götürmüşdüm, amma yolda karvana quldurlar basqın edib, nəyim vardısa, əlimdən aldılar. Ümidim tək sənədir, çox rica edirəm, mənə tutduğum yolu davam etdirmək üçün

yardım et, mən də bu yaxşılığının müqabilində ömrümün sonunadək sənə dua edərəm».

Təsadüf belə gətirmişdir ki, Xacə Bişr həmin gün çox əsəbi idi, çünki düşmənlərindən birinə çox qəzəblənmişdir. Ona görə də o çox etinasızcasına deyir: «Get, sabah gələrsən, bəlkə onda sənə kömək edə bilərəm». Əslində, bəlkə də, bu ən ağıllı, düzgün bir qərar idi, amma Ləvvahə bu cavabdan çox inciyir, çünki bu vaxtacan heç kəs onunla belə rəftar etməmişdir. Ləvvahə ürəyi sınmış, pəjmürdə halda götür-qoy edirdi ki, ağlına belə bir fikir gəlir: «İnsanlar çətin vaxtlarında Allaha sığınırlar və müqəddəs kitaba müraciət edirlər ki, dərd-bəladan qurtulsunlar». Bunu fikirləşərək Ləvvahə məscidə yollanır, «Quran»ı açır, istixarə edir və onun bəxtinə bu misra çıxır: «Ləvvahətun lil-bəşəri a'əlayha tis' əta' əşərə».* Ləvvahə müqəddəs kitabda bu ifadəni oxuyub ayağa qalxır, «Quran»ı qoltuğuna vurub düz hakimin hüzuruna gedir. Hakimin yanına keçib deyir: «Allah cənab hakimin ömrünü uzun eləsin! Mən bir qəribəm, uzaq qürbətdən gəlmişəm və bizim bir din qardaşımız - müsəlmandan şikayətçiyəm. O mənə on doqquz qızıl dinar borcludur».

Hakim şikayətçini dinləyən kimi icraçını çağırıb deyir: «Bu adamla get və borclu olanı buraya gətir». İcraçı Ləvvahə ilə Xacə Bişrin dükanına yollanır.

İcraçı zərgərə müraciət edib deyir: «Ya Xacə Bişr, mənim ağam - hakim sənin onun hüzuruna gəlməyini buyurmuşdur». Hakimə böyük ehtiramı olan Xacə Bişr, ağlına heç bir şey gətirmədən qalxıb onun yanına yollanır. Hakim Bişri görən kimi ehtiram əlaməti olaraq ayağa qalxıb onu salamlayır və yanında əyləşdirir. Hakim Bişrdən soruşur: «Ey möhtərəm Xacə, hansı məsələ ilə bağlı bizə bu qədər ehtiram göstərib təşrif buyurmusan?» Xacə Bişr cavab verir: «Möhtərəm hakim, məni buraya sənin icraçın gətirmişdir».

Bunu eşidən hakim icraçının üstünə qışqırmağa başlayır: «Sənə kim əmr vermişdir ki, möhtərəm Xacəni narahat edəsən?» İcraçı cavab verir: «Bu qərib. Axı sən özün əmr etdin ki, onunla gedib borclunu buraya gətirim». Onda hakim Lavvahəyə müraciət edir: «Ey qərib, sənin bu mötəbər əyandan nə şikayətin vardır?» Ləvvahə de-

yir: «Allah bizim möhtərəm hakimin ömrünü uzun etsin! Bu əyanın mənə on doqquz dinar borcu vardır. Çox rica edirəm əmr et mənim pulumu qaytarsın».

Hakim deyir: «Möhtərəm Xacə, sən nə deyə bilərsən?» Bişr cavab verir: «Mən bilmirəm söz hansı borcdan gedir». Hakim çaşqın qalmışdır, Bişri yaxşı tanıdığı üçün bilirdi ki, o, min dinarından da keçməyi bacaran bir mərddir. Hakim Ləvvahəyə müraciət edərək deyir: «Sənin ittiham etdiyin şəxs özünü günahkar saymır, əgər sübut-dəlilin varsa, buyur».

Ləvvahə həmin dəqiqə qoltuğundan müqəddəs «Quran»ı çıxarıb hakimin qarşısına qoyur və deyir: «Cənab hakim, bil və agah ol ki, mənim valideynlərim mənə Ləvvahə adını vermişlər. İndi de görüm, bu cənabın adı nədir?» Hakim deyir: «Onun adı Bişrdir». Ləvvahə deyir: «Elədirsə, bu müqəddəs kitaba bax, burada yazılmışdır: «Bişr Ləvvahəyə on doqquz borcludur». Ləvvahənin fərasətinə heyran olan hakim ürəyində gülümsəyərək başa düşür ki, qarşısında duran adam iti ağıla malikdir. Hakim dillənir: «Bəli, möhtərəm Xacə Bişr, indi sən on doqquz dinar ödəməli olacaqsan».

Xacə Bişr həmin an pul kisəsindən on doqquz dinar çıxarıb Ləvvahəyə verir və çıxıb gedir. Ləvvahə qızıl dinarları cibinə qoyub qapıya tərəf gedirdi ki, hakim onu səsləyir: «Yox, tələsmə, bizdən ehtiramını əsirgəmə, bir az bizimlə otur. Səninlə işim vardır».

Ləvvahə qayıdıb əyləşir. Hakim isə ürəyində fikirləşirdi: «Əgər bir qərib fərasəti, bacarığı hesabına mənim kimi təcrübəli adamın gözləri qabağında on doqquz dinara yiyələnərsə, böyük ədalətsizlik olar». Hakim Ləvvahənin əlindən tutub onu öz otağına aparır. Onu otuzdurub deyir: «Mən sənə bir sual verəcəyəm, əgər doğru cavab versən, on doqquz dinarın üstünə iyirmi dinar da mən əlavə edəcəyəm, onları götürüb gedərsən, yox, əgər doğru cavab verə bilməsən, on doqquz dinarı da burada qoyub əliboş çıxıb gedəcəksən».

Ləvvahə deyir: «İxtiyar sahibisən. Şərtlərini qəbul edirəm». Onda hakim əmr edir ki, süfrə açılsın, ziyafət qurulsun və bütün ailə üzvləri toplaşsın. Masaya bircə dənə qızarılmış toyuq gətirilmişdir, masanın arxasında isə beş nəfər əyləşmişdir. Hakim deyir: «Ey Ləv-

vahə, bu toyuğu beş yerə elə böl ki, hamı razı qalsın və heç kim ona düşən paya görə inciməsin».

Ləvvahə həmin an əlini uzadıb toyuğu götürür, toyuğun başını üzüb hakimin qarşısına qoyur, belini, arxa hissəsini hakimin zövcəsinin qarşısına qoyur, qanadlarını hakimin oğullarına verir, qalan ən dadlı, yeməli hissələrini isə öz boşqabına qoyur.

Hakim qəzəblənib deyir: «Bu nə mənasız bölgüdür? Mənim qarşıma itlərin belə yemədiyi başı qoydun, zövcəmə toyuğun arxasını, oğullarıma qanadlarını verdin və ən dadlı, yeməli hissələrini özünə götürdün. Bu bölgünü bir başa sal görüm».

Ləvvahə deyir: «Allah cənab hakimin ömrünü uzun etsin! Hamıya məlumdur ki, hər yerdə şəhər sakinlərinin başçısı hakimlərdir, ona görə toyuğun başı ilə boynunu sənə verdim, bütün dünyaya məlumdur ki, insanın ömrü ana bətnindən başlayır, ona görə büzdümü xanıma verdim, o ki qaldı qanadlara, hamı bilir ki, valideynləri qanadlandıran oğullardır, ona görə də onları oğullarına verdim. Mən isə özümə uyğun olan; başsız, qanadsız, bel sütunu olmayan hissəni götürdüm.

Başımı əymişəm sənin önündə,
Allahın yazısına həmişə şükür et.
Toyuğun başını mən sənə verdim,
Bil ki, sənin bəxtinə şöhrət yazılıbdır.
Ana hər bir evin bel sütunudur,
Verdiyim tikənin də səbəbi budur.
Sizi pərvazlandıran iki oğlunuzdur,
Bu səbəbdən onlara qanad düşür.
Kasıbdır, varlıdır heç fərqi yoxdur,
Ev yiyəsi qonaqdan heç nəyi əsirgəməz».

Hakim Ləvvahəni dinləyib, onun apardığı bölgünün ədalətli olduğunu qəbul edir və deyir: «Götür öz qızılını, get evinə, sabah gələrsən, bir sual da verəcəyəm sənə».

Ləvvahə qızıl dinarları götürüb məscidə yollanır. Səhəri gün Ləvvahə səhər tezdən, bütün şikayətçilərdən əvvəl gedib hakimin qapısını kəsdirir. Nəhayət, hakim gəlib çıxır. O bütün şikayətçiləri,

iddialıları dinləyib, Ləvvahənin əlindən tutub öz otağına aparır. O, Ləvvahənin qarşısına qırx qızıl dinar qoyub əmr edir ki, dörd qızardılmış toyuq gətirsinlər, sonra deyir: «İndi bu dörd toyuğu beş nəfərin arasında elə böl ki, bu həm ədalətli olsun, həm də hamı razı qalsın. Bunu bacarmasan, bütün qızıllarını burada qoyub getməli olacaqsan».

Ləvvahə böyük həvəslə cavab verir: «Böyük məmnuniyyətlə!». O, toyuqları bölməyə başlayır. O, bir toyuğu hakimlə zövcəsinin, birini iki qardaşın qarşısına qoyub, qalan iki toyuğu öz qarşısına qoyur.

Hakimin rəngi qəzəbdən qaralır və qışqırır: «Bu nə ədalətsiz bölgüdür; mənimlə xanıma bir toyuq, iki oğluma bir toyuq verirsən, özünə isə iki toyuq götürürsən? Bu, heç bir çərçivəyə sığmır!»

Ləvvahə təmkinlə dillənir: «Sən əvvəlcə məni dinlə, sonra qəzəblən». Hakim deyir: «Nə olar, başa sal!» Ləvvahə sözə başlayır: «Sən, xanımın və bir toyuq bir yerdə nə qədər edir?» Hakim cavab verir: «Üç». Ləvvahə yenə soruşur: «Yaxşı, iki oğlun və bir toyuq bir yerdə neçə edir?» Hakim cavab verir: «Üç». Bu dəfə Ləvvahə yenə sual verir: «Bəs iki toyuq və mən bir yerdə neçəyə bərabərik?» Hakim yenə cavab verir: «Üçə». Ləvvahə ucadan deyir: «Belədirsə, onda dinlə, gör şair nə demişdir:

Sən, xanım, toyuq bir yerdə üçə bərabərsiniz,
İki oğlun bir toyuq üç edir, bu da şübhəsiz.
İki qalan toyuq və mən üçə bərabəriksə,
Nəyə görə bu iki toyuğu mənə qıymırsınız?

Mənim bölgüm doğru və ədalətlidir və burada haqsız olan tək sənsən!»

Hakim bu cavabın qabağında etiraz edə bilmir və deyir: «Rica edirəm, bu qızılları götürüb gedəsən. Səni quldurlar soymuşlar, indi də sən bizi talayırsan. Səni inandırıram ki, əgər bütün məmləkətin varı-dövləti mənə məxsus olsa və mən səninlə mərc kəsməyi davam etsəm, sən məni quru yurdda qoyarsan. Çox rica edirəm, sənin qızılına mən bir miqdar da əlavə edirəm, bizi tərk edib get».

Ləvvahə qızılları götürüb çıxır. O, tez bir zamanda yol tədarükünü görür və həcc ziyarətinə yollanır. Qazandığı qızıllar onun bütün xərclərini ödəyir.

*Bu hekayətin hikməti ondadır ki, elm, bilik, zəka həmişə, hər yerdə kasıba da, varlıya da gərək olur, onlardan heç kəsə zərər gəlməz.*

Hər iki dünyanın sahibi - Uca Allah bu kitabın üzünü köçürəni, dinləyəni, yazanı və «Amin»,- deyən hər kəsi öz pənahında saxlasın!

# İYİRMİ İKİNCİ HEKAYƏT

## Karvan, xəsis kişi və Hatəm Tayinin qəbri haqqında hekayət

Deyirlər ki, ərəb tayfalarının arasında belə bir adət var imiş: istər karvan, istər tək yolçu olsun, Hatəm Tayinin məzarı olan ərazidən keçirdisə, orada dayanıb, bu dünyanın ən səxavətli kişisinin adına qurban kəsməli idi.

Günlərin bir günü bir böyük karvanın yolu buradan düşür. Karvanın başında duran çox nəcabətli, varlı və səxavətli birisi idi. O, yolçulara dayanıb qurban kəsməklərini buyurur. Yolçuların hamısı yekdilliklə razılıqlarını bildirirlər. Allah bütün xəsislərə lənət etsin, bircə nəfər etiraz edir.

O deyir: «Biz uzaq, çətin yol gəlirik, yurdumuza çatdıqda qurbanımızı kəsərik, həm də mənim vur-tut bircə dəvəm vardır, o da ayaq üstə zorla durur». Tacir yalan danışırdı, onun kifayət qədər dəvəsi var idi, amma o qədər ağlayıb-zarıdı ki, hamı ondan əlini üzüb, üz çevirdi.

Karvan məzardan uzaqda dayanmışdı. Gecə karvanbaşının yuxusuna Hatəm Tayi gəlir. Hatəm Tayi onu salamlayıb deyir: «Yerin, göyün sahibi o Uca Allah səni və sənin kimi comərd bəndələri mənim məzarıma ehtiram göstərib qurbanlar verdiyiniz üçün daima öz pənahında saxlasın, o, dəvəsini əsirgəyib, qurban kəsməyən rəzilə isə lənət eləsin! İndi ki o belə etdi, mən onun dəvəsini öldürtdürəcəyəm, siz isə burada qalın, mən sizin gəlişiniz barədə oğluma xəbər göndərmişəm, o gəlib sizə ziyafət verəcəkdir, onunla çörək kəsməmiş getməyin».

Karvanbaşı yuxudan qorxu içində ayılır, həyəcanlı halda yol yoldaşlarını başına yığıb yuxuda gördüklərini, Hatəm Tayinin dediklərini onlara danışır. Bu yuxu hamını heyrətləndirir.

Səhər açılanda hamı həmin xəsis yolçunun qışqırığına oyanır. O qışqırırdı: «Mənim dəvəmin başını kimsə kəsmişdir....». Hamı qaçıb

gəlir. Həqiqətən, dəvənin başı kəsilmişdir, qanı hələ də axırdı. Camaat məəttəl qalmışdır....

Səhər açılanda, günəş qalxıb hər tərəfi işıqlandıranda uzaqdan bir dəstə atlı görünür. Atlıların qabağında, ərəb atının üstündə, başının üzərində dalğalanan bayraqla bir heybətli cəngavər gəlirdi. Yolçular əvvəlcə onları quldur bilib qorxurlar, dəstədən ayrılıb onlara tərəf gələn atlı onları sakitləşdirərək deyir: «Qorxmayın, gələn Hatəm Tayinin oğlu Ədadır».

Xəbəri eşidən yolçular durub onun pişvazına çıxırlar. Əda atdan enib karvanın böyüyü ilə qucaqlaşıb görüşür, daha sonra hamı ilə ayrı-ayrı çox səmimi görüşərək hal-əhval tutur. O əmr edir ki, çadırlar qurulsun, düşərgə salınsın, süfrələr açılsın, təamlar düzülsün və ziyafət başlansın. Bütün yolçular süfrə başına keçib bu ləziz təamlardan yeyib, gülablı şərbətlərdən içib istirahət edirlər.

Elə ki yemək süfrələri yığışdırıldı, Əda karvanın böyüyünə müraciət etdi: «Gecə yuxuda atamı gördüm. O mənə karvanın nəcib başçısından və onun adamlarından çox razılıq etdi, dedi ki, onların hər biri mənim adımı uca tutub öz dəvələrini qurban kəsmişlər». Ancaq dəvəsini qıymayan xəsisdən şikayət etdi və mənə tapşırdı ki, dəvəsini əsirgəməyib qurban kəsmiş hər kəsə dəvəsinin əvəzinə on dəvə verim, çünki Allah öz müqəddəs kitabında buyurmuşdur: «Xeyir iş görənin qabağına onun on misli çıxar, bəd iş görənin qarşısına isə elə o qədəri....».

Sonra Əda əmr etdi ki, dəvələri buraya gətirsinlər və o, Hatəm Tayinin adına bir dəvə qurban kəsmişlərin hər birinə on dəvə bağışladı. Dəvələri paylayandan sonra Əda dedi: «Atam əmr etdi ki, sizə yaxşı bələdçilər də qoşum ki, sizi həm təhlükəsiz yollarla aparsın, həm də tez bir zamanda yurdunuza çatdırsın».

Ədanın bələdçilərinin rəhbərliyi ilə karvan yola düzəldi. O xəsis isə karvanın quyruğunda ac, miskin bir vəziyyətdə ayaqlarını zorla sürüyə-sürüyə gedirdi, çünki belə xəsis və xeyirverməz kəslərin aqibəti də belə acınacaqlı olur. Karvan yolçuları isə bütün yol boyu olanlardan deyib-danışıb, Hatəm Tayinin ruhuna dua edirdilər.

*Bu hekayətin hikməti budur ki, insan həmişə xeyirxahlıq edib, əldən tutmağı, səxavətli olmağı bacarmalıdır, çünki bu işlərin əvəzi adama on misli ilə qayıdır. Bu, xüsusi ilə əsilli-köklü adamlara aiddir, belə ki:*

*Nə qədər ki həyatdasan, çalış yaxşılıq elə,*
*Qoy bu işdə qələmin yardımçın olsun!*

Allah bu kitabın üzünü köçürəni, dinləyəni, yazanı öz pənahında saxlasın. Amin!

## İYİRMİ ÜÇÜNCÜ HEKAYƏT

# Sultan Mahmud haqqında müxtəlif hekayətlər

**I.** Deyirlər ki, günlərin bir günü Nasriəddin Səbuktəkinin oğlu Sultan Mahmud - Allah ona yar olsun! - ova yollanır və özü də bilmədən yoldaşlarından ayrı düşüb bir səhraya gəlib çıxır. Nə qədər çalışırsa, atını gah sağa, gah sola, gah irəli, gah geri çapır, yolu tapa bilmir. Artıq aclıq, susuzluq onu üzməyə başlayır.

Xoşbəxtlikdən uzaqdan başında zənbil olan bir qocanın gəldiyini görür. Atını onun yanına çapıb soruşur: «Ağsaqqal, zənbilindəki nədir?» Qoca cavab verir: «Zənbilimdəkilər almadır, onları yer üzünün hökmdarı Sultan Mahmuda aparıram ki, bəlkə, mənə rəhmi gələ, yardım edə, mənim yardıma çox böyük ehtiyacım var, çünki yaşım çox olsa da, övladlarım körpədir».

Mahmud deyir: «Sən mənə o almalardan bir-iki dənəsini ver, mən də sənə söz verirəm ki, özüm şəxsən sənin xahişini sultana çatdıracağam».

Qoca sevincək zənbilini açır və deyir: «Nə qədər istəyirsən, götür!» Sultan ciblərini alma ilə doldurub, atını çapır. Dadlı-sulu almalardan yeyə-yeyə gedib öz dəstəsinə yetişir.

Sultan öz atlılarına çatanda hələ almalarından bir neçəsi qalmışdır. O bu almaları vəziri Həsən Meyməndiyə və sevimli qulu Ayaza verir və hamıya tapşırır: «Əgər buraya başında zənbil olan, kasıb geyimdə, köhnə çarıqda bir qoca gələrsə, onu dərhal mənim yanıma gətirin».

Elə ki həmin qoca atlılar olan yerə yetişir, onu o saat sultan Mahmudun yanına aparırlar. Qoca zənbilini sultanın qarşısında yerə qoyur, özü isə ona təriflər deməyə başlayır. Sultan ona işarə edib oturmağı buyurur.

Belə olur ki, həmin vaxt sultanın hüzuruna bir neçə cinayətkar da gətirirlər. Sultan onlar haqqında məlumat alıb cəzalarını müəyyən etməli idi. Qoca da heç bir şey anlamadan onların yanında əyləşir. Sultan onlar haqda məlumat alıb, onların zindana salınmasını əmr edir. Sultanın adamları səhvən qocanı da cinayətkarlarla bir yerdə götürüb zindana atırlar. Sultanın başı çox qarışıq olduğundan qocanı tamamilə unutmuşdur və qoca düz bir il zindanda qalır...

Bir gecə sultan çox dəhşətli bir yuxu görür və başına gələ biləcək bəlaları uzaqlaşdırmaq məqsədi ilə xeyirxahlıq etmək fikrinə düşür. Səhər o bütün dustaqların onun yanına gətirilməsini əmr edir. O, şəxsən özü hər bir dustaqla söhbət edib, dinləyib sonra ona paltar, pul verib azadlığa buraxır. Növbə qocaya çatanda deyir: «Sən bu ahıl yaşında nə cinayət etmisən ki, zindana düşmüsən?»

Qoca cavab verir: «Mən bir cinayət etməmişəm, mənim gördüyüm iş bu olmuşdur ki, sənə bir zənbil gözəl alma gətirmişdim ki, mənə rəhmdillik edib, yardım edəsən, mən də körpə övladlarımın qarşısında üzüqara olmayım, əvəzində düz bir ildir ki, mən bu bir zənbil almaya görə zindandayam».

Sultan onu dinləyən kimi qoca yadına düşür, o çox xəcalət çəkir, çox üzrxahlıq edir və əmr edir ki, onu xəzinəyə aparsınlar ki, istədiyi qədər mal, pul, qızıl götürsün. Sultanın adamları qocanı xəzinəyə aparırlar. Qoca o qədər mal, pul, qızıl olan xəzinədən bircə dənə balta, bir qızıl dinar və bir nüsxə müqəddəs kitab götürür.

Xəzinədar bunu sultana çatdırır. Sultan qocanı yanına gətizdirib soruşur: «Sən bu boyda xəzinədən niyə heç bir şey götürmürsən? Bu götürdüklərin nə məna kəsb edir?» Qoca cavab verir: «Allah səni qorusun! Mən qoca adamam, gücüm yoxdur, mən alma ağacını özüm baltalaya bilmərəm, gücüm çatmaz. Bu dinarı götürdüm ki, bir nəfərə verim, bu balta ilə ağacı vursun ki, bir də onun meyvələrinə görə bir il zindana atılmayım. Müqəddəs kitabı isə ona görə götürdüm ki, ona əl basıb, and içim ki, bir də alma ağacı əkməyəm ki, yenə bəlaya düşməyim». Sultan qocanın bu sözlərindən xəcalət çəkib ağladı və əmr etdi ki, qocaya beş min qızıl dinar versinlər.

**II.** Belə danışırlar ki, bir dəfə yenə sultan Mahmud ovda öz adamlarından ayrı düşür. Səhranın bir tərəfində ağac əkib, bağ salan bir qoca görür. Mahmud ondan soruşur: «Bu bağı kim üçün salırsan?» Qoca cavb verir: «Hökmdarım, mən bu bağı özüm üçün salıram. O, bar verəndə mənə ağlagəlməz həzz və ləzzət verəcəkdir». Sultan başını yelləyib deyir: «Ağlım kəsmir ki, sən bu bağ bar verənədək qalasan». Qoca deyir: «Yox, doğru düşünmürsən, Allahın izni ilə mən bu bağdan çox bəhrələnəcəyəm». Gənc sultan çox dərindən düşünmədən, fikirləşmədən deyir: «And verirəm ki, əgər sən bu bağın barından yesən, mən zövcəmi boşayacağam». Sultan bunu deyib, atının cilovunu çəkib gedir.

Deyirlər, bu hadisədən bir on il keçmişdi, sultan yenə də ov zamanı öz dəstəsindən ayrı düşüb həmin yerə gəlib çıxır. Sultan görür ki, burada bir gözəl, barlı-bəhərli, güllü-çiçəkli bağ var. O, atını həmin bağa sürüb bir ağacın kölgəsində əyləşir.

Birdən o tərəfdən əl ağacına söykənərək belibükük bir qocanın gəldiyini görür. Qoca sultana yaxınlaşıb onu salamlayır və meyvələrdən dərib ona təklif edir. Sultan böyük məmnuniyyətlə meyvələrdən yeyib, onların ləzzətli, gözəl olmalarına təriflər söyləyir. Sultan əllərində meyvə olan, amma onlardan yeməyən qocaya deyir: «Sən də bu meyvələrdən ye, niyə yemirsən?»

Qoca sakitcə dayanıb gəncə baxır, amma yenə də o meyvələrdən yemir. Sultan yenə də təkid edir: «Axı sənə deyirəm, ye». Qoca deyir: «Ya Əmir! On il bundan əvvəl mən bu bağı təzə salmağa başlayanda bir gözəl gənc məndən bu bağı kim üçün saldığımı soruşmuşdu. Mən ona bağı özüm üçün saldığımı deyəndə o, gəncliyə, cavanlığa xas çılğınlıqla söz vermişdir ki, əgər mən bu bağ bar verənəcən yaşasam və onlardan yesəm, o öz xanımını boşayacaqdır. Artıq neçə ildir ki, bu ağaclar bar verir, barının ağırlığından budaqları yerə dəyir, amma mən nəinki, onlardan yeməmişəm, hətta heç dadlarına belə baxmamışam, çünki mən bu meyvələrdən yesəm, o gənc, indi isə artıq yetkin kişi öz xanımını boşamalı olacaqdır, mən isə bu boyda günahın altına girmək istəmirəm. O vaxtdan bu

vaxtacan mənim yetişdirdiyim bu ağacların meyvələrindən hamı yeyir, tək məndən baºqa».

Mahmud qocanı dinləyib başa düşür ki, söhbət onun on il əvvəl düşünmədən verdiyi sözdən gedir. O, qocadakı inama, imana, əzmə, ləyaqətə, zəhmətkeşliyə, dürüstlüyə, nəcibliyə heyran olur. Elə həmin gün o kəndin idarəçiliyinin qocaya, ondan sonra isə törəmələrinə verilməsi haqqında əmrə möhür vurur. Onlar bu fani dünyanı tərk etdilər, sözləri-söhbətləri isə bizlərə onlardan yadigar qaldı.

**III.** Belə bir əhvalat da danışırlar ki, bir dəfə Sultan Mahmud bir kənddən keçəndə bir qocanın bağda ağac əkdiyini görür. Bu, sultanın çox xoşuna gəlir və qocadan soruşur: «Ağsaqqal, bu ağacları kim üçün əkirsən? Axı çox güman ki, sənə onların barını görmək nəsib olmayacaqdır». Qoca cavab verir: «Bizdən əvvəl əkənlər bizim üçün əkmişlər, biz də bizdən sonra gələnlər üçün əkməliyik».

Qocanın bu sözləri sultanın çox xoşuna gəlir və o deyir: «Tamamilə doğrudur, çünki bu dünya bir dəyirmandır!» Sonra Sultan əmr edir ki, qocaya min qızıl dinar verilsin, özü isə atının cilovunu çəkib gedir.

Qoca onun ardınca deyir: «Hökmdar, sən indicə dedin ki, mənim ömrüm bu ağacların bəhrəsini görməyə yetməz, amma mən hələ heç ağacları əkib bitirməmiş onların min qızıl dinar dəyərində bəhrəsini gördüm, gör bu ağaclar bar verəndə, bir Allah bilir, necə bar-bəhər görəcəyəm». Qocanın bu sözləri sultanın lap çox xoşuna gəlir və o əmr edir ki, qocaya əlavə min qızıl dinar da versinlər.

**IV.** Allah Sultan Mahmudu qoruyub, öz pənahında saxlasın! Deyirlər ki, bir dəfə Sultan Mahmud vəziri Həsən Meyməndi və sevimli qulu Ayazla Qəznə şəhərində xəstəxananı yoxlamağa gedir. Xəstəxananın girəcəyində çaşqın halda ora-bura baxan bir köməksiz dəlinin oturduğunu görür. Sultanın ona yazığı gəlir, ona yaxınlaşıb könlünü almaq istəyir. Dəli sultanı görən kimi ayağa qalxıb ona tərif deməyə başlayır.

Həsən Meyməndi və Ayazdan başqa sultanın yanında iki qulam da var idi. Bu qulamları görən dəli sultandan soruşur: «Bu qulamları neçəyə almısan?» Mahmud cavab verir: «İki min dinara». Dəli deyir: «Yox, sən düzünü de». Sultan təmkinlə deyir: «Mən doğru deyirəm». Dəli dillənir: «Sənin hərəmxananda bir-birindən gözəl huri-mələklər olduğu halda, bu qulamlar nəyinə gərək? Sən mənəviyyatını satıb bu qulamları almısan. Sən onları mənəviyyatının qiymətinə, dəyərinə almısan. Sən mənəviyyatsız adamsan, sultan!» Dəli bu sözləri deyib keşikçilərə müraciət edir: «Açın mənim ayaqlarımdakı qandalları, bağlayın sultanın ayaqlarına, çünki o həm şəriət, həm mənəviyyat qanunlarını pozur. Sultan, sən axmaq və əxlaqsız adamsan». Dəlinin bu ağıllı sözləri sultanı çox tərpədir, ona çox təsir edir. O, dəliyə nəvaziş göstərib, xəstəxanadan azad elətdirir, yanındakı qulamları isə azad edib yola salır.

**V.** Bir başqa hekayətdə isə danışırlar ki, bir dəfə Sultan Mahmudun hökmdarlığı dövründə bir dəstə avara, tənbəl, cahil, səfil dələduz yığışıb varlanmaq yollarını götür-qoy edirlər. Biri deyir: «Gəlin, özümüzü peşəkar oyunbaz kimi təqdim edək və bu yolla sultandan bir az qızıl dinar qoparaq». Bu avara-dələduz dəstəyə başçısı deyir: «Əgər mənə etibar edib, məni dəstəkləsəniz, mən sultandan qızıl çəkməyin yolunu taparam». Dəstənin digər üzvləri yekdilliklə deyirlər: «Biz sənə etibar edib, səni dəstəkləyirik». Başçı o saat ayağa qalxıb bazara gedir. O öz arxalığını satıb əldə etdiyi pula səkkiz toyuq alır.

Səhər açılanda o, toyuqlardan ikisini götürüb Sultan Mahmudun sarayına yollanır. O, Sultan Mahmudun adətən oturduğu eyvanın qarşısındakı meydanda durub toyuqları başının üstündə yelləməyə başlayır. Həmin vaxt sultan Mahmud eyvanda oturub istirahət edirdi və onun gözü başı üstə toyuq yelləyən o dələduza sataşır. O öz adamlarından birinə o, əlində iki toyuq yelləyən binəvanı hüzuruna gətirməsini buyurur.

Nökər o saat meydana enib o «binəva»nı sultanın hüzuruna aparır. Dələduz sultanın hüzuruna gələn kimi ona təriflər, mədhlər söyləməyə başlayır. Sultan soruşur: «Sən meydanda durub əlindəki o

iki toyuğu başının üstündə yelləyirdin. Mənə bunun mənasını izah edə bilərsənmi?» Dələduz cavab verir: «Ey aləmin hökmdarı! Biz, bir neçə işsiz kasıb yığışıb qumar oynayırdıq, mən düşərli olsun deyə, səni özümə oyun ortağı seçdim və dörd toyuq uddum. Bu iki toyuq sənin payına düşür, onları sənə vermək üçün gətirmişəm». Dələduz bu sözləri deyib, toyuqları sultanın qarşısında yerə qoyur. Bu əhvalat sultanı çox əyləndirir və o xeyli gülür. Sultanın əhvalının belə yaxşı olduğunu görən dələduz dörd gün dalbadal hər dəfə iki toyuq gətirib sultana verir. Bunu görən sultan hər dəfə daha ürəkdən gülürdü. Vəzir Həsən Meyməndi isə ürəyində fikirləşirdi: «Bu dələduz hələ ki gündə iki toyuq gətirir, görək bu işin axırı hara gedib çıxacaqdır».

Beşinci gün gəlib çıxır, dələduz həmin gün həmişə durduğu yerə bu dəfə əliboş gəlir. O, başını aşağı salıb yazıq-yazıq dayanır. Onu əliboş görən sultan vəzir Həsən Meyməndiyə deyir: «Bu qumarbaz bu dəfə əliboş, dərdli, fikirli gəlmişdir. Görəsən başında nə iş vardır?!» Sultan əmr edir ki, oyunbazı onun hüzuruna gətirsinlər. Dələduz gələn kimi sultanın qarşısında payəndaz olub yeri öpür». Sultan deyir: «Nə baş vermişdir? Nəyə görə belə pəjmürdəsən?»

Dələduz qəmli, dərdli halda deyir: «Mən bu gün min dinar uduzmuşam və indi çıxılmaz vəziyyətə düşmüşəm». Əslində işin nə yerdə olduğunu artıq çoxdan anlamış sultan vəzirinə buyurur ki, bu bədbəxt oyunçuya iki min dinar verdirsin. Özü isə ona deyir: «Mən sənə bundan belə mənsiz oynamağı qadağan edirəm, bir halda ki bu oyunlarda məni özünə yoldaş seçmisən, mənsiz oynamağa ixtiyarın yoxdur».

Onların hamısı bu fani dünyanı tərk etdilər, bu hekayət isə onlardan bizlərə yadigar qaldı.

**VI.** Belə danışırlar ki, günlərin bir günü Sultan Mahmud adamları ilə ova çıxır. Onların qabağına üzərindən dar körpü keçən bir çay çıxır. Körpünün üstündən yanında saxsı dolçalarla yüklənmiş uzunqulaq olan qoca keçirdi. Bu qoca küpləri satmaq üçün şəhərə gedirdi. Sultanın adamları ilə qarşılaşanda sıxlıq yaranır, qocanın uzunqulağı

körpüdən aşıb çayda boğulur, küplərin isə hamısı sınır. Qocanın fəryadından yer-göy titrəyir. Qocanın fəryadını eşidən Sultan Mahmud soruşur: «Ey qoca, niyə belə fəryad edirsən?» Qoca deyir: «Mən kimsəsiz, fağır bir qocayam, bu dünyada var-yox bir uzunqulağım var idi və neçə müddət gecə-gündüz işləyib bu küplər hazırlamışdım ki, onları şəhərə aparıb satıb başımı dolandırım. Sən bu vəhşi silahlı dəstənlə körpünün üstünə çıxar-çıxmaz uzunqulağım da körpüdən düşüb çayda boğulub öldü, küplərim də dağılıb sınıq-sınıq oldu». Sultan soruşdu: «Yaxşı, de görüm, uzunqulağınla küplərinin dəyəri nə qədər idi?» Qoca cavab verir: «On dinar». Sultan əmr edir ki, qocaya on dinar versinlər.

Qoca pulunu aldıqdan sonra sultanın adamlarından birindən soruşur: «Bu səxavətli adam kimdir?» Ona cavab verirlər: «Bu, Sultan Mahmuddur». Bunu eşidən qoca çox peşman olur və fikirləşir: «Heyif! Kaş çox pul istəyəydim!» Qoca yenidən qışqırıb, fəryad etməyə başlayır. Bunu eşidən sultan vəzir Həsən Meyməndiyə deyir: «Axı bu qoca istədiyini aldı, indi nəyə görə ağlayıb, fəryad edir? Öyrən gör, indi istədiyi nədir?»

Sultanın bu sözlərini eşidən qoca yenə fəryad etməyə başlayır: «Yer üzündə olan-qalan bir uzunqulağım var idi, üstünə gecəmi gündüzümə qatıb düzəltdiyim küpləri yükləmişdim. Uzunqulağım küplər qarışıq çaya düşdü». Sultan soruşur: «Yaxşı, məgər onların pulunu ödəmədikmi?» Qoca deyir: «Bəs yəhər, yüyən, qotaz, küplərin xaralı necə olsun? Onların pulunu kim ödəyəcəkdir?» Sultan soruşur: «Yaxşı, bu yəhərin, yüyənin, qotazın, xaralın dəyəri nə qədər olar?» Qoca deyir: «Ey aləmin hökmdarı, mən bu vaxtacan belə şeylərin nə alıcısı olmuşam, nə satıcısı, onların dəyərini sultan bilər». Qocanın zirəkliyi sultanın çox xoşuna gəlir və o əmr edir ki, ona min dinar versinlər.

**VII.** Belə danışırlar ki, Sultan Mahmudun hakimiyyəti zamanı həddindən çox fırıldaqçı, dələduz var imiş. Bir dəfə bir keçəl-kosa fırıldaqçı öz yoldaşlarına deyir: «Ağlıma bir fikir gəlib, biz buna əməl edərək sultandan yaxşıca pul qopara bilərik». Bunu deyib, o,

bir nəfərdən cübbə, çalma alıb, əyninə dindarların geydiyi gen-bol əba geyib Sultan Mahmudun sarayına yollanır.

O, darvazalar açılanacan sarayın yanında oturub gözləyir. Darvazalar açılan kimi gözətçilərin yanından məharətlə sürüşüb içəri keçir və bir də baxır ki, artıq sultanın gözləmə otağındadır. Burada təmtəraqlı bir taxt qurulmuşdur və taxtın üzərində sultan əyləşmişdir. Onun solunda ələvilər, sağında isə şairlər, əyanlar, əshabələr durmuşdur. Bu dələduz ələvilərin yanında özünə yer eləyib durur. Bir azdan sultanın şəxsi məmuru gəlib ələviləri növbə ilə bir-bir sultana yaxınlaşdırıb təqdim etməyə başlayır. Sultan onların hər birindən soruşurdu: «Kimin nəslindənsən?» Bəziləri «Həsən»in, bəziləri «Hüseyn»in – deyə cavab verirdilər. Növbə bu dələduza çatanda sultan onu diqqətlə süzüb, başa düşür ki, bu, cübbə, çalma geyinənlərdən deyildir. Sultan soruşur: «Ay uşaq, sən kimsən?» Dələduz cavab verir: «Mən ələviyəm». Sultan soruşur: «Kimin nəslindənsən? Həsənin, yoxsa Hüseynin?» Dələduz gözünü belə qırpmadan cavab verir: «Mən Cəbrailin nəslindənəm». Dələduzun bu cavabını eşidən sultan qəşş edib ürəkdən gülür, xeyli güldükdən sonra buyurur ki, ona min dinar, bir gözəl tikməli cübbə ilə işləməli əmmamə versinlər.

Bunu görən ələvilər paxıllıqdan bilmirlər nə etsinlər. Onlar sultana deyirlər: «Ey sultan, sən bu fırıldaqçı dələduza min dinar verdin, bizə isə cəmi yüz əlli dinar». Sultan dedi: «İnciməyin, axı ələvilər hər gün bura gəlirlər və mən onlara bəxşişlər verirəm, amma bütün ömrüm boyu birinci dəfədir ki, buraya Cəbrail nəslindən olan birisinin gəldiyini görürəm, siz məndən inciməyin». Bundan sonra ələvilər öz hərəkətlərinə görə xəcalət çəkib başlarını aşağı salırlar.

**VIII.** Bir dəfə də belə nəql edirlər ki, bir nəfər Sultan Mahmudun sarayının yanına gəlib gözətçilərdən birinə deyir: «Sultana deyin ki, mən bir yuxu görmüşəm, onu yer üzündə heç kəs yoza bilməz». Qapıçı bunu sultana çatdırır, sultan buyurur ki, o adamı onun yanına gətirsinlər.

Həmin adamı sultanın yanına gətirən kimi o təzim edib, sultanın şərəfinə, adına təriflər söyləyib, onu ən yüksək məqamlara yüksəldir.

Sultan ondan soruşur: «Nə yuxu görmüsən?» O adam cavab verir: «Ey sultan, yuxuda gördüm ki, sən bütün aləmin hökmdarısan, taxtda əyləşmisən, mən isə sənin qarşında durub sənə tariflər deyirəm, adını göylərə, ulduzlara ucaldıram. Mən sənə tərif deyib qurtardıqdan sonra sən məndən soruşursan: «De görüm, bir şeyə ehtiyacın varmı?» Mən də deyirəm: «Ey aləmlərin hökmdarı, mən min dinar, bir cübbə, bir əmmamə, bir at və yaraq yasaq istəyirəm». Sən soruşursan: «Sən bunları nə üçün istəyirsən?» Mən deyirəm: «Mən bunları kafirlərə qarşı cihad etmək üçün istəyirəm». Sən deyirsən: «Afərin sənə!» Sonra əmr edirsən ki, mənə dediklərimin hamısını versinlər».

Mahmud bunu dinləyib gülmüş və əmr etmişdi ki, həmin adama bütün sadaladıqlarını versinlər.

## İYİRMİ ALTINCI HEKAYƏT

# Əshabi-kəhf, Dəqyanus və onların başına gələn işlər haqqında hekayət

Söz deyib, söhbət edənlər danışırlar ki, lap qədim zamanlarda mağara sakinləri haqqında olan əfsanəni Kəəb ibn əl-Əxbar, Vəhb ibn Münəbbih, Həsən Bəsri və Abdullah ibn Məsud - hərəsi özünə xas tərzdə danışmışlar. Bizim fikrimizə görə isə, bunların içində daha çox həqiqətə uyğun olanı Kəəb ibn əl-Əxbarın danışdığıdır, belə ki, onun həqiqətə daha çox uyğun olduğunu müqəddəs «Quran» kitabı da təsdiqləyir.

Beləliklə, nəql edirlər ki, İsrail torpaqlarında Dəqyanus adında çox ləyaqətli, dəyanətli, cəsarətli, hünərli bir gənc yaşayırdı. O, bir Allah adamı idi; dinli, imanlı, ürəyində Allah xofu olan, günlərini ibadətdə keçirən, nəfsinin sahibi olan birisi idi. O, Fars əyalətinin yaxınlığında yerləşən torpaqlarda yaşayırdı. O, çoban idi, səhər günəş təzəcə yer üzünü işıqlandırmağa başlayanda ətrafda yaşayanların qoyun-quzusunu yığıb dağlara aparar, axşam qaranlıq düşməzdən əvvəl isə qaytarıb gətirərdi. Evə qayıtdıqdan sonra isə yenə də ibadətlə məşğul olardı. O çox gözəl görünüşə malik idi və onu görən hər bir kəs onun bu gözəlliyinə valeh olurdu. O həm də çox bəlağətli nitqə malik idi və ətrafda olan bütün tanınmış natiqlər ona həsəd aparırdılar. Düz on il Dəqyanus Fars dağlarında sürü otarıb və bu müddət ərzində Allaha ibadəti ilə, imanı ilə, Allaha olan itaəti ilə, nəfsinin ağası olması ilə ad qazanmışdı. Bu minvalla Dəqyanus otuz il belə bir həyat sürmüşdü. Bir dəfə o, dağın başında sürüsünü otarırdı, birdən qoyunlardan birinin ayağı sürüşür və onun dal ayaqları bir çuxura düşür. O biri qoyunlar qorxub, hərəsi bir tərəfə qaçışır. Sürünün arasındakı çaxnaşmanı görən Dəqyanuz gedir, görsün ki, nə baş vermişdir, görür ki, qoyunlardan biri quyruğunacan bir çuxurun

içinə düşmüşdür. Dəqyanus hər iki əli ilə qoyundan yapışıb, onu vargücü ilə dartıb çıxarır. Dəqyanus əyilib çuxura baxanda görür ki, onun dibində üstündə bir neçə sətir yazı olan taxta lövhə vardır. Dəqyanus nə qədər çalışırsa da, taxta lövhənin üzərində yazılanları oxuya bilmir. Axşam qayıdanda həmin taxta lövhəni tanıdığı, bildiyi savadlı adamların hamısına göstərir, amma onların heç biri, nəinki onun üzərindəki yazını oxuya bilir, heç onun hansı dildə yazıldığını da anlaya bilmirlər. Dəqyanus uzun müddət bu taxta lövhəni gah bir adama, gah başqasına göstərir ki, bəlkə, onu oxuyub anlaya bilən tapılar. Nəhayət, bir dəfə Dəqyanusa deyirlər ki, Qeysəriyyə şəhərində bir qoca yaşayır, o bütün açılmayan sirləri açmağa qadirdir. Bunu eşidən Dəqyanus taxta lövhəni götürüb həmin şəhərə yollanır. Şəhərə çatanda qocanın yerini öyrənib onun yanına gedir, onunla hər cür hörmət-izzətlə salamlaşır. Qoca da öz növbəsində onun salamını qəbul edib, ona hər cür ehtiram göstərir və deyir: «Sənin nə ehtiyacın vardır? Səni buraya gətirən hansı məsələdir?» Dəqyanus gətirdiyi taxta lövhəni çıxarıb qocanın qarşısına qoyur. Qoca lövhənin üzərindəki yazını o saat oxuyur və fikrə gedir. O, başını yelləyə-yelləyə təəccüblə Dəqyanusa baxırdı. Gənc özünü itirir, ürəyinə qorxu düşür və fikirləşir: «Görünür, xatalı bir işə düşmüşəm». O, qocaya müraciət edir: «Ey ağsaqqal, bilmirəm, sənin mənə belə təəccüblə baxmağını xeyrəmi yozum, zərərəmi?» Qoca deyir: «Ey cavan, sən İsrail əsilli çoban Dəqyanussanmı?» Dəqyanus cavab verir: «Bəli, mənəm». Qoca üzündəki örpəyi açıb Dəqyanusa diqqətlə baxıb deyir: «Sən yer üzünün ən bədbəxt adamısan». Bu sözləri eşidən Dəqyanusun qorxudan bütün bədəni əsir və o deyir: «Ey ağsaqqal, ağzını niyə bədliyə açırsan? Niyə mənim adımın üstünə ağzını bəd nəfəslə açırsan? Bir Allah bilir ki, bütöv İsrail torpağında məndən imanlı, məndən itaətkar, məndən çox nəfsini cilovlayan, məndən çox ürəyində Allah xofu olan adam yoxdur. Bunu hamı təsdiq edə bilər. Sən isə məni ən bədbəxt adam adlandırırsan». Qoca deyir: «Ey Dəqyanus, and olsun o Uca Allaha, mən ömrüm boyu – mən isə atrıq üç yüz ildir ki, bu dünyada yaşayıram-sənin kimi bədbəxt adam görməmişəm. Mənim sənə ürəyim yanır. Elə bir elm yoxdur ki, mənim əqlim

onun öhdəsindən gələ bilməsin, amma sənin dərdinin çarəsi yoxdur. Bu taxta lövhənin üzərində mən sənin taleyini oxudum. Sən çox gözəl, nəcib gəncsən, amma həyatını çox faciəvi sona vuracaqsan, çünki sonda sən Allaha asi düşəcəksən və cəhənnəmə varis olacaqsan».

Bu sözləri eşidən Dəqyanus tir-tir əsir, onun vücudunu qorxu bürüyür və o, acı-acı ağlayıb qocanı tənə etməyə başlayır: «Səni and verirəm Allaha, bu cəfəngiyatdan əl çək, boş-boş sözlər danışma, qocalıqdan ağlını itirmisən, nə danışdığını özün də bilmirsən. Artıq otuz ildir, mən gecəmi, gündüzümü ibadətdə keçirirəm və həmişə şəhadət verirəm ki, Allah təkdir və Allahdan başqa İlahi yoxdur.[*] Belə olan halda mən necə cəhənnəmə düçar ola bilərəm?» Qoca deyir: «Sən səhradakı qum dənəcikləri, yağan yağışın damlaları, ağacların yarpaqları qədər ibadət edib, səcdə eləsən belə, yenə də cəhənnəm odunda yanacaqsan». Dəqyanus ucadan qışqırır: «Kaş mən bu lövhəni tapmayaydım, sənin üzünü görməyəydim, buraya gəlməyəydim, sənin bu qorxunc sözlərini eşitməyəydim və ürəyimi bu qorxunc fikirlərlə incitməyəydim!» Qoca deyir: «İstəyirsənsə, sənin bütün taleyini nəql edim ki, sən taleyini əvvəldən biləsən». Dəqyanus yalvarır: «Səni and verirəm Allaha, danış, çünki mənə elə gəlir ki, mən elə indicə canımı tapºıracağam». Qoca söhbətə başlayır: «Bil və agah ol, bu lövhəni tapdığın o çuxurda ağlasığmaz xəzinə vardır. Dünyanın bütün xəzinədarları, hesabdarları yığışsa belə, ömürlərinin sonunadək bu xəzinənin içindəkiləri sayıb-hesablayıb qurtara bilməzlər. Ey Dəqyanus, bu sonsuz var-varidatın hamısı sənə qismət olacaqdır. Qayıt get yurduna və o var-dövlətə yiyələn». Bunu eşidən Dəqyanus dərin fikrə getdi və sonra başını qaldırıb deyir: «Qoca, yaxşı, tutaq ki, bu var-dövlət mənə qismət olacaqdır, bəs nəyə görə mən Allaha asi düşəcəyəm?» Qoca deyir: «Bu çox uzun söhbətdir, vaxtı çatanda sən hər şeyi özün biləcəksən». Dəqyanus deyir: «İndi ki belədir, sən də mənimlə getsən, pis olmaz, həm başın qarışar, həm də mənə yoldaş olarsan. Xəzinəni də sənin yanında qazıb çıxararam. Sənə düşən payı da elə orada verərəm». Qoca deyir: «Ey Dəqyanus, qorxuram ki, səninlə o diyarlara getsəm, məni amansızcasına aldadıb, heç bir şey verməyəsən». Dəqyanus deyir: «Allah qorusun biz-

ləri xəyanətdən. Mən heç vaxt belə rəzilliyə yol verməərəm. İstəyirsən and içim ki, sənin dediyin o xəzinəni səninlə tən yarı böləcəyəm». Qoca deyir: «Yox, mən dəqiq bilirəm ki, sən o xəzinəni qazıb çıxarıb, onu gördükdən sonra başını itirəcəksən və mənə heç mis quruş belə verməyəcəksən, amma Allahın buyruğuna əməl edərək, ağlımın dediyinə zidd olaraq mən səninlə getməliyəm. Səni and verirəm Allaha əlini mənə ver». Dəqyanus əlini qocaya uzadır, onlar əhd bağlayırlar, qoca Dəqyanusa ən müqəddəs, ən qorxunc andlar verdirir ki, o, xəzinəni qazıb çıxaranda, parıltısı onun ağlını dumanlandırmayacaqdır və o, dediyi kimi, xəzinənin tən yarısını ona verəcəkdir. Bu əhdi bağladıqdan sonra qoca ayağa qalxıb Dəqyanusla yola düşür. Onlar sürünün otladığı dağın başına çatanda Dəqyanus qocanı lövhəni tapdığı çuxurun yanına aparır. Qoca deyir: «Beli götür, qazmağa başla». Dəqyanus beli götürüb qazmağa başlayır. Tezliklə üstündə yekə bir qıfıl asılmış qapı görünür. Qoca buyurdu ki, Dəqyanus qıfılı sındırsın. Onlar qıfıl sındıqdan sonra qapını açırlar və aşağıya aparan bir pilləkən görürlər. Pilləkənlərlə aşağıya düşəndə onlar burada birincidən daha böyük və möhkəm qıfılla bağlanmış daha böyük və möhkəm qapı görürlər. Dəqyanusu qorxu bürüyür. Qoca deyir: «Qorxma, bu qıfılı da sındır». Dəqyanus qıfılı sındırır, onlar qapını açıb içəri keçirlər. Bu, içində yeddi qapı olan möhtəşəm bir otaq idi. Qoca buyurur ki, Dəqyanus qapıların hamısını açsın. Onlar bir-bir bütün otaqlara daxil olurlar. Otaqlardan biri döşəmədən tavanadək üstü qiymətli daşlarla işləməli qızıl kəmərlərlə dolu idi. Otağın tavanı da qızıl külçələrlə bəzədilmişdir. İkinci otaq qızıl dinarlarla, üçüncü otaq qızıl dirhəmlərlə, dördüncü otaq qızıl külçələri ilə, beşinci otaq qızıl yüyənlərlə, qoşqularla, yəhərlərlə, üzəngilərlə, altıncısı ləl-cavahiratla, yeddincisi isə ən nadir incilər və almazlarla dolu idi. Dəqyanus bu sərvətin, bu sonsuz xəzinənin qarşısında heyrət içərisində donub qalmışdır. O fikirləşir: «Bir halda ki Allah-təala bu var-varidatı mənim qismətimə yazmışdır, mən nəyə görə onun yarısını bu ağlını itirmiş qocaya verməliyəm? Daha düzgünü o olar ki, mən elə indi onu buradaca öldürüm və basdırım. Bu xəzinə də bütövlükdə mənə nəsib olsun. Mən bunu etməsəm, bu axmaq qo-

ca başqalarının yanında xəzinəmdən söz açar, onun yerini hamıya deyər». Dəqyanus deyir: «Ey qoca, mənə elə gəlir ki, mən səni öldürüb bütün xəzinəyə yiyələnməliyəm». Qoca deyir: «Ey naxələf, rəzil, axı sən mənimlə əhd bağlayıb, andlar verdin ki, xəzinəni mənimlə böləcəksən. İndi ki mənə heç bir şey vermək istəmirsən, andına, vədinə yiyə durmursan, mən də səndən heç bir şey istəmirəm, amma qoy mən qayıdıb evimə gedim:

Sən gəl hesab et ki, heç nə olmamışdır,
Nə ulaq yıxılmışdır, nə pul dağılmışdır.

Dəqyanus deyir: «Sən yanılırsan, mən səni öldürməsəm, rahat, təhlükəsiz yaşaya bilmərəm. Mən səni öz rahatlığım, asayişim naminə öldürməliyəm». Qoca yalvarır: «Ey Dəqyanus, Allahdan qorx, bu boyda günahın altına girmə, əhdinə, andına sadiq ol. Başa düş ki, məni öldürməklə çox şeydən olacaqsan. Allah-təala səndən üz döndərəcəkdir». Dəqyanusu bu sözlərin heç biri fikrindən döndərmədi, bıçağını götürüb o biçarə qocanı öldürdü və elə oradaca torpağa basdırdı. Sonra bacardığı qədər qızıldan, gümüşdən götürüb, qapıları möhkəm bağlayıb çıxdı. Yuxarıda isə qazdığı quyunun üstünü düzəldib, yerlə bərabərləşdirdi və şəhərə yollandı. Sonra yavaş-yavaş, ehtiyatla o bütün xəzinəni şəhərə, öz evinə köçürtdü. Tez bir zamanda Dəqyanus öz el-obasını tərk edib Farsda məskunlaşdı. O özünə möhtəşəm bir saray tikdirdi. Sarayın günbəzləri, eyvanları, bağları, bağçaları adla idi. O çoxlu qul, kəniz aldı və şahanə ömür sürməyə başladı. Onun bu var-dövləti, bu həyatı Fars torpaqlarında dillər əzbəri olmuşdur. Qısa bir zamanda onun məskunlaşdığı əraziyə çoxlu insanlar daşınmağa başladılar, çünki onlar belə fikirləşirdilər ki, yəqin Dəqyanus çox adlı-sanlı nəsildəndir və buranın təmiz havası onu cəlb etmişdir. Dəqyanusun şan-şöhrəti o qədər yayılmışdır ki, bütün dövlət məmurları, şahın ordu komandanları, ən yaxın əyanları onunla tanış olub yoldaşlıq etmək arzusuna düşmüşdülər və tez bir zamanda dostlaşmışdılar. Dəqyanus bu məmurların, əyanların hamısını hədiyyələrlə, ənamlarla ələ almışdır və onlar Dəqyanusu şahın yanında ən yüksək bir insan kimi qələmə verirdilər. Bu tərifləri eşidən şah Dəq-

yanusu yanına dəvət edir. Dəqyanus özü ilə şahlara layiq hədiyyələr götürərək saraya gedir. Dəqyanus tez bir zamanda şahın rəğbətini qazanır. O, demək olar ki, hər gün qiymətli hədiyyələrlə şahın hüzuruna gedirdi. Nəhayət, o, şahın ən yaxın və etibarlı adamına çevrilir. İş o yerə çatır ki, Dəqyanus, hətta şahın ailəsinin üzərində də hökmə nail olur, ailə üzvlərinin yanında söz sahibi olur.

Bir müddət beləcə davam edir. Bir dəfə düşmən Rum elinin ordusu Farsa qarşı müharibəyə qalxır. Rum ordusu Fars torpaqlarına yiyələnmək məqsədi ilə böyük, möhtəşəm ordu ilə hücuma keçir. Fars şahı özünü itirmişdir və bilmirdi nə etsin. Bir çox özəllikləri ilə eyni zamanda qorxmazlığı, cəsarəti, rəşadəti ilə fərqlənən Dəqyanus fars şahını özünü itirmiş, çaşqın halda görüb deyir: «Şah sağ olsun! Nə olmuşdur? Şahımızı çaşqın hala salıb, pəjmürdə edən nədir?» Şah olanları Dəqyanusa danışır. Dəqyanus deyir: «Heç fikir etməyə dəyməz. Mənə izin versən, mən Rum şahına elə bir dərs verərəm ki, heç məmləkəti-Rumda belə rahat nəfəs ala bilməz». Bu sözlər şahın lap ürəyincə olur. O, xeyir-duasını və bütün ordusu ilə xəzinəsini onun ixtiyarına verir. Dəqyanus həmin dəqiqə ordunu nəzərdən keçirib görür ki, onun ixtiyarında yüz mindən ibarət bir ordu vardır. Dəqyanus o saat ordunun məvacibini paylayıb döyüş hazırlıqlarına başlayır. On iki min yaxşı silahlanmış bir ön cəbhə qoşunu düzəldib başında özü durur, sonra öz vəsaiti ilə daha min nəfər gəncdən ibarət nizəatanlar dəstəsi hazırlayır. Bu hazırlıqları tamamladıqdan sonra Dəqyanus Fars şahı ilə halallaşıb yola düşür. Ordunun səf düzülmüş sıralarını görən Fars şahının ürəyində ümid işığı yanır, çünki görür ki, onun yeni ordu başçısı bacarığı və fərasəti ilə fərqlənir. Dəqyanus şah xəzinəsindən başqa öz xəzinəsindən də istifadə edirdi. O özü ilə böyük miqdarda qızıl, gümüş götürmüşdür. Hər dayanacaqda o, döyüşçülərdən bir neçəsini yanına çağırıb onu qızıl, gümüş pul hədiyyələri ilə təltif edir və daha çox ənamlar vəd edirdi. Bir sözlə, o əlindən gələni edirdi ki, ordu onu sevsin. Həqiqətən də tez bir zamanda Dəqyanus orduda böyük hörmət qazanır və ordunun sevimlisinə çevrilir. Elə ki Dəqyanus ordusu ilə düşmən düşərgəsinə yaxınlaşır, Rum padşahı öz elçisini göndərir və Fars şahından vergi və

qeyd-şərtsiz itaət tələb edir. Cavab olaraq Dəqyanus Rum padşahının yanına öz elçisini göndərir ki, desin: «Vergi və sözsüz itaətin əvəzinə mən gəlmişəm. Əgər hünərin yetərsə, döyüşə başlayaq». Belə cəsarətli xəbəri alan Rum padşahı çox qəzəblənir, ordusunu nəzərdən keçirib, yüz minlik orduya malik olduğunu görür. Birinci Dəqyanus hücuma keçir. Qoşunlar qarşı-qarşıya gələndə qanlı savaş başlayır. Bu savaş bir neçə gün davam edir. Nəhayət, Dəqyanusun ordusu qələbə çalır. O, Rum padşahını əsir götürüb, həmin an onu qətlə yetirir. Daha sonra o öz ordusunu Ruma yönləndirir, onlar ölkəyə daxil olurlar və tez bir zamanda Rumu fəth edirlər. Rumda yerlərini bərkitdikdən sonra Dəqyanus Fars şahına namə yazır və vəziyyət haqqında məlumat verir. Daha sonra yazır: «Uca Allah Rum üzərində qələbəni mənim qismətimə yazmışdır və bütün Rum məmləkəti mənim ixtiyarıma keçmişdir. Mən Rum hökmdarını məhv etdim, indi isə sən bundan nəticə çıxar. Birincisi, bu məktubu alan kimi bizim üç illik vergimizi göndər, ikincisi, bizim şərəfimizə xütbə ver, üçüncüsü, üzərində mənim rəsmim olan pullar kəsdir və ən nəhayət, belinə qul kəməri bağlayıb, səssiz-səmirsiz bizə qulluq et. Əgər buna əməl etməsən, sənin başına rum padşahının başına gətirdiyimi gətirəcəyəm».

Məktubu bu sözlərlə tamamlayıb, onu çapara verir və Fars elinə yollayır. Fars padşahı məktubu oxuyub, hiddətə gəlir, qəzəb onu boğur. O, həmin saat əyanlarını, əshabələrini yığıb baş verənləri onlara danışır. Daha sonra o, Dəqyanusa həqarətedici bir namə göndərir. Məktubda deyilirdi: «Ey nanəcib, nankor, bic vələdüzzina, sən əsilsiz, nəsilsiz, köksüz bir rəzilsən. Kökün, soyun olsa idi, bir yerdə yurdun olardı. Sənin naməlum, qaranlıq keçmişin həmişə qarabaqara səni izləmişdir. Biz sənə sığınacaq verib, səni süfrəmizin başında əyləşdirdik, sən isə bizə xəyanət etdin. Mən vaxtı gecikdirmədən ordumla sənə qarşı çıxıram ki, səni layiqincə cəzalandırım».

Məktubu göndərən kimi şah ordunu hazır edib Dəqyanusa qarşı irəliləyir. Bundan xəbər tutan Dəqyanus da öz növbəsində ordusu ilə onu qarşılamağa çıxır. İki qoşun qarşı-qarşıya gəlir, qan su yerinə axırdı. Allah-təalanın hökmü ilə bu döyüşdə uğur, qələbə yenə də Dəqyanusun qismətinə düşür. Dəqyanus qələbə çalaraq Fars padşa-

hını əsir götürüb, onu öldürür, onun xəzinəsinə yiyələnir, öz adamlarından birinə Rum hökmdarlığını həvalə edib, özü Farsa yollanır. O burada təzə, əzəmətli saraylar tikdirir. Onun əsas sarayının möhtəşəmliyini dillə təsvir etmək mümkün deyildi. Saray qızıl və gümüş kərpiclərin növbələşməsi ilə tikilmişdi. Dəqyanus sarayda qiymətli daşlarla bəzədilmiş dörd yüz qızıl taxt qurdurmuşdu. Onun bu sarayının, hər birinin yanında on aycamal yeniyetmədən ibarət qarovul dəstəsi duran min pəncərəsi var idi. O özünə yetmiş vəzir və yetmiş hacib götürmüşdü, daha sonra özünə iki mindən ibarət silahlı dəstə yığmışdı.

Dəqyanusun gündəlik, sülh vaxtı həyatı belə keçirdi: hər gün onun qəbul otağında yetmiş, vəzir, yetmiş münəccim, yetmiş müşavir, min aqil, alim və başqa müdrik yığışırdı. Qullar onun qarşısına qiymətli daşlarla bəzədilmiş yeddi yüz oturacaq düzürdülər. Dörd yüz qızıl kəmərli nökər onun qulluğunda dayanırdı, o biri dörd yüz qızıl kəmərli gənc isə əmrə müntəzir divar boyu düzülürdülər. Dəqyanusun həyatı belə keçirdi, o bu minvalla bütün dünyanı fəth etmişdi, özünü dünyanın göbəyi bilirdi, onun təkəbbürünün həddi-hüdudu yox idi.

Bir dəfə o, yenə qəbul otağında oturmuşdu. Dəqyanusun gənc qulların arasında altısından xüsusilə xoşu gəlirdi. Bu gənclər onun ürəyinə çox yatmışdılar. Dəqyanus onları o qədər sevmişdi ki, gecə gündüz onun yanında olmaqlarını buyurmuşdu. Həqiqətən də, bu gənclər ağılları, qabiliyyətləri, fərasətləri ilə seçilirdilər. İş artıq o yerə çatmışdır ki, Dəqyanus müəyyən vaxtdan sonra o biri saray adamlarının ixtiyarını da onlara vermişdi və onlar canla-başla bu işi boyunlarına götürmüşdülər. Bu altı gənc öhdələrinə düşən işi o dərəcədə mükəmməl yerinə yetirirdilər ki, Dəqyanus get-gedə onlara daha çox etibar edir və özünün ən məxfi işlərini də onlarla bölüşməyə başlamışdır. Nəhayət, bu altı gənc Dəqyanus sarayının tam hökmdarlarına çevrilirlər. Sarayda hamı: Dəqyanusun özü, vəzirlər, əyanlar, əshabələr, ordu başçıları, döyüşçülər onların dediklərinə qeyd-şərtsiz tabe olurdular. Şübhəsiz ki, gənclərə verilmiş bu imtiyazlar, onlara göstərilən xüsusi diqqət, məhəbbət sarayın digər sakinləri tərəfindən qısqanclıqla qarşılanırdı və onlar öz aralarında bu gənclərə qarşı hiy-

lələr hazırlamağa başlamışlar. Dəqyanusun ürəyində isə bu gənclərə qarşı olan rəğbət, məhəbbət gündən-günə pardaxlanırdı. Dəqyanus artıq bütün səlahiyyətlərini bu altı gəncə həvalə etmişdir. Bu altı gəncin arasında yaşına görə böyük olanın, ağlına, fərasətinə görə seçilənin adı Təmlixa idi. Digər beş gənc onun bütün əmrlərini tərəddüd etmədən icra edirdilər. İkinci gəncin adı Təmlisa, üçüncünün Sətlixa, dördüncünün Zunuş, beşincinin Aznuş və altıncının Sadirnuş idi. Bütün saray sakinləri bu beş gəncə, bu beş gənc isə Təmlixaya tabe idilər. Dəqyanus bütün işlərini onlara həvalə etmişdir; onların əlindən yeyir, içir, onların köməyi ilə geyinir, yuxudan durandan yatanacan ancaq onların əhatəsində olurdu. Bütün sirlərini, məxfi işlərini onlarla bölüşüb, məsləhət edirdi. İstirahət edəndə də onlarla söhbət edib, musiqi dinləyib, saray söz ustalarına qulaq asırdı. Bütün vəzirlər, haciblər, əyanlar bu gənclərlə hesablaşıb, onların əmrlərinə tabe olmalı idilər. Dəqyanus düzənli bir həyat sürürdü; gündüzlər dövlət işləri ilə məşğul olurdu, gecələri isə Allaha ibadət etməklə keçirirdi.

Bu minvalla on il keçir. Bir dəfə Dəqyanus qərara gəlir ki, sarayı nəzərdən keçirsin: xəzinənin, ordunun, xalqın, qulların, nökərlərin vəziyyəti ilə maraqlansın. Bütün bunları nəzərdən keçirib daha da qürurlanır, təkəbbür onu boğur və o özündən çox razı halda deyir: «Bütün yer üzündə məndən güclü, qüdrətli, varlı adam yoxdur!» Elə həmin an İblis peyda olur. Dəqyanus ondan soruşur: «Sən kimsən?» İblis deyir: «Mən uca Allahın mələklərindən biriyəm. Allah-təala məni sənin yanına göndərmişdir ki, sənə onun sözlərini çatdırım, O deyir: «Dəqyanus, mən göylərin hökmdarıyam və səni bütün yerin hökmdarı seçirəm, mənim başım göy işlərinə qarışdığı üçün yer işləri ilə məşğul ola bilmirəm. Dəqyanus, mən – göylərin hökmdarı olaraq yerlərin hökmdarlığını sənə həvalə edirəm və səni özümün yerdəki canişinim təyin edirəm». Bu sözləri eşidən Dəqyanus qorxudan əsir və deyir: «Allah bizi bu axmağın sarsaqlamalarından qorusun! Səni and verirəm Allaha sərsəm-sərsəm danışma, boş-boş sözlər demə. Sənin dediklərinin hamısı şeytan sərsəmləmələridir, çünki bir Allah bəndəsi məni sənin dediyin şəkildə qəbul etməz. Ancaq dəli-axmaq bunu ciddi qəbil edə bilər. Sənin niyyətin, yəqin

ki, məni məhv etməkdir. Əgər mən sənin bu şirin sözlərinə aldansam, sadə camaat məni bir göz qırpımında yer üzündən silər».

İblis bu sözləri eşidib qeyb olur, Dəqyanus isə huşunu itirir. Özünə gələndə Dəqyanus başa düşür ki, nəsə qorxunc bir hadisə baş vermişdir, amma o bu hadisəni heç kəsə danışmır və onu sirr olaraq saxlayır. O bu hadisəni yada saldıqca qorxudan əsirdi. Bir müddət belə davam edir.

Bir dəfə Dəqyanus öz silahlı dəstəsi ilə ova çıxır. Elə ki Dəqyanus ov ovlayıb, yeyib-içmək məclisini də bitirir, öz çadırına gedib qızıl yatağına uzanır. Dəqyanus oyanıb qarşısında nur kimi işıq saçan bir qoca görür. Bu, qoca qiyafəsində olan həmin iblis idi. Bütün çadırı bu qocanın nuru və ənbər qoxusu bürümüşdür.

Qoca Dəqyanusla salamlaşır. Dəqyanus onun salamını alır və soruşur: «Ey möhtərəm qoca, sən kimsən və buraya necə daxil olmusan?» İblis cavab verir: «Mən uca Allahın elçisiyəm. Onun sənə salamı vardır və o deyir: «Mən filan ayın filan gününün filan saatında sənin yanına öz elçimi göndərərək bildirmişdim: «Mənim yerdəki işlərlə məşğul olmağa vaxtım yoxdur, mənim göy üzündə yetərincə işlərim var. Mən sənə yer üzündə ilahi hökmdarlığı verirəm. Sən yer üzünün düzənini qaydaya salıb, yer üzərindəki ilahi hökmdarlığı əlinə almalısan. Mən indi sənin hüzuruna mənə çox yaxın olan müqəddəslərdən birini göndərib deyirəm: «Ey Xuda, ey yerin Tanrısı, yer üzünün işlərini öhdənə götür, çünki mən onlarla məşğul ola bilmirəm, mənim ona vaxtım çatmır. Sən mənim göndərdiyim bu qocanı dinlə, o mənim etibar etdiyim mələklərdəndir». Eşitdiklərinə mat qalmış Dəqyanus birdən fikirləşir:

«Bu qədər ki uzandı, böyüdü söhbət
Şübhəsiz ki, onun bir səbəbi, izahı vardır!

Bu qocanın dedikləri, sadaladıqları, gətirdiyi misallar həqiqətə uyğun gəlir. Əgər bu həqiqət olmasa idi, o haradan bilərdi ki, mənə belə bir xəbəri artıq bir dəfə çatdırmışlar?!» Qocanın söylədiyi sözlər öz işini görür, Dəqyanus dərin fikrə gedir. Bu vaxt iblis qeyb olur və Dəqyanus görəndə ki, «Allahın elçisi» yoxdur, çadırdan çıxıb yenə

ova yollanır. O bütün növbəti gün ovda olur. İki günlük fasiləsiz ovdan sonra başında dolaşıq fikirlərlə axşama doğru çadırına gedib yatağına uzanır. Amma lənətə gəlmiş iblis yenə də birinci qiyafəsində Dəqyanusun qarşısına keçib onunla salamlaşır. Dəqyanus onun salamını qəbul edir, ona birinci dəfədən fərqli olaraq daha böyük ehtiram göstərir və deyir: «Ey möhtərəm qonaq, kimsən?» İblis cavab verir: «Mən elə həmin elçiyəm ki, filan tarixdə, filan saatda Allah-təala tərəfindən sənin yanına göndərilmişdim. İndi yenə də O məni sənin yanına göndərmişdir ki, sənə çatdıram: «Sən, Dəqyanus yer üzünün Xudasısan və sən yer üzünün bütün işlərini qaydaya salmalısan. Sən yer üzünün düzənini qurmalı, insanları düz yola çağırmalısan. Mənim göy üzündə o qədər işim var ki, yer üzü ilə məşğul olmağa vaxtım çatmır».

Nəhayət, Dəqyanus başına gələnlərin həqiqət olduğuna inanır və ona deyir: «Ey Allahın elçisi, mən heç ağlıma belə gətirə bilməzdim ki, Tanrıyam. Mən kiməm ki, belə bir məqama iddialı olam? Sənin dediklərin mümkün olan şey deyildir». İblis deyir: «Ey yer üzünün Allahı! Mən, Allahın mələyi şəhadət verirəm ki, sən yer üzünün Allahısan. Əgər sənə başqa dəlil-sübutlar lazımdırsa, gətirim. Birinci əsas dəlilim budur ki, mən mələyəm və sənin qarşında dayanmışam. Sən bilirsən ki, mələkləri heç bir insan övladı görə bilməz. Bu ancaq peyğəmbərlərə nəsib ola bilər. Sən isə məni görürsən. İkincisi, məndən başqa sənin hüzuruna bir başqa mələk də gəlmişdir. O, nurani qoca qiyafəsində idi və sənin hüzuruna filan vaxt gəlmişdir. O qoca da sənə eyni xəbəri gətirmişdir. Üçüncüsü, yer üzündə səndən güclü, qüdrətli insan yoxdur. Sən dünyanın ən qüdrətli hökmdarlarına qalib gəlib, onları dəf edib, xəzinələrinə yiyələnmisən və heç bir hökmdar səninlə müqayisəyə gələ bilməz. Dediyim kimi, ən əsası isə, mələklər heç vaxt insan gözünə görünmürlər. Biz isə artıq neçənci dəfədir sənin gözünə görünürük. Mən iki dəfə, qardaşım isə bir dəfə sənin hüzuruna gəlmişik. Mən bilmirəm bundan da inandırıcı dəlillər gətirmək mümkündürmü?»

Bunlar Allahın qəza və qədəri olduğu üçün Dəqyanus bu ağıl dumanlandıran, gözqamaşdıran şirin sözlərə inanır və iblisə deyir:

«Ey o uca Allahın elçisi, indi mən inandım ki, Allah, həqiqətən, məni yer üzünün Allahı kimi görür, amma mən nə etməliyəm ki, insanlar da buna inansınlar?» İblis deyir: «Əgər sən Allah olduğuna tam əmin olmaq və insanların da buna inanmaqlarını istəyirsənsə, dur mənim dalımca gəl. Biz səninlə sahilə gedəcəyik, mən orada sənə elə bir dəlil-sübut gətirəcəyəm ki, sən tam əmin olacaqsan ki, Allahsan və insanlar da sənin Allah olduğuna şəkk-şübhə etməyəcəklər». Dəqyanus durub inandığı ordu başçılarını, altı sevimli yeniyetmələrini götürüb iblislə bərabər sahilə yollanır.

Vəhb ibn Münnəbih deyir ki, Allah-təala həmin dənizdə həddindən artıq böyük bir balıq məskunlaşdırmışdır. O balıq o qədər böyük idi ki, suyun üzünə çıxanda bütün dəniz çalxalanırdı. Bu balığın belə bir xüsusiyyəti var idi: o hər səhər sahilə doğru üzüb, zöhr namazı zamanı başını çıxarıb, bir növ, Allah-təalanın hüzurunda dualar edirdi. Elə ki namaz saatı bitirdi, günəş göy qübbəsinə qalxırdı, balıq yenə sularda itirdi. Səhəri gün balıq yenə də eyni qayda ilə zöhr namazı zamanı başını sudan çıxarıb, bir növ, dualar edir, sonra isə yenə də sularda itirdi. İblis Dəqyanusu sahilə gətirir və durmadan onun böyüklüyündən, Allah tərəfindən seçilmiş olduğundan, onun bu məqama Allah – təalanın hökmü ilə çatdığından deyib mədhlər söyləyir və bu düz zöhr namazı saatına qədər davam edir. İblis bu balıq əhvalatını çox gözəl bilirdi. İblis uca səslə deyir: «Ey Dəqyanus, ey insanlar, siz lap çoxdan bu balığın zöhr namazı vaxtında Allaha dua etdiyini müşahidə edirsiniz». Ətrafdakılar bir ağızdan deyirlər: «Bəli, bu balıq öz imanı, Allaha itaəti ilə məşhurdur. Biz də özümüzü tanıyandan bəri bizdən əvvəl yaşayanlar kimi zöhr namazında bu balığı dua edən görmüşük». Onda İblis peyğəmbərlərə xas tərzdə Dəqyanusa müraciət edir: «Əgər indi bu balıq sənin yer üzünün Allahı olduğuna şəhadət edərsə, sənin adamların da buna tam əminliklə inanarlarmı?» Orada olanlar bir səslə deyirlər: «Əlbəttə, inanarıq». İblis bilirdi ki, balığın artıq üzüb gedən vaxtıdır, o, balığa müraciət edərək ucadan deyir: «Ey balıq, bizə şəhadət ver, burada gördüyün Dəqyanus, həqiqətənmi, yer üzünün Allahıdır?! İblisin bu vahiməli səslə dediyi bu qorxunc sözləri eşidən balıq bütün vücudu

ilə elə əsib, elə bir səs çıxardı ki, sanki göy yerə düşüb, yer göy bir-birinə qarışacaqdı. Bundan sonra balıq sularda qeyb oldu.

Həmin an İblis də qeyb oldu, o, dənizə qərq olub oradan tükür-pədici səslə deyirdi: «İnanın! İnanın!» Dəqyanus elə fikirləşirdi ki, «İnanın!» kəlməsini deyən balıqdır. Dəqyanus artıq tam əmin olmuşdur ki, həqiqətən, yer üzünün Allahıdır. Təkəbbür, təşəxxüs onu boğurdu. O, ucadan dedi: «Mən Allaham!» Bütün əyanlar, əshabələr, vəzirlər Dəqyanusun Allah olduğunu qəbul etdilər.

Bundan sonra Dəqyanus yerə-göyə sığmayan əda ilə çadırına yollandı, taxtına əyləşdi, sevimli altı yeniyetməni çağırıb, böyükləri olan Təmlixaya dedi: «Sən demə, mən Allaham, bu vaxtacan bun-dan xəbərsiz olmuşam». Bu vaxt yenə İblis, amma başqa bir qiya-fədə peyda olur. O salamlaşır, Dəqyanus onun salamını hörmət-iz-zətlə qəbul edir və soruşur: «Sən kimsən və nə məqsədlə buraya gəlmisən?» İblis deyir: «Mən Allah-təalanın elçisiyəm və buraya gəlməkdə məqsədim dəniz sakinlərinin səni Allah olaraq qəbul etməkləri xəbərini çatdırmaqdır. Sən indi xəzinənin qapılarını açıb hamıya qızıl-gümüş paylamalısan. Sənin Allah olduğunu qəbul edənlərin hamısına çoxlu qızıl-gümüş verməli, səni Allah kimi qəbul etməyənləri isə həmin dəqiqə qətlə yetirməlisən». Bunları deyib lənətə gəlmiş İblis yoxa çıxdı, sanki buxarlandı. Dəqyanus əmr etdi ki, düşərgəni yığsınlar. Onlar şəhərə üz tutdular. O, açıq-aşkar özünü Allah elan etdi və hamıdan tələb etdi ki, ona itaət etsinlər. O, insanlara qızıl, gümüş paylayır, qiymətli hədiyyələr verirdi. O hər tərəfə carçılar göndərib adlı-sanlı əyanları, əmirləri, tanınmış aqilləri, müdrik qocaları hüzuruna dəvət etdi. Onun Allah olduğunu qəbul edənləri qiymətli hədiyyələrlə, ənamlarla mükafat-landırır, qəbul etməyənləri ən ağır işgəncələrlə qətlə yetirirdi və deyirdi: «Bizim ilahi nüfuzumuzu qəbul etməyənlər ancaq ən ağır cəzaya düçar olmalıdır».

Artıq öz Allahlığına tam əmin olub, bunu tam həqiqət kimi qə-bul edən Dəqyanus məmləkətin bütün memar və bənnalarını dəvət edib onlara bir cənnət guşəsini xatırladan sarayın təməlini qoymala-rını əmr edir. O əmr edir ki, sarayda onun cənnət haqqında olan bü-

tün təsəvvürlərini əks etdirsinlər. O bu sarayı ipəklərlə, qumaşlarla, atlazlarla bəzətdirdi, buraya dünyanın hər yerindən ən nəfis, ən qiymətli əşyalar gətizdirdi və tayı-bərabəri olmayan, gözəllikdə Zöhrəni kölgədə qoyan ay camal gözəlləri yığdı. Dəqyanus bu sarayı «Cənnət» adlandırdı. Saray qızıl və gümüş kərpiclərdən tikilmişdir, bütün qapılar, pəncərələr qiymətli daşlarla, incilərlə bəzədilmişdir, bütün otaqlara dirhəmlər, dinarlar səpələnmişdir. Gənc yeniyetmələrin və pərilərin başlarını qiymətli daşlarla işlənmiş çələnglər bəzəyir, onlar ən gözəl, ən nəfis libaslar geyinib bu cənnət sarayda xüsusi bir təmtəraq yaradırdılar. Burada hər gün qızıl teştlərdə müşk, ənbər közərdib bütün ətrafa bu məstedici ətirləri yayırdılar. Bu ətir o qədər tox, zərif və eyni zamanda güclü idi ki, aya qədər yüksəlirdi. Dəqyanusun sevimli altı yeniyetmə əyanı hər gün ən gözəl libasları dəyişərək, üst-başlarına hər cür ən qiymətli bəzək verərək əmrə müntəzir halda onun qarşısında dururdular və onun ağzından çıxan hər bir buyruğu həmin an - bir göz qırpımında yerinə yetirirdilər.

Bu, bir neçə il beləcə davam etdi. Bu müddət ərzində ətrafa səpdiyi, dağıtdığı qızıl, gümüş hesabına Dəqyanusun minlərlə tərəfdarı meydana gəldi və onun yer üzünün Allahı olması fikri hər yana yayıldı. Eyni zamanda bu vaxt kəsiyində Dəqyanus minlərlə onun Allah olduğunu qəbul etməyəni də diri-diri odda yandırtdı. O ki qaldı həmin altı gəncə, onlar cani-dildən Dəqyanusa xidmət edir və onu baş verə biləcək ən balaca xatadan belə qoruyurdular. Onlar bəzən onun fikirlərini təqdir edir, bəzən isə onunla razılaşmırdılar. Bu gənclərin yaşda ən böyüyü və ağıllısı olan Təmlixa vaxtaşırı fikirləşirdi: «Bu adam Allahlıq iddiasına düşənə qədər mütəmadi ibadət edib, şəriətin bütün qaydalarına riayət edirdi, istənilən işi Allahın adı ilə başlayır, Ondan kömək istəyirdi. İndi isə o deyir: «Mən Allaham, mən bunu indiyənə qədər bilməmişəm. İndi isə dəqiq bilirəm ki, yer üzünün Allahı mənəm və yer üzündə nə varsa, mən yaratmışam». Əgər bu doğrudursa, onda o, əvvəllər kimə itaət edib, sitayiş edirdi? Məgər özünün Allah olduğunu bilməyən Allah ola bilərmi? Mən, həmçinin onu da görürəm ki, o da bizim kimi və bütün insanlar kimi

aclıq, susuzluq, yuxusuzluq kimi hisslərdən məhrum deyildir. Bu hislərdən asılı olan, belə zəif varlıq Allah ola bilərmi?»

Bu fikirlər Təmlixanı tez-tez narahat edirdi, amma o bu fikirlərini heç kəslə bölüşmürdü. O bu fikirlərini özündə saxlayaraq müşahidələrinə davam edirdi, o, Dəqyanusun gizli və açıq əməllərini izləyib, onları müqayisə edib özü üçün müəyyən nəticələr əldə edirdi. İş ondadır ki, digər beş gənci də bu fikirlər narahat edirdi. Onların da hər biri öz-özlüyündə Dəqyanusun Allah olduğunu qəbul etmirdi, amma heç biri digərinin fikrindən xəbərdar deyildir və heç biri bilmirdi ki, qarşısındakı, yanındakı ən yaxın dostu da onunla eyni fikirdədir. Onlar cani-dildən hökmdarlarının qulluğunda dururdular və Dəqyanus onların bu sədaqətinə valeh olub, gündən-günə onlara daha çox bağlanırdı.

Başqa bir rəvayətə görə, bu altı yeniyetmə bir qədim peyğəmbər nəslindən imişlər. Günlərin bir günü Dəqyanus bir bayram tədbiri keçirmək istəyir və əmr edir ki, bu tədbiri şəhərdən kənarda bir meydanda təşkil etsinlər. Döyüşçülər, qullar, nökərlər lazım olan ləvazimatın hamısını: qabları, camları, mətbəxi, şərab ehtiyatını və başqa şeyləri şəhər kənarına çıxarırlar. Şah əmr edir ki, çadırlar qurulsun və şadyanalıq üçün bütün tədbirlər görülsün. Şahın qulluğunda həmin altı yeniyətmə dururdu, onlar bu işi heç vaxt, heç kəsə etibar etmirdilər. Dəqyanusun qarşısında süfrəni onlar özləri açırlar, yeməkləri, içkiləri özləri gətirirdilər. Dəqyanus əlini uzadıb elə birinci tikəni götürüb ağzına aparırdı ki, onun üstünə bir milçək qonur. Dəqyanus bu tikəni kənara atıb, başqa bir tikəni götürür və ağzına aparır, amma həmin milçək uçub indi də bu tikənin üstünə qonur. Bu, düz yeddi dəfə təkrarlanır, amma bəzən də deyirlər ki, yetmiş dəfə təkrar olur və hər dəfə Dəqyanus seçdiyi, gözü tutduğu tikəni ağzına aparanda milçək həmin tikənin üstünə qonur və Dəqyanus məcbur olub həmin tikəni tullayır. Axırda həm rəzalətdən, həm də qəzəbdən qıpqırmızı qızarmış şah süfrənin arxasından qalxıb hirsini həmin altı gəncə tökərək qışqırmışdır: «Nə durmusunuz? Siz nəyə gərəksiniz? Bir halda ki bir milçəyin öhdəsindən gəlib, onu qova bimirsiniz ki, mən bir tikəni ağzıma qoyum, mənim yanımda nə gəzirsiniz!»

Nəhayət, Təmlixa milçəyi qovmağı bacarır və Dəqyanus bütün bu sərgüzəştlərdən sonra birtəhər bir tikəni uda bilir, amma Təmlixa ürəyində deyir: «Sən necə Allahsan ki, bir murdar milçəyi belə özündən uzaqlaşdıra bilmirsən? Mən belə Allahı nə bu dünyada qəbul edə bilərəm, nə də o dünyada».

Dəqyanus bu gününü birtəhər də olsa, təbiət qoynunda keçirib, axşam düşəndə saraya qayıdır. Təmlixaya isə bu fikirlər rahatlıq vermirdi, o, mütəmadi bunları götür-qoy edirdi. Səhəri gün Dəqyanus yuxudan çox gec oyanır. O bütün səhəri yerində yatır, Təmlixa isə onun başının üstündə durub əlindəki yelpiklə yelləyirdi. Digər gənclər də burada idilər. Biri əlində içərisi buz kimi su olan su səhəngi ilə, o biri, şərab səhəngi ilə durmuşdur, üçüncüsü ətrafa ətir səpirdi, dördüncüsü müşklə, ənbər közərdirdi. Bir sözlə, bu altı yeniyetmə adətləri üzrə hərəsi bir işlə məşğul olurdu.

Birdən Allah-təalanın hökmü ilə dünənki o murdar milçək yenə peyda olur və düz Dəqyanusa tərəf uçur. Dəqyanus dəhşətə gəlib vahimələnir və yerindən sıçrayıb yerə sərilir. Onun başı, üzü yarılır, qan su yerinə axır.

Padşahını bu halda görən Təmlixa bərk qorxub ürəyində fəryad edir: «Bu Allaha nə oldu ki, bir murdar milçəyin əlində aciz qaldı? Allah-təala bircə əmri ilə bu zəif, heç bir gücü-qüvvəsi olmayan milçəyi yaratmışdır, amma sən demə yer üzündə bəzən onun qarşısında mənim hökmdarım kimi möhtəşəm şahlar və təzə peyda olmuş Allahlar da aciz qalıb titrəyirlər. Axı «Quran»da deyilmişdir: «Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın. Şübhəsiz ki, Allahdan qeyri - ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər – lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan (bütün üstündə olanlardan) bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də. (Bütlər də aciz, milçək də, yaxud bütlərə ibadət edən də aciz, ibadət edilən bütlər də!)* Bəli, Allah-təala milçəyi sanki ona görə yaratmışdır ki, dünyanın ən qüdrətli, güclü şəxsiyyətlərini alçaldıb, onların heç nəyə qadir olmadıqlarını, ən rəzil milçəyin qarşısında belə aciz olduqlarını göstərsin

və başa salsın ki, özləri haqqında yüksək iddiada olmasınlar və özlərindən zəiflərin üzərində güclərini nümayiş etdirməsinlər».

Alçalmış, əzilmiş, yaralanmış Dəqyanus qalxıb yaralarını yuyur və tamamilə yuxudan olur. Padşahının belə rəzil vəziyyətə düşməsini görən Təmlixa qəti qərara gəlir ki, artıq ona itaət etməyəcəkdir və ürəyində deyir: «Mən bir milçəyin əlində aciz qalıb, onunla bacarmayan, qorxudan yıxılıb başı, gözü yarılan, yuxusunu qaçıran Allahı qıbul etmirəm. Mən ona nifrət edirəm. Mən hər şeyə qadir və heç bir şeyə möhtac olmayan tək bir Allaha itaət edirəm».

Təmlixa bütün gün beynində bu fikirləri götür-qoy edirdi. Şübhələr, tərəddüdlər ona rahatlıq vermirdi. Gecənin düşməsini gözləyirdi ki, Dəqyanus yuxuya getsin, yoldaşları ilə damın üstünə çıxsınlar. Onlar dama çıxırlar. Təmlixa ulduzlu səmaya baxa-baxa fikirləşir və öz-özünə deyirdi: «Qəribədir! Bu ulduzlu, aylı, günəşli, sonsuz göyü yaradan, Dəqyanusla heç bir müqayisəyə gəlməyən gözəgörünməz, sonsuz qüdrətə malik bir tək Allah vardır. Mənim Allahım bu sonsuz göyləri, ulduzları, kainatı yaradandır». Təmlixa bütün gecəni bu fikirlərlə keçirir və səhər açıldıqda adəti üzrə Dəqyanusun qulluğuna gedir. Ürəyində Dəqyanusa həqarət hissi ilə, üzdə bunu hiss etdirmədən boynuna düşən bütün vəzifələri qayda ilə icra etsə də, Təmlixa ürəyində artıq ancaq yerin, göyün, zamanın sahibi olan tək Allahı düşünür və öz-özünə deyirdi: «Mənim Allahım bizi yaradan və heç bir şeyin qarşısında əyilib aciz qalmayandır».

Təmlixa hələ bir müddət də belə fikirlərlə yaşayır. Qəlbən o, Dəqyanusu Allah kimi qəbul etmirdi, amma bu fikri də heç kəslə bölüşmürdü. Səhərdən gecəyədək Dəqyanusa xidmət edən Təmlixa gecə səhərəcən yeri, göyü yaradan Allaha sitayiş edib, dualar edirdi. O, gecələri yatmırdı. Beynindəki fikirlər ona rahatlıq vermirdi. Bu yuxusuzluq onu üzürdü. Bir tərəfdən onu daima düşündürən, narahat edən fikirlər, bir tərəfdən yuxusuzluq, bir tərəfdən iştahasızlıq onu üzüb elə hala salmışdır ki, o arıqlayıb əldən düşmüşdür, yanaqları batıb saralmış, qızılı rəng almışdır, gözəlliyindən əsər-əlamət qalmamış, vücudu nazilib elə hala düşmüşdür ki, canında taqət, ayaqlarında qüvvət tükənmişdir, onu görənlər fikirləşirdilər ki, bu gəncin

içində nələrsə baş verir. Vəzirlər, hacıblər onun bu halını görüb aralarında bir-birlərinə deyirdilər: «Bu gəncin əvvəlki gözəlliyindən, təravətindən, nəcibliyindən əsər-əlamət qalmamışdır. Onun başında bir bəla vardır, çünki onun görünüşü içindəki narahatçılığına dəlalət edir və açıq-aşkar görünür ki, onun içində bir təlatüm vardır:

Çöhrədə dərd-qəmin izi olanda,
Bu o deməkdir ki, ürəyin dərdi vardır.
Bil ki, al yanaq saralıb solanda,
O, ürəyin dərdindən xəbər verir.

Biz bu gəncin taleyi ilə maraqlanıb onun belə üzülməsinin səbəbini araşdırmalıyıq». Bundan sonra onlar bu məsələni araşdırıb müzakirə etməyə başlayırlar. Biri deyir: «Mənə elə gəlir ki, bu gənc aşiq olmuşdur». Digəri deyir: «Yəqin ki, o bir ağır xəstəliyə düçar olmuş və bu səbəbdən gündən-günə əriyib gedir». Üçüncüsü deyir: «Mənə elə gəlir ki, o çox böyük bir günah iş görmüş, indi də qorxudan bu günlərə düşmüşdür». Vəzirlər çox fikirləşib, çox çözürlər, amma bir qəti fikrə gələ bilmirlər. Nəhayət, vəzirlərin içərisində ən müdriki deyir: «Mənə elə gəlir ki, bu gənc başqa bir Allaha itaət edir və biz gecikmədən bunu Allahımız Dəqyanusa xəbər verməliyik ki, onu yoxlasın. Biz bunu vaxtında çatdırmalıyıq ki, bizi heç kəs qabaqlamasın, əks təqdirdə Dəqyanus bizi gecikib, vaxtında xəbərdarlıq etməməkdə günahlandırıb cəzalandıracaqdır».

Müdrik vəzirin bu fikri ilə hamı razılaşır və onlar Dəqyanusun hüzuruna gedib öz şübhələrini ona çatdırırlar. Dəqyanus deyir: «Bəli, məni də çoxdandır ki, bu fikirlər düşündürür. İndi mən çalışacağam ki, onun bu hala düşməsinin səbəblərini araşdırım. Şübhəsiz ki, bu, səbəbsiz deyildir. Bu məsələnin araşdırılmasının ən məqsədəuyğun yolu bunu digər beş dostdan birinə həvalə etməkdir. O beş dostdan birinə Təmlixanı güdmək tapşırılarsa, o, gecə-gündüz onu güdüb təmizə çıxarar. O, Təmlixanın səhərdən gecəyə, gecədən səhərəcən nə ilə məşğul olduğunu öyrənib bizə çatdırar».

Hamı Dəqyanusun bu fikri ilə razılaşıb Təmlisanı yanlarına çağırtdırırlar və ona deyirlər: «Bizə elə gəlir ki, Təmlixa başqa

Allaha sitayiş edir. Sən bunu öyrənib bizə xəbər verməlisən ki, biz də lazım olan tədbirlərə əl ataq». Təmlisa deyir: «Baş üstə, əmrə müntəzirəm» və çıxıb gedir.

Təmlisa öz-özündə götür-qoy edirdi: «Təmlixanın başında nə iş ola bilər ki, onunla bu qədər maraqlanırlar?» Təmlisa bunları götür-qoy edənəcən Allah-təala sanki onun gözünü örtmüş qəflət pərdəsini qaldırır və o öz-özünə deyir: «Bu Dəqyanus necə Allahdır?! Əgər o, Təmlixanın ürəyində nələrin baş verdiyini anlaya bilmirsə və bunu öyrənmək üçün bizə müraciət edirsə, Allah olmağa layiq ola bilərmi?» Bundan sonra Təmlisanın ürəyində Dəqyanusla bağlı kök salmış şübhə əməlli-başlı özünə yer eləyir və o qışqırır: «Dəqyanus necə Allahdır ki, soyuqdan, istidən qorxur və insana xas hər cür zəif xüsusiyyətlərə malikdir?!» Onun ürəyini əvvəlki şübhələr daha güclü bir şəkildə bürüyür. O, axşamacan gözləyir, qaranlıq düşəndə Təmlixanın evinə yollanır. O, ehtiyatla hərəkət edərək, gözə görünmədən gizli bir yerdə gizlənib durur. O görür ki, Təmlixa bardaş qurub, sinəsinin üstündə əllərini çarpazlaşdırıb astadan pıçıldayır: «Mən kiçik, murdar bir milçəyin əlində aciz qalan Allahı qəbul edə bilmərəm!» Təmlixanın həyəcanlı şəkildə belə sözlər deməsini görən Təmlisa söyüd yarpağı kimi əsir və özündən asılı olmayaraq gizləndiyi yerdən çıxıb dostuna deyir: «Qardaşım, bu nə sözlərdir sən deyirsən?» Təmlisanı görən Təmlixa deyir: «Qardaşım, mənə rəhmin gəlsin, mənim canıma görə sən cavabdehsən. Mənim bu sirrimi açma, gəl mənimlə otur burada, mən də sənə ürəyimi üzən məsələləri danışım». Təmlisa qorxudan əsə-əsə bütün diqqətini, gözlərini, qulaqlarını Təmlixaya yönləndirir. Təmlixa sözə başlayır: «Ey mənim qardaşım, mən də sənin kimi çoxdandır Dəqyanusun qulluğundayam. O, Allahlıq iddiasına düşməzdən əvvəl gecə-gündüz Allaha sitayiş edirdi, indi isə deyir ki, yer üzündə olan bütün canlıları və insanları yaradan Allah odur. Belədirsə, onda o əvvəllər kimə sitayiş edirdi? Bu nə dərəcədə mümkündür ki, bir varlıq gah Allah olsun, gah insan?» Təmlisa dillənir: «Onda Allah kimdir?» Təmlixa cavab verir: «Allah yeri, göyü, ulduzları, ayı, günəşi, səyyarələri yaradan, onları nizamla düzəndir, Dəqyanus isə elə mənim kimi,

sənin kimi zəif və gücsüz insandır. Ona görə də Allah olmağa layiq deyildir. Bundan başqa, o vaxtdan ki biz onun qulluğundayıq, mən ondan bir qeyri-adi, ilahi güc-qüvvə, əməl görməmişəm. Mən onu ancaq yeyib-içən, yatan, istirahət edən, eyş-işrətdə vaxt keçirən, qəzəblənən, hirslənən, kin-küdurət saxlayan, nifrət püskürən görmüşəm. Bunların heç biri Allaha xas olan xüsusiyyətlər deyildir. Bir də yadındadır bayramda o, yemək istəyəndə bir milçək aman vermədi ki, bir tikəni ağzına aparsın. Mən onda anladım ki, o bir murdar, balaca milçəkdən də rəzil və qorxaqdır. Milçək onda onun üzərində qələbə çaldı. Sonra yadındadır, Dəqyanus yatmışdır, həmin milçək gəlib onun üstünə uçdu. O elə qorxmuşdur ki, yatağından yıxılıb başını, gözünü yaralamışdır. Onda da köməyə bizi çağırmışdır. Sonra da uzun müddət yuxudan olmuşdur. Onda da milçək qalib çıxmışdır. Qardaşım, indi özün de, bu xüsusiyyətlərə malk birisi Allah ola bilərmi?»

Təmlixanı dinləyən Təmlisanın şübhələri daha da artır və o fikrə gedir. Öz fikirləri ilə dostunun fikirlərini üzləşdirərək anlayır ki, doğru nəticəyə gəlmişdir. Təmlisa deyir: «Ey mənim qardaşım Təmlixa, sənin adına and olsun ki, mən özüm də çoxdandır belə fikirlərin içində dolaşıb qalmışam. Mən də bunları görüb, anlayıb səsimi çıxarmadan bu sirləri içimdə saxlamışam. Mən də Dəqyanusun həyat tərzini müşahidə edərək sənin gəldiyin nəticəyə gəlmişəm. Bilirsənmi mən nə səbəbdən gecənin bu vaxtı sənin evinə buyurmuşam? İş ondadır ki, kimsə sənin başında bir işin olduğunu Dəqyanusa çatdırmışdır. O məni çağırtdırıb səni güdməyi tapşırmışdır. Mən həmin an düşündüm ki, bu necə Allahdır ki, qulunun ürəyində baş verənlərdən xəbərsizdir və bunun üçün başqa quluna müraciət etməli olur:

Allah məni öldürsə belə, qardaşımın xətrinə dəymərəm,
Mən də sənin kimi Zalıma nifrət edirəm.

Təmlisadan bu sözləri eşidən Təmlixa sevinib onu qucaqlayır və deyir:

Mən qəlbimlə hiss edirəm ki, sən əsl dostsan
Ona görə də qəlbimin sıxıntısı yatdı».

Təmlisa deyir: «Dostum, Təmlixa, indi de görüm sən hansı Allaha sitayiş edirsən? Mən də o Allaha sitayiş edim». Təmlixa cavab verir: «Mən səni, məni, yeri, göyü, günəşi, ayı, ulduzları, səyyarələri - bir sözlə, bütün kainatı yaradan uca Allaha sitayiş edirəm:

> Yer üzündə, göy üzündə, üzərimizdə bircə Allah var,
> Qalanlarına nifrət edirəm, tək Yaradan var!»

Təmlisa deyir: «Mən də ancaq o uca Allahı tanıyıb, ona sitayiş edirəm, Dəqyanusa isə nifrət edirəm». Bundan sonra dostlar əhd-peyman bağlayırlar və bir-birlərinə söz verirlər ki, bu sirri heç kəsə açmayacaqlar, dərddə də, sevincdə də bir-birlərinin yanında olacaqlar. Səhəri gün Təmlisa Təmlixaya deyir: «Qardaşım, biz gərək fikirləşib bir çarə tapaq ki, o biri dörd dostumuzu bu işdən agah edək və onları bu zalım, saxta Dəqyanusun hiylələrindən qurtaraq». Təmlixa dostunun bu təklifini çox bəyənir və onlar şərtləşib Dəqyanusun hüzuruna gedirlər. Dəqyanus həmin dəqiqə Təmlisanı bir küncə çəkib ondan nə öyrənə bildiyini soruşur. Təmlisa insan ağlına gəlməyən andlar verir və deyir: «Dünən Təmlixanı nə qədər güddüm, gördüm ki, o, gecə-gündüz bizi, yeri, göyü yaradan Əsl Allaha sitayiş etməklə məşğul olur». Dəqyanus elə başa düşür ki, Təmlisa «Əsl Allah» dedikdə onu nəzərdə tutur. Dəqyanus buna çox sevinir və onun Təmlixaya inamı daha da möhkəmlənir. Dəqyanus deyir: «Mən onun sadiqliyində əmin idim. İndi get, vəzirlərimə, haciblərimə çatdır ki, onlar yanılırdılar». Dəqyanus onların dedi-qodularını yadına salıb qəzəblənir və sonra onları tənbeh edir.

Bu hadisədən bir müddət keçmişdir. Təmlixa ilə Təmlisa səhərdən axşamacan Dəqyanusa xidmət edir, gecələr isə uca Allaha ibadət edib zahidlik yolunu tutmağa hazırlaşırdılar. Elə olurdu ki, onlar bütün gecəni mübahisə edir, Allahın dərki yollarını müzakirə edirdilər. Onların bu müzakirələri artıq bir adət şəklini almışdır və onlara məhz bu söhbətlər əsnasında Allah-təala tərəfindən yollar göstərilirdi, çünki Allahı anıb, Onun adını yad etmək əsl mömin əməlidir. Məhəmməd peyğəmbər-Allahın salamları olsun ona! Allah ona yar olsun! - demişdir: «Bir saatlıq Allahın adını anmaq bir illik

ibadətdən üstündür». Gənclər o qədər ibadətlə məşğul olub, o qədər zahidlik yolunu müzakirə edirdilər ki, axırda onlar gücdən, taqətdən düşmüş, arıqlayıb solmuşdular. Onların gənclik təravətindən əsər-əlamət qalmamışdır:

«Çöhrəmin rəngi qəlbimin gizli sirlərini faş etmişdir».

Dəqyanusun vəzirləri, hacibləri yenə də pıçıldaşmağa başlamışdırlar, hərəsi bir fikir söyləyirdi. Onların hər biri Təmlixa ilə Təmlisa haqqında özlərinə uyğun tərzdə fikirlər deyirdilər. Bu söz-söhbətdən xəbər tutan Təmlixa Təmlisanı yanına çağırıb deyir: «Qardaşım, artıq tab gətirə bilmirəm. Dəqyanusun bu ağıldan kəm əyanları yenə də ağızlarına gələni danışırlar. Biz artıq bunların arasında yaşaya bilmərik. Fikirləş, elə bir guşə tap ki, biz oraya çəkilib ömrümüzü Allahımıza ibadət etməklə keçirək və Allaha xidmət edərək, qulluq edərək dürüst həyat sürək». Təmlisa deyir: «Hər şeydən əvvəl biz digər dörd dostumuzu da xəbərdar etməliyik ki, onlar da bizə qoşulsunlar və ancaq ondan sonra buradan necə uzaqlaşacağımız haqqında düşünə bilərik». Təmlixa deyir: «Doğru deyirsən, sənin dediyin kimi edərik». Təmlixa ilə Təmlisa Dəqyanusun yanına gedib onun şərəfinə quracaqları ziyafətdə iştirak etmək üçün o biri yoldaşları üçün də icazə istəyirlər. Dəqyanus onlara da icazə verir. Təmlixa ilə Təmlisa evə yollanırlar ki, ziyafət tədarüklərinə başlasınlar. Onlar masa açıb, süfrə salıb, üzərinə təamlar: şərablar, şərbətlər, meyvələr, çərəzlər düzüb o biri dörd dostlarını da dəvət edirlər. Onlar süfrə başında toplaşıb məclisə başlayırlar. Elə ki onlar doyunca yeyib-içirlər, Təmlixa ilə Təmlisa dostlarına müraciət edirlər: «Ey qardaşlar, bilin və agah olun, bizim bu məclisi qurmaqda əsas məqsədimiz sizinlə ürəyimizdə neçə vaxtdır kök salmış fikirləri bölüşməkdir. Bilin ki, bizim fikrimizcə, özünü Allah kimi qələmə verən Dəqyanus bu məqama, bu ada layiq deyildir və o, Allah deyil. O da bizim kimi aciz, gücsüz bir varlıqdır və ən adi milçəyə, həşərata da güc gələ bilmir. O, təkidlə deyir ki, yer üzünü, yer üzündə olan bütün canlıları, insanları o yaratmışdır. Bunların hamısı yalandır. İndi siz bizə cavab verin: «Dəqyanusun neçə yaşı vardır?» Gənclər dedilər:

«Qırx civarında olar». Təmlixa soruşdu: «Bəs yer üzünün nə qədər yaşı olar?» Gənclər dedilər: «Bizdən əvvəl yüz minlərlə insan yaşayıb, onların hamısı bu dünyada yaşamış, sonra isə bu dünyanı tərk etmişlər». Təmlisa ucadan dedi: «Yaxşı, əgər belədirsə, əgər Dəqyanusun yaşı qırxa yaxındırsa, o özündən yüz min il əvvəl mövcud olan bir şeyi necə yarada bilərdi?» Gənclər dedilər: «Doğrudur, sizin dediklərinizin hamısı həqiqətə bənzəyir. Bunların hamısı adamda min fikir yaradır. Dəqyanusun Allah olduğuna inanmaq olmur, amma bu şübhələri dilə gətirmək də insanda qorxu yaradır. İndi siz bizə deyin, bəs yerin, göyün sahibi, bizi yaradan kimdir?» Təmlisa ilə Təmlixa cavab verirlər: «Bizim Allahımız başımızın üstündə göy qübbəsini, ayı, ulduzları, günəşı, ayaqlarımızın altında yeri, bütün canlı və cansız olanların hamısını və nəhayət, bizi yaradandır. Dəqyanus yalançı və saxtakardır. Biz çoxdan ondan üz döndərmişik. O, həqiqətən, Allah olsa idi, bizim ona sitayiş etmədiyimizdən agah olardı, bilərdi ki, biz ona nifrət edirik». Gənclərin dördü də yaşda onlardan böyük olan dostlarının bütün dedikləri ilə razılaşırlar və deyirlər: «Biz də Dəqyanusa nifrət edib, onu inkar edirik. Biz də sizin sitayiş etdiyiniz Allahı qəbul edib, ona sitayiş edirik». Dostlarından bu sözləri eşidən Təmlixa və Təmlisa çox sevinirlər və onları qucaqlayırlar. Onlar öz kiçik dostlarına deyirlər: «Biz nəyin bahasına olursa-olsun, buradan qaçıb, bu insanlardan uzaqlaşmalıyıq və özümüzə elə bir yer seçməliyik ki, ibadət edib öz Allahımıza qovuşa bilək». Gənclər deyirlər: «Biz siz ayaqlarınızı qoyduğunuz yerə başımızı qoymağa hazırıq və siz hara getsəniz, biz də sizin ardınızca gedəcəyik». Belə bir qərara gəldikdən sonra Allahtəala onalrın ürəklərinə nur saldı, dillərinə bu kəlmələri qoydu: «Biz hamımız şəhadət edirik ki, bizim Allahımız yeri, göyü, qurunu, suyu, ayı, günəşi, ulduzları, səyyarələri, canlıları, cansızları, dağları, çölləri, dənizləri, ümmanları, gecəni, gündüzü və hər bir şeyi yaradandır. Biz Dəqyanusa nifrət edir, onun Allahlıq iddiasını qəbul etmirik». Bunu deyib gənclər öz ziyafət süfrələrindən pay götürüb Dəqyanusun hüzuruna yollandılar. Bir müddət də belə davam etdi. Dəqyanus gündən-günə bu gənclərə daha çox etibar edirdi. Gənclər

isə daha böyük bacarıq və səylə Dəqyanusun qulluğunda durur, gizlində isə buradan qaçmaq yollarını müzakirə edirdilər. Dəqyanusun adamları isə öz növbələrində get-gedə daha çox bu gənclərdən şübhələnir, onlar haqqında cürbəcür şayiələr yayırdılar. Nəhayət, bu söhbətlər Dəqyanusa da çatır, o qəzəblənib vəzirlərini, haciblərini yanına çağırtdırır və deyir: «Siz bu gənclərdən nə istəyirsiniz? Sizi narahat edən nədir?» Onlar cavab vermişlər: «Ey bizim Allahımız! Bizə məlumdur ki, onlar başqa Allaha sitayiş edib, səni Allah kimi qəbul etmirlər». Bunu eşidən Dəqyanus daha da qəzəblənir və əmr edir ki, gəncləri onun hüzuruna gətirsinlər. Gəncləri gətirəndə Dəqyanus üzünü onlara tutub soruşur: «İnsanların sizin haqqınızda yaydığı bu şayiələrə səbəb nədir? Nəyə görə sizin ətrafınızda bu qədər söz-söhbət yaranır? Bu deyilənlərdə zərrəcik boyda belə həqiqət olarsa, mən sizi ən ağır işgəncələrlə məhv edərəm ki, digər insan övladlarına da görk olsun». Allah-təala gənclərin ürəyinə cəsarət hissini qoydu və onlar dilləndilər: «Bizim qəbahətimiz nədir?» Dəqyanus dedi: «Sizin Allahınız kimdir? Siz kimə sitayiş edirsiniz?» Altı gənc bir ağızdan cavab verdi: «Biz yerin, göyün sahibi olan tək Allaha inanıb, Ona sitayiş edirik və qəbul edirik ki, Allahdan başqa İlahi yoxdur!» «Quran»da deyildiyi kimi: Onlar (Rum qeysəri bütpərəst Dəqyanusun hüzurunda) durub dedilər: «Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz Ondan başqa heç bir Tanrıya ibadət etməyəcəyik. Əks təqdirdə (Allahdan başqasına tapınacağıq, - söyləsək, küfr) danışmaqda həddi aşmış (ifrata varmış) olarıq! - dedikləri zaman onların ürəklərinə qüvvət (mətanət) vermişdik».*

Allah-təala Dəqyanusa gənclərin, «Allah» dedikdə onu nəzərdə tutduqlarını elə təlqin etmişdir ki, onların dedikləri onun ürəyinə məlhəm kimi yayılmışdır. Gənclərin cavabından çox razı qalmış şah onlara böyük ehtiram göstərdi, çoxlu qiymətli hədiyyələr, ən bahalı geyimlər bağışladı, vəzirlərini, haciblərini isə cəzalandırdı və dedi: «Sizin bu gənclər haqqında dedikləriniz onlara olan paxıllığınızdan irəli gəlir». Sonra o, gəncləri hörmət-izzətlə evlərinə yola saldı. Yolda Təmlixa dedi: «Möhkəm olun, qorxmayın, bilin ki, Allah böyükdür, hər şeyə qadirdir və bizi Dəqyanusdan indi necə qorudusa,

gələcəkdə də qoruyacaqdır». Bundan sonra onların hər biri Allaha dua etməyə başladı. Baxmayraq ki, Dəqyanus vəzirlərə, haciblərə hirslənmişdi, onlar gənclərin verdiyi cavabdan anlamışdılar ki, fikirlərində yanılmamışlar və hətta gənclərin verdiyi cavab onların fikrini daha da möhkəmlətmişdir. Onlar qəti fikrə gəlmişdilər ki, gənclər Dəqyanusun Allahlığından üz çevirib başqa Allaha sitayiş edirlər. Onlar Dəqyanusun o gənclərə münasibətini və onlar haqqında deyilənləri şər kimi qəbul etdiyini bildikləri üçün bir daha onun yanında bu mövzuya toxunmurdular. Onlar ancaq öz aralarında dedi-qodu, söz-söhbət edib pıçıldaşırdılar.

Bir il də belə keçdi. Bir dəfə vəzirlər münasib vaxtda Dəqyanusa gənclər haqqında bildiklərini danışdılar. Dəqyanus artıq elə qəzəblənmişdir ki, rəngi qapqara qaralmışdır. Dəqyanusun dəmirdən hazırlanmış fil boyda bir inəyi var idi. Hər kim onu Allah kimi qəbul etmirdi, onu həmin inəyin içərisinə qoyub yandırırdı. Bu, işgəncələrin ən dəhşətlisi idi. Bu dəfə vəzirlərinin sözlərinə inanan Dəqyanus əmr edir ki, dəmir inəyi gətirib, içini odunla doldurub, qalasınlar ki, əməlli-başlı qızsın. Sonra carçılar qışqırıb bütün şəhər sakinlərini meydana yığırlar. Bütün əhali, əyanlar, əshabələr, vəzirlər, hacıblər və başqaları meydana yığışdıqdan sonra Dəqyanus əmr edir ki, gənclərin altısını da gətirsinlər. Cəlladlar o saat gəncləri əlləri bağlı gətirirlər. Yığılmış camaatın qarşısında Dəqyanus gəncləri sorğu-suala tutur: «Mənim vəzirlərim israrla deyirlər ki, sizin məndən başqa bir Allahınız da vardır və o sizi haqq yolundan çəkindirmişdir. Əgər belədirsə, mən sizi ən ağır işgəncələrlə edam etdirəcəyəm». Gənclər dilləndilər: «Allah bizi qorusun! Biz ancaq haqq yolunu tanıyırıq və haqq yolu ilə gedirik. Biz haqq yolu olmayan yolların heç birini tanımırıq və tanımaq da istəmirik. Sənin bizə işgəncə verməyinə heç bir əsas yoxdur. Sən əgər bizim Allahımızsansa, bizim ürəklərimizdəkilərdən agah olmalısan. Sən unutmamalısan ki, biz sənin qulluğuna gəldiyimiz birinci gündən bu günə qədər bir dəfə də olsun xəyanət, nadürüstlük etməmişik, sənə sədaqətlə xidmət etmişik, sənin tələblərinə, istəklərinə heç vaxt zidd getməmişik, əmrlərini, buyruqlarını qeyd-şərtsiz icra etmişik. Sən bu məsələnin

çözülməsini öz bəsirət gözünə həvalə et, əgər sənin bəsirət gözün vəzirlərinin, haciblərinin dediklərini görürsə, bizi edam et, çünki bütün işlərdə səndən müdrik olanı yoxdur, yox əgər qəlbin sənə onların şər atdıqlarını deyirsə, onda bil ki, onlar, sadəcə, bunu paxıllıqdan edirlər və bizi bu şərdən qurtar ki, biz də rahat öz Allahımıza ibadətlə məşğul olaq».

Dəqyanusun və o altı yeniyetmənin yaşadığı dövrdə nə Peyğəmbər, nə də müqəddəs kitab var idi. İnsanlar öz bildikləri, dərk etdikləri kimi, «yuxarıdan» onlara əmr edildiyi kimi rəftar edirdilər. Bu gənclər də Allah-təalanın göstərdiyi və öz məntiqlərinin dediyi yolla hərəkət edib Haqqın yolunu tutmuşdurlar. Bu işlərin hamısı Zəkəriyyədən, İsadan çox əvvəl baş vermişdir-Allahın salamları olsun onlara! Belə deyirlər ki, bu altı gənc peyğəmbər nəslindən idilər.

Dəqyanus gənclərin camaatın qarşısında dediklərini eşidib yumşalır. Dəqyanusun ürəyinə xüsusilə bu sözlər çox yatmışdır: «Sən əgər bizim Allahımızsansa, onda bilməlisən ki, biz əsl Allaha sitayiş edirik və heç vaxt haqq yolundan sapınmırıq». Dəqyanus ürəyində fikirləşir: «Onlar düz deyirlər. Bu gənclər illərdir ki, mənim xidmətimdədirlər, hələ bir dəfə mənim əmrlərimə biganəlik edib, sözümdən çıxmamışlar. Onlar hələ bir dəfə də mənə xətər gətirəcək hərəkət etməmişlər. Məndən başqa heç kəsə boyun əyib, mənim əleyhimə çıxmamışlar. Onların haqqında deyilənlərin hamısı şər, böhtandır». O, ucadan deyir: «Bizə məlumdur ki, siz doğru deyirsiniz, sizin dediklərinizi biz ilahi məhkəməyə təqdim etdik, oradan belə bir cavab gəldi ki, sizin bütün işləriniz və hərəkətləriniz bizim xeyrimizə yönəlmişdir və siz hər nə edirsiniz, ancaq bizim möhkəmlənməyimiz, güclənməyimiz üçün edirsiniz. Bundan sonra bir kimsə cəsarət edib bizim hüzurumuzda sizin haqqınızda artıq-əskik bir söz danışarsa, onu bu dəmirdən tökülmüş inəyin içində min bir əzabla yandırıb kül etdirəcəyəm». Bunları deyib, Dəqyanus əmr etdi ki, gənclərə daha çox ehtiram göstərib, xəzinədən daha çox hədiyyələr gətirib onların könüllərini xoş etsinlər. Təmlixa dostlarına müraciət edərək ucadan dedi: «Məgər mən sizə deməmişdimmi, bizim sitayiş etdiyimiz Allah güclü və qüdrətlidir. O heç vaxt yol verməz ki, bizim

başımıza bəla gəlsin, o, daima bizi mühafizə edib düşmənlərdən qoruyacaqdır».

Bundan sonra bir müddət də keçdi. Dəqyanusun gənclərə olan xoş münasibəti gündən-günə güclənirdi, gənclər isə gündən-günə daha çox haqq yolunu tutur, daha çox Allaha tapınırdılar.

Bir dəfə Təmlixa dostlarına deyir: «Bizim düşmənimiz çoxdur və onların hər biri gecə-gündüz çalışır ki, bir yolla bizi tələyə salsın. Allah göstərməsin ki, günlərin bir günü onlar bizdən daha güclü çıxsınlar və bizi bataqlığa sürükləsinlər. Yeganə çıxış yolumuz buradan qaçıb, bu yolunu azmış insanlardan uzaqlaşmaq və öz Allahımıza qovuşmaqdır. Biz artıq bu şəraitdə, bu insanların arasında yaşaya bilmərik. Biz buradan uzaqlaşıb bir münasib yer tapıb, artıq heç nədən və heç kəsdən asılı olmadan öz Allahımıza ibadət etməklə məşğul olmalıyıq». Gənclər etiraz edirlər: «Biz ömrümüz boyu buranı tərk edib bir yerə getməmişik, heç yeri tanımırıq, yolları bilmirik. Bizə münasib yeri necə tapa bilərik?» Təmlixa deyir: «Bu qədər dar düşünməyin. Nəyin ardınca gediriksə, O özü bizi yönləndirib, hifz edəcəkdir». Gənclər deyirlər: «Biz razıyıq və biz itaət edirik». Bunu deyib gənclər yol tədarüklərinə başlayırlar. Tədarüklərini hazır etdikdən sonra onlar münasib vaxtı gözləməyə başlayırlar.

Bir dəfə Dəqyanus on günlük ova çıxmaq fikrinə düşür. Bu fikir onun qəlbində tam yer etdikdən sonra əmr edir ki, yol tədarükləri görülsün. Hər bir şey hazır olduqda gənclər Dəqyanusdan xahiş edirlər ki, onların evdə qalmaqlarına icazə versin. Hər şey Allahın əlindədir. Allah Dəqyanusun ürəyinə bir mərhəmət toxumunu salır. O gənclərin evdə qalmaqlarına icazə verir. Yola çıxmazdan əvvəl Dəqyanus inandığı əyanlardan birini yanına dəvət edərək tapşırır ki, o altı gəncə nəzarət etsin.

Dəqyanus yola çıxandan sonra gənclər vaxtlarını həmin əyanla keçirməyə başlayırlar. Onlar bir yerdə yeyib-içir, söhbətləşir, ona təriflər söyləyirdilər. Bir dəfə artıq qaçış üçün hər bir şey hazır olanda gənclər əyana deyirlər: «İcazə versən, biz gedib meydançada bir az çovqan oynayarıq». Əyan deyir: «Nə olar, gedin oynayın». O əmr edir ki, atları hazırlasınlar. Gənclər əyinlərini dəyişib, ipək

qiyafələr geyinib, xüsusi hazırlanmış atları minib yarış meydanına gedirlər. Bir saata kimi oynadıqdan sonra gənclər atlarını çölə tərəf çapırlar. Bunu görən əyan da onların dalınca düşür və onlara çatıb qışqırır: «Siz hara gedirsiniz? Niyə belə edirsiniz?» Onda gənclər bir ağızdan cavab verirlər: «Biz gedirik! Biz Dəqyanusun Allahlığını qəbul etmirik, ona sitayiş etmirik, biz artıq ondan bezmişik. Biz yeri, göyü, bütün kainatı yaradan tək Allaha inanırıq. O Allaha ki, onun insalara xas olan yemək, yatmaq, qorxmaq, rahat olmaq və s. kimi xüsusiyyətləri yoxdur. O Allaha ki onun tayı-bərabəri yoxdur! O təkdir və ondan başqa Məbud yoxdur. Biz onu tapıb, ona tapınmaq üçün gedirik».

Bu sözləri eşidən əyan qışqırıb onların üstünə hücum etmək istəyir, amma gənclər həmin dəqiqə ona hücum edib elə döyürlər ki, o, atdan yıxılıb huşunu itirir. Bunu görən gənclər dillərində Allahın adı ilə atlarını çölə tərəf sürürlər. Bir xeyli yol getdikdən sonra Təmlixa deyir: «Qardaşlarım, biz zahidlik yoluna düşmüşük və məqsədimiz tək Allaha qovuşmaqdır. Gəlin bu atları azad edək, əynimizdəki bu təmtəraqlı paltarlarımızı da çıxarıb ataq, çünki belə etməsək ətrafın diqqətini çox çəkərik. Dəqyanusun dəstəsi bizim axtarışımıza düşəndə atsız, sadə geyimdə onların əlinə düşmək ehtimalımız da az olar. Bunun həm də müsbət tərəfi odur ki, biz daha rahat ibadətlə məşğul ola bilərik».

Gənclərin hamısı Təmlixanın bu fikri ilə razılaşır. Onlar atlardan düşüb, onları çölə buraxırlar, əyinlərindəki qiymətli, ipək paltarları çıxarıb tullayırlar və yüngül sadə paltarları ilə qumlu səhraya üz tuturlar. Onlar dayanmadan neçə gün, neçə gecə beləcə yol gedirlər. Onlar yorğunluqdan lap əldən düşmüşdülər. Onların ayaqları suluqlarla örtülmüşdür, yolun ağırlığı, onların belə işlərdə naşı olmaqları yolu daha da çətinləşdirirdi. Onlar əldən düşüb yol qırağında yerə sərildilər. Onların bu səhradan çıxacaqlarına artıq heç bir ümidləri qalmamışdır. Təmlixa üzüstə yerə sərilib yalvardı: «Ey hər şeyi bilən, hər şeydən xəbərdar olan Allah! Hər bir şeyi görən, eşidən, bilən, tanıyan Allah! Sən biz bədbəxtlərin nə halda olduğunu bilirsən, ey gizli və sirr olanları bilən Allah! Bizə - köməksiz, bədbəxt

qullarına rəhm et! Biz öz rahatlığımızdan, imtiyazlarımızdan, hökmümüzdən, qismətimizdən imtina edib Sənin yoluna gəlmişik. Biz Sənin adınla çöllərə üz tutmuşuq ki, Səni tapıb, Sənə qovuşaq. Ey uca Allah, bizi darda qoyma, bizdən köməyini əsirgəmə:

Ey Allah! Çoban sürüsünü acı canavarlardan qoruduğu kimi,
Sən də bizi amansız düşməndən qoru!

Belə nəql edirlər ki, Təmlixanın dualarını, yalvarışını göydəki mələklər o saat eşitmiş və narahat olub bu xəbəri Allahın dərgahına çatdırmışlar. Uca Allah mələklərə demişdir: «Əgər qul kömək istəyirsə, siz ona kömək etməlisiniz, yox, əgər qul məndən kömək istəyirsə, o zaman siz çəkilin, çünki mənim bildiyimi siz bilmirsiniz». Mələklər sakitləşib susmuşlar.

Bu arada Təmlixa hönkürtü ilə ağlaya-ağlaya yoldaşlarından aralanaraq yaxındakı dağlardan birinin başına qalxır. Dağın başına pəjmürdə halda qalxmış Təmlixa ətrafa baxanda birdən lap aşağıda bir cənnət guşəsinə bənzər çəmənlik görür. Çəmənlikdə qoyun-quzularını otaran bir çoban da var idi. Çobanı görən Təmlixa çox sevinir. O, dostlarını səsləyir: «Tez gəlin bura, mən burada bir çoban görmüşəm, deməli, yaxınlıqda yaşayış yeri də ola bilər». Bunu eşidən dostlar sevinib, Təmlixanın dediyi yerə tərəf qaçırlar. Onlar çobana yaxınlaşıb salamlaşırlar, çoban da onların salamlarına Rum dilində cavab verərək soruşur: «Siz kimsiniz? Haradan gəlir, haraya gedirsiniz?» Təmlixa cavab verir: «Biz qürbət ellərdənik, yolumuzu itirmişik və artıq neçə gündür pay-piyada bu səhralarda dolaşırıq, neçə gündür ki, dilimizə nə bir tikə çörək, nə bir udum su dəyir. İndi bizim bircə tikə çörəklə bircə udum suya böyük ehtiyacımız vardır. Səni and veririk Allaha, Allahın yolunda bizə bir tikə çörəklə bir udum su ver, bu dünyada etdiyin savab o dünyada sənə yazılar». Çoban o saat süfrə açıb özünün bütün yemək ehtiyatını ortaya qoyur, gəncləri qonaq edib, onlara hər cür hörmət göstərir.

Yeyib qurtardıqdan sonra onlar söhbətə otururlar. Çoban onlara diqqətlə baxıb soruşur: «Qardaşlarım, deyin görüm haradan gəlib, haraya gedirsiniz, kimsiniz, kimlərdənsiniz, hansı xalqın övladları-

sınız?» Təmlixa deyir: «Ey çoban, bil ki, biz hamımız Dəqyanusun qullarıyıq və onun əlindən qaçmışıq». Bunu eşidən çoban gülərək deyir: «Siz Allahdan necə qaça bilmisiniz? Axı o sizi tutub cəhənnəmə ata bilərdi». Təmlixa deyir: «Biz neçə vaxtdır ki, əlindən qaçdığımız, bizim yerimizi bilməyə qadir olmayan o saxtakar Allaha nifrət edirik». Çoban bu söhbətləri dinlədikdən sonra Təmlixaya və onun yoldaşlarına heyran olur. Onların cəsarətinə, ağlına ehtiramla yanaşır, üzünə təbəssüm qonur. Gənclər danışırdılar: «Biz Dəqyanusu, onun Allahlıq iddiasını qəbul etmirik. Biz ona həqarət edirik. Biz öz həqiqi-yeri, göyü yaradan, bu günün, sabahın sahibi olan, hər şeyə qadir və heç nəyə möhtac olmayan Allaha inanırıq. Biz deyirik: Allahdan başqa İlahi yoxdur!» Gənclərin dediyi bu sözlərdən çobanın bədəni əsdi, onu vahimə bürüdü və onun ürəyində Allah eşqi cücərdi. O dedi: «Mənim qardaşlarım, sizi bu yola kim salmışdır, kim sizin ürəyinizə Allah eşqini salmışdır, bu həqiqəti sizə kim açmışdır?» Bu sualları verdikcə çoban hiss edirdi ki, onun ürəyinə bir həqiqət hakim kəsilir və bir nur onun zehnini işıqlandırır. Bu, Allah idi, onu haqq yoluna yönləndirirdi. Çobanın bu halını hiss edən Təmlixa və onun dostları bir ağızdan cavab verdilər: «O bizim əqlimizin işi deyildir, onları bizim ürəyimizə uca Allah salmışdır!» Onda çoban dedi: «Qardaşlarım, mən artıq qırx ildir ki, çobanlıqla məşğulam və hər dəfə göy üzünə baxanda ayı, ulduzları, günəşi görəndə ağlıma belə bir fikir gəlir ki, bunlar bir varlıq tərəfindən yaranmışdır. Bunları düşünərək mən də çoxdandır ki, bu qənaətə gəlmişəm ki, Dəqyanus Allah deyildir və ola da bilməz. Məni uzun müddət bu fikirlər rahat buraxmırdı, mən də Dəqyanusa nifrət edir, onun Allah olduğunu qəbul etmirəm və neçə vaxtdır ki, bu fikirlərimi ürəyimdə saxlayıram, çünki özümə bir həmfikir, sirdaş tapa bilmirdim. Nəhayət, sizə rast gəldim və çox sevinirəm ki, mənim kimi düşünən başqa biriləri də vardır. Allaha şükürlər olsun ki, sizə rast gəldim. İndi isə özünüz haqda danışın ki, mən də sizin kim olduğunuzu, kimlərdən olduğunuzu bilim. Nə məqsəd güddüyünüzdən agah olum». Gənclər özləri haqda hər bir şeyi olduğu kimi, başdan-ayağacan danışdılar. Çoban onları

diqqətlə dinlədikdən sonra dedi: «Mən and içirəm ki, nə qədər ki varam, nə qədər ki canımda can var, sizə yardım etməyə hazıram. İstəyirsiniz, mən elə indi aparıb bu qoyun-quzunu təhvil verib qayıdım və sizi bir mağaraya aparım ki, orada heç kəs sizi tapa bilməsin və biz orada gecə-gündüz ibadətlə məşğul olub, zahidlik yoluna düşək və Allahımıza qovuşaq».

Təmlixa və onun dostları çobanın bu sözlərini çox bəyənirlər və qərara gəlirlər ki, onun dediyi kimi etsinlər. Çoban o saat gedib qoyun-quzunu yiyələrinə qaytarıb, rahat ürəklə onların yanına qayıdır. Sonra onlar çobanın dediyi mağaraya tərəf yollanırlar. Onlar bir qədər yol gedirlər və Təmlixa fikir verir ki, bir it onların dalınca gəlir. O, çobana deyir: «Qardaşım, ardımızca bir it gəlir». Çoban itin üstünə qışqırır, amma it ona fikir vermədən onların ardınca gəlməyə davam edir. Təmlixa çobana deyir: «Qardaşım, o bizim dalımızca ona görə gəlir ki, sənə bağlıdır, biz indi onun əlindən qaçsaq, insanlar bunu görəcəklər və biz rüsvay olacağıq. Sən ondansa bir şey fikirləş ki, o bizim dalımızca gəlməsin». Çoban deyir: «Bu it artıq on iki ildir ki, mənim yanımdadır və heç vaxt məndən, sürüdən kənar durmamışdır, amma indi iş başqa işdir, onun bizim ardımızca gəlməyi yaramaz». Bunu deyib, o, itə sərt acıqlanır. İt bir müddət onlardan əl çəkir, amma bir azdan yenə də onların ardınca gəlməyə başlayır. Nə gənclər nə, də çoban nə edəcəklərini bilmirdilər. Onlar daş yığıb itə atmağa başlayırlar. İt dayanır, amma yenə də bir müddətdən sonra onların dalınca düşür. Yolçular yenə də iti daşa tuturlar. İt bir müddət geri qalsa da, sonra yenə onları təqib etməyə başlayır. Bu, dəfələrlə təkrarlanır. Axırda gənclər iti taxtalarla döyməyə başlayırlar, amma bunun da bir faydası olmur. Gənclər hirslərindən itin üstünə düşüb elə döyürlər, elə daşqalaq edirlər ki, sonda ayağını sındırırlar.

Ağrıdan zingildəyən it təmiz insan dilində yalvarır: «Ey mərhəmətli gənclər, niyə məni döyüb, şikəst edirsiniz? Axı mən də sizin axtardığınızı axtarıram. Doğrudur biz, yaranışdan fərqli yaranmışıq, amma bizim amalımız, niyyətimiz eynidir: «Allahdan başqa İlahi yoxdur!» Siz nəyə görə mənə əzab verirsiniz? Niyə yol uzunu mənə işgəncə verib, məni hədələyirsiniz?

Mən haqq yolçularının ocağına can atıram,
Mən muzdla işləyib öz xeyrimi güdmürəm».

Deyirlər ki, itdən «Allahdan başqa İlahi yoxdur» ifadəsini eşidən Təmlixa və onun yoldaşları donub qalmışdılar, çünki onlar bu vaxtacan bir Allah bəndəsinin dilindən belə bu həqiqəti eşitməmişdilər.

Bu hadisə yeddi gəncin hər birinin ürəyini inamla, hüznlə doldurur, onlar düz yolda olduqlarından tam əmin olurlar. Onlar itə yaxınlaşıb, onu tozdan, torpaqdan təmizləyib, yaralarını sarıyıb, sığallayıb yerini rahatlayırlar və bir tərəfdə əyləşib, yenə də uca Allahın qüdrətindən, təkliyindən, hər şeyin sahibi olduğundan danışıb söhbətləşirlər. Onlar başa düşürdülər ki, getdikləri yol haqq yoludur. Onlar anlayırdılar ki, axtardıqları qüvvə, həqiqətən, hər şeyə qadir olan Allahdır. Bundan sonra gənclər Allaha şükür edə-edə yollarına davam edirlər və it də artıq rahat şəkildə onlarla bu yolu gedir. Allah-təalanın müqəddəs kitabında da bu gənclərin və itin adları xatırlanır. Yol uzunu it sınmış ayağına görə əzab-əziyyət çəkirdi, yolu gedə bilmirdi. Onda gənclər növbə ilə iti çiyinlərinə alıb daşımağa başlamışdırlar. Nəhayət, onlar çobanın dediyi mağaranın ağzına çatırlar. Onlar yorulub-əldən düşmüşdülər, ayaqları döyənək, suluq olmuşdur, onlar ayaq üstə durmaq halında belə deyildilər. Çoban deyir: «Biz bütün gücümüzü toplayıb mağaraya daxil olmalıyıq, çünki əks təqdirdə insanlardan və Dəqyanusun silahlı dəstələrindən canımızı qurtara bilməyəcəyik». Bunu deyib çoban mağaraya daxil olur, onun ardınca isə o biri gənclər də daxil olurlar. Onlar mağaraya girəndə gördülər ki, bura çox təmiz, geniş bir otaqdır. Mağaranın girəcəyində bir qurumuş çeşmə və bir neçə qurumuş ağac var idi. Bu yeddi gənc mağaranın ağzında qurumuş ağacların yanında otururlar, it elə orada - onlardan bir az aralıda uzanır. Aclıq və susuzluq onları çox əldən salmışdır, onlar istər-istəməz evlərini, rahatlıqlarını, ailələrini düşünürdülər. Təmlixanın şəhərdə zövcəsi, oğlu, isti ev-eşiyi qalmışdır, o bunları xatırlayıb qeyri-ixtiyari ağlayıb üzüstə yerə sərilir. O biri gənclər də düşdükləri hala acıyıb ağlayırdılar. Birdən Təmlixa göz yaşlarının arasından dilləndi: «Qardaşlarım, Allah böyükdür, Rəhim və Rəhmandır. O hər şeyi görür və bilir. O qüdrətlidir

və o bizi Dəqyanusun əlindən xilas etdiyi kimi, bu darlıqdan da qurtaracaqdır. O bizim yolumuzu bura saldığı kimi, bizi çətinliklərdən də qurtaracaqdır, bizdən ruzisini əsirgəməyəcəkdir, çünki O güclü və qüdrətlidir. Ruhdan düşməyin, möhkəm olun!» Gənclər Təmlixanın bu sözlərindən rahatlıq tapdılar və qərara gəldilər ki, mağarada uzanıb bir qədər istirahət etsinlər.

Bu arada Allah-təala Cəbrailə buyurur: «Mənim sadiq, səmimi, var - gücləri ilə məni axtaran qullarımın yardıma ehtiyacları vardır, onlara yardım et». Cəbrail o saat enib qanadları ilə suyu çəkilmiş çeşməyə və qurumuş xurma ağacına toxunub, onlara can verir. Bir anın içində xurma ağacı göyərir, tumurcuqlayır, pardaxlanıb bol bar verir, çeşmə isə buz kimi su ilə dolur. Təmlixa mağaradan çıxır ki, görsün Dəqyanusun adamları onları axtarmırlar ki, üstü xurma ilə dolu ağacı, gözündən buz kimi su axan çeşməni görüb heyrətlə qışqırır:

Allahı tanıyanı Allah çətinlikdə qoymaz
Allah onu öz pənahında saxlayar, ruzisini əskik etməz!

Ey mənim əziz qardaşlarım, Allaha gedən yolun yolçuları, çıxın və görün, bizim böyük Allahımız nəyə qadirdir!» Gənclər tez mağaradan çıxırlar. Onlar barından budaqları əyilmiş ağacı, buz kimi suyu olan çeşməni görəndə ucadan deyirlər: «Bunların hamısı Allahımızın bizə olan lütfüdür!» Gənclər bu cənnəti görüb çox sevindilər, oturub doyunca xurmadan yeyib, buz kimi sudan içib, dəstəmaz alıb, Allaha şükürlər edib ibadətlə məşğul olmağa başlayırlar.

Təmlixa dostlarına müraciət edir: «Qardaşlarım, uca Allah bizi öz böyüklüyü ilə, mərhəməti ilə töhfələndirdi, bizə ruzi verdi, məskunlaşdığımız yeri cənnət-məkan etdi. Gəlin mağaranın içərisinə keçək, neçə vaxtdır ki, istirahət etmirik, istirahət edib, dincələk. Bir az dincələk, yolun yorğunluğu canımızdan çıxandan sonra qalxıb yenə ibadətlə məşğul olarıq». Dostları deyirlər: «Doğru deyirsən, belə daha düzgün olar». Onlar qərarlaşıb ayağa qalxırlar və dillərində, «Allahdan başqa Allah yoxdur və ona şərik olan da yoxdur»,- kəlmələri ilə mağaraya keçirlər. Onlarla bərabər it də eyni sözləri təkrar

edirdi. Hərə bir küncə çəkilib uzanır, it də mağaranın ağzında uzanıb başını əllərinin üstünə qoyur və onların hamısı yerlərini rahatlayırlar. Uca Allah Cəbrailə əmr edir ki, onlara dərin yuxu versin. Müqəddəs kitabda deyildiyi kimi: «Biz onları mağarada illərlə (üç yüz il) yuxuya verdik».*

Bunlar yatmışkən biz Dəqyanus haqqındakı hekayətə qayıdaq. Belə nəql edirlər ki, Dəqyanus ovdan qayıdanda görür ki, sevimli, gənc qulları yoxdur. Gənclərə nəzarət edən əyan isə onların izinə düşərək səhranın lap dərinliyinə qədər at çapmış və ancaq paltarlarını, atlarını, silahlarını tapıb geri qayıtmışdır. O, Dəqyanus qayıdanda gənclərə mənsub olan şeyləri göstərib, baş verənləri danışır. Dəqyanus bu hadisələrə çox pəjmürdə olur, o bu gənclərə mehrini çox salmışdır, çünki onları uşaq yaşlarından özü tərbiyə edib böyütmüşdür. Dəqyanusun adamlarının arasında böyük söz-söhbətlər başlayır. Vəzirlər, haciblər, sadə xalq - bir sözlə, hamı bu məsələni düşündüyü kimi yozur. Bəziləri gənclərin dalınca hər cür söz danışıb, onları nankor, nadan adlandırır, bəziləri olmuşlarda öz Allahları Dəqyanusu günahkar bilirdi, belə ki, onlar vaxtı ilə onu xəbərdar etmişdilər, amma onları dinləyən olmamışdır. Düz üç gün Dəqyanus öz otağından çıxmır və heç kəsi qəbul etmir. Üç gündən sonra o, qəzəbli, kədərli, pəjmürdə halda vəzirlərini, haciblərini yanına çağırtdırıb üstlərinə hirslənir və bəzilərini hətta cəzalandırır və deyir: «Günahların hamısı sizdədir. Siz paxıllıqdan, xəbislikdən onlara o qədər şər, böhtan yaxdınız ki, onlar buralardan qaçmaq məcburiyyətində qalmışdırlar».

Vəzirlərini, haciblərini cəzalandırıb, Dəqyanus etibar etdiyi əyanları yanına çağırtdırıb deyir: «Mən qorxuram ki, xiffətdən ruhum canımdan çıxa, mən o gəncləri həddindən artıq çox sevirdim, onları əzizləyirdim və ağlıma belə gətirə bilməzdim ki, onlar mənə qarşı belə rəftar edərlər». Əyanlar onu sakitləşdirib bu kəlmələri deyirlər:

«Gözləmədən bəla ətəyindən yapışanda,
Görəcəksən ki, pis, bəd qapıların hamısı açıqdır.

Dərd eləmə, fikir çəkmə, biz onları yerin dibində olsalar da, tapacağıq və sənin hüzuruna gətirəcəyik». Dəqyanus deyir: «Mən

özümə əmin olduğum kimi əminəm ki, onlar heç yerdə burada gördüklərinin yüzdə birini görməyəcəklər, amma müdriklər əyyami-qədimdən demişlər:

İbadət etməyən kəsin aqibəti edam olar,
Şirin xurma sevməyənin qisməti tikanlar olar.

Mən tam əminəm ki, onlar çox uzağa gedə bilməzlər və məni narahat edən odur ki, onlar qismətlərinə düşən bu çətinliklərə necə tablayırlar, bu əziyyətə necə qatlaşırlar? Axı onlar bu yaşa çatanacan bir müstəqil addım belə atmamışlar, günlərini kefdə, istirahətdə keçirmişlər. Mən ağlıma belə gətirə bilmirəm ki, onlar pay-piyada, acsusuz bu səhralarda necə hərəkət edirlər? Mən güman etmirəm ki, onlar çox uzağa gedə bilələr, yəqin ki, onlar yaxınlıqdakı dağlarda gizlənmişlər». Onun hüzurunda olanların hər biri bununla bağlı öz fikrini söyləyir, ancaq onlar bir ortaq fikrə gələ bilmirlər. Onda Dəqyanus üzünü gənclərə nəzarət edən əyana tutaraq soruşur: «Onlar hansı darvazalardan çıxmışlar və sən onların atlarını, paltarlarını haradan tapmısan?» Əyan olanları dəqiqliklə Dəqyanusa danışır və Dəqyanus sevincək dillənir: «Mən çox sevinirəm ki, tez bir zamanda onları tapıb gətirəcəyəm. Əgər onlar yer üzündədirlərsə, deməli, mənim hökmüm altındadırlar, çünki yer üzünün Allahı mənəm və onlar harada gizləndiklərindən asılı olmayaraq, mən onları tapacağam. Yox, əgər onlar göyə çəkiliblərsə, onda da mənim əlimdən canlarını qurtara bilməyəcəklər, çünki göylərin Allahı ilə də mənim isti münasibətim vardır, onları mənə təhvil verəcəkdir və mən onları ən ağır işgəncələrə məruz edərək edam etdirəcəyəm ki, başqalarına da görk olsun».

Bunu deyib, Dəqyanus hər bir tərəfə adamlarını, carçılarını göndərir. Onlar hər istiqamətdə bu əmri yayırdılar: «Hər kim bu qaçaqlardan heç olmasa, birini tutub gətirsə, özü ağırlığında qızılla mükafatlandırılacaqdır». Bunu eşidən hər bir kəs: varlısı da, kasıbı da, nökəri də, əsilzadəsi də çöllərə, dağlara bu gənclərin axtarışına düşürlər. Bu arada Dəqyanus adamlarına əmr edir ki, gedib Təmlixanın zövcəsini və oğlunu gətirsinlər. Onları gətizdirdikdən sonra Dəq-

yanus əmr edir ki, onları qayğı ilə əhatə etsinlər. Dəqyanus onların qeydinə qalır və bir dəqiqə belə diqqətindən kənarda qoymurdu. Tək qalanda isə Təmlixanın həsrətindən bəzən, hətta, ağlayırdı.

Düz iyirmi gün gəncləri bütün ətrafda axtarırlar, amma bir nəticə əldə edə bilmirlər. Dəqyanus başını itirmişdir, nə edəcəyini bilmirdi. Dəqyanus öz-özünə fikirləşir: «Yəqin ki, onları tapşırdığım əyan tutan kimi öldürmüşdür ki, atlarına, zər-zinətlərinə, bahalı paltarlarına yiyələnsin, indi isə qorxusundan bunu boynuna ala bilmir». Dəqyanus əmr edir ki, həmin əyanı yenə onun hüzuruna gətirsinlər. O, şahın hüzuruna gələndə Dəqyanus ehtiramla soruşur: «Sən, təsadüfən, onları öldürməmisən?» Əyan ən ağır andlar içib bildirdi ki, dediyindən, danışdığından artıq heç bir şey bilmir. Əyan danışır: «Onlar meydandan qaçanda mən onların dalınca düşdüm, onlar altı nəfər idilər, mən isə tək idim. Onlar məni çevrəyə alıb, taxta ilə, qamçı ilə o qədər döydülər ki, mən zorla canımı onlardan qurtarıb özümü şəhərə çatdırdım. Mən adamları başıma yığıb yenə onların dalınca düşdüm, amma müəyyən məsafə getdikdən sonra, onların atlarını, silahlarını, paltarlarını tapdıq. Özlərinin isə izlərini belə tapa bilmədik. Mən tapdıqlarımızı yığıb gətirdim və hər bir şeyi olduğu kimi sizə danışdım».

Bu söhbətdən sonra Dəqyanus əlini hər yerdən üzüb nə edəcəyini bilmədi. Cürbəcür fikirlər, şübhələr ona rahatlıq vermirdi, onun nə gecəsi var idi, nə gündüzü. Bu minvalla düz bir ay keçdi. Bir ay tamam olanda İblis yenə də pirani qoca qiyafəsində peyda olaraq Dəqyanusa dedi: «Ey yer üzünün Allahı, sənin axtardığın qulları tapmışam, onlar Cülus dağının başındakı mağaradadırlar. Onlara yanında iti olan bir çoban da qoşulmuşdur». Bu sözləri eşidən Dəqyanus çox sevindi və carçılara əmr etdi ki, car çəkib hər yana yaysınlar: «Qaçaqların aqibətini görmək istəyənlər Cülus dağının başına qalxsın. Orada ağlagəlməz şeylər baş verəcəkdir». Şəhərdə hamı bir-birinə dəydi. Qocalar, cavanlar, uşaqlar, kişilər, qadınlar, atlılar, piyadalar - hamı mağaraya tərəf üz tutmuşdur. Dəqyanus lənətə gəlmiş İblisə üzünü tutub dedi: «Ey möhtərəm ağsaqqal, indi isə mənə qullarımın olduğu mağaraya aparan yolu göstər, mən də elə

edərəm ki, sən cənnətə düşərsən». İblis qabağa düşdü, Dəqyanus isə vəzirləri, hacibləri, əyanları, əshabələri ilə onun ardınca getdilər. Dəqyanus bütün yol boyu düşünürdü ki, bu qaçaqlara hansı əzabı, işgəncəni verəcəkdir, hansı zülmlə onları edam edəcəkdir. Elə ki Dəqyanus və yola çıxmışların hamısı dağın başındakı mağaraya çatdılar, o, vəzirlərini, hacibləri, əyan-əshabələrini səsləyib onlara müraciət etdi: «İndi ki bu bic vələdüzzina nankorlar, bu qədirbilməz nanəciblər mənim əleyhimə çıxmışlar, mən də onlara elə bir cəza verməliyəm ki, başqalarına da ibrət dərsi vermiş olum. Sizin məsləhət bildiyiniz təkliflərinizi gözləyirəm. Siz hansı edam növünü təklif edirsiniz?»

Gələnlərin hərəsi öz təklifini söylədi. Biri təklif etdi ki, onları dənizdə boğsunlar, o biri təklif etdi ki, onları diri-diri yandırsınlar və s. və i. Elə ki, növbə İblisə çatdı, o dedi: «Ey yer üzünün Allahı, əgər sən, həqiqətən, istəyirsən ki, bu qaçaqlara verəcəyin cəza yaddaşlarda qalsın, onda onları elə bu mağaranın içərisində qoy qalsınlar, mağaranın girəcəyini hördür, qoy onlar buradan çıxa bilməsinlər, ən ağır, dözülməz əzablar içində məhv olub siçovullara, ilanlara yem olsunlar». Bu təklif Dəqyanusun lap ürəyincə oldu, o bu təklifi çox bəyəndi və o saat əmr etdi ki, mağaranın ağzını hörsünlər. Dəqyanusa sadiq olanların hamısı daş yığıb, mağaranın ağzını hörməyə başladılar. Elə ki hörüb qurtardılar, divarın üzərində yazdılar: «Bilin ki, vaxtı ilə Dəqyanusa qarşı çıxmış və qaçmış gənclər bu mağarada gizlənmişlər. Dəqyanus əmr etmişdir ki, mağaranın ağzı hörülsün və həmin qaçqın qullar da onun içərisində qalsınlar ki, min bir əzabla məhv olsunlar. İndi hər bir kəs bilməlidir ki, yaradanın əleyhinə çıxanın aqibəti belə olur».

Mağaranın ağzını hördükdən sonra Dəqyanus məiyyəti ilə buradan uzaqlaşır. Şəhərə çatdıqda İblis Dəqyanusa deyir: «İndi düşün, gör qiyamət gününə qədər onları bu mağaradan azad etməyə qadir olan tapılacaqmı?» İblis bu sözləri deyib qeyb olur.

Uca Allah müqəddəs «Quran-i Kərim»də bu hadisəni belə təqdim edir: «Ya Rəsulum! Yoxsa Əshabi-Kəhfin və Rəqqimin (mağara

və Rəqqim əhlinin) ayələrimizdən əcaib bir şey olduğunu güman edirsən?( Xeyr, bu Bizim qüdrətimiz qarşısında adi bir işdir)»*

Beləliklə, Dəqyanus öz tədbirindən çox razı qalaraq, özündən müştəbeh halda təkrarlayırdı: «Bu mağaranın yanından bu yazıları oxuyaraq ötüb keçən hər bir kəs özü üçün bir nəticə əxz edəcəkdir!»

Dəqyanus və onun adamları mağaranın yerləşdiyi dağ zirvəsini tərk etdikdən sonra uca Allah mələklərdən birinə onları daima diqqətdə saxlamağı həvalə edir. Həmin mələk mütəmadi onlara diqqət edir, onları yuxuda ikən bir böyürdən o biri böyürləri üstə çevirir ki, damarlarında axan qan donmasın, torpaq onları çürütməsin. Quranda deyildiyi kimi: «Onlar yuxuda ikən sən onları oyaq sanardın. Biz onları sağa, sola çevirirdik. Onların iti də iki əlini astanaya uzadıb yatmışdır. Əgər sən onları görsəydin, yəqin ki, dönüb qaçar, dəhşət səni bürüyərdi»*.

Bundan sonra da Dəqyanus hamıdan tələb edir ki, ona Allah kimi sitayiş etsin. O isə hökmdarlığını davam edirdi. Bir müddətdən sonra onun ömrü sona yetir; o xəstələnir, tezliklə həyatla vidalaşır və cəhənnəmin düz ortasına varis olur. Ondan sonra hakimiyyətə Kazım adında bir hökmdar gəlir. O da iki il hökmdarlıq edəndən sonra rəhmətə gedir. Ondan sonra isə hakimiyyət rumluların əlinə keçir və onlar dörd il hakimiyyətdə olurlar.

Dəqyanusun ölümündən iyirmi il sonra Zəkəriyyə peyğəmbər – Allah ona yar olsun!,- daha sonra isə İsa - Allahın salamları olsun ona! - zühur etmişlər. İsa peyğəmbərin zamanında çox qeyri-adi hadisələr baş verir. Zahidlərin mağarada yuxuya getməklərindən üç yüz doqquz il keçmişdir. «Quran«da deyilmişdir: «Onlar mağarada üç yüz il qaldılar, üstünə bir doqquz il də artırdılar».*

Bundan sonra onlar mağaradan çıxmışlar. Onların hekayəti İsrail torpaqlarında çox geniş yayılmışdır, çünki ağızdan-ağıza gəzib dolaşırdı. İnsanlar «Tövrat»ı oxuyurdular və mağara sakinlərinin çıxacaqları vaxtı dəqiqliyi ilə bilirdilər. Həmin zaman yetişəndə mağara sakinləri Allahın hökmü ilə sağ qalmışdılar. Onlar tək Allaha və onun rəsuluna inanırdılar. Bunu uca Allah ona görə etmişdir ki, axirətə inanmayanlar Allahın nələrə qadir olduğunu görsünlər.

Allahın hökmü ilə günlərin bir günü mağaranın ağzında başını əllərinin üstünə qoyaraq yatmış it – onun adı Qitmir idi – gözlərini açaraq uca səslə insan dilində deyir: «Allahdan başqa Allah yoxdur və ona şərik də yoxdur!» Qitmirin söylədiyi bu sözlər yatmışların qulağına yetişincə onlar ayılıb bir ağızdan həmin sözləri təkrar edirlər. Sonra isə ani yuxudan ayılmış insanlar kimi gözlərini ovub bir-birlərinə baxıb deyirlər: «Biz nə vaxt yuxuya getdik?» Onlardan biri dilləndi: «Bir neçə dəqiqə bundan əvvəl». O biri dedi: «Yox, biz günorta yatdıq» və hər kəs özünə uyğun mülahizəni söylədi. Hamıdan sonra Təmlixa dedi: «Bu söhbətlər nəyə gərək? Hər bir halda biz gecəni burada keçirmişik və indi oyanmaq vaxtıdır». Hamı yerindən sıçrayıb durdu ki, çeşmə başında dəstəmaz alıb, xurmalarla sabah yeməklərini yesinlər. Mağaranın çıxışına gələndə onlar gördülər ki, o hörülmüşdür, amma hörgünün bir hissəsi dağılıb içəriyə tökülmüşdür. Onlar bu işə məəttəl qaldılar və bir-birlərindən bu vəziyyətə necə düşdüklərini soruşdular. Onlar çeşməyə və xurma ağacına baxdıqda gördülər ki, onlardan əsər-əlamət qalmamışdır. Mat qalıb heç bir şey anlamayan gənclər bir-birlərinə dedilər: «Çox qəribədir, biz dünən bu mağaraya gəldik, bu çeşməni, bu xurma ağacını gördük, bu gün isə onlar tam fərqli bir durumdadırlar. Nə olmuşdur?» Onlardan heç biri nə baş verdiyini anlaya bilmirdi. Sonra onların hamısı Təmlixaya müraciət etdilər: «Biz acımızdan ölürük. Bir şey fikirləş, bir tədbir tök». Təmlixa cibində olan Dəqyanus dirhəmlərini çıxararaq dedi: «Gərək şəhərə gedib bu dirhəmlərə yeyəcək şeylər alıb mağaraya gətirək».

Öz aralarında məşvərət edərək Təmlixa və onun yoldaşları çobana müraciət etdilər: «Sən bu dirhəmləri götür, şəhər bazarına get və yeyəcək şeylər al, gətir. Biz sənin getməyini ona görə məsləhət bilirik ki, səni bu şəhərdə çox az adam tanıyır, bizdən birimiz gedəriksə, Dəqyanusun adamları o saat bizi tanıya bilər və onda bizim hamımız bəlaya düşərik». Çoban dirhəmi götürüb baxdı, üzərində Dəqyanusun adını oxudu və mağaranın çıxışına doğru üz tutdu. Mağaranın ağzının hörülməsi, baş vermiş dəyişikliklər onun ürəyinə qorxu toxumu salmışdır. O, yoldaşlarına dedi: «Ey nəcib insanlar,

mənə elə gəlir ki, biz yuxuda ikən kimsə gəlib arxadan mağaranın ağzını hörüb ki, biz burada qalıb məhv olaq». Təmlixa dedi: «Qardaşım, sən yəqin ki, qorxursan və ona görə belə ağlabatmaz bəhanələr gətirirsən. Əgər qorxursansa, getmək istəmirsənsə, dirhəmləri mənə ver, özüm gedim bazara və yemək üçün bir şeylər alım gətirim». Təmlixa çobandan dirhəmləri alıb, bir təhər mağaradan çıxdı. Ətrafa göz gəzdirəndə gördü ki, böyük dəyişikliklər baş vermişdir. Bütün bunlara məəttəl qalmış Təmlixa düz bir saat sağa, sola baxıb öz-özünə dedi: «Çox qəribədir! Ya mən dəyişmişəm, ya sən tanınmaz hala düşmüsən. Bir gecənin içində bu qədər dəyişiklik necə baş verə bilərdi?» Bunları götür-qoy edə-edə o qorxu, hürkü ilə, ətrafa baxa-baxa şəhərə doğru getdi. O çox ehtiyatla hərəkət edirdi, çünki fikirləşirdi ki, Dəqyanusun adamları hər an onu tanıya bilərlər. Şəhər darvazalarına çatdıqda o gördü ki, burada da hər bir şey həddindən artıq dəyişmişdir. Birdən onun gözü darvazanın başına sancılmış bayrağa sataşdı. Bu bayrağın üzərində yazılmışdır: «Allahdan başqa Allah yoxdur, ona şərik də yoxdur və İsa Allahın ruhudur!»

Bunları oxuyan Təmlixa daş kimi donub qaldı, yerə pərçimləndi, az qaldı huşunu itirsin. O dedi: «Çox qəribədir! Bizim buraları tərk etdiyimiz, cəmi bir gündür, amma hər bir şey dəyişmiş və başqa cür olmuşdur». Sonra o, ürəyində yoldaşları ilə Dəqyanusun əlindən qaçdığı gündən nə qədər keçdiyini hesablamağa başladı, bu günü də hesaba alarkən düz qırx gün edirdi. Onların mağaraya girib yuxuya getməklərindən isə cəmi bir gecə keçmişdir. O, çaşqın halda şəhərə girdi. Şəhərin girəcəyində bir adamdan soruşdu: «Bu şəhərin adı nədir?» Təmlixa qorxurdu ki, yolu azmış olar və səhvən başqa bir şəhərə gəlmiş olar. O adam dedi: «Bu şəhərin adı Efesdir». Təmlixa soruşdu: «Bu məmləkətin hökmdarı kimdir?» Yolçu cavab verdi: «Bu məmləkətin hökmdarı Nikofusdur». Təmlixa başını lap itirdi və üzünü həmin adama tutub yenə də soruşdu: «Darvazanın başına sancılmış bayrağın üzərinə yazılmış sözlərin mənası nədir?» Yolçu cavab verdi: «O sözlər Allaha, onun təkliyinə və İsa peyğəmbərin Allahın ruhu olmağına şəhadət edir». Təmlixa başa düşdü ki, hər bir şey artıq onun düşündüyü kimi deyildir. Təmlixa yenə soruşdu:

«Qardaşım, mən bir qəribəm və heç vaxt bu məmləkətdə olmamışam, bayrağın üzərində adı yazılmış bu İsa kimdir?» Yolçu dedi: «İsa Allahın rəsuludur və göyün dördüncü qatına qalxmışdır». Təmlixa sözünə davam etdi: «Mən eşitmişdim ki, buraların hökmdarı Dəqyanus olmuşdur. O, Allahlıq iddiasında olmuş və demişdir ki, yer üzünün Allahı odur və yer üzündə olan nə varsa, onun tərəfindən yaradılmışdır. O Dəqyanus indi haradadır?» O adam dedi: «Mən heç vaxt belə bir şey eşitməmişəm və belə bir adamın mövcudluğundan xəbərim olmayıbdır». Təmlixa eşitdiklərinə mat qalmışdı, o, az qala huşunu itirmişdi. Bir tərəfdən təəccüb, bir tərəfdən tərəddüd, bir tərəfdən sevinc hissləri onu çaşdırmışdı. Bir az özünə gələndən sonra o, şəhərin küçələrini, bazarlarını gəzərək hər şeyin nə qədər dəyişdiyini görür və məəttəl qalırdı. Yolun üstündə o bir dükana girdi. Dükanın sahibi bir tərəfdə əyləşib «İncil» oxuyurdu.

Təmlixa sakitcə bir küncə çəkilərək düz bir saat onun oxumağını dinlədi. Bu kitabı dinlədikcə onun ürəyini məhəbbət, mərhəmət hissləri doldururdu. Dükanın sahibi oxuyub qurtardıqdan sonra Təmlixa əlindəki dirhəmi onun qarşısına qoyaraq dedi: «Rica edirəm, mənə bu dirhəmə çörək ver». Dirhəmi əlinə alan dükançı ona təəccüblə baxıb soruşdu: «Sən bu dirhəmi haradan almısan?» Dükançı bunu deyərkən Təmlixaya şübhəylə baxır, dirhəmi isə əlində o tərəfə, bu tərəfə çevirərək, atıb-tutaraq diqqətlə nəzərdən keçirirdi. Təmlixa dedi: «Məgər sən bu şəhərdən deyilsən? Sən buradansansa, bu pul niyə səni belə maraqlandırdı? Dükançı dedi: «Necə dedin? Sən mənə düzünü de, bu pul sənə haradandır? Düzünü deməsən, özündən küs. Bu, çox qədim puldur və mən heç şübhə etmirəm ki, sən bir xəzinə tapmısan. Sən gəl bu xəzinənin yarısını mənə ver, mən də sənin haqqında şaha məlumat verməyim, yoxsa, əks halda onlar şallaqlar gücünə səndən həqiqəti alacaqlar». Dükançının bu sözləri Təmlixanı güldürdü. O dedi: «Ey cahil, mən özüm bu şəhərdənəm və bu dirhəm də bu şəhərindir. Xəzinə hara, mən hara? Nə cəfəng şeylər danışırsan?» Bu sözlərdən sonra dükançı Təmlixanın üstünə atıldı və onu tutdu. O saat bütün camaat onların başına toplaşdı. Dirhəmə baxan hər bir kəs məəttəl qalırdı. Çox keçmədi Təmlixa və onun dirhəmi

haqqında söhbət şaha da çatdı və onun əmri ilə keşikçilər Təmlixanın qollarından tutub onun hüzuruna apardılar.

Şah Təmlixanın çöhrəsində nur gördü. Onun ürəyində Təmlixaya qarşı bir ehtiram yarandı, o gördü ki, qarşısında bir qeyri-adi, fərqli insan dayanmışdır. Təmlixa öz xislətinə uyğun olaraq böyük ehtiramla salamlaşdı. Şah onun salamını alıb, cavab verdikdən sonra onu yanında əyləşdirib söhbətə başladı: «Sən kimsən? Hardansan? Bu gümüş pul səndə haradandır? Onu haradan tapmısan?» Təmlixa cavab verdi: «Bu gümüş dirhəmi mənə bu şəhərdə vermişlər, axı bu dirhəm bu şəhərin ən işlək puludur». Şah çox alicənab, nəcib bir insan idi. O, Təmlixanın ədəb-ərkanla verdiyi cavabları eşidib güldü və dedi: «Oğlum, bu dirhəm çox qədimdir və tək Allah bilir ki, bu hansı hökmdarın vaxtında kəsilmişdir. Sən, görünür, bu pulu haradansa əldə etmisən və ya çox güman ki, tapmısan, əgər səndə bu dirhəmlərdən yenə varsa, gətir, onları bölək, yarısı sənin olsun, yarısı mənim. Sən bunu könüllü şəkildə edərsənsə, heç kəs səni incitməz».

Təmlixa çıxılmaz vəziyyətə düşmüşdür, o, başını itirmişdir. O dedi: «Sizi and verirəm Allaha, siz hansı xəzinədən danışırsınız? Siz məndən – dərdlərə, səfalətə düçar olmuş birisindən nə istəyirsiniz? Bir müddət əvvəl mən bu dirhəmi götürərək bu şəhəri tərk etmişəm. Bu şəhərdə məni tanımayan bir kəs yox idi. Nəyə görə bu gün mənə işgəncə vermək istəyirsiniz? Hansı xəzinədən söz gedir?» Təmlixa bunları deyib acı-acı ağladı. Şahın ona rəhmi gəldi, amma dediklərinin də həqiqət olduğuna inana bilmirdi. Şah Təmlixaya dedi: «Oğlum, sən ağlasığmaz sözlər danışırsan, sənin danışdıqların hamıda şübhə yaradır. Sən deyirsən ki, bu şəhəri bir müddət əvvəl tərk etmisən, bu dirhəm bu şəhərin puludur və sən bu şəhərdə hörmətli, adlı-sanlı adamlardan birisən. Sənin, bu dediklərin heç cür həqiqətə uyğun gəlmir. Mən bu şəhərin hökmdarıyam, dirhəmlərin kəsilməsi mənim səlahiyyətimdədir və mənim xəzinəmdə bu dirhəmə bənzəyən bir pul yoxdur. Sən mübahisə etmə, həqiqətdən başqa heç bir şey sənin dadına çatmaz. Sən deyirsən ki, bu şəhərdənsən və şəhərin seçmə hörmətli əyanlarındansan. Əgər belədirsə, bircə nəfər göstər ki, səni tanısın və dediklərini təsdiq etsin. Yox, əgər xəzinə tapmısansa,

onu mənə göstər, biz onu ədalətlə aramızda bölüşdürək. Bu şərtlə razılaşmırsansa, onda öz dediklərinin həqiqiliyini isbat et. Sən bunu etməsən, mən xəzinəni zor-gücü ilə olsa da, sənin əlindən alacağam».

Təmlixa yalvararaq dedi: «Ey şah, mənim tanıdıqlarımı və məni tanıyanları burada görə bilmirəm. Mən düşdüyüm bu çıxılmaz vəziyyətdə çaşqın qalmışam. Mənim bu şəhəri tərk etməyimdən cəmi qırx gün keçmişdir, bu müddət ərzində o qədər dəyişikliklər baş vermişdir ki, mən heç bir şeydən baş aça bilmirəm. Şəhər sakinlərinin, sizin, əyanların görünüşü, qanunlar, adətlər o qədər dəyişmişdir ki, mən buranı tanıya bilmirəm. Mənim tərk etdiyim şəhərdən, sakinlərindən, onların həyat tərzindən heç bir əsər-əlamət qalmamışdır». Qonağın danışığındakı səmimiyyəti görən şah fikrə getdi və öz-özünə dedi: «Bu məsələdə bir sirr vardır, çünki bu adam dürüst birisinə bənzəyir və cəfəng şeylər danışmaz». Sonra o, Təmlixaya müraciət edərək dedi: «İndi ki belədir, hesab et ki, mən sənə, sənin səmimiyyətinə inandım və əgər sən yüz min belə dirhəm tapmısansa, mən onların hamısını sənə bağışlayıram. Sən deyirsən ki, bu dirhəmi bu şəhərdən aparmısan və şəhəri bir ay və on gün əvvəl tərk etmisən. Sənin bu mülahizələrin məni çaşdırıb düşündürür. Yaxşısı budur ki, sən başına gələn bütün macəraları olduğu kimi danış ki, mən də bu işdən baş çıxarım».

Təmlixa dedi: «Mən çox qorxuram ki, məni səndən əvvəl olan hökmdara təhvil verəsən». Şah gülüb dedi: «Bu şəhər, bu məmləkət mənə atamdan, atama isə öz atasından-mənim babamdan qalmışdır. Bəs sən necə düşünürsən? Sənin fikrincə, bu məmləkət kimdən qalmışdır, mənə bu hökmdarlıq necə nəsib olmuşdur?» Təmlixa cavab verdi: «Bu şəhər və məmləkət Allahlıq iddiasında olan Dəqyanusa mənsubdur». Şah mərhəmətlə dilləndi: «Qorxma, Dəqyanusun hökmdarlığından çox zamanlar keçib, bu müddətdə yüz minlərlə sənin, mənim kimi insanlar gəlib keçib. Bizim yaşadığımız dövrdə isə Allah-təala bizə adı İsa olan peyğəmbəri göndərmişdir ki, biz onu dinləyək, sən isə Dəqyanusun dövründən danışıb, özünün isə şəhəri bir aydan bir az çox müddət əvvəl tərk etdiyini israrla söyləyirsən. Belə olan halda biz bunları necə uzlaşdıraq və bunlara necə inanaq?»

Təmlixa bu eşitdiklərinə mat qalıb, yerə pərçimlənib qalmışdı. Bir müddət fikirləşdikdən sonra o dedi: «Ey şah, əgər bütün işlər sənin dediyin kimidir, onda mənim başıma gələnlər möcüzədir və həm də elə bir möcüzədir ki, dünyanın heç bir yerində heç zaman baş verməmişdir. İzin versən, mən hər bir şeyi olduğu kimi danışım». Şah dedi: «Bəli, elə mənim istədiyim də budur». Təmlixa dedi: «Yaxşı, amma bir şərtim vardır, əmr et ki, şəhərin ən qocaman, ən müdrik adamları buraya yığışsın. Ola bilsin ki, onların arasında eləsi olsun ki, ya məni tanısın, ya da mənim haqqımda eşitsin. Axı mən bu şəhərdə evimi, zövcəmi, oğlumu qoyub getmişəm». Şah həmin dəqiqə əmr edir ki, qonağın tələbi yerinə yetirilsin. Şahın adamları hər tərəfə carçıları göndərdilər ki, bu xəbəri yaysınlar. Carçılar hər tərəfə car çəkib yaydılar: «Ey xalq, aranızda Allahlıq iddiasında olan Dəqyanusdan xəbəri olanı varmı?» Camaat cavab verirdi: «Onun hökmdarlıq etdiyi vaxtdan üç yüz doqquz il keçmişdir. Bu haqda salnamələrdə, tarixi kitablarda yazılmışdır. Biz onun haqqında o kitablarda oxumuşuq. Allah-təalanın «İncil»ində Dəqyanusun əlindən qaçıb canını qurtarmış və mağarada gizlənmiş altı gənc haqqında da yazılmışdır. Orada yazılmışdır ki, həmin gənclər bu günəcən sağdırlar və gün gələcəkdir ki, Allah onları oradan çıxaracaqdır ki, bütün insanlara görk olsun və insanlar anlayacaqlar ki, Allah güclü, qüdrətli və hər şeyə qadirdir. Biz bunu »İncil«də oxumuşuq».

Bu sözləri eşidən Təmlixa dedi: «Ey şah, sən bu ahılların dediklərinə inanırsanmı?» Şah dedi: «Uca Allahın kitabında yazılanlar həqiqətdir və illərdir ki, biz bu kitabı oxuyur və onun bir sözünü belə şübhəyə almırıq. Mən də həmçinin bütün varlığımla ona inanıram. İllərdir ki, biz «İncil»dəki bu hədisi oxuyuruq, bu hədis bizim səltənətdə, camaat arasında böyük şöhrətə malikdir».

Təmlixa dedi: «Əgər sən bu hekayətə inanırsansa, bil və agah ol ki, o altı gəncdən biri mənəm və qalan beş gənc, bir çoban və it hal-hazırda mağaradadırlar və onlar mənim yolumu gözləyirlər. Mən bu dirhəmi götürüb şəhərə düşdüm ki, bir qədər çörək alıb mağaraya aparım».

Təmlixa bunu dedikdə şah, əyanları, bütün camaat çaşqınlıqdan nitqlərini itirdilər. Özlərinə gəldikdən sonra Təmlixanın dediyinin həqiqət olduğunu anlayıb onun qarşısında payəndaz olub, əl-ayağını öpməyə başladılar. Camaatı sakitləşdirdikdən sonra Təmlixa şaha dedi: «Bu şəhərdə mənim evim, zövcəm, oğlum qalmışdır. Mən bilmirəm, indi onlardan həyatda olan varmı?» Şah dedi: «O vaxtlardan üç yüz doqquz il keçmişdir. Bir Allah bilir, sənin nəslindən kimsə qalmışdır, yoxsa yox...Ey Təmlixa, bəlkə, sən evinə aparan yolu tapa bilərsən və ya yaşadığın məhəllənin əlamətlərini xatırlayarsan?» Təmlixa dedi: «Onu bir Allah bilir. Mən elə bilirdim ki, mənim buraları tərk etdiyimdən cəmi bir ay keçmişdir, amma sən demə o vaxtdan əsrlər keçmişdir».

Şah ucadan dedi: «Bəlkə, bir möcüzə baş verəcəkdir! Gəlin gedək sənin evinin axtarışına: kim bilir, bəlkə, sənin nəslindən birisi sağdır və biz onu tapacağıq». Təmlixa ayağa qalxdı və bütün şəhər sakinləri onun ardınca düşüb getdilər. Şah əsgərləri və məiyyəti ilə Təmlixanın yanınca getdi. Bu hadisə ilə bağlı şəhərdə və ətrafda görünməz-bilinməz səs-küy qalxmışdır. Hamı: qadınlar, kişilər, qocalar, cavanlar, uşaqlar, gənclər Təmlixanın ardınca gedirdilər. Təmlixa isə küçələri, bazarları, döngələri, məhəllələri diqqətlə seyr edəedə gəzir, amma öz evinə aparan yolu tapa bilmirdi. Nəhayət, o, yorğun, əldən düşmüş, çaşqın halda dayandı. Ətrafda hər bir şey yad idi, əvvəlki şəhərdən əsər-əlamət qalmamışdır. Təmlixanı belə çaşqın halda görən uca Allah o saat Cəbrailə əmr etdi ki, ona yardım etsin və Cəbrail bir göz qırpımında Təmlixanın qarşısında bir nurani qoca cildində peyda oldu və dedi: «Mənim ardımca gəl, mən sənə evinin yolunu göstərərəm». Təmlixa dedi: «Məgər sən mənim evimin yerini bilirsən?» Qoca cavab verdi: «Bəli, bilirəm». Bütün bunlar Təmlixaya qəribə və inanılmaz görünürdü. O, qocanın ardınca getdi, şah məiyyəti ilə və bütün şəhər sakinləri isə onun ardınca getdilər. Təmlixa yol uzunu gözünü qocadan çəkmədi, onunla kəsdiyi bir-iki kəlmədən başqa bir adamla danışıb söhbət etmədi. Şah və bütün camaat Təmlixanın kiminləsə söhbət etdiyini eşidirdi, amma qarşı tərəfin kim olduğunu anlaya bilmirdilər, çünki onlar Cəbraili nə görə, nə də

eşidə bilərdilər. Nəhayət, Cəbrail Təmlixanın əlindən tutub bir evə yaxınlaşdırdı. Təmlixa bu evin qapısında dayanıb dedi: «Bu mənim evimdir».

Şah əmr etdi ki, evin sahibini çağırsınlar. Onun yanına beli, demək olar ki, ikiqat olmuş, başı, demək olar ki, dizlərinə dəyən, son dərəcə zəif, halsız bir qocanı gətirdilər. Camaat dedi: «Bu evin sahibi bu qocadır». Qoca başına yığışmış bu qədər camaatı görəndə az qala huşunu itirmişdir. Şah əmr etdi ki, camaat geri dursun və qocanı bir tərəfdə otuzdurub Təmlixaya dedi: «İndi bu evin sahibi sənsən. Soruş, gör bu qoca bu evə necə yiyələnmişdir?» Təmlixa diqqətlə qocaya baxdı, onun qocaya ürəyi yandı. O, qoca ilə uca səslə salamlaşdı və qoca da onun salamını hörmətlə alıb cavab verdi. Təmlixa dedi: «Ey qoca, sən kimsən, adın nədir, əslin-nəslin kimlərdəndir?» Qoca cavab verdi: «Mən İsa nəslindənəm, yüz səksən yaşım vardır». Təmlixa soruşdu: «Bu ev sənə kimdən qalmışdır?» Qoca ev haqqında verilən sualı eşidib acı-acı ağlamağa başladı. Qoca Təmlixanın üzünə diqqətlə baxanda birdən gözləri onun üzünə elə dikildi ki, sanki baxışları ona pərçimlənmişdir. O, nəhayət, dilləndi: «Bu ev mənə atamdan qalmışdır, ona isə öz atasından. Mənim atam indi sağdır, onun indi üç yüzdən çox yaşı vardır. Gərək deyəm ki, bizim ailəmizə şər, çamur atmaq heç də düzgün deyildir». Təmlixa dedi: «Sən qoca adamsan, yalan söz sənə yaraşmaz. Qanuna görə, bu mənim evimdir və mənim mülkiyyətimdir. Bax bu şəhərin şahı da, hakimi də, əyanları da mənimlə gəlmişlər. Mən onların iştirakı ilə iddia edirəm ki, bu ev mənim mülkiyyətimdir». Qoca dedi: «Xeyr, xeyr, mənim elə mühüm dəlil-sübutlarım vardır ki, mən bu evdə doğulub, böyüyüb, tərbiyə almışam. Yaxşı ki, atam sağdır, əslində deyirlər ki, mənim babam da sağdır. «İncil»də mənim babam haqqında hədis də vardır. Həmin hekayətdə deyilir ki, gün gələcəkdir, o zühur edəcəkdir və hamı onu görəcəkdir». Camaat qocanın dediklərinə məəttəl qalmışdı. Xüsusilə, onun atasının sağ olması hamını heyrətləndirmişdir. Onlar söhbətləşirdilər: «Dünyada bundan qeyri-adi, heyrətamiz nə ola bilər ki? Əgər onun yüz səksən yaşı varsa, təbiidir ki, atasının yaşı daha çox olmalıdır, amma bu qoca onun babasının da sağ olduğunu bil-

dirir. Bunun hamısı heç cür ağıla sığmır». Bütün bunları müşahidə edən şah öz-özünə dedi: «Burada bir sirr vardır». Şah Təmlixaya dedi: «Sən gərək elə mühüm dəlil-sübutlar gətirəsən ki, evi sənə kəsək, əks halda bu mümkün olmayacaqdır».

Təmlixa dedi: «Bu evdə elə şeylər vardır ki, onları ancaq mən dəqiqliklə bilirəm və bunlar sübut kimi qəbul oluna bilər. Mən onları təsvir edib, dəqiq yerlərini deyəcəyəm, əgər siz onları mənim dediyim yerdə, mənim təsvir etdiyim şəkildə aşkar etsəniz, mənim doğru dediyimə əmin olacaqsınız, yox əgər mənim dediklərim düz çıxmasa, deməli mən sizi aldadırmışam». Şah dedi: «Yaxşı, səndə nə dəlil-sübut vardır?» Təmlixa dedi: «Mən bu evi öz əllərimlə tikmişəm. Evin sağ cinahında bir qapalı eyvan vardır ki, mən onun sütunlarından birini mərmərdən düzəltmişəm. Həmin mərmər sütunun altında bir böyük Yəmən əqiqi vardır, onun altında mən onun ölçüsündə bir xəzinə qazmışdım, o xəzinə ağızbaağız adi dirhəmlərdən yüz dəfə ağır gələn Dəqyanus dirhəmləri ilə doludur. O dirhəmlərin hər birinin üzərində Dəqyanusun adı döyülmüşdür. Siz o sütunun altındakı əqiqi qaldırın, onda görəcəksiniz ki, mən doğru deyirəm. Mənim dediklərim həqiqət olarsa, onda bilin ki, bu ev, həqiqətən, mənə mənsubdur, yox əgər olmasa, deməli, mən yalan danışıram».

Şah Təmlixa və hakimlə bərabər evə daxil oldu. Şah qocaya dedi: «Sən biz nə etsək, etiraz etmə. Biz istəyirik bilək ki, bu cavanın dediyi həqiqətdir, yoxsa, yalan». Qoca dedi: «Mənim iki oğlum vardır, birinin yüz yaşı var, adı da babamın adıdır, ikincisinin əlli yaşı var, onu adı isə atamın adıdır. Onları çağırın, məni evə aparsınlar». Adamlar o saat qocanın oğullarını çağırdılar. Onlardan biri yaşlı, o biri isə, nisbətən cavan idi. Onlar qocanı qucaqlarına alıb evə apardılar. Bu arada Təmlixa eyvana sarı getdi. Eyvan elə əvvəlki vəziyyətində-onun təsvir etdiyi şəkildə idi. Onun əmri ilə mərmər sütunu qaldırdılar. Orada, həqiqətən, bir yekə əqiq var idi. Əqiqi də qaldırdılar. Əqiqin altında üzərində yekə bir qıfıl olan qapı göründü. Qıfılı açıb gördülər ki, orada böyük bir zirzəmi vardır. Zirzəmidə Təmlixanın dediyi kimi, ağzınacan Dəqyanus dirhəmləri ilə dolu iyirmi böyük küp vardı.

Şah və onun adamları gördüklərinə mat qalmışdılar. Onlar Təmlixanı qucaqlayıb öpdülər və qocaya dedilər: «Məlum oldu ki, bu ev, həqiqətən də, bu cavana mənsubdur. Onun dediklərinin hamısı həqiqətə uyğun gəldi. İndi sən de görək, nə deyə bilərsən?» Qoca dedi: «Bilin, mənim əlimdə elə bir sübut-dəlil vardır ki, onu heç bir Allah bəndəsi təkzib edə bilməz. Məndə bir sənəd vardır ki, orada mənim atamın əli ilə bu evin üç yüz neçə il əvvəl onun atası tərəfindən tikildiyi yazılmışdır. Mən atamdan eşitmişdim ki, onun atası qəddar, zalım, əzazil Dəqyanusun qulu olmuşdur. Dəqyanusun təkəbbürü o həddə gəlib çıxmışdır ki, o özünü yerin Allahı elan etmişdir. Mənim babam - Təmlixa ona qarşı çıxmış və Allah-təala ona düz yolu göstərmişdir. Mənim babam və onun Dəqyanusun qulluğunda olan digər beş dostu Allahlıq iddiasında olan zalım hökmdarın zülmündən qaçıb Cülus dağındakı mağarada gizlənmişlər. Dəqyanus oraya gedib həmin mağaranın ağzını hördürmüşdür. Atam mənə danışırdı ki, o həmin mağaranın yanına getmiş və babamın müqəddəs ruhuna dualar edib, Allahdan özünə, övladlarına uzun ömür istəmişdir ki, mağara sakinləri oradan çıxanacan onlar yaşasınlar. Mən «İncil»də oxumuşam ki, gün gələcək, onlar mağaradan çıxacaq və xalqın arasına gələcəklər. Mən həmişə Allaha dua etmişəm və edirəm ki, Allah mənə babamı qarşılamağı nəsib etsin. Mənim atam hələ sağdır və mən ondan eşitdiklərimi danışıram. Bəli, məndə üç yüz il əvvəl atamın əli ilə yazılmış yazılı sənəd vardır». Qoca bunu deyib Təmlixanın oğlu tərəfindən yazılmış sənədi onlara uzatdı. Oğlunun xəttini görən Təmlixanın gözləri yaşardı, o sənədi öpdü. Təmlixa üzünü qocaya tutub dedi: «Ey möhtərəm qoca, de görüm, sənin, atanın və babanın adları nə olmuşdur? «Qoca dedi: «Babamın adı Təmlixa, atamın adı Əzxiya, mənim adım isə yenə də Təmlixadir». Təmlixa qocanı qucaqlayıb dedi: «Sənin dediyin adam mənəm. Mən mağaradan bu gün çıxmışam». Şah və onun adamları bu işlərə mat qalmışdılar, Allah onlara da bu səadəti yaşamağı nəsib etdiyindən onlar da Təmlixanın əllərini öpürdülər. Camaatın arasında təlaş əmələ gəldi, nidalar ucaldı, Təmlixa hönkürüb ağladı və dedi: «Mən sənin babanam, sən mənim nəvəmsən. İndi isə oğlum Əzxiyanı

görmək istəyirəm». Qoca bu sözləri eşidib oğullarına dedi: «Gedin, tez gedin zənbili bura gətirin». Qocanın oğulları gedib bir azdan üstü pambıqla örtülmüş bir zənbillə qayıtdılar. Qoca zənbili açıb onun içindən bir «can» parçası çıxarıb yığılanların qarşısına qoydu. Hamı diqqətlə o «can» parçasına baxırdı və birdən orada yığışanlar gördülər ki, o tərpənməyə başladı. Hamı məəttəl qalmışdı. Qoca buyurdu ki, süd gətirsinlər və o, süddən «can»nın ağzına damızdırdı. «Can» parçası bundan sonra daha çox hərəkətə gəldi. Təmlixa o «can» parçasını götürüb öpdü, «can» parçası daha çox hərəkətə gəldi və sonra dayandı, dondu, öldü. O «can» parçası Təmlixanın oğlu idi. O öldü, amma o öz əsas məqsədinə, atası ilə görüşmək məqsədinə çatdı. Burada olanların hamısı məəttəl qalmışdı. Onlar qocadan soruşdular: «Rəhmətlik atan nə vəsiyyət etmişdir?» Qoca dedi: «Axırıncı dəfəatam hələ danışa biləndə deyirdi ki, iki yüz əlli yaşı var, o, bir dəfə demişdir ki, Allah-təala ona o səbəbdən rəhm edib, belə uzun ömür bəxş etmişdir ki, bir daha atasını görüb ona təzim edə bilsin». Qocanın danışdıqlarını dinləyənlər: şah, əyanlar, xalq Təmlixanın ayaqlarına düşüb dedilər: «Sənin dediklərinin hamısı həqiqət imiş».

Təmlixa bir qədər özünə gəldikdən sonra nəvə-nəticələrini qucaqlayıb onlara buyurdu ki, xəzinənin açarlarını şahın qarşısına qoysunlar. Şah dirhəmlə dolu küplərdən birini götürüb yerdə qalanlarını Təmlixanın nəvə, nəticə, kötükcələrinə bağışladı, amma Təmlixa bununla razılaşmadı və buyurdu ki, bu xəzinədən burada baş verənləri görənlərin hamısına paylasınlar. Sonra o buyurdu ki, oğlunun «can» parçası hər çür ədəb-ərkanla dəfn olunsun və onun üzərində məqbərə tikilsin ki, o, bir ziyarətgaha çevrilsin. O, «qoca-nəvə»sini qayğı, məhəbbətlə qucaqladı. O isə sevincindən babasının əllərini öpür, ağlayırdı. Şah və əyanlar israrla Təmlixanın heç yerə getməməsini xahiş edir və yalvarırdılar ki, burada qalıb onların hökmdarı olsun. Şübhəsiz ki, Təmlixa buna razılıq verə bilməzdi. Şah dedi: «Ey Təmlixa, biz sənin haqqında »İncil«də oxumuşduq, sənin hekayətini biz İsa peyğəmbərdən - Allah ona yar olsun! - eşitmişik. Amma bizim ən ümdə arzumuz, bunların hamısını sənin özündən eşitmək idi. İndi Allaha şükürlər olsun, biz səni öz gözlərimizlə görüb, bu hekayəti

sənin özündən eşidib, sənin hüzurunda olmaq xoşbəxtliyinə müyəssər olduq. Səni and veririk o uca Allaha, bizim ruhumuzun rahatlığı naminə, əmin-amanlığımız naminə, bizim yalvarışlarımızı rədd edib, bizi qırma, bizim yerlərdə qal, biz də sənin sayəndə ilahi hüzura sığınıb yaşayaq». Təmlixa dedi: «Məni mağarada dostlarım gözləyir, şəhərə gəlməkdə məqsədim yeyəcək şeylər alıb onlara aparmaq idi. Biz üç yüz doqquz il ac, susuz qalmışıq. Doğrudur, biz elə bilmişik ki, cəmi bir gecə yatmışıq, lakin indi görüb öyrəndiklərimi tez bir zamanda onlara da çatdırmaq istəyirəm. İzin verin, mən onların yanına qayıdım, onlara bütün olanları danışım və çalışım onları da yola gətirim ki, mənimlə buraya gəlsinlər». Şah dedi: «Etiraz etmirsənsə, mən də səninlə gedim və onlardan xahiş edim ki, öz mübarək qədəmləri ilə bizim şəhərə təşrif buyurub bizi xoşbəxt eləsinlər». Təmlixa razılıq verdi. «Qoca nəvə» babasının əllərini öpüb dedi: «İndi ki mənə sənin mübarək üzünü görmək xoşbəxtliyi nəsib oldu, Allah-təala, nəhayət, mənim uzun ömrümə son qoyar, çünki artıq bu qocalıq, zəiflik yükünü çəkmək iqtidarında deyiləm». Təmlixa nəvəsini sakitləşdirdi: «Ruhdan düşmə, çünki sabah axşam mən, sən və sənin atan-mənim oğlum göylərdə bir-birimizə qovuşacağıq». Təmlixa qoca nəvəsi ilə salamatlaşıb şahla bərabər dağa yollandı. Şah əmr etdi ki, mətbəxdən bir xeyli yeyəcək, içəcək şeylər götürsünlər. Elə ki qatırları yükləyib hazır etdilər, kimisi atla, kimisi piyada Cülus dağına doğru üz tutdu. Təmlixanın və şahın ardınca yüzlərlə adam gedirdi, qocalar, cavanlar, gənclər, uşaqlar, qadınlar, kişilər - bir sözlə, hər cür adam bu çətin yolu getməyə hazır idi. Hamı bir-birinə gördükləri, eşitdikləri qəribə, min bir sirli, qeyri-adi hadisələri təkrar-təkrar danışır və hamı bir-birini dinləyirdi. Elə ki onlar dağa yaxınlaşdılar, Təmlixa şaha dedi: «Ey şah, bil ki, mənim dostlarım işlərin nə yerdə olduğundan tam xəbərsizdirlər, onlar qətiyyən bilmirlər ki, Dəqyanus üç yüz neçə il əvvəl ölmüşdür. Onlar elə bilirlər ki, Dəqyanusun əlindən qaçdıqları cəmi bir aydır və hələ də qorxu içindədirlər. Onlar əgər bu camaatın hamısını görsələr, elə biləcəklər ki, bunlar Dəqyanusun adamlarıdırlar, gəlmişlər ki, onları həbs etsinlər. Onda onlar elə həmin dəqiqə canlarını tapşırarlar. Yaxşısı budur ki, siz, hamınız dağ dibində qala-

sınız. Mən isə gedib onlara yeməkləri çatdırım, sonra isə mağarada nə qədər qaldığımızdan söz açıb, hər şeyi danışım». Təmlixanın bu təklifi şahın çox xoşuna gəldi və camaata əmr etdi ki, dayansınlar. Bu arada Təmlixanın yolunu gözləyən gənclər mağaradan çıxıb aşağıya baxanda oradakı izdihamı görüb qorxmuş və yenə də mağarada gizlənmişlər. Təmlixa dostlarının ardınca mağaraya girir və onların qarşısına keçir. Gənclər dostlarını qucaqlayıb şəhərdə nə baş verdiyini soruşmağa başlayırlar. Təmlixa onların qarşısında əyləşib qabaqlarında süfrə açır. Gənclər süfrə başına keçirlər. Onlar itin payını da verməyi unutmurlar, amma it heç nə yemir.

Təmlixa deyir: «Qardaşlarım, necə düşünürsünüz, bizim Dəqyanusun əlindən qaçıb burada gizlənməyimizdən, yuxuya gedib yatmağımızdan nə qədər müddət keçmişdir?» Biri dedi: «Bir gün», digəri dedi: «Bir gecə», üçüncüsü dilləndi: «Bir saat». Təmlixa dedi: «Mən də şəhərə gedənəcən sizin kimi düşünürdüm, amma şəhərə gedib çıxdıqdan sonra vəziyyətin necə olduğunu anladım. Bilin və agah olun, bizim Dəqyanusun əlindən qaçıb, bu mağarada gizlənib, yatmağımızdan ta ayılana qədər üç yüz doqquz il keçmişdir. Bax belə. Düz üç yüz doqquz il əvvəl biz zalım Dəqyanusun əlindən ev-eşiyimizi tərk edib çıxıb getmişik. Bu müddət ərzində Dəqyanus ölmüş və ondan sonra gözəl Efes şəhərində daha dörd hökmdar olmuş və onlar da vaxtları yetişəndə bu dünyanı tərk etmişlər. Uca Allah insanlara İsa peyğəmbəri, - Allahın salamları olsun ona! - onun əli ilə müqəddəs «İncil»i göndərmişdir. İnsanlar İsa peyğəmbəri qəbul edib onun kitabına itaət etməyə başlamışlar və onun göstərdiyi yolla getmişlər. Hər şey Allah-təala tərəfindən müəyyənləşdirilmiş və İsa peyğəmbərin vasitəsi ilə insanlara göndərilmiş «İncil» adlanan kitabda göstərilmişdir. Bu kitabda bizim haqda da məlumat verilmişdir, çünki bizim hekayətimiz dünyada bərabəri olmayan bir möcüzədir və bütün bəşəriyyətə görk ola biləcək bir sirdir». Sonra Təmlixa başına gələnlərin hamısını olduğu kimi yoldaşlarına danışır və sonda deyir: «Şah bütün əyan, əshabələri ilə, bütün şəhər əhalisi; qocadan-qoca, cavandan-cavan, qadınlar, kişilər, yaşlılar, gənclər - hamı yığışıb bu dağın dibinə gəlmişlər ki, sizinlə görüşsünlər. Onlar sizdən

xahiş etmək istəyirlər ki, siz şəhərə qayıdıb onların arasında yaşayasınız. Elə bu saat şah ən yaxın əshabələri ilə dağın başına qalxıb, mağaranın ağzında dayanmışdır ki, sizinlə görüşsün. İndi isə özünüz bildiyiniz kimi qərar verin». Təmlixa dostlarıyla söhbət etdiyi müddətdə şah əshabələri ilə qalxıb, mağaranın girəcəyinə yaxın yerdə dayanıb Təmlixanın dostları ilə söhbətini izləyirdi. Təmlixanın danışdıqlarını dinləyən Təmlisa və digər gənclər baş verənlərdən heyrətə gəlib çaşqın halda bir-birlərinin üzlərinə baxırdılar. Onların hər biri öz-özlüyündə müəyyən fikrə gəlmi°dir. Biri dedi: «Bir halda ki bizim işlər belə bir şəkil almışdır, şahın üzünə çıxmağın nə mənası vardır?» O biri dedi: «Biz dünyəvilikdən uzaq düşüb, zahidlik yolunu seçmiş insanlarıq. Daha doğru olanı budur ki, onlarla ünsiyyətə girməyək». Digərlərinin də fikirləri bu ruhda idi. Təmlisa deyilənlərin hamısına bir növ xülasə kimi dedi: «Qardaşlarım, biz doğma yurdumuzu, elimizi, şəhərimizi, evimizi, halal olanı, haram olanı, doğru olanı da, olmayanı da tərk etdik, qızıldan, gümüşdən, vardan, dövlətdən imtina etdik, şərdən, böhtandan, yalandan, qeybətdən uzaq durub təmiz qəlblə həmişəlik uca Allaha sığındıq və insanlardan üz çevirdik. Sən deyirsən ki, bizim insanları tərk etdiyimizdən üç yüz il keçmişdir. İndi yenidən onlara üz tutmağımızın nə dünyəvi həyata, nə axirətə bir faydası olar. O ki qaldı bizi görmək üçün buraya gəlmiş camaata biz iki işdən birini etməliyik: ya biz mağaradan çıxmalıyıq, ya da onları mağaraya dəvət etməliyik. Bunların hər ikisi bizə baş ağrısı gətirəcəkdir, bizim isə artıq, təxminən, üç yüz otuz yaşımız vardır. Biz artıq tünlük götürə bilmərik, ünsiyyətdə ola bilmərik, çünki ömrümüz artıq sona çatmışdır, hətta biz bir qədər də yaşasaq, onun bir faydası olmaz:

İstəyirsən yüz il yaşa, istəyirsən iki yüz il
Bil ki, hər bir halda bu dünyanı tərk edəcəksən.

Məni dinləyin, düşünüb fikirləşsək, anlayacağıq ki, uca Allahın üç yüz ildən artıq bir müddət ərzində bizi qoruyub saxlamaqda, sonra bizim sirrimizi hamıya açmaqda məqsədi insanlara öz qüdrətini nümayiş etdirmək olmuşdur. Gəlin nə qədər ki insanlar bizi aralarına

alıb müzakirə mövzusuna çevirməmişlər, bəziləri bizi barmaqla göstərib tənqid, bəziləri tərif hədəfinə çevirməmişdir, başımızı yerə əyib, səcdəyə gedək və Allah-təalaya gözlərimizdə yaş - yalvaraq ki, bizim əmrimizi burada tamam etsin. O bizi öz qonşuluğunun səddinəcən gətirmişdir, Ona yalvaraq ki, bizim sonumuzu da burada etsin, çünki indən belə nə qədər yaşasaq da, son məlumdur:

Lap yüz min il yaşasaq biz indən belə,
Ölüm axır-əvvəl ömrümüzü yarımçıq kəsəcəkdir».

Təmlisa sözünü bitirdikdə hamı onunla razı olduğunu bildirdi və yeddi dost həmin dəqiqə başlarını yerə əyib uca Allahdan ölüm istədilər. Allah-təala onların dualarını eşitdi və Əzrayıla buyurdu ki, onların istəklərini yerinə yetirsin. Əzrayıl onların və köpəyin ömrünə elə oradaca son qoydu. Şah əyanları, əshabələri ilə bu söhbəti kənardan dinləyirdi, amma görəndə ki, artıq onlardan səs gəlmir, bir hərəkət edən də yoxdur, mağaranın içərisinə doğru getdilər. Onlar vaxtı ilə Dəqyanus tərəfindən tikdirilmiş və yarıya qədər sökülmüş divara yaxınlaşanda ondan o yana keçməyə cəsarətləri çatmadı. Deyirlər ki, şah Təmlixanın böyük nəticəsinə buyurmuşdur ki, içəriyə keçsin və nə baş verdiyini öyrənsin. Belə fərz edirlər ki, o, içəriyə keçib görmüşdür ki, dostların yeddisi də elə səcdədə canlarını tapşırmışlar. Təmlixanın nəticəsi bunu görüb fəryad etmiş və özü də canını orada tapşırmışdır. Onun qışqırığını eşidən şah və ətrafdakılar qorxaraq mağaradan uzaqlaşmışlar. Bir qədər sakitləşdikdən sonra şah və digərləri qərara gəlmişlər ki, bir təhər içəriyə keçsinlər, amma mağaraya yaxınlaşanda görmüşlər ki, həmin divar elə səliqə ilə və möhkəm hörülmüşdür ki, onun bir daşını belə yerindən tərpətmək mümkün deyildir. Qulaqlarında Təmlixanın nəticəsinin qışqırığı qalmış adamlar nə qədər çalışdılar ki, bir təhər ora yol açsınlar, amma mümkün olmamışdır. Birdən qeybdən bütün əraziyə yayılan bir səs eşidilmişdir: «Dost dosta qovuşdu». Bu sədanı eşidən şah və başqaları donub yerlərində qalırlar və onların hamısı alınlarını mağaranın divarına söykəyərək arzu-istəklərini o uca Allahdan istəməyə başladılar.

Şah və onun əshabələri düz bir ay burada qaldılar. Şəhərdən lazım olan nə varsa daşıyaraq burada böyük bir məbəd, məbədin yanında isə zəvvarların qalması üçün binalar tikdilər. Şah əmr etdi ki, məbədin divarlarına bu mağara sakinlərinin-yeddi Efes gəncinin hekayəti həkk olunsun. Məbədin açarları Təmlixanın nəticəsinə verildi və bu hekayət bütün dünyaya yayıldı. Dindarlar da, kafirlər də bu əhvalatı bilir və bir-birlərinə danışırdılar. Bütün möminlər hər il buraya ziyarətə gəlməyə başlamışlar. Yeddi yeniyetmə haqqında bu hekayət müqəddəs kitabda yer almışdır.

## İYİRMİ YEDDİNCİ HEKAYƏT

# Qəzavü-qədər, Simurğ və Süleyman peyğəmbərin hekayəti

Peyğəmbərlər haqqında hədisləri toplayıb danışanlar belə nəql edirlər ki, günlərin bir günü kainatın ən nəcib, seçilmiş bəndəsi, bütün canlıların tacı, Adəm övladlarının ən parlağı Məhəmməd Rəsulallah - Allah ona yar olsun! Allahın salamları olsun ona! – öz peyğəmbərlik taxtında əyləşmişdi. Onun dostları, tərəfdarları həmişəki kimi yanında idilər və onun qulluğunda durmuşdular. Möhtərəm Rəsulallahın qanını bütpərəstlər və islamı dərk etmədən, dünyəvi mülahizələrə əsaslanaraq qəbul etmiş riyakarlar qaraldırdı. Belə dərin fikirlərə getdiyi bir zaman mələklərin tacı Cəbrail onun qarşısına keçib demişdir: «Ey Allahın Rəsulu, uca Allahın sənə salamları vardır və o deyir: «Biz bütün dünyanı və onun sakinlərini sənin xətrinə yaratmışıq, sən isə bütpərəstlərə və riyakarlara görə bu qədər dərd çəkirsən. Əgər istəyirsən, biz göz qırpımında onların hamısını məhv edək, təki sən dərd çəkmə».

Allahın Rəsulu - Allah ona, Əhli-Beytinə yar olsun! Allahın salamları olsun onlara! - dedi: «Ey Cəbrail, mən bilirəm ki, bu işi asanlıqla həll edə bilərəm, amma mən onun iradəsinə qarşı gedə bilərəmmi?!

Qismətimə dərd düşübsə, dərd çəkməliyəm.

Onun yolunda qarşıya çıxan sınaqlarla barışmaqdan başqa çarə yoxdur. Axı O özü demişdir: «Allah istər ki, üzərinizdə olanı yüngülləşdirsin, çünki insan zəif yaradılmışdır».* Mən öz insan təbiətimə xas zəifliyimə, iradəsizliyimə görə artıq yükə tab gətirmək iqtidarında deyiləm».

Cəbrail - Allah ona yar olsun!- qeyb olur və bir göz qırpımında qayıdır və özü ilə bir möhür gətirir. O deyir: «Ya Rəsulallah, bu mö-

hürü həmişə üstündə gəzdir. O, səni bütpərəstlərdən, riyakarlardan, düşmənlərdən qoruyacaqdır. Nə qədər ki, bu möhür sənin üstündədir, heç bir dərd, bəla sənə yaxın gələ bilməz».

Allahın sevimli, seçilmiş bəndəsi-Allahın salamları olsun ona! - bu möhürə görə çox sevinir və Cəbrailə deyir: «Ey Cəbrail, məgər bu möhür bir kəsi Allah-təalanın onun qismətinə yazdığı qəza-qədərdən qorumağa qadir ola bilər?»

Cəbrail - Allahın salamları olsun ona! - deyir: «Ya Rəsulallah, şübhəsiz ki, Allah-təalanın yazdığı qədər-qismətdən heç cür can qurtarmaq, ondan qaçmaq mümkün deyildir, amma bil və agah ol, iki cür alın yazısı vardır: tam alın yazısı və natamam alın yazısı. Tam alın yazısına; doğum, ölüm, ailə, övlad, ruzi kimiləri aiddir. Bunların hamısı əvvəldən Allah tərəfindən Löhvi-məhfuzda yazılmışdır və onlara pozu yoxdur. Natamam alın yazıları isə onlardır ki, dualar, xeyirxahlıq, xeyriyyəçilik, mərhəmət və başqa bu cür təqdirəlayiq əməllərin sayəsində müsbət səmtə salına bilər. Ya Rəsulallah, nə qədər ki bu möhür sənin üstündədir, güman var ki, natamam alın yazıları düzgün səmtə yönələr və səni bəd işlərdən qoruyar».

Allahın sevimli bəndəsi - Allahın salamları olsun ona! - Cəbraildən bu sözləri eşidib çox sevinir və əhvalı düzəlir. Cəbrail bir qədər düşündükdən sonra deyir: «Ya Rəsulallah, mən sənin qardaşın Süleyman və Simurğ haqqında bir hekayət bilirəm. Bu hekayətdə söz alın yazısından, Allahın qədərindən gedir və burada çox ibrətamiz fikirlər vardır. Mən bir dəfə yerin, göyün sahibi-uca Allahdan izin istəyib, gəlib sənə o müdrik hekayəti danışaram, onda sən görərsən ki, Allah-təalanın yazdığı alın yazısının, taleyin, bəxtin, qəza-qədərin qaçılmaz olmasında nə qədər dərinlik vardır». Bunu deyib, Cəbrail qeyb olur.

Bir dəfə Allahın seçilmiş bəndəsi-Allah ona yar olsun!- çox kədərli şəkildə oturmuşdur və əmisi Həmzə öldürüldüyü üçün qəm-qüssəyə qərq olub dayanmadan ağlayırdı. Bu vaxt Cəbrail peyda olur və Allah-təalanın ona göndərdiyi xəbəri çatdıraraq deyir: «Ya Rəsulallah, bizim uca Allahımız hələ lap çoxdan sənin Həmzə əminə bu

qisməti yazmışdır, ona görə də dərd çəkməyin heç bir mənası yoxdur, çünki Allahın yazısını heç vaxt göz yaşları ilə silə bilməzsən».

Cəbraili dinləyən Rəsulallah - Allahın salamları olsun ona!- Süleymanın dövründə mövcud olan «alın yazısı» haqqında hədisi xatırlayır, üzünü Cəbrailə tutub deyir: «Ey Cəbrail, sən mənə söz vermişdin ki, «alın yazısı» ilə bağlı bir müdrik hekayət danışacaqsan, əziyyət deyilsə, onu mənə indi danış».

Cəbrail sözə başlayır: «Ya Rəsulallah, bu hadisə qardaşın Süleyman peyğəmbərin hökmdarlığı dövründə baş vermişdir. Günlərin bir günü o, həmişəki kimi canlıların əhatəsində oturmuşdur. Onun qarşısında əmrə müntəzir şəkildə insanlar, divlər, pərilər, heyvanlar, quşlar sıralanıb durmuşdular. Birdən balaca sığırçın bir nalayiq hərəkətə yol verir. Süleyman əmr edir ki, sığırçını cəzalandırsınlar. Onda bu biçarə sığırçın ağlayaraq Süleymana deyir: «Bu səhvi məndən görmə, bu qədər-qismət idi, məndən asılı deyildi, yazıya pozu yoxdur». Sığırçının bu sözləri Süleymanın çox xoşuna gəlir və o deyir: «Əgər sən öz səhvini qədərdə görürsənsə, mən səni bağışlayıram, çünki, həqiqətən, yazıya pozu yoxdur. Heç bir varlıq qədəri bircə anlıq belə dəyişdirə bilməz».

Bu söhbətdə quşların padşahı Simurğ da iştirak edirdi. O, Süleymana müraciət edərək deyir: «Ya Rəsulallah, mən qədər-qismətə, alın yazısına inanmıram. Bunlar nədir?» Süleyman Simurğa əmr edir: «Bir də heç vaxt belə boş, cəfəng sözlər demə. Qədər-qismət, alın yazısı inkarolunmaz şeylərdir». Simurğ etiraz edir: «Xeyr, mən həyata, ölümə, cənnətə, cəhənnəmə, qiyamət gününə inanıram, amma bəxtin gətirməsini, taleyin yazısını qəbul etmirəm, çünki onu insanların axmaq, yersiz işlərinə haqq qazandırmaq məqsədilə uydurmuşlar ki, gərəksiz bir hadisə baş verəndə onu bəxtin, taleyin yazısı kimi qələmə verib həmin səhvə yol vermiş adama təskinlik versinlər». Simurğun Allah-təalanın yazdığı taleyi, bəxti belə inkar etməsi Süleymanın heç xoşuna gəlmir və o deyir: «Belə sözlər danışıb, Allah-təalanın yazdığı taleyə, verdiyi bəxtə inanmayan kəsin imanı da kamil ola bilməz!» Daha sonra o, Simurğun üstünə hirslənib, ona bir daha belə gərəksiz sözlər danışmağı qadağan edir və üzünü

hamıya tutub deyir: «Allah-təalanın alın yazısına hamı birmənalı inanmalıdır. Allah-təalanın yazdığı taledən bir kimsə qaça bilməz, çünki onun iradəsi olmadan buluddan bir damla, ağacdan bir yarpaq yerə düşə bilməz. Dediyin o qorxunc sözlərdən imtina et və mən bir də sənin bu sözləri təkrar etdiyini eşitməyim».

Simurğ deyir:«Ya Rəsulallah! Sən məni tikə-tikə etsən də, bəxtə, taleyə inanmayacağam».

Süleyman peyğəmbər çox pəjmürdə olur və Allah-təalaya Simurğdan şikayət edir. Allah-təala həmin saat məni Süleymanın yanına göndərmişdir ki, ona bu sözləri çatdırım: «Sakit ol, kədərlənmə, belə ki, Simurğa Allah-təalanın qüdrətini inkar elətdirən onun bizim tərəfimizdən düçar olduğu alın yazısıdır. Biz qərara almışıq ki, Simurğu insanlardan uzaqlaşdıraq, onu əbədi təkliyə məhkum edək və bunu elə bir şəkildə edək ki, bu onun bizə olan inamsızlığının cəzası kimi görünsün. Sən isə sevinə bilərsən, belə ki, inadkarlığı, tərsliyi nəticəsində Simurğ tez bir zamanda rüsvay olub məhz alın yazısının səbəbindən əskildilib rəzil olacaqdır. Ey mənim elçim, Simurğa de ki, bu gün Məşriq hökmdarının oğlu, Məğrib hökmdarının isə qızı dünyaya gələcəkdir. Biz onların talelərinə böyük, təmtəraqlı toy-düyün yazmışıq. Onlar həddi-buluğa çatanda evlənəcəklər. Sonra onların oğlu olacaqdır və istəyir bütün yer üzünün insanları yığışsın, bizim yazdığımızı dəyişdirə bilməz. Sən Simurğdan soruş, gör bu məsələyə necə baxır». Süleyman peyğəmbər Allah-təalanın dediyi kimi edib Simurğa həmin sualla müraciət edir. «Ya Rəsulallah! – deyə Simurğ cavab verir, – mən qətiyyən uca Allahın qüdrətini inkar etmək fikrində deyiləm, amma mənim ağlım və ürəyim heç vaxt ziyanın, dərdin, bəlanın qaçılmaz olduğunu, insanın başına gələ biləcək bir çətinliyi dəf edilməyinin mümkünsüzlüyünü qəbul edə bilməz. Axı mən görürəm ki, əgər birisi digərinin canına və ya malına qəsd etmək fikrinə düşürsə, həmin kəs evini, hasarlarını möhkəmlədərək özünü mühafizə edə bilir. Belə olan halda nəyə görə biz düşünməliyik ki, insan özünü başına gələcək hər hansı bir bəladan hifz etməyə qadir deyildir. Allah-təala hər bəlanın öz dərmanını və hər yaranın öz məlhəmini yaratmışdır. Axı sən bilirsən ki, mən dəfə-

lərlə sənin qəbuluna gələnlərin qapıçın tərəfindən rədd edilməsinin şahidi olmuşam, hərçənd binəva qul haradan biləydi ki, o biçarəni hansı ehtiyac buraya qədər gətirmişdir. Belə olan halda nəyə görə Məşriq hökmdarının oğlu ilə Məğrib hökmdarının qızının izdivacına mane olmaq mümkünsüz hesab olunmalıdır?»

Simurğun bu etirazını dinləyən Süleyman çox pərt olur və deyir: «Əgər sənin əməllərinə görə bizim yanımızda xüsusi mövqeyin, dəyərin olmasa idi, mən əmr edərdim ki, səni elə cəzalandırsınlar ki, hamıya görk olsun və ondan sonra bir canlı belə Allah-təalanın alın yazısını inkar etməyə cürət etməzdi. Sən peşman olub, bu fikrindən imtina etməsən, mən sənə nifrət edəcəyəm».

Elə söhbətin bu yerində Cəbrail özünü Süleymana yetirib demişdir: «Ya Rəsulallah!

Simurğdan soruş, gör Məşriq hökmdarının oğlu ilə Məğrib hökmdarının qızının izdivacının qarşısını almağa qadirdirmi? Əgər o bunun öhdəsindən gələ biləcəyini söyləyərsə, onunla on beş illik mərcə gir, onun dilindən bunu təsdiq edən kağız al, özün də yaz, şahidləri də dəvət edib, onların dilindən də zəmanət al. Sonra kağızları möhürlə».

Süleyman hər şeyi Cəbrailin dediyi kimi edir. Simurğ bütün şərtləri qəbul edir və Allahın yazdığı taleyin qabağını alaçığı barədə on beş illik sözləşmə imzalayır. Onların sözləşməsində göstərilirdi ki, əgər Simurğ Məşriq hökmdarının oğlu ilə Məğrib hökmdarının qızının izdivacına mane ola bilməsə, ən ağır cəzaya və rəzilliyə məruz qalacaqdır. Simurğa dörd quş zamin durur: sərçə, qarğa, bayquş və yapalaq. Bundan sonra onlar şahidlərin, yəni divlə pərinin iştirakı ilə sözləşməni imzalayıb dağılışırlar.

Simurğ Məğribə uçub gedir və bunu elə bir məharətlə edir ki, bir Allah bəndəsi onun uçub getdiyindən xəbər tutmur. Məğribə uçub gəlmiş Simurğ şahzadənin doğulub göz açdığı evi tapır. Şahzadənin doğulub bəsləndiyi ev ortasından arx axan, gözəl gölü olan möhtəşəm bir bağın içində idi. Gölün, arxın yanında qoyulmuş qızıl beşikdəki körpənin qulluğunda dayələr durmuşdu. Körpə cəmi üç günlük idi. Simurğ bir anda bağçaya enib hamının gözü önündə içərisində

körpə olan beşiyi götürüb göyə qalxır. Bağçada olan dayələr, süd anaları əvvəllər heç vaxt Simurğu görməmişdilər. Simurğun qanadlarının səs-küyünü eşidən qadınların bəziləri huşunu itirib yerə sərilir, bəziləri qorxub qaçırlar, bəziləri isə elə yerlərindəcə donub qalırlar. Bu hadisənin xəbəri həmin an qızın atasına, orduya çatır, amma Simurğ artıq çox yuxarıda idi. Şah və ordusu qəzəbdən çaxnaşıb bir-birlərinə dəyirlər. Ordu kamanlarını hazırlayıb, oxlarını kamanlarına qoyub yaylarını çəkməyə hazır vəziyyətdə başlarını yuxarı qaldıranda dimdiyində beşik olan Simurğun böyük bir dağ kimi göyün üzündə, çox uzaqda uçduğunu görürlər. Bir neçə dəqiqənin içində Simurğ beşiklə bir yerdə gözdən itir. Qızcığazın atası özünə yer tapa bilmirdi, özünü ora-bura çırpır, nə edəcəyini, nə çarə qılacağını bilmirdi. Bunların hamısının əbəs olduğunu anladıqda isə çarəsiz qalıb saraya keçir. Hamı olanlardan çaşqın hala düşmüşdür.

Havaya qalxmış Simurğ dənizə tərəf uçur. Dənizlərin, dəryaların üzərindən uçub, yeddinci dənizin ortasında ucalan çox hündür bir dağın başında enir. Bu zirvədə başı göyün yeddinci qatına qədər ucalan bir ağac var idi. Bu ağacın başına başqa heç bir quş uça bilməzdi. Simurğun yuvası bu ağacın başında idi.

Simurğ beşiyi ağacın başına qoyub otlardan, yarpaqlardan yumşaq bir yataq düzəldir. Qızı yatağa yerləşdirib, yerini rahatlayıb, bu mərcdə qalib olacağına şübhə etmədən öz işi ilə məşğul olmağa başlayır. Qızcığazın üç yaşı tamam olanacan Simurğ ona dünyanın dörd bir tərəfindən ən nəfis, ən xeyirli təamlar gətirib onu naz-nemət içində bəsləmişdir. Bir Allah bəndəsinin qızın sağ qaldığından xəbəri yox idi, çoxları isə, ümumiyyətlə, onun çoxdan öldüyünü düşünürdü. Simurğun niyyəti isə belə idi, o düşünürdü: «Mən bu qızı bizim Süleymanla sözləşməyimiz bitənəcən heç kəsə xəbər vermədən bəsləyib böyüdəcəyəm. Elə ki vaxt yetişər, Süleyman peyğəmbər məni hüzuruna dəvət edər, mən də bu qızı götürüb gedərəm onun qarşısına və Allah-təalanın qədər-qismətindən bu qızı necə qaçırdığımı danışaram. Qoy yer üzündəki bütün insanlar anlasınlar ki, əgər çalışıb mücadilə edərlərsə, Allahın yazdığı qədəri də dəyişməyə qadir olarlar.

Mələk o kəs olacaqdır ki, hiss ilə, ağlı ilə çalışır,
Barama çalışmasa, tut yarpağından ipək yaranmaz.

Simurğ bu xəyallarla səhərdən axşamacan Süleymanın qulluğunda dururdu. Gecə düşəndə isə, o, qızın yanına qayıdır və onun bütün arzularını yerinə yetirirdi. Qız hər cür qayğı, nəvazişlə əhatə olunmuşdur, naz-nemət içində bəslənirdi, o elə fikirləşirdi ki, yer üzündə bu ağacın başındakı həyatdan başqa həyat yoxdur. Ona elə gəlirdi ki, yer üzündə Simurğdan başqa canlı yoxdur və o özünü Simurğun qızı hesab edirdi. Onun heç ağlına belə gəlmirdi ki, üzərində yaşadığı ağacdan, qarşısında gördüyü dağ və dənizdən, Simurğdan başqa digər canlılar və varlıqlar da mövcuddur.

Allah-təala Simurğun ürəyinə bu qıza qarşı elə bir məhəbbət qoymuşdur ki, ondan bir an belə ayrı dura bilmirdi. İllər keçir, qızcığaz artıq böyüyüb gənc qız olmuşdur. O elə bir gözəl, zərif, yaraşıqlı huri-mələyə dönmüşdür ki, ona tay gözəl yer üzündə tapmaq mümkün olmazdı. Qızın bu füsunkar gözəlliyi qarşısında heyran qalmış Simurğ öz-özünə düşünürdü: «Mən uzaqda olmayan o ayrılıq günü nə edəcəyəm? Mən bu ayrılığa necə dözəcəyəm?!» Simurğ gecə-gündüz bu fikirlərin ağırlığı altında vurnuxurdu: «Vaxt tamam olanda mən məcburiyyət qarşısında qalıb bu gözəli Süleymanın hüzuruna aparmalıyam. Bəs mən nə edəcəyəm, mən bu ayrılığa necə dözəcəyəm, mənim halım necə olacaqdır?

Əgər səni seyr etməkdən mən əzab çəkirəmsə,
Səndən ayrılanda halım necə olacaqdır?»

O bütün günlərini bu qəmli fikirlərlə keçirirdi. Ona təsəlli verən ancaq Süleymanın üzərində çalacağı qələbə idi. O fikirləşirdi: «Bu aycamal gözəllə ayrılacağamsa da, heç olmasa, Allahın Rəsulu Süleymanla kəsdiyim mərcdə qalib olacağam». Bu fikirlərlə Simurğ vaxt-vədənin tamam olan günü gözləyirdi.

Bəsrəli Şeyx Həsən deyirdi ki, o, oxuduğu kitablardan Məşriq padşahının oğlunun böyüyüb yeddi-səkkiz yaşına çatdığını bilirdi. Bu uşaq ovu çox sevirmiş və ona o qədər aludə olubmuş ki, ov ləvazimatları ilə heç vaxt ayrı durmazmış. O bütün günlərini

səhralarda keçirərdi. Ailənin yeganə oğlu olduğundan atası ona heç bir qadağa qoymurdu, ona hər bir azadlığı verirdi və onun hər bir istəyi həmin an yerinə yetirilirdi. Şahzadənin on yaşı tamam olanda o artıq öz yaraşığı, at çapmaq bacarığı, ağlı, zəkası, qabiliyyəti ilə seçilirdi və bəlkə də, ona tay ikinci belə yeniyetmə tapmaq mümkün olmazdı. O hər gün öz yaxınları ilə səhraya çıxır, ov ovlayır və təbiəti seyr edirdi. Ovdan qayıtdıqdan sonra isə, o, əyanları, əmirləri, əshabələri, müdrikləri, müşavirləri başına toplayıb, onların söhbətlərinə qulaq asar və bununla da öz dünyagörüşünü genişləndirərdi.

Günlərin bir günü şahzadə yenə də atasının əyanları ilə ova çıxmışdır. Birdən səhrada ona ovçu qiyafəsində İblis yaxınlaşır və deyir: «Sən atandan izin istə, mən səni dəniz ovuna çıxarım, biz dəniz macəralarını seyr edək». Bu sözlərlə İblis şahzadənin ürəyində dəniz ovuna böyük bir maraq alovunu yandırmağa nail olur və bu maraq get-gedə daha da güclənir. Bu maraq şahzadənin ürəyində özünə elə bir yer eləyir ki, yeniyetmənin nə gecəsi olur, nə də gündüzü. Şahzadə atasının hüzuruna gəlib deyir: «Mən öz ovçuluq məharətimi dəniz ovçuluğunda da sınamaq istəyirəm, izin ver, dənizə çıxım». Şah o saat əmr edir ki, bir aylıq yol tədarükü görülsün, hər bir şey nəzarətdən keçirilsin. Sonra o, sərkərdələrindən birinə tapşırır ki, bu səfər boyu oğlunun yanında o olacaq və onu müşayiət edəcəkdir. Oğlunun bütün təhlükəsizliyi onun nəzarətində olacaqdır. Bundan sonra şahzadə silahlı dəstəsi, qulları, nökərləri, ov quşları və hər cür ləvazimatı ilə yol uzunu ov edə-edə dəniz sahilinə yollanır.

Şərtləşdiyi yerə çatdıqda şahzadə göstəriş verir ki, çadırlar qurulsun, düşərgə salınsın. O, gündüzlər ov ovlayır, axşamlar isə əyan-əshabələrin maraqlı söhbətlərinə qulaq asırdı. Şahzadə bir neçə gündən sonra əmr edir ki, on günlük tədarük görüb gəmiləri hazır vəziyyətə gətirsinlər. Bu vaxt yenə də lənətə gəlmiş İblis ovçu qiyafəsində şahzadənin qarşısına keçib deyir: «Sən gəmini və qayıqları ancaq sol tərəfə yönəlt, o tərəfdə ov bol olur». Şahzadə lənətə gəlmiş İblisin dediyinə əməl edərək istiqaməti ancaq sol tərəfə tutur».

Nəhayət, onlar cənnət guşəsinə bənzəyən bir adaya çatırlar. Burada sayı-hesabı olmayan turaclar, kəkliklər, tutuquşuları, ördəklər

və başqa quşlar var idi. Şahzadə ovun belə bol olduğunu görüb çox sevinmişdir. O, səhərdən axşama, axşamdan səhərəcən ov ovlayırdı. Nəhayət, üç-dörd gündən sonra o əmr edir ki, gəmiləri yolu davam etmək üçün hazırlasınlar. Gəmilər, qayıqlar hazır vəziyyətə gətirilir və onlar yola düşürlər. Onlar birinci günü rahat, macərasız keçirirlər, ikinci gün isə elə bir külək qalxır, tufan qopur, ildırım çaxır ki, insanların qorxudan ürəkləri düşür. Bir gün axşamadək onlar bu tufanın, qasırğanın altında yol gedəndən sonra gəmi, qayıqlar burulğana düşüb, dalğaların zərbələri altında param-parça olur. Şahzadənin olduğu gəmi də parçalanmışdır. Şahzadə bir təhər üzüb özünü suyun üzərindəki taxta parçasına çatdırıb ondan yapışır. Taxta parçasını o tərəfə, bu tərəfə çırpıla-çırpıla, nəhayət, on gündən sonra bir sahilə yan alır. Sahilə tullanmış şahzadə ac, tənha, aciz halda oturub ətrafı seyr edir və başına gələnləri fikirləşir. O, ayağa qalxıb ətrafı gəzib, dalğaların sahilə atdığı, qurumuş balıqlardan yeyib, sonra bir tərəfdə uzanıb yuxuya gedir.

Səhər şahzadə ayıldıqda Allahın adını tutub yola düşür. O düz on gün sahil boyu yol gedir. On birinci gün o artıq sahildən uzaqlaşmaqda olan bir gəmi görür. O ağlasığmaz əziyyətlə üzüb özünü gəmiyə çatdırır. Bu, ticarət gəmisi idi. Elə ki gəmiyə qalxır, tacirlər onu sorğu-suala tutmağa başlayırlar: «Kimsən, haralardansan, buralara necə gəlib çıxmısan?» Şahzadə də cavab verir: «Mən yazıq, biçarə, kimsəsiz birisiyəm, atam adlı-sanlı, hörmətli tacirlərdən olmuşdur. Onun sonsuz var-varidatı var idi. O, ticarət məqsədi ilə bir neçə yük gəmisi ilə yola çıxmışdır, amma yolda tufan, qasırğa gəmilərin hamısını məhv etmişdir. Hamı, o cümlədən mənim atam da həlak olmuşdur. Təkcə mən bir taxta parçasından yapışaraq bir təhər sahilə çıxa bildim və artıq neçə gündür ki, ac, çarəsiz sahil boyu tək-tənha, yalqız dolaşıram. Sizi and verirəm o uca Allaha, qiyamət günü naminə mənə - biçarə, yazıq, kimsəsiz, vaxtı ilə bir adlı-sanlı əyanın övladı olub, bu gün amansız taleyin burulğanına düşmüş yeniyetməyə rəhm edin. Məni rədd etməyin, yanınızda saxlayın. Mən belimə nökər qurşağı sarıyıb gecə-gündüz sizin qulluğunuzda durmağa hazıram. Bəlkə, sizin mərhəmətinizlə mən insanların məskunlaşdığı bir yerə

yetişərəm. İnanın ki, sizin mənə etdiyiniz mərhəmətin qarşılığında uca Allah sizi yüz misli ilə mükafatlandıracaqdır».

Gəmidə olanların biri Süleyman peyğəmbərin qullarlından idi. O, Süleyman peyğəmbərin əmrlərini icra edir, ən uzaq ölkələrlə alver edirdi. Şahzadəni diqqətlə dinləyən tacir gəncin yerişindən, duruşundan, rəftarından, danışıq tərzindən onun əsilli, nəcabətli, köklü, soylu bir nəsildən olduğunu anlamışdır. Tacir şahzadəyə nəvaziş göstərib, ona bir dəst paltar verir, yedizdirib, içizdirib, onu bir ata mərhəməti ilə qəbul edir.

Şahzadə cani-dildən ağasının hər tapşırığını yerinə yetirirdi. Nəhayət, dənizçilər gəminin yelkənlərini qaldırıb yollarına davam edirlər, şahzadə buna çox sevinir. Şahzadənin bacarığını, fərasətini, dürüstlüyünü görən tacir ona gündən-günə daha çox valeh olur və ürəkdən bağlanır. O, şahzadəyə ata qayğısı göstərirdi. Bir müddətdən sonra onların gəmiləri bir sahilə yan alır. Şahzadənin dürüstlüyündən, halallığından əmin olan tacir bütün malını ona etibar edib özü Misirə yollanır. Şahzadə düz iki il tacirin əmlakına yiyə durur, gözünün ucu ilə belə ona xor baxmır, onu göz bəbəyi kimi qoruyur. Özü isə üstündə qalmış qızıl kəmərini, üzüyünü satıb əldə etdiyi pullarla müəyyən işlər görüb, başını dolandırır. O, səbirsizliklə tacirin qayıtmağını gözləyirdi. Nəhayət, tacir səfərdən qayıdır və işlərini sərli-sahmanlı görüb şahzadəni yanına çağırır. O deyir: «Oğlum, artıq bir müddətdir ki, mənim yanımdasan və bu müddət ərzində məndən heç bir şey istəməmisən,

Sənə heç bir şey etmədiyim üçün xəcalət çəkirəm.

Mən səndən çox xahiş edirəm məndən bir şey istə, mən də onu can-dildən yerinə yetirib sənin xəcalətindən çıxa bilim».

Şahzadə cavab verir: «Ağam, birincisi, sən mənim bu yer üzündə yeganə ümidgahımsan və nə qədər ki sən varsan, mənim heç bir şeyə ehtiyacım yoxdur. İkincisi, mən hələ elə bir iş görməmişəm ki, səndən onun qarşılığını gözləyəm. Mən, həqiqətən də, sənə layiqli xidmət göstərərəmsə, müqabilində ürəyimdən keçəni də deyərəm».

Şahzadənin cavabı tacirin çox xoşuna gəlir, amma heç bir şey demir. Şahzadə gündən-günə daha böyük həvəslə, canfəşanlıqla çalışırdı. Tacir isə öz növbəsində xəcalət çəkir və gəncin qarşısında özünü borclu bilirdi. Bir neçə aydan sonra şahzadə bazara gedib zövqünə uyğun nəfis, qiymətli bir hədiyyə alıb gətirir və onu tacirin qarşısına qoyur. Şahzadə bir neçə dəfə bunu təkrar edib tacirə nəfis hədiyyələr bağışlamaqla onun ürəyini tam fəth edir. Bir sözlə, şahzadə öz bacarığı, qiymətli hədiyyələri ilə taciri elə bir həddə gətirir ki, o artıq xəcalət yükünün altında əzilir. O, mütəmadi şahzadənin xəcalətindən necə çıxacağını fikirləşir:

«Mən sənin xəcalətindən necə çıxım?».

Şahzadə tacirin çox fikir etdiyini görürdü, o bilirdi ki, tacir hər bir vəchlə onun xəcalətindən çıxmaq istəyir. Bir gün şahzadə tacirə yaxınlaşıb təbəssümlə deyir: «Mənim bir diləyim var və sən onu yerinə yetirmək iqtidarındasan». Tacir sevincək qışqırır:

«Məndən canımı, ruhumu istəsən, onu sənə bağışlayaram».

Şahzadə təzim edib deyir: «Mən istəyirəm ki, sən mənə icazə verəsən gedib öz gözlərimlə Nil çayının mənbəyini, haradan başlandığını görüm». Tacir deyir: «Ey gənc, bu nə qəribə istəkdir, Nil çayının haradan başlandığını bilmək sənə nə kimi fayda verəcəkdir? Sən hələ çox kiçiksən, kimsəsizsən, Nil çayı isə öz başlanğıcını Məğribdən götürür, sən ora necə gedib çıxacaqsan?» Şahzadə cavab verir: «Gedib çıxacağam, mən bu niyyətimə çatmamış əl çəkməyəcəyəm. Bu arzu mənim ürəyimdə çox dərin bir kök salmış, bütün vücudumu sarmışdır. Mən mütləq məqsədimə çatmalıyam:

Mən öz məqsədimdən əl çəkməyəcəyəm,
Əks təqdirdə qoy qara torpaq mənim üzümü örtsün».

Gəncin öz fikrində israrlı olduğunu anlayan tacir deyir:

«Səni fikrindən döndərə bilmədimsə,
Qoy taleyinə nə yazılmışdırsa, o da olsun.

İxtiyar sahibisən. Oğlum, mən görürəm ki, sən qəti fikrə gəlmisən və mütləq gedəcəksən, amma mən də göstərdiyin xidmətə görə, sədaqətinə görə sənin xəcalətindən çıxmalıyam. Bil ki, sənin etdiklərinin müqabilində özümü çox narahat hiss edirəm. Sənin seçdiyin, qarşına qoyduğun məqsədə aparan yol macəralarla, çətinliklərlə doludur».

Tacir bu sözləri deyib öz xəzinəsinə gedir və oradan bütün dərdlərin dərmanı olan cövhərlə qayıdır və deyir: «Götür bu cövhəri, iç. O səni yol boyu çox bəladan qoruyacaqdır». Şahzadə tacirə təzim edib təşəkkürünü bildirir və cövhəri götürüb içir və sonra deyir: «Sən şahlara layiq bir iş gördün. Mənə bu cövhəri verdin. İndi isə mənə bu cövhərin kəramətindən bəhs et». Tacir deyir: «Bil ki, bu Süleyman peyğəmbərin xəzinəsindən əldə olunmuş bir cövhərdir. Mənim sənə olan ehtiramımın həddi yoxdur. Mən daima özümü sənə borclu hiss edirəm. Bu cövhəri də hər adama verməzdim, ürəyimdə sənin yerin tam başqadır deyə verirəm. Dərmanın özəlliyi ondadır ki, onun təsiri ilə sən bütün canlıların dilini anlayacaqsan. Amma sən mütləq bir şərtə əməl etməlisən. Sən bu dərmanın sirrini heç bir qadına verməməlisən, çünki bu dərman haqqında bir qadın bilərsə, sən həmin an öləcəksən».

Cövhərin özəlliklərini eşidən şahzadə çox sevinir və tacirə öz dərin minnətdarlığını bildirib yola çıxır. Şahzadə Nil çayı boyunca gedir. O, məsafələri mənzilbaşından mənzilbaşına ölçürdü və şəhərdən təxminən yüz fərsəng aralıda, bir cənnət guşəsinə çatır. Bu cənnət guşəsində bol meyvə, büllur kimi bulaqlar var idi. Meyvələrindən yeyib, suyundan içib, bir tərəfdə əyləşib buradakı gözəlliyi seyr etməyə başlayır. Bu ağacların arasında bir neçə çox nəhəng ağac var idi ki, onların başları sanki göylərə dəyirdi. Bu nəhəng ağacların meyvələri çox böyük idi və onların hər biri kağıza bükülmüşdür. Kağıza bükülmüş meyvələrin hamısı işıq saçırdı. Şahzadə nə qədər fikirləşib düşündüsə, bu kağıza bükülmüş, işıq verən meyvələrin nə olduğunu anlaya bilmir. Şahzadə bu ağacların arasında gəzişirdi və belə qərara gəlir ki, artıq yoluna davam etsin. Elə bu vaxt onun vücudunu titrəyir, ürəyi əsir. Şahzadəni vahimə bürüyür,

yerində donub qalır. Şahzadə hər dəfə getməyə cəhd edəndə bədəni titrəyib, ürəyi əsməyə başlayır.

Şahzadə öz-özünə deyir: «Mən burada indən belə altmış il də qalası olsam belə, bu sirri öyrənməmiş heç yerə getməyəcəyəm. Şahzadə elə bunları fikirləşirdi ki, toz-duman qalxdı, ormana ordu, silahlı dəstələr doluşdu. Şahzadə fikir verib gördü ki, şəhərin hökmdarı əshabələri ilə onun diqqətini cəlb etmiş ağaclara doğru gəlirlər. O, bir tərəfdə gizlənib öz-özünə dedi: «Mən bu məsələyə aydınlıq gətirməyənəcən buradan tərpənməyəcəyəm».

Elə ki hökmdar o ağacların altında dayandı, bütün qullar, nökərlər, haciblər, döyüşçülər onun qarşısında əmrə müntəzir vəziyyətdə durdular. Onlar hökmdarlarının hər əmrini yerinə yetirməyə hazır idilər. Nökərlər hökmdar taxtının yanına yeddi başqa taxt da düzdülər. Bu taxtların üzərində vəzirlər əyləşdilər. Onlar hökmdar ilə müxtəlif mövzularda söhbət edirdilər və nəhayət, hökmdar üzünü vəzirlərə tutub dedi: «Artıq neçə ildir ki, mən bu işıq saçan bükülülərin nə olduğunu öyrənmək istəyirəm, amma hələ də bir nəticə əldə edə bilməmişəm. Mən sizə bunların meyvə və ya başqa bir şey olduğunu öyrənib mənə deməyinizi tapşırmışam. Tapşırmışam ki, bu ağacların nə vaxt, kim tərəfindən yetişdirildiyi, buraya kim tərəfindən gətirildiyi öyrənilsin. Yəni bunu öyrənmək, aydınlaşdırmaq belə çətindir? Əcdadlarımın ruhuna and olsun, əgər bu ağacların sirrini öyrənib mənim ürəyimi sakitləşdirməsəniz, hamınızı məhv edəcəyəm».

Çıxılmaz vəziyyətə düşmüş vəzirlər bir-birinin üzünə baxıb donmuşdular. Heç birinin cürəti çatmırdı ki, bir kəlmə söz desin. Nəhayət, baş vəzir təzim edib deyir: «Şah sağ olsun! Artıq neçə illərdir ki, biz sizin qulluğunuzdayıq, bizdən əvvəl atalarımız atanızın, onlardan əvvəl babalarımız babanızın, daha əvvəl ulu babalarımız ulu babanızın qulluğunda olmuşlar və bu ağacları hamı hər zaman belə görmüşdür və heç kəs onların sirrini öyrənə bilməmişdir. Şah sağ olsun, amma əgər sən bu gün bizim qarşımızda bu məsələni qoyursansa, onda möhlət də verməlisən ki, biz də araşdırıb, müdrikləri, aqilləri dindirib-danışdırıb bu sirri aça bilək».

Qəzəblənmiş hökmdar çox ağır bir and içib deyir: «Əgər siz bir ay müddətində bu ağacların sirrini öyrənə bilməsəniz, hamınız həyatla vidalaşmalı olacaqsınız». Qəzəblənmiş hökmdar bunları deyib ayağa qalxır və vəzirlərini orada qoyub çıxıb gedir. Təşvişə düşmüş vəzirlər canlarını qurtarmaq üçün yollar axtarmağa başladılar. Uzun müzakirələrdən sonra onlar belə bir ortaq fikrə gəlirlər: «İki yol var; ya biz mövqeyimizdən, ailələrimizdən, evimizdən imtina edib bir guşəyə sığınmalıyıq, ya da nəyin bahasına olursa olsun, bu ağacların sirrini öyrənməliyik».

Vəzirlər çox müzakirə edib, götür-qoy edirlər və axırda belə qərara gəlirlər ki, ayrılıb yeddi tərəfə yollansınlar ki, bəlkə, belə etsələr, onlardan biri bir dünyagörmüş ahıl, müdrik tapıb bu ağacların sirrini öyrənə bilər. Amma fikirləşdilər ki, əvvəlcə müəyyən yol kəsiyini bir yerdə getsinlər. Vəzirlərin yola çıxmaqda israrlı olduqlarını görən şahzadə sevinir və ürəyində deyir: «Çox gözəl, bundan sərfəli bir iş ola bilməz. Mən də onlara qoşulub yoluma davam edərəm. Təsadüfi deyil ki, ərəb məsəlində deyilir: «Əvvəl özünə yoldaş tap, sonra yola çıx».

Şahzadə Allaha şükür edib vəzirlərin ardınca yola düşür. Onu görən vəzirlər deyirlər: «Oğul, kimsən hara gedirsən?» Şahzadə deyir: «Mən Məşriqdən gəlirəm və Məğribə gedirəm» Vəzirlər şahzadənin bu cavabına təəccüblənib dedilər: «Sən hələ lap gənc, hətta körpəsən, uşaqlığını edib, günlərini əylənməkdə keçirməli olduğun halda niyə bu uzun, çətin yola düşmüsən? Sən haradan bilirsən Məğrib haradadır? Sən haradan belə bir fikrə düşmüsən?»

Şahzadə deyir: «Məni elə bir maraq bürümüşdür ki, nəyin bahasına olursa, olsun, Nil çayının haradan başladığını öyrənmək istəyirəm. Vəzirlər bir səslə deyirlər: «Bəli! Sənin qarşında qoyduğun məqsəd bizim hökmdarımızın məqsədindən də qəlizdir. O, işıq saçan, kağıza bükülmüş meyvələri olan ağacların sirrini öyrənmək istəyir, sən isə ondan da çox irəli gedib, sənə nə bu dünyada, nə axirətdə lazım olacaq bir fikrin ardınca düşmüsən». Şahzadə deyir: «Mən Nil çayının haradan başlandığını öyrənməyənə qədər sakitləşməyəcəyəm, ona görə də mənə nəsihət vermək fikrindən daşının, onların heç bir əhəmiyyəti yoxdur:

Cəhənnəm oduna düşsəm də belə,
Mən özümə başqa tale arzulamıram.

Məni bu məqsədimdən daşındıra biləcək bir səbəb ola bilməz!» Vəzirlər deyirlər: «Elədirsə, gəl bizə qoşul, görək Allah-təala bizə nə qismət yazmışdır, çünki biz də sənin məqsədindən heç də daha az sərsəm olmayan bir məsələnin ardınca düşüb gedirik». Şahzadə deyir: «Qəm etməyin! Ərəblər demişkən, dəliliyin nəticəsi uğur olar:

İnsana doğuşundan iki fürsət verilir,
Biri onu alçaldır, biri onu pərvazlandırır».

Bundan sonra vəzirlər şahzadəyə övladları kimi nəvaziş göstərib, onu da özləri ilə aparırlar. Onlar Nil çayı boyunca gedirdilər. Bir qədər getdikdən sonra onlar bir kişiyə rast gəlirlər. Həmin kişi məhsulun yetişmişini də, yetişməmişini də biçir, toxumlarını suya atırdı. Bir qədər də getdikdən sonra yenə bir kişi ilə rastlaşırlar. Bu kişi odun yığıb, belinə şəlləmək istəyirdi, amma bunu bacarmırdı, onda irəli gedib yenə odun yığıb əvvəlkinin üstünə əlavə edirdi və yenə onu belinə şəlləməyə cəhd edirdi, amma yenə də, şübhəsiz ki, bunu edə bilmirdi və buna baxmayaraq, yenə də təkrar – təkrar odun yığıb şələyə əlavə edirdi. Bir qədər də yol getdikdən sonra onların qarşılarına bir başqa kəndli çıxır. Bu kəndli quyunun yanında oturub gələnlərin güyümlərini, səhənglərini su ilə doldururdu, amma öz qabı boş qalırdı. Daha sonra onlar gördülər ki, divar çatının arasından bir quş çıxıb uçur, dimdiyində yemlə qayıdıb gələndə isə çıxdığı çata girə bilmir və çarəsiz halda qanad çala-çala qalır. Səyahətçilər bir qədər aralıda bir böyük qarnı olan boylu it görürlər və onun içindən küçük zingiltisi eşidilirdi. Bir az qabaqda - yolun düz ortasında bir ilan uzanmışdır, gələn-gedəni sancırdı, amma heç kəs ona fikir vermirdi və cəhd də etmirdi ki, yolunu dəyişsin. Bir az da irəli gedəndə onlar bir neçə ətli-canlı keçi görürlər, bu keçilər analarını əmməyə başlayan kimi ətlərini töküb arıqlayırdılar. Daha sonra onlar yanaşı oturub ət satan iki qəssab görürlər. Bu qəssablardan birinin satdığı ət təzə, təmiz, cavan heyvanın əti idi, digərininki isə köhnə, qoxumuş, heç bir işə yaramayan ət idi. Buna baxmayaraq, hamı təmiz, təzə ətə

heç fikir vermirdi və qoxumuş, köhnə ətdən alırdı. Bir qədər də irəlidə isə iki aşpaz oturmuşdur. Bu aşpazların hər birinin qarşısında böyük qazan var idi. Birinin içində gözəl ətdən, ərzaqdan, yağdan hazırlanmış nəfis yemək, digərinin içində isə it yalına bənzər, içində bərk kök parçaları üzən horra var idi. İnsanlar o nəfis yeməyi qoyub, bu biri qoxumuş bişmişdən yeyirdilər. Daha sonra onlar çəmənlikdə otlayan dağ keçisi gördülər. İnsanlar onun tüklərini didir, quyruğunu dartır, boynunu, başını isə sığallayırdılar. Ondan da bir az irəlidə belindən ağ kətan sallanan gözəl bir cüyür gedirdi. İnsanlar bu cüyürün ardınca gəzir, üstündəki kətandan qoparırdılar.

Şahzadə və vəzirlər bu gördüklərinə məəttəl qalmışdılar. İki fərsəng də getdikdən sonra onlar bir beli bükülmüş, taqətsiz qocaya rast gəlirlər. Onlar qoca ilə salamlaşırlar. Qoca onların salamlarını alıb, onlara hörmət-izzət göstərir, öz yanında əyləşdirib və deyir: «Mən sizin qulluğunuzda hazıram. Nə istəyiniz varsa, sizi nə maraqlandırırsa, buyurun deyin».

Vəzirlər deyirlər: «Ey möhtərəm ağsaqqal, biz yolumuzun üstündə bir sıra qəribə hadisə ilə üzləşdik. Ümidimiz sənədir, bəlkə, sən bizə onların mənasını anladasan və biz də onlardan bir fayda əxz edək. Sən bunu edərək savab qazanmış olarsan». Qoca soruşdu: «Siz yolda nə görmüsünüz?» Vəzirlər yol boyu gördüklərini qocaya danışdılar. Qoca dedi: «Mənim yüz əlli yaşım var, amma yaşadığım bu uzun ömür bu möcüzələrin sirrini öyrənməyə yetməmişdir. Mənim özümdən çox böyük qardaşım var, onun evi də yolun üstündədir. Ona yetişəndə bu möcüzələrin sirrini ondan soruşun, bəlkə o sizə nəsə izah edə bilər, hər halda sizi maraqlandıran məsələlərin hamısına olmasa da, bir qisminə aydınlıq gətirər».

Yolçular qoca ilə halallaşıb yollarına davam etdilər. İki-üç fərsəng keçdikdən sonra qabaqlarına bir ortayaşlı adam çıxdı. Onlar bu adamla salamlaşıb, ona öz ehtiramlarını göstərdilər. Yaşlı kişi də öz növbəsində onlara hörmət göstərib dedi: «Mənə görə bir qulluğunuz və ya bir ehtiyacınız varsa, buyurun, deyin». Vəzirlər yol boyu gördüklərini nəql edib onların izahını istədilər. Kişi dedi: «Mənim iki yüz yaşım var, amma yaşımın bu qədər çox olmağına

baxmayaraq, bu dediklərinizin sirlərini öyrənmək mənə nəsib olmamışdır. Buradan bir qədər aralıda-yolun üstündə mənim böyük qardaşımı görəcəksiniz, o məndən çox böyükdür, siz ondan soruşun, o sizə bu işlərin izahını verər».

Yolçular bu kişi ilə də halallaşıb yollarına davam etdilər. Bir az getdikdən sonra onlar bir cavan, şux qamətli, boylu-buxunlu gənclə rastlaşdılar. Gənc yolçuların salamını ehtiramla qəbul edib, onları yanında əyləşdirdi və nəvazişlə soruşdu: «Mənə görə bir qulluğunuz, ehtiyacınız varsa, buyurun, eşidirəm». Vəzirlər yol boyu gördüklərinin hamısını bu gəncə danışdılar. Gənc soruşdu: «Siz mənim kiçik qardaşlarımı görmüsünüz?» Vəzirlər dedilər: «Bəli, onları görmək bizə müyəssər oldu, amma onlar bizə heç bir şeyi izah edə bilmədilər». Gənc dedi: «Onda xahiş edirəm, bir daha gördüklərinizi, sizi maraqlandıran məsələləri sıra ilə izhar edin və birinci nəyi gördüyünüzü deyin».

Vəzirlər sözə başladılar: «Biz əvvəlcə yetişmiş və yetişməmiş taxılı biçib, toxumlarını suya atan bir kişini gördük». Gənc dedi: «O, Əzrayıldır, fərq qoymadan qarşısına çıxan qocanın da, cavanın da ömrünü biçib qeyb dünyasına atır».

Bu cavan adam elə bu sualdan başlayıb yolçuları maraqlandıran bütün məsələlərə aydınlıq gətirməyə başladı:

«Odun şələsini qaldıra bilməyib və yenidən odun yığıb şələsinə əlavə edən ikinci kəndli Adəm oğludur, o, o qədər günah işlətmişdir ki, onların yükünü çəkə bilmir, amma yenə də təzə günahlar işlədib günah yükünü daha da artırır.

Başqalarının qablarını su ilə doldurub öz qabını boş qoyan üçüncü kişi malını-dövlətini ətrafa paylayıb, öz ailəsini, yaxınlarını səfalətdə saxlayandır.

Dördüncü danışdığınız hekayətdəki yuvasından uçub geri qayıda bilməyən quş ağızdan çıxan sözdür. Söz ağızdan çıxdısa, artıq sənin deyildir.

Beşincisi, ana südü yeyib arıqlayan keçilərdir. Bunlar zalım hökmdarlardır. Onlar xalqın şirəsini çəksələr də, o qədər xain-xəbisdirlər ki, gündən-günə arıqlayırlar.

Altıncısı, yolun üstündə sərilib, gəlib-gedənləri sancan ilan idi. Baxmayaraq ki, o hamını sancır, zəhərləyir, insanlar yenə də yollarını başqa tərəfdən salmırlar. O ilan dünyadır, çünki insan dünyadan nə qədər zərbə, əzab-əziyyət, ağrı-acı çəksə də, ondan əl çəkə bilmir.

Yeddincisi, boylu itin içindən eşidilən küçük zingiltisi idi. Bu, müasir zamanda övladlarla valideynlər arasındakı münaqişəyə işarədir. Valideyn ağzını açıb danışmaq istəyəndə övladlar onların sözlərini kəsib öz sözlərini deyirlər.

Səkkizincisi, təzə-tər və köhnə-qoxumuş ət satan qəssabların əhvalatıdır ki, burada da insanlar təzə-təmiz əti qoyub, köhnə-qoxumuş əti alırdılar. Bu, halalı qoyub harama əl atanlara işarədir.

Doqquzuncusu, iki aşpazın qabağındakı qazanlar idi. İnsanlar bu qazanlardan birindəki çox gözəl, ətirli, ədviyyatlı, zəfəranlı xörəyi deyil, o biri qazandakı köhnə, kif bağlamış xəşildən yeyirdilər. Bu, evlərindəki halal, təmiz zövcələrini qoyub zina edən kişilərə işarədir.

Onuncusu, hamının qucaqladığı, sığalladığı, tumarladığı dağ keçisi idi ki, bu da insanların dünya malına olan düşkünlüyünü göstərir. İnsanlar dünya malına o qədər düşkündürlər ki, onu o qədər sevirlər ki, bacardıqları qədər ondan bəhrələnmək istəyirlər.

On birincisi belindən kətan parçası sallanan cüyür idi. Hamı o kətandan lap balaca olsa da, bir parça qoparır. Bu isə islam dininin tükənməzliyinə işarədir, yəni hər müsəlmanın bu dində balaca da olsa, payı vardır və hamı çalışır ki, ondan nəsə əxz etsin, amma o, yenə də tamdır, tükənməzdir və bütövdür.

Sizin gördüyünüz sirli-möcüzəli hadisələrin izahı belədir».

Vəzirlər və şahzadə bu gəncə öz minnətdarlıqlarını bildirib soruşdular: «Qardaşların dedilər ki, sən onların ikisindən də böyüksən, bəs necə olur ki, sən onlardan sağlam, gümrahsan, başında bir dənə də ağ saç yoxdur, saçların şəvə kimidir. Səndən cavan olan qardaşlarından biri yaşlı, o biri isə lap qocadır. Bunu necə izah edə bilərsən?»

Gənc qoca cavab verdi: «O, qoca dediyiniz qardaşım hamımızdan cavandır. Onun belə vaxtsız qocalmağının səbəbi üzdəniraq, çirkin, qəlbiqara, ağılsız zövcəsidir. O qadın qardaşımın həyatı boyu zəhməti ilə qazandığı bütün mal-mülkünü dağıtmaqla məşğuldur,

qardaşım dərddən qocalıb əldən düşmüşdür. O biri qardaşımın vaxtsız qocalmağına səbəb də zövcəsi olmuşdur. Onun zövcəsinin yaxşı cəhətləri ilə bərabər pis cəhətləri də var, ona görə də qardaşım gah şad, xoşbəxt, gah da pərt-pəjmürdə olur. Bu səbəbdən qardaşım bir tərəfdən güclü-qüvvəli cavan, digər tərəfdən isə zəif, gücsüz qocadır, yəni o nə qoca deyil, nə cavan. O ki qaldı mənə, mənim cavanlığımın səbəbi uca Allahın mənə bir gözəl, ağıllı, tədbirli, mərhəmətli, şirindil zövcə qismət etməyindədir. Onun sayəsində mən belə gənc və qüvvətliyəm, kim ki həyatını deyingən, bədxislət qadınla deyil, xoşxasiyyət, gülərüz qadınla keçirir, mənim kimi cavan, təravətli qalır».

Vəzirlər qocaya minnətdarlıqlarını bildirdilər və ondan kağıza bükülmüş, işıq saçan məhsulların sirrini bilib-bilmədiyini soruşdular. Gənc qoca sözə başladı: «Bu işıq saçan ağacların sirri belədir:

Belə nəql edirlər ki, qədim zamanlarda həmin şəhəri bir müdrik, ədalətli, mərhəmətli hökmdar idarə edirmiş. O çox ağıllı, zəkalı, bilikli birisi imiş. Şəhərin kasıb, varlı - bütün əhalisi onun hökmdarlığı dövründə əmin-amanlıqda yaşayırmış. Bir dəfə bir əkinçi bir sahibkarın əkin sahəsini bir illik icarəyə götürür. İş belə gətirir ki, əkinçi torpağı şumlayanda bir xəzinə tapır. O həmin an sahibkarın yanına gedib deyir ki, mən sənin sayəndə bir xəzinə tapmışam və inan ki, ona heç əlimin ucu ilə də toxunmamışam, çünki o sənin haqq-halal malındır, etibarlı adamlarını göndər, gəlib xəzinəni aparsınlar. Əkinçini dinləyən torpaq sahibi demişdir: «Səni Allah qorusun, bu torpaq sahəsi sənə bir illik icarəyə verilmişdir və bu bir il ərzində ona aid nə varsa, sənə məxsusdur». Əkinçi etiraz edib deyir: «Xeyr, bu torpaq sənə məxsusdur və deməli orada nə varsa, sənə aiddir». Bu minvalla sahibkarla, icarəçinin arasındakı mübahisə sonsuza kimi davam etmişdir və sonda bu hökmdarın qulağına çatmışdır. Hökmdar buyurmuşdur ki, sahibkar ilə icarəçi onun hüzuruna gəlsinlər. Hökmdar onlara xəzinəni yarıya bölməyi təklif edir. Onlar bu fikirlə də heç cür razılaşmayıb deyirlər: «Ey hökmdar! Səni and veririk uca Allaha, bizi bu bəladan qurtar, bunu öz xəzinənə qat». Hökmdar qəzəblənib demişdir: «Allah məni belə əməllərdən saxlasın. Bunlar mənə məxsus deyil, mən

bunları necə mənimsəyə bilərəm?! Bu xəzinənin yiyəsi sizsiniz, o sizin olmalıdır. Mən başqasının malına necə yiyələnə bilərəm?!»

Sözün qısası, bu münaqişə düz bir ay çəkir. Axırda hökmdar əmr edir ki, sahibkarla əkinçinin övladları evlənsinlər və xəzinəni də onlara bağışlasınlar. Bax bu məmləkətin hökmdarının ədaləti belə imiş və onun təbəəsi də ədalət qanunlarına riayət edirmiş. Allah-təala isə bu ədalətin, bu dürüstlüyün müqabilində o hökmdarın məmləkətinə meyvə əvəzinə ləl-cavahirat gətirən ağaclar bəxş etmişdir. Ləl-cavahirat gətirən ağacların peyda olması xəbərini həmin saat hökmdara çatdırmışdılar. Bunu eşidən vəzir demişdir: «Ey hökmdar, əmr et, tez bir zamanda bu ləl-cavahiratı kasıblar, yolçular, başqa məmləkətlərdən gəlib-keçənlər dərib aparmamış yığıb xəzinəyə təhvil versinlər». Bu sözlər hökmdarı çox qəzəbləndirmiş və o carçılara əmr etmişdir ki, car çəkib bildirsinlər ki, kimin həyətində bu ağacdan varsa, üstündəki ləl-cavahiratı yığsın və özünə, ailəsinə, əzizlərinə xərcləsin. Hamı bilsin ki, ağacların sahiblərindən başqa heç kəsin onların üzərində haqqı yoxdur. Amma bu sözlərdən sonra da o ağaclara dəyən olmamışdır. Hökmdar həyətlərində həmin ağacdan olanları yanına çağırtdırıb əmr etmişdir ki, ağacların üstündəki ləl-cavahiratı yığsınlar. Onlar isə cavab vermişlər ki, hələ ilin əvvəlində ağacların məhsulunu başqalarına satmışlar və ona görə də bu məhsul onlara mənsubdur. Onda hökmdarın əmri ilə məhsulu əvvəldən almış adamları gətirirlər, amma onlar da ağacların gətirdiyi bu qeyri-adi məhsuldan imtina edirlər. Onlar deyirlər: «Biz adi ağacın verəcəyi adi məhsulu almışdıq, ləl-cavahirat deyil». Hökmdar heç kəsin bu məhsula yiyə çıxmadığını gördükdə əmr etmişdir ki, onları möhkəm küləyə, yağışa davamlı kağızlara büksünlər. Elə o vaxtlardan bu qiymətli daşlar kağıza bükülmüş halda ağaclardan asılı qalmışlar. O vaxtlardan çox keçmişdir, çox nəsillər, tayfalar gəlib getmişdir, amma hələ bir nəfər belə cürət edib o kağızlara nə büküldüyünü bilmək üçün onlara tərəf heç baxmamışdır. Bilirsiniz, möhtərəm cənablar?! Bu ağacların işığı əvvəlki hökmdarların ədalətini, rəiyyətin dürüstlüyünü təmsil edir!».

Müdrik qocanın bu hekayətini dinləyib, ağacların sirlərini öyrənən vəzirlər çox məmnun qalır və sevinirlər. Onlar qocaya öz dərin minnətdarlıqlarını bildirib qərara gəlirlər ki, artıq qayıtmaq vaxtı çatmışdır. Onlar qocanın evində gecələyirlər və bütün gecəni şahzadəni onlarla qayıtmaq üçün dilə tuturlar, amma şahzadə heç cür razılaşmır.

Səhər açılanda vəzirlər geri qayıtmaq üçün yola düşürlər, şahzadə isə Nil boyu səyahətinə davam edir. Bir neçə gün yol getdikdən sonra o, bir böyük, abad şəhərə yetişir. Şəhər darvazalarının qarşısında bir cavan kişi ondan soruşur: «Ey gənc, haradan gəlirsən və hara gedirsən?» Şahzadə cavab verir: «Mən uzaq ölkələrdən gəlirəm və uzaq ölkələrə gedirəm. Dəqiqini bilmək istəyirsənsə, Məşriqdən gəlirəm və Məğribə gedirəm». Kişi təəccüblə dillənir: «Sən hələ çox gəncsən, hansı belə vacib iş sən yeniyetməni belə çətin səfərə vadar etmişdir?» Şahzadə cavab verir: «Mən Nil çayının mənbəyinin yerini öyrənmək istəyirəm». Bu cavabı eşidən kişi gülüb bu şeiri deyir:

«Qəlbində tutduğun arzu yerinə yetməz,
Sənin bu qapını döyməyin nəyə gərəkdir?

Qardaşım, bu nə sərsəm fikirdir? Sənin ağlına bu fikir necə düşmüşdür? Sənin anan-atan, yaxınların, böyüklərin yoxdurmu? Onlar nəyə görə səni bu mənasız, ağlasığmaz fikirdən daşındırmamışlar? Axı sənin ağlına gəlmiş bu fikir çox təhlükəli və eyni zamanda mənasızdır. Seçdiyin bu səfərdə səni çoxlu sınaqlar, təhlükələr gözləyir. Müqabilində isə sən heç bir şey əldə etməyəcəksən». Şahzadə deyir:

«Mən bu səfərə çıxmışam, qoy Allah qismətimi versin.

İndi mənim bu səfərimin gərəkli və ya gərəksiz olduğunu sübut etmək vaxtı deyildir. Məni bu səfərə sövq edən mənim fikrimə, ürəyimə hakim çıxmış marağımdır. Mən bu səfərə məqsədimə çatmaq üçün çıxmışam və bu yolda heç bir sınaq məni qorxutmur».

Cavan kişinin ürəyini şahzadəyə qarşı bir qayğı, bir nigaranlıq bürüyür və o deyir:

Allah səni arzuna, istəyinə çatdırsın
Sən hər niyyətinə çatasan!

Sən gəl, qonağım ol ki,
Bir ata sevgisi ilə dualarımda səni yad edim.

Mən səndən çox xahiş edirəm, heç olmasa, bir neçə günlük qonağım ol, sənə qulluq edim, sonra yenə də yoluna davam et». Şahzadə bu cavan adamın təklifini qəbul edir və onun evinə gedir. Cavan oğlan əvvəlcə onu hamama aparır, nökərlərinə əmr edir ki, onu yaxşı çimizdirsinlər. Sonra bir dəst şahanə paltar verib, evin ən gözəl, ən rahat otaqlarından birini onun ixtiyarına verir. Ev sahibi şahzadəyə hər cür nəfis, qiymətli hədiyyələr bağışlayır və bir müddət onun evində qalmasını israrla rica edir.

Günlərin bir günü, təxminən, şahzadənin buraya gəldiyindən bir ay sonra ev yiyəsi ilə şahzadə əyləşib söhbət edirdilər. Birdən nökərlərdən biri gəlib sahibinə deyir: «Mən dediyin öküzü gətirib tövləyə bağlamışam, bax gör necədir?». Ev yiyəsi şahzadə ilə birgə öküzə baxmaq üçün tövləyə yollanırlar. Bütün varlıqların dilini anlayan şahzadə görür ki, öküz uzunqulaqla eyni axura bağlanmışdır. Uzunqulaq öküzdən soruşurdu: «Ay maymaq, vəziyyətin necədir, günlərin necə keçir?» Öküz isə cavabında deyirdi: «Ay uzunqulaq, heç soruşma halımı, çünki:

Mən sənə başıma gələnləri danışmağa başlasam,
Ahım ərşə ucalar.
"Eşq" buxovlarında boğuluram.
Ürəyimdəki təlaşı və qorxunu gör.

Sən hələ mənim əhvalımı soruşursan?! Səhər açılandan boynuma qoşqu taxılır, ona da kotan keçirilir və mən qamçıların zərbəsi altında gecəyədək işləyirəm. Gecə düşəndə isə yorğunluqdan və aclıqdan taqətim qalmır. Bir dəfə də olsun, mənə doyana qədər yem, ot vermirlər. Mən bu əzaba, zülmə artıq dözə bilmirəm. Neçə dəfə özümü sıldırım qayalardan atmaq istəmişəm, amma hansısa bir qüvvə məni saxlayır».

Uzunqulaq deyir: «Ay maymaq, inan ki, sənin bu dərdin məni çox üzür. Amma indi məni dinlə, mən sənə elə şeylər öyrədəcəyəm

ki, sən həftədə iki-üç gün istirahət edə biləcəksən». Öküz yalvarır: «Səni and verirəm Allaha, mənə kömək et, çünki:

Artıq əldən düşüb, məhv olmuşam mən,
Məni bu əzablardan xilas et».

Uzunqulaq deyir: «Sənin çarən ondadır ki, sən bu gündən etibarən ota, yemə toxunmursan, bizə su, yem verənlər sənin yeyib-içmədiyini görüb fikirləşəcəklər ki, xəstələnmisən, halın yoxdur, səni çölə çıxarmayacaqlar».

Uzunqulağın məsləhəti öküzün çox xoşuna gəlir. O, dostuna minnətdarlığını bildirir və dediklərinə əməl edəcəyini bildirir. Şahzadə heyvanların dilini anladığı üçün onlara diqqətlə qulaq asırdı və hər bir şeyi anlayırdı. Öküz həmin gecə nə ota, nə yemə, nə də suya toxunur. Səhər işçilər gəlib görürlər ki, öküz nə otdan yemiş, nə də sudan içmişdir. Onlar fikirləşirlər ki, öküz xəstələnmişdir, gedib bu xəbəri sahiblərinə çatdırırlar. Ev yiyəsi şahzadə ilə tövləyə yollanır ki, işin nə yerdə olduğunu görsün. Tövləyə gəldikdə görür ki, öküz heç bir şey yeməmiş, bir tərəfdə uzanıb qalmışdır. Onda ev sahibi işçilərinə əmr edir ki, uzunqulağı öküzün yerinə çıxarsınlar ki, iş dayanmasın. İşçilər uzunqulağı minib çölə aparırlar. Şahzadə ürəyində deyir:

«Başqasının yoluna tələlər düzən,
Dünyanın düzəni budur, özü o tələyə düşər».

Şahzadə bunu düşünüb qəhqəhə çəkib gülür. Ev sahibinin zövcəsi bu gülüşün səbəbini bilmədiyi üçün gəncdən inciyir və ərinə deyir: «Sən bu səfehi evdə saxlayırsan, bəsləyirsən ki, sənə gülsün? Niyə ondan gülməyinin səbəbini soruşmursan? Axı biz bir gülməli söz demədik, hərəkət etmədik və ümumiyyətlə, burada bir söhbət olmadı. Niyə ondan gülməyinin səbəbini soruşmursan?» Ev yiyəsi şahzadəyə müraciət edərək dedi: «Cavan oğlan, zövcəm düz deyir. Sənə nə oldu, nəyə belə gülürsən?» Şahzadə dedi: «Sizə nə, nəyə gülürəm? Sadəcə, başıma gəlmiş bir əhvalat yadıma düşdü, ona görə də güldüm». Amma, necə deyərlər, şeytan xanımın ürəyinə elə girmişdir ki, dediyindən dönmürdü ki, dönmürdü. O, şahzadəyə hədə-qorxu gəlib dedi: «Əgər sən gülməyinin səbəbini deməsən, özümü

öldürəcəyəm». Şahzadə nə qədər üzr istəyib yalvardısa, ər-arvad ondan əl çəkmirdilər. Nəhayət, şahzadə ən ağır andlar verib, onları inandırdı ki, onun gülüşü heç cür onlarla əlaqəli deyildir. Ancaq bundan sonra onlar şahzadədən əl çəkib öz işləri ilə məşğul oldular.

Dediyimiz kimi, işçilər həmin gün işləmək üçün öküzün yerinə uzunqulağı çıxarmışdılar və onu öküzdən iki dəfə çox işlətmişdilər. Axşam düşəndə yorulub, əldən-ayaqdan düşmüş uzunqulaq bütün yolu deyinə-deyinə gəlirdi: «Bax bu da lazımsız canfəşanlığın mükafatı. Niyə mən burnumu lazımsız yerə soxurdum? Mənim nəyimə gərək idi öküzün iş-gücü? Haqq olur mənə, başıma gələnlər öz səhvim ucundan gəlir. Öz uzunqulaq xislətimlə burnumu mənə aid olmayan işə soxdum, müdriklər demişdir: «Uzunqulağı yüz il atla bir axura bağlasan, onun uzunqulaq xisləti dəyişməyəcəkdir». Allah-təala məni haqq edib cəzalandırdı, amma indi gərək düşdüyüm vəziyyətdən çıxış yolu tapam».

Uzunqulaq tövləyə girəndə öküz ondan soruşdu: «Ay uzunqulaq, de görüm bugünkü günü necə keçirdin? Harada oldun, nə yedin?» Çoxbilmiş uzunqulaq həvəslə sözə başladı: «Ay maymaq, mən sənin sayəndə düşdüyüm cənnət guşəsini necə təsvir edim?! Doğrusu, əgər sən bütün bu illər boyu mənim bu gün gördüyüm cənnət guşəsində gəzib-dolaşmısansa, mən bir tərəfdən sənə minnətdar olmalıyam, digər tərəfdən isə səni tənbeh etməliyəm. Ona görə minnətdar olmalıyam ki, məhz sənin sayəndə mən bu cənnət guşəsini gördüm, ona görə tənbeh etməliyəm ki, bütün bu müddət ərzində bu çəmənliklərdə gördüyün gözəlliklər, qidalandığın ətirli otlar, içdiyin sərin bulaq suları haqqında heç kəsə bir kəlmə deməmisən, hamıdan gizlətmisən. Ay maymaq, o çəmənlik, o hava, o su çox gözəldir, amma işçilərin sənin haqqında danışdıqları mənim qanımı çox qaraltdı».

Öküz yalvardı: «Səni and verirəm Allaha, de, görüm mənim haqqımda nə danışırdılar?» Uzunqulaq dedi: «İşçilər öz aralarında deyirdilər ki, əgər öküz bu gün də yeməkdən imtina etsə, sabah səhər gərək onu kəsək ki, murdar olmasın, çünki onun ətini, dərisini əldən verə bilmərik. Bu söhbət mənə çox pis təsir etdi, indi artıq, qardaşım,

sənə işçilər bu gecə nə versələr, ye ki, onlar sənin sağlamlığından əmin olsunlar və öz fikirlərindən daşınsınlar».

Qorxmuş öküz iki günlük yığılıb qalmış yemi tez yeyib qurtardı, axurda heç bir şey qalmadı. Öküzlə uzunqulağın bu söhbətini eşidən şahzadə özünü saxlaya bilməyib, qəşş eləyib güldü. Şahzadənin gülüşünü eşidən xanım əsəbiləşib, ağlını itirdi və qışqırdı: «Ay uşaq, dəli olmusan, durduğun yerdə niyə gülürsən?

Bu sərsəmin gülüşünü eşitməkdənsə,
Durmadan göz yaşları tökmək daha üstündür.

Sənin bircə damcı abır-həyan olsa idi, belə gülməzdin». Daha sonra qadın ərinin üstünə düşdü: «Bu, gülməyinin səbəbini açmayanacan mən sakitləşməyəcəyəm. And olsun bütün müqəddəslərin ruhuna, bu məsələyə aydınlıq gətirilməyənədək mən sakit olub sənin evində oturmayacağam». Ev sahibi şahzadəyə dedi: «Qardaşım, doğrusu, mənim də ağlıma cürbəcür fikirlər gəlir, olmazmı ki, sən belə ürəkdən gülməyinin səbəbini bizə açasan?» Şahzadə dedi: «Keçmiş hadisələri yad etmək hər bir insana xasdır, bunların içində elələri olur ki, adam qeyri-ixtiyari gülür. Mənim gülüşümdə isə sizinlə bağlı bir şey yoxdur. Siz nəyə görə sorğu-suallarınızla məni çətinliyə salırsınız?»

Ev sahibi dedi: «Doğru deyirsən, amma özün bilirsən ki, Rəbbim qadınları Adəmin sol qabırğasından yaratmışdır. Buna görə də onlar bir qədər fərqlidirlər, onların xasiyyəti, xisləti başqa cür olur, onlar səbəb olmadan münaqişə yaratmağa ustadırlar. Əgər mənim rahatlığım naminə bu sirri açsan, sənə çox minnətdar olaram».

Şahzadə bu məsələni aça bilməzdi, çünki tacir ona dönə-dönə tapşırmışdır ki, bu sirri – onun quşların, heyvanların dilini anlamasını bir qadın bilməsin, əks halda o həmin dəqiqə öləcəkdir. Buna görə də şahzadə ev sahibinin qolundan tutub ən xəlvət bir yerə aparır və ondan ən ağır andlar alır ki, bu sirri heç bir qadına, heç öz zövcəsinə də açmayacaqdır. Ev sahibi ən ağır andlar verdikdən sonra şahzadə ondan, qadını uzaqlaşdırmaq məqsədi ilə, kağız, qələm istəyir. Ev sahibi zövcəsini kağız-qələm gətirmək üçün yollayır, şahzadə

ona deyir: «Mən çox çıxılmaz vəziyyətdəyəm. Doğrudur, mən bilirəm ki, sən mənim ölümümü istəmirsən, amma bununla belə sən özün bilmədən mənim ölümümə səbəb ola bilərsən, belə ki, mənim sirrimi bircə qadın bilsə, mən həmin an öləcəyəm».

Kişi yenə and-aman elədi və şahzadəni əmin etdi ki, onun sirrini heç kəsə verməyəcəkdir. Bu arada belə bir əhvalat baş verir. Tövlənin qarşısında bir it yatmışdır, onun qarşısında bir tikə çörək var idi. Xoruz bu itin ətrafında fırlanıb çörəyi götürməyə cəhd edirdi. Bunu görən it öz dilində xoruzu tənbeh etməyə başlayır: «Ay abırsız, sən, yəqin ki, bu vicdansızlığı sahibindən öyrənmisən?!» Xoruz soruşur: «Mənim sahibimin hansı vicdansızlığını görmüsən?» İt cavab verir: «Bundan böyük vicdansızlıq olarmı? O, bir nəcabətli ailənin kiçik, qərib düşmüş oğlunu evinə qonaq gətirib, indi də zövcəsinin təkidi ilə onu ölüm təhlükəsinə düçar edir. İş ondadır ki, əgər o, uşağın sirrini zövcəsinə açarsa, bu isə böyük ehtimal ki, olacaqdır, uşaq o saat həyatı ilə vidalaşacaqdır və buna səbəb bu kişinin zövcəsinin uşağın nəyə güldüyünü bilmək həvəsi olacaqdır. Əgər sənin sahibin, həqiqətən, vicdanlı, dürüst, mərd birisi olsa idi, çubuğu götürüb zövcəsinə bir-iki çəkərdi ki, burnunu başqalarının işinə soxmasın və uşağın gülməyinin səbəbini öyrənmək üçün ifritəlik etməsin». Xoruz deyir: «Doğru deyirsən, bu uşağın taleyinə görə çox pis oldum». İtlə xoruzun söhbətini eşidən şahzadə yenə də ürəkdən gülür. Ev sahibi deyir: «Görürsən?! Yenə də durduğun yerdə güldün və məni pərt etdin. Gəl mənə bu sirri aç, axı mən sənə and verdim ki, bir ins-cins məndən bunu eşitməyəcəkdir, sən heç bir şeydən narahat olma». Şahzadə dedi: «Bil, mən xüsusi bir cövhər içmişəm. Onun sayəsində bütün canlıların dilini başa düşürəm, amma mənim bu sirrimi bircə qadın bilərsə, mən həmin dəqiqə öləcəyəm, ona görə də bunu heç bir kişi də bilməməlidir, çünki hansı kişinin bunu öz zövcəsinə danışıb-danışmayacağını bilmək olmaz. Birinci dəfə mən uzunqulağın öküzə necə biclik işlədib işə çıxmamağı öyrətməyinə, ikinci dəfə uzunqulağın biclik işlədib öküzü yenidən çölə yollayıb, özünün tövlədə qalmasına və üçüncü dəfə bu itlə xoruzun söhbətinə gülmüşəm. İtlə xoruz sənin və zövcənin hərəkətlərini müzakirə edib

özlərinə uyğun bir nəticəyə gəlmişlər. Bax hal-qəziyyə budur, indi bütün məsuliyyət sənin boynundadır, artıq bunu zövcənə danışıb-danışmamağın sənin vicdanının işidir». Cavan ev sahibi bu söhbətə məəttəl qalmışdır, amma sonra heyvanların arasındakı bütün söhbətləri təfsilatı ilə öyrəndikdə o da bərkdən gülməyə başlamışdır. Elə bu vaxt onun zövcəsi qələm-kağızla qayıdıb gəlirdi. Xanım görür ki, əri də uşağa qoşulub gülür, qəzəblənib deyir: «Sən də ona tay olmusan, nəyə görə boş-boşuna gülürsən?» Kişi ayağa qalxıb bir çubuq götürüb zövcəsinə bir-iki çəkib dedi: «Sənə nə, iki cavan nəyə gülür?!» Qadın bir az ah-uf edib, ərindən, şahzadədən üzr istəyib, xahiş etdi ki, onu bağışlasınlar. Ev sahibi özü də şahzadədən dönə-dönə üzr istədi və çox minnətdən sonra onun bir neçə gün də əlavə qonaq qalmasına nail oldu. Ev sahibi bu bir neçə günü ona daha böyük ehtiram göstərib qulluğunda durdu, o hər bir vəchlə şahzadənin əhvalını yüksəltməyə çalışdı. Bundan sonra şahzadə halallaşıb Nil boyu yoluna davam etdi.

O, gecə-gündüz yol gedib, nəhayət, bir həftədən sonra bir qocanın yaşadığı uçuq-sökük daxmaya yetişdi. Daxmada bir nurani qocanın ibadət etdiyini gördü O, qoca ilə salamlaşır, qoca onun salamına ehtiramla cavab verir və soruşur: «Ey Məşriqin şahzadəsi, nə səbəbdən belə gec gəldin, mən çoxdan səni gözləyirəm». Şahzadə qocanın sözlərinə mat qalır. O başa düşmürdü ki, qoca onu haradan tanıyır və onun gələcəyini haradan bilir. O, qocaya minnətdarlığını bildirib, ona dualar edib, qarşısında təzim etdi. Qoca dedi: «Oğlum, mən artıq çoxdan bu komanı özümə ev, vətən etmişəm və mənim ömrüm artıq sona yetişməkdədir. Mən Allahdan mənə ölüm saatım çatanda məni hər bir qayda-qanunla dəfn edə biləcək bir nəfərin yetirməsini yalvarıb istəmişdim və mənə sənin gələcəyin agah olmuşdur. İndi isə məni dinlə: Mən həm özümə aid, həm də sənə aid vəsiyyətimi edəcəyəm. Oğlum, sən Məşriqdən Məğribə gedirsən və uzun bir yola çıxmısan. Sən Böyük səhranı artıq keçmisən, indən belə sağ tərəfi tutub gedərsən, üç gündən sonra dənizə çatacaqsan. Dənizin sahilində dayan, başını aşağı salıb qəmgin halda otur. Sən tezliklə hər biri öküzdən iri olan bir neçə quş uçub gəldiyini görəcəksən. Diqqətli ol, onlar uçma-

ğa hazırlaşanda iki əlinlə onlardan birinin ayaqlarından möhkəm yapış. Quş səni havaya qaldırıb dənizin üstündən uçub üzərində dəmir ağaclar olan dəmir torpaqda düşürəcəkdir. Orada ləngimə, tez çıx get. Bir azdan üzərində mis ağaclar olan mis torpağa çatacaqsan. Orada da ləngiməzsən, yoluna davam edərsən və tez bir zamanda üzərində gümüş ağaclar olan gümüş torpağa çatacaqsan. Oradan ötüb keçən kimi qarşına üzərində qızıl ağaclar olan qızıl torpaq çıxacaqdır. Bir qədər də irəliləyib başı göylərə dəyən böyük, ən yüksək əyarlı, sarı qızıldan olan bir dağ görəcəksən. O dağın başında üzərində dörd ağac ucalan günbəzəbənzər təpə görəcəksən. Dörd çayın mənbəyi həmin təpədə yerləşir. Birincisi, Nil çayıdır, ikincisi, Dəclə, üçüncüsü, Fərat və dördüncüsü, Amudəryadır. Ora çatan kimi o sularda yuyun, dəstəmaz al, namaz qılıb, iki dəfə səcdəyə get və Allahdan ürəyindən keçəni istə. Arzun həmin an yerinə yetəcəkdir. Elə ki məqsədinə çatdın, geri dönmək istəyəcəksən, onda getdiyin yol ilə geri dönərsən. Qayıdan başı ancaq dəmir torpağa çatanda dayanarsan və quşların gəlməyini gözləyərsən. Bu quşlar ancaq dəmir torpaqda yatırlar, yem üçün isə səni götürdükləri sahilə uçurlar. Sən yenə də o quşların birinin ayaqlarından möhkəm yapışarsan, o da səni həmin sahilə düşürər. Sən qayıdanda mən artıq ölmüş olacağam, məni adət üzrə yuyub, kəfənləyib, dəfn edərsən və Allaha tapşırarsan. Bununla sən savab qazanmış olarsan və Allah-təala da səni buna görə mükafatlandırar».

Şahzadə qocanı dinləyir, ona minnətdarlığını bildirir, dualarını edib, halallaşıb yola çıxır. O, nəhayət, dənizə çatır, qocanın dediyi kimi qəmgin halda, başını aşağı salıb oturur, elə bu vaxt qocanın təsvir etdiyi quşlar uçub gəlir. Şahzadə quşlar uçmağa hazırlaşanda birinin ayaqlarından yapışır və quş dənizin üzərindən uçaraq onu dəmir torpaqda düşürür. Şahzadə orada dayanmadan, qocanın dediyi bütün mis, gümüş torpaqlardan keçib, qızıl torpağa, oradan da qızıl dağa çatır. Qızıl dağa çatıb başında qocanın təsvir etdiyi günbəzəbənzər təpəni görür. Şahzadə bu dağın və üzərindəki təpənin ucalığına məəttəl qalmışdır. O öz-özünə deyir: «Baxmayaraq ki, qoca dağın, təpənin başına çıxmağı tövsiyə etməmişdir, mən ora çıxıb

ətrafa baxmamış geri qayıtmayacağam». Şahzadə bunu fikirləşib dağa dırmaşmağa hazırlaşırdı ki, qeybdən bir gurultu eşidildi və bir səs ucadan dedi: «Ey gənc, özünü nahaq yerə yorma, çünki sən oraya qalxa bilməyəcəksən. Bu fikrindən əl çək, əks halda məhv olacaqsan. Bura cənnətə məxsusdur, bu günbəz isə göy günbəzinin oxudur, onun bir yarısı yer səthinin üzərində, digər yarısı isə burada-əlçatmaz ucalıqdadır. Sən öz məqsədinə çatdın, indi sənə aid olmayan işlərə qarışma, yoxsa, canından olarsan». Bu vahiməli, uca səs şahzadəni sarsıtdı. O, tez soyunub yuyundu, dəstəmaz alıb namaz qıldı, iki dəfə səcdəyə getdi və yalvarıb arzularını istədi. Başını qaldıranda dağın başından sallanan bir salxım üzüm gördü və həmin səs ucadan dedi: «Bir halda ki sənə buraya gəlib çıxmaq xoşbəxtliyi müyəssər olmuşdur, biz də səni buradan əliboş yola sala bilmərik. Bu üzüm salxımı cənnət bağındandır, sən bundan yesən, bütün dünya nemətlərindən dadmış kimi olacaqsan və aclıq hissini bir dəfəlik unudacaqsan». Şahzadə o üzüm salxımını götürüb getməzdən əvvəl üzünü göyə tutub deyir: «Səni and verirəm o Uca Allaha, mənə de görüm buradan hansı çaylar öz başlanğıcını götürür?» Səs cavab verir: «Buraya axıb gələn sular cənnətdən gəlir və burada dörd yerə bölünür. Bu dörd yerə bölünmüş sulardan biri Nil çayının, ikincisi Dəclə, üçüncüsü Fərat və dördüncüsü Amudərya çayının mənbəyidir. Bu çayların mənbəyi buradadır».

Şahzadə qocanın sözlərini xatırlayıb öz-özünə deyir: «Qocanın dediklərinin hamısı doğru çıxır».

Bundan sonra Şahzadə cənnət üzümünü götürüb geriyə qayıtmaq üçün yola çıxır. O, yenə də qızıl, gümüş, mis torpaqlardan keçib dəmir torpağa yetişir. Burada o, yenə də quşun ayaqlarından yapışır, quş isə dənizin üzərindən uçaraq onu sahilə düşürür. Şahzadə o saat qocanın daxmasına yollanır və görür ki, qoca artıq rəhmətə getmişdir. Qocanın vəsiyyətinə əməl edərək şahzadə onu yuyub kəfənləyir və bütün qayda-qanuna riayət edərək dəfn edir. Sonra daxmanı tərk edib yoluna davam edir.

Bir qədər məsafə keçdikdən sonra şahzadə görür ki, ona tərəf bir qoca gəlir. Qoca yaxınlaşaraq şahzadəyə deyir: «Ey gənc, sən, nə-

hayət, məqsədinə çatdın». Şahzadə deyir: «Bəli, şükürlər olsun Uca Allaha, mən, həqiqətən, arzuma çatdım». Qoca deyir: «Sən bu üzümü haradan almısan?» Şahzadə deyir: «Bunu mənə Allah-təalanın cənnət bağından vermişlər». Qoca deyir: «Sən onun dadına baxmısan?» Şahzadə cavab verir: «Bir az». Qoca fikir verib görür ki, üzüm dörd rəngdədir: ağ, al qırmızı, yaşıl və qara. O, əlini cibinə salıb bir qırmızı alma çıxarır və şahzadəyə verir. Qoca şahzadəyə deyir: «Bu almanı mənə daxmada yaşayan səfil qoca vermişdir və xahiş etmişdir ki, qayıdanda bunu sənə verim».

Şahzadə almanı götürür, amma onu ağzına tərəf aparan kimi əlindəki üzüm salxımı yox olur. Qoca bərkdən gülüb deyir: «Mən İblisəm. Mən sənin bu üzümü yeməyini istəmirdim». İblis bunu deyib qeyb olur.

Pərt, dilxor olmuş şahzadə yolunu davam edir, amma çox keçmir ki, meşənin cəngəlliyində azır. O nə qədər cəhd etsə də, yolu tapa bilmir ki, buradan çıxsın. Şahzadə acından yuxusunu da itirmişdir. O, çətinliklə, ayaqlarını sürüyə-sürüyə sahilə çıxıb orada bir neçə dənə qurumuş balıq tapır. Onları yeyib qurdunu bir az öldürdükdən sonra Allahına şükürlər edib yoluna davam edir. O, iki-üç gün yol getdikdən sonra yenə də meşə cəngəlliklərində azır. Bu dəfə o çox çətinliklə yol tapıb sahilə çıxa bilir. O, sahildə durub uzaqlara baxırdı və birdən sahildən uzaqlaşan bir gəmi görür. O, tez başındakı papağı çıxarıb yelləməyə başlayır. Gəmidəkilər onu görüb dalınca qayıq göndərirlər. Göyərtəyə qalxan şahzadənin yaraşığı, davranışı, qaməti hamını heyran etmişdir. Onlar şahzadənin haradan gəldiyini, buralarda nə etdiyini soruşurlar. Şahzadə isə öz növbəsində başına gələnlərin hamısını danışır.

Gəmidəkilər deyirlər: «Biz sənə, sənin danışdıqlarına inanırıq, çünki kitablarda da yazılmışdır ki, çayların başlanğıcını görmək tək bir Məşriqliyə nəsib olacaqdır». Şahzadə onlardan soruşur: «Bəs sizin yolunuz haradır?» Gəmidəkilər deyirlər: «Biz Heyhat adasına gedirik».* Şahzadə deyir: «Nə olar, onda mən də, etiraz etməsəniz, sizinlə bərabər gedərəm və bəlkə, insanların məskunlaşdığı bir yerə çıxaram. Doğrudur, mənim pulum-param yoxdur ki, sizin kimi

ticarət edim, amma yenə də ətrafı görmüş olaram». Tacirlər deyirlər: «Qəm etmə, bizim hər birimiz sənə bir qədər vəsait verərik ki, sənin də pul-paran olsun». Bunu deyib gəmidəkilərin hər biri imkanı daxilində şahzadəyə müəyyən miqdarda vəsait verir və şahzadənin özünə görə yaxşı pul-parası olur. Onlar üzməyə davam edirlər. Birdən güclü bir tufan qalxır, dəniz coşur və gəmi parçalanır, gəmidəkilərin hamısı ölür. Şahzadə və üç ərəb atından başqa heç bir şey salamat qalmır. Onlar da bir taxta parçasının üzərində qalmışdırlar.

Bir neçə gündən sonra üstündə şahzadə və atlar olan taxta parçası bir sahilə yan alır. Sahilə çıxmış şahzadə Allahdan başqa heç bir kəsin xəbəri olmayan bir uca dağ görür. Şahzadə bir atı minib dağın döşünə qalxmağa başlayır, o, digər iki atı da iplərindən tutaraq dalınca aparır. Bir qədər qalxdıqdan sonra durub ətrafa baxır. Bura bir cənnət bağı idi. Burada barlı-bəhərli meyvə ağacları, ətirli, rəngarəng güllər, büllur kimi şəffaf bulaqlar, çeşmələr var idi. Şahzadə atları otlamağa buraxıb özü istirahət etmək üçün bir neçə gün burada qalmaq qərarına gəlir. O, meyvələrdən yeyib, sulardan içib kef edirdi.

Günlərin bir günü şahzadə görür ki, atlardan biri yerə sərilib can verir. Şahzadə atı bütün qayda-qanunlara uyğun kəsib fikirləşir: «Mən bir neçə gün bu ətlə dolanaram, dərisindən isə özümə səndəl tikərəm. Sonra görək Allah-təala qarşıma daha nələr çıxarır». Sonra, o səliqə ilə atın dərisini soyur, ətini isə qurutmaq üçün daşların üzərinə sərir. Beləliklə, şahzadə günlərini sahildə gəzməklə, at ətindən bişirib yeməklə, axşam düşəndə isə təhlükəsizlik məqsədi ilə ağaclardan birinə dırmaşıb yatmaqla keçirir. Atın əti qurtardıqdan sonra ona buralar darıxdırıcı gəlir və öz-özünə deyir: «Burada nə dostum var, nə tanışım, insanların yaşadığı bir yer də tapa bilmirəm, ürəyim sıxılır:

Ürəyim sıxılır, tənhayam mən,
Nə dost var burada, nə də bir həmdəm.

O bütün günlərini belə qəmgin fikirlərlə keçirirdi, yorulmadan gözlərini dənizin ən uzaq nöqtəsinə dikib bir gəminin görünəcəyinə ümid edirdi. Amma onun ümidləri boşa çıxır və şahzadənin əlini artıq hər şeydən üzülürdü. Bir dəfə şahzadə bikarçılıqdan qərara gəlir

ki, dağın başına çıxsın. O çətinliklə olsa da, dağın başına dırmaşa bilir və görür ki, bura heç bir yerlə müqayisəyə gəlməyəcək dərəcədə gözəldir. Dağın başında çox uca bir ağac görür. Ağacın başı düz göyə qədər ucalırdı. Bu ağac bütün ətrafa kölgə salırdı, o elə hündür idi ki, onun başını görmək mümkün deyildir. Bu, Simurğun başında Məğrib Şahzadəsini saxladığı ağac idi. Şahzadə bu ağacı görüb onun əzəmətinə, gözəlliyinə heyran qalır. Şahzadə onun kölgəsində uzanıb yatır. Hal-qəziyyə belə gətirir ki, həmin gün şahzadə qızın ürəyi sıxılır və o, budaqdan-budağa atıla-atıla ətrafı seyr edərək əylənirdi. Şahzadə qız təsadüfən aşağıya baxanda ağac kölgəsində yatmış şahzadəni görür. Şahzadə on dörd günlük aya bənzəyirdi. Ağacın kölgəsində yatmış şahzadə elə bir füsunkar gözəlliyə malik idi ki, tərəddüd etmədən heç kəsin bu vaxtacan belə gözəllik görmədiyini iddia etmək olardı. Qız bir könüldən min könülə şahzadəyə aşiq olur. Eşqin atəşi, gəncliyin çılğınlığı, Allahın yazısı, tale, qismət qızın beş hissinin dörd dirəyini sarsıdır.* Eşq qızın ürəyini, bütün vücudunu bürüyür, o elə bir vəziyyətə düşür ki, nə danışmağa, nə ağlamağa, nə gülməyə halı qalır, o öz özünü idarə etmək iqtidarında olmur.

> Gözəl eşq odunda yandı, ilan kimi qıvrıldı,
> Sərçədən zəif, çarəsiz qaldı.

Şahzadə qız sanki budağa yapışıb qalmışdır, o, gözünü şahzadədən çəkib öz məskəninə qayıda bilmirdi. Sanki qız özünü ağacdan aşağıya atmağa hazırlaşırdı. Qız dedi: «Aman Allah! Bu nə hissdir məni məhv edir, məni iradəmdən edir».

> Belə bir gözəlliyi yuxumda da görməmişəm,
> Bilmirəm sənin gəlişin xoşbəxtlikdir ya bədbəxtlik?

Onun bu dərəcədə sarsılmasının səbəbi bu vaxta qədər Simurğdan başqa bir canlı görməməsi idi. O elə bilirdi ki, yer üzərində özündən və Simurğdan başqa canlı yoxdur. O, heyrətlə şahzadəyə tamaşa edib onun gözəlliyinə mat qalmışdı. Qız əlindəki meyvələrdən birini şahzadəyə atdı. Şahzadə ayıldı, ətrafa baxdı, amma heç kəsi görmədi, onda qız ikinci meyvəni atdı. Şahzadə bu dəfə başını

qaldırıb budaqların arasından işıq saçan bir füsunkar çöhrə gördü. Bu çöhrə qara buludların arasından görünən aya bənzəyirdi. Şahzadə bir baxışdan bu gözələ aşiq oldu, dili-dodağı qurudu, gücü, qüvvəti tükəndi, ayağa qalxmağa taqəti qalmadı və bu şeiri dedi:

Yaman düşmüşəm eşq tələsinə,
Başdan ayağacan dolaşmışam mən.

Sonra şahzadə başını qaldırıb qızdan soruşdu: «Sən kimsən?» Qız isə ondan soruşdu: «Bəs sən kimsən, sən necə bir canlısan?» Şahzadə dedi: «Mən insanam» Qız dedi: «İnsan nədir?» Şahzadə dedi: «İnsan sənin kimi bir varlıqdır». Qız etiraz etdi: «Xeyr, mən Simurğun övladıyam və insan nədir, bilmirəm». Şahzadə bərkdən gülüb dedi: «Sən insan övladısan, Simurğun övladı isə elə Simurğa bənzəyər. Yaxşısı budur ki, sən mənə de görüm, Simurğla harada rastlaşmısan, necə olub ki, onun yuvasında məskunlaşmısan?» Qız dedi: «Bura Simurğun məskənidir. O məni yedirib, bəsləyib, tərbiyə etmişdir və mənim bildiyim budur ki, mən onun övladıyam. Sən deyirsən ki, insansan, «insan» sözü mənə qəribə gəlir, «insan» nə deməkdir?» Şahzadə soruşdu: «Bəs indi Simurğ haradadır?» Qız dedi: «O, indi iş başındadır. O hər səhər durub Süleyman peyğəmbərin qulluğuna gedir və axşam düşəndə gəlir. O gələndə özü ilə mənə yemək üçün cürbəcür təamlar gətirir və məni əzizləyir. İndi isə qorxuram ki, o qayıdıb gələr və səni burada görüb o saat öldürər. Allah qorusun. Sən özünə bir sığınacaq tap ki, Simurğ gələndə səni görməsin». Şahzadə dedi: «Qəribə adamsan! İnsan olduğun halda özünü quş hesab edirsən». Qız dedi: «Mən nəyə görə sənə inanmalıyam ki, insanam? Bunu nə ilə sübut edə bilərsən?» Şahzadə dedi: «Sən Simurğ gələndə de ki, o olmayanda sən darıxırsan və ondan xahiş et ki, sənə elə cilalanmış bir əşya gətirsin ki, ona baxanda öz əksini görə biləsən. Sən ona baxanda özünü görüb anlayacaqsan ki, Simurğla heç bir oxşarlığın yoxdur, sən mənə, insana bənzəyirsən və sən əsl insansan».

Qız Simurğun dünən gətirdiyi təamlardan şahzadəyə atıb dedi: «Mən elə də edəcəyəm».

Şahzadə təamlara görə minnətdarlığını bildirmək üçün təzim etdi və onlar Simurğun qayıtma vaxtınacan söhbətlərinə davam etdilər. Sonra Şahzadə atlarını qoyduğu yerə enib bir tərəfdə uzandı ki, yatsın, amma gözünə yuxu getmədi, bütün gecəni şahzadənin eşqi ilə qovruldu. Qız da xiffət edib göz yaşları axıdırdı. Simurğ nəvazişlə onun saçlarından öpüb soruşdu: «Gözümün işığı, nə olmuşdur sənə, niyə belə qəmginsən?» Qız dedi: «Mən yalqızlıqdan üzülürəm, sıxılıram. Sən mənə, heç olmasa, elə bir cilalanmış əşya tap, gətir ki, onda öz əksimi görüm, sən olmayanda ona baxıb əylənim». Simurğ dərhal uçub güzgü ilə geri qayıtdı. Qız güzgünü götürdü, amma Simurğ gedənə qədər ona baxmadı. Elə ki günəş doğdu, şahzadə oyandı, dağa dırmaşıb şahzadə qızın ağacdan aşağı budaqlara enməsini gözlədi:

Bütün vücuduyla göz-qulaq oldu,
O, həsrətlə sevgilisini gözlədi.

Şahzadəni görən qız təzim edib salamlaşdı. Şahzadə də onun salamına cavab verdi. Qız ona güzgü əldə etdiyini dedi: «Sənin dediyini artıq gətizdirmişəm». Şahzadə dedi: «Belədirsə, ona bax, görəcəksən ki, sən Simurğa qətiyyən oxşamırsan». Qız dedi: «Mən artıq ona baxmışam, bəli, mən, həqiqətən, Simurğa oxşamıram». Şahzadə dedi: «Onda mənə bax və gör bizim aramızda birimizin qız, birimizin oğlan olmağımızdan başqa bir fərq varmı? Bil ki, Allahtəala səni mənim üçün yaratmışdır». Şahzadə qız bir də güzgüdə özünə, daha sonra şahzadəyə baxıb gördü ki, onlar eynilik təşkil edirlər. Şahzadə qız başa düşdü ki, Simurğun qızı deyildir və onunla heç bir qan bağlılığı yoxdur». Qız şahzadəyə müraciət etdi: «De görüm dünyada səndən və məndən başqa da insan varmı?» Şahzadə dedi: «Hər yerdə, hər tərəfdə minlərlə, yüz minlərlə insan var, biz çoxuq». Qız dedi: «Mən sənə bir könüldən min könülə aşiqəm, sən bizim qovuşmağımız üçün bir şey fikirləşə bilərsənmi?» Şahzadə dedi: «Mənimlə sənin arandakı məsafə elə böyükdür ki, burada qovuşmaqdan söz açmağa heç dəyməz». Qız dedi: «Onda bəs necə edək? Ya sən mənim yanıma gəl, ya da mən sənin yanına düşüm».

Şahzadə dedi: «Mənim sənin yanına qalxmağım mümkün deyildir. Yaxşısı budur, sən Simurğ gələndə ağla, sızla və ona de ki, sən bütün günlərini Süleyman peyğəmbərin hüzurunda olursan, məni burada tək qoyursan. Mən isə tənhalıqdan boğuluram, əvvəllər kiçik idim, başa düşmürdüm, indi böyümüşəm, yalqızlığa dözə bilmirəm. Yaxşısı budur ki, sən gedəndə məni aşağıya düşür, mən dəniz kənarında gəzişim, təmiz hava alım». Şahzadənin bu fikri qızın çox xoşuna gəlir və deyir ki, elə də edəcəkdir. Onlar yenə də Simurğ qayıdanadək söhbət edib, vaxt keçirirlər. Vaxt yetişəndə qız yenə aşağıya təamlardan atır, şahzadə onları götürüb sığındığı yerə gedir. Şahzadə Simurğdan çox qorxurdu, ona görə də kəsilmiş atın sür-sümüyünü yığıb dənizə atır, yemək üçün yararlı olan hissələri isə daşların altında, yarpaqların arasında gizlədir. Sonra Simurğun onu tapa bilməyəcəyi bir guşədə gizlənir və bütün gecəni sevgilisinin həsrəti ilə od içində keçirir.

Qız isə bu arada Simurğun gəlməyini gözləyib, vaxtı çatanda özünü xəstə göstərib ah-uf etməyə başlayır. Simurğ onun yanında əyləşib, saçlarından öpüb soruşdu: «Sənə nə olmuşdur?» Qız ağlaya-ağlaya dedi: «Mən təklikdən, yalqızlıqdan xəstələnmişəm. Bu vaxtadək mən bu təkliyə tab gətirirdim, çünki kiçik idim, heç bir şey anlamırdım. İndi isə artıq böyümüşəm. Sən hər səhər məni burada tək qoyub Süleyman peyğəmbərin hüzuruna gedirsən. Mənim artıq bu təkliyə dözməyə taqətim yoxdur. Səni and verirəm o Uca Allaha, iki işdən birini et, ya məni də özünlə Süleyman peyğəmbərin hüzuruna apar, ya da gedəndə məni dağın ətəyinə düşür, sahil boyu gəzişib, təmiz hava alım. Bəlkə, onda mənim əhvalım düzələr». Simurğ gülüb dedi: «Baş üstə! Mən sən deyən kimi edərəm». Qız Simurğun cavabına çox sevindi və səbirsizliklə səhərin açılmasını gözlədi. Elə ki səhər açıldı, Simurğ qıza dedi: «Burada gözlə, mən gedib sənə münasib bir yer seçim, sonra gəlim və səni aparım». Baxmayaraq ki qız çox həyəcanlı idi, özünü etinasız göstərərək dedi: «Necə məsləhət bilirsən, elə et». Simurğ uçub düz şahzadənin məskunlaşdığı yerə çatdı və orada iki atın otladığını gördü. O fikirləşdi ki, bu atlar dənizdən çıxmışlar. Simurğ o saat geri uçub qızı buraya gətirdi. O,

qıza dedi: «Mən gələnə kimi burada gəziş, təbiəti seyr et». Qız çox sevindi, ona minnətdarlıq etdi. Simurğ uçub gedən kimi şahzadə öz sığınacağından çıxdı və cəsarətli addımlarla qıza doğru gəldi, onunla salamlaşdı. Şahzadəni görən qız çox sevindi və sevincdən huşunu itirdi. Onlar bir-birlərinə qovuşdular.

Nəhayət, Allahın yazdığı tale baş verdi.

Vüsala yetmiş şahzadələr bir-birlərinə daha da möhkəm bağlandılar, onların eşqi alovlanıb vücudlarını bürümüşdür. Şahzadə qız bir qönçə gözəlliyinə malik idisə, indi təzə-tər açmış gülə bənzəyirdi. O öz-özünə deyirdi: «Mən indiyədək harada olmuşam, sən demə, mənim bu günə qədərki həyatım bir puç olubmuş. Yəni mənim yaşadığım həyat həqiqi həyat idimi?!» Bir sözlə, şahzadələr bir-birlərinə əvvəlkindən də çox aşiq olmuşdular. Onlar vaxtlarını elə xoş keçirirdilər ki, bir də baxdılar ki, artıq Simurğun qayıdan vaxtına az qalmışdır. Şahzadə tez öz sığınacağına keçir, qız isə elə orada qalır.

Tezliklə Simurğ uçub gəldi, qızı nəvazişlə qucaqlayıb yuvasına apardı. Simurğ qızdan soruşdu: «Günün necə keçdi? Yəqin ki, Allahın izni ilə vaxtını yaxşı keçirmisən?» Qız dedi: «Mənim ömrüm boyu belə gözəl günüm olmamışdır, mən heç vaxt həyatdan belə həzz almamışdım, bu gün yaşadığım xoşbəxtlik, səadət təsvirolunmaz dərəcədə füsunkar idi». Simurğ dedi: «Elə isə, sevin, mən sabah da, o biri gün də və ümumiyyətlə, hər gün özüm gedəndə səni orada qoyacağam ki, gəzib həyatdan zövq alasan». Qız bu sözlərə çox sevindi və dedi: «Mən bu gün sahildə iki canlı gördüm və qorxdum». Simurğ dedi: «Qorxma, onlar atlardır, onlardan sənə ziyan dəyməz».

Gecə keçdi, səhər açıldı, Simurğ yenə də qızı sahilə aparıb düşürdü, özü isə Süleyman peyğəmbərin hüzuruna uçdu. Allah-təala sanki Simurğun gözünə pərdə çəkmişdir, o nəinki kiminsə onun ərazisinə keçdiyindən şübhələnirdi, heç bu fikri ağlına belə gətirmirdi. Simurğ uçduqdan sonra şahzadə öz sığınacağından çıxdı və iki sevən könül bir-birinə qovuşdu. Gənclər yenə də Simurğ gələnədək bir yerdə oldular. Vaxt yetişəndə isə şahzadə yenə də öz yerinə çəkildi, qızı isə Simurğ öz yuvasına apardı. Bu minvalla bir neçə gün keçdi.

Günlərin bir günü Simurğun ürəyinə bir şübhə toxumu düşdü. O özözünə dedi: «Mən bu qızı sahildə qoyub gedirəm, məncə, bu, bir qədər ehtiyat etməyim məsləhətdir. Mən illərdir ki, onu göz bəbəyi kimi qoruyuram və artıq bizim mərcimizin vaxtı da yetişməkdədir. Mən bu mərcdən mütləq qalib çıxmalıyam. Mənim balaca bir ehtiyatsızlığımın nəticəsində, Allah bilir, nələr baş verə bilər. Dalğalar qəzaya uğramış bir gəmini sahilə ata bilər və orada sağ qalmışlardan biri bu qızcığaza təcavüz edər, bununla da hər şey puç olar və mən rüsvay olaram. Yaxşısı budur ki, mən əvvəlki kimi qızı elə yuvada qoyum qalsın, atları isə ağaca bağlayım ki, yuxarıdan onlara baxıb əylənsin. Mən ancaq bu yolla öz müvəffəqiyyətimi bəd işlərdən qoruyub bu vəziyyətdən çıxa bilərəm».

Səhəri gün Simurğ qıza dedi: «Gözümün işığı, sən bu gün yenə də əvvəlki kimi ağacın başında qalmalı olacaqsan, çünki sahildə hər an bi hadisə baş verə bilər. Sahil düşündüyün qədər də etibarlı yer deyil, orada tez-tez yırtıcılar peyda olur, Allah eləməsin, onlar sənə bir xətər gətirsələr, mən dərddən ölərəm, ona görə də, yaxşısı budur ki, əvvəllər olduğu kimi, ağacın başında qalasan».

Bu sözləri eşidən qızın halı xarab oldu, gözləri qaraldı və o, huşunu itirib yıxıldı. Özünə gələndə isə, artıq könlünü verdiyi gənclə görüşmək ümidini itirmiş qız heç bir söz demədi, Simurğu yola gətirmək üçün yalvarıb-yaxarmadı. Simurğ uçub getdi, qız isə pərt-pəjmürdə halda ağacın başında qaldı. Şahzadə həmişəki kimi sığınacağından çıxıb sahilə düşdü. Qızı sahildə görməyən şahzadə acı göz yaşları tökdü.

Yarının həsrətinə dözməyib hönkür-hönkür ağlayaraq,
O, dağa dırmaşırdı.
Şahzadə göz yaşları içərisində ağaca çatıb onun altında dayandı.
Onun sanki ruhu canından ayrılmışdır,
Ürəyi sanki eşqdən çaşmışdır.

Qızı əvvəlki kimi ağacın başında görən şahzadə hönkür-hönkür ağlayıb dedi: «Ey mənim ürəyimi fəth etmiş aycamal gözəlim, zülfləri ənbər ətri verən huri-mələyim, məni əfsunlamış pərim, qurban

olsun sənə min mənim kimi pərəstişkarın. Sən bu gün həmişəkindən daha gözəlsən. Sənin gözəlliyin bütün dünyanı işıqlandırmışdır. Nələr baş vermiş, nəyə görə sən bu gün məni ünsiyyətinlə xoşbəxtləndirmirsən? Niyə məni gözəl üzünə, gül çöhrənə, lalə dodaqlarına tamaşa etməkdən məhrum edirsən? Niyə məni dərdin, qəmin ağuşuna atırsan?» Qız göz yaşlarını axıdaraq başına gələnləri danışdı.

Şahzadə çox pəjmürdə oldu, amma özünü ələ alıb dedi: «Ey mənim sərv boylum, ºam qamətlim, gecənin zülmətinə işıq saçan ay camallım, bil ki, dünyada səbirlə müdrikliyin aça bilmədiyi bir düyün, bir buxov olmamışdır. Artıq qəm etmə, çünki mən əminəm ki, işlərimiz istədiyimiz kimi gedəcəkdir. Axşam Simurğ qayıdanda sən ağlayaraq de: «Yaxşı, mən sənin dediyin kimi günlərimi təklikdə keçirməyə hazıram, amma məni sahilə düşürə bilmirsənsə, ehtiyat edirsənsə, heç olmasa ağacın altına düşür. Mən orada çeşmənin gözəlliyinə, çiçəklərin ətrinə valeh ola-ola gəzərəm, başımı qataram. Onda ürəyim də tənhalıqdan sıxılmaz». Sən bu sözləri qətiyyətlə, inamla de, gözlərində yaş olsa da, qətiyyətli ol. Bəlkə, onda Simurğ razılıq verər. Sonra isə biz bu vəziyyətdən bir başqa çıxış yolu taparıq». İki aşiq hələ uzun müddət söhbət edib, vaxt keçirdilər. Simurğun gəlmə vaxtı yaxınlaşanda qız yenə də, həmişəki kimi aşağıya təamlar atdı, şahzadə onları götürüb öz sığınacağına getdi, qız isə yuvaya qalxdı. Simurğ qayıdanda gördü ki, qız çox pərtdir və bir tərəfdə oturub için-için ağlayır. Simurğ çox narahat oldu və nəvazişlə soruşdu: «Gözümün işığı, nə olmuşdur sənə? Sənin xətrinə kim dəymişdir?» Qız ağlaya-ağlaya cavab verdi: «Bütün həyatım boyu mənim o sahildə gəzdiyim üç gün qədər xoşbəxt, bəxtəvər günlərim olmamışdır. Mən sahildə gəzir, dənizə, atlara, çəmənliyə, çiçəklərə tamaşa edirdim. Bütün bu gözəlliklərdən məhrum olduqda halım çox pəjmürdə oldu, çox dərd çəkib, qəm edirəm. Sən ağlına belə gətirə bilməzsən ki, mənim bu günüm necə ağır keçmişdir. Yaxşı, əgər sahildə gəzməyimi təhlükəli hesab edirsənsə, bəlkə, məni ağacın altıa düşürəsən ki, mən də orada bir qədər vaxt keçirim». Simurğ bu təkliflə razılaşdı və dedi:

«Mənim bircə məqsədim səni xoşbəxt görməkdir. Narahat olma, sakit ol, sabah dediyin kimi edəcəyəm, amma bir şərtlə, mən səni həftədə bir dəfə ağacın altına düşürəcəyəm. Ondan çox səni orada qoya bilmərəm, çünki dünya yaman dünyadır, dərd-bəla ilə doludur». Qız Simurğa cavab vermədi, susdu.

Səhəri gün Simurğ Süleyman peyğəmbərin hüzuruna getməyə hazırlaşanda qızı da götürüb ağacın altına düşürdü. Sonra sahil tərəfə uçub, atları ağacın altına qovdu və iplərini bir kola bərkitdi. Simurğ qıza dedi: «Mən gələnəcən darıxmayasan deyə bu atları gətirdim ki, baxıb əylənə biləsən». Simurğ uçub getdi, qız isə ağacın altında gəzişərək şahzadəni gözləməyə başladı. Tezliklə şahzadə gəldi. O, qızı görüb çox sevindi. Qız Simurğla olan bütün söhbəti olduğu kimi danışdı. Şahzadə dedi: «Artıq heç bir şey üçün narahat olma. Heç bir şey haqqında düşünmə. Biz bir yerdəyik və gəl vaxtımızı gözəl keçirək». Onlar yenə də təklikdə, baş-başa qalıb vaxtın necə gəlib, necə getdiyini hiss etmədən gözəl bir gün keçirdilər. Bir müddət belə keçdi. Növbəti belə gözəl vüsallardan birindən sonra Simurğ gəlib qızı yuvasına qaldıranda fikir verdi ki, onun gözəlliyi birə on qat artmışdır, o bir qeyri-adi gözəllikdə olmuşdur. O öz-özünə fikirləşir: «Bəli, şahzadə qız artıq böyümüş, həddi-buluğa çatmışdır. Artıq peyğəmbərlə mərcimizin də vaxtının tamam olmasına bir şey qalmamışdır və mən bu mərcdən ləyaqətlə qalib çıxacağam. Bu qələbədən sonra mənim adım qiyamətəcən dillərdə gəzəcəkdir». Simurğ bütün gecəni bu fikirlərlə keçirdi və səhər yenə də qızı ağacın altına düşürdü, özü isə peyğəmbərin hüzuruna uçdu. Sevgilisini görən qız dedi:

Sənin bircə baxışına canımı fəda edərəm,
Ancaq nadan səndən ayrı düşməyə razı olar!

Mənim sevimli yarım, bil ki, mən sənə o qədər bağlanmışam ki, bircə anlığa belə səndən ayrı düşəndə, bircə dəqiqə səni görməyəndə elə bil ruhum canımdan ayrılır. Ona görə sən elə bir şey fikirləşib tapmalısan ki, biz həmişə, gecə-gündüz bir yerdə olaq, heç vaxt ayrılmayaq». Şahzadə fikrə getdi. Bir az keçmiş başını qaldırıb dedi: «Min canım olsa idi, minini də sənə fəda edərdim. Mən fikirləşdim

və belə qərara gəldim ki, bizim bircə yolumuz vardır. Biz gərək atları dənizdə boğaq, sən isə ağlayıb, dərd edib Simurğa deyəsən: «Mən o atlara çox bağlanmışdım, onlar isə qaçıb dənizə girdilər və qeyb oldular». Bundan sonra mən gedib atın dərisini gətirərəm və ona bürünüb ağacın altında uzanaram. Onda sən məni, at dərisinə bürünmüş halda Simurğa göstərib deyərsən: «Bax çəmənlikdə nəsə var, mənə elə gəlir ki, o, atdır və ya ata bənzəyən başqa bir şeydir. Sən onu mənə gətir, onunla əylənim, başımı qatım. O mənə atları xatırladacaqdır, mənim də əhvalım düzələcəkdir». Sən belə desən, Simurğ sənin əhvalının düzəlməsi üçün etiraz etməyəcəkdir». Şahzadənin bu təklifi qızın çox xoşuna gəldi və o dedi:

«Eşqimizə heç bir şey mane ola bilməsin deyə,
Sevgilim, dediyin tədbiri tez bir zamanda həyata keçir!»

Beləliklə, onlar ortaq bir fikrə gələrək, həmişəki kimi, eşq dolu, nəşə dolu bir gün keçirib, axşam düşəndə, həmişəki kimi ayrıldılar. Simurğ qayıdanda qızı yenə də oturub xısın-xısın ağlayan gördü. O çox dilxor oldu, pəjmürdə oldu və qızın saçlarını sığallayıb öpüb dedi:

«Ey gözümün işığı, qəlbimin yaraşığı,
Mən buradayam, hər şeyə qadirəm, bircə ağlama!

Bir de görüm, dərdin nədir, niyə bu hallara düşmüsən?» Qız əvvəlkindən daha yanıqlı hönkürüb ağladı və dedi:

«Təəssüf ki, nəyə qəlbən bağlanıramsa,
Taleyim onu əlimdən alır.

Bu gün sən getdikdən sonra, mən bir saata qədər atlarla oynayıb əyləndim. Sonra onlar iplərini qırıb qaçdılar və dənizə girdilər. Onlar irəliləyib dənizdə yox oldular. İndi də bu mənə dərd oldu, mən onlarsız necə yaşayacağam?» Qız bunları deyib daha bərkdən ağladı, Simurğ onu nə qədər öpüb-sığallasa da, təsəlli versə də, qız sakit olmurdu. Nəhayət, Simurğ dilləndi: «Ey gözümün işığı, ağlama, ürəyini üzmə, mən sabah gedib sənə atlardan da gözəl bir hədiyyə gətirəcəyəm». Simurğ çox çətinliklə, şirin sözlərlə, vədlər-

lə qızı yola gətirib ağacın başına qaldıra bildi. Sonra o bütün gecəni qızı ovundurub sakit etməyə çalışdı və səhər açılanda atların otladığı yerə getdi ki, bəlkə, orada qızı maraqlandıra biləcək bir şey tapa bilər, amma axtardığına oxşar bir şey tapmadığı üçün kor-peşman qayıtmağa hazırlaşırdı ki, birdən gözü at dərisinə bürünmüş şahzadəyə sataşdı. Əgər Allah bir qismət yazmışdırsa, bir Allah bəndəsi onu poza bilməz.

Simurğ qışqırdı: «Allah özü mənim işimə xeyir-dua verir, özü mənim işlərimi düzüb-qoşur ki, peyğəmbərin qarşısında rüsvay olmayım. Mən bu at dərisini aparıb şahzadə qıza verəcəyəm ki, o, yox olan atları düşünəndə bu dəri ilə əylənib başını qatsın». Allahtəala Simurğun gözlərinə elə bir pərdə çəkmiş, ürəyini elə möhürləmişdir ki, o kiminsə buralara gəlib, buralarda gəzib-dolaşmasını ağlına belə gətirə bilmirdi. O sevinə-sevinə, fərəhlə at dərisini yuvasına apardı və qızın qarşısına qoyaraq dedi: «Allah böyükdür, heç kəsi darda qoymur. Sənin atların qeyb olsalar da, bu dərini tapmaq mənə nəsib oldu. Bu, at dərisidir, sən bu dəri ilə əylən və atlarını xatırla». Şahzadənin dərinin altında olduğundan xəbərdar olan qız Simurğa yaxınlaşıb minnətdarlıq edib, qanadlarını, ayaqlarını sığallayaraq dedi: «Bu dəri atların özlərindən də gözəldir və mənə ömrümün sonunadək bu dəridən başqa heç bir şey lazım deyildir».

Bu sözləri eşidən Simurğ çox sevindi və dedi: «Allaha şükürlər olsun! İndi mən sənə görə rahat olacağam». Sonra Simurğ Süleyman peyğəmbərin hüzuruna uçdu. Şahzadə isə o saat dərinin altından çıxdı və iki sevən gənc bir-birlərinə qovuşdular. Axşam düşəndə şahzadə yenə dərinin altına girdi, Simurğ isə qayıdıb qızı xoş əhvalda görüb çox sevindi və özündən, gördüyü tədbirdən razı qaldı və dedi: «Gününü necə keçirdin?» Qız dedi: «Sənin mərhəmətin, böyüklüyün sayəsində mən bu günümü çox gözəl keçirdim, inan ki, atlar heç yadıma da düşmədi». Simurğ dedi: «Allaha şükürlər olsun!»

Bundan sonra bir müddət də keçdi və qızın boynuna uşaq düşdü. O öz zərifliyini, incəliyini itirdi. Səkkiz ay tamam olanda uca Yaradan məni Süleyman peyğəmbərin hüzuruna göndərib bu sözləri çatdırmağımı əmr etdi: «Sən Simurğdan Məğrib şahının qızı ilə

Məşriq şahının oğlunun məsələsini soruş, gör onların talelərini dəyişə bildimi?» Süleyman peyğəmbər Allah-təaladan bu əmri alıb Simurğu və ona zamin duranları yanına çağırtdırıb dedi: «Bizim mərcimizin vaxtı tamam olmuşdur. De görək, nəyə nail ola bilmisən, işlərin nə yerdədir?»

Simurğ sevinc və fərəh hissi ilə dedi: «Bəli, Allahın köməyi, peyğəmbərimiz Süleymanın mərhəməti ilə mən bu işin öhdəsindən gələ bildim və inan ki, Məğrib və Məşriq şahlarının övladlarının talelərini, alın yazılarını elə bir fəndlə dəyişdirdim ki, o, bir Allah bəndəsinin ağlına gələ bilməzdi. Sən, bizim möhtərəm peyğəmbərimiz də indən belə inanacaqsan ki, taleni, alın yazısını dəyişmək mümkündür».

Süleyman peyğəmbər dedi: «Səni and verirəm Yaradana, bunu bizə sübut et». Simurğ qürurla cavab verdi: «Mənə bunu sübut etməyə izin verməyinlə böyüklük etmiş olarsan». Süleyman peyğəmbər Simurğa dedi: «Get qızı gətir bura».

Bir başqa mənbədə deyilir ki, Süleyman peyğəmbər küləyə əmr edir ki, onu qızın olduğu dağın başına aparsın, amma daha inandırıcı olanı bizim indi nəql edəcəyimizdir.

Simurğ uçub qızın yanına gedir və ona deyir: «Səni Allahın elçisi Süleyman peyğəmbər görmək istəyir, dur, səni onun hüzuruna aparım».

Qız qorxur, pörtür, özünü itirir və Simurğdan soruşur: «Peyğəmbər nəyə görə məni görmək istəyir?» Simurğ deyir: «Dur, getməlisən, başqa cür mümkün deyildir». Qız şahzadədən ayrılmaq istəmirdi və ona görə soruşdu: «Sən məni necə aparacaqsan, dənizdən necə keçirəcəksən?!»Simurğ dedi: «Mən səni qanadlarımın üstündə keçirəcəyəm». Qız dedi: «Yox, bu mümkün deyil, mən buna razı ola bilmərəm, mən o hündürlükdən aşağıya baxsam, bağrım yarılar. Heç olmasa, qoy mən bu at dərisinə bürünüm, sən də məni onun içərisində qanadlarının üstünə qoy apar ki, mən də heç bir yeri görməyim». Simurğ bu fikri bəyəndi və dedi: «Mən razıyam, belə daha yaxşı olar».

Qismətdə varsa, gözlər də kor olacaqdır.

Qız yavaşca dərinin altına-şahzadənin yanına girdi və Simurğ onu götürüb Süleyman peyğəmbərin hüzuruna apardı. Süleyman peyğəmbər – Allah ona yar olsun! - əmr etdi ki, onların mərcində iştirak etmiş bütün heyvanlar, quşlar, insanlar yığılıb gəlsinlər. Hamı yığılandan sonra o, Simurğa dedi: «Mən qızı sorğu-sual etməzdən əvvəl sən danış görək, talenin, alın yazısının dəyişdirilməsi üçün sən nələr etmisən?»

Simurğ bütün olanları təfsilatı ilə, əvvəldən axıracan olduğu kimi danışıb dedi: «Bəli, mən qızın taleyini, alın yazısını dəyişdirməyə nail oldum və Məğrib şahının qızı hal-hazırda bu dərinin altındadır. O ki qaldı Məşriq şahının oğluna, ondan bir xəbərim yoxdur». Onda Süleyman peyğəmbər əmr etdi: «Qoy qız dərinin altından çıxsın!» Qız dərinin altından çıxıb təzim etdi. Süleyman peyğəmbər soruşdu: «Bəs ərin haradadır? Boynuna uşağın düşdüyü neçə aydır?» Qız cavab verdi: «Ərim dərinin altındadır, hamilə olmağım isə səkkiz aydır».

Süleyman peyğəmbər buyurdu ki, oğlan dərinin altından çıxsın. Şahzadə dərinin altından çıxıb öz gözqamaşdırıcı görkəmi ilə orada yığışanları heyran etdi. O, Süleyman peyğəmbərin qarşısında təzim etdi. Süleyman peyğəmbər Simurğa müraciət etdi: «Əgər sən taleyi dəyişdirib, alın yazısını poza bilmisənsə, onda bu gəncin burada nə işi vardır?» Sonra peyğəmbər şahzadəyə müraciət etdi: «Artıq neçə vaxtdır ki, sən bu qızla bir yerdəsən?» Şahzadə cavab verdi: «Mən artıq on aydır ki, onunlayam».

Bunu eşidən, rüsvay olmuş Simurğ uca səslə qışqırıb bu yerləri, böyüdüb, nazını çəkdiyi, qayğısına qalıb hər bir şeydən mühafizə etdiyi, göz bəbəyi kimi qoruduğu, hər əmrini yerinə yetirdiyi qızı tərk edib uçub getdi. O uçub Qaf dağının zirvəsində məskunlaşdı və bundan sonra onu bir canlı varlıq görmədi. O ki qaldı Simurğa zaminlik etmiş bayquş, qarğa və sərçəyə, onlar xəcalətlərindən bu laləzar çəmənlikləri tərk edib uzaq, əlçatmaz yerlərdə məskunlaşdılar. Bundan sonra Süleyman peyğəmbər özü Məşriq şahzadəsi ilə Məğrib şahzadəsinin izdivacını qanunlaşdırıb onların kəbinlərini kəsdirdi. O bütün əyan, əshabələrinə gənclərə qiymətli, dəyərli hədiyyələr bəxş etməyi və gələcəkdə də onların ehtiyacı olan işlərdə yardım

etməyi buyurdu. Sonra o buyurdu ki, Məğrib və Məşriq şahlarının hər birinə məktub yazılsın və onların övladlarının qanuni nikahla evləndikləri xəbəri çatdırılsın. Çox keçmədi ki, Məğribdən və Məşriqdən minnətdarlıq cavabları gəldi. Süleyman peyğəmbər küləyə əmr etdi ki, Məşriq şahzadəsini Məğrib şahzadəsi ilə bir yerdə Məşriq padşahının hüzuruna çatdırsın.

Oğlunu sağ-salamat, yanında xanımı ilə görən padşah çox sevindi və Allaha dualar edib, şükürlər etdi. O çox hədiyyələr, nəzir-niyaz payladı, Süleyman peyğəmbərə isə adına layiq çox qiymətli hədiyyələr göndərib onun dinini qəbul etdi. Padşah oğlunu, gəlinini qayğı ilə əhatə etdi, onlara hər cür diqqət, nəvaziş, məhəbbət göstərdi.

Vaxt yetişəndə gəlin ay parçası kimi gözəl, sağlam bir oğlan uşağı dünyaya gətirdi. (Başqa bir mənbədə isə gənclərin övladlarının hələ Simurğun yuvasında ikən dünyaya gəlməsi və onlar Süleyman peyğəmbərin hüzuruna gəldikdə artıq bir aylıq olan körpələrinin də at dərisinin altında olduğu təsvir olunur. Nəzərə çatdırılır ki, Simurğun gözlərinə elə bir qalın pərdə çəkilmişdir ki, o heç bir şeyi görmürdü və qızı gətirəndə dərinin altında şahzadənin və bir aylıq körpənin olmasından belə xəbər tutmamışdır.)

Məğrib hökmdarı qızının taleyindən xəbər tutanda, onun sağ-salamat olduğunu, Məşriq şahzadəsi ilə izdivaca girdiyini, bir oğlan uşağı dünyaya gətirdiyini eşidəndə çox sevinmişdir. O, öz elçisini bir karvan ən qiymətli, ən dəyərli hədiyyələrlə Məşriq hökmdarlığına göndərib qızının əri və uşağı ilə gəlib onun da qonağı olmaqlarını rica etmişdir. Məşriq hökmdarı öz növbəsində çox qiymətli hədiyyələrlə yüklənmiş karvanla bərabər oğlunu, gəlinini və nəvəsini Məğrib hökmdarının hüzuruna yola salmışdır. Bizə isə onlardan xatirə olaraq bu gözəl hekayət qalmışdır.

Cəbrailin – Allah onun adını həmişə uca tutsun! – bu hekayəti bütün yaradılmışın tacı, Allahın Rəsulu Məhəmməd peyğəmbərə - Allah ona yar olsun! Allahın salamları olsun ona! – danışmaqda məqsədi bu əhvalatın məğzini, mənasını, qayəsini öz tərəfdarlarına

açmaq idi. Bu hekayəti eşidənlər, dinləyənlər Allahın yazdığı qədər-qismətin, bəxtin, taleyin qüdrətinə heyran olmuşdurlar.

*Bu hekayətdə bir neçə həqiqət təqdim olunur:*

*Birincisi, hamı bilməlidir ki, heç kəs heç vaxt ona yazılmış qismətdən qaça bilməz.*

*İkincisi, bu dünyada bəxt, tale deyilən bir məfhumun mövcud olduğu birmənalı qəbul olunmalıdır.*

*Üçüncüsü, insanlar artıq Simurğun Kaf dağına çəkilməsinin səbəbini biləcəklər.*

*Dördüncüsü, insanlar Məşriq şahzadəsinin başına gələn maraqlı macəralarla tanış olacaqlar.*

*Beşincisi, insanlar Dəclə, Fərat, Nil və Amudərya çaylarının öz başlanğıcını haradan götürdüklərini biləcəklər.*

*Altıncısı, insanlar kişilərin cavan, gümrah, sağlam qalmaqlarının səbəbinin*

*zövcələrində olduğunu biləcəklər. Biləcəklər ki, bədxah, bədxislət, bədnəfəs zövcəsi olan kişilər tez əldən düşüb qocalar.*

Allah bu kitabın üzünü köçürənə, onu oxuyub dinləyənlərə, onu yazana və «Amin»,- deyən möminlərə yar olsun!

## İYİRMİ SƏKKİZİNCİ HEKAYƏT

# Zərgər Xalidin oğlu, onun qədəh dostları və onların alçaqlığı haqqında hekayət

Belə nəql edirlər ki, Bəsrə şəhərində zərgər Xalid kimi tanınan bir hörmətli adam yaşayırdı. Onun tükənməz var-dövləti, mal-mülkü camaatın dilində dastan olmuşdur. Bəsrədə elə bir vadi, bağ-bağat yox idi ki, zərgər Xalidin orada torpaq payı olmasın, şəhərdə elə məhəllə yox idi ki, orada mülkü olmasın. Yüzə yaxın tacir dünyanın müxtəlif ölkələrində onun ticarət işlərini icra edirdi. Bəsrəyə gələn hər ticarət karvanında onun vəsaiti ilə tacirlik edən bir-iki nəfər olurdu. Onun elə bir var-dövləti var idi ki, o hər il kasıbların xeyrinə xəzinəyə qırx min dinar vergi ödəyirdi. Xalidin əsas dövləti isə gözəlliyi ilə ad qazanmış, gözəllik bütlərini kölgədə qoymuş Hamid adında oğlu idi.

Günlərin bir günü Xalid xəstələnib yatağa düşür. O başa düşəndə ki, artıq köç vaxtı yetişmişdir, oğlunu yanına çağırıb vəsiyyətini edir. Zərgər Xalid bütün xəzinələrinin, anbarlarının açarlarını, bütün mal-mülkünün, qalasının möhürlü sənədlərini və onların siyahısını oğluna verib, atalıq borcunu yerinə yetirərək bu fani dünyanı tərk edir. Hamid adət üzrə atasını böyük təmtəraqla dəfn edib yas saxlayır. Yas mərasimi bitdikdən sonra Hamid dünyəvi işlərə qayıdır və atasından qalmış var-varidatı sağa-sola xərcləməyə başlayır. Çox keçmir ki, Hamidin başına şəhərin bütün avaraları yığışır. Onlar Hamidə tériflər deməklə, mədhlər söyləməklə onu istədikləri kimi ələ alırlar. Şübhəsiz ki, onların məqsədi zərgər Xaliddən qalmış var-dövlətin axırına çıxmaq idi. Min cür fənd bilən bu avara, küçə adamları, «Sən bir dənəsən!», «Səndən yoxdur!»,- deyə-deyə Hamidi elə bir eyş-işrət bataqlığına çəkirlər ki, onun hər gün ancaq musiqiçilərə, şəraba, şirniyyata xərclədiyi pul artıq min dinarı keçir.

Hamidin aciz, zəif bir anası var idi. Onun gözünün işığı, ağzının dadı, həyatının mənası, yeganə sevinci, ümidi, arxası oğlu idi. O, Hamidin nəfəsi, həyatı ilə yaşayırdı, onun hər nəfəsinin, addımının üstündə əsirdi, çünki onun başqa övladı, qardaş-bacısı, qohum-əqrəbası yox idi. O görəndə ki, axmaq, avara, alçaq, əyyaş yoldaşlar oğlunu öz torlarına salıb onun pulunu, qızıl-gümüşünü özlərinə xərclədirlər, sarsılırdı, özünə yer tapa bilmirdi. O dözməyib oğlunun yanına gedir və deyir: «Oğlum, başımın tacı, mənə də, özünə də yazığın gəlsin, atan təmiz, hörmətli həyat yaşayıb özündən sonra təmiz, hörmətli ad qoyub getdi. Nə qədər ki, gec deyil bu rəzil, səfil yoldan əl çək, gəl, nəhayət, dürüst yola üz tut:

Çalış, dostun səndən ağıllı olsun ki,
Onun zəkasından faydalana biləsən.
Mətbəx qazanı ilə əlləşsən,
Ancaq çirkli köynək əldə edərsən.
Sonra üzündəki hisi silmək istəsən,
Bil ki, tam təmizləyə bilməzsən.

Səni and verirəm o uca Allaha, ayıl, başa düş ki, bu avara, axmaq yoldaşların sənin başına ancaq puluna görə yığışırlar. Sən bircə gün onlara pul xərcləməsən, onlar o saat səndən üz çevirərlər və bir də heç vaxt sənin adını tutmazlar».

Təəssüflər olsun ki, anası nə qədər çalışsa da, ağlasa da, yalvarsa da, faydası yox idi.

Xoşniyyətlinin arzusu ancaq yaxşılıq olar,
Onu anlamaq isə xoşbəxtə nəsib olar.

Nə isə, beləliklə, qısa bir zamanda Hamidin pulundan, qızılından, gümüşündən əsər-əlamət qalmır. İş o yerə gəlib çıxır ki, onun cibində bir dirhəm belə qalmır. Belə olan halda Hamid atasının şəriklərinə, işlərini idarə edənlərə müraciət etməli olur. O, atasının paylarını dəyər-dəyməzinə, dəyərindən çox aşağı qiymətə verib pulları toplayır, amma bu toplanmış pul da onun əlində uzun müddət qalmır. O, yenə də öz avara yoldaşlarını yığıb əlindəki pulları eyş-işrətə

xərcləyir. Zərgər Xalidin vəsaiti ilə dünyanın bir çox ölkəsində ticarətlə məşğul olan tacirlər Hamidin nalayiq həyat tərzi keçirməyini eşidib, məmləkətə dönməkdən imtina edirlər. Onlar Xalidin pulunu, işini mənimsəyib, işlədikləri ölkələrdə qalırlar.

Bəli, elə ki Hamid gördü artıq heç kəs ona pul verməyəcəkdir, evdəki əşyaları, xalıları satmağa başlayır. Qiyməti bir dirhəm olanı yarım dirhəmə satır, on dirhəmliyi beş dirhəmə satır və əldə etdiyi pulu elə həmin saat şəraba xərcləyir. Beləliklə, satılması mümkün olan nə var idisə satdıqdan sonra Hamid atasından qalmış torpaqları, əkin yerlərini, bağları satmağa başlayır. Hamid çox tez bir zamanda bunları da satıb pullarını xərcləyir.

Uzun sözün qısası, Hamidin atasının ölümündən iki il sonra ona qalmış o böyük var-varidatdan, xəzinədən, mal-mülkdən əsər-əlamət qalmır. Hamid artıq qullarını, nökərlərini, kənizlərini satmağa başlamışdır. Onları da satıb, pulları xərclədikdən sonra Hamidin cibində bir mis qəpik də qalmır. Elə ki Hamidin avara yoldaşları onun müflis olub, qəpiksiz qaldığını görürlər, tez ondan üz çevirib, yaxınlarına qoymurlar.

Bəli, nəhayət, o gün gəlib çıxır ki, Hamid yeməyə bir şey tapa bilmir. O bir neçə gün ac qaldıqdan sonra qərara gəlir ki, yoldaşlarına müraciət etsin, amma onların heç biri ona heç bir quru çörək belə vermir. Əlacsız qalmış Hamid yeməyə bir şey tapmaq ümidi ilə evə gedir. Evdə anasından və onun yanında olan bir neçə qadından başqa heç bir kəs və onlardan başqa heç bir şey yox idi. Oğlunu belə rəzil gündə görən ana ağlayıb deyir:

«Xeyirxahlar ancaq xeyir arzulayarlar,
Onları isə ancaq bəxtəvərlər dinləyərlər.

Ey Allahsız, dinsiz-imansız, məni dinləsə idin, indi belə rəzil günə düşməzdin». Hamid yalvarır: «Ana, mən artıq elə bir vəziyyətə düşmüşəm ki, məni tənə etməyin də bir mənası yoxdur:

Başıma gəlmiş bu rəzillikdə məni tənə etməyin nə mənası.

Əgər mənə yazığın gəlib, mənə yardım etmək istəyirsənsə, mənə bir tikə yemək ver, yox əgər yeməyə bir şeyin yoxdursa, yara-

mın qartmağını qoparıb, göynətmə, mənə rəhmin gəlsin». Ana qəzəblənir: «Mənim bircə tikəm olsa idi, bu bədbəxt, kimsəsiz qadınları yedizdirərdim, özüm də yeyərdim». Anasının bu tənəli sözlərini eşidən Hamid kor-peşman, ac-susuz öz köhnə yoldaşlarından birinin evinə yollanır.

«Aclıq axmaq, səhv, yanlış işlərin mənbəyidir».

Hamidin yanına getdiyi bu yoldaşı ona digərlərindən daha yaxın idi və Hamidin imkanlarından başqalarından daha çox yararlanmışdı. Hamid içəriyə keçəndə görür ki, onun keçmiş yoldaşlarının hamısı buradadır və onlar xanəndələrin, şərabın hakimlik etdiyi bir məclis qurmuşlar. Hamidi görəndə onların üzlərinin ifadəsi elə dəyişir ki, sanki onu birinci dəfə idi görürdülər. Hamid onların ikrah dolu baxışlarının müşayiəti ilə, əskilmiş, kiçilmiş halda süfrə başına keçib yeyib-içməyə başlayır. Hamidin keçmiş əyyaş yoldaşları onu o dərəcədə içirirlər ki, Hamid yuxuya gedir. Onda keçmiş yoldaşlar onu aparıb zibilliyə atırlar və sonra qayıdıb məclislərinə davam edirlər.

Təsadüf belə gətirir ki, bir neçə oğru bu zibilliyin yanından keçəndə Hamidi görür. Oğrular o saat hücum edib Hamidin əynində nə var idisə çıxarıb qaçırlar. Gecə keçib səhər açılanda Hamid oyanır və durub getmək istəyəndə özünü paltarsız görüb dəhşətə gəlir. Səhər təzə açılmışdır, küçələrdə heç kəs yox idi. Hamid oğrun-oğrun, bir təhər özünü evə çatdırır. O, anasının yanına gedib, ayaqlarına düşüb hönkür-hönkür ağlayır.

Oğlunu bu vəziyyətdə görən ana dözmür, ürəyi sıxılır, huşunu itirir. Özünə gəldikdə isə oğlundan başına gələnləri soruşur. Hamid xəcalətdən ölə-ölə cavab verir: «Yadımda olan ancaq odur ki, mən dünən yoldaşlarımla yeyib-içirdim, bu gün isə bir zibillikdə lüt vəziyyətdə ayıldım». Ana yenə hönkürüb ağlayır. Sonra o əynindəki üst əbasını çıxarıb oğlunu çiyninə atır. Hamid yalvarır: «Ana, yalvarıram, mənə bircə damcı ılıq halva tap, yoxsa, içim qovrulur». Ana qəzəblə deyir: «Ey mənim nanəcib, nankor oğlum, artıq günlərlə ən adi çörəyə möhtac olduğum halda, sən necə məndən halva istə-

yə bilirsən? Yetər, məni bundan artıq özümdən çıxarma!» Rüsvay olmuş Hamid xəcalətdən ağlayıb, etdiklərinə peşman olub deyir:

«Necə bacara bilərəm özüm özümlə?
Acı taleyimlə necə mübarizə apara bilərəm?»

Oğlunun bu halını görən ana dözməyib hönkür-hönkür ağlayır. Onun gözlərində yaş leysan yağışı kimi axırdı, sanki yaz buludları boşalırdı. Sonra onlar bir az sakitləşdilər və Hamid anasının əbasını birtəhər özünə uyğunlaşdırıb üzdəniraq yoldaşlarının yanına yollandı. Hamid hansı qapını döyürdüsə, qapı onun üzünə bağlanır və hamı ondan üz çevirirdi. Beləliklə, Hamid bütün günü, səhərdən axşamacan qapı-qapı gəzib, yoldaşlarından kömək istədi, amma ona, nəinki kömək edən, «səni tanıyıram»,- deyən olmadı.

Elə ki axşam düşdü, Hamid kor-peşman evə qayıdıb ağlaya-ağlaya anasına yoldaşlarının onunla necə rəftar etdiklərini danışdı. Anası dedi: «Əziz oğlum, mən bu günü görüb səni xəbərdar etmirdimmi? Məgər mən sənə demirdimmi ki, bu eyş-işrət yoldaşlarınla oturub-durma. Onlardan sənə heç vaxt xeyir gəlməz. Sənin hesabına gün keçirən bu avaralardan ziyandan başqa heç nə görməzsən. Məgər mən demirdimmi ki, sən bunların məclislərinə yüz min dirhəm xərcləsən belə, pulun tükənəndə onların hamısı səndən üz çevirəcəklər?» Anasını dinləyən Hamid ağlaya-ağlaya deyirdi:

«Bu dünya dərd dünyasıdır, burda xoşbəxt adam yoxdur,
Elə birisini görsən, məndən ona salam söylə».

Hamid bütün gecəni ağlayıb, anasına talesizliyindən, yoldaşlarının nankorluğundan danışdı. Nəhayət, aclığın əzabından acı yuxuya getdi. Ana oğlunu yatmış qoyub üstünə nimdaş çarşabını atıb məscidə getdi, bir neçə dirhəm, iki-üç balaca kökə dilənib, əlindəki pul ilə bir az paxla alıb evə qayıtdı. Evdə paxlanı, çörəyi qaynar suda isladıb oğlunun yanına qoydu. Yuxudan oyanıb yeməyi görən Hamid dedi:

«Kim məni bu nimdaş köynəkdə görsə,
İnanmaz ki, vaxtı ilə sultandan da varlı olmuşam».

Acından əldən düşmüş Hamid yeməyin haradan əldə olduğunu heç soruşmadan qabı qabağına çəkdi. Hamid yeyib şəhərə getdi. Yolda o öz əyyaş yoldaşlarından birini gördü. Ona çatıb xahiş etdi ki, bütün yoldaşlarına onun bu sözlərini çatdırsın: «Mənim əziz, sədaqətli, dəyanətli dostlarım, həmsöhbətlərim:

Bircə xahişim var, indi kömək edin mənə,
Mənə o biri dünyada kömək lazım deyildir.

Siz hamınız məni yaxşı tanıyırsınız, bilirsiniz ki, vaxt var idi ki, mənim pulum, varım, dövlətim başımdan aşırdı və mən sizdən heç bir şey əsirgəmirdim. İndi isə mən bu acınacaqlı vəziyyətə düşmüşəm, sizin isə işləriniz əla gedir, yadınıza salın:

Biz dost idik, bir yerdə əylənirdik,
Bir yerdə sevinirdik, bəzən isə bir yerdə dərd çəkirdik.

Sizin aranızda elə birisi tapılmaz ki, mənim hesabıma özünə gün ağlamamış olsun. İndi Allahın hökmü ilə mən belə bir acınacaqlı vəziyyətə düşmüşəm, sizin hər biriniz mənə bacardığınız məbləğdə pul verməlisiniz ki, mən də öz işlərimi yoluna sala bilim. Siz bunu etməsəniz, dostluğun ali qanunlarını pozmuş olacaqsınız. Unutmayın ki, bu fani dünyaya etibar etmək olmaz, çünki:

Heç kəs bilməz bu dünyada tale kimin üzünə gülər.

Mən güman edirəm ki, siz - mənim dostlarım, sirdaşlarım məni bu vəziyyətdə qoymayacaqsınız. Hərəniz mənə bir qədər pul verəcəksiniz ki, geyinib, nökər-naib yığıb, yük heyvanları alıb şəhəri tərk edim. Mən uzaq ölkələrə gedəcəyəm. Elə yerlərə gedəcəyəm ki, orada nə məni, nə atamı tanıyan olsun, çünki mən elə rüsvay olmuşam ki, artıq bu şəhərdə qalıb yaşaya bilmərəm:

Uzaq diyarlarda, məni heç kəsin tanımadığı yerlərdə
Bəlkə, bəxtim açılar».

Bu sözlər Hamidin yoldaşlarına çatanda onların hər biri bir bəhanə ilə pul verməkdən boyun qaçırdılar. Onlar dedilər: «Sən kimsən

ki, bizdən yardım gözləyəsən. Biz nə səni tanıyırıq, nə də sənin cah-calalını görmüşük. Biz səndən nə görmüşük ki, əvəzinə nəsə verək». Bu cavabı eşidən Hamid çox pərt oldu və dedi:

Sınıq ağrısını çəkmək çox çətindir,
Alçaqdan əlac istəmək isə əskiklikdir».

Hamid bir qədər də düşünüb dedi: «Mən burada qalıb nə nökərçilik, nə əkinçilik edə bilərəm, çünki kimin yanında işləsəm, məni tanıyacaqdır. Burada atamı, ailəmi tanımayan yoxdur və məni də hamı tanıyır. Harada işləsəm, məni tənə edib, qınayacaqlar, mən də bu yükün altında yaşaya bilməyəcəyəm. Əlimdə bir peşəm, sənətim də yoxdur ki, işləyib çörək pulumu qazanım. Mənim yeganə çıxış yolum buraları tərk edib elə bir yerə getməkdir ki, orada ailəmi, atamı tanıyan olmasın. Orada fəhlə, nökər işləyib, çörək pulu qazanaram».

Hamid fikrində bunları götür-qoy edə-edə evdən çıxıb şəhər darvazalarına tərəf getdi. Orada gördü ki, keçmiş yoldaşlarından bir neçəsi ağac kölgəsində yığışıb şərab içir. O, yenə də onlara yaxınlaşıb salamlaşdı və yalvararaq dedi: «Sizi and verirəm o uca Allaha, sizi özümə qardaş bilmişəm, mənə yardım edin. Çox demirəm, lap azca vəsait verin ki, üstümdə ehtiyat üçün olsun, mən artıq buraları tərk edib uzaq ellərə gedirəm». Hamidin alçaq yoldaşları dedilər: «Sən burada bir daşın üstündə otur, biz də gedib sənin üçün hərəmiz bir şey gətirək». Zavallı Hamid düz günortayadək orada oturub onları gözlədi, amma onlardan heç biri gəlib çıxmadı. Yoldaşlarının bu dəfə də ona qarşı alçaqlıq etdiklərini başa düşən Hamid kor-peşman durub şəhər darvazalarından çıxdı. O öz-özünə bu şeir parçasını oxuyurdu:

«Kişiyə rüsvay olub bu yüklə yaşamaqdansa,
Daşqalaq olub ölmək daha üstündür.

Belə həyat nəyimə gərəkdir?» Hamid bu sözləri deyib Dəclə çayının sahilinə yollandı ki, özünü suya atıb canını bu rəzil həyatdan qurtarsın. Hamid çaya çatıb dəstəmaz aldı, namaz qıldı, kəlmeyi-şəhadətini dedi və çaya yaxınlaşırdı ki, özünü atsın, birdən uzaqdan çox böyük sürətlə ona tərəf gələn bir atlı gördü. Atlı ona əl edib nəsə

qışqırırdı. Heç bir şey anlamayan Hamid fikirləşdi: «Qoy bu atlını gözləyim, sonra bu rəzil həyatla vidalaşaram». O, kənara çəkilib atlını gözləməyə başladı. Atlı düz Hamidə tərəf çapırdı. O yaxınlaşanda Hamid gördü ki, bu nəhəng atın üstündə təpədən dırnağacan çox qiymətli, par-par parıldayan silahlarla yaraqlanıb-yasaqlanmış, üzünü niqabla örtmüş bir pəhləvan oturmuşdur. At qan-tər içində idi. Hamidə elə gəldi ki, bu atlı bir dağdır və bu dağ digər dağın üstündə oturmuşdur. Hamid həm də ona fikir verdi ki, atın qoşqusu, yəhəri, üzəngisi, yüyəni qızıldan hazırlanıb və üstləri də bahalı daşlarla işlənmişdir.

Atlı Hamidə yaxınlaşıb salamlaşdı və dedi: «Ey Hamid, necəsən, işlərin necə gedir?» Hamidin qorxudan bütün bədəni əsdi və o, zorla cavab verdi. Atlı ucadan dedi: «Çox təəssüflər olsun ki, o cür adlı-sanlı, hörmətli, ləyaqətli bir kişinin sənin kimi oğlu vardır. Sənə bəs olmadı ki, atanın qoyub getdiyi bütün mal-mülkü, xəzinəni, əmlakı, var-varidatı dağıdıb qurtardın, indi də özünə qəsd eləməklə günahamı girmək istəyirsən? Sən məni tanımasan da, mən səni çox gözəl tanıyıram və bilirəm ki, bir ağlı başında olan adam sənin etdiklərini etməzdi. İndi heç olmasa, başa düşdünmü ki, sənin pulunu sağa-sola xərcləyən, sənin hesabına pullanıb, mal-mülk yiyəsi olan eyş-işrət yoldaşlarının heç biri dar günündə sənin yanında olmadılar. Onlar səni ac, ayağı, başı yalın tək qoyub, səndən üz çevirdilər».

Atlının bu tənələrini, danlaqlarını dinləyən Hamid başını aşağı salıb ağlayırdı. O, deyilənlərin hamısının həqiqət olduğunu, bu danlaqları özü qazandığını bilirdi və xəcalətdən Allahdan ancaq ölüm arzulayırdı. Atlı Hamidin bu halını görüb dedi: «Ey Hamid, bil ki, bir vaxtlar mən sənin atana ehtiyat üçün min dinar vermişdim ki, saxlasın. İndi eşidəndə ki, sən tam müflis olmusan və borcun başından aşır, sən isə bu borcları qaytarmaq iqtidarında olmadığından şəhərdən qaçmağa hazırlaşırsan, bu atı qan-tər içərisində buraya çapdım ki, pulumu alım. Mən buraya nəyin bahasına olursa-olsun, min dinarımı qaytarmaq məqsədi ilə gəlmişdim, amma sənin acınacaqlı vəziyyətini görüb sənə yazığım gəldi». Min dinarın söhbətini eşidəndə Hamid söyüd yarpağı kimi əsdi və zorla dedi: «Gördüyün kimi mən özümə gündəlik yemək

üçün bir tikə çörək əldə etməyə belə qadir deyiləm. Belə olan halda mən sənin min dinarını necə qaytaracağam».

Atlı dedi: «Yaxşı, onda de görüm, burada nə edirsən? Doğrusunu de, çayın sahilinə nə məqsədlə gəlmişdin?» Hamid göz yaşları içərisində, hönkürə-hönkürə başına gələnləri danışıb hekayətini bu sözlərlə bitirdi: «Dost hesab etdiklərim insanlardakı alçaqlıqları görüb bu dünyanı tərk etmək fikrinə düşdüm. Mən elə bir vəziyyətə gəlib çıxmışam ki, artıq neçə gündür ki, nə özümə, nə anama, nə də onun yanındakı üç qadına yemək üçün ən adi paxla ilə çörək əldə edə bilmirəm. Belə olan halda ölüb bu əzablardan qurtarmaq daha yaxşı deyilmi?

Mən ona layiqəm ki, məni heç kəs ağlamasın».

Hamidin bu acınacaqlı vəziyyətini, onun acı göz yaşlarını görən atlının ürəyi sızıldadı, o da ağlamağa başladı. O elə hönkürüb ağlayırdı ki, Hamid niqabın altından onun ağladığını hiss edirdi. Atlı sakitləşib dedi: «Sən həyatını çox nalayiq, nadürüst yaşamısan, günlərini rəzalət içində keçirmisən, atanın vəsiyyətini pozmusan. De görüm, əgər Uca Allah bir də həyata başlamaq üçün sənə vəsait yetirib, möhlət versə, onu necə yaşayarsan?» Hamid dərindən içini çəkib dedi:

«Bir halda ki birinci dəfə öləndə məni ağlayan olmamışdır,
Bir də qiyamətədək o yola dönmək nahaqdır».

Atlı dedi: «Əgər sən, həqiqətən, peşmansansa, əgər Allah-təalanın yoluna dönməyə hazırsansa, sənə kömək edəcəyəm. Mən sənə bu rəzalətdən, səfalətdən, xəcalətdən qurtarmaq üçün vəsait verəcəyəm ki, öz işini qurasan, çalışasan, işləyəsən və ləyaqətli bir həyat yaşayasan». Hamid sevincindən atlının qarşısında yerə sərildi, amma o, Hamidin qolundan tutub qaldırdı və cibindən səliqə ilə yaylığa bükülmüş bir dua çıxarıb ona verdi. O, Hamidə ən ağır andlar verdirdi ki, bir də içməyəcək, avara, əyyaş yoldaşları ilə görüşməyəcək, bədxahlarla oturub-durmayacaqdır.

Hamid üzərinə bütün öhdəlikləri götürərək and içib qurtardıqdan sonra atlı cibindən içində min xəlifə dinarı olan möhürlənmiş kisə

çıxarıb ona verdi və dedi: «Mən bu pulları sənə bağışlayıram, özünə əyin-baş, başqa ehtiyacın olan şeyləri, yeyəcəklərini al». Daha sonra o, cibindən iki üzük çıxarıb Hamidə verdi və dedi: «Bu üzükləri tax, onları qoru və mənim qayıtmağımı gözlə. Mən gəlib işlərinin necə getdiyini yoxlayacağam. Görsəm ki, sən verdiyin sözlərə, andlara əməl edib, doğru-dürüst yaşayırsan, yenə sənə yardım edəcəyəm və işlərinin yaxşı getməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm. Gəl belə şərtləşək, düz bir ildən sonra bu saatda bu yerdə bir daha görüşək».

Atlı bu sözləri deyib Hamidlə halallaşdı və atını çevirib çapdı. Tək qalmış Hamid çaşqın halda idi. O, atlı gözdən itənədək onun arxasınca baxdı və sonra üzünü göyə tutub dedi:

«Allahım, bir söylə, bu mərhəmətin səbəbi nədir?»

Hamid qızılları götürüb, yol uzunu olanları götür-qoy edib, o qərib atlıya xeyir-dualar edə-edə evə tərəf yollandı. O deyirdi: «İndən belə Allah-təalanın mənə verəcəyi bütün ömrümə görə o atlıya borcluyam, çünki o olmasa idi, mən indi çayın dibində idim». Hamid evə girəndə gördü ki, anası üç əldən düşmüş qulluqçusu ilə üzü divara oturub ağlayırlar. Hamid gördü ki, anasının səhər məsciddən gətirdiyi quru çörək parçaları elə yerlərindəcə qalmışdır. Ana dönüb oğlunu xoş əhvalda görəndə yerindən qalxıb onun boynuna sarıldı. Hamid əyləşib anasının qabağına min qızıl dinar və iki üzüyü qoyub başına gələnləri olduğu kimi danışdı.

Ana çox sevindi və oğluna dedi: «Gözümün işığı oğlum, ola bilər ki, o adam atanın dostlarındandır. Sənin belə bir vəziyyətə düşdüyündən xəbər tutub kömək etmək qərarına gəlmişdir. Hər necə olursa-olsun, biz gecə-gündüz, ömrümüz boyu o kişiyə duaçı olmalıyıq. Oğlum, sən özünü də, insanları da sınaqdan çıxarıb tanıdın. Bu qızıl sənə mənsub deyildir, başqasınındır. Ehtiyatlı ol, min kərə ehtiyatlı ol! İndi artıq ağılla iş gör, verdiyin sözlərə, götürdüyün öhdəliklərə əməl et və gözlə görək bu gecə nə olacaqdır, gecənin yükü ağır olur. Ləyaqətini qoru, dürüst yaşa, elə yaşa ki, bir daha adını tapdaqlar altına salmayasan. Mənim məsləhətimə baxsan, ticarətlə məşğul

olarsan ki, ilin tamamında o mərhəmətli atlı ilə görüşəndə xəcalət çəkməyəsən».

Hamid dedi: «Gözümün nuru, başımın tacı anam! Baş üstə! Mən artıq ayılmışam və indən belə ancaq sənin yanında olacağam, səni dinləyəcəyəm. İndi isə dur get bazara, mənə səliqəli bir dəst paltar al ki, dost-düşmən qarşısına çıxmağa xəcalət çəkməyim. Mən sənə söz verirəm ki, indən belə ömrümün sonunadək bir də keçmiş həyatıma qayıtmayacağam. Bütün olanlar keçmişdə qaldı!»

Ana bazara gedib oğlu üçün bir dəst təmiz, təzə paltar, ayaqqabı alıb gəlir. Hamid geyinib-kecinib bazara gedir. O, yüz dinarlıq bazarlıq edir. Evə xalça-palaz, qab-qacaq, başqa lazım olan əşyalar və ərzaq ehtiyatı alıb gəlir. Bundan sonra o, alverə başlayır və bu minvalla özünə bir iş qurur. Elə ki Hamidin keçmiş, üzdəniraq yoldaşları vəziyyətin belə dəyişdiyini, Hamidin geyim-keçimini, barmaqlarındakı qiymətli üzükləri, onun iş başında olub uğurla işini idarə etməyini, dürüst həyat sürməyini görürlər, yavaş-yavaş, tək-tək, cüt-cüt ona yaxınlaşıb, salamlaşıb münasibət qurmaq istəyirlər. Hamid isə artıq dost dediklərinin nə yuvanın quşları olduqlarını çox yaxşı bildiyi üçün onları rədd edib deyir: «Siz insan deyilsiniz, siz ən murdar məxluqsunuz». Onların heç birini yaxınına qoymadan deyir:

«Bu gün mənə etdiyiniz təriflərlə, alqışlarla,
Gülüşə hədəf olub rəzil olursunuz».

Hamid əlində olan pula on gözəl ərəb atı alır, onlara qulluq edib bəsləyir, onların təlimi ilə məşğul olur və münasib vaxtda onları min beş yüz qızıl dinara satır. Üstündən beş-altı ay keçdikdən sonra Hamid yenə körpə, amma cins dayçalardan alır, onlara da qulluq edib, bəsləyir, böyüdüb gözəl çapar atlar yetişdirir və yenə münasib vaxtda onları sərfəli, baha qiymətə satır. Beləliklə, Hamid artıq öz işini qurub pul-para sahibi olmağa başlayır. O, mütəmadi onu bu vəziyyətdən çıxmağa yardımçı olmuş, ona bu həyatı yenidən bəxş etmiş atlını düşünürdü. O, hər iki gündən bir Dəclə çayının sahilinə, atlı ilə rastlaşdığı yerə gedirdi ki, bəlkə, onu görə, amma ondan heç bir xəbər-ətər yox idi. Hamid atlı ilə görüşüb, ona öz işlərindən, uğurla-

rından danışmaq istəyirdi və bir də qazancından ona ayırdığı payı vermək istəyirdi.

Artıq bir il olmuşdu, Hamid işini qurmuş, işlərinə nəzarət edirdi və artıq kifayət qədər pul-qızıl sahibi idi. O, qazancının yarısını xilaskarı üçün ayırmışdır. İlin sonunda onun yanına atasının şəriklərindən biri gəlib onun qarşısına üç min dinar, bir neçə top qumaş, ipək və başqa parça qoyur. Hamid buna çox sevinir və deyir: «Gözəl ərəb məsəlində deyilir: «Uğur sənə doğru gələndə sən də ona tərəf get, uğur səndən üz döndərəndə sən də üzünü ondan döndər». Bəli, gəlir artır, artdıqca uğur bunun nəticələrini daha da gözəl edir».

Günlərin bir günü Hamid gündəlik işlərini tamamladıqdan sonra yenə də çayın sahilinə - o atlı ilə rastlaşdığı yerə yollanır. Oraya çatanda Hamid atlının orada dayandığını görür. Onun atı keçən dəfəkindən min dəfə möhtəşəm, libası on min dəfə təmtəraqlı, şahanə idi. Yenə də atının yüyəni, üzəngisi, yəhəri üstü qiymətli daşlarla işlənmiş qızıldan idi. Ərəb adətinə uyğun olaraq, üzündə də niqab var idi. O, atın belində bir qaya kimi ucalırdı.

Hamid onu görən kimi atdan düşüb onun qarşısında yeri öpdü. Atlı ona yaxınlaşıb əyilərək qucaqladı və dedi: «Afərin sənə, sən əsl kişisən. Mən sənə inanırdım və əmin idim ki, sən sözünün üstündə duracaqsan. Sən kişi kimi dediyin sözə sahib çıxa bildin. İndi isə de görüm işlərin necədir? Gəlirin, çıxarın nədir? Qazancın nədir?»

Hamid hər şey haqqında məlumat verib dedi: «Sənin xeyir-duanla, sənin təkanınla mən verdiyin min dinarı iki misli qədər artırdım və onun beş yüz dinarı sənə mənsubdur. İndi qərarı sən verməlisən, pulu sənə verim, yoxsa işə qoyum? Bundan başqa, gözlənilmədən atamın tacir yoldaşlarından biri gəlib mənə üç min dinar gətirdi, mən də yarısını ona qaytarıb özümə düşən payı isə sənin payının üzərinə əlavə etdim. İndi, əgər məni şərəfləndirib şəhərə buyursan, həm mənim işlərimlə tanış olarsan, həm gələcəkdə onların idarəçiliyi ilə bağlı məsləhətlər verməyinlə məni xoşbəxt edərsən, həm də mübarək qədəmlərinlə evimə təşrif buyurub məni göylərə ucaldarsan. Mən də söz verirəm ki, bütün əmrlərinə qeyd-şərtsiz əməl edəcəyəm».

Atlı sevinib bərkdən güldü və dedi: «Ey Hamid, hələ sənin evinə gəlmək vaxtı deyil, mən özüm vaxtı çatanda sənin evinə gələcəyəm». Atlı bunu deyib cibindən hər birisinin içərisində iki min xəlifə dinarı olan, möhürlənmiş iki kisə çıxarıb Hamidə uzatdı və dedi: «Ey Hamid, bilməlisən ki, Bəsrədən yüz fərsəng məsafədə atanın ögey qardaşı yaşayır. O çox nüfuzlu, varlı, imkanlı bir insandır, onun mal-mülkünün, var-varidatının sayı-hesabı yoxdur. Onun dünyalar gözəli bir qızı var ki, yer üzündə heç kəs onunla müqayisəyə gələ bilməz. O sənin ögey əmin qızıdır. Siz hələ uşaq ikən atan əmin qızını sənə adaxlayıb əminlə kəbin sözləşməsi bağlamışdır. Həmin sazişdə deyilir: «Hamid böyüyüb, gəlinin iki min dinar dəyərində süd pulunu göndərən kimi gəlin Hamidin evinə yollanmalıdır». Səndən nə gizlədim, mən çoxdandır ki, sənin əmin qızına, yəni adaxlına aşiqəm. Mən artıq neçə vaxtdır ki, onun eşqindən dəli-divanəyəm, zülm, əzab içində çabalayıram, qorxuram dözməyib intihar edəm. Nə qədər elçi göndərmişəm, nə qədər qızıl-gümüş göndərmişəm, nəticə əldə edə bilməmişəm. Əmin hər dəfə onun səninlə adaxlı olduğunu söyləyir. İndi mən çıxılmaz vəziyyətdəyəm və üzümü sənə tutub yalvarıram, mənə kömək et. Sən axı adaxlı olduğunu belə unutmuşdun. Həyatın amansız dolanbacları, enişli-yoxuşlu yolları səni elə sıxmışdır ki, sən, nəinki adaxlını, heç ananı belə xatırlamırdın. Sən bu çayın kənarında durub həyatına son qoymağa hazırlaşırdın. Onda mən səni ölümün pəncəsindən alıb həyata qaytardım, indi isə sən mənə kömək et ki, mən həyatda qalım. Bu iki min dinarı əminə göndər və haqq-halal gəlinini tələb et. Səndən bu vaxtacan harada olduğunu soruşsalar, uzaq diyarlarda işlərinlə məşğul olduğunu söylə və indi isə gəlininin sənin evinə köçməyini istədiyini bildir. Elə ki ögey əmin qızını evinə gətirdin, səni and verirəm Allaha, onunla evlənmə, onu mənim üçün qoru. Vaxt yetişəndə isə niqahı pozub onu mənə verərsən. Mən də onunla evlənib ən ümdə arzuma çatmış olaram. Bunu etsən, mənim üçün çox böyük yaxşılıq etmiş olarsan. Mən bunun müqabilində eyş-işrətə xərclədiyin bütün xəzinəni, mal-mülkü, satdığın bütün torpaqları, mülkləri, qalanı, bağ-bağatlarını, əkin sahələrini geri qaytaracağam, satdığın qul-nökərlərini, kənizlərini - bir sözlə,

hər şeyini geri qaytaracağam və sən əvvəlkindən də imkanlı, varlı olacaqsan. Mən isə ömrümün sonunadək sənə minnətdar olacağam. Xilaskarını dinləyən Hamid minnətdarlıq hissi ilə dilləndi: «Mən sənin istənilən əmrini yerinə yetirməyə hazıram.

Mən sənin istənilən əmrini yerinə yetirərəm,
Ölümə gedərəm, amma şərtimizi pozmaram».

Atlı Hamiddən bu cavabı alan kimi, çantasından kağız qələm çıxarıb, Hamidin malını, mülkünü almış bütün adamlara belə bir məzmunda məktublar yazdı: «Bu məktubu alan kimi Hamiddən aldıqlarınızı ona qaytarmalısınız. Bu məktubu isə lazım olana qədər saxlayacaqsınız». Daha sonra o, Bəsrənin bütün bənnalarına, ustalarına, dülgərlərinə, rəngsazlarına məktublar yazdı: «Bu məktubu oxuyan kimi bütün alətlərinizi, lazımi əşyalarınızı götürüb zərgər Xalidin oğlu Hamidin evinə gedin və lazım olan bütün tikinti, təmir, bərpa işlərini ən yüksək səviyyədə həyata keçirin». Bu məktubları Hamidə verdikdən sonra atlı xüsusi çantadan müqəddəs kitabı çıxarıb dedi: «İndi isə əlini bu müqəddəs kitabın üstünə qoyub and iç və de: «And içirəm ki, gəlini evə gətirdikdən sonra onu göz bəbəyim kimi qoruyub saxlayacağam, ona gözümün ucu ilə belə baxmayacağam və sən gələndə kəbinimizi pozub gəlini sənə təhvil verəcəyəm». Hamid and içib ondan tələb olunan sözləri dedi. Bundan sonra atlı iki min dinarı Hamidə verdi ki, əmisinə göndərib gəlinini gətirmək fikrində olduğunu bildirsin:

«Mən borcumu yerinə yetirdim, indi növbə sənindir».

Hamid atlının ayaqlarına düşüb yalvardı: «Ey möhtərəm atlı, sənə yalvarıram, üzünü göstər, kim olduğunu mənə de ki, anamla Allaha kimin üçün dualar etdiyimizi bilək». Atlı dedi: «Hələ vaxtı deyil. Hələ mənim kim olduğumu bilməyinin vaxtı yetişməmişdir. Necə deyirlər:

«Sən bal kimi üzümü ye və bununla kifayətlən,
Onun kim tərəfindən və hansı bağdan dərilməsi səni
maraqlandırmasın.

Elə ki sən əmin qızını öz əllərinlə, toxunulmamış mənə təhvil verdin, mən özüm üzümü açıb sənə göstərəcəyəm və sənə indikindən min dəfə artıq xeyirxahlıqlar edəcəyəm.

Bu arzumu yerinə yetirə bilsən, sənə canımı verərəm,
Canımı verərəm, şərtimizi pozmaram».

Atlı bunu deyib Hamidlə halallaşdı və atını çapıb getdi. Hamid pulları götürüb anasının yanına getdi və olanları ona danışdı. O, cibindəki kağızları çıxarıb bir-bir anasına oxudu. Ana eşitdiklərinə heyran qalmışdır. O dedi: «Ay gözümün işığı, atlı sənə həqiqəti demişdir. Atan, həqiqətən, səni ögey qardaşının qızı ilə adaxlamışdır və həqiqətən, süd pulu kimi iki min xəlifə dinarı müəyyənləşdirilmişdir və həqiqətən yer üzündə sənin əmin qızın qədər gözəl ikinci bir qız tapa bilməzsən. Onlar sənin nadürüst həyat tərzi sürməyini görüb gəlini göndərmək fikrindən daşınmışdılar, əslində isə hələ atanın sağlığında neçə dəfə süd pulunun verilib gəlinin gətirilməsi tələb edilmişdir. Sonralar atan da buna razılıq verməmişdir, çünki hesab edirdi ki, sən hələ bərkdən-boşdan çıxıb, doğru yola düşməlisən. İndi isə mən baş aça bilmirəm, ağlıma belə gətirə bilmirəm ki, sən öz haqq-halal zövcəni necə başqasına verəcəksən?» Hamid qətiyyətlə dedi: «Anacan, o atlının mənə etdikləri dünyada heç bir şeylə müqayisə edilə bilməz. Əgər əmim qızım mənim on övladımın anası olsa idi belə, mən ondan imtina edib xilaskarıma verərdim. Mən başa düşdüm ki, atlı, həqiqətən, əmim qızına dəlicəsinə aşiqdir və onunla qovuşmağının yeganə yolu da məndən keçir. Mən isə canla-başla ona kömək etməyə hazıram, hətta əgər başımdan olacağımı bilsəm, yenə də geri çəkilmərəm». Hamid bunu deyib, etibarlı, inandığı adamlarından birini çağırıb ona iki min dinar verərək əmisinə süd pulu olaraq çatdırmağını tapşırdı. Bundan başqa o, çoxlu qiymətli, dəyərli hədiyyələr, paylar hazırlatdı və bir dənə də məktub yazıb əmisinə göndərdi. Məktubda Hamid gecikməyinin səbəbinin iş səfərlərində olması ilə izah edərək üzrxahlıq edir və gəlininin tez bir vaxtda onun evinə göndərilməsini xahiş edirdi.

Bahalı hədiyyələri, qiymətli payları, iki min dinar süd pulunu və üzrxahlıq məktubunu görən əmi başa düşür ki, Hamid artıq ağlını başına yığmış, düz yola gəlmiş və indi o artıq evinin sahibi, cəmiyyətdə hörmətli bir kişi kimi tanınır. O, Hamidin göndərdiyi adamı hər cür hörmətlə, izzətlə qəbul edir. Əmi buna çox sevinmişdir. O, Allaha şükürlər eləyib, göndərilən hədiyyələrin müqabilində onların iki-üç misli dəyərində olan hədiyyələr hazırladır, cavab məktubu yazır və Hamidin etibarlı adamını yola salır. O xahiş edir ki, bu sözləri Hamidə çatdırsın: «Mən qızımın müəyyən işlərini sahmanlayıb bu məktubun ardınca, çox keçmədən özünü də sənin evinə göndərəcəyəm. Sən də indi toy tədarükləri ilə, gəlinin qarşılanması üçün lazım olan işlərlə məşğul olmalısan. Mənim bircə arzum iki balamın birləşib xoşbəxt olmalarıdır».

Hamidin qasidi gəlib bu xəbəri, pay-pürüşü, qızıl-gümüşü, məktubu çatdırır. Hamid can-fəşanlıqla toy tədarüklərinə başlayır. Bir gün Hamid anasına deyir: «Anacan, mən xilaskarımın yazdığı məktubları sahibkarlara göstərib mal-mülkümü geri istəməkdən utanıram. Mən qorxuram ki, onlar məktubda yazılanlara əməl etməyələr və mən rüsvay olum. Doğrudur, satdıqlarımın hamısı vaxtı ilə atamdan mənə qalmış haqq-halal vərəsə idi və mən onların tam hüquqlu yiyəsi idim, amma mən onların hamısını könüllü şəkildə, razılaşdığım qiymətə satıb, möhürlü, imzalı sənədləri ilə təhvil vermişəm. Mən indi nə əsasla bu kağızları göstərib onları geri istəyə bilərəm? Bunların hamısı mənə qəribə gəlir və mən heç bir qərar qəbul edə bilmirəm». Anası deyir: «Oğul, bu məktubların nəyə qadir olduqlarını öyrənməyin çox sadə yolu vardır. Sən əvvəl bənnalara, dülgərlərə, ustalara yazılmış məktubları göndər, əgər onlar gəlsələr, deməli bu bir həqiqətdir, yox, gəlməsələr, onda digər məktubları göndərməyə dəyməz». Anasının bu məsləhəti Hamidin çox xoşuna gəlir və o saat bənnaya, dülgərə ünvanlanmış məktubları göndərir. Səhər açılanda bənna ilə dülgər alətləri ilə Hamidin evinə buyururlar və işə başlayırlar. Onlar gecə-gündüz elə səylə işləyirdilər ki, tez bir zamanda təmir işlərini qurtarırlar və ev əvvəlkindən min qat möhtəşəm və gözəl görünür.

Hamidlə anası bu işə mat qalmışdılar. Bundan sonra Hamid ürəklənib məktubların hamısını ünvanlarına uyğun olaraq göndərir. İmzalı, möhürlü məktubları almış sahibkarlar, tacirlər o saat Hamiddən aldıqlarının hamısını qaytarırlar. Qısa bir müddətdə vaxtı ilə Hamidə mənsub olan bütün mal-mülk, var-varidat, əmlaklar, bağlar, qalalar, tikililər, qullar, kənizlər - bir sözlə, hər bir şey ona qaytarılır. Nəticə etibarı ilə Hamidin işləri atasının sağlığında olandan da yaxşı vəziyyətə düşür. Tezliklə onun şan-şöhrəti hər iki İraqa yayılır. Elə ki Hamid işlərinin yolunda olmasına əmin olur, toy tədarüklərini tezləşdirir. Bütün işlərini tamamladıqdan sonra isə o, əmisinə xəbər göndərir ki, gəlini qəbul etməyə hazırdır.

Əmisi bu xəbəri alan kimi qızını adətə, ənənəyə uyğun olaraq pay-pürüşü, hədiyyələri, qulları, kənizləri və saymaqla tükənməyən hər cür cehizi ilə birlikdə Hamidin evinə yola salır. Hamid gəlini qarşılayıb, şəhərin bütün adlı-sanlı adamlarını, əyanlarını dəvət edib bir möhtəşəm toy edir və təmtəraqla gəlini evə aparır. Elə ki Hamid niqabını açmış gəlinin üzünü görür, o gözəlliyin qarşısında heyrətə gəlir. Bu qızda elə bir gözəllik var idi ki, Hamid, nəinki ona tay gözəl görməmişdir, heç nağıllarda da belə gözəl haqqında eşitməmişdir. Qızın sərv qaməti, nərgiz gözləri, ay camalı, qönçə dodaqları, yanaqlarından qıvrılaraq boynuna düşən müşk-ənbər ətirli zülfləri zərifliyin, incəliyin, füsunkarlığın ən əlçatmaz zirvəsi idi. O, ayaqdan başadək qamət, zəriflik, başdan ayağacan qürur, paklıq, məsumluq rəmzi idi; onun sirr dolu gözləri öz ovsunlayıcı baxışları ilə dünya sehrbazlarının ürəyini alovlandırır, onun yaqut dodaqlarında təbəssüm oynayanda bal-şəkər dadını itirirdi. Onun ənbər rayihəli zülflərinin qarşısında Xütən müşkü öz ətrini itirir, gümüş kimi bəyaz çöhrəsinin qabağında incilərin üzü xəcalətdən rənglərini itirib, qızıl kimi saralırdı. Onun yaqut gülü kimi büllur ləbləri ilə müqayisədə şəffaf cənnət bulağı öz saflığını itirir, göydəki Müştəri onun otuz iki incisinə canını fəda etməyə hazır dururdu, Oxatan onun gözlərinin, baxışlarının qarşısında baş əyir, Günəş onun yanaqları ilə müqayisədə solğun görünürdü, onun canları yaxan alma çənəsi Zöhrənin ağlını başından alır, kaman qaşları Oxatan-Bəhramı dəli-divanə edirdi,

onun şam kimi düz qaməti Tiri xəcil edirdi və o, xəcalətdən kaman kimi əyilirdi, Ayın üzündə həsəddən ləkələr əmələ gəlirdi, Zühəl onun ətir saçan zülflərinə, incə xallarına heyran olub yuxusunu itirirdi. Bir sözlə, Hamid əmisi qızının bu füsunkar gözəlliyinin qarşısında donub qalmışdır. Onun ürəyi bir anın içində bu huri-mələyin ovsununa düşüb Hamidin ixtiyarından çıxmışdır. Hamid öz adaxlısına elə aşiq olmuşdur ki, onun bütün vücudu, ürəyi, nəfəsi donub qalmışdır. O, elə bir vəziyyətə düşmüşdür ki, sanki yerə yapışmışdır və nəfəs belə ala bilmirdi. Bir anlığa o elə bir vəziyyətə düşdü ki, ağlını itirdi, hissiyyatı ağlını üstələdi və o qıza tərəf addım atıb onu qolları arasına almaq istədi, amma bir anın içində sanki ayılıb özünü ələ aldı. Necə deyərlər: «Sözünə əməl etmək müdriklik əlamətidir» və ya «Kişi sözü hər bir həvəsdən üstündür». Beləliklə, Hamid hisslərini cilovlayıb andına, sözünə sahib çıxdı.

«Namusunu qorumayan oğrudan da betərdir,
Ən rəzil olan insan verdiyi sözə əməl etməyəndir».

Hamid özünü sakitləşdirib ürəyinə dedi:

«Ürəyim, sən mənə vaxtı ilə
Acından az qala öləcəyim günləri xatırlat».

Beləliklə, hərəkətlərini, rəftarını tam nəzarətinə tabe edərək Hamid verdiyi sözə sahib çıxmağı bacardı. Ürəyi sızlayıb, ağrısa da, ağlı, iradəsi zəfər çalmışdır. Elə ki bütün səyyarələrin hökmdarı Günəş öz şüalarla hörülmüş tacını başına qoyub taxtına əyləşdi və bütün ətrafı öz işığına qərq etdi, Hamid gözəlliyin Günəşi, zərifliyin Zöhrəsi olan əmisi qızı hələ yuxuda ikən qalxıb üzgün, əzgin halda dəstəmaz alıb namazını qıldı və gün ərzində başını gərəkli-gərəksiz işlərlə qatdı. Yenə axşam düşəndə o huri-mələk yatağında uzandı, Hamid isə taleyinə baş əyərək öz tərəfinə keçdi. O öz-özünə deyirdi:

«Su başında susuzluqdan yanaram,
Amma bu gözələ mən xor baxmaram».

Bu gecəni də, növbəti gecəni də birtəhər yola verib, bir sözlə, üç günü tamam edib Hamid verdiyi sözün vaxtı gəlib çıxdığını düşündü. Dördüncü gün o, atını minib xilaskarı ilə sözləşdiyi yerə çapdı. O bütün yolu göz yaşlarını axıdaraq deyirdi:

«Bu dünyada məndən bəxtsiz adam yoxdur,
Çünki həm mənimləsən, həm də mənim deyilsən».

Ürəyini dinləyəndə Hamid onun necə sıxılıb, necə qan sızdığını hiss edirdi, elə ki ağlına müraciət edirdi, o acı, ağır, rəzil, xəcil günlərini xatırlayıb onu zülmətdən qurtaran xilaskarını düşünürdü. Hamid acı göz yaşları tökə-tökə, o gözəlin eşqindən alışıb yana-yana şərtləşdikləri yerə gəlib çıxdı. Bir saatdan sonra Hamid gördü ki, atlı uzaqdan ildırım kimi gəlir. Hiss olunurdu ki, çox qəzəblidir, əlində qınından çıxarılmış, günün şüaları altında su damlası kimi işıldayan qılınc var idi. Atlı Hamidə yaxınlaşıb bağırdı: «Ay nankor, ay sözünə sahib çıxa bilməyən nanəcib, mən sənə nə etmişdim ki, onun müqabilində mənə qarşı bu xəyanəti etdin? Məgər biz belə şərt kəsmişdik ki, sən mənim illərlə sevdiyim huri-mələklə evlənəsən? Məgər bizim şərtimiz sənin mənim halalım olan sevgilimə yiyələnməyin idi? Sən yəni fikirləşirsən ki, canını mənim əlimdən qurtara biləcəksən?

Heç cəhd etmə əbəs yerə, taledən qaça bilməzsən!»

Zavallı Hamid söyüd yarpağı kimi əsməyə başladı. O, atlının qarşısında yerə kimi təzim edib torpağı öpdü və dedi: «Hökmdarım, Allah eləməsin ki, mən sənə verdiyim sözü pozum. Nə qədər sağam, nə qədər ki, canım üstümdədir, mən sənin sadiq qulunam və heç bir qüvvə məni sənə verdiyim sözü pozmağa vadar edə bilməz. Bir o uca Allah şahiddir ki, mən sənə verdiyim sözə tam əməl etmişəm. Mənim əmim qızım artıq üç gündür ki, mənim evimdədir və mən ona bircə dəfə belə xor baxmamışam. Mən sənə verdiyim sözə sahib çıxmaq üçün lazım olarsa, canımdan da keçərəm. Artıq üç gündür ki, o gözəlin eşqi mənim bütün vücudumu bürümüşdür, ürəyim qan sızır, gözlərimdən qanlı yaş axır, amma bütün bunlarla bərabər o gözəldən ayrıldıqdan sonra həyatımla vidalaşmalı olsam belə, sənə

verdiyim sözdən dönmərəm. Mən ölərəm, amma sənə verdiyim sözə xəyanət etmərəm». Hamidin əzabını, göz yaşlarını görən atlı qılıncını qınına salıb dedi: «Sən dediklərinin həqiqət olduğunu necə sübut edə bilərsən?» Hamid dedi: «Mənim bu halımdan, vəziyyətimdən artıq nə sübut ola bilər ki? O aycamal gözəli gördüyüm gündən nə gecəm var, nə gündüzüm, hər nəfəs aldıqca elə bil canım çıxır köksümdən, gözümdən axan yaşlar canımın qanını tükədir, ürəyimdə elə bir yüklə gəzib-dolanıram ki, sanki çiyinlərimdə bir dağ vardır. Bunların hamısına sənə verdiyim sözə sadiq qalmaq üçün dözürəm və indi də buraya gəlməkdə məqsədim səni evimə aparıb o hurimələyi sənə təhvil verməkdir. Mən bilirəm ki, onu sənə verdikdən sonra bu həyatla vidalaşacağam, amma olsun, sənə xəyanət etməkdən ölüm yaxşıdır».

Atlı dedi: «Dediyin həqiqətdirsə, onda səni and verirəm o uca Allaha, məni yarıma çatdır». Hamid o saat qalxıb atını mindi və evə sarı çapdı, atlı isə onun ardınca getdi.

Ürəyində min dərdlə, ağlında min fikir ilə, dərd-qəm içində, acı göz yaşları tökərək Hamid xilaskarını evinə gətirir ki, əmisi qızını-öz halal zövcəsini ona versin. Hamid atlını qonaq otağında qoyub hərəmxanaya keçir ki, qızı gətirsin, amma qız orada yox idi. O, qulluqçulardan xanımın harada olduğunu soruşur, amma onların heç biri cavab verə bilmirlər. Hamid dəli kimi otaqları gəzib qızı axtarırdı, amma bu axtarışlar bir nəticə vermirdi. Əldən-ayaqdan düşmüş Hamid xəcalətdən, rəzalətdən bilmirdi nə etsin. O, əynini cırıb-dağıtdı, başındakı saçlarını yolub tökdü və nalə çəkdi: «Ay ana, mənə kömək et! Yoxsa, mən bu rəzalətdən, xəcalətdən özümü öldürəcəyəm». Anası dedi: «Oğlum, özünü ələ al. Sən get qonağının yanına, ona təamlar təklif et, söhbət et. Sən onun başını qat, biz isə o müddətdə çalışıb qızı taparıq. Olsun ki, qız utandığından evin bir küncündə gizlənmişdir». Ananın bu sözləri Hamidi sakitləşdirmədi. O, yenə də ağlayıb üst-başını cırıb dağıdırdı. Hamidin bu halını görən qul-nökər də dözməyib ağlamağa başladı. Axır ki, Hamid birtəhər özünü ələ alıb, ev camaatını sakitləşdirib, qonağının yanına keçdi. Hamidin gözlərində yaş parlayırdı, özü də tir-tir titrəyirdi.

Onun danışmağa halı yox idi. Atlı Hamidi bu vəziyyətdə görüb, onu sakitləşdirmək məqsədi ilə dedi: «Qorxma, çəkinmə, de görüm, nə baş vermişdir? Bu nə haldır, düşmüsən?» Hamid ağlaya-ağlaya müqəddəs kitabı götürüb, üstünə əl basdı və dedi: «Ey mənim xilaskarım, səndən nə gizlədim, mən bu qızı görən gündən bu gündəyəm. Ağlıma gətirəndə ki, sən onu götürüb aparacaqsan, az qalıram elə həmin an canımı tapşırım. Fikirləşirəm ki, onu aparandan sonra burada qala bilmərəm, səfərə çıxıb dünyanı dolaşaram, bəlkə, haradasa özümə bir əlac taparam.

İndi ki soruşdun mənim halımı,
Mən də sənə həqiqəti dedim və halımdan səni agah etdim».

Hamid bunu deyib yenə də hönkürüb ağladı. Hamidin bu halını görən atlı dilləndi: «İndi ki sən belə əzab çəkir, bu hala düşürsən, bir halda ki sənin həyat bağın, ürək çırpıntın, aldığın nəfəs bu gözələ bağlıdır, sənin əmin qızın mənə halal ola bilməz. Bir halda ki sən ona bu qədər aşiq olub, bu qədər bağlanmısan, mən ondan imtina edib, sənə bağışlayıram». Bu sözləri eşidən Hamid özünü atlının ayaqlarına atdı və sevindiyindən huşunu itirdi. Vəziyyətin belə şəkil alması atlını da həyəcanlandırdı, o, üzündəki niqabını açıb Hamidin başını qaldırıb dizləri üstə qoyub onun saçlarını sığallayıb, göz yaşlarını silməyə başladı. Hamid özünə gəlib gözlərini açdıqda başının üstündə əmisi qızını-öz halal zövcəsini gördü. Qız Hamidi qucaqlayıb dedi: «Sakit ol, mənəm, sənin zövcən, əminin qızı. Məni bağışla, görünür, çox dərinə getdim, amma istəyirdim sənin sevgində əmin olam və indi, buna tam əmin olduqdan sonra qəlbimlə sənə mənsubam və sənə söz verirəm ki, ömrümün sonunadək canla-başla hər şeydə sənə itaət edəcəyəm».

Məsələnin nə yerdə olduğunu başa düşən Hamid qızı bərk-bərk qucaqladı. Sonra qız Hamidə bunları danışdı: «Mən böyüyüb həddi-buluğa çatanda bildim ki, səninlə deyikliyəm və mənim ürəyimdə bir eşq alovlanmağa başladı, mən xəyalımda səni canlandırıb, sənə aşiq olmuşdum. Sonra mənə sənin avara, nadürüst həyat tərzinin sədaları gəlib çatdı. Onda mən öz adamlarıma səni güdməyi tapşırdım. Onlar

mənə sənin atdığın bütün addımlar haqqında məlumat verirdilər. Sənin atandan qalan bütün mirası dağıtmağını, mal-mülkü, imarətləri, qalaları, torpaq sahələrini və ümumiyyətlə, hər şeyi satlığa çıxardığını biləndə öz adamlarımı bazara göndərdim. Mən onlara kifayət qədər qızıl verdim ki, sənin satdıqlarını yarı qiymətə, dəyərdəyməz alsınlar və sənə söz versinlər ki, onların pullarını qaytaranda öz malını, mülkünü geri ala bilərsən. Mənim adamlarım bütün bu müddət ərzində səni nəzarətdə saxlayırdılar. İş o yerə gəlib çatdı ki, sən heç gündəlik çörək pulu belə əldə edə bilmədin və «üzdəniraq dostların» səni içirib zibilliyə atdılar və orada oğrular sənin paltarlarını oğurladılar. Bəli, onda da mənim adamlarım sənə nəzarət edirdilər. Nəhayət, iş o yerə gəlib çıxmışdır ki, sən özünlə anana adi paxla ilə çörək belə tapa bilmirdin. Sən yardım üçün öz işrət yoldaşlarına müraciət edəndə onlar sənə ikrah hissi ilə arxalarını çevirib, səni ağır vəziyyətdə atdılar. Mən onda qorxdum ki, sən bu vəziyyətə dözməyib ya özünə qəsd edərsən, ya da buraları tərk edib çıxıb gedərsən, mən isə nakam qalaram. Bir gün mənə ağlıma gələn ən dəhşətli fikrimin gerçəkləşmək üzrə olduğunu çatdırdılar. Dedilər ki, Hamid şəhər darvazalarından çıxmış, buraları tərk etmək fikrindədir. Bunu eşidəndə bütün vücudum əsdi, ürəyim çırpındı, canımda taqətim qalmadı və bu etdiklərimdən başqa çıxış yolu tapmadım. Atımı minib, üzümə niqab bağlayıb, bir az da qızıl götürüb özümü sənə çatdırdım. Mənim atı necə çapıb, özümü sənə necə çatdırdığımdan heç xəbərim də olmamışdır. Nəhayət, səni çay sahilində tapdıqda nəfəsimi dərdim. O gündən bu günədək işlətdiyim bütün fəndlərin məqsədi səni indiki bu halına gətirib çıxarmaq idi. İndi isə heç bir şeyin fikrini etmə, mən ömrümün axırınacan sənin qulluğunda duran kənizinəm. Mən özümlə elə bir var-dövlət, qızıl-gümüş, ləl-cavahirat gətirmişəm ki, gündə min dinar belə xərcləsən, ömrümüzün sonunadək artıqlaması ilə kifayət edəcəkdir. Səndən bircə istəyim var; bunda sonra keçmiş, üzdəniraq yoldaşların kimi nalayiq, nacins, nanəcib insanlarla oturub-durma».

Zövcəsini diqqətlə dinləyən Hamid mat qalmışdır və onun zövcəsinə olan məhəbbəti birə min qat artmışdır. O, zövcəsini

qucaqlayıb bütün vücudu ilə Allahına min şükürlər etdi. Onlar xoşbəxt, firavan bir ömür sürdülər. Allah-təala onlara çoxlu övlad payı verdi. Onlar bu dünyada bir-birlərinə böyük məhəbbət bəxş etdilər, uca Allah isə onların o dünyasını verdi!

*Bu hekayətin bir başqa şəkli və onun davamı*

Bir başqa mənbədə belə nəql edirlər ki, zərgər Xalidin oğlunun adı Hamid deyil, Mənsur imiş. Onu sahildə tapıb çox böyük yardımlar edən, onu ölümdən qurtaran, yenidən mal-mülk sahibi olmaq üçün əlindən gələni əsirgəməyən isə Harun ər-Rəşidin dayısı Cəfər Haşiminin qızının təlimi, tədrisi, tərbiyəsi ilə məşğul olan misirli lələsi idi. Zərgər Xalidin oğlu Mənsur düz yola düşüb, səhvlərini düzəltdikdən sonra doğru-dürüst yola çıxıb satdıqlarını, payladıqlarını geri alıb, hər şeyi bərpa etdikdən sonra atını minib çayın sahilinə gedir və görür ki, xilaskarı artıq onu gözləyir. Mənsur ona yaxınlaşıb ehtiramla salam verir. Atlı onun salamını qəbul edib, işlərinin necə getdiyi haqqında geniş, hərtərəfli məlumat alır və sonda deyir: «İndi isə gəl mən səni xanımın və həm də yetişdirməmin hüzuruna aparım. Biz dünən sənin haqqında, sənin iradən haqqında söhbət edirdik».

Mənsur minnətdarlığını bildirir və onlar yola düşürlər. Bir qədər getdikdən sonra onlar Cəfər Haşiminin şəhərdən bir az aralıda yerləşən sarayına çatırlar. Mənsur saraya baxıb görür ki, bu elə möhtəşəm, izdihamlı saraydır ki, başını qaldırıb yuxarıya baxanda buludların içində gizlənən günbəzlərini seçmək mümkün olmur. Quş quşluğu ilə uçub bu sarayın başına qona bilməzdi. Sarayın divarları mərmərdən, darvazaları Dəməşq bürüncündən idi. Sarayın girəcəyində nökərlər və xidmətçilər sıra ilə düzülmüşdürlər. Lələ Mənsura dedi ki, onu burada gözləsin, gedib tez də qayıdacaqdır. Mənsur onu gözlədiyi müddətdə sarayın möhtəşəmliyini, gözəlliyini seyr edirdi. Bu vaxt pəncərələrdən biri aralandı və Mənsur orada dayanmış bir ağlasığmaz gözəllikdə, heç bir tərifə gəlməz nəciblikdə, heç bir yaraşıqla müqayisə edilməz füsunkarlıqda huri –mələk görür. O, doğan günəşdən, gecəni işıqlandıran gümüş aydan gözəl idi. Onun sərv qaməti, ürəkyaxan ədası heç bir tərifə, təsvirə sığa bilməzdi.

Biçarə Mənsur bu gözəlliyin qarşısında az qala huşunu itirmişdir. O, özünü elə itirmişdir ki, harada olduğunu, buraya nəyə görə gəldiyini unutmuşdur. Mənsur burada çaşqın halda durub qalmışdır. Elə bu vaxt lələ də gəlib çıxır. O, özü ilə gətirdiyi çox nəfis bir dəst paltar və min dinar qızılı Mənsura uzadıb deyir: «Üzrlü bil, xanım bu gün səni qəbul edə bilməyəcəkdir, qonaqları çoxdur. Sən sabah səhər buraya gələrsən, mən sənə nə edəcəyini deyəcəyəm».

Lələnin verdiyi paltar və dinarları götürərək Mənsur gözlərindən qanlı yaş axıdaraq, ürəyi yaralı, ağlı qarışıq, bütün vücudu sıxılmış halda evinə qayıdır. O, otağına keçib üzünü bir küncə çevirib hönkür-hönkür ağlamağa başlayır. Mənsurun anası, qulluqçular, xidmətçilər onun başına yığışıb bu halının səbəbini soruşurlar. Mənsur onlara başının ağrıdığını söyləyir və bütün gecəni göz yaşları içərisində keçirir. Səhər açılar-açılmaz Mənsur evdən çıxıb saraya yollanır. O, saraya çatıb gözünü dünən o pərini gördüyü pəncərəyə dikir. O, düz bir saat gözləyir. Bu vaxt sarayın qapısından bir qarı çıxır. O, Mənsuru görüb gülümsəyir və yenidən içəriyə keçir. Bir azdan həmin pəncərə yenə də açılır və Mənsur on dörd günlük aya bənzəyən o huri-mələyi görür. Mənsur qızı görüb başını aşağı salır, nitqini itirir. Qız isə ona, onun bu halına baxıb gülürdü. Mənsur bir az özünə gəldikdən sonra özündə güc tapıb çətinliklə başını qaldıra bildi. Qız da, nəhayət, barmağını dişləyib pəncərədən aralandı. Bunu görən Mənsur yenə də haldan-hala düşdü və yerindəcə məyus halda qaldı. O bu vəziyyətdə düz günortayacan qaldı. Artıq bütün camaat küçələrə tökülmüşdü. Zavallı, biçarə, eşqin odunda yanıb kül olmuş, Şirinin eşqindən dərdə düşmüş Fərhad kimi çarəsiz qalmış Mənsur yenə də evə yollanmalı oldu. O, oğlunu ağlayan Yaqub kimi yenə bir küncə çəkilib göz yaşları tökdü. O, yenə də bütün gecəni göz yaşları içərisində keçirib səhər açılar-açılmaz evdən çıxıb saraya yollandı. Saraya yaxınlaşanda gördü ki, o pəri pəncərənin qarşısında əyləşib və onun ay camalı sanki bütün dünyaya işıq saçır. Qız Mənsuru görən kimi qalxıb ona təzim etdi və sonra isə əli ilə işarə etdi. Bu xoşbəxt anların təsirindən Mənsur ağlını itirmişdir və qızın ona elədiyi işarənin mənasını belə anlaya bilməmişdir, amma bir azdan

qapı açıldı və dünənki qarı gəlib Mənsurun əlindən tutub içəriyə apardı. Qarı Mənsuru bir gözəl otaqda əyləşdirib ona şərbət gətirdi. Mənsur şərbəti içib minnətdarlığını bildirdi. Onda qarı dedi: «Bil ki, bu saray Harun ər-Rəşidin dayısı Cəfər Haşimiyə məxsusdur. Onu da bil ki bütün Şamda, Hicazda ondan mötəbər adam yoxdur. Sənin pəncərədən gördüyün o qız Cəfər Haşiminin gözünün ağı-qarası bircə dənə qızıdır. Cəfər Haşiminin ondan başqa övladı yoxdur və o bütün idarəçiliyi qızına həvalə etmişdir. Burada hamı ancaq ona tabedir. Mən isə Cəfər Haşiminin qızının süd anası, dayəsiyəm. Mən ona südüm ilə canımın qanını yedirmişəm, göz bəbəyim kimi bəsləmişəm. Bizim xanımın mənim kimi yüzlərlə qulluqçusu, xidmətçisi vardır. Bu qızın gözəlliyi dillə təsvir olunmaz dərəcədədir. Onun gözəlliyi haqqında dastanlar bütün ətrafa yayılmışdır. İraqdan, Şamdan, Hicazdan və başqa yerlərdən gələn bir çox adlı-sanlı, şanlı-şöhrətli əyanlar bu gözələ elçi düşmüşlər, amma Cəfər Haşimi qızını heç kəsə verməyəcəyini söyləmişdir, çünki o, qızını verərsə, yaşaya bilməz. İndi isə artıq bir müddətdir ki, bu qız bir könüldən min könülə sənə aşiq olmuş və sənin eşqindən yanıb yaxılır. O, uzun müddət sənə olan hissini gizli saxlayırdı, amma bilirsən ki, bıçaq sümüyə dirənəndə mümkün olmur. Qız çarəsiz qalıb ürəyini mənə açmışdır. Mən bunu eşidəndə bu işin mümkünsüz olduğunu anladım və hər bir vəchlə bu məhəbbəti onun ürəyindən silməyə çalışdım, amma heç cür buna nail ola bilmədim. Onda mən sənin arxana güdükçülər qoydum. Onlar sənin ən kiçik xətalarını belə mənə çatdırırdılar. Mən sənin sürdüyün həyat tərzi haqqında məlumatların hamısını ona çatdırırdım, amma onlar da qıza təsir etmirdi. Mən onu sənə olan məhəbbətinə görə o qədər qınayıb, o qədər danlamışdım ki, bir gün eşitdim ki, qızcığaz özünə qəsd eləmək istəmişdir. Bundan xəbər tutanda mən öz münasibətimi dəyişməli oldum və ona dedim: «Sən ürəyini üzmə, özünə qıyma, mən əlimdən nə gəlirsə, edəcəyəm ki, sən kamına çatasan». Bundan sonra məcbur oldum, bütün bunları onun tərbiyəçisi, müəllimi misirli lələyə danışdım. Lələ bu xəbəri eşidəndə qəzəblənib özündən çıxdı və dedi: «Sən mümkün olmayan və həm də abırsız, namussuz şeylərdən danışırsan. Sən bilirsən ki, bu

işin sonu yoxdur». Sonra məni yenə dinləyib, düşünüb anladı ki, artıq iş-işdən keçmişdir və yeganə çıxış yolu qıza kömək etməkdir. Beləliklə, biz bu işdə əlbir olduq və qıza dedik ki, biz ona kömək etməyə hazırıq. Biz ona söz verdik ki, əlimizdən gələni edəcəyik ki, sən haqq yoluna gələsən. Biz sənin dəyər-dəyməzinə satdıqlarının hamısını özümüz aldıq, sənin bütün addımlarını, hərəkətlərini izləyib nəzarət etdik, sənin ac-susuz günlərinin şahidi olduq və hər dəfə bunları xanıma çatdıranda çalışırdıq ki, ona ümid verək, sənin o rəzil həyat tərzindən əl çəkib dürüst yola qayıdacağına inandıraq. Nəhayət, sənin çarəsiz halda şəhəri tərk etmək, sonra isə özünə qəsd etmək dərəcəsinə gəlib çıxmağından da xəbər tutduq. Bu xəbərlər bizə çatdıqda qız dözməyib lələyə bir az qızıl verib sənin ardınca yolladı. Ondan sonra biz yavaş-yavaş, addım-addım sənin düz yola qayıdıb, keçmişdəki ad-sanını qaytarmaq üçün çalışmağını, işləməyini nəzarətə aldıq, səni düzgün istiqamətləndirib, dürüst işlərlə məşğul olmağa yönəltdik. Belə-belə sən itirdiyin var-dövləti də, ad-sanı da yenidən qazana bildin, amma unutma ki, bütün bunlara görə sən dünyanın ən gözəl, ən ağıllı və ən varlı qızına – mənim yetirməmə borclusan. Sən bilməlisən ki, o, indi də səni dəlicəsinə sevir. İndi de görüm sənin fikrin nədir?»

Qarının söylədiyi bu hekayəti dinlədikdən sonra Mənsurun ürəyindəki eşq daha da alovlandı. Mənsur o qıza əvvəlkindən daha çox, min dəfə, yüz min dəfə çox aşiq oldu. Onun gözləri doldu və dedi: «Anam, mən onu onun sevgisindən min dəfə artıq bir eşqlə sevirəm. O huri-mələyi görəndən bəri ağlımı itirmişəm, bəzən mənə elə gəlir ki, bu dəqiqə məhv olacağam. Mən kiməm ki, nə kəramət sahibiyəm ki, belə bir nadir inci olan gözəl mənə aşiq olsun?! Əgər o məni özünə qul, nökər götürsə belə, mən özümü ən bəxtəvər insan bilərəm və canımı ona fəda edərəm».

Dayə dedi: «Nə olar, bugünlük bəsdir, indi dur evinə get. Sən hər gün səhər sarayın qabağına gəl, mən çalışıb sizin məsələni yoluna qoyacağam». Mənsur soruşdu: «Neçə gündür ki, lələni görmürəm, xeyirdirmi?» Dayə dedi: «O, Şama getmişdir, ya sabah, ya da birigün qayıtmalıdır». Onlar otağı tərk edib qapıya sarı getdilər. Elə

qapıdan çıxırdılar ki, kənizlərdən biri qaçaraq özünü onlara çatdırdı və dayənin qulağına pıçıldadı: «Xanım tapşırdı ki, bu bir dəst paltar və bu bir kisə qızıl Mənsura çatdırılsın və onun adından üzrxahlıq edilsin». Dayə onları götürüb Mənsura verdi, Mənsur isə təzim edib torpağı öpdü və dedi: «Heç bir ağzı dualı kəs bizim şahzadənin tükənməz xeyirxahlığının qarşısında minnətdarlığını ifadə etmək üçün xeyir-dua edib, mədhlər söyləməyə qadir deyildir. Mən şahzadəmizə bu qədər əziyyət verdiyim üçün xəcalət çəkirəm. Ümidim bircə onadır ki, Allah-təala ömrümün sonunacan şahzadəmizin xəcalətindən çıxmaq fürsətini məndən əsirgəməz və mən onun borcundan çıxıb üzümü onun ayaqlarının altındakı torpağa sürtərəm». Sonra Mənsur bir daha təşəkkürünü bildirib evinə yollandı.

Evə gəldikdə o, otağına çəkilib xahiş etdi ki, onun yanına heç kəsi qoymasınlar, onu narahat etməsinlər. Mənsur başını dizlərinin üstünə qoyub, çiyinlərinə düşmüş ağır intizar yükünün altında acı göz yaşları axıdaraq bir küncdə oturdu.

Elə ki səhər açıldı, dünyanı işığı ilə aydınladan günəş qızıl şüalarını ətrafa sərdi, Mənsur yaralı, əldən düşmüş bir quş kimi başını dizlərindən qaldırıb ayağa qalxdı. O, dünən ona bəxş edilmiş paltarı əyninə geyinib sevgilisinin sarayına yollandı.

Saraya çatanda Mənsur gördü ki, ətrafda heç kəs yoxdur. O elə hazırlaşırdı ki, saraya daxil olsun, birdən gördü ki, lələ at üstündə saraya doğru gəlir. Mənsur ona tərəf qaçıb salamlaşdı və sual dolu baxışlarını ona dikdi. Lələ onun salamını alıb, sorğu-suala tutdu və sonda soruşdu: «Səhərin gözündən burada nə edirsən?» Mənsur dedi: «Səni axtarıram, axı neçə gündür ki, səni görə bilmirəm». Mənsurun bu cavabı lələnin xoşuna gəldi və o dedi: «Burada gözlə, indi gəlirəm».

Lələ bunu deyib saraya daxil oldu, çox keçmədi qayıdıb Mənsurun əlindən tutub onu da içəriyə apardı. O, Mənsuru sarayın ən xəlvət otaqlarından birinə apardı. Mənsur ətrafa baxıb gördü ki, bu çox incə zövqlə bəzədilmiş bir zaldır və gözəlliyi ilə, bəlkə də, cənnətdən də üstün olar. Otağın divarları qızılla, mina ilə işlənmişdir, yerə çox nəfis ipək xalılar döşənmişdir, otağın hər küncündə balaca bir yüksəklikdə fil sümüyündən və xurma ağacından son dərəcə

gözəl hazırlanmış qoltuqlu kətillər düzülmüşdür. Bu kətillərin bütün küncləri qızıl və qiymətli daşlarla işlənmişdir. Zalın ortasında ağ mərmərdən tikilmiş möhtəşəm bir hovuz var idi. Lələ Mənsuru bu kətillərdən birinə əyləşdirib çıxıb getdi. Bir qədər keçdikdən sonra Mənsur gördü ki, gözəlliyi ilə onu məst etmiş, ağlını başından almış huri-mələk qızılgül ətri saçaraq, nazlı, ədalı yerişlə ona tərəf gəlir.

Başındakı tül örpəklə o qızıl hovuza tərəf gedirdi,
Cənnət pəriləri həsəddən hönkürüb ağlayırdı.

Mənsur qızı görəndə gözləri qaraldı, ağlı başından çıxdı, o, yerində donub qaldı və sonra huşunu itirdi. Onun üzünə gülab səpdilər və yavaş-yavaş özünə gətirdilər. Mənsur yerdən sıçrayıb qızın ayaqlarına düşdü. Qız onun qolundan tutub qaldırdı. Onlar qucaqlaşıb sevinc göz yaşları tökdülər. Gənclər bir az sakitləşib özlərinə gələndə lələ dedi: «Oğlum, bil ki, Şamın, İraqın, Hicazın çox padşahları, şahzadələri bu huri-mələyin üzünü, heç olmasa, yuxuda görməyin həsrətindədirlər. İndi ki uca Allah onun qismətinə səni yazmışsa, sən gərək ona layiq olasan, xoşbəxtlik şərabından məst olmayasan. Əgər sən özünü dürüst aparıb, həddini aşmasan, mən əlimdən gələni edəcəyəm ki, siz hər gününüzü xoş gün keçirəsiniz, yox mənim dediklərimə əməl etməsən, elə edəcəyəm ki, siz bir daha heç vaxt görüşməyəsiniz». Mənsur dedi; «Ey mənim xilaskarım! Allah məni nalayiq, nadürüst əməllərdən qorusun! Mənə ilahi gözəlliyə malik olan bu gözəli seyr etmək belə yetər!»

Mənsur ən ağır andlar verdikdən sonra lələ ilə dayə onları baş-başa qoyub getdilər. Onlar gedən kimi gənclər qucaqlaşıb, yerlərini rahatladılar və hər biri bildiyi, eşitdiyi əhvalatlardan, öz başlarına gələnlərdən danışmağa başladılar. Onlar söhbət etdikcə bir-birlərinə daha çox aşiq olur, daha çox bağlanırdılar.

Qızın naz-qəmzəsi, şirin-şəkər sözləri, can alan xumar gözləri Mənsurun ürəyindəki eşqi daha da alovlandırırdı. Mənsurun gözəl, təmkinli rəftarı isə qızı valeh edirdi. Bir az sonra dayə onlara əl-üzlərini yuyub sərinləmək üçün gülab və içmək üçün şərbət gətirdi. Şahzadə qız dedi: «Dayə, atam bu gün axşamacan ovda olacaqdır,

izin ver, biz bir az da deyib-gülüb vaxt keçirək». Dayə ilə lələ gülüşdülər və öz razılıqlarını verdilər. Lələ göstəriş verdi ki, gənclər üçün şərbətli-şərablı bir süfrə açsınlar. İki sevgili ləbləbidən yeyib, meydən içib məst oldular. Onlardakı gənclik, həyat eşqi, eşqlərinin nəşəsi meyin nəşəsinə qarışmışdır. Onlar bir anlığa sərməst oldular. Onda şahzadə qız buyurdu ki, ona ud versinlər. Qız udu götürüb bir gözəl eşq qəzəli oxudu. Mənsur onun sağlığına badə qaldırıb bərbəti götürdü və eyni bəhrdə, eyni ölçüdə bir başqa qəzəl oxudu.

Gənclər axşamacan deyib-güldülər, çalıb, qəzəllər oxudular, bir-birlərinə olan sevgilərindən söz açdılar və nəhayət, yorulub əldən düşdülər. Dayə gəlib Mənsuru öz otağına apardı, qız isə öz otağına keçdi.

Səhər açılanda Mənsur oyandı və hələ də özünün o füsunkar mələyin cazibəsində olduğunu hiss etdi. Ona elə gəlirdi ki, hələ də sevgilisinin yanındadır. Mənsur hətta ətrafa baxıb qızı görmək niyyətində idi. Elə ki dayə Mənsurun oyandığını bildi, durub onun yanına getdi. Onunla salamlaşıb, əhvalını soruşduqdan sonra ona öz otağında yer saldığı üçün üzrxahlıq elədi. Mənsur dedi: «Sən mənə de görüm xanım necədir, gecəni necə keçirmişdir? Sən ondan necə gecələdiyini soruşmusanmı?» Dayə dedi: «Mən hələ səhərdən onu görməmişəm, səbir et, gedim ondan sənə xəbər gətirim». Dayə qızın yanına gedəndə gördü ki, o çox bikefdir və acı-acı ağlayır. Dayə onu ağlayan görüb yaxınlaşdı, onu qucaqlayıb dedi: «Dayənin min canı olarsa, mini də sənə fəda olsun! Nə baş vermişdir? Sənə nə olmuşdur?» Qız dedi: «Mən dünənki günün nəşəsindən hələ də ayıla bilmirəm. Bilsəm ki, atam bu gün qayıtmayacaqdır, ürəyimin məlhəmini, qəlbimin sirdaşını getməyə qoymazdım». Dayə dedi: «Gözümün işığı! Sənin onun ürəyində nələrin baş verdiyindən xəbərin yoxdur. Onun sənə olan eşqi sənin eşqindən min dəfə artıqdır. O, indi mənim otağımda həyəcanla səndən xəbər aparacağımı gözləyir. Mən öyrənim görüm atan bu gün də ovdan qayıtmayacaqsa, onu sənin yanına gətirim, əylənib gün keçirin».

Şahzadə qız bunu eşidəndə çox sevindi. Elə bu vaxt içəriyə lələ daxil oldu və dedi: «Qızım, indicə atanın yanından çapar gəlib dedi ki, atan əlavə bir həftəlik ehtiyatın da hazırlanıb göndərilməsini əmr

etmişdir». Bu şad xəbəri eşidən kimi qız yerindən sıçrayıb sandığından bir qiymətli, gözəl xələt çıxarıb lələyə bağışladı. Sonra isə üzünü dayəsinə tutub dedi: «Dayə can, indi sənin əlində bir bəhanən qalmadı ki, bizim görüşməyimizə mane olasan. Səni and verirəm o uca Allaha, tez get, onu buraya gətir!»

Lələ ilə dayə o saat gedib Mənsuru gətirirlər. Sevgililər bir-birlərinə sarılırlar. Onlar baş-başa verib, meydən içib, qəzəllərdən oxuyub özləri üçün gözəl bir məclis qururlar. Mənsur udu kökləyib bu şeiri oxuyur:

Nəşəli günlərimiz, tələsməyin ötməyə,
Biz əvəzindən mütləq çıxarıq.
İntizar, mənim qəlbimdən uzaq dur,
Sevən qəlblər səninlə bir araya gələ bilməz.
Taleyimiz bu gün bizə qarşı rəhmlidir,
Tələs, gəl, xoşbəxt anları yaşayaq.
Bütün dərdim tüstü kimi dağıldı,
Qəlbimdəki zülmətlər işıqlandı.
Gəl, ey nazlı yarım, tez gəl,
Ey könlüm məlhəmi, yanımda ol!

Beləliklə, iki sevgili bir həftə sərasər baş-başa verib günlərini sevinc, nəşə, əyləncə içində keçirirlər. Dayə ilə lələ isə olanlardan heç kəsin xəbər tutmaması üçün əllərindən gələni edirlər.

Həftənin tamamında Cəfərin ovdan qayıtması xəbəri gəlir. Sevgililər acı göz yaşları axıdaraq bir-birlərindən ayrılırlar. Lələ Mənsuru dal qapıdan yola salır, o da dərd içində evinə yollanır.

Mənsur evə gəldikdə görür ki, anası onun üçün ağlaşma mərasimi qurmuş, qulluqçular, xidmətçilər, evdə olanların hamısı ağı deyib göz yaşı tökürlər. Elə ki ev adamları Mənsurun qayıtdığını gördülər, onlar əvvəlkindən də bərk ağlayıb-qışqırmağa başladılar, amma bu göz yaşları artıq sevinc göz yaşları idi. Onların hamısı Mənsurun ayaqlarına düşdülər və anası dedi: «Ay gözümün işığı, harada idin, başına nə iş gəlmişdir? Biz sənin dərdindən az qala ölmüşdük, elə ki sağ qaldıq....»

Mənsur dedi: «Tanıdığım hörmətli bir zadəgan gözləmədən məni kənddəki evinə dəvət etdi. Doğrusu, tez qayıdacağımı düşünmüşdüm, amma məndən asılı olmayan səbəblər üzündən ləngiyəsi oldum». Ev adamları çox sevindilər, amma Mənsurun ürəyindən qanlar axırdı. O heç kəsə nələrin olub, nə hadisələrin baş verdiyindən danışmadı. Mənsur bir müddət hər gün səhər eşqindən yanıb-yaxıldığı sevgilisinin sarayının qarşısına, ona yaxın olanlardan birini, ya dayəni, ya lələni görmək həvəsi ilə getsə də, onlardan heç birini görə bilmirdi.

Bu minvalla on gün keçdi. Günlərin bir günü Mənsur dərd-qəm içində evində oturmuşdu. Birdən gözlənilmədən lələ ilə dayə onun evinə buyurdular. Mənsur onları görəndə çox sevindi, onların qarşısına çıxdı və sevgilisinin hal-əhvalını soruşdu. Onlar da öz növbələrində qızın salamını yetirib Mənsurun qarşısına iki dəst qızıl saplarla işlənmiş paltar qoydular. Burada əbadan, köynəkdən tutmuş əmmaməyəcən hər bir şey var idi. Onlar dedilər: «Bu paltarları şahzadə öz əlləri ilə işləmişdir və o bizə tapşırıb ki, sənə onun sözlərini çatdıraq: «Ey zalım, bivəfa dost, artıq düz on gündür ki, sən bizi üzünə həsrət qoymusan. Necə oldu, belə tez bizi unutdun?»

Bu sözləri eşidən Mənsur acı-acı ağlayıb dedi: «Allah xətrinə belə sözlər deməyin. Bir Allah bilir ki, mən zavallı, sevgilimdən ayrı nə acılar çəkirəm. Onun həsrətindən mən hər gün yüz dəfə Allahdan ölüm istəyirəm və Allah eləməsin, əgər bizim ayrılığımız bircə gün də uzansa, mən məhv olacağam. Mən hər gün dəfələrlə o sarayın qapısına, sizdən birinizi görmək, o huri-mələkdən xəbər tutmaq niyyəti ilə gedib gözləyirəm, amma hər dəfə kor-peşman qayıdıram. Bu gün birinci dəfədir ki, evdə qalmışam, həmdəmim isə dərd, qəm, kədərdir». Sonra Mənsur sevgilisinin onun üçün öz əlləri ilə qızıl saplarla işlədiyi paltarları min dəfə öpüb, əyninə geyindi. Mənsur öz minnətdarlığını bildirmək niyyəti ilə dayə ilə lələyə gözəl hədiyyələr verdi. Hər birinə bir dəst nəfis paltar, iki yüz dinar bağışladı, onlara verdiyi əziyyətə görə üzrxahlıq elədi.

Lələ Mənsura dedi: «Cəfər bu gün ucqar kəndlərindən birinə gedir. Sən hazır ol, qaranlıq düşən kimi ikimizdən birimiz gəlib səni saraya – şahzadənin yanına aparacağıq».

Bu sözləri eşidən kimi Mənsur onların ayaqlarına düşdü və şad xəbərə görə birinə firuzə, o birinə yaqut qaşlı qiymətli üzük bağışladı. Dayə ilə lələ sağollaşıb getdilər. Onlar saraya gələndə dayə şahzadəyə Mənsurun halından danışdı. Qız eşitdiklərinə dözməyib göz yaşları axıtdı, amma dayə ilə lələ onu sakitləşdirib, axşam Mənsuru saraya – onun yanına gətirəcəklərini dedilər.

Belə də oldu. Həmin gün axşam düşəndə Cəfər adamları ilə şəhəri tərk etdi. Dayə ilə lələ isə Mənsuru saraya gətirdilər. Bu dəfə sevgililər beş unudulmaz, nəşə dolu, sevgi dolu gün keçirdilər. Altıncı gün, Cəfərin qayıtma vaxtına yaxın sevgililəri yenə də ayırdılar.

Mənsur dərd içində evə qayıtdı. O ki qaldı o huri-mələyə, Cəfər elə yoldan birbaşa qızının yanına keçdi və qızının gül çöhrəsində qəm-kədər izi gördü. O narahat olub fikirləşdi: «Qızıma nə olmuşdur, görəsən?» Cəfər ürəyində min cür fikir götür-qoy edə-edə, ağlına hər cür fikir gətirə-gətirə otağına keçdi. Günlərin bir günü Cəfər qızı ilə söhbət etmək niyyəti ilə onun otağına getdi, amma qızını orada tapa bilmədi. Onda o, qızını otaq-otaq gəzib axtarmağa başladı və onu dayəsinin otağında tapdı. Dayədən başqa lələ də orada idi. Onlar oturub şahzadə qızın acı göz yaşları axıda-axıda danışdıqlarına qulaq asırdılar. Qız öz dərdini, intizardan, xiffətdən boğulduğunu danışırdı. Dayə ilə lələ isə hər bir vəchlə onu sakitləşdirmək istəyirdilər. Qapının arasından onların bu halını görən Cəfər qəzəbli halda otağına qayıtdı. Ona elə gəlmişdir ki, dayə ilə lələ qızının xətrinə dəymişlər və indi də onu ovundurmağa çalışırlar. Cəfər həmin dəqiqə əmr etdi ki, dayə ilə ləlini onun yanına gətirsinlər. Onlar içəri keçən kimi Cəfər qəzəblə qışqırdı: «Siz nə hünərlə mənim gözümün ağı-qarası, yolunda bütün mal-mülkümü, var-varidatımı qurban etməyə hazır olduğum qızımın xətrinə dəymisiniz?» Cəfər onlara, özlərini təmizə çıxarmaq üçün, bir kəlmə söz belə deməyə imkan vermədi və əmr etdi ki, hərəsinə əlli qırmanc vurub, bir il müddətinə zindana atsınlar. O zavallıları qalaya aparıb zindana atdılar. Daha sonra Cəfər qızını yanına çağırıb ona nəvaziş göstərib, könlünü aldı. Qız isə atası heç nədən şübhələnməsin deyə özünü ələ alıb təmkinli olmağa çalışırdı. Bir saat atasının yanında olduqdan sonra qız

izin istəyib öz otağına keçir. Qız otağında tək qalan kimi hönkürüb ağlamağa başladı. O o qədər ağladı ki, huşunu itirib yerə yıxıldı.

Özünə gəldikdən sonra o öz bəxtindən, taleyindən gileylənməyə başladı: «Ey mənim qara bəxtim, qara taleyim, nəyə görə mənə qarşı amansızsan? Mənsurun həsrəti mənə az idimi ki, dayəmlə lələmi də məndən uzaqlaşdırdılar? İndi mən nə edim, necə edim? Kim mənə Mənsurdan xəbər gətirəcəkdir? Ey mənim qara bəxtim, niyə sən mənimlə elə rəftar edirsən ki, sanki dünyanın bütün cinayətlərini mən törətmişəm? Dayəmlə lələmin günahı nədir ki, sən onlara qarşı bu qədər haqsızlıq edirsən? Ah, indi onlar mənim yanımda olsa idilər, dərdimi, qəmimi onlarla bölüşərdim. İndi mən başıma nə çarə qılım, bu vəziyyətdən necə çıxım?» Şahzadə qız bu sözləri deyə-deyə göz yaşlarını axıdırdı. Bu arada zavallı Mənsur isə artıq neçə gün idi ki, heç kəsi görüb sevgilisindən xəbər tuta bilmirdi. Sevgilisinin həsrətindən, intizarından mum kimi əriyib zəif düşmüşdür. Hamı elə düşünürdü ki, Mənsur xəstələnib və ona görə arıqlayıb əldən düşmüşdür. İki ay sərasər Mənsur hər gün səhər açılanda sarayın qapılarına qaçır və kimi isə görmək ümidi ilə axşam düşənəcən orada gözləyirdi, amma o heç kəsi görüb, heç kimdən bir şey öyrənə bilmirdi. Bir dəfə o dözməyib saraya keçir və dayənin otağına girir. Mənsur dayənin harada olduğunu soruşur. Cavabında ondan soruşurlar: «Onu nəyə görə axtarırsan?» Mənsur deyir: «O, hərəmxana üçün bir neçə dəst parça almışdır, pulunu hələ də verməmişdir». Xidmətçilər deyirlər: «Səninki gətirmədi, iki ay əvvəl Cəfər qəzəblənib dayə ilə lələni zindana atdırmışdır».

Bu cavabı eşidən Mənsur söyüd yarpağı kimi əsir, gözləri qaralır, dünya ona dar gəlir. Əlini dünyadan üzmüş Mənsur kor-peşman evinə qayıdır. O, dərddən xəstələnib yatağa düşür. Onu hər şeydən çox dayə ilə lələnin zindana atılması narahat edirdi. O fikirləşirdi: «Bəlkə, şahzadənin atası bizim görüşməyimizdən xəbər tutub və bu səbəbdən onları cəzalandırmışdır». Bu fikirlərdən Mənsurun halı daha da pisləşirdi. O, gündən-günə haldan düşür, saralıb-solurdu. Həkimlər nə qədər əlləşsələr də, nə qədər dava-dərman yazsalar da, onların heç biri nəticə vermirdi. Bu əzab, bu ağrı-acı ilə düz bir il

keçdi. Bu bir ildə şahzadə qızın vəziyyəti Mənsurun halından da ağır olmuşdur.

Günlərin bir günü Cəfər qızına baş çəkir və fikir verir ki, qızının vəziyyəti hər dəfə daha qəribə, daha pis olur. O dözməyib deyir: «Gözümün işığı, sənə nə olmuşdur? Sən nəyə görə gündən-günə saralıb-solursan, nə səbəbdən səni hər dəfə daha çox arıqlayıb zəifləmiş görürəm? Dərdin nədir? Mənə doğrusunu de». Qız hönkürüb ağlayır və deyir: «Mən necə yaxşı ola bilərəm ki, bu boyda sarayda yaxınlıq, sirdaşlıq edəcək bir dostum, rəfiqəm yoxdur. Ürəyim dayəmlə, lələmə isinmişdi, onlarla danışıb, onlarla bölüşürdüm, onları da sən zindana atdırdın. Sən bununla mənə ən ağır zərbə vurdun. Hələ qəribəsi ondadır ki, bu qədər dərdin, yükün altında mən sağam, ölməmişəm».

Qızının bu cavabına Cəfər məəttəl qalır. O gülür və deyir: «Ay qızım, mən onların sənin xətrinə dəydiklərini fikirləşib zindana atmışam. Bir halda ki sən onların qayıdıb gəlməklərini istəyirsən, bundan asan, bundan sadə nə ola bilər ki, təki sənin üzün gülsün». Bunu deyən kimi Cəfər əmr edir ki, dayə ilə ləlæni zindandan çıxarsınlar, onlara qiymətli pal-paltar, hərəsinə bir kisə qızıl versinlər və şahzadə qızın yanına göndərsinlər.

Onları görən kimi qız sevincindən ağlayıb boyunlarına sarıldı. Sonra onlar oturub başlarına gələnlərdən danışdılar. Dayə ilə lələ qızdan Mənsuru soruşanda o dedi: «Siz zindana düşdükdən sonra ondan heç bir xəbər ala bilməmişəm». Dayə ilə lələ dedilər: «Bəlkə də Allahın hökmü ilə bizim günahımız olmadan zindana düşməyimiz bir xoş təsadüf oldu. Biz düz bir il öz sirrimizi qoruyub saxlaya bildik və indi bir Allah bəndəsi bu sirri bilmir».

Qız onlardan, özü də bilmədən onların həbs olunmasının səbəbkarı olduğu üçün üzr istədi və durub hər birinə bir dəst çox qiymətli xələt və hərəsinə yüz dinar verdi. Sonra qız dedi: «Elə bu saat gedib mənə Mənsurdan bir xəbər gətirə bilsəniz, çox yaxşı olar».

Dayə ilə lələ durub Mənsurun evinə yollandılar və gördülər ki, o, ölüm ayağındadır. Mənsur artıq elə bir vəziyyətdə idi ki, heç bir şey hiss etmirdi. O artıq dünyadan əlini üzmüş, ətrafda baş verənləri nə

görür, nə eşidirdi. Mənsuru bu vəziyyətdə görən dayə ilə lələ ağızlarını onun qulağına yaxınlaşdırıb dedilər: «Ey Mənsur, bizik, sənin dostların, sirdaşların. Biz sənə sevgilindən xəbər gətirmişik». Mənsur bu sözləri eşidib dərindən bir ah çəkdi, çətinliklə özünü toplayıb dönməyə məcbur etdi. O, gözlərini açıb dayə ilə lələni gördü, amma nə qədər çalışsa da, cəhd etsə də, bir kəlmə söz deyə bilmədi. O, baxışları ilə onları yaxınına çağırdı və başını onların əllərinə qoydu. Dayə o saat şərbəti götürüb ona içizdirdi. Bundan sonra Mənsur yavaş-yavaş özünə gəlməyə başladı və güclə bu sözləri dedi: «Niyə belə oldu? Niyə sizin mənim yanıma gəlməyiniz bu qədər çəkdi?» Dayə ilə lələ ona başlarına gələnləri danışdılar. Mənsur ağlayıb dedi: «Mən uzun müddət hər gün sarayın qarşısına gedib sizdən xəbər gözləyirdim, görəndə ki, artıq sizdən bir xəbər ala bilmirəm, gizlincə dayənin otağına keçdim və orada olanlardan sizin zindana salındığınızı öyrəndim. Elə orada haldan-hala düşdüm, qızdırmam qalxdı, o gündən evə gəlib yatağa düşdüm və o gündən bu günədək günlərimin haradan gəlib, haraya getdiyindən bixəbərəm». Dayə ilə lələ dedilər: «Artıq sevin, özünə gəl! İndən belə bütün işlərin yoluna düşəcəkdir». Bu vaxt Mənsurun anası qapının arxasından oğlunun danışdığını eşitdi. O, qonaqların ayaqlarına düşüb yalvardı: «Bəlkə, siz İsa peyğəmbər ilə Məryəm anasınız? Siz oğlumu diriltdiniz! Axı artıq bir il idi ki, o, gözlərini açmırdı, başını balışdan qaldırmırdı». Mənsur anasından xahiş etdi ki, qonaqların hər birinə yenə xələt, hədiyyələr versin. Dayə ilə lələ isə öz növbələrində ona təşəkkür edib indən belə özünə yaxşı baxıb, yaxşı yeyib, güc toplamağını tövsiyə etdilər və dedilər: «Sən güclü-qüvvəli, xoş əhval-ruhiyyəli olmalısan ki, sevgilinin yanına gedib ona qovuşa biləsən. O səni əvvəlkindən də çox sevir və sənin həsrətindədir». Mənsur dedi: «Baş üstə, əmrə müntəzirəm!»

Bundan sonra dayə ilə lələ saraya qayıtdılar. Onlar gördüklərini, Mənsurun halını şahzadəyə təsvir etdilər. Qız bir xeyli ağlayandan sonra sakitləşib Mənsura bir kisə qızıl göndərdi və tapşırdı ki, dava-dərmanlarını, həkimlərini əskik etməsin ki, tez bir zamanda sağalıb qüvvə toplaya bilsin, pulların qalanını isə sədəqə kimi paylasın.

Mənsur bundan sonra yeməyinə, içməyinə, müalicəsinə xüsusi fikir verməyə başladı və hiss etdi ki, vəziyyəti gündən-günə daha yaxşı olur. Artıq tam sağalıb yaxşı olandan sonra bir gün dayə onun yanına gəlib dedi: «İki gündən sonra Cəfər adamları ilə cümə namazına gedəcəkdi, onlar axşamacan orada olacaqlar və sarayda kimsə olmayacaqdır. Ona görə də sən bu fürsəti əldən vermə, şahzadənin yanına gəl». Mənsur dayənin bu sözlərini eşidib qızılgül kimi açdı. Cümə günü dayə yenə də Mənsurun yanına gəlib dedi: «Biz səni qapıda gözləyəcəyik. Elə ki gördün, Cəfərgil məscidə yollandılar, qapıya yaxınlaş, amma gecikmə. Bax yenə də deyirəm, bizi gözlətmə, səni gözləyəcəyik, vaxtında gəl». Dayə bunları deyib qayıtdı. Mənsur isə fikirləşdi: «Neçə vaxtdır yataqdayam, durum əvvəlcə hamama gedim, yuyunum, yüngülləşim, sonra saraya yollanım». Amma necə deyərlər: «Sən saydığını say, gör fələk nə sayır». Mənsura elə gəlirdi ki, o hər bir şeyi nəzərə alıb işlərini düzənləmişdir, amma tale onun işlərini tamamilə başqa səmtə salır.

Mənsur nökərlərinə əmr edir ki, hamam bağlamasını hazırlasınlar və aparıb hamamçıya versinlər. Özü isə ata minib onların ardınca gedir. Yolda o, təsadüfən bir yoldaşı ilə rastlaşır. O, Mənsurdan soruşur: «Səhərin gözündən hara gedirsən?» Mənsur deyir: «Çoxdandır ki, hamama getmirdim, indi ora yollanıram». Yoldaşı deyir: «Dostum, qardaşım, bu gün cümə günüdür, hamamda tünlük olacaqdır, sən isə xəstəlikdən təzə durmusan, tab gətirə bilməzsən. Gəl gedək bizə, mən həyətdə yaxşı, geniş bir hamam tikdirmişəm. Bir camadar - dəllək çağırtdıraram, çimib, təraşlanıb rahat olarsan». Mənsur deyir: «Yox, artıq nökərlərim mənim hamam bağlamamı da aparmışlar». Mənsur bu yolla canını qurtarmaq istəyirdi, amma onun yoldaşı əl çəkmədi və dedi: «Narahat olma, bizdə sənə lazım olan hər bir şey vardır». Bu sözlərin müqabilində Mənsur artıq heç bir şey deyə bilmədi və onunla getmək məcburiyyətində qaldı. Mənsur tələsirdi ki, tez bir zamanda hamama girib işlərini görüb qurtarsın və saraya yollansın. Mənsur tez hamama girir, dostu isə nökərini camadar-dəlləyin dalınca göndərir. Mənsurun bəxtindən camadar dalınca gedən nökərin qarşısına Yusif çıxır. Yusif də camadar-dəllək idi. Nökər

onu götürüb evə gətirir. Sonra nələr olub, nələrin baş verdiyini isə növbəti hekayətdə biləcəyik.

### *Hamamda Mənsurla Dəllək Yusifin arasında baş verənlər haqqında*

Mənsur düz bir saat hamamda camadar gözlədi. Nəhayət, hamama bir adam, daha doğrusu, bir vəhşi məxluq ildırım kimi daxil oldu. Bu məxluqun başı qazana, ağzı mağara ağzına oxşayırdı. Sütun kimi uzun boyu var idi, boynu dağ keçisinin boğazı kimi piy qatlarının içində itirdi. Abırsız gözləri göy muncuğa bənzəyirdi, enli, yastı burnu, eybəcər, qalın qaşları, uzun, enli qulaqları, sarı, seyrək saqqalı onu daha da çirkin göstərirdi. Sinəsi tavaya, dodaqları dəvə dodağına bənzəyirdi. Çiyinləri balaca, qarnı sallaq, ayaqları hacıleylək ayaqları kimi nazik və uzun idi. Əynində cırıq-cındır paltarlar var idi. Bir sözlə, onun görkəmi o qədər iyrənc, o qədər eybəcər idi ki, Mənsur bu adamın daxilən də çox alçaq, rəzil, şərəfsiz, nanəcib, nankor, namərd, nakişi, ədəbsiz, mənəviyyatsız, əxlaqsız, tərbiyəsiz, nadürüst, paxıl, xəbis, xain, bədniyyət, bədxislət olduğuna tam əmin idi. Bu eybəcər adam qoltuğunda bağlaması Mənsura tərəf gəldi. Onu görən zavallı Mənsur yerindən dik atıldı, bütün vücudu tir-tir titrədi. Ona elə gəldi ki, hamama şeytan girmişdir və sakitcə dedi: «Bismillah Rəhmani-r-Rəhim. Əlhəmdülillah Rəbbi-l-Aləmin».

Mənsuru görən kimi dəllək dedi: «Ey Allahın qulu, ey Allahın qulundan yaranmış qul, salamlar olsun sənə! Ey Allahın bir damla mayedən yaratdığı, doğulduqdan sonra bir parça əskiyə bükülmüş qulu, salamlar olsun sənə! Ey Allahın bu dünyaya gəlmək üçün zülmətlərdən keçmiş qulu, salamlar olsun sənə!

Anandan doğulub göz açanda,
Yəqin ki, kin zəhərindən içmisən.

Çəkin və təkəbbürlü olub mənim dediklərimdən qəzəblənmə. Mənim kimi imanlı, inamlı, müdrik dindar - Yusif ibn Xoşquy sənə - kafirin oğluna – Allah sizin kökünüzü yer üzündən kəssin - adın,

atanın adı ilə deyil, «Allahın qulu» deyə müraciət etdiyimə görə qəzəblənmə. Sənə «Ey dövrümüzün günəşi, alilərin alisi, böyüklərin böyüyü Fəxrəddin nəslinin gözü, İslamın tacı, möhtərəm Mənsur ibn Xalid»,- deyə müraciət etmədiyim üçün hirslənmə. Nəbadə özün haqqında yüksək düşünüb belə fikirləri ağlına gətirmə. Heç vaxt özün haqqında yüksək fikirdə olma, çünki əks halda bu rəftarınla Allahın qəzəbinə gələrsən. Bil ki, təkəbbürlü, təşəxxüslü olsan, Allah-təala tərəfindən min cür sınağa çəkilərsən. Allah iddialı, təkəbbürlü olanları sevməz. O ancaq şükür edənləri sevər və onlara bu dünyada da, o dünyada da rəhm edər. Unutmusan ki, min illərlə Allaha itaət etmiş iblis bir dəfə təkəbbürlük edib: «Sən məni oddan, Adəmi isə gildən yaratmısan» – deməyi ilə Allah tərəfindən necə lənətlənmişdir?! Məgər sən alçaq Harunun, rəzil Fironun, səfil Hamanın başlarına gələnlərdən xəbərsizsən? Məgər sən bilmirsən əzazil Nəmrudun başına nələr gəlmişdir? Bunların hamısı özlərini təkəbbür odunda yandırıb, küllərini təşəxxüs yelinə sovurmuşdurlar. Allah səni bu təkəbbürdən, təşəxxüsdən qorusun! Mənim mübarək qədəmlərim sənə düşərli olsun! Allah mənim mübarək qədəmlərim və Məhəmməd peyğəmbərin xətrinə sənə və ailənə uğurlar versin!»

Yusif bunların hamısını birnəfəsə deyib düyünçəsini yerə qoyub əynini dəyişdi. Mənsur Yusifin danışdıqlarının, dediklərinin təsiri altında donub qalmışdır. O fikirləşdi ki, bu dəllək-camadar ev sahibinin yaxın qohumlarındandır və dedi: «Ey möhtərəm şeyx, sən, yəqin ki, ev sahibinin qohumlarındansan, yoxsa, mən yanılıram?» Dəllək qəşş eləyib güldü və dedi: «Doğru deyirlər:

İnsanlar bu sözü nahaq demirlər;
Gözdən uzaq olsun, könüldən iraq.

Yox, bu sənin günahın deyildir, zəmanənin günahıdır ki, haqqı qoyub nahaqqı tutur, əsil-nəcabəti olanı hər şəydən məhrum edir, alçaq, rəzilləri isə ucaldıb yüksək məqamlara çatdırır. Sən məgər unutmusan ki, mən bütün su hövzələrinin sahibi, bütün hamam əhlinin şanı-şöhrətiyəm?! Mənim adım dillərdə dastan olmuş, məni bütün kəndlərdə, şəhərlərdə tanıyırlar. Mən müəllimlərin müəllimi,

ustaların ustası, müdriklərin baş tacı, zahidlərin böyüyü, dəlləklərin fəxri, zəvvarların atası – dəllək Yusifəm! Mən bütün adlı-sanlı, şanlı-şöhrətli, hörmətli-izzətli kişilərin başını, üzünü təraş edən Yusifəm! Sənə dəllək lazım olanda dəllək oluram, aqil lazımdırsa, aqil oluram, zahid lazım olanda, zahid oluram. Sənin kim olduğunu bilmirəm və bilmirəm Allahın yanında hansı savab işin olmuşdur ki, sənə mənim kimi bir ali insanla rastlaşmağı nəsib etmiş və sənin başını təraş etməyi mənə həvalə etmişdir. Sən ev sahibinə də dərin minnətdarlığını bildirməlisən ki, sənə mənim kimi bir aqil ilə görüşmək üçün şərait yaratmışdır. O ki qaldı mənim onunla qohumluq əlaqələrimə, əgər o mənim qohumum olsa idi, heç min dinarın müqabilində belə bura təşrif buyurmazdım. Bəli, xoşbəxtlik atı özü sənə tərəf çapmışdır.

Dəlləyin bu boş, mənasız cəfəngiyatından Mənsurun başı ağrıdı. O, dəlləyin dayanmadan zəvzəmə məharətinə məəttəl qalmışdır. Mənsur fikirləşdi: «Ay Allahım, bir başqası bir dəfəyə min söz desə idi, canını elə oradaca tapşırardı, bu isə bir dəfəyə min dəfə min söz dedi, amma vəziyyətinə heç təsir etmədi». Nəhayət, Mənsur dəllək Yusifin sözünü kəsib dedi: «Ey şeyx, mən anladım. Mən anladım ki, sən aqillərin aqili, müdriklərin müdrikisən. Allah qoysa, mən vaxtı gələndə sənin xəcalətindən layiqincə çıxaram, amma indi, rica edirəm üzümü tez təraş et, çünki hamam çox istidir, mən isə uzun müddətdən sonra təzəcə yataqdan qalxmışam, istidən ürəyim sıxılır».

Yusif dedi: «Baş üstə». Sonra o ulduzları müşahidə edən alətini götürüb çıxdı və bir saatdan sonra qayıtdı. O dedi: «Mən çıxdım ki, göyü seyr edib sənin saç-saqqalının təraş edilməsi üçün ən münasib saatı müəyyənləşdirim. Hal-hazırda Günəş dolça bürcündə, Zöhrə səyyarəsinin qarşısındadır. Bundan belə bəlli olur ki, sənin saç-saqqalının təraş edilməsi üçün ən münasib vaxt axşam saat yeddidir».

Mənsur hirsləndi və dedi: «Ay şeyx, mənim ulduzlarla, göylə nə işim var? Sən münəccimsən, yoxsa dəllək? Gəl, tez elə, mənim saçımı, saqqalımı qırx, üzümü təraş elə, işim başımdan aşır».

Dəllək Mənsurun üstünə qışqırıb dedi: «Həddini aşma, yerini bil. Unutma ki, sən öz nökərinlə danışmırsan. Sən məni min cür minnətlə buraya gətizdirən ev sahibinin yaxın qohumu olmasa idin,

elə bu saat durub çıxıb gedərdim. Amma mən bunu etməyəcəyəm, çünki mənə neçə vaxtın başında bizə təşrif buyurmuş adamı qoyub getmək yaraşmaz».

Dəlləyin bu sözlərindən Mənsur pərt oldu, özündən çıxmasına peşman oldu və öz-özünə dedi: «Bu zəvzək elə bilir ki, mən ev sahibinin qohumuyam. Sonra gedib dostuma məndən şikayət etsə, xəcalətdən ölərəm». Mənsur dəlləyə dedi: «Ey mötəbər ağsaqqal, sən mənim atam yerindəsən və sənə olan ehtiramım sonsuzdur. Mən çox rica edirəm, mənim başımı, üzümü qırx, mən gedim, çünki bura çox istidir».

Yusif ülgücünü götürüb, daşa çəkib itilədi, Mənsurun alnına düşən saçları kəsib dayandı və mahnı oxumağa başladı. Çox məşhur bir mahnını oxuyub bitirdikdən sonra Mənsurdan soruşdu: «Sən bu mahnını eşitmisənmi, onun hansı üslubda olduğunu bilirsənmi? Bu musiqinin adı «Rahəvidi»dir. Mən həm də musiqi bilicisiyəm. Çalançılar, xanəndələr hər hansı musiqinin üslubunda, tərzində çətinliklə rastlaşanda mənə müraciət edirlər, məndən kömək istəyirlər və mən də onları yönləndirirəm. Mən çəngdə, dəfdə, rübabda, neydə, bərbətdə çalmağı bacarıram». Dəllək bunu deyib bərbətini çıxardı və çalıb oxumağa başladı. Bunları görən Mənsur artıq əlini hər şeydən üzmüşdür. O öz-özünə dedi: «Ay Allah! Mən başıma nə çarə qılım, artıq çoxdan günorta olmuşdur, mən hələ də heç bir işimi görməmişəm və hələ də buradayam. Ah! Kaş heç mən buraya gəlməzdim, bu zəvzəyin murdar üzünü görməzdim». Sonra Mənsur üzünü dəlləyə tutub ürkək səslə dedi: «Ey möhtərəm aqil, mən anladım ki, sən elmin, sənətin bütün sahələrində ustasan və təkrarolunmazsan. Allah möhlət versə, mən sənə olan minnətdarlığımı başqa cür göstərəcəyəm, sənə hər cür qulluqlar, xidmətlər göstərəcəyəm, amma indi çox xahiş edib yalvarıram mənə böyüklük edib saçımı, saqqalımı qırx ki, durum gedim, yoxsa artıq istiyə dözə bilmirəm».

Yusif dedi: «Narahat olma! Hələ istidən heç kəsə ziyan dəyməmişdir. Bilirsən ki, Allah dünyanı istidə yaratmışdır və dünya dörd ünsürdən ibarətdir, yəni: sudan, oddan, havadan, torpaqdan və bunlardan biri digərindən bircə damcı az və ya çox olarsa, tarazlıq pozu-

lar, çox dərdlər peyda olar, dünya öz çəmini itirər. Eyni zamanda, hamıya bəllidir ki, ölümdən başqa hər şeyin çarəsi və hər dərdin öz dərmanı vardır. Belə bir məsəl var: «Ölümdən baºqa hər şeyin əlacı vardır». Onu da bilməlisən ki, hər nəticənin öz səbəbi vardır. Müdriklər demişdir: «Hər bir şey bir başqa şeyin nəticəsidir». Mən indi sənin üçün xüsusi bir iksir hazırlayacağam. Sən onu gündə iki-üç dəfə qəbul etməlisən. Sonra görəcəksən ki, bütün azar-bezarın getmişdir».

Mənsur dilləndi: «Ey mötəbər şeyx! Sənin bütün dediklərinə əməl etməyə hazıram, amma yalvarıram, birinci mənim saçımı, saqqalımı qırx, sonra nə işlə istəsən, məşğul olarsan».

Dəllək yenə ülgücünü götürüb bir xeyli onu itilədikdən sonra Mənsurun saçından yenə bir damcı qırxdı. Dəllək yenə də ülgücünü yerə qoyub üzünü Mənsura tutub dedi: «Ey Mənsur, mən sənin bəxtinə, taleyinə mat qalmışam. Axı sən bütün var-varidatını, mal-mülkünü yandırıb havaya sovurdun. İş o yerə gəlib çatmışdır ki, bir tikə çörəyə də möhtac idin. İndi isə əvvəlkindən də çox mal-mülkün, var-dövlətin, qızıl-gümüşün vardır. Sən bunları necə əldə edə bildin? Sən ya xəzinə tapmısan, ya bir varlı adamı öldürüb malına yiyələnmisən, ya da ki oğurluq-quldurluq edib bu qədər var-dövlət sahib olmusan. Hər nə isə, sən mənə həqiqəti de, mən də sənə indən belə necə yaşayıb, necə rəftar edəcəyini başa salım ki, nə əmir, nə hakim, nə qazı səndən şübhələnməsin. Özün bilərsən, istəmirsən demə, amma əgər mənə doğrusunu deməsən, başına çox işlər gələcəkdir».

Bu sözləri eşidən Mənsur artıq dözməyib özündən çıxdı, od püskürdü və qışqırdı: «Ay bədbəxt, ağlını başına yığ, gəl saçımı, saqqalımı qırx, ya da səni and verirəm arvadına, bacına rədd ol çıx get, məni boşboğazlığından azad et. Ay alçaq kafirin oğlu, sənə nə, mənim işlərim necə gedir? Sənin nəyinə gərək, mən nə işlərlə məşğul oluram? Ay kafir, niyə burnunu mənim işlərimə soxursan? Rədd ol, çıx get buradan, dəymə mənim başıma, başqa vaxt saçımı, saqqalımı düzəltdirərəm».

Mənsurun hirslənib özündən çıxmasını görən Yusif heç bir şey olmamış kimi sakitcə dedi: «Oğlum, hirslənib özündən çıxma. Mən bilirəm, indi doğru, dürüst sözlər hamıya acı gəlir, ağıllı məsləhət

bədxahlıq kimi qarşılanır və nəticə etibarı ilə heç kəs cürət edib həqiqəti söyləmir, amma mənim sənə olan münasibətim o qədər səmimidir ki, onu sözlə ifadə etmək belə çətindir, mən sənə öz fikirlərimi ürəkdən deyirəm. Niyyətim saf olmasa idi, heç vaxt səni sorğu-suala tutmazdım. Hamı bilir ki, mən səni doğma oğlum kimi sevirəm, amma sənə görə adıma, ünvanıma nalayiq sözlərin deyilməsini də istəmirəm. Rəhmətlik atan vaxtı ilə mənə çox yaxşılıqlar etmişdir, əlimdən tutmuşdur, buna görə işlərinlə maraqlanmağı özümə borc bildim. Əgər, Allah eləməmiş, sözlərim, suallarım sənə yersiz göründüsə, mən bir daha ağzımı açıb səndən bir şey soruşmaram». Yusif bunları birnəfəsə deyib ülgücü götürdü. Ülgücü əlində oynada-oynada bir neçə dəfə «Əlhəmdülillah Rəbbi-l-aləmin» və bir neçə başqa kəlmə təkrar edə-edə ülgücü yenə də yerə qoyub dedi: «Qardaşoğlu, bədahətən ürəyimə bir nəzm gəldi, onu sənə oxumaq istəyirəm:

Hansı Allah bəndəsi belə şərəfə layiq ola bilərdi?
Alimlər və aqillər çıxmaq şərti ilə.
Həm alim, həm dəllək, həm qanalanam,
Mən şair, xanəndə, münəccim, həm də loğmanam.

Dəllək bunları deyib rəqs eləməyə başladı və sonra Mənsura dedi: «Hə, de görüm, necədir? Möhtərəm dəllək Yusifin bədahətən yazdığı şeir parçasını bəyəndinmi? Onu da deyim ki, rəqsin bütün incəliklərini, bütün fəndlərini məndən yaxşı bilən olmaz. İstəsən, sənə də öyrədə bilərəm».

Hiddətə gəlmiş Mənsur ürəyində dedi: ««Əlhəmdülillah Rəbbi-l-aləmin! Mən düşdüyüm bu vəziyyətdən necə çıxım?! Ay Allah! Niyə taleyim məni bu axmaq, səy, boşboğaz, avara kafirə rast saldı? Düz bir il əzab, zülm içində qovruldum, indi nəyə görə sevgilimə qovuşmaq imkanı yarandığı bir vaxt tale qarşıma bu nadanı, nacinsi, nankoru çıxardı? Bu kafir də bəxtimi, taleyimi öz çirkli ayaqları altında tapdayaraq məhv edir». Sonra Mənsur özünü toplayıb üzünü dəlləyə tutub dedi: «Ey möhtərəm atam, sənə heç bir elmdə, heç bir sənətdə tay ola bilməz. Mənim nəzərimdə nə Əbu Hənifə, nə Şafei səninlə müqayisəyə gələ bilməz, çünki sən onlardan çox üstünsən və

mən ancaq səni bir alim kimi qəbul edirəm. Şeirinə gəldikdə heç Ünsüri ilə Sənai belə şeirlər yarada bilməmişlər. Uca Allah səndən heç bir şeyi əsirgəməmişdir. Sənin biliyin, savadın, istedadın, məharətin sonsuzdur. İndi səni and verirəm bütün bunları sənə bəxş edən o uca Allaha, mənim saçımı, saqqalımı qırx, mən çıxıb gedim».

Yusif dedi: «Ey Mənsur, tələsmə. Sənin tələsməyin məndə şübhə oyadır. Birincisi, düzünü de görüm, niyə və haraya tələsirsən? Əgər namaza tələsirsənsə, bil ki, məndən imanlı olmayacaqsan. Yox, əgər kiminləsə sözləşib görüşəcəksənsə, bil ki, cümə namazından əvvəl dünyəvi işlərlə məşğul olmaq günahdır, belə ki, yazılmışdır: «Ancaq namaz bitdikdən sonra yer üzərinə dağılışın»*. Yox, əgər çox vacib bir işin varsa, bil ki, vacib işlər tələsik görülməz. Peyğəmbərimiz – Allah ona yar olsun! Allahın salamları olsun ona! – demişdir: «Səbri olan qalib gələr». Oğlum, tələsmə, tələsmək şeytandandır, səbir etmək Allahdan. Bu yeddi qat göyü, bu xalı kimi sərilmiş yeri Allah bircə «OL!» kəlməsi ilə yaratmışdır. Amma onu da unutma ki, O, yeri-göyü, bütün bunları bir anda yaratmamışdır, düz yeddi günə yaratmışdır. Məgər O istəsə idi, bunları bir göz qırpımında yarada bilməzdi? O ona görə bunları tələsmədən, səbirlə yaratdı ki, qulları da ona baxıb səbirli olsunlar. İndi sən də tələskənliyi tərgit, səbirli ol. Ondansa, mənimlə bölüş, görəcəyin işi mənə de, mən də sənə məsləhət verib, doğru-dürüst yol göstərim. Allah-təala kitabında deyir: «İşlərini məsləhətli gör». Peyğəmbər isə - Allahın salamı olsun ona! – deyir: «Ağıllı adamlarla məsləhətləş». Sən hələ cavansan, doğrusu, hələ lap gəncsən, mən isə dünyagörmüş, müdrik qocayam və bilirsən ki, sənə qarşı məhəbbətim, qayğım sonsuzdur. Müdriklər demişlər:

> «Gənc görünməz nöqtəni bir güzgüdə seçirsə,
> Qoca o nöqtəni daş üzərində seçər, lazım gələrsə».

Mənsur dəlləyin zəvzəkləməyini dayandırıb qətiyyətlə dedi: «Ay Yusif, məndən istədiyin nədir? Niyə məni sorğu-suala tutub, işlərimə qarışırsan? Səni and verirəm, anana, bacına, ya saçımı, saqqalımı qırx, ya da rədd ol, çıx get buradan. Sən artıq məni cana gətirdin.

Gah həkim olursan, gah münəccim, gah xanəndə olursan, gah şair, gah nə bilim, nə olursan. Ay nacins kafir, əl çək məndən. Lənət olsun məni buraya gətirənə, sənə calayana». Mənsur bunları deyib ayağa qalxdı. O, başını yuyub getmək istəyirdi, amma Yusif əl çəkmirdi. O dedi: «Ağam, sən məni bundan min dəfə artıq tənə edib danlasan, söyüb alçaltsan belə, incimərəm. Bilirsən niyə? Bunun dörd səbəbi vardır: birincisi, sən bu gün mənim və ev sahibinin qonağısan. Qonağın isə hər axmaqlığına dözmək lazımdır və onun səviyyəsinə düşüb axmaqlıqla cavab vermək olmaz, çünki onda qonaq inciyə bilər, bu isə yolverilməzdir. İkincisi, sən mənim qardaşımın oğlusan və sənin atanın mənim üstümdə çox haqqı vardır. Sənin qeydinə qalmaq mənim borcumdur. Üçüncüsü Allah-təala öz müqəddəs kitabında deyir: «...Xəstənin, mərəzin günahı olmaz»*. Sən də uzun xəstəlikdən təzə durmusan, beynin zəifləmiş, heç bir şey anlamırsan, qarnın, mədən də boş olduğu üçün zəifləyib əldən düşmüsən. Buna görə də sənin nazını çəkib, sənə qayğı göstərməliyəm. Dördüncüsü isə, sən ana əlində böyümüsən, ata tərbiyəsi görməmisən. Ona görə də sən əsilsiz, nəsilsiz, rəzil, alçaq bir axmaqsan. Sənə elə gəlir ki, sən əsillinəcabətli, xətir-hörmətli birisən, çünki var-dövlətin, mal-mülkün var, amma unutmusan ki, bir tikə quru çörəyə möhtac olan günlərin də olmuşdur. Ac-susuz zibilliklərdə yatdığın günləri nə tez unutdun? Bil ki, onların heç biri izsiz getməmişdir. Məhz bunlara görə sən belə nanəcib, rəzil adamsan və buna görə mən sənə cavab verib, səndən incimirəm».

Bu sözləri eşidən Mənsur bərkdən gülüb dedi: «Allahım, mən canımı bu kafirdən necə qurtarım?!». Mənsur Allaha yalvararkən Yusif yenə də ülgücü götürüb onun saçından bir az qırxdı və dedi: «Oğlum, səni and verirəm öz canıma, başıma! Bilirəm ki, mənim canım, başım sənin üçün müqəddəs kitab qədər qiymətlidir, de görüm hamamdan sonra hara gedəcəksən? De, mən də sənə kömək edim». Mənsur qışqırdı: «Ay kafir, ay köpək, sənə nə hara gedirəm? Belə cəhənnəmə gedirəm! Sənin bu boş, mənasız zəvzəmələrin ciyərimi param-parça etdi. Ya tez elə, işini gör qurtar, ya da mən ölürəm artıq.

Səni and verirəm anana, bacına, arvadına rədd ol, çıx get, məni rahat burax».

Yusif tez ülgücü götürüb işə başladı, amma çox keçmədi, yenə dayanıb dedi: «Heyif, sənin əslindən, nəslindən, nəcabətindən. Heyif, atanın varından, dövlətindən, malından, mülkündən». Bir azdan, bir qədər düşünəndən sonra Yusif bərkdən danışmağa başladı: «Heyif, heyif, ananın gözəlliyi, təravəti, şuxluğu qalmamışdır. Sənin anan gözəlliyi, qaməti, ədası ilə göz qamaşdırardı. Ona həsrətlə baxan gözlər kor olurdu. Onun iştirak etdiyi məclislərdə xanəndələr susur, rəqqasələr dayanardı. Onun qabağında heç bir xanəndə, heç bir rəqqasə cürət edib mahnı oxuyub rəqs etməzdi, çünki onun səsinə, rəqsinə tay yox idi. O hər kəsə meylini salmırdı. O, əyanlarla, əmirlərlə oturub dururdu, amma mənə olan münasibəti tam başqa idi. O məni hamıdan seçirdi. Biz sənin ananla çox xoş günlər keçirmişik. Bizim gəncliyimiz bir yerdə keçmişdir».

Mənsur özünü zorla ələ alırdı. O, əlini başına qaldırıb yoxlamaq istədi ki, vəziyyət nə yerdədir və başa düşdü ki, başının bir yarısı qırxılmış, o biri yarısı olduğu kimi durur. Çıxılmaz vəziyyətdə olan Mənsur fikirləşdi: «Oh, mən nə edim, necə edim? Bu saat durub bu nanəcib, nacins kafirin üzünü, başını nə dağıdardım?! İstəyir, ev sahibinin qohumu olsun, istəyir, ev sahibi də Tanrının qardaşı olsun, bu köpəyi elə döyərdim ki, qiyamətədək bu gününü unutmazdı». Mənsur bir qədər fikirləşdikdən sonra öz-özünə dedi: «Amma mən bu vəziyyətdə nə edə bilərəm ki? İndi mən bu zəvzəkdən asılıyam. Bu başla, bu üzlə çölə çıxa bilmərəm. Bir başqa dəllək çağırtdırsam, uzun çəkəcəkdir, mənim isə hər dəqiqəm qızıldır. Mən nəyin bahasına olursa - olsun, bu gün yarıma qovuşmalıyam. Ona görə bir təhər gərək bu gici yola verim ki, başımı, üzümü təraş etsin, qurtarsın». Bunları fikirləşib Mənsur üzünü Yusifə tutub dedi: «Səni and verirəm Allaha, başımı, üzümü təraş elə, çıxım gedim. Söz verirəm ki, sonra səni evimizə, anamın yanına aparacağam. Siz də gənclikdə keçirdiyiniz günləri xatırlayarsınız». Bu sözləri eşidən Yusif bərkdən gülüb dedi: «Ay bic vələdüzzina, indi anan üçün araçılıq edirsən? Tfu sənə! Binamus! Mən sənə ananın sirrini ona görə açdım ki, ge-

dib onu öldürəsən, üstündən bu ləkə götürülsün. Bütün Bəsrə ananın əməllərindən xəbərdardır və hamı sənə ikrahla baxır». Mənsur dedi: «Doğru deyirsən, haqlısan, amma mən sənin hələ də anamı unutmadığını hiss etdim deyə belə bir təklif verdim. Axı sən özün o günləri həsrətlə xatırlayırdın». Dəllək dedi: «Düzdür, doğru deyirsən, mən bu qədər ömür sürmüşəm, amma heç vaxt anan kimi gözəl, qamətli, ədalı məşuqəm olmamışdır. Əgər onu günahlarına görə tövbə etməyi məcbur etsən, bəlkə, yenidən onu özümə sevgili edərəm». Mənsur dedi: «Haqlısan, doğru deyirsən. Sən anamla evlənsən, mənə böyük şərəf gətirmiş olarsan. Mən sənə ömrümün sonunacan minnətdar olaram və həyatım boyu borcundan çıxa bilmərəm, çünki sənin kimi hərtərəfli, möhtərəm, nəcabətli bir şeyx ilə qohum olmaq hər kəsə nəsib olmaz. İndi isə çox xahiş edirəm, mənim saçımı, saqqalımı qırx ki, mən də gedib işlərimlə məşğul olum».

Yusif tez ülgücü götürüb işə başladı, amma yenə balaca bir hissəni qırxıb dayandı və dedi: «Ay Mənsur, bir halda ki sən öz ayağı sürüşkən ananı mənə zorla sırımaq istəyirsən, de görüm onun üstündə nə qədər cehiz verəcəksən? Sən nəzərə al ki, mən elə-belə kürəkənlərdən deyiləm, sən toy xərcimizi, daha sonra da ömrümüzün axırınacan bütün xərclərimizi öz üzərinə götürməsən, sənin pozğun ananla evlənmərəm».

Mənsur dedi: «Hər şey dediyin kimi olacaqdır. Mən sənə istədiyin qədər və artıqlaması ilə pul verəcəyəm, səndən bircə ricam var, işini gör qurtar». Yusif dedi: «Xeyr, belə yaramaz. Mən əvvəlcə səninlə bütün şərtlərimi kəsəcəyəm, sonra işə başlayacağam. Əks halda sözümüz tutmaz, əqdimizi bağlaya bilmərik. Birincisi, sənin anan gəzəyən, pozğun qadındır. O, gündə bir kişi ilə vaxt keçirməyə öyrəşmişdir. Mənim tələbim budur ki, biz evlənəndən sonra dükan-bazar, qonum-qonşu gəzintilərinə son qoyulsun. Mənim özümə görə ad-sanım var, mən yol verə bilmərəm ki, ona ləkə düşsün. Anan bütün günü evdə oturub, ancaq mənimlə evdən çıxacaqdır. Buna razı olarsa, onunla evlənərəm».

Yusif ürəyində dedi: «Allah Əkbər! Bu lənətə gəlmiş Yusifin hirsini çəkməkdən qızdırmam qalxdı. Mən nə edim, necə edim?»

Sonra özünü bir təhər ələ alıb dedi: «Ey möhtərəm Yusif, mənim anam də, mən də sənin qullarınıq. Sən nə əmr etsən, mən canla-başla onları yerinə yetirməyə hazıram. Bircə mənim saçımı, saqqalımı qırx, qurtar».

Yusif yenə də ülgücü əlinə alıb onu daşa çəkməyə başladı və üzünü Mənsura tutub dedi: «Bilirsən, ay Mənsur, bu bülöv daşını ki görürsən, onu mənim üçün Əbu Qübeys dağından gətirmişlər. Onun yetişib, belə möhkəm və işə yararlı olması üçün mən onu uzun müddət neftdə saxlamışam. Orada - Məkkədə, Əbu Qübeys dağlarının olduğu yerdə belə daşların birinin qiyməti iki dəngədir. Zəvvarlar bunlardan alıb bütün dünyaya yayırlar. Mən bunu əldə etdiyim il çox bahalıq idi. O vaxt zəvvarlar çox idi, mal az idi, il quraqlıq keçdiyi üçün məhsulun hamısı yanmışdır. Ey Mənsur, bilirsən gedən zəvvarlardan neçəsi yolda rəhmətə getmişdir!!!»

Mənsur nərə çəkdi: «Allaha bax, imana bax, gəl mənim başımı, üzümü səliqəyə sal!». Yusif təmkinini pozmadan dedi: «Tələsmə, imkan ver sənə alətimin tarixçəsini danışım. O ülgücü görürsən, o, Həzrət Əlinin iki haçalı Zülfüqar qılıncının hazırlandığı poladdan hazırlanmışdır».

Mənsur qışqırdı: «Allaha şükürlər olsun, indi gəl mənim saçımı, üzümü qırx, çıxım gedim, görəcəyim min işim vardır». Yusif dedi: «Mən sənə demədimmi ki, məni tələsdirmə. Hə... Bax bu ülgücün poladı isə Davud peyğəmbərin dəbilqəsinin poladının çıxdığı mədəndən götürülmüşdür və bəxtəvər o kəsdir ki, onun başı bu ülgüclə qırxılır».

Mənsur dedi: «Çox gözəl, çox gözəl! Artıq namaz vaxtına az qalır, tez elə işini qurtar». Yusif dedi: «Sən yenə özünü arsız aparırsan. Mən bütün gün sənə ağıl verib, nəsə öyrətməyə cəhd etmişəm və indi də gözünü açıb, başına ağıl qoymaq istəyirəm, amma sən bunu başa düşmək istəmirsən ki, istəmirsən. Deyirsən, bundan sonra mən inanım ki, anan mənim sözümə baxacaqdır?»

Mənsur artıq elə həddə gəlib çıxmışdır ki, özünü ələ ala bilmirdi. O, qəzəblə yerindən sıçrayıb dəlləyin saqqalıdan yapışıb, onu yerə sərdi. Mənsur dəlləyi o qədər yumruqlayıb, o qədər təpiklədi ki, axır-

da Yusif huşunu itirdi. Mənsur hirsindən qışqırırdı: «Ey bic vələdüzzina köpək oğlu, sən məni çürütdün, məhv etdin. Nə qədər sənin cəfəngiyatına dözmək olar? Sən hansı cəhənnəmin dibindən çıxıb gəlmisən, sənin məqsədin mənim axırıma çıxmaqdır?» Mənsur bunları deyib, Yusifi yerdə uzanmış halda qoyub, yan otağa keçdi. Bir az keçəndən sonra Yusif özünə gəlib, o da Mənsurun olduğu otağa keçdi. Mənsur isə başını yumamış getməyə hazırlaşırdı. İçəri girən Yusif qışqırdı: «Ay atası bilinməyən bic vələdüzzina, ey atası dilənçiliklə qarnını doyuran, sən kimsən ki, səhərdən axşamacan qulluğunda duran, sənə xidmət edən, sənə ədəb-ərkan öyrədən birisi ilə belə rəftar edirsən? Mənim sənə etdiklərimin müqabilində sən məni təpikləyib döyürsən?» Yusifin zəvzəvəsini dinləyən Mənsur bərkdən güldü. Bu arada Yusif yenə də ülgücü götürüb dedi: «Gəl otur, gəl otur, saçını, başını qaydaya salım, bu görkəmdə çölə çıxa bilməzsən. Allah sənin kimi rəzillərə lənət eləsin. Rədd ol gözümdən, bic vələdüzzina, mən bir nəcib-nəcabətli əmir kimi üç dəfə «ət-talaq»,- deyib sənin əxlaqsız ananı boşayaram və heç bir qüvvə məni fikrimdən daşındırıb, onu yenidən qəbul etməyə məcbur edə bilməz. Ay nanəcib rəzil, boş yerə demirlər ki, bədbəxt doğulmuşu zorla xoşbəxt etmək mümkün deyildir. Mən bir nəcabətli adam kimi, ananla evlənib, səni də qanadımın altına almaq istəyirdim ki, sənə öz bildiklərimdən verib el-aləm içində hörmətli bir adam edim, amma nə etmək olar, uca Allahın bədbəxt yaratdığı bəndəsini xoşbəxt etmək insanın iqtidarında deyildir».

Mənsur Yusifi dinlədikcə daha bərkdən qəşş edib gülürdü. O qışqırdı: «Baş üstə! Əmrə müntəzirəm! İndi başımı, üzümü qırx və incimə məndən, sakit ol! Mən səni incitdiyimə görə beş dinar verərəm, amma yalvarıram, mənim başımı, üzümü səliqəyə sal, çıxıb gedim. Artıq bu istiyə dözə bilmirəm, həm də məni gözləyənlər vardır, işlərimi tamamlamalıyam».

Yusif soruşdu: «Səni o adamlar nəyə görə gözləyirlər? Sənin onlarla nə işin vardır?» Mənsur dedi: «Dostlarımdan biri məni evinə qonaq çağırmışdır». Yusif bunu eşidən kimi ülgücünü yerə qoyub, barmağını dişləyib dedi: «Allah Əkbər! Lənət olsun mənim işimə də,

peşəmə də! Ay əxlaqsızın oğlu, bilirsənmi ki, sənə rast gələni başıma nə bəlalar gəlib?» Mənsur soruşdu: «Başına nələr gəlib?» Dəllək dedi: «Nələr gəlməyib ki! Bundan pis nə ola bilərdi ki! Sənə görə tamam unutmuşam ki, bu gün evimə adlı-sanlı, şanlı-şöhrətli, hörmətli-izzətli dostlarım, yoldaşlarım gələsi idi. Bu gün ziyafət qurub hamını bir yerə yığmaq növbəsi mənim idi. Ocaqçı Ələq, carçı Müsk, otbiçən Şamun, təbilçi Təcək, zəhlətökən Şərib, qumbişirən Əbül Əsa, sözqoşan Cərgil, siçantutan Məsət əd-Davul, əhəng bişirən Mihrək, tərs bədxah, əyri oğru, tənbəl bəybas, xain təbilçi, qumarbaz Həllac, zəvzək pinəçi və bu kimi başqa hörmətli kişilər bu gün mənim qonaqlarım olmalı idi. Artıq günortadır, onlar məndən, mənim harada olduğumdan xəbərsizdirlər. Mən xəcalətdən onların üzünə baxa bilməyəcəyəm. Mən sabah onlara nə deyəcəyəm?». Mənsur dedi: «Doğru deyirsən. Necə olub ki, belə hörmətli, adlı-sanlı, nəsil-nəcabətli aqilləri, alimləri, müdrikləri unutmusan? İndi möhtərəm Yusif, sən tez mənim üzümü, başımı qırx, mən də sənə söz verdiyim beş dinardan başqa bir qoç və nə qədər istəsən, çörək verim ki, qiymətli dostlarına gözəl bir süfrə aça biləsən». Yusif dedi: «Əgər dediyin həqiqətdirsə, əgər sən, həqiqətən, bu söz verdiklərini mənə verəcəksənsə, onda mənə indidən girov kimi bir şey ver». Arsız, abırsız Yusif bunu deyib qurtaranda gözü birdən Mənsurun barmağındakı, Cəfərin qızının ona bağışladığı üzüyə sataşdı və yenə də dilləndi: «Bax əgər sən verdiyin sözün sahibisənsə, barmağındakı o üzüyü mənə girov kimi ver, bir də söz ver ki, mənsiz qonaqlığa getməyəcəksən. Əgər mənim şərtlərimi qəbul etsən, bu saat sənin saçını, saqqalını qırxacağam və söz verirəm ki, ömrümün sonunacan sənin qulluğunda duracağam». Mənsur dedi: «Yaxşı, yaxşı, oldu». Abırsız, həyasız dəllək o saat əl atıb Mənsurun barmağındakı yaqut qaşlı üzüyü çıxartdı və onsuz məclisə getməyəcəyinin sözünü aldı.

Sonra, nəhayət, Mənsurun saçını-saqqalını qırxıb, üzünü-gözünü səliqəyə saldı. Mənsur tez qalxıb, əynini geyinib hamamdan çıxdı. Zəli kimi yapışmış Yusif ondan əl çəkmirdi. O dedi: «Ay Mənsur, bu üzüyü, yəqin ki, sənə ya bir küçə avaralarından biri, ya da aşnalarından biri bağışlamışdır, amma o adamın adını mənə demək istəmir-

sən». Mənsur hirslə qışqırdı: «Ay kafir, sən yəqin fikirləşirsən ki, mən hələ də hamamdayam, başım da yarıyacan qırxılıb deyə hər şeyə dözəcəyəm? Allaha and olsun, bir də başını mənim işlərimə soxsan, səni alaram təpiyimin altına və ölənəcən çırparam». Yusif səsini kəsdi. Elə bu vaxt ev sahibi gəldi. Ev sahibi onlar üçün süfrə açdırıb, yemək-içmək gətizdirdi. Bir az yedikdən sonra Mənsur yeməyin qalığını Yusifə verib dedi: «Al ye, ödlən!» Bunları deyib, Mənsur oranı tərk etdi. Mənsur günə baxıb zöhr namazının da bitdiyini anladı və atını minib saraya yollandı.

Saraya çatanda Mənsur gördü ki, burada həddindən artıq çox adam toplaşmışdır və hamısı sanki bir vacib işin həlli ilə məşğul idi. Hamı nə isə axtarır, nə isə araşdırır, o baş-bu başa gedib-gəlirdilər. O nə qədər çalışsa da, nə baş verdiyini öyrənə bilmədi və pərt-pəjmürdə evə qayıtdı. Bu arada Yusif yeməyini bitirib, qalanını da xurcununa yığıb zərgərlər bazarına yollandı. Orada bütün dükanları bir-bir gəzib, Mənsurun üzüyünün kim tərəfindən düzəldiyini və kimə mənsub olduğunu öyrənməyə cəhd etdi. Nəhayət, bir gənc zərgər üzüyü tanıdı və dedi: «Bu mənim işimdir, bu üzüyü mən möminlərin əmiri Harun ər-Rəşidin dayısı Cəfər Haşiminin qızı üçün düzəltmişəm. Sən onu necə əldə etmisən? Axı o qızın camalını gün günlüyü ilə görə bilmir». Yusif dedi: «Mən şahzadənin dayəsinin əriyəm. İş ondadır ki, şahzadə bu üzükdən bir neçəsini də sifariş etmək istəyir. Mən gəldim ki, bu üzüyü düzəldən zərgəri tapım. İndi gedim, qızıl, yaqut gətirim ki, sən də işə başlayasan». Zərgər dedi: «Nə olar, mən canla-başla bu üzükdən yenə düzəldərəm». Yusif buradan çıxıb qaça-qaça Mənsurun evinə getdi. Oraya çatanda gördü ki, Mənsur pərt-pəjmürdə oturmuşdur. Yusif qapının həndəvərindən Mənsurun üstünə qışqıraraq dedi: «Ay bic vələdüzzina, bu vaxtacan etdiyin günahlar bəs eləmədi, indi də möminlərin əmirinin ailəsinə ləkə vurmaq fikrinə düşmüsən? De görüm, bəlkə, sən artıq xəlifə ər-Rəşidin dayısı Cəfər Haşiminin qızının başını aldadıb onu özünün məşuqən etmisən? Əks halda bu üzük səndə haradandır? Mənə hər şeyi olduğu kimi danış ki, sənə kömək edə bilim, yoxsa, qızın atası xəbər tutsa, səni də, bütün nəslini də məhv edəcəkdir».

Mənsur görəndə ki, Yusif Cəfər Haşiminin qızından danışır, söyüd yarpağı kimi əsim-əsim əsməyə başladı. O, sirlərinin üstünün açılmasından qorxub huşunu itirdi. Özünə gəldikdən sonra o, dəlləyin qolundan tutub evin xəlvət otaqlarından birinə apardı və pıçıltı ilə dedi: «Ay axmaq, nadan, nanəcib rəzil, nə səsini atmısan başına? And olsun sənin canına, başına, bu üzüyü almışam və sənin dediyin qızı, nəinki görməmişəm, heç onun haqqında eşitməmişəm». Yusif dilləndi: «Yenə yalan danışırsan, ay vələdüzzina, yalan danışdığın o saat üzündən bilinir. Nə olar, indi bu üzüyü götürüb onu düzəldən zərgərin yanına gedəcəyəm, oradan da onunla bərabər Cəfər Haşiminin yanına yollanacağam. Cəfər Haşimi o saat üzüyü tanıyacaqdır, şahidim də zərgər olacaqdır. Bəsdir, artıq bezdim sənin yalanlarından. Gedəcəyəm Cəfərin yanına. Qoy bilsin, bütün həqiqəti!»

Bunları deyib Yusif qapıya yollandı. Mənsur qaçıb onun qabağını kəsdi və dedi: «Sən mənə ata əvəzisən, otur, mən sənə bu üzüyü haradan əldən etdiyimi danışım». Yusif dedi: «Mənə nə danışacaqsan ki?! Mənə yer eləyən bu vaxtacan mənə öz işlərini, sirlərini danışmamağındır». Mənsur dedi: «Axı sənə nə danışım, bir halda ki xüsusi danışılası bir şey yoxdur». Yusif yenə özündən çıxıb Mənsurun üstünə qışqırdı: «Allahım! Mənə səbir ver! Mən artıq sənin yalanlarından yoruldum, bezdim. Mən sənə neçə dəfə deməliyəm ki, mənimlə bu tərzdə danışma, mənə yalan demə. And olsun Allaha, artıq mənim heç şübhəm yoxdur ki, Cəfər Haşiminin qızı sənin məşuqəndir və bu üzüyü də sənə o vermişdir. İş bu yerdədir, sən isə bunu məndən gizlədirsən». Sonra Yusif qışqırmağa başladı: «De görüm, mən bu üzüyü Cəfərin qarşısına qoyanda mənə nə cavab verəcəksən? Mənsur, gəl məndən heç nəyi gizlətmə, Cəfərin qızı o nadir incilərdən deyil ki, əlçatmaz olsun. O da adi, pozğun, əxlaqsız qızlardandır və onun sənin kimi yüzlərlə sevgilisi vardır». Yusifin dediyi bu dəhşətli sözləri eşidən Mənsur öz-özünə dedi: «Mən canımı bu alçaqdan necə qurtarım? Axı o mənim başıma hələ çox bəlalar gətirə bilər. O elə edəcəkdir ki, axırda bağrım yarılacaq, öləcəyəm». Başını itirmiş Mənsur elə ilk ağlına gələni dedi: «Ay Yusif, doğru deyirsən, bu şahzadənin bir qulluqçusu var, mən o qulluqçu ilə

görüşürəm və bu üzüyü də mənə o vermişdir». Mənsurun bu cavabı Yusifi lap özündən çıxardı və qışqırdı: «Sən işə bax! Bu gün yumurtadan çıxan cücə dünənin quşuna yuva qurmağı öyrədir! Ay Mənsur, sənin bu yalanların məni təngə gətirdi. Əgər Cəfərin qızı səni tanımırsa, bu üzüyü sənə o verməmişdirsə, dur gedək Cəfərin yanına. Üzüyü ona göstərək, olanları danışaq. Onda həqiqət üzə çıxar. Əks halda səni heç bir şey xilas edə bilməz, tək yolun həqiqəti deməkdir. Ya sən bu üzüyü oğurlamısan, ya da Cəfərin qızı sənin məşuqəndir və üzüyü sənə o bağışlamışdır». Başını itirmiş, pis vəziyyətə düşmüş Mənsur dəlləyə yalvardı: «Yusif, sən mənim dostum, qardaşımsan, gəl mən sənə otuz dinar verim, üzüyü qaytar mənə, səninki səndə olsun, mənimki məndə. Özün görürsən ki, bu üzüyün dəyəri iyirmi dinardan çox deyildir. Ondan sonra nə sən məni tanıyırsan, nə mən səni». Bu sözlərdən sonra Yusif əvvəlkindən də çox qəzəbləndi və qışqırdı: «Ay camaat, ay müsəlmanlar! Gəlin görün mənim başıma nə gətirirlər? Ey hörmətli insanlar, gəlin görün bu alçaq, rəzil möhtərəm Xəlifənin ailəsinin adını necə biabır edib, indi də mənə susmağımın müqabilində pul təklif edir! O, bayaqdan mənə deyir: «Götür bu pulu və buradan rədd ol!» Deyin görüm mən belə bir iş görə bilərəmmi? Mən necə inamıma, imanıma xəyanət edə bilərəm, onları dünyəvi həzlərə sata bilərəm? Bunu ancaq alçaq, rəzil vələdüzzinalar edə bilər. Mən bu günahın altına girib uca Allahın qarşısında durub, cavab verə bilmərəm. Onun cəzasına tab gətirə bilmərəm».

Mənsur onu sakitləşdirib dedi: «Yaxşı, yaxşı, sən mənə bircə de, məndən istədiyin nədir? Sənin məqsədin, amalın nədir?» Yusif dedi: «Mənim istədiyim budur ki, sən Cəfərin qızının yanına mənsiz getməyəsən, onun sənə bağışladığı hər bir şeyi mənə göstərəsən, onun yanına gizli gedəndə də mənə xəbər verəsən ki, sənə kömək edim, doğru yol göstərim. Mən səni mühafizə edib, qoruyacağam. Mənim çalışıb-vuruşduğum sənin üçündür. Mən çalışıram elə edim ki, başına bəlalar gəlməsin, başın dərd-bəla içində olmasın. Soruşacaqsan ki, niyə? Ona görə ki, atan rəhmətlik vaxtı ilə mənə o qədər yaxşılıq edib ki, sənin qeydinə qalmağı özümə borc bilirəm». Mənsur dedi: «Allah səndən razı olsun, Yusif! Başqasının malından sədə-

qə paylamaqdan asan bir iş yoxdur. Mən səni dinləyib, bütün əmrlərinə əməl etməyə hazıram. Al bu qızılı və mənim üzüyümü qaytar. Sən nə desən, sözündən çıxmayacağam». Yusif dedi: «Bilirəm ki, ya bu gün axşam, ya sabah səhər qızın yanına getməlisən. And iç ki, mənsiz oraya ayağını basmayacaqsan». Biçarə Mənsur məcbur olub and içdi. Ancaq bundan sonra dəllək otuz dinarı götürüb Mənsurun üzüyünü qaytardı və çıxıb getdi.

Artıq günəş qürub edirdi. Mənsur qapıları bağlayıb pərt-pəjmürdə oturdu. Mənsurun fikrində min cür dərd-sər var idi. Mənsur kafir dəlləyin ucbatından sevgilisi ilə görüşə bilmədiyi üçün özünü bağışlaya bilmirdi, Mənsur çox qorxurdu ki, onların sirləri açılar və onlar rüsvay olar. O qorxurdu ki, bütün bunlardan sonra onların xoşbəxtlikləri tar-mar olar. Bir sözlə, Mənsurun bu gecə çəkdiyi əzab bir il yataqda çəkdiyi əzabdan acı oldu.

Bəli, Yusif isə evə getdikdən sonra üzüyü qaytarmağına peşman oldu və dərhal geri qayıdıb Mənsurgilin qapısının ağzında oturdu. Mənsur keçirdiyi ağır gecədən sonra gün çıxar-çıxmaz ayağa qalxıb hazırlandı, ən gözəl paltarlarını geyindi ki, saraya yollansın, amma pəncərədən baxanda gördü ki, Yusif qapının kandarında oturub onu gözləyir. Yusif isə, nəinki Mənsuru gözləyirdi, onu olmazın nalayiq, alçaldıcı sözlərlə lənətləyirdi. O, ucadan deyirdi: «Bu nanəcib, naxələf, rəzil, köksüz, soysuz, daşürək, ağıldan kəm rəzil ağzını belə açıb demədi ki, - ay biçarə, binəva, möhtərəm Yusif, niyə bu qapının kandarında oturmusan? Niyə bütün gecəni ac-susuz burada keçirmisən?» Bu da sənə müsəlmanlıq. Heyif! Heyif mənim bunun yolunda çəkdiyim əzab-əziyyətdən! Ay bic vələdüzzina, Allah sənə lənət eləsin, mənə qarşı etdiyin etinasızlığa görə Allah sənin canını alsın! And olsun mənə sırımaq istədiyin o əxlaqsız ananın canına ki gecəni Cəfər Haşiminin qızı ilə keçirmədiyin üçün dərd çəkirsən! Xəcalət çəkmirsənmi?! Mən çox istəyərdim, o ağılsız, tərbiyəsiz, yüngül xislətli qızla görüşüb deyim: «Ay axmaq, sən bu böyük dünyada bundan rəzilini, kütbeyinini tapa bilmədin? Ay səfeh, yəqin, bu alçağın ocaqçı Əbdülün qızının başına gətirdiklərindən xəbərin yoxdur!»

Mənsur ağzına gələni danışan Yusifi görüb fikirləşdi: «Bu, xoşagələn iş deyil və günün uğursuzluğuna işarə ola bilər, amma eybi yoxdur, Allah qoysa, hər şey yoluna düşər və uğurla nəticələnər». Mənsur namazını qılıb, dualarını edib, müqəddəs kitabdan münasib surələri oxuyub arxa qapıdan çıxıb getdi. O, yolda fikirləşirdi: «Bu kafirin, deyəsən, məndən başqa dərd-səri yoxdur. Gör iş hara çatıb ki, qapımda oturub məni gözləyir».

Mənsur saraya çatanda hələ çox tez idi, hava hələ, demək olar ki, açılmamışdır. Mənsur gördü ki, bir ins-cins yoxdur və sarayın həyət qapısı açıqdır. Qapını açıq görən Mənsur içəriyə keçdi, həyətin ortasına çatanda dayəni gördü. Mənsur dayə ilə salamlaşıb görüşdü. Dayə Mənsuru görüb təəccübləndi və dedi: «Səhərin bu vaxtı burada nə gəzirsən? Dünən niyə gəlmədin? Biz səni axşam namazına qədər gözlədik, artıq aydın olanda ki, indən belə gəlməyəcəksən, şahzadə çox əsəbiləşdi, çox pərt oldu, ürəyi sıxıldı, pərt-pəjmürdə otağına çəkildi. Biz də artıq gözləməyin bir mənası olmadığını anladıq. Şahzadənin göz yaşlarını qurutmaq olmurdu. Onu çox çətinliklə ovundurduq. İndi sən gözlə, gedim şahzadəyə xəbər verim». Dayə Mənsuru öz otağına keçirib otuzdurdu, özü isə şahzadənin otağına keçdi. Şahzadə dayənin otağına gələndə hələ də Mənsurdan incik idi. O keçib birküncdə oturdu. Onun üzü gülmürdü, başını qaldırmırdı. Mənsurun yalvarışlarından sonra şahzadə başını qaldırıb onun üzünə baxdı. Mənsur dedi: «İnan ki, mənim başıma gələnləri bilsən, inciməzsən. Təklikdə olanda sənə hər bir şeyi danışacağam. Allah dünənki günü mənim ömrümə yazmasın! Dünən Allahdan özümə ancaq ölüm arzulayırdım». Gənclər barışıb dayənin otağında sabah yeməklərini yedilər, söhbətləşib, dərdləşdilər. Sonra şahzadə Mənsuru orada qoyub öz otağına keçdi ki, əziz qonağı üçün paltarını dəyişib, özünə bəzək versin.

Bu arada Mənsur olduğu otağın pəncərəsinin arasından küçəyə baxanda gördü ki, Yusif dəli kimi saraya tərəf qaçır. Mənsur söyüd yarpağı kimi əsməyə başladı. Əllərini göyə qaldırıb dedi: «Ay Allah, sən məni bu kafirin şərindən, böhtanından qurtar. Məni xar, rəzil etmə». Bu vaxt şahzadə qız içəriyə keçdi. Onun gözqamaşdıran gö-

zəlliyi Mənsuru bihuş etdi. Mənsur dedi: «Ey mənim gözlərimin işığı, ürəyimin məlhəmi, ağzımın dadı gözəlim, bu kafiri, bu nanəcibi, bu alçağı, rəzili görürsən?» Şahzadə dedi: «O kimdir ki?» Mənsur məcbur olub dünən başına gələnlərin hamısını şahzadəyə danışmalı oldu. Şahzadə Mənsuru dinləyib bərkdən gülməyə başladı, o qədər güldü ki, az qala ürəyi getmişdir. Özünə gəldikdən sonra isə Mənsura dedi: «Ey mənim ürəyimin həmdəmi, ey mənim əziz munisim, mənim canım sənə fəda olsun, sən bu axmağın fikrini heç çəkmə. Sadəcə, onu yaxınına buraxma, ondan ehtiyat et. Buradan çıxanda isə birisinə bir neçə dinar ver ki, onu məhv etsin». Şahzadə elə bu sözləri deyirdi ki, dayə ilə lələ içəri daxil oldular. Onlar gənclərə günlərini yaxşı keçirmək üçün lazım olan təamlardan, şərbətlərdən, çərəzlərdən, meyvələrdən gətirdilər. Onlar musiqi alətlərini kökləyib taxt üstünə düzdülər və xəbər verdilər ki, Cəfər Haşimi səhraya yollanır və ancaq axşama qayıdacaqdır.

Gənclər bu xəbərə çox sevindilər və bütün günü, axşam düşənəcən deyib-güldülər, çalıb-çağırdılar. Axşam düşəndə, Cəfər evə qayıtdı. Qız Mənsuru otaqda qoyub çıxdı ki, gedib atası ilə görüşsün. Atasının yanında bir az olduqdan sonra şahzadə Mənsurun yanına qayıtdı. Cəfər Haşimi isə əmr etdi ki, süfrə hazırlansın. Xidmətçilər, qulluqçular süfrə açıb, üstünü çeşid-çeşid təamlarla doldurdular. Cəfər yenicə yeməyə əl atırdı ki, boşqabında bir milçək gördü. Cəfər çox qəzəbləndi, boşqabı yerə çırpdı. Boşqab çilik-çilik oldu. Cəfər baş aşpazı yanına çağırtdırıb, öz əlləri ilə ona əlli qırmanc vurdu. Aşpazın qışqırtısı bütün sarayı götürmüşdür. O qışqırırdı: «Yalvarıram, kömək edin! Yalvarıram, öldüm artıq!»

Bu vaxt saray qulluqçularından biri qapıdan çölə çıxıb, «Vallah bu zavallının canını yandırıb-yaxdılar, bəlkə də, artıq öldürdülər onu»,- deyə-deyə öz işlərinin dalınca gedirdi. Sarayın qarşısında dolaşan Yusif bu sözləri eşidib fikirləşdi ki, Mənsur ifşa olunmuşdur, indi sarayda döyülüb - öldürülən də elə odur. Yusif özünə əl qatıb, üst-başını cırıb, saçlarını yolub qışqırmağa başladı: «Onun heç bir günahı yoxdur, təqsirkar o deyildir, bütün olanların səbəbkarı Cəfərin qızıdır. O, çoxdandır Mənsuru güdür».

Cəfərin adamları Yusifə yaxınlaşıb qışqırmağa başladılar: «Sən kimsən? Dəli olmusan? Nə danışırsan? Niyə qışqırırsan? Sənə nə kimi döyürlər, kimi öldürürlər? Cəfər öz qulunu döyür, bundan sənə nə?» Bu sözləri eşidən Yusif əvvəlkindən də bərk qışqırmağa başladı: «Bu necə müsəlmanlıqdır? Bu nə ədalətsizlik, haqsızlıqdır? Mənsurun atası zərgər Xalidin ad-sanı, var-dövləti yerə göyə sığmırdı. İndi Cəfər Haşimi onu qul bilib cəzalandırır. Belə haqsızlıq olar?! Mənsur öz ağlı, zəkası, gözəlliyi ilə seçilən bir comərddir. Cəfərin qızı neçə illərdir ki, ona aşiqdir və bu gün, Allah bilir, nə fəndlər işlədib onu öz yanına sala bilmişdir. Cəfərin vicdanı olsa idi, o, Mənsuru yox, öz qızını döyüb öldürərdi».

Cəfərin adamları Yusifin bu cəfəngiyatını eşidib onun üstünə düşdülər. Onu o qədər döydülər ki, qanına qəltan etdilər. Onlar Yusifi çırpıb, aparıb bır çuxura atdılar. Yusif özünə gələn kimi ayağa qalxıb yola düşdü və yol uzunu qarşısına çıxan hər bir kəsə başına gələn əhvalatı belə danışdı: «Xəbəriniz var ki, Cəfər Haşimi qızını Mənsur ilə vaxt keçirəndə tutmuşdur və ona görə də Mənsuru vurub öldürür? Məni isə ona görə cəzalandırdılar ki, bunları qorxmadan hamıya danışmağa başladım». Belə-belə Yusif Mənsurgilin evinə çatdı və orada qışqırmağa başladı: «Ay abırsız, həyasız, vicdansız məxluqlar, necə belə rahat otura bilirsiniz? Cəfər Mənsuru orada döyüb-öldürür, bəlkə də, artıq öldürmüşdür. Durun gedək, heç olmasa ölüsünü alaq ki, şəriət qaydası ilə basdıraq». Yusifin bu sözlərindən bütün ev camaatı bir-birinə dəydi, anası özünü yerə çırpıb, saçlarını yoldu, üzünü cırdı. Qullar, nökərlər biçarə ananın ayaqlarına düşüb, onu sakit etməyə çalışdılar. Bu səs-küyə bütün ətraf yığışdı. Onda Yusif dedi: «İndi isə gedək, Mənsuru dəfn edək».

Bütün camaat toplaşıb Cəfərin sarayına tərəf yollandı. Yusif bütün yolu dil deyə-deyə gedirdi: «Ay bədbəxt, biçarə, axmaq Mənsur! Sənə nə qədər dedim, nə qədər başa saldım, məni dinləmədin. Nə qədər öyüd-nəsihət, nə qədər məsləhət verdim, eşitmədin. Öz nəfsinin qulu oldun! Dünən biz necə gözəl vaxt keçirdik. Mən sənə nə qədər ibrətamiz əhvalatlar danışdım, nə qədər misallar gətirdim, görünür, heç birinin faydası olmadı. Cəfərin qızının

bir yaqut qaşlı üzüyünə aldanıb özünü bəlaya saldın və nəticədə öz nəfsinin qurbanı oldun. İndi isə artıq gecdir». Camaatın qabağında gedən Yusif bu cür sözlər deyib ağlayır və hamını ağladırdı. Qonum-qonşu, qohum-əqrəba, evin qul-nökəri ağlamaqdan səsini itirmiş, üz-gözünü cırıb, saçlarını yolmuş zavallı ananın dalınca ağlaya-ağlaya gedirdilər. Onlar beləcə ayaqyalın, başıaçıq halda bütün şəhəri keçib Cəfər Haşiminin sarayına gəlib çıxdılar.

Səs-küyü, ağlaşmanı eşidən Mənsur pəncərədən baxıb gördü ki, anası, qul-nökərləri fəryad edib göz yaşları töküb özlərini buraya çatdırmışlar. Mənsur gördü ki, bu kütlənin başında duran Yusifdir. Mənsur Yusifin yenə də boş-boş, axmaq, mənasız danışıqlarını eşidəndə gözləri qaraldı, qorxudan tir-tir titrəməyə başladı. Mənsur nə qədər çalışdısa, Yusifin nə dediyini, nə qışqırdığını başa düşə bilmədi, çünki küçədəki səs-küydən, tünlükdən, haray-həşirdən heç nə eşitmək mümkün deyildi. Mənsurun qorxudan ayaqları zəiflədi, az qala ürəyi getmişdir. Mənsur üzü üstə yerə sərilib fəryad edib Allaha yalvardı: «Ey hər şeyə qadir Allah, sənə yalvarıram, məni bu kafirin şərindən, xətasından qurtar». Bunu deyib Mənsur hönkür-hönkür ağladı.

Səs-küyü eşidən Cəfər haciblərindən birini göndərdi ki, nə baş verdiyini öyrənsin. O, çölə çıxıb soruşdu: «Bu nə haray-həşirdir? Nə baş vermişdir?» Abırsız, həyasız Yusif qabağa çıxıb dedi: «Daha nə olmalıdır ki? Biz hamımız Cəfərin qızının yanında tutub öldürdüyü məşuqunun dost-tanışlarıyıq. Biz gəlmişik ki, onu aparıb dəfn edək». Bu sözləri eşidən hacib qəzəblənib əlindəki çubuqla yaramazı yaxşıca döyüb qovdu. Hacib Cəfərin yanına qayıdıb bir zəvzəyin başına camaatı yığıb boş-boş çərənlədiyini söylədi. Döyülüb, əzişdirilmiş Yusif isə Mənsurun anasına dedi: «Nə sənin, nə oğlunun mənə heç vaxt bir xeyriniz dəyməyib, amma mən ömrüm boyu sənin oğlunu mühafizə etmişəm, dadına çatmışam. İndi isə oğluna görə kötək də aldım, elə bil ki mən bu dünyaya sənin oğlunun ağrı-acısını çəkmək üçün gəlmişəm. Amma eybi yoxdur, mən yenə də döyülüb, qovulmağa razıyam, təki bilim ki, o, sağ-salamatdır. O, salamat olsa idi, onu göz bəbəyim kimi bəsləyərdim, ona bütün səhvlərini bağışlayar, bütün

günahlarından keçərdim». Bunları söylədikdən sonra Yusif yenə ağlayıb, dil tökməyə başladı. Camaat da ona baxıb ağlamağa başladı.

Çöldəki səs-küyün kəsilmədiyini görən Cəfər qəzəblənib qulluqçularına qışqırdı: «Bu nə səs-küydür, bu nə qalmaqaldır?» Qullardan biri dedi: «Bənd olma! Onlar boş-boş, axmaq-axmaq şeylər danışıb çərənləyirlər» Cəfər dedi: «Yox, mən özüm soruşub bilmək istəyirəm ki, bunlar niyə mənim evimin qabağına yığışıb haray-həşir salırlar. Get onlardan birini mənim yanıma gətir». Hacib çölə çıxıb camaata müraciət etdi: «Bizə bir nəfər bu olanları doğru-dürüst danışmağı bacaran lazımdır». Bunu eşidən Yusif o saat qabağa çıxıb dedi: «Mən ona ata əvəziyəm, danışmaqda da dilim pərgardır». Yusif bunu deyib hacibin ardınca saraya girdi. Yusif Cəfəri görən kimi onun üstünə düşdü: «Sən necə böyük, möhtərəm birisən ki, Allahdan qorxmursan? Sən işin nə yerdə olduğunu öyrənib-bilməmiş, binəva gəncin təqsirkar olub-olmadığını dəqiqləşdirməmiş ona necə qıydın? Əlin necə qalxdı? Ürəyin necə qəbul etdi ki, bu gəncin həyatına son qoyasan? Niyə doğulduğu gündən yüngül həyat tərzi seçmiş qızını yox, bu binəva gənci öldürdün?»

Cəfər bunu eşidən kimi özündən çıxdı, istədi durub Yusifi yerindəcə öldürsün, amma özünü ələ aldı ki, bu cəfəngiyatın mənbəyini öyrənsin. Cəfər dedi: «Ey möhtərəm şeyx həzrətləri, bir otur, sakit ol, özünü ələ al, ağla batmayan şeylər danışma. Əvvəlcə de görüm, haqqında danışdığın zərgər Xalidin oğlu Mənsur kimdir, nəçidir?» Yusif əyləşdi, sonra isə durub özünü Cəfərin ayaqlarına atdı, üzünü yerə sürtdü və orada olanlara və Cəfərə müraciət etdi: «Ey insanlar, şübhəsiz ki, siz Bəsrənin ən adlı-sanlı tacirlərindən olan zərgər Xalidi tanıyırsınız». Cəfər və onun adamları dedilər: «Bəli, biz zərgər Xalidi çox gözəl tanıyırdıq, amma oğlu Mənsur haqqında bildiyimiz ancaq onun eyş-işrətə qurşanıb, rəzil günə düşməsidir. Bəs sənin dediyin Mənsur kimdir?» Yusif cavab verdi: «Siz, yəqin ki, onu qanına qəltan edib öldürmüsünüz deyə, indi də onun haqqında belə nalayiq sözlər danışırsınız». Cəfər dedi: «Mən onu tanımıram, sən de, biz də onu tanıyaq».

Yusif sözə başladı: «Sənin qızın bu Mənsura lap çoxdan aşiqdir və illərdir ki, hər gün ona nəfis paltarlar, qızıl, gümüş göndərir, onu hər an diqqətində saxlayır. Onların bu əlaqələri bu günə qədər, sənin onları bir yerdə görüb Mənsuru yerindəcə öldürdüyün ana qədər davam edirdi. Beləliklə, sənin qızın Mənsurun ölümünə bais olmuşdur. Sənin günahın yoxdur. Haqq sənin tərəfindədir, çünki hansı özünə hörmət edən kişi bu rüsvayçılığı qəbul edərdi?! Sən - xəlifənin dayısı, vəziri buna necə dözə bilərdin? Qızının yanında bir naməhrəmi görüb, necə onu öldürməyə bilərdin?! Bir iş var ki, sən gərək onları bir yerdə büküb, üstlərinə nöyüt töküb yandıra idin. Bax onda bütün camaat səni haqq-ədalət mücəssəməsi kimi alqışlayardı. Sən isə belə etmədin. Əslində, Mənsuru öldürməklə çox böyük yaxşılıq etmişsən, çünki biz-ev adamları artıq onun tüfeyli həyat sürməsindən bezar idik. O, ailənin, nəslin adını batırırdı. İndi isə buyur, onun meyitini bizə təhvil versinlər ki, onu dəfn edə bilək, həm də qoca anası onunla vidalaşa bilsin. Bəlkə bir az sakitləşər».

Cəfər dedi: «İndi de görüm bu danışdıqlarını özün müşahidə etmisən, yoxsa, kimdənsə eşitmisən?» Yusif dedi: «Allahdan qüdrətli qüvvə yoxdur! Sən bilən, mənim kimi möhtərəm bir adam yalan danışarmı? Doğrudur, sən məni tanımırsan, amma şəhərdə məni hörmətli, dəyanətli, müdrik birisi kimi hamı tanıyır. Allah mənə yaratdığı bütün qabiliyyətləri vermişdir. Bu yaramaz, bic vələdüzzina min cür fənd işlədib, öz qoca, eybəcər anasını mənə sırıdı. İndi mən çox peşmanam. Mənim işim ancaq onu cürbəcür anlaşılmazlıqlardan xilas etmək olub, günlərim dərd içində keçir. İndi artıq sən onu öldürdükdən sonra rahat nəfəs alıb işlərimlə məşğul ola bilərəm. O mənim nəsihətlərimə, məsləhətlərimə qulaq asmırdı, əməl etmirdi və onun bu nadanlığı ölümü ilə nəticələndi. İndi isə buyur, onun nəşini versinlər bizə».

Cəfər çox qəzəblənmişdir, hətta qılıncını qaldırıb Yusifi yerindəcə tikə-tikə etmək istəyirdi, amma yenə də özünü ələ alıb fikirləşdi: «Bu, gicin, axmağın biridir, onun sözlərinə əhəmiyyət vermək olmaz. Mən onu öldürsəm, hamı fikirləşəcəkdir ki, danışdıqları həqiqət imiş və biz rüsvay olarıq».

Cəfər Yusifə dedi: «Ay səfeh, Mənsur kimdir? Onu kim öldürmüşdür? Onun meyiti haradadır?» Yusif dedi: «Sənin canın haqqı, dediklərimin hamısı həqiqətdir və hər bir şey mənim söylədiyim kimidir. Əgər biabır olub, rüsvay olmaq istəmirsənsə, əgər evində baş verənlərin faş olmasını istəmirsənsə, meyiti bizə ver. Elə düşünmə ki, əgər Mənsuru öldürə bilmisənsə, məni də tapdayıb məhv edə bilərsən! Mənsurun mənim kimi yüzlərlə dostu vardır. Onlar səndən bunun cavabını tələb edəcəklər».

Cəfər dedi: «Yaxşı, sən haradan bilirsən ki, Mənsur mənim evimdədir?» Yusif dedi: «Haradan bilirəm?! Dünən sənin qızın ona bir yaqut qaşlı üzük göndərdi, Mənsur da o üzüyü mənə göstərdi. Bu gün səhər isə, qızın Mənsuru saraya dəvət etdi və sən evə qayıdanacan onlar şərab içib, qəzəllər oxuyub vaxt keçirmişlər. Sən Mənsuru qızınla tutub öldürənəcən mən də sarayının qarşısında onu axtarmaqla məşğul idim. Elə ki onun qışqırığını eşitdim, işin nə yerdə olduğunu anladım. Başa düşdüm ki, onu öldürürsən. İndi isə onun meyitini ver bizə, aparıb dəfn edək».

Cəfər artıq dözə bilmirdi və ucadan dedi: «Əgər sən mənə dediklərinin həqiqət olduğunu sübut etməsən, əgər Mənsurun ya dirisi, ya ölüsü mənim sarayımda tapılmasa, əmr edəcəyəm ki, sənin boynunu vursunlar». Yusif dedi: «Çox gözəl! Çox doğru qərardır və mən də bu qərarla razıyam!» Yusifin belə əminliklə danışmağı Cəfəri lap hiddətləndirdi və qullarına qışqırdı: «Gedin, bütün otaqları ələk-vələk edin, axtarın!» Onlar o saat işə başladılar, bütün otaqları altdan vurub, üstdən çıxdılar və nəhayət, Mənsurun olduğu otağa çatdılar. Mənsuru burada görəndə saray qulluqçuları yerlərindəcə donub qaldılar, amma onların arasında ən ağıllısı, tədbirlisi dedi: «Əgər biz indi bunu Cəfərin hüzuruna aparsaq, həmin dəqiqə boynunu vuracaqdır, bu isə hələ lap gəncdir. Bundan da başqa bu söhbət hər tərəfə yayılacaq və bizim evimizi hamı barmaqla göstərəcəkdir, evimiz bədnam olacaqdır. Yaxşısı budur ki, bunu aparıb bir xəlvət yerdə gizlədək, gecə düşəndə isə gizli qapıdan yola salarıq gedər. Həm də nəzərə alın ki, onu buraya gətirənlər də vardır». O biri qulluqçular da onunla razılaşdılar və dedilər: «Sən doğru deyirsən».

Mənsur görəndə ki, saray qulluqçularının ona rəhmləri gəlib onların ayaqlarına düşüb təşəkkür etməyə başladı. Qulluqçular dedi: «Səni ananın əri bu dəfə məhv edə bilmədi, amma bil ki, gec-tez o səni məhv edəcəkdir. O çox axmaq, abırsız adamdır». Sonra qulluqçular Mənsuru bir xəlvət, qaranlıq otağa apardılar. Mənsurun taleyinin sapdan asılı olduğu vaxt şahzadə qız qorxudan saralıb, əsim-əsim əsirdi. O, az qala ölmüşdür. Elə ki şahzadə qız qulluqçuların Mənsuru təhvil verməyib gizlətdiklərini eşitdi, tez onun yanına qaçdı ki, salamatlaşsın. Onlar salamatlaşıb ayrıldılar. Ayrılanda qız Mənsura dedi: «Nəfəsim mənim, ruhum mənim, mən bilirəm ki, canımı atamın əlindən qurtara bilməyəcəyəm, amma yeganə arzum sənin buradan sağ-salamat çıxıb getməyindir. Ey Allah! Mənim Mənsuruma kömək ol!» Mənsur dedi: «Mən buradan necə qaça bilərəm ki? Bütün qapıların, pəncərələrin qarşısında, hətta damda da qarovulçular vardır. Sən isə ürəyini sıxma, inanmıram ki, atan səni incidə». Sonra Mənsur qıza dedi: «Qulluqçuya de ki, mənə bir dəst kör-köhnə, cırıq-cındır paltar, baş yaylığı gətirsin, mən əynimi dəyişim, bəlkə, onda buradan birtəhər çıxa bilərəm». Şahzadə onun dediyinə əməl etdi, Mənsur əynini dəyişib, hazır oldu. Onlar salamatlaşdılar, Mənsur qıza dedi: «Get öz otağına. Allah özü səni qorusun!»

Mənsuru axtarmağa gedən qulluqçular isə Cəfərin hüzuruna gəlib dedilər: «Biz sarayın altını üstünə, üstünü altına çevirdik, amma bir yad adam tapa bilmədik». Bunu eşidən Yusif səsini başına atıb qışqırdı: «Ay Allahsızlar, kafirlər! Ey Cəfər, öz canıma and olsun ki, bunlar sənin qızının arakeşləridir. İzin ver, özüm gedib onu qarşına gətirim. Əgər gətirməsəm, ixtiyar sahibisən, boynumu vurub, məni qanıma qəltan edərsən». Cəfər dedi: «Nə olar, get. Mən razıyam». Yusif durub sarayın otaqlarını bir-bir axtarmağa başladı. Nəhayət, o, Mənsurun gizləndiyi otağa çatdı. Otağa girib Mənsuru orada görəndə onu söyüb-sulamağa, tənə eləməyə başladı: «Ay bic vələdüzzina, ay alçaq rəzil, ay nankor, Allah sənə lənət etsin! Allah sənə də, sənə kömək edənə də lənət etsin! Mənim məgər səndən başqa dərd-sərim, iş-gücüm yoxdur?! Mən nəyə görə hər işimi atıb səninlə məşğul

olmalıyam?! Mən nəyə görə ancaq səni bəlalardan qurtarmaqla məşğul olmalıyam?! Ölüb, yerə girmirsən?! Niyə bir özünə demirsən: «Bu möhtərəm, adlı-sanlı şeyx Yusif mənim atam deyil, dayım, əmim deyil, mənim ona əziyyət verməyə heç bir haqqım yoxdur, o isə elə nəcib bir insandır ki, kölgə kimi məni izləyib, hər yerdə qoruyur, hər çətinlikdən qurtarır. Allah ondan razı olsun». İndi də səni xilas etmək üçün gəlmişəm. Özümü çatdırmasa idim, kim bilir başına nələr gələcək idi. Dur, səni Cəfərin hüzuruna aparım və ondan səni bağışlamasını xahiş edim. Qoy səni özünə qul etsin, cəzalandırsın, mən isə yalvarım ki, səni öldürməsin».

Mənsur Yusifin ayaqlarına düşüb ağlayıb yalvarmağa başladı: «Səni and verirəm o uca Allaha! Məndən əl çək, mənim sirlərimi açıb-tökmə. Allah böyükdür! Sənin də sirlərinin açılmasına yol verməz!» Yusif dedi: «Əstəğfürullah! Mən yalan danışa bilmərəm! Qoy məni öldürməkdənsə, səni öldürsünlər». Mənsur yenə də dedi: «Ey Yusif, mənə rəhm et, Allah da buna görə səni mükafatlandırar». Yusif dedi: «Sənin heç bir yalvarışın, göz yaşların məni fikrimdən daşındıra bilməz». Yusif bunu deyib başındakı çalmasının uzun parçasını açıb Mənsurun boynuna doladı və sürüyüb apardı. Yol uzunu Yusif Mənsuru təhqir edir, alçaldırdı. Yusif qışqırırdı: «Ey bic vələdüzzina, ey alçaq, binamus, vicdansız, nankor, nanəcib, bu nədir mənim başıma gətirirsən? Bu nə cırıq-cındırdır əyninə geymisən? Hanı Cəfərin qızının sənə bağışladığı qiymətli paltarların, hanı Cəfərin qızının sənə verdiyi qızıllar? Onları hara etmisən? Nə vaxtacan sənin dalınca düşməliyəm? Heç ölüb, xəcalət çəkmirsən?» Zavallı Mənsur nə qədər yalvarsa da, Yusif ona heç məhəl qoymurdu.

Cəfər Yusifin Mənsuru tapıb gətirdiyini gördükdə qəzəbdən od püskürdü, qan başına vurdu, amma yenə də özünü ələ alıb sakitcə durdu. Mənsura diqqətlə baxanda gördü ki, qarşısında cırıq-cındır geyinmiş çox yaraşıqlı, üzündən nəcabəti bəlli olan bir gənc durmuşdur. Cəfər öz-özünə dedi: «Hə, əslində, bu gənc, həqiqətən, sevilməyə layiqdir, amma əynindəki cırıq-cındır heç ona layiq deyildir. Burada bir sirr vardır». Cəfər üzünü adamlarına tutub soruşdu: «Siz bu gənci tanıyırsınızmı?» Onlar cavab verdilər: «Xeyr, biz bu

gənci heç vaxt görməmişik». Yusif dilləndi: «Siz onu məndən soruşun. Onu mən yaxşı tanıyıram. Mən onun bütün nəslini, atasını, babasını, ulu babasını da tanıyıram». Cəfər üzünü Mənsura tutub dedi: «Sən kimsən və mənim sarayıma nə məqsədlə girmisən?» Mənsur dedi: «Ey Cəfər, mən bir adlı-sanlı əyanın oğluyam Atamdan mənə böyük var-varidat qalmışdır, amma taleyim məndən üz döndərdi, heç bir şeyim qalmadı. İş o yerə çatdı ki, bir tikə quru çörəyə belə möhtac qaldım. Günlərlə ac qalıb, əldən düşdüm. Sənin sarayına da o məqsədlə girdim ki, bəlkə, əlimə bir dəyərli şey keçər, oğurlayıb, aparıb sataram və özümə bir neçə günlük yemək alaram. Gördüyün kimi, mən bir şey götürə bilməmişəm, amma özüm ələ düşmüşəm. Görünür, mənim bəxtim belə imiş».

Mənsurun dedikləri saray adamlarına çox təsir etdi və onlar Cəfərdən rəhm diləməyə başladılar. Vəziyyətin belə şəkil almasını görən Yusif yenə Mənsurun üstünə düşdü: «Ay bic vələdüzzina, yalançı alçaq, Allahdan qorxmursan? Sən nə cürətlə möhtərəm Cəfərə yalan söyləyirsən? Artıq son saatlarını yaşayırsan, bir saatdan sonra bu həyatda olmayacaqsan! Ölümqabağı yalan ən böyük günahlardandır, səni artıq heç bir yalan xilas edə bilməz». Yusif üzünü Cəfərə tutub dedi: «Cəfər, sən ona inanma, onun məqsədi sevgilisini mühafizə etməkdir. Sən əmr et onu qırmanclasınlar. Əgər o, qamçıların altında günahkar olduğunu boynuna almasa, əmr edərsən mənim boynumu vursunlar».

Həmin dəqiqə Cəfərin əmri ilə Mənsuru sütuna bağladılar. Qulluqçular növbə ilə Mənsuru qamçılayırdılar, beləliklə, zavallı gəncə iki yüz qamçı vuruldu. Mənsur bu yandırıcı qamçıların altında da sözündən dönmədi, saraya oğurluq məqsədi ilə gəldiyini təkidlə təkrarladı. Bu zaman yenə də Yusif ortaya gəldi və dedi: «Ey Cəfər, sənin qulluqçuların qırmancla necə rəftar etmək lazım olduğunu bilmirlər. Sən mənə izin ver, mən onu özüm qamçılayım, onda görərsən necə tez günahlarını boynuna alacaqdır». Cəfər əmr etdi ki, qırmancı Yusifə versinlər. Yusif əbasının ətəyini belində bərkidib, Yusifin başı üstündə əyilib qulağına pıçıldadı: «Oğlum, gözümün işığı, mən bundan artıq nə edim sənə, bundan böyük mərhəmət olar ki, mən

şəxsən özüm səni qamçılayacağam?! Sevinə bilərsən, çünki səni var-gücümlə qamçılayacağam, səni yandırıb yaxacağam, amma nəticədə sən günahkar olduğunu boynuna alacaqsan və bununla da əzabdan xilas olacaqsan. Ona görə sən mənim məsləhətimə bax, özün hər şeyi boynuna al. Uzağı, sənin əzalarından kəsib atarlar, əlil-zəlil qalarsan, yaşayarsan. Amma onu da unutma ki, bədnam əyan kimi ölməkdənsə, əlil-zəlil kimi yaşamaq daha üstündür».

Yusif bunları deyəndə Mənsurun huşu üstündə deyildi, o heç bir şey eşitmirdi, çünki onu artıq elə qamçılayıb, şil-küt etmişdilər ki, zavallı hissiyyatını itirmişdi. Kafir Yusif isə qırmancı əlinə alıb, var-gücü ilə Mənsuru döyməyə başladı. O, var gücü ilə Mənsuru vururdu və hər dəqiqə əyilib Mənsurun qulağına deyirdi: «Ay mənim əziz oğlum, gözümün işığı oğlum, bütün bunları sənin xətrinə edirəm. Səni bu halda görə bilmirəm, amma başqa əlacım yoxdur. Əgər düşdüyün bu bəladan sağ çıxsan, gərək biləsən ki, indən belə mənim hər əmrimə əməl edəcəksən!» Mənsura belə alçaq, yandırıb-yaxan sözlərlə «ürək-dirək» verərək bu nacins Yusif zavallını qanına qəltan elədi. Gəncin altında böyük bir qan gölməçəsi əmələ gəlmişdir, amma buna baxmayaraq, o, yenə də hər dəfə huşu bir azca özünə gələndə deyirdi: «Mən oğruyam və saraya oğurluq məqsədi ilə girmişdim». Orada olan saray adamları: əyanlar, əmirlər artıq dözə bilməyib Cəfərə dedilər: «Adətən, şübhəli olan adamı təqsirini boynuna alanacan döyüb, işgəncə verirlər. Bu zavallı əvvəldən təqsirini boynuna alıb oğru olduğunu deyir. İxtiyar sahibi sənsən, amma əgər məsləhət bilirsənsə, ya bu gəncə rəhm et, ya da əmr et onu edam etsinlər, adamı bu qədər işgəncəyə məruz etməzlər. Bu, böyük günahdır».

Cəfər Yusifi göstərib dedi: «Mən bütün bunları ona görə edirəm ki, hamı görüb bilsin ki, bu nadanın, nacinsin mənim qızım haqqında dedikləri boş cəfəngiyatdır. İndi isə bu kafiri edam etmək lazımdır. Onu öldürmək lazımdır ki, bir də cürət edib bir kəsə şər, böhtan yaxmasın». Cəfərin adamları həmin dəqiqə Yusifin qollarından tutub yerə sərdilər, qollarını, ayaqlarını bağladılar, Cəfər qılıncını qınından çıxarıb qaldırmışdır ki, işin bu cür döndüyünü görən Yusif nalə çəkib dilləndi: «Məgər belə müsəlmançılıq olar? Məgər mən buna

layiqəm? Məgər sizə etdiyim yaxşılıqların mükafatı budur? Məgər mənim yaxşılıqlarım belə «mükafat»a layiqdir? Doğrudur, əsil-nəcabəti olmayan birisinin göstərdiyi xidmətin qarşılığı həmişə cəza olur! Əgər mən bu yaramazın xəbərini sənə çatdırıb, onu öz əlimlə tapıb sənə təhvil verməsə idim, indi o çoxdan səni öldürüb bütün var-dövlətinə yiyələnmiş olardı. Sən isə bu qədər yaxşılığın qabağında adamlarına əmr edirsən ki, məni öldürsünlər. Təqsir səndə deyil, məndədir ki, canı canımdan, qanı qanımdan, gözümün işığı, əziz-xələf oğlumu öz əlimlə sənə təslim etdim. Sən axmaq və nanəcibsən və heç vaxt mənim alicənablığımı qiymətləndirə bilməzsən». Yusif bunları birnəfəsə deyib hönkür-hönkür ağlamağa başladı.

Cəfər və orada olanlar onun sarsaqlamasına qulaq asıb gülüşürdülər. Onlar belə qərara gəldilər ki, o, «dəli»dir. Cəfər əmr etdi ki, Yusifin bığını, saqqalını qırxıb, yaxşıca kötəkləsinlər və sonra saraydan atsınlar. Sonra isə Cəfər əmr etdi ki, Mənsuru da şəhər meydanına aparsınlar və orada dara çəksinlər. Qarovullar Mənsurun əl-qolunu bağlayıb meydana apardılar. Bığı, saqqalı qırxılmış Yusif isə heç dinc durmurdu. O həmin saat özünü yetirib qışqırmağa başladı: «Vay mənim halıma! Bu nə dərddir, gəlir başıma?!» Mənsurun anası, onunla gələnlərin hamısı ağlayıb, göz yaşı tökdülər. Bütün şəhər bir-birinə dəymişdir. Keşikçilər bunu görüb Cəfərə yaxınlaşdılar və dedilər: «Biz əgər indi bunu assaq, camaatın arasında narazılıq baş qaldıra bilər, hamı bir-birinə dəyər, qan tökülər. Gəl biz bunun edamını axşam düşənə saxlayaq. Axşam düşəndə, hamı evinə-eşiyinə dağılışanda sakitcə gətirib onu asarıq». Cəfər dedi: «Yaxşı, necə məsləhət bilirsiniz, elə də edin».

Darğa Mənsuru aparıb zindana saldı və bütün şəhər əhlini meydandan dağıtdı. Darğa Mənsurun anasını çağırıb soruşdu: «Oğluna nə olub, onun başına nə işlər gəlib?» Mənsurun anası oğlunun və özünün başına gələnləri danışdı. Darğa onu tanıdı, vaxtı ilə o zərgər Xalid ilə dost olmuşdur. Darğa Mənsurun anasını o saat oğlunun yanına apardı.

Ana-bala bir-birlərini görüb huşlarını itirdilər. Onlar özlərinə gəldikdə isə darğa Mənsuru zindandan çıxarıb öz evinə apardı. Onu

yedirib-içirib, yaralarına məlhəm qoydu. Sonra ona şərbət düzəltdirib verdi. Bundan sonra Mənsur bir az özünə gələ bildi. Ana-bala bir-birlərinə baxıb ağlayırdılar. Onların bu halına darğa də dözə bilməyib ağladı. Sonra bir qədər sakitləşib dedi: «Qorxma, əgər məni ev-eşiyimdən, pul-paramdan da eləsələr, indən belə sənin heç qızılgül saplağı ilə də döyülməyinə yol verməərəm». Mənsur da, anası da ona minnətdarlıq edib, ömürləri boyu onun qulluğunda durmağa hazır olduqlarını bildirdilər. Darğa Mənsurdan soruşdu: «Yaxşı, bəs atandan qalan var-varidatın aqibəti necə oldu?» Mənsur dedi: «İndi çox zəifəm və danışmaq halında deyiləm, mənim hekayətim çox uzundur, ömür vəfa etsə, vaxt gələr hər bir şeyi olduğu kimi danışaram».

Artıq gec idi, darğa Mənsurun anasına dedi: «Sən get evə, amma heç kəsə mənim Mənsuru azad edib evimə gətirdiyimi demə. Mən indi Mənsuru dar ağacının yanına aparacağam, adamlarıma isə tapşıracağam ki, özlərini elə aparsınlar ki, Mənsur qaça bilsin, onlar onun dalınca düşsünlər, amma tuta bilməsinlər. Biz Mənsuru ancaq belə xilas edə bilərik».

Darğanın bu təklifini eşidən Mənsur və anası çox sevindilər, razılıqlarını bildirdilər və ana evinə yollandı. Sonra Mənsura yenə yemək gətirdilər, yaralarına mumiya çəkdilər, artıq yaralar da sağalırdı, əvvəlki kimi sızıldamırdı. Bu arada kafir dəllək haradansa Mənsurun yerini bilib özünü darğanın evinin qarşısına atdı. O, qapının ağzında oturub başladı danışmağa: «Sən gör bizim bu darğada nə cürət, nə cəsarət vardır. Sən gör, bu necə qudurub ki, xəlifədən sonra ən nüfuzlu adam olan Cəfərin sözünə qarşı getməyə cürət edibdir. Bu axmaq şir ürəyi yeyibdir. Cəfər bu nanəcibi qızının yanında tutub edam olunmasını əmr edir, bu isə Cəfərin əmrinə heç məhəl qoymur».

Bu arada baş verənlərin xəbəri şahzadəyə də çatdı. O bildi ki, bütün işgəncələrə, əzablara baxmayaraq, Mənsur onun adını bircə dəfə də çəkməmişdir, onun adına ləkə gəlməsin deyə hər bir ağrı-acıya dözüb, özünü oğru kimi qələmə vermişdir. Mənsurun alicənablığı şahzadənin ona olan məhəbbətini birə min qat artırdı. Şahzadə biləndə ki, Mənsuru darğanın ixtiyarına vermişlər və atası onun asılma əmrini

vermişdir, ağlayıb, üzünü cırdı, saçını yoldu, başına küllər tökdü və dayəsinə dedi ki, Mənsuru assalar, o da özünü öldürəcəkdir. O deyirdi: «Mənsur olmasa, həyat da gərəyim deyildir». Elə ki Mənsurun zindana atılması xəbəri yayıldı, şahzadə dayəsi ilə lələnin qabağına on kisə qızıl qoyub, onların ayaqlarına düşüb yalvarmağa başladı: «Sizi and verirəm o uca Allaha, kömək edin onu xilas edək. Axı indi qaranlıq düşəcək və onu asacaqlar. Onu assalar, mən həmin an özümü öldürəcəyəm». Dayə qızıldan götürüb getdi ki, Mənsurun harada saxlandığını öyrənsin. Elə bu vaxt o, başını aşağı salıb darğanın qapısında oturmuş Yusifi gördü. Dayə Yusifə yaxınlaşıb dedi: «Ay qoca, bilmirsən, Cəfərin sarayında tutulan oğrunu asdılar, ya yox?»

Yusif qışqırdı: «Oh, oh, oh!!! Dediyin oğru zərgər Xalidin axmaq oğludur. Cəfər onu qızının yanında tutub əmr etmişdir ki, onu assınlar, bu axmaq, nadan darğa isə onu evinə gətirib yaralarını sağaltmaqla məşğuldur. Bu axmaq başa düşmür ki, Cəfər bundan xəbər tutarsa, onun da boynunu vurduracaqdır».

Dayə soruşdu: «Sən Mənsurun nəyisən?» Yusif dedi: «Mən onun anasının əriyəm. Artıq neçə gündür ki, onun işləri ilə məşğulam, nə gecəm var, nə gündüzüm. Allahdan bircə istəyim var, bunu tez assınlar, mən də rahatlığa çıxım, öz işlərimlə məşğul olum». Dayə qışqırdı: «Sən nə alçaq adamsan! Bir ayağın burda, bir ayağın gorda, utanmırsan bir gəncə ölüm arzulayırsan?» Yusif dedi: «O, axmağın, avaranın biridir. Mən ona bütün ömrümü sərf etmişəm. Mənim işim ancaq onu qalmaqallardan qurtarmaq olmuşdur». Dayə yoluna davam etmək istəyirdi ki, Yusif onu saxlayıb dedi: «Dayan! De görüm, sən niyə məni sorğu-suala tutmusan ki?» Dayə dedi: «Heç, bu yaxınlarda səhvən qardaşlarımdan birini tutub zindana salıblar, hər dəfə meydanda edam olacağını eşidəndə narahat olub gəlib xəbər bilirəm» Yusif dedi: «Allahdan böyük qüvvə yoxdur! Mən fikirləşdim ki, bəlkə, səni buraya Cəfərin o yüngül qızı göndərmişdir. Bu bəlaların hamısının səbəbi odur. Allah ona lənət eləsin!» Dayə dedi: «Mən Cəfərin qızını tanımıram və belə ali təbəqə ilə işim yoxdur». Dayə bunu deyib binaya daxil oldu və Mənsurun

yerini soruşdu. Ona darğanın Mənsuru evlərindən birinə apardığını dedilər. Dayə evin harada olduğunu öyrəndi və ora yollandı.

Dayə gəlib Mənsuru yatmış gördü. Mənsurun hər yeri yara içində idi. Dayə Mənsuru oyatdı. Mənsur oyanıb dayəni görüb hönkür-hönkür ağladı. Dayə də onun göz yaşlarına dözməyib ağlamağa başladı. Sonra Mənsur hər şeyi dayəyə danışdı və xeyirxahlığının qarşısında baş əydiyini dedi.

Dayə dedi: «Şahzadənin halı fənadır. O sənin başına bir iş gələrsə, həyatına son qoyacağını deyir. Bu iki kisə qızılı da göndərib ki, darğaya verək, səni azad edə bilsin». Mənsur bu xəbərə çox sevindi. Dayə dedi: «Gəl mən bir kisəni darğaya verim, o birini ehtiyat üçün saxlayım». Mənsur dedi: «Məsləhət sənindir, necə lazım bilirsən, elə et, amma sənə yalvarıram Yusif adlı kafir dəlləkdən uzaq gəz və onun zəvzəvəməsinə fikir vermə». Bundan sonra dayə darğanın yanına gedib ağlayaraq dedi: «Mən Mənsurun böyük bacısıyam, mənim və anamın bu dünyada Mənsurdan başqa heç kəsimiz yoxdur. Bütün şəhər əhli bilir ki, Mənsurun heç bir təqsiri yoxdur. Sənə yalvarıram, bizə rəhmin gəlsin, Mənsuru qurtar». Dayə bunları deyib bir kisə qızılı darğanın qarşısına qoydu.

Dayənin acı göz yaşlarını və qızıl kisəsini görən darğa dedi: «Narahat olma, başımdan olsam belə, Mənsurun başından bircə tükün də düşməyinə yol verməyəcəyəm. Mən indi gedib onu azad edəcəyəm, qoy bir neçə günlük şəhəri tərk edib, gözə görünməsin. Sonra ara sakitləşib, söz-söhbət söndükdən, olaylar yaddan çıxdıqdan sonra yenə də evinə qayıdıb öz həyatına davam edər». Dayə darğaya dərin minnətdarlığını bildirib evi tərk etdi.

Qaytardığı qızıl kisəsini şahzadənin qarşısına qoyaraq olanları danışdı. Şahzadə bir az sakitləşdi və dedi: «Bu qızıl kisəsini gərək Mənsura verəydin ki, özünə lazım olan şeylər üçün xərcləsin». Bu arada darğa gedib öz adamları ilə danışır və onlara tapşırır ki, Mənsur qaçanda onu tutmağa səy etməsinlər. Darğanın adamları Mənsuru küçəyə çıxarıb bazar meydanına tərəf apardılar. Yolda onlar Mənsuru sərbəst buraxdılar və o qaçdı. Mənsur qaçdı, amma rəzil Yusif elə bil yerin içindən peyda oldu. Yusif Mənsurun qaçdığını

görən kimi, əbasını kəmərinə bərkidib, çalmasını bir tərəfə atıb onun dalınca düşdü. Yusif onun dalınca qaçıb qışqırırdı: «Tutun oğrunu! Tutun!» Yazıq Mənsur dönüb gördü ki, dəllək yenə də onu təqib edir. Mənsuru dəhşət bürümüşdür, o dedi: «Allahdan böyük qüvvə yoxdur! Bu kafir indi nə istəyir məndən? Gör bu qoca kaftar necə qaçır!!!»

Darğanın adamları saraya getdilər ki, Mənsurun qaçdığını xəbər versinlər. Mənsur isə həmin vaxt canını bu rəzildən qurtarmaq üçün qan-tər içində qaçırdı. O, gecə yarıya kimi beləcə qaçdı, Yusif isə onu təqib etdi. Bu yaramaz qışqırmağından da qalmırdı: «Ay camaat, tutun onu, o oğrudur. O hansı evə girsə, talan edəcəkdir». Mənsur gəlib bir dalana girmişdir, amma nə geriyə qayıda bilirdi, nə də oradan bir çıxış yox idi. Dalanın lap axırına çatanda, artıq yolun bitdiyini görəndə gözü bir açıq qapıya dəyir. Həyətdə bir Ələvi oturmuşdur. Mənsur çox düşünmədən həyətə girib, arxadan qapının cəftəsini çəkir və üzünü gəncə tutub deyir: «Səni and verirəm o uca Allaha və həzrət Əliyə! Məni xilas et!»

Gənc Ələvi dilləndi: «Etibarlı yerdə olduğunu bil və qorxma». Onlar evə keçdilər. Gənc ev sahibi buyurdu ki, süfrə açsınlar. Otağa əlində bərbət bir gözəl qız daxil oldu. Ələvi qızın gəldiyini görüb ayağa qalxdı, ona yaxınlaşıb nəvazişlə qucaqlayıb öpdü və bərbəti götürüb onu azacıq kökləyib bu qəzəli oxudu:

Sənsiz sanki ruhsuzam, amma yaşayıram!
Tükənib bütün vəsaitim, amma yaşayıram!
Səbirsiz bir adam idim, səbirli oldum artıq,
Günlərimi xısın-xısın ağlamaqda keçirirəm, hələ də yaşayıram!
Həqiqəti bilmək istəyirsənsə, ey gözümün nuru,
Bil ki, can verirəm mən, heç yaşamıram!
Qız oğlandan bərbəti götürüb belə cavab verdi:
Ey könlümün gözəl həmdəmi, nə gecəm var, nə gündüzüm,
Qoy eşqin zülmü məni çox əzməsin.
Düşmən məni Xosrov bilib üstümə qalxır,
Bədxahlar məni Fərhad bilib hər tərəfdə tələ qurur.
Qonşulardan utanıram, yatmıram, zarıyıram,

Səndən ayrı düşəni od içində yanıram.
Vamiq kimi düşmüşəm bu dünyanın canına,
Gah piyada dolaşıram, gah at çatır dadıma.

Bu qəzəli eşidən kimi Mənsur içindən bir ah çəkib huşunu itirdi. Əlvi həyəcanla qıza dedi: «Deyəsən, qəzəlinlə bu gənci məhv etdin?!»

Qız bərbəti kənara qoydu, gənc Mənsurun başını qaldırıb dizlərinin üstünə aldı. Sonra gənc Əlvi Mənsurun üzünə gülab çilədi, Mənsur özünə gəldi. Mənsur ayağa qalxıb Əlviyə öz minnətdarlığını bildirdi. Əlvi isə öz növbəsində ona hər cür hörmət göstərib bir dəst çox gözəl paltar bağışladı. Mənsur əynini dəyişdikdən sonra yenə təşəkkür edib, verdiyi əziyyətə görə üzrxahlıq etdi. Əlvi gənc buyurdu ki, Mənsur üçün elə həmin otaqda yer hazırlasınlar. Ozü isə kənizin əlindən tutub otağı tərk etdi. Onların hər biri öz otağına keçdi.

Gecənin bir vaxtı Mənsur çölə çıxmalı olur və qapılardan birini açır və içəriyə keçir. Mənsur yuxulu-yuxulu fikirləşir ki, bəlkə, burada su tapa bilər. Qaranlıq otaqda əli ilə su bardağı axtara-axtara gəzən Mənsur birdən xalının üstündə yatmış adamı ayaqlayır. Sən demə, bu həmin kənizin otağı imiş və Mənsur bilmədən onu ayaqlamışdır. Qız oyanıb qorxudan bərkdən qışqırır. Gənc Əlvi səsə oyanıb qızın yanına qaçıb gəlir və soruşur: «Nə baş vermişdir?» Qız deyir: «Kimsə bu otağa girmişdir». Gənc oğlan şam yandırıb görür ki, Mənsur bir küncə sıxılıb tir-tir titrəyir. İşin nə yerdə olduğunu bilməmiş, öyrənməmiş oğlan Mənsurun üstünə düşür: «Ay nankor, ay binamus, sən mənim yaxşılığımdan belə çıxırsan? Mən səni xilas etdim, evimə gətirib, sığınacaq verdim. Sən bu yaxşılıqların müqabilində məni rüsvay etmək istəyirsən? Mənim evimə ləkə salmaq istəyirsən?»

Əlvi bunları deyib Mənsurun qolundan tutub yerə sərdi, əl-qolunu bağladı və yatdığı otağa sürüdü. Bədbəxt Mənsur acı-acı ağlayırdı. Onun əli-qolu bağlı olduğundan tərpənə bilmirdi. O öz bəxtinə lənət edirdi. Səhərin açılmasını, ev sahibini necə inandıraca-

ğını, yenə də lənətə gəlmiş dəlləklə rastlaşmaq qorxusunu ağlına gətirib hönkür-hönkür ağlayırdı. O bütün gecəni belə keçirdi.

Mənsurun ah-naləsini eşidən qızın ürəyi sızıldadı və gəncin onun səhvi ucundan bu hala düşdüyünü fikirləşib çox pis oldu. O fikirləşdi ki, əgər elə qışqırıb haray salmasa idi, heç bir şey baş verməyəcək idi. Qız fikirləşdi: «Mən nə etdim? Bəlkə də, onun məndə heç işi yox idi. Yaxşısı budur ki, gedim onun əl-qolunu açım, qaçıb getsin, yoxsa səhər açılanda sevgilim ona işgəncə verəcək, mən də Allah qarşısında nahaq axıdılmış qana bais olacağam».

Qız bu fikirlə qalxıb Mənsur olan otağa keçdi. Gördü ki, Mənsurun əl-ayağı möhkəm bağlıdır, elə bağlıdır ki, oğlan heç tərpənə də bilmir. Qız əyilib Mənsura dedi: «Ey gənc, qalx, mən sənin əl-qolunu açım, qaç, canını qurtar». Mənsur dedi: «Mənim əl-ayağım bağlıdır. Mən necə qalxa bilərəm?» Qız nə qədər çalışdı ki, düyünləri açsın, amma bacarmadı. Onda əyilib düyünləri dişləri ilə açmağa cəhd etdi və həmin vaxt ağlagəlməz bir hadisə baş verdi. Bu ələvinin bir sevimli döyüş qoçu var idi, o bu qoçu evdə saxlayıb bəsləyirdi. Şəhərdə ikinci belə qoç yox idi. Bu qoç da Mənsurun olduğu otaqda idi, bir küncdə yatmışdır. Qız əyilib dişləri ilə Mənsurun əl-qolunu açmaq istəyəndə qoç elə başa düşür ki, qız onunla döyüşə hazırlaşır, o da tez özünü yığışdırıb qızın üstünə atılır. Qıza elə bir kəllə vurur ki, qız divara çırpılır, başı yarılır, elə yerindəcə canını tapşırır.

Ev sahibi bu səs-küyü eşidib tez özünü otağa atır. Görür ki, Mənsur əlləri, ayaqları bağlı bir tərəfdə sərilib qalıb, kənizinin başı yarılıb, ölmüşdür, qoç isə otağın bir küncündə döyüşə hazır vəziyyətdə durmuşdur. Bu mənzərəni görən gənc bərkdən qışqırıb ağlayır. Onun qışqırıb ağlamasına bütün qonşular yığışır və bu camaatın arasında Yusif də olur. Yusif dalanda Mənsuru gözdən itirdikdən sonra oradan çıxıb getməmişdir. Fikirləşmişdir ki, buradan çıxış yeri yoxdur, gec-tez Mənsur buradan keçməli olacaqdır. Yusif o saat gənc ələvinin üstünə düşür: «Haqq olur sənə! Aldın payını? Niyə ticarətlə, nə bilim, bir başqa işlə məşğul olmursan? Ay axmaq, evində kimə sığınacaq vermisən? Sən özün bu bəlaları qazanmısan! Hələ harasıdır? Sabah sənin evin tar-mar olacaqdır! Tfu sənin saqqalına!»

Yusifin bu mənasız zəvzəvəməsini eşidən ələvi böyük bir çubuq götürüb Yusifin qolundan tutub çölə çıxardı. Həyətdə Yusifi o ki var döyüb dedi: «Sən kimsən ki, mənimlə bu cür danışırsan? Sən nəçisən ki, mənə ağıl öyrədirsən? Sənin səfeh – səfeh danışdıqların məni baş verənlərdən daha çox özümdən çıxardı. İndi öl küçədə, kafir, yaramaz!» Bunları deyib Yusifi itələyib atdı çölə.

Evə girdikdən sonra gənc üzünü Mənsura tutub dedi: «İndi mənə bütün həqiqəti danış». Mənsur başına gələnlərin hamısını başdan-ayağacan danışdı. Ələvi onu dinləyib dedi: «Mən sənin atan haqqında çox eşitmişəm, onun halal-dürüst kişi olduğundan xəbərdaram, onun bizə də çox köməyi dəymişdir. Onun ailəmin üstündə böyük haqqı vardır. Dur, səni yola salım, yavaşca çıx get. Allah eləməmiş mənim evimdə başına bir iş gələr, peşmançılıq olar. Həm də özümə görə ehtiyat edirəm. Bilsələr ki, mənim evimdə özünə sığınacaq tapmısan, məni də salamat qoymazlar». Gənc oğlan bunları deyib Mənsuru yola saldı. Evə qayıtdıqdan sonra qoçu kəsdirdi, qızı isə dəfn elətdirdi.

Mənsur ələvinin evini tərk edəndə hələ səhər açılmamışdır, hava ala-toran idi. Yusif isə ev sahibi tərəfindən döyülüb qovulduqdan sonra elə qapının ağzında bir küncə sıxılıb qalmışdır. Onun yaralarının sızıltısı yavaş-yavaş azalırdı. Birdən o, Mənsurun qapıdan çıxdığını görür. Yusif həmin dəqiqə Mənsurun üstünə düşdü: «Ay lənətə gəlmiş, rəzil, alçaq! Heç utanıb yerə girmirsən? Nəyə görə mən sənin axmaqlığın, alçaqlığın, nadürüstlüyün ucbatından bu qədər əzab çəkməliyəm? Niyə bir dəfə olsun, demirsən ki, bu möhtərəm, bu mötəbər kişi nə səbəbdən mənə görə bu zülmlərə dözür? Sən alçaq Cəfərin qızı ilə eyş-işrətdə vaxt keçirirsən, mənim bığımı, saqqalımı qırxırlar, sən evində səni qonaq edən adamın kənizinə xor baxırsan, məni döyüb, şil-küt edirlər. Bir dəfə fikirləşdinmi ki, bu yazıq, binəva mənə görə bu qədər zülmə düşür, amma yenə də məni darda qoymur, hər yerdə məni mühafizə edib, qoruyur. Başa düşürsən, mənim sənə bir başqa münasibətim vardır, səni tək, yalqız qoymaq istəmirəm, sənin dara düşməyindən ehtiyat edirəm, istəyirəm daima səni mühafizə edim. İndi isə dur səni Cəfərin sarayına aparım.

Narahat olma, biz ora çatana onlardan heç biri, nə ələvilərin hökmdarı, nə darğa sənin bu işlərindən xəbər tutmayacaqdır. Gedək, görüm Cəfəri necə yumşaldıb səni ölümdən qurtara bilirəm. Bəlkə sənə rəhmi gələr, ya əllərinin və ya ayaqlarının vurulması ilə səni ölüm cəzasından azad edər. Onda biz sənin ananla sənə qulluq edərik, nə etmək olar, ürəyini üzmə».

Mənsur qışqırdı: «Ay alçaq, ay kafir, ay rəzil nanəcib, rədd ol buradan. Yenə haradan gəlib qarşıma çıxdın? Sən kimsən, mən kiməm? Axı bizim heç bir vaxt bir münasibətimiz, bir alış-verişimiz, bir ortaq işimiz olmamışdır. Axı bizim bir düşmənliyimiz də olmamışdır. Nə sən mənə görə zamin durub rüsvay olmusan, nə də mən səni bu vaxtacan tanımışam. Sənə bir pisliyim dəyməmişdir. Səni and verirəm o uca Allaha, məndən əl çək! Get, öz işlərinlə məşğul ol!» Yusif yenə də qışqırdı: «Ay nankor, nanəcib vələdüzzina! Sən danışığını bilirsən? Cəfər də, darğa da, gənc ələvi də səni güdməyi, sənə göz olmağı mənə tapşırmışlar, indi mən səndən göz-qulaq olmasam, onlara nə cavab verəcəyəm?!» Mənsur gördü ki, heç cür bu kaftarın ağzını yuma bilmir, onu başa sala bilmir. Mənsur qollarını çırmayıb Yusifi xubunca döyüb şil-küt eləyir. Dəlləyi o qədər döyür ki, o, huşunu itirib yerə sərilir. Mənsur fürsəti əldən verməyib var gücü ilə qaçmağa başlayır. O çox qaçır, ümid edir ki, axşamacan şəhəri tərk edə bilər. Bu vaxt özünə gəlmiş dəllək ayağa qalxıb, ətəyini əlinə alıb daha böyük sürətlə Mənsurun dalınca düşür. O qaça-qaça qışqırırdı; «Tutun onu, saxlayın onu. O, oğrudur, o, qatildir». Mənsur o qədər qaçır ki, axırda əldən düşüb, qarşısına çıxan çuxuru görməyib ora yıxılır. Bunu görən Yusif sevinir. O, çalanın yanında oturub qışqırmağa başlayır: «Kömək edin, ay dad! Dadıma çatın, oğlum çalaya düşmüşdür, onu oradan qurtarın».

Camaat bu səsə yığışıb, ip gətirirlər və Mənsuru çaladan çıxarırlar. Yusif Mənsur çaladan çıxan kimi onun boynuna sarılır. Döyülmüş, əskildilmiş, təhqir olunmuş zavallı Mənsur artıq dözə bilməyib əyilib bir daşın üstündə əyləşir və bərkdən ağlayır. O deyir: «Ey Yusif, səni and verirəm, o uca Allaha, səni and verirəm o müqəddəs kitaba, səni canına, başına and verirəm, səni atanın,

ananın ruhlarına and verirəm, məndən əl çək, qoy mən öz işlərimlə məşğul olum». Ətrafda yığışanlar Mənsurun naləsini eşidib Yusifin qollarından tutub deyirlər: «Sən qaç, biz nə qədər ki bunu burada tutub saxlamışıq, qaç, uzaqlaş». Mənsur var-gücü ilə qaçmağa başlayır, amma camaat Yusifi buraxan kimi, o yenə də Mənsurun dalınca düşür və əvvəlkindən də bərk qışqırmağa başlayır: «Tutun onu! Cəfər Haşimi onu tutana əba ilə əmmamə bağışlayacaqdır». Amma heç kəs Mənsuru tutub bu dəlləyə təhvil vermək istəmirdi.

Mənsur gün batanacan qaçır. Axırda Yusif də yorulub əldən düşmüşdür. Dəllək Mənsuru yola gətirməyə çalışır: «Ey Mənsur, gözümün işığı, evimin yaraşığı, niyə ayaqlarına bu qədər əzab verirsən, sənin dalınca düşən yoxdur, niyə belə qaçırsan? Hara tələsirsən? Bil ki, dünya yaranandan qadınlar kişiləri sevirlər. Sən bir qəbahətli iş görməmisən, əksinə öz məhəbbətinlə Cəfərin qızına eşq şərbətini dadızdırmısan. Qadınlar eşq-məhəbbət üçün yaranmışlar, sənin yerində mən də olsa idim, sənin kimi rəftar edərdim. Sən heç fikir etmə, biz indi birlikdə Cəfərin evinə gedərik. Cəfər səni mənimlə görsə, min cür hörmət-izzət göstərər, bizi şahlar kimi qəbul edər. Mən də sənə görə ağız açıb, ondan sənə rəhm diləyərəm. Əminəm ki, sözümü yerə salmaz, sənin ölüm hökmünü ya qolunun, ya da ayağının vurulması ilə əvəz edər. Sonra o, qızını mənə ərə verər, mən isə onu sənə verərəm, çünki mənə elə sənin anan da yetər, mənə başqa arvad lazım deyildir. İndi özün bil, mənim dediklərimə əməl etsən, dediklərimin hamısı həyata keçəcəkdir, yox, əgər yenə öz dediyini deyib dursan, peşman olacaqsan, onda da artıq gec olacaqdır».

Mənsur od kimi püskürdü: «Lənətlər olsun səninlə rast gəldiyim günə! Lənətlər olsun o hamama da, onun sahibinə də! Ay kafir, ay alçaq, ay nanəcib rəzil, ay binamus nadan, məni evimdən, eşiyimdən, anamdan, əzizlərimdən, sevgilimdən etdin, məni dəfələrlə ölümlə üzləşdirdin, məndən nə istəyirsən? Sənin evində çörək kəsib, bir tikə yemişəmsə, de, əvəzini yüz misli ilə qaytarım, səndən borc almışamsa, de, onu da yüz misli ilə qaytarım, yox əgər bunların heç biri yoxdursa, səni and verirəm o uca Allaha, məndən əl çək! Allaha and olsun, üstümdə bir bıçaq olsa idi, səni öldürərdim».

Yusif qışqırdı: «Lənətlər olsun sənin kimi nankor binamuslara! Mən sənə bu qədər yaxşılıqlar edirəm, bu qədər əzab-əziyyətə qatlaşıram, sənin xətrinə Cəfərin, gözəlliyi ilə dillər əzbəri, aycamal, gülüzlü qızı ilə evlənib sonra onu sənə verib, sənin qoca, çirkin, əxlaqsız ananla evlənməyə hazır olduğumu bildirirəm, sən isə yenə də ağzını açıb minnətdarlıq etmirsən. Sən bunu da başa düşüb qiymətləndirmirsənsə, mən artıq səndən heç bir şey gözləmirəm. Mənim bu qədər etdiklərimdən sonra mənə bircə dəfə də minnətdarlığını bildirməmisənsə, bu dəfə də səndən mərifət, qanacaq gözləməyə dəyməz».

Mənsur dərindən ah çəkib dedi: «Əstəğfürullah! Mən canımı bu kafirdən necə qurtarım?!» O, ətrafa göz gəzdirib hündür olmayan bir ev gördü, tez, bir göz qırpımında evin damına dırmaşdı. Yusif onun dalınca qaçdı, amma dama dırmaşa bilmədi və qışqırmağa başladı: «Ay aman! Vay aman!» Təsadüfən, həmin vaxt damın üstündə onun kimi bir başqa avara, dələduz uzanmışdır. O, Yusifdən soruşdu: «Nə olub, nə baş vermişdir?» Yusif acı göz yaşları töküb dedi: «Mən qoca, gücsüz bir adamam, dama dırmaşa bilmirəm. Dama dırmaşan bu alçaq saqqalımı kəsib, əmmaməmi başımdan alıb qaçmışdır. Sənə yalvarıram, onu tut, saxla. Bunu etsən, Allah yanında da savab qazanmış olarsan».

Bu avara Yusifin göz yaşlarını görüb, ah-naləsini eşidib Mənsurun dalınca düşür. Mənsur dönüb dalınca bir yekəpər gəncin düşdüyünü görəndə damların üstündən bir evdən o biri evin üstünə tullana-tullana canını qurtarmağa çalışdı. Neçə evin damına tullandıqdan sonra Mənsur bir damın üstündə dayanıb gördü ki, bu evin qarşısındakı ev çox aralıdadır və ora tullanmaq mümkün olmayacaqdır. Mənsur damın üstündə ora qaçdı, bura qaçdı, birdən ayağı dolaşdı və o bir bacadan içəri düşdü. Mənsur bacadan ocağın yanında yataqda uzanmış xəstənin üstünə düşdü və xəstə elə həmin an canını tapşırdı.

Xəstənin yanındakılar bu hadisədən hiddətlənib Mənsuru elə çırpıb, elə döydülər ki, onun halı ölünün halından daha fəna görünürdü. Sonra ev yiyələri Mənsuru zirzəmiyə atıb, qapısını kilidlədilər. Onlar dedilər: «Əvvəlcə dəfnimizi edək, sonra bunun işinə baxarıq».

Mənsur özünə gələndə başına nə gəldiyini, harada olduğunu anlaya bilmirdi. Bir müddət keçəndən sonra olanları xatırlamağa başladı və hadisələri yaddaşında bərpa etdikdən sonra öz-özünə dedi: «Bundan pis şey adamın başına gələ bilməzdi. İndi mənim lap min canım olsa idi, onlardan birini belə qurtara bilməzdim». Sonra o, üzüstə yerə sərilib Allahdan imdad istədi: «Ey uca Yaradan! Sən hər şeyi görür, hər şeyi bilirsən. Sən bilirsən ki, bu hadisədə mənim günahım yoxdur. Mənim bütün günlərim, gecələrim dərd içində, göz yaşlarında keçir. Əgər sənin yazdığın taleyimə görə sonuma çatmışamsa, sənə yalvarıram, məni tez al yanına, bu əzablardan qurtar, yox əgər mənim vaxtım çatmamışdırsa, mənə rəhmin gəlsin, məni bu bəlalardan qurtar. Məqsədin məni sınamaq idisə, Cəfərin qızının həsrətindən çəkdiyim əzab mənə yetər, amma bu sınaqlar bitmir ki, bitmir, əksinə, üstünə minlərlə iş gəlir». Mənsur bunları deyib, hönkür-hönkür ağladı.

Təsadüf belə gətirdi ki, yaxınlıqdakı otaqda olan iki qadın bu sözləri - Mənsurun gileylənib ağlamasını eşitdilər. Bu bədbəxtin başına gələn həqiqəti bilib ona acıdılar və dedilər: «Bu bədbəxt bacadan lap yıxılmasa idi, yataqdakı xəstə uzağı, indi yox, axşam canını tapşırası idi. Heç rəvadırmı, bu günahsız gənc məhv olsun. Biz belə edək; ev əhli cənazəni aparanda bu gəncin başına bir çarşab ataq ki, qaçıb canını qurtara bilsin».

Bu qadınlar dedikləri kimi etdilər. Mənsurun başına çarşab atdılar və qadınların sıx olduqları yerə saldılar. Mənsur yavaşca gözdən itdi. Azadlığa çıxmış Mənsur bir də baxdı ki, şəhər darvazalarının yanındadır. Mənsur fikirləşdi: «Mən əgər şəhərdə qalsam, canımı kimdən də qurtara bilsəm, o kafir kaftardan qurtara bilməyəcəyəm. Yaxşısı budur ki, bir kəndə gedib bir müddət orada qalım. Oradan dayə ilə lələyə məktub yazaram. Onlar məsləhət bilsələr, gedərəm, yox, əgər məsləhət bilməsələr, bir müddət orada qalaram».

Mənsur bu niyyətlə şəhərdən çıxıb yola düzəlir. İki fərsəng keçdikdən sonra bir kəndə yetişir. Mənsur bir tərəfə çəkilib çarşabını açıb, ondan özünə əmmamə düzəldir. Namaz vaxtı idi. Mənsur dəstəmaz alıb məscidə gedir və namazını qılır. Mənsur çox ac idi, ona görə namazdan sonra orada olanlara müraciət edir: «Qardaşlar, mü-

səlmanlar, mən bir qəribəm, yad yerlərdən gəlirəm, yolda quldurlar mənə hücum edib əlimdəkiləri aldılar. İndi artıq iki gündür ağzıma bir tikə dəyməyib, rəhminiz gəlsin, məndən bir tikə çörəyi əsirgəməyin». Təəssüf ki, Mənsurun bu sözləri heç kəsə təsir etmir, ona heç kəs yardım etmək istəmir.

Mənsur axşamacan gözləyir, amma ona bir tikə çörək verən tapılmır. O, bir az da dözür, amma görür ki, artıq acından gözləri qaralır, başı gicəllənir. Birdən yadına düşür ki, onun gözəl səsi var və vaxtı ilə çox gözəl avazla «Quran»qissələri oxuyardı. Mənsur öz gözəl səsi ilə ucadan on »Quran»qissəsi oxuyur. Orada yığışanlar onun səsinə, məharətinə heyran olmuşdular. Məscidin imamı o saat oradakılardan birini göndərir ki, Mənsur üçün yeməyə bir şey gətirsin. Mənsur yeməyə, camaat da dağılışmağa başladı. Mənsur yeyib qurtardıqdan sonra məscidin xadimlərindən biri ona yaxınlaşıb deyir: «Artıq çıx məsciddən, burada gecələmək olmaz». Mənsur məsciddən çıxıb qarşısındakı oturacaqlardan birində əyləşir və gecəni də orada keçirir. Bu minvalla Mənsur bir neçə gecəni elə buradaca qalıb, »Quran»qissələrindən oxuyur. İbadətə gələnlər isə onun məharətinə, səsinə görə ona yemək gətirir, qeydinə qalırdılar. Bir dəfə kənd əhli yığışıb ona deyirlər: «Əgər imamın köməkçisi olmağa razılıq versən, hər il sənə beş xalvar buğda verəcəyik». Mənsur gülümsəyib deyir: «İxtiyar sahibisiniz, mən razıyam».

Bu arada lənətə gəlmiş Yusif dinc oturmamışdır. Qadınlar çarşaba bürünmüş Mənsuru qapıdan çıxarıb yola salanda Yusif də oralarda-bir küncdə dayanmışdır. Elə ki kişilər cənazəni qəbiristanlığa apardılar, Yusif də onlara qoşulub getdi. Yusif ölənin əzizlərindən çox ağlayıb, dil tökürdü. Arada isə ölənlərin yaxınlarına deyirdi: «Niyə durmusunuz? Nə gözləyirsiniz? Niyə adınıza, sanınıza ləkə düşməsinə yol verirsiniz? Niyə o yaramaz, alçaq canini öldürmürsünüz? Bu bic vələdüzzina bu iki gündə artıq üç adam öldürmüş, hökmdarın dayısı, həm də vəziri Cəfər Haşiminin evini yarmış, Cəfər Haşimi onu qızı ilə tutmuş və asılmasına əmr vermişdir, amma o, şihnəni aldadıb aradan çıxmışdır. İndi əgər siz mənə onu tutub Cəfərə təhvil verməkdə yardım etsəniz, o sizi layiqincə mükafatlandırar».

Yusifin bu təklifi ölənin qohum-qardaşının ürəyincə oldu. Evə qayıdanda onlar gedib zirzəminin qapısını açdılar, amma gördülər ki, orada heç kəs yoxdur. Yusif qışqırmağa başladı: «Onu ev adamlarından kimsə qaçırdıb. Başqa cür o, əl-ayağı bağlı şəkildə necə qaça bilərdi?»

Yusif elə məyus oldu ki, qarnı sancılanmağa başladı. O, ağrıdan qıvrılır, onu soyuq tər basır, gözləri qaralırdı, amma axtarışlarından əl çəkmirdi. Qadınların məzarlığa getmək vaxtı çatanda o da onlara qoşulub getdi. Qadınlar ağı deyib ağlamağa başlayanda Yusif onlara qoşulub, onlardan da yanıqlı ağılar deyib ağladı. O elə göz yaşları axıdırdı ki, sadəlövh qadınlar onun səmimiliyinə inandılar və dedilər: «Görün bu yazıq necə dil tökür, ağlayır! Görünür, onun dərdi böyükdür ki, bizim dərdə də ürəkdən şərik olur».

Onlar Yusifdən soruşdular: «Sən kimsən? Niyə belə yanıqlı ağlayırsan?» Yusif dedi: «Mən bir yazıq, kimsəsiz qocayam. Mənim aman-zaman, gözümün ağı-qarası bircə oğlum var. Oğlum dəliqanlıdır. Dünən evdən çıxıb getdi, mən nökərlərimdən birini onun dalınca göndərdim ki, onu evə gətirsin. Oğlum isə onun əlindən qaçıb damların üstü ilə gəlib bir dama çıxıb və bilmədən bacadan evə düşüb. Sən demə, orada ölüm ayağında yataq xəstəsi var imiş. Oğlum düz həmin xəstənin üstünə yıxılır və xəstə elə həmin an canını tapşırır. O, ölən adam da elə indi bizim ağlayıb, dəfn etdiyimiz mərhumdur. Mənə dedilər ki, ölənin qohum-qardaşı oğlumu öldürmüşlər. Bunu eşidib özümü buraya atdım ki, oğlumdan bir xəbər öyrənim. Öyrənim ki, sağdır, yoxsa yox. Anasının olanlardan xəbəri yoxdur. O xəbər tutarsa, yerindəcə canını tapşırar. İndi sizə yalvarıram, əgər bir məlumatınız varsa, əgər oğlum haqqında bir şey bilirsinizsə, deyin. Bilim ki, sağdır, yoxsa onu, həqiqətən, öldürmüşlər?» Yusif bunları birnəfəsə deyib hönkür-hönkür ağladı.

Qadınların ona yazığı gəldi və onlar dedilər: «Biz onun tutulduğunu bilirik, amma aqibəti haqqında bir məlumatımız yoxdur». Yusif yenə də bərkdən ağlamağa başladı. Mənsuru xilas etmiş qadınlar söhbəti eşitdilər. Onların Yusifə ürəkləri yandı, işarə ilə onu yanlarına çağırdılar. «Ağlama, biz sənin oğlunu xilas etmişik, onu çarşaba

bürüyüb arvadların sıx olan yerinə ötürmüşük. O, sağ-salamat buradan çıxdı və çox güman ki, şəhərdən də çıxıb getdi».

Yusif bunu eşidən kimi özünü bu qadınların ayaqlarına atdı və dedi: «Sizi and verirəm Allaha, siz bu rəhmətliyin nəyisiniz? Adınız nədir? Mən istəyirəm sizin adlarınızı öz zavallı zövcəmə deyim ki, o, gecə-gündüz sizə dua etsin». Sadəlövh qadınlar rəhmətliyin də, özlərinin və ərlərinin də adlarını dedilər, harada yaşadıqlarını da söylədilər.

Yusif bunları öyrənən kimi kişilərin yanına yollandı və dedi: «Mən bütün gün sizin işlərinizlə məşğul olmuşam. Elə ki qatilin qaçdığından xəbər tutdum, soraqlaşıb bildim ki, artıq şəhəri də tərk etmişdir. Özümü şəhər darvazalarına atdım, gördüm ki, budur, divara söykənib durmuşdur. Ona yaxınlaşıb soruşdum: «Sən canını necə qurtara bildin?» O mənə belə cavab verdi: «Hə, bəxtimdən, mənim zirzəmiyə atılacağımdan xəbər tutmuş iki keçmiş məşuqəm əvvəldən tədbirli tərpənib, zirzəminin bir küncündə gizlənmişdirlər. Bu qadınların zirzəmidə olduqlarını heç kəs bilmirdi. Onların adları da belədir». Yusif həmin zavallı qadınları təsvir etdi; yerişlərini, boylarını, danışıqlarını anlatdı. Sonra Yusif sözünə davam etdi: «Mənsur dedi ki, məni buraya o qadınlar dəvət etmişdir, yoxsa mənim damın üstündə nə işim var idi? Qəza-qədər belə gətirdi ki, ayağım sürüşdü, bacadan içəri yıxıldım, məni tutdular. Amma aranın qarışıq olmasından istifadə edərək həmin qadınlar başıma çarşab atıb məni camaatın içinə qatdılar və mən küçəyə çıxa bildim».

Zövcələrinin adlarını eşidən kişilər qəzəbləndilər, özlərindən çıxdılar. Hamının qarşısında xəcil olduqları üçün o saat zövcələrini boşadılar. Qadınların qohum-qardaşı isə etiraz edib dava saldılar. Burada aləm dəydi bir-birinə. Hamı bir-birini döyüb şil-küt etdi. Camaat bir-birini elə ürəkdən döyürdü ki, yarısından çoxu yarıcan qalmışdır. Yusif isə onlara baxıb gülürdü. Sonra o, evdən çıxıb yoluna davam etdi. Yusif şəhər darvazalarından çıxıb bir divara söykəndi. O bütün gedib-gələnləri sorğu-suala tuturdu. Hər kəsə Mənsuru təpədən-dırnağacan təsvir edib, onu görüb-görmədiyini soruşurdu.

Günlər keçirdi, amma bir nəticə yox idi. Yusif məqsədindən əl çəkmirdi, hər axşam heç bir şey öyrənə bilmədiyi üçün qanıqara halda evinə qayıtsa da, səhər yenə də həmin yerə gəlib bir xəbər öyrənmək niyyəti ilə hamını sorğu-suala tuturdu.

Darğa isə Mənsurun artıq evinə getdiyinə əmin idi. O, ağlına belə gətirmirdi ki, Yusif yenə onun başına bəlalar gətirər. Mənsurun anasının isə evdə oturub Mənsurun yolunu gözləməkdən gözünün kökü saralmış, dodaqları çat-çat olmuşdur. Darğa ona söz vermişdir ki, oğlunu evə yola salacaqdır. Bir müddət keçdikdən sonra ana gördü ki, Mənsur gəlib çıxmır. Ananın ürəyinə damdı ki, oğlunun başında bir bəla vardır. O, bir dənə çox qiymətli xələt götürüb darğanın yanına yollandı. O, darğaya apardığı payı taxtın üstünə qoyub, onun qabağında yerə sərilib, üzünü yerə sürtüb dedi: «Axı sən mənə ümid verdin, məni arxayın saldın, dedin ki, oğlum evə qayıdacaqdır. Bəs necə oldu?» Darğa dedi: «Mən onu bacısı gəlib-gedən kimi azad etdim axı». Ana yalvardı: «Səni and verirəm Allaha, düzünü de, mənim oğluma nə etmisən? Axı onun qardaşı, bacısı yoxdur». Darğa and-aman etdi ki, o, Mənsuru buradan sağ-salamat yola salmışdır. Ona heç kəs bir xətər yetirməmişdir. Darğa dedi: «Sən gedəndən, təxminən, bir saat sonra bura bir qadın gəldi və mənə bir kisə qızıl verib dedi: «Səni and verirəm Allaha, Mənsuru azad et, mən onun bacısıyam və bu dünyada anamla mənim Mənsurdan başqa heç kimimiz yoxdur». Mən onun qızılını da gözünün qabağında buradakı kasıb-yetimə payladım ki, gözləri qalmasın və o, gedən kimi dərhal Mənsuru azad etdim, Allah mənə onun xeyir işlərini göstərsin. Götür bu paltarı, mən özüm hazıram, Mənsura lazım olan hər bir şeyi verim. Heç narahat olma, mən ona tapşırmışdım ki, bir neçə günlük gözdən itsin, ara sakitləşəndə qayıdıb gəlsin. Bir az səbir elə, Mənsur sağ-salamat gəlib çıxacaqdır. Hətta lazım gələrsə, mən özüm ağlım kəsən yerlərə gedib onu tapacağam və sənin yanına gətirəcəyəm. Sənin ərinlə olan dostluğumun əziz xatirəsi xətrinə mən hər şeyə hazıram».

Zavallı ana darğanın bu sözlərinə çox sevindi və evinə qayıtdı. Darğa isə atını yəhərlədib Mənsuru axtarıb tapmaq üçün yola çıxdı,

amma nə qədər axtarıb, soraqlaşsa da, »Mənsuru gördüm«,- deyən olmadı. Nə şəhərdə, nə şəhərdən kənarda Mənsurdan xəbəri olan yox idi.

Şahzadə də özünə yer tapa bilmirdi. Mənsurun intizarı onu üzürdü. O, yenə də dayəni darğanın yanına göndərdi. Darğa dayəyə də Mənsurun anasına dediklərini dedi. Dayə saraya qayıdıb öyrəndiklərini şahzadəyə çatdırdı. Şahzadə həyəcanla dayəsinə dedi: «Durma, tez get Mənsurun anasının yanına, o, yəqin ki, oğlunun harada olduğunu bilir». Dayə Mənsurun anasının yanına yollandı. O gəlib gördü ki, oğlunun həsrətindən yumağa dönmüş qadın bir küncdə oturub, başını dizlərinə salıb acı göz yaşları axıdır. Dayə ona yaxınlaşıb salamlaşdı və Mənsuru soruşdu. Ana ona darğanın dediklərini söylədi. Dayə dedi: «Şahzadə Mənsurun dərdindən çox yaşamaz. Sən dur, gedək onun yanına, bəlkə, səni görüb bir az toxtayar. Üz-gözünü yu, əyin-başını səliqəyə sal, gedək. Lələni isə göndərək, bəlkə, o bizə Mənsurdan bir xəbər gətirər». Mənsurun anası ayağa qalxıb, özünü səliqəyə saldı və saraya yollandı. Şahzadə onu görəndə hönkürüb ağladı. Sonra bir az sakitləşib, qadını əzizləyib, yanında əyləşdirdi. O, lələni Mənsuru axtarıb tapmaq üçün yola saldı.

O ki qaldı Mənsura, onun da günləri acı göz yaşları ilə keçirdi. Mənsur keçmiş şirin, əziz günləri xatırlayaraq zülüm-zülüm ağlayır, göz yaşları axıdırdı. Sevgilisindən ayrı düşməsi onun yuxusunu da almışdır, bütün gecəni kənddə dolaşır, ah-nalə çəkirdi. Hal-qəziyyə belə gətirdi ki, günlərin bir günü kəndxudanın evini oğrular yarırlar və evində nəyi var aparırlar. İş ondadır ki, bu kənd şəhərin darğasına mənsub idi, kəndxuda isə onun azad etdiyi kəndlilərindən idi. Kəndxuda qərara gəlir ki, oğrunu özü tutacaqdır. Ona görə hər gecə pusquda durub gəlib-gedənləri güdürdü.

Bir gecə kəndxuda görür ki, kənddə bir cavan adam gəzib-dolaşır. O fikirləşir ki, elə oğru budur. Kəndxuda Mənsuru tutub, xubunca döyəndən sonra onun əlini, ayağını sarıyıb öz evinə sürüyür. Mənsuru evinin bir otağına tullayır. Kənd əhli eşidəndə ki, Mənsuru - imamın köməkçisini tutub, əl-qolunu sarıyıblar, durub kəndxudanın yanına gedirlər. Onlar deyirlər: «Bu, qərib adamdır. O çox dürüst, namuslu

insandır və heç vaxt oğurluq etməz. Sənin onu əsassız tutmağa haqqın yoxdur». Kəndxuda isə etiraz edirdi: «Yox, mən əminəm ki, oğurluğu edən budur və nə olursa-olsun, mən onu əmirin yanına aparacağam. Nə istəyirsiniz deyin, heç bir əhəmiyyəti yoxdur, mən qərarımdan dönməyəcəyəm».

Kəndxuda bunu deyib atını minir və biçarə Mənsuru da özü ilə aparır. Şəhər darvazalarına çatanda Mənsur gördü ki, qoca kaftar Yusif orada bir küncdə oturmuşdur. Yusif Mənsuru görən kimi yerindən sıçrayır və qışqırır: «Ay Allah səni saxlasın! Möhtərəm Mənsur! Bu vaxtacan harada idin? Niyə belə gec gəlib çıxdın? Sən nəyə görə ev-eşiyini tərk edib çıxıb getdin? Ay möhtərəm rəzil, nədən qorxursan? Sənin boynunda cəmi iki-üç nəfərin qanı vardır. Ay nankor alçaq, mənim qayğılarımdan kənarda necə rahatlıq tapa bilirdin? De görüm, bu dəfə kimi öldürmüsən ki, boynuna ip salıb sürüyürlər? Sənə bu iplər çox yaraşır! Mübarək olsun! Görürəm düşdüyün işlərdən məharətlə çıxmaq qabiliyyətinə maliksən, uğur heç səni tərk etmir».

Bu sözləri eşidən kəndxuda dedi: «Sən bu cinayətkarı haradan tanıyırsan?» Yusif dedi: «Mən bütün ömrümü buna həsr etmişəm. Bu mənim qardaşımın, həm də zövcəmin oğludur. Mən onun bütün işlərini aşırıb, onu hər çətinlikdən qurtarmışam, həmişə qeydinə qalmışam. Son zamanlar onu, demək olar ki, görə bilmirəm, onunla maraqlana bilmirəm. Onun xiffətini çəkib, ağlamaqdan gözlərim kor olmuşdur. De görüm onu haraya aparırsan?» Kəndxuda dedi: «O mənim evimi yarıb. İndi mən onu şəhər əmirinin yanına aparıram ki, izin versin, onu asım». Yusif dedi: «Yox, o, oğurluğa qadir deyildir, amma başqa cinayətlər əlindən gəlir. Məsələn: mən dəqiq bilirəm ki, o artıq iki-üç nəfəri öldürüb və Cəfər Haşimının qızını yoldan çıxarıb. Cəfər onu qızının yanında tutub, şəhər əmirinə təhvil verib ki, onu dar ağacından asdırsın, amma bu onun əlindən qaça bilmişdir. Mən bütün bunların şahidiyəm və heç birini ağızdan eşidib danışmıram. Onu da bil ki, bunun belə bir adəti var, hansı cinayəti törədirsə, törətsin, özünü oğru kimi qələmə verir».

Kəndxuda dedi: «Sənin bu dediklərin yetər. Səndən bircə xahişim var, mənimlə gedək, mənim əmirimin yanında sən də şahidlik edərsən».

Yusif bu təklifə sevinib dedi: «Şahidlik etmək mənim ən çox sevdiyim işdir». Sonra isə sədaqətli köpək kimi kəndxudanın dalınca düşdü. Mənsura isə yenə öz yağlı sözlərindən deməyə başladı: «Görürsən, mən hər yerdə sənin dadına çatıram, amma nə faydası? Sən heç vaxt bunları qiymətləndirməmisən. Amma eybi yoxdur, Allaha şükürlər olsun. Bu dəfə səni asarlar, mənim əzablarıma son qoyular. Mən də sənin xiffətini çəkib ağlayaram, çünki səndən başqa heç kəsim yoxdur».

Mənsur başını aşağı salıb, alçaq Yusifin dediklərinə cavab vermədən kəndxudanın dalınca gedirdi. O, ürəyində Allaha yalvarırdı ki, onun canını bu rəzil Yusifin əlindən qurtarsın. Yusif yolda qarşılarına çıxan hər kəsə: yerlisinə, əcnəbisinə, qadınına, kişisinə deyirdi: «Baxın! Baxın görün Cəfər Haşiminin kürəkəni necə şahanə yerişlə şəhəri gəzir!» Yusif bütün yol boyu Mənsuru alçaldıb, əskildirdi. Nəhayət, onlar darğanınn evinin qarşısına çatdılar. Kəndxuda Mənsuru darğanın yanına aparıb, olanları danışdı.

Bu arada Yusif gizlincə otağa girib darğaya yaxınlaşıb dedi: «Sən bunu tanıyırsan? Bu həmin alçaqdır ki, Cəfər onu qızının yanında tutub edam əmrini vermişdir, o isə sənin əlindən qaçmışdır. Ondan sonra bu yaramaz daha üç nəfəri öldürmüş və sənə mənsub kəndin kəndxudası - azad etdiyin qulunun evini yarmışdır. Sən isə darğasan, nə namusun var, nə vicdanın. Birinci dəfə onu əldən buraxdın, indi onun qaçmağına yol versən, necə olacaqdır? Hökmdara nə cavab verəcəksən? Əgər sən, həqiqətən, darğasansa, əmr et, onu elə indi assınlar. Yox, əgər sən bunu etməsən, sənin boynunu vuracaqlar. Əgər bu sağ qalsa, məni rüsvay edəcəkdir».

Darğa Yusifin bu zəvzəməsindən qəzəblənib od püskürdü. O durub öz əlləri ilə Yusifi vurub sərdi yerə və ona yüz yağlı çubuğu da özü vurdu. Sonra o əmr etdi ki, alçaq, lənətə gəlmiş kafiri zəncirləsinlər. Darğa Yusifə qışqırdı: «Ay rəzil, sən kimsən ki, mənimlə bu cür danışırsan! Atam deyilsən, qardaşım deyilsən! Kim sənə ixtiyar verib ki, mənim işlərimə qarışasan?!»

Bundan sonra darğa Mənsura yaxınlaşıb, əl-qolunu açdı və onu qucaqladı. «Ey cavan oğlan, əzizim, sən haralarda idin? Mən səni azad edəndən sonra hara oldun? Mən nə qədər axtardım səni, tapa bilmədim, axırda çarəsiz qalıb qayıdıb işimin başına keçdim». Mənsur çox sevindi və dedi: «Sən məni bir xəlvət yerə apar, mən orada sənə hər şeyi danışaram». Darğa onu xəlvət otaqlardan birinə apardı və Mənsur Yusifin onun başına gətirdiklərini, açdığı oyunları olduğu kimi, başdan ayağacan danışdı.

Darğa Mənsur Yusifin əməllərindən danışdıqca qəşş edib gülürdü. Mənsur söhbətini qurtardıqdan sonra da darğa uşun müddət gülməyini saxlaya bilmirdi. Nəhayət, o sakitləşəndən sonra əmr etdi ki, Yusifi bir zindana atıb, onu yaxşıca qorusunlar ki, qaçmasın. Darğa Mənsura dedi: «Heç narahat olma, Cəfər Haşimi xəlifənin yanına getmişdir, mən də indi oraya bir çapar göndərəcəyəm. Mən sənin haqqında, Yusifin sənin başına açdığı oyunlar haqqında bir məktub yazacağam və onu da çapara verəcəyəm. Mən istəyirəm ki, xəlifənin də bu işlərdən xəbəri olsun. Onda sənin bütün işlərin yoluna düşəcəkdir».

Darğa bunu deyib əmr etdi ki, Mənsur üçün bir dəst gözəl paltar gətirsinlər. O, Mənsura paltarlarını dəyişməyi buyurdu və sonra gözəl bir atın hazırlanmasını əmr etdi. O, gənci bir neçə etbarlı adamı ilə anasının yanına yola saldı.

Evə çatanda Mənsur gördü ki, evin qapıları qara rəngə boyanmış, ev əhli isə matəm içindədir. Mənsurun anası evdə deyildi, şahzadənin yanında idi. Ev əhli Mənsuru sağ-salamat, şux görüb çox sevindi. Həmin dəqiqə ananın dalınca adam göndərdilər ki, ona bu gözəl xəbəri çatdırsın. Ana, dayə, lələ də bu xəbəri eşidən kimi özlərini evə çatdırdılar. Ana oğlunun boynuna sarılıb, sevinc göz yaşlarını tökdü. Onlar Allaha bu mərhəmətinə görə şükürlər etdilər. Mənsur onlara Yusifin onun başına nələr gətirdiyini, ona görə hansı bəlalara düşdüyünü danışdı. Onlar Mənsurun bu zülmlərə necə tab gətirdiyinə məəttəl qalmışdılar. Mənsur onlardan şahzadəni xəbər aldı, onlar dedilər: «Sənin həsrətindən, xiffətindən zavallı şahzadə xəstə düşmüşdür».

Mənsur dedi: «Canım dayəm, yalvarıram, sevgilimə mümkün qədər tez çatdır ki, mən həmişəki kimi onun quluyam. Ona başıma gələnləri danış. Bilsin ki, onunla ayrılıqda mən bütün sınaqlardan çıxmışam».

Dayə o saat özünü saraya çatdırdı, olanları şahzadəyə danışdı. Şahzadə sevincindən dayə ilə lələyə hədiyyələr verdi. Hər birinə iki kisə qızıl və iki dəst qiymətli paltar bağışladı. Sonra şahzadə Mənsura üç kisə qızıl və qızıl saplarla işlənmiş nəfis bir dəst paltar göndərdi. Qaranlıq düşəndə dayə ilə lələ Mənsuru onun yanına gətirdilər. İki sevgili bir-birinə qovuşub, səhərdən-axşama, axşamdan-səhərəcən deyib güldülər. Mənsur Yusifin onun başına gətirdiklərindən, onu hansı bəlalara saldığından, nələr deyib, nələr danışdığından, nə fəndlər işlətdiyindən danışdıqca şahzadə gah pis olur, gah təəccüblənir, gah da ürəyi gedənəcən gülürdü. Bu minvalla onlar düz bir həftə deyib-gülüb, yeyib-içdilər. Bir həftədən sonra Mənsur darğanın yanına getdi. Darğa Yusifi zindanda saxlayırdı, amma yeyib-içməyini kəsmirdi, hər gün ona yeməklər göndərirdi. Bütün bunlara baxmayaraq, Yusif yenə də susmurdu, qışqırırdı: «Siz canınızı məndən qurtara bilməyəcəksiniz!»

Bu zaman kəsiyində isə darğa olan-keçənlərin hamısını Xəlifəyə çatdıra bilmişdir. Xəlifə bütün bunlara həm çox təəccüb etmiş, həm də məyus olmuşdur. O əmr etmişdir ki, Mənsuru da, Yusifi də Bağdada, onun yanına göndərsinlər. Darğa möminlərin əmiri Harun ər-Rəşidin əmrini yerinə yetirərək Mənsuru şahlara layiq dəbdəbə ilə, Yusifi isə əlləri, ayaqları qandallı paytaxta çatdırdı və onları xəlifənin keşikçilərinə təhvil verdi. Mənsur xəlifə üçün şahanə hədiyyələr də gətirmişdir. Darğa əvvəlcə özü xəlifənin yanına keçib, onun əmrini yerinə yetirdiyini söylədi. Xəlifə buyurdu ki, Mənsur da, Yusif də onun hüzuruna gəlsinlər. Mənsur içəri keçib xəlifənin qarşısında baş əyib, yeri öpdü və gətirdiyi hədiyyələri təqdim etdi. Xəlifə Mənsura diqqət edib, onu çox bəyəndi. Xəlifə gördü ki, bu gənc çox yaraşıqlı, xoşrəftar, cilalanmış davranışlı, yerini bilən birisidir. Xəlifə ona buyurdu ki, əyləşsin və başına gələnlərin hamısını danışsın.

Mənsur öz hekayətini olduğu kimi, başdan ayağacan danışdı. Xəlifə onu diqqətlə dinləyirdi. O gah, qəzəblənir, gah təəccüblənir, gah da gülürdü. Bu hadisələrin hamısı xəlifədə Mənsur haqqında müəyyən təəssürat yaratdı. O dedi: «Cəfərin qızını çox sevirsən?» Mənsur içindən dərin bir ah çəkdi. Xəlifə işin nə yerdə olduğunu anladı və Cəfərin onun yanına gəlməsini buyurdu. Cəfər gələndə isə dedi: «Dayı, de görüm, sənin qızın, mənim bacım kimin hökmü altındadır?» Cəfər Haşimi dedi: «Qızım da, mən də və bu dünyada yaşayanların hamısı sənin hökmün altındadır». Dayısından bu cavabı alan xəlifə qazı ilə hakimin gəlməsini buyurdu. Onlar gələn kimi dayısı qızı ilə Mənsurun kəbinlərini kəsdirdi, Xəlifə dayısı qızının mehrini dayısına verdi və gəncləri qanuni ər-arvad elan etdi. Yusifi isə əmr etdi ki, zindana salsınlar. Sonra isə əvvəlcə dilini kəssinlər, sonra gözlərini çıxarsınlar və daha sonra gündə bir tikəsini kəsə-kəsə, işgəncə verə-verə öldürsünlər. Beləliklə, bu dünya kafir, dələduz Yusifin murdar nəfəsindən təmizləndi, o bu dünyanı tərk edib, cəhənnəm odunda yandı.

Xəlifə əmr etdi ki, belə qançıxaran dəlləkləri heç kəs yaxına qoymasın. Əmr etdi ki, onlara şəhərdə yaşayıb, işləmək qadağan edilsin. Məhz buna görə uzun zamanlar qançıxaran dəlləklər şəhərdən kənarda yaşayardılar.

Bundan sonra Mənsur darğa ilə bərabər Bəsrəyə yollandı. Onun əynində şahlara layiq qızıl saplarla işlənmiş paltar var idi. Onun atı gözəl cins ərəb atı idi. Atın yəhəri, yüyəni, üzəngisi qızılla işlənmişdir. Darğa şəhərə xəbər göndərmişdir ki, şəhəri bəzəyib, toy tədarüklərini görsünlər və Mənsuru qarşılamaq üçün şəhərin bütün adlı-sanlı aqilləri, alimləri, müdrikləri, tacirləri, əmirləri, əyanları - bir sözlə, hamı şəhər darvazalarının qarşısına toplaşsın. Mənsuru böyük hörmət-izzətlə qarşılayıb şəhərə gətirdilər. Bütün şəhər bu möhtəşəm toyda iştirak etdi. Sonra gəlini Mənsurun evinə apardılar. Onların çoxlu övladı oldu və onlar xoşbəxt uzun ömür sürdülər. Mənsur ilə darğanın dostluğu get-gedə daha da möhkəmləndi. Onlar bir-birlərindən ayrı dura bilmirdilər. Hər imkan olduqca görüşür, vaxt keçirirdilər. Mənsur hər il şahlara layiq pay-pürüşlə xəlifənin

hüzuruna gedir, o isə ondan Yusifin onun başına gətirdiklərini danışmağı xahiş edərdi, Mənsur da canla-başla danışardı. Xəlifə isə bu hekayətdən həzz alardı.

*Bu hekayətdən çox faydalı nəticələr çıxarmaq olar:*

*Birincisi, abırsız, həyasız, üzlü adamlarla ünsiyyət xeyir gətirməz.*

*İkincisi, hər kəs malının qədrini bilməlidir, onu dağıtmamalıdır.*

*Üçüncüsü, kobud, bədxasiyyət adamlardan uzaq durmaq məsləhətdir.*

*Dördüncüsü, heç kəs heç vaxt sirrini başqasına açmamalıdır.*

*Beşincisi, ancaq Allaha bel bağlamalıdır. Allah böyükdür, o heç vaxt bəndəsini darda qoymaz.*

Allah bu kitabın üzünü köçürənlərə, oxuyanlara, dinləyənlərə və müəllifinə rəhm eləsin! «Amin» deyən dillər var olsun!

## İYİRMİ DOQQUZUNCU HEKAYƏT

# Əbül-Əla Kirmani, onun oğlu, Naxçıvana səfərləri və sərgüzəştləri haqqında hekayət

Belə danışırlar ki, keçmiş zamanlarda Kirman əyalətinin Əbül-Əla adında çox varlı, qüdrətli, ədalətli, səxavətli, cəsarətli bir hökmdarı var idi. O çox möhtəşəm, qüdrətli, yüksək səviyyədə silahlanmış orduya malik idi. Onun bu cəhətləri bütün ətrafda məşhur idi. Onun haqqı, ədaləti, qorxmazlığı, səxavəti dillərdə dastan olmuşdur. O həm də çox nikbin, həyatsevər insan idi. O, tez-tez məclislər qurar, yeyib-içər, yeyib-içdikdən sonra isə daha çox əliaçıqlıq edərdi, xəzinəsində olanları qucaq-qucaq paylayardı.

Bu hökmdarın bir aycamal yeniyetmə oğlu var idi. Bu yeniyetmə ağlı, zəkası, rəftarı, cəsurluğu ilə özünə şəhər əhlinin ürəyində xüsusi yer eləmişdir. Allah-təala ondan şahlara xas olan heç bir şeyi əsirgəməmişdir. O həm yaxşı bir çapar, həm məharətli bir oxatan, həm də bacarıqlı ovçu kimi ad qazanmışdır. Ona çovqan oyununda tay olan birisi yox idi. O şeiriyyatı, musiqini, başqa elmləri dərindən bilirdi. Onun çox gözəl bəlağətli nitqi var idi. Şahzadənin adı Muxtar idi.

Bir dəfə hökmdar öz yaxın adamları ilə məclis qurub oturmuşdur. Muxtar da həmişəki kimi atasının başının üstündə onun ağzından çıxan istənilən əmri icra etməyə hazır vəziyyətdə durmuşdur. Hökmdar öz yaxın ətrafı ilə şərabdan içib əylənirdi. Bu vaxt keşikçilərdən biri daxil olub dedi: «Şah sağ olsun! Şəhərə yüklə dolu bir karvan gəlir». Hökmdar dedi: «Get, mənim adımdan buyur ki, yükü xəzinəyə boşaltsınlar». Keşikçi gedib hökmdarın əmrini yerinə yetirib qayıtdı. Bu vaxt başqa bir keşikçi içəri daxil olub bir başqa karvanın gəldiyini xəbər verdi. Hökmdar bu dəfə də eyni əmri verdi. Muxtar xəzinəyə göz gəzdirib gördü ki, burada ağlasığmaz var-varidat vardır. Muxtar bu var-dövlətin qarşısında donub qalmışdır.

Sonra Muxtar atasının yanına gəlib dedi: «Ata! Sən ömrün boyu Allaha şükürlər edib, dualar etməlisən. O səndən heç bir şey əsirgəməmişdir. Sənin ağlasığmaz var-dövlətin, mal-mülkün, geniş əyalətin, qüdrətli ordun, əyan-əshabələrin və üzünü qara, başını aşağı etməyən oğlun vardır».

Əbul-Əla dedi: «Doğrudur, oğlum! Dediklərinin hamısı həqiqətdir». Əbul-Əla bunları deyib səcdəyə getdi və Allah-təalaya şükürlər etdi. Birdən Muxtar dilləndi: «Ata, sən sərxoş halda, bu qədər mey-şərab olan yerdə Allaha dualar edirsən, məgər o sənin dualarını qəbul edərmi?»

Hökmdar dedi: «Yox, oğlum, doğru demirsən. Allah böyükdür və insanın istənilən halında etdiyi duaları qəbul edir, təki onlar ürəkdən gələn və səmimi olsun, amma əgər sən bunu doğru hesab etmirsənsə, mən Allah-təala qarşısında tövbə edib bir də mey-şərab içməyəcəyəm. Mən eləcə də söz verirəm ki, Allah qismət edərsə, mütləq Həcc ziyarətinə gedəcəyəm və bütün günahlarıma, yol verdiyim səhvlərə görə tövbə edib haqq yolunu tutacağam».

Muxtar dedi: «Ata, Həcc ziyarətinə getməyin çox vacibdir, amma indi ondan da vacib işlər vardır. Məmləkətdə haqqı, ədaləti, doğru-dürüstlüyü möhkəmləndirmək, xeyriyyəçiliyi genişləndirmək və ən əsası, möminlərin gününü qara edən kafirlərə qarşı mübarizəni daha da gücləndirmək lazımdır. Sən mənə söz ver ki, mənimlə bərabər kafirlərə qarşı vuruşacaqsan».

Hökmdar dedi: «Mən sənin dediklərinin hamısını qəbul edirəm». O həmin dəqiqə ayağa qalxıb bütün meyləri, şərabları töküb dağıtdı, özü isə hamama gedib yuyundu, təmizə çıxdı, dəstəmaz alıb namaz qıldı. O bütün bəd, pis əməllərdən tövbə edib haqq yolunu tutdu. O, bütün yetimləri, kimsəsizləri, kasıbları, yoxsul olanları hər bir şeylə təmin edib xəzinəsini qucaq-qucaq payladı. Bununla yanaşı o, düşmənə qarşı yürüş tədarükləri ilə də məşğul olmağa başladı. Bunları görən Muxtar çox sevinirdi. O, atasına yaxınlaşıb təzim edib, əyilib yeri öpüb dedi: «Allaha şükürlər olsun! Mən ən ümdə arzuma çatdım». Atası Muxtarın alnından öpüb dedi: «Get, xəzinəni aç, qoşunu Din yolunda müqəddəs savaş üçün ən yüksək səviyyədə hazırla!»

Muxtar xəzinəyə gedib, qoşunu lazım olan silah-sursatla təmin etdi, onların məvaciblərini və ehtiyat tədarüklərini təşkil etdi və tam hazır vəziyyətdə atasının əmrini gözlədi.

Savaş hazırlıqlarının getdiyindən xəbər tutan döyüşçülər hər tərəfdən Muxtarın başına toplanmağa başladılar. Muxtar münasib günlərdən birində qoşununu çölə çıxardı və ətraf hökmdarlardan da qoşunlarının onlara qoşulmasını təklif etdi. O hər gələn döyüşçüyə qızıl-gümüş verir, onu silah-sursat, atla təmin edirdi. Çox keçmədi, onun arxasında artıq möhtəşəm bir ordu durmuşdur. O, ordunu sıraya düzüb, baxış keçirdikdə gördü ki, tabeliyində iyirmi min yüksək səviyyədə silahlanmış döyüşçüdən ibarət bir ordu vardır. Bundan sonra Muxtar Kirmandan tərpənib kafirlərə qarşı yürüşə qalxdı.

Şəhərdən şəhərə keçə-keçə onlar Təbrizə gəlib çıxdılar. Muxtar burada bir daha orduya baxış keçirdi və gördü ki, artıq iyirmi beş minlik gözəl silahlanmış ordunun başındadır. Onlar Təbrizdən Naxçıvana tərəf yollandılar. Naxçıvanın səkkiz fərsəngliyində Əbdül-Üzza adında çox cəsur hökmdarı olan kafirlərə mənsub Xərəşnə adlanan bir alınmaz qala var idi. O, yaxşı silahlanmış, mükəmməl bir orduya malik idi. Əbdül-Üzza çox təcrübəli döyüşçü idi və hərbi işi də mükəmməl bilirdi. O, işini həmişə ayıq başla, hər bir şeyi nəzərə alaraq görürdü. Müsəlmanların içində onun həmişə öz adamları olurdu və istənilən məlumatı ona vaxtında çatdırırdılar. Hər hansı karvanın yaxınlaşmasından xəbər verəndə məsləhət bildiyi adamlarından göndərirdi, onlar da karvanı tutdurub qalaya salırdılar. Başqa məqsədlərlə gələnlər, keçənlər də həmişə nəzarətdə saxlanılırdı. İş o yerə gəlib çıxmışdır ki, Əbdül-Üzzanın, Xərəşnə kafirlərinin qorxusundan quş quşluğu ilə Naxçıvana yaxın düşə bilmirdi. Hal-hazırda həmin Xərəşnə qalası Tiflis qalası kimi tanınır.

Elə ki Əbül-Əlagil Naxçıvana çatdılar, Muxtar ordudan on min əsgəri ayırıb, Xərəşnəyə tərəfə yeridi. Yolda onların qarşısına Əbdül-Üzzaya mənsub bir neçə kiçik qala çıxdı. Muxtar onlardan birincisini darmadağın edib, yerlə-yeksan etdi. Bu qala indi Şərzəb qalası adlanır.

Muxtar bu qalanı dağıtdıqdan sonra bir neçə yüz əsirlə Naxçıvana-atasının yanına qayıtdı. Əsirləri orada qoyub növbəti qalanı almaq üçün yenə yola düşdü. Bu qalanı da dibindən vurub uçurduqdan sonra üçüncü qalanı almaq üçün səfərə çıxdı və bu minvalla Xərəşnə yolunda bir-birinin ardınca bir neçə qalanı tutub darmadağın etdi.

Elə ki olanlar Xərəşnədə Əbdül-Üzzanın qulağına çatdı, o, beş yüz döyüşçü ayırıb onların qarşısına yolladı, özü isə iki min xüsusi seçilmiş döyüşçü ilə gizli yol ilə səssiz-səmirsiz onların ardınca çıxdı. Buranın təbii şəraiti imkan verdiyi üçün Əbdül-Üzza bir neçə yerdə pusqu qurdu. Muxtar beş yüz nəfərlik düşmən dəstəsinin ona tərəf gəldiyini bilən kimi öz qoşunu ilə onlara qarşı çıxdı. Kafirlər özlərini vuruşan kimi göstərib, amma tez bir zamanda dönüb qaçdılar.

Muxtarın kafirin qurduğu pusqulardan xəbəri yox idi. O, qaçan döyüşçüləri təqib edib dallarınca qaçanda pusquya düşür və düşmən tərəfdən əsirliyə götürülür. Onun iki-üç min döyüşçüsü həlak olur, yerdə qalanları isə qaçıb canlarını qurtarmağa cəhd edirlər, amma Əbdül-Üzzanın adamları onları təqib edib, əllərinə keçəni vurub öldürürdü. Beləliklə, Muxtarın qoşunundan, demək olar ki, əsər-əlamət qalmadı. Bir neçə sağ qalmış döyüşçü isə qaçıb özlərini zorla qurtara bildilər. Onlar özlərini Əbül-Əlaya çatdırıb, başlarına gələnləri, Muxtarın əsir düşməsini danışdılar.

Oğlunun başına gələnləri eşidən Əbül-Əla başına, dizinə döyüb, fəryad etdi. O, üç-dörd gün yerdə oturub, yaxınına heç kəsi qoymadı. Heç kəslə görüşüb, dərdləşmədi, heç kəslə bölüşmədi. Matəm çadırı qurub üzünü divara çevirib oğlunu ağlayıb, göz yaşları tökdü. Bir müddətdən sonra onun yanında iki-üç quldan başqa heç kəs qalmadı. Ordusu dağıldı, qul-nökərləri, əyan-əshabələrinin hərəsi bir tərəfə getdi.

Əbül-Əla Naxçıvanda, qurduğu matəm çadırında öz dərdi ilə baş-başa qaldı. O, tez-tez təkrar edirdi:

«Canı canımdan olan, taleyin mənə bəxş etdiyi sevimli oğlum,
Səndən ayrı düşəni ürəyimin qanı ilə susuzluğumu yatırıram».

Əbdül-Üzza isə Muxtarı əsir götürdükdən sonra əmr etdi ki, onun əllərini də ayaqlarını ağır zəncirlərlə qandallasınlar. Onu qandallayıb qazamata atdılar. Burada ondan başqa dustaqlar da var idi. Muxtar bu halında da namazını qılıb, dualarını edir, acı taleyini ağlayırdı. Muxtarın olduğu bu qazamat Əbdül-Üzzanın sarayının yaxınlığında idi. Əbdül-Üzzanın dünyalar gözəli, yaraşıqda, qamətdə, ədada tayı-bərabəri olmayan bir qızı var idi. Bu qız gözəlliyi ilə bərabər cəsurluğu, cəsarəti ilə seçilirdi. Gərək olsa idi yüz cəngavərin qarşısına tək çıxmaqdan çəkinməzdi. Onun, canı qədər istədiyi və heç zaman ayrılmadığı bir dayəsi də var idi. Qonşu dövlətlərin hökmdarları dəfələrlə bu qıza elçi düşmüşdür, amma ona çox bağlı olan, ondan ayrılığı heç ağlına belə gətirə bilməyən atası elçilərin hamısını rədd edirdi.

Qız ərəb-fars dillərini öyrənirdi, onun dayəsi də bu dilləri bilirdi. Qız hər dəfə qalanın başına çıxanda Muxtarın avazla, gözəl səslə »Quran»oxumasını eşidirdi. Onun qəmgin nəğmələri qıza çox təsir edirdi. Bu səsi daha yaxşı, daha yaxından dinləmək məqsədi ilə qız damların üstü ilə keçib qazamatın olduğu qalanın damına keçməyi öyrənmişdir. Bir dəfə o bu gözəl, insanı bihuş edən səsin sahibini görmək istədi. Qız bacadan baxanda on dörd günlük ay kimi işıq saçan, yarlı-yaraşıqlı bir gənci gördü. Muxtar qolları zəncirli, ayaqları qandallı vəziyyətdə bir küncdə oturmuşdu. Qız Muxtarı görən kimi eşq atəşi onun ürəyini bürüdü, taqətini əlindən aldı, o, yerinə pərçimlənib qaldı. Qız nə qədər çalışsa da, gözlərini Muxtardan çəkə bilmədi. Qız düz bir saat sakitcə durub Muxtarın gözəlliyini, nəcibliyini seyr etdi. Sonra çətinliklə özünü toplayıb aşağı düşüb öz otağına keçdi. Bir qədər keçəndən sonra bir az özünə gəlib dayəsinə dedi:

«Əzaba, ağrıya düçar olmuşam, mənə kömək et».

Dayə dedi: «Canım sənə qurban olsun. Nə olub, nə baş verib?» Qız dedi: «Havamı dəyişmək, gəzişmək, ətrafı seyr etmək üçün dama çıxmışdım. Həmişəki o ilahi səsi eşitdim. Kimin belə həzin oxuduğunu öyrənmək üçün o biri dama keçib bacadan baxanda gördüm ki, orada məhbuslar var, amma aralarında seçilən, fərqlənən bir gənc

də var ki, on dörd günlük ay kümü ətrafa nur çiləyir. Onun əlif qaməti «nun» kimi əyilmiş, gül ləçəklərinə bənzəyən dodaqları zəfəran kimi saralmışdır. Qollarında ağır zəncir, ayaqlarında ağır qandal olan bu gənc həmin məftunedici səsin sahibi imiş. Onu gördüyüm an ağlım başımdan çıxdı, istədim hisslərimi açım, deyim, amma özümü ələ alıb, otağıma qayıtdım. Dayə, sənə yalvarıram mənə kömək et».

Dayə dedi: «Ay gözümün işığı, dünyada yüz minlərlə şah, hökmdar, şahzadə sənin eşqindən yanıb kül olur, gözlərini yumduqda ancaq sənin surətini görürlər. Atan onların heç birini sənə layiq bilmədi, sən özün də onların hamısını rədd etdin. Sənə elçi düşmüş adlı-sanlı, əsil-nəcabətli heyranlarını rədd edib, bu biçarə, bir tikə çörəyə möhtac, sabahı bəlli olmayan məhbusamı könlünü vermisən? Bir düşünmürsənmi ki, səni nə qədər qınayan olar, adına söz qoşan, ardınca kəc baxan olar? Bu aqibəti məlum olmayan, göylə yer arasında çabalayan məhbusdan nə gözləmək olar? Sənə yalvarıram, düşmənlərə dil vermə, bu məhvedici fikirdən daşın. Yolun başında ikən onun səni haraya aparıb çıxaracağını düşün, hisslərinin başından nə ilə nəticələnəcəyini gör ki, peşman olub, çarəsiz qalanda gec olmasın.

Allah bir imanlı bəndə yetirsin,
Məhbusun sevgisini isə silib at ürəyindən».

Dayəsindən bu cavabı alan qız dərddən ilan kimi qıvrılıb nalə çəkdi və dedi:

«Nəyə gərək yersiz sözlər, nəyə gərək boş qayğılar,
Üzülmüş başım qızıl teştə qoyulmuşdur.
Bircə anlıq təsəvvür et, əzablar içində alışıb-yanmaq necə acıdır,
Təsəvvürünə gətir, mənə onsuz nəfəs almaq necə çətindir.

Əgər mənim dediklərimi anlamaq istəyirsən, qalx damın üstünə, bacadan bax. Əgər o gənci görüb onun ürəkləri ovsunlamağa qadir olduğunu anlasan, məni də başa düşüb, düşdüyüm bu darlıqda tək qoymayacaqsan».

Dayə əziz balasını sakitləşdirmək üçün ürəyini almaq niyyəti ilə damın üstünə çıxdı. Bacadan baxanda gördü ki, Muxtar namazını qılıb bitirmiş, göz yaşlarını axıda-axıda canamazını yığır və astaca bu şeiri oxuyur:

«Dostlar məclis qurub deyib-gülərkən,
mən bədbəxtlik zəncirləri ilə buxovlanmışam.
Nəyə görə mən göy qübbəsinin qəzəbinə gəlmişəm
Bütün arzularım param-parça olmuşdur, indi ürəyimdə dərd
Acı taleyin qismətimə nə göndərəcəyini gözləyirəm».

Dayə Muxtarı görüb onun füsunkar görünüşünün qarşısında heyrətə gəldi. O anladı ki, bu gözəlliyin, kamilliyin qarşısında əskilmək, göz yaşları tökmək belə azlıq edər. Dayə də yetirməsi kimi bu gözəlliyin qarşısında söz tapa bilmədi və fikirləşdi: «Allaha and olsun, mənim qönçə kimi bəslədiyim balamın bu gəncə aşiq olması artıq mənə təəccüblü gəlmir, çünki bu gənc, həqiqətən, sevilməyə layiqdir». Dayə bir daha Muxtara baxıb, ona ürəyi ağrıdı və ağladı.

Dayə qızın yanına qayıdıb dedi: «Mənim qönçə balam, mənim göz bəbəyim kimi yetişdirdiyim balam, sənin bu gəncə eşqini anladım və sənə haqq qazandırdım. O, həqiqətən, sevilməyə layiqdir. Onun qədd-qaməti, duruşu, yerişi, görünüşü o qədər cilalıdır ki, adam istər-istəməz onun şahzadə olduğunu düşünür. Əgər mənim bu fərziyyəm həqiqətdirsə, gərək tələsməyək. Sən bu işi mənə həvalə et, mən yavaş-yavaş hər şeyi yoluna qoyum. İlk növbədə, onun kim olduğunu, haradan gəldiyini və nəyə görə həbs olduğunu öyrənmək lazımdır».

Qız dayənin ayaqlarına düşüb, əllərini öpməyə başladı. Dayə qızcığazı sakitləşdirib, özü isə hökmdarın yanına getdi. Dayə qızın atasına dedi: «Qızın bu gecə çox vahiməli bir yuxu görmüşdür və çox halsızdır, sanki uzun müddətdir xəstədir. İzin ver, bir neçə tiyan yemək hazırlatdırıb, yetim-yesiri, məhbusları doydurum, onlar da sənin qızına dualar etsinlər ki, xata-bala ondan uzaq olsun».

Hökmdarın bu qızından başqa övladı yox idi və o, qızını həyatından çox sevirdi. Bu səbəbdən dayəyə necə məsləhət bilirsə, elə də etməyinə izin verdi. Onu ancaq qızının əmin-amanlığı, rahatlı-

ğı maraqlandırırdı. Dayə buradan çıxıb qızın yanına getdi. O, olanları qıza danışdı. Sonra isə bir neçə növ yemək hazırladıb, yetim-yesirə, fağır-füqəraya paylatdı. Məhbusların payını isə dayə özü boynuna götürdü. O, məhbuslara yemək paylaya-paylaya gəlib Muxtara çatdı. Ona nəvaziş göstərib dedi: «Mən buraya sənə görə gəlmişəm, yerdə qalanları səninlə görüşməyim üçün bir vasitədir. Sən mənə de görüm, kimsən, haradan gəlmisən, nə səbəbdən zindana düşmüsən?»

Muxtar özü haqqında, ailəsi, yaşadığı şəhər haqqında hər şeyi təfsilatı ilə danışdı. Dayə dedi: «İlahi! Sən demə, mənim həmvətənimsən, mən də Kirmandanam və deməli, sənə kömək etmək mənim borcumdur. Mən əlimdən gələni edib, sənin qeydinə qalacağam».

Muxtar dayəyə minnətdarlığını bildirib, ona dualar etdi. Dayə qızın yanına qayıdıb, olanların hamısını ona danışdı. Qız sevindiyindən bilmirdi nə etsin. O, tez çıxarıb dayəyə bir kisə qızıl və çox bahalı, nəfis bir dəst paltar bağışladı. Qız dayəsini öpüb qucaqladı və dedi: «Dayəcan, yaxşı olardı sabah o gəncə bir dəst yaxşı paltar aparasan». Dayə dedi: «Baş üstə! Mən böyük məmnuniyyətlə bunu edərəm».

Qız həmin dəqiqə bir dəst gözəl paltar çıxarıb dayəyə verdi. Dayə isə öz növbəsində, heç kəs şübhələnməsin deyə zindandakı bütün dustaqlara bir dəst paltar hazırladı. Zindana gedəndə bütün məhbuslara paltarları paylayıb, qızın verdiyi paltarı isə Muxtara çatdırdı.

Muxtar qızıl saplarla işlənmiş paltarı geyinib çox sevindi, amma bu qadının onun qeydinə qalmasının səbəbinin nə olduğu onu çox maraqlandırırdı. Dayə Muxtara dedi: «Ürəyini sıxma, sakit ol, Allah böyükdür, əminəm ki, sən tez bir zamanda buradan azad olacaqsan».

Muxtar ona minnətdarlığını bildirib dedi: «Anam, mən artıq bir ildir ki, zindandayam və bu müddətdə bir Allah bəndəsi mənə bir quru çörək də verməmişdir. Sən mənə bu qədər yaxşılıq edib, qeydimə qalırsan, mən heç bilmirəm bunun əvəzindən necə çıxacağam. Səndən çox xahiş edirəm, mənə olan bu diqqətin, mərhəmətin səbəbini izah et».

Onda dayə şahzadənin ona aşiq olduğunu söylədi. Muxtar dedi: «Ay anam, axı indi, hal-hazırda mənim nə varım, nə dövlətim, nə malım, nə mülküm var. Mən bu saat çox acınacaqlı bir vəziyyətdəyəm. Mənim bu günümdə bir şahzadə mənə necə aşiq ola bilər? Qollarım zəncirlənmiş, ayaqlarım qandallarda ikən şahzadə qızın mənə aşiq olmasına inana bilmirəm. Mən şahzadə olanda, gözəl, qüdrətli olanda heç mənə belə aşiq olan yox idi. İndi zindanda saralıb-solub əzablar içində ikən, zəncirlər, qandalların ağırlığı altında əzilib-sızlayıb göz yaşları içində boğularkən bir əziz-xələf şahzadə qızın mənə aşiq olmasına heç cür inana bilmirəm. Allah qorusun. Allah eləməsin, mən başımı itirib bunlara inanım. Qorxuram, gərəksiz etibarımın nəticəsində başımdan olam. Dayəcan, səni and verirəm Allaha, belə şeylər danışma. Allah etməmiş, Əbdül-Üzzanın qulağına çatarsa, canımı alar». Dayə Muxtarı dinləyib güldü və dedi: «Bu barədə tam arxayın ola bilərsən, belə ki:

Bəxtin atdığı oxlardan qurtulacaqsan,
Sənə yazılmış qisməti sanki aynada görürəm.

Nəhayət, Muxtar dayənin səmimiliyinə inandı, ona minnətdarlığını bildirib, dualar etdi. Dayə qızın yanına qayıdıb bütün olanları danışdı. Sonra onlar ikilikdə qalanın başına qalxdılar və bacanın yanına gəldilər. Dayə bacadan bir dənə balaca çınqıl atdı. Muxtar başını qaldıranda bacada günəş kimi hər tərəfə nur çiləyən, nərgiz gözlü camal gördü. Muxtar bir baxışdan ona aşiq oldu.

Muxtarın ürəyində elə bir eşq atəşi alovlanmışdı ki, o, yerindən tərpənə bilmirdi, onun gözlərindən yaş leysan yağışı kimi axırdı. Onun göz yaşlarını görən şahzadə qız başa düşdü ki, Muxtar da ona aşiq olmuşdur. Onun ürəyindəki məhəbbət atəşi daha da alovlandı, ürəyindəki hiss yüz min misli ilə artdı. Qız dayəsi ilə otağına qayıtdıqda onu qarşısında əyləşdirib dedi: «Dayə can, əzizim, mənim vəziyyətimi, halımı başa düş, anla. Mənə kömək et, çünki mənə kömək etməsən, məhv olacağam. Səni and verirəm uca Allaha, bir çarə tap. Nəyin bahasına olursa, olsun, bizi görüşdür, bizə şərait yarat ki, bir yerdə vaxt keçirək».

Dayə dedi:

«Səbirdir dünyada ən gözəl dərman,
Səbirlə mümkündür çatmaq səltənətə.
Hər iki dünyada elə zülm-zülmət yoxdur ki,
O [səbir] onları külə döndərməsin».

Bundan sonra dayə şahzadə qızı sakitləşdirməyə başladı və dedi: «Darıxma, mən bilirəm sizi qovuşdurmaq üçün nə etmək lazımdır. İstəyirsən, səni zənbilə otuzdurub bacadan onun yanına salım, istəyirsən zənbili salım, onu zənbillə yuxarı çəkib sənin yanına gətirim». Qız ucadan dedi: «Necə məsləhət bilirsən, elə də et. Sən bunu etməsən, xiffətdən özümə qəsd edəcəyəm». Qızın bu sözlərini eşidən dayə söyüd yarpağı kimi əsdi, gözü qaraldı, dünya başına dar gəldi və dedi:

«Ölçüsü olmayan eşq, məhəbbət
İnsanda lazımsız xislət yaradır.
İnsanı yolundan sapındırmağa qadir olur,
Uçuruma itələyib məhv edir».

Dayə qızı qucaqlayıb dedi: «Ağıllı ol, qızım, tələsmə, səbir elə. Sən səbirli ol, mən də sizin işlərinizi düzüb-qoşmaqla məşğul olum». Dayə bunları deyib Muxtarın yanına yollandı və ona dedi: «Bil ki, ay Muxtar, bizim şahzadə sənin xiffətindən taqətdən düşmüşdür. Onun nə gecəsi var, nə gündüzü. O deyir:

Yox, sənin qapında gözləməyə taqətim yoxdur,
Gəl, ya da mən gəlim ağuşuna!»

Muxtar dedi: «Əziz dayə, mənim qollarım zəncirli, ayaqlarım qandallıdır, bunların ağırlığından heç tərpənə bilmirəm. Mən necə onun yanına gedə bilərəm? Sən bizə yardım et, qoy o mənim yanıma düşsün, çünki mənim heç imkanım yoxdur».

Dayə gəlib olanları qıza danışdı. Qız o saat dilləndi: «Dayə can, dayə can, durma, tələs, get, yaxşıca bax gör mən bacadan içəri düşə bilərəmmi?» Dayə çıxıb çox ehtiyatla bir möhkəm zənbil və bir də möhkəm ip tədarükü gördü. O, şahzadənin yanına gəlib dedi:

«İndi isə səbirli ol, gecə düşsün, hamı yatsın, mən də səni bacadan aşağıya düşürüm».

Qız bütün gün ürəyinin qanını içə-içə gecənin düşməyini gözlədi. Elə ki gecə düşdü, dayə ilə qız qalanın başına qalxdılar. Dayə qızı zənbilə oturdub, ehmalca ipi boşaltmağa başladı və zənbil aşağıya düşdü. Muxtar şahzadənin onun yanına düşdüyünü görəndə həyəcandan dili tutuldu, huşunu itirdi. Bir az özünə gələndə Muxtar zəncirlərin, qandalların ağırlığına baxmayaraq, ayağa qalxıb şahzadənin qarşısında təzim etdi və dedi: «Ey sərv boylum, çinar qamətlim, mənim vəziyyətimdən xəbərdarsan. Bilirsən ki, bir məhbusam və bilirsən ki, məhbusun halı, vəziyyəti bundan yaxşı ola bilməz, ona görə də məni məzur tut». Qız onun başını qucaqlayıb dedi: «Allaha şükürlər olsun ki, məni səninlə görüşdürməklə bəxtəvər etdi. De görüm, sən necə, xoşbəxtsənmi?»

Muxtar dedi:

«Nə qədər ki ruhum canımdadır,
Taleyimin yükünü çəkməyə hazıram.
Taleyimə vaxtsız ölüm yazılmışsa da,
Sağ da olsam, ölsəm də, sənə sadiq olacağam».

Muxtarın bu sözlərindən sevinən qız dedi: «İndi isə mənə başına gələnləri, əsirliyə necə düşdüyünü danış. Necə oldu ki, bu zindana düşdün?» Muxtar özü haqqında hər bir şeyi olduğu kimi danışdı. Onu dinləyən qız Allaha şükürlər edib dedi: «Şükürlər olsun Yaradana ki şahzadəyə aşiq olmuşam».

Mənsur dedi: «İndi mən yenə də şah oldum, çünki artıq sənin qulunam!» Muxtarın bu sözləri qızın çox xoşuna gəldi, o, yenə də Muxtarın boynuna sarıldı və onlar səhər açılanacan vaxt keçirdilər. Muxtar ürəyində deyirdi: «Bu qız kafirlərdəndir, mən isə tək Allaha sitayiş edənəm. Doğrudur, mən kafirlərin təməl daşını tərpədə bilmədim, amma, heç olmasa, kafir ürəyinə yiyələndim:

Hələ ki uca Allah bizə rəhm edir,
Görək taleyimiz bizə nə hazırlayır».

Sonra dayə gəlib ipi tərpədərək qayıtmaq vaxtının çatdığını bildirdi. Qız zənbilə oturdu, dayə onu çəkib çıxardı. Dayə qızın üzündəki işığa, gözlərindəki qığılcıma heyran oldu və dedi:

«Özümü heç vaxt belə bəxtəvər hiss etməmişəm».

Qız dayəsini qucaqlayıb, öpüb dedi: «Ay mənim sevimli dayəm, mənim sadiq sirdaşım, mən ömrümün sonunacan sənin borcundan çıxa bilməyəcəyəm».

Artıq gənclər bir-birlərindən ayrı dura bilmirdilər və hər iki gündən bir qız zənbilə oturub Muxtarın yanına düşürdü. Onlar orada gözəl vaxt keçirir, deyib-gülür, dərdləşirdilər. Gecədən bir qədər keçmiş dayə gəlib qızı bacadan çıxarırdı və onlar öz otaqlarına qayıdırdılar. Onlar bu minvalla bir xeyli vaxt görüşdülər. Allahın qədəri ilə qızın boynuna uşaq düşdü. Dörd ayı olanda qızın qarnı artıq hiss olunmağa başladı. O, dayəsinə dedi: «Canım dayəm, artıq qarnım hiss olunur, qorxuram atam xəbər tutar, biabır olaram. Çox xahiş edirəm bir çarə qıl, bu uşaqdan qurtulum». Dayə nə qədər dava-dərman etdi, heç biri bir nəticə vermədi. Axırda əlacsız qalıb qıza dedi: «Ay qızım, sən qorxma, atan, onsuz da, səni ayda bir dəfə yanına çağırtdırır. Onda da ya elə durarsan ki, səni arxadan görsün, ya da özünü xəstəliyə vurarsan və uşaq doğulana kimi gözünə görünməzsən. Bundan heç kəsin xəbəri olmayacaq və bu, sirr olaraq qalacaqdır». Qız buna razı olur. Vaxtı çatanda şahzadənin ay parçası kimi bir oğlu olur. Dayə uşağı o saat süd anasına verir, özü isə Muxtara şad xəbər aparıb oğlu olduğunu bildirir.

Muxtar bu xəbərə çox sevinir. Bir neçə ay keçdikdən sonra şahzadə qız bir az özünə gəlir və onlar görüşlərini davam etdirirlər. Bir dəfə Muxtar deyir: «Ay gözümün işığı, de görüm mən nə vaxta qədər əli, ayağı zəncirli, qandallı burada qalacağam. Bəlkə, sən bir çarə tapasan ki, mən buradan azad olum, oğlumu, atamı görüm. İnan, bunu etsən, ömrümün sonunadək sənin qulun olaram».

Şahzadə qız cavab verir:

«Sənə məxsus olmaq üçün canımdan da keçərəm,
Qəlbimin, ruhumun da istəyi sənə məxsus olmaqdır.

Mənim əziz, sevimli yarım, qorxduğum, ehtiyat etdiyim odur ki, buradan çıxandan sonra məni odlar içərisində yanar qoyub gedəsən, məni tərk edəsən, məni unudasan». Muxtar bərkdən deyir: «Allah o günü mənə nəsib etməsin ki, səni unudum. Çəkin, və heç vaxt mənim haqqımda belə pis düşünmə, çünki mən bütün ruhumla sənin qulunam.

Nə qədər ki həyatdayam, heç ağlına gətirmə ki,
Məhəbbətimdən keçərəm.
Mən öz ürəyimə sadiq qalacağam,
Lazım olarsa, inan, ölümə də razı olaram!
Əgər taleyimdə vaxtsız ölüm varsa da,
Həyatımdan keçərəm, amma səndən keçmərəm».

Bu dəfə də şahzadə Muxtarın yanında bir xeyli olandan sonra öz otağına qayıdır və Muxtarın zindandan qurtulmaq yollarını götür-qoy eləməyə başlayır. Vaxt gedirdi. Artıq onların oğullarının iki yaşı var idi, amma heç kəsin bundan xəbəri yox idi.

Hər tərəfdən şahzadəyə elçilər düşür, ətrafın ən adlı-sanlı igidləri, cəngavərləri adamlarını göndərir, amma hökmdar hələ qızını verməyə özünü hazır bilmirdi. Nəhayət, çox düşünüb-daşınandan sonra hökmdar qərara gəlir ki, artıq vaxtdır, qızını bir ləyaqətli adama verməlidir. Bu xəbər Muxtara çatanda onun halı xarab olur, sanki dünya başına fırlanır, gözlərinə qaranlıq çökür, əl-ayağı hər yerdən üzülür. Bu arada Muxtarın atası isə gücsüz, taqətsiz, əldən düşmüş halda, iki il sərasər oğlundan bir xəbər almadan gözlərini yola dikib qara çadırda ömür sürürdü. Artıq üçüncü il idi ki, Əbül-Əla belə həyat sürürdü. Günlərin bir günü tale onun üzünə gülür, qardaşı onun sərəncamına say-seçmə döyüşçülərdən ibarət beş minlik ordu göndərir. Ordu gəlib onun yanına çatanda o, əllərini göyə qaldırıb Allaha şükürlər edir, ordunu lazımi şeylərlə təchiz edir və carçılarını bütün ətrafa yola salır ki, hamıya bu xəbəri çatdırsınlar: «Əbül-Əla bütün qoşunları kafirlərə qarşı savaşa səsləyir!»

Çağırışa cavab verib gələn bütün döyüşçülər silah-sursatla, atla təmin olunurdu. Beləliklə, Əbül-Əla ordunun başında kafirlərə qarşı

yürüşə qalxır. Yol boyu ona bir çox qoşunlar qoşulur, beləliklə, onun ordusu daha da böyük və daha da möhtəşəm olur. Əbül-Əla bu qüdrətli qoşun ilə Xərəşnə tərəfə irəliləyir. O, adamlarından bir neçəsini irəli göndərir ki, düşmən tərəfdəki vəziyyəti öyrənsinlər. Onlar qayıdıb bildirirlər ki, Əbdül-Üzza döyüşə qətiyyən hazır deyildir və onun, ümumiyyətlə, ona qarşı hazırlanmış bu yürüşdən xəbəri yoxdur.

Əbül-Əla buna çox sevinir və Allahın adını tutub düşmən tərəfə irəliləyir. O artıq qalanın yaxınlığında idi, Əbdül-Üzza çaşqın vəziyyətdə idi, müharibəyə hazır deyildi. Əbül-Əla isə qabağına çıxanı qılıncından keçirirdi. Əbdül-Üzzanın min cür fənd işlədib qaçıb gizlənməkdən başqa çarəsi yox idi. O, böyük çətinliklə özünü qalaya salıb gizlənir. Bu zaman şahzadə qız oğlu və dayəsi ilə hamamdan qayıdırdılar. Əbül-Əlanın adamları onları əhatə edib əsir götürürlər. Bu arada Əbdül-Üzza da boş oturmamışdır. O, adamlarını hər tərəfə göndərib qoşun toplamağı tapşırmışdır, həm də hər yerdə pusquların qurulmasını əmr etmişdir. Əbül-Əla bundan xəbər tutan kimi ehtiyat edir və orduya nə qənimət toplamışdırlarsa, nə əsir götürmüşdülərsə, yığıb Naxçıvana qayıtmağı əmr edir.

Naxçıvana gəlib çatanda sərkərdələr Əbül-Əlaya götürdükləri əsirləri göstərirlər. Əbül-Əla Şahzadə qızı oğlu və dayəsi ilə bir yerdə öz yanında saxlayır. O, qıza baxıb, onun gözqamaşdırıcı, füsunkar gözəlliyinin qarşısında heyran olur. Bu qız on dörd günlük ay kimi parlaq, zərif idi, onun sərv boyu, canlar yaxan ədası, yanaqlarında qıvrılan ənbər ətirli zülfləri, büllur kimi şəffaf biləkləri Əbül-Əlanın ürəyinə bir atəş salmışdır. O, bir könüldən-min könülə ona aşiq olmuşdur və ürəyində deyirdi: «Şükürlər olsun sənə, ay Allah! Oğlumu düşmənə əsirliyə salsan da, qismətimə bu aycamal, güldodaq gözəli çıxardın!»

Bütün qəlbi ilə, ruhu ilə şahzadəyə bağlanmış hökmdar onu ən etibarlı adamına tapşırır. Zavallı qız isə sevgilisinin həsrətindən özünə yer tapa bilmirdi. O, gecə-gündüz acı göz yaşları axıdır, rahatlıq tapa bilmirdi. Digər tərəfdən də onu oğlundan və dayəsindən ayırmışdılar. Nəhayət, o, Muxtarın atasına müraciət etməli olur: «Mənim yanımda oğlum və dayəm var idi. Bizi bir-birimizdən ayrı salmışlar, amma mən

onlardan ayrı yaşaya bilmərəm. Əmr et, onları mənim yanıma gətirsinlər, əks halda öləcəyəm». Hökmdar bunu eşidən kimi, əmr edir ki, uşağı da, dayəni də şahzadənin yanına gətirsinlər. Şahzadə oğlunu, dayəsini görüb çox sevinir. Bu arada isə Əbdül-Üzza da sakit oturmurdu. Ona çatdıranda ki, düşmən onun qızını da götürüb aparıb, çox qəzəblənir və seçmə döyüşçülərdən bir qoşun yığıb Əbül-Əlanın dalınca düşür. O, Naxçıvan darvazasınacan gəlib çıxır. Yol uzunu qarşısına çıxan hər bir tikilini, hər bir abadlığı vurub dağıdır, amma qalaya əliboş qayıdır. Əbdül-Üzza özünə yer tapa bilmirdi, qızının düşmən tərəfindən əsir götürülməsi onu məhv etmişdir. O, dörd bir yana xəbər göndərib kömək istəyir. O çox ağır and içir ki, qızını əsirlikdən azad etməyənə qədər Naxçıvan xanlığında daşı daş üstündə qoymayacaq, onu yerlə yeksan edəcəkdir. Bu arada Muxtar isə zindanda gözü bacaya zillənmiş halda oturub xiffət çəkirdi.

Bütün vücudu ilə gözə, qulağa çevrilmişdir,
Qalan hər şeyə biganə qalmışdır.

Belə çarəsiz, ümidsiz halda Muxtar düz on gün əzablar içində qovruldu. O, səbirsizliklə şahzadənin, ya dayənin gəlib ona nələr baş verdiyini anladacaqlarını gözləyirdi. Amma nə gələn oldu, nə də xəbər gətirən. Axır ki, on günün başında Muxtarın qulağına xəbər çatır ki, onun atasının ordusu Xərəşnəyə hücum etmiş, hər tərəfi darmadağın edib, şahzadəni də əsir götürüb getmişdir.

Muxtar bu xəbəri eşidəndə fəryad edir və huşunu itirir. Onun bu fəryadından digər məhbuslar səksənib onun başına yığışırlar və görürlər ki, Muxtar huşunu itirmişdir. Onlar Muxtarın üzünə su çiləyib, özünə gətirirlər. Onlar soruşurlar: «Sənə nə oldu?» Muxtar deyir: «İnam, əqidə uğrunda döyüşlərin getdiyini eşidəndə özümün el-obamı tərk edib kafirlərə qarşı yürüşə yollanmağımı xatırladım. Ordumuz haradan keçirdisə, fərəh dolu gözlər, alqış dolu sözlər bizi müşayiət edirdi. Hamı bizi alqışlayırdı: «Hallal olsun! İman yolunda mücadiləniz uğurlu olsun!»,- deyə qələbələrə ruhlandırırdı. Məhbuslar dedilər: «Qəm etmə. Allah böyükdür! O səni darda qoymaz!»

Muxtarın barmağında sevgilisinin ona bağışladığı bir üzük var idi. Muxtar o üzüyü əzizləyib, ürəyinə basır, öpür və bu şeiri oxuyurdu:

«Səninlə ayrılığım həmsöhbətim oldu mənim,
Dərdindən belim büküldü, yaya döndü qamətim,
Məni görüşlərindən məhrum etdiyin vaxtdan,
Ümidlərim, inamım intizar zəncirləri ilə buxovlandı.
Niyə sadiq qalmadın sən bizim əhdimizə,
Mən sadiqəm sözümə və bu sədaqətlə yaşayıram.
Zindanda zarıyıram: «Nə vaxt gələr o zaman,
Səninlə görüşək və bir daha ayrılmayaq?»

Muxtar günlərini belə şeirlər oxuyub ağlamaqla keçirirdi. Bu arada atası isə gündən-günə daha çox kafirlərin hökmdarı Əbdül-Üzzanın qızına aşiq olur, onsuz keçirdiyi hər günü işgəncə bilirdi. Bir dəfə artıq dözməyib Əbül-Əla qızın otağına yollanır ki, ürəyini ona açsın, amma içəri keçəndə görür ki, qız ağlaya-ağlaya bu şeiri oxuyur:

«Muxtardan ayrı düşdüyüm gündən,
Qəm-qüssə ürəyimi üzmüşdür.
Bütün günü zavallı məhbusumun xiffətini çəkirəm tək,
Özüm də ayrılıqdan məhbus kimi saralıb-solmuşam».
Əbül-Əla Muxtarın adını eşidən kimi hönkürüb dedi:
«Başımın tacı oğul, səndən ayrı düşəndən
Taleyin göndərdiyi yüz min dərd-bəlaya düçar oldum.
Səndən ayrı düşəndən, gözümün nuru, evimin yaraşığı,
Evim xaraba qaldı, cəhənnəmə döndü.
Nə qədər ki yanımdaydın, yenilməz idim,
İndi yenib, yenilməzliyim heç vecimə deyildir.
Nə qədər ki sən zindanda, ürəyim qandaldadır,
Nə rahatlığım, nə yuxum, nə də işlərimdə uğur var».

Qız Əbül-Əlanın ağlamağını görüb daha çox kövrəldi. Əbül-Əlaya elə gəldi ki, qız əsir düşdüyü üçün ağlayır. O, qıza dedi: «Ey gözəl, nəyə görə ağlayırsan? Əsarətdə olsan da, mənim kimi bir sirdaşın vardır. Mən səni canım qədər istəyirəm, ona görə də sənin dərd çəkib, fikir etməyindən üzülürəm. Ağlamalı adam varsa, o da mənəm,

çünki mənim oğlum artıq üç ildir ki, kafirlər tərəfindən əsirliyə götürülüb, zəncir, qandallarla zindana atılmışdır. Üç ildir nə gecəm var, nə gündüzüm». Əsarətdən, zəncir, qandaldan danışılanda qızın gözləri önündə o saat Muxtarın siması canlandı, o, dərindən ah çəkib dedi:

«Yox, yox, öz dərdimə ağlamıram mən,
Taleyim sənin taleyindən də acıdır».

Bu sözləri deyib Şahzadə qız için-için ağladı. O elə ağladı ki, az qala göz yaşlarında boğulmuşdur. Əbül-Əla onun bu əzabına dözə bilmirdi, ürəyindən qanlar sızırdı. O dedi: «Ey gözəllər gözəli, ey nuru ilə gözləri qamaşdıran mələk, sakit ol, özünü bu qədər üzmə. Bil ki, mən səni canımdan artıq istəyirəm. Mən sənə sarayımı da, var-dövlətimi də peşkəş etməyə hazıram». Əbül-Əla bunları deyib qızı qucaqladı, amma qız Əbül-Əlanın əllərini hiss edən kimi Muxtarı xatırladı və dedi: «Ey hökmdar, izin ver, gedim əl-üzümü yuyum, gəlim». Əbül-Əla dedi: «Əlbəttə, get».

Şahzadə qız oradan çıxıb dayənin yanına keçdi və ona dedi: «Dayəcan, bizi əsirliyə götürüb buraya gətirən hökmdar mənə başqa gözlə baxır. Mən heç vaxt Muxtara xəyanət edə bilmərəm. Mənim ürəyim ancaq ona məxsusdur. Yeganə əlacım özümə qəsd etməkdir. Mən ancaq həyatımdan keçərək ürəyimdə Muxtara olan eşqimi, sədaqətimi qoruyub saxlaya bilərəm. Oğlumu sənə əmanət qoyuram. Onu göz bəbəyi kimi qoru».

Bu sözləri eşidən dayə hönkürüb ağladı. Zavallı qız isə oğlunu bağrına basıb, için-için ağlayaraq ona qoşuldu. Əbül-Əla onların ağlaşma səslərini eşidib qapıya yaxınlaşdı. Əyilib qapının açar yerindən baxanda gördü ki, bu qız oğlunu bağrına basıb: «Ay Muxtar, ay Muxtar, haradasan?»,- deyib ağlayır. Yenə Muxtarın adını eşidən Əbül-Əla az qala huşunu itirmişdir. O özünü ələ alıb, içəri keçərək soruşdu: «Ey gözəl, Muxtar kimdir? Sənin dediyin, ağlayıb, çağırdığın Muxtar kimdir?» Qız dedi: «Muxtar mənim oğlumun atasıdır». Əbül-Əla dedi: «Xanım, həyəcandan indicə öləcəyəm, sən mənə dediyin adam haqqında hər bir şeyi olduğu kimi danış. Bəlkə, bizim dərdimizin, əzabımızın, zülmümüzün səbəbi elə eyni adamdır». Qız dedi:

«İnan ki, dərdimdən acı dərd ola bilməz.
Mənim dərdim elə dərddir, adamın canını alır».

Əbül-Əla görəndə ki, qızdan cavab ala bilmir, özü danışmağa başladı: «Ey gözəl xanım, mən vaxtı ilə Kirmandan oğlumla bərabər möhtəşəm bir ordunun başında böyük işlər, amallar dalınca yola çıxdım. Mənim oğluma ağılda, fərasətdə, gözəllikdə, cəsarətdə bu dünyada tay yoxdur. İndi isə mənim nə oğlum var, nə xoşbəxtliyim. Artıq üç ildir ki, gözləməkdən gözlərimin kökü saralıb, işığı sönmüşdür. Oğlumdan bircə xəbərə həsrətəm, amma mənə heç kəs bir xəbər gətirmir».

Qız soruşdu: «Sənin oğlun kimin əsirliyindədir?» Əbül-Əla dedi: «O, Xərəşnənin hökmdarı kafir Əbdül-Üzzanın əsiridir». Qız həyəcanla soruşdu: «Bəs sənin oğlunun adı nədir?» Əbül-Əla dedi: «Oğlumun adı Muxtardır». Bunu eşidən kimi qız fəryad edib huşunu itirir. Özünə gəldikdən sonra isə deyir:

«Heç vaxt, heç kəsin başına belə təsadüf gəlməmişdir!..»

Qız deyir: «Bil ki, mənim də dayanmadan axıtdığım göz yaşları Əbül-Əlanın oğlu Muxtarın dərdindəndir». Əbül-Əla bunu eşidib yerindən sıçrayır, qızın ayaqlarına düşür, uşağı götürüb ürəyinə basır, onu sinəsinə elə basır ki, sanki oğlunun ətrini ondan alır. Sonra o, qızdan xahiş edir ki, bütün olanları danışsın. Əbül-Əla sevincindən yerə, göyə sığmırdı. O, qızın alnından, gözlərindən öpüb, uşağı da sinəsinə basıb əllərini, yanaqlarını, saçlarını aravermədən öpürdü. Sonra o, qıza dedi: «Qızım, Allah-təala mənə rəhm elədi. Mənim rastıma səni saldı. Mənə Muxtardan xəbər tutmaq üçün səni yetirdi. İndi sən mənə de görüm, Muxtarı necə azad edə bilərik?»

Qız deyir: «Bunu edə biləcək yeganə insan mənəm. Məndən başqa heç kim bu işin öhdəsindən gələ bilməz. Mən min cür hiylə ilə, fəndlə buna nail ola bilərəm. Sən məni azad et, mən sənə söz verirəm ki, on gün ərzində oğlunu hüzuruna gətirəcəyəm». Əbül-Əla qızın səmimiyyətinə əmin idi, çünki onun Muxtara olan məhəbbətinin nə dərəcədə saf və böyük olduğunu hiss edirdi. O görürdü ki, bu qız ərinin xiffətini necə çəkir».

Əbül-Əla bir qədər düşündükdən sonra deyir: «Qızım, sənin səmimiyyətinə qətiyyən şübhəm yoxdur, amma ehtiyat etdiyim budur ki, qorxuram doğmalarının yanına gedəndən sonra oranı bir də tərk etmək istəməyəsən, ondan da başqa, səni heç oradan çıxmağa da qoyan olmaz. Sən də atanın, ananın, əzizlərinin yanında hər şeyi unudasan və ürəyin oranı tərk etməyə izin verməz».

Qız dedi: «Əsla, elə bir şeyi düşünmə! Məni bu dünyada Muxtardan başqa heç bir şey düşündürmür. Mən Muxtarın başından düşən bircə tükü belə bütün dünyaya dəyişmərəm. Əmin olmaq üçün isə istəyirsənsə, mən də sizin dini qəbul edim. Sən onda bilərsən ki, yer üzündə mənim üçün Muxtardan üstün heç bir şey yoxdur».

Bundan sonra qız İslam dinini qəbul edib müsəlman oldu. Əbül-Əla buna çox sevinirdi.

O, gəlinini də, nəvəsini də min bir nəvazişlə öpüb qucaqladı. Qız dedi: «İndi isə mən yola düşüm. Oğlumu sənə əmanət qoyuram. Qoy o sənə mənimlə Muxtarı xatırlatsın. İndi sən məni müşayiət etmək üçün on yaxşı silahlanmış, fərasətli, çevik döyüşçü ver, özün isə ordunu hazır vəziyyətə gətir. Elə ola bilər ki, gecə hücuma keçməli olasan. Mənim işarəmi gözləyərsən».

Əbül-Əla həmin dəqiqə on cəngavərin hazır olmasını buyurdu. Qız da dayəsi ilə bir yerdə cəngavər paltarı geyinib, yaraqlanıb-yasaqlanıb ata mindilər. Axşam qaranlığında, heç kəsin xəbəri olmadan, səssiz-səmirsiz, dayəsi və on cəngavərlə birlikdə yola düşdü. Onlar Xərəşnənin darvazalarına yaxınlaşdıqda qız cəngavərləri geri göndərdi, özü isə dayəsi ilə birlikdə şəhərə girdi. Kafirlər gələnlərin şahzadə ilə dayənin olduğunu bildikdə onları alqışlamağa başladılar. Adamlar bu şad xəbəri o saat Əbdül-Üzzaya çatdırdılar. Hökmdar bu xəbərə çox sevindi və o saat qızını qarşılamaq üçün yola çıxdı.

Hökmdar qızını görüb sevindi, onu bağrına basdı, qucaqlayıb öpdü. Sonra isə xahiş etdi ki, başlarına gələnləri danışsınlar. Qız dedi: «Biz düşmənin əlinə düşdük, onlar bizi əsir götürdülər. Bizi ayrıca çadırda otuzdurmuşdular, yanımıza da keşikçilər qoymuşdular. Gecə, hər yan sakitlik olanda biz durub keşikçilərə hücum etdik.

Onları vurub yerə sərdikdən sonra paltarlarını, silahlarını, atlarını götürüb düşərgədən qaçdıq».

Əbdül-Üzza o saat buyurdu ki, bir neçə qurbanlıq qoç kəsilsin və bütün yetimlərə, kimsəsizlərə, kasıblara paylansın. Sonra o, böyük bir məclisin qurulmasını buyurdu. Qız isə içində qovurulurdu. O, sevgilisini görmək üçün canını verməyə belə hazır idi. O, damın üstünə qalxıb bacadan içəri baxdı. Muxtar zəifləyib əldən düşmüş halda üzü divara oturub taleyindən gileyli ağlayırdı. Qız adəti üzrə ona balaca bir çınqıl atdı.

Muxtar başını qaldırıb sevgilisini görəndə fəryad edib huşunu itirdi. Digər məhbuslar tez onun başına yığışıb üzünə su çilədilər, özünə gətirdilər və soruşdular: «Sənə nə oldu? Son zamanlar çox tez-tez huşunu itirirsən, olmaya, xəstələnmisən?» Muxtar dedi: «Uşaqlıqda ürəkkeçməm var idi, görünür, indi yenə baş qaldırmışdır».

Dustaqlar dağılışdıqdan sonra qız dedi: «Artıq fikir etmə, dərd çəkmə. Sənin azadlığa çıxmaq vaxtın yetişmişdir». Sevgilisini görən Muxtar sevincindən zəncirlərini, qandallarını öpürdü, onun uçmağa qanadları yox idi. Bir qədər sonra qız otağına qayıtdı, amma zənbil ilə ipi artıq özü ilə aparmadı. Gecə düşəndə qız adəti üzrə gəlib zənbilə oturdu, dayə isə onu bacadan salmağa başladı. Muxtar yerindən sıçrayıb, zənbil aşağı düşməmiş qızı elə havada tutdu, bağrına basdı, uzun müddət onu özündən ayırmadı. Sonra isə nələrin baş verdiyini soruşdu.

Qız başına gələnlərin hamısını, başdan-ayağa Muxtara danışdı. Muxtar çox sevindi və dedi: «İndi işlərimiz yoluna düşəcəkdir. Əsas işimiz qaçmaq üçün yol tapmaqdır, nə qədər tez qaçsaq, o qədər yaxşı olar». Sonra qız yenə zənbilə əyləşdi, dayəsi onu qaldırdı. Daha sonra onlar ipi yenə də bacadan içəri saldılar, Muxtar özünü çətinliklə olsa da, zəncirlərdən, qandallardan azad edib, ipi belinə sarıdı, qız ilə dayə köməkləşib Muxtarı yuxarı dartıb çıxardılar. Qız onu öz otağına saldı. Muxtar hamama girdi, rahatlandı, təmiz, təzə paltarlar geyinib, yeyib-içdi və onlar xoş bir axşam keçirdilər.

Səhər açılanda qız onu oyadıb dedi: «Başımın tacı, qalx, dünən biz çox cəsarətli bir addım atıb qaça bilmişik, indən belə isə bizi döyüş gözləyir. Qalx, yola hazırlaş!»

Qız bunları deyib, xəzinəyə getdi, qızıl, gümüş götürüb gəldi. Sonra Muxtarın başına çarşab atıb tövləyə apardı. O, mehtərlərə üç atın yəhərlənməsini tapşırdı və dedi: «Bütün gecəni bu məşhur xanəndə qonağım olub. Çalıb-oxumuşuq. İndi isə yuyunmaq üçün şəhər hamamına gedirik. Mən axşamacan orada olacağam. Tapşırarsınız, axşam mənim dalımca gəlsinlər».

Bunu deyəndən sonra qız, dayə və çarşaba bürünmüş Muxtar şəhəri tərk etdilər. Şəhəri tərk edəndən sonra bir yerdə dayanıb əyinlərini dəyişdilər. Onların üçü də cəngavər paltarı geyib, yaraqlanıb-yasaqlanıb Naxçıvana tərəf üz tutdular. Onları qarşılamağa çıxmış ordunun başında olan Əbül-Əla oğlunu görüb, sevincindən huşunu itirdi. O, bir də artıq sarayda özünə gəldi. Əbül-Əla özünə gələndə başının üstündə dayanmış Muxtarı gördü. Muxtar atasının əllərindən öpüb, bu günə görə dayəyə, sevgilisinə minnətdarlığını bildirdi. Şahzadə qız dedi:

«Dincliyə, dualara bir az ara verək
Axı ağır döyüşlər labüddür.
Biz sonadək dəyanətlə vuruşacağıq
Qoy əlimdəki qılınc atama da rəhm etməsin!»

Sonra qız üzünü Əbül-Əlaya tutub dedi: «Qoşuna əmr et, hazır olsun. Mən özüm ona sərkərdəlik edib atamın ordusu ilə yeni din yolunda vuruşacağam. Mən bilirəm ki, qaçmağımızdan xəbər tutan kimi ordusunu hazır edib, pusqular qurdurmuşdur». Əbül-Əla həmin dəqiqə ordunun hazır vəziyyətə gəlməsini və bütün yolların tutulmasını əmr etdi.

Bu arada məhbusun qaçdığından xəbər tutan Əbdül-Üzza çox qəzəbləndi. Amma qızının da dayəsi ilə qaçdığını biləndə bütün dünya başına fırlandı. O, dünyanın hər tərəfinə adamlarından göndərdi ki, qızından ona xəbər gətirsinlər. Mehtərlər Əbdül-Üzzaya gecə baş

verənləri danışdılar. Əbdül-Üzza indi başa düşdü ki, qızı Muxtarla bərabər qaçmışdır.

Əbdül-Üzza çox qəzəbləndi. O əmr etdi ki, təbillər çalınsın. O, orduya baxış keçirib üç min yaxşı hazırlıqlı, silahlı-sursatlı döyüşçülərdən ibarət qoşunla Naxçıvanın üstünə yeridi. O, and içdi ki, nəyin bahasına olursa-olsun, Naxçıvanı yerlə-yeksan edib, torpağını xarallarla Xərəşnəyə daşıtdıracaqdır. O, qoşununu, demək olar ki, Naxçıvanın lap yaxınlığına gətirib çıxarmışdı.

Amma Muxtarla qız artıq öz qoşunları ilə ən vacib nöqtələri ələ keçirmiş və pusqular qurmuşdular. Qoşunlar vuruşmağa başlayanda Əbdül-Üzza ilə Muxtar üz-üzə gəldilər. Qız həmişə Muxtarın yanında vuruşurdu. Onlar sanki erkək aslanla dişi aslan kimi kürək-kürəyə verib bir qılınc qaldıranda on-on beş kafiri yerə sərirdilər. Əbül-Əlanın, «Allah böyükdür, Allah ucadır»,- nidaları göylərə ucalırdı.

Muxtar və şahzadə həmin gün o qədər kafiri qanına qəltan etdilər ki, qan sanki Ceyhun çayı idi, axırdı. Naxçıvan əhlinin hamısı: cavandan cavan, qocadan qoca Əbül-Əlanın köməyinə gəlib kafirlərə qarşı cihada qoşuldular. Tez bir zamanda İslam qoşunu kafirlərə qarşı döyüşdə tam qələbə qazandı. Əbdül-Üzza Muxtar və öz qızı tərəfindən qətlə yetirildi. Hökmdarlarının öldüyünü görən kafirlər canlarını qaçmaqla qurtarmaq istədilər, amma Muxtarın qoşunu onları təqib edərək əllərinə düşənlərin hamısını qılıncdan keçirdilər. Əbdül-Üzzanın üç minlik qoşunundan cəmi min nəfəri qaçıb canını qurtara bildi, onlar da öz məmləkətlərinə qayıtdılar.

Beləliklə, Əbül-Əla öz ordusu və Naxçıvan əhli ilə bir yerdə tam, böyük qələbə çaldılar. Onlar böyük qənimətlə şəhərə döndülər və on gün on gecə bayram etdilər.

Sonra Əbül-Əla şahzadəni adət üzrə Muxtara verdi, kəbinlərini kəsdirdi, on gün, on gecə möhtəşəm toy elədi və daha on gün Naxçıvanda qaldı. Bu müqəddəs savaşda şəhid olanları şəhər darvazalarının yanındakı təpənin üstündə dəfn etdirdi. Bu təpə insanların ziyarətgahına çevrildi. Arzusu, diləyi olanlar istəklərinə çatmaq üçün, arzusuna, diləyinə çatanlar Allaha şükürlər etmək üçün buraya gəlib, burada əllərini Allaha açırdılar. Bu təpənin adı «Kühlə»dir.

Daha sonra Əbül-Əla oğlu, gəlini, nəvəsi və ətrafı ilə Kirmana qayıtdılar. Muxtar oğlunun adını Vəfa qoydu ki, sədaqətli bir insan kimi böyüsün. Sonra onların çoxlu övladları oldu. Onlar xoşbəxt, firavan, uzun ömür yaşadılar. Zaman yetişəndə isə, hamı kimi onlar da, bu dünyanı tərk etdilər. Bu hekayət isə onlardan bizə xatirə qaldı.

*Bu hekayətdə bizə çatdırılan hikmətlər bunlardır:*

*Birincisi, Allaha ürəkdən bağlı olub, ona səmimiyyətlə xidmət edən kəs heç vaxt darda qalmaz, çünki Allah onu sevən, ona səcdə edən bəndələrini daima nəzərində saxlayır.*

*İkincisi, məqsədə çatmaq üçün ilk növbədə səbirli olmalısan, çünki ancaq səbirli olanlar arzu-kamlarına çatırlar. Ərəb məsəlində gözəl deyilir: «Səbir edən qalib gələr»:*

*«Qələbə şərbətini içəcək o kəs,*
*Kimin ki səbri heç vaxt tükənməz».*

Allah bu kitabı oxuyana, ona qulaq asana, üzünü köçürənə, müəllifinə min dəfə rəhm etsin! »Amin«,- deyən dillər var olsun!

## OTUZUNCU HEKAYƏT

# Mömin Ürviyə ilə ərinin qardaşı, zənci qul, gənc məmur və tacirin hekayəti

Qədim söz sahibləri belə nəql edirlər ki, keçmiş zamanlarda ərəblərin arasında Münəyyiban adında çox alicənab, dürüst bir kişi yaşayırmış. Onun gözəllikdə tayı-bərabəri olmayan Ürviyə adında bir qızı var idi. Bu qız gözəlliyi, yaraşığı, qaməti, ədası ilə bərabər ağlı, zəkası, abır-isməti, inam-imanı ilə də fərqlənirdi. Onun həm zahirən, həm də batinən belə kamil olduğu bütün Ərəbistana bəlli idi. Onun ürəyini ovsunlamaq, onun münasibətinə yiyələnmək üçün çox adlı-sanlı gənc əlləşirdi:

Kamil bir xanım kişiyə baş tacıdır,
Bu, yeganə qiymətsiz xəzinədir.

Günlərin bir günü ata qızını yanında əyləşdirib dedi: «Qızım Ürviyə, bil ki, istənilən qadın üçün bu dünyada ən qiymətli nemət qanuni, kəbinli ərdir. Müdriklər təsadüfən deməmişlər ki: «Yetişmiş qıza ya ər lazımdır, ya da qəbir». Qızım, görürsən ki, mən artıq qoca-yam, əldən düşmüşəm, artıq canımda güc-qüvvə qalmamışdır. Allah səndən heç bir şeyi əsirgəməmişdir, səni kamil yaratmışdır. Bütün adlı-sanlı ərəb gəncləri sənə elçi düşüb, razılığını istəyirlər. İzin versən, sənə layiq bildiyim gənclərdən birinə razılığını verərdim. Belə olsa, mən də rahat olaram və qalan günlərimi hüzur içində yaşayıb, ömrümü başa vuraram».

Qız cavab verdi: «Möhtərəm, əziz atam, əgər uca Allahın sənə rəhmi gəlsə idi, sənə küldən kürəkən qismət edərdi, çünki Allahın sevimli bəndəsi, - Allah ona rəhmət eləsin, onu pənahında saxlasın! - Məhəmməd peyğəmbər demişdir: «Ən yaxşı kürəkənin belə qəbirdə olması məsləhətdir». Əgər Allah səni xoşbəxt görmək istəsə idi, mə-ni qız yox, oğlan yaradardı. Deməli, Allah-təala sənə o xoşbəxtliyi

nəsib etməmişdir. Bil ki, dünyada qızı olan kişidən ağır yüklü, acı yüklü adam yoxdur. Əziz atam, sən mənə görə dərd, fikir çəkirsən. Mənə görə özünü narahat hiss edirsən. Axı »Quran«da yazılmışdır: «Onların birini qız uşağı ilə müjdələyəndə ya rəngi qaralır, ya da ağlını itirir». Mən olmasa idim, sən dərd çəkməz, firavan həyat sürərdin. Müdriklər demişdir:

Bədbəxt o adamdır ki, bircə qız böyüdür evində,
Onun nə taxta, nə də taca ehtiyacı olar.

Ata can, sənin mənə görə nə qədər əzab çəkdiyini, xəcil olduğunu bilirəm, amma səni and verirəm o uca Allaha məni taleyimin ixtiyarına burax. Mən ərə getmək arzusunda deyiləm, istəyirəm xəlvətə çəkilib ömrümün qalan hissəsini bizi yaradana həsr edəm:

Sən bilirsən, ömür başdan-başa qəm-qüssədir,
Sən bilirsən ki, bu dünyanın vəfası yoxdur.

Sən özün çox gözəl bilirsən ki, dünyaya bel bağlamaq olmaz, ona görə də razılıq ver, bir xəlvətə sığınıb həyatımı Rəbbimizə həsr edim. Mənim ərə getməyimlə sənin heç bir işin düzəlməyəcəkdir və həm də inanmıram ki, mənim ürəyimi ovsunlaya biləcək birisi olsun».

Ata Ürviyəni diqqətlə dinlədi və onu artıq narahat etmədi. Bir müddətdən sonra ata rəhmətə getdi. Atasının ölümündən məyus olmuş qız gecə-gündüz göz yaşlarını tökür, taleyindən gileylənirdi. Atasının ölümündən sonra Ürviyə qapıları kilidləyib Allaha ibadətlə məşğul olmağa başlayır. O, əllərini Allaha açıb deyirdi: «Ey uca Allah, mənim tənhalığıma, kasıblığıma, zəifliyimə rəhmin gəlsin!

Hər şeyi bilirsən Sən, hər şeyi görən Allah,
Hər uğurun, hər mükafatın başı olan Allah.

Ey yeri-göyü yaradan Xaliqim, sən mənim halımdan xəbərdarsan. Ey hər şeyə qadir Allah, sən hər bir şeyi öz yerinə qoymağa qadirsən, ancaq Sənə sığınıram, ancaq Sənə əl açıram, mənə kömək et. Səni and verirəm Sənin öz adına, bu elçiləri, insanları məndən uzaq tut, mən-biçarə qıza yardım et.

Allahım, Sən bütün çarəsizlərə kömək edirsən,
Yolunu azmışların günahından keçirsən,

Yalvarıram, mənim kimi binəvanı da
Qəbul et, saxla öz pənahında».

Ürviyə gün ərzində ibadət edib, Allaha yalvarır, Allahdan imdad istəyirdi. Onun gözlərinin yaşı qurumurdu.

Günlərin bir günü yenə bir ərəb ona elçi düşür. Bütün dostlar, qohumlar, yaxınlar, qonşular onu dilə tuturlar: «Ürviyə, sənin bu dünyada heç kəsin yoxdur, təksən, kimsəsizsən. Atan, anan, bacın, qardaşın yoxdur. Müdriklər elə belə deməmişlər: «Subay qız sahibsiz topa bənzəyər və kimin qabağına çıxsa, onu təpiklə istədiyi küncə atar. Sən gəl bizim sözümüzü tut, səni bu Allah quluna ərə verək və rahat olaq ki, həm səni mühafizə edə biləcək, həm də səninlə həmsöhbət olacaq birisinin yanındasan».

Ürviyə çox götür-qoy edib, düşünüb-daşınır və bu işə razılıq verir. Onlar evlənirlər. Ərəb Ürviyənin sarayına daşınır. Bir müddətdən sonra ərəb Ürviyənin gözəl, cazibədar olmağından başqa həm də dərin ağıla, zəkaya malik olmasını sezib ona bir başqa eşqlə bağlanır. O bütün malını, mülkünü, xəzinəsini Ürviyənin sarayına daşıtdırır və Ürviyəyə elə aşiq olur ki, onsuz bir addım belə ata bilmir. Ürviyə də ona bütün qəlbi ilə bağlanmışdır, onun bircə sözündən belə çıxmırdı və bütün göstərişlərinə canla-başla əməl edirdi. Ürviyəni belə ağıllı, təmkinli, yerini bilən bir xanım kimi görən ərəb gündən-günə ona daha çox valeh olurdu. Onlar bir ili belə hüzur, əmin-amanlıq içərisində keçirdilər.

Günlərin bir günü ərəbin bir işi çıxır, şəhəri tərk etməli olur. Əslində, getmək istəməzdi, amma məcbur idi. O, üzünü zövcəsinə tutub deyir: «Ey ürəyimin, ruhumun məlhəmi, bil ki, əlacsızlıqdan səni qoyub getməliyəm. Bilirəm ki, heç kimin yoxdur, bilirəm ki, nə bacın var, nə qardaşın. İnan ki, mənim də səndən başqa heç kəsim yoxdur və bilmirəm səni tək qoyub necə gedim.

İlk dəfədir, səni yalqız qoyuram,
Ürəyim dərd, qəmin yanında dustaq qalır ».

Ürviyə deyir: «İndi ki, mütləq getməlisən, məni o uca Allaha tapşır, Onun adını tut, rahat ürəklə yola çıx».

Ərəb deyir: «Bilirsən, mənim bir qardaşım var. Qoy mən onu buraya gətirim ki, mən gələnəcən sənə kömək etsin, buyruqlarını yerinə yetirsin».

Ürviyə deyir: «İxtiyar sahibisən». Ərəb qardaşını gətirib ona Ürviyənin qulluğunda durmağı tapşırır. Ərəb yola düşdükdən sonra onun qardaşı hər iki-üç gündən bir gəlib hal-əhval tutub, lazım olan işləri həll edib çıxıb gedirdi. Bu minvalla düz bir ay keçdi. Günlərin bir günü Ürviyənin qaynı yenə də gəlir ki, bir şeyə ehtiyacının olub-olmamasını öyrənsin. Həmin vaxt Ürviyə öz gözəl saçlarını töküb daramaqla məşğul idi.

Oğlan Ürviyənin ay camalını, gecənin qaranlığından qara saçlarını görüb bir könüldən-min könülə ona aşiq olur. O sanki sehrlənmiş kimi yerindən tərpənə bilmirdi. O nə ağzını açıb bir kəlmə söz deyə bilirdi, nə də dönüb çıxıb gedə bilirdi.

Sehrə düşmüş kimi donub qalmışdır
Gücü, taqəti, səbri tükənmişdir.

O, nəhayət, özünü ələ alıb otağı tərk edir. Amma Ürviyənin füsunkar, cəzbedici görkəmi ona rahatlıq vermirdi. O nə qədər çalışsa da, fikrini yayındıra bilmirdi. Onu xiffət boğur, içindəki eşq alovlanırdı. Bir səhər yenə bu oğlan yuxudan qan tər içərisində oyanıb qardaşının evinə yollanır. O bu dəfə qardaşının evində həmişəkindən çox qalır, həm də heç yerinə düşməyən, gərəksiz söhbətlər edir. Ürviyə işin nə yerdə olduğunu anlayıb fikirləşir: «Bu adam həmişəkindən çox qaldı burada, həm də boş-boş cəfəngiyat danışır. Özünü həmişəki kimi aparmır. Artıq namaz vaxtıdır, bu hələ də çıxıb getmir». Ürviyə üzünü ona tutub deyir: «Mənim möhtərəm qaynım,

Bu gün mənim gözümə çox narahat dəyirsən,
Səni kim özündən çıxarıb, nəyə qəzəblisən?

Xeyir ola, bu gün həmişəkindən daha çox ləngidin burada. Artıq çoxdan azan verilib, namaz qılmalıyam. Zəhmət olmasa, sən get ki, mən də rahat dəstəmazımı alıb Allahıma ibadətlə məşğul ola bilim».

Oğlan bu sözləri eşidəndə içindəki eşq atəşi sanki daha da alovlandı, özünü toplaya bilməyib dedi:

«Abırı, həyanı atıb bir yana, qoy etiraf edim mən həqiqəti,
Qoy gələcəyi tale özü müəyyənləşdirsin.

Ey mənim gözlərimin çırağı, yaralarımın məlhəmi, mən ürəyimdəki alovla heç cür bacara bilmirəm. Sənə olan eşqim artıq bütün vücudumu bürüyüb, nə məndə can qalıb, nə də ki ağıl. Səni and verirəm o uca Allaha, mənə əlac et, məni bu əzablardan qurtar, əks halda mən çox yaşamaram».

Ürviyə bu sözlərin arxasında duran mənanı anlayanda çox qəzəbləndi və hirslə dedi: «Dur, rədd ol buradan, sən bir də ağzına belə sözlər alıb danışsan, məni də bu cəfəngiyatın səmimiliyinə inanmağa məcbur etmək istəsən, inan ki, özümə qəsd edərəm. Get və bir də belə axmaq söhbətlər etmə!

Bu axmaq xəyaldan, sözdən uzaq dur».

Ürviyə bunları deyib, o biri otağa keçir. O, qapını arxadan bağlayıb, bir küncə çəkilir və için-için ağlamağa başlayır. Qaynı qapıya yaxınlaşıb deyir: «Ey dünyalar gözəli,

Ey qəlbimin nuru, yalvarıram, qəzəblənmə,
Necə sevən sevgilisinin yanına gəlməyə bilər?

Sən gəl bu hirs-qıcığı bir yana qoy, məni özünə qul et, nökər et. Mən sənin eşqindən elə alışıb yanıram ki, heç bir halda səni tərk edə bilmərəm, çünki:

Boynumu iti qılıncla vursalar belə,
Taleyimə boyun əyib cəlladın dalınca gedərəm.

Sənin hirslənib özündən çıxmağının heç bir mənası yoxdur, çünki səndən əl çəkən deyiləm. Sənin bircə çıxış yolun var, gərək məni qəbul edəsən, əks halda:

Qoy sənin yolunda ölüm, amma sənin halın da
heç də yaxşı olmayacaqdır...»

Ürviyə deyir: «Mən rəzil olub, adıma, namusuma ləkə gətirməkdənsə, ölümə üstünlük verərəm. Mən hər iki dünyada üzü qara olmaqdansa, bu həyatdan köçüb getməyi seçərəm. Sən isə istədiyinə nail ola bilməyəcəksən və bütün cahanda rüsvay olacaqsan. İçində bəslədiyin o quduz iti kor edib qov, yoxsa, dərddən, bəladan başqa nəsibin olmayacaqdır.

Şeytanın əməlinə uyma, ey insan
Təmizlə içini, qurtul sən ondan».

Qayın deyir: «Yox, bu mümkün deyildir, mən sənə olan eşqimi çıxarıb ata bilmərəm. Özümdən imtina edərəm, sənin eşqindən, yox, çünki:

Ürəyim o gündən səninlə vurur, iradəm mənə tabe olmur.

Sənə olan eşqim taleyimlə mənə nəsib olub, o məndən asılı deyildir. Sən özün gözəl bilirsən ki, mən qəsdən, bilərəkdən özümü sənin eşqinin ağuşuna atmamışam. Bu, Allahın yazdığı tale idi ki, məni sənin eşqinin toruna saldı.

Eşq özü girdi qəlbimə, mən onu çağırmırdım,
Ağlımı aldı məndən, mən ki bunu arzulamırdım.

Sən özün çox gözəl bilirsən ki, eşq odunda yananlardan, eşq yolunda divanə olanlardan ağıl gözləmək olmaz. Heç kəsin ağlına gələ bilməz ki, mən sənə aşiq olmuşam, sənin eşq odunda alışıb yanıram. İndi mənə heç bir müdrikin nəsihəti kar etməz, çünki

Aqillərin bütün nəsihətləri indi mənə tənə tək gəlir,
Taleyimin yazısı hökm kimi səslənir.
İndi mənə edilən nəsihətlərin nə faydası vardır?
Bir halda ki mən ömürlük məhəbbətə məhkumam.
Nə qədər adlı-sanlı kişilər eşqin toruna düşmüşdür
Səltənətdən əl çəkib, dünyanı dolaşmaqdadır...
Mən abrımı, həyamı, namusumu dəyər-dəyməzə satıb,
Ürəyimi girov qoyub eşqini aldım ona.

Ey gözümün nuru, aldığım nəfəsim, gəl məni bu əzabdan qurtar, məni rəzil, xəcil etmə. Çıx otağından, səninlə əhd-peyman bağlayaq, sənə ömrümün sonunadək sədaqətlə xidmət edim, əmrlərini gözüm üstə icra edim, sənə and verirəm ki, ölənəcən sənə itaət edəcəyəm.

İlahi, mənim ağlımı başımdan alma, məni rüsvay etmə.

Əks halda, görsəm ki, tərslik edib sözündən dönmürsən, mənə tabe olmaq istəmirsən, mən başqa yollara əl atacağam. Mən istəyimə çatmaq üçün hər fənddən istifadə edəcəyəm. Mən sənə lazım bildiyim şeyləri söylədim. İndi seçim sənindir, çünki sən bilirsən nəyin sənə yaxşı və ya pis olduğunu».

Qapının arxasından bunları dinləyən Ürviyə acı-acı ağlayıb deyir: «Ay rəzil alçaq, nə qədər çalışsan da, vuruşsan da, istədiyinə nail ola bilməyəcəksən. Sən buradan əl çəkib getməsən də, burada yatıb qalsan da məni fikrimdən döndərə bilməyəcəksən. Sən bu alçaq fikrindən dönməsən, özümü öldürəcəyəm, səni də yer üzündə biabır edəcəyəm. Bil ki, mənim üçün ölüm ləkələnmiş, çirkaba bulaşmış addan çox üstündür.

Mən təmiz adıma ləkə salmaram,
Təmiz ad nalayiq həyatdan çox üstündür».

Oğlan başa düşür ki, onun səyləri əbəsdir və qız öz fikrində israrlıdır, durub evinə gedir. Evdə səhərəcən yollar axtarıb tapmağa çalışır. Səhər açılanda o yenə durub qardaşının evinə yollanır. Ora çatanda yenə qıza deyir:

«Rədd etmə məni, yalvarıram,
Yoxsa, ömürlük məhv olaram.

Ey Ürviyə, gəl daşı ətəyindən tök, məni rədd edib, qəzəbləndirmə, mənim həyatımla oynama». Ürviyə bu sözləri qapının arxasından eşidib heç bir cavab vermir. Bu, oğlanı lap qəzəbləndirib özündən çıxarır və o deyir: «İndi ki belə oldu, gör mən sənin başına nə oyunlar gətirirəm, gör mən səni el içində necə rüsvay edirəm.

İndi ki oldu belə, xəlvətə çəkilərəm ki,

Sonra səndən qisas alım».

Ürviyə bu sözlərdən sonra lap qorxur, üzünü yerə sürtüb Allaha yalvarır: «Ey uca Yaradan, ey hər şeyə qadir, hər şeyə sahib olan! Mən sənə sığınıb, səndən imdad istəyirəm. Səndən başqa ümidgahım yoxdur, sənə ibadət edib, sənə səcdə qılıb, sənə yalvarıram. Sən, hər şeyi görən, hər şeyi bilən Allah, bu nadanın, nacinsin, nankorun mənim adıma, ərimin namusuna ləkə salmaq istədiyini bilirsən. Sən bilirsən ki, mənim üçün təmiz adım nə qədər qiymətlidir. Məni bu alçaq yaramazdan hifz elə, onu mənim yolumun üstündən götür, mənim sənin yolunda ibadət edib, ömür sürməyimi təmin et. Mən sənin qədər-qismətindən qaçmıram və əgər sən mənə bu qədəri yazmısansa, onu da itaətkarlıqla qəbul etməyə hazıram.

Bəxtimə, taleyimə nə yazılıbsa,
Baş əyməyə hazıram.
Nə qədər çalışsaq da, taleyin yazısını
Heç cür dəyişə bilmərik».

Biçarə qız bunu deyib işlərinə davam edir, amma onu qorxu, ehtiyat hissi bircə anlıq belə buraxmırdı. Günlərin bir günü qayın yenə əsib coşub, qızı ram edib, özünə tabe etməyi bacarmadığına görə qəzəblənib, özündən çıxır və deyir:

«Ürəyim alışıb yanır, necə dözüm mən buna?
Nə qədər yuxunu unudub zülm çəkmək olar?
Nə qədər bu ümidsiz eşqin alovunda yanmalıyam ki,
Bir də o aycamalı görə biləm?»

Bunları deyib o, dostlarını, tanışlarını Ürviyənin evinə yollayır. Onlardan xahiş edir ki, Ürviyəni dilə tutub, yola gətirsinlər, amma onların heç biri bir nəticə vermir. Ürviyənin tərsliyi oğlanı lap hövsələdən çıxarır. O elə qəzəblənmişdir ki, artıq ən rəzil fəndlərə əl atır, Ürviyə haqqında nalayiq, əskildici şayiələr yayır, amma bunların heç biri qızın adına bir xələl gətirə bilmirdi. Ürviyə ətrafda elə təmiz, saf ad qazanmışdır ki, ona heç kəs ləkə sala bilməzdi. Ürviyənin namusu, isməti gözəlliyi qədər, bəlkə ondan da çox dillər əzbəri idi.

İş bu yerə çatanda oğlan daha alçaq fəndə əl atır. O, özü kimi kafir, alçaq beş nəfər tapır, onlara müəyyən məbləğdə pul verir və məhkəmədə Ürviyənin əleyhinə danışmağı tapşırır. Tapşırır ki, Ürviyənin tərbiyəsiz, əxlaqsız həyat sürdüyünü desinlər. Sonra isə rəzil, binamus, kafir dostlarından biri ilə danışıb ondan bir başqa kömək istəyir. Münasib günlərdən birində, axşam qaranlıq düşəndə həmin avara dostunu qardaşının evinin yanına aparıb ona dama çıxıb bacadan evin içinə girməli olacağını söyləyir və daha sonra nə edəcəyini başa salır. Gənc oğlan şərtləşdikləri gün bacadan içəri keçir. Ürviyə həmin vaxt namaz üstündə idi. Ürviyənin heç bir şeydən xəbəri yox idi. Namaz qıldığı vaxt birdən bacadan birisinin düşdüyünü görən Ürviyə özünü itirir. Oğlan isə onun üstünə atılıb, pal-paltarını cırmağa başlayır, onu qucaqlayıb öpmək istəyir. Elə bu vaxt qapı açılır, qızın qaynı əlində məşəl, yanında da beş-altı nəfər özü kimi rəzil adam içəriyə keçirlər, bacadan düşmüş oğlanı qırağa atıb, haray-həşir salırlar. Onlar elə bir səs-küy salırlar ki, bütün qonum-qonşu yığışıb Ürviyənin evinə gəlir.

Bacadan içəri düşmüş oğlan əvvəldən razılaşdırıldığı kimi, özünü utanırmış kimi göstərib deyirdi: «Vallah, mənim heç bir günahım yoxdur. Bu qadın özü neçə vaxtdır ki, məni təqib edir, məndən əl çəkmir. O axır ki məni öz toruna saldı. Mən məcburiyyət qarşısında bu evə gəlirəm, bircə gün başqa işim olub, gələ bilməsəm, məni yerin deşiyindən də tapıb çıxarıb gətizdirir. Mən nə qədər çalışsam da, canımı bu tərbiyəsizdən qurtara bilmirəm». Bu dələduz, alçaq neçə saat Ürviyə haqqında ağlagəlməz, təsəvvür edilməyən şərlər, böhtanlar yağdırdı. Sonra onu çölə atdılar. Burada olanlar, gələnlər, yoldan keçənlər bu nalayiq, nadürüst sözləri eşitdilər. Ürviyənin qaynı hamının hər şeyi eşitdiyindən əmin olduqdan sonra yanındakı özü kimi kafir yoldaşları ilə otaqdan çıxıb qapını kilidlədi. O, gecəni qardaşının evində qaldı. Ürviyə isə otağında bir küncə sıxılıb, nələrin baş verdiyini düşünməyə başladı. Evə yad bir adamın girməyini, onun haqqında nalayiq sözlər danışmağını, qonum-qonşunun yığışıb gəlməyini, onun el-aləmdə rüsvay olduğunu fikirləşib bir şey anlaya bilmirdi. Ürviyə nə qədər fikirləşirdisə,

beyni bir o qədər sıxılır, ürəyindən qanlar axırdı. O, əllərini göyə qaldırıb dedi: «Oh, ay Allah, mən rüsvay oldum, mən biabır oldum

Ah! Pislik tikanı necə haqsız yerə ürəyimə sancılır,
Təəssüf ki mən bu rüsvayçılıqdan qurtula bilmədim,
Yaxşılıq edirdim mən, əvəzində pislik etdilər,
Qızılgül əkmişdim, tikan biçdim».

Ürviyə olanları dəfələrlə götür-qoy edib, gözünün qabağına gətirib, bunların nanəcib, rəzil qaynı tərəfindən törədildiyini yəqin etdi. Səcdəyə gedib, dərdlərini Allaha danışmağa başladı. O, talesizliyindən, tənhalığından, kimsəsizliyindən danışdı, ağladı. Allaha yalvardı ki, onu öz pənahında saxlasın, ona rəhm etsin. Ürviyə ürəyini Allaha verib, qədər-qismətinə boyun əydi.

Ürviyə bir də eşitdi ki, qaynı yenə ağzını açıb onun haqqında ağlına gələn cəfəngiyatı danışır. Oğlan qapıya yaxınlaşıb onu təhqir edib, söyməyə başladı: «Ay əxlaqsız, namussuz, alçaq qadın, səni canamazınla bir yerdə yandırmaq lazımdır. Sən mənim qardaşımın halal adına ləkə gətirdin. Mən it olub hürərəm, əgər sabah səni canamazına bürüyüb məhəlləmizin meydanında yandırmasam».

Ürviyə onun sözlərinə fikir vermirdi, başını canamazından qaldırmadan dualarına davam edirdi, ağlayıb Allahdan imdad istəyirdi. Səhər açılanda taqətdən, əldən düşmüş Ürviyə ayağa qalxıb, dəstəmazını alıb, əynini dəyişib yenə də ibadətinə keçdi. Namazını bitirdikdən sonra «Əşhədu ən la ilahə illəlah, əşhədu ənna Muhəmmədən rəsulullah»,- deyib bir küncə çəkilib taleyin ona daha nələr hazırladığını gözləməyə başladı.

Bu vaxt Ürviyə gördü ki, qaynı bir dəstə adamla onun evinə sarı gəlir. O dəstə qapıya yaxınlaşıb ən nalayiq sözlərlə Ürviyəni təhqir edir, söyüşlər yağdırırdı. Onlar qapını vurub açdılar, qızı ayaqyalın, başı açıq şəkildə küçələrlə sürüyüb apardılar. Xəcalətdən üzünü açılıb-tökülmüş saçları ilə örtməyə çalışan Ürviyə Allaha yalvarırdı: «Hər şey Allahın əlindədir, Allah böyükdür!» O ancaq Allaha ümid bəsləyərək, yol boyu kəlmeyi-şəhadətini söyləyirdi. Nəhayət, onlar müəyyən olunmuş yerə çatdılar. Burada artıq bütün əyanlar, əmirlər,

adlı-sanlı kişilər toplaşmışdır. Onlar çatıb, hər biri öz yerini tutduqdan sonra darğa soruşdu: «Eşidirəm! Buyurun, deyin. Nə baş vermişdir?» Qayın irəli çıxıb dedi: «Bu qadın mənim qardaşımın zövcəsidir. Qardaşım onu mənə tapşırıb, özü isə iş dalınca səfərə çıxmışdır. Mən dünən gəlib bu qadını bir başqa kişi ilə tutmuşam». Hökmdar üzünü Ürviyəyə tutub dedi: «Sən nə deyə bilərsən?» Ürviyə için-için ağlayırdı, xəcalətdən bilmirdi, necə etsin ki, üzünü görən olmasın. O, dodağının altında pıçıldayırdı: «Hər şeyə hakim Allahdır!» Hökmdar yenə soruşdu: «Özünü təmizə çıxarmaq üçün nə deyə bilərsən?» Ürviyə yenə də dedi: «Hər şeyə hakim Allahdır». Ürviyədən başqa bir cavab ala bilməyən hökmdar onun qaynına müraciət etdi: «Yaxşı, bəs sənin şahidin varmı?» Qayın öz qondarma, özü kimi kafir şahidlərini göstərib dedi: «Bəli, vardır, buradadırlar». Bu qansız kafirlər Ürviyənin ünvanına ağlasığmaz iftiralar söyləyərək şahidlik etdilər. Onda hökmdar darğaya əmr etdi ki, Ürviyəni qanuna uyğun cəzalandırsınlar, yəni daşqalaq etsinlər. Darğa öz adamlarına buyurdu ki, Ürviyəni zindana atsınlar və edama qədər orada saxlasınlar. Bu arada alçaq qayın isə Ürviyənin evini talayıb, qızıl-gümüşünü, xalça-palazını və başqa şeyləri dost-tanışına paylayırdı. Sonra o, darğadan izin aldı ki, Ürviyənin cəzasını özü versin. Darğanın icazəsindən sonra o, Ürviyəni zindandan çıxarıb, ayaqyalın, başıaçıq halda söyüb, təhqir edə-edə küçələrdən sürüyə-sürüyə şəhər meydanına apardı. Orada quyu qazıb Ürviyəni sinəsinədək basdırdı və dostları ilə onu daşqalaq etməyə başladı. Zavallı Ürviyə isə hər atılan daşdan sonra dodağının altında deyirdi: «Hər şeyə hakim Allahdır!» Bu alçaqlar Ürviyəyə o qədər daş atdılar ki, axırda o, daşların altında görünməz oldu. Bu rəzil varlıqlar Ürviyənin öldüyünü düşünüb dağılışdılar. Bu tamaşaya yığışanlar da müxtəlif fikirlərə malik idilər. Bir qismi Ürviyənin günahkar olduğuna inanıb deyirdi: «Bizim zəmanəmizdə inamlı-imanlı adamlara da bel bağlamaq olmaz, onların hamısı riyakardır, arpanı buğda adı ilə satanlardır. Kim deyə bilərdi ki, yer üzündə Ürviyədən namuslu, abırlı, həyalı bir qadın var? İndi isə bax gör!» Daha ağıllı, daha həssas olanlar isə belə düşünmürdülər. Onlar deyirdilər: «Bunun hamısı

cəfəngiyatdır. Ürviyə kimi Allahlı, imanlı bir qadın deyilənlərin heç birinə qadir deyildir. Bunların hamısı şər, iftiradır». İnsanların əksəriyyəti Ürviyəyə çox yaxşı bələd olduqları üçün bu sərsəm tamaşanın saxta və yalan olduğunu deyirdi. Amma çıxarılmış hökmü heç kəs poza bilməzdi. Bu vəziyyətdə zavallı qadının dadına çatan ola bilməzdi. Sonda Ürviyəni daşların altında qoyub hamı dağılışdı.

Amma bildiyimiz kimi, hər şeyə hakim olan Allahdır və Allah hələ Ürviyənin canını almamışdır, ona yaşamaq üçün bir dənə də fürsət bəxş etmişdir. Baxmayaraq ki, Ürviyənin bütün vücudu qan-qançır içində idi, bədənində bir salamat nöqtə yox idi, amma canı, nəfəsi üstündə idi. Gecə düşüb, qaranlıq çökəndə uca Allahın qüdrəti ilə sanki zavallı Ürviyənin günahsız olduğunu sübut etmək məqsədi ilə ona atılmış daşlar işıq saçmağa başladı. Bu, bir növ, Ürviyənin günahsız olduğuna bir işarə idi. Yaxınlıqda olan insanlar bu daşların işıq saçmasını açıq-aşkar görürdülər. Bunun şahidi olanlar bu möcüzəni müzakirə edib, onun anlamını başa düşməyə çalışırdılar. Sonda belə qərara gəldilər ki, səhər açılanda gedib Urviyəni daşların altından çıxarsınlar və adət üzrə hörmət-izzətlə dəfn eləsinlər.

Həmin gecə Ürviyə bir namus, bir ismət mücəssəməsi kimi, çox möhtərəm, imanlı kişinin yuxusuna girir. O ağsaqqal anlayır ki, Ürviyə haqqında deyilənlərin hamısı iftiradır, Ürviyə aydan arı, sudan durudur.

Bu arada zavallı Ürviyə isə daş yığnağının altında zarıyırdı: «Ay Allah! Mənə rəhm et!» Həmin vaxt, hadisələr sanki yönünü, səmtini dəyişir. O vaxtlar oğru, quldur kimi ad qazanmış bir kişi yaşayırmış, onun evinə gedən yol da bu meydandan keçirmiş. O, adətən, özünün yaşadığı yerlərdə oğurluq-quldurluq etməzdi, on günlük başqa məmləkətlərə səfərə çıxar, taladığını talayıb, yağmaladığını yağmalayıb, karvanlara hücum edib evinə qayıdarmış və bir müddət heç yerə getməzmiş. Ürviyənin daşqalaq olunduğu vaxt o öz quldur yoldaşları ilə növbəti səfərindən qayıdırdı. Bu elə daşların işıq saçmağa başladığı vaxta təsadüf etmişdir. Onlar üstləri mal, yük ilə dolu dəvələr, atlarla buradan keçəndə görürlər ki, yerdəki bir topa daşdan süzən işıq göyün üzündə parlaq bir günbəz yaradır. Dediyimiz oğru bunu

görüb yoldaşlarına deyir: «Bura Allahın xeyir-duası ilə işıqlanmış bir məkana bənzəyir. Biz uzaq yoldan gəlirik, yorulub əldən düşmüşük. Gəlin burada nəfəsimizi dərək, sonra yolumuza davam edərik. Hamı bu fikirlə razılaşır. Onlar heyvanları yükdən azad edib, özləri də qənimətləri bir yerə yığıb, hərə bir yükün, bir bağlamanın üstündə əyləşir. Birdən onların qulaqlarına zavallı Ürviyənin fəryadları çatır. Quldurbaşı deyir: «Gəlin bu daşları kənara atıb, altındakı bədbəxti çıxaraq».

Onlar daşları atıb, təmizlədikdə görürlər ki, bunların arasında bir aycamal gözəl inildəyir. Bu qadın palçığın, gilin arasında sanki bir günəş kimi, işıq saçırdı. Çırağı yandıranda onlar gördülər ki, qızın üstündə bir salamat yeri yoxdur. Bütün qan içindədir. Quldurbaşı əmr edir ki, onu yuyundursunlar, yaralarını təmizləyib üstlərinə məlhəm qoysunlar. Sonra Ürviyə üçün yemək gətirirlər, zavallı qız bir azca yeyib özünə gəlir, amma hələ danışa bilmir. Quldurbaşı ondan nə baş verdiyini soruşur, amma Ürviyə danışa bilmədiyi üçün işarələrlə başa salır ki, sonra danışar. Allah elə bil ki bu quldurbaşının ürəyində Ürviyəyə qarşı bir mərhəmət hissi oyatmışdır. O öz-özünə deyir: «Mən bu zavallını özümlə aparıb, çalışacağam ki, onu müalicə edim. Əgər müalicə edə bilsəm, onu bir ləyaqətli adama ərə verərəm, yox, əgər bacarmasam, ölsə, onda onu hər bir adət üzrə dəfn edərəm. Bəlkə, Allah-təala bu əməlimə görə günahlarımdan da keçər».

Bu qərara gələrək o əmr etdi ki, bir dənə rahat xərək hazırlasınlar və onu dəvəyə bərkitsinlər. Sonra onlar Ürviyəni ehmalca xərəyin üstünə qoyurlar. Quldurlar mallarını, qənimətlərini heyvanlara yükləyib yola düşürlər və Ürviyəni də özləri ilə aparırlar. Onlar gün yarım yol getdikdən sonra mənzilbaşına çatırlar.

Quldurbaşının çox mərhəmətli, imanlı zövcəsi var idi. O, həmişə ərini gördüyü işlərə görə tənə edir, bu işlərdən əl çəkməsini tövsiyə edirdi. Quldurbaşı Ürviyəni evə gətirib zövcəsinə işıq saçan daşlardan, bu zavallını işıq saçan daşların altından çıxarmasından danışır və deyir: «Xanım, bu zavallını gətirdim ki, ona qulluq edib sağaldaq və sonra qismət olarsa, bir halal adama ərə verərik, yox,

əgər sağalda bilməsək, ölsə, onda da ədəb-ərkanla dəfn edərik. Bəlkə, bu savab işimizə görə Allah mənim günahlarımdan keçər».

Ərinin danışdıqlarına qulaq asıb, Ürviyənin halını görən qadının ürəyi çox pis olur, ərinə deyir: «Allah səni saxlasın! Doğru etmisən.

Sən yaxşılıq elə, Allah köməyin olar,
Əməlinin əvəzində, bəlkə, cənnətə düşərsən».

Daha sonra o, bir təcrübəli loğman dəvət edir. Loğman Ürviyəyə baxıb, yaralarına tikiş qoyub, məlhəmlə sarıyır. Quldurbaşının zövcəsi Ürviyəni öz evləri ilə yanaşı olan bir səliqəli tikilidə yerləşdirir və ona qulluq etməyə başlayır. O hər gün səhər Ürviyənin yanına keçir, axşamacan ona qulluq edirdi. Ürviyə yavaş-yavaş sağalıb özünə gəlməyə başlamışdır və tam sağaldıqdan sonra bütün gözəlliyi artıqlaması ilə özünə qayıtmışdır. Quldurun zövcəsi ondan başına gələnləri danışmağını rica edir. Ürviyə başına gələnlərin hamısını, başdan-ayağacan danışır. Quldurun zövcəsi və orada olanların hamısı zavallı qızın başına gələnlərə heyrətlə qulaq asırdılar. Bundan sonra onlar Ürviyəyə daha çox qayğı göstərib, əvvəlkindən daha yaxşı qulluq edirlər.

Bir gün Ürviyə onlara minnətdarlığını bildirib dedi: «Sizin mənə göstərdiyiniz bu qayğı, bu mərhəmət, bu ehtiramın qarşılığını ancaq uca Allah vermək iqtidarındadır, çünki ondan başqa bir Allah bəndəsi buna qadir ola bilməz.

Fikrimcə, bir ömür belə yetməz,
Borcunuzu ürəyimcə ödəyim.

Amma müdriklərin sözündə bir həqiqət vardır: «Xeyirxahlıq tam olanda əsl xeyirxahlıq olur». İndi sizdən çox xahiş edirəm, mənə qarşı axıracan nəcib olun və bir istəyimi yerinə yetirin. O uca Allahın xətrinə mənə bir xəlvət guşə ayırın. Elə bir guşə olsun ki, ora bir adamın nəfəsi belə dəyməsin, ora heç kəs girməsin. Mən oraya çəkilib cani-dildən ibadət edib, heç bir şey haqqında fikirləşmədən üzrlü səbəblərdən ötürdüyüm ibadətlərimi bərpa edim».

Kənd əhli Ürviyənin istəyinə uyğun, balaca, rahat bir ev ayırırlar və içinə də lazımi əşyaları yığırlar. Ürviyə onlara minnətdarlığını bildirib dedi: «Siz mənə çox yaxşılıqlar etdiniz. Allah sizi öz pənahında saxlasın! Sizdən son ricam da olacaqdır. Elə edin ki, bir kişi xeylağı mənim evimə yaxın belə gəlməsin». Kənd əhli dedi: «Narahat olma, səni heç kim narahat etməyəcəkdir. Ürəyinə necə yatır, elə yaşa». Canı, ruhu ilə Allaha bağlı olan Ürviyə bu xeyirxah insanlara deyir ki, Allah heç vaxt onları darda qoymayacaqdır. O deyir:

«Ancaq Allahın hökmü ilə məqsədə çatmaq olar,
Gecə-gündüz dualar edəcəyəm ki, Allah yardımçınız olsun».

Beləliklə, Ürviyə öz kiçik evinə çəkilərək yenidən ruh rahatlığı tapır. O, günlərini ibadətdə, orucda, namazda keçirirdi. Gecələr isə Allaha mədhlər söyləyib, şükürlər edirdi. O ancaq dəstəmaz almaq üçün həyətə çıxar, həftədə iki-üç dəfə quldurun zövcəsi ilə görüşər və ona minnətdarlığını bildirərdi. Qalan vaxtları evində keçirərdi. Bu minvalla iki-üç ay da keçir.

Quldurun bir zənci qulu var idi. O elə qara, elə eybəcər idi ki, iblis iblisliyi ilə ona baxmağa qorxardı. Bu qul ulaqlara, qatırlara baxırdı və günlərini də tövlədə keçirirdi. Eybəcərliyi və qaralığı ilə eyni zamanda bu qul ağlasığmaz gücə, qüvvəyə, cəsarətə malik idi. O, uşaq yaşlarından quldurun evində yaşayıb böyümüşdür deyə heç kəs üzünü ondan gizlətmirdi. Evin xanımı da, xadimələri də, sadəcə, ona fikir vermirdilər və onun yanında çarşabsız, duvaqsız da gəzirdilər.

Quldurun nur kündəsi kimi bir oğlu var idi. Bu uşaq atasının, anasının nəfəsi idi. Onlar uşağın dayəliyini bu qara qula tapşırmışdılar. Bu qara qul heyvanların yemini verib, tövləni təmizlədikdən sonra evə keçib uşağı çiyninə otuzdurub həyətdə, küçədə gəzdirirdi.

Günlərin bir günü quldurun zövcəsi Ürviyəyə baş çəkmək üçün onun yanına gedir və həmişəkindən daha çox orada ləngiyir. O, Ürviyəyə deyir: «Əziz bacım, əgər Allah bizim günahlarımızın bircə balaca hissəsini belə bağışlasa, bu ancaq sənin sayəndə, sənin mübarək qədəmlərinin, saf, müqəddəs nəfəsinin sayəsində olar. Sənin kimi bir pak adama qulluq etdiyimizə görə, bəlkə, uca Allah günah-

larımızdan keçər. Sən bilirsən ki, yer üzündə mənim gözümün ağı-qarası bircə oğlum var, o bizim həyatımızın çırağıdır, aldığımız nəfəsimizdir. Ondan başqa övladım yoxdur. Sənə yalvarıram, özün məsləhət bildiyin vaxt onu evinə gətir, o dualı ağzınla onun üçün gözəl surələrdən oxu, əlini başına çək. Bəlkə, sənin sayəndə Allah-təala onu bəlalardan hifz edər. Allah böyükdür, bəlkə, sənin saf nəfəsin, pak niyyətin sayəsində onu bizim günahlarımızdan hifz edər». Ürviyə dedi: «Baş üstə, xanım, sən necə istəyirsənsə, mən elə də edərəm və istədiyin vaxt uşağı mənim yanıma gətirə və ya göndərə bilərsən».

Bu söhbətdən bir həftə keçmişdir. Quldurun zövcəsi uşağı qara qula verib, onu Ürviyənin yanına aparmağı buyurur. Qara qul uşağı götürüb Ürviyənin evinə gedir. Ürviyə bundan xəbərsiz idi. Evdə çarşabsız öz işləri ilə məşğul idi. Qara qul qəfildən içəri keçib Ürviyənin ay camalını görən kimi o gözəlliyin qarşısında fəryad edib huşunu itirir və yerə sərilir.

Ürviyə bu hadisədən çox qorxur, ürəyi əsir. Qapını bərk örtüb, bir növ, başına gələcək bədbəxtçilikləri hiss edərək, diz çöküb Allaha üz tutur:

«Təzəcə bəladan qurtarmışdım ki,
Başqa bəla başıma gəlir».

O ki qaldı qara qula, o neçə gün sərxoşlar kimi gəzib-dolaşdı. O çalışırdı ki, bu fikirləri, bu hissləri özündən uzaqlaşdırsın. O fikirləşirdi: «Bu qadın təmiz adı, namusu, tərbiyəsi ilə, ürəyində iman, Allah xofu olması ilə seçilir. Mən heç vaxt onu yoldan çıxara bilmərəm». Bu düşüncələrin ağırlığı altında deyirdi:

«Gözəlliyin ayı üzünü örtdü,
Bəlkə də, min ürəyi əsir etmisən,
Artıq dözə bilmirəm, günahkar deyiləm mən,
Bilirəm, sənə gözucu baxmağa belə ixtiyarım yoxdur».

Bir müddət bu fikirləri özündən uzaq tutaraq gəzib-dolaşan qara qul bir gün artıq dözə bilməyib Ürviyənin evinə girib özünü onun ayaqlarına atıb dedi:

«Bir bəla oduna düşmüşəm, inan,
Ya xilas et məni, ya canımı al!

Səni and verirəm o uca Allaha, mənə rəhmin gəlsin, mən biçarəyə rəhm et. Artıq neçə vaxtdır sənin eşqindən ilan kimi qıvrılıram, nə gecəm var, nə gündüzüm».

Ürviyə bu sözləri eşidib qışqırmağa başladı: «Ay rəzil, nacins qara qul! Sən nə cürətlə mənə belə sözlər deyirsən?! And olsun Allaha, bir də ağzına alıb bu sözləri desən, sənin sahibinə şikayət edəcəyəm, o sənin payını verər».

Ürviyə bunları deyib, qara qulu evindən qovub, qapını bağladı və ibadətinə başladı ki, bir az sakitləşsin. Əskildilmiş, alçaldılmış qara qul isə xəcalətdən rəngi qaralmış halda, gözlərindən qan yaşlar axıda-axıda evinə getdi. Bu hadisədən bir ay keçdi. Bu müddət ərzində qara qul hər dəfə Ürviyə ilə rastlaşanda ağlayıb yalvarırdı ki, ona rəhmi gəlsin, Ürviyə isə ona fikir vermədən çıxıb gedirdi. Bu qara qul ağlamaq, yalvarmaqdan bir şeyə nail ola bilməyəcəyinə əmin olduqdan sonra qisas almaq fikrinə düşdü. Qara qulun içindəki kin-küdurət ona rahatlıq vermirdi. O hər bir vəchlə Ürviyənin rəzil olması üçün bir tələ qurmaq istəyirdi. Elə ki Ürviyə bu qara qulun niyyətindən şübhələndi, ehtiyat etməyə başladı. O, qara gəlmiş bəxtini lənətləyərək tez-tez bu şeir parçasını deyirdi:

«Hara gedirəmsə, arxamca gəlir
Min bir dərd, min bəla, minlərlə fikir.
Bunda da heç kəsin günahı yoxdur,
Ancaq bəxtimdir hər şeydə günahkar».

Ürviyə bu şeir parçasını təkrar edə-edə göz yaşları axıdırdı. Bir müddət də belə keçdi. Günlərin bir günü qara qul Ürviyənin tək olduğunu görüb ona yaxınlaşdı. Qara qul Ürviyəyə dedi: «Ey dünyalar gözəli, ey gözəllikdə tayı-bərabəri olmayan, ey ürəklərin fatehi, niyə mən zavallıya rəhmin gəlmir, niyə mən biçarəni nakam qoyursan? Sən mənə lütf edib, mənə etinasızlıq etməsən, mən də bu şirin həyatdan zövq alaram. Sənin namuslu, abırlı, həyalı bir qadın olduğunu bilirəm. Bilirəm ki, təsadüfi münasibətə, yaxınlığa yol verməzsən.

Mən də bunu istəmirəm ki...., sən mənə razılığını ver, mən ağamın yanına gedib səni özümə qanuni zövcə istəyim. Yox, əgər mənim bu şərtlərimlə razılaşmasan, bil ki, səni də, özümü də öldürəcəyəm». Ürviyə yenə qəzəblənub özündən çıxdı, onu tənə edib, üstünə qışqırdı, sonra isə lənətləməyə başladı. Qara qul sahibindən ehtiyat edib oranı tərk etdi. O dedi:

«Səni hər yerdə qisasım təqib edəcəkdir,
Qisasımı almasam, kişi olmaram».

Ürviyə yenə ağlayıb göz yaşlarını axıtdı və dedi:

«Qürbətdə sirdaşım
Dərd, bəla, fəryad, ah-zar oldu.
Daha çox yandırmaq üçün
Qönçələr də tikana döndü».

Ürviyə bu şeir parçasını deyib daha da bərkdən ağladı. Yenə Allaha pənah gətirib dedi:

«Görək gündə rəng dəyişən bivəfa bəxtim
Daha nə fənd quracaqdır bizim üçün».

Bir gün bu zalım qara qul Ürviyəni öldürmək fikri ilə onun evinə gedir. Ürviyə bu bədheybət quldan hər alçaq iş gözlədiyi üçün həmişə qapısını, pəncərələrini möhkəm bağlayırdı. Qara qul evə daxil ola bilmir və qəzəblənmiş halda evinə qayıdıb quldurun körpə oğlunun başını kəsib Ürviyənin qapısının ağzına atır. Bundan sonra da ürəyi soyumayıb, uşağın ucundan qan daman qanlı köynəyini də aparıb Ürviyənin qapısına atır. Bunları edəndən sonra qara iblis evinə qayıdıb, yerinə girib yatır.

Quldurun zövcəsi heç bir şeydən xəbərsiz yatırdı. Səhər açılanda görür ki, hər tərəf qana bulaşmışdır. O, tez ərini oyadır. Quldur da oyanıb hər tərəfi qan içində görür. Onlar ikisi də tez özlərini uşağın beşiyinə atırlar və görürlər ki, uşaqlarının başı kəsilmişdir. Onlar fəryad edib qışqırırlar. Onlar elə qışqırırlar ki, səsləri çölə də gedir. Onların bu qışqırığına Ürviyə də yerindən dik atılır və onların yanına

qaçır. Gəlib dəhşətli səhnəni görən Ürviyənin canına üşütmə düşür, dili tutulur. Ürviyənin ev sahibinin evinə keçdiyini görən qara qul xəlvətcə qana bulaşmış bıçağı götürüb Ürviyənin evinə girir. O, bıçağı Ürviyənin paltarlarının arasında gizlədib, özü sahibinin evinə keçir. Qara qul burada olanlardan daha çox qışqırır, daha bərkdən fəryad etməyə başlayır. Artıq qışqırıqlara qonum-qonşu da yığışmışdır. Onlar çaşqın halda bunun kim tərəfindən edildiyini müzakirə edirdilər. Hamı mat qalmışdır və hamı bir-birindən soruşurdu: «Bu dəhşətli cinayəti kim törətmiş olar?»

Bu arada qara qul isə başındakı saçlarını yolub qışqırırdı: «Mən bu uşağı ürəyimin qanı ilə, yağı ilə bəsləmişəm, mən bu uşağı gözümün bəbəyi kimi qorumuşam. Mən bunu belə qoya bilmərəm. Mən o qatili tapmamış, onun başını üzməmiş, bu məsum körpənin intiqamını almamış sakitləşməyəcəyəm!

O alçaq gecənin bəbəyində gizlənsə də
Onu orada da tapıb öz əllərimlə məhv edəcəyəm».

Bu alçaq qara qul dayanmadan qışqırıb, fəryad edirdi. O, evin başına fırlanır, üstündəki paltarı cırır, saçlarını yolurdu. O, özünü daşa-divara çırpa-çırpa qışqırıb ağlayırdı və birdən, guya, təsadüfən onun gözünə qan ləkələri dəyir. Qara qul bu qan izləri ilə gedib, Ürviyənin evinə girir və onun pal-paltarını töküb-dağıdıb, öz əlləri ilə qoyduğu bıçağı tapıb çıxarır. Bıçağı əlinə alan bu nacins küçəyə çıxıb var-gücü ilə qışqırır: «Ay müsəlmanlar! Bu, əsli-nəsli məlum olmayan pozğun, bu, haradan gəldiyi, niyə gəldiyi məlum olmayan namussuz bizim ona göstərdiyimiz mərhəmətin qarşısında görün nə etdi. Biz onu hörmətlə qarşıladıq, ona yer-yurd qurduq, o isə bunların müqabilində o günahsız, məsum uşağa qıydı, çünki o sübut etmək istəyirdi ki, yaxşılığın qarşılığı həmişə pislik olur».

Qara qulun əlindəki bıçağı görüb, dediklərini eşidən ata-ana quruyub qalmışdırlar. Onlar görəndə ki, Ürviyə özünü müdafiə etmək üçün heç bir söz demir, etiraz etmir, ürəklərinə şübhə toxumu düşdü. Hərə öz fikrini söyləməyə başladı. Araya səs-küy düşdüyündən, ara qarışdığından heç kəsin gözü heç nəyi seçmirdi. Qara qul

fürsətdən istifadə edib, bir göz qırpımında Ürviyənin üstünə atılıb, onu yerə sərdi və hazırlaşırdı ki, bıçağı onun ürəyinə sancsın, camaat yuxudan ayılıbmış kimi, onu, çox çətinliklə olsa da, kənara çəkə bildi. Quldur diqqətlə Ürviyənin gözlərinin içinə baxıb ağladı və dedi: «Ey riyakar, arpanı buğda adı ilə satan, mənim sənə nə pisliyim dəymişdir? Mən sənə nə pislik etmişəm ki, sən mənim canı canımdan, qanı qanımdan olan oğlumu öldürüb, mənim həyatımı puç etdin, ürəyimi param-parça etdin? Doğru deyirlər:

Kuzədən ancaq vaxtı ilə,
kimsə tərəfindən doldurulmuş süzülər».

Qanlı bıçağı görən, qulun ittihamlarını eşidən yazıq ana Ürviyənin üstünə atıldı, onu yerə yıxıb, əlləri ilə, təpikləri ilə döydü, saçlarını yoldu və sonra üzünü qula tutub dedi: «Mən istəyirəm ki, sən elə indi bunun başını üzüb mənim günahsız balamın başının yanına qoyasan, bəlkə, onda yanğım bir az soyuyar».

Alçaq qara qul bu dəfə daha vəhşicəsinə Ürviyənin üstünə düşdü. Onu yıxıb yumruqları ilə döyüb, ayaqları ilə təpiklədi, üzünü, gözünü cırdı. Camaat nə qədər çalışsa da, Ürviyəni onun əlindən ala bilmirdi. Zavallı qadın ağlayıb, and-aman edirdi ki, onun heç bir günahı yoxdur, amma o bu sözləri dedikcə qul onu daha çox əzişdirir, daha çox təpikləyirdi. Axırda Ürviyə huşunu itirdi. Bir müddət sonra, özünə gəldikdə uşağın valideynlərinin ayaqlarına düşüb yalvardı və dedi:

«Niyə məni heyvan kimi basıb döyürsünüz?
Niyə mənim günahsız olduğuma inanmırsınız?
Qanımı axıtmazdan əvvəl,
İmkan verin, məhkəmə ədalətlə bu işə baxsın.

Ey mərhəmətli insanlar, and olsun o uca Allaha, mənim bu işdən xəbərim yoxdur. Mən yazıq, kimsəsiz, bədbəxt bir adamam. Sizi and verirəm Allaha! Düşünün, fikirləşin, lazım olan qədər araşdırın, onda görəcəksiniz ki, mənim kimi bir zəif, gücsüz, kimsəsiz birisi belə işə qadir ola bilməz». Ürviyə bu sözləri deyib yenə ağladı.

Alçaq, vicdansız, rəzil qul yenə də bıçağını qaldırıb Ürviyənin üstünə yeridi və qışqırmağa başladı: «Ay pozğun, namussuz, abırsız, sən heç kəsin ağlına belə gətirə bilməyəcəyi bir qətl törətmisən, hələ də utanıb, yerə girmirsən, özünə haqq qazandırmaq üçün min bəhanə, səbəb axtarırsan? Sən canını qurtarmaq üçün min fənd işlədib, bu nəcib insanlarda özünə qarşı rəhm hissi oyatmaq niyyətindəsən? Heç özünü yorma, mənim əlimdən qurtara bilməyəcəksən, inan ki, min canın olsa belə, minini də almayanacan əl çəkməyəcəyəm. Sən bir məsum, günahsız uşağı öldürüb, indi də min cür fırıldaqla öz canını qurtarmaq istəyirsən?!»

İş orasındadır ki, bu zavallı, məsum körpənin atası – quldur çox ağıllı, müdrik adam idi. O bir az fikirləşib dedi: «Ərəblər demişkən, hər söhbətin öz zamanı, hər işin də öz icraçısı var.

Baş verən hər bir işin səbəbi olmalıdır,
Hər işin isə öz icraçısı vardır».

Uşağın atası fikirləşdi: «Bu qul çox canfəşanlıq edir və nəyin bahasına olursa olsun, bu qadının qanının tökülməsini istəyir. Bu, görünür, səbəbsiz deyildir, bunun arxasında nəsə durur.

Bu məsələ həm ağır, həm şübhəlidir,
Bu işə böyük diqqət və ehtiyatla yanaşmaq lazımdır».

O, qula müraciət edib dedi: «Ey qul, bu işin sənə nə dəxli, əl çək qadından, rədd ol, get. Biz əvvəlcə uşağı dəfn edəcəyik, sonra isə bu işlə məşğul olacağıq». Qul sahibinin sözlərini eşidib susdu və kənara çəkildi. Uşağın anası isə heç cür sakit ola bilmirdi, o, Ürviyənin qatil olduğuna inanmışdır və hər kəsə deyirdi: «Mən ondan oğlumun intiqamını almasam, sakit ola bilmərəm».

Uşağın dəfnindən sonra bu qara qul uşağın anasının yanına gedib ağlayıb qışqırmağa başladı: «Bu alçaq, namussuz qatil mənim ürəyimə elə bir zərbə vurdu ki, elə param-parça elədi ki, indən belə onun nə qanı dayanar, nə sızıltısı. Mən sənə yalvarıram, ərini yola gətir, mən bu vicdansızı tikə-tikə edim, başını boynundan üzüm. Əgər siz mənə icazə verməsəniz də, mən o körpənin qanını

yerdə qoymayacağam. Yəni sizin bir mənliyiniz yoxdur ki, onu salamat qoyursunuz?»

Qadın dedi: «Əlacım ola onu dişlərimlə didərəm». O, qul ilə bir yerdə ərinin yanına getdi və göz yaşlarını axıda-axıda yalvardı: «İzin ver mənə, mən bu qansızı qanına qəltan edim, ona layiq olduğu cəzanı verim».

Kişi dedi: «Xanım, bir bu qara qulun, kafirin sözü ilə o qadını günahlandırıb cəzalandırmağa, öldürməyə, öldürtməyə tələsmə. Bir az səbir et, qoy mən bu işi tam öyrənim, görüm, həqiqətənmi, oğlumun qatili bu qadındır. Əslində, mən bilirəm ki, onun bu işdən heç xəbəri olmadığı məlum olacaqdır. Bu qadın bizim yanımızda məskunlaşandan bəri bir dənə nalayiq hərəkətə yol verməmişdir. Özün də bilirsən ki, onun ibadətdən, Allaha xidmətdən başqa işi yoxdur. Bundan başqa, xislətinə görə də o, bəd iş görməyə qadir deyildir».

Kişi zövcəsini sakitləşdirdi, qula isə gedib öz işləri ilə məşğul olmasını əmr etdi. O özü isə Ürviyənin yanına getdi və sözə başladı: «Ey Ürviyə, hamıdan yaxşı sən bilirsən ki, mən sənə necə münasibət bəsləyib, sənə nələr etmişəm. Mən səni daş yığnağının altından çıxarıb, xərəklə evimə gətirdim, sənin müalicən üçün, yaralarının sağalması üçün ən tanınmış loğmanları dəvət etdim, zövcəm gecə-gündüz sənin qulluğunda durdu ki, tez sağalıb ayağa qalxasan. Sən nəyə görə belə bir iş gördün? Sən nəyə görə mənim sənə olan mərhəmətimin əvəzində belə, ağla gəlməyən cinayəti etdin?»

Olanların yükündən əzilmiş, sınmış, əldən düşmüş Ürviyə ağlayıb dedi: «Ey möhtərəm, əziz qardaşım, səni and verirəm Allaha, vicdanına, bu işi yaxşı öyrən, düşün, fikirləş, nəticə çıxarmağa, hökm verməyə tələsmə, başa düş ki, mən binəva bu ləkəyə, şərə, iftiraya layiq deyiləm. Allah hər şeyi görən və biləndir. O mənim bu işlərdən xəbərsiz olduğumu bilir. O, mənim işgəncələrə məruz qalmağıma, bəlaya düşməyimə yol verməz. O, əsl qatilin üzə çıxmasına yardımçı olub mənim günahsız olduğumu sübut edəcəkdir. Səni and verirəm Allaha, ədalətli ol, kimsəsiz, qərib bir qadının nahaqdan ittiham edilməsinə yol vermə, çünki:

Bir gün qürbətdə sən də düşsən bəlaya,

Onda sənə də uca Allah rəhm edər».

Ürviyə bunları deyib yenə göz yaşlarını axıtdı. Quldurun Ürviyəyə yazığı gəldi və o dedi: «İkisindən biridir: ya mənim oğlumun qatili sənsən, ya da kimsə səndən intiqam almaq üçün bu işi görmüşdür ki, sənin boynuna atsın. Hər iki halda sən artıq burada yaşaya bilməzsən. Uşağın anası sənə qarşıdır, düşmənlərinin tərəfindədir. Ondan hər şey gözləmək olar. Qara qul isə lap körpəliyindən oğluma dayəlik edib, onu çiyinlərində gəzdirib, göz bəbəyi kimi qorumuşdur deyə sakitləşə bilmir. Qorxuram ki, o da sənə nə isə edər. Sənin öz əmin-amanlığın naminə, buranı tərk edib başqa bir məmləkətdə məskunlaşmağın daha məqsədəuyğun olar. Ərəblər deyir: «Allahın kainatı böyükdür». Mən sənə yaşamaq üçün vəsait verəcəyəm. Sən getsən, biz də səni görmərik, yaramızın üstü daha tez qartmaq bağlayar».

Ürviyə dedi: «Sən nə buyursan, əməl etməyə hazıram». Quldur o saat evə gedib üç yüz qızıl dinar gətirib Ürviyəyə verdi. Ürviyə dinarları götürüb qaranlığın düşməyini gözlədi. Qaranlıq düşəndə başına çarşab atıb, uşağın anası ilə halallaşmaq üçün onların evlərinə keçdi. Uşağın anası onu görüb ağladı və dedi: «Ah Ürviyə, əgər sən, dediyin kimi, bizə bir pislik etməmisənsə, etdiyimiz yaxşılığın qarşılığını yaxşılıqla qaytarmısansa, qoy onda yolun açıq olsun, uğurlu olsun, yox, əgər bizə pisliyin dəymişsə, qoy Allah-təala sənə mənim oğluma elədiyindən artıq pislik yetirsin».

Ürviyə hönkürüb dedi: «Amin!» və tez çıxıb getdi. Səhər açılanda o artıq yol gedirdi və Allahdan onu bəd işlərdən və qara qulun təqibindən qorumasını yalvarıb istəyirdi. O çox qorxurdu ki, qara qul onu təqib edər və ona çatıb məhv edər. O dayanmadan yol gedirdi. Üç gündən sonra onun ayaqlarını suluqlar basdı, özü də əldən düşdü. Amma bunlara baxmayaraq, dayanmadı və yoluna davam etdi. Nəhayət, Ürviyə bir abad, gözəl şəhərə yetişdi. Ürviyə şəhərə daxil olub özünə bir sığınacaq axtarmağa başladı. O, bir qapının qabağında əyləşmiş qarı gördü. Ürviyə qarıya yaxınlaşıb salamlaşdı və dedi: «Ana can, mən bir qəribəm, qürbətdən gəlmişəm, şəhərə indicə girmişəm. Səndən xahiş edirəm, mənə yanında sığınacaq ver.

Mən burada iki-üç gündən artıq qalmayacağam, bir az istirahət edib yoluma davam edəcəyəm, sənin də xəcalətindən çıxacağam».

Qarı dedi: «Olar» və onu evə dəvət etdi. Ürviyə evə keçib, qarıya bir qədər pul verdi ki, gedib ona həm yemək, həm də paltarlarını yumaq üçün gil alsın. Ürviyə yeməyini yeyib, paltarlarını yuyub hamama getdi. Sonra qarının evində üç gün qalıb, dincəldikdən sonra yola düzəldi. Şəhər darvazalarına çatanda gördü ki, burada çoxlu adam yığışıb və cəlladlar kimi isə asmağa hazırlaşırlar. Onlar artıq bir nəfərin boynuna ip də salmışdırlar. Ürviyə ora toplaşmış camaatdan soruşdu: «Nə baş vermişdir? Bu bədbəxti niyə asırlar?» Biri cavab verdi: «Bizdə belə bir qanun var, dövlətin xəzinəsinin pulunu yersiz xərcləyənin aqibəti belə olur. Həmin adamı ya asırlar, ya da onun mal-mülkünü xəzinəyə keçirirlər. Bu cavan oğlan hökmdarın yanında məmur işləyirdi və maliyyə xərclərində bir az israfçılıq etmişdir. Onun heç bir şeyi olmadığından xərclədiyi məbləği geri qaytarmaq iqtidarında deyildir və ona görə də şah onun asılmasını əmr etmişdir». Ürviyə soruşdu: «Onun xərclədiyi məbləğ nə qədərdir?» Həmin adam cavab verdi: «Üç yüz dinar». Ürviyə dedi: «Bəs əgər mən Allah yolunda bu məbləği ödəsəm, bu oğlan qurtulmuş olacaqmı?» Həmin adam dedi: «Bunun üçün şahın yanına gedib, ondan icazə almaq lazımdır». Ürviyə oradakı məmurlara müraciət etdi. Onlar tez şahın yanına getdilər və çox keçmədən qayıdıb, şahın razı olduğunu təsdiq edən möhürlü kağızla qayıtdılar.

Ürviyə üç yüz dinarını məmurlara verib, yoluna davam etdi. Gənci azad etdilər, camaat qadının bu nəcib hərəkətini təqdir edib, ona dualar etdi. Dar ağacından azad olmuş oğlan məmurlardan soruşdu: «Məni kim azad etdirdi?» Onlar cavab verdilər: «Bir qərib qadın idi». Oğlan dedi: «Mən mütləq ona çatıb, minnətdarlığımı bildirməliyəm, axı mənim indən beləki həyatım ona məxsusdur, onu mənə o qadın bağışlamışdır».

Yoldan keçənlərdən soruşa-soruşa bu cavan oğlan Ürviyənin izinə düşdü və çox keçmədi, ona yetişdi. Oğlan Ürviyənin qarşısında təzim edib dedi: «Xanım, sən məni tanımadan, təmənna güdmədən mənə elə bir xeyirxahlıq etmisən ki, indən belə mən ömrümün so-

nunadək qulluğunda durub, gecə-gündüz sənə dualar etsəm belə, onun əvəzindən çıxa bilməyəcəyəm. İndi ona görə özümü sənə çatdırdım ki, qul kəmərini belimə sarıyıb qalmış həyatımı sənin qulluğunda durum».

Ürviyə dəyanətlə cavab verdi: «Mən etdiyimi Allahın yolunda etmişəm. ona görə də sənin mənə heç bir borcun yoxdur. Bil ki, mən bunu minnətlə etməmişəm. Mən bunu axirətimi düşünüb etmişəm, çünki hamımız bir-birimizə yaxşılıq etməyi bacarmalıyıq».

Ürviyənin belə rəvan nitqlə, qulaq oxşayan, məlahətli səslə verdiyi bu ləyaqətli cavab oğlanı məst etdi. Oğlan Ürviyənin gözəlliyi, kamilliyi qarşısında heyrətə gəldi, bir baxışdan ona aşiq oldu, dili tutuldu, ayaqları iradəsinə tabe olmadı. Ürviyə nə baş verdiyini o saat anladı, qorxudan əsib dedi:

«Allahım, qara bəxtim yenə də məni tapdı,
İndi hansı bəlalar məni təqib edəcəkdir?!»

O, gənc oğlana dedi: «Ey cavan, səni and verirəm uca Allaha! Səndən xahiş edirəm, qayıt get evinə, sən onsuz da məni tapmaq üçün çox əziyyət çəkmisən». Oğlan dedi: «Mən heç vaxt sənə xidmətdən imtina etməyəcəyəm, hesab et ki, azad etdiyin qulunam, mən heç vaxt səni tərk etməyəcəyəm və ömrümün sonunadək sənə xidmət edəcəyəm».

Ürviyə dedi: «Mən içində Allah xofu olan bir qərib qadınam. Sənin dediyin kimi olsun, səni mən azad etmişəmsə, Allah xətrinə halallığını da verirəm. Qoy sənin azadlığın sənə xeyir gətirsin. Sən əgər mənə minnətdarlıq etmək üçün gəlmisənsə, səni and verirəm Allaha qayıt, get evinə». Cavan oğlan dedi: «Yox, yox, səhv edirsən, çünki

Başımı qılınc üzsə belə,
Qulun olub ayağına düşəcəyəm.

Xeyr! Mən heç cür səni burada qoyub evə qayıda bilmərəm. Ürviyə görəndə ki, onun bütün səyləri əbəsdir, taleyinə boyun əyib, bikef yoluna davam etdi. O, ürəyində deyirdi:

«Qara bəxtim qərar tutmur bir yerdə,

Hələ hansı sınaqlardan keçəcəyəm?».

Ürviyə bu minvalla dayanmadan, nəfəsini dərmədən üç gün yol getdi. O, cavan oğlana heç fikir verməsə də, cavan oğlan hər bir vəchlə Ürviyə ilə ünsiyyət qurub münasibət yaratmaq istəyirdi. Ürviyə ona qarşı olan ikrah hissini gizlətmədən, çalışırdı ki, aralarında məsafə olsun. Nəhayət onlar çoxlu ağacı, bulağı olan bir çəmənliyə çatdılar. Ürviyə burada dayanıb, dəstəmazını aldı və namaz qılmağa başladı. Cavan oğlan qıraqdan baxıb ağlayırdı. Ürviyə bu halın, rəftarın səbəbini bilirdi. Axırda Ürviyə dözməyib dedi: «Ay cavan oğlan, səni and verirəm Allaha, qayıt get öz evinə. Məni rahat qoy, yorğunluqdan ölürəm. Mən bircə damcı oturub, uzanıb yorğunluğumu almaq istəyirəm. Sənin-tanımadığım birisinin yanında ayağımı uzadıb istirahət edə bilmirəm axı. Hesab elə ki, məni görməmisən, mənimlə heç rastlaşmamısan. Get, öz işlərinlə məşğul ol».

Cavan oğlan dedi:

«Ey şirindil gözəl,
Utanmaq hissini atıb, könlümü sənə verib,
Açıb deyərəm sənə məni kim bu dərdə salıb.

Bil ki, mən sənin eşqinin toruna düşmüşəm və qorxuram ki, səndən uzaqda ölərəm. Mən sənə məxsus ikən necə qayıdıb gedə bilərəm? Necə olursa olsun, yaxşısı budur ki, mənimlə əlbir olasan və məni qulun kimi qəbul edəsən.

Ağlımı başımdan alan, ey gülüzlü Pəri,
Hər şeydən agahsan, indi özün qərar ver».

Ürviyə bu sözləri eşidib qəzəbləndi, özündən çıxdı, bütün vücudu əsdi, gözünü yumub, ağzını açdı və cavan oğlana dişinin dibindən çıxanı dedi. Bundan sonra oğlan, nəinki ağlını başına yığmadı, əksinə daha da quduzlaşıb Ürviyənin üstünə atıldı, əynindəki paltarını cırdı, ona təcavüz etmək istədi. Ürviyə isə onun saqqalından yapışıb qışqırmağa başladı: «Ay nanəcib, başına kül olmuş, mənim yaxşılığımdan beləmi çıxırsan? Səni ölümün ağzından qurtardığım üçünmü mənimlə belə rəftar edirsən? Deməli, seyrəklikdə olduğumuzdan isti-

fadə edib, məni ələ keçirmək istəyirsən? Bəs Allahdan qorxmursan? Bilmirsən ki, Allah hər şeyi görən və biləndir? Yadında saxla, gec-tez O mənim intiqamımı alacaqdır. Yadda saxla, buna heç vaxt nail olmayacaqsan! Nə qədər ki canım üstümdədir, mənə yaxın belə gələ bilməyəcəksən, çək murdar əllərini məndən, rədd olub get və bil, bir də belə bir şeyə cəhd etsən, özümə qəsd edəcəyəm».

Cavan oğlan görəndə ki səyləri əbəsdir, durub əks istiqamətdə yola düşdü. Bir az yol getdikdən sonra isə özü ilə bacarmayıb yenə də geriyə qayıdıb Ürviyəni təqib etməyə başladı. O, oğrun-oğrun gəlirdi və ağlındakı da ancaq Ürviyəni ələ keçirmək idi. Ürviyə oğlanın yenə onu təqib etdiyini anlamışdır, ona görə də ehtiyatı əldən vermirdi və bu beyti təkrar-təkrar deyirdi:

«Ay bədbəxt, sənin əlindən qurtulmaq istəyirəm,
Sən isə hər yerdə mənə tələlər qurursan».

Onlar aralarında müəyyən məsafə ilə bir neçə gün yol getdilər və nəhayət, bir sahilə çatdılar. Burada yüklərini gəmilərə yığan karvanlar var idi. Ürviyə özünə münasib bir künc tapıb, dəstəmazını alıb, namaz qılmağa başladı. Cavan oğlan isə bu arada tacirlərlə söhbətləşməyə getdi. Onlar oğlanın kim olduğunu, nə ilə məşğul olduğunu soruşdular. Cavan oğlan cavab verdi: «Mən özüm də tacirəm, yolda bizi quldurlar basdı, hər şeyimizi əlimizdən aldılar, mən və kənizim zorla qaçıb canımızı qurtardıq. Elə ki əlimdə heç bir şey qalmadı, bu kəniz də mənə ikrahla baxdı, əmrlərimə əməl eləmədi. Hətta bir dəfə əlimdən də qaçdı, min cür əziyyətlə onu yenidən tapdım. Özünə xas ərköyünlüyü ilə bərabər onu da deyim ki, gözəllikdə dünyada tayı-bərabəri ola bilməz. Onun ay kimi nur saçan camalı insanın ağlını əlindən alır. Onun ay camalını görər-görməz adam sanki tilsimə düşür. Onun yeganə çatışmayan cəhəti mənə nifrət etməsidir və artıq mənə itaət etməməsidir. Ona görə məcbur olub onu satmaq fikrinə düşmüşəm. Doğrudur, onunla ayrılmaq fikri belə kifayət edir ki, ürəyimdən qanlar sızsın, axı bu qamətdə, bu gözəllikdə, bu ədada, bu ağılda, kamalda ikinci bir gözəl ola bilməz». Onu dinləyən tacirlərdən biri Ürviyəni almağa hazır olduğunu söylədi. Oğlan dedi: «Nə

olar, onu sənə sataram». Tacir dedi: «Mən bu saat qızıl dinarları sayıb verərəm, ancaq sən əvvəlcə o tərifli gözəli mənə göstər». Cavan oğlan dedi: «Nə olar, gedək». O, Ürviyəni satın almaq istəyən tacir və onun dostları Ürviyə olan tərəfə yollandılar. Həmin vaxt Ürviyə dizləri üstündə durub namaz qılırdı. Tacir və dostları uzaqdan baxıb gördülər ki, bu qadın deyiləndən də min qat artıq gözəldir. Həmin tacir elə ilk baxışdan Ürviyəyə aşiq oldu və çox baha qiymətə onu aldı. Cavan oğlan qızıl dinarları götürüb, həmin saat yola çıxdı və gözdən itdi.

Bu arada heç nədən xəbəri olmayan zavallı Ürviyə namaz qılmağa davam edir, Allaha öz dərdlərini danışırdı. Qıraqdan onu müşahidə edən gənc tacir onun nə dərəcədə imanlı olduğunu anlayıb dedi: «Mən onun rəğbətini qazanmalıyam ki, o da mənə ürəkdən bağlansın. Ona görə gərək namazın bitməsini gözləyim». Bu fikirlə gənc bir daşın üstündə əyləşib qıraqdan Ürviyəyə tamaşa etməyə başladı. Ürviyə namazını bitirdikdən sonra özünə kasıb bir süfrə açdı ki, bir tikə yesin. Tacir ayağa qalxıb ona yaxınlaşdı və qarşısında əyləşdi. Ürviyə o saat üzünü bağlayıb dedi: «Qardaşım, niyə bura gəldin, niyə dəvətsiz süfrəyə əyləşdin?» Tacir dedi: «Mən səni almışam, artıq sən mənə məxsussan. Niyə üzünü bağlayırsan? Sən kənizsən, ona görə də üzünü aça bilərsən. Sənin istəyin olmadan səni heç bir şeyə məcbur etməyəcəyəm, sənin bütün arzularını yerinə yetirəcəyəm və bir Allah bəndəsi səni incidə bilməyəcəkdir, çünki mən səni hər yerdə mühafizə edəcəyəm».

Ürviyə dedi: «Ey möhtərəm ağa, sən nə danışırsan? Mən azad qadınam, kəniz deyiləm ki, məni biri satsın və digəri alsın. Dur get işlərinlə məşğul ol, cəfəng sözlər danışma».

Tacir dedi: «Ey gözəl xanım, mən varlı-hallı bir adamam, nə ailəm var, nə uşaqlarım. Mən sənə görə çox böyük məbləğdə qızıl vermişəm. Mən sənə bütün var-dövlətimi verməyə hazıram. Mən də, mənə məxsus olan hər bir şey də sənin ixtiyarında olacaqdır. Dur, bir yerdə gəmiyə gedək, kədərlənmə, əksinə taleyinə sevin». Bunu eşidən Ürviyə var-gücü ilə qışqırıb, taciri ən nalayiq sözlərlə təhqir edib alçaltmağa başladı. Tacir başa düşdü ki, bu iş xoşluqla olmayacaqdır.

Nökərlərini çağırtdırıb əmr etdi ki, qadını götürüb gəmiyə aparsınlar. Nökərlər Ürviyəni götürüb gəmiyə apardılar, oradakı otaqlardan birinə qoyub, arxadan qapını kilidlədilər. Gəmi yola düşdü. Ürviyə hönkürüb ağlayırdı və bəxtindən gileylənirdi: «Ay Allah, yer üzündə məndən bədbəxt adam varmı?» O heç cür təsəvvürünə gətirə bilmirdi ki, buradan necə qurtula bilər. O gah ağlayıb göz yaşlarını tökür, gah da əllərini Allaha açıb Ondan imdad istəyirdi. Tacir onun otağının qapısını açıb, hava alması üçün göyərtəyə çıxmasını təklif etmişdir, amma nə qədər çalışsa da, onu sakit edib, yola gətirə bilməmişdir. Tacir ona yaxınlaşan kimi Ürviyə göyərtənin lap qırağına sıxılıb, özünə qəsd edəcəyini deyirdi. Tacir artıq əldən düşmüşdür. Yoldaşları da bu işə məəttəl qalmışdılar. Onlar deyirdilər: «Biz ömrümüz boyu belə tərs, inadkar kəniz görməmişik. Bu qadın ya kiməsə aşiqdir və ona olan sədaqətini qoruyub saxlayır, ya da dəlidir». Doğrudur, gəmidəkilər belə düşünürdülər, amma eyni zamanda Ürviyənin inamı, imanı, içindəki Allah xofu, namusu, qeyrəti qarşısında baş əyməyə hazır idilər. O, bir namazı ötürmürdü, o, əllərini mütəmadi göylərə açır, dualar edirdi. O ki qaldı gənc tacirə, onun işi çox ağır idi. Onun Ürviyəyə olan eşqi hər dəqiqə daha da güclənir, içindəki bu eşq atəşi onu yandırıb-yaxırdı. Yazıq, biçarə bu beyti mütəmadi təkrar edirdi:

«Söylə, hansı divanə bir ətək qızıla
Başına belə bir bəla alardı?»

Çarəsiz, əlacsız tacir hər fəndə əl atırdı. Bu dəfə o, Ürviyəyə yaxınlaşıb yenə mehriban, yumşaq rəftar etməyə başladı, amma Ürviyə öz mövqeyində möhkəm durmuşdur. Tacir elə qəzəblənib, özündən çıxdı ki, Ürviyənin üzünə möhkəm bir sillə çəkdi. Bu sillənin zərbəsindən Ürviyə yerə sərildi və ağzı qanla doldu. Ürviyənin içindən bir nalə çıxdı, o, üzünü göyə tutub dedi: «Ey səbirli, mərhəmətli Yaradan! Sən hər şeyi görürsən və bilirsən!» Ürviyə bunu demişdir ki, göyün üzü qaraldı, tufan qalxdı, ildırım çaxdı, göy guruldadı, gəmidəkilər qorxudan qışqırışıb fəryad etdilər, imdad istədilər: «Görünür, aramızda çox böyük günah sahibi vardır və onun günahına görə biz

də Allahın lənətinə gəldik, dua edin, tövbə edin, yalvarın, yoxsa, hamımız məhv olacağıq».

Elə bu vaxt bir böyük dalğa gəminin üstünə gəlib onu parça-parça etdi. Ürviyə və cavan tacirdən başqa heç kəs xilas ola bilməmişdir. Onlar taxta parçalarından yapışaraq xilas ola bilmişdilər, çünki Allah-təala onları öz məqsədləri üçün qoruyurdu. Ürviyə taxtadan yapışıb qalmış gənc taciri görüb dedi:

«İndi necə, layiq olduğun payını aldın?»

Cavan tacir yalvarıb dedi: «Xanım, səni and verirəm Allaha, mənə rəhmin gəlsin, məni bağışla, günahlarımdan keç, qorxuram, elə buradaca boğulub öləcəyəm». Ürviyə onu bağışladı, onun nalayiq rəftarından keçdi və olanları unutdu. Bir neçə gündən sonra dalğalar Ürviyəni taxtası ilə bir yerdə bir sahilə atdı, taciri isə taxtası ilə birlikdə başqa bir adanın sahilinə tulladı. Beləliklə, onların hər ikisi quruya yetişdilər, amma hərəsi başqa-başqa yerlərə düşdülər.

Ürviyə sahilə düşdükdə oranın sakinləri onun başına toplaşıb sorğu-suala tutdular. Ürviyə başına gələnlərin hamısını onlara danışdıqca onlar heyrətə gəlir, məəttəl qalırdılar. Ürviyə başına toplaşanlara müraciət etdi: «Ey insanlar, sizi and verirəm Yaradana, mənə bir sığınacaq verin ki, ibadətimlə məşğul ola bilim, həm də elə bir yer olsun ki, mənə orada mane olan olmasın». İnsanlar onun sözünü tutdular, ona yer ayırdılar, Ürviyə on-on beş gün oruc tutub, ibadətlə məşğul oldu, bir kimsənin gözünə görünmədi. Qısa bir zamanda Ürviyə bu sahildəki əyalətlərdə gözəlliyi, yaraşığı, cazibədarlığı ilə ad qazandı. Eyni zamanda, o bu ətrafın ən inamlı, ən dinli-imanlı, ən mənəviyyatlı, əxlaqlı qadını kimi tanındı. Ürviyə haqqında gəzən söhbətlər bu məmləkətin padşahına da çatdı. Şah bu söhbətləri eşidib, əyanları ilə Ürviyənin yanına yollandı. Şah da Ürviyəni görən kimi bir könüldən min könülə ona aşiq olur, gündüz rahatlığını, gecə yuxusunu itirir. Nəhayət, o, Ürviyə ilə təklikdə görüşmək istədiyini bildirir. Ürviyə təşvişə düşür, həyəcanlanır, nə edəcəyini bilmirdi. O bilmirdi ki, bu çətin vəziyyətdən necə çıxacaqdır. O, səcdəyə gedib, dualar etməyə, Allahdan imdad istəməyə başladı. Sonra şahın gön-

dərdiyi adama onun sözlərini çatdırmasını rica etdi: «Mən sənin qulun, nökərinəm. Mən sənin hər bir əmrinə əməl etməyə hazıram, amma mənə bir neçə gün möhlət ver, buna mənim çox üzrlü səbəblərim var. İzin ver, işlərimi yoluna qoyum, sonra mən sənin qulluğunda hazıram». Şah bu şərti qəbul etdi. Zaman gedirdi. Ürviyə günlərini ibadətdə, Allaha əl açıb imdad istəməkdə keçirirdi. Şah hər dəfə elçisini göndərəndə Ürviyə bir bəhanə ilə vaxtı uzadırdı. Şahın səbri tükənmişdir, artıq səbir kasası dolmuşdur. Bir gün şah sərxoş halda durub Ürviyənin yanına gedir. Ürviyə işdən agah olanda sarsılır, ağlayıb Allaha yalvarmağa başlayır. Amma şah sərxoş idi, özünü idarə edib, hərəkətlərini nəzarətdə saxlamaq iqtidarında deyildir. O, sağ əlini Ürviyəyə uzatmışdır ki, birdən onun bu qolu quruyur. Şah işlərin hansı yön aldığını görəndə qorxur, canına üşütmə düşür, təlaş içində Ürviyəyə yalvarır: «Ey imanı kamil insan, səni and verirəm uca Allaha, mənə rəhmin gəlsin. Mən bütün günahlarımı boynuma alıb, tövbə edirəm. Mən bir də belə rəzil fikirlərə düşməyəcəyəm». Ürviyə dedi: «Ey hökmdar! Üzünü Allaha tut! Onun qarşısında tövbə et və gələcəkdə də heç kəsin halalına xor baxma ki, belə cəzaya məruz qalmayasan». Şah dedi: «Ey uca Allah! Mən sənin qarşında tövbə edib söz verirəm ki, bir daha belə rəzil, iyrənc fikirlərə düşməyəcəyəm». Sonra üzünü Ürviyəyə çevirib dedi: «Sən isə, ey saf insan, indi Allaha mənim üçün dualar et ki, məni bağışlasın, bu qolumu sağaltsın». Ürviyə canamazını yerə sərib, iki dəfə səcdəyə getdikdən sonra dua etməyə başladı: «Rəhim və Rəhman Allah! Sən hər şeyi bilənsən, Sən hər kəsin qəlbindəkini oxuyansan! Əgər bu, həqiqətən, səhvlərini anlayıb, həqiqətən, peşman olmuşsa, səni and verirəm, sonsuz qüdrətinə, tükənməz şəfqətinə, ölçüyə gəlməz müdrikliyinə, onun qoluna şəfqət ver».

Hökmdarın qolu həmin dəqiqə sağalır və əvvəlki halına qayıdır. Hökmdar artıq ləngimədən oranı tərk edib sarayına yollanır. Şah bütün gecəni olanları fikirləşib götür-qoy etdi, amma eyni zamanda ürəyində özünə yer etmiş Ürviyə sevdası da onu rahat buraxmırdı. O öz-özünə dedi: «Bu qadın məni ovsunlamış, amma eybi yoxdur, qoy səhər açılsın, mən ona göstərərəm». Səhər açılanda şah öz adamını

Ürviyənin yanına göndərib, onun sözlərini çatdırmağı əmr edir: «Ey rəzil, miskin cadugər, sən məni sehrləyib, mənə cadu-pitik etmisən, amma heç ağlına gətirmə ki, bununla canını mənim əlimdən qurtarmısan, bu gün yenə ikimiz bir yerdə olacağıq». Bu xəbər Ürviyəyə çatanda o, çox həyəcanlandı və yenə də Allahdan imdad istədi. Axşam düşəndə şah yenə də içib, sərxoş halda Ürviyənin evinə gəldi və əlini ona uzatdı. Ürviyə dedi: «Ey hökmdar, Allahdan qorx, eyni səhvə yol vermə, elə etmə ki, başına yenə keçən dəfəki kimi iş gəlsin. Bir fikirləş, yadına sal keçən dəfə başına gələnləri». Ürviyənin bütün səylərinə, cəhdlərinə baxmayaraq, hökmdar dediyindən dönmədi və Ürviyəyə əl uzatdı. Bu zaman yenə hökmdarın qolları quruyub yanlarına düşdü.

Şah bərkdən qışqırıb dedi: «Ay cadugər, sən yenə mənə əməl etdin?» Ürviyə qışqırdı: «Ey əzazil cəllad! Sən hər şeyə qadir Allahın cəzasını görüb, yenə dediyindən əl çəkmirsən? Yenə bunun cadu olduğunu söyləyirsən? Sən məndən-zavallı, biçarə, yazıq qəribdən nə istəyirsən? Niyə içindəki şeytanı boğmursan? Niyə nə şəriət, nə dünyəvi qanunlara riayət etmirsən? Bir dəfə cəzalandırılıb tövbə etdin, sözünün üstündə dura bilmədin deyə, haqlı olaraq ikinci dəfə cəzalandırılırsan. Sən buna cadumu deyirsən? And olsun Allaha, bu dəfə Allahın iradəsinə zidd getdiyin üçün daha ağır cəzalandırılacaqsan».

Bu sözləri eşidən şah çox qorxdu, əli, ayağı əsdi, huşunu itirdi. Şah özünə gəldikdən sonra Ürviyənin ayağına düşüb, ağlayıb yalvardı, rəhm dilədi. Ürviyə yenə iki dəfə səcdəyə gedib Allaha dua etdi, yalvardı ki, şahın qollarına şəfa versin. Həmin dəqiqə şahın qolları düzəldi. Şah oradan saraya qayıdıb hamıya Ürviyənin möcüzələrindən danışdı.

Bu məmləkətin bütün əhalisi əvvəllər günəşə sitayiş edirdi. Eşitdiklərindən sonra onlar Ürviyənin ayağına gəlib, onun itaət etdiyi «İslam» dinini qəbul etdilər. Onlar tez bir zamanda Ürviyə üçün gözəl bir məbəd tikdilər, onun bütün şəxsi əşyalarını və başqa lazım olan şeyləri yığıb gətirdilər. Ürviyə həmin məbədə köçüb, gecə-gündüzünü Allaha ibadət etməklə keçirməyə başladı. Şah hər gün onu ziyarət edir, onun qulluğunda həmişə hazır olduğunu bildirirdi.

Bu yerlərin əhalisi bu məbədi özləri üçün ziyarətgaha çevirmişdilər, onlar hər işlərini Ürviyə ilə məsləhətləşib edirdilər, onun xeyir-duası olmadan bir qərar qəbul etmirdilər.

Çox keçmədi, Ürviyənin adı-sanı, şan-şöhrəti bütün ətrafa yayıldı. Bütün insanlar: ən zəifi, ən güclüsü, ən kasıbı, ən adlı-sanlısı, varlısı, imkanlısı, böyükdən böyük, kiçikdən kiçik - əhalinin hamısı onun ayağına gəlib, ondan işlərinə, özlərinə xeyir-dua istəyirdi. Camaat ona peyğəmbər kimi sitayiş edirdi. Ürviyə onlara İslam qanunlarını izah edib öyrədirdi. Xəstəsi olan onu Ürviyənin yanına gətirir, o isə dualar edib, Allaha yalvarıb ona şəfa diləyirdi və Allahtəala da öz imanı kamil bəndəsinin istəyini yerinə yetirib, xəstəyə şəfa verirdi. İş o yerə gəlib çatdı ki, yüzlərlə müşrik Ürviyəni ziyarət etdikdən sonra İslamı qəbul etdi. Bu hadisələrdən sonra Ürviyə get-gedə ibadətlərini daha kamil, daha cilalı etməyə başladı. O, günlərin çoxunu oruc tutub, vaxtının əsas hissəsini ibadətdə keçirirdi. O ibadət edib, dualar edirdi.

Bir müddət keçir, buranın hökmdarı vəfat edir. Saray əyanları yekdilliklə Ürviyənin taxta oturmağını və hökmdarlığı əlinə almağını istədiklərini bəyan edirlər. Ürviyə çox etiraz edir, çox imtina edir, amma camaat israrla onu taxta çıxarıb, şah elan edirlər. Əyanların hamısı «Quran»a əl basıb, sədaqətlə, ləyaqətlə ona qulluq edəcəklərinə and içirlər. Ürviyə öz düz yolundan dönmədən, doğru-dürüst yol tutub idarəçiliyə başlayır. Dövlətdə mövcud olan bütün gərəksiz qanunları aradan qaldırır, ədalətli, mərhəmətli qanunlarla idarə olunan bir dövlət qurur. Ürviyə bu məmləkətdə İslam qanunlarını bütün parlaqlığı ilə bərqərar edir. Dövlət sülh, ədalət, mərhəmət qanunları ilə çiçəklənib inkişaf etməyə, abadlaşmağa başlayır. Dövlətdə əmin-amanlıq, ədalət, mərhəmət, bolluq, firavanlıq hökm sürməyə başlayır. Ürviyə burada çoxlu mədrəsə, məscid tikdirir, şəhərə gələnlər üçün ən yüksək səviyyədə təchiz olunmuş karvansara və müsafirxana tikdirir. Onları ən gözəl əşyalarla, qab-qacaqla, taxtlarla, yorğan-döşəklə, xalça-palazla təmin edir. Bunlar hazır olduqdan sonra Ürviyə bütün carçılara göstəriş verir ki, hər yana çapıb onun sözlərini çatdırsınlar. Desinlər ki, şəhərə gələn bütün tacirlər,

səyahətçilər, qəriblər üç gün hökmdarın hesabına bu müsafirxana və karvansarada qala bilərlər. Müsafirlər bütün ehtiyaclarını bildirməlidir. Müsafir dövlət hesabına lazımi şeylərlə təmin olunacaq, ona bu şəhərdə olduğu müddətdə müəyyən məbləğdə xərclik-pul veriləcək və yola hazırlaşanda bütün yol tədarükü ilə də təmin olunacaqdır.

Ürviyə yaratdığı bu ədalətli, mərhəmətli qanunları ilə dövləti idarə edirdi. Onun bu səxavəti, mərhəməti, ədaləti, geniş ürəkliliyi tez bir zamanda bütün dünyaya yayıldı. Hamıya bəlli oldu ki, Allah-təala onun dualarını eşidir, qəbul edir və yerinə yetirir. Artıq insanlar dünyanın müxtəlif yerlərindən onun yanına gəlib, dərdlərini, istəklərini, ehtiyaclarını onunla bölüşüb, ondan imdad istəyirdilər, o isə öz növbəsində Allaha dualar edib, onları muradlarına çatdırırdı.

Bir müddət belə keçdi. Ürviyə ağıl və təmkini ilə dövləti idarə edir, ibadətindən, Allaha xidmətindən də bir saniyə belə qalmırdı. O, gecə-gündüz namaz qılıb, dualar edir, Allaha şükürlər edirdi.

Bu arada Ürviyənin əri səfərdən qayıdır və görür ki, evi dağılmış, Ürviyə isə yoxdur. O, qardaşının evinə gedir, görür ki, qardaşı bir küncdə üzü divara dərd içində, göz yaşları axıdaraq əyləşmişdir. Görür ki, qardaşı kor olmuşdur. Ərəb çox pəjmürdə olur və deyir: «Qardaşım, bu nə haldır? Mənim halalca zövcəm haradadır? Sən niyə kor olmusan, mənim evim niyə dağılmışdır?

Nə baş vermişdir, mənsiz sənə nə olmuşdur,
Yoxsa, mən günün günorta çağı faciə görürəm?

Düzünü de görüm nələr baş vermiş, yoxsa, bu saat ürəyim həyəcandan partlayacaq, öləcəyəm». Qardaşı dedi:

«Mənim dərdim sənə uzun gələcək,
Səni dəfələrlə hönkürüb ağlamağa vadar edəcək.
Acı tale vurdu bizi kökündən,
Qurtara bilmədim məngənəsindən.

Qardaşım, sən zövcən haqqında heç nə bilməsən, daha yaxşı olar. İş ondadır ki, sən getdikdən sonra, dediyin kimi, hər iki-üç gündən bir ona baş çəkib, nəyə ehtiyacı olduğunu soruşurdum, hal-

əhvalını tuturdum. Dediyi bütün işləri həmin dəqiqə yerinə yetirirdim. Sonra fikir verdim ki, mənim gəlmədiyim günlər, həftədə iki-üç dəfə o, evi tərk edir. Bir müddətdən sonra gördüm ki, onun bu gəzintiləri get-gedə çoxalır. Qərara gəldim ki, bu işin dibinə gedim, bir neçə inandığım dostumla axşam vaxtı evin yanında onu güddüm. Qaranlıq düşəndə gördüm ki, bir gənc oğlan evə girdi. Biz qapının cəftəsindən baxanda gördük ki, gözəl bir süfrə açılmışdır, üzərinə hər cür naz-nemət, şərab düzülmüşdür. Bu iki sevgili isə deyib-gülüb vaxt keçirirlər. Əvvəllər qonşular Ürviyənin nalayiq həyat tərzindən gileylənmişdilər, amma mən onlara fikir verməmişdim, inanmamışdım. Sən demə, bu, həqiqət imiş. Mən öz gözlərimlə görməyənədək onun belə əskilməsinə inanmırdım. Mən qulağımla eşitdiyimi gözlərimlə gördükdən sonra söz-söhbətin şayiə olmadığını anladım. Artıq bu bədnam xəbər bütün şəhərə yayılmışdır və hətta şəhər əmirinin qulağına da çatmışdır. Əmirin verdiyi əmrə uyğun onu gənc oğlanla bir yerdə evdən çıxarıb, apardılar. Hakim qanuna əsasən, onun daşqalaq olunmasına əmr verdi. Beləliklə, onu daşqalaq edib öldürdülər. Allah köməyin olsun, qardaşım! Mən səni başa düşürəm, bilirəm ki, için göynəyir, acı çəkirsən, amma mənim fikrimcə, sən Allahına şükürlər edib, nəzir-niyaz paylamalısan ki, belə bir əxlaqsız, namussuz qadından canın qurtarmışdır. Əgər onun xiffətini çəkib, dərd edərsənsə, Allah səni də mənim günümə salar, çünki bu hadisədən sonra mən çox göz yaşı axıdıb, çox ağladım, sonda gözlərim tutuldu, kor oldum».

Ərəb bu hekayəti eşidib, az qala dəli olmuşdur, o fəryad edib ağlayırdı. O elə ağlayıb, elə qışqırırdı ki, adama elə gəlirdi ki, bu saat canını tapşıracaqdır. O gah qardaşının danışdıqlarına inanır, gah da zövcəsinin kamil imanlı birisi olduğunu xatırlayıb tərəddüd edirdi. O, gecə-gündüz göz yaşlarını axıdır, xiffət çəkir, dərd çəkirdi. O çalışırdı ki, özünü ələ alsın və tez-tez bu şeri təkrarlayırdı:

«Necə unudum sənin ismətini, həyanı,
Tərbiyəni, əxlaqını, arını, imanını
İçindəki Allah xofunu, kamil imanını,
Namusunu, utancaqlığını?»

Ərəb gecə-gündüz bu misraları təkrar edə-edə günlərini dərd içində keçirirdi. Düz bir il xəcalətdən bir kimsənin gözünə görünmədən evinə qapanıb qaldı. Ürviyənin surəti gözünün önündən çəkilmirdi. Dost-tanışlar onu gördükdə üzüldüklərini bildirib, başsağlığı verirdilər. Ona içinə qapanmamağı, həyatını davam etdirməyi tövsiyə edirdilər. Ondan icazə istəyirdilər ki, onun üçün bir başqa, halal süd əmmiş qız tapsınlar. O isə qışqırıb cavab verirdi: «Allah uzaq eləsin! Mən Ürviyədən sonra bir də heç vaxt evlənmərəm, çünki ona olan məhəbbətim heç vaxt ürəyimi tərk etməyəcəkdir». O, günlərini dərd-qəm, göz yaşları içində keçirirdi.

Bu arada Ürviyənin şan-şöhrəti bütün qonşu dövlətlərə yayılmışdır. Danışırdılar ki, qonşu dövlətin hökmdarı bir qadındır. O, dövləti ən ədalətli, mərhəmətli, imanlı qanunlarla idarə edir, dövlətdə əmin-amanlıq, bolluq, firavanlıq hökm sürür. Bu qadının imanı o qədər kamildir ki, yanına gətirilən hər bir xəstə; topal-çolaq, kor-zəlil şəfa tapır. O dövlətə gələn müsafirlər dövlət hesabına yerləşdirilib, hər bir şeylə təmin olunurlar.

Bu söhbətlər Ürviyənin ərinə də çatmışdır. O, qardaşını sağaltmaq məqsədi ilə qonşu dövlətə yollanır. Təsadüfən onların yolu qara qulun oğlunu öldürüb Ürviyənin boynuna atdığı quldurun evinin qarşısından keçir. Onlar həmin gün orada gecələməli olurlar. Quldura xəbər verirlər ki, kəndə iki qərib gəlmişdir. Kəndin ağsaqqalı hesab olunduğu üçün, quldur onların yanına gedir və adətə görə, onları öz evinə aparır. Onlara süfrə açdırıb, hər cür ehtiram göstərəndən sonra soruşur: «Kimsiniz, haradan gəlib, hara gedirsiniz?»

Ərəb cavab verir: «Bu kor mənim qardaşımdır. Deyirlər, sahil dövlətinin hökmdarı bir imanlı qadındır. Onun imanının kamilliyi dillər əzbəri olmuşdur. O, əlini qaldırıb Allah –təaladan bir əlil, şikəst, xəstə, zəlil üçün şəfa diləyərsə, Allah-təala onun sözünü yerə salmaz, həmin adama şəfa verər. İndi qardaşımı aparıram ki, bəlkə, o da şəfa tapar, gözləri açılar». Quldur dedi: «Mən də o hökmdarın möcüzələrindən çox eşitmişəm, doğrudur, bu sözhbətləri heç ciddi qəbul etmirəm, amma necə deyərlər:

Əlacsız, çarəsiz bütün işlərdə,
Ancaq Allah yardımımıza çata bilər.

İndi ki belədir, onda mən də sizə qoşulub gedim. İş bundadır ki, mənim bir qara qulum vardır. O çox fərasətli və bacarıqlıdır. Mən onu uşaqlıqdan özüm böyütmüşəm. Bir müddət əvvəl onun durduğu yerdə əlləri, ayaqları qurudu. Mənim işlərimin üzərində nəzarəti o, həyata keçirirdi, indi isə buna görə mənim işlərimdə də çətinliklər yaranmışdır. Mən də onu götürüb sizə qoşulum gedim. Bəlkə, o, dediyiniz imanı kamil şahın duaları ilə onun da əl-ayağı açılar. Ərəblər deyirlər: «İnsanları düz yola aparan savab qazanar». Sən bizi özünlə aparsan, yəqin ki, savab qazanarsan». Ürviyənin əri dedi: «Nə olar, mən razıyam». Quldur yol tədarüklərini görüb, qara qulu dəvənin üstündə bərkidib təsadüfi qonaqları ilə yola düşdü. Bir dəfə ərəb qara quldan soruşdu: «Necə ldu ki, sən bu hala düşdün?» Qara qul cavab verdi: «Heç bu dərdimin səbəbini bilmirəm. Bir gün gecə uzanıb yatdım, səhər ayılanda gördüm ki, nə əllərim işləyir, nə ayaqlarım».

Ərəblə quldur xəstələrini apara-apara söhbət edirdilər, bir-birlərinin başlarını qatırdılar. Ərəb çox ah çəkib, içini çəkirdi. Bir dəfə quldur ondan soruşdu: «Sən nəyə görə bu qədər ah çəkirsən?» Ərəb dedi: «Kor olmuş qardaşımın dərdindən». Onlar yollarına beləcə davam edirdilər. Bir müddətdən sonra onlar bir bulağa çatdılar, orada dayanıb yorğunluqlarını çıxarmaq qərarına gəldilər. Birdən onların gözü bir qadına sataşdı. Qadının qarşısında bir iflic gənc uzanmışdır. Qadının yaxınlığında bir dəvə də otlayırdı. Qadın göz yaşı axıda-axıda, ah-nalə ilə bu xəstəyə qulluq edirdi. Ərəblə quldur ona yaxınlaşıb, bir az sakitləşdirib soruşdular: «Ey möhtərəm ana, yolun haradır, bu zavallını hara aparırsan?» Qadın dedi: «Bu mənim oğlumdur. Mənim bu dünyada ondan başqa bir kimsəm yoxdur. Bir müddət əvvəl onu iflic vurmuşdur. Mənə dedilər ki, bu sahil dövlətinin hökmdarı bir qadındır. Bu qadın şah o qədər imanlıdır ki, Allah-təala onun dualarını eşidir və istədiyini verir. İndi onun yanına gedirəm ki, bəlkə, mənim bu zavallı oğlum üçün də bir dua edər. Bəlkə, oğlum da şəfa tapar». Ərəblə quldur dedilər: «Biz də ora gedirik, gəl bizə qoşul, bir yerdə gedək». Qadın çox

sevindi, onlara minnətdarlığını bildirdi və onlara qoşulub yoluna davam etdi. Bu qadının iflic vurmuş oğlu isə Ürviyənin ölümün ağzından, edam ağacından xilas etdiyi həmin cavan idi ki, sonra onu kəniz kimi satmışdır.

Yolçular bir qədər yol getdikdən sonra gəlib sahilə çatdılar. Orada onlar bir gəmiyə mindilər. Onlar iki gündən sonra heç göz oxşamayan bir adaya yaxınlaşdılar. Buranı hələ lap uzaqdan görəndə onları bir qorxu hissi bürümüşdür. Birdən onların qulaqlarına bir ürəküzən fəryad çatdı: «Sizi and verirəm, o uca Allaha, mənə kömək edin, məni xilas edin, məni bu əzabdan qurtarın!» Onlar dedilər: «Bura qorxulu yerdir, yəqin ki, bu da qara ruhun səsidir. Biz burada ləngiyə bilmərik, onun çağırışlarına tabe ola bilmərik. Gəlin tez buradan tez uzaqlaşaq». Onlar dönmək istəyirdilər ki, yenə həmin səs eşidildi. Səs yenə Allahın adını tutub imdad istəyirdi. Yolçular Allahın adını eşidib düşündülər: «Yox, bu səs qara ruhun səsi deyildir, bu, insan harayına oxşayır».

Onlar sahilə yan aldılar. Sahilə düşəndə orada quyu dibindən gələn həmin səsi eşitdilər. Bir qədər irəli gedib bir quyu gördülər. Quyunun dibində adamlıqdan əsər-əlaməti qalmamış bir gənc küncə sığınıb qalmışdır. Ona adam demək mümkün deyildir elə bil ki üstünə dəri çəkilmiş bir yığın sümük idi. Üzü, yanaqları, gözləri çökmüşdür. Yolçular quyunun dibində qovrulan məxluqa baxaraq dedilər: «Sən nəsən, kimsən? İnsansan, heyvansan, ruhsan?» Cavan oğlan cavab verdi: «Mən də sizin kimi bir insanam. Vaxtı ilə tacir idim, mənim sonsuz, tükənməz var-dövlətim var idi. Vəfasız taleyim məni buraya salıb, bu günlərə qoydu. Məni bu quyunun dustağına çevirdi. Sizi and verirəm Allaha, məni buradan qurtarın. Əgər məni qurtarmasanız, hiss edirəm ki, az qalıb, son nəfəsimi verib bu dünya ilə vidalaşacağam».

Yolçuların bu gəncə yazıqları gəldi, köməkləşib onu quyudan çıxardılar, üst-başının toz-torpağını çırpıb, özləri ilə gəmiyə qaldırdılar. Onu yedizdirib, içizdirib özünə gətirdilər. Oğlan bir az özünə gələndən sonra yolçuların söhbətlərinə qoşuldu və onları maraqlandıran sualların cavablarını verdi. Ondan bu qorxunc adaya necə gəlib

düşdüyünü soruşanda cavab verdi: «Bayaq dediyim kimi, mən bir varlı-əhvallı tacir idim. İşlərim də yaxşı gedirdi. Günlərin bir günü bu sahildə yükləri gəmilərə boşaldanda bir cavan oğlan bir kənizi ilə bizə yaxınlaşdı. O, kənizini satmaq niyyətində olduğunu bildirəndə mən onu ağlasığmaz dərəcədə baha qiymətə aldım. Gəlib kənizə bildirəndə ki sən artıq mənə məxsussan, mən səni almışam, qadın dedi ki, mən sərbəst, azad adamam, məni heç kəs nə ala bilər, nə sata. Mən nə qədər çalışsam da, cəhd göstərsəm də, onu yola gətirə bilmədim. Onu zorla gəmiyə mindirməli oldum. Bir dəfə göyərtədə, yenə mənim bütün cəhdlərimi rədd edəndə, dözməyib ona bir sillə çəkdim, həmin dəqiqə yer-göy bir-birinə qarışdı, tufan qalxdı, ildırım çaxdı, leysan yağdı, dalğa qalxıb gəmimizi param-parça edib sulara qərq etdi. Mən bir taxta parçasından yapışıb bir təhər özümü qurtara bildim və o gündən həmin quyu mənim məskənim oldu. Artıq əzalarım çürüməyə başlamışdır. Mənim danışacağım bu qədərdir. Günahım da budur, bundan başqa bildiyim günahım yoxdur. İndi siz deyin görüm, sizin yolunuz haradır?» Yolçular da öz dərdlərini də, niyyətlərini də danışdılar: «Biz digər sahilə üzürük. Eşitmişik ki, oranın hökmdarı bir imanı kamil qadındır və onun dualarında bir şəfa vardır. Biz xəstələrimizi onun yanına aparırıq». Cavan tacir dedi: «Sizi and verirəm qiyamət günü zühur edəcəklərin adına, izin verin mən də sizinlə gedim. Bəlkə, mən də şəfa taparam. Əgər belə bir şey olarsa, mən söz verirəm ki, son günləriməcən sizə dualar edəcəyəm». Yolçular dedilər: «Nə olar, sən də gəl, bizə qoşul». Onlar qarşıdakı sahilə çatdılar, gəmidən düşdülər. Şəhər bələdçiləri o saat Ürviyəyə yeni müsafirlərin gəldiyini və yanlarında xəstə gətirdiklərini çatdırdılar. Ürviyə göstəriş verdi ki, onları müsafirxanada yerləşdirsinlər, lazım olan şeylərlə təmin etsinlər, onlara nəfis yeməklər, dadlı şərbətlər versinlər və onlar üç gün istirahət etsinlər.

Üç gündən sonra Ürviyə onların dalınca öz adamını göndərdi. Onlar özləri ilə imkanlarına uyğun gətirdikləri hədiyyələri də götürüb saraya getdilər. Ürviyə vəzirinə buyurdu ki, gələnlərin hər birinə kağız, qələm, mürəkkəb verilsin. Onlar adlarını, haradan gəldiklərini, peşələrini və dərdlərini yazıb versinlər.

Elə ki Ürviyə kağızları alıb oxudu, gələnlərin kim olduğunu anladı. O, tez durub namaz qıldı, Allaha şükürlər edib dedi: «Nəhayət, mən istəyimə çatdım!» Sonra o, vəzirinə buyurdu ki, göstəriş versin qonaqları müsafirxanaya aparıb yedirib-içirib, qulluqlarında dursunlar və desinlər ki, bu gün keçsin, sabah onların bütün niyyətləri yerinə yetəcəkdir. Müsafirlər razılıqlarını bildirib öz otaqlarına qayıtdılar.

Səhəri gün Ürviyə göstəriş verdi ki, böyük bir ziyafət hazırlansın. Qullar, nökərlər, xidmətçilər sarayı təmtəraqla bəzədilər. Saraya bütün vəzirlər, vəkillər, əyanlar, əshabələr, əmirlər, ordubaşıları, sərkərdələr, adlı-sanlı şəhər əhli toplaşmışdır. Ürviyə isə duvağın altında oturmuşdur. Müsafirlər içəri daxil olub bu möhtəşəm təmtərağı görüb heyrətə gəldilər və fikirləşdilər: «Bu təmtəraq bir mömin, Allah-təala tərəfindən duaları qəbul olunan, fəqir biçarəyəmi məxsusdur?!».

Kimi ki taleyi yüksəklərə ucaltmış,
Allah ondan bütün bəlaları uzaqlaşdırar!

Ürviyə onları görən kimi hamısını tanıdı və əri ilə qulduru qızıl taxt üstündə əyləşdirdi. Sonra onlara müraciət edərək soruşdu: «Haradan gəlirsiniz və sizi bura gətirən səbəb nədir?» Ürviyə bu minvalla sualları elə məharətlə düzüb, elə yönləndirdi ki, ərinə və burada olanların hamısına onun namuslu, ismətli bir qadın olması aydın olsun. Ürviyənin əri ilə quldur ayağa qalxıb təzim etdilər və dedilər: «Allah padşahımızın ömrünü uzun eləsin! Biz bura çox uzaqlardan gəlmişik və bizi bura gətirən dərdimiz vardır. Biz sənə, müqəddəs nəfəsli hökmdara yalvarırıq, bizim bu xəstələrimiz üçün dua edib şəfa istəyəsən».

Ürviyə dedi: «Bir dəqiqə səbir edin. Qoyun mən sizə bircə-bircə kim olduğunuzu, nə ilə məşğul olub, başınıza nə gəldiyini, mənim yanıma hansı səbəbdən gəldiyinizi söyləyim». Müsafirlər dedilər: «Əgər hökmdarımız Allahın sevimli bəndəsi olub, möcüzələr yaradırsa, bizim kim olub, nə əqidənin adamı olduğumuzu da bilər». Ürviyə birinci ərindən başladı: «Sənin adın filan, yaşadığın şəhər filandır. Sənin bir imanlı, içində Allah xofu olan zövcən var idi. Sən

səfərə getdikdən sonra ona iftiralar atıb, daşqalaq etdilər. Tək qardaşının da gözləri tutuldu, indi onu gətirmisən ki, onun üçün dua edib Allahdan şəfa diləyim». Sonra üzünü quldura tutub dedi: «Sən filankəssən, filan tayfadansan, yer üzündə gözünün ağı-qarası bir oğlun var idi. Bir gün səhər oyanıb beşikdə onu boynu vurulmuş gördün. O hadisədən sonra bu qara qulunun əlləri, ayaqları quruyub yanına düşdü və sən indi buraya ona şəfa diləmək üçün gəlmisən». Daha sonra Ürviyə dedi: «Bu qadının filan adda bir oğlu var, bir müddət əvvəl, filan şəhərdə onun dar ağacından asılması barədə hökm verilmişdir. Bir kimsəsiz, ürəyi yuxa qadın onu ölümdən qurtarmaq üçün üç yüz qızıl dinar ödəmişdir. O isə həmin qadını qul kimi satmışdır. Bir qədər keçəndən sonra o, iflic olmuşdur. İndi bu qadın onu bura gətirmişdir ki, mənim dualarımın sayəsində şəfa tapsın. Bu biri cavan oğlan isə qarının oğlunun kəniz kimi satdığı qadını alandır. Onun günahı onda idi ki, o, azad qadını, heç bir şeyi araşdırmadan kəniz kimi almışdır. O çox əzab-əziyyət çəkmiş, çox ağrı-acıya dözmüş, indi bədəninin bir çox əzaları fəaliyyətdən düşmüşdür. Sizə qoşulub buraya gəlməkdə məqsədi şəfa tapmaqdır. Bax beləcə mən sizə qısa şəkildə olsa da, həyat tarixçənizi danışdım və gəlişinizin məqsədini açdım».

Ürviyənin söhbətindən sonra müsafirlərin hamısı onun ayaqlarına düşüb dedilər: «Bu, bir peyğəmbərlikdir!» Ürviyə dedi: «Elə bir şey yoxdur, mən heç bir şeyə qadir deyiləm. Mən adi bir Allah bəndəsiyəm. Sadəcə, mənim bir piyaləm var, mən ona baxanda dünyada nə baş verir, kimin nə ilə məşğul olduğunu görə bilirəm». Sonra Ürviyə üzünü ərinə tutub dedi: «Ey mötəbər ərəb, əgər sən və yoldaşların niyyətlərinizin yerinə yetməsini istəyirsinizsə, hər biriniz özünüz haqqında bütün həqiqəti danışmalısınız. Əgər biriniz həqiqətin gözünə yalan qatsanız, mən piyaləmdə onu görəcəyəm və həmin adam şəfa tapmayacaqdır».

Birinci sözə Ürviyənin əri başladı: «Allah ömrünüzü uzun etsin, mən özüm ərəb kökənliyəm. Taleyimin yazısı ilə mən dünyada tayı-bərabəri olmayan bir qıza aşiq oldum. Mən bütün qayda-qanuna riayət edərək kəbin kəsdirib o qızla evləndim. Zövcəm mənə dost,

sirdaş oldu, çünki hər şeydən başqa, o çox ağıllı, zəkalı qadın idi. Mən Allahımdan çox razı idim. Allah-təala zövcəmdən heç nəyi əsirgəməmişdir; gözəllik, ağıl, zəka, iman, Allah xofu-bunların hamısı bir yerdə mənim zövcəmdə cəm olmuşdur. Günlərin bir günü səfərə çıxmalı oldum, doğrusu, zövcəmi tək qoyub getmək heç ürəyimcə deyildir, amma məcburiyyət qarşısında qalıb getməli idim. Mən zövcəmi qardaşıma əmanət qoyub getdim. Qardaşıma tapşırdım ki, zövcəmə məişət işlərində kömək etsin, onu mühafizə etsin. Qayıdanda evimi viran, qardaşımı kor tapdım. Qardaşımdan zövcəmi xəbər alanda dedi: «Sənin zövcən göründüyü kimi deyilmiş. O özünü dinli-imanlı, abırlı-həyalı, namuslu-ismətli göstərirdi, amma sən demə, bir küçə qadını imiş. Hakim onu nalayiq həyat tərzində ittiham edərək edam edilməsinə əmr vermişdir, müsəlmanlar da onu daşqalaq edib öldürmüşlər. Qardaşım evimin viran olmasına o qədər pis olub, o qədər göz yaşı tökmüşdür ki, gözləri tutulmuşdur. Artıq zövcəmi itirmişəm, indi istəyirəm, heç olmasa, qardaşım şəfa tapsın. Ona görə səndən rica edirəm, qardaşım üçün dua et, Allahdan ona şəfa dilə».

Ürviyə dedi: «Yaxşı, de görüm sən özün zövcən haqqında nə fikirdəsən? Səncə, onu haqlı cəzalandırmışlar, yoxsa, yox?»

Ərəb ucadan dedi: «Əstəğfürullah! Mənim, təmizlikdə, namusda, ismətdə, ağılda, imanda-hər bir şeydə kamil olan zövcəm haqqında nalayiq söz danışmağa dilim dönməz. Mən dediklərimi qardaşımın mənə danışdıqlarının əsasında dedim. Mən özüm onun nə dərəcədə kamil bir qadın olduğunu bilirəm, onun surəti gözlərimin önündən bir saniyəlik belə getmir. Mən gecə-gündüz onun xəyalı ilə yaşayıram. Onunla ayrılığıma görə o qədər göz yaşı axıtmışam ki, güman ki, çox keçməz, mən də kor olaram».

Ürviyə dedi: «Hər şey aydındır, əyləş və narahat olma, sənin hər işin qaydaya düşəcəkdir».

Sonra quldur ayağa qalxıb sözə başladı: «Allah ömrünüzü uzun eləsin! Bu xəstə düşmüş qara qulu, hələ uşaq ikən almışdım, onu, demək olar ki, özüm böyütmüşəm. Ona o qədər etibar edirdim ki, evimin bütün işlərini ona həvalə etmişdim. İnsafən, onun sayəsində evimdəki düzən də həmişə yüksək səviyyədə olurdu. Günlərin bir

günü onun əli-ayağı qurudu, bu hala düşdü. İndi onu sənin yanına gətirmişəm ki, dua edəsən, bəlkə, bu zavallı şəfa tapa». Ürviyə dedi: «Sən də əyləş, narahat olma».

Sonra Ürviyə qadının üzünə baxdı. Qadın ayağa qalxıb, təzim etdi və dedi: «Dünyanın hökmdarı, padşahımıza əyan olsun ki, mən zəif, kimsəsiz bir qadınam. Bu dünyada oğlumdan başqa bir kimsəm yoxdur. Bir müddət əvvəl gözümün ağı-qarası bircə oğlumu iflic vurdu. İndi sənin yanına gəlmişəm ki, bəlkə, sənin müqəddəs nəfəsinin, dualarının sayəsində Allah ona şəfa bəxş edər. Belə bir şey olsa, mən qalan bütün ömrümü sənə dualar etməklə keçirərəm».

Ürviyə dedi: «Mən loğman deyiləm, şəfa verən isə Allahdır. Əgər xəstələriniz də özləri haqqında bütün həqiqəti danışsalar, yəqin, Allah-təala mənim dualarımı eşidər və onlar şəfa taparlar. Yox, əgər onlar yalan danışsalar və ya danışdıqlarına lap azca da yalan qatsalar, mənim dualarımın heç bir qüvvəsi olmayacaqdır, özüm isə rüsvay olacağam». Xəstələrin hamısı doğru danışacaqlarına söz verdilər. Onda Ürviyə buyurdu ki, onların hamısı yaxın gəlsin ki, danışılanları hamı eşitsin.

Ürviyə buyurdu: «Qoy birinci, ərəbin kor olmuş qardaşı öz hekayətini danışsın». Ərəbin qardaşı - Ürviyənin qaynı bir az tərəddüd etdi. O, qardaşının yanında həqiqəti olduğu kimi danışmaqdan çəkinirdi. Ürviyə məsələni anlayıb bir daha təkrar etdi: «Nəzərə alın, aranızda biri həqiqəti gizlətsə, yalan danışsa, nəinki şəfa tapmayacaqdır, əksinə, daha ağır cəzalandırılacaqdır.

Sizin doğru, ya yalan danışdığınızı mən piyaləmdə görəcəyəm. İndi isə Allahın adı ilə başlayın».

Xəstələr qorxularından əsirdilər və artıq bura gəldiklərinə peşman olmuşdular. Onlar bir-birlərinə dedilər: «Vallah, əlil, zəlil olmağımız daha məsləhətdir». Onlar çox düşünüb-daşındıqdan sonra Ürviyədən sabaha qədər vaxt istədilər. Ürviyə onlara möhlət verdi. Bu bədnamlar gecə səhərəcən fikirləşib, götür-qoy etdilər. Ürviyənin qaynı fikirləşirdi: «Mən qardaşımın yanında həqiqəti necə açıb deyə bilərəm?» Qara qul öz-özünə deyirdi: «Mən sahibimin qabağında necə boynuma alıb deyim ki, oğlunun qatili mənəm?» Qadının iflic

oğlu özünü didib-tökürdü: «Mən bu nakişiliyi necə boynuma alım? Necə deyim ki, tanımadığım, bilmədiyim bir qərib qadın axırıncı pulunu verib məni dar ağacından qurtarmışdır, mən isə əvəzində onu xəbəri olmadan başqasına kəniz kimi satmışam». O biri cavan isə deyirdi: «Məni burada tanıyan olmasa da, vicdan deyilən bir şey vardır ki, onun qarşısında elədiyim nalayiq hərəkətlərimə görə xəcalət çəkirəm. Mən onları necə açıb deyə bilərəm?» Bir sözlə, onlar səhəri diri açdılar və hamısı ürəyində bu beyti deyirdi:

Ey uca Allah, bizi bu rəzalətdən xilas et,
Bu pərtlikdən, bu xəcalətdən, bu əskiklikdən qurtar.

Səhər açıldıqda Ürviyə yenə də sarayın təmtəraqla bəzədilməsini buyurdu, bütün adlı-sanlı, şanlı-şöhrətli, nüfuzlu əmirlərin, əyanların, əshabələrin, sərkərdələrin, ordu başçılarının və başqalarının toplaşmasına göstəriş verdi. Elə ki hamı yığışdı, Ürviyə buyurdu ki, ərini, qadını və qulduru hörmət-izzətlə içəriyə dəvət etsinlər, sonra isə qaynını, dar ağacından qurtardığı gənci, qara qulu və əzaları çürümüş taciri də gətirib onların yanlarında otuzdursunlar. O, üzünü şəfa üçün gələnlərə tutub buyurdu ki, danışmağa başlasınlar. Onlardan biri də cürət edib sözə başlaya bilmirdi. Nəhayət, tacir dilləndi: «Ey dünyanın adil hökmdarı, ərəblər demişkən, «axirətin rəzilliyi bu dünyanın rəzilliyindən acı olur». Biz əməllərimizə görə çəkdiyimiz xəcalətdən, peşmançılıqdan başımızı qaldırıb, üzünə baxa bilmirik, əməllərimizi boynumuza alıb danışa bilmirik, amma indi çarəsiz qalıb hər şeyi olduğu kimi danışmaq məcburiyyətindəyik. Rica edirəm, rəhmdil ol. Mən bir tacir idim. Hədsiz dərəcədə varlı-əhvallı idim, malım, mülküm, əmlakım, varım, dövlətim, qullarım, kənizlərim, nökərlərim, xidmətçilərim sonsuza qədər idi. Bir gün sahildə durub, mallarımı yüklədib, özüm də gəmiyə minməyə hazırlaşırdım ki, bir gənc yaxınlaşıb dedi: «Bir kənizim var, gözəllikdə, yaraşıqda, ədada, şirinlikdə bu dünyada tayı-bərabəri ola bilməz, amma mənə nifrət etdiyi üçün, mənə tabe olmadığı üçün onu satıram». Oğlanın təsviri məni maraqlandırdı və mən kənizi öz gözlərimlə görmək istədim. Uzaqdan, özünün xəbəri olmadan qızı gördükdə ağlımı itirdim, bir könüldən

min könülə ona aşiq oldum və ağlagəlməz bir qiymətə onu aldım. Cavan oğlan isə pulunu alan kimi yox oldu. Mən qıza onu aldığımı deyəndə qız məni tənə edib, sərbəst, azad qadın olduğunu bildirdi və dedi ki, onu heç kəs nə ala bilər, nə sata. Onda mən nökərlərimə əmr etdim ki, onu zorla sürüyüb gəmiyə qaldırsınlar. O, gəmidə də mənə də tabe olmadı. Ona nə qədər qızıl, gümüş, ləl-cavahirat verəcəyimi söyləsəm də, faydası olmadı. Bir dəfə dözməyib onun üzünə sillə çəkdim, o, yerə yıxıldı, əllərini göyə qaldırıb dedi: «Ey Allah, sən hər şeyi görən, hər şeyi bilənsən!» Bu sözləri demişdi ki, göyün üzü qaraldı, tufan qopdu, dalğalar qalxdı bizim gəmini parça-parça etdi. Gəmidən salamat bir şey qalmadı. Mən bir taxta parçasından yapışıb min cür əzab-əziyyətlə bir sahilə çıxdım və sonra da başıma çox işlər gəldi. Bilərəkdən etdiyim başqa bir günahım yoxdur. Bilmədən yol verdiyim günahlardan isə xəbərim yoxdur. İndi mən əməlimdən peşman olub, Allah-təala qarşısında tövbə edirəm ki, bir də heç vaxt qul satıb, qul almayacağam».

Ürviyə piyaləsinə baxıb dedi: «Sənin danışdığın həqiqətdir». Ürviyə ayağa qalxıb pərdə arxasına keçdi, iki dəfə səcdəyə gedib, Allaha yalvardı, bu gəncə şəfa dilədi. Uca Allah onun dualarını eşitdi, gəncə şəfa verdi, gənc oğlan hamının gözləri qarşısında ayağa qalxıb, heç bir dərdi, xəstəliyi olmamış kimi hərəkət edib, gəzməyə başladı. Ürviyə yenə iki dəfə səcdəyə gedib, iki rükət namaz qılıb, Allaha şükürlər etdi, alqışlar ucaltdı. Buraya toplaşanların hamısı bu işə heyrət etdilər, Ürviyənin Allah yanında olan məqamına mat qaldılar. Bunu görən iflic vurmuş oğlan da üzünü Ürviyəyə tutub dedi: «Hökmdarımızın buyruğu belədirsə, mən də hamının qarşısında günahkar olduğumu, günah iş gördüyümü boynuma alıram:

Allahın, insanların qarşısında günahkaram
Bundan yüz dəfə daha artıq cəzaya layiqəm.

Mən bir şahın sarayında məmur işləyirdim və elə oldu ki, xəzinədən bir miqdar pulu gərəksiz yerə xərclədim, sonra isə ödəyə bilmədim. Məni həbs edib ölüm hökmü çıxardılar. Məni dar ağacından asmalı idilər. Edam günüm çatanda məni şəhər meydanına apardılar.

Artıq boynuma ip salmışdılar ki, bir yad, tanımadığım, qərib qadın axırıncı üç yüz dinarını verib borcumu ödəyərək məni ölümdən xilas etdi. Mən ölümdən qurtardıqdan sonra məsələnin nə yerdə olduğunu öyrənib həmin qadının ardınca qaçdım ki, minnətdarlığımı bildirim, amma ona çatanda qarşımda elə bir gözqamaşdırıcı gözəllik gördüm ki, özümü idarə edə bilmədim. Mən nəyin bahasına olursa-olsun, o qadına yiyələnmək istədim, onu qucaqlamaq, zülflərini sığallamaq, üzünün zərif dərisinə, lalə kimi al dodaqlarına toxunmaq istədim. Özümdən asılı olmayaraq, ona əl atıb özümə çəkmək istəyəndə pal-paltarını da cırdım. Nə qədər çalışdım, onu özümə çəkə bilmədim, zor göstərdim, təkid etdim, amma onun namusu, isməti mənim gücümü üstələdi. Mən neçə gün, neçə gecə onu təqib etdim, onu güddüm, amma bunların heç biri nəticə vermədi. Axırda sahilə gəlib çıxdıq. Orada tacirləri görüb, həmin qadını özündən xəbərsiz baha qiymətə kəniz kimi satdım və evə qayıtdım. Bu hadisədən bir neçə gün keçmişdir ki, səhər yuxudan oyananda gördüm ki, məni iflic vurmuşdur. İndi isə mən Tanrının qarşısında tövbə edib, sənə, ey böyük hökmdar, söz verirəm ki, bir daha bir qadına xor baxmayacağam».

Ürviyə dedi: «Bəli, sən də hər şeyi doğru danışdın, piyalə da onu təsdiqlədi». Ürviyə ayağa qalxıb pərdə arxasına keçdi, iki dəfə səcdəyə gedib, iki rükət namazını qılıb, Allah-təaladan bu gəncə şəfa dilədi. Həmin dəqiqə gənc Allah-təalanın rəhmi ilə tamamilə sağaldı və ayağa qalxdı. O elə gəzir, elə hərəkət edirdi ki, sanki heç xəstələnməmişdir. Bunu görənlər heyrətə gəldilər, onlar deyirdi: «Ey Allah! Bu qadın bizim kimi adi insan deyildir, bu qadın mələkdir! Hətta insandırsa da, o, peyğəmbərlər kimi möcüzələr yaratmağa qadirdir».

Bundan sonra Ürviyə qara qulun qabağa çıxmasını buyurdu və dedi: «İndi sən öz əməlindən bəhs et». Qara qul susub durmuşdur, o, sahibinin yanında həqiqəti danışa bilmirdi. Ürviyə qara qulun qorxudan danışa bilmədiyini görüb dedi: «Mən piyaləyə baxıb bu qara qulun niyə susduğunu anladım. Ey bu qulun sahibi, bil ki, oğlunun qatili bu qara quldur və sənin qorxundan açıb həqiqəti deyə bilmir. Əgər o danışa bilmirsə, mən sizə hər bir şeyi olduğu kimi danışım, amma ondan sonra onun üçün Allahdan şəfa diləyə bilməyəcəyəm».

Qara qul bu sözləri eşidib qorxudan əsməyə başladı və dedi: «Susmağın heç bir faydası yoxdur. Məni həqiqətdən başqa heç bir şey xilas edə bilməz. Bir də ki mən həqiqəti deməsəm, onsuz da möhtərəm hökmdar hər şeyi danışacaqdır.

Kaş çoxdan ölüb gedəydim əzab içində,
Bəlkə, günahlarım el içində faş olmazdı!»

Artıq başqa çıxış yolu görməyən qara qul sözə başladı: «Allah hökmdarımızın ömrünü uzun eləsin! Mənim başıma gələnlərin hamısı mənim özümün günahlarımın üzündəndir. Bir gün sahibim haradansa bir yaralı, yarıcan qadın gətirdi. O, zövcəsi ilə bir yerdə gecə-gündüz həmin qadının qulluğunda durub, loğmanlar dəvət edib onu tam sağaltmayanacan əl çəkmədilər. O qadın çox inamlı-imanlı, namuslu-ismətli birisi idi. Mənim sahiblərim ona bir balaca ev ayırmışdılar və o, gecə-gündüz ibadətlə məşğul olurdu. Bir dəfə mən onu örtüksüz gördüm və bir baxışdan ona vuruldum. Ondan sonra nə qədər yalvardım, yaxardım, onu dilə gətirə bilmədim ki, mənə meylini salsın. Mən hər dəfə ona söz deyib hisslərimi anlatmağa çalışanda o, üzünü çevirib çıxıb gedirdi və ya özünü elə aparırdı ki, sanki məni eşitmir. O mənim sözlərimi heç ciddi qəbul etmirdi. Bu etinasızlıq məni elə bir həddə çatdırdı ki, eşqim nifrətlə əvəz olundu. Mən nə olursa-olsun, ondan intiqam almaq istədim, neçə dəfə cəhd etdim ki, onu öldürəm, amma hər dəfə araya bir iş girirdi. Bir dəfə yenə onu öldürmək məqsədi ilə gecəyarısı bıçağı götürüb onun evinə yollandım, amma qadın yatmamışdır, ibadətlə məşğul idi. O, qapı-pəncərəsini həmişə möhkəm bağlayırdı. Mən yenə də əlim boşa çıxdığından qəzəblənib evə qayıtdım və hirsimi sahibimin aman – zaman bircə oğlunu öldürməklə, o məsum körpənin başını kəsməklə soyutdum. Mən körpənin başını, qanlı köynəyini zavallı qadının qapısına atdım. Səhər açılanda ev sahibləri hadisədən agah olub qışqırıb, fəryad etməyə başladılar. O qadın da qışqırığa qaçıb gəlmişdir. Mən fürsətdən istifadə edib qanlı bıçağı aparıb onun paltarlarının arasında gizlətdim. Sonra isə hamının gözü qarşısında gedib bıçağı elə əlimlə qoyduğum yerdən çıxarıb gətirdim. Mən həmin qadının saçlarından

tutub sürüyərək izin istədim ki, onu öldürüm. Amma mənim sahibim buna izin vermədi, çünki bu beytdə çox gözəl deyilmişdir:

Onun xilas olmasını Allah yazmışdır,
Mənim cəhdlərimsə boşa çıxmışdır.

Sonra sahibim öz-özlüyündə qadının günahsız olduğunu fikirləşib onu yola saldı və ona yol üçün üç yüz qızıl dinar verdi. Mən onu təqib etdim ki, ona yetişib qisasımı alım, onu öldürüm, amma o, gözdən itdi deyə evə qayıtdım. Mən başa düşürdüm ki, etdiklərimin hamısı günahdır və bir gün axşam yatıb səhər oyananda özümü bu vəziyyətdə gördüm. Bu gözəl beyt sanki mənim vəziyyətim üçün deyilmişdir:

Gördüm, qolum-qıçım quruyub qalmışdır
Sanki dəmir məngənələr arasında sıxılmışdım.

O gündən etibarən mən gördüyünüz bu vəziyyətdəyəm, nə tərpənə bilirəm, nə gəzə. İndi mən hər şeyi sizə danışdım».

Quldur biləndə ki oğlunun qatili bu qara qul imiş, yerində ilan kimi qıvrılmağa başladı. Əlacı olsa idi, elə oradaca onu qətlə yetirərdi. O, hökmdara yalvardı ki, onun şəfasını Allah-təaladan diləməsin, amma Ürviyə dedi: «Möhtərəm insan, sən Allaha şükürlər etməlisən ki, səni o, günahsız qadını bu murdar qulun əlinə verməkdən çəkindirmişdir. Bu alçaq, nacins, murdar, əlləri sənin məsum körpənin qanına bulaşmış qul dünyanın ən ağır cinayətini törətmişdir və şübhəsiz ki, onun cəzası ölüm olmalıdır, ancaq mən söz vermişdim ki, bunlar mənə həqiqəti danışsalar, onlar üçün Allahdan şəfa diləyəcəyəm. Sən gəl onu mənə görə bağışla». Ürviyə bunu deyib yenə iki dəfə səcdəyə getdi və acı göz yaşlarını axıdaraq Allahdan o qara qula şəfa dilədi. Allah bağışlayandır. Allah Ürviyəni eşitdi, qula şəfa verdi, qul heç nə olmamış kimi, əvvəlkindən də gümrah ayağa qalxdı. Buraya toplaşanların heyrətinin həddi yox idi. Qara qul Ürviyənin ayaqlarına düşüb, minnətdarlığını bildirdi, Allaha şükürlər etdi. Sonra Ürviyə üzünü qaynına tutub dedi: «Növbə sənindir. Yadda saxla ki, bircə yalan sözün sənin şəfa tapmağına əngəl

olacaqdır, mən isə onsuz da hər şeyi danışacağam. Mən bu piyalədə sənin bütün alçaq, rəzil, murdar əməllərini, niyyətlərini görürəm. Sənin qardaşının zövcəsinə qarşı qurduğun tələləri, etdiyin pislikləri, yaydığın iftiraları, atdığın şərləri, böhtanları açıq-aşkar görürəm. Mən sənin o zavallı qadını ölümə məhkum etdirib, özün kimi vicdansız, alçaq, rəzil yoldaşlarınla onu daşqalaq etdiyini, sənin bütün çirkin əməllərini bilirəm. Sən indi hər şeyi boynuna alıb, həqiqəti danışmasan da, mən hər şeyi özüm söyləyəcəyəm. Sənin yeganə çıxış yolun həqiqəti söyləməkdir. Qara qulu özün gördün, nəticəni də özün çıxar». Urviyyənin qaynı başını aşağı salıb fikirləşdi: «Ölümdən acısı yoxdur. İndi həyat mənə ölüm kimidir. Artıq qardaşımdan da qorxmağın yeri deyildir». O, sözünə başladı: «Mənim əhvalatım belədir. Qardaşımın yer üzündə gözəllikdə, ağılda, imanda tayı-bərabəri olmayan zövcəsi var idi. O, gözəlliyindən, görkəmindən, yaraşığından başqa, həm də çox ağıllı, zəkalı, təmkinli, tədbirli bir qadın kimi ad qazanmışdır. Mən tam əmin idim ki, yer üzündə mənim qardaşımın zövcəsinə tay ola biləcək başqa qadın yoxdur. Günlərin bir günü qardaşım Misirə iş səfərinə getməli olur və ev-eşiyini mənə tapşırır. Bir dəfə mən təsadüfən qardaşımın zövcəsini saçlarını töküb darayarkən gördüm və həmin an bütün qəlbimlə ona aşiq oldum. Mən nə qədər çalışsam da, onu ağlımdan çıxara bilmirdim. Mənim nə gecəm var idi, nə gündüzüm. Mən nə qədər özümdən bu fikirləri uzaq tutmağa çalışırdımsa da, özümü toplayıb, ələ ala bilmirdim. Eşqimin atəşi gündən-günə məni daha çox alovlandırırdı:

Mən ağlımı bircə anda itirdim,
Abır-həyamı, səbrimi itirdim.

Bir gün özümü saxlaya bilməyib, gedib ona ürəyimi açdım. Zavallı qadın mənim bu sözlərimi eşidib söyüd yarpağı kimi əsməyə başladı. O qəzəblənərək üstümə qışqırıb, tənə etdi və evindən qovdu. Mən istədiyimə nail ola bilmədiyim üçün əzab içində qovrulurdum. Özümü gümrah göstərməyə çalışsam da, içimdə yanıb yaxılırdım. Artıq ümidimi üzüb, məğlub olduğumu tam anladıqda qisas hissi ürəyimə hakim kəsildi.

Elə ki onun tərəfindən evindən qovuldum,
Ona tələlər qurmağa başladım.

Mən bütün haqq-salamı, qardaşımın evində kəsdiyim çörəyi, qardaş haqqını unudub özümü qisas almaq hissi ilə köklədim.

Sevən insan vicdanından, namusundan keçər,
Sevən insan ürəyini, ruhunu qurban verməyə hazır olar.

Ondan qisas almaq üçün bir neçə nəfəri muzdla tutdum ki, mənə şahidlik etsinlər. Yoldaşlarımla bir yoldan ötənə pul verdik ki, o özünü qadının sevgilisi kimi qələmə versin. Biz özümüz onu bacadan evə salıb, sonra muzdlu şahidlərin gözləri qarşısında onların ikisini də çıxarıb qonum-qonşu qarşısında biabır etdik. Özünü qadının sevgilisi kimi qələmə vermiş adama isə şərait yaratdıq ki, gizlicə qaçsın. O biçarə qadını hakimin yanına aparıb, onu əxlaqsızlıqla ittiham etdik. Mənim muzdla tutduğum şahidlər də şahidlik etdilər. Hakim də bizi dinlədikdən sonra şəriət qanunlarına uyğun olaraq onun daşqalaq edilib öldürülməsini əmr etdi. Mən qadını saçından tutub sürüyərək meydana apardım və biz yoldaşlarımla onu daşqalaq elədik. Mən çox peşman olub, çox əzab çəkdim, amma artıq gec idi. Sonra mənim gözlərim ağrımağa başladı və sonda kor oldum. İndi etdiklərimdən çox peşmanam. Mənim günahım budur, mən hər şeyi olduğu kimi danışdım, əgər nəyi isə gizlədib deməmişəmsə, ya da yalan demişəmsə, qoy hökmdarımız sehrli piyaləsinə baxıb görsün.

Əlinizdə iti qılınc, bu da mənim başım,
Hazıram başımı cəllad kötüyünə qoymağa».

Ürviyə dedi: «Sən həqiqəti söylədin. Sən heç nəyi gizlətmədin, artırıb, azaltmadın. Mənim piyaləm də sənin dediklərini təsdiqləyir». Ürviyənin əri bunu eşidib nalə çəkdi, fəryad etdi, huşunu itirib yerə sərildi. Ürviyə sevimli ərinin bu hala düşdüyündən çox məyus oldu, az qaldı ağlasın, amma özünü saxlayıb ona yardım olunmasını buyurdu. Ərəbin üzünə gülab səpib özünə gətirdilər. Ərəb özünə gəldikdən sonra Ürviyənin ayaqlarına düşüb yalvardı:

Uca Allaha and verirəm mən səni,
Qoy bu rəzili qəddarcasına edam etsinlər.

Böyük hökmdar, səni müqəddəslərin adına and verirəm, əmr et, ona ən ağır cəza versinlər, onu ən ağır işgəncələrlə edam etsinlər. Əgər bunu etməsən, onda heç olmasa, onu olduğu kimi qoy qalsın, o, dünya işığını görməyə, dünyanı görməyə layiq deyildir.

Bu rəzillə ünsiyyətdə olmaq istəmirəm,
O, zəlil olmaq üçün bu dünyaya gəlmişdir.

Mən onunla olan qardaşlıq bağlarımı kəsib atıram. Bu dünyada ondan imtina edirəm, o biri dünyada da imtina edəcəyəm».

Ürviyə dedi: «Ey nəcib insan, mənim xətrimə onun günahlarından keç, onu bağışla. Deyirlər gördüyü işin peşmanlığını çəkmək tövbəyə bərabərdir. O, peşman olmuş, təqsirini boynuna almışdır, peyğəmbərimiz –Allah onun adını həmişə uca tutsun!- demişdir: «Günahını boynuna alıb, tövbə edənə rəhm edin, tərslik edənə yox». Onun üçün ən ağır cəza sənin qarşında bütün günahını boynuna alıb, bu qədər insanın qarşısında onu danışmaqdır. O, hər dəfə səninlə üzüzə gələndə öz işlərinə görə xəcalət çəkib yerə girəcəkdir. O hər dəfə bütün bunların hansı şəraitdə üzə çıxdığını, aşkar olduğunu xatırlayanda özünü lənətləyəcəkdir. Əgər o, burada-hamının gözü önündə tövbə edib, bir də belə naqis işlərlə məşğul olmayacağına söz verərsə, mən onun şəfa tapması üçün Allaha dua edərəm, yox, əgər o, tövbə etməkdən imtina etsə, onun şəfa tapması üçün dua etməyəcəyəm, qoy gəldiyi kimi də getsin».

Ürviyənin əri dedi: «İxtiyar sahibisən, necə məsləhətdir, elə et». Ürviyə qaynına onun dediklərini qəbul etməsini təklif etdi. Ürviyənin qaynı hər şeyi onun dediyi kimi etdi, peşman olduğunu bildirib, tövbə etdi. Sonra Ürviyə yenə iki dəfə səcdəyə gedib, namaz qıldı, acı göz yaşları axıdaraq Allahdan ona şəfa dilədi. Uca Allah bu dəfə də Ürviyəni eşitdi, onun dualarını qəbul etdi, qaynına şəfa verib, gözlərinə işıq bəxş etdi. Ürviyənin qaynının gözləri açıldı, toplaşanların hamısı heyrətə gəldilər və Ürviyənin adına alqışlar ucaltdılar.

Ürviyənin gözləri açılmış qaynı o saat qardaşının qabağına keçib, ayaqlarına düşdü və ondan bağışlanmasını istədi. Bundan sonra Ürviyə hamını qonaq otağına ziyafətə dəvət etdi. Qonaqlara ən yüksək səviyyədə xidmət edirdilər, qulluqlarında dururdular. Gecə düşəndə quldur Ürviyənin ərinə öz başına gələnləri danışdı: «Mən bir quldurам, işim böyük karvanları basıb, qənimət əldə etməkdir. Bir dəfə səfərdən qayıdırdım, filan şəhərdə yorğunluğumuzu alıb, dincimizi almaq üçün dayandıq. Birdən qulağımıza imdad səsi gəldi. Meydanın ortasında daş qalağı var idi və daşlar işıq saçırdı. Mən bu hadisənin adi bir hal olmadığını anladım. Biz daşları dağıdanda onların altında qan-qançır içində bir qadın gördük. Bu qadının üzünün nuru onun paklığından xəbər verirdi. Başa düşdük ki, onu daşqalaq etmişlər. Mən o zavallı qadını çıxartdırıb, xərək üstünə qoydurub öz evimə apardım. Zövcəm gecə-gündüz onun qulluğunda durub, onu sağaltdı. O çox saf, imanlı bir qadın idi. Nə yaxşı mən alçaq qulun və ürəyi yanıb köz olmuş zövcəmin sözünə baxmadım. O, günahsız, zavallı qadına bir pislik etmədim, əksinə ona yol pulu da verib yola saldım. Orada qalsa idi onu ölümdən heç kəs qurtara bilməyəcəkdi, indi belə sakit görünməyimə baxma. Hökmdarın duaları sayəsində şəfa tapmış o qara qulun qara günləri qabaqdadır. Mən yolda ona elə bir işgəncə verəcəyəm ki, şəfa tapmasına da peşman olacaqdır. Mən onu tikə-tikə etməsəm, ürəyim soyumaz».

Ərəb dedi: «Elə iş görmə. Bir halda ki hökmdar onu bağışlayıb, ona görə dua edib, Allahdan şəfa dilədi, Allah da şəfasını ondan əsirgəmədi, sənin onu öldürməyə haqqın yoxdur. Necə deyərlər:

> Sən onu Allaha tapşır,
> Qoy göy qübbəsinin altında onu Allah cəzalandırsın.

Sənə xəyanət edən qulundur, mənə xəyanət edən isə qanı qanımdan, canı canımdan qardaşımdır. Fikirləş gör kimin yarası daha acıdır. Sən özün hər şeyi eşitdin. Sən özün eşitdin ki, mənim doğma qardaşım mənə, zavallı zövcəmə nələr etmişdir. Mən də onu öz əllərimlə cəzalandırmaq istəyərdim, amma gördün ki, hökmdar izin vermədi, əksinə, onun üçün Allahdan şəfa dilədi, onun gözlərini açdı.

Mənim əlacım ancaq ona qaldı ki, onu Allaha tapşırım, sən də qulunu Allaha tapşır. Allah hər şeyi görən, hər şeyi biləndir. Qadir Allah hər şeyi özü yoluna qoyandır. O hər şeyə qadirdir».

Onlar bu söz-söhbətlə səhəri açdılar. Səhərəcən hökmdarın möcüzələrindən danışdılar. Onlar deyirdilər: «Bu qadın insana oxşamır, o daha çox mələyə oxşayır. Onun möcüzələri adi insanın imkanları daxilində deyildir, belə möcüzələrə ancaq peyğəmbərlər qadir ola bilərlər».

Səhər açılanda Ürviyə əmr etdi ki, sarayı daha gözəl, daha təmtəraqla bəzəsinlər. Dünənkindən də çox qonaq dəvət etsinlər. Sonra buyurdu ki, dünənki qonaqları da, xəstələri də dəvət etsinlər. Hamı yığışandan sonra Ürviyə yanındakı qızıl taxtda ərini əyləşdirdi və dedi: «Ey möhtərəm insan, qardaşının sənə qarşı etdiyi nalayiq, nadürüst əməllərindən xəbərdar olduq, ürəyimiz sənə çox yandı. Əgər biz qardaşını sənin ixtiyarına versək, nə edərsən?»

Ərəb dedi: «And olsun Allaha, özümə söz vermişəm ki, öz yerimizə qayıdan kimi onun boynunu üzüm, ancaq o halda, bəlkə, ürəyim soyuyar».

Ürviyə dedi: «Yox, yox! Heç bir ağlı başında olan adam, hər vaxt başqası ilə əvəz oluna biləcək zövcəsinin qisasını qardaşının qanını tökməklə almaz. Qardaşın əvəzi olmur. Sən düzgün fikirləşmirsən. Ərəb dedi: «Hökmdar,

Satqın, xain qardaşdansa,
Vəfalı köpək daha üstün olar.

Mən ona bu dünyada ürəkdən nifrət etdiyim kimi o dünyada da nifrət edəcəyəm. Mənim yaddaşımdan heç vaxt onun öz dilindən eşitdiklərim silinməyəcəkdir». Ürviyə dedi: «Allah böyükdür! Uca Allah heç vaxt əfv etdiyini cəhənnəmə yollamır. Sən də söz vermisən ki, qardaşını bağışlayacaqsan.

Yadda saxla ki, qadına görə əzizlərindən olmağa dəyməz.

Mən sənə bir gözəl kəniz bağışlayaram. O sənə əvvəlcə zövcəni unutdurar, sonra isə sən qardaşını da bağışlaya bilərsən».

Ərəb dilləndi: «Allah daima adını uca tutsun, ey hökmdar! Sənin mərhəmətin sonsuzdur. Amma mən Allahımın qarşısında əhd etmişəm ki, sevimli zövcəm Ürviyədən ayrı düşsəm, ikinci dəfə heç vaxt evlənməyəcəyəm. Mən onu bu gün də sevirəm və qəbrini tapmaq nəsibim olarsa, söz vermişəm ki, ömrümün sonunadək qəbrinin başı üstə dualar edəcəyəm».

Ürviyə dedi: «Mənim sənə bəxş edəcəyim kəniz sənin zövcəndən daha gözəl, daha ağıllı, daha imanlı birisidir». Ərəb bu sözləri eşidib cavab verdi: «Bu, mümkün deyildir, çünki yer üzündə ikinci elə bir qadının ola bilməz. Hökmdarım onu görsə idi, mənim sözümdəki həqiqəti anlayardı.

Yox, onsuz mən xoşbəxt ola bilmərəm!».

Ürviyə çox yüksək əhval-ruhiyyə ilə dedi: «Ey möhtərəm insan, əgər sən öz həyatını zövcənsiz təsəvvür etmirsənsə, onsuz yaşayıb nəfəs ala bilmirsənsə, hələ də ona olan eşqin solub, sönməmişdirsə, əgər mən Allah-təalaya yalvarıb onu sənə qaytarmağını istəsəm və o da mənim duamı qəbul edib, zövcəni sənə qaytarsa, əvəzini hansı əməllə çıxarsan?»

Ərəb acı göz yaşları töküb dedi:

«O çox dərin yuxuya getmişdir və bir də oyanmaz,
Elə uzaq düşmüşdür ki, bir daha qayıtmaz.

Mən artıq ümidimi üzmüşəm, inanmıram ki, o, bir də qayıda, amma hökmdarımız elə bir möcüzələr yaratmaq gücünə malikdir ki, indi dönüb zövcəmi yanımda görsəm, heyrətlənmərəm». Onda Ürviyə üzünü camaata tutub dedi: «Ey insanlar, deyin görüm, siz bu qədər çətinliklərdən, əzabdan, təhqirlərdən, iftiralardan keçən qadın haqqında nə deyə bilərsiniz? Siz əskildilib, iftiraya məruz qalıb daşqalaq olmuş qadın haqqında, namussuz, vicdansız kişilərin təqibinə məruz qalıb, təmiz adını, ismətini qoruya bilmiş qadın haqqında, ən ağır ittihamlarla şərlənib döyülmüş, söyülmüş, amma ərinin namusunu, adını, qeyrətini qoruya bilmiş qadın haqqında nə deyə bilərsiniz?»

Hamı yerindən qalxıb bir ağızdan dedi: «Ona qadın demək olmaz. O, mələkdir! Çünki ancaq mələklər belə kamil ola bilərlər!»

Onda Ürviyə üzünü ərəbə tutub dedi: «İndi isə sevinə bilərsən. Allah sənin dürüstlüyünü görüb zövcəni sənin üçün qorumuşdur. Mən sənin zövcən Ürviyəyəm və burada bu insanlardan eşitdiklərinin hamısı mənim başıma gələn macəralardır. Allah-təala mənim xislətimə bələd olduğu üçün bu işlərin içindən qurtulmağıma yol açmış və məni ucaldaraq düşmənlərimin hər birinin cəzasını vermişdir. Uca Allah onları mənə möhtac elədi, mənim ayaqlarıma gətizdirdi. Sən bunların hamısını öz qulaqlarınla eşidib, öz gözlərinlə gördün». Bunu eşidən ərəb qışqırıb, huşunu itirdi. Ürviyə taxtdan enib, ərinin başını qaldırıb dizlərinin üstünə qoydu, üzünə gülab çilədi və ərəb özünə gəldi. Sonra Ürviyə buyurdu ki, hamı dağılışsın. Burada nələrin baş verdiyindən camaat daha sonra xəbər tutdu.

Ərəb bir az özünə gəldikdən sonra hamama gedib rahatlandı, əynini dəyişib gəldi. Saray daha gözəl, daha möhtəşəm bəzədilirdi, böyük hazırlıqlar görülürdü. Saray əhli baş verənləri maraqla izləyirdilər. Nəhayət, işlər bitdikdən sonra hamı toplaşdı. Əyanlar, əmirlər, əshabələr, adlı-sanlı şəhər adamları, sərkərdələr, ordu başçıları öz yerlərində əyləşəndən sonra Ürviyə öz taxtında əyləşib, yanında da ərinə yer elədi. Sonra buyurdu ki, qara qulu, onun sahibini, qaynını, gənc taciri, qadının oğlunu və qadının özünü onun hüzuruna gətirsinlər. Onları gətirəndə Ürviyə onlara yerlərində əyləşməyi buyurdu və ayağa qalxıb camaata müraciət etdi: «Bildiniz ki, burada haqqında danışılan, o zülmlərdən keçmiş, ağrı-acıya dözmüş qadın mənəm. O vəhşiliklərin hamısı mənim başıma gətirilmişdir». Sonra üzünü qaynına tutub dedi: «Sən ey alçaq! Sən bir zəif, kimsəsiz qadına o əzabı, işgəncəni necə rəva bildin? Sən necə sənə etibar olunmuş əmanətə belə münasibət bəsləyə bildin? Yəni sənin vicdanın bircə dəfə belə tərpənmədimi ki, bu qadının günahı nədir ki, onun başına bu müsibətləri gətirirəm? Ey içində Allah xofu olmayan rəzil, mənim sənə nə pisliyim dəymişdir ki, mənim başıma olmazın oyunlar gətirdin?»

Bu sözləri eşidən qayın qorxudan əsməyə başladı, başını aşağı dikib durdu. Hamı ona həqarətlə baxırdı.

Üzü yox idi onun bir söz deməyə,
söyüd kimi əsməyə başlamışdır.

O özünü elə itirmişdir ki, sanki ruhu canından ayrılmışdır. Başını aşağı salıb, qapqara qaralıb bir tərəfdə donub qalmışdır.

Sonra Ürviyə qara qulun sahibinə müraciət etdi: «Ey möhtərəm insan. Bəli, mən həmin sənin xilas edib, evinə gətirib, zövcənlə qulluğunda durduğun qadınam. Sən məni tanımadan-bilmədən daşların altından çıxarıb evinə gətirdin, təmənnasız mənə qulluq edib yaralarımı məlhəmlə müalicə etdin. Sən, hətta bu qara qul oğlunu öldürüb mənim üstümə atdıqda da buna inanmadın, mənə pislik etmədin. Heç kəsin sözünə fikir vermədin, əksinə, mənə zəruri məbləğdə pul verib yola saldın.

Sən kişitək rəftar etdin mənimlə,
Əvəzindən çıxacağam min bir misli ilə!»

Bunları eşidən quldur Ürviyənin ayaqlarına düşüb dedi: «Səni and verirəm o uca Allaha! Məni əfv et, məni bağışla. Ola bilsin ki, bu nanəcib qara qulun təsiri altında sənə nalayiq sözlər demişəm, özümü ləyaqətlə aparmamışam, yalvarıram məni bağışla. Bilirsən ki, bala dağı ağır olur, mən dərdin yükü altında nə deyib-danışdığımı bilmirdim və ola bilər ki, bilməyərəkdən xətrinə dəymiş olaram, məni məzur tut, bağışla». Ürviyə dedi: «Əstəğfürullah, mən heç vaxt səndən bir nalayiq, nadürüst rəftar görmədim. Mən səndən yaxşılıqdan başqa bir şey görməmişəm, əksinə, səni həmişə ədalətli, mərhəmətli görmüşəm. Sən və zövcən mənə çox yaxşılıqlar etmisiniz və ancaq uca Allah sizin yaxşılığınızın qarşılığını verməyə qadirdir. O ki qaldı sənə, zövcənə və mənə də ağır zərbə vurmuş vicdansız qara qula, onun işi bir başqadır». O, qara qula müraciət edərək dedi: «Ay alçaq rəzil, de görüm, sən özünə haqq qazandırmaq üçün nə deyə bilərsən? Sən nəyə layiqsən?» Qara qul bütün ümidini itirib dedi:

«Vay dərdim! Nəfsimin qurbanı oldum,
Cəzadan qurtulmağa artıq ümidim yoxdur».

Sonra Ürviyə iflic vurmuş gəncə üzünü tutdu: «Sən özünü təmizə çıxarmaq üçün nə deyəcəksən. Axı mən səni dar ağacından xilas etdim, Axırıncı pulumu verib səni azad etdim. Sən isə bunun

müqabilində məni kəniz kimi satdın». Gənc məmur susub bir kəlmə özünə haqq qazandırmaq üçün söz tapıb deyə bilmirdi.

Bundan sonra Ürviyə tacirə müraciət etdi: «Ey nanəcib, axı mən sənə dedim ki, mən azad qadınam, məni nə almaq olar, nə satmaq. Sən isə mənimlə ehtiramla rəftar etməkdənsə, üzümə elə bir sillə çəkdin ki, gurultusu indi də qulaqlarımda zingildəyir. İndi özün de, hansı cəzaya layiqsən?»

Tacir yerə sərilib yalvardı: «Ey yer üzünün hökmdarı! Mən öz nadanlığım ucundan bir xataya yol verdim və elə cəzalandırıldım ki, bundan ağırını fikirləşib tapmaq çətin olardı. Mən yol verdiyim xətaya görə bircə anda hər şeyimi itirdim. İllərlə qazandığım var-dövləti, dostlarımı, etibar etdiyim adamlarımı bir göz qırpımında itirdim. İndi nə ev-eşiyim, nə dost-tanışım, nə qohum-əqrəbam var, bir tikə quru çörəyə möhtacam.

Sənin əlindəyəm, özün görürsən,
Cəzalandır məni necə istəsən».

Ürviyə gördü ki, onun düşmənləri yaman qorxuya düşüb ağlayırlar, onlara ürəyi yandı, daha onları incitmədi, hərəsinə bir xələt verdirib, onları bağışladı. Sonra bəyan etdi: «Mən qaynımı ərimə, qara qulu sahibinə, ölümün ağzından qurtardığım gənci anasına, başı havalı cavanı isə əzizlərinə bağışlayıram. Mən sizin üzərinizdəki haqqımdan imtina edirəm, çünki Allah-təala məni öz pənahında saxlamış, mənə rəhm etmişdir». Ürviyə bunları deyib qonaqlarını müsafirxanaya yola saldı.

Səhər açılanda Ürviyə yenə sarayın bəzəklərinin artırılmasını, dəyişdirilməsini buyurdu və yenə də hamını saraya dəvət etdi. Hamı yığıldıqdan sonra Ürviyə taxtına əyləşib qara qulun sahibini yanına çağırdı. Ona çoxlu ərməğan verdi: gözəl qızıl yəhərli, qızıl yüyənli ərəb atı, qiymətli paltar dəstləri, zövcəsi üçün zər-zinət, bir kisə də qızıl verdi. Bunları təmtəraqla ona təqdim etdi.

Sonra o, qadın ilə oğlunu çağırıb onlara da pal-paltar və başqa hədiyyələr verdi. Cavan tacirə isə bir qədər qızıl verib dedi: «Bunu sənə ona görə verirəm ki, yenə bir iş qura biləsən».

Ürviyə bu işləri yoluna qoyub, onları yola saldıqdan sonra ərini və qaynını yanında saxladı.

Ürviyənin yanından evlərinə qayıdan bu adamlar yol uzunu onun ünvanına mədhlər söyləyir, onun ədalətindən, mərhəmətindən, fərasətindən, namusundan, qeyrətindən danışdılar. Ürviyənin adı artıq bütün ətrafda məşhur idi. Hamı onun dualarının Allahın yanında müstəcəb olduğundan, onun xəstələrə, əlillərə, zəlillərə, çolaqlara şəfa diləyib sağaltmasından danışırdı. Onun adını eşidənlər xəstələrini, bimarlarını onun yanına gətirirdilər.

Bir müddətdən sonra Ürviyə qaynını evləndirib, ona faydalı bir işlə məşğul olmağı buyurdu. Bir qədər də keçdikdən sonra Ürviyə bir gün ərinə dedi: «Ey mənim əziz sirdaşım,

Yüz il də, min ildə yaşasaq da biz,<br>
Bir gün sona yetib bitəcək günlərimiz.

Sən çox gözəl bilirsən ki, bir gün yaranmışıq ki, bir gün də ölək. Allah-təala bizdən heç nəyi əsirgəmədi, bizə bol-bol rəhm, mərhəmət verdi. İndi isə mən peyğəmbərimizin bir buyruğuna əməl etmək istəyirəm. O demişdir: «Ölümdən əvvəl ölün!» Mən bu dünyəvi işlərdən əl çəkib, xəlvətə çəkilib, qalan ömrümü Allaha ibadətdə keçirmək istəyirəm. Mən səndən xahiş edirəm, məni bağışla və mənə izin ver səni tərk edim. Mən tərki-dünyalığı seçirəm, sən isə hökmdarlığı əlinə alıb, onu ədalətlə, mərhəmətlə idarə etməlisən. Sən insanlarla rəftarında o qədər ehtiyatlı olmalısan ki, Allah-təalanın yanında üzü qara olmayasan. Bil və yadda saxla yaradılmışların hamısı Allah əmanətidir».

Ürviyənin əri dedi: «Allah mənə sənsiz ömür nəsib etməsin. Allah səni mənim qismətimə yazmışdır və mənim borcumdur gecə-gündüz Ona şükürlər edim. Əgər sən qərarında israrlısansa, əgər sən hər şeydən əl çəkib Allaha ibadət üçün xəlvətə çəkilirsənsə, mən də səninləyəm və mən də ömrümün sonunadək səninlə bir yerdə ibadətlə məşğul olmağa hazıram.

Sən əmr et, mən səninlə hər yana gedərəm,<br>
Zahid olub, inancını qəbul edərəm.

Məni özünlə aparsan, əlimdən gələni edəcəyəm ki, razı qalasan».

Ərini dinləyən Ürviyə dedi: «Gəl sənin qardaşını cəzalandıraq, hakimiyyəti ona tapşıraq, qoy o bu xalqı idarə edib razı salsın. Sonra isə biz buraları tərk edib zahidlərin məskəni xanəgaha yollanaq, orada ibadət edib keçmiş günahlarımıza görə əfv diləyək, qalan ömrümüzü Allaha xidmət etməklə yaşayaq». Ərəb dedi: «İxtiyar sahibisən, mən razıyam». Ürviyə yenə də bütün adlı-sanlı şəhər əhlini: əyanları, əshabələri, əmirləri, sərkərdələri, ordu başçılarını, hakimləri, loğmanları – çəkili olan hər kəsi saraya dəvət edib, əri ilə bir yerdə gəldikləri qərarı bəyan etdi. Hamı onun bu qərarını təqdir etdi. Ürviyə müsafirlər üçün tikdirdiyi binaları zahidlər üçün xanəgahlara çevirtdirdi, hakimiyyəti qaynına verib, ona ədalətli, mərhəmətli, səxavətli, cəsarətli olmağı tövsiyə etdi. Ürviyə isə əri ilə bir yerdə xanəgaha çəkilib ibadətlə məşğul olmağa, zahidlərə, kimsəsizlərə xidmət etməyə başladı. Ömrün başlanğıcı olduğu kimi sonu da olur. Bu hekayətin qəhrəmanlarının da vaxtı çatanda onlar bu fani dünyanı tərk etdilər və hər biri bu dünyada qazandığını o dünyada aldı. Onlardan bizə bu ibrətamiz hekayət qaldı.

*Bu hekayətdən çıxan ibrətamiz nəsihətlər bunlardır:*

*Birincisi budur ki, insan bilməlidir ki, dünya fani dünyadır. Allah-təala nə qədər sənə rəhmli olsa da, səni mütəmadi pənahında saxlasa da, vaxtı çatanda səni yanına götürəcəkdir.*

*İkinci ibrətamiz nəsihət budur ki, həyat da, ölüm də, imanlı, inamlı olub və ya kafir olmaq da Allahın yazdığı taleyin işidir. Deyirlər ki, əmirəlmömininlərdən biri Allahın adından demişdir: «İnsanlar, adətən, axirətdən qorxurlar, mən isə yaradılışdan qorxuram, çünki bilmirəm yaratdığımın taleyi, bəxti necə olacaqdır, alnına nə yazılacaqdır».*

*Üçüncü çıxaracağımız nəticə budur ki, gərək biləsən, əgər bir insan yaşamalıdırsa, ona nə heç bir daşqalaq, nə heç bir silah-sursat xətər gətirə bilməz. İnsan Allah-təalanın onun boynuna qoyduğu işləri tamamlamamış dünyanı tərk edə bilməz.*

*Dördüncüsü, əgər bir insan Allahın sevdiyi bəndədirsə, heç bir qüvvə, heç bir məxluq ona ziyan vura bilməz, o, həmişə Allahın pənahında olacaqdır və bütün bəd işlərdən hifz olunacaqdır. Allah ürəkdən ona bağlı olub, ona itaət edənləri qoruyur. Peyğəmbərimiz-Allah ona yar olsun! - demişdir: Allah Allaha mənsub olana mənsubdur!»*

*Beşinci nəticə belədir ki, birinə yaxşılıq edən özünə yaxşılıq etmiş olur, birinə pislik edən özünə pislik etmiş olur. Heç kəs etdiyi yaxşılığa görə heç nə itirməz və pislik edən də bir şey qazanmaz.*

*Altıncı əxz etdiyimiz nəticə budur ki, dağ dağa rast gəlməz, insan insana rast gələr. Allahın izni olarsa, ağlına gəlməyən birisi ilə də görüşərsən.*

*Yeddinci nəticəmiz isə belədir, ən yüksək qiymətləndirilən o kəsdir ki, pisliyə yaxşılıqla cavab verə bilir. Bu, Yaradanın əsas şərtlərindəndir. Peyğəmbər-Allah ona yar olsun!-demişdir: «Çalış Allah kimi mərhəmətli ol!»*

Allah Məhəmməd peyğəmbərin xətrinə bütün imanlılara, dili dualılara rəhm etsin, onları pənahında saxlasın. Allah bu kitabın üzünü köçürənlərə, onu oxuyub, onu dinləyənlərə, müəllifinə və «Amin»,- deyən hər kəsə rəhm etsin!.

## OTUZ BİRİNCİ HEKAYƏT

# Bəluqiya və Əffan, Əffanın Süleyman peyğəmbərin üzüyünü axtarmağa getməsi və onların qarşılaşdığı qəribə şeylər haqqında hekayət

Belə nəql edirlər ki, qədim zamanlarda İsrail əhalisinin arasında ağlı, zəkası, biliyi, bacarığı ilə seçilən bir kişi yaşayırmış. Bu kişi İsrail əhalisini düz yola dəvət edib, ardınca aparmağa qadir idi. O, bir növ, əhalinin ağsaqqalı idi. O o qədər müdrik, o qədər ağıllı idi ki, çətinliyə düşən məsləhət üçün onun yanına gəlirdi. O çox kitablar oxumuş, çox müdrikləri dinləmiş, »Tövrat«ı dəfələrlə oxuyub başa çatdırmışdır. O, artıq »Tövrat«ın hər sətrini əzbər bilirdi və »Tövrat«da təsvir olunan yerləri ziyarət edib, təsvir olunan hadisələri təhlil edib, onun bütün incəliklərini elə bir dərəcədə araşdırıb öyrənmişdir ki, onun istənilən yerindən misal gətirməyə qadir idi. O, peyğəmbərin Allahın sevimlisi olması səbəblərini, onun fərqli olmasını, nələrə qadir olub, nələri dərk etməsini araşdırıb öyrənirdi, amma bunları heç kəslə bölüşmürdü.

Bu müdrik kişinin Bəluqiya adında çox ağıllı, zəkalı, qabiliyyətli oğlu var idi. Kişinin öz adı İrşad idi. İrşad özünə Bəluqiyanı xələf seçmişdir, çünki oğlundakı ağıla, zəkaya, qabiliyyətə bələd idi. O, oğlunu hədsiz dərəcədə çox sevirdi, onu bir dəqiqə belə gözündən qoymurdu, çünki onsuz yaşaya bilməzdi.

Mənim xoşbəxtliyim sənə bağlıdır,
Aldığım nəfəs səndən asılıdır.

Bəluqiya tez bir zamanda İsrail cavanlarının arasında ən nüfuzlu adama çevrilmişdir. İsrail gəncləri hər hansı ciddi bir qərarı onun məsləhəti olmadan qəbul etmirdilər. Qəzavü-qədər belə gətirir ki, Bəluqiyanın atasının həyat köynəyi yırtılır, o, canını tapşırıb bu dün-

yanı tərk edir. Bəluqiya adət-ənənəyə uyğun atasını dəfn edib, matəmini saxlayıb, sonra isə atasının yerini tutub, onun işlərini davam etdirir.

Günlərin bir günü Bəluqiya əcdadlarının varidatına baxmaq istəyir. O, xəzinədarı çağırıb xəzinəyə düşür. Burada olan saysız-hesabsız var-varidatın içində Bəluqiyanın nəzərini ancaq tik ağacından hazırlanmış bir mücrü çəkir. O, xəzinədardan soruşur: «Bu nə mücrüdür?» Xəzinədar cavab verir: «Atanız bu mücrüdə həmişə çox qiymətli bir kitab saxlayardı». Bəluqiya ondan açarı istədikdə xəzinədar deyir: «Onun açarı heç vaxt məndə olmamışdır. İllərdir, mən bu mücrünü ağzı kilidli, rəf üstündə görmüşəm».

Onda Bəluqiya əmr edir ki, dəmirçini gətirsinlər. Dəmirçi gəlib tez, heç bir çətinlik çəkmədən mücrünü açır. Bəluqiya o saat kitabı çıxarır və onu oxumağa başlayır. Kitabın bir yerində bir dəmir tabutdan danışılırdı. Bəluqiya o saat göstəriş verir ki, həmin tabutu gətirsinlər. Tabutu gətirəndə görürlər ki, onun üstündə yekə bir qıfıl asılmışdır. Onlar bu qıfılı da asanlıqla açıb tabutun içərisinə baxırlar. Tabutun içərisində üstündə balaca qızıl qıfılı olan balaca qızıl mücrü var idi. Bu mücrünü də açdıqda onun içində bir mücrünün də olduğunu görürlər. Bu mücrünü açdıqda isə içərisində bir məktub tapırlar. Bəluqiya o saat məktubu götürüb oxumağa başlayır. Məktubda Peyğəmbərimizə - Allah Onun adını həmişə uca tutsun! Allahın salamı olsun ona! - peyğəmbərliyin verilməsindən, onun kəramətindən, zəkasından, ədalətindən bəhs olunurdu. Bütün bu məlumatlar Bəluqiyanın atası İrşad tərəfindən müqəddəs »Tövrat«dan seçilib, üzü köçürülüb ən etibarlı yerdə gizlədilmişdir ki, bir Allah bəndəsinin əlinə düşməsin. Bəluqiya bu yazını oxuyub başa düşdü ki, sözü gedən Allahın sevimli bəndəsinin zühuruna az qalmışdır. Bəluqiyanın ürəyində Ona çox böyük məhəbbət yaranmışdır və düşündükcə bu məhəbbət daha da alovlanır, daha da böyüyürdü. O, içərisində bu yazı olan mücrünü götürüb hamıya göstərir, təzə bir peyğəmbərin gəlməkdə olduğunu deyir və sözünü hər dəfə bu beytlə tamamlayırdı:

«Olmasaydı bu yazıda kəramət
O, illər uzunu qorunub saxlanmazdı.

Əgər bu vərəqdə yazılanlar özündə son dərəcə dəyərli, qiymətli məlumatlar əks etdirməsə idi, atam onu belə ciddi-cəhdlə xəlvət yerdə, neçə qıfıl altında saxlamazdı».

Bəluqiyanın bu sözlərini, söhbətlərini dinləyənlər qəzəblənib özlərindən çıxırdılar. Onlar Bəluqiyaya deyirdilər: «Əgər sən bizim hökmdarımız, böyüyümüz olmasa idin və əgər atanın bəzi qiymətsiz xidmətləri olmasa idi, onu torpağın altından çıxarıb, sür-sümüyünü yandırıb kül edərdik. Sadəcə, bizi bundan çəkindirən bu iki səbəbdir».

Bəluqiya deyirdi: «Dedikləriniz doğrudur, amma onu torpağın altından çıxarıb yandırmağın heç bir mənası olmazdı. Atam bütün əməllərinə görə o dünyada bədəl ödəyəcəkdir». Onu dinlədikdən sonra İsrail əhli bir az sakitləşirdi. Amma Bəluqiyanın atası tərəfindən »Tövrat«dan seçilib yazılmış hissələrin üzünü köçürüb yayması nəticəsində bu vərəqlər tez bir zamanda əldən-ələ gəzib az zamanda bu fikirləri insanların beyninə sala bilmişdir. Bu, böyük səs-küyə, təlatümə səbəb olmuşdur. Bəluqiya bundan xəbər tutduqda öz-özünə fikirləşmişdir: «Yaxşısı budur ki, bir tərəfə çəkilib oturum və camaatı sakitləşdirməyə çalışım».

Bəluqiya yavaş-yavaş, təmkinlə, şirin dillə camaatı sakitləşdirib, onların narazılıqlarının əsassız olduğunu anladır və onları düz yola yönləndirirdi. Sonra o, anasına müraciət etdi. Onun çox nurani, gözəl, üzündən məsumluq tökülən, inamlı, imanlı, içində Allah xofu olan bir anası var idi. Onun adı Xalqə ibn Məryəm idi. O, »Tövrat«ı əzbər bilirdi, günlərini ibadətdə, Allaha xidmətdə keçirirdi. Onun İsrail əhlinin arasında çox böyük hörməti var idi.

Bəluqiya anasının yanına gəlib ona hər şeyi: xəzinəyə getməyindən tutmuş mücrünü tapmağına, mücrünün içindəki kitabı götürüb oxumağınacan danışır. O, kitabda dəmir tabuta olan işarəyə əsaslanaraq, tabutu açıb içindəki qızıl mücrünü götürdüyünü, mücrünün içərisində isə atası tərəfindən yazılmış vərəqlərin olduğu bir başqa qızıl mücrünün də mövcud olduğunu danışır. O deyir: «Ana can, sənə xidmət etmək, sənin qeydinə qalıb, hər bir şeydən qorumaq mənim boynumdakı borcumdur. Amma mən bu vərəqdə yazılanlara da etinasızlıq edə bilmərəm. Mən gəlmişəm səndən izin istəyib Şama yol-

lanım. Mən bu vərəqdə adı çəkilən, işarələri verilən Məhəmməd peyğəmbərin izinə düşüb onu tapmalıyam. Mənə halallıq ver».

Ana bu sözləri eşidib çox sevinib demişdir: «Oğlum, əgər sən Məkkəli, Mədinəli, Qureyşli, Haşimili, Hicazlı o, Allahın sevimli bəndəsi olan ərəbi - Məhəmmədi - Allah onun adını həmişə uca etsin! Allahın salamı olsun ona! - axtarıb tapmaq üçün yola çıxırsansa, yolun açıq olsun, Allah səni pənahında saxlasın, sənin yardımçın olsun. Oğlum, onunla görüşmək sənə nəsib olarsa, onu diqqətlə dinlə, çalış onu anlayasan, onun dinini qəbul et, o dinin qanunlarına riayət et və qiyamət gününədək onun yolu ilə get». Ana bunları söyləyib, xeyir-duasını verib oğlunun getməyinə izin vermişdir.

Bəluqiya yol tədarüklərinə başlayır. Hər bir şeyi hazır etdikdən sonra İsrail əhlinin başına - öz yerinə bir etibarlı adamını qoyub, anası ilə halallaşıb yola çıxır. Çox gedir, az dayanır, az gedir, çox dayanır, irili-xırdalı şəhərlərdən keçə-keçə, nəhayət, Şamın böyük şəhərlərindən birinə çatır. O bu şəhərdə bir qədər qalır, ibadəti ilə, Allaha xidməti ilə məşğul olur. Bir qədər dincini aldıqdan sonra buranı tərk edib sahilə yollanır. Sahilboyu hər yanı, bütün adaları gəzib rastına çıxanlardan Məhəmməd peyğəmbərin yerini soruşur, amma ona »bilirəm«,- deyən olmur.

Nəhayət, o hər biri dağ boyda ilanlarla dolu olan bir adaya çatır. Bəluqiya heyrət içində bu ilanlara baxırdı, birdən qulağına səs gəldi. Bəluqiya fikir verdi ki, ilanlar insan dilində deyirlər: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah».

Bunu görən Bəluqiya qorxudan kənara çəkilmək istədi, amma gördü ki, yerindən tərpənə bilmir, ayaqları sanki yerə pərçimlənmişdir. İlanlar insan dilində ondan soruşdular: «Ey Adəm oğlu, sən kimsən, nə axtarırsan, adın nədir?» Bəluqiya cavab verdi: «Adım Bəluqiyadır, İsrail torpaqlarından gəlmişəm». İlanlar etiraz etdilər: «Bizim Adəm övladlarından xəbərimiz vardır, amma İsrail əhlindən bixəbərik». Bəluqiya insan dilində danışan bu ilanlara heyrətlə baxırdı və gözlərini onlardan çəkə bilmirdi. O, ilanlardan soruşdu: «Bəs siz hansı qövmdən, tayfadansınız? Çox xahiş edirəm, deyə bilərsinizmi, adını çəkdiyiniz Məhəmməd kimdir? Onu harada görmüsünüz? Necə

oldu ki, siz onun inancını qəbul edib, onun yolu ilə getdiniz? İlanlar cavab verdilər: «Biz cəhənnəm ilanlarıyıq. Allah-təala bizi Allahın rəsulu - Məhəmmədin düşmənlərini, bədxahlarını cəzalandırmaq üçün yaratmışdır». Bəluqiya soruşdu: «Bəs indi burada toplaşmağınızın səbəbi nədir?» İlanlar dedilər: «İldə iki dəfə cəhənnəmdə təlatüm olur. Bir dəfə istidən, bir dəfə də soyuqdan. Bu təlatüm zamanı cəhənnəm dəniz kimi çalxalanmağa başlayır və cəhənnəm dalğaları bizi buraya atır. Yayın qaynar istisi, qışın kəsici şaxtası da məhz həmin çalxalanmanın nəticəsində olur. Məhəmmədi isə tanımağımızın səbəbi odur ki, cəhənnəmin hər bir yerində yazılmışdır: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah».

Sonra onlar Bəluqiyaya cəhənnəmdə onlardan da böyük ilanların olmasından danışdılar.

Onlar deyirdilər: «Orada elə nəhəng ilanlar var ki, biz rahatlıqla onların burunlarının bir dəliyinə girib, digərindən çıxırıq və onlar bunu heç hiss etmirlər».

Bundan sonra Bəluqiya ilanlarla salamatlaşıb yoluna davam etdi. Sahilə çatıb, bir qayığa mindi və başqa bir adaya yan aldı. Burada Bəluqiya üstündə balaca, nazik ilan oturmuş yekə ulaq boyda ilan gördü. Birdən o balaca ilan fit çaldı və bir göz qırpımında bura yüz minlərlə bellərində balaca ilanlar oturmuş iri ilanlar toplaşdı. Onların hamısı balaca ilana təzim etdilər. Balaca ilan onlara üfürdü, onlar göz qırpımında, «La ilahə illAllah, Məhəmmədin Rəsulullah» deyərək özlərini dənizə atıb yox oldular.

O balaca ilan Bəluqiyanı görüb soruşdu: «Ey Adəm övladı, sən kimsən, adın nədir?» Bəluqiya cavab verdi: «Adım Bəluqiyadır, özüm də İsrail qövmündənəm. İndi isə səni o yaradan Allaha and verirəm, de görüm sən kimsən, adın nədir və burada nə edirsən?» İlan dedi: «Mənim adım Yəmlixadır. Uca Allah məni bütün ilanların hökmdarı təyin etmişdir. Mən onları qoruyur, mühafizə edir və yol verilən həddən çıxmamaqlarına nəzarət edirəm. Onlar məndən çox qorxurlar, mənim hüzurumda heç kəsə dəymirlər, əgər belə olmasa idi, onlar çoxdan insan nəslini məhv edərdilər. Onlar məndən o dərəcədə çəkinirlər ki, mənim bir işarəmlə hamısı suya girib qayaların al-

tında, arasında gizlənir və mən onları çağırmayanacan oradan çıxmırlar. İndi sən mənə de görüm, sən bu dünyanı nə məqsədlə gəzirsən?» Bəluqiya dedi: «Mən Allahın rəsulu Məhəmmədin sorağındayam. Mən onu tapmaq istəyirəm». İlan dedi: «Ey Bəluqiya, mən çox rica edirəm, Məhəmmədi görsən, mənim də salamlarımı ona yetir və de ki, Yəmlixa gecə-gündüz sənin qulluğunda durmağın arzusundadır». Bəluqiya: «Baş üstə», - deyib, ilanla halallaşıb yoluna davam etdi. Uzun-uzadı yoldan sonra Bəluqiya nəhayət, müqəddəs Qüdsə çatdı. Burada-müqəddəs məbəddə əslən israilli olan bir qoca müdrik, alim, aqil yəhudi yaşayırdı. Onun adı Əffan idi. Bəluqiya çəkinmədən düz onun yanına getdi və onunla salamlaşdı, çünki bilirdi ki, Əffan yəhudidir. Əffan onun salamını alıb soruşdu: «Sən buraya haradan gəlmisən?» Bəluqiya cavab verdi: «Mən İsrailin hökmdarı və ruhanisi İrşadın oğluyam. Mən buraya ilanlar hökmdarının adasından gəlirəm. Bura gəlməkdə məqsədim atamın əlyazma kitabında adını, mübarək əməllərini oxuduğum, Allahın sevimli bəndəsi Məhəmmədi-Allah ona yar olsun! Allahın salamı olsun ona!- tapmaqdır». Əffan Bəluqiyadan xahiş etdi ki, ona ilanlar padşahı haqqında danışsın. Bəluqiya gördüklərinin hamısını olduğu kimi danışdı. Sonra Əffan bir qədər düşündü və dedi: «Ey Bəluqiya, sənin axtardığının zühur vaxtı hələ çatmamışdır. Sənin zəmanənlə onun zühur edəcəyi zəmanənin arasında çox böyük vaxt fərqi vardır. Bil, bu, dəqiq məlumatdır, nə bizim, nə sizin dövrdə O zühur etməyəcəkdir. O, qiyamətdən bir az əvvəl gələcəkdir.

Çətin bir kəsə o xoşbəxtlik nəsib ola ki,
Öz gözləri ilə Peyğəmbərin zühurunu görə.

Bu bədbin sözləri eşidən Bəluqiya ruhdan düşdü, ümidini üzdü. Əffan ona dedi: «Ey Bəluqiya, özünü üzmə, qəm etmə. Dərd çəkməyin sənə bir fayda verməz. Ondansa, sən məni ilanların padşahının yanına apar, onu mənim əlimə ver, mən də səni dünya nemətlərinə qərq edim və həm də söz verim ki, Allahın sevimlisi, rəsulu Məhəmməd zühur edəndə mən də sənin kimi, ona itaət edib, onun dinini qəbul edəcəyəm. İş ondadır ki, əgər sən ilanların padşahını mənim əlimə

versən, onda bütün dünya əlimizdə olacaqdır, bütün kainat bizə tabe olacaqdır və bizim ömrümüz o qədər uzanacaqdır ki, Allahın rəsulu - Allah ona yar olsun! - Məhəmmədi görmək nəsibimiz olacaqdır».

Allahın rəsulunu, sevimli bəndəsi Məhəmmədi - Allahın salamları olsun ona! - görmək, onun inancını qəbul etmək eşqi Bəluqiyanı elə alışdırıb-yandırımışdı ki, o tərəddüd etmədən buna razılıq verdi: «İxtiyar sahibisən, əmrə müntəzirəm». Əffan çox sevindi və Bəluqiyanın əlindən tutub, şərt kəsdi və ona heç vaxt xəyanət etməyəcəyinə and içdi. Bundan sonra o buyurdu ki, bir sandıq və iki sürahi hazırlasınlar. Sürahilərdən birini şərabla, ikincisini isə süd ilə doldursunlar. Əffan sürahiləri sandığa qoyub, sandığı da çiyninə atıb, Bəluqiya ilə yola çıxdı. Onlar ilanlar padşahının adasına gəlib çatanda Əffan sandığın içindəki şərab dolu və süd dolu sürahilərin ağzını açıb, sandığı da görünən bir yerə qoydu. Özü isə Bəluqiya ilə bir xəlvət yerdə gizləndi. Çox keçmədi ilanların padşahı göründü. O sürünüb sandığa yaxınlaşdı, sandığa girib şərab dolu sürahini gördü və udum-udum ondan içməyə başladı. İlan məst olub yıxılanacan şərabdan içdi. Onda Əffan yavaşca sandığa yaxınlaşıb, qapağını örtdü və qıfılla kilidləyib Bəluqiyaya dedi: «Şükürlər olsun uca Allaha! Biz məqsədimizə nail olduq!

Nə qədər ki işlərimiz uğurla gedir,
Bundan istifadə edib yolumuzu maneəsiz davam etməliyik.

Bundan sonra Əffan sandığı çiyninə atdı və onlar yollarına davam etdilər. Onlar hər kolun, hər ağacın, hər canlının, cansızın, hər daşın, təpənin yanından keçdikcə bu sözləri eşidirdilər: «Mən sizə gərək ola bilərəm», «Mən filan işdə sizə yardımçı ola bilərəm», «Mən filan xüsusiyyətlərə malikəm», «Mən sizə ziyan vura bilərəm».

Nəhayət, onlar bir yekə ağaca çatdılar. Ağac insan dilində dilləndi: «Ey Əffan, kim mənim yağımdan yığıb ayağının altına çəksə, Allahın izni ilə ayaqlarını islatmadan sudan keçə bilər». Əffan qışqırdı: «Şükürlər olsun!

Mən illərlə can atdığım məqsədimə nəhayət yetişdim.

Nəhayət, mən axtardığımı tapdım. Bacardığın qədər bu ağacın budaqlarından, yarpaqlarından, qabığından yığ. Bəluqiya bir xeyli çör-çöp, budaq, qabıq, yarpaq yığdı. Əffan əbasının ətəyini kəmərinə bərkidib, yığılanları xırdalayıb, ətəyinə tökdü. Sonra da onları sıxıb yağını çıxardı. O, Bəluqiyaya dedi: «İndi biz istədiyimizi əldə etdik, artıq ilanların padşahını da azad edə bilərik». O bu sözləri deyib sandığın qapağını açdı və ilanların padşahına dedi: «Qurd quzudan istədiyini aldı, biz də səndən istədiyimizi aldıq, indi azad ola bilərsən». İlanların padşahı qıvrılıb sandıqdan çıxdı və dedi: «Ey Adəm övladları, siz nə qədər amansız və eyni zamanda cəsarətli varlıqsınız. Amma siz yenə də axtardığınızı tapa bilməyəcəksiniz».

Daha sonra Əffan içində şərabla süd olan sürahiləri götürüb, tərtəmiz yuyub quruladı və sonra onları sıxdığı yağla doldurdu. Bəluqiya ilə Əffan ayaqlarına o yağdan çəkib yola düşdülər. Onlar dənizə çatanda da dayanmadılar, yollarına davam etdilər və suyun üstündən quruda gedirmiş kimi keçdilər, çünki ayaqlarının altına o sehrli ağacın yağından çəkmişdilər. Allahın izni ilə onlar on günlük məsafəni bir günə qət edirdilər.

Bir neçə dənizdən keçib, onlar, nəhayət, yeddinci dənizə çatdılar. Bu dənizin ortasında bir yekə dağ ucalırdı. Bu dağın zirvəsi göylərdə-buludların arasında itirdi. Onlar bu dağın başına çıxanda bu dağdan daha yekə, uca bir dağ gördülər. Bu dağı heç kəs heç vaxt görməmişdir, hətta onun haqqında eşidən də olmamışdır.

Hələ bir insan belə bu dağı görməmişdir,
Onun zirvəsi göylərə dirənmişdir.

Onlar bütün güclərini səfərbər edib bu dağın da zirvəsinə qalxdılar. Ora qalxdıqda gördülər ki, buranın torpağı, qumu müşk, qızıl tozu, ənbər və zəfəran qarışığından ibarətdir. Dağın üzərində böyük bir bulud durmuşdur. Onlar bir qədər irəli gedib, bir böyük mağaraya rast gəldilər.

Əffan Bəluqiyaya dedi: «Biz bu mağaraya girməliyik». Onlar mağaranın içində sonsuz sayda aslan və ilan gördülər. Aslanlar onları görüb təzim etdilər, ilanlar isə künclərə çəkildilər ki, onlara yol

açsınlar. Bir az da irəlilədikdə onlar qiymətli daşlar, ləl, incilərlə işlənmiş təmiz qızıldan bir taxt gördülər. Bu taxtın üstündə dillə təsvir edilə bilməyəcək gözəlliyə, nura malik bir gənc əyləşmişdir. O bütün ətrafa nur saçırdı, ənbər qoxusu yayırdı. Ayaqlarının altında isə bir əjdaha oturmuşdur. Olanlara heyran qalmış Bəluqiya Əffandan soruşdu: «Taxtın üstündə yatmış bu gənc kimdir?» Əffan qürurla cavab verdi: «Oğlum, biz bura, bu insanı görmək naminə bütün əzab-əziyyətlərə dözdük. Bu, - Allah ona yar olsun! - Süleyman peyğəmbərdir! Onlar Süleyman peyğəmbərə bir qədər yaxınlaşanda barmağındakı üstündə ali adlar yazılmış möhürü olan yaqut üzüyü gördülər. Bu möhür ay kimi işıq saçırdı. Üzüyü görən Əffan sevincindən qışqırdı: «Ey Bəluqiya, biz bu üzüyə yiyələnə bilsək, bütün dünya canlı və cansız aləmi ilə: insanlar, pərilər, cinlər, suda, quruda, havada yaşayanlar, od, su, hava - hər şey bizə tabe olacaqdır, bizim bütün istəklərimiz yerinə yetəcəkdir».

Bəluqiya qışqırdı: «Yox, bu mümkün deyildir. Süleyman peyğəmbər - Allahın salamları olsun ona! - Allah-təaladan onun hökmdarlığının ondan sonra heç kəsə keçməməsini rica etmişdir. Allah-təala Süleyman peyğəmbərin istəyini qəbul etmişdir. Süleyman peyğəmbər demişdir: «Ey hər şeyə qadir Allah! Mənə elə bir səltənət ver ki, məndən sonra heç kəsə nəsib olmasın. Sən hər şeyi verənsən!» Ona görə sən də boş xülyalara düşmə. Mənə elə gəlir ki, geri qayıtmağımız məsləhətdir, çünki sənə mənsub olmayan, sənə aid olmayan şeyin dalınca düşmək mənasız işdir». Əffan dedi: «Sən sus və kənardan bax. Mən Allah-təalanın ən yüksək adlarından birini bilirəm və onun sayəsində bütün istədiklərimə nail ola bilərəm». Bəluqiya dedi: «Mən sənə öz fikrimi dedim, indi qərar sənindir, necə istəyirsən, elə et». Bəluqiya bunu deyib bir tərəfdə dayandı. Əffan Süleymanın barmağındakı üzüyü çıxarmağa cəhd elədi, amma taxtın altında yatmış əjdaha qımıldanıb, insan dilində dedi: «Ey Əffan, get, sənə mənsub olmayan şeyə yiyələnmək fikrindən daşın. Sən ağıllı, müdrik, bacarıqlı adamsan və çox biliyə yiyələnib, çox şey əldə etmisən, gəl ağlına qulaq as, bu işdən əl çək və evinə qayıt.

Taleyinə boyun əy, qaçma mümkün olmayana
Qoyma yersiz hikkən səni salsın öz tilovuna
Ağılla yol axtar, seç özünə,
Allahın qəzəbinə nahaq yerə gəlmə.

Onu bil ki, heç vaxt bizə qalib gələ bilməyəcəksən, Biz Allahın köməkliyi ilə həmişə səni üstələyəcəyik. Bəxtinə, taleyinə boyun əy və evinə qayıt».

Əffan əjdahanın dediklərinə, xəbərdarlıqlarına əhəmiyyət vermirdi. O nəyin bahasına olursa olsun, istədiyinə nail olmaq niyyətində idi. Əffan taxta doğru addımladı. Bunu görən əjdaha od püskürdü, dənizin üstündə sanki möhtəşəm bir şimşək çaxdı, hər tərəfi alov bürüdü, onda Əffan uca Allahın ən ali adını çəkdi. Od-alov, şimşək-hamısı həmin dəqiqə söndü. Əffan daha da cəsarətləndi və bir az da irəli getdi. Bu dəfə də əjdaha od püskürdü və yenə də Əffan Allah-təalanın ən ali adını çəkməklə oddan salamat qurtardı. Bu vəziyyət dəfələrlə təkrar olundu və hər dəfə Əffan canını qurtara bildi. Əffan artıq taxta lap yaxınlaşmışdır, bu dəfə əjdaha bütün gücünü toplayıb elə bir od püskürdü ki, oradan kiminsə qurtulacağı mümkünsüz idi, amma Əffan yenə də Allahın ən ali adını çəkməklə qurtula bildi. Əffan artıq Süleymana lap yaxınlaşmışdır, o, əlini uzadıb Süleymanın barmağındakı üzüyü də yarıya qədər çıxarmışdır ki, hər şeyə qadir, hər şeyi görən, bilən, uca Allah Cəbrailə Əffanın törətdiyi küfrlərə son qoymasını buyurdu.

Cəbrail bir göz qırpımında yer üzünə endi. O elə bir nərə çəkdi ki, yerin üzü titrədi, dağlar yerindən oynadı, dənizin dalğaları ilə göydəki şimşəklər bir-birinə qarışdı, yer üzü lərzəyə gəldi. Cəbrailin - Allah ona yar olsun! - nərəsindən Əffan və Bəluqiya huşlarını itirdilər. Bu zaman əjdaha Əffanın üstünə elə bir od püskürdü ki, Əffan bir saniyədə külə döndü. Bəluqiya özünə gəlib gözünü açanda gördü ki, Əffandan ancaq bir yığım kül qalmışdır. O dedi:

«Allahın əmrinə zidd gedən nadan
Allahdan layiq olduğu cəzanı aldı».

Bəluqiya Əffandan eşitdiyi o ali adı çəkən kimi od-alov söndü. Bundan sonra Cəbrail -Allah ona yar olsun! - gözəl ger-geyimli, yaraşıqlı gənc cildində Bəluqiyanın qarşısına keçib dedi: «Ey Bəluqiya, sən bu kafirin, nadanın öz təkəbbürü nəticəsində necə məhv olduğunun şahidi oldun. Qoy bu sənə görk olsun. Qiyamətdən əvvəl zühur edəcək peyğəmbərin əmrinə qarşı heç vaxt çıxma, çünki əks halda səni də bu aqibət gözləyəcəkdir».

Bəluqiya dedi: «Allah səni qorusun! Sən de görüm, kimsən, adın nədir?» Cəbrail cavab verdi: «Mən Cəbrailəm - Allah-təalanın etibarlı mələyiyəm». Bəluqiya dedi: «Ey Cəbrail, ey Allahın etibarlı mələyi, bir Allah şahiddir ki, mənim sonuncu peyğəmbəri axtarmaq üçün çıxdığım səfərdə bir pis niyyətim olmamışdır. Mən, sadəcə, onunla görüşüb, onun dinini qəbul edib, onun ardıcıllarından olmaq istəyirdim. Mənim başqa bir niyyətim olmayıb və burada baş verənlərin heç birində mənim günahım yoxdur». Cəbrail dedi: «Bəli, məhz buna görə sən Əffanla bir yerdə yanıb kül olmadın, oddan qurtuldun». Sonra Cəbrail Bəluqiyaya geriyə aparan yolu göstərib qeyb oldu.

Bəluqiya hörmət-izzətlə Süleyman peyğəmbərin qarşısında təzim edib mağaradan çıxdı və o yerləri tərk etdi. O, sahilə çatdıqda ayaqlarının altına yağdan çəkib, tez bir şəkildə anasına yetişmək niyyəti ilə suyun üzü ilə irəlilədi, amma təsadüf belə gətirdi ki, Bəluqiya yolu azdı və tam əks tərəfə getdi. Bəluqiya gəlib Yeddinci Dənizə yetişdi.

O, uzun müddət suyun üzü ilə bütün ətrafı dolaşdı, gəzdi və nəhayət, bir adaya gəlib çıxdı. Adanı gəzib-dolaşan Bəluqiya buranın bir cənnət guşəsi olduğunu gördü. Burada hər cür naz-nemət var idi. Çəmənlikdə otların arasında zəfəran, ağacların budaqlarından alma, armud, nar, xurma, üzüm və başqa, adamın ağlına gələn və gəlməyən meyvələr sallanırdı. Bəluqiya neçə gün idi ki, ac idi. O, bu meyvələrdən bol-bol yeməyə başladı və yeyə-yeyə bu sözləri təkrar edirdi: «Yox, bu cənnət guşəsini tərk edib getmək olmaz». Elə ki o, doyub rahat nəfəs aldı, qeybdən bir səs gəldi: «Ey kafir, məhsulumuzdan çox yemə».

Bəluqiya təəccüb etdi və ətrafa baxanda dişlərinəcən silahlanmış sonsuz sayda atlı gördü. Bu atlılar qılınclarını çıxarıb bir-birləri ilə

savaşır və bir-birlərini amansızcasına doğrayıb öldürürdülər. Bəluqiya o saat Allahın o ali adını çəkdi. Bu savaşan atlılar Allahın adını eşidən kimi dayandılar və hamısı bir ağızdan: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah», dedilər.

Atlılar Bəluqiyaya yaxınlaşdılar və soruşdular: «Sən kimsən? Buralarda nə gəzirsən?» Bəluqiya cavab verdi: «Mən Adəm övladıyam, İsrail qövmündənəm, adım Bəluqiyadır. Mən Allahın sevimlisi Məhəmmədin-Allah ona yar olsun! Allahın salamları olsun ona!- sorağı ilə gəlib təsadüfən bura çıxmışam».

Atlılar dedilər: «Adəmi və Adəm övladlarını tanıyırıq, amma İsrail qövmündən məlumatımız yoxdur». Bəluqiya dedi: «İndi siz deyin, hansı xalqdan, hansı qəbilədənsiniz?» Atlılar cavab verdilər: «Biz mömin pərilərik, müsəlmanıq və sənin axtardığın Məhəmmədin tərəfdarlarıyıq. Biz indicə kafir pərilərlə savaşırdıq. Düşmənlərimiz həddindən artıq çox idi, onlar az qalmışdır ki, bizə qalib gəlsinlər, amma uca Allah bizə kömək üçün mələkləri göndərdi və biz qələbə çala bildik. Biz daima bu adada yaşayırıq, bu ada bizə mənsubdur». Bəluqiya dedi: «Mən də sizin kimi müsəlmanam və buraya təsadüfən gəlib çıxmışam, bura çox ürəyimcədir, izin versəydiniz, mən də sizinlə burada yaşayardm». Pərilər cavab verdilər: «Sən burada yaşaya bilməzsən, biz sənə yolu göstərəcəyik ki, asanlıqla evinə qayıda biləsən».

Başqa bir mənbədə Bəluqiyanın adada qalmaq istəyinin müqabilində pərilərin verdiyi cavab bir qədər fərqlidir. Belə ki, Bəluqiya adada qalmaq istədiyini deyəndə pərilər ona demişlər: «Biz pərilərik, əvvəllər səmada yaşayırdıq, sonra uca Allah bizi buraya kafir pərilərlə, hurilərlə savaşmaq üçün göndərdi. Biz daima burada yaşayır və daima kafirlərlə vuruşuruq. Bizim onlarla savaşımız qiyamətəcən davam edəcəkdir. Bizim öz hökmdarımız var, hamımız müsəlmanıq. Allah-təala bizə qiyamət gününə qədər ömür vermişdir». Bəluqiya soruşmuşdu: «Sizin hökmdarınızın adı nədir? O haradadır?» Pərilər demişdirlər: «Onun adı Səcrayıldır və özü isə, budur». Bəluqiya hökmdara yaxınlaşıb təzim etmiş, onu salamlamış və soruşmuşdur: «Sən mənə başa sal görüm, siz pərilər haradan, nədən yaranırsınız. Bilirəm ki, iki hissəyə bölünürsünüz; bir hissəniz mömin müsəlman-

lardır, digər hissəniz isə kafirlər. Mən bilmək istəyirəm ki, hər şeyə qadir Allah sizi necə yaratmışdır?».

Pərilərin padşahı demişdir: «Hər şeyə qadir uca Allah ilk olaraq yeddi qapısı olan cəhənnəmi yaratmışdır. Sonra O, oddan iki varlıq yaratmışdır. Onlardan birinin adını Xalid, digərinin adını Salid qoymuşdur. O, Xalidi aslan, Salidi isə dişi qurd cildində yaratmışdır. Xalid və Salid çox nəhəng idilər. Xalidin quyruğu əqrəb quyruğu kimi idi, Salidin quyruğu isə ilan quyruğu kimi. Bir gün Allah onlara buyurmuşdur ki, möhkəm silkələnsinlər. Onlar silkələndikcə minlərlə, yüz minlərlə əqrəb, ilan tökülmüşdür. Bəli, cəhənnəmdə olan ilan, əqrəblərin hamısı Xalidlə Salidin quyruqlarından tökülmüşdür. Sonra Allahın buyruğu ilə aslan Xalid dişi qurd Salidlə evlənir. Onların yeddi erkək və yeddi dişi balaları olur. Allah-təala buyurur ki, bu erkək və dişi balaları bir-birləri ilə evlənsinlər. Allah-təala Adəmi yaradanda altı erkək ona təzim edir, amma yeddincisi, adı İblis olan təzim etməkdən boyun qaçırır. Onda hər şeyə qadir Allah onu lənətləyir. İblisin digər altı qardaşının adları belə idi: Haris, Yəksəh, Müzir, Əbumazə, Raviə və Saris. Bax bu altı erkəkdən törəyənlər pərilərdir, İblisdən isə divlər, şeytanlar yaranmışdır».

Pərilərin padşahını diqqətlə dinləyib, hər bir şeyi yaddaşına həkk edən Bəluqiya dedi: «İndi isə rica edirəm, mənə evimə gedən yolu göstərin». Padşah dedi: «Bizim atlar insan övladını öz yaxınlığına buraxmırlar, onlara tabe olmurlar, amma biz bir çarə tapıb onlardan birini sənə tabe edəcəyik ki, səni evinə çatdırsın».

Hökmdar bunu deyib pərilərdən birinə gedib münasib bir at gətirməyi əmr etdi. Çox keçmədi həmin pəri dənizdən gözəl bir atla çıxdı. O, Bəluqiyaya dedi: «Atın başına örpək at ki, onu kim minəcəyini bilməsin». Sonra dedi: «İndi isə Allahın adı ilə min ata. Yadda saxla, sən atdan düşməməlisən, çünki düşsən, sonra minə bilməyəcəksən. Elə etməlisən ki, at üstündə pəri deyil, insanın olduğunu anlamasın. Əllərinlə, ayaqlarınla ata toxunma. Heç bir halda atdan düşmə, yüyəndən, yəhərdən möhkəm yapış, amma atın özünə toxunma, Allahın adlarını zikr edə-edə yolunu get».

Bəluqiya ona verilmiş ata baxıb gördü ki, atın yəhəri, yüyəni, üzəngisi-hər şeyi təmiz qızıl ilə işlənmişdir. O, hökmdara minnətdarlığını bildirib, bütün pərilərlə halallaşıb, atın belinə mindi. O elə etdi ki, at belinə minənin pəri yox, insan olduğunu başa düşməsin. Pəri Bəluqiyaya dedi: «Onu qamçı ilə vurma, onsuz da səni bir göz qırpımında mənzilbaşına çatdıracaqdır. Elə ki qarşı sahilə çatdın, bizim səltənətimizin qurtardığı yerdə bizə mənsub qülləli bir qala görəcəksən. O qalada bir qoca ilə bir gənc yaşayır. O qoca bizimkilərdəndir, gənc isə onun köməkçisidir. Onlara çatanda atı verərsən, onlar isə sənə yolu göstərəcəklər».

Bəluqiya verilən tövsiyələrin hamısını yadında saxlayaraq yola düşdü. O, yol uzunu Allahın adlarını zikr edə-edə getdi. Bəluqiya pərilərin adasını tərk edəndə sübh namazı saatı idi, axşam namazı saatında isə o artıq qülləli qalaya çatmışdır. Bəluqiya qalaya yaxınlaşıb atı oradakı qoca ilə gəncə təhvil verdi. Qoca atı tanıdı, onu bir dirəyə bağlayıb Bəluqiyaya dedi: «Sən kimsən, buralara necə gəlib çıxmısan?» Bəluqiya hər şeyi qocaya danışdıqdan sonra qoca dedi: «Sən pərilərin adasında bu ata nə zaman minmisən, onları nə zaman tərk edib və hansı müddətə buraya çatmısan?» Bəluqiya dedi: «Mən ata səhər-sübh namazı vaxtında minmişəm». Qoca narazı halda dedi: «Atı çox qovmusan, əldən salmısan». Bəluqiya dedi: «Mən ona barmağımla belə toxunmamışam, o öz sürəti ilə çapıb, mən bura necə gəlib çatdığımı heç hiss etmədim»

Qoca dedi: «O səni ildırım sürəti ilə gətirmişdir. Buna səbəb sənin, yəqin ki, yol uzunu Allahın adlarını zikr eləməyin olmuşdur. Sən zikr etdiyin üçün o belə sürətlə çapıb, yoxsa Adəm övladı olduğunu bilsə idi, heç vaxt belə tələsib, sənin istəyinə əməl etməzdi». Atın yəhər-yüyənini açanda Bəluqiya gördü ki, atın quş qanadı kimi qanadları vardır. Bu qanadların bir-iki lələyi sınmış və onların dibində bir neçə damcı tər parlayırdı. Bunların hamısı atın sürətlə çapmasının nəticəsi idi.

Qoca üzünü Bəluqiyaya tutub soruşdu: «Necə düşünürsən, bu gün qət etdiyiniz məsafə neçə fərsəng olar?» Bəluqiya dedi: Mənim hesabıma görə, beş-altı fərsəng olmalıdır. Amma doğrusunu ancaq

uca Allah bilər». Qoca Bəluqiyanın cavabına ürəkdən gülüb dedi: «Ay Bəluqiya, and olsun hər şeyi görən, hər şeyi bilən, bütün sirlərdən xəbərdar olan uca Allaha, sən bu gün yüz iyirmi günlük yol gəlmisən».

Bəluqiya qocanın dediklərinə məəttəl qalmışdır. Sonra o, qocadan yolu hansı səmtdə davam edəcəyini soruşdu. Qoca ona lazım olan yolu göstərdi, ona öz tövsiyələrini verdi. Bəluqiya onlarla halallaşıb yola düşdü. Bəluqiya bir neçə gün yol getdikdən sonra bir məskənə gəlib çıxdı. Burada mələklər yaşayırdı. Mələklərdən biri bir qolunu Məşriqə, o biri qolunu Məğribə tərəf uzadaraq fasiləsiz deyirdi: «La ilahə illAllah Məhəmmədin Rəsulullah». Bəluqiya hörmət-izzətlə mələklə salamlaşdı. Mələk onun salamını alaraq soruşdu: «Ey insan övladı, kimsən, adın nədir, haralardan gəlirsən?» Bəluqiya cavab verdi: «Mən Adəm övladıyam, adım Bəluqiyadır, sənin iman gətirib, ibadət etdiyin o müqəddəs Məhəmmədi - Allah ona yar olsun! Allah onu pənahında saxlasın! - tapmaq məqsədi ilə səfərə çıxmışam. İndi isə səni and verirəm Məhəmmədin müqəddəs adına, de görüm, sən kimsən, adın nədir?»

Mələk ehtiramla cavab verdi: «Adım Bərxaildir, özüm isə Ayın, Günəşin, işığın, zülmətin keşikçisiyəm. Sağ əlimdə gündüzün işığını, sol əlimdə gecənin zülmətini saxlayıram». Bəluqiya dedi: «Hə, mən fikir verdim ki, sən əllərin əks istiqamətlərə uzadılmış vəziyyətdə durmusan». Bərxail dedi: «Bəli, elədir, əgər mən sağ əlimi çəksəm, göyün üzü zülmətə bürünər və bir də heç vaxt gündüz olmaz». Mələyin boynundan, iki qolunun arasında, üzərində qara və ağ xətlər çəkilmiş bir lövhə asılmışdı. Bu lövhə dayanmadan fırlanırdı. Bəluqiya mələkdən soruşdu: «Bu nə lövhədir və onun üzərindəki xətlər nə deməkdir?» Mələk dedi: «Uca Allah bu, üstündə ağ, qara xətlər çəkilmiş lövhəni yaradıb mənim qollarımın arasına ona görə asmışdır ki, mən gecə ilə gündüzün, fəsillərin arasındakı tarazlığı itirməyim. Mən daima o lövhəyə baxıram və görəndə ki, işıqlı günlər azalmışdır, gecələri qısaldıram, görəndə ki, gecələr azalmışdır, onda, əksinə, gündüzləri qısaldıram. Bunun sayəsində günlər ya uzanır, ya da qısalır. Yayda günün uzun, qışda gecənin uzun olması da bununla bağlıdır».

Bəluqiya mələyi diqqətlə dinləyib, dediklərini yadında saxladı və yoluna davam etdi. Bir qədər getdikdən sonra o, bir başqa mələyə rast gəldi. Bu mələk isə bir əli göydə, bir əli yerdə fasiləsiz: «La ilahə illAllah Məhəmmədin Rəsulullah» ifadəsini deyirdi.

Bəluqiya ehtiramla salamlaşdı. Mələk onun salamını alıb dedi: «Ey Allahın məxluqu, sən kimsən, adın nədir və haradan gəlirsən?» Bəluqiya dedi: «Mən Adəm övladıyam, adım Bəluqiyadır, Məhəmməd peyğəmbərin sorağı ilə dünyanı gəzirəm. Bəs sən kimsən, sənin adın nədir?» Mələk dedi: «Mənim adım Səhaildir, mən küləklərin, dəniz sularının qoruqçusuyam». Bəluqiya soruşdu: «Nəyə görə sənin bir əlin göyə, o birisi isə yerə uzanır?» Səhail cavab verdi: «Uca Allah küləyi və dəniz sularını mənə tapşırmışdır. Mən sağ əlimlə göyü, sol əlimlə dənizləri tutub saxlayıram. Mən əlimi göydən çəksəm, elə bir külək, qasırğa qalxar ki, yer üzündə olanların hamısı yerlə yeksan olar, daş-daş üstə qalmaz, əgər sol əlimi dənizdən çəksəm, onda dənizdə elə bir tufan qalxar ki, yer üzü suyun altında qalar».

Bəluqiya bu mələkdən eşitdiklərini də yadında saxlayıb, onunla da salamatlaşıb yoluna davam etdi. Bir qədər yol getdikdən sonra Bəluqiya bir məskənə çatdı. Orada dörd nəhəng mələk yaşayırdı. Mələklərdən birinin başı adam başı idi, digərinin aslan, üçüncüsünün leşlə qidalanan şahin quşunun və dördüncüsünün də inək başı idi.

İnsan başlı mələk Allaha yalvarırdı: «Ey Rəhim və Rəhman Allah! Sən müsəlmanları qoru, onları öz pənahında saxla, möminləri öz qəzəbindən qoru. Ey Allah, sən onları sapınmaqdan, azmaqdan, qışın sərt şaxtasından, yayın yandırıcı istisindən qoru. Onları Məhəmməd peyğəmbərin - Allah ona yar olsun! Allahın salamı olsun ona! – himayəsindən məhrum etmə. Onları verdikləri şəhadətin xətrinə qoru: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah».

İkinci, aslan başlı mələk əllərini göyə açıb yalvarırdı: «Ey böyük Allah, sən bütün heyvanları, yerdəki, göydəki, sudakı heyvanların hamısını öz pənahında saxla, zəifini də, güclüsünü də, vəhşisini də, yırtıcısını da hifz elə. Onları aclıqdan, susuzluqdan, şaxtadan, yandırıcı istidən, təbii fəlakətlərdən qoru. Onları Məhəmməd peyğəmbərin - Allah ona yar olsun! - himayəsindən məhrum etmə!»

Üçüncü, başı şahin başı olan mələk belə dua edirdi: «Ey böyük Allah sən bütün məxluqatı hifz elə, onları düşməndən qoru, qışın şaxtasından, yayın qızmar istisindən hifz elə. Onları Məhəmməd peyğəmbərin - Allah ona yar olsun! - himayəsindən məhrum etmə!»

Dördüncü, inək başlı mələk yalvarırdı: «Ey uca Allah, sən özün ev heyvanlarını, süd verən, yun verən, yük daşıyan heyvanları öz pənahında saxla. Onları qışın şaxtasından, yayın qızmar günəşindən qoru. Sən onların sahiblərinin ürəyinə rəhm ver ki, onlarla pis rəftar etməsinlər. Sən onlara bərəkət, güc-qüvvə ver ki, insanların yanında xəcil qalmasınlar. Sən onları Məhəmməd peyğəmbərin himayəsindən məhrum etmə».

Bunların hamısını yadında saxlayaraq Bəluqiya onlarla da halallaşıb yoluna davam etdi. Az getdi, çox dayandı, çox getdi az dayandı, gəlib Qaf dağına çatdı. O, bütün yeri yekə bir halqaya almış böyük bir dağ gördü. Bütün dünya bu dağın yanında bir balaca noxud kimi görünürdü. Qaf dağı zümrüddən idi. Bəziləri isə deyir ki, Qaf dağı bir bütöv xrizolitdən yaranmışdır və səma məhz ona görə mavidir. Məhz buna görə Qaf dağının adı müqəddəs «Quran»da da çəkilir: «Ey Qaf, and olsun müqəddəs Qurana!»

Bəluqiya baxıb gördü ki, dağın dibində bir mələk oturmuşdur. Bəluqiya mələyə yaxınlaşıb salamlaşdı. Mələk onun salamını alıb soruşdu: «Ey Allahın məxluqu, sən kimsən?» Bəluqiya cavab verdi: «Mən Allah qulu, Adəm övladı, insanam». Mələk soruşdu: «Yolun haradır?» Bəluqiya dedi: «Evimdən çıxanda məqsədim Allahın seçilmiş bəndəsi Məhəmmədi tapmaq idi, amma bütün dünyanı dolaşıb onu tapa bilmədim. İndi isə evə qayıtmaq istəyirəm, yolu azmışam, heç bilmirəm, hansı tərəfə gedirəm».

Mələk Məhəmmədin - Allah ona yar olsun! Allahın salamları olsun ona! - adını eşidən kimi dedi: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah». Bəluqiya dedi: «De, görüm, bəs sən kimsən, adın nədir, nə ilə məşğul olursan, burada nə edirsən?» Mələk cavab verdi: «Adım Hərkayıldır, hər şeyə qadir, uca Allah məni bu dağın keşikçisi təyin etmişdir. Yer üzünün bütün damarları mənim əlimdədir. Dünyada elə bir kənd, elə bir şəhər, elə bir meşə, elə bir səhra yox-

dur ki, bu dağ ilə bağlı olmasın. Allah-təala bir yerə quraqlıq göndərmək istədikdə mənə o səmtə gedən damarları bağlamağı əmr edir. Onda o səmtdə olan bütün çayların, çeşmələrin, bulaqların suyu kəsilir, həmin yerlərin bütün bitkiləri quruyur, canlıları susuzluqdan məhv olur. Allah-təala əgər yer üzünün bir hissəsindəki insanları qorxudub, cəzalandırmaq istəyirsə, onda mənə əmr edir ki, o tərəfin damarlarını silkələyim. Onda orada zəlzələ baş verir. Bunun nəticəsidir ki, yer üzünün bir tərəfi sakit olanda, digər tərəfində təlatüm olur. Allah-təala günahkarları, təqsiri olanları, nadan, nankorları cəzalandırmaq istəyəndə mənə lazım olan damarları, rişələri çəkməyi əmr edir. Onda həmin insanlar darlığa düşürlər, çabalayırlar».

Bəluqiya soruşdu: «Ey uca Allahın qulu, bura haradır?» Mələk cavab verdi: «Bura Qaf dağının ətəyidir». Bəluqiya soruşdu: «Bəs bu Qaf dağının arxasında nə var?» Mələk cavab verdi: «Bu Qaf dağının o tərəfində qırx belə ərazi vardır. O qırx ərazinin hər biri dörd yüz yerə bölünür. Bu dörd yüz hissənin hər biri özündən əvvəlkindən dörd yüz dəfə böyükdür. O qırx ərazinin hər biri bizim yaşadığımız ərazidən qırx dəfə böyükdür. Orada zülmət yoxdur, ora gecə düşmür, həmişə işıqlı olur, mütəmadi günəşin şüaları hər tərəfə səpələnir. Oranın torpağı qızıldan, əksər əşyaları isə günəş şüalarından toxunmadır. Oranın sakinləri mələklərdir. Orada insan, şeytan, iblis yoxdur. Onlar gecə-gündüz təkrar edirlər: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah». Qadir Allah onları yaradılışdan kamil yaratmış və onlar bu kəlmələri ölülərin diriləcəyi qiyamət gününə qədər mütəmadi təkrar deyəcəklər. Bəluqiya soruşdu: «Bəs o aləmlərdən sonra nə vardır?» Mələk dedi: «Ondan başqa onu bilən olmaz.

Üzümüzə bağlı olan o sirli dünya,
Ancaq Allah qarşısında açıq-aşkar olur.

O qırx aləmin arxasında nələrin olduğundan Allahdan başqa heç kəsin xəbəri yoxdur». Bu dəfə Bəluqiya mələkdən soruşdu: «İndi sən mənə de, görüm bu Qaf dağı nəyin üstündədir?» Mələk dedi: «Bu dağ bir nəhəng öküzün buynuzları arasına yerləşdirilmişdir. Bu öküzün ölçüsünü min illik yolun uzunluğu ilə müqayisə etmək olar».

Bəluqiya yenə soruşdu: «Ey mərhəmətli mələk, de görüm yer üzü və dənizlər neçə hissədən ibarətdir?» Mələk dedi: «Yer üzü də, dənizlər də, hər biri yeddi təbəqədən ibarətdir». Bəluqiya soruşdu: «Yaxşı, Allah bəs yerin dibində-yeddinci qatındakı cəhənnəmi necə yaratmışdır?» Mələk dedi: «Allah-təala cəhənnəmi gildən düzəltmişdir və əmr etmişdir ki, onu min il qalasınlar. Ona görə o, qıpqırmızı qızarmışdır, sonra o, cəhənnəmin min il də yandırılmasını buyurmuşdur. Bunun nəticəsində o ağarmışdır, sonra isə cəhənnəmin qapqara rəng alanacan yanmaqda davam etməsini buyurmuşdur. Oranı zil qara olanacan yandırmışdılar. Beləliklə, cəhənnəm zülmətə çevrildi və bu günəcən də zülmət olaraq qalır. Sonra Allah Kələk adında nəhəng bir ilan yaratdı və ona dedi: «Sənə cəhənnəmi qorumağı tapşırıram». İlan cavab vermişdir: «Əmrə müntəzirəm!» Onda Allah ilana əmr etmişdir ki, ağzını açsın. İlan ağzını açanda Allah mələklərə əmr etmişdir ki, cəhənnəmi ilanın ağzına yerləşdirsinlər. Mələklər tapşırığı yerinə yetirdikdən sonra Allah ilana ağzını bağlayıb və otuz min il müddətində nəfəs almamağı əmr etmişdir. O gündən etibarən həmin ilan qıvrılıb bir yerdə qalmışdır. O ilan elə bir ölçüyə malikdir ki, onu bütövlükdə ancaq Allah görməyə qadirdir. Belə olur ki, otuz il tərpənib-qımıldanmadan bir tərəfdə qalmış ilan artıq dözməyib Allahın izni olmadan nəfəs alır. Bunu görən mələk yekə bir taxta götürüb ilanı başından vurmaq istəyirdi ki, ilan yalvardı: «Yalvarıram, rəhm et. Bilirəm, günahkaram, Allahın izni olmadan nəfəs almışam. Bilirəm ki, Allah səni üstümdə nəzarətçi təyin etmişdir və səndən izin almadan hərəkət edə bilməzdim, amma etdim, bu səhvə yol verdim. Sən böyüklük et, mənə rəhm et». Mələk ilanı bağışlamaq istəmirdi və taxtanı qaldırdı ki, başından vursun, bu vaxt ilan başını göyə qaldırıb gördü ki, göy üzündə yazılmışdır: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah və Əliyən vəliyullah». Bunları görən ilan yalvarmışdır: «Səni and verirəm Allahın adının yanında çəkilən bu iki müqəddəs ada - Məhəmmədə və Əliyə - mənə yazığın gəlsin, mənə rəhm et». Həmin an mələyə Allah-təaladan səda gəldi: «İndi ki o, mənim rəsulumun və vəlimin adlarına sığınıb rəhm diləyirsə, dəymə ona və de ki, ona ildə iki dəfə nəfəs almağa izin verirəm». Bundan

sonra ilana nəzarət edən mələk ildə iki dəfə icazə verir ki, ilan nəfəs alsın. Qışın şaxtası, yayın qızmar istisi də onun nəfəsinə bağlıdır. İlan nəfəs alanda payız, qış olur, küləklər əsir, yağışlar yağır, hər yerə şaxta düşür, nəfəs verəndə isə yaz, yay olur, təbiət oyanır, hər tərəfə isti düşür. İndi:hal-hazırda cəhənnəm ilanın ağzında yerin dibində-yeddinci qatındadır və o ancaq qiyamət günü yerindən tərpənəcəkdir. Qiyamət günü Allah uclarına yetmiş min zəncir bərkidilmiş yetmiş min halqanı əllərində tutmuş, Onun əmri ilə hər biri yerin yeddi qübbəsini bütün canlı və cansız aləmi ilə bir yerdə yeddi qatını udmağa qadir olan mələklərə əmr edəcək ki, cəhənnəmi ilanın ağzından çıxarsınlar».

Bəluqiya Qaf dağının qarşısında heyrətdən donub qalmışdır. Nəhayət, Bəluqiya Qaf dağı ilə də salamatlaşıb yoluna davam etdi. Bir qədər yol getdikdən sonra o, yenə də bir başqa mələyə rast gəldi. Bu mələk də çox nəhəng idi. Onun başı göylərdə, ayaqları yerdə idi. Onun qarşısında ucu dənizə düşən pərdə var idi. Bu pərdənin günəş şüasından açarı olan qıfıl ilə kilidlənmiş ikitaylı qapısı var idi. Bu qapının hər iki tərəfində qoruyucu mələklər oturmuşdur. Hər iksinin başı dana başı, bədəni qoyun bədəni idi və onlar dayanmadan deyirdilər: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah».

Bəluqiya onlarla salamlaşıb soruşdu: «Siz Məhəmməd peyğəmbəri haradan tanıyırsınız?» Onlar cavab verdilər: «Uca Allah bizi Məhəmməd peyğəmbərin xətrinə yaratmışdır». Bunu eşidən Bəluqiya onlarla bir də salamlaşdı və dedi: «Salamlar olsun sizə!» Onlar cavab verdilər: «Sənə də salamlar olsun. Ey Allahın yaratdığı məxluq, sən kimsən, adın nədir?» Bəluqiya cavab verdi: «Adım Bəluqiyadır, insanam, Adəm övladıyam, İsrail qövmündənəm». Mələklər dedilər: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah. Biz sənin çəkdiyin adların heç birini eşitməmişik və onları tanımırıq». Bəluqiya dedi: «Necə yəni? Məhəmməd-Allah ona yar olsun! - Adəm nəslindəndir. Necə olur ki, siz Məhəmməd peyğəmbəri tanıyırsınız, onun Allahın rəsulu olduğuna şəhadət gətirirsiniz, amma onun əcdadı olan Adəmi tanımırsınız?» Mələklər dedilər: «Allah-təala belə buyurmuşdur». Bəluqiya dedi: «Siz bu qapını açın, mən pərdənin

arxasında nə olduğunu görüm və çıxıb gedim». Mələklər dedilər: «Bizim bu qapını açmağa ixtiyarımız yoxdur, biz onu aça bilmərik. Cəbraildən başqa heç bir kəs onu aça bilməz. Amma əgər sən iki dəfə səcdəyə gedib, namaz qılıb, dua etsən, hər istədiyini edə bilərsən, hara istəsən keçə bilərsən. Çünki sənin duan Allah dərgahında eşidilib qəbul olunacaqdır».

Bəluqiya o saat dəstəmaz alıb namaza durdu. O, iki dəfə səcdəyə gedib, namaz qıldı, göz yaşları tökə-tökə Allaha yalvardı: «Ey uca Allah, sənə yalvarıram, Səni and verirəm Sənə olan eşqimə, Sənin sevimli peyğəmbərlərinə olan eşqimə, Sənin seçilmiş, sevimli, peyğəmbərlərinin peyğəmbəri olan Məhəmməd peyğəmbərinə, bu müqəddəs məkanın xətrinə bu qapıları mənə - zavallı, biçarə qulunun üzünə aç». Bəluqiyanın yalvarışları Allah-təalaya yetişən kimi o, Cəbrailə gedib qapıları Bəluqiyanın üzünə açmağını əmr etdi. Cəbrail bir göz qırpımında orada oldu və dedi: «Ey Bəluqiya, de: «Bismillah Rəhmani-r-Rəhim» Bəluqiya bu sözləri təkrar edən kimi pərdənin qapıları açıldı. Bəluqiya içəri baxıb heyrətləndi, amma özünü itirmədi. Cəbrail dedi: «Bu qapının açarı» - «Bismillah Rəhmani-r-Rəhim»dir, «Quran»ı götürüb açmaq, oxumaq istəsən, bil ki, onun da açarı, «Bismillah Rəhmani-r-Rəhim»dir. Bu kəlmə ilə, həqiqətən, qəlbən onun kəramətinə inanan kəs bütün bağlı qapıları aça bilər». Sonra Cəbrail Bəluqiyanı diqqətlə süzüb dedi: «Sən çox cəsarətli gəncsən». Bəluqiya dedi: «Bu cəsarət mənə Allah-təalanın lütfü ilə verilmişdir. Əgər belə olmasa idi, mən bura necə gəlib çıxa bilərdim?!

Allah bütün qüdrətləri bizə versəydi,
Cəbrail heyrətdən yerində donub qalardı!»

Cəbrail - Allah onu öz pənahında saxlasın! - dedi: «Bu cəsarət sənə Məhəmməd peyğəmbərə - Allah ona yar olsun! - olan ehtiramına, məhəbbətinə, itaətinə görə verilmişdir. Məhz buna görə bu qapılar sənin üzünə açılacaqdır. Bu qapılar bu günə qədər heç kəsin üzünə açılmamışdır. Keç içəri, gör bu qapıdan o yanda olan yol səni hara aparır».

Bəluqiya qapıdan içəri keçdi və yol ilə getməyə davam etdi. Bir qədər getdikdən sonra Bəluqiya bir-birinə bitişik iki dənizə çatdı. Bu dənizlərdən birinin suyu şor, digərininki isə şirin idi. Bu dənizlərin suyu yan-yana, bitişik olsa da, bir-birlərinə qarışmırdı, yağ ilə su qarışmadığı kimi. Bu iki dənizin hər birinin ortasında hər cür naz-nemətlə, mer-meyvə ilə, gül-çiçək, ceyran-cüyür ilə, lələkləri qızıl, gözləri zümrüd, pipikləri inci olan quşlarla dolu cənnət guşəsinə bənzəyən adalar var idi. Acı dənizin əhatəsində yerləşən adanın ortasında başı görünməz dərəcədə yüksəkdə olan təmiz qızıldan bir dağ var idi. Şirin sularla əhatə olunmuş adanın ortasında isə başı görünməyəcək dərəcədə buludlarda gizlənmiş bir gümüş dağ var idi. Bu dağlar günəşin işığında parladıqca dənizdə üzən balığa bənzəyirdi. Hər iki dağın başında mələk əyləşmişdi. Bəluqiya dağlara yaxınlaşıb onlarla salamlaşdı. Onlar Bəluqiyadan soruşdular: «Sən kimsən, adın nədir, burada nə edirsən?» Bəluqiya özü haqqında hər şeyi onlara danışdıqdan sonra soruşdu: «Bəs siz kimlərsiniz və burada nə edirsiniz?» Mələklər cavab verdilər: «Biz bu suların keşikçiləriyik. Allah-təala bizə tapşırmışdır ki, bu sulara nəzarət edək ki, bir-birlərinə qarışmasınlar. Dünyada olan bütün şirin sulu bulaqların, çayların, çeşmələrin, göllərin, quyuların mənbəyi bu şirin sulu dənizdədir, dünyada olan bütün acı sulu dənizlərin, ümmanların, göllərin, bulaqların, quyuların mənbəyi isə bu acı sulu dənizdədir». Bəluqiya soruşdu: «Bəs bu qızıl və gümüş dağlar nə üçündür?» Mələklər cavab verdilər: «Bu dağlar yer üzündəki bütün qızıl-gümüş mədənlərinin köküdür. Mədənlərdən əldə olunan bütün qızıl-gümüş bu dağlara bağlıdır. Acı və şirin suların əsas mənbəyi Allah dərgahındadır. Allah hələ mələkləri yaratmamışdan əvvəl bu suların və dağların əsaslarını qoymuşdur». Bəluqiya bütün suallarının cavabını alıb yenə də adaları, dağları seyr etməyə başladı. O, buradakı növbənöv meyvələri, gül-çiçəkləri, quşları, heyvanları gördükcə heyrətə gəlirdi. Birdən onun gözünə ağacların altında, üstündə hər cür naz-nemət olan masalar dəydi. Masaların üzərində bir-birindən gözəl quşlar uçuşurdu. Bəluqiya masalardan birinə yaxınlaşıb quşlarla salamlaşdı və onlardan soruşdu: «Siz kimsiniz?» Quşlar cavab ver-

dilər: «Biz cənnət quşlarıyıq, biz üzərində müxtəlif qiymətli daşlar olan mərmərdən hazırlanmışıq. Ey Adəm övladı, sən böyük şərəfə layiq görülmüsən ki, bizim məkana gələ bilmisən. Bu, gördüyün təamlar Allah-təalanın buyruğu ilə buraya endirilir ki, bura təşrif buyurmağa layiq görülən kəs gəldikdə onlardan dadsın. Adətən, qonaq doyunca yeyir, amma bu təamlar heç vaxt tükənmir. Onlar yeyildikcə, süfrə yeni təamlarla dolur. Bu qiyamət gününəcən belə olacaqdır».

Bəluqiya dedi: «Bəs mən də onların dadına baxa bilərəm?» Quşlar dedilər: «Əlbəttə, «Bismillah» de və istədiyin qədər ye». Bəluqiya: «Bismillah»,- deyib əyləşdi və təamlardan yeməyə başladı. Sonra o, quşlardan soruşdu: «Bəs burada sizinlə birgə yaşayan olurmu, yoxsa siz həmişə tək olursunuz? Quşlar cavab verdilər: «Bəli, olur. Xızır peyğəmbər vaxtaşırı bura gəlir, bir müddət qalır, sonra yenə gedir».

Elə bu vaxt Xızır peyğəmbər peyda oldu. Bəluqiya böyük ehtiramla onunla salamlaşdı. Xızır peyğəmbər Bəluqiyanın salamını qəbul edib soruşdu: «Sən kimsən, bura necə gəlib çıxmısan?» Bəluqiya özü haqqında hər şeyi təfsilatı ilə danışdı. Xızır peyğəmbər dedi: «Sən evinə qayıtmaq istəyirsənmi?» Bəluqiya dedi: «Çox istəyirəm. Artıq neçə vaxtdır evdən ayrı düşmüşəm. Anamı görmək istəyirəm». Xızır peyğəmbər dedi: «Bəs sənin xəbərin var ki, səninlə ananın arasında beş yüz illik məsafə vardır?» Bəluqiya bu sözləri eşidib çox pəjmürdə oldu, ümidsizliyə qapandı və acı-acı ağladı. Xızır peyğəmbər - Allah ona yar olsun! - onu sakitləşdirib dedi: «Narahat olma, özünü üzmə. Mən bir vasitə tapıb, səni tez bir zamanda ananın yanına çatdıracağam». Bəluqiya bu sözləri eşidib Xızır peyğəmbərin ayaqlarına düşdü, ona sonsuz minnətdarlığını bildirdi. Xızır peyğəmbər isə quşlardan birini yanına çağırıb, soruşdu: «Sən Bəluqiyanı neçə günə evinə çatdıra bilərsən?» Quş cavab verdi: «On günə çatdıraram». Bu cavab Xızır peyğəmbəri qane etmədi. İkinci quş gəlib dedi: «Mən doqquz günə çatdıraram». Bu cavab da Xızır peyğəmbəri qane etmədi. Xızır peyğəmbər bir başqa quşu çağırdı. Bu quş dedi: «Mən Bəluqiyanı bir günə evinə çatdıra bilərəm», amma Xızır peyğəmbəri bu cavab da qane etmədi. Nəhayət, bir nəhəng quş peyda oldu və dedi: «Ey uca Allahın peyğəmbəri! Mən onu bir saat için-

də evinə çatdıra bilərəm». Xızır peyğəmbər - Allah ona yar olsun! - bu təklifi qəbul etdi.

Bəluqiya gözlərini yumdu, quş onu götürüb göyə qalxdı. Quş Bəluqiyaya dedi: «Gözlərini aç!» Bəluqiya gözlərini açanda gördü ki, öz evinin həyətindədir. O, evə girdi. Anası Bəluqiyanı görüb huşunu itirdi. Özünə gəldikdə isə sevinc göz yaşlarını axıdaraq oğlunun boynuna sarıldı. İsrail əhli Bəluqiyanın qayıtdığını eşidib sevindi. Onlar Bəluqiyanın görüşünə axın-axın gəlməyə başladılar. Böyükdən böyük, kiçikdən kiçik, kənd əhli, şəhər əhli, sadə adamlar, əyanlar gəlib Bəluqiyanın danışdıqlarına qulaq asırdılar. Bəluqiya başına gələnləri, gördüklərini, öyrəndiklərini, eşitdiklərini danışdıqca insanlar heyrətə gəlirdilər. Onlar bu vaxtacan heç vaxt belə şeylər eşitməmişdilər.

Abdullah ibn-Səlamın-Allah ona yar olsun! - dediyinə görə, Bəluqiya düz iki ay bu əhvalatı gəlib-gedənlərə danışdı. Gələnlər isə onu həvəslə dinləyib, eşitdiklərini sözbəsöz yazırdılar. Sonralar bu yazıların üzü dəfələrlə köçürülüb dünyaya yayılmışdır. Bəluqiya bir müddət İsrail əhlinin içində yaşayandan sonra Məhəmməd peyğəmbərin dinini qəbul edərək, bir müsəlman kimi bu dünyanı tərk etdi. Onun haqqında bu hekayət isə bütün dünyaya yayıldı.

*Başqa bir mənbədə bu hekayət belə bir şəkildə verilir*

Bəluqiya qızıl və gümüş dağın mələkləri ilə salamatlaşıb yola düşür və uzun yoldan sonra böyük bir dəryaya çatır. Bu dəryada çoxlu sayda cürbəcür balıq var imiş. Div-balina isə burada hökmranlıq edirmiş və bütün balıqlar ona tabe olurmuş. Balıqlar Bəluqiyanı görüb bir ağızdan demişlər: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah». Sonra div-balina Bəluqiyadan soruşmuşdur: «Sən kimsən, adın nədir, burada nə edirsən?» Bəluqiya onlara özü haqqında hər şeyi danışmış, onlara Məhəmməd peyğəmbəri - Allah onu adını daima uca etsin! - axtarıb tapmaq üçün səfərə çıxdığını söyləmişdir. Balıqlar Məhəmməd peyğəmbərin - Allah ona yar olsun! - adını eşidən kimi: «La ilahə illAllah, Məhəmmədin Rəsulullah»,- deyib kənara çəkilmişdirlər. Div-

balina demişdir: «Ey Adəm övladı, əgər istəyinə çatsan, Allahın sevimli bəndəsi Məhəmmədi görsən, ona mənim salamlarımı da yetirərsən».

Bəluqiya demişdir: «Mən çox yorulmuşam, neçə gündür ac-susuz dolaşıram, aclıqdan əldən düşmüşəm». Balina dedi: «Fikir etmə, Bəluqiya, mən sənə elə bir iksir verəcəyəm ki, sən düz qırx gün aclıq hiss etməyəcəksən. Mənim sənə təklif etdiyim yeməkdən yeyib, o iksiri qəbul etdikdən sonra sən, nəinki aclıq hiss etməyəcəksən, uzun yol gedəsi olsan da, yorğunluq, yuxusuzluq hissi də keçirməyəcəksən».

Bunu deyib balina Bəluqiyaya yemək və bir iksir verdi. Bəluqiya yeməyini yeyib, iksirini içib yola düşdü. Bir neçə gün getdikdən sonra, o, bir abad yerə yetişdi. O, burada qara qıvrım saçları olan yaraşıqlı bir gənc gördü. Bu gənc gah suyun üzü ilə, sanki quruda yeriyirmiş kimi, gəzir, gah da göydə quş kimi uçurdu. Elə bil harasa tələsirdi. Bəluqiya onunla salamlaşdı və istədi ki, onunla ünsiyyət qura, gənc onun yanından ildırım kimi ötüb getdi. Biçarə Bəluqiya ağzını açıb bir kəlmə belə soruşa bilmədi. Bəluqiya bir gün də yol getdikdən sonra yenə yaraşıqlı bir gəncə rast gəldi. Bu gənc də harasa tələsirdi. Bəluqiya bu gənclə də salamlaşdı. Gənc Bəluqiyaya dedi: «Sən məni ləngitmə, məndən heç bir şey soruşma. Mən çox tələsirəm, çünki çox vacib işim vardır. Məndən sonra bir gəncə də rast gələcəksən, onu yaxşıca sorğu-suala tuta bilsən, suallarının cavabını ala bilərsən». Gənc bu sözləri deyib, göz qırpımında qeyb olmuşdur.

Bəluqiya yoluna davam edirdi. O, bir gün də yol getdi və gördü ki, ona tərəf o biri gənclər kimi çox yaraşıqlı, bir oğlan ildırım sürəti ilə gəlir. Bəluqiya bu gənci görən kimi, hələ lap uzaqdan onunla salamlaşmağa başladı ki, o da yanından ildırım kimi keçməsin. Bəluqiya yalvardı: «Səni and verirəm uca Allaha, bircə saniyəlik dayan. Sənə cəmi bir neçə sualım vardır. Mənim suallarıma cavab ver, sonra yenə uçmağına davam et».

Gənc cavab verdi: «İndi ki sən uca Allaha and verirsən, gərək dayanam. Səni nə maraqlandırırsa, soruş, amma əvvəlcə de görüm, nəyə görə hələ lap uzaqdan məni dayandırmaq üçün andlar verirdin?» Bəluqiya dedi: «Mən qorxurdum ki, sən də yoldaşların kimi

mənim yanımdan şimşək kimi uçub keçəsən, onlar mənimlə belə rəftar etmişdirlər».

Gənc dedi: «Yaxşı, soruş, nəyi bilmək istəyirsən?» Bəluqiya dedi: «Birincisi, de görüm, o iki, yanımdan külək kimi keçən gənclər kimlərdir, sonra isə özünün kim olduğunu söylə və mənə izah et, siz haraya və nəyə görə belə tələsirsiniz?» Gənc cavab verdi: «Birinci gördüyün gənc İsrafil idi, qiyamət gününün şeypuru ona həvalə edilmişdir. İkincisi Mikayıl idi. O, küləklərə, yağışlara, Allah qullarının çörəyinə görə cavabdehdir. Mən isə Cəbrailəm». Bəluqiya soruşdu: «Bəs siz-hamınız hara belə tələsirsiniz?» Gənc cavab verdi: «Bu tərəflərdə son zamanlar bir əjdaha peyda olmuşdur. İnsanlar qorxudan göyə əl açıb Allahdan imdad diləmişdirlər. Ona görə Allah bizi göndərmişdir ki, əjdahanı tutub cəhənnəmə ataq ki, orada kafirləri bezdirsin». Bəluqiya dedi: «Bu əjdaha nə boyda olmalıdır ki, Allah onu tutub, dəf etmək üçün üç ən nəhəng mələyi göndərməli olmuşdur?» Gənc cavab verdi: «Allahdan başqa heç kəsin onun ölçüləri haqqında məlumatı yoxdur». Bəluqiya dedi: «Bəs onda bu əjdaha cəhənnəm qapılarından keçə biləcəkdirmi?» Cəbrail dedi: «Cəhənnəmdə elə nəhəng, yekə əjdahalar var ki, bu əjdaha rahatca onların burunlarının bir dəliyindən girib o birindən çıxa bilərlər və həmin əjdaha baş verənlərdən xəbərsiz olar».

Bəluqiya bu sözləri eşidib Allahın qüdrətinə heyran qaldı. O, Cəbrail ilə salamatlaşıb yoluna davam etdi. O, bir azdan bir adaya çatdı. Adanı gəzib-dolaşanda gördü ki, iki korun arasında yaraşıqlı bir gənc əyləşmişdir. Bəluqiya onlarla salamlaşmış və gənc oğlan onun salamını almışdır.

Bəluqiya üzünü gəncə tutub demişdir: «Ey cavan oğlan, sən kimsən, adın nədir?» Gənc cavab vermişdir: «Mən Allahın qullarlından biriyəm, adım da Salehdir». Bəluqiya soruşmuşdur:

«Bəs bu korlar kimdir?» Saleh demişdir: «Bunlardan biri atamdır, biri anam. Mən onların arasında oturub ölüm gözləyirəm».

Bəluqiya bunlarla salamatlaşıb buranı da tərk etdi. Nəhayət, Bəluqiya növbəti adaya çatdı. Bu adada bir dənə çox hündür, qollu-budaqlı ağac var idi. Ağacın başında bir quş oturmuşdu, onun başı

yaqutdan, gözləri zümrüddən, dimdiyi isə incidən idi. Onun gövdəsinin tükləri zəfərandan, ayaqları isə mavi zümrüddən idi. Ağacın altında üstü hər cür naz-nemətlə dolu süfrə açılmışdır. Orada çeşid-çeşid, cürbəcür təamlar var idi. Ağacın üstündəki quş Allah-təalanı mədh edir, şükrlər edirdi. Bəluqiya ona yaxınlaşıb salamlaşdı. Quş onun salamını alıb, Bəluqiyadan işlərinin necə getdiyini soruşdu. Bəluqiya acı göz yaşları tökərək başına gələnlərin, keçdiyi macəraların, düşdüyü sınaqların hamısını olduğu kimi danışdı və sonra dedi: «Artıq neçə ildir ki, anamdan ayrı düşmüşəm, onun xiffətindən yanıram. Elə hey yol gedirəm, gecə bilmirəm, gündüz bilmirəm, amma hara getdiyimi, harada olduğumu özüm də bilmirəm. Əgər sən mənə bir yol göstərməyə qabilsənsə, yalvarıram, mənə yardım et».

Sən demə, bu, quş cildinə girmiş Xızır peyğəmbər imiş - Allah ona yar olsu! Xızır demişdir: «Bəs sən bilirsənmi buradan sənin evinə nə qədər yol var? Evinə gedib çatmaq üçün sən illərlə fasiləsiz yol getməlisən». Bəluqiya bunu eşidib çox pis olmuşdur, köksünü ötürüb əllərini göyə açıb uca Allaha yalvarmağa başlamışdır. O, Allahdan onu tez bir zamanda anası ilə qovuşdurmasını yalvarıb istəyirdi. Xızır peyğəmbər öz-özünə demişdir: «Allah-təalanın yanında ehtiyacı olana, çarəsiz qalana kömək etməkdən üstün bir şey yoxdur». O dərhal ağacdan enmiş və Bəluqiyaya demişdir: «Otur mənim belimə və gözlərini yum». Bəluqiya quşun belinə oturub, gözlərini yummuşdur. Bir saniyədən sonra quş demişdir: «İndi isə gözlərini aç, əllərini çək və məni burax». Bəluqiya gözlərini açanda özünü evinin damında görmüşdür. O, tez enib evə keçmiş, ağlamaqdan, dərddən gözləri, demək olar ki, tutulmuş, beli bükülmüş, ayaqlarında güc qalmamış anasının boynuna sarılmışdır. Zəmanənin acısı, yaşın amansızlığı onu çox salmışdır. Oğlunu görən ana sanki heç bir nasazlığı yoxmuş kimi, yerindən sıçramış, onun boynunu qucaqlamışdır. Ana-bala bir-birlərinə sarılıb ağlamışlar və xoşbəxtlikdən huşlarını itirmişdilər. Onlar özlərinə gəldikdə Bəluqiya soruşmuşdur: «Məni buraya kim gətirdi?» Anası cavab vermişdir: «Mən bacadan gördüm ki, səni gözəlliyi, yaraşığı dillərə sığmayan bir quş gətirib düşürdü və uçub getdi».

Bəluqiyanın qayıtmasının xəbəri tez bir zamanda bütün İsrail əhlinə yayılmışdır. Uzaqdan, yaxından, cavan, qoca, sadə insan, kübar əyan-hamı Bəluqiyanın ziyarətinə gəlir, onun söhbətlərini dinləyir, sonra da öz aralarında söhbətləşirdilər. Bəluqiya isə yerini rahat edib, gələnləri qarşılayır və başına gələnlərin hamısını, gördüyü möcüzələri, eşitdiyi söhbətləri, düşdüyü macəraları təfsilatı ilə danışırdı. İnsanlar isə onun danışdıqlarını yazır, digərləri üzünü köçürür, başqaları isə onları fars dilinə tərcümə edib kitab şəklinə salırdı ki, sonralar da insanlar onu oxuyub Allah-təalanın qüdrətini anlasınlar və bizi və bütün müsəlmanları dualarında yad etsinlər.

Bəli, Məhəmməd peyğəmbərin sorağı ilə səfərə çıxmış Bəluqiyanın hekayəti belədir. O, Məhəmməd peyğəmbəri - Allah ona yar olsun! - hələ zühur etmədiyi üçün görə bilməsə də, bu səfərdə Allah-təalanın gücünü, qüdrətini, şəfqətini, mərhəmətini, ədalətini nümayiş etdirən sonsuz sayda hadisələrlə üzləşmişdir.

Belə nəql edirlər ki, yəhudilər Məhəmməd peyğəmbəri - Allah onun adını daima uca etsin! Allahın salamları olsun ona! - «Quran» hələ nazil olmamışdan əvvəl «Tövrat»da meydana çıxmış yetmiş iki sualı verməklə sınamaq istəmişdirlər. Onlar öz aralarında qərara gəlmişdirlər ki, nazil olacaq son müqəddəs kitabın sahibi Məhəmmədə - Allahın salamları olsun ona! - həmin yetmiş iki sualı versinlər. Onlar düşünmüşlər ki, Məhəmməd peyğəmbər «Tövrat»ı oxumadığı üçün, ondan xəbərsizdir və ona görə cavab da verə bilməyəcəkdir». Bu qərara gələrək yəhudilər Məhəmməd peyğəmbərə - Allah ona yar olsun! - demişlər: «Əgər sən, həqiqətən, Allahın Rəsulusansa, bizim bu suallarımıza cavab ver. Onda biz sənin, həqiqətən, peyğəmbər olduğuna inanarıq». Onda Allah-təalanın əmri ilə Cəbrail enib Məhəmməd peyğəmbərin qulağına yəhudilərin verdikləri bütün sualların ən dürüst cavablarını pıçıldamışdır. Peyğəmbər bütün suallara cavab verdikdən sonra yəhudilərin bəziləri ona beyət edib islamı qəbul etmiş, bəziləri isə onu sehrbaz, cadugər adlandırmışdır. Yəhudilərin hazırladığı yetmiş iki sualdan biri belə idi: «Ey Məhəmməd, de görək Bəluqiya kimdir və nə işlə məşğul olmuşdur?» Məhəmməd peyğəmbər - Allah ona yar olsun! Allahın salamları olsun ona! - bu sualın cavabını təfsilatı ilə vermiş və yəhudilər xəcil olmuşlar.

*Bu hekayətdən əxz ediləcək nəticələr bunlardır:*

*Birinci nəticə belədir: insan layiq olmadığına yiyələnmək istəyərsə, heç bir səyin nəticəsində ona nail ola bilməz. Əffan da bu zümrəyə aid idi, ona görə də məğlub oldu.*

*İkincisi, peyğəmbərlərin, mələklərin adlarını yadda saxlamaq üçün bu hekayətin çox böyük faydası vardır.*

*Üçüncüsü, sənə də Bəluqiyanın əhvalatlarından xəbərdar olmaq nəsib oldu və sən onları başqalarına da nəql edə biləcəksən.*

*Dördüncüsü, sənə də Bəluqiyanın eşitdiyi müdrik, dərin, ağıllı fikirləri eşitmək müyəssər olacaqdır.*

*Beşincisi, sən indi artıq bilirsən ki, Allah-təalanın əmri, Xızır peyğəmbərin lütfü ilə beş yüz illik yolu Bəluqiya bir saniyədə necə qət etmişdir.*

Allah-təala bu kitabın müəllifini, üzünü köçürənini, oxucusunu, dinləyicisini həmişə öz pənahında saxlasın, Xızır peyğəmbərlə İlyas peyğəmbər onlardan öz lütflərini əskik etməsin. Hər iki dünyanı yaradan uca Allah bütün möminlərə yar olsun! Amin!

# QEYDLƏR

Səh. 28. Rəvayətlərə görə, günlərin bir günü müdrik Süleyman peyğəmbərin zövcəsi, Səba kraliçası Bilqeyis özü üçün quş sümüklərindən bir saray tikdirmək fikrinə düşür. Hüd-hüd quşu buna etiraz edir və Süleyman peyğəmbərlə sual-cavab mərcində qalib gəldiyi üçün qarşısını ala bilir. Süleyman peyğəmbərin sualı bu olmuşdur: «Yer üzündə qadınlar çoxdur, yoxsa kişilər?» Hüd-hüd cavab vermişdir: «Əlbəttə, qadınlar, çünki arvadlarının dedikləri ilə oturub-duran kişilər də elə qadındırlar». Hüd-hüd bu cavabı ilə qalib gəlmiş və o zamanlardan klassik ədəbiyyatda ədalət, müdriklik simvolu kimi yer almışdır.

Səh. 28. «Əlfiyyə və Şəlfiyyə» - XI əsrin tanınmış fars şairi Əzrəqi Herəvinin qadın və kişi arasındakı məhrəm münasibətlərə həsr etdiyi bədii əsər.

Səh. 30. «Gülüstan» - «Güllər bağçası». Fərz etmək olar ki, müəllif burada bizim günlərə gəlib çıxmamış bir əsəri nəzərdə tutmuşdur. Belə ki, məlum olduğu üzrə, Sədinin məşhur «Gülüstan»ı daha sonra, 1258-ci ildə qələmə alınmışdır.

Səh. 31. Fəsillərin, hekayətlərin adları və sıralanması orijinalın mətnində olduğu kimi saxlanılmışdır.

Səh. 32. 15, 16, 17, 24, 25-ci hekayətlər əsərin əlyazmasında mövcud deyildir.

Səh. 36. Bu fəsil IV xəlifə Əbu Talibə mənsub olan «Nəhc əl-bəlağə» əsərinin bir hissəsindən ibarətdir.

Səh. 74 (..........) – bu cür verilmiş hissələr əlyazmada oxunmur.

Səh. 82. «Əntom zülfüqərae eləllah».... - Quranda Fatir surəsinin 15-ci ayəsinin birinci hissəsi. Ayədə deyilir: - «Ey insanlar! Siz Allaha möhtacsınız, Allah isə, hər şeydən qənidir və (ona görə də) həm də (hər şeyə) layiqdir». – Z.M.Bünyadov, V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 268

Səh. 94. İxvanüs-səfa ya əshabi-səfa deyilən məşhur gizli fəlsəfi-mistik cəmiyyət nəzərdə tutulur.

Səh. 97. Bir vaxtlar çox populyar olmuş bu risalənin itmiş orijinal mətni "Munisnamə"nin sayəsində bu gün əldədir.

Səh. 102. Z.Bünyadov, V.Məmmədəliyev «Quran» tərcüməsi, Bakı, 2004, səh. 73, 6-cı (Ənam) surə, 90-cı ayə.

Səh. 147. «Cavidan-xirəd» - Sasanilər dövründə pəhləvi (orta fars) dilində yazılmış əsərdir.

Səh. 156. Burada və əlyazmanın daha sonrakı səhifələrində peyğəmbərlərin, aqillərin, müdriklərin və s. adlarının oxunması və bərpa edilməsi mümkün olmamışdır.

Səh. 160. Hicri təqviminə görə, 577-ci il miladi təqvim ilə 1181-ci ilə uyğundur.

Səh. 163. Burada peyğəmbərin adı oxunmur.

Səh. 198. Orta əsrlər astronomiyasına görə, Ay bürclərə, digər göy cisimlərinə uyğun müəyyən bir trayektoriya ilə mövcud on iki nöqtədə dayanaraq hərəkət edirmiş.

Səh. 219. Keçmiş zamanlarda şəhərlərin qarovulu gecə uzunu üç dəfə dəyişərdi. Bu da öz-özlüyündə gecə saatlarının müəyyənləşdirilməsinə xidmət edirdi.

Səh. 301. Z.Bünyadov, V.Məmmədəliyev, «Quran»tərcüməsi, Bakı, 2004, səh. 29, 3-cü (Ali-İmran) surə, 26-cı ayə.

Səh. 315. Burada əfi ilanın tovuz quşunun ayaqlarından yapışıb cənnətə düşməyi haqqında rəvayətə işarə olunur. Məhz bu hadisədən sonra Allah-təala buyurmuşdur ki, bütün tovuz quşlarının ayaqları əyri olsun.

Səh. 378. Bu sətirlər Əbülqasım Firdovsiyə məxsusdur.

Səh. 400. Z.Bünyadov, V.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 359. «Ya Yəkədu» 68-ci (Nun) surə, 51-ci ayə. Deyilir: «(Ya Peyğəmbər!) Həqiqətən, kafirlər »Quran«ı eşitdikləri zaman (sənə olan həsədlərindən və qəzəblərindən dolayı) az qala səni gözləri ilə yeyələr. Onlar (sənin barəndə): «O, divanədir!» - deyirlər.

Səh. 410. Burada «Ay» klassik Şərq poeziyasında gözəllik simvoluna işarədir. Şair özünü isə yarımçıq Aya bənzədir.

Səh. 427. Z.M.Bünyadov, V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 366. «Quran», 74-cü surə, 29-30-cu ayə. Müəllif qəhrəmanı Ləvvahəyə sözlərin oyunu sayəsində öz fikrinin təsdiqini tapmaq şəraitini yaratmışdır. Mətnin sətri mənası, şübhəsiz ki, fərqlidir.

Səh. 446. Burada hadisələrin İslamdan, Məhəmməd peyğəmbərdən çox əvvəl baş verib bu günkü kimi təqdim edilməsində anaxronizmin əlamətləri vardır. Müəllif, bir növ, daha əvvəl olmuş hadisələri, personajları müsəlmanlaşdırır.

Səh. 459. Z.M.Bünyadov, V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 202. 22-ci surə, 73-cü ayə.

Səh. 467. Z.M.Bünyadov, V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 169. 18-ci surə, 14-cü ayə.

Səh. 477. Z.M.Bünyadov,V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 169. 18-ci surə, 11-ci ayə.

Səh. 481. Z.M.Bünyadov, V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 169. 18-ci surə, 9-cu ayə.

Səh. 481. Z.M.Bünyadov,V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 169. 18-ci surə, 18-ci ayə. «Quran«da yazılmışdır ki, Allah-təala Lovhi-Məhfuzun üzərində dünyanı yaradanda hər yaradılmışın taleyini də yazmışdır.

Səh. 481. Z.M.Bünyadov,V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 170. 18-ci surə, 25-ci ayə.

Səh. 498. Z.M.Bünyadov,V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı 2004, səh. 44. 4-cü surə, 28-ci ayə.

Səh. 527. «Heyhat» adası yəni, təəssüf, peşmançılıq adası.

Səh. 529. Beş hiss: görmə, eşitmə, iy duymaq, dad bilmək və lamisədir. Dörd dirək: ürək, ağıl, cisim və qandır.

Səh. 585. Z.M.Bünyadov, V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı 2004, səh. 350. 62-ci surə, 10-cu ayə.

Səh. 586. Z.M.Bünyadov, V.M.Məmmədəliyev. «Quran» tərcüməsi, Bakı, 2004, səh. 214. 24-cü surə, 61-ci ayə.

# LÜĞƏT

Abdal - Dini rəhbər, saleh şəxs, övliya

Abid - ibadət edən

Bəhram – Oxatan. Bəhram dedikdə, Mars planeti nəzərdə tutulur, həm də Sasanilər sülaləsinin məşhur hökmdarı Bəhrama işarə olunur.

Bərbət - musiqi aləti

Bəzzaz – parça ticarəti ilə məşğul olan şəxs

Büt - Qiymətli daşlarla işlənmiş nəfis mücəssəmə, balaca heykəl.

Çəng - musiqi aləti

Çovqan - qədim oyun

Dəngə - pul vahidi, 6/1 dirhəm

Dinar – pul vahidi

Dirhəm – pul vahidi

Əcəm - "ərəb olmayan" mənasını verən və çox vaxt ərəb millətinə qarşı qoyulan İran əhalisinə verilmiş xilafət mənşəli adlandırmadır.

Ələvi - İslam məzhəblərindən biri. Daha çox şiəliyə və bəktaşiliyə yaxındır.

Əməvilər - əsası I Müaviyə tərəfindən 661-ci ildə qoyulmuş müsəlman xəlifələri sülaləsi

Əmir – titul

Ərdəşir - Sasanilər sülaləsinin ilk nümayəndəsi, şahənşah

Əshabi-kəhf - Culfa rayonunda mağara

Fəqih - dini alim, hüquqşünas

Fərsəng - uzunluq ölçüsü, təqribən altı kilometrə bərabərdir

Fərzanə - şəriət qanunlarına riayət edən şəxs

Fiqh - dini elm, müsəlman hüququ

Fəğfur - hərfi mənası: Allahın oğlu. Çin imperatorlarının titulu

Fəridun - «Şahnamə»nin əfsanəvi padşahlarından biri

Gülab –qızılgüldən çəkilmiş su

Hacib - hökmdara yaxın olan məmur, qoruyucu, qapıçı

Hədis - Məhəmməd peyğəmbərin deyimləri

Hənəfi - İslam dininin məzhəblərindən biri

Xanəgah - dərvişlərin məskəni

Xirqə - sufilərin üst geyimi

Xətib - Məsciddə xütbə verən.

Xəlifə - Şəhərin idarə olunmasına cavabdeh məmur.

Xarvar – çəki vahidi

İmam – İslamda bir toplumun önündə duran, liderlik edən şəxs

İlyas – Şərq əfsanələrində dəniz səyyahlarının xilaskarı, quruda Xızır peyğəmbərin gördüyü işin suda icraçısı.

İsrafil - Qiyamət gününün gəldiyini şeypurla xəbər verəcək mələk.

Kanon - musiqi aləti

Künyə - bir şəxsin övladının adıyla tanıdılması (ərəb dilində “əbu” və “ümm” sözləri ilə başlanan ləqəb)

Qazı - hökmdar tərəfindən təyin olunmuş və şəriət əsasında ədaləti bərqərar edən məmur-hakim

Qare – qiraət edən

Qəzəl - klassik şeir növü

Qissə - hekayə, pritça

Qitə - klassik şeir növü

Məbəd - ibadətgah

Mərgümüş – zəhər

Mübarək - Allah tərəfindən sevilən

Müvəhhid – Təkallahlılıq tərəfdarı, monoteist.

Möhtəsib - şəriət qanunlarının icrasına nəzarət edən vəzifəli şəxs.

Mücavir – məsciddə mütəmadi ibadətlə məşğul olan kəs.

Mürid - dində davamçı, öyrənən

Mürşid - dində öndə olan, öyrədən

Mürüvvət - insaf

Müşk - ətirli maddə

Müştəri – Yupiter planeti

Nəhv - qrammatika.

Övtad - Allahın saleh bəndələrindən ibarət 4-7 nəfərlik toplumun üzvü

Övliya - təsəvvüfi anlamda Allaha yaxın olan

Rəşidi, zeynəbi - Şərq mətbəxinin bəzi nümunələri

Riyazət - əzab-əziyyət

Rud - musiqi aləti

Rübab - musiqi aləti

Rumlular - bizanslı, müsəlman ölkələrində yaşayan yunanlar

Şafei- İslam məzhəblərindən biri

Təqva - əxlaq, möminlik, Allahdan çəkinmək

Tir - Merkuri planetinin adıdır və həmçinin fars dilində «tir» sözünün mənası oxdur.

Ud - musiqi aləti

Üsul – Dinin əsasları

Vaiz - Minbərdə vəz, moizə söyləyən

Zahid - Dinya nemətlərindən əl çəkib vaxtını ibadətlə keçirən şəxs

Zöhd - Əbədi olan axirəti qazanmaq üçün fani dünyanın həzlərindən əl çəkmək

Zühəl - Saturn planeti

Zülfüqar qılıncı - Həzrət Əlinin məşhur qılıncı

# GÖSTƏRİCİLƏR

## Şəxs adları

**A**
Abdullah ibn Məhəmməd əl-Xərraz - 43, 81
Abdullah Mehdi Bavərdi - 62
Abdullah ibn Abbas ibn Əbdülmütəllib -158
Abdullah ibn Məsud - 444
Abdullah ibn Məhəmməd Mürtəiş - 86
Abdullah ibn Həbib Sabiq əl-Əntaki - 67
Abdullah Rudbari - 43
Abdullah............ - 87
Abdullah ibn Məhəmməd Münazil - 88
Adəm - 56
Apolloni Tyanski -10
Aristotel - 10
Atabəy Xosrov - 25
Atabəy Məhəmməd Cahan Pəhləvanın - 11, 13
Atabəy Qızıl Arslan - 10,11,13
Atabəy Nüsrətəddin Əbubəkr ibn Məhəmməd Eldəniz - 11, 13, 16
Atabəy Əbubəkr ibn Məhəmməd, ibn Atabəy Eldəniz - 11, 26, 28

**B**
Bağırov A.M. - 7
Bənan ibn Məhəmməd Əl-Vasiti - 82
Bərbəd - 229
Bərməkilər - 17, 31, 107-109, 111, 113, 114, 116, 306, 307, 360
Bəyazid - 56, 57, 61
Bonan ibn Məhəmməd - 43
... Bonan......ibn Abdullah....... - 90
Bondar Şirazi - 43
Buəli Danyal - 43

Bukrat - 128, 187
Bulinas - 18, 31, 140, 142, 143, 146
Bünyadov Z.M. - 6
Büzürcmehr - 105, 125, 128-132, 134-137

**C**
Cəbrayıl - 116, 117
Cəbrail - 166, 346-350, 353, 442, 476, 477, 488, 489, 498-500, 502, 541, 722, 723, 733, 738, 740
Cəfər Haşimi - 565, 567, 592, 593, 595, 597, 598, 599, 616, 619, 625, 626, 628
Cəfər əl-Xüldi - 92
Cəfər ibn Əhməd Əbülqasım Razi - 94
Cəmşid - 17, 31, 138
Cüneyd Bağdadi - 48, 49, 51, 63, 64, 69, 70, 74, 76, 78, 79, 80, 82-87, 89-93

**D**
Dara – 25
Davud Tayi – 49, 57, 58
Davud - 589

**Ə**
Əbd-əl-Vəhid - 116
Əbu Abdullah əz-Zeyqəmi - 43
Əbubəkr Dəqqaq - 74
Əbubəkr Vərraq - 74
Əbubəkr ibn Məhəmməd Eldəniz - 11, 16, 28, 29
Əbubəkr əl-Küttani - 88
Əbubəkr Cəriri - 93
Əbubəkr.............. - 82
Əbu Əbdürrəhman Hatəm ibn Ünvan Əsəm - 53, 55, 56
Əbu-Hənifə (Numan ibn Sabit ibn Zuti) - 58, 584
Əbusəid Həddad - 43
Əbu İshaq Müzəffər əl-Qureyşi - 91

Əbu Səid Xərraz  - 75, 79
Əbu Əbdullah Səcezi - 43
Əbu Nəsr Bişr ibn əl-Haris əl-Xafi  - 47, 48, 67, 75
Əbu Əli əş-Şəqiq - 43
Əbu Həmzə Xorasani - 43
Əbu Hənifə Kufi  - 58
Əbu Həfs ibn Səlləmə  - 62, 63
Əbu Həfs Həddad - 61
Əbu Həsən Məhəmməd ibn Səəd Vərraq  - 83
Əbu Hüseyn - 94
Əbu Məhfuz Məruf ibn Firuz Kərxi Bağdadi - 49, 50, 51, 69
Əbu Məhəmməd Razi  - 93
Əbu Osman Hiri - 64, 72, 73, 94
Əbu Süleyman Davud ibn Nəsr Tayi - 49, 57, 58
Əbu Yaqub Nəhrcuri  - 84, 89
Əbul Abbas Məsruq - 77
Əbu Məhəmməd Həddad - 81
Əbu Məhəmməd Razi - 93
Əbu Məhəmməd Rüvəym - 71
Əbu Səid Ərabi - 43
Əbu Səid Əbül-Xeyr - 95
Əbu Süleyman Darani - 50, 60
Əbu-Yaqub İshaq ibn Məhəmməd Nəhrcuri - 83
Əbu Yezid Teyfur ibn İsa [ibn Adəm ibn] Süruşan əl-Bəstami  - 56
Əbülhəsən Buşənci  -  43
Əbülhəsən........... - 91
Əbülhəsən Vasiti  - 43
Əbülhəsən Müzəyyən  - 43
Əbülhəsən əs-Şayiq əd-Dinəvəri - 84
Əbülhəsən......... - 84
Əbülhəsən (Maliki) - 84
Əbülhüseyn ibn Bənnan  - 90
Əbülhüseyn Farsi - 90
Əbülhüseyn Müzəyyin - 89

Əbülhüseyn Bəsri - 43
Əbülhüseyn Bondar - 84
Əbül-Hüseyn Nuri - Əhməd ibn Məhəmməd - 69
Əbülxeyr Əl-Əqtə - 43
Əbül-Xeyr ət-Tinani əl-Əqtə (Əbu Yaqub əl-Əqtə) - 88
Əbülxeyr Əl-Əqtə - 43
Əbül-Qəsəm Nəsrabadi - 43
Əli - 56
Əli ibn Səhl İsfahani - 43, 75
Əli ibn Musa ər-Rza - 49
Əliyev F.- 8
Əliyev R.M. - 3, 6, 7, 10, 13, 14, 17, 20
Əliyev Qəzənfər Yusif oğlu - 6
Əli ibn Əbu-Talib - 17, 31, 34, 36
Əli ibn Əhməd Hişəm ibn İshaq (Ravəndi) - 108
Əli ibn Yəqtin - 108
Əli ibn............. - 43
Əl-Mübarrəd Məhəmməd ibn Yezid - 107
Əflatun-Platon - 18, 31, 156
Əhməd (Qəzali) ibn Məhəmməd ibn Əhməd Tusi - 17, 31, 97
Əhməd ibn Məhəmməd Məsruq - 43
Əhməd ibn Əbul-Həvari -70
Əhməd ibn Asim əl-Əntaki - 67
Əhməd Coreyri - 43
Əhməd Həvari - 60
Əhməd Xəzrəviyyə - 56, 61,78
Əhməd............. - 79
Əhməd.............. - 79
Əscədi - 12, 25
Əssar Təbrizi - 11
Əyyub - 121, 376
Əmir ibn Osman əl-Məliki -73
Ənuşirəvan (Nuşirəvan) - 17, 31, 104, 105, 128, 129, 131, 134, 137
Əzrəqi Herəvi - 6,11

**F**

Füzeyl ibn Ayaz - 45, 47, 52, 157

**H**

Harun peyğəmbər - 121
Haris ibn əl-Əsəd əl-Mühasibi - 48
Harun ər-Rəşid - 18, 32, 107, 117, 226, 227, 228, 229, 230, 231, 234, 242, 243, 279, 363, 366, 406, 565, 567, 592, 627
Hatəm Tayi - 19, 32, 226, 432, 433,
Haşimi Məhəmməd Nəzəri - 8
Həccac ibn Yusif - 157
Həmid Tusi - 58
Həmdun Qəssar - 65
Həmzə - 499.
Həmzə Bağdadi - 43, 82
Həzrət Yusif - 27, 161
Həsən Bəsri - 95
Hüseyn ibn Əli Corcani - 43
Hüseyn ibn Mənsur Həllac - 43
Hüseyn ibn.......... - 77

**X**

Xaqani - 7, 9
Xızır peyğəmbər - 354, 735, 736, 739,741

**İ**

İbrahimov Səbuhi -7
İbrahim Həvvas - 43
İbrahim Ədhəm - 52, 53
İbrahim Xəvas - 80
İbrahim - 43
İbn Suvar - 59
İlyas - 354, 741
İmam Hüseyn - 17, 31, 36, 107

İshaq Mosuli - 18, 32, 358
İshaq............. - 91
İsmayıl........... - 93

**K**

Kazımov Q. - 7, 14
Kəəb ibn əl-Əxbar - 444
Kərimli T. - 7
Krımskiy A.Y. - 6

**Q**

Qafarlı R. O. – 8

**M**

Mahmud Qəznəvi - 16, 17, 19, 28, 32, 435, 437- 443
Meredit-Ouens Q.M. - 5, 6, 8
Məhəmməd ibn Fəzl - 73
Məhəmməd ibn Yəhya - 107
Məhəmməd Vərraq - 43
Məhəmməd ibn Yəzid - 104
Məhəmməd ibn İsmayıl Məğribi Əbu Abdullah Məğribi - 43,77
Məhəmməd ibn Süleyman - 43
Məhəmməd ibn Musa - 43
Məhəmməd ibn Əbdül-Xaliq - 43
Məhəmməd ibn Hatəm Əsəm - 61, 62
Məhəmməd ibn Musa - Əbubəkr əl-Vasiti - 83
Məhəmməd............... - 81
Məhəmməd ibn......... - 43
Məhəmməd və Əhməd ibn əl-Əbilvərd - 78
Məhfuz ibn Məhəmməd(Məhmud) Nişapuri - 43, 91
Məmun - 47, 48
Mənsur Əmmar - 66
Mütəvəkkil - 45, 46

**N**

Nəbiyev Bəkir - 7
Nəmrud - 580
Nizami Gəncəvi –4, 6, 7, 9, 10, 12-14

**P**

Pəhləvi sülaləsi - 20
Platon - 10

**R**

Rəbiə Ədəviyyə - 43, 156, 157, 160
Rəşidəddin Vətvat - 12
Rumlu Bulinas - 18, 31, 140, 142, 143, 146
Rüstəm-Zal - 142

**S**

Səmnun ibn Həmzə əl-Mühib Əbül-Həsən - 72
Sənai - 12, 29, 585
Səhl ibn Abdulla əl-Tüstəri - 59
Səhl ibn İbrahim - 53
Səri Səqəti - 49, 50, 51
Süfyan Sövri - 52, 65, 157
Süleyman - 19, 29, 32, 33, 103, 121, 373, 394, 498, 499, 500-504, 507-509, 530, 532, 533, 536, 538-541, 713, 721-723

**Ş**

Şah Şuca Kirmani - 64, 72
Şafei - 584
Şəqiq Bəlxi - 55
Şəqiq ibn İbrahim - 53, 54, 55
Şeyx Əbubəkr Şibli - 43, 85
Şeyx Əbu Turab Nəxşəbi - 61, 68
Şeyx Həmid Kəffaf - 56
Şəmsəddin Eldəniz Atabəy - 10

**T**
Tahir Məqdisi - 81
Teyfur - 56

**V**
Vəhb ibn Münəbbih - 427,438

**Ü**
Ünsüri - 444, 455

**Y**
Yəhya Bərməki - 107, 307, 406, 409, 410, 414
Yəhya Əmmar əş-Şeybani - 92
Yəhya ibn Əksəm - 47
Yəhya ibn Məaz Razi - 64, 66
Yusobas - 18,31,146, 147, 149, 152
Yusif Razi - 71
Yunis - 284

**Z**
Zunnun Misri - 45, 47, 59

## Coğrafi adlar

**A**
Azərbaycan – 3-8, 18
Amman dənizi - 316

**B**
Bavərd - 45, 62
Bəlx - 52, 54, 55, 245, 391
Bəm -18, 32, 197, 204, 213, 218, 221

Bəsrə - 18, 32, 48, 66, 85, 226-228, 230, 232, 234, 235, 237, 238, 240, 242, 243, 268-270, 273, 291, 504, 543, 555, 556, 588, 600, 628
Bisutun - 394
Bizans - 5

**C**
Ceyhun - 651

**Ç**
Çaç - 294

**D**
Dəmavənd - 394
Dəməşq - 60, 70, 294, 305, 377, 565

**E**
Edinburq- 6

**F**
Fərqanə - 83

**H**
Hərran - 18, 32, 292, 293, 299, 300
Həbəş - 316, 388, 391, 408
Hicaz - 261, 316, 567, 570, 716
Hindistan - 5, 17, 31, 128, 132, 137, 294

**X**
Xərəşnə - 632, 633, 643, 644, 647, 648, 651
Xətay - 230, 266, 294
Xorasan - 18, 32, 36, 43, 53, 56, 61, 66, 69, 77, 78, 82, 94, 116, 117, 261, 265, 316

**İ**
İran - 6, 8, 20, 316
İspaniya -5

**K**
Kazerun - 18, 32, 397, 398, 406, 408-412
Kəşmir -18, 32, 388
Kirman - 197, 376, 630, 632, 637, 647, 652

**Q**
Qaf, Qaf dağları - 540, 729, 730, 732
Qəznə - 438
Qüds - 160, 718

**L**
London – 4

**M**
Mərv - 45, 47, 83
Mosul -170, 193, 194, 378

**N**
Nəhrəvan - 175, 176, 195, 377
Nişapur - 61, 62, 64, 65, 81, 83, 84, 86, 91, 94, 343, 344, 426
Nimruz - 117

**R**
Rey - 64, 71, 81

**S**
Samirə - 84, 293, 296, 298-300
Səba - 742
Sistan - 117, 227

**V**
Vasit - 182, 194, 195, 196, 303

**Y**
Yəğma - 266
Yəmən - 302, 365, 490

**Z**
Zənzibar -  316
Zəncan - 12, 160

# MÜNDƏRİCAT

Azərbaycan ədəbiyyatının ən nadir incilərindən biri: "Munisnamə" ........ 4

**"Munisnamə"**

**Giriş** .......................................................................................... 25

**I fəsil.** Hədislərdən, ərəb məsəllərindən və möminlərin əmiri Əli ibn Əbu Talib-əleyhissəlamın sözlərindən ibarət hikmətli kəlamlar ...................................................................... 34

**II fəsil.** Möminlərin əmiri Əli ibn Əbu Talibin İmam Hüseynə - onlara salam olsun!- vəsiyyəti və onun şeirlə tərcüməsi .......................... 36

**III fəsil.** Şeyxlər, övliyalar, abidələr və təriqət başçılarının adları, onların sözləri və hekayətləri haqqında .................................................. 43

**IV fəsil.** Bu şəxslərin fəzilətləri, doğulduqları yer və zaman haqqında ...................................................................................... 45

**V fəsil.** Şeyx Əhməd Qəzalinin – Allah ona rəhmət eləsin! – «Risalət ət-teyr» əsəri ........................................................................ 97

**VI fəsil.** Ədalət və insaf haqqında ........................................................ 104

**VII fəsil.** Səxavət və Bərməkilər nəsli barədə hekayətlər haqqında...... 107

**VIII fəsil.** Rum müdriklərinin hikmət və nəsihətləri, möbidlər möbidinin kəlamları və onun Bəhmən şah üçün etdikləri haqqında...... 120

**IX fəsil.** Huşəngin öz oğluna nəsihətləri ............................................... 123

**X fəsil.** Hindistan əhlinin ədalətli Ənuşirəvana sualları, müdrik Büzürcmehrin cavab verməsi və onun Hindistan padşahının elçisi ilə mübahisəsi haqqında ............................................................... 128

**XI fəsil.** Əcəm əhlinin hikmətli sözləri və Cəmşidin öz canişinlərinə nəsihətləri haqqında ........ 138
**XII fəsil.** Ayrı-ayrı hikmətlər və müdrik Bulinasın nəsihətləri haqqında ........ 140
**XIII fəsil.** Fars müdriklərinin hikmətləri haqqında ........ 142
**XIV fəsil.** Müdrik Yusobasın kəlamları və nəsihətləri haqqında ........ 147
**XV fəsil.** Şahlara xidmət edənlər üçün öyüd və nəsihətlər haqqında .... 153
**XVI fəsil.** Müdrik Əflatunun hikmətləri haqqında ........ 156
**XVII fəsil.** Böyük şəxsiyyətlərin kəlamları, rəmzlər, işarələr və ayrı-ayrı məsəllər haqqında ........ 166
*1-ci hekayət.* Mosullu Fəzlullahın əhvalatı və onun başına gəlmiş işlər haqqında ........ 170
*2-ci hekayət.* Bəm şəhərindən olan bənna, onun arvadı və Quvaşir şahının vəzirlərinin hekayəti ........ 197
*3-cü hekayət.* Bəsrəli mərd, Bəsrə əmiri və onun vəzirinin hekayəti ........ 226
*4-cü hekayət.* Vəzir ilə Dəryabar şahının qızı və onların gördükləri qəribə şeylər haqqında hekayət ........ 245
*5-ci hekayət.* Nəsri-əyyar və Xorasan şahzadəsinin hekayəti ........ 261
*6-cı hekayət.* Zeyn əl-Əsnam və cinlər padşahının hekayəti ........ 268
*7-ci hekayət.* Hərran padşahı, onun oğlanları və qardaşları Xudadadın hekayəti. ........ 292
*8-ci hekayət.* Şah qızı, üç cavan və bir qocanın hekayəti ........ 302
*9-cu hekayət.* Dünyada dərdsiz insan olub-olmadığını bilmək istəyən padşahın hekayəti ........ 314
*10-cu hekayət.* Zərgərin arvadının fəqih, möhtəsib, qazı, darğa və şəhər hakimi ilə hekayəti ........ 329

*11-ci hekayət.* Dülgər və dərzinin hekayəti .................................... 343
*12-ci hekayət.* İshaq Mosuli, Bağdad xəlifəsi və qəsr haqqında hekayət .................................................................. 358
*13-cü hekayət.* Bilqeyisin atasının pəri qadınla sərgüzəşti haqqında hekayət ................................................................... 367
*14-cü hekayət.* Zərgər Əbdüləzizin oğlu Mənsurun hekayəti .......... 374
*18-ci hekayət.* Kazerunlu kərpickəsən Şapurun hekayəti ................ 397
*19-cu hekayət.* Şahzadələr, türkmən və qazı hekayəti ...................... 416
*20-ci hekayət.* Padşah, vəzir və adamyeyən itlərin hekayəti ........... 422
*21-ci hekayət.* Ləvvahə ilə zərgər Xacə Bişrin hekayəti.................. 426
*22-ci hekayət.* Karvan, xəsis kişi və Hatəm Tayinin qəbri haqqında hekayət ................................................................... 432
*23-cü hekayət.* Sultan Mahmud haqqında müxtəlif hekayətlər ........................................................................... 435
*26-cı hekayət.* Əshabi-kəhf, Dəqyanus və onların başına gələn işlər haqqında hekayət ........................................... 444
*27-ci hekayət.* Qəzavü-qədər, Simurğ və Süleyman peyğəmbərin hekayəti ............................................................. 498
*28-ci hekayət.* Zərgər Xalidin oğlu, onun qədəh dostları və onların alçaqlığı haqqında hekayət ................................. 543
*29-cu hekayət.* Əbül-Əla Kirmani, onun oğlu, Naxçıvana səfərləri və sərgüzəştləri haqqında hekayət ....................... 630
*30-cu hekayət.* Mömin Ürviyə ilə ərinin qardaşı, zənci qul, gənc məmur və tacirin hekayəti ............................................ 653
*31-ci hekayət.* Bəluqiya və Əffan, Əffanın Süleyman peyğəmbərin üzüyünü axtarmağa getməsi və onların qarşılaşdığı qəribə şeylər haqqında hekayət ..................................... 713

**Qeydlər** ........................................................................ 742
**Lüğət** ............................................................................ 745
**Göstəricilər** ..................................................................... 748

**Əbubəkr ibn Xosrov əl-Ustad**

# MUNİSNAMƏ

*Fars dilindən tərcümə edən, müqəddimə, qeydlər və lüğətin müəllifi filologiya üzrə fəlsəfə doktoru*

**RƏNA RZAYEVA**

Çapa imzalanmışdır: 14.06.2021.
Formatı: 60x84 1/16.
Həcmi: 46,25. Sifariş: 195. Sayı: 300

Kitab “Adiloğlu” MMC-nin mətbəəsində çap edilmişdir.
*Ünvan: Bakı şəh., Tbilisi pr.,3007-ci məhəllə, 44 C*
*Tel.: (050) 593 27 77, (055) 339 75 77*
*E-mail: adiloglu2000@gmail.com*